**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ**

***Azərbaycan xalqının Ümummilli lideri***
***Heydər Əliyevin anadan olmasının***
***96-cı ildönümünə həsr olunur***

# AZƏRBAYCANIN QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAF PERSPEKTİVLƏRİ

## RESPUBLİKA ELMİ KONFRANSININ

# MATERİALLARI

*25-26 aprel 2019-cu il*

**SUMQAYIT-2019**

## TƏŞKİLAT KOMİTƏSİ

| | |
|---|---|
| **SƏDR** | |
| ***Elxan Hüseynov*** | Rektor, professor |
| **SƏDR MÜAVİNİ** | |
| ***Ramazan Məmmədov*** | Elm və innovasiyalar üzrə prorektor, professor |
| **ÜZVLƏR** | |
| ***Natiq Talıbov*** | Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor, dosent |
| ***Qafar Atayev*** | Qiyabi, distant və əlavə təhsil üzrə prorektor, dosent |
| ***Ramiz Hüseynov*** | Humanitar məsələlər üzrə prorektor, dosent |
| ***Naib Hacıyev*** | İqtisadi məsələlər üzrə prorektor |
| ***Aynurə Yəhyayeva*** | İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, dosent |
| ***Samir Orucov*** | Elmi hissənin müdiri, dosent |
| ***Sabir Xəlilov*** | Doktorantura və magistratura şöbəsinin müdiri, dosent |
| ***Qalib Hüseynov (məsul katib)*** | Biznesin təşkili və menecment kafedrasının müdiri, dosent |

# PLENAR İCLAS

## MÜASİR DÖVRDƏ QEYRİ-NEFT SEKTORUNUN ÜSTÜN İNKİŞAFI VƏ DİVERSİFİKASİYASI PROBLEMLƏRİ

*Şəkərəliyev A.Ş.*
*UNEC*

***Xülasə.*** *Müasir dövrdə ölkəmizdə qeyri-neft sektorunun inkişafı sosial və iqtisadi sahədə əldə olunacaq uğurların əsasını təşkil edir. Qəbul edilən qanunlar, həyata keçirilən layihələr bütövlükdə regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarının həyata keçirilməsində müstəsna rol oynayır.*

***Açar sözlər:*** *qeyri-neft sektoru, ümumi milli məhsul, milli gəlir, Strateji Yol Xəritəsi, turizm, sənaye*

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü Ümummilli liderimiz Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bilavasitə bağlıdır. Onun rəhbərliyi dövründə respublikamız əsrlərə bərabər inkişaf yolu keçmişdir. Respublikaya rəhbərlik etdiyi dövrdə Ulu Öndər var qüvvəsini və bacarığını Azərbaycanın yüksəlişinə həsr etmiş, nəhəng quruculuq işlərinin təşəbbüskarı olmuşdur. Ümummilli Liderimiz Heydər Əliyev deyirdi: "Xalq mənə ümid bəsləyir, mən də bu ümidi doğrultmaq üçün ömrümün qalan hissəsini də xalqıma bağışlayıram vəhəyatımı xalqıma qurban verməyə hazıram".

Yaxın keçmişə nəzər salsaq, görərik ki, 1988-1993-cü illərdə Azərbaycanın ictimai-siyasi həyatında çaxnaşmalar, cəbhədəki məğlubiyyətlər, ölkədə anarxiya, xaos, vətəndaş müharibəsi və s. mövcud idi. Belə bir təhlükə və faciənin qarşısını almaq üçün xalq özünün xilaskarını ikinci dəfə hakimiyyətə dəvət etdi. 1993-cü ilin 15 iyunu Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı və xalq bu günü hər il Milli Qurtuluş Günü kimi bayram edir. Bu dahi şəxsiyyət tükənməz enerjisini nəinki öz xalqının, dövlətinin inkişafına, bütövlükdə dünya xalqlarının iqtisadi, mədəni səviyyəsinin yüksəlməsinə, onların arasında mehriban qonşuluq münasibətlərin dərin kök salmasına sərf edirdi. Məhz Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə bərpa edilən tarixi İpək Yolu dünyamızın Şərqi ilə Qərbini birləşdirdi və bütün dünya dövlətlərinin inkişafına öz mühüm töhfəsini verdi.

1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" ilə müstəqil Azərbaycanın yeni neft strategiyası həyata keçirilməyə başlandı və ölkə iqtisadiyyatına yatırılan investisiyanın həcmi ilbəil artdı. Keçmiş sovet respublikaları arasında Azərbaycan ilk dəfə Qərbin iri neft şirkətləri ilə belə böyük miqyaslı saziş imzaladı və Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını qoydu. Bununla da Prezident Heydər Əliyev o dövrdə növbəti dəfə böyük siyasi cəsarət, dönməz iradə, dəqiq iqtisadi hesablama və dərin müdriklik nümayiş etdirərək, müstəqil Azərbaycanın yeni neft doktrinasını irəli sürdü. "Əsrin müqaviləsi" Azərbaycanın iqtisadi müstəqilliyinin təməl daşına çevrildi, azad iqtisadi mexanizmlərin tətbiq edilməsini və respublikamızın dünya iqtisadiyyatına dinamik inteqrasiyasını təmin etdi, xarici investorların ölkəmizə axını sürətləndirildi və Azərbaycanda yeni neft-qaz müqavilələrinin bağlanmasına güclü təkan verdi. Regionda qlobal enerji layihələrinin təşəbbüskarı və iştirakçısı olan Azərbaycan hazırda bir sıra dünya və Avropa ölkələrinin "mavi yanacaq"la təminatında mühüm rol oynayır. Məlum olduğu kimi, ölkəmizi dünyanın potensial qaz ixracatçılarından birinə "Şahdəniz" yatağıçevirmişdir.

Azərbaycanın prezidenti İlham Əliyev demişdir: "20 il bundan əvvəl öz müstəqilliyi uğrunda mübarizə aparan ölüm-dirim savaşı verən, bir sıra böyük dövlətlərin parçalamağa hazır olduğu ölkə kimi bütövlüyünü saxlamağa çalışan bir Cənubi Qafqaz dövləti indi geosiyasi əhəmiyyətli layihəni 7 ölkə ilə birgə reallaşdırır. Belə ki, qısa bir tarixi dövrdə Azərbaycan respublikası nə kimi nəhəng irəliləyişə nail olub. Öz təhlükəsizliyini güclə təmin edən yeni müstəqil dövlət cəmi 20 ildən sonra bütün dünyanın təhlükəsizliyinə xidmət edə bilən bir proqramı həyata keçirir".

Ölkəmizdə neft sektoru ilə yanaşı, qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirilir. Bu işdə iqtisadi islahatların, regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarının həyata keçirilməsi müstəsna rol oynayır.

Azərbaycanda son 15 ildə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi üçün geniş həcmli tədbirlər görülmüş, dövlətin bu sahədə iqtisadi siyasəti gücləndirilmiş, çoxlu sayda Prezident Fərmanları və Sərəncamları verilmiş, dövlət proqramları, strategiyalar və konsepsiyalar qəbul edilərək reallaşdırılmışdır. İqtisadi islahatlara sistemli yanaşmanı təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri" təsdiq edilib. Habelə həmin istiqamətlər müvafiq olaraq inkişaf planlarının işlənməsini təmin etmək üçün ardıcıl olaraq milli iqtisadiyyat və iqtisadiyyatın on bir əsas sektoru

üzrə strateji yol xəritələrinin layihələri hazırlanıb. Strateji Yol Xəritəsində Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyi və əhalinin sosial rifahının yaxşılaşdırılması təmin ediləcək.

Qlobal çağrışlara cavab verərək investisiyaların cəlbi, azad rəqabət mühiti,bazara çıxış və insan kapitalının inkişafı nəticəsində Azərbaycanın dünya iqtisadiyyatında mövqeyi gücləndiriləcək və respublikamız yüksək gəlirli ölkələr qrupuna daxil olacaq. Bu kimi tədbirlərin bir çoxu hazırda icra proseslərini yaşayır. Qeyri-neft sektorunun inkişaf etdirilməsi üzrə bir qrup dövlət dəstəyi mexanizmləri işlənib hazırlanmış vərealləşdırılmışdır. Xüsusilə, regionların inkişafı, kənd təsərrüfatı məhsullarının istehsalçılarının dəstəklənməsi məqsədilə iri infrastruktur layihələri həyata keçirilmiş, lizinq yolu ilə texniki təminat təşkil edilmiş, gübrələrlə təchizat sistemi yaradılmış, anbarlar istifadəyə verilmiş, yollar çəkilmiş, modern müəssisələr istismara verilmiş, biznes layihələri üzrə güzəştli kreditlər ayrılmış və s. stimullaşdırıcı tədbirlər görülmüşdür. Bütün bunlara baxmayaraq, qeyri-neft sektoru hələlik davamlı və yüksək artım tempi toplaya bilməmiş, ölkənin neftdən asılılığının əhəmiyyətli azaldılmasını təmin etməmiş və rəqabət qabiliyyətliliyi baxımından mövcud problemləri həll edə bilməmişdir.

Azərbaycanın beynəlxalq miqyaslı ən mühüm və strateji vəzifələrindən biri də xarici ticarət dövriyyəsinin diversifikasiyalaşdırılmasıdır. Ölkə ixracının quruluşunda rəqabətqabiliyyətli ixrac məhsullarının çeşidinin məhdudluğu ciddi problem olaraq qalmaqdadır. Bir çox ənənəvi sənaye sahələrinin ixrac potensialından (kimya, neft və neft-kimya maşınqayırması, metallurgiya və s.) zəif istifadə davam edilir. Güclü ixrac potensialına və bu sahədə beynəlxalq müqayisəli üstünlük komponentlərinə malik olan bir sıra kənd təsərrüfatı və aqrosektor məhsullarının ixrac potensialının cüzi bir hissəsi dövriyyədədir (təzə tərəvəz və meyvələr, üzüm şərabı, bitki yağları və s). Ölkənin qeyri-neft sektorunun ixrac potensialının ümumi vəziyyəti ilə onun mövcud potensialı arasında xeyli fərq qalmaqdadır. Bu sahənin inkişafının sürətləndirilməsi, ixracın tənzimlənməsi, stimullaşdırılması tədbirlərinin, dövlət dəstəyi mexanizmlərinin mövcudluğuna baxmayaraq, bu işlərin səmərəliliyi aşağıdır və s. Qeyri-neft sektorunun ixrac potensialının artırılması üçün, ilk növbədə, milli iqtisadiyyatın özünün diversifikasiyalaşdırılması və modernləşdirilməsi prosesləri başa çatdırılmalı, innovasiyalaşdırılması sürətləndirilməlidir. Bundan əlavə, qeyri-neft sektorunun ölkənin təbii resursları və iqtisadi amilləri nəzərə alınmaqla, dərindən tədqiq edilməsi, onun potensialının obyektiv qiymətləndirilməsi zərurəti diqqəti cəlb edir.

Azərbaycan iqtisadiyyatının digər mühüm meyillərindən biri də turizm sektorunun inkişafı ilə bağlıdır. Son illərdə ölkədə yüzlərlə turizm obyektləri, müasir otellər, istirahət mərkəzləri, turizm-rekreasiya kompleksləri tikilib istismara verilmişdir. Bakıda və regionlarda (Quba, Qusar, Qəbələ, Şəki, Şəmkir, Gəncə və s.) dünya şöhrətli-brend otellərin analoqu istifadəyə verilmiş, idman turizm kompleksləri yaradılmışdır. Turizmin inkişafı üzrə qanunvericilik bazası gücləndirilmiş və bu sahənin inkişafı ilə bağlı Dövlət Proqramı hazırda icra olunmaqdadır.

Qeyri-neft sahəsində yüksək artım sürətinə nail olunması və bu sektor hesabına adambaşına ÜDM-in artırılması, ÜDM-in strukturunda qeyri-neft sektoru payının əhəmiyyətli dərəcədə yüksəldilməsi, adambaşına qeyri-neft ixracının artımının təmin edilməsi kimi hədəflər müəyyənləşdirilmişdir. “AR-nın milli iqtisadiyyat perspektivləri üzrə Strateji Yol Xəritəsi”ndə göstərilir ki, bu hədəflərə çatmaq üçün iki istiqamətdə iqtisadiyyatın rəqabətqabiliyyətinin artırılması və strukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlər görülməsi təklif olunur. Eyni zamanda, xarici ticarət və investisiya siyasətinin təkmilləşdirilməsi, enerji, nəqliyyat, tranzit və logistika infrastrukturunun inkişaf etdirilməsi, İKT və rabitə xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi də əsas prioritetlərdəndir. İqtisadiyyatın strukturunun təkmilləşdirilməsi isə neft-qaz sektoru və neft-kimya sənayesinin modernləşdirilməsi, qeyri-neft sənayesinin şaxələndirilməsi və inkişaf etdirilməsi, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə imkanlarının genişləndirilməsi yaxın onilliyin başlıca meyarlarından ibarətdir. Qeyri-neft sektorunun sürətli inkişafının təminatından biri də, onun milli iqtisadiyyatın sərhədləri daxilində məhdudlaşmadığını və beynəlxalq inteqrasiya məkanına, dünya bazarlarına effektivli çıxa bilmək potensialını ortaya qoya bilməsidir. Bu halda sektorun çoxlu sayda sahələrinin ixrac potensialı reallaşma imkanı əldə edir, ölkənin dünya bazarlarına çıxardığı rəqabət qabiliyyyətli məhsulların, milli brendlərin siyahısı genişlənir, bütövlükdə milli iqtisadiyyatın diversifikasiyalaşdırılması mənbələrinin əhatəsi genişlənir. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının uzunömürlülüyü qlobal təmayüllərə adekvat olan məqsədyönlü sistemli iqtisadi islahatların aparılmasından, onun dünya təsərrüfat sisteminə inteqrasiyasının sürətləndirilməsinə xidmət edən səmərəli xarici iqtisadi əlaqələrin qurulmasından, xarici ölkələr və beynəlxalq iqtisadi təşkilatlarla ölkənin milli maraqlarına uyğun əlverişli ticarət-iqtisadi əlaqələrinin genişləndirilməsindən asılıdır. Respublikamız 187-dən çox dövlətlərlə xarici-iqtisadi əlaqələrə malikdir. Bununla belə, bu əlaqələrin, xüsusilə ixrac əlaqələrinin əksəriyyəti əvvəllərdə bildirdiyimiz kimi, neft ya qazla və yaxud neft məhsulları ilə bağlıdır. Buradan belə

bir nəticəyə gəlmək mümkündür ki, ölkənin qeyri-neft sektorunun ixrac potensialının heç də az olmayan sahələri vardır və onların dərindən araşdırılması, obyektiv qiymətləndirilməsi, bunlara adekvat tədbirlərin müəyyənləşdirilməsi zəruriliyi ilə xeyli aktual görünür. Neft gəlirləri hesabına qeyri-neft sektorunun potensialının gücləndirilməsi, ixrac strukturunun genişləndirilməsi istiqamətində dövlət dəstəyi mexanizmləri fəaliyyət göstərir, dövlət siyasəti müasir iqtisadi proseslərə adekvat olaraq təkmilləşdirilir, regionların qeyri-neft potensialının reallaşdırılması üçün tarixi işlər həyata keçirilir.

Hazırda Azərbaycanda reallaşan və planlaşdırılan böyük layihələr gələcəkdə qeyri-neft potensialımızı gücləndirəcək, ixrac potensialımızı böyük həcmdə artıracaqdır ki, bu da xalqımızın maddi rifahının daha da yaxşılaşmasına səbəb olacaqdır.

29 yanvar 2019-cu il tarixdə “Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Fərman imzalayıb. Fərman ölkə regionlarının, o cümlədən kənd yerlərinin sosial-iqtisadi inkişafı sahəsində görülmüş işləri növbəti illərdə də davam etdirmək, eləcə də, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, bölgələrdə yaşayan əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədilə imzalanıb.

Qeyd etmək lazımdır ki, fərmanda bildirilir ki, Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına, həyat səviyyəsinin yüksəldilməsinə səbəb olub.

## Ədəbiyyat


1. Şəkərəliyev A.Ş., Şəkərəliyev Q.A. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı, TURXAN, NPB, 2016, 536 s.
2. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 6 dekabr 2016-cı il.


## Резюме


***Шакаралиев А.Ş.***


**Проблемы диверсификации и преимущественного развития ненефтяного сектора на современном этапе**


*Основу успехов социальной и экономической сферы в нашей стране в современный период составляет развитие ненефтяного сектора. Принятые законы и, в целом,осуществляемые проекты по социально-экономическому  развитию регионов сыграли исключительную роль в реализации соответствующей Государственной программы.*

***Ключевые слова:*** *ненефтяной сектор, внутренний национальный продукт, национальный доход, стратегические дорожные карты, туризм, промышленность*


## Summary


***Shakaraliyev A.Sh.***


**Problems of Diversification and Primary Development of Non-oil Sector in the Modern Period**


*Development of non-oil sector is a basis of progress of the social and economic spherein our country in the modern period. The adopted laws and, in general, the carried-out projects on social and economic development of regions play an exclusive role for implementation of the appropriate State Program.*

***Key words:*** *non-oil sector, gross national product, national income, strategic road maps, tourism, industry*


.

# BİZNES MÜHİTİNİN İNSAN KAPİTALININ İNKİŞAFINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**_Muradov A.N._**
_AMEA-nın İqtisadiyyat İnstitutu_

***Xülasə.*** *Bazar münasibətlərinin inkişaf etdiyi şəraitdə biznes mühitinin əlverişli olması ölkənin sosial-iqtisadi inkişafında əhəmiyyətli rol oynayır. Müasir dövrdə sosial-iqtisadi inkişafın əsasında məhz insan kapitalının dayandığını nəzərə alsaq, o halda nəzəri olaraq biznes mühitinin insan kapitalının inkişafında da əhəmiyyətli rol oynadığını deyə bilərik. Məqalədə biznes mühitinin insan kapitalının formalaşması və inkişafına təsiri nəzəri yanaşmalara və statistik göstəricilərə əsaslanaraq təhlil edilir. Təhlillər biznes mühitinin insan kapitalının inkişafında həlledici rol oynadığını göstərir.*

***Açar sözlər:*** *insan potensialı, insan kapitalı, biznes mühiti, təhsil, bilik, bilik iqtisadiyyatı*

Biliyin daşıyıcısı insandır və bütün sosial, iqtisadi, siyasi hadisə və proseslər insanın əqli və fiziki əməyinin nəticəsi olaraq meydana çıxır. Bu baxımdan "insan" və "iqtisadiyyat"ın birini digərindən kənarda təsəvvür etmək mümkün deyil. Bunlar insan yarandığı vaxtdan daim bir-biri ilə ayrılmaz vəhdətdə olmuş və inkişaf etmişdir. Deməli, iqtisadiyyatın inkişafı (ümumi mənada) insandan, insanın inkişafı isə mühitdən asılıdır. Lakin burada insan birinci yerdə durur. Çünki müasir iqtisadi inkişafda əqli əməyin payı yüksəkdir. Bu baxımdan iqtisadiyyatın dayanıqlı inkişafı biznes mühitindən və intellektual potensialdan asılı olur.

İnsan kapitalı bütövlükdə - insanın, müəssisənin, cəmiyyətin gəlirini artıran məhsul və xidmətin yaradılması üzrə istehsal fəaliyyəti üçün məqsədyönlü istifadə olunan sağlamlıq, bilik, qabiliyyət, mədəniyyət, təcrübənin məcmusudur.

İnsan kapitalının iqtisadi artıma təsiri ilə bağlı iki yanaşma mövcuddur. Birincisi, yanaşma Uzava və Lukas(Uzawa, 1965, Lucas, 1988) tərəfindən hazırlanmışdır və Uzava-Lukas modeli adlanır [2,3]. Bu modelə görə istehsalın artımı ilə insan kapitalı arasında bağlılıq yüksəkdir və bu səbəbdən insan kapitalının istehsal prosesində bir töhfə halına gətirilməsi vacibdir. İkinci yanaşma Nelson və Felpson tərəfindən irəli sürülmüşdür. Onlar hesab edirdilər ki, insan kapitalı məhsuldarlığın artmasının əsas mənbəyidir. Çünki insan kapitalı iqtisadiyyata innovasiya və mövcud texnologiyaların tətbiqi imkanlarını müəyyən edir, texnologiyanın yayılmasını sürətləndirməklə, iqtisadi artım tempini dayanıqlı edir [4].

A.P.Kolyadin haqlı olaraq biliyə - insan kapitalının yığım mənbəyini yaradan amil kimi baxır, öyrənmə və təhsili onun əsas üsulu hesab edirdi [5, s.6].Göründüyü kimi, insan kapitalının formalaşmasında təhsilin ən önəmli yer tutduğu tədqiqatçılar tərəfindən irəli sürülür. Bu səbəbdən inkişaf etmiş ölkələr investisiya qoyuluşlarının böyük hissəsini insan kapitalının formalaşmasına yönəldirlər. Bu, həmin ölkələrə rəqabətdə üstünlük qazanmağa, milli intellektualların və onların əməyindən əldə olunan gəlirlərin artmasına, ölkə əhalisinin rifahının yaxşılaşdırılmasına imkanlar yardır.

Biliklərə əsaslanan iqtisadiyyat və ya innovasiyalı iqtisadi inkişaf hər şeydən öncə intellektual potensialın inkişaf etdirilməsini tələb edir. Çünki biliyin istehsalçısı və istifadəçisi insandır. Əgər cəmiyyətdə bilik istehsal edən intellektuallar yetişdirilməzsə, o halda uzunmüddətli iqtisadi inkişafdan danışmaq mənasızdır.

İnsan potensialı, intellektual potensial və kapitalına investisiya (insan kapitalının təkraristehsalı) dövlət və özəl sektor, xarici, eləcə də əhalinin xərcləri də daxil olmaqla bir çox mənbələrdən formalaşır. İnsan potensialına investisiya xərclərinə əmək haqqı, elm və təhsil xərcləri, səhiyyə xərcləri, ixtisasartırma, mədəniyyət xərcləri və s. bu kimi digər birbaşa və dolayı xərclər daxildir. Şübhəsiz ki, burada dövlətin həyata keçirdiyi sosial-iqtisadi siyasət əhəmiyyətli yer tutur. Qeyd edək ki, Azərbaycan İPİ indeksinə görə dünya üzrə orta göstəricini üstələyir. Bu, onu göstərir ki, Azərbaycan insan potensialının inkişafı və insan kapitalının formalaşdırılması ilə bağlı əlverişli imkana malikdir.

Diaqram 1. QRİ ilə İKİ arasında asılılıq




Diaqram 2. QİI və İK indeksi arasında asılılıq




Ölkələrin sosial-iqtisadi inkişafı ilə bağlı bir sıra indeks və statistik göstəricilərlə İnsan Kapitalı İndeksi arasında asılılıqlara baxaq. Qrafiklərdən göründüyü kimi, BM (Biznes Mühiti), İKİ (İnsan Kapitalı İndeksi), QRİ (Qlobal Rəqabətlilik İndeksi), QİI (Qlobal İnnovasiya İndeksi) və STİ (Sosial Tərəqqi İndeksi) arasında yüksək asılılıq mövcuddur.

**Diaqram 3. İKİ indeksi ilə STİ arasında asılılıq**




**Diaqram 4. BM ilə İKİ arasında asılılıq**




Diaqram 5.1. Biznes mühiti ilə biliyə əsaslanan iqtisadi inkişaf arasında asılılıq




**Diaqram 5.2. Biznes mühiti ilə innovasiyalı iqtisadi inkişaf arasında asılılıq**




**Mənbə:** http://reports.weforum.org/human-capital-report-2016/
**http://reports.weforum.org/global-competitiveness-report-2016**
**http://www.doingbusiness.org/custom-query;**
**http://www.transparency.org/cpi2015#results-table**

Göründüyü kimi, biznes mühiti ilə biliyin inkişafı arasında, eləcə də innovasiyalı inkişafla arasında asılılıq vardır. Əslində, bu asılılıq daha yüksəkdir. Çünki biznes sektoru yalnız və yalnız bilik və innovasiyaların (yeni ideyaların reallaşması) sayəsində inkişaf edir. Yuxarıdakı qrafikdə biznes mühitini pisləşdirən qeyri-formal amillər nəzərə alınmamışdır.

Azərbaycanda biznes mühitinin əlverişliliyinin yaxşılaşdırılması məqsədilə ölkə Prezidenti (2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncam) "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Tədbirlər Planı"nı təsdiq etmişdir. Hazırda bu istiqamətdə islahatlar həyata keçirilir. Bu islahatlar Azərbaycanda biznes mühitinin yaxşılaşmasına və bilik iqtisadiyyatı quruculuğuna müsbət təsir göstərəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə "İnsan kapitalının inkişaf etdirilməsi" əsas strateji hədəflərdəndir. Sənəddə "insan kapitalı əmək məhsuldarlığının artırılmasında, dayanıqlı iqtisadi artımda, istehsal və xidmət sektorlarının rəqabət qabiliyyətinin yüksəldilməsində və ölkənin qlobal bazarlara inteqrasiyasında həlledici rol oynadığı qeyd olunur [1, s. 82].

Son illərdə Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması ilə bağlı həyata keçirilən islahatlar insan kapitalının formalaşması və inkişafına müsbət təsir göstərəcəkdir.

Apardığımız nəzəri araşdırmalarda liberallaşma, biznes mühiti, iqtisadi stimullaşdırma ilə biliklərə və innovasiyalara əsaslanan iqtisadiyyat arasında birbaşa və dolayı asılılığın olduğunu müəyyən etmişdik. Bu asılılığın səviyyəsi isə müxtəlif ölkələrdə, iqtisadi və idarəetmə sistemindən asılı olaraq fərqli ola bilər. Statistik rəqəmlərə əsaslanan təhlilə keçməzdən əvvəl, qeyd edək ki, Azərbaycanda iqtisadi artımla biliyin inkişafı, innovasiya məhsullarının istehsalı arasında asılılıq zəifdir. Fikrimizcə, Azərbaycanda biznes mühitinin biliyin inkişafı üçün qeyri-qənaətbəxş, biliyin inkişafına yönələn iqtisadi stimullaşdırma mexanizminin, obyektiv və subyektiv amillərin təsiri nəticəsində öntəşəbbüşkarlıq fəaliyyətinin zəif olması ilə bağlıdır.

Onu da qeyd edək ki, biznes mühitinin əlverişli olması və insan kapitalı sahibkarlıq fəaliyyətinin innovasiyayönlü inkişafı üçün əhəmiyyətlidir. Ümumiyyətlə, insanların təşəbbüskarlıq fəaliyyətinə mane olan istənilən addım bilik və innovasiyalara əsaslanan iqtisadiyyatın formalaşmasına mənfi təsir göstərir. Çünki bilik iqtisadiyyatının formalaşmasında sahibkarlıq, xüsusilə innovasiya sahibkarlığının inkişafı üçün dövlət tənzimlənməsi ilə yanaşı, stimullaşdırma və azad yaradıcı fəaliyyət mühiti də yaradılmalıdır.

Əlverişli biznes mühitin yaradılması biznes fəaliyyəti göstərən (və ya göstərmək istəyən) insanları təşəbbüskar olmağa, bazarda rəqabət aparmaq üçün yüksək texnologiyalı məhsul və intellektual xidmət çıxarmağa daha maraqlı edir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bürokratik maneələr (rəsmi və qeyri-rəsmi), inhisarçılıq, daxili bazarın "rəqabətdən" qorunması təşəbbüskarlıq fəaliyyətinə mane olur. Nəticədə, bazara yeni məhsulun çıxarılmasına maraq azalır, istehlakçının seçim imkanları məhdudlaşır və iqtisadi geriləmə baş verir. De-fakto biznes mühitinin olması isə iqtisadi fəaliyyət göstərən insanları daim düşünməyə, bazara rəqabətqabiliyyətli məhsul çıxarmaq üçün T&İ-yə, insan kapitalına, informasiya texnologiyalarına (E-ticarət) investisiya qoymağa (nə qədər riskli olsa da) maraqlı edir. Bu isə ölkədə biliyin inkişafına, yüksək texnologiyalı məhsul istehsalının həcminin artmasına, intellektual xidmətlər bazarının inkişafına və nəhayət rəqabətqabiliyyətinin yüksəlməsinə təkan verir. Diaqramlardan göründüyü kimi, iqtisadi stimullaşdırma və institusional mühitlə biliyin inkişafı arasında, eyni zamanda rəqabət qabiliyyəti ilə biznes mühiti göstəricisi arasında asılılıq yüksəkdir. Bu o deməkdir ki, iqtisadi stimullaşdırma və institusional mühit və biznes mühiti biliyin inkişafında əhəmiyyətli yer tutur.

DB və DİF-in hesabatlarına, Azərbaycan Respublikasının statistik göstəricilərinə əsaslanaraq demək olar ki, biznes mühitinin yaxşılaşdırılması, iqtisadi stimullaşdırma iqtisadiyyatın innovasiyalı inkişafına, biliklərə əsaslanan iqtisadiyyatın formalaşdırılmasına müsbət təsir göstərir. DİF-in açıqladığı QİI-2015 hesabatının "İnstitutlar" subindeksi reytinqində Azərbaycan 81-ci yerdə olmuşdur. Tənzimləmə mühitinə görə Azərbaycan 100 ballıq şkalada 53, tənzimləmənin keyfiyyətinə görə 36,5 göstəriciyə malik olmuşdur.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi

2. Uzawa, H. (1965. "Optimum Technical Change in an Aggregative Model of Economic Growth. International Economic Revue 6: 18-31

3. Lucas, R.E., (1988) "On the Mechanics of Economic Development," forthcoming, Journal of lonetary Economics, 1988.

4. Nelson, Richard R. and Edmund S. Phelps (1966). "Investment in Humans, Technological Diffusion and Economic Growth." American Economic Review, 56, 2 (May), 69-75.
5. Колядин А.П.Знания как фактор экономического развития/ Экономический вестник Ростовского государственного университета ✧2008 Том 6 № 4 Часть 4 с. 6-9 с. 6
6. http://reports.weforum.org/global-competitiveness-report-2016
7. http://www.doingbusiness.org/custom-query;
8. http://www.transparency.org/cpi2015#results-table

## AZƏRBAYCANDA KİÇİK VƏ ORTA BİZNESİN İNKİŞAFI PROBLEMLƏRİ

***Hüseynov Q.S.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalədə dünya təsərrüfatı proseslərinin qloballaşması şəraitində kiçik və orta biznesin rolundan bəhs edilir. Kiçik və orta biznesin Azərbaycanın iqtisadiyyatında rolu, bu sahənin problemləri işıqlandırılır.*

***Açar sözlər:*** *kiçik və orta biznes, Strateji yol xəritəsi, rəqabət, maliyyə resursu*

Müasir mərhələdə dünya iqtisadiyyatının inkişafı qloballaşmanın yüksək tempi ilə xarakterizə olunur. Qloballaşma prosesi sosial, iqtisadi, siyasi, eyni zamanda mədəni prosesləri özündə birləşdirir. Dünya iqtisadiyyatının qloballaşması istehsal prosesinin xarakterinin dəyişməsinə səbəb olur. Hazırda qloballaşma aşağıdakı əlamətlərə xarakterizə olunur:

1) Düşərgənin texniki-iqtisadi potensialının intensiv inkişafı;
2) Beynəlxalq əmək bölgüsünün dərinləşməsi;
3) Maliyyə bazarında keyfiyyət göstəricilərinin dəyişməsi;
4) Transmilli korporasiyaların inkişafının yüksək tempi;
5) Rabitənin telekommunikasiya vəsaitlərinin inkişafı.

Dünya təsərrüfatı proseslərinin qloballaşması şəraitində kiçik və orta biznes (KOB) subyektləri daha çevikdirlər, belə ki, onlar bazar konyukturunun dəyişdiyi şəraitə daha həssas reaksiya verirlər.

Hazırda Azərbaycanın iqtisadi və ümumi inkişafında KOB tədricən vacib rol oynayır. Lap başlanğıcdan kiçik və orta sahibkarlıq (KOS) iqtisadiyyatın müstəqil həlqəsi kimi formalaşmışdı. Dövlətin KOS-un ölkənin iqtisadiyyatında və cəmiyyətin sabitləşməsində çox mühüm rol oynadığını dərk etməsinə baxmayaraq kiçik biznesin inkişafı problemi hələ də həll edilməmiş qalır. Sahibkarlıq həm müstəqil, çoxplanlı və kompleks hadisə kimi bazar iqtisadiyyatı ölkələrində məcburi element hesab olunur. KOS – iqtisadiyyatın dayanıqlı inkişafının, onun modernləşdirilməsinin, iqtisadi proseslərin intensivləşdirilməsinin və əhalinin maddi rifahının yüksəldilməsinin daxili mənbəyidir. Sahibkarlıq azad sahibkarlıqsız olmadan mümkün olmayan bazar şəraitində iqtisadiyyatın mühərrikdir. O nə qədər fəaldırsa, nə qədər çox qabiliyyətli, təşəbbüskar, cəsarətli insanlar sahibkarlıq fəaliyyətinə cəlb olunmuşdursa, cəmiyyətin resurslarından o qədər yaxşı istifadə olunur, ölkənin təsərrüfat inkişafı intensiv olur. İnkişaf etmiş ölkələrdə, məsələn ABŞ-da yalnız kiçik biznes əmək qabiliyyətli əhalinin təxminən yarısının məşğulluğunu təmin edərək, böyük miqdarda innovasiyalar tətbiq edərək iri şirkətlərə nisbətən məcmu məhsulun 40%-ə qədərini təmin edir. Kanadada, İngiltərədə və Almaniyada KOS-un xüsusi çəkisi 60-75% təşkil edir. Azərbaycanda isə 2018-ci ilə nəzərən qeyri-neft sektorunda KOS-un payı 10 faizə yaxın olmuşdur.

Hazırda KOS-un zəruriliyi və onun iqtisadiyyatdakı rolunun artırılması haqqında çox bəyan edilsə də əldə edilən nəticələr qənaətbəxş deyildir. Vaxtilə Amerika iqtisadçısı, Harvard biznes məktəbinin professoru M.Porter qeyd etmişdir ki, milli iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafı strategiyası nəinki həyat tsikli mərhələlərindən, həm də qarışıq sahələrin vəziyyətindən asılıdır. Eyni zamanda hökumət milli innovasiya sisteminə və sahibkarlığa həm müsbət, həm də mənfi təsir göstərə bilər. Onlar vergi siyasəti, qanunvericilik, subsidiyalar, dövlət tədarükü, məhsulun keyfiyyəti standartlarının müəyyən edilməsi, təhlükəsizlik ətraf mühitin qorunması, infrastrukturun inkişaf etdirilməsi vasitəsilə, eyni zamanda bazar sistemində qiymətlərin birbaşa hökumət tərəfindən tənzimlənməsi vasitəsilə təsir göstərməlidir.

Azərbaycanda KOS-un inkişafı iqtisadiyyatın diversifikasiyası, rəqabətqabiliyyətliliyinin artırılması, məşğulluğun təmin edilməsi, istehlak mallarına olan tələbatın yerli resurslar hesabına ödənilməsi və iqtisadi inkişafın təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Belə ki, inkişaf etmiş ölkələrdə KOS-un ÜDM və məşğulluqdakı xüsusi çəkisinə nəzər saldıqda belə qənaətə gəlmək olur ki, Azərbaycanda da

davamlı iqtisadi inkişafın təmin edilməsində KOS-un əsas hərəkətverici amilə çevrilməsi qarşıda duran əsas çağırışlardan olmalıdır. (1, səh. 1)

Azərbaycanda KOB-un inkişafı çox ciddi məsələdir. Bunun üçün makroiqtisadi siyasətdən başlayaraq bu sahənin inkişafına dəstək verən institusional dəyişikliklərin həyata keçirilməsi vacibdir. Ölkəmizdə KOS-un və bütövlükdə, ölkə iqtisadiyyatının inkişaf etdirilməsi üçün güclü potensial və geniş imkanlar mövcuddur. Bunun üçün ümumi biznes mühitinin yaxşılaşdırılması, maliyyə resurslarına çıxış imkanlarının daha sərfəli və effektiv təşkil edilməsi, KOS subyektlərinin yerli və xarici bazarlara çıxışının təmin edilməsi, bacarıqlı və ixtisaslı kadr təminatının yaradılması atılmalı olan vacib addımlardandır. (1, səh. 10)

"Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə (bundan sonra – Strateji Yol Xəritəsi)bu sahənin perspektivləri haqqında qeyd olunur. Uzunmüddətli perspektivdə KOS-un ÜDM-də payının 60 faizi ötəcəyi, xarici ticarətdə onun payının 40 faizə qalxacağı gözləntiləri var.

Azərbaycanda qeyri-neft məhsullarını ixrac edən müəssisələrin əksəriyyəti iri müəssisələrdir ki, bu da KOS subyektlərinin ixracda payının cüzi olduğunu göstərir. İnkişaf etmiş ölkələrdə, eləcə də ixracatı qeyri-neft məhsullarına əsaslanan dövlətlərdə, kiçik və orta sahibkarlar ixracda əhəmiyyətli paya sahibdirlər. Eyni zamanda, KOS subyektləri idxalı əvəz edən malların istehsalında müstəsna rol oynayır. Yerli istehsalın KOS subyektləri arasında inkişafı ölkənin tədiyə balansının yaxşılaşdırılmasına, ölkədən valyuta axınının qarşısının alınmasına və idxaldan asılılığın azaldılmasına güclü təsir göstərir.

Perspektivdə dövlətin elə siyasəti daha uğurlu olacaqdır ki, onda firmalar özləri bu prosesdə dövlətin birbaşa müdaxiləsini nəzərdə tutan siyasətlə müqayisədə rəqabət üstünlüyü əldə edə bilsinlər.

Əlverişli sahibkarlıq mühiti – hər şeydən əvvəl, bazar, bazar münasibətləri sistemi, sahibkara maksimal nəticəli və daha mənfəətli fəaliyyəti yerinə yetirməyə ona imkan verən onun şəxsi müstəqilliyidir. Bu şəraitdə yeniliklər sürətlə həyata vəsiqə alır və həm sahibkarlığın, həm də bütün millətin çiçəklənməsinə səbəb olur.

İnnovasiya istehsalı yaradan qabaqcıl kapitalist müəssisələri nəinki innovasiyaların özünə, həm də onları yaradan elmə əhəmiyyətli vəsaitlər xərcləyirlər. İnnovasiyanı təkcə dövlətin hesabına həyata keçirmək olmaz. Bununla bağlı qeyd etmək lazımdır ki, Amerika korporasiyalarının elm üçün məcmu xərcləri dörd-beş dəfə dövlətin xərclərini üstələyir. Məsələn Microsoft yalnız 2011-ci ildə ETTKİ-yə 9 mlrd. dollar, IBM – 6,3 mlrd. dollar, Intel – 8,4 mlrd. dollar xərcləmişdir.

İsveç alimi B.Karlof belə hesab edir ki, ölkə daxilində rəqabətin inkişafı nə qədər güclü və alıcıları tələbələri nə qədər yüksəkdirsə, həmin ölkənin şirkətlərinin beynəlxalq bazardakı uğur ehtimalı bir o qədər böyükdür. İnkişaf etmiş institutsional mühit, hakimiyyət orqanlarına inamın yüksək səviyyəsi və keyfiyyətli sosial kapitala malik iqtisadiyyatlarda idarəetmə qərarları rasionallığı və dövlət institutlarına xərclərin azalması ilə fərqlənir.

A.M.Balaşovun fikrinə görə hazırda Rusiyada sahibkarlığın inkişafına bir sıra mənfi hadisələr mane olur, onlar aşağıdakılardır:

1. Mövcud qanunvericilyin təkmil olmaması və normativ-hüquqi tənzimləmədəki ziddiyyət.
2. Çoxlu sayda inzibati baryerlərin mövcud olması, əlverişsiz sahibkarlıq mühiti, KOB işində bütün səviyyələrdən olan hakimiyyət orqanlarının daimi və əsassız müdaxiləsi.
3. KOS-a əmlak, informasiya və kadr dəstəyinin olmaması.
4. İnnovasiya texnologiyalarına çıxışın məhdudu imkanları.
5. Maliyyələşdirmə mənbələrinə məhdud çıxış, xüsusilə, yeni, yalnız yenicə açılmış firmaların əlverişsiz kreditləşmə rejimi.
6. Həm regionlar səviyyəsində, həm də regionlar arasında KOS-un subyektləri arasında vertikal və horizontal əlaqələrin qaydaya qoyulması mexanizmlərinin olmaması.
7. Son dövrlərdə əhəmiyyətli dərəcədə müxtəlif vergi və yığımların böyük miqdarda olması. (2, səh 1-3)

KOB-un inkişafına Azərbaycanda mane olan amilləri qeyd etməzdən əvvəl bu sahənin inkişafı istiqamətində atılan addımlara nəzər salaq: sahibkarlıq sahəsində aparılan yoxlamaların 2 il müddətinə dayandırılması, sahibkarlıq fəaliyyəti üçün lisenziya və icazələrin sayının və ödənilən rüsumların məbləğlərinin dəfələrlə azaldılması, icazələrin verilməsi prosedurlarının sadələşdirilməsi, o cümlədən bu sahədə elektron portalın yaradılması üzrə işlərin davam etdirilməsi, sahibkarların hüquqlarının qorunması ilə bağlı Apellyasiya Şuralarının yaradılması, ölkə ərazisindən tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipinin tətbiq olunması, ölkədə investisiyaların təşviqinin artırılması məqsədilə 7 il müddətində vergi və gömrük güzəştlərinin verilməsi, idxal-ixrac əməliyyatları zamanı gömrük prosedurlarının sadələşdirilməsi

məqsədilə elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi, tələb olunan sənədlərin və prosedurların sayının minimuma endirilməsi, malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və beynəlxalq təcrübədə mövcud olan digər buraxılış sistemlərinin yaradılması, dövlət satınalmalarında təkmilləşdirmələrin aparılması, dövlət orqanlarında sahibkarların müraciətlərinin birbaşa cavablandırılmasını həyata keçirən, məlumatlandırma və məsləhət xidmətləri göstərən çağrı mərkəzlərinin yaradılması və s. işlər həyata keçirilmişdir. (1, səh. 8)

Strateji yol xəritəsində Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması məqsədilə vergi islahatlarının davam etdiriləcəyi və bu islahatlar zamanı əsas diqqətin KOS-a yönəldiləcəyi haqqında çoxlu müddəalar vardır. Bu islahatlar hazırda da davam etməkdədir. Belə ki Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2018-ci il tarixli 260 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "İdxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsinə dair Tədbirlər Planı" Vergilər Nazirliyi ilə Dövlət Gömrük Komitəsi arasında səmərəli əməkdaşlıq əlaqələri qurulması və bu əməkdaşlığın müsbət faydalarını bütün sahibkarlar və biznes subyektləri gündəlik fəaliyyətlərində hiss edəcəkləri baxımından çox əhəmiyyətlidir. Bu qurumların fəaliyyəti bilavasitə KOB-un inkişafını təşviq edir və bu baxımdan vergi və gömrük sistemində islahatların dərinləşməsi sahibkarlığın inkişafına yeni təkan verəcək. Prezidentin bu sərəncamı şəffaflığın gücləndirilməsinə, vergi uçot sisteminin təkmilləşdirilməsinə və vergidən yayınma hallarının qarşısının alınmasına, eləcə də vergi intizamının gücləndirilməsinə səbəb olacaq.

Onu da qeyd edək ki, Strateji yol xəritəsində nəzərdə tutulan bir çox hədəflərə artıq nail olunmaqdadır. Məsələn, xəritədə Azərbaycanda mərkəzləşdirilmiş KOS agentliyinin yaradılmasının nəzərdən keçiriləcəyi, agentliyin məqsəd və missiyası, eləcə də aparıcı prinsipləri müəyyənləşdiriləcəyi qeyd olunmuşdu. (səh 19). Belə ki, Azərbaycan Respublikası Prezidenti Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında 2018-ci il 26 iyun tarixli Fərman imzalamışdır. Agentliyin yaradılmasının məqsədi ölkədə investisiya və biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi və səmərəli əlaqələndirmənin tətbiqi, KOS-un ölkə iqtisadiyyatında rolunun və rəqabət qabiliyyətinin artırılması, bu sahədə idarəçilik sisteminin müasir tələblərə uyğunlaşdırılması, maliyyə resurslarına KOS subyektlərinin çıxış imkanlarının genişləndirilməsi və institusional dəstək mexanizmlərinin formalaşdırılması, sahibkarlığın hüquqi təminatının gücləndirilməsi və regionlarda sahibkarlığın inkişafına əlverişli şərait yaradılması əsasında dayanıqlı inkişafın təmin edilməsidir.

Həyata keçirilən iqtisadi islahatların səmərəliliyinin artırılması özəl sektorla sıx əməkdaşlığın qurulmasını da zəruri edir ki, bu istiqamətdə diqqət tələb edən əsas məsələ dövlət-özəl tərəfdaşlığı xüsusi əhəmiyyət kəsb edir.

Ölkəmizdə biznesin inkişafında ən ciddi maneə kimi maliyyə resurslarına çıxışı qeyd etmək olar. KOS subyektlərində potensial artıma nail olmaq üçün əsas sürətləndirici amil kimi bunu nəzərə almaq lazımdır.

Risklərin düzgün qiymətləndirilməməsi üzündən banklar KOS subyektlərinin kreditləşməsində daha az maraqlı olurlar. KOS subyektlərinin kredit müraciətlərinə imtina səviyyəsi yüksəkdir. Buna görə də KOS sahibkarlıq subyektlərinin inkişafı prosesi zəifləyir və onlar yalnız öz mövcudluqlarını qoruyub saxlaya bilirlər. Eyni zamanda devalvasiya, enerji daşıyıcılarının qiymətləri və likvidlik çatışmazlığı kimi əlavə problemlər bu prosesdə öz rolunu oynayır. Banklar daha çox iri korporasiyalarla kredit ayırmağa meyllidirlər. Kreditlər üzrə faiz dərəcələrinin yüksək olması da KOS subyektlərinin kredit resurslarına əlçatanlığını azaldan amillərdəndir. Təminat tələblərinin yüksək olması KOS subyektləri üçün daha çox çətinlik yaradır, çünki əksər hallarda təminat predmeti sahibkarın şəxsi vəsaitləri formasında olur. Dünya Bankının hesabatına əsasən, şəxsi vəsaitlər Azərbaycanda mövcud kreditlər üçün qoyulan təminat predmetinin 30,5 faizini təşkil edir.

Strateji yol xəritəsində KOS üzrə kredit zəmanət fondunun yaradılması planlaşdırılır və bu subyektlərin maliyyə risklərinin azalması ilə nəticələnəcəyi qeyd olunur.

KOS subyektlərinin daxili bazarlara çıxış imkanlarının artırılması da vacib məsələlərdəndir.

KOS sahəsində aparılan yoxlamaların sayının azalması və KOS subyektlərinin rəqabət qabiliyyətinin artırılması məqsədilə mütəmadi olaraq bu sahədə aparılan yoxlamaların monitorinqi və qiymətləndirilməsi həyata keçirilən tədbirlər sırasındadır. (1, səh. 28)

KOS subyektləri üçün özəl investisiyalara əsaslanan yeni özəl sənaye klasterlərinin yaradılması da diqqətdə saxlanan məsələlərdəndir. KOS-un inkişafında biznes inkubatorları əhəmiyyətli rol oynayır. Biznes inkubatorları daxilində startap layihələrinin icrasına əlverişli şəraitin formalaşması da vacib hesab olunur. (1, səh. 61)

Hazırda Azərbaycanda dövlət tərəfindən ETTKİ-nə də dəstək zəifdir, bu da həm ayrı-ayrı firmaların, həm də bütövlükdə dövlətin rəqabət üstünlüyünün stimullaşdırılmasına mane olur. Məlum olduğu kimi müəssisənin yeniliyinə sürətli reaksiya rəqabətqabiliyyətliliyin əsas elementidir, ancaq bunun üçün ölkədə əlverişli sahibkarlıq mühiti yaradılmalıdır. Sahibkarlıq fəaliyyətinin şərtləri xarici və daxili mühitlə müəyyən edilir.

KOB-un inkişafına mane olan problemlərin aradan qaldırılmasının Rusiya təcrübəsi dövlət büdcəsinin yeni vergi və yığımların tətbiqi yolu ilə doldurulmasının yanlış təcrübəsindən imtina edilməsi vacib hesab edilir, belə ki, bunlar sahibkarlıq təşəbbüslərinin inkişafına əhəmiyyətli dərəcədə mane olur və bütövlükdə sahələrin inkişafına imlan vermir. Karbohidrogenlər üzrə dünya qiymətlərinin azalması səbəbindən büdcəyə daxil olmaların azaldığı şəraitdə idarəetmə aparatı üzrə xərcləri optimallaşdırmaq, mövcud büdcə vəsaitlərindən səmərəli istifadə etmək və əsas diqqətin istiqamətini xarici siyasətdən daxili problemlərin həllinə yönəltmək və əhalinin rifahını yüksəltməkdir.

Fikrimizsə KOS-a dəstək kompleks olmalıdır, başqa sözlə özündə həm sahibkarlıq subyektlərinə ünvanlı maliyyə dəstəyi tədbirini, həm də infrastruktur institutunun inkişafına istiqamətlənmiş tədbirləri özündə əks etdirməlidir.

İnfrastruktur institutlarının dəstəklənməsi sahibkarlıq subyektləri arasında subsidiyaların sadəcə bölüşdürülməsinə nisbətən böyük səmərə gətirə bilər. Sahibkarlıq subyektlərinə subsidiyaların bölüşdürülməsinin mövcud sistemi dəstək alınandan sonrakı il ərzində həmin vəsaitlərdən məqsədli istifadənin dövlət nəzarətini nəzərdə tutur. Ancaq bununla yanaşı sahibkarlığa ünvanlı dəstəkdən tam imtina edilməsi doğru olmazdı.

Tərəmizdən 220 sahibkar arasında aparılan sorğu, bir qayda olaraq, biznesin inkişafına mənfi təsir göstərən aşağıdakı amilləri ortaya çıxarmışdır: vergiqoymanın qeyri-kafi çevik sistemi; çoxsaylı inzibati baryerlər; kredit vəsaitlərinin cəlb edilmişi ilə bağlı çətinliklər; KOB-un fəaliyyətinin tənzimləyən normativ-hüquqi bazanın təkmil olmaması; dövlət hakimiyyət orqanları tərəfindən dəstək tədbirlərinin təkmilləşdirilməsinin zəruriliyi. Faiz dərəcələrinin artması və likvidlik böhranı digər amillərlə birlikdə məhsulun maya dəyərinə və biznesin rentabelliyinə, KOB müəssisələrinin investisiya planlarına və maliyyə dayanıqlığına çətinliklər yaradır. (3, səh. 4)

**Ədəbiyyat**


1. “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi” (bundan sonra – Strateji Yol Xəritəsi)
2. Балашов А.М. Некоторые актуальные проблемы развития малого и среднего бизнеса в РФ // ЖУРНАЛ Карельский научный журнал. 2018
3. Богачкова Л.Ю. Регулирование развития малого и среднего бизнеса в России // İnternational Centre for Trade and Sustainable Development, 26 June 2018, № 4



**Резюме**

***Гусейнов Г.С.***

**Проблемы развития малого и среднего бизнеса в Азербайджане**

*Статья посвящена роли малого и среднего бизнеса в условиях глобализации процессов мирового хозяйства. Рассматривается роль малого и среднего бизнеса в экономике Азербайджана, проблемы этой отрасли.*

***Ключевые слова:*** *малый и средний бизнес, Стратегическая дорожная карта, конкуренция, финансовые ресурсы*

**Summary**

***Huseynov Q.S.***

**Development Problems of small and medium-sized businesses in Azerbaijan**

*The article deals with the role of the small and medium-sized businesses in the condition of globalization of world economic processes. The role of the small and medium-sized businesses in Azerbaijan economy and the problems of this sphere are researched.*

***Key words:*** *small and medium-sized businesses, Strategic road map, competition, finance resource*

# I BÖLMƏ

# RƏQƏMSAL İQTİSADİYYAT BİZNES ÜÇÜN YENİ İMKANLARIN AÇARI KİMİ

## BORULARIN İSTEHSAL TEXNOLOGİYASININ SEÇİLMƏSİ VƏ İQTİSADİ ƏLVERİŞLİLİYİN RİYAZİ ANALİZİ

**Abdullayev Q. S.**
*Sumqayıt Dövlət Universiteti*
**Bağırov Z. O.**
*Sumqayıt Dövlət Universiteti*
**Rəhimova A.F.**
*Sumqayıt Dövlət Texniki Kolleci*

***Xülasə.*** *Məqalədə müxtəlif təyinatlı borular istehsal edən müəssisənin iqtisadi əlverişliliyinin analizi məsələsinə baxılmışdır. Burada xaricdən alınan boruların mexaniki emal zamanı optimal variantın riyazi üsulla formalaşması üçün formalar verilmişdir.*

***Açar sözlər****: qazıma, qoruyucu, nasos-kompressor, mexaniki emal, yiv, mufta*

"Azərboru" ASC–də neft sənayesində istifadə olunan tikişsiz borular (qazma, nasos-kompressor, qoruyucu və ümumi təyinatlı) istehsal edilir. Bu boruları hazırlamaq üçün əvvəllər boru pəstahları zavodun daxilində istehsal edilirdi. Sonradan qalan texnoloji proseslər aparılırdı.İttifaqın dağılması ilə zavodda poladların əridilməsi mümkün olmadı. Çünki marten sobasına lazım olan odadavamlı materialların xaricdən alınması istehsal edilən boruların maya dəyərini qaldırırdı. Bu da iqtisadi cəhətdən əlverişli variant sayılmadığına görə xaricdən (Ukrayna və Rusiyadan) boru pəstahları və borular alınır.

**Məqalənin məqsədi** xaricdən alınan boruların mexaniki emalı zamanı optimal variantın seçilməsidir.

Xaricdən alınan boru pəstahları boruyayma dəzgahlarında yaydıqda çoxlu miqdarda zay məhsul yaranır. Bu da iqtisadi cəhətdən bir o qədər də əlverişli deyil. Ondan başqa hazır borular alınır, onların uclarına yiv açılır və mufta bağlayırlar. Bu üsulun da müəyyən çatışmazlıqları vardır. Gətirilən borular nəql edilən zaman kranlarla qaldırdıqda bəziləri əyilir və sonradan düzəldilməsi çətinliklər törədir.

Bu məsələni həll etmək üçün boru istehsalının optimallaşdırılmış kompleks modeli və optimal texnoloji sxemin seçilməsi işlənmişdir. Bu da zavodda bütün boru növlərinin istehsalının rasional sxemini, pəstahların tələb olunan sayını, kənardan alınan və avtomatik stan qurğularında yayılan qazma boruları üçün, yenidən düzəldiləcək boru-pəstah istehsalının həcmini təyin etməyə imkan yaradır.Tapşırığın riyazi formalaşdırılması üçün aşağıdakı şərti işarələrdən istifadə edək:

$i$ –nasos-kompressor boruları üçün boru-pəstahların $(i=\overline{1,p})$ və sənaye borularının $(i=\overline{p+1,n})$ müxtəlif növ ölçülərinin şifri;

$j$ –avtomatik stanlı boru yayma qurğusundan alınmış boru-pəstahların $(j=\overline{1,t})$ ,pəstahlardan $Z(z=\overline{1+\alpha})$, avtomatik stanın kalibrlərində $k(k=\overline{1,j})$ və ətrafdan $(j=\overline{t+1,\lambda})$, həmçinin sənaye boruları $(j=\overline{\lambda+1,m})$ kalibrləyici avtomat standa K, z pəstahlarından yayılan variantların (sxemlərin) şifri;

$C_{ijzk}^{YHKT}-z$ pəstahlarından nasos-kompressor boruları üçün avtomatik stanlı qurğularda, avtomatik stanın kalibrlərində K yenidən hazırlanacaq müxtəlif növ ölçülü boru-pəstahların maya dəyəri, man.;

$C_{ij}^{HKT}-$nasos-kompressor boruları üçün, kənardan alınan, yenidən hazırlanacaq $i$ müxtəlif növ ölçü boru-pəstahların qiyməti, man;

$C_{ijzk}^{YT}-z$ pəstahlarından, avtomatik stanlı qurğularda, texnoloji sxem $j$ ilə avtomatik stanın kalibrində, $i$ müxtəlif növ ölçülü hazırlanan sənaye boruların maya dəyəri, man;

$Q_y-$boruyayma qurğuların istehsal həcminin cəmi, t;

$T_{\Phi}-$boruyayma qurğularının işçi vaxt fondu, saat;

$R_{ijzk}^{HKT}, R_{ijxk}^{T}$ – uyğun olaraq nasos-kompressorboruları üçün və $z$ pəstahlarından $j$ sxemi üzrə avtomatik stanın kalibrlərində $k$ sənaye boruları üçün, boruyayma qurğusuda yaymada metalın sərf əmsalı;

$q_i^{CHKT}$ – kənardan gətirilən yenidən hazırlanacaq $i$ müxtəlif növ ölçülü boru pəstahların göndəriləcək həcminin həddi, t;

$Q_z^{CHKT}$ – kənardan gətirilən yenidən hazırlanacaq boru-pəstahların mümkün göndərişinin həcmi, t;

$Q_{3i}^{HKT}$ – nasos-kompressor boruları üçün, yenidən hazırlanacaq $i$ müxtəlif növ ölçülü boru-pəstahların tələb olunan həcmi, t;

$Q_{Ti}^{T}$ – $i$ müxtəlif növ ölçülü sənaye boruların istehsalının tələb olunan həcmi, t;

$Q_z$ – $z$ müxtəlif növ ölçülü istiyayma pəstahlarından istifadə edilməsinin buraxıla bilən həcmi, t;

$C_k$ – avtomatik stanın kalibrinin $K$ dözümlülüyü,t/il;

$P_{ijzk}^{YHKT}, P_{ijzk}^{YT}$ – boruyayma qurğularının uyğun olaraq $z$ pəstahlarının $j$ texnoloji sxemi ilə yenidən hazırlanacaq boru-pəstahların, avtomatik stanın kalibrində $K$ yayılmasının bir saatdakı məhsuldarlığıdır, t/saat;

$X_{ijzk}^{YHKT}, X_{ij}^{CHKT}, X_{ijzk}^{YT}$ – yenidən hazırlanacaq boru-pəstahların uyğun olaraq boruyayma qurğularından və kənardan, həmçinin boruyayma qurğularında sənaye borularının istehsalından alınan $j$ texnoloji sxemin istifadə intensivliyidir, t;

Zavod tələbatının qənaətbəxşliyini təmin etmək üçün, sənaye boruların istehsalında və yenidən hazırlanacaq boru-pəstahların alınmasında çəkilən xərclərin cəm qiymətləri aşağıdakı riyazi formula şəklində göstərilir:

$$\sum_{i=1}^{P}\sum_{j=1}^{t} X_{ijzk}^{YHKT}\cdot C_{ijzk}^{YHKT} + \sum_{i=1}^{P}\sum_{j=t+1}^{\lambda} X_{ij}^{CHKT}\cdot C_{ij}^{CHKT} + \sum_{i=p+1}^{n}\sum_{y=\lambda+1}^{m} X_{ijzk}\cdot C_{ijzk}^{YT} \to \min$$

Gətirimiş funksiyada birinci cəmləmənin məqsədi boruyayma qurğularında yasos-kompressor boruları üçün təkrarən hazırlanacaq boru pəstahlarının istehsalında, ikincisində-kənardan alınan yenidən hazırlanacaq boro-pəstahların alınmasında, üçüncüsündə-boruyayma qurğusunda sənaye boruların istehsalına sərf olunan xərclər göstərilmişdir.Məhdudiyyət şərtləri:

-boruyayma qurğularında istehsal həcminin cəminə görə:

$$\sum_{i=1}^{P}\sum_{j=1}^{t} X_{ijzk}^{YHKT} + \sum_{i=p+1}^{n}\sum_{j=\lambda+1}^{m} X_{ijzk}^{YT} = Q_Y$$

-boruyayma qurğusunda iş vaxtı fonduna görə:

$$\sum_{i=1}^{P}\sum_{y=1}^{t} X_{ijzk}^{YHKT}\cdot\frac{1}{P_{ijzk}^{YHKT}} + \sum_{i=p+1}^{n}\sum_{j=\lambda+1}^{m} X_{ijzk}^{YT}\cdot\frac{1}{P_{ijzk}^{YT}} = T_{\Phi}$$

-kənardan nasos-kompressor boruları üçün boru pəstahların həddi həcminə görə:

$$\sum_{j=t+1}^{\lambda} X_{ij}^{CHKT} \le q_i^{CHKT}, i=\overline{1,p}$$

-kənardan nasos-kompressor boruları üçün göndərilməsinin mümkün cəm həddinə görə:

$$\sum_{i=1}^{p}\sum_{j=t+1}^{\lambda} X_{ij}^{CHKT} \le Q_3^{CHKT}$$

-nasos-kompressor boruları üçün yenidən hazırlanacaq boru pəstahların həcminə görə:

$$\sum_{y=1}^{t} X_{ijzk}^{YHKT} + \sum_{y=t+1}^{\lambda} X_{ij}^{CHKT} = Q_{3i}^{HKT}, i=\overline{1,p}$$

-boru istehsalının tələb olunan həcminə görə:

$$\sum_{j=\lambda+1}^{m} X_{ijzk}^{YT} \ge Q_{Ti}^{T}, i=\overline{p+1,n}$$

-istiyayma pəstahların buraxıla bilən həcminə görə:

$$\sum_{i=1}^{P}\sum_{j=1}^{t} X_{ijzk}^{YHKT} \cdot R_{ijzk}^{HKT} + \sum_{i=p+1}^{n}\sum_{j=\lambda+1}^{m} X_{ijzk}^{YT} \cdot R_{ijzk}^{T} \le Q_z, z = \overline{1+\alpha}$$

-avtomat stanın kalibrinin dözümlüyünə görə:

$$\sum_{i=1}^{P}\sum_{j=1}^{t} X_{ijzk}^{YHKT} + \sum_{i=p+1}^{n}\sum_{j=\lambda+1}^{m} X_{ijzk}^{YT} \le C_K, k = \overline{1,\gamma}$$

-dəyişənlər mənfi olmadığına görə:

$$X_{ijzk}^{YHKT} \ge 0, \quad X_{ijzk}^{YT} \ge 0, \; X_{ijzk}^{CHKT} \ge 0,$$

Avadanlıqların texnoloji imkanlarının maksimum istifadə edilməsinin təminini və metalın plastiki tərkibini optimal məsələlərin həlli üçün prosesin parametrlərinin təyini çox vacibdir.Mövcud hərəkətdən istifadə etmək imkan verir ki, prosesin texnoloji parametrlərinin buraxıla bilən sıranın qiymətini təyin edək.

Eksperiment yolu ilə alınan nəticələrə əsasən divarın qalınlığı 3,5÷8,0 mm, olan boruları yaydıqda valların əhatə sürəti 5,5 m/san-dən çox olmamasını və divarın qalınlığı 8 mm olduqda əhatə sürəti 5 m/san qədər məsafə götürülür. Bu da divarın qalınlığını artırdıqda baş intiqalın yüklənməsinin artması ilə izah olunur.Bununla əlaqədar olaraq , işdə mövcud avtomatik stanlı boruyayma qurğularında yeni boru yayma cədvəllərinin analizi aparılmışdır[1,2].Analiz əsasında faktiki qiymətləri divarın sıxılma sahəsinin iki müşahidə ilə təcrübi istifadəsi üçün məsləhət görülə bilər:

$$\Delta S_{pmin}=2{,}84-0{,}009S_{011}+0{,}001S^2_{011}$$

$$\Delta S_{pmax}=3{,}54-0{,}16S_{011}+0{,}002S^2_{011}$$

Burada,

$\Delta S_{pmin}$ ,$\Delta S_{pmax}$ –iki müşahidə və divarın qalınlığının uyğun olaraq minimum və maksimum buraxıla bilən qiymətidir, mm;

$S_{011}$ –ikinci müşahidədən sonra borunun divarının qalınlığı, mm;

Yuxarıda göstərilən təkliflərə əsasən sıxma dərəcəsi həddi, praktiki olaraq konkret hadisəyə uyğun olaraq dinamiki şərtlər metalın axma xarakterinə uyğun istiqamətdə edilir. Bu zaman avtomat standa borunun yayılması birinci və ikinci buraxılış zamanı uzanma əmsalı təyin edilir, belə ki, faktiki borunun uzunluğunun parametri yayma zamanı maşın vaxtının artmasına təsir göstərir. Eksperiment qiymətlərinə, analizinə əsasən yayılan borunun divarının qalınlığından asılı olaraq, aşağıdakı əhatə sürətinin hədd qiymətləri məsləhət görülür.

S= 3,5-8,0 mm olduqda $v \le 8{,}0$ m/san;S= 8,5-14,0 mm olduqda $v \le 5{,}50$ m/san;S= 14,0 mm olduqda $v \le 4{,}5$ m/san;

Qurğusunun deşmə standa istifadə olunan veriş bucağı $\alpha_n$ əsasən 9-12$^o$ olur. Yalnız qalın divarlı gilizləri deşdikdə veriş bucağı 9$^o$ –dən az qəbul edilir. Bu da sterjində ox boyu qüvvənin çoxalması ilə əlaqədardır. Optimallaşdırma tapşırığının dəqiq həlli, əməliyyat elementlərinin uzunömürlülüyü (taktin nisbi və sabit qiymətlərində) və stanlar arasında deformasiyanın payladıqda, dəyişən maşın vaxtı kimi metodların tətbiqindən olunur.

Nəticədə, boruların deformasiyasının nəzəri təcrübələrinə əsaslanaraq maşın vaxtı ilə (metalın dəzgahdan çıxma sürəti) və proseslərin əsas parametrləri arasında əsas keyfiyyət və bəzi hallarda kəmiyyət əlaqələri təyin olunmuşdur. Deyilənləri nəzərə alaraq, borunun deformasiya rejiminin optimallaşdırma variantından istifadə edilmişdir. Deşmə üçün maşın vaxtını[3], avtomatik standa yayma sürətini[1] və diyirlənmənin maşın vaxtının nəzəri asılılığını təyin etmək üçün çox hallarda deformasiya rejiminin optimallaşdırma tapşırığının həllindən istifadə edilir. Belə ki, hesabatın qiymətləri faktikidən 15-20 % -ə çatır.

**Ədəbiyyat**

1. Гамидов Ф.Д. Основные принципы разработки алгоритмов расчета оптимальных таблиц прокатки труб на ТПА-140 и 250 с автоматическим станом. Научные известия СГУ, 2001, №1, с. 80-82.

2. Васильев Б.Л., Соломадина Е.А, ГамидовФ.Дж. Основные оборудование термической обработки муфтовых заготовок. Сталь, 1991, №2, с.80-82.

3. Куцин В.С., Соломенко Н.П. Основные направления по совершенствованию теорий и технологии производства электросварных труб на стане 159-529. Украина тезисы докладов, 2000.

**Резюме**

***Абдуллаев Г.С., Багиров З.О., Рагимова А.Ф.***

**Выбор технологии производства труб и математический анализ его экономической эффективности**

*В статье был рассмотрен пример анализа экономической эффективности предприятия по производству труб различного предназначения.*

*Здесь были даны примеры для формирования оптимального варианта, произведенного математическим методом для механической обработки труб, приобретенных за рубежом.*

***Ключевые слова:*** *бурильные трубы, насосной-компрессорный, термическая обработка, резьба, муфта*

**Summary**

***Abdullayev Q. S., Baghirov Z.O.,Rahimova A. F.***

**Option of Technology of Pipes Produce and Mathematical Analyze of its Economical Efficiency**

*In the paper an example of economical efficiency analyze by the manufacture pipes of different types was considered. There weregiven examples for forming optimal version made by a mathematical method for mechanical processing pipes got from the foreign countries.*

***Key words:*** *drill, tubing, heat treatment, thread, coupling*

## BİZNES FƏALİYYƏTİNDƏ İNFORMASİYA RESURSLARININ ROLU VƏ ONLARIN QİYMƏTLƏNDİRİLMƏSİ

***Ağayeva İ.R.***

*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalədə informasiya istehsal amili kimi nəzərdən keçirilmişdir. İnformasiyanın formalaşması və inkişafının qiymətləndirilməsi üçün bir sıra mərhələlərin tədqiqi və öyrənilməsi əsaslandırılmışdır. Həmçinin istehsalın müxtəlif proseslərində informasiyanın xarakterik xüsusiyyətlərinə baxılmışdır.*

***Açar sözlər:*** *istehsal, informasiya, texnologiya, kommersiya, əmək predmeti, müəssisə*

Müasir dövrdə istehsal amili kimi informasiyanın unikallığı, onun biznesin innovasiyalı inkişafında roludur. İnformasiyanın yayılma imkanı və onun biliyə çevrilməsi bu resursun sonsuzluğunu təmin edir. Onun istifadə edilməsi onun resurs kimi tükənməsi demək deyildir. İnformasiyanın yeni bilik kimi dəfələrlə istifadə edilməsi həm istehsalat sistemlərinin işləməsinin səmərəsini təmin edir, həm də eyni zamanda yeni biliklərin yaradılması üçün resurs olur.

Biznesin inkişafı meylinə nəzər saldıqda isə aydın olur ki, istehsal üçün informasiya amilinin rolunun yüksəldilməsi daha çox xarakterik olmuşdur. Müasir iqtisadi sistemlər üçün texnologiyanın əsasən prinsipial növünə aid etmək olar: aqrar texnologiya; sənaye texnologiyası; informasiya texnologiyası. Burada informasiya texnologiyasının digər texnologiyadan fərqli olaraq başlanğıc sistemdən təyinatlı istifadəyə qədər olan informasiya bilavasitə olaraq elmi-texniki informasiya sistemi kimi çıxış etməsidir. Elmi-texniki informasiyalar ictimai xarakterli üç əsas funksiyanı yerinə yetirməklə istehsal prosesində reallaşmış olur:

1. İnformasiyanın istehsalı prosesində tətbiq edilməsi. Onun növbəti mərhələsində istifadəsini asanlaşdırmaq üçün ətraf dünyadan seçilmiş elementlər məcmusu.
2. Elmi-texniki və idarəetmə tapşırıqlarının işlənməsi prosesinə informasiyanın tətbiqi.
3. Maddi və qeyri-maddi istehsal (informasiyanın tətbiq məhsuldarlığı) prosesləri üçün informasiyanın tətbiqi. Burada məqsəd istehsal prosesinə tətbiq olunan əməyin məhsuldar və asan olması, istehsal olunan məhsulların ictimai xərclərinin aşağı salınması və ictimai tələbatların daha mütərəqqi ödənilməsi üçün yeni növ məhsulların istehsalını təmin etməkdir [1, s. 208].

Qeyd edək ki, ictimai istehsal sferasında elmi informasiya məhsulu kimi ETTKİ (elmi-texniki və təcrübi-konstruktor işləmələri) çıxış edir. Ümumiyyətlə, nəzərə almaq lazımdır ki, informasiyanın istehsal prosesində rolu, həmçinin ictimai xarakterli olur. Bu onunla izah olunur ki: ilkin olaraq istehsalın özü ictimai xarakterlidir, ikincisi isə informasiya məhsulu özü ictimai xarakterlidir. Buna görə də istehsal münasibətləri və informasiyanın mənimsənilməsinin müasir dünya təsərrüfatında ictimai münasibətlər sisteminə daxil olmasını şərtləndirən bir cəhəti də informasiyaya iqtisadi kəmiyyət göstəricisinə aid olan nemət kimi baxılması hesab olunmalıdır. Müasir iqtisadiyyat elminin qarşısında duran əsas problem iqtisadi həyata

informasiyanın kvantativ (miqdar) təsiri və bu təsirin vacib olan amildə-maliyyə kateqoriyasında ifadə edilməsidir. İqtisadi nəzəriyyə elmi çalışır ki, kəmiyyətlə ifadə olunan və istehsal prosesi üçün zəruri amil sayılan informasiya iqtisadi keyfiyyətdə, yəni dəyər formasında öz ifadəsini tapa bilsin. Bu baxımdan onun maliyyə aspektində dəyərləndirilməsi iqtisadiyyatda informasiya amilinin məzmun elementlərində dönüm nöqtəsi olmuşdur.

Məzmunca informasiya istehsal prosesində əhəmiyyətli funksiyanı yerinə yetirməklə bir növ istehsal vasitələri üçün qoyulan tələblərə də cavab vermiş olur. İqtisadi nəzəriyyədə istehsal prosesi üçün dəyərləndirdikdə ilkin olaraq informasiyanı əmək vasitəsi kimi nəzərə almaq lazımdır. Çünki informasiya fəaliyyəti çərçivəsində ilk öncə əmək predmetlərinin forma və keyfiyyətinin dəyişdirilməsinə kömək edir.

Texnoloji proseslərdə informasiya əmək predmetlərinin forma və keyfiyyətlərinin dəyişdirilməsində, zaman və məkan daxilində istehsal əməliyyatlarının dəqiqliyinin müəyyən edilməsi yolunda aparıcı rol oynayır. Bu tipli istehsal vasitələrinin ümumi dəyərində informasiya sistemlərinin xüsusi çəkisinin yarıdan çoxunu təşkil edir.

Müasir dövrdə informasiyanın əmək predmetinə çevrilməsinin obyektiv səbəbi əmək predmetlərinin xüsusiyyəti, forması hər şeydən əvvəl informasiya xarakterli olmasıdır.

Əmək predmetlərinin forma və xüsusiyyətlərinin informasiya xarakterli olmasını insan ölçülərdə, xüsusiyyətdə - işləmək qabiliyyəti tələb olunanda, istehlak keyfiyyətində - çoxfunksiyalılıq ortaya çıxanda dərk etməyə başlamışdır. Elə bu zaman məhsullar və resurslar əmtəə kimi yox, xüsusiyyət və funksiya: dəqiqlik, möhkəmlik, sürət, etibarlılıq, səmərəlilik, keyfiyyət əmtəə kimi qəbul olunmağa başlanmışdır ki, bu dövrdən də “keyfiyyət və qiymətin nisbəti” anlayışı meydana gəlmişdir[3, s. 76].

Müasir bazar iqtisadiyyatı sistemi dövründə yalnız o müəssisə müvəffəqiyyətlə fəaliyyət göstərə bilər ki, onun rəhbərliyi və mütəxəssisləri biznes fəaliyyətinin bütün istiqamətləri üzrə kifayət qədər tam, həqiqi və vaxtında verilmiş informasiyaya malik olsun.

İnformasiyanın formalaşması və inkişafının qiymətləndirilməsi üçün aşağıdakı mərhələlərin tədqiqi və öyrənilməsi tələb olunur:

1. Cəmiyyətin malik olduğu resurslar, informasiya-kommunikasiya texnologiyalarının mövcudluğu, intellektual xidmətlərdən istifadənin səviyyəsi, müxtəlif iqtisadi sistemlərə xas olan istehsalda informasiyanın rolu, material dəyərlərinin və istehsalın əsas təkanvericisi olan enerjinin əldə olunmasında informasiya resurslarından istifadə mexanizmlərinin müasirliyi;

2. Cəmiyyətin inkişafının spiralvari modelinin hər bir mərhələsində istehsalın informasiya faktorunun iqtisadi resurs kimi təkamülünün tədqiqi və onun iqtisadi inkişafında rolunun qiymətləndirilməsi;

3. İnformasiya iqtisadiyyatında insanın xarakterik xüsusiyyətlərinin dəyişməsi səbəblərinin təyini, o cümlədən insan kapitalına investisiya qoyuluşlarının artım tempi, işçilərin savadlılıq səviyyəsinin bütün ömrü boyu durmadan artırılması, informasiya kapitalının onun əsas daşıyıcısı olan insanla əlaqəsinin müasir səviyyəsinin müəyyənləşdirilməsi;

4. Şirkət və müəssisələrin informasiya iqtisadiyyatında yeni keyfiyyət xarakterlərinin müəyyənləşdirilməsi, onlar tərəfindən mütləq bazarın yaradılması, bazarın genişləndirilməsi, əlaqələrin informasiya təmini ilə qurulması, onların yeni əsaslar və prinsiplərlə inteqrasiyası, informasiya, texnologiya və məhsul mübadiləsində gecikmələrin aradan qaldırılması imkanlarının öyrənilməsi;

5. İctimai kapitalda informasiya kapitalının rolunun qiymətləndirilməsi və bu zaman ictimai, korporativ və fərdi kapitalların aşkarlanması. Qeyd etmək lazımdır ki, ictimai kapitalın korporativ kapitaldan fərqi ondan ibarətdir ki, onun köməyi ilə fərdi rifah üçün tələb olunan mal və xidmətlər istehsal olunsa da onlardan ayrılıqda hər bir fərd üçün deyil, birgə istifadə etmək olar. Fərdi informasiya kapitalı fərddən ayrıla bilməz, çünki o, ayrılıqda hər bir fərdin biliyi və bacarığından asılıdır.

İnformasiya resursu qlobal və milli formalarda olur. Qlobal formada olan informasiya ölkələr arasında xarakterizə olan informasiya münasibətlərini ifadə edir. Ona həmçinin makrosəviyyədə dövr edən informasiya və məlumatlar da aid edilir. Məsələn, müəyyən tarixi ədəbiyyatlara müraciət etməklə müxtəlif ölkələrin iqtisadi vəziyyəti haqqında müəyyən məlumatlar əldə etmək olar ki, bunlar da qlobal informasiya resursu kimi çıxış edir. Bundan başqa, dünya iqtisadiyyatı haqqında xəbərlər və bu kimi məlumatlar da (hansı ki, KİV-lər vasitəsilə yayılır) qlobal informasiya resursları kimi səciyyələnir[2, s. 317].

Məlumdur ki, qlobal iqtisadi proseslər informasiya qaynaqlarının beynəlxalq xarakter almasını şərtləndirməklə, qlobal informasiya resurslarının tərkibini daha da zənginləşdirmişdir. İstehsalın da qlobal xarakter daşıması onun informasiya amilinə olan tələbini də makrosəviyyədə ödənilməsini zəruri etmişdir. 70-ci illərə qədər dövlətlərin iqtisadi gücü əsas etibarilə maddi resurslarla ölçülürdü. 70-ci illərdən başlayaraq informasiya resursları sahəsi üzrə siyasətin formalaşması proqramı gerçəkləşməyə başladı. Belə bir proqramın ideya mahiyyəti ondan ibarət idi ki, müasir dövlətlərin iqtisadi gücləri onların malik olduğu

qızıl və maddi nemətlərin kəmiyyəti ilə deyil, məhz ETT-ni təkmilləşdirə bilən və istifadə olunan ağılın gücü ilə müəyyən olunur. Birmənalı surətdə, demək olar ki, iqtisadi sferada informasiyanın yeni istehsal amili kimi elmi-nəzəri əsasları qoyuldu və siyasi sferada isə güclü mübarizə obyektinə çevrildi. Daha döğrusu, informasiyaya malik olmaq, onun istifadəsi və səmərəliliyindən bəhrələnmək zərurəti ölkələrin bir-biriləri ilə münasibətlərinə yenidən baxmağı və yeni keyfiyyət müstəvisinə keçməyi vadar etmişdir. Məqsəd iqtisadiyyat üçün eyni olaraq qalmışdır: istehsal prosesini aşağı xərclərlə reallaşdırmaq, gəliri maksimallaşdırmaq və bazarlarda rəqabət üstünlüklərinə malik olmaq.

İnformasiya resurslarının ikinci əsas forması olan milli informasiya resursları struktur baxımından müxtəlif ölkələrdə fərqli anlayışlarla tədqiq olunur. Onlara "xarici", "daxili" və "kommersiya" tipli informasiya resurslarını aid etmək olar. "Xarici" tipli milli informasiya resursları geniş əhatəli tələbat üçündür, yəni ölkə vətəndaşlarının hansı ölkədə olmasından asılı olmayaraq onlar üçün nəzərdə tutulan informasiya resursları nəzərdə tutulur. Belə tip informasiyaya əyani misal olaraq ölkə ərazisindən yayımlanan və qanunvericiliyin tələblərinə uyğun müdafiə olunan və tələbatları ödəyən resursları misal göstərmək olar. Milli informasiya resurslarının "daxili" tipi özlüyündə dövlət idarəetməsi səviyyəsində tapşırıqların həlli üçün nəzərdə tutulan informasiya resursları aid edilir. Belə informasiyalar ölkə üçün hərbi-texniki yenilikləri və s. bu kimi layihələri ehtiva edir.

"Kommersiya" tipli milli informasiya resurslarına kommersiya fəaliyyəti, ictimai təşkilatlar, fiziki şəxslər və təsərrüfat subyektləri üçün nəzərdə tutulan informasiya resursları aid edilir. Bu informasiya resursunun xarakterik cəhəti ondan ibarətdir ki, digər informasiya resurslarından fərqli olaraq, bu informasiya resursu pul ekvivalenti vasitasilə qiymətləndirmə imkanına malik olur. Yəni, bu informasiya resursunun sahibi gəlir əldə etməkdən ötrü onun istifadəsinə sərəncam verir. Qısaca desək, istehsal prosesinin reallaşması üçün informasiya ilə maraqlanan subyektlə sərəncamvermə mülkiyyətçisi arasında kommersiya əməliyyatının həyata keçirilməsidir. Milli informasiya resursu ümumən cəmiyyətin informasiya potensialını təşkil edir, inkişafın iqtisadi və sosial amilini şərtləndirir, ölkənin energetika, sənaye, təhsil, elm və müdafiə potensialını xarakterizə edir.

**Ədəbiyyat**

1. Кремер Н.Ш. Исследование операций в экономике: учебное пособие. М.: ЮНИТИ, 2008, 407 с.

2. Романова А.Н., Одинцова Б.Е. Информационные системы в экономике: Учеб. пособие. М.: Вузовский учебник, 2009, 409 с.

3. Емельянова Н.З, Партыка Т.Л., Попов И.И. Информационные системы в экономике. М.: Форум-ИНФРА-М. 2010, 461 с.

**Резюме**

***Агаева И.Р.***

**Роль информационных ресурсов в бизнес-деятельности и их оценивание**

*В статье информация рассматривается как производственный фактор. Обосновано исследование и изучение нескольких этапов для оценивания формирования и развития информации. Также, рассмотрены характерные особенности информации в различных производственных процессах.*

***Ключевые слова:*** *производство, информация, технология, коммерция, предмет труда, предприятие*

**Summary**

***Aghayeva I.R.***

**The Role of Information Resources in Business Activities and Their Evaluation**

*The article considers information as a production factor. The study and research of several stages for evaluating the formation and development of information are substantiated. Also, the characteristic features of information in various industrial processes are considered.*

***Keywords:*** *production, information, technology, commerce, object of labor, enterprise*

# NEFT VƏ NEFT EMALI MÜƏSSİSƏLƏRİNİN EKOLOJİ-İQTİSADİ SİSTEMİNİN TARAZLIĞINDA MALİYYƏ AMİLİ

**_Babayev A.M._**
_Azərbaycan Dövlət Neft və Sənaye Universiteti_

***Xülasə.*** *Məqalədə neft və neft emalı müəssisələrinin ekoloji-iqtisadi sisteminin tarazlığında maliyyə amili tədqiq olunmuşdur. Bu məqsədlə neft və neft emalı müəssisələrinin ölkə iqtisadiyyatında strateji rolu açıqlanmışdır. Neft və neft emalı müəssisələrinin davamlı və dayanıqlı inkişafında ekoloji-iqtisadi sistemin tarazlığının təmin edilməsinində maliyyə təminatının gücləndirilməsinin vacibliyi əsaslandırılmışdır. Ekoloji problemlərin həllində maliyyə təminatı strategiyasının formalaşdırılması və inkişaf etdirilməsi mexanizmlərinə baxılmışdır. Ekoloji-iqtisadi sistemin mühüm mexanizmlərinin neft və neft emalı müəssisələrində tətbiqi məsələlərinin maliyyə təminatı araşdırılmışdır. Baxılan problemlər və məsələlər üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*

***Açar sözlər:*** *neft və neft emalı müəssisələri, ekoloji-iqtisadi sistem, neft və neft emalı müəssisələrinin ekoloji-iqtisadi sisteminin maliyyə amili, neft və neft emalı müəssisələrinin ekoloji tarazlıq problemləri, neft və neft emalı müəssisələrinin ekoloji aspektləri, ekoloji-iqtisadi sistemin maliyyə təminatı aspektləri*

Dünyada qlobal istiləşmə prosesləri sürətləndikcə ekoloji problemlər və fəsadlar daha çox diqqət çəkirlər. Yerin təkindən resursların hasil edilməsi prosesləri də ətraf mühitə və ekoloji-iqtisadi sistemin balanslaşdırılmasına ciddi təsir göstərmək iqtidarında olan amillərdəndir. Hər bir ölkə özünün ekoloji-iqtisadi sisteminin gücləndirilməsi və dayanıqlı inkişafının təmin edilməsində bu amilin qiymətləndirilməsi strategiyasını hazırlamalı, reallaşdırılmalıdır [1.s.2]. Əks təqdirdə, ölkə əhalisinin sağlamlığının qorunması və ölkədəki bioloji müxtəlifliyin təmin edilməsi, ekoloji-iqtisadi sistemin tarazlaşdırılması kimi strateji məsələlərdə ciddi problemlərin baş verə biləcəyi qaçılmazdır. Ekoloji-iqtisadi sistem, əsasən iqtisadiyyatın fəaliyyət mexanizmləri ilə təbii resurslar və sərvətlər arasındakı fəal və səmərəli inteqrasiyanı əhatə edir [3.s.4]. Bununla bağlı proseslərin kökündə isə milli iqtisadiyyatın daha səmərəli mexanizmlər əsasında inkişafının təmin edilməsi üçün ölkənin bütün ərazilərində, o cümlədən ucqar regionlarında mövcud resurslardan və milli sərvətlərdən maksimum səmərəli istifadənin təşkili, ümumilkə səviyyəsindəki inkişafdan geri qalmış ərazilərin reabilitasiyası və, ilk növbədə, ekoloji təhlükəsizliyin sistemli şəkildə təmin edilməsi daha çox yer alırlar. Təcrübi fəaliyyət sahələrində təbiətdən və təbii resurslardan səmərəli istifadəyə nail olunması milli iqtisadiyyatın rəqabət qabiliyyətini artırmağa imkan verir, ölkənin davamlı və dayanıqlı inkişafı üçün əlavə potensial formalaşdırır. Bu qeyd olunanların reallaşdırılmasında bir çox mühüm amillər diqqət çəkir və bunların içərisində maliyyə amili xüsusilə önəmlidir.

Qeyd edək ki, neft sənayesinin inkişafı ölkəmiz üçün strateji xarakter daşıyır və bununla bağlı strateji hədəflər ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi"ndə verilmişdir [5]. Bundan əlavə, neft və neft emalı müəssisələrində ekoloji-iqtisadi sistemin tarazlığının təmin edilməsi və bununla bağlı problemlərin aradan qaldırılması üçün davamlı və əsaslandırılmış şəkildə kompleks tədbirlərin görülməsi, bu tədbirlərin reallaşdırılmasına maliyyə resurslarının cəlb edilməsi lazım gəlir. Azərbaycan neft ölkəsidir və ölkəmizdə fəaliyyət göstərən neft və neft emalı müəssisələrinin ekoloji-iqtisadi sistemə təsiri kifayət qədər böyükdür. Belə ki, bu müəssisələrin fəaliyyəti nəticəsində ekoloji tarazlığın pozulması istiqamətində risklər yaranır, ətraf mühitə və ərazilərə ziyan dəyir və bütün bunlar ölkə əhalisinin sağlamlığına mənfi təsir göstərir. Bu amillər baxımından neft və neft emalı müəssisələrində ətraf mühitin mühafizəsi və ekoloji problemlərlə bağlı məsələlərin həll edilməsinə məqsədli şəkildə maliyyə resurslarının ayrılması və bununla bağlı tədbirlərin maliyyə təminatının gücləndirilməsi vacib məsələlərdən hesab olunur. Neft və neft emalı müəssisələrinin ekoloji tədbirlərinin uzunmüddətli dövr üçün maliyyələşdirilməsi mexanizmləri işlənib hazırlanmalı və həyata keçirilməlidir. Hazırda ölkəmizdə fəaliyyət göstərən neft emalı müəssisələri Bakı şəhərində yerləşir və xeyli risklər mövcuddur. Bakı şəhərinin ekoloji cəhətdən riskli vəziyyətə düşməsini nəzərə alaraq, neft emalı müəssisələrinin kənara köçürülməsi məsələləri həll edilməlidir. Azərbaycan ərazilərində küləyin istiqamətini nəzərə alsaq, belə emal müəssisələrinin Bakıdan Şimalda və ya Qərbdə Bakıya 150-200 kilometr yaxınlıqda yerləşdirilməsi məqsədəuyğun deyildir [6, s.20]. Bütün bunlar onu göstərir ki, ölkəmizdə neft və neft emalı müəssisələrinin ekoloji təhlükəsizliyinin təmin edilməsi konsepsiyasına yenidən baxılmalı, bu müəssisələrin maliyyələşdirilməsi və daha təhlükəsiz yerlərdə cəmləşdirilməsi prioritetləri reallaşdırılmalıdır. Düzdür, belə bir fikir çoxdan formalaşmışdır, ancaq hələlik həmin niyyətlərin yerinə yetirilməsi təmin olunmamışdır.

Ölkənin əsas neft və neft emalı müəssisələri SOCAR-ın tərkibində yerləşir. Şübhəsiz, bu baxımdan ekoloji problemlərin formalaşması da bilavasitə əsasən neftin hasilatı ilə bağlıdır. Belə ki, neft-qazçıxarma

və emal sənayesi tullantıları ətraf mühiti çirkləndirməklə ekoloji problemlər yaradır. Yerin dərin qatlarından neftli lay suları ilə səthə çıxan radioaktiv elementlərin yaratdıqları çirklənmələr ətraf mühitə mənfi təsir göstərir[7]. Neft və neft emalı müəssisələrində köhnə texnologiyaların ən müasir texnologiyalarla əvəz edilməsi layihələri əsaslandırılraq maliyyələşdirilməli, bu sahələrə investisiyaların cəlb edilməsi təmin olunmalıdır. Ekoloji cəhətdən təmiz və enerjiyə qənaət edən texnologiyaların alınması və tətbiqi hesabına neft və neft emalı müəssisələrində ekoloji -iqtisadi sistemin tarazlığını təmin etmək mümkündür. Neft və neft emalı müəssisələrində atmosferə atılan səmt qazlarının zərərsizləşdirilməsi istiqamətində tədqiqatların aparılmasına və təkrar emal texnologiyalarının işlənməsinə investisiyalar yatırılmalı, maliyyə resursları ayrılmalıdır. Bundan əlavə, torpaqların neft və neft məhsulları ilə çirklənməsi, qazma şlamlarının ətrafa səpələnməsi, neft dağılmaları və s. çirkləndirici maddələrin toplanması, təkrar emal edilməsi proseslərinin maliyyələşdirilməsi məsələləri prioritetlik təşkil etməlidir.

Qeyd edək ki, Azərbaycanın neft müəssisələrində illik xam neftin istehsalı 2017-ci ilin yekununda 38,7 mln. ton təşkil etmişdir. Əsas yanacaq və enerji növlərinin istehlakında istifadə olunan xam neftin həcmi isə 5,9 mln. ton səviyyəsində olmuşdur. Neft boru kəmərləri vasitəsilə yük dövriyyəsinin həcmi 60,6 mln. ton - kilometr, ölkə üzrə ümumi yük dövriyyəsində payı isə 65,9 % təşkil etmişdir [8, s.49]. Bundan başqa, ölkədə iqtisadi fəaliyyət prosesləri zamanı, atılan tullantıların həcmi baxımından daha çox tullantılar məhz neft sənayesi və onun emal müəssisələri ilə bilavasitə bağlıdır. Əgər 2011-ci ildə xam neft, həmçinin təbii qaz hasilatı sənayesində fəaliyyət göstərən müəssisələrin sayı 82 idisə, bu kateqoriyadan olan müəssisələrin sayı 2017-ci ildə 120-yə çatmışdır. Bu müəssisələrdə istehsalın həcmi 27,7 mlrd. manat səviyyəsində olmuşdur [9, s. 14]. Hesab edirik ki, bu məbləğin adekvat bir hissəsi ekoloji-iqtisadi sistemin tarazlığı tədbirlərinə yönəldilməli və ekoloji təhlükəsizliyn maliyyə təminatı gücləndirilməlidir.

Müasir dövrdə neft və neft emal müəssisələrində ekoloji-iqtisadi sistemin tarazlığının təmin edilməsində maliyyə təminatının gücləndirilməsi istiqamətində bir qrup məsələlərə ciddi önəmin verilməsi vacib şərtlərdəndir:

- ✓ İlk növbədə, neft və neft emalı müəssisələrində ekoloji-iqtisadi sistemin tarazlığının təmin edilməsi məqsədilə, ekoloji təhlükəsizlik tədbirlərinin maliyyələşdirilməsi mexanizmlərinin dünya təcrübəsinə uyğun şəkildə müəyyənləşdirilməsi və tətbiq olunması təmin edilməlidir;
- ✓ Ölkənin neft və neft emalı müəssisələrinin ekoloji təhlükəsizlik baxımından modernləşdirilməsi, yüksək və tullantısız texnologiyaların tətbiqi hesabına ətraf mühitə atılan maddələrin minimuma endirilməsi tədbirlərinin maliyyələşdirilməsi üzrə layihələrin hazırlanması və reallaşdırılması tədbirləri davamlı şəkildə həyata keçirilməlidir və s.

**Ədəbiyyat**

1. World Economic and Social Survey 2013. Sustainable Development Challenges. United Nations publication. Sales No. E.13.II.C.1. United Nations, 2013. 216 p.
- http://www.sustainabledevelopment.un.org.

2. World Conservation Strategy. Living Resource Conservation for Sustainable Development. International Union for Conservation of Nature and Natural Resources. 1196 Gland, Switzerland, 76 p.

3. Россинская М.В. Методология обеспечения устойчивого развития территории в рамках эколого-экономической безопасности. Дисс. д-ра экон. наук. Ростов - на – Дону, 2006. 328 с.

4. Шевелева А.В. Развитие институтов и инструментов совершенствования эколого-экономической политики предприятий нефтегазового комплекса. Авт-т д-ра экон. наук. Ростов-на-Дону, 2018, 60 с.

5. Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında 6 dekabr 2016-cı il Fərmanı ilə təsdiq edilmişdir.

6. Qurbanova F.H. Neft emalı müəssisələrinin ekoloji tarazlığa təsirinin sosial-iqtisadi aspektləri. İ.f.d. dissertasiyasının Avtoreferatı. Bakı, 2017, 28 s.

7. Ekoloji siyasət. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti. Bakı, 2008, 40 s.

8. Azərbaycan energetikası. Statistik məcmuə. Bakı, 2018, 156 s.

9. Azərbaycanda ətraf mühit. Statistik məcmuə. Bakı, 2018, 140 s.

**Резюме**

***Бабаев А.М.***

**Финансовые факторы обеспечения эколого-экономической системы предприятий нефти и нефтепереработки**

*В статье исследованы финансовые факторы обеспечения эколого-экономической системы предприятий нефти и нефтепереработки. С этой целью раскрыта стратегическая роль нефтяной промышленности в экономике страны. Обоснована важность усиления финансовой обеспеченности сбалансированной эколого-экономической системы в устойчивом и прочном развитии предприятий нефти и нефтепереработки. Рассмотрены механизмы формирования и развития стратегии финансовой обеспеченности в решении экологических проблем. Исследованы финансовые аспекты обеспеченности вопросов применения важных механизмов эколого-экономической системы на предприятиях нефти и нефтепереработки. Подготовлены рекомендации и даны предложения по рассматриваемым проблемам и вопросам.*

***Ключевые слова:*** *предприятия нефти и нефтепереработки, эколого-экономическая система, финансовые факторы эколого-экономической системы предприятий нефти и нефтепереработки, проблемы экологической сбалансированности предприятий нефти и нефтепереработки, экологические аспекты предприятий нефти и нефтепереработки, финансовые аспекты обеспечения эколого-экономической системы*

**Summary**

***Babayev A.M***

**Financial Factors in Balance of the Ecological and Economic System of Oil and Oil Refineries**

*Financial factors of ensuring the ecological and economic system of oil and oil refineries are investigated in the article. Strategic role of the oil industry in the economy is improved for this purpose. The importance of strengthening the financial ensuring of a balanced ecological-economic system in the sustainable development of oil and oil refineries is given too. The mechanisms of formation and development of the strategy of financial ensuring in solving environmental problems are considered. The financial aspects of the security of the application of important mechanisms of the ecological-economic system in oil and oil refining enterprises are investigated. Recommendations and suggestions on the issues under consideration are given in the end of the article.*

***Key words:*** *enterprises of oil and oil refining, ecological and economic system, financial factors of ecological and economic system of enterprises of oil and oil refining, problems of ecological balance of enterprises of oil and oil refining, environmental aspects of enterprises of oil and oil refining, financial aspects of providing ecological and economic system*

## AQRAR SEKTORDA İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ PROBLEMLƏRİ VƏ PERSPEKTİVLƏRİ

***Bədirzadə G.Ş.***

*Azərbaycan Kooperasiya Universiteti*

***Xülasə.*** *Məqalədə aqrar sektorda informasiya-kommunikasiya texnologiyalarının tətbiqi problemləri və perspektivləri tədqiq olunmuşdur. Bu məqsədlə aqrar sektorun yüksək texnologiyalar əsasında inkişaf etdirilməsini şərtləndirən amillər təhlil edilmişdir. İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi hesabına aqrar sahənin fəaliyyətinin səmərəliliyinin artırılması imkanlarına baxılmışdır. Yeni fəaliyyət mexanizmlərinin formalaşmasında və inkişaf etdirilməsində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin sürətləndirilməsinin vacibliyi araşdırılmışdır. Baxılan problemlər üzrə ümumiləşdirmələr aparılmışdır.*

***Açar sözlər:*** *informasiya-kommunikasiya texnologiyaları, aqrar sektorun inkişaf problemləri, aqrar sektorda informasiya-kommunikasiya texnologiyalarının tətbiqi problemləri, aqrar sektorda informasiya-kommunikasiya texnologiyalarının tətbiqi perspektivləri, aqrar sektorun inkişaf perspektivləri*

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra iqtisadi islahatlar aparmış və özünün iqtisadi sisteminin dünya mütərəqqi təcrübəsinə uyğunlaşdırılması tədbirlərini həyata keçirmişdir. Lakin bunlar kifayət qədər mürəkkəb məsələlərdir, belə ki, dünyanın inkişaf etmiş ölkələrində iqtisadiyyatın yüksək

texnologiyalar əsasında inkişaf etdirilməsi, texnologiyalar bazarının səmərəliliyinin təmin olunması, innovasiyaların yayılması və işlənməsi proseslərinin yüksək maliyyə tutumu səbəbindən heç də asan başa gəlməməsi problemlərini həll etmək lazım gəlir. Müasir dövrdə bu kimi mürəkkəb vəzifələrin yerinə yetirilməsində informasiya - kommunikasiya texnologiyalarının (İKT) tətbiqindən fəal şəkildə istifadə edilməsi aktuallığı ilə diqqət çəkir. Ölkəmizdə milli iqtisadiyyatın perspektiv sektorları üzrə Strateji Yol Xəritəsində də bu məsələyə ciddi önəm verilmişdir [1]. Ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə iqtisadiyyatın müxtəlif sahələrində İKT-dən fəal istifadə edilməsi üzrə strateji hədəflər müəyyənləşdirilmişdir [2]. Ölkədə informasiya cəmiyyətinin formalaşmasına və İKT-nin rolunun dərk edilməsinə strateji yanaşma istiqamətində davamlı tədbirlər görülməkdədir [3]. Artıq informasiya iqtisadiyyatının formalaşdırılması və onun üstün mexanizmlərinin iqtisadiyyatın digər sahələrinə tətbiq edilməsi perspektivləri artmaqdadır [4;5]. Bundan əlavə, İKT-nin istifadəsi və tətbiqinin genişləndirilməsi hesabına müxtəlif fəaliyyət sahələrinin səmərəliliyinin yüksəldilməsi, idarəetmə proseslərinin təkmilləşdirilməsi, o cümlədən təhsil sisteminin səviyyəsinin yüksəldilməsi imkanları formalaşmaqdadır [6;7;8].

Şəkil 1-də Azərbaycan Respublikasının İKT sektorunda məhsul və xidmətlər buraxılışının 2013-2017-ci illər ərzində dinamikası verilmişdir və göründüyü kimi, bu dinamika 2013-2016-cı illərdə qeyri-sabit olmuşdur, yalnız 2017-ci ildə artım qeydə alınmış və 1,7 mlrd. manat təşkil etmişdir.




**Şəkil 1. Azərbaycan Respublikasının İKT sektorunda məhsul (xidmətlər) buraxılışı 2013-2017-ci illər ərzində, mlrd. man (ARDSK-nın məlumatlarına əsasən müəllif tərəfindən hazırlanıb).**

Şəkil 2-də Azərbaycan Respublikasının İKT-nin inkişaf indeksi verilmişdir və təhlil göstərir ki, 2012-2015-ci illərdə bu göstərici üzrə artım dinamikası olmuşdur, amma sonrakı illərdə artım qeydə alınmamışdır, bu isə mühüm və strateji xaraktere malik iqtisadiyyat sektorunda problemlərin nə dərəcədə mürəkkəb olduğuna dəlalət edir.




**Şəkil 2. Azərbaycan Respublikasının İKT-nin inkişaf indeksi, % (ARDSK-nın məlumatlarına əsasən müəllif tərəfindən hazırlanıb).**

Qeyd edək ki, İKT-nin təsirinin kifayət qədər müsbət ola biləcəyi iqtisadiyyat sahələrindən biri də aqrar sektordur və bu istiqamətdə son illərdə sistemli tədbirlər görülməkdədir. Aqrar sektorda, həmçinin kənd təsərrüfatının müxtəlif sahələrində İKT-dən istifadə etməklə, məhsuldarlığın artımına, yetişdirilmiş məhsulların daha əlverişli şərtlərlə satışına, ixracına nail olmaq mümkündür [9; 10; 11]. Bu sahədəki fəaliyyət proseslərinin elektronlaşdırılması və müasir İKT mexanizmlərinin tətbiq edilməsi yüksək səmərə vermək üçün əsaslı zəmin yarada bilər. Dünya təcrübəsində güclü resurslara malik olmayan bir sıra ölkələrdə (İsrail və s.) İKT-dən geniş şəkildə və səmərəli istifadə hesabına, ərzaq məhsullarının və ümumilikdə aqrar məhsulların istehsalında və ixracında yüksək nəticələr əldə olunmuşdur.

Yaxın illərdə bu kimi tədbirlərin ölkəmizdə də daha geniş tətbiq edilməsi tədbirlərinin intensivləşməsini gözləmək mümkündür. Belə ki, iqtisadiyyatın bütün sahələrində İKT texnologiyalarının tətbiqi üçün infrastrukturun yaradılması intensiv fazaya keçmişdir. Artıq Azərbaycanda kənd təsərrüfatı və aqrar məhsulların internet portallar üzərindən ixracı həyata keçirilir, bu istiqamətdə müxtəlif səpkili tədbirlərin reallaşdırılmasına üstünlük verilir. Bunlarla belə, ölkəmizdə aqrar sahədə İKT-nin tətbiqinin genişləndirilməsi üçün bir sıra məsələlərə kompleks və sistemli şəkildə yanaşmalar təmin olunmalıdır:

- Birinci növbədə, aqrar sahədə İKT-nin tətbiqinin strateji istiqamətləri daha optimal müəyyənləşdirilməli və konkret fəaliyyət konsepsiyaları hazırlanmalıdır;
- Aqrar sahədə İKT-nin tətbiqi üzrə məqsədli kadr və mütəxəssis hazırlığı təmin edilməli, bu proseslərə xarici firma və kompaniyaların cəlb edilməsinə üstünlük verilməlidir;
- Aqrar sahədə mühüm fəaliyyət istiqamətləri üzrə İKT-nin tətbiqinin genişləndirilməsi üçün “Azərbaycanın aqrar sektorunda informasiya kommunikasiya texnologiyalarının 2020-2030-cu illərdə inkişafı üzrə Dövlət Proqramı”nın qəbul edilməsi məqsədəuyğun hesab edilməlidir və s.
-

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
2. Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir, 65 s.
3. Azərbaycanda informasiya cəmiyyəti. Statistik məcmuə. Bakı, 2018, 162 s.
4. Hacızadə M.E. İnformasiya iqtisadiyyatı və onun Azərbaycanda inkişaf meyilləri. İ.f.d. diss-nın Avtoreferatı. Bakı, 2017, 25 s.
5. Искендерова Х.А. Роль информационных и коммуникационных технологий в экономическом развитии. Авт-т дисс. д.ф.э. Баку, 2013, 22 с.
6. Ханкишиева М.С. Исследование и разработка информационных технологий для повышения эффективности обучения в экономических вузах. Авт-т дисс. д.ф.э. Баку, 2011, 26 с.
7. Мамедов М.М. Использование новейших информационных технологий в управлении биржами в условиях глобализации. Авт-т дисс. д.ф.э. Баку, 2011, 30 с.
8. Сухомлинова М.И. Информационное обеспечение управления региональным АПК. Дисс. канд. экон. наук. Елец, 2013, 194 с.
9. Mənsimzadə İ.A. İnformasiya texnologiyaralından istifadə əsasında kənd təsərrüfatında biznesin inkişaf istiqamətləri. İ.ü.f.d. diss-nın Avtoreferatı. Bakı, 2017, 27 s.
10. Якимова О.Ю. Информационное обеспечение управления предприятиями АПК: теория, методология, практика.Дисс.д-раэкон. наук. Саранск, 2008, 385 с.
11. Касаев Б.С. Управление ведением сельского хозяйства на основе информационных технологий:Методология и методика; на примере горных технологий. Дисс. д-ра экон.наук. 2008, Нальчик, 355 с.


**Резюме**


***Бадирзаде Г.Ш.***


**Проблемы и перспективы применения информационно-коммуникационных технологий в аграрном секторе**


*В статье исследованы проблемы и перспективы применения информационно-коммуникационных технологий в аграрном секторе. С этой целью анализированыфакторы, обуславливающие развитие аграрного сектора на основе высоких технологий. Рассмотрены возможности повышения эффективности деятельности аграрного сектора за счет применения информационно-коммуникационных технологий. Исследованы важность ускорения применения*

*информационно-коммуникационных технологий формирования и развития новых механизмов деятельности. Проведены обобщения по рассматриваемым вопросам.*

***Ключевые слова:*** *информационно-коммуникационные технологии, проблемы развития аграрного сектора, проблемы применения информационно-коммуникационных технологий в аграрном секторе, перспективы применения информационно-коммуникационных технологий в аграрном секторе, перспективы развития аграрного сектора*

**Summary**

***BadirzadehG.Sh.***

**Problems and Prospects of Using Information and Communication Technologies in the Agricultural Sector**

*Problems and prospects of using information and communication technologies in the agricultural sectorare investigated in the article. For this purpose, the factors causing the development of the agrarian sector on the basis of high technologies are analyzed. The possibilities of increasing the efficiency of the agricultural sector through the use of information and communication technologies are considered. The importance of accelerating the use of information and communication technologies in the formation and development of new mechanisms of activity has been investigated. A summary of the issues under consideration.*

***Key words:*** *information and communication technologies, problems of development of the agricultural sector, problems of using information and communication technologies in the agricultural sector, prospects for the application of information and communication technologies in the agricultural sector, prospects for the development of the agricultural sector*

## METROLOGİYA ÜZRƏ BEYNƏLXALQ VƏ REGİONAL TƏŞKİLATLARIN FƏALİYYƏTİNİN ƏSAS PRİNSİPLƏRİ

***Dadaşova K.S., Qaraqaşlı T.M.***

*UNEC*

***Xülasə.*** *Sınaqların və sertifikatlaşdırmanın nəticələrinin qarşılıqlı tanınması ölçmə vasitələrinin yoxlama nəticələrinin tanınması ilə bilavasitə əlaqəlidir. Beynəlxalq qanunverici metrologiya təşkilatının qarşılıqlı tanınma haqqında müqavilələrin bağlanmasına yönəldilmiş fəaliyyəti ölçmə vasitələrinin Beynəlxalq sertifikatlaşdırma sisteminin yaradılması üçün şərait yaratdı. Beynəlxalq qanunverici metrologiya təşkilatının bu istiqamətdə apardığı iş heç də ISO/BEK tərəfindən qəbul edilmiş tövsiyələrə zidd deyildir. Əksinə, Beynəlxalq Qanunverici Metrologiya Təşkilatı nəinki bu beynəlxalq təşkilatların metrologiya sahəsindəki tövsiyələrini nəzərə alır, hətta ISO-nun 30-dan çox texniki komitələrinin işində iştirak edir. Bundan başqa, Beynəlxalq Qanunverici Metrologiya Təşkilatı BEK, IMEKO və digər beynəlxalq təşiklatlarla əməkdaşlıq edir.*

***Açar sözlər:*** *metrologiya, sertifikat, nəzarət, sınaq, məhsul*

Məhsulun sınağı və keyfiyyətinə nəzarət, sertifikatlaşdırma, metroloji laboratoriyaların akkreditləşdirilməsi milli ölçmə sistemlərinə əsaslanır. Məhsulun standartların tələblərinə uyğunluğunu qiymətləndirən zaman onun müxtəlif parametrlərini ölçürlər. Əmtəə mallarının məcburi tələblərə uyğunluğunu müəyyən etmək məqsədi ilə aparılan sertifikatlaşdırma sınaqları zamanı ölçmə metodikası və praktikası alınan nəticələrin tutuşdurulmasında özünü birbaşa göstərir, bu isə bilavasitə sertifikatın tanınması ilə bağlıdır. Deməli, əgər ölçmələrin vəhdəti təmin edilirsə, onda metrologiya beynəlxalq ticarətin marağını təmin edəcəkdir. Ona görə də bu məsələ metrologiya üzrə beynəlxalq təşkilatların fəaliyyətində çox vacibdir. Bu təşkilatların səyi nəticəsində dünya ölkələrinin əksəriyyətində fiziki kəmiyyət vahidlərinin Beynəlxalq sistemi (SI) qəbul edilmiş, müvafiq terminologiya tətbiq edilmiş, ölçmə vasitələrinin metroloji xarakteristikalarının normalaşdırılması üsulları üzrə, bu vasitələrin sertifikatlaşdırılması üzrə, seriyalı buraxılışı qabağı ölçmə vasitələrinin sınaqları üzrə təkliflər qəbul edilmişdir. Beynəlxalq metroloji təşkilatlar ISO və BEK təşkilatları ilə sıxı əlaqədə işləyirlər, İSO 9000 seriyalı beynəlxalq standartları adı altında "Keyfiyyət Menecment Sistemi" (KMS) özündə dünyanın qabaqcıl şirkətlərinin effektiv keyfiyyəti idarəetmə təcrübəsini əks etdirir [1,2].

Beynəlxalq metroloji təşkilatlar içərisində ən iriləri Beynəlxalq Ölçü və Çəki Təşkilatı və Beynəlxalq Qanunverici Metrologiya Təşkilatıdır [2].

1875-ci ildə 17 ölkə tərəfindən Metrik konvensiya imzalanmışdır ki, onun da məqsədi milli ölçü vahidləri sisteminin unifikasiyası və uzunluq və kütlə vahid etalonlarının (metrin və kiloqramın) müəyyən edilməsi idi. Bu konvensiya əsasında hökümətlərarası Beynəlxalq Ölçü və Çəki Təşkilatı yaradılmışdır. Bu təşkilatın rəsmi dili fransız dilidir. Təşkilatın yaradılmasının təşəbbüskarları içərisində Peterburq Elmlər Akademiyası da vardır. Yaradılmış bu Metrik konvensiya bu günə kimi fəaliyyət göstərir. Hazırda onun üzvləri dünyanın 50 dövlətidir.

Konvensiyaya uyğun olaraq Beynəlxalq Ölçü və Çəki Bürosu yaradılmışdır. Bu, ilk beynəlxalq elmi-tədqiqat laboratoriyası idi. Bu laboratoriya metrin və kiloqramın, ionlaşdırıcı şüalanma vahidlərinin, elektrik müqavimətinin və digər vahidlərin prototipləri olan beynəlxalq etalonları saz vəziyyətdə saxlayır. Beynəlxalq Ölçü və Çəki Bürosu Fransanın Sevr şəhərində yerləşir, onun fəaliyyətinə Beynəlxalq Ölçü və Çəki Komitəsi (BÖÇK) rəhbərlik edir. Beynəlxalq Ölçü və Çəki Bürosunun əsas vəzifəsi milli etalonları müxtəlif beynəlxalq ölçü vahidləri etalonları ilə müqayisəli yoxlamaqdan ibarətdir. Beynəlxalq Ölçü və Çəki Bürosu faktiki olaraq 100-dən çox dövlətlərin metroloji təşkilatlarının fəaliyyətini koordinasiya edir.

Beynəlxalq Ölçü və Çəki Bürosunun elmi və praktiki fəaliyyət proqramını ölçü və çəki üzrə Baş konfrans təsdiq edir. Baş konfrans vahidlərin müəyyənləşdirilməsi, onların təyin edilməsi və təzələnməsi metodları üzrə ali beynəlxalq orqandır. Bu orqanın işində Konvensiyaya qoşulmuş bütün ölkələr iştirak edir. Baş konfrans dörd ildə bir dəfədən gec olmayaraq çağrılır. İlk konfrans 1898-ci ildə olmuşdur. Konfranslararası müddətdə Beynəlxalq Ölçü və Çəki Təşkilatının işinə konfransda seçilən Beynəlxalq Ölçü və Çəki Komitəsi rəhbərlik edir. Bu komitənin tərkibinə dünyanın ən tanınmış fizikləri və metroloqları daxildir (cəmi 18 üzv) [3,8].

Qərbi Avropa ölkələrinin metroloji təşkilatlarının işini təkmilləşdirmək məqsədi ilə 1988-ci ildə yaradılmış Avropa Metrologiya Təşkilatı (AVROMET) Avropa İttifaqına üzv olan ölkələri özündə birləşdirir. Bu təşkilatın əsas məqsədi mərkəzləşdirilməmiş metroloji struktur çərçivəsində etalonların təkmilləşdirilməsi üzrə ölkələr arasında sıx əməkdaşlığı inkişaf etdirmək, metrologiya sahəsində işlənmələrin tətbiqini sürətləndirmək üçün milli resursların istifadəsinnin və xidmətlərin optimallaşdırılması, ölçmə xidmətinin keyfiyyətinin yüksəldilməsindən ibarətdir [5,6].

1989-cu ildə yaradılmış Metrologiya üzrə Qərbi Avropa Birliyinin (VELMET) əsas məqsədi Avropa İttifaqına daxil olan ölkələrin bu İttifaq çərçivəsində ticarətdə maneələri aradan qaldırmaq üçün qanunverici metrologiya milli xidmətlərinin fəaliyyətini koordinasiya etməkdir. Təşkilat bu məqsədlərə nail olmağın real üsulunu ölçmə vasitələrinin sınaqlarının və yoxlanmalarının nəticəsində onlara verilmiş sertifikatların qarşılıqlı tanınmasının təmin edilməsində görür.

1990-cı ildə 13 ölkə qarşılıqlı anlaşılma haqqında Memorandum imzaladılar. Bu sənəd imza etmiş tərəflərə hüquqi təsir göstərmək formasında deyil, sırf tövsiyə xarakteri daşıyır. Memoranduma müvafiq olaraq VELMET-in Komitəsi yaradıldı ki, bu da öz qaydaları ilə işləyir. VELMET özünün maliyyəsinə malik deyil, Birliyin hər üzvü öz fəaliyyətini müstəqil olaraq özü maliyyələşdirir.

Kalibrləmə üzrə Qərbi Avropa Birliyi (EAL) 1989-cu ildə Avropa İttifaqına daxil olan ölkələr tərəfindən yaradılmışdır. Təşkilatın məqsədi dövlət metroloji nəzarətindən keçməli olmayan ölçmə vasitələrinin kalibrlənməsi haqqında milli sertifikatların qarşılıqlı tanınmasına kömək etməkdir. Məlum olduğu kimi, bu ölçmə vasitələri məcburi yoxlanmaya məruz qalmır və qanunverici metrologiyanın fəaliyyət sahəsinə düşmür. Bu Birliyin üzvləri milli kalibrləmə xidmətləridir. Onun məqsəd və vəzifələri 15 ölkə nümayəndələrinin imzaladıqları qarşılıqlı anlaşılma haqqında Memorandumda şərh olunur.

MDB ölkələri arasında standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin aparılması haqqında Hökumətlərarası saziş imzalanmışdır. Bu sənədə müvafiq olaraq İttifaqın dağılmasına qədər qəbul edilmiş müddəaların əsasında, vahid etalonların (onların əksəriyyəti Rusiyada saxlanılır), standart sorğu məlumatlarının, maddə və materialların tərkib və xassələrinin standart nümunələrinin istifadəsi əsasında ölçmələrin vəhdəti saxlanılır. Sazişdə ölçmə vasitələrinin yoxlanmalarının və sınaqlarının nəticələrinin qarşılıqlı tanınması haqqında müddəa vardır.

Məhsulun keyfiyyətini yüksəltmək, onun keyfiyyət xarakteristikalarının sabitləşməsinə nail olmaq və normativ-texniki sənədlərin tələblərinə uyğun gəlməyən məhsul buraxılışının qarşısını tamamilə almaq üçün istehsal müəssisələrində metroloji nəzarət xidmətini səmərəli təşkil etmək lazımdır.

Dövlət metroloji nəzarəti və qanunverici metrologiya sahəsində nəzarət preventiv (ölçmə vasitələrinin özlərinin sınaqları və yoxlanılması) və repressiv (ölçmələrin nəticələrinin yoxlanılması, yaxud akkreditləşdirilmiş dövlət laboratoriyalarına nəzarət) formada həyata keçirilməlidir.

Metroloji ekspertiza məhsulun işlənib hazırlanmasının ilk mərhələlərində aparıldıqda daha səmərəli olur. Yalnız bu zaman o, iqtisadi səmərə yarada bilir. Sonrakı mərhələlərdə aparılan ekspertiza maddi itkilərə

səbəb olur, çünki bu zaman aşkar edilmiş çatışmazlıqları aradan qaldırmaq üçün əlavə maddi vəsait və əmək sərfi tələb olunur.

**Ədəbiyyat**


1."Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 13 iyun 2000-ci il.

2. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 10 iyun 2005-ci il.

3. Məmmədov N.R. Standartlaşdırmanın əsasları: Dərslik. Bakı, Elm, 2003.

4. Məmmədov N.R., Ələkbərov E.B., Aslanov Z.Y. və b. Kvalimetriya və keyfiyyətin idarə edilməsi: Ali məktəblər üçün dərslik. Bakı, Elm, 2007.

5. Məmmədov N. R. Metrologiya: Ali məktəblər üçün dərslik. Bakı, Elm, 2009.

6. Osmanov T.R. Qeyri-ərzaq mallarının əmtəəşünaslığı və ekspertizasının əsasları:Dərslik. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2014.

7. Orucov Ə.N., Şamxalov O.S. Geyimlərin modelləşdirilməsi və konstruksiya edilməsinin əsasları. Dərslik. Bakı, İqtisad Universitetinin nəşriyyat, 2003.

8. Эфендиев Э.М. Стандартизация продукции легкой промышленности.-Баку, Тахсил, 2007.

9. Ушаков И.Е., Шишкин И.Ф. Прикладная метрология: Учебник для вузов. Изд. 4-е, перераб. идоп. СПб.:СЗТУ, 2002.



**Резюме**

***Дадашева К.С.,Карагашлы Т.М.***

**Основные принципы международных и региональных метрологических организаций**

*Возрастающие требования населения к потребительским свойствам швейных изделий, высокая конкуренция на внутреннем рынке делает необходимой повышение качества швейных изделий, в том числе одежды. Обеспечение качества таких изделий во многом определяется подготовкой производства, метрологическим обеспечением, уровнемпрофессиональной подготовленности, квалификации персонала предприятии. Важным условием повышения качества одежды является обеспечение единства измерений, правильная информация о параметрах, характеристик и свойствах изделий.*

***Ключевые слова:*** *метрология, сертификация, контроль, испытание, продукт*



**Summary**

***Dadashova K.S, Garagashli T.M.***

**Basic Principles of International and Regional Metrology Organizations**

*The development of the clothing requirements for people must be taken into consideration by enhancing of quality of the highly competitive sewing goods in home market. The quality of such products substantially depends on purveyance of the production, the metrological assurance, the level of specialisation and the specialised knowledge. One of the main requirements of the increasing of the quality of the clothes are the unity of measuring and the correct and precise information about ready-made product's parameters, characteristics and features.*

***Key words:*** *metrology, certification, control, trial, product*


## ELEKTRON TİCARƏT VƏ ONUN ƏSAS ÜSTÜNLÜKLƏRİ


***Əhmədova G.S.***

*Sumqayıt Dövlət Universiteti*



***Xülasə.*** *Məqalədə informasiya iqtisadiyyatının inkişaf etdirilməsinin zəruriliyi əsaslandırılmışdır. İnformasiya iqtisadiyyatının əsas tərkib hissələrindən biri olan elektron ticarət haqqında məlumat verilmişdir. Elektron ticarətin tətbiqinin əsas üstünlükləri araşdırılmışdır.*



***Açar sözlər:*** *informasiya iqtisadiyyatı, elektron ticarət, marketinq,texnologiya*


Müasir iqtisadiyyat səmərəli informasiyalar sisteminin inkişafını və yeni inkubatorların formalaşmasını tələb edir. Bu, bir tərəfindən informasiyaların bazar sisteminə uyğunlaşdırılması, dünya standartlarına unifikasiya edilməsi, digər tərəfdən isə riyazi-statistik və proqnoz-analitik hesablaşmaların

aparılması ilə bağlıdır. Ona görə də indiki informasiya prosesi satış, marketinq, sahibkarlıq, xüsusilə istehsal sahibkarlığı, maliyyə, uçot, firmadaxili planlaşdırma, nəzarət və s. ilə üzvi halda əlaqələndirilməlidir, ayrı-ayrı göstəricilər dəqiqləşdirilməlidir. Beləliklə, informasiyaların əhatə dairəsi və məzmunu dəyişməlidir, informasiya toplusu öz-özünə xidmət deyil, idarəçilik informasiya sisteminə xidmət etməlidir.

Bazar sistemində aşağıdakı sferalar üzrə informasiya göstəriciləri ön plana keçir:

1. Marketinq sferasında: yeni məhsul istehsalı və nişanları, məhsulun qiyməti; satışın və nəqliyyatın təşkili; maliyyə xərcləri; mənfəətdən ayırmalar; resursların təminatı; idarə aparatının saxlanma xərcləri; bazar infrastrukturu üzrə və s.

2. Maliyyə fəaliyyəti sferasında: mənfəətin, gəlirlərin formalaşdırılması; məhsulların və xidmətlərin istehsal xərcləri, maya dəyəri; aktivlər və passivlər; ümumi xərclər; səhmlər; kredit üzrə və s.

3. Uçotun sferasında: firmadaxili operativ uçot; maliyyə uçotu; hesabatlar; statistik uçot; gəlirlər və mənfəət uçotu; firmanın xüsusi kapitalı, pul vəsaitlərinin uçotu; debitor-kreditor borcları üzrə və s.

Müasir iqtisadiyyata xas olan əsas əlamətlərdən başlıcası cəmiyyətin qlobal informasiyalaşmasıdır. İnformasiyalaşdırılmış cəmiyyətin yaradılması və onun formalaşdırılmasında informasiya iqtisadiyyatının önəmli rolu var. İnformasiya iqtisadiyyatında məqsəd rəqəmsal iqtisadiyyat və onun üstünlüklərini, internet-iqtisadiyyatın, elektron ticarət və onun infrastrukturunu, beynəlxalq iqtisadiyyatda internet əməliyyatlardan istifadəni, elektron-kredit, elektron-bank və elektron-maliyyə əməliyyatlarının ümumi prinsiplərini öyrətməkdən və müqayisəli təhlilini verməkdən ibarətdir[4, s.87].

İnformasiya iqtisadiyyatının ən çox inkişaf etmiş sahəsi elektron ticarətdir. Elektron ticarət müxtəlif spektrli fəaliyyət növlərini özündə birləşdirir. Elektron ticarətin özünün fəaliyyəti isə texniki baxımdan tam, bütöv bir texnoloji dövrdür. Elektron ticarətin fəaliyyət dairəsi məhsul və xidmətlərin reklamı, onların hərəkəti, məhsulun satış bazarında konyunkturanın öyrənilməsi, elektron satış və ödəmələri, satılmış məhsulların çatdırılması və satışdan sonrakı təminatını əhatə edir. Elektron ticarətin müasir inkişaf səviyyəsi aparılan bütün kommersiya əməliyyatlarının, yəni sifarışın qəbulu və tərtibatı, məhsul və xidmətlərin daşınması və çatdırılmasını, satışa görə ödəniləcək məbləğlərin təqdimatı və ödənilməsini, satıcı ilə alıcı arasında əmələ gələn digər münasibət və əlaqələrin yerləşmə məkanından asılı olmayaraq, internet vasitəsilə həyata keçirilməsinə imkan verir.

Elektron ticarətdə fiziki məhsullarla intellektual və informasiya məhsullarının satışı arasındakı fərqi mütləq nəzərə almaq lazımdır. Fiziki məhsulların elektron ticarəti özündə ənənəvi ticarətin müasir inkişafını əks etdirir. Bu inkişaf məhsul istehsalının rentabelliyinin və səmərəliliyinin artırılmasını, bazar potensialının yüksəldilməsini, istehlakçıların tələblərinin daha yaxşı ödənilməsini, transaksion xərclərin və əməkdaşların məşğulluğunun azaldılmasını təmin edir.

İntellektual və informasiya məhsullarının elektron ticarəti satışın yeni növüdür.Qeyd etmək lazımdır ki, bu növ məhsulların satışı üzrə tam kommersiya əməliyyatları eyni bir şəbəkə vasitəsilə həyata keçirilir. Bu isə öz növbəsində ənənəvi olmayan bazar yaradır. Belə bazarın yaranması insanların hüquqlarının qorunması, intellektual mülkiyyətin mühafizəsi məqsədilə beynəlxalq ticarətə uyğun xüsusi qayda və qanunların yaradılmasını tələb edir. Beləliklə, elektron ticarət törəmə bazardır.

Yüksək sürətlə dəyişən mühitdə biz biznesin, ticarət cəmiyyətlərinin, mal və xidmətlərin satışı bazarının həddən artıq çox sayda innovasiyalı virtual formalarının inkişafını müşahidə edirik. Bir çox müəssisələr və şirkətlər üçün internetdən istifadə imkanı sifarişlərin çatdırılması və qəbulu əməliyyatlarını distribütorlar tərəfindən deyil, məhz özləri tərəfindən yerinə yetirilməsini adi hala çevirir. Distribütorlar isə öz növbəsində virtual mühitə daxil olaraq mal və xidmətlərin hərəkətini internet texnologiyaların tətbiqi ilə virtual hərəkətə çevirir [2, s.71].

Şəbəkə texnologiyalarından istifadə ilə alıcılar, satıcılar və vasitəçilər mal və xidmətlərin internet bazarını yaradır. Bu bazar müasir dövrdə dünya iqtisadiyyatının müxtəlif sahələrində böyük gəlirlərin əldə olunmasına şərait yaradır. Müasir informasiya texnologiyalarının biznesə inteqrasiyası dünya bazarında məhsul və xidmətlərin istehsalçılarının imkanlarının hiss olunacaq dərəcədə genişlənmə ilə xarakterizə olunaraq, müəssisələrin rəqabətədavamlılığını artırır və istehlakçıların gündən-günə artan tələbatlarının təmin olunmasına zəmin yaradır.

Elektron ticarətin inkişafı bir çox dünya ölkələrinin iqtisadiyyatının strukturunda köklü dəyişikliklərin baş verəcəyinə və yeni iqtisadi inteqrasiyaya səbəb olacaq. Bu tip ticarətin tətbiqi kiçik və orta biznesin inkişafında xüsusi əhəmiyyətə malikdir. Mal satanlar və alıcılar arasında yeni münasibətlərin yaranmasına səbəb olur. Belə ki, mal seçiminin imkanları genişlənir, faktura və digər xərclər azalır.

Qeyd etmək lazımdır ki, Azərbaycanda 2005-ci ildə elektron ticarətin inkişaf etdirilməsi haqqında qanun qəbul edilmişdir. Qanunun qəbulunda əsas məqsəd bu sahənin daha da inkişaf etdirilməsi və onun üstünlüklərindən faydalanmaqdır [1].

Öz təbiətinə görə elektron ticarət transmilli olub, beynəlxalq mal və xidmətlərin satışının genişlənməsinə səbəb olur, vahid bazarda rəqabətin inkişafını birbaşa stimullaşdırır. Bu proses əslində müasir dövrdə geniş sahəni əhatə edir. Buraya ixtiyari kommersiya əməliyyatları aid edilir. Elektron ticarətin bəzi formaları indiyədək mövcud olan biznesin modernləşmiş variantıdır. Bu biznes növünün ölkədə inkişafı əslində müəyyən infrastrukturun yaradılması və inkişafını tələb edir. Buraya elektron mağazaların və virtual kiberkompaniyaların yaradılmasını, elektron ödəmələri həyata keçirə bilən bank sisteminin olmasını, internet reklam və marketinqin inkişafını və s. aid etmək olar [5, s.119].

Hər bir ölkənin elektron ticarət sistemini yaratmaqda ilkin rastlaşdığı problem dövlət ehtiyaclarının ödənilməsinin həllidir. Dövlət ehtiyacları üçün elektron ticarətin təşkilinə ümumilikdə onun yaradılmasının başlıca istiqaməti kimi qəbul etmək lazımdır. Qeyd etmək lazımdır ki, bu yönümdə hazırlanan və həyata keçirilməsi nəzərdə tutulan proqram ölkənin biznes sahəsindəki informasiya texnologiyalarının tətbiqinin əsası olmalıdır. Lakin inkişaf etmiş dünya ölkələrinin təcrübəsi göstərir ki, elektron ticarətin tətbiqi iqtisadiyyata yeni texnologiya və üsulların gətirilməsini və mütəşəkkil şəkildə onların tətbiqini tələb edir. Dövlət ehtiyaclarının ödənilməsi məqsədilə elektron ticarət sisteminin yaradılması birbaşa ölkədə istehsal olunan məhsullar və göstərilən xidmətlərə uyğun vahid verilənlər bazasının yaradılmasını ilkin şərt kimi qarşıya qoyur. Belə bazanın mövcudluğu mal və xidmətlərin bütün nomenklatur spektrinin nizamlanmasına imkan verir. Elektron ticarət sisteminin yaradılması istiqamətində həyata keçirilməsi lazım bilinən ikinci tədbir ölkə üzrə ümumi informasiya-marketinq şəbəkəsi siteminin yaradılmasıdır. Bu sistemin əsas vəzifəsi bütün səviyyələrdə olan dövlət strukturlarını bazar haqqında analitik informasiya ilə təmin etməkdir. Burada əsas diqqəti informasiya-marketinq şəbəkələri ilə birgə elektron imzaları təsdiq edən elektron mərkəzlərin və elektron ödəmə sistemlərinin mövcudluğunun da təmin edilməsinə yönəldilməlidir. Əks halda, ayrılıqda informasiya-marketinq şəbəkələrinin fəaliyyəti heç bir nəticə verə bilməz [3, s.109].

Nəhayət, elektron ticarət sisteminin yaradılmasında sonuncu tədbir elektron ticarətin ölkə daxilində fəaliyyətinin tədarük sferası da daxil olmaqla monitorinqini aparan mərkəzin yaradılmasıdır. Aydındır ki, belə irimiqyaslı, əhəmiyyətli sistemin yaradılması onun əsas konsepsiyasını yaratmadan mümkün deyil. Elektron ticarətin dövlət ehtiyacları üçün yaradılmış sisteminin ümumi konsepsiyalarının hazırlanması müasir böyük sistemlərin layihələndirilməsi metodologiyalarına uyğun olaraq aparılır. Bu layihələndirmədə əsas yeri ümumi tendensiyaların təhlili tutur.

Bütün elektron sistemlərdə olduğu kimi elektron ticarətdə də razılaşmalar, sövdələşmələr və alqı-satqı prosesləri verilən və məlumatların mübadiləsi ilə aparılır. Bu mübadilə bütün dünyada “elektron verilənlərin mübadiləsi” kimi adlandırılan əvvəlcədən razılaşdırılmış və qəbul edilmiş sxem üzrə aparılır. Verilənlərin elektron emalı elektron ticarətdə də həm ölkə daxilində, həm də xarici əlaqələrdə geniş istifadə edilir. İstənilən ölkədə elektron kommunikasiya vasitələrinin mövcudluğu elektron verilənlərin mübadiləsi mühitini yaradır. Elektron ticarət sisteminin qurulması və fəaliyyətində də elektron verilənlərin mübadiləsinin mühüm rolu vardır. Ümumiyyətlə elektron verilənlər mübadiləsi bir çox üstünlükləri ilə hər bir elektron prosesdə tətbiq edilir. Bu üstünlüklərə aşağıdakıları aid etmək olar:

- istənilən sahəyə aid informasiyanın ötürülməsində dəqiqlik artır;
- səhvlərin və xətaların səviyyəsi azalır;
- aparılan proseslərə insan müdaxiləsinin səviyyəsi aşağı düşür;
- əməliyyatların dəyəri və müxtəlif məsrəflərin miqdarı azalır;
- eyni verilənlərdən dəfələrlə, təkrar olaraq istifadə imkanı yaranır;
- informasiyanın saxlanılması daha sərfəli və az yer tələb edən olur;
- müxtəlif instansiyalar arasında informasiya mübadiləsi sürətlənir;
- xərclərin azalması istehsalçı və istehlakçılar arasındakı qarşılıqlı əlaqələrin genişlənməsinə səbəb olur;
- marketinqin səviyyəsi yüksəlir, mal və xidmətlərin çatdırılmasının çevik qrafikinin təşkili və tətbiqinə imkan yaranır;
- çox zəhmət tələb edən işlərin aradan qalxması ilə əlaqədar olaraq məhsuldarlıq artır;
- istehsal proqramları və prosedurları üçün vahid proqram tərtibinə imkan yaranır;
- işçilərin sayı azalır.

Ümumiyyətlə, elektron ticarət təkcə mal və xidmətlərin elektron satışı deyil, elektron şəkildə informasiyanın ötürülməsi, müəssisələr arasında əlaqələrin yaradılması, bank və maliyyə institutlarının əlaqələndirilməsini də özündə birləşdirir.

Elektron ticarət sahəsində artan maraqlara baxmayaraq, bu gün həmin sahədə əməliyyatların normal həyata keçirilməsini çətinləşdirən bir çox problemlər var. problemləri həll etmək üçün cəhdlər edilir.

Biznesin inkişafının hazırkı mərhələsində ümumi bazarda elektron ticarətin payının artırılması perspektivləri çox böyükdür.


**Ədəbiyyat**

1. Elektron ticarət haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 10 may 2005-ci il.
2. Əkbərov M Q. Elektron kommersiya. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2011, 212 s.
3. Musayev İ.K., Əlizadə M.N., Mahmudov A.B. Elektron biznes. Bakı: MSV nəşr, 2016, 200 s.
4. Нижегородцев Р.М. Информационная экономика. Кн. 2. Управление беспорядком: экономические основы производства и обращения информации. М.: Кострома, 2002. 173с.
5. Хохлачева Н.В. Электронная коммерция. М.: Эко-рендз, 2005. 563 с.



**Резюме**

***Ахмедова Г.С.***

**Электронная торговля и ее основные преимущества**

*В статье обоснована необходимость развития информационной экономики. Даны сведения об электронной торговле как одной из основных частей информационной экономики. Исследуются основные преимущества применения электронной торговли.*

***Ключевые слова:*** *информационная экономика, электронная коммерция, маркетинг, технологии.*

**Summary**

***Ahmadova G.S.***

**Electronic Commerce and its Main Advantages**

*The article substantiates the need for the development of the information economy. Given information about electronic commerce as one of the main parts of the information economy. Examines the main benefits of an e-commerce application.*

***Key words:*** *information economy, e-commerce, marketing, technology*


## İDARƏETMƏ UÇOTU VƏ İDARƏETMƏ QƏRARLARININ TƏTBİQİ


***Əliyeva A.H.***

*Sumqayıt Dövlət Universiteti*



***Xülasə.*** *Məqalədə Azərbaycan iqtisadiyyatında idarəetmə uçotuna nəzarət və onun beynəlxalq standartların tələblərinə uyğun qurulması, idarəetmə qərarları öz əksini tapmışdır. Sonda idarəetmə uçotunun təşkili metodikasının təkmilləşdirilməsinin əsas istiqamətləri göstərilmişdir.*

***Açar sözlər:*** *idarəetmə uçotu, milli və beynəlxalq standartlar, informasiya, qərar*


Məlumdur ki, idarəetmə uçotu istehsalat-kommersiya fəaliyyətinin planlaşdırılması və nəzarətin həyata keçirilməsi üçün lazım olan məlumatların təhlil edilərək sistemləşdirilməsidir. İdarəetmə uçotu müəssisə və təşkilatların idarə edilməsi üçün dəqiq və vaxtında informasiya ilə təmin edir. Həmin informasiya müəssisənin planlaşdırılmasında öz vəsaitlərindən səmərəli istifadə edilməsində, habelə gələcəkdə baş verə biləcək çatışmazlıqları aradan qaldırmağa kömək edir [1]. İnkişaf etmiş qərb ölkələrinin təcrübəsi göstərir ki, müəssisənin idarəetmə uçotunun məlumatları həm cari, həm də gələcək üçün əsaslandırılmış idarəetməni təmin edir.

İdarəetmə uçotu istehsalat uçotuna əsaslanaraq qarşılıqlı şəkildə təhlil edilir və müxtəlif idarəetmə qərarları qəbul edir ki, bu da şəkil 1-də öz əksini tapmışdır. Təbii ki, bu qərarların qəbul edilməsi üçün ilk növbədə həyata keçirilən təsərrüfat əməliyyatları zamanı istehsal proseslərinin informasiya bazaları hazırlanmalıdır. Toplanmış informasiya bazaları operativ və taktiki qərarların qəbul edilməsində müəssisə rəhbərlərini zəruri informasiyalarla tam təmin edir. Strateji qərar qəbul etmək üçün isə uçot məlumatları ilə yanaşı, xüsusi tədqiqat nəticəsində əldə edilən məlumatlardan da istifadə etmək zəruridir. Bu istiqamətdə istehsal proseslərinə operativ nəzarətin həyata keçirilməsi, idarəetmə uçotu və təhlilinin tətbiqi vacib şərtdir[2]. Bundan başqa, idarəetmə uçotu sistemində qərarların qəbulu daha geniş məlumatların olmasını tələb edir.




***Şəkil. İstehsalat uçotuna əsaslanmış idarəetmə qərarları***

İdarəetmə uçotunun istehsala tətbiqi vəzifələrini təhlil etdikdə, ilk növbədə, istehsal prosesi, istehsal sahələrində idarəetmə uçotu sistemində kalkulyasiyalaşdırma sistemi və bu sistemdə məhsul istehsalı üçün istifadə olunan istehsal ehtiyatlarına çəkilən xərclərin tərkibi və təsnifatı müəyyən edilməlidir. Belə ki, istehsalın baş tutmasının başlıca şərtlərindən biri istehsal ehtiyatlarının mövcudluğudur. Həmin resursların istehsalı və onların istifadəyə hazır vəziyyətə gətirilməsi müəyyən maddi, əmək və maliyyə resursları ilə bağlıdır. Həmin resurslar üzrə xərclər öz tərkibi və xarakterinə görə çox müxtəlifdir. Odur ki, həmin xərclərin rasional idarə olunması, bu sahədə təhlil işinin aparılması və qərarların qəbul edilməsi üçün müvafiq həcmdə və keyfiyyətdə informasiya formalaşdırmaq mühüm əhəmiyyət kəsb edir. Adekvat informasiya formalaşdırmaq üçün isə həmin xərclərin tərkibini dəqiq müəyyən etmək və onları düzgün təsnifləşdirmək lazımdır.

Məlumdur ki, maliyyə uçotu və hesabatı sistemində material resurslarının maya dəyərinin hansı xərclərdən ibarət ola biləcəyi və onların maya dəyərinin hansı metodlarla hesablana biləcəyi barədə müvafiq Beynəlxalq (MHBS-2 "Ehtiyatlar") və Milli Mühasibat Uçotu Standartlarında (MMUS-8 "Ehtiyatlar üzrə") geniş açıqlamalar vardır[3]. Ancaq məlumdur ki, beynəlxalq və milli standartlarda təsbit edilən təriflər, qaydalar, təsnifatlar lazımi idarəetmə qərarlarının qəbul edilməsi üçün kifayət deyildir və orada qoyulmuş qaydalar yalnız müəssisə üzrə maliyyə vəziyyətinin, maliyyə nəticələrinin və digər maliyyə əmsallarının hesablanması, kənar istifadəçilərə müvafiq qərarlar qəbul etmək üçün informasiya formalaşdırmaq məqsədini daşıyır. Təbii ki, müasir iqtisadi şəraitin tələblərinə cavab verən idarəetmə mexanizminin formalaşması daha mütərəqqi idarəetmə metodlarının işlənib hazırlanmasını tələb edir, həmçinin milli və beynəlxalq standartların tələblərinə cavab verən idarəetmə uçotu və təhlilin yaradılmasına şərait yaradır. İdarəetmə sistemi istehsala lazım olan informasiyanı vaxtında toplamaq və əsaslandırılmış qərarların qəbul edilməsini asanlaşdırır. Eyni zamanda bazar münasibətləri şəraitində müəssisənin idarə olunmasında, istehsal prosesindəki daimi və dəyişən xərclərin uçotu və bölüşdürülməsinin təcrübədə tədbiqində, istehsal ehtiyatlarından səmərəli istifadə, müəssisənin zərərsiz işləməsinin təhlili metodologiyasının hazırlanmasında, məhsulun maya dəyərinin aşağı salınması üçün istehsal ehtiyatlarından istifadənin düzgün qiymətləndirilməsində, habelə istehsalının uçotu və təhlilində idarəetmə uçotunun tətbiqi xüsusi əhəmiyyət daşıyır.

Aparılan təhlil nəticəsində demək olar ki, idarəetmə uçotunun inkişafında aşağıdakı mərhələlərin müəyyən edilməsi əsas hesab edilməlidir:

❖ müəssisənin daxili və xarici ehtiyatlarının kompleks şəkildə müəyyən edilməsinin vaxtaşırı iqtisadi təhlilini aparmaq;

❖ istehsal prosesinin ardıcıl və davamlı inkişafı üçün bu gün və gələcək üçün dəqiq proqnozlaşdırma aparmaq;

❖ müəssisə məqsədə çatmaq üçün proqnozlaşdırma və planlaşdırmaya əsaslanaraq qərar qəbul edilməsinə nail olmalıdır ;

❖ müəssisələrdə idarəetmə sisteminin məlumatlarına əsasən idarəetmə uçotu beynəlxalq standartlar səviyyəsində qurulmalı və təkmilləşdirilməlidir [4].

**Ədəbiyyat**

1. Əliyeva A.H. Mühasibat uçotu. Dərs vəsaiti. Bakı: Elm və təhsil nəşriyyatı,2016, 256s.
2. Abbasov Q.Ə. Mühasibat uçotu. Dərslik. Bakı: Təknur nəşriyyatı, 2017, 528 s.
3. Sadıqov Ə. A Sadıqov T.Ə., Cəfərova Ş.Ə., Sadıqov C.Ə. Mühasibat uçotu. Bakı: İqtisad Universitetinin nəşriyyatı.Dərslik,2015,686 s.
4. Səbzəliyev S.M., Quliyev V.M. İdarəetmə uçotu. Bakı:Elm və təhsil nəşriyyatı, 2014, 524s.

**Резюме**

***Алиева А.Г.***

**Применение управленческого учета и управленческих решений**

*В статье рассматривается управленческий учет в экономике Азербайджана и его соответствие международным стандартам и управленческим решениям. В заключение приведены основные направления совершенствования методологии управленческого учета.*

***Ключевые слова:*** *управленческий учет, национальные и международные стандарты, информация, решение.*

**Summary**

***Aliyeva A.H.***

**Application of Management Accounting and Management Decisions**

*The article discusses management accounting in the economy of Azerbaijan and its compliance with international standards and management decisions. In conclusion, the main directions for improving the management accounting methodology are presented.*

***Key words:*** *management accounting, national and international standards, information, conclusion.*

## ŞƏKİ-ZAQATALA REGİONUNDA MÜƏSSİSƏLƏRİN İQTİSADİ MÜHİTİNƏ TƏSİR EDƏN AMİLLƏR: MİKROMÜHİT

***Əliyeva Ş.İ.***

*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Biznes fəaliyyəti açıq sistem olub xarici mühitlə daim əlaqəli şəkildə xarakterizə olunur. Yəni istehsalçılar, istehlakçılar və müştərilər təcrid olunmuş şəraitdə deyil, müəyyən mühitdə qarşılıqlı fəaliyyət göstərirlər ki, bu da onların mövqeyini müəyyənləşdirir. Bu baxımdan Şəki-Zaqatala regionunda müəssisələrin iqtisadi mühiti region müəssisələrinin işgüzar fəaliyyətinə, mənafeyinə ciddi təsir göstərir və ona müvafiq tənzimləmə tələb edir.*

***Açar sözlər:*** *marketinq, mikromühit, malgöndərənlər, rəqiblər, müştərilər, makromühit*

Məlumdur ki, bazar iqtisadiyyatına keçidlə əlaqədar yaranan problemlər regionlarda əksər müəssisələrin, istehsal və xidmət obyektlərinin fəaliyyətinin zəifləməsinə və ya tamamilə dayanmasına səbəb olmuşdur. Bu da öz növbəsində iqtisadiyyatın regional baxımdan inkişafına mənfi təsir göstərmişdir. Bunu nəzərə alaraq ölkədə ardıcıl islahatlar aparılmağa başlanmış, regionların sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsi məqsədilə bir çox uğurlu addımlar atılmışdır.

Regionların sosial-iqtisadi inkişafı ilk növbədə region müəssisələrinin fəaliyyətindən, o da öz növbəsində xarici mühitdən xeyli dərəcədə asılıdır.

Biznes mühiti kənarda fəaliyyət göstərən və sahibkarın müştərilərlə faydalı əməkdaşlıq münasibətlərini qurması imkanlarına təsir edən amillərin məcmusudur. Müəssisə öz fəaliyyətində hökmən xarici mühiti öyrənməli və ona uyğunlaşmalıdır[1, səh.102].Şəki-Zaqatala iqtisadi rayonunda müəssisənin mühiti aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur:

1.Mühiti təşkil edən amillərin qarşılıqlı əlaqəsi: bir amilin dəyişməsi digərinə də təsir göstərir. Məsələn, rəhbər artıq xarici amilləri ayrı-ayrılıqda qiymətləndirə bilmir. O, başa düşməlidir ki, bu amillər qarşılıqlı əlaqəlidirlər və dəyişirlər.

2. Mürəkkəblik: müəssisəyə əhəmiyyətli dərəcədə təsir edən amillərin sayı və müxtəlifliyi. Əgər müəssisə dövlət qərarlarına, texnoloji dəyişkənliyin sürətinə, çoxsaylı rəqiblərin, bir neçə maraqlı qrupların təsirinəreaksiya vermək məcburiyyətindədirsə, onda bu müəssisə daha mürəkkəb əhatədə yerləşir. Bir neçə materialdan, bir neçə mütəxəssisdən istifadə edən və öz ölkəsində yalnız bir neçə firma ilə iş aparan müəssisənin mühiti isə daha az mürəkkəb hesab edilə bilər.

3. Dinamiklik: mühitin dəyişməsinin nisbi sürəti. Xarici mühitin dəyişkənliyi bir qrup müəssisələrdə yüksək, digər qrup müəssisələrdə isə aşağı ola bilər. Məsələn, tədqiqatlar göstərmişdir ki, əczaçılıq kimya və elektronika sənayesində, maşınqayırma avtomobil üçün ehtiyat hissələri istehsalı və qənnadı sənayesinə nisbətən texnologiyanın və rəqabət mübarizəsi parametrlərinin dəyişməsi sürəti daha çoxdur. Ümumiyyətlə daha cəld dəyişiklik aviasiya-kosmos sənayesi, kompüter istehsalı, biotexnologiya və telekommunikasiya sferasında baş verir. Nisbətən az dəyişiklik mebel sənayesində hökm sürür.

4. Qeyri-müəyyənlik: mühit haqqında informasiyanın nisbi kəmiyyəti və onun düzgünlüyünə əminlik. Əgər mühit amili haqqında informasiya azdırsa və ya onun dəqiqliyinə şübhə varsa, mühit daha çox qeyri-müəyyən olur. Əksinə, əgər mühit amili haqqında adekvat informasiya varsa və onu daha etibarlı hesab etməyə əsas varsa, onda mühitin qeyri-müəyyənliyi azalmış olur. Nə qədər ki, xarici mühit qeyri-müəyyəndir, bir o qədər də səmərəli qərar qəbul etmək çətin olur [2, səh. 46].

Müəssisənin mühiti iki qrup amillərdən ibarətdir. Birinci qrup amillər müəssisənin fəaliyyətinə birbaşa təsir göstərir və müəssisənin mikromühiti adlanır. Ikinci qrup amillər isə biznesə birbaşa və ya dərhal təsir göstərmir,lakin son nəticədə ona təsir etmiş olur. Bu amillərin məcmusuna isə müəssisənin makro mühiti deyilir.

**Müəssisənin mikromühiti.** Müəssisənin mikromühiti müəssisə ilə bilavasitə bağlı olan və müəssisənin müştərilərə (alıcılara, istehlakçılara) xidmət göstərə bilmə qabiliyyətinə təsir edə bilən amillərin məcmusudur. Bu amillərə müəssisənin özü, vasitəçiləri, malgöndərənləri, rəqibləri, məqsədli istehlakçıları və s. aiddir [2, səh.13].

***Marketinq vasitəçiləri.*** İstehsal etdikləri məhsulların satılmasında və digər məsələlərdə müəssisəyə marketinq vasitəçiləri yardım göstərir. Marketinq vasitəçiləri dedikdə, ticarət vasitəçiləri, əmtəələrin irəlilədilməsinin təşkili üzrə mütəxəssis firmalar, marketinq xidmətləri göstərilməsi üzrə agentliklər və kredit-maliyyə idarələri başa düşülür. Ticarət vasitəçiləri müəssisələrə müştəri tapan və ya məhsulun satılmasına kömək edən işgüzar firmalardır. Əmtəələrin irəlilədilməsinin təşkili üzrə mütəxəssis-firmalar müəssisə rəhbərlərinə öz məhsullarının ehtiyatlarının yaradılmasında və onları istehsal yerindən təyinat yerinədək hərəkət etdirməkdə köməklik göstərirlər. Marketinq xidmətinin göstərilməsi üzrə agentliklər müəssisə rəhbərlərinəöz məhsullarını münasib bazarlara yönəltməkdə və irəlilətməkdə bilavasitə kömək edirlər. Kredit-maliyyə idarələrinə banklar, kredit təşkilatları və sığorta şirkətləri aiddir. Onu da qeyd edək ki, marketinq vasitəçilərinin seçilməsinə çox ehtiyatla yanaşmaq lazımdır. Çünki marketinq vasitəçilərinin seçilməsi və onlarla işin təşkili istehsal olunan məhsulların satılmasına təsir edən amillərdəndir.

Region müəssisələrinin istehsal-təsərrüfat fəaliyyətinin səmərəliliyinin artırılması istehsalda istifadə edilən xammal və materialın ucuz olmasından əhəmiyyətli dərəcədə asılıdır. Bununla yanaşı, təsərrüfat əlaqələrinin yaradılması, tədarük xərclərinin az olması, xammal, enerji mənbələrinə və satış bazarlarına yaxın yerləşdirilmə faktoru müəssisənin iqtisadi mühitinə birbaşa təsir göstərir. Deməli, mikromühit amillərindən ən mühümi olan müəssisəni xammal və materiallarla təmin edən subyektlər istehsal olunan məhsulun maya dəyərinin və son nəticədə qiymətinin formalaşmasında xüsusi rol oynayır [3, səh. 83]. Məsələn, iqtisadi rayonda xaricdən ting idxalının sahibkarlar üçün baha başa gəldiyini nəzərə alaraq meyvə toxumlarının gətirilərək tinglik təsərrüfatlarının salınması daha məqsədəuyğundur.

İqtisadi rayonda bildiyimiz kimi tütünçülük inkişaf etmişdir. Onu da qeyd edək ki, inkişafla yanaşı tütün istehsalçılarının bəzi problemləri də vardır. Mövcud problemlərdən biri xammalın satış qiymətidir. Belə ki, son məhsul olan siqaretin qiymətinin yüksək olmasına baxmayaraq tütün xammalı fermerlərdən ucuz qiymətə satın alınır ki, bu da bəzi hallarda çəkilən xərci ödəməməsinə gətirib çıxarır [5, səh.17.].

Bütün bunları nəzərə alaraq regionda ətirli tütün sortları sahələrinin genişləndirilməsi, tütünün alış qiymətinin yüksəldilməsi, xammala marağın azaldılması və son məhsul istehsalının təşkili, istehsal olunan məhsullarla maraqlanan mal göndərənlər arasında geniş əmtəə mübadiləsinin tətbiq edilməsi bu sahənin inkişaf etdirilməsinə təkan verər. Bu baxımdan, perspektiv və gəlirli sahə olan tütünçülüyün inkişaf etdirilməsi yaxın gələcəkdə həm yeni iş yerlərinin yaradılması, həm ixracın artırılması, həm də ölkəyə valyuta gətirilməsində mühüm rol oynayar.

**Şəki-Zaqatala regionunda ayrı-ayrı rayonlar üzrə dənli bitkilərin bir sentnerinin maya dəyəri (manatla)**

*Cədvəl 1*

| | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| **Zaqatala** | 19,09 | 19,11 | 19,10 | 19,02 | 19,01 |
| **Qax** | 18,58 | 30,06 | 11,12 | 11,93 | 14,63 |
| **Şəki** | 16,00 | 16 | 16,00 | 19,99 | 19,38 |
| **Oğuz** | 15,46 | 15,9 | 16,03 | 16,01 | 14,29 |
| **Qəbələ** | 19,96 | 15,51 | 15,38 | - | - |

*Cədvəl inzibati rayonların yerli statistika orqanlarının müvafiq materialları əsasında tərtib olunmuşdur [4]*

Cədvələ əsasən dənli bitkilərin bir sentnerinin maya dəyəri Zaqatala və Oğuz rayonları üzrə 2017-ci ilə doğru getdikcə azalma müşayiət olunmasına baxmayaraq, Qax rayonunda 2014, Şəkidə isə 2016-cı ildə maksimal həddə çatmışdır. Məhsulun maya dəyərinin yüksəlməsi müəssisələrin istehsal-təsərrüfat fəaliyyətinin səmərəliliyinin azalmasına gətirib çıxarır. Bu səbəbdən region müəssisələri məhsulun maya dəyərində baş verən dəyişiklikləri izləməli, istehsala lazım olan xammal və material əldə etmək üçün etibarlı tərəfdaş tapmalıdır.

***Malgöndərənlər.*** Müəssisənin mikromühitinin əsas tərkib hissələrindən biri də malgöndərənlərdir. Malgöndərənlər müəssisəni və onun rəqiblərini konkret məhsul istehsalı üçün zəruri olan maddi ehtiyatlarla təmin edən işgüzar firmalar və ayrı-ayrı şəxslərdir. Buna görə də bu sahədə baş verən istənilən dəyişiklik müəssisənin fəaliyyətinə öz təsirini göstərir. Məsələn, alınan ehtiyatların qiymətlərinin artması, istər-istəməz istehsal olunan məhsulların qiymətinin qalxmasına səbəb olur.

***Rəqiblər***. Hər bir müəssisə külli miqdarda müxtəlif rəqiblərlə qarşılaşır. Rəqabət mübarizəsində uduzmamaq üçün rəhbərlər bütün rəqibləri aşkar etməli və onları diqqətlə öyrənməlidirlər.

***Müştərilər.*** Müəssisənin öz fəaliyyətində nəzərə almalı olduğu mühüm amillərdən biri də onun müştəriləridir. Müəssisə rəhbərləri öz müştərilərini dərindən öyrənməlidir. Bu məqsədlə o, müxtəlif tipli bazarlarda çıxış etməlidir. Bu bazarlara istehlakçı bazarı, istehsalçı bazarı, aralıq satıcılar: dövlət idarələri bazarı, beynəlxalq bazarlar aiddir. Qeyd edilən 5 tip bazarın hər birinin özünəməxsus xüsusiyyətləri vardır və müəssisə rəhbərləri onları dərindən öyrənərək öz fəaliyyətlərində hökmən nəzərə almalıdırlar.

Göründüyü kimi, bazar iqtisadiyyatı şəraitində region müəssisələrinin səmərəli fəaliyyəti xarici mühit amillərindən əhəmiyyətli dərəcədə asılıdır. Belə ki, müəssisənin xarici mühiti dəyişkən olub, məhdudiyyətlər və qeyri-müəyyənliklər meydana çıxararaq müəssisələrin mənafeyinə dərindən təsir göstərir. Buna görə də müəssisələr xarici mühiti daim izləyir, istehsalçıları, rəqibləri,maliyyə institutlarını və müstəqil kütləvi informasiya vasitələrini bu işə cəlb edirlər. Dünya təcrübəsi sübut edir ki, xarici mühiti dərindən təhlil etmədən müəssisə öz fəaliyyətində istədiyi uğuru qazana bilməz və rəqabət mübarizəsində uduzar.

Bu baxımdan region müəssisələri həm marketinq tədqiqatları, həm də onun sərəncamında olan cari informasiya toplanması imkanlarından istifadə edərək, bütün mühit dəyişikliklərini diqqətlə izləməlidir. Bu məqsədlə istehlakçının razıqalma səviyyəsi, rəqabətdə meyllər, dövlət idarələri ilə qarşılıqlı münasibətlər, iqtisadi vəziyyət, kütləvi informasiya vasitələrinin hərəkəti daim öyrənilir, təchizatın və mənfəətin dinamikası ciddi təhlil edilir, təchizat şəbəkələrinin müxtəlif iştirakçıları ilə danışıqlar aparılır, informasiyaların alınması və öyrənilməsinin müxtəlif metodlarından istifadə edilir.

Məlumdur ki, köhnəlmiş texnika və ya ənənəvi metodlarla məhsul istehsalı potensial üstünlüyə baxmayaraq artmaqda olan tələbata tam cavab vermir. İstehsalı texnologiya ilə qovuşdurmaq və vaxt baxımından sürət qazanmaq istehsalda məhsuldarlığı təmin etmək deməkdir. Kənd təsərrüfatında istehsal həcminin artırılması texnoloji üstünlüklərdən istifadə ilə sıx bağlıdır. Belə ki, əkinəyararlı ərazilərin məhdudluğu intensiv metodların tətbiqini tələb etməkdədir. Müasir texnika və texnologiyadan aqrar müəssisələrin fəaliyyətində istifadə edilməsi məhsuldarlığa və dolayısı ilə istehsalda artımlara səbəb olmaqdadır. Onu da qeyd edək ki, texnoloji imkanlar daha iri müəssisə və təsərrüfatlarda istifadə edildikdə məhsuldarlığa öz müsbət təsirini göstərir. Bu səbəbdən ayrı-ayrı təsərrüfat mülkiyyətçilərinin öz torpaq və əmlaklarını birləşdirmək marağının olmamasını nəzərə alaraq aqrar sahədə məhsulların istehsalını artırmaq məqsədi ilə regionda kənd təsərrüfatı məhsullarının istehsalı və satışı sahəsində yeni kooperasiyaların yaradılması stimullaşdırılmalıdır. Bu da elmi-texniki nailiyyətlərdən səmərəli istifadə üçün əlverişli şərait yaradacaqdır.

**Ədəbiyyat**

1. Голубков Е. П. «Основы маркетинга» Учебник, Издательство “Финпресс”, Москва-1999, 656 с.
2. Голубков Е. П. «Маркетинговые исследования: теория, практика и методология», Москва: Издательство “Финпресс”, 1998, 416 с.
3. «Стратетические планирование»: Учебник / Э.А.Уткина-Москва: ТАНДЕМ: ЭКМОС, 1998-440с.
4. www.stat.gov.az Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi
5. HacızadəE. M. ”Regionların sosial-iqtisadi inkişaf problemləri” Bakı: “Iqtisad Universiteti” nəşriyyatı, 2006, 304 s.

**Резюме**

***Алиева Ш.И.***

**Основные аспекты, действующие на экономическую среду предприятий в Шеки-Закатальском регионе**

*Как открытая система, бизнес деятельность имеет постоянную связь с внешней средой. Таким образом, производители, потребители и клиенты работают взаимосвязано, а не в закрытых условиях и это определяет их положение. С этой точки зрения, экономическая среда предприятий в Шеки-Закатальском экономическом регионе, оказывает серьёзное влияние на деятельность предприятий и требует для них определённой регулировки.*

***Ключевые слова:*** *маркетинг, микросреда, отправитель, конкуренты, клиенты, макросреда*

**Summary**

***AliyevaSh.I.***

**The Main Aspects Operating on the Economic Environment of the Enterprises in the Shaki-Zagatala Region.**

*As the open system, business activity has a continuous communication with the external environment. Thus producers, consumers and clients work interconnected. But not in the closed conditions and it defines their situation. From this point of view, the economic environment of the enterprises in the Shaki-Zaqatala economic region has a serious impact on activity of the enterprises and demands for them a certain adjustment.*

***Key words:*** *marketing, microenvironment, sender, competitors, clients, macro environment*

## XƏZƏRİN RESURSLARINDAN İSTİFADƏNİN İQTİSADİ-EKOLOJİ MƏSƏLƏLƏRİ

***Əmirov İ.B.***
*Sumqayıt Dövlət Universiteti*
***Pirverdiyeva S.A.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Yeni təsərrüfatçılıq şəraitində milli iqtisadiyyatımızın davamlı inkişaf etdirilməsində Xəzər dənizinin resursları mühüm iqtisadi əhəmiyyət kəsb edir. Ona görə də ətraf mühitin mühafizəsi və ekoloji problemlərin aradan qaldırılması nəzərə alınmaqla bu ehtiyatlardan səmərəli istifadə edilməsi mühüm bir vəzifə kimi ortaya çıxmış olur. Hazırlanan məqalədə Xəzər dənizinin çirklənmə mənbələri qruplaşdırılmış, müvafiq göstəricilər müqayisə edilmiş və gələcəkdə də hasilat sənayesinin inkişaf etdirilməsi ilə bu atılmaların davam edəcəyi əsaslandırılmışdır. Xəzərətrafı ölkələr arasında bağlanılan sazişin gələcəkdə həmin dövlətlərə dividentlər gətirəcəyi şərh olunmuşdur.*

***Açar sözlər:*** *ətraf mühitin mühafizəsi, enerji resursları, ticarət, islahatlar, ekoloji vəziyyət, transmilli layihələr, karbohidrogen ehtiyatlar*

Respublikamızda müstəqil milli iqtisadiyyatın formalaşdırıldığı bir dövrdə iqtisadi islahatların həyata keçirilməsi davam etməkdədir. İqtisadi inkişafın obyektiv qanunauyğunluqlarını nəzərə almaqla təmin edilməsi Azərbaycanda mövcud olan təbii-iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın sürətlə təsərrüfatçılıq dövriyyəsinə cəlb edilməsini tələb edir.

İqtisadiyyatımızın dünya təsərrüfat sisteminə inteqrasiya olunması bir sıra vacib vəzifələrin həyata keçirilməsini meydana çıxarır. Onlar əsasən sahibkarlıq fəaliyyətinin inkişafı, ölkənin ərzaq və enerji təhlükəsizliyinin təmin edilməsi, ətraf mühitin mühafizəsi, sosial-iqtisadi rifahın yüksəldilməsi və regional inkişafın əldə edilməsi və s. istiqamətləri əhatə edir. Göstərilən fəaliyyət sferalar arasında ekoloji tarazlığın pozulması və ətraf mühitin mühafizəsi məsələlərinin kompleks həlli xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası (AR) Xəzəryanı ölkələrdən biridir və burada böyük həcmdə karbohidrogen ehtiyatlarının mövcud olması iqtisadiyyatımızın davamlı inkişafında rolu böyükdür. Xəzərdə hasil olunan enerji resursları həm sahil ölkələrinin, həmdə ətraf regiona daxil olan ölkələrin inkişafında vacib rol oynayır. Hazırda Xəzər əhəmiyyətli nəqliyyat yolu, ətraf mühitin və havanın təmizliyində əhəmiyyətli amil olmaqla yanaşı qiymətli təbii yataqlara malikdir.

Əlverişli coğrafi mövqeyə və təbii iqlim şəraitinə, zəngin təbii sərvətlərə, kifayət qədər əmək resurslarına, inkişaf etmiş beynəlxalq əhəmiyyətli su, hava, dəmiryolu xəttinə, özünəməxsus istehsal potensialına malik Azərbaycan dünya iqtisadiyyatına sürətlə inteqrasiya olunur. Qloballaşmanın tələblərinə, hazırki beynəlxalq iqtisadi sistemin xüsusiyyətlərinə diqqət etdikdə aydın olur ki, heç bir ölkə dünya iqtisadi birliyindən kənarda uğurla inkişaf edə bilməz. Düzgün müəyyən edilmiş strategiya, daxili imkanlardan düşünülmüş istifadə edilməsi nəticəsində Azərbaycanın qədim İpək Yolu boyunca ticarət mərkəzi kimi tarixi mövqeyini bərpa etməsi, Şərqlə Qərbi, habelə Şimalla Cənubu birləşdirən əsas nəqliyyat dəhlizlərinin yolu üzərində yerləşməsi respublikamızın Avrasiyanın regional mərkəzinə çevrilməsinə, qloballaşma prosesləri baxımından onun həm regional, həm də beynəlxalq layihələrdə rolunu və əhəmiyyətini daha da artırır. Qeyri-neft sektorunda həyata keçirilən irimiqyaslı islahatların, uğurla reallaşdırılan nəhəng nəqliyyat-kommunikasiya layihələrinin, o cümlədən azad iqtisadi zonaların yaradılmasının vahid məqsəd və strategiyada birləşdirilməsi ölkəmizin, eləcə də regionun gələcək inkişafına böyük töhfələr verəcəkdir.

Respublikamızın dinamik inkişafında Xəzərin resurslarından milli maraqlarımıza uyğun olaraq səmərəli istifadə edilməsi məsələsinin vacib olduğu bir daha təsdiqlənir. Həmin resurslara, ilk növbədə, neft və qaz ehtiyatları aid edilməlidir. Belə ki, Xəzər dənizi böyük həcmdə karbohidrogen ehtiyatlara malikdir. Ölkəmizdə olan neft yataqlarına gəldikdə isə bir sıra hesablamalara görə neft ehtiyatlarımız 200 mlrd. barelə (1 barel=158,89 litr) çatır. Digər ehtiyatlar isə dənizdə olan böyük həcmdə qazla əlaqədardır. Təsdiq edilən məlumatlara görə, AR-nın qaz ehtiyatı 2,6 trilyon $m^3$-ə çatır. Xəzəryanı dövlətlər və xarici şirkətlər dənizdən karbohidrogen ehtiyatlarının çıxarılmasında fəal iştirak edirlər. Hazırda Xəzər dənizi dünyada enerji təhlükəsizliyində əsas rol oynayan regionlardan biridir. Hazırda ölkəmizin ərazisində hasil olunan neftin 67 %-i, qazın isə 95 %-i Xəzər dənizindən çıxarılır.

Neft və qaz istehsalı üzrə məlumatların araşdırılması bir daha onu təsdiqləyir ki, AR-da həmin məhsulların hasilatı artıma meyillidir (cədvəl 1).

**AR-da mədənçıxarma sənayesində neft və qaz istehsalının dinamikası**

**Cədvəl 1**

| | *Göstəricilərin adları* | *2005* | *2010* | *2014* | *2015* | *2016* | *2017* |
|---|---|---|---|---|---|---|---|
| *1* | *2* | *3* | *4* | *5* | *6* | *7* | *8* |
| 1 | Neft (qaz kondensatı da daxil olmaqla) min t. | 22214 | 50838 | 42076 | 41628 | 41050 | 38688 |
| | ondan əmtəəlik | - | 50693 | 41952 | 41570 | 40999 | 38636 |
| 2 | Qaz-cəmi mln.$m^3$ | 5732,1 | 26312 | 29555 | 29175 | 29331 | 28596 |
| | ondan əmtəəlik | - | 16673 | 18827 | 19236 | 18718 | 18186 |
| | o cümlədən: təbii qaz | 1877 | 13943 | 15610 | 15512 | 15379 | 14691 |
| | ondan əmtəəlik | - | 11875 | 14990 | 14895 | 14801 | 14074 |
| | səmt qazı | 3855 | 12369 | 13945 | 13663 | 13952 | 13905 |
| | ondan əmtəəlik | - | 4798 | 3837 | 4341 | 3917 | 4112 |

***Mənbə:*** *AR Dövlət Statistika Komitəsinin məlumatları 2018 [1, s.461]*

Yuxarıdakı göstəriciləri müqayisə etsək, görərik ki, son 5 ildə neft və qaz hasilatı demək olar stabilləşmişdir. Lakin milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsini və həyata keçiriləcək transmilli layihələri nəzərə alsaq, hələ uzun müddət bu hasilatın artımla inkişaf etdirilməsi davam etdiriləcəkdir.

Hal-hazırda Xəzər dənizinin ekoloji vəziyyəti olduqca gərginləşmişdir. Xəzərin şelf zonasında problem daha kəskindir, artıq bu ərazilərdə ölü zonalar yaranmışdır, bəzi yerlərdə çirkləndiricilərin qiyməti

normanı 10÷20 dəfə artır. Çirklənmə mənbələri dənizdə olduqca müxtəlif olmaqla əsasən aşağıdakı kimi qruplaşdırıla bilər:

① Dənizə axan çayların vasitəsilə gələn çirkləndiricilər;

②K/t-da zərərvericilərə qarşı istifadə olunan kimyəvi zəhərli maddələrin yeraltı sularla dənizə axması;

③ Təsərrüfatçılıq fəaliyyəti zamanı dənizdə neft-qaz hasilatı və onun nəql edilməsi ilə bağlı yaranan çirklənmələr;

④ Sahil zonalarında Xəzər dənizində səviyyənin qalxması nəticəsində suyun altında qalan mənbələrdən olan çirklənmələr;

⑤ Sahil zonalarında yerləşən şəhərlərlə və sənaye obyektləri ilə əlaqədar atılan tullantılar;

⑥ Xəzərin akvatoriyasında istismara yararsız olan atılmış özüllərdən və köhnəlmiş texniki qurğuların korroziyaya uğraması nəticəsində yaranan çirklənmələr;

⑦ Xəzər dənizinin olduqca seysmoaktiv regionda yerləşməsi və mütəmadi olaraq burada palçıq vulkanlarının püskürməsi nəticəsində baş verən çirklənmələr.

Sahəsi 370000 $m^2$ olan Xəzər dənizinin Azərbaycana aid hissəsində çirkləndirilmə mənbələrinə bir qədər ətraflı nəzər salaq. Göstərilən mənbələr sırasında çayların vasitəsilə gətirilən çirkləndirmələr ön mövqelərdən birində durur. Sahil xəttinin uzunluğu 7000 km olan (AR-na düşən payı 955 km) Xəzər dənizinə axarların 80 %-i Volqa çayından gəlir (cədvəl 2). Çayların vasitəsilə dənizə hər il 75 mln. t. neft məhsulları gətirilir ki, onun da 95%-i Volqa çayının payına düşür.

**Xəzər dənizinə axan çaylar**

**Cədvəl 2.**

| № | Dənizə axan çaylar | İllik axar %-lə | № | Dənizə axan çaylar | İllik axar %-lə |
|---|---|---|---|---|---|
| ***1*** | ***2*** | ***3*** | ***4*** | ***5*** | ***6*** |
| 1 | Volqa | 80 | 4 | | |
| 2 | Kür | 6 | 5 | Ural | 5 |
| 3 | Terek, Sulak, Samur | 4,5 | | Səfidrud, Şurid, Gürgan | 4,5 |

***Mənbə:*** *https://az.wikipedia.org/wiki [3]*

Xəzər dənizində aparılan qazma işləri zamanı təmizləyici qurğulardan qazma məhsulları və çirkab suları çox vaxt dənizə axıdılır. Neft quyularının yaxınlığında suyun üzərində neft ləkələrinin olması adi haldır. Dalğalar isə onları sahilə gətirir və sahil zolağının torpaq qatının çirklənməsinə səbəb olur. Bundan başqa, uzun illərdir ki, neft-qaz yataqlarının kəşfi, həmçinin yataqların istifadəsi nəticəsində dənizdə neft quyularının, estakadaların tikintisi və boru kəmərlərinin çəkilməsi həyata keçirilib. Artıq bu qurğuların çox hissəsinin istifadə müddəti başa çatıb. Köhnəlmiş texniki qurğular korroziyaya uğramaqla dənizi çirkləndirir. Dənizdə fəaliyyət göstərən müəssisələrin balansında olan özüllərin əksəriyyəti istismara yararsız vəziyyətdə dəniz akvatoriyasında atılaraq qalmaqdadır. Neft emalı müəssisələrində neftlə çiriklənmiş suların Xəzər dənizinin çirklənməsində tam təmizlənmədən dənizə axıdılması da rol oynayır.

Ümumiyyətlə, magistral neft kəmərlərinin tikintisi və istismarı prosesində qarşıya çıxan ən mühüm problemlərdən biri də ətraf mühitin mühafizəsidir. Neft kəmərlərinin tikintisi və istismarı zamanı ətraf mühitin bütün komponentlərinə, demək olar ki, neqativ təsir göstərir. Ona görə də mürəkkəb mühəndis-texniki qurğular hesab olunan belə kəmərlərin layihələndirilməsi, tikintisi və istismarı ətraf mühitin mühafizəsi nəzərə alınmadan həyata keçirilə bilməz [3, səh.34].

Azərbaycanın neft sənayesində böyük meqalayihələrin icra edilməsi ölkəmizi müasir sənaye mərkəzinə çevirib. Ötən ildə Azərbaycanda 38,8 mln. t. neft və 30 mlrd. $m^3$ qazın hasil edilməsi hələ də böyük layihələrin davam etdirilməsindən xəbər verir. Qarşıdakı 2020-ci ildə istifadəyə verilməsi nəzərdə tutulan “Cənub Qaz Dəhlizi” layihəsinin yerinə yetirilməsi ölkəmizə əlavə olaraq daha böyük gəlirlərin gətirəcəyini bildirir. Bu da ekspertlərin göstərdikləri kimi, Xəzər dənizində neft sənayesinin güclü inkişafı ilə əlaqədar olaraq, onun daha da çirklənəcəyini fikrini bir daha təsdiqləyir [4, səh.1]

Bazar münasibətlərində Xəzər dənizində çirklənmələrin və ətraf mühitin mühafizəsi üzrə yaranacaq ekoloji problemlərin aradan qaldırılması məqsədilə kompleks tədbirlər həyata keçirilməlidir. Ekoloji problemlərin həll edilməsi istiqamətində Xəzərətrafı ölkələr arasında birgə layihələr həyata keçirilməli və maliyyə mənbələri müəyyən edilməlidir.

Beləliklə, indiki gündə Xəzər dənizinin hüquqi statusu haqqında qəbul edilmiş Konvensiya Azərbaycanın müasir tarixinə yeni-yeni töhfələr verəcəkdir [5]. Bu həm ölkəmizin maraqlarına uyğun gəlir,

həm də onun iqtisadi qüdrətinin daha da gücləndirilməsinə xidmət edəcəkdir. Ona görə də bütün Xəzəryanı ölkələr kimi, Azərbaycan da belə fürsəti dəyərləndirməklə xalqımızın mənafeyinə uyğun yaxın gələcəkdə faydalar qazanacaqdır.

**Ədəbiyyat**

1. Azərbaycanın Statistik Göstəriciləri 2018, Statistical Yearbook of Azerbaijan. 9 №-li kiçik müəssisə, AR Dövlət Statistika Komitəsi. Bakı, 2018, 808 s.
2. https://az.wikipedia.org; müraciət tarixi 26.02.19
3. Nurəliyeva R.N. Azərbaycanın yanacaq-enerji kompleksinin inkişafının iqtisadi-ekoloji problemləri. Monoqrafiya. Bakı, Azərnəşr, 2010, 221 s.
4. AR regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunları İqtisadiyyat q/t №04 (1052) 31 yanvar-7 fevral 2019, s.8.
5. http://newtimes.az/az/economics/5728; müraciət tarixi 26.0219

**Резюме**

***Амиров И.Б., Пирвердиева С.А.***

**Экономико-экологические вопросы использования ресурсов Каспия**

*Ресурсы Каспийского моря имеют большое экономическое значение для устойчивого развития нашей национальной экономики. Поэтому, принимая во внимание охрану окружающей среды и устранение экологических проблем, эффективное использование этих ресурсов является важной задачей. В статье сгруппированы источники загрязнения Каспийского моря, сопоставлены соответствующие показатели и обосновано будущее развитие добывающей промышленности. Было отмечено, что соглашение между прикаспийскими государствами принесет дивиденды этим странам в будущем.*

***Ключевые слова:*** *охрана окружающей среды, энергоресурсы, торговля, реформа, экологическая ситуация, транснациональные проекты, запасы углеводородов*

**Summary**

***Amirov İ.B., Pirverdieva S.A.***

**Economical Ecological Problems of the Usage from Resources of the Caspian**

*The resources of the Caspian Sea are of great economic importance for the sustainable development of our national economy in the conditions of new farming. Therefore, taking into consideration the environmental protection and the elimination of environmental problems, the efficient utilization of these resources is an important task. In the article, the sources of contamination of the Caspian Sea were grouped, the relevant indicators were compared, and the future development of the extractive industry was justified. It was interpreted that the agreement between the Caspian littoral states would bring dividends to those countries in the future.*

***Key words:*** *resources of guarding of the environment, energy, trade, reforms, ecological situation, transnational projects, hydrocarbon stocks*

## İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI SEKTORUNDA MÜƏSSİSƏLƏRİN FƏALİYYƏT XÜSUSİYYƏTLƏRİ

***Fətəliyeva G.A.***

*AMEA-nın İqtisadiyyat İnstitutu*

***Xülasə.*** *Məqalədə Azərbaycanın İKT sektorunda fəaliyyət göstərən müəssisə və təşkilatların sayı, onların mülkiyyət növləri və fəaliyyət miqyasına görə bölgüsü, bu sahədə baş verən institusional dəyişikliklər və s. üzrə əsas göstəricilərin müasir vəziyyəti təhlil edilmişdir. Sonda təhlillərin yekunu olaraq ümumiləşdirmələr aparılmış və nəticələr qeyd edilmişdir.*

***Açar sözlər:*** *İKT sektoru, dövlət və özəl müəssisə, xarici və yerli şirkət, kiçik sahibkarlıq, fərdi sahibkar.*

Azərbaycanda qeyri-neft sektorunun inkişafına nail olunması iqtisadi siyasətin əsas qayəsini təşkil edir. İnformasiya-kommunikasiya texnologiyaları(İKT) sektoru qeyri-neft sektorunun ölkə iqtisadiyyatında payının artırılması və yaxın illərdə iqtisadi artımın təmin edilməsi üzrə vacib sahələrdən hesab olunur.

İKT sektorunun inkişafı və bu sahədə məhsuldarlığın yüksəldilməsi müəssisə və təşkilatların fəaliyyətindən birbaşa asılıdır. Bu baxımdan da sektorda müəssisələrin sayı, onların mülkiyyət növləri üzrə bölgüsü, institusional dəyişikliklər də daxil olmaqla, bir sıra göstəricilərin mövcud durumunun araşdırılması xüsusi əhəmiyyət kəsb edir.

**İKT sektorunda fəaliyyət göstərən müəssisələrin xarakteristikası**

İKT sektorunda fəaliyyət göstərən müəssisələrin sayında dinamik artım baş vermişdir. Belə ki, müəssisələrin sayı 2015-ci ildə əvvəlki ilə nisbətən 14,7%, 2016-cı ildə 9,6%, 2017-ci ildə 10,5% çox olmuşdur. Sektorda olan müəssisələrin ölkə üzrə ümumi müəssisələrdə xüsusi çəkisi qeyd edilən illərdə müvafiq olaraq 2,4-2,5% təşkil etmişdir.

**Cədvəl**

**İKT sektorunda müəssisələrin say dinamikası**

| İllər | Müəssisələrin sayı | Dövlət müəssisələri | Xüsusi müəssisələr | Yeni yaradılmış müəssisələr | Ləğv edilmiş müəssisələr |
|---|---|---|---|---|---|
| **2015** | 2456 | 225 | 2231 | 264 | 14 |
| **2016** | 2691 | 221 | 2470 | 257 | 36 |
| **2017** | 2974 | 213 | 2761 | 290 | 7 |

***Mənbə*** *[1;2;3] əsasında müəllif tərəfindən tərtib edilib.*

Bazar münasibətləri şəraitində sahibkarlıq fəaliyyətinin inkişafı hər bir dövlətin davamlı sosial-iqtisadi inkişafının zəruri şərtlərindən biri kimi çıxış edir. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər bir neçə baxımdan ölkənin iqtisadiyyatına töhfə verirlər. Belə ki, sahibkarlıq fəaliyyətini təşkil etməklə hüquqi və ya fiziki şəxs həm vergi ödəməklə dövlət büdcəsinin formalaşmasında yaxından iştirak edir, həm də yeni iş yerlərini yaradır ki, bununla da, məşğulluq probleminin həllində də əhəmiyyətli rol oynamış olur. Bundan başqa, sahibkarlıq əmtəələrin istehsal edilməsi və ya xidmətlərin göstərilməsi ilə cəmiyyətin artan tələbatının ödənilməsində böyük önəm daşıyır. Qeyd edilən amillər sahibkarlığın iqtisadiyyatın əsas tərkib hissəsi olduğunu bir daha sübut edir.

İKT sahəsində sahibkarlıq fəaliyyəti mühüm iqtisadi əhəmiyyətə malikdir. Hazırda Azərbaycanda İKT sahəsində dövlət sektoru ilə müqayisədə özəl bölmənin xüsusi çəkisi böyükdür. 2000 ildən sektorda özəl bölmənin payı 60%-dən, 2014-cü ildən isə 80%-dən yüksək olmuşdur. Bu rəqəm 2017-ci ilin sonuna 81,3% təşkil etmişdir [4]. Bu isə onun sayəsində baş verir ki, ölkəmizdə İKT sferasında sahibkarlıq sahəsi inkişaf edir. Həmçinin özəl bölmə dövlət tərəfindən dəstəklənir və tənzimlənir. Ümumilikdə, ölkədə İKT sektorunun, xüsusilə də bu sahədə özəl sektorun dinamik inkişafının təmin edilməsi üçün müvafiq texnoloji baza formalaşdırılmışdır.

İKT sferasında qeydiyyatda olan müəssisələrin mülkiyyət növləri üzrə bölgüsünə diqqət yetirdikdə görmək olur ki, sektorda ümumi müəssisələrin tərkibində xüsusi müəssisələr üstünlük təşkil etmişdir. Daha dəqiq desək, özəl müəssisələrin payı 2015-ci ildə 90,8%, 2016-cı ildə 91,8%, 2017-ci ildə isə 92,8% olmuşdur. Dövlət müəssisələrinin xüsusi çəkisi təhlil edilən dövrdə 10%-i keçməmişdir. Özəl müəssisələrin çoxluğu onların fəaliyyəti nəticəsində istehsal edilən məhsulların və göstərilən xidmətlərin reallaşdırılmasından yaradılan gəlirlərin sektorda böyük paya malik olmasına səbəb olur.

Ölkədə yerli müəssisələrlə bərabər, xarici şirkətlərin də fəaliyyəti üçün əlverişli şərait və münbit mühit yaradılmışdır. Bunun da nəticəsində xarici təşkilatların sayında artım nəzərə çarpmaqdadır. Belə ki, əgər 2015-ci ildə İKT sahəsində xarici müəssisələrin sayı 127 vahid olmuşdursa, bu göstərici 2016-cı ildə 135, 2017-ci ildə isə 148 təşkil etmişdir. Sahibkarlıq fəaliyyətinin genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edən birgə müəssisələrin sayı isə 2015-ci ildə 66-dan 2016-cı ildə 74-ə, 2017-ci ildə 78-ə yüksəlmişdir.

Yeni yaradılan müəssisələr yeni iş yerlərinin və məşğulluğun təmin edilməsi deməkdir. İKT sferasında da hər il institusional dəyişikliklər baş verməkdə və təşkilatlar yaranmaqdadır. 2015-ci ildə respublikada yeni yaradılmış müəssisə və təşkilatların 10,7%-i məhz bu sektorun payına düşmüşdür. Növbəti iki il ərzində bu göstərici 9,6% (2016) və 9,8% (2017) təşkil etmişdir.

Sektorda yeni açılmış şirkətlərlə yanaşı, ləğv edilən müəssisələr də qeydə alınmışdır. Ölkə üzrə ləğv edilmiş müəssisə və təşkilatların ümumi sayında İKT sektorunda fəaliyyətini dayandırmış müəssisələrin xüsusi çəkisi təhlilin əhatə etdiyi dövr ərzində müvafiq olaraq 0,6%, 1,3% və 0,2% olmuşdur.

Qeyd etmək lazımdır ki, İKT sferasında müəssisələr içərisində fəaliyyət miqyasına görə kiçik müəssisələr üstün paya malikdir. AR DSK-nın rəsmi statistik məlumatlarına əsasən 2015-ci ildə sektorda qeydiyyatda olan müəssisə və təşkilatların sayı 2456 vahid təşkil etmişdir ki, onların da 84,1%-i, yəni 2065-i

kiçik müəssisələr olmuşdur. 2016-cı ildə 2691 müəssisənin 87,3%-i (2348), 2017-ci ildə isə 2974 müəssisənin 89,2%-i (2652) kiçik müəssisələrdən ibarət olub. Göründüyü kimi, kiçik müəssisələrin sayında artım qeydə alınmışdır.

Sektorda həmçinin fərdi sahibkarlıq da geniş yayılmaqdadır. Belə ki, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 2015-ci ildə 6060, 2016-cı ildə 6159, 2017-ci ildə isə 6469 nəfərə qədər yüksəlmişdir. Bu sahibkarların da əksər hissəsini kişilər təşkil edir. Nümunə üçün qeyd edək ki, 2015-2017-ci illərdə fərdi müəssisə sahibi olan sahibkarların tərkibində kişilərin xüsusi çəkisi müvafiq olaraq 82,9; 82,7 və 82,6%, qadınların payı isə 17,1; 17,3 və 17,4% olmuşdur. Qadınların sayında cüzi də olsa, çoxalma nəzərə çarpır.

Aparılan müqayisəli təhlillərin nəticəsinə əsasən qeyd etmək olar ki, hazırda ölkəmizdə İKT sektorunda müəssisələrin fəaliyyəti sahəsində müsbət göstəricilər müşahidə edilir. Belə ki, 2015 - 2017-ci illərdə müəssisə və təşkilatların sayında dinamik olaraq artım nümayiş etdirmişdir. Həmçinin bu sahədə dövlət müəssisələri ilə müqayisədə özəl müəssisələr sayca çoxluq təşkil etməsi ilə diqqəti çəkir. Sahibkarlığın inkişafında əhəmiyyətli rol oynayan kiçik müəssisələr də sektorda ümumi müəssisələrin tərkibində üstünlük təşkil edir. Fərdi müəssisələri idarə edən sahibkarların sayında artım olmuşdur. Bunun da nəticəsidir ki, sektorda sahibkarlıq sferası, özəl bölmə sürətlə inkişaf etməkdədir.

Bundan əlavə, yerli şirkətlərlə yanaşı, ölkədə xarici təkilatların fəaliyyəti üçün geniş imkanların yaradılması nəticəsində belə növ müəssisələrin də sayı artmaqdadır. Statistik göstəricilər sektorda yeni yaradılan müəssisələrin ləğv edilən müəssisələri dəfələrlə üstələdiyini göstərir.

**Ədəbiyyat**


1. AR Dövlət Statistika Komitəsi. Sosial, İqtisadi İnkişaf. Yanvar-dekabr 2015. 204 s.
2. AR Dövlət Statistika Komitəsi. Sosial, İqtisadi İnkişaf.Yanvar-dekabr 2016.200 s.
3. AR Dövlət Statistika Komitəsi. Sosial, İqtisadi İnkişaf. Yanvar-dekabr 2017. 194 s.
4. AR Dövlət Statistika Komitəsinin saytı. http://www.stat.gov.az



**Резюме**

***Фаталиева Г.А.***

**Особенности деятельности предприятий в секторе информационно-коммуникационных технологий**

*В тезисе проанализировано современное состояние таких ключевых показателей, как количество предприятий и организаций в секторе ИКТ Азербайджана, их распределение по типам собственности и масштабам деятельности, институциональные изменения в этой области и т.д. В конце анализа были обобщены и отмечены результаты.*

***Ключевые слова:*** *сектор ИКТ, государственные и частные предприятия, иностранные и местные компании, малое предпринимательство, индивидуальный предприниматель.*



**Summary**

*Fataliyeva G.A.*

**Features of Activity of the Enterprises in the Information and Communication Technologies Sector**

*The thesis analyzes the current state of key indicators such as the number of enterprises and organizations operating in the ICT sector of Azerbaijan, their distribution by type of property and scale of activity, institutional changes in this area, and so on. At the end of the analysis, the results were summarized and noted*

***Key words:*** *ICT sector, public and private enterprises, foreign and local companies,small business, individual entrepreneur*


## QİDA SƏNAYESİ MÜƏSSİSƏLƏRİNİN BİZNES-PROSESLƏRİNİN İNKİŞAFINDA İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN STRATEJİ ƏHƏMİYYƏTİ


***Hüseynov N.R.***

*Sumqayıt Dövlət Universiteti*



***Xülasə.*** *Məqalədə qida sənayesi müəssisələrinin biznes-proseslərinin inkişafında informasiya-kommunikasiya texnologiyalarından istifadənin strateji əhəmiyyəti tədqiq olunmuşdur. Bu məqsədlə qida*

*sənayesi müəssisələrində biznes-proseslərin səmərəlilik problemləri təhlil olunmuşdur. Biznes-proseslərin informasiya-kommunikasiya texnologiyaları hesabına genişləndirilməsi və səmərəliliyinin artırılması potensialı araşdırılmışdır. Biznes-proseslərin idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi və qida məhsullarının istehsalçılardan son istehlakçılara təhlükəsiz çatdırılmasının təmin edilməsinin vacibliyi açıqlanmışdır. Qlobal qida təhlükələrinin artdığı bir şəraitdə qida sənayesi müəssisələrinin biznes-proseslərinin informasiya-kommunikasiya texnologiyalarından istifadənin genişləndirilməsi hesabına səmərəliliyinin yüksəldilməsi üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*

***Açar sözlər:*** *qida sənayesi müəssisələri, qida sənayesi müəssisələrinin biznes-prosesləri, informasiya-kommunikasiya texnologiyaları, biznes-proseslərdə informasiya-kommunikasiya texnologiyalarının əhəmiyyəti, qida sənayesi müəssisələrinin biznes-proseslərində informasiya-kommunikasiya texnologiyalarının rolu*

Qlobal qida təhlükələrinin artdığı bir dövrdə qida sənayesi müəssisələrinin fəaliyyətinin daha səmərəli təşkili mühüm əhəmiyyət kəsb edir. Ümumilikdə qlobal qida problemi xeyli mürəkkəbliyi ilə fərqlənir. Dünyada 800 milyondan çox insan aclıqdan əziyyət çəkir, çoxlu sayda insanlar isə artıq çəki problemləri ilə üz-üzə qalmışlar [1;2]. İnsanların ən çox üzləşdlikləri xəstəliklərin əsas mənbələri də qida məhsullarıdır. BMT-nin Minilliyin İnkişaf Hədəflərində qlobal qida problemlərinin həlli məsələlərinə xüsusi önəm verilmişdir və bunun üçün hədəflər müəyyənləşdirilmiş, dünya dövlətlərinə çağırışlar edilmişdir.

Qida məhsullarının yerli, regional və beynəlxalq bazarlarda təhlükəsiz dövriyyəsi, istehsalçılardan son istehlakçılara çatdırılması məsələləri də strateji əhəmiyyət kəsb edir. Belə ki, bu tsikldə nəinki qida məhsullarının çox hissəsi müxtəlif səbəblərdən itirilmək təhlükəsi ilə üz-üzə qalır, eyni zamanda qida sənayesi müəssisələrinin rentabellik səviyyəsini xeyli aşağı salır. Bu baxımdan qida sənayesi müəssisələrinin biznes-proseslərinin idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi və burada müasir texnologiyalardan, ilk növbədə, informasiya-kommunikasiya texnologiyalarından (İKT) fəal istifadə edilməsi vacib şərtlərdəndir.

Qeyd edək ki, ölkəmizdə son illərdə qida təhlükəsizliyi ilə bağlı məsələlər strateji səviyyəyə qaldırılmışdır və bununla əlaqədar qida sənayesi müəssisələrinin fəaliyyətinin tənzimlənməsi, səmərəliliyinin artırılması tədbirlərinin genişləndirilməsi diqqət çəkir [3]. Bundan əlavə, qida məhsulları bazarlarına daha təhlükəsiz, ekoloji təmiz kənd təsərrüfatı və qida məhsullarının daxil olması, qida bazarı iştirakçılarının bu məsələyə strateji münasibətlərin formalaşdırılması vacib hesab olunur. Biznes-proseslərinin səmərəli təşkili yanaşmalarında qida məhsullarının kəmiyyət göstəriciləri ilə bərabər, onların keyfiyyətinə, qablaşdırılması və markalanmasına, saxlanılması şəraitinə xüsusi diqqət yetirilməlidir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 6 noyabr tarixli Qərarı ilə təsdiq edilmiş “Ekoloji təmiz kənd təsərrüfatı və qida məhsullarının markalanması Qaydası”nda qida məhsulları bazarları iştirakçılarının üzərində böyük məsuliyyət dairəsi öz əksini tapmışdır [4]. Belə ki, qida məhsullarının qəbul edilmiş normalar və standartlar əsasında markalanması və satış bazarlarına çıxarılması məsələlərinə xüsusi önəm verilməli, bunlarla bağlı normativlərə ciddi riayət edilməlidir.

Ümumilkdə, ölkəmizdə qida məhsulları ilə məşğul olan sahibkarlıq və biznes subyektlərinin problemləri heç də az deyildir. Düzdür son illərdə, ölkənin bütün regionlarında kənd təsərrüfatı və aqrar sahənin məhsullarının yetişdirilməsində müasir texnologiyaların tətbiqi intensivləşməkdədir, həmçinin bu məhsulların tədarükü, saxlanılması, nəqli, son istehlakçılara çatdırılması mexanizmlərinin təkmilləşdirilməsi prosesləri diqqət çəkir. Dövlət tərəfindən də bu sahəyə dəstək göstərilir, həmçinin institusional islahatlar aparılır, struktur dəyişiklikləri edilir, sahibkarlıq və biznes mühitinin cəlbediciliyi artırılır, biznes-proseslərin səmərəliliyi üçün müvafiq infrastruktur yaradılır.

Azərbaycan Respublikası Prezidentinin “Ərzaq məhsullarının tədarükü və təchizatı” ASC-nin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında 2016-cı il 30 sentyabr Fərmanında bu qeyd olunan istiqamətlər üzrə bir sıra mühüm fəaliyyət mexanizmləri və prioritetlər müəyyənləşdirilmişdir [5]. Digər mühüm bir məsələ qida bazarlarına çıxarılan məhsullların biznes cəlbediciliyi ilə yanaşı, bu məhsulların insan sağlamlığı üçün təhlükəsiz olmasından ibarətdir. “Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikasının 2006-ci il 12 may tarixli Qanununda bu məsələlərlə bağlı mühüm müddəalar verilmişdir [6]. Əsas məqsəd qida məhsullarının maksimum təhlükəsizliyinin təmin edilməsi, insan sağlamlığına zərərinin minimum səviyyəyə salınması və bununla da, əhalinin qida təhlükəsizliyini gücləndirməklə bərabər, bu sahədə fəaliyyət göstərən müəssisələrin sabit işləməsi üçün münbit şəraitin yaradılmasıdır. Bu amillər qida sənayesində fəaliyyət göstərən müəssisələrin qida təhlükəsizliyi prinsipləri və meyarları baxımından müasir texnologiyalardan - rəqəmsal texnologiyalardan fəal istifadə etmələrini, qida məhsullarının tədarükü və qida bazarlarına çıxarılmasınadək olan proseslərdə səmərəliliyin artırılmasında İKT-nin tətbiqinin genişləndirmələrini şərtləndirir. Azərbaycan Respublikası Nazirlər

Kabinetinin 2018-ci il 16 iyul tarixli Qərarına əsasən “Qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatına alınması və dövlət reyestrinin aparılması Qaydaları” təsdiq olunmuşdur [7]. Bununla da qida sənayesi müəssisələrinin müasir dövrdə daha səmərəli fəaliyyət göstərmələri, biznes-proseslərinin təkmilləşdirilməsinə diqqətin artırılması, bu proseslərdə müəyyənləşdirilmiş standartlara və qaydalara əməl olunması məsələlərinə strateji yanaşmaların təmin edilməsi prioritet kimi qəbul edilmişdir. Ümumilikdə, qida sənayesi müəssisələrinin biznes-proseslərinin mühüm uğur elementləri sırasında, strateji əhəmiyyət kəsb edən məsələlər içərisində qida təhlükəsizliyi üzrə standartların qorunması və dəyərləndirilməsidir [8]. Bu baxımdan, qida məhsullarının daha çox istehsal olunduğu aqrar sahədə struktur və səmərəlilik problemləri nəzərə alınmaqla, qida sənayesi müəssisələrinin İKT əsasında fəaliyyətinin müasir qlobal qida bazarlarına uyğunlaşdırılması və inkişaf etdirilməsi təmin olunmalıdır [9]. Qida məhsulları bazarlarında biznes-proseslərin daha səmərəli təşkil olunmasında marketinq prinsipləri əsasında istehsal və satış sisteminin formalaşdırılması, bunlarla bağlı proseslərin təkmilləşdirilməsi diqqət mərkəzində saxlanılmalıdır [10]. Professor E.A.Quliyev qeyd edir ki, aqrar sənaye kompleksində daxil olan müəssisələr şəbəkəsinin müasir texnologiyalar əsasında inkişaf etdirilməsi və rəqabətqabiliyyətli yeni aqrar sənaye müəssisələrinin yaradılması prosesləri sürətləndirilməlidir [11, s.145]. Bunlarla bərabər, qida məhsullarının biznesi ilə məşğul olan subyektlərin daxili və xarici bazarlara fəal şəkildə çıxışı proseslərinin təmin edilməsi üçün informasiya bazalarının formalaşdırılması, xarici ticarət fəaliyyətinin sadələşdirilməsi, gömrük prosedurlarının asanlaşdırılması, bürokratik əngəlliklərin aradan qaldırılması təmin edilməlidir. Təqdirəlayiq haldır ki, hazırda Azərbaycanda kənd təsərrüfatı məhsullarının yetişdirilməsində, aqrar sahədə fəaliyyət göstərən qida sənayesi müəssisələrinin işində İKT-yə geniş yer verilməkdədir [12]. Kənd təsərrüfatının fəaliyyət proseslərinin elektronlaşdırılması, vahid informasiya portalının yaradılması tədbirləri intensivləşməkdədir. Qida məhsulları ilə biznes-proseslərin səmərəliliyinin artırılması üçün internet üzərindən xarici ticarət fəaliyyətinin göstərilməsi təmin edilmişdir və artıq bu mexanizm vasitəsilə ölkəmizdən ixrac olunan qida məhsullarının dəyəri 100 milyonlarla ABŞ dolları həcmində ölçülür. Kənd təsərrüfatı və aqrar sektorda, qida məhsulları üzrə ixtisaslaşan müəssisələrdə İKT-dən fəal istifadə edilməsi, bu sahələrdə biznesin inkişafına əlavə təkan vermək potensialına malikdir. İKT-dən istifadə nəticəsində informasiya ən çox fayda verən əmtəəyə çevrilir. İnformasiyaya, biliyə giriş imkanının olması bütün sahələrin, o cümlədən biznes-proseslərin inkişafı üçün həlledici əhəmiyyətə malikdir. İKT-nin qida sənayesi sahəsində biznes subyektlərinin optimal qərarların qəbul edilməsində və bu proseslərdə səmərəli idarəetmənin təşkil olunmasında güclü potensialı vardır [13, s. 7]. Eyni zamanda məlumdur ki, ölkəmizdə İKT-nin inkişafının sürətləndirilməsi strateji əhəmiyyət kəsb edir və bütün bunlar öz əksini ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq etdiyi “Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi”ndə tapmışdır [14]. Bu strategiyada İKT-nin milli iqtisadiyyatın bütün perspektiv sektorlarında, o cümlədən qida sənayesində fəal şəkildə tətbiq edilməsi üzrə strateji hədəflər müəyyənləşdirilmişdir.

Azərbaycanda qida sənayesində fəaliyyət göstərən müəssisələrin əksəriyyəti özəl biznes subyektləridir. Belə ki, 2018-ci ilin əvvəllərinə qida məhsullarının istehsalı ilə məşğul olan 361 müəssisədən cəmisi 7-si dövlət müəssisəsidir, onlardan 354-ü isə qeyri-dövlət statusunu daşıyır. İçki istehsalı ilə məşğul olan 110 müəssisənin isə hamısı özəl sahibkarlıq subyektləridir. Qida məhsullarının ixracında da özəl sahibkarlıq subyektləri önəmli yer tuturlar və təsadüfi deyildir ki, qeyri-neft sektorunun ixracında qida məhsullarının payı artmaqdadır. Məsələn, ölkə ixracının strukturunda 2012-ci ildə qida məhsullarının payı 3,7 %, 2016-cı ildə 3,9 % və 2017-ci ildə isə 4,7 % təşkil etmişdir. Buna görə də, qida sənayesi müəssisələrində müasir texnologiyaların tətbiqi proseslərinin stimullaşdırılmasına ciddi ehtiyac vardır. Ölkəmizdə fəaliyyət göstərən qida sənayesi müəssisələrinin biznes-proseslərinin inkişafında İKT-dən istifadənin strateji əhəmiyyətini təmin etmək məqsədilə bir qrup məsələlərə xüsusi önəm verilməlidir:

-qida sektorunun ölkənin iqtisadi təhlükəsizliyində strateji əhəmiyyəti nəzərə alınmaqla, qida sənayesi müəssisələrində İKT-nin tətbiqinin fəallaşdırılması üzrə stimullaşdırıcı dövlət dəstəyi mexanizmlərinin əhəmiyyətli səviyyədə genişləndirilməsi təmin edilməlidir;

-qida sənayesi müəssisələrində innovativ inkişafın genişləndirilməsi, innovasiyaların yayılması və tətbiqinin intensivləşdirilməsi, bunlarla bağlı sistemli tədbirlərin görülməsinə zərurət qalmaqdadır;

-qida sənayesi müəssisələrinin biznes-proseslərinin səmərəliliyinin yüksəldilməsi məqsədilə, İKT-dən fəal istifadəyə dair investisiya-innovasiya proqramlarının hazırlanması və reallaşdırılması tədbirlərinə ehtiyac vardır;

-qida sənayesi müəssisələrində İKT-nin çoxfunksiyalı və məhsuldar potensialından istifadə edilməsi tədbirləri görülməlidir;

-qida məhsulları bazarında biznes subyektlərin biznes-proseslərinin səmərəliliyinin artırılması məqsədilə, elektron ticarət sisteminin və elektron kommersiyanın imkanlarından geniş istifadə olunması mexanizmləri hazırlanmalı və tətbiq olunmalıdır.

**Ədəbiyyat**


1.FAO. 2017. The future of food and agriculture – Trends and challenges. Rome. - http://www.fao.org/3/a-i6583e.pdf.

2. United States Department of Health and Human Services. Healthy People 2020: Food Safety. United States Department of Health and Human Service, Office of Disease Prevention and Health Promotion; Washington DC, USA: 2010.

3. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Əsasnaməsi. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

4. "Ekoloji təmiz kənd təsərrüfatı və qida məhsullarının markalanması Qaydası"nın təsdiq edilməsi haqqında. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı. Bakı şəhəri, 6 noyabr 2018-ci il, № 474.

5. "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC-nin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezdentinin Fərmanı. Bakı şəhəri, 30 sentyabr 2016-cı il.

6. "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 12 may 2006-cı il, № 102-IIIQ.

7. "Qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatına alınması və dövlət reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı. Bakı şəhəri, 16 iyul 2018-ci il, № 303.

8. Mikayılov E.Ə. Milli standartlaşdırma sisteminin qida təhlükəsizliyinin təmin edilməsində rolu: mövcud vəziyyət və beynəlxalq təcrübə // AzJESS, №2, volume 1, 2015, S. 83-96.

9. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). Bakı, Kooperasiya nəşriyyatı, 2017, 536 s.

10. Bağırov M.S. Naxçıvan Muxtar Respublikasının aqrar sahəsində marketinq prinsipləri əsasında istehsal və satış sisteminin formalaşması və təkmilləşdirilməsi. İqtisad üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işinin Avtoreferatı. Naxçıvan, 2018, 52 s.

11. İ.e.d., prof. Eldar Allahyar oğlu Quliyev. Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər. Bakı, Kooperasiya nəşriyyatı, 2018. 480 s.

12. İnam Kərimov İ. Azərbaycanda aqrar sahə yeni inkişaf mərhələsinə qədəm qoyur. 15 Avqust, 2018. https://report.az.

13. Mənsimzadə İ.A. İnformasiya texnologiyalarından istifadə əsasında kənd təsərrüfatında biznesin inkişaf istiqamətləri. İ.f.d. diss-nın Avtoreferatı. Bakı, 2017, 27 s.

14. Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. 65 s.


**Резюме**


***Гусейнов Н.Р.***


**Стратегическая важность информационно-коммуникационных технологий в развитии бизнес-процессов предприятийпищевой промышленности**


*В статье исследованы стратегические важности информационно-коммуникационных технологий в развитии бизнес-процессов предприятий пищевой промышленности. С этой целью анализированы проблемы эффективности бизнес-процессов на предприятиях пищевой промышленности. Исследован потенциал расширения и повышения эффективности путем информационно-коммуникационных технологий бизнес-процессов. Раскрыта важность обеспечения безопасной доставки конечным потребителем пищевых продукций от производителей и совершенствования механизмов управления бизнес-процессов. Подготовлены рекомендации и даны предложения по повышению эффективности путем усиления развития информационно-коммуникационных технологий бизнес-процессов предприятий пищевой промышленности в условиях роста глобальных пищевых угроз.*



***Ключевые слова:*** *предприятия пищевой промышленности, бизнес-процессы предприятий пищевой промышленности,информационно-коммуникационные технологии, важность информационно-коммуникационные технологий в бизнес-процессах, роль информационно-коммуникационных технологий бизнес-процессов предприятий пищевой промышленности*

**Summary**

***Huseynov N.R.***

**The Strategic Importance of Use of Information and Communication Technologies in the Development of Business Processesof Enterprises of Food Industry**

*The strategic importance of information and communication technologies in the development of business processes of enterprises of food industry investigated in the article. To this end, analyzed the problems of efficiency of business processes in the food industry. The potentials of expansion and increase of efficiency are investigated by means of information and communication technologies of business processes. The importance of ensuring the safe delivery by the end consumer of food products from manufacturers and the improvement of business processmanagement mechanisms are revealed. Recommendations were prepared and proposals for improving efficiency were given by enhancing the development of information and communication technologies for business processes of food processing enterprises in the context of growing global food threats.*

***Key words:*** *food industry enterprises, food industry business processes, information and communication technologies, the importance of information and communication technologies in business processes, the role of information and communication technologies of business processes of food industry enterprises*

## BİZNESİN İNFORMASİYA TƏMİNATINDAKI NÖQSANLAR VƏ İNFORMASİYA SİSTEMLƏRİNİN TƏŞKİLİNİN SƏMƏRƏLƏŞDİRİLMƏSİ PROBLEMLƏRİ

***Məhərrəmova S.R.***

*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalədə biznes fəaliyyətinin informasiya təminatındakı nöqsanlar araşdırılmış, informasiya sistemlərinin təşkilinin səmərələşdirilməsi problemləri tədqiq edilmişdir.İnformasiyanın işlənməsi sisteminə qarşı qoyulan əsas tələblər nəzərdən keçirilmişdir. Həmçinin müəssisədə əməyin mexanikləşdirmə vasitələrinin tətbiqinin planlaşdırılmasının zəruriliyi əsaslandırılmışdır.*

***Açar sözlər:*** *informasiya, mexanikləşdirmə, avtomatlaşdırma, idarəetmə, planlaşdırma, əmək*

Müasir dövrdə iqtisadiyyatın inkişafı daha çox informasiya resursları və mənbələrindən istifadə ilə əldə edilir. İnformasiyanın həm əsas daşıyıcısı və həm də istifadəçisi yüksək ümumtəhsil səviyyəsinə, elmi və peşəkar hazırlığa malik insandır. Bu mənada müasir şəraitdə mövcud elmi biliklərə malik olmaqla bərabər, bu bilikləri ümumiləşdirə bilən, təhlil edən, yeni elmi ideyalar, informasiya texnologiyaları, xidmət və məhsullarını yaradan ali təhsilli insanlara tələbat həddən çox artmışdır.

İnformasiya sistemlərində bir sıra nöqsanlar olur ki, bu da onların təşkili ilə bağlıdır. Belə nöqsanlardan ən əsası informasiyaların toplanması və hazırlanmasında kifayət dərəcədə operativliyin çatışmaması ilə əlaqədardır ki, bu da öz növbəsində istehsalın gedişində baş verən kənarlaşmaların vaxtında aradan qaldırılması üçün müvafiq idarəetmə qərarlarının qəbul edilməsini xeyli çətinləşdirir. Ona görə də informasiyaların verilməsinin ardıcıl operativ uçotu aparılmalıdır.

Mühüm nöqsanlardan biri də informasiyaların kifayət qədər etibarlı və əhatəli olmamasıdır. Bir sıra hallarda informasiyaların toplanması şərtlərinə qarşı vahid tələblər qaydası qoyulmur və onların düzgün uçotu aparılmır, informasiyalarda təsadüfi məlumatlar, göstəricilər özünə yer tapır, işin həqiqi vəziyyətini əks etdirmir. Belə informasiyalar əsasında aparılmış iqtisadi hesablamalar düzgün nəticələr vermir, dəqiqliyi təmin etmək üçün həmin hesablamaların yenidən aparılması isə öz növbəsində, artıq iş vaxtı sərfinə səbəb olur. Bu cür təhriflər respublikanın bir sıra firma və şirkətlərində, təsərrüfatlarında, bütövlükdə bəzi rayonlarda az olmamışdır.

İnformasiya axınlarında mövcud olan növbəti nöqsan onların tələbatdan artıqlığı halları ilə əlaqədardır. Plan-uçot və texniki informasiyaların lazım olduğundan artıqlığı toplanılan məlumatların qaydasızlığından irəli gəlir. Nəticədə, ixtisaslı işçilər heç bir istehsal, iqtisadi zəruriyyət olmadan artıq göstəricilərin, məlumatların və sənədlərin toplanması işləri ilə məşğul olur, onlara izafi vaxt sərf edirlər. Bu hal həm də süründürməçiliyə, bürokratik hallara gətirib çıxarır. Belə hallar bəzən yuxarı təşkilatların müəssisələrdən zəruri göstəricilərdən, hesabatlardan əlavə çoxlu məlumatların alınması nəticəsində də baş verir [4].

İdarəetmə sahəsində ən mühüm məsələlərdən, vəzifələrdən biri idarəetmə əməyinin mexanikləşdirilməsi və avtomatlaşdırılmasıdır. Müasir elmi-texniki inqilab istehsalı qabaqcıl əmək vasitələri ilə silahlandırmaqla bərabər, istehsala rəhbərliyi həyata keçirən idarəetmə aparatının özünü də qüdrətli bir texniki vasitə ilə silahlandırmağı tələb edir. Belə bir qüdrətli vasitə avtomatlaşdırma və mexanikləşdirmədir. İdarəetmə sahəsində əmək məsrəflərinin ildən – ilə həddən artıq çoxalması, köhnə vasitələrlə istehsala rəhbərliyin səmərəli olmaması müasir dövrdə idarəetmə əməyinin mexanikləşdirilməsi və avtomatlaşdırılmasını zəruri etmişdir. Texniki vasitələrlə iqtisadi informasiyalar bir neçə müvafiq çevrilmə mərhələsindən keçir. İnformasiyanın götürülməsi, yığılması və ötürülməsi və işlənilməsi indi müasir texniki vasitələrin köməkliyi ilə tətbiq edilir. Ona görə də idarəetmənin texniki vasitələri: yığma və ötürmə, götürmə, daxiletmə, işləyib hazırlama, saxlama, təqdimetmə və icraetmə kimi qruplara ayrılır.

İdarəetmənin texniki vasitələri XXI əsrdə sürətlə tərəqqi etməyə başlamışdır. İnformasiya ilə əlaqədar ilk texniki vasitələr aşağıdakılar olmuşdur: kiçik hesablama maşınları, dispetçer rabitəsi və sadə təşkilati texniki vasitələri. Bu cür texniki vasitələrdə iqtisadi informasiyalar əllə daxil edilir, onların yığılması, ötürülməsi, işlənib hazırlanması, saxlanılması və təqdim edilməsi vahid bir sistem halında birləşdirilmir, burada informasiya axınlarının mürəkkəb kibernetik, riyazi-iqtisadi sxemi, sistemi yoxdur [1, s. 117].

İstehsal maddi, texniki-texnoloji və informasiya axınlarının məcmusundan ibarətdir. Bu axınlarda hərəkət cisim və informasiyaların bir haldan başqa bir hala keçməsi ilə birlikdə baş verir. Həm maddi, həm də informasiya axınları vəhdət təşkil edir. Lakin bir çox hallarda məkan və zaman etibarilə ayrı-ayrılıqda hərəkət edir. Maddi axınlar, başqa sözlə, maddi istehsal məkan etibarilə insanın fiziki fəaliyyəti əlaqədardırsa, informasiya axınları insanın intellektual fəaliyyəti ilə bağlıdır.

İdarəetmə prosesi, həm də informasiya prosesləridir. Maddi istehsalda əmək aləti, əmək predmeti, əmək məhsulu olduğu kimi, informasiya proseslərində də mövcud olurlar. İstehsalın yuxarıdakı üç komponenti müəyyən substansiya kimi meydana çıxan informasiyadır. Belə ki, informasiya proseslərində əmək cismi operativ informasiyadır. Bu informasiya konkret zamanda idarəedilən obyektin vəziyyətini xarakterizə edir. İnformasiyanın işlənməsi sisteminə qarşı qoyulan şərtlər idarəetmə aparatı qarşısında qoyulan, həll ediləcək məsələlərin xarakterindən irəli gəlir.

Aşağıda bu tələblərə cavab verən təsnifat verilir:

a) böyük sürətlər tələb edən operativ rəhbərlik üzrə məsələlər. Adətən, istehsalın idarə edilməsində belə məsələlər daha çox meydana çıxır.

b) plan hesablamaları üzrə məsələlər. Bu məsələlərin həlli hesabat dövründə həyata keçirilir, emalın böyük sürətlərini tələb etmir. Lakin bütövlükdə, emala böyük həcmdə texniki və texniki-iqtisadi informasiya məruz qalır.

c) həlli böyük informasiya massivinin işlənməsi nəticəsində həyata keçirilən və yüksək operativlik tələb edən məsələlər, problemlər [3].

İdarəetmə əməyinin elmi təşkili üçün, hər şeydən əvvəl, informasiya işlənməsinin mərkəzləşdirilməsinin həyata keçirilməsidir. Bunun üçün informasiya hesablayıcı sistemi yaradılmışdır. İnformasiya işlənməsinin müxtəlif punktlarının və aralıq sənədlərinin ləğvini həyata keçirərkən yalnız ilkin informasiya və normativ informasiyanın istifadəsi nəzərdə tutulur. Bu informasiya özünün saxlanma və yaranma yerindən operativ şəkildə mərkəzə verilir. Burada isə onun işlənməsi baş verir.

İdarəetmə əməyinin elmi təşkilində onun mexanikləşdirilməsi və avtomatlaşdırılmasının planlaşdırılması mühüm məsələdir.

Müəssisədə əməyin mexanikləşdirmə vasitələrinin tətbiqinin planlaşdırılması üçün informasiyanın düzgün qiymətləndirilməsinin böyük əhəmiyyəti vardır, habelə mühəndis-texniki işçilərin və qulluqçuların əməyinin normalaşdırılması ilə əlaqədardır. Bu, hər şeydən əvvəl, bizə imkan verir ki, informasiyanın kəmiyyət və keyfiyyət xarakteristikasını müəyyən edək.

Bazar münasibətləri şəraitində iqtisadi proseslərdə kortəbii meyillərin artması informasiyaların dəqiqliyinə olan tələblər əhəmiyyətli dərəcədə yüksəltmişdir. Bu, birinci növbədə hazırlanmış ümumi informasiya həcmində səhvlərin xüsusi çəkisinin azaldılmasını nəzərdə tutur. Ona görə də burada ən vacib problemlərdən biri səhvlərin aşkara çıxarılması və onların aradan qaldırılmasıdır. Həm də nəzərə almaq lazımdır ki, bütün səhvləri eyni dərəcədə, səviyyədə aşkara çıxarmaq mümkün deyildir və bu səhvlər eyni dərəcədə idarəetməyə təsir etmir. Həm də eyni səviyyədə itkilərə səbəb olmur. Baş vermiş səhvlərin aradan qaldırılması üçün giriş informasiyanın özünün hadisə və prosesləri adekvat halda əks etdirə bilməsi və bu informasiyaların sonrakı mərhələlərində işlənib hazırlanmasının dəqiqliyi mühüm əhəmiyyət kəsb edir. İnformasiyalar iqtisadi proseslərin, hadisələrin immunitent mahiyyətini əks etdirməlidir. Ona görə də

buraxılan səhvlərin səbəbləri, onların təsnifatı və bu səhvlərə təsir edən amillər sistemli halda araşdırılmalıdır [2, s.95].

Yuxarıda göstərilən və digər nöqsanların aradan qaldırılması üçün ardıcıl və sistemli qaydada nəzarət işləri, nəzarət əməliyyatları aparılır. Məsələn, daxil olan məlumatlar üzrə nəzarət sifarişçinin sənədlərini, sənədlərin komplektləşdirilməsini, sənədlərin məntiqi nəzarətini, məlumatların maşın daşıyıcılarına verilməsi ilə bağlı nəzarətin operator tərəfindən vizual nəzarət, habelə müxtəlif metodlarla perfolentə nəzarət qaydasında həyata keçirilir. Həmin və digər metodların meydana çıxan və çıxa biləcək səhvlərin aradan qaldırılması və yaxud qarşısının alınması baxımından böyük əhəmiyyəti vardır. Əlbəttə, burada informasiyaların hazırlanması üçün səmərəli texnoloji prosesin seçilməsi də son dərəcə vacibdir. Qeyd etmək lazımdır ki, istər informasiyaların hazırlanmasında və istərsə də daha geniş miqyaslı səhvlərin artması hər hansı bir obyekt və yaxud prosesin idarə edilməsini çətinləşdirir.

**Ədəbiyyat**

1. Kərimov S. Q. İnformasiya sistemləri. Bakı: Elm, 2008, 412 s.
2. Əliyeva T.Ə. İdarəetmənin informasiya texnologiyaları. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2012, 370 s.
3. http://www.stat.gov.az/source/communication/az/024_1.xls.
4. http://www.stat.gov.az/source/communication/az/024_2.xls.

**Резюме**

***Магеррамова С.Р.***

**Недостатки информационного обеспечения бизнеса и проблемы организации эффективности информационных систем**

*В статье исследованы недостатки информационного обеспечения бизнес-деятельности и проблемы организации эффективности информационных систем. Рассмотрены основные требования, предъявляемые к системамразработки информации. Такжеобоснована необходимость планирования применения средств механизации труда на предприятии.*

***Ключевые слова:**информация, механизация, автоматизация, управление, планирование, труд*

**Summary**

***Maharramova S.R.***

**Disadvantages of Business Information Support and Problems of Organizing Information Systems Efficiency**

*The article examines the shortcomings of information support for business activities and the problems of organizing the effectiveness of information systems. The main requirements for information development systems are considered. Also, it way justified the necessity of planning the use of means of mechanization of labor in the enterprise.*

***Key words:** information, mechanization, automation, management, planning, work*

## REGİONAL İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASI İSTİQAMƏTLƏRİ

***Məmmədova E.Ş.***

*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.** Məqalədə regional iqtisadi təhlükəsizliyin təmin olunmasının əsas istiqamətləri nəzərdən keçirilmişdir. Regionların iqtisadi təhlükəsizliyinin formalaşması strukturuna baxılmışdır. Həmçinin regional siyasətin formalaşmasında iqtisadi təhlükəsizliyin tələblərinin nəzərə alınmasının vacibliyi əsaslandırılmışdır.*

***Açar sözlər:** region, iqtisadi təhlükəsizlik, iqtisadi siyasət, təhlükəsizlik göstəriciləri*

Regionların iqtisadi təhlükəsizliyi region iqtisadiyyatının sabitliyini, davamlılığını və mütərəqqi inkişafını, müəyyən bir müstəqillik və ölkənin iqtisadiyyatına inteqrasiyasını əks etdirən mövcud vəziyyət, şərtlər və amillərdən ibarətdir.

Regionun iqtisadi təhlükəsizliyi sistemi aşağıdakı istiqamətləri əhatə edir:

1. İqtisadiyyat sahəsində regionun maraqları.
2. Regionun iqtisadi təhlükəsizliyinə qarşı xarici və daxili təhlükələrin qiymətləndirilməsi.

3. İqtisadi siyasətin formalaşdırılması, institutsional dəyişikliklər, regional iqtisadiyyatın sabitliyini pozan və tək bir bazar məkanından çıxmağa gətirib çıxaran amillərin təsirini aradan qaldıran və ya azaldan zəruri mexanizmlər. Regionun iqtisadi təhlükəsizliyi problemlərinin ətraflı araşdırılmasının üzvi inteqrasiyasını təmin edəcək iqtisadi siyasətin formalaşdırılması metodlarını yaratmaq lazımdır.

4. Regionun iqtisadi təhlükəsizliyinin qorunması üçün təşkilati təminat. İqtisadi təhlükəsizliyin qorunması, regional iqtisadi maraqlara qarşı təhdidləri müəyyənləşdirmək və aşkar etmək üçün davamlı səylər tələb olunur. Onların qarşısını almaq və ya aradan qaldırmaq üçün tədbirlər hazırlamaq zəruridir.

Regional iqtisadi təhlükəsizlik sisteminin bu vahidlərini həyata keçirmək üçün müəyyən vasitələrə ehtiyac var. Bu cür vasitələr iqtisadi təhlükəsizlik göstəriciləri və onların ərazi dəyərləridir [3, s.472].

Regionun iqtisadi təhlükəsizliyinin strukturu üç əsas istiqamətə bölünə bilər.

1. Regionun rəqabət qabiliyyətini təmin edən və regionlararası və beynəlxalq ticarətə, əməkdaşlıq əlaqələrinə, elmi və texniki nailiyyətlərin mübadiləsinə imkan verəcək istehsal həcminin artması və keyfiyyətli məhsulun əldə edilməsi.

2. Regional iqtisadiyyatın sabitliyi və davamlılığı, bütün növ mülkiyyətin qorunması, biznes fəaliyyəti üçün etibarlı şərtlər və təminatlar yaradılması, iqtisadi cinayətlərə qarşı mübarizə, gəlir və xərclərin paylanmasının balanslaşdırılması.

3. Özünü inkişaf etdirmək bacarığı - investisiya və innovasiya üçün əlverişli bir iqlim yaratmaq, istehsalın davamlı modernləşdirilməsi, işləyən əhalinin peşə, təhsil və mədəniyyət səviyyəsinin artırılması.

Ölkənin regionlarının sosial-iqtisadi təhlükəsizliyinin formalaşması strukturu iqtisadi, ekoloji, hüquqi, geosiyasi və digər şərtləri təmin etmək üçün aşağıdakılar nəzərdə tutulmalıdır:

- resurs potensialı ilə bağlı ölkənin və onun ərazilərinin maraqlarının qorunması;
- mümkün böhran və gələcək inkişaf şəraitində regional strukturların qorunması və inkişafı üçün əsas şərtlərin mövcudluğu;
- yerli və dünya bazarlarında regionların rəqabət qabiliyyəti;
- ölkənin maliyyə vəziyyətinin sabitliyi;
- regional infrastrukturun inkişafı;
- müəssisələrin, birliklərin, regional maliyyə-sənaye qruplarının və komplekslərinin inkişafına yardım etmək;
- mümkün olan mənfi təsirlərdən qorunmaq üçün təhlükəsizliyin yaradılması [2, s. 117].

Regional iqtisadi siyasətin formalaşmasında, regional büdcələrin proqnozlaşdırılması və hazırlanması prosesində iqtisadi təhlükəsizliyin tələblərini nəzərə almaq vacibdir. Regional iqtisadi siyasətin formalaşmasının və regionun sosial-iqtisadi inkişafının proqnoz göstəricilərini iqtisadi təhlükəsizlik göstəriciləri ilə müqayisə etmək lazımdır. İqtisadi təhlükəsizlik göstəriciləri ilə müqayisədə daha aşağı proqnoz göstəricilərinə gəldikdə, region iqtisadiyyatını təhlükədən kənarlaşdırmaq, iqtisadi təhlükəsizliyin təhdidlərini və onların mənfi nəticələrini aradan qaldırmaq üçün bir sıra tədbirlər hazırlamaq lazımdır.

Regionun iqtisadi təhlükəsizliyini təmin etmək üçün tədbirlər və mexanizmlər sosial-iqtisadi inkişafın proqnozu ilə eyni vaxtda inkişaf etdirilir və regional iqtisadi siyasətin tərkib hissəsidir.

Regionlarının iqtisadi təhlükəsizliyinə qarşı təhdidləri zərərsizləşdirmək üçün vacib bir istiqamət regional iqtisadi siyasətin əsas məqsəd və vəzifələrinin həyata keçirilməsinə imkan verən normativ hüquqi bazanın inkişafıdır. Regional iqtisadi siyasətin hüquqi cəhətdən dəstəklənməsi təsərrüfat subyektləri arasındakı iqtisadi əlaqələrin inkişafına şərait yaradır.

Regionun iqtisadi təhlükəsizliyi baxımından maliyyə və iqtisadi məsələlər üzrə qərarların ekspertizasını aparmaq vacibdir. Belə təcrübə yalnız regional səviyyədə deyil, eyni zamanda dövlət səviyyəsində qəbul edilən ən mühüm normativ sənədlərə tabe olmalıdır. Eyni zamanda, dövlət səviyyəsində qəbul edilmiş qaydalar layihə mərhələsində araşdırılarsa və onların regionun iqtisadi təhlükəsizlik tələblərinə uyğun gəlməməsi mümkündürsə, onda tənzimləmələr aparılmalıdır. Regionun iqtisadi təhlükəsizliyinin gücləndirilməsi üçün iqtisadi inkişafın dövlət tənzimlənməsinin yaxşılaşdırılması, vahid risk nəzarəti sisteminin yaradılması, o cümlədən dövlət inflyasiyası, pul siyasəti, valyuta məzənnəsi, pul və maliyyə siyasətinə yönəldilməyə təşviq edilməlidir. İqtisadiyyatın real sektorunda idxalı əvəz edən məhsulların istehsalının dəstəklənməsi və təşviqi, innovasiyanın inkişafına dəstək, yüksək texnologiyalı məhsullar istehsalı da regionun təhlükəsizliyində vacib amillərdir [1, s.255].

Regiondakı vəziyyətin öyrənilməsi üçün iqtisadi təhlükəsizliyin monitorinqi aparılmalıdır. Bütün regionlarda sosial-iqtisadi təhlükəsizliyi qiymətləndirmək üçün vahid metodu tətbiq etmək əslində imkansızdır, çünki onların sosial-iqtisadi inkişaf şərtləri əhəmiyyətli dərəcədə fərqlənir. Hazırda Azərbaycanın regionlarının iqtisadi təhlükəsizliyinin hərtərəfli monitorinqində metodoloji inkişaflar və praktiki təcrübə mövcuddur. Ancaq bu monitorinq ən çox elmi layihələr çərçivəsində həyata keçirilir.

Regionun iqtisadi təhlükəsizliyini təmin etmək üçün hərtərəfli hədəflənmiş proqramların hazırlanması lazımdır. Hal-hazırda regional hədəflənmiş proqramların əksəriyyəti iqtisadi təhlükəsizliyə aid olduğunu qeyd etmək vacibdir.

Beləliklə, regionun iqtisadi təhlükəsizliyi sabitliyi, iqtisadi ərazinin inkişafının davamlılığını, müəyyən bir müstəqillik və ölkənin iqtisadiyyatı ilə qarşılıqlı əlaqəni şərtləndirən şərait və amillərin mövcud vəziyyətinin birləşməsidir.

**Ədəbiyyat**

1. Mahmudov M.M., Mahmudova İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2011. 370 s.

2. Костин В.И., Костина А.В. Национальная безопасность современной России. Экономические и социокультурные аспекты. М.: Либроком, 2013. 344 с.

3. Осипов В. И. Безопасность России. Правовые, социально-экономические и научно-технические аспекты. Региональные проблемы безопасности с учетом риска возникновения природных и техногенных катастроф. М. : Знание, 2009. 667 с.

**Резюме**

***Маммадова Е.Ш.***

**Направления обеспечения экономической безопасности регионов**

*В статье рассмотрены основные направления региональной экономической безопасности. Исследована структура формирования экономической безопасности регионов. Также обоснована необходимость учитывать требования экономической безопасности в формировании региональной политики*

***Ключевые слова:*** *регион, экономическая безопасность, экономическая политика, показатели безопасности*

**Summary**

***Mammadova E.Sh.***

**Directions for Ensuring the Economic Security of the Regions**

*The article describes the main directions of economic security of the region. The structure of the formation of the economic security of the regions is investigated. Also justified the need to take into account the requirements of economic security in the formation of regional policy*

***Key words:****region, economic security, economic policy, security indicators*

## EKOLOJİ MONİTORİNQİN PRİORİTET İSTİQAMƏTLƏRİ

***Məmmədova R.E.***

*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

***Xülasə.*** *Qlobal ekoloji qəzanın dərk edilməsi bəşəriyyəti böhran vəziyyətdən çıxış yollarının axtarılmasına məcbur edir. Sivilizasiyanın ekoloji cəhətdən balanslaşdırılmış inkişafa keçməsinin zəruriliyi, insan sivilizasiyasına qarşı yönəlmiş təhlükələrlə bilavasitə əlaqədardır, bəşəriyyəti böhran vəziyyətdən çıxış yollarını axtarmağa məcbur edir. İnsanı əhatə edən təbii mühitin qlobal monitorinq ideyası 1972-ci ildə Stokholm konfransında irəli sürülmüş və BMT-nin Rio-de Janeyro (1992) Konfransının materiallarında öz əksini tapmışdır. Ekoloji monitorinqin əsas məsələsi insan fəaliyyətinin təsiri nəticəsində təbii mühitin dəyişikliklərinin öyrənilməsi, təbii mühitdə baş vermiş dəyişikliklərin həm keyfiyyət, həm də kəmiyyət xarakteristikalarının alınmasıdır.*

***Açar sözlər:*** *ekoloji, monitorinq, ətraf mühit*

Dünya təcrübəsi göstərir ki, ekoloji problemlərin həllində ilk addım ətraf mühitin vəziyyətinə dair obyektiv məlumat əldə etməkdir. Belə məlumatların əldə edilməsinin yeganə yolu - monitorinq sistemi, ətraf mühitin vəziyyətinin qiymətləndirilməsi və proqnozlaşdırılması sistemidir. Milli təhlükəsizliyin ayrılmaz bir hissəsi olan ekoloji təhlükəsizlik, davamlı inkişaf üçün vacib şərtdir və təbii sistemlərin qorunması və ətraf mühitin keyfiyyətinin qorunması üçün əsasdır.

Monitorinq ətraf mühitin vəziyyətinin sistemli baxışı və təhlilidir. Monitorinq zamanı ilk olaraq onun kirlənmə dərəcəsinin, eləcə də biosferaya bu kirlənmələrin təsiri, ona edilən fəsadların dərəcəsi bəlliləşdirilir və kirlənmənin nəticəsinin nə olacağı haqqında proqnozlaşma aparılır.

Monitorinqin ən başlıca elementi təbii çevrənin durumunun dəyərləndirilməsidir. Bunu edərkən göstəricilərin seçimi, çevrənin obyektlərinin xarakteristikaları və onların dəyişmələri çox önəmlidir. Mühitin durumunu dəyərləndirmək və ola biləcək dəyişikliklərin proqnozunu vermək üçün biosferanın biotik və aboitil sahələrinə baxışların keçirilməsi olmalıdır. Havaya tullantıların həddi (HTH) bəlli vaxt ərzində havaya tullanan zərərli maddələrin hədd miqdarıdır. Ekoloji eksperiza – nəzərdə tutulan təsərrüfat və başqa növ işlərin ekoloji tələbatlara uyğunluğunun qurulmasıdır.Monitorinqlərin üç çeşidi vardır: sanitar-toksikoloji, ekoloji və biosfer.

Ekoloji monitorinq zamanı aşağıdakı işlər görülür: ekosistemlərdə, təbiətin komplekslərində dəyişmələrin qeydə alınması, onların məhsuldarlıq imkanlarının bilinməsi; təbii ehtiyatların, suyun, yerin, bitkilərin dinamikasının təyin edilməsi. Ekoloji monitorinqin vəzifəsi ekosistemlərdə antropogen xarakterli dəyişiklikləri ortalığa çıxartmaqdır.Bu baxımdan neft yataqları və onların inkişafı ilə bağlı istehsal sahələri ətraf mühitə, o cümlədən geoloji, ətraf mühitə olan çoxlu sayda antropogen təsir mənbələrindən ibarət kompleks təbii-texniki-genetik sistem yaradır. Bu şəraitdə ətraf mühitin idarəedilməsinin əsas prinsiplərindən biri müvafiq informasiya dəstəyinə əsaslanan sistemli bir yanaşmadır. Məlumat dəstəyi sistemi məkan strukturunun bərpasının mürəkkəbliyi və adekvatlığını təmin etməli, təbii və təbii-antropogen quruluşların xarici və daxili qarşılıqlı münasibətlərini əks etdirməlidir. Bu, öz növbəsində, ətraf mühitin vəziyyətinə dair birinci məlumatların əldə edilməsi, təhlil edilməsi və ümumiləşdirilməsi, neft yataqlarının təbii formasiyaların inkişafına mümkün təsir göstərməsi üçün müvafiq sistemin yaradılmasını tələb edir.

Aparılan ekoloji monitorinq işləri dənizdə və quruda ətraf mühitin mühafizəsini əhatə edən beynəlxalq konvensiyaların (Oslo-Paris konvensiyası, Tehran Çərçivə konvensiyası), Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, "Ətraf Mühitin Mühafizəsi haqqında" Qanunun 18-ci maddəsinin, Nazirlər Kabinetinin 1 iyul 2004-cü il tarixli 90 №li qərarı ilə təsdiq edilmiş "Ətraf mühitin və təbii ehtiyatların dövlət monitorinqinin aparılması qaydaları haqqında Əsasnamə"nin və ARDNŞ-nin müəssisə və təşkilatlarında ətraf mühitin qorunması, ekoloji təhlükəsizlik, təbii ehtiyatlardan səmərəli istifadə sahəsində praktiki fəaliyyətin istiqamətlərini müəyyən edən ARDNŞ-nin 12 may 2008-ci il tarixli 77 nömrəli əmri ilə təsdiq edilmiş "Ekoloji Siyasət" sənədinin müddəalarının tələbləri ilə tənzimlənir.

Ətraf mühitin mühafizəsi tədbirlərinin ən böyük təsiri onların həyata keçirilməsində yalnız istehsalın iqtisadi səmərəliliyini artırmaqla yanaşı, texnogen ekoloji yükü də azaldacaq texnologiya və texniki vasitələr (avadanlıq) istifadə edilərək əldə edilir. Bundan əlavə, ətraf mühit tədbirlərinin planlaşdırılması və həyata keçirilməsi şirkətin və ya onun biznes bölməsinin təbii-coğrafi və demoqrafik xüsusiyyətlərini nəzərə alaraq həyata keçirilməlidir.

Müasir dövrdə ekoloji vəziyyətin stabilləşdirilməsi tədbirləri daxilində ekoloji monitorinqin vahid dövlət sisteminin qurulmasına xüsusi önəm verilməsinin əsas məqsədi ölkənin müxtəlif regionlarında dövlət idarəçilik orqanlarının və təbiətdən istifadəçilərin ekoloji vəziyyət haqqında informasiya ilə təmin edilməsi, təbiəti mühafizə fəaliyyəti və ekoloji təhlükəsizlik sahəsində qərarların qəbul edilməsi prosedurunun informasiya dəstəyindən ibarətdir (1).

ARDNŞ-nin Ekologiya İdarəsi tərəfindən həyata keçirilən ekoloji monitorinqlərin tədqiqat obyekti Xəzər dənizinin Azərbaycan sektorunda ARDNŞ-ə məxsus neft-qaz yataqlarında və quru ərazilərində fəaliyyət göstərən neft-qazçıxarma idarələri və neft-qaz, neft-kimya emal müəssisələri, Hasilatın Pay Bölgüsü Sazişi üzrə Əməliyyat Şirkətləri və Birgə müəssisələrin saziş ərazilərinin istehsalat sahələrini əhatə edir.

Ekoloji monitorinqin aparılmasında məqsəd ARDNŞ-nin tabeliyində olan idarə və müəssisələrdə hər hansı istismar-əməliyyat işlərinin başlanmasına qədər ətraf mühitin təbii durumunun aşkarlanmasına yönəldilən ilkin vəziyyətin tədqiq edilməsindən, kəşfiyyat, qazma, neft-qaz hasilatı, emal və s. əməliyyatların və onlarla əlaqədar ətraf mühitə atılan tullantıların doğurduğu təsirlərin ciddilik səviyyəsini qiymətləndirmək məqsədilə tədqiqatların aparılmasından, istehsal prosesləri zamanı əmələ gələn bərk, maye və qaz halında olan çirkləndiricilərin kəmiyyətinə və keyfiyyətinə nəzarət edilməsindən, hava, su və torpaq mühitlərinin müəyyən edilməsi və ərazidə ekoloji tarazlığın bərpa edilməsi məqsədilə onların kimyəvi tərkibinin, çirklənmə dərəcəsinin, radioaktiv, hidrobioloji xüsusiyyətlərin tədqiq edilməsindən, beynəlxalq standartların tələbləri səviyyəsində qurulmuş kompleks tədqiqatlar laboratoriyasında götürülmüş nümunələrin analitik təhlillərinin aparılmasından və müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılması üçün təkliflərin verilməsindən ibarətdir.

ARDNŞ-nin Ekologiya İdarəsinin ətraf mühitin monitorinqi sahəsində əsas fəaliyyəti Şirkətin tabeliyində olan idarə və müəssisələrdə təbii və antropogen təsirlər nəticəsində ətraf mühitə yayılan zərərli qaz, maye və bərk halındakı tullantılara kəmiyyət və keyfiyyət cəhətdən nəzarətin elmi əsaslarla həyata keçirilməsi olub, hava, su, torpaq mühitlərinin vəziyyətlərinin qiymətləndirilməsi və proqnozlaşdırılması

məqsədi ilə onların kimyəvi tərkibini, çirklənmə dərəcəsini, radioaktiv, hidrobioloji xüsusiyyətlərini, fiziki xassələrini müəyyən edən müntəzəm müşahidə və tədqiqatlar sisteminin həyata keçirilməsindən ibarətdir (Socar.az).

Beləliklə, ətraf mühitin monitorinqi ətraf mühitin mühafizəsi, dövlət idarəçiliyi və hüquqi qurum funksiyası kimi xarakterizə edilə bilər. Ətraf mühitin vəziyyəti, xüsusilə də böyük şəhərlərdə və ekoloji təhlükəli obyektlər ətrafında vəziyyətin monitorinqi üçün yaxşı qurulan geniş miqyaslı və effektiv şəbəkə ekoloji təhlükəsizliyin təmin edilməsi və cəmiyyətin davamlı inkişafının əsasını təşkil edən mühüm elementdir.

**Ədəbiyyat**

1. Əhmədov Ş.Ə., Məmmədova Ş.İ. Ekoloji monitorinq. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, 2012, 120 s.
2. Mehdiyev A.Ş., Əzizov B.M., Mehdiyev C.S. Aerokosmik monitorinq. Bakı, Elm, 2005, 208 s.
3. www. Socar.az

**Резюме**

***Мамедова Р.Э.***

**Приоритетные направления экологического мониторинга**

*Понимание глобальной экологической катастрофы заставляет человечество искать пути выхода из кризисной ситуации. Необходимость перехода цивилизации к экологически сбалансированному развитию напрямую связана с опасностями, с которыми сталкивается человеческая цивилизация. Это вынуждает человечество искать пути выхода из кризиса. Идея глобального мониторинга природной среды, окружающей человека, была выдвинута на Стокгольмской конференции 1972 года и нашла отражение в материалах Конференции ООН,проведенной в Рио-де-Жанейро (1992 год). Основным вопросом экологического мониторинга является изучение изменений природной среды в результате деятельности человека, приобретение качественных и количественных характеристик природной среды.*

***Ключевые слова:*** *экономический, мониторинг, окружающая среда*

**Summary**

***Mammadova R.E.***

**Priority Directions of Environmental Monitoring**

*The global ecological catastrophe empowers humanity to seek a way out of the crisis situation. An irreversibility of transformation of civilizations into ecologically balanced instincts, with intrinsic connections, with the help of human civilization, entails humanity to seek out a crisis from the crisis. The idea of the Global Climate Change, surrounding human beings, was drawn to the Stockholm Conference in 1972 and reflected on the United Nations Conference in Rio de Janeiro (1992). The main question of ecological monitoring is the study of the results of the study, the result of which is the acquisition of qualitative and quantitative characteristics.*

***Key words:*** *ecologial, monitoring, environtment*

## MÜƏSSİSƏDƏ MƏHSULUN MAYA DƏYƏRİNİN AŞAĞI SALINMASI MƏNBƏLƏRİ VƏ YOLLARI

***Məsimzadə Ş.S.***
*Dövlət Gömrük Komitəsinin Akademiyası*

***Xülasə.*** *Maya dəyəri hər hansı təsərrüfat subyektinin fəaliyyətini səciyyələndirən qiymətləndirmə göstəricisidir. Çünki maya dəyəri müəssisənin bütün xərclərini özündə akumulyasiya etdiyindən, onun kəmiyyətinə bütün iqtisadi resurslardan istifadə olunmanın necəliyi əhəmiyyətli dərəcədə təsir göstərir. Bundan əlavə, məhsulun maya dəyəri iqtisadi səmərəliliyin əsas göstəricilərindən biridir. Bu baxımdan məqalədə məhsulun maya dəyəri, təsnifatı və onun aşağı salınması mənbələri və yolları öz əksini tapmışdır.*

***Açar sözlər:*** *maya dəyəri, məhsul, müəssisə, xərc, istehsal xərcləri*

Müəssisədə istehsalın cari məsrəfləri əsaslı vəsait qoyuluşlarını həyata keçirən zaman, onun ayrı-ayrı bölmələrinin fəaliyyətini və iqtisadi səmərəlilik səviyyəsini qiymətləndirmək və s. üçün nəzərə alınır. Maya

dəyəri göstəricisindən, habelə yeni texnikanın, texnoloji proseslərin, sərfəli materialların tətbiqi, istehsalın təşkilinin təkmilləşdirilməsinin iqtisadi səmərəliliyinin hesablanması, istehsalın ictimai təşkili formalarının səviyyəsinin məqsədəuyğunluğunun müəyyən edilməsində və bir çox başqa hallarda istifadə edilir. Maya dəyərinin təhlili əsasında məhsulun əməktutumlu, materialtutumlu, fondtutumlu olduğunu müəyyənləşdirmək mümkün olur. Bir sözlə, müəssisənin təsərrüfat fəaliyyətinin iqtisadi aspektlərinin öyrənilməsi - təhlili və tədqiqi və habelə qiymətləndirilməsində maya dəyəri göstəricisinin müstəsna əhəmiyyəti vardır. Bu isə öz növbəsində hər bir müəssisə üçün maya dəyərinin aşağı salınmasının ehtiyat mənbələrinin və amillərinin müəyyən edilməsində mühüm əhəmiyyət daşıyır [1].

Məhsulun maya dəyərinin aşağı salınması onu (maya dəyərini) əmələ gətirən bütün xərc ünsürləri üzrə mümkündür və onlardan hər birində daxili ehtiyatlar elmi-texniki tərəqqi ilə əlaqədar, demək olar ki, həmişə mövcuddur. Müəyyən mənada istisnalıq təşkil edən yalnız "Əmək haqqı xərcləri" ola bilər. Bu xərcə qənaət edilməsinə qərar vermək çox ciddi təhlil və tədqiqat tələb edir. Əmək haqqı hesabına maya dəyərinin aşağı salınması iqtisadi məsələdən öncə sosial-siyasi məsələdir. Lakin bu o demək deyildir ki, əmək haqqı üzrə lüzumsuz məsrəflərə laqeyd qalmaq olar. Bir sözlə, maya dəyərini bütün xərc ünsürləri üzrə aşağı salmaq yolu ilə istehsalçı müəssisə qiymət vasitəsilə manevr edə və "məskunlaşdığı" bazar sisteminin mühafizəsinə nail ola bilər. Maya dəyərinin durmadan aşağı salınmasının, az məsrəflə yüksək təsərrüfat nəticələrinə nail olunmasının ən öndə yolu qənaət rejiminin tətbiqi və ona əməl edilməsindən ibarətdir.Maya dəyərinin aşağı salınması yığımın çoxalması mənbəyi kimi eyni resurslar müqabilində daha çox məhsul istehsalını təmin edir. Ən əsası isə budur ki, bazarda məhsul kütləsinin artması və onların maya dəyərinin aşağı salınması sənaye məhsulunun qiymətlərini ucuzlaşdırır və nəticə etibarı ilə əhalinin sosial rifahı yüksəlir.Məhsulun maya dəyərinin aşağı salınmasının iqtisadi əhəmiyyəti istehsalın həcminin artması ilə əlaqədar mütəmadi olaraq çoxalır. Maya dəyərinin aşağı salınmasının ən vacib və iqtisadi cəhətdən əhəmiyyətli yolu istehsal miqyasının intensiv yolla genişləndirilməsidir. Çünki, məlum olduğu kimi, istehsalın intensivləşdirilməsi, əsasən, ya əlavə vəsait tələb etmir, ya da buna çox az hallarda ehtiyac yaranır.Məhsulun maya dəyərinin aşağı salınması işinin mütəşəkkil və müvəffəqiyyətlə aparılması üçün xərclərin azaldılmasının ehtiyat mənbələrinin müəyyən edilməsi çox vacib şərtdir [2].

Müəssisədə maya dəyərinin aşağı salınmasının mühüm ehtiyat mənbələrindən biri də əmək məhsuldarlığının yüksəldilməsidir. Bu onunla izah edilir ki, yeni texnikanın və qabaqcıl texnologiyanın tətbiqi ilə və bunun əsasında istehsalın təşkilinin mütərəqqi formalarına keçməklə, istehsalda çalışan hər bir işçiyə düşən məhsulun həcmi çoxalır. Bununla əlaqədar olaraq fəhlələrdən hər birinin əmək haqqı artsa da, bir məhsula düşən əmək haqqının ümumi məbləği azalır. Çünki bütünlükdə əmək haqqı xərcləri məhsulun artırılma həcminə mütənasib olaraq artmır. Belə mütənasiblik yalnız fəhlələrin əmək haqqına şamil oluna bilər. Müəssisədə maya dəyərinin aşağı salınmasmm başqa bir önəmli mənbəyi məhsul vahidinə xammal, material, yanacaq və enerji məsrəflərinin azaldılmasıdır [3].

Material məsrəflərindən qənaətə nəinki istehsal prosesində, həmçinin istehsal vasitələrinin istehsalçıdan alınıb gətirilməsi və anbarlaşdırılması zamanı da nail olmaq olar:sərfəli nəqliyyat növünün seçilməsi, istehsalçının məsafəcə yaxın regiondan tapılması, təchizatın tranzit növündən istifadə edilməsi, yükləmə-boşaltma işlərinin mexanikləşdirilməsi, nəticə etibarilə istehsal vasitələrinin və deməli, məhsulun maya dəyərinin ucuz başa gəlməsini təmin edir. Fondtutumlu sahələrdə maya dəyərinin aşağı salınmasının əsas istiqamətləri onların istehsal güclərindən istifadənin yaxşılaşdırılması, növbədaxili və növbəboyu boşdayanmaları azaltmaqla mövcud olan texnoloji və digər avadanlıqların maksimum yüklənməsidir. Nəticə etibarilə, bu, maya dəyərinin xərc maddəsi kimi amortizasiya ayırmalarının hər manatına məhsul istehsalını artırır, başqa sözlə, əsas fondlardan səmərəli istifadə olunur - amortizasiya ayırmalarından qənaət edilir.

Maya dəyərinin aşağı salınmasının başqa bir yolu istehsalın idarə olunması və ona xidmətlə əlaqədar olan xərclərin azaldılmasıdır.Bu xərclərə müəssisə və sexlərin inzibati-idarə işçilərinin əmək haqqı, poçt, teleqraf və ezamiyyə xərcləri, avadanlıq, bina və qurğuların saxlanması xərcləri, binaların qızdırılması və işıqlandırılması ilə əlaqədar olan xərclər və s. aiddir. Göstərilən xərclər həm də qeyri-müstəqil (dolayı) xərclərdir və onların həcmi məhsul istehsalının həcminin artma tempi ilə eyni kəmiyyətdə çoxalıb, artmır.

Maya dəyərinin aşağı salınmasının ehtiyat mənbələrindən qeyri-istehsal xərclərinə qənaəti də göstərmək olar.Qeyri-istehsal xərcləri məhsulun realizasiyası ilə əlaqədar olan xərclərdir. Buraya taralara çəkilən və hazır məhsulun qablaşdırılması və s. ilə əlaqədar olan xərclər aiddir. Müəssisənin gəlirlərinin azalmasına səbəb olan qeyri-məhsuldar xərclərin - cərimələrin, dəbbələmə pul vəsaitləri və s. azaldılması da dolayı yolla olsa da, maya dəyərinin aşağı salınması mənbələrindəndir. Maya dəyərinin aşağı salınması üçün yuxarıda haqqında bəhs olunan mənbələrdən istifadə edilməsi müxtəlif istiqamətli tədbirlər vasitəsilə həyata keçirilir[4]. Nəhayət, bir daha qeyd etmək lazımdır ki, istehsalın səmərəliliyinin, xüsusilə maya dəyərinin aşağı salınması hesabına yüksəldilməsinin ehtiyat mənbələri tükənməzdir. Çünki elmi-texniki yeniliklərin

istehsala tətbiqi fəaliyyətdə olan bütün normaları köhnəldir.Qəbul və tətbiq olunan yeni normalarla köhnələr arasındakı fərq istehsalda qənaəti formalaşdıran ehtiyat mənbəyinin realizə olunmasıdır ki, bu da, nəticə etibarilə, istehsalın qənaətlə aparılmasına, az xərclə daha yüksək təsərrüfat nəticələrinə nail olmağa təminat verir.

Müəssisədə məhsulun maya dəyərinin aşağı salınması amilləri dedikdə, artıq qeyd olunduğu kimi, bu azalmanı təmin edən şərtlər kimi başa düşülür. Bu amillərə aşağıdakılar aiddir [5]:

1. Məhsulun həcminin və quruluşunun dəyişilməsi;
2. İstehsalın texniki səviyyəsinin yüksəldilməsi;
3. İstehsalın və əməyin təşkilinin yaxşılaşdırılması. Müəssisədə istehsalın həcminin artması nəticəsində məhsul vahidinə düşən şərti-sabit xərclərin və amortizasiya ayırmalarının nisbi azalması baş verir. Digər tərəfdən müəssisədə istehsalın miqyasının artması nəticəsində qənaət aşağıdakı amillərlə də əlaqədardır:

- müəssisəsinin ölçüsü artdıqca istehsal fəaliyyətinin və onun idarə edilməsinin ixtisaslaşdırılması üstünlüklərindən istifadə imkanları artır;
- daha iri müəssisələrdə yeni, yüksək məhsuldarlıqlı avadanlıqlardan istifadə imkanları böyük olur;
- iri müəssisələrdə istehsalı diversifikasiyalaşdırmaq, müəssisənin profilini səciyyələndirməyən (yanakı) istehsallar təşkil etmək, istehsal tullantılarından istifadə olunma imkanları yaranır.

Məhsulun quruluşunun dəyişilməsi dedikdə, ümumi istehsal həcmində onun ayrı-ayrı növlərinin xüsusi çəkisinin dəyişilməsi nəzərdə tutulur. Bu dəyişilmə yeni məhsul modellərinin mənimsənilməsi və köhnələrinin istehsalının dayandırılması, habelə müxtəlif növdə məhsulların buraxılışının artım sürətlərinin fərqli olması ilə əlaqədardır. Müxtəlif rentabelli (maya dəyərinə görə) məhsulların tərkibində dəyişikliklər etməklə xərclərin azalmasına nail olmaq olar.Müəssisədə məhsulun keyfiyyətinin artırılması, bir qayda olaraq müəyyən əlavə xərclərlə bağlıdır. Keyfiyyətin yüksəldilməsi ilə əlaqədar xərclərin iqtisadi səmərəsinin hesablanması zəruridir və mümkündür.Azad rəqabətli bazarda keyfiyyətin artırılması hesabına məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsi və gəlirin əldə olunması böyük əhəmiyyət kəsb edir.

Müasir dövrdə istənilən təsərrüfat sisteminin inkişafında əsas elmi-texniki tərəqqi durur. Müəssisədə istehsalın səmərəliliyinin artırılması və məhsulun maya dəyərinin aşağı salınmasına əsasən yeni texnika və texnologiyanı tətbiq etməklə, istehsal proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılma səviyyəsini artırmaqla, tətbiq edilən texnika və texnologiyanı təkmilləşdirməklə, yeni, daha səmərəli xammal və material növlərini tətbiq etmək və onlardan istifadəni yaxşılaşdırmaqla, istehsal edilən məhsulun konstruksiyasını və texniki xarakteristikalarını yüksəltməklə nail olmaq olar. İstehsalın və əməyin təşkilinin yaxşılaşdırılması istehsalın idarə edilməsinin təkmilləşdirilməsini, istehsalın və əməyin təşkilinin yaxşılaşdırılmasını, istehsalın ixtisaslaşdırılmasının dərinləşdirilməsini, maddi-texniki təchizatın və maddi resurslardan istifadə edilməsinin yaxşılaşdırılmasını, nəqliyyat xərclərinin ixtisar edilməsini və istehsalın təşkilinin yüksəldilməsinin digər amillərini əhatə edir.

## Ədəbiyyat


1.Sadıqov Ə.A. Mühasibat uçotu.I və II hissələr. Bakı, 2002

2. Rzayev Q. Mühasibat uçotu və audit, Bakı, Təhsil, 2002.

2. Abbasov Q.Ə. Mühasibat uçotunun nəzəriyyəsi. Dərslik. Bakı, 2009.

4. Səbzəliyev S.M., Süleymanov S.M. , Cəfərov E.O. Kommersiya təşkilatları üçün Mühasibat Uçotu Standartlarının tətbiqinə dair metodik vəsait. Bakı, 2010.

5. Палий В.Ф. Комментария к новому плану счетов бухгалтерского учета. М.: 1992.


## Резюме


***Масимзаде Ш.С.***


**Источники и пути снижения себестоимости продукции на предприятии**


*Значение* **себестоимости** *характеризует показатели хозяйствующего субъекта. Поскольку стоимость утечки - это все затраты самого предприятия, степень использования всех экономических ресурсов оказывает существенное влияние на его количество. Кроме того, стоимость продукта является одним из основных показателей экономической эффективности. В связи с этим в статье изложены стоимость, классификация и источники продукта и его способы.*



***Ключевые слова:*** *себестоимость, продукт, предприятие, затраты, издержки производства*

**Summary**

***Masimzade Sh.S.***

**Sources and Ways of Decreasing Prime cost of Product in the Enterprise**

*The value of cost is an indicator of the nature of the economic entity. Since the cost of leakage is all the costs of the enterprise itself, the degree of use of all economic resources has a significant impact on its quantity. In addition, the cost of the product is one of the main indicators of economic efficiency. In this regard, the article describes the cost, classification and sources of the product and its methods.*

***Key words:*** *cost, product, enterprise, expense, production costs*

## ALTERNATİV ENERJİ MƏNBƏLƏRİNİN NORMATİV-HÜQUQİ ÇƏRÇİVƏDƏ İNKİŞAF ETDİRİLMƏSİ

***Muradova J.N.***

*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

***Xülasə****. Hazırda dünyanın, demək olar ki, bütün ölkələri öz enerji ehtiyaclarını neft, təbii qaz və kömür kimi ənənəvi enerji mənbələri hesabına ödəyir. Ənənəvi enerji resursları tükənəndir, ətraf mühit üçün zərərlidir və bundan başqa, artan enerji qiymətləri iqtisadiyyata da mənfi təsir göstərir. Bunun əksinə, AEM ekoloji cəhətdən təmiz və tükənməzdir.*

***Açar sözlər:*** *alternativ, enerji, resurs,elektrik enerjisi*

AEM-in səmərəli inkişafı üçün dövlət proqramları olduqca vacibdir. Azərbaycanda AEM-in inkişafı istiqamətində ən mühüm addımlardan biri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 21 oktyabr tarixli 462 №-li Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı”dır:

- elektrik enerjisi istehsalında alternativ (bərpa olunan) enerji mənbələrinin potensialını müəyyənləşdirmək;

-bərpa olunan enerji mənbələrini istismara cəlb etməklə, ölkənin enerji resurslarından istifadənin səmərəliliyini yüksəltmək;

- yeni enerji istehsalı sahələrinin yaradılması hesabına əlavə iş yerlərinin açılmasını təmin etmək.

Digər önəmli addım 2012-2020-ci illər üçün Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə dair Dövlət Strategiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamıdır. Sərəncamın 1-ci hissəsinə əsasən Dövlət Strategiyasının layihəsi hazırlanarkən ölkədə alternativ və bərpa olunan enerji mənbələri hesabına elektrik və istilik enerjisi istehsalı üzrə 2012-2020-ci illər üçün əsas istiqamətlərin müəyyənləşdirilməsi, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə sahəsində normativ hüquqi bazanın yaradılması, alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə dair stimullaşdırıcı tədbirlərin görülməsi, daxili və beynəlxalq elmi-texniki potensiala əsaslanmaqla, iqtisadiyyatın bütün sahələrində alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin təmin edilməsi nəzərdə tutulur.

AEM-ə dair dəstək siyasətinin əsas məqsədi bu cür mənbələrin inkişafına mane olan amilləri aradan qaldırmaq, bərpa olunan enerji mənbələri sənayesinin inkişafına təkan vermək, bərpa olunan enerji mənbələri bazarını yaratmaq, bu mənbələrin qiymət rəqabətliliyini artırmaq, ənənəvi enerji resurslarından istifadəni azaltmaqla enerji azadlığını dəstəkləmək və iqlim dəyişikliyi prosesinə müsbət təsir etməkdir. AEM-in inkişafı üçün aşağıda göstərilən bazar siyasəti amilləri mövcuddur. Müxtəlif ölkələrin təcrübələrinə nəzər yetirilərsə, bu istiqamətdə hər bir ölkənin öz siyasətinin və təcrübəsinin mövcudluğunu görmək olar. (2)

Alternativ enerji mənbələrindən istifadə müxtəlif ölkələrin yerləşdikləri regionların xüsusiyyətlərindən asılı olaraq fərqlənir. Məsələn, Almaniya və İsrail kimi inkişaf etmiş ölkələrdə bərpa olunan enerji mənbələrindən - günəş panellərindən istifadə əhəmiyyətli dərəcədə geniş yayılmışdır. İsrail AEM-dən istifadə imkanlarını 10%-ə çatdırmağı planlaşdırır. Xüsusilə bu mənbələrdən istifadə suvarma və yaşayış binalarında suyun qızdırılması istiqamətində daha əhəmiyyətlidir və davamlı inkişafın tərkib hissəsi kimi müəyyən edilmişdir.

Son illər İsraildə enerji sahəsində aparılan elmi-tədqiqat işləri, həmçinin dövlət və özəl sektor tərəfindən investisiyaların artımı nəticəsində bu sahədə müsbət nəticələr əldə olunmuşdur. Almaniya 2016-cı ildə günəş enerjisi istehlakını 50% artıraraq, enerji istehlakında 6.1%-ə çatdırmışdır. ABŞ-da isə son zamanlar külək enerjisindən istifadə çoxalmışdır. Təkcə 2015-ci ildə ABŞ ərazisində 3.464 ədəd külək turbini quraşdırılmışdır. Küləkli aylar ərzində ABŞ-da külək enerjisi ölkənin ümumi enerji istehlakının 6%-

ni təşkil edir. Azərbaycanın neft və qaz ölkəsi olmasına, həmçinin dünya enerji bazarına öz təbii resurslarını satmaqla iqtisadiyyatını inkişaf etdirməsinə baxmayaraq, uzunmüddətli davamlı inkişaf üçün ölkəmiz AEM-in inkişafına da diqqət yetirməlidir. Ölkədə bərpa olunan enerji mənbələrindən (su, külək və günəş enerjisi) istifadə potensialı əhəmiyyətli dərəcədə böyükdür.

**Azərbaycanda bərpa olunan enerji mənbələrinin potensialı**

| Potensialın növü | Gücü (MVt) |
|---|---|
| Günəş enerjisi | >5000 |
| Külək enerjisi | >4500 |
| Bio enerji | >1500 |
| Geotermal | >800 |
| Kiçik Su Elektrik Stansiyaları | >350 |

***Mənbə:*** *AlternativvəBərpaOlunanEnerjiMənbələri üzrə DövlətAgentliyi*

Azərbaycangünəşlivə küləkligünlərinmiqdarınagörə bərpa olunan enerji mənbələrinin potensialı baxımından əhəmiyyətli mövqeyə malikdir. Abşeron yarımadasında və Xəzər dənizinin sahilboyu ərazisində günəş işığının müddəti il ərzində 2500 saata, Naxçıvan Muxtar Respublikasında isə 2900 saata bərabərdir. Küləkenerjisinə gəldikdə isə məlumdurki, Abşeron yarımadası, Xəzər dənizinin sahilboyu əraziləri, Azərbaycanın qərb hissəsi (Gəncə-Daşkəsən) və NaxçıvanMR (Şərur-Culfa) böyük potensiala malikdir. Xüsusilə Abşeron yarımadasında külək enerjisi üçün yüksək potensial mövcuddur. Küləyin sürəti il boyu 3-7 m/san arasında dəyişir ki, bu da külək generatorları üçün mükəmmə lhesab edilir. Ümumiyyətlə, ölkədə illik 800 meqavata yaxın külək enerjis iehtiyatı mövcuddur. Bu enerji isə öz növbəsində ildə 1milyon ton şərti yanacağa qənaət etmək deməkdir. Hökumət AEM-dən istifadənin stimullaşdırılması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 oktyabr 2005-ci il tarixli 187 nömrəli ərəncamı ilə külək elektrik qurğularının idxalını gömrük vergilərindən və rüsumlarından azad etmişdir.(1)

Bütün bu potensialları nəzərə alaraq, ölkədə külək enerjisinin inkişafı istiqamətində külək turbinlərinin quraşdırılması və külək potensialından istifadə etməklə enerji istehsalı kimi bir sıra müsbət addımlar atılmışdır. 2004-cü ildə Caspian Technology şirkəti Bakıdan 55 km məsafədə yerləşən Yeni Yaşma regionunda pilot layihəsi çərçivəsində ilk külək turbini quraşdırmışdır. Bundan əlavə, 2010-cu ildə ölkədə 16 külək turbininin quraşdırılması işlərinə başlanılmışdır. Digər mühüm addım Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 6 yanvar 2007-ci il tarixli “Respublika ərazisində elektrik enerjisinin tariflərinin tənzimlənməsi” barədə 3 №-li Qərarıdır. Bu qərara əsasən külək elektrik stansiyalarının 1 kVt/saat üçün istehsal tarifi 4,5 qəpik (ƏDV ilə) miqdarında təsdiq edilmişdir. Lakin yuxarıda göstərilən potensiala baxmayaraq, ölkədə 2011-ci ildə elektrik enerjisində AEM-in payı 10% (9.8% hidroenerji, 0.2% digər) təşkil etmişdir. İstehlakın ümumi həcmində isə AEM-in payı 2,3% təşkil edir və 2020-ci ilədək bu göstəricinin 9,7%-ə çatdırılması planlaşdırılır. Bu baxımdan AEM-in gələcək potensialı nəzərə alınmaqla, son illərdə bu istiqamətdə bir sıra mühüm tədbirlər həyata keçirilmişdir

Dövlət proqramının önəmini nəzərə alaraq və bu proqramdan irəli gələn məsələlərin ardıcıl və səmərəli həyata keçirilməsini sürətləndirmək məqsədilə 2009-cu ildən etibarən Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin tərkibində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi yaradılmış və faktiki olaraq 2010-cu ildən fəaliyyətə başlamışdır. 2012-ci ilin 1 iyun tarixində Dövlət Agentliyi ləğv edilmiş və onun əsasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması sahəsində dövlət xidmətləri göstərən, habelə bərpa olunan enerji resursları mənbələrinin müəyyən olunmasını təşkil edən və bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirən Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Şirkəti yaradılmışdır. Sonradan isə ölkə Prezidentinin 2013-cü il 1 fevral tarixli 810 nömrəli Fərmanı ilə Dövlət Şirkəti yenidən təşkil olunaraq “Azalternativenerji” Məhdud Məsuliyyətli Cəmiyyət adlandırılmış və yeni yaradılmış ABEMDA-nın tabeliyinə verilmişdir. Dövlət Agentliyi tərəfindən 2011-ci ildə Qobustan rayonunun ərazisində Qobustan Eksperimental Poliqonu və Tədris Mərkəzi istifadəyə verilmişdir. Poliqonda dünyada analoqu olmayan hibrid tipli (külək, günəş və biokütlə) elektrik və istilik stansiyası yaradılmışdır.

Bizim fikrimizcə, ölkədə alternativ enerji mənbələrinin inkişafında yeni texnologiyalarının alınması və quraşdırılması sahəsində maliyyə və kredit mexanizmlərinin, ixtisaslaşmış mütəxəssislərin cəlb edilməsi məqsədəuyğun olardı.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikası Alternativ və bərpa olunan enerji mənbələri üzrə dövlət agentliyi.Info@area.gov.az

2. Cəlilov M.F. Alternativ Regenerativ enerji sistemləri. Dərslik, Bakı, 2009.
3. strategiya.az@mail.ru

**Резюме**

***Мурадова Ж.Н.***

**Развитие альтернативных источников энергии на нормативно-правовой базе**

*В настоящее время почти все страны мира оплачивают свои потребности в энергии за счет таких традиционных источников энергии, как нефть, природный газ и уголь. Традиционные энергоресурсы истощены, вредны для окружающей среды и рост цен на энергоносители также оказывает негативное влияние на экономику. Напротив, АИЭ экологически безопасны и неисчерпаемы.*

***Ключевые слова:*** *альтернатива, энергии, ресурс, электрическая энергия*

**Summary**

***Muradova J.N.***

**Development of Alternative Sources of Energy in the Normative-Legal Framework**

*At present, almost all countries in the world meet their energy needs at the expense of traditional energy sources, such as oil, natural gas and coal.Traditional energy resources are exhausted, harmful to the environment, and increasing energy prices also have a negative impact on the economy.In contrast, AES is environmentally clean and inexhaustible.*

***Key words:*** *alternative, energy, resource, electricity*

## SAHİBKARLIĞIN İNKİŞAFINDA KLASTER İNSTİTUTUNUN MALİYYƏ TƏMİNATININ ƏHƏMİYYƏTİ

***Musayeva S.F.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalədə sahibkarlığın inkişafinda klaster institutunun maliyyə təminatının əhəmiyyəti tədqiq olunmuşdur. Bu məqsədlə klaster institutunun iqtisadiyyatın inkişafında və onun strukturunun təkmilləşdirilməsində rolu açıqlanmışdır. Klaster mexanizmlərinin formalaşdırılmasında və tətbiqində maliyyə təminatının vacibliyi əsaslandırılmışdır. Sahibkarlığın inkişafinda klaster mexanizmlərinin multiplikativ rolu araşdırılmışdır. Sahibkarlıq fəaliyyətinin səmərəliliyinin yüksəldilməsində klasterlərin təsiri qiymətləndirilmişdir. Baxılan problemlər üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*

***Açar sözlər:****klasterlər, klaster institutu, klaster mexanizmləri, sahibkarlığın inkişafında klaster institutunun rolu, klaster institutunun maliyyə təminatı, maliyyə təminatının praktiki əhəmiyyəti, klaster mexanizmlərinin multiplikativ rolu*

Dünya iqtisadi prosesləri daim yeni mexanizmlərin tətbiqini şərtləndirir. Belə ki, qlobal təsir dairəsi artdıqca, iqtisadi transformasiyalar daha da dərinləşməkdədir və bütün bunlar milli iqtisadiyyatın strukturunun diversifikasiyalaşdırılmasını, daha səmərəli mexanizmlərinin tətbiqini şərtləndirir. Xüsusilə, yüksək texnologiyalar əsasında iqtisadiyyat sahələrinin inkişaf etdirilməsi prioritetlərinin reallaşdırılmasında çoxfunksiyalı iqtisadi mexanizmlərin əhəmiyyəti böyükdür. Dünyanın iqtisadi və texnologiyalar cəhətdən inkişaf etmiş ölkələrində bu kimi məqsədlər üçün klasterlərdən geniş istifadə edilir [1]. Klasterlər özündə eyni istiqamətli fəaliyyət növlərini cəmləşdirməklə bərabər, bu sahədə dövlət və özəl strukturları, investisiya və innovasiya birliklərini, istehsal və xidmət müəssisələrini, həmçinin elmi-tədqiqat, ali təhsil və peşə təhsili müəssisələrini birləşdirir [2]. Klasterlərdə müəyyən fəaliyyət istiqamətində geniş şəkildə tədqiqatların aparılması, alınan nəticələrin işlənməsi və fəal şəkildə istehsalata tətbiq edilməsi, müəssisələrin yaradılması, satış və nəqliyyat, logistika infrastrukturunun yaradılmasına ümumi yanaşmalar diqqət çəkir [3]. Klasterdə yer almış investisiya və digər maliyyə fondları investisiya layihələrinin qarşılıqlı şəkildə baxılması, əsaslandırılması və risklərin əsasən daha səmərəli idarə edilməsi mexanizmlərinin formalaşdırılmasına nail olmaq mümkündür [4].

Klasterlər komplekslilik prinsipi əsasında iqtisadi mexanizmlər kimi kifayət qədər bir- birinə oxşar fəaliyyət göstərən, eyni zamanda bir-birilə əlaqəli təsərrüfat – kooperasiya prosesləri olan fəaliyyət istiqamətlərinin formalaşdırılması və təşkili məqsədi ilə yaradılır. Bu tip klasterlərin əsas məqsədi zəruri

infrastrukturun formalaşdırılmasından və inkişaf etdirilməsindən ibarətdir [5]. Təşkil olunduğu ərazidə və yaxın regionlarda mövcud olan təbii resurslardan, həmçinin iqtisadi resurslardan maksimum səmərəli istifadənin təmin edilməsi, işçi qüvvəsindən və əmək ehtiyatlarından istifadəyə münbit şəraitin yaradılması və geniş çeşiddə sənaye məhsullarının istehsal edilməsiklasterlərin qarşısında duran strateji vəzifələrdəndir. Xüsusilə, regionlarda yaradılan klasterlər daha çox multiplikativ səmərə verirlər [6]. Digər tərəfdən, innovativ inkişafın genişləndirilməsində, innovasiyaların yayılması, işlənməsi və tətbiqində klasterlərin çoxfunksiyalı xüsusiyyətləri yüksək səmərə vermək potensialına malikdir. Buna görə də iqtisadiyyatın innovasiyalaşdırılması proseslərində klaster mexanizmləri kifayət qədər cəlbedici hesab olunur [7]. Bundan başqa, klasterlər vasitəsilə milli iqtisadiyyatın müxtəlif sahələrinin modernləşdirilməsi, yeni texnologiyaların tətbiqinin təşkili prioritetlərində də fəal istifadə üzrə dünya təcrübəsi diqqət çəkir [8].

Qeyd edək ki, klasterlər özündə dövlət, özəl və biznes sahibkarlıq subyektləri, maliyyə qurumları və kredit təşkilatları, ali təhsil və peşə məktəbləri, investisiya fondları və s. qurumları birləşdirməklə formalaşır. Klasterlərinin əsas xüsusiyyətləri - klaster iştirakçılarının ümumi oxşar maraqlarının olması və istehsal olunan məhsulların çeşidinin bir-birindən çoxda fərqlənməməsi ilə bağlıdır [9]. Bir çox ölkələrdə iqtisadiyyatın müxtəlif sahələrində sənaye klasterlərinin yaradılması hesabına müxtəlif sənaye sahələrinin inkişafının sürətləndirilməsinə, o cümlədən aqrar-sənaye kompleksinin dayanıqlı inkişafının təmin edilməsinə nail olunmuşdur [10].

Baxmayaraq ki, klaster institutu ölkəmiz üçün yeni fəaliyyət mexanizmidir, artıq bu mexanizmin iqtisadi sistemdə yer alması üçün elmi-praktiki fikirlərin formalaşdırılması və yanaşmaların müəyyənləşdirilməsi prosesləri gedir. Lakin ölkəmizdə bu sahənin təşkili və inkişaf etdirilməsi üçün təcrübə yoxdur, bu baxımdan klaster institutunun dünya təcrübəsinə uyğun şəkildə öyrənilməsi, ümumiləşdirilməsi, əldə edilən nəticələrin tətbiqi istiqamətində təsirli tədbirlərin görülməsi zərurəti vardır. Belə ki, klasterlərin səmərəli fəaliyyəti vasitəsilə milli iqtisadiyyatımızın əsas mexanizmlərinin təkmilləşdirilməsi və onların rəqabətqabiliyyətliliyinin artırılması mümkün ola bilər.

Ümumilikdə klaster institutundan dünya təcrübəsinə uyğun olaraq istifadənin təmin edilməsi üçün bir sıra məsələlərə ciddi önəmin verilməsinə ehtiyac vardır:

✓ müasir dövrdə Azərbaycanda milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsində və bunun üçün çoxfunksiyalı iqtisadi mexanizmlərin müəyyənləşdirilməsində klaster institutunun rolundan səmərəli və fəal şəkildə istifadə edilməsi konsepsiyası hazırlanmalıdır;

✓ klaster institutunun inkişafı hesabına Azərbaycanda məhsuldar və səmərəli fəaliyyət istiqamətlərinin formalaşdırılması və milli iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsində onların rolunun gücləndirilməsi tədbirləri görülməlidir;

✓ klasterlərin yaradılması və fəaliyyətinin intensivləşdirilməsi yolu ilə iqtisadiyyatın müxtəlif sahələrinin inkişafının sürətləndirilməsi strategiyası hazırlanaraq reallaşdırılmalıdır;

✓ Azərbaycanda klasterlərdən istifadənin səmərəliliyinə nail olunması üzrə strateji hədəflər və prioritetlər kompleks və sistemli şəkildə müəyyənləşdirilməli, onların adekvat fəaliyyət mexanizmləri tətbiq edilməlidir və s.

**Ədəbiyyat**

1. Ketels C. The Development of the Cluster Concept present experiences and further developments // Harvard Business School. - http://www.isc. hbs.edu/pdf/rontiersofClusterResearch2003.11.23.pdf.

2. Phillips P.W. Building Research Clusters: Exploring Public Policy Options for Supporting Regional Innovation. http://www.iphandbook.orghandbook.

3. Solvell O. Clusters. Balancing Evolutionary and Constructive Forces. http://www.clusterresearch.org/redbook.htm.

4. Боуш Г.Д. Формирование и развитие промышленных кластеров: теория и методология. Дисс. д-ра экон.наук. Санкт-Петербург, 2012, 434 с.

5. Тарасов Н.А. Стратегические приоритеты воспроизводственной кластеризации регионального экономического пространства. Дисс. д-ра экон. наук, 2012 год, Санкт-Петербург, 354 с.

6. Məmmədov R.M. Ölkə regionlarında klasterlərin yaradılması və inkişafı məsələləri. İ.f.d. diss-nın avt-tı. Bakı, 2011, 24 s.

7. Алиев Т.Н. Инновационное развитие промышленности Азербайджана: нефтепереработка, химия и нефтехимия. Москва-Берлин, «Palmarium», 2016.-232 с.

8. Əliyev Ş.T. Xüsusi iqtisadi zonalarin tətbiqi problemləri. Monoqrafiya. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 2011-ci il I "Qrant" müsabiqəsinin əsasında layihəsi hazırlanmışdır). Bakı, 2012, 360 s.
9. Əliyev Ş.T. Milli iqtisadiyyatın inkişafının sürətləndirilməsində sənaye klasterlərinin tətbiqini şərtləndirən amillər //Audit, № 4, 2015, s.73-79.
10. Qurbanzadə A.A. XXI əsr: dayanıqlı inkişafın aqrar-sənaye klaster faktoru. Monoqrafiya. Bakı: Kooperasiya nəşriyyatı, 2015, 216 s.

**Резюме**

***Мусаева С.Ф.***

**Важность финансового обеспечения института кластера в развитии предпринимательства**

*В статье исследованаважность финансового обеспечения института кластера в развитии предпринимательства. С этой целью раскрыта роль института кластера в развитии и совершенствовании структуры экономики. Обоснована важность финансового обеспечения формирования и применения кластерных механизмов. Анализирована мультипликативная роль кластерных механизмов в развитии предпринимательства. Оценено влияние кластеров на повышение эффективности предпринимательской деятельности. Подготовлены рекомендации и даны предложения по рассматриваемым проблемам.*

***Ключевые слова:*** *кластеры, институт кластера, кластерные механизмы, роль института кластера в развитии предпринимательства, финансовое обеспечение института кластера, практическая значимость финансового обеспечения, мультипликативная роль кластерных механизмов*

**Summary**

***Musayeva S.F.***

**Importance of Financial Ensuring of Institute of a Cluster in Business Development**

*Importance of financial ensuringof institute of cluster in business development isinvestigated in the article. The role of institute of cluster in development and improvement of structure of economy is given for this purpose. Importance of financial ensuringof formation and use of cluster mechanisms is improved too. The multiplicative role of cluster mechanisms in business development is analyzed then. Influence of clusters on increase in efficiency of business activity is estimated. Recommendations and offers on the considered problems are given in the end of the article.*

***Keywords****: clusters, institute of cluster, cluster mechanisms, a role of institute of cluster in development of an entrepreneurship, financial ensuring of institute of cluster, the practical importance of financial ensuring, a multiplicative role of cluster mechanisms*

## QRAFOANALİTİK ÜSULLA IV SİNİF STRUKTUR QRUPUNDA TƏCİLLƏR MƏSƏLƏSİNİN HƏLLİ

***Mustafayev V.S.***
*Mingəçevir Dövlət Universiteti*

***Xülasə.*** *IV sinif Assur (struktur) qrupunun təcillərinin təyini məsələsi nəzərdən keçirilmişdir. Məsələ dörd oxşarlıq əmsalının tapılması ilə həll edilmiş, təcillər planı qurulmuşdur.*

***Açar sözlər:*** *Assur (struktur) qrupu, təcillər planı, üçbucaqların oxşarlığı, oxşarlıq əmsalları*

Assur (struktur) qruplarından II və III sinfə aid olanlarının kinematikası kifayət qədər tədqiq edilmişdir. IV sinif Assur qruplarının isə yalnız strukturu araşdırılmış [1 ... 4] və sürətlərinin təyini məsələsi [5]öyrənilmişdir. Digər kinematik parametrlərin – təcillərin təyini məsələsini nəzərdən keçirək.

Tərkibindəki kinematik cütlərin hamısının fırlanma hərəkətli olduğu hala baxaq. Qeyd edildiyi kimi, qəbul edirik ki, hər hansı vəziyyət üçün qrupun sürətlər məsələsi həll edilmiş [5], *3* və *5* bəndlərinin əsas mexanizmin *1* və *2* bəndləri ilə fırlanma cütləri əmələ gətirən kənar elementlərinin *A* və *D* nöqtələrinin təcilləri isə verilmişdir (şəkil1). Qrupun bəndlərinin təcillərini təyin edək.

*3* bəndinin *AB* və *AF* oxlarını, *5* bəndinin isə *DC* və *DE* oxlarını uzadıb, uyğun olaraq, *S* və *T* kəsişmə nöqtələrini (Assur nöqtələrini) qeyd edirik. *S* və *T* nöqtələri, uyğun olaraq, *4* və *6* bəndlərinə mənsub nöqtələrdir.

$\pi$ qütb nöqtəsi qeyd edirik və *A* və *D* nöqtələrinin $\overline{a_A}$ və $\overline{a_D}$ təcillərini $\mu_a$ miqyası ilə təsvir edən $\overline{\pi a}$ və $\overline{\pi d}$vektorlarını ayırırıq. *S* nöqtəsinin $\overline{a_S}$ təcili aşağıdakı tənliklər sistemindən təyin edilir:

$$\left.\begin{aligned}\overline{a_S} &= \overline{a_A} + \overline{a_{BA}^n + a_{SB}^n} + \overline{a_{BA}^t + a_{SB}^t} = \overline{a_A} + \overline{a_{SA}^n} + \overline{a_{SA}^t}\\ \overline{a_S} &= \overline{a_D} + \overline{a_{CD}^n + a_{SC}^n} + \overline{a_{CD}^t + a_{SC}^t} = \overline{a_D} + \overline{a_{SD}^n} + \overline{a_{SD}^t}\end{aligned}\right\}.$$




**Şəkil 1.**

Tənliklərdə normal və tangensial təcillərin cəmi, uyğun olaraq, $\overline{a_{SA}^n}$, $\overline{a_{SD}^n}$ və $\overline{a_{SA}^t}$, $\overline{a_{SD}^t}$əvəzləyici vektorları ilə işarə edilmişdir, belə ki, müvafiq toplananların istiqamətləri eynidir.

Normal nisbi təcillərin qiymətləri müvafiq nisbi sürətlərə əsasən məlum qayda ilə təyin edilir:

$$a_{BA}^n = \frac{v_{BA}^2}{l_{BA}}, a_{SB}^n = \frac{v_{SB}^2}{l_{SB}}, a_{CD}^n = \frac{v_{CD}^2}{l_{CD}}, a_{SC}^n = \frac{v_{SC}^2}{l_{SC}}.$$

Bu vektorların istiqamətləri də məlum qayda ilə verilmiş sxemə əsasən təyin edilir. Təcillər planında $\overline{a_{SA}^n}$ təcilinin sonunu əks etdirən $n_{SA}$ nöqtəsindən $\overline{a n_{SA}}$ vektoruna (verilmiş sxemdə *AS* düz xəttinə), $\overline{a_{SD}^n}$təcilinin sonunu əks etdirən $n_{SD}$nöqtəsindən $\overline{a n_{SD}}$ vektoruna (verilmiş sxemdə *DS* düz xəttinə) çəkilmiş perpendikulyar düz xətlərin *s* kəsişmə nöqtəsi $\overline{a_S}$təcil vektorunun sonunu əks etdirir.

Oxşar qayda ilə aşağıdakı tənliklər sistemindən *T* nöqtəsinin $\overline{a_T}$ təcili təyin edilir:

$$\left.\begin{aligned}\overline{a_T} &= \overline{a_A} + \overline{a_{FA}^n + a_{TF}^n} + \overline{a_{FA}^t + a_{TF}^t} = \overline{a_A} + \overline{a_{TA}^n} + \overline{a_{TA}^t}\\ \overline{a_T} &= \overline{a_D} + \overline{a_{ED}^n + a_{TE}^n} + \overline{a_{ED}^t + a_{TE}^t} = \overline{a_D} + \overline{a_{TD}^n} + \overline{a_{TD}^t}\end{aligned}\right\}.$$

$\overline{a_{TA}^n}$təcilinin sonunu əks etdirən $n_{TA}$nöqtəsindən $\overline{a n_{TA}}$ vektoruna (verilmiş sxemdə *AT* düz xəttinə), $\overline{a_{TD}^n}$təcilinin sonunu əks etdirən $n_{TD}$nöqtəsindən $\overline{a n_{TD}}$ vektoruna (verilmiş sxemdə *DT* düz xəttinə) çəkilmiş perpendikulyar düz xətlərin *t* kəsişmə nöqtəsi $\overline{a_T}$təcil vektorunun sonunu əks etdirir.

*B*, *C*, *E* və *F* nöqtələrinin $\overline{a_B}$, $\overline{a_C}$, $\overline{a_E}$ və $\overline{a_F}$ təcillərinin plandakı $\overline{\pi b}$, $\overline{\pi c}$, $\overline{\pi e}$ və $\overline{\pi f}$ təsvirlərini qurmaq üçün elə müvafiq *b*, *c*, *e* və *f* nöqtələri tapılmalıdır ki, aşağıdakı şərtlər ödənilsin:

1) *b* nöqtəsi $n_{BA}$nöqtəsindən keçən və $\overline{a n_{BA}}$ vektoruna (verilmiş sxemdə *AB* düz xəttinə) perpendikulyar olan *bb* xətti, *c* nöqtəsi $n_{CD}$nöqtəsindən keçən və$\overline{d n_{SD}}$ vektoruna (verilmiş sxemdə *DC* düz

xəttinə) perpendikulyar olan *cc* xətti, *e* nöqtəsi $n_{ED}$nöqtəsindən keçən və$\overline{dn_{ED}}$ vektoruna (verilmiş sxemdə *DE* düz xəttinə) perpendikulyar olan *ee* xətti, *f* nöqtəsi isə $n_{FA}$nöqtəsindən keçən və $\overline{an_{FA}}$ vektoruna (verilmiş sxemdə *AF* düz xəttinə) perpendikulyar olan *ff* xətti üzərində olmalıdır ($\overline{an_{BA}}$ vektoru $a^n_{BA}$ təcilinin, $\overline{dn_{SD}}$ vektoru $a^n_{SD}$ təcilinin, $\overline{dn_{ED}}$ vektoru $a^n_{ED}$ təcilinin, $\overline{an_{FA}}$ vektoru $a^n_{FA}$ təcilinin planda təsvirləridir);

2) təcillər planındakı və verilmiş sxemdəki uyğun üçbucaqlar oxşar olmalıdır:

$\Delta\, abf \sim \Delta\, ABF, \quad \Delta\, scb \sim \Delta\, SCB, \quad \Delta\, dec \sim \Delta\, DEC, \quad \Delta\, tfe \sim \Delta\, TFE.$

Oxşarlıq şərtinə görə tərəflər və bucaqlar arasında aşağıdakı bərabərliklər ödənilməlidir:

$$\frac{ab}{AB} = \frac{fa}{FA} = k_1; \quad \frac{bs}{BS} = \frac{sc}{SC} = k_2; \quad \frac{cd}{CD} = \frac{de}{DE} = k_3; \quad \frac{et}{ET} = \frac{tf}{TF} = k_4, \qquad (1)$$

(burada $k_i(i = \overline{1 \dots 4})$ – oxşarlıq əmsallarıdır);

$$\angle baf = \angle BAF; \angle csb = \angle CSB; \angle edc = \angle EDC; \ \angle fte = \angle FTE. \qquad (2)$$

Hər iki şərti analitik olaraq aşağıdakı şəkildə ifadə etmək olar:

$$\left.\begin{aligned} (bs)^2 &= (n_{BA}b - n_{SA}s)^2 + (n_{BA}n_{SA})^2 \\ (sc)^2 &= (n_{CD}c + n_{SD}s)^2 + (n_{CD}n_{SD})^2 \\ (et)^2 &= (n_{ED}e - n_{TD}t)^2 + (n_{ED}n_{TD})^2 \\ (tf)^2 &= (n_{FA}f + n_{TA}t)^2 + (n_{FA}n_{TA})^2 \end{aligned}\right\} \qquad (3)$$

(1) bərabərliklərini və:

$n_{BA}b = \sqrt{(ab)^2 - (an_{BA})^2},$

$n_{CD}c = \sqrt{(cd)^2 - (dn_{CD})^2},$

$n_{ED}e = \sqrt{(de)^2 - (dn_{ED})^2},$

$n_{FA}f = \sqrt{(fa)^2 - (an_{FA})^2}.$

olduğunu nəzərə alsaq, (3) tənliklər sistemi aşağıdakı şəklə düşər:

$$\left.\begin{aligned} &(\sqrt{(k_1(AB))^2 - (an_{BA})^2} - n_{SA}s)^2 + (n_{BA}n_{SA})^2 = (k_2(BS))^2 \\ &(\sqrt{(k_3(CD))^2 - (dn_{CD})^2} + n_{SD}s)^2 + (n_{CD}n_{SD})^2 = (k_2(SC))^2 \\ &(\sqrt{(k_3(DE))^2 - (dn_{ED})^2} - n_{TD}t)^2 + (n_{ED}n_{TD})^2 = (k_4(ET))^2 \\ &(\sqrt{(k_1(FA))^2 - (an_{FA})^2} + n_{TA}t)^2 + (n_{FA}n_{TA})^2 = (k_4(TF))^2 \end{aligned}\right\} \qquad (4)$$

Beləliklə, məsələnin həlli (4) tənliklər sistemindən $k_i(i = \overline{1 \dots 4})$ məchullarının tapılmasına gətirilir ki, bu məchullar ilə $b$, $c$, $e$ və $f$ nöqtələri müəyyən edilir. $k_i(i = \overline{1 \dots 4})$ məchulları isə müasir hesablama texnologiyalarından istifadə etməklə optimallaşdırma üsullarından biri ilə, məsələn, istiqamətlənmiş axtarış üsulu ilə tələb tələb olunan dəqiqliklə tapıla bilər.

Qurulmuş planından$\overline{a_B}$, $\overline{a_C}$, $\overline{a_E}$ və $\overline{a_F}$ sürətlərinin qiymətləri təyin edilir:

$a_B = \mu_a(\pi b); \ a_C = \mu_a(\pi c); \ a_E = \mu_a(\pi e); \ a_F = \mu_a(\pi f).$

## Ədəbiyyat


1. Kəngərli A.M. Maşın və mexanizmlər nəzəriyyəsi. Bakı: Müəllim,2004.
2. Артоболевский И.И. Теория механизмов и машин. М.: Наука, 1986.
3. Левитский Н.И. Теория механизмов и машин. М.: Наука, 1990.
4. Фролов К.В. и др. Теория механизмов и механика машин. М.: Изд-во МГТУ им.Баумана, 2002.
5. Mustafayev V.S., Mustafayev R.P. IV sinif Assur qrupunun sürətlərinin təyini /"Maşınqayırmada intellektual texnologiyalar" Beynəlxalq elmi-texniki konfransının materialları, Bakı, 2016.



## Резюме

*Мустафаев В.С.*

**Решение задачи ускоренийв структурной группеIV класса графоаналитическом способом**

*Рассмотрен вопрос определения ускорений группы Ассура (структурной группы) IV класса. Задача решена нахождением четырёх коэффициентов подобия, построен план ускорений.*

***Ключевые слова:*** *структурная группа (группа Ассура), план ускорений, подобие треугольников, коэффициенты подобия*

**Summary**

***Mustafayev V.S.***

**Solution of Acceleration Issue in IV Class Structure Group by Graphoanalytical Method**

*The problem of determination the accelerations of Assur (structure) group of IV class is considered. The problem is solvedby finding the four similarity coefficients; the plan of accelerations is drawn.*

***Key words:****Assur (structure) group, plan of accelerations, similarity of triangles, similarity coefficients*

## AZƏRBAYCANDA ELEKTRON TİCARƏTİN İNKİŞAFI PROBLEMLƏRİ

***Nəcəfova Ç.M.***

*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalədə müəllif internet ticarətinin inkişaf problemlərini nəzərdən keçirmiş və bu ticarət sektorunun inkişafına mane olan problemlər sırasını təyin etmişdir. Elektron ticarətin inkişafına mane olan başlıca səbəblər: online iqtisadi proseslərdə iştirakçıların aşağı səviyyədə təlimə malik olması, psixoloji maneə, istehlakçı güvənliyi, elektron ödəniş sistemləri, şəbəkələrdə saxtakarlıq əməliyyatları, satınalmalardan tez-tez imtina, elektron təcrübənin olmaması, ixtisaslı, təlim keçmiş idarəetmə və marketinq işçilərinin olmamasıdır.*

***Açar sözlər***: *elektron ticarət, dövriyyə, iqtisadiyyat, internet ticarət, onlayn mağaza*

Məlumdur ki, Azərbaycan Respublikası elektron ticarət bazarının həm dövriyyə, həm də təşkilat baxımından xarici ölkələrdən geridə qalır. Bu fərqi aradan qaldırmaq üçün elektron ticarət sahəsində Azərbaycan biznesinin inkişafını ləngidən problemləri araşdırmaq lazımdır. Onların əksəriyyəti internetlə deyil, biznes proseslərin yenilənməsi ilə bağlıdır. Biz tədqiqat işimizdə Azərbaycanda elektron ticarətin inkişafının ən vacib problemlərini nəzərdən keçirmişik:

1. Logistika problemləri - çatdırılma onlayn mağazada ən əhəmiyyətli proseslərdən biridir. Bu satıcı və alıcı arasındakı əlaqədir. Malların alıcıya çatdırılmasının müxtəlif üsulları mövcuddur. Çatdırılmanı müəssisə öz imkanları hesabına təşkil edə bilər, lakin bu böyük maliyyə xərcləri hesabına başa gəlir: saxlama otaqlarının icarəsi, kuryer əməkdaşlarına xidmət və s. Əgər kuryerlərin sayı kifayət qədər deyilsə, sifarişlər müştərilərə müəyyən gecikmə ilə çatdırılır ki, bu da mağazanın nüfuzuna mənfi təsir göstərir. Kuryerlərin malları oğurlaması faktları da qeydə alınmışdır. Əslində, şəxsi imkanları hesabına çatdırılma xidmətini təşkil etmək çox çətindir, çünki xidmətlərin göstərilməsində iştirak edən işçilərin sayı həddindən çox olur. Şəxsi anbarın olmaması çatdırılma müddətini əhəmiyyətli dərəcədə artırır, çünki kuryer ilk növbədə anbar təminatçısından malı götürməli və sonra onu təyinatına çatdırmalıdır. Ümumiyyətlə onlayn mağazaların auditoriyası bir yaşayış məskəni ilə məhdudlaşmır. Buna görə də, xaricdə olan müştərilərə xidmət funksiyasını üçüncü şəxslərə həvalə etmək lazımdır. Belə hallarda poçt xidmətindən istifadə edilir [2].

Dövlət poçtu xidməti vasitəsilə çatdırılma nisbətən ucuz başa gəlir. Ancaq, ölkə daxilində minlərlə insanın təcrübəsindən, poçt xidmətinin başqa bir tərəfi də vardır. Bağlama bir həftə, ay, hətta iki aylıq müddətdə çatdırıla bilər. Bundan əlavə, bağlama bəzən itirilir və ya başqa bir ünvana göndərilir. Bu amillər onlayn mağazanın nüfuzuna heç də müsbət təsir etmir. Dövlət poçtuna alternativ xüsusi kuryer xidməti mövcuddur. Ancaq bu cür xidmətlərin xərcləri olduqca yüksəkdir və bəzi hallarda məhsulun dəyərindən artıq ola bilər. İnternet sahibkarlar hər hansı bir çatdırılma üsulunun seçilməsi barədə qərar qəbul edərkən analitik məlumatlara əsaslanmalıdırlar. Hansı variantın seçimi zamanı zərərin minimal olacağı və yaxud satış xərclərinin çatdırılma xərclərini üstələyəcəyi müəyyənləşdirilməlidir.

2. Online alış-verişin inkişafında başqa bir əhəmiyyətli problem müxtəlif çeşidli məhsulların idarə olunmasıdır. Yeni bir onlayn mağaza açarkən dərhal məhsulların tam çeşidi ilə bağlı məsələ qalxır. Əgər anbar az miqdarda populyar məhsulla doldurularsa, satışda ciddi problem yarana bilər. Bundan başqa, konkret bir məhsulun satışına meyl etmək də düzgün deyildir. Bu dilemmanı həll etmək üçün mütəmadi olaraq bazarın marketinq analizi aparılmalı və ən populyar məhsullar müəyyən olunmalıdır [1].

Elektron ticarətin özünəməxsusluğu ondan ibarətdir ki, bir çox mağazaların funksiyası əsasən sifarişləri qəbul etməyə yönəldilməsidir. Şirkətdə sifariş edilən məhsullar mövcud olmaya bilər, ancaq anbarda olan məhsullar təklif edilirsə, satışın miqdarı əhəmiyyətli dərəcədə azalar. Belə situasiyalar da olur ki, mal sifariş üçün siyahıda olmasına baxmayaraq, təchizatçının anbarında mövcud olmur. Nəticədə, müştərilər tərəfindən haqqı ödənilmiş sifarişləri təchizatçılar onlayn mağazaya təqdim edə bilmirlər, mağaza

isə öz növbəsində müştəriyə çatdıra bilmir. Sifarişlərin yüksək səviyyədə yerinə yetirilməsini təmin etmək üçün, mağaza menecerləri təchizatçıları diqqətlə seçməlidir və yalnız malların elan edilmiş və faktiki çeşidi arasında ən az fərqli olanlarla əməkdaşlıq etməlidirlər.

3. Azərbaycanda internet ticarətinin inkişafı ilə bağlı bir problem də ödəniş sistemlərinin qeyri-mükəmməl olmasıdır. Burada sadəlik ondan ibarətdir ki, istifadəçinin identifikasiya olunmasının dəqiq və birmənalı yolu yoxdur. Buna görə də, pulun köçürüldüyü adamı tapmaq demək olar ki, mümkün olmur. Burada məsləhət – tanımadığın adamlara (yaxud inam doğurmayan) istifadəçinin dəqiq və birmənalı indentifikasiyasını təmin edə bilməyən ödəniş sistemləri vasitəsilə pul köçürmək olmaz. Statistikaya görə, əksər hallarda ödənişlər mallar alındıqda həyata keçirilir. Ən çox poçt vasitəsilə ödəniş üsulundan istifadə olunur. Bu isə satıcı üçün, əvvəlcədən ödəmə olmadığı üçün,demək olar ki, əlverişli deyil. Satıcılar, əldə olunmağına tam əmin olmadıqları malların alınması üçün sərmayə qoymalı olurlar [3].

Azərbaycanda elektron pul vəsaitlərinin inkişafına mane olan amilləri nəzərdən keçirək. Bunlardan birincisi, qanunvericilikdə və bank sistemində "boşluq"ların olmasıdır. Müştərilər öz bank kartlarını internetdə "işıqlandırmaq"dan ehtiyat edirlər. Eləcə də elektron ödəniş sistemləri ilə bağlı vəziyyət də fərqlidir (WebMoney, Yandex Money və s.). İnsanlar internetdə elektron pul kisəsi saxlamağa daehtiyat edirlər, təhlükəsizlik konsepsiyasını real təhlükəsizlik və ehtimal olunan təhlükəsizlik olaraq iki yerə bölmək lazımdır. Bütün elektron ödəniş sistemlərinin real təhlükəsizliyi yüksək səviyyədədir. Ödəmə sistemi çərçivəsində hazırda mövcud olan təhlükələrə adekvat tədbirlər görülür.

"Yandex Money"in nümunəsində elektron ödəniş sisteminin nə olduğunu nəzərdən keçirək. İstifadəçilərə əlçatan olan iki identifikasiya növü mövcuddur: standart və genişləndirilmiş. Standart giriş istifadə edərkən, istifadəçi bir istifadəçi adını, parolunu və ödəniş parolunu istifadə edərək adi şəkildə ödəniş həyata keçirir. Bundan əlavə, istifadəçi elektron marker (identifikasiya nömrəsi) istifadə edə bilər. Elektron token istifadə edən istifadəçilərin sayı çox azdır. Müştəri həmişə istədiyi halda bu funksiyadan istifadə edə biləcəyini bilir. Əlavə olaraq istifadəçiyə elektron ödəniş sisteminin və onlayn mağazaya ödənişlərin təhlükəsizliyi haqqında məlumat verilməlidir.

4. İnformasiya sistemlərində internet-mağazaların fərdi məlumatların emalı problemi Azərbaycan elektron ticarət bazarında əsas problemlərdən biridir. Ölkə ərazisində fərdi məlumatların işlənilməsi ölkə başçısının11 may 2010-cu il tarixində imzaladığı "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçirilməlidir. Bu Qanun fərdi məlumatların toplanması, işlənməsi və mühafizə olunması ilə əlaqədar münasibətləri, milli informasiya məkanının fərdi məlumatlar hissinin formalaşdırılması, habelə fərdi məlumatların transsərhəd ötürülməsi ilə əlaqədar məsələləri tənzimləyir, bu sahədə fəaliyyət göstərən dövlət və yerli özünüidarə orqanlarının, hüquqi və fiziki şəxslərin hüquq və vəzifələrini müəyyən edir [4].

Hazırda Azərbaycanda çox sayda onlayn mağazalar var: böyük və ya kiçik, müəyyən bir məhsul üzrə ixtisaslaşdırılmış və ya geniş çeşidli, yerli və ya respublika səviyyəli və s. Lakin bu bazarlarda uğurlu fəaliyyət göstərmək üçün ilk növbədə müştəriyə qayğı göstərmək, xidmət səviyyəsini artırmaq və dolayısı ilə mağazaya sadiqliyi artırmaq lazımdır. Buna nail olmaq üçün logistika proseslərini diqqətlə nəzərdən keçirmək, çatdırılma şərtlərini pozmamaq, alıcıya bir sıra maraqlı məhsul və xidmətləri, rahat ödəniş metodlarını təklif etmək və daima yeni xidmətlər yaratmaq məqsədəuyğun sayılır.

## Ədəbiyyat


1. Аналитическое агентство: исследования и консалтинг.DATA insight., Платформа интернет-магазина:/ URL: 2014.pdf.

2. "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanunu. 11 may 2010-ci il.

3. Интернет в России: Динамика проникновения. Весна 2015 / URL: http://fom.ru/SMI-i-internet/12275

5. WILDBERRIES- интернет магазин / http://www.wildberries.ru


## Резюме


***Наджафова Ч.М.***


**Проблемы развития электронной торговли в Азербайджане**


*В статье автором рассмотрены проблемы развития интернет-торговли, определил круг проблем, сдерживающих развитие этого сектора торговли. Основные сдерживающие факторы в развитии электронной коммерции: низкий уровень подготовки участников онлайн-экономических процессов, психологический барьер, недоверие потребителей, системы электронных платежей,*

*мошеннические операции в сетях, частые отказы от покупок, отсутствие опыта электронных покупок, нехватка квалифицированных подготовленных управленческих и маркетинговых кадров с соответствующей подготовкой для ведения торговли в среде Интернета.*
***Ключевые слова***: *интернет-торговля, оборот, экономика, интернет, коммерция, электронная торговля*

**Summary**

***Najafova Ch.M.***

**Problems of Electronic Trade Development in Azerbaijan**

*In the article, the author reviewed the problems of the development of Internet commerce, and determined the range of problems hindering the development of this trade sector. The main constraints in the development of e-commerce are a low level of training of participants in online economic processes, a psychological barrier, consumer distrust, electronic payment systems, fraudulent operations in networks, frequent refusals from purchases, lack of electronic experience shopping, lack of qualified, trained management and marketing personnel with appropriate training for doing business on the Internet.*
***Keywords***: *electronic trade, turnover, economy, internet commerce, online market*

## MÜƏSSİSƏDƏ İSTEHSALIN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI YOLLARI

***Pənahova G.T.***
*Sumqayıt Dövlət Universiteti*

**Xülasə.** *Məqalədə istehsalın genişləndirilməsi və onun səmərəliliyinin artırılması yolları araşdırılmışdır. İstehsalın səmərəliliyinin yüksəldilməsində keyfiyyətin idarə edilməsi sisteminin rolu tədqiq edilmişdir. Keyfiyyətin idarə edilməsi sisteminin təşkili üçün səbəblərə baxılmışdır.*

***Açar sözlər:*** *istehsal, səmərəlilik, keyfiyyət, idarəetmə, sertifikatlaşdırma*

Müəssisənin səmərəli işləməsi üçün istehsalın optimallaşdırılması vacibdir. Hər bir müəssisə mövcud ehtiyatların rasional bölünməsi problemi ilə üzləşir: maksimum mənfəət əldə etmək və istehsal xərclərini azaltmaq üçün resursları necə bölüşdürmək olar? Bir şirkətin və ya firmanın hər bir menecerini bu suallar maraqlandırır. Müəssisədə istehsalı genişləndirmək və onun səmərəliliyini artırmaq üçün xüsusi kompleks tədbirlər hazırlanır. Ancaq, ilk növbədə, hansı istiqamətlərə diqqət yetirməlidir? Bunu başadüşmək lazımdır.

İstehsalın səmərəliliyinin artırılması yolları - müəyyən sahələrdə fəaliyyətin artması ilə bağlı geniş bir fəaliyyət sistemidir. İstehsal fəaliyyətinin səmərəliliyini xarakterizə edən bir çox göstəricilər vardır. Məsələn, rentabellik, likvidlik, əmək məhsuldarlığı, əməktutumu, məhsulların maddi istehlakı, resursların istifadəsi, investisiyanın intensivliyi və s. Müəssisənin səmərəliliyinin mühüm göstəricisi onun rəqabətqabiliyyətidir. Mühüm amil isə innovasiyalı inkişafdır. Yeni texnologiyaların yaradılması, yüksək texnologiyalı avadanlıqların və yeni nəsil texnologiyasının inkişafı - bu, səmərəli təşəbbüsün açarıdır. Bu, ilk növbədə, məhsuldarlığı artırır. İkincisi, istehsal xərclərini azaldır. Üçüncüsü, bu, əməyin təşviq edilməsini yaxşılaşdırır. Dördüncüsü, sifariş və intizamı gücləndirir. Əsas vəsaitlərin maksimal istifadəsi istehsalın səmərəliliyinin əhəmiyyətsiz göstəricisidir. İstehsal gücünün sıx istifadəsi nəticəsində şirkət maksimum avadanlıq istifadə edir, bu da istehsalın artmasına gətirib çıxarır və öz növbəsində, hazır məhsulların əlavə pul vəsaitləri olmadan artırılmasını təmin edir.

İstehsalın səmərəliliyinin artırılmasında mühüm yeri təşkilati və iqtisadi aspektlər tutur. Onların rolu istehsalın genişlənməsi və iqtisadi əlaqələrin artan mürəkkəbliyi ilə artır. Bu aspekt məhsulun səmərəliliyinin səviyyəsinə təsir edən istehsal və sosial infrastrukturun daha da inkişaf etdirilməsi və təkmilləşdirilməsi üçün zəruridir. Bütövlükdə istehsalın səmərəliliyi üçün idarəetmə, planlaşdırma və iqtisadi stimulların forma və metodlarını təkmilləşdirmək lazımdır.

Bazar iqtisadiyyatının müasir şəraitində müəssisənin dayanıqlı qalması üçün digər müəssisələrlə rəqabət aparmaq lazımdır. Bu əsasən keyfiyyətli məhsul istehsalı sahəsində olmalıdır.

Məhsulun keyfiyyəti bütün müəssisələrin fəaliyyətində mühüm prioritet olmalıdır. Bu məqsədlə ölkə müəssisələrinin rəhbərliyi təşkilatların fəaliyyətinə keyfiyyətin idarəetmə sistemini təqdim etməlidir. İSO 9000 standartlarına cavab verən keyfiyyət sistemləri təşkilatlarda keyfiyyət problemlərini effektiv həll etmək üçün bir vasitədir. Tələblərə uyğunluğu təsdiq edən sertifikat müəssisədə istehsal olunan məhsulların rəqabət qabiliyyətinin təmin olunmasında zəruridir [1,2].

Keyfiyyət sistemi bir müəssisənin bütün aspektlərini əhatə edir:

- istifadə edilən xammalın keyfiyyəti;
- məhsulların standartlaşdırılması və sertifikatlaşdırılması;
- malların və xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması proqramlarının hazırlanması və həyata keçirilməsi;
- istehsalda itkinin azaldılması;
- malların və xidmətlərin keyfiyyətini tənzimləyən standartların və digər normativ sənədlərin hazırlanması;
- ixtisaslı mütəxəssis hazırlığı və s.

Keyfiyyətin idarə edilməsi korporativ idarəetmənin əsas funksiyasıdır. Bundan başqa, bu sistem təkcə istehsal müəssisələri üçün deyil, həm də xidmət sektorunda olan təşkilatlar üçün vacibdir. Təşkilatın mal və xidmətlərinin keyfiyyəti istehlakçıları qaneetmə qabiliyyətinə malikdir və müvafiq maraqlı tərəflərə qəsdən və ya istəksiz şəkildə təsir göstərir. Bu məqsədlə istehlakçıya verilən dəyər və faydaları nəzərə alır. Yəni şirkət istehlakçıya nə lazımdırsa istehsal etməlidir. Bu, şirkətin nüfuzundan asılı olacaq. İstehlakçı qiymətə uyğun olan etibarlı və yüksək keyfiyyətli məhsul əldə etməlidir, həmçinin yüksək keyfiyyətli və vaxtında xidmət göstərməlidir [4].

Keyfiyyət idarəetmə sistemi təşkilatın istənilən nəticələrə nail olmaq üçün tələb olunan prosesləri və resursları müəyyənləşdirən hərəkətləri ehtiva edir və onun məqsədlərini müəyyən edir. Qiymətləndirilməsi və müvafiq maraqlı tərəflər üçün nəticələrin verilməsi məqsədilə lazım olan prosesləri və resursları idarə edir. Üstəlik, qərarların uzunmüddətli və qısa müddətli nəticələrini nəzərə alaraq, resursların istifadəsini optimallaşdırmağa imkan verir [3].

Keyfiyyət idarəetmə sisteminin təşkili üçün əsas səbəblər aşağıdakı cədvəldə göstərilmişdir.

**Keyfiyyətin idarə edilməsi sisteminin təşkili üçün səbəblər**

**Cədvəl**

| | |
|---|---|
| 1 | Müəssisənin ölçüsündən asılı olmayaraq, sertifikatlaşdırılmış məhsul və xidmətlərin bazar tələbatı. |
| 2 | Müsabiqələr və tenderlərdə iştirak edərkən əlavə bonuslar verən təşkilatın imicini yaxşılaşdırmaq. |
| 3 | Məhsulun sertifikatlaşdırılması təşkilatın risklərini azaltmaqda mühüm amildir, bununla da investorlar şirkətin fəaliyyətini əlavə olaraq maliyyələşdirməkdə maraqlı olurlar. |
| 4 | İstehsalda zay məhsulun azalması müəssisənin sabitliyini saxlayaraq istehsal xərclərini azaldır. |
| 5 | Keyfiyyətin idarəetmə standartlarının tətbiqi ilə təşkilatın fəaliyyət göstəricilərinin tədricən artması. Bu göstəricilər aşağıdakılardır: müəssisənin rentabelliyi, təşkilatın likvidliyi, işçilərin əmək məhsuldarlığı, əməyin intensivliyi, məhsulların maddi istehlakı, resursların istifadəsi, investisiyaların intensivliyi kapital avadanlıq və s. |
| 6 | Keyfiyyətin idarə edilməsi sistemi sayəsində aydın şəkildə iştirakçıların bölüşdürülmə və sertifikatlaşdırılmış proseslərdə məsuliyyətini artırır. Nəhayət, təşkilatın ümumi idarəolunması artır, bu da şirkət rəhbərliyi üçün müsbət haldır. |

Beləliklə, müəssisənin fəaliyyətinin səmərəliliyini artırmaq üçün keyfiyyət idarəetmə sistemini tətbiq etmək lazımdır. Bu, istehsalda qüsuru, bununla da xərcləri azaldır; məhsulun keyfiyyətini və ona tələbatı artırır. Nəticədə mənfəətin yüksəldilməsinə gətirib çıxarır. Beləliklə, bu amillər şirkətin müasir dünya bazar iqtisadiyyatında digər firmalarla müqayisədə daha rəqabətli olmasına kömək edəcəkdir.

## Ədəbiyyat


1. Агарков А. П. Управление качеством: учебник для бакалавров. М.: Дашков и К, 2015.204 с.
2. Азаров В. Н. Всеобщее управление качеством. М.: Учебно-методический центр по образованию на железнодорожном транспорте, 2013,572 с.
3. Ильенкова С. Д. Управление качеством: учебник для студентов вузов, обучающихся по специальностям экономики и управления. М.: ЮНИТИ-ДАНА, 2013,287 с.
4. Магомедов Ш. Ш. Управление качеством продукции. М.: Дашков и К, 2013, 336 с.

**Резюме**

***Панахова Г.Т.***

**Пути повышения эффективности производства на предприятии**

*В статье изучаются вопросы расширения производства и пути повышения ее эффективности. Исследована роль системы управления качества в повышении эффективности производства.*

***Ключевые слова:*** *производство, эффективность, качество, менеджмент, сертификация*

**Summary**

***Panahova G.T.***

**Ways to Improve Production Efficiency in the Enterprise**

*The article examines the expansion of production and ways to improve its efficiency. The role of the quality management system in increasing production efficiency is investigated.*

***Key words:*** *production, efficiency, quality, management, certification*

## DÖVLƏTİN MİLLİ İQTİSADİ MƏNAFELƏRİ TƏMİN ETMƏSİ ÜZRƏ SİYASƏTİ

***Rüstəmbəyov H.B.***
*Bakı Dövlət Universiteti*
***Məhərrəmov A.M.***
*Bakı Dövlət Universiteti*

Dövlətin fəaliyyəti hər şeydən öncə sosial-iqtisadi siyasətin nəticələri baxımından qiymətləndirilir. Bu da təbiidir, çünki burada dövlətin təsərrüfat həyatındakı islahatlardan, müvafiq olaraq əhalinin əsas hissəsinin onunla təmas səviyyəsi və əldə edəcəkləri mənfəətləri təsbit etmək tələb olunur. Yetkin bazar münasibətlərinin bərqərar olduğu dövlətlərdə bəzi alimlər(V.Repke) dövlətin iqtisadiyyatda oynadığı rolu futbol hakiminin yerinə yetirdiyi funksiyalara bənzərdirdilər - o, özü oynamır, lakin oyunun qaydaların riayət edilməsinə ciddi nəzarət edir. Araşdırma kontekstindən asılı olaraq, dövləti gecə gözətçisinə, yaxud növbətçi yanğınsöndürənə oxşadanlarda vardır. Postsovet ölkələrində isə dövləti uzun müddət ərzində yadların sahib olduğu evi bərpa edən mühəndis ilə müqayisə etmək yerinə düşərdi. O, hər şeyi yenidən qurmağa məcburdur-bünövrəsindən başlamış dizayna qədər, evin yeni funksional təyinatı və milli siması formalaşır. Belə bir fikir ilərazılaşmaq olar ki, ya siz öz milli evinizdə yaşayırsınız, ya evinizi karvansaraya çevirirsiniz[3, 112]. Lakin müasir "milli ev" zəruri kommunikasiyalar, təhlükəsizlik, davranış qaydaları tələb edir. Onlar dövlət tərəfindən təmin olunur, bu səbəbdən də təəccüblü deyildir ki, bəzi tədqiqatçılar hesab edirlər ki, müasir dünyada milli dövlətlər iqtisadiyyatdan daha fundamental faktor kimi çıxış edirlər. Məhz dövlət iqtisadiyyatın inkişaf istiqamətlərini müəyyənləşdirir və iqtisadi amilləri nəzərə almalıdır. Belə bir istiqamətin əsas vasitəsi institusional və struktur dəyişiliklərdir. Belə bir yanaşmada milli bazar subyektləri üzərində dövlət himayəsi iqtisadi inkişafın mühüm aspektidir.

Dövlət siyasəti qarşısında duran ikinci mühüm məsələ iqtisadiyyatdakı problemlərin həlli ilə bağlıdır. Bu problemlər istehsalın ixtisaslaşmasında yaranan ziddiyyətlərin həlli, sahələrarası əlaqələrin simmetriyası ilə bağlıdır.

Yuxarıda göstərilənlərlə əlaqədar məşhur Peru iqtisadçısı Ernando de Sotonun baxışları diqqəti cəlb edir. O, öz müsahibələrinin birində islahatların həyata keçirilməsində mühüm məqamlardan biri kimi dəyişikliklərin başlanğıcını və liderin şəxsi xüsusiyyətləri ilə bağlı olduğunu qeyd edir. O, hesab edir ki, bütün bunlar bizim nəzarətimizdən kənardadır, bir çox halda təsadüfidir. Bəzən insanlar tarixi seçim qarşısında qalarkən bu çağırışlara layiqli cavab verərək ölkələrini düzgün istiqamətləri doğru aparırlar. Bəzən isə yaranmış imkanlardan kifayət qədər istifadə olunmur, bundan sonra hadisələrin daha uğurlu məcralarda inkişaf etməsini gözləmək qalır. Uğurlu məcra nə deməkdir, onun koordinatları nədən ibarətdir? Bu suallara cavab verərkən onlara nail olmaq üçün əlverişli şəraitin yaradılması və insanların mənafelərinin təmin edilməsi ön plana çıxır. Bu mənada iqtisadi təşkilatlandırmada ən səmərəli inkişaf istiqaməti kimi milli, dövlət tərəfindən tənzimlənən liberal, lakin sosial inkişaf tipi götürülə bilər. Özündə bazar dinamizminin üstünlüklərini birləşdirən və insanların həyat səviyyəsini yüksəlişinə nail ola bilən belə bir inkişaf modeli daimi yenilənməyə, innovasiyalara yol açaraq, onları milli dəyərlər şkalası üzrə qəbul etmiş olur, bazarın spesifik tələbatlarına və konkret sosial məqsədlərə uyğunlaşdırılır. Nəticədə, təkcə ümummilli məhsul deyil, eyni zamanda əhalinin real rifah səviyyəsi xeyli yüksəlir. Ən önəmlisi də odur ki, milli sosial-liberal konsepsiya insan faktorunun enerjisi, axtarışları və stimullarının təcəssümünə əsaslanır. Belə bir

inkişaf koordinatlarında dövlətin iqtisadi funksiyaları himayəçilikdən milli bazar mexanizmində tərəfdaş statusuna qədər təkamül edir. Nəticədə, dövlətin təsərrüfat proseslərində bilavasitə iştirakı azalır, lakin dövlətin iqtisadiyyatda rolu artır. Belə bir qanunauyğunluq hal-hazırda qlobal təzahür kimi diqqəti cəlb edir.

Böyük depressiya illərində böhran çağırışlarına verilən ən böyük cavablardan biri iqtisadi fikirdə yeni istiqamətlərin yaranması olmuşdur. Nəticədə isə, bazar təsərrüfatçılığında əhəmiyyətli dəyişikliklər başlamışdır. Burada söhbət hər şeydən öncə C.M.Keynsin nəzəriyyəsindən gedir. Sözügedən nəzəriyyə ikinci dünya müharibəsindən sonra çox saylı modifikasiyalara məruz qalmışdır. Məhz müharibədən sonrakı dövrlərdə dövlət iqtisadiyyatının, onun sosial-iqtisadi siyasətinin hərəkətvericisi haqqında nəzəriyyələr yarandı. Burada söhbət dirijizm üsulundan gedir. Dirijizm nəzəriyyəçiləri (məktəbin banisi məşhur fransız iqtisadçısı Fransua Perru olmuşdur) dövlət siyasətinin əsas istiqamətini investisiyalara təsiri hesab edirdilər, burada əsas alətlər kimi dövlət büdcəsi, vergi siyasəti, uçot dərəcələrinin tənzimlənməsi, sosial problemlərin həlli çıxış edirdi. Bu nəzəriyyənin bir çox müddəaları indiki dövrdə praktiki cəhətdən tətbiq olunur, necə deyərlər, dirijizmin yeni erası başlanır. Bu eranın başlanması təzahürləri kimi, monetar siyasət, dövlətin maliyyə resurslarından istifadə edilməsi üçün imkanların yaradılması qeyd oluna bilər. Vəsaitlərlə bağlı likvidlik problemləri yaşayan özəl bankların hesablarına külli miqdarda dövlət vəsaitləri daxil olmağa başladı (1 trilyon ABŞ dolları həcmində) . İqtisadiyyatın canlanması üçün Avropa İttifaqının xərclərinin ümumi həcmi 400 milyard avroya çatdı. Belə maliyyə resurs həcmlərini, bazar iqtisadiyyatına dövlətin müdaxiləsi formaları əvvəllər müşahidə edilməmişdi. Bütün ölkələrdə işgüzar fəallığın yüksəldilməsi üçün uçot və vergi stavkaları azaldılır. Lakin simptomatik olaraq qeyd etmək lazımdır ki, iqtisadiyyatın sağlamlaşdırılması tədbirləri dövlət mülkiyyətinin əhəmiyyətli dərəcədə artması ilə müşayiət olunmadı. Bütün bunlar isə belə deməyə əsas verir ki, inkişaf etmiş dövlətlərin iqtisadiyyatında böhranla mübarizə tədbirləri müxtəlif üsulların paradoksal uzlaşması ilə baş verir və onları neodirijizm kimi təqdim etmək olar. Belə bir mənzərəni yaranmasına səbəb isə bazar sisteminin inkişafında yeni eranın başlanması, eyni zamanda yeni liderlərin formalaşması ilə bağlıdır. Əgər keynsçilik bazar iqtisadiyyatı liberalizmi nəzəriyyəsi və praktikasını dəyişdirdisə, bunun nəticəsi olaraq Prezident Ruzveltin "yeni kursu" yarandısa, neodirijizm kifayət qədər hələlik araşdırılmamışdır.

Eyni zamanda Amerika və o, cümlədən Avropada sosial-iqtisadi inkişafın prioritetlərinin müəyyənləşdirilməsinə xüsusi əhəmiyyət verilməkdədir. Bu sıradan dövlət antiböhran maliyyələşdirilməsi ÜDM-in dinamikasına təsirinin gücləndirilməsi, məşğulluq səviyyəsinin yüksəldilməsi, istehlakın həcminin əhəmiyyətli dərəcədə artırılması və s. məsələlər yaranır. Yəni liberalizmdən xroniki əziyyət çəkən köhnə bazarlara sosial təbabət üsulları tətbiq olunur. Yeni bazar iqtisadiyyatlarına yuxarıda göstərilən üsullar profilaktiki məqsədlər üçün tətbiq olunmalıdır. Eyni zamanda bizim qarşımızda yaş şkalasında görə müxtəlif səviyyədə olan bazar iqtisadiyyatı orqanizmləri dayanır. Bütün bunlar müasir iqtisadiyyatın təkcə bazar iqtisadiyyatı olması ilə bağlı deyil, onların milli spesifikası ilə izah olunur. Burada söhbət transformasiya proseslərini yaşayan ölkələrin milli-liberal koordinatlarına doğru hərəkətindən gedir. Bu səbəbdən də onları dövlət neodirijizmi elementlərini özündə ehtiva edən bazar iqtisadiyyatı münasibətlərinin bərqərar olduğu sistem kimi təqdim etmək olar. Belə bir iqtisadi inkişaf modeli Azərbaycanda da müşahidə olunur, dövlət sektorunun iqtisadiyyatda payı daima azalır. Lakin bu tendensiya iqtisadiyyatın təməl sənaye sferalarında dövlətin mövqeyinin zəifləməsi demək deyildir: neft hasilatı, neft emalı, kimya sənayesi; elektrik enerjisi istehsalı; metallurgiya, maşınqayırma və avadanlıqların hazırlanması, metal emalını qeyd etmək olar.

Dövlətin istehsal strukturunda belə bir iştirakı bazar münasibətlərinin inkişafına səbəb olur və milli iqtisadiyyatın davamlı inkişafına güclü təsir göstərir. Qeyd etmək lazımdır ki, Azərbaycanın məcburən müharibəyə sürüklənməsinə, erməni təcavüzünə məruz qalmasına və qlobal maliyyə böhranına baxmayaraq ölkə iqtisadiyyatı inkişaf etməkdədir. Eyni zamanda investisiyaların 80 faizinə qədəri dövlət vəsaitləri hesabına həyata keçirilir, həmin vəsaitlər həmdə sosial məsələlərin və infrastruktur məqsədlərin həyata keçirilməsi üçün sərf edilir. Bütün bunlar isə o deməkdir ki, iqtisadiyyatda dövlətin dirijizm funksiyası yanacaq enerji kompleksinin məhsullarının ixracından əldə edilən gəlirlərinin iqtisadiyyatın modernləşdirilməsi istiqamətində sərf edilməsi ilə həyata keçirilir.

Bütün bunların nəticəsində Azərbaycanda qeyri neft sektorunun qabaqlayıcı templərlə inkişafında mütərəqqi irəliləyişlər baş verir, ölkə bütünlükdə iqtisadi inkişafının karbohidratlardan asılılığı maneəsini aradan qaldıra bilir. Mübaliğəsiz demək mümkündür ki, düşünülmüş dövlət siyasətinin həyata keçirilməsi, iqtisadi diversifikasiya və iqtisadiyyatın sosiallaşdırılması öz bəhrəsini verir. Deyilənləri statistik göstəricilərdə təsdiq edir və həmin məlumatlardan bəlli olur ki, ölkədə işsizlik və yoxsulluq səviyyəsi son illərdə kəskin surətdə aşağı düşmüşdür. Əgər 2003-cü ildə ölkədə yoxsulluq səviyyəsində yaşayanlar ölkə əhalisinin 49%-ni təşkil edirdisə, bu gün bu göstərici 4%-dir. Yaxın 5 il ərzində yoxsulluq səviyyəsinin tamamilə sıfıra endirilməsi nəzərdə tutulur. Qeyd edilən nəhəng iqtisadi və sosial irəliləyişlər təbii faktorun

(ölkənin neft resurslarının) insan faktorunun inkişafına xidmət etməsi ilə əlaqələndirmək olar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, vəziyyətə kifayət qədər nəzarət etməyən qüvvələr, yaxud bizim uğurlarımıza kölgə salmaq istəyənlər iqtisadi inkişafımızı neft faktoru ilə əlaqələndirirlər. Gələcəyin aparıcı resursu- ixtisaslaşdırılmış, peşəkar, vətəni sevən və ona bağlı olan kadrlardır [1].

İqtisadiyyat təkcə maddiləşdirilmiş istehsal qüvvələrin və istehsal münasibətlərinin preroqativi deyildir, milli tarixin, mədəniyyətin, ölkə əhalisinin mentaliteti ilə bağlı təzahür edən fenomendir. Burada sinergetik tədqiqat işlərinin aparıcı konsepsiyaları təmsil olunur. Əlbəttə ki, dünya təcrübəsi göstərir ki, milli iqtisadiyyatlarda əhəmiyyətli irəliləyişlər əldə edən dövlətlər hər şeydən öncə öz ənənələri və dəyərlərinə əsaslanmışlar. Texnoloji nailiyyətlərlə yanaşı onlar üzvü vəhdət halında təsərrüfat həyatı ilə milli inkişaf stimullarını uzlaşdırırlar. Hələ ötən əsrdə V.Zombart vətənpərvərlik anlayışı altında bütün bu deyilənləri birləşdirir [2, 21]. Onun tərkib hissəsi kimi dövlətin iqtisadi siyasətinə təsir göstərilməsi də daxildir-burada optimist gözləntilərin mühüm ehtimalı vardır və onlar mənəvi istehsal qüvvəsinin əsasını təşkil edirlər. Onlara adekvat olaraq siyasi-iqtisadi fəaliyyətlərin koordinatları uyğunlaşdırılmalıdır. Yəni, dövlət özünün mənəvi mahiyyətinə görə vətəndir, yaxud mənəvi taleyi ilə bir biri ilə bağlı olan insan birliyidir, həmin birlik mənəvi mədəniyyət təfəkkür əsasında formalaşır.

Yuxarıda deyilənlər əsasında belə bir qənaətə gəlmək mümkündür ki, dövlət siyasəti üç ölçülü koordinatlarına əsasən həyata keçirilməlidir: iqtisadiyyatın bazar prinsipləri ilə tənzimlənməsinin təkmilləşdirilməsi, demokratiyanın siyasi normaları və milli birliyin mənəvi dəyərləri. Burada getdikcə daha çox iqtisadiyyatın hərəkətverici qüvvəsinə çevrilən insan amili böyük əhəmiyyət kəsb edir.

Məhz bu baxımdan insanın inkişaf etməsi ilə, onun həyatı və fəaliyyəti üçün şəraitin yaradılması ilə dövlət əbədi mühərrikə çevrilir, bununla da, cəmiyyətin sosial iqtisadi inkişafının təmin olunmasında imkanları xeyli genişləndirir.

**Ədəbiyyat**


1. Речь президента Азербайджанской Республики И.Алиева на церемонии инаугурации. Газ. «Бакинский рабочий», 2008, 25 октября
2. Зомбарт В. Почему в соединенных штатах нет социализма? Пер. с нем. С-Пб, 1907, 110 с.
3. Национальная экономика / Под ред. П.В.Савченко. М.: Экономистъ, 2015, 813 с.


## SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ MARKETİNQİN İDARƏ EDİLMƏSİ PROSESİ


***Rüstəmova G.R.***
*Sumqayıt Dövlət Universiteti*



***Açar sözlər:*** *rəqabət qabiliyyəti, müəssisə, marketinq fəaliyyəti, mənfəət, bazar*


Marketinqin idarə edilməsi müəssisə və makroiqtisadiyyat səviyyəsində baş verən proseslərin inteqrasiyasının təmin edilməsindəkirolu ilə müəyyən edilir. Müəssisənin idarə edilməsi onun fəaliyyətinin daxili və xarici mühit amillərinə uyğunlaşdırılmasını və əlaqələndirilməsini tələb edir. Bunun da əsasını iqtisadiyyatın, rəqabətin və sosial mühitin dövlət tənzimlənməsi təşkil edir. 80-ci illərdə dünyada idarəetmə düşüncəsi və idarəetmə konsepsiyaları yenilənmişdir. Yeni və köhnə idarəetmə konsepsiyalarının fərqini belə göstərə bilərik.

**İdarəetmənin yeni və ənənəvi təşkil konsepsiyalarının fərqi**

| Ənənəvi təşkil konsepsiyası | Yeni təşkil konsepsiyası |
|---|---|
| Operativ məsələlərə yönümlülük | Strategiyaya yönümlülük |
| Stabilliyə yönümlülük | Dəyişən xarici mühitə uyğunlaşmaq və ona təsir etmək |
| Texnoloji imperativlik | Təşkilati imperativlik |
| Texnika əsas resursdur | İşçi heyəti əsas resursdur |
| İşlərin maksimum bölünməsi, sadə və dar ixtisaslaşma | İşlərin operativ qruplaşması, geniş və çoxaspektli ixtisaslaşma |
| Yuxarı təşkilatlar tərəfindən nəzarət | Müəssisədaxili nəzarət, daxili intizam |
| Piramidal və ciddi təşkilati struktur, şaquli əlaqələrin inkişafı | Çevik təşkilati struktur, üfüqi əlaqələrin inkişafı |

| Avtoritar idarəetmə stili | Demokratik idarəetmə stili |
|---|---|
| Rəqabət, siyasioyunlar | Əməkdaşlıq, kollegiyallıq |
| Fəaliyyətin nəticələrində kollektivin marağının zəif olması | İşin nəticələrində kollektivin yüksək olması |
| Yalnız təşkilatın mənafeyi baxımından fəaliyyət göstərmək | Təşkilatın mənafeyilə yanaşı, həm də cəmiyyətin mənafeyi baxımından fəaliyyət göstərmək |
| Risklərə meyilli olmamaq | İnnovasiyalara yönümlülük və bununla əlaqədar risklərə meyillilik |

Cədvəldən də göründüyü kimi, ənənəvi idarəetmə konsepsiyası standart texnologiyalara və dəyişməyən xarici mühitə reaksiya idisə, yeni idarəetmə konsepsiyası daima baş verən dəyişikliklərə, qeyri-müəyyən ətraf mühitə və həyata keçirilən texnoloji dəyişikliklərə reaksiyadır. Bildiyimiz kimi, marketinq qarşısına qoyulan məqsəd və vəzifələri yerinə yetirmək üçün marketinq tədqiqatları, məhsul çeşidinin planlaşdırılması, məhsulların bölüşdürülməsi və satışının təşkili, satışın həvəsləndirilməsi və qiymətqoyma funksiyalarını yerinə yetirir. Marketinq tədqiqatları marketinq fəaliyyətilə yanaşı, bütünlükdə müəssisənin istehsal-maliyyə fəaliyyətinin təşkilinin, və idarə edilməsinin əsasını təşkil edir.Müəssisə məhsul çeşidinin planlaşdırılması prosesində marketinq tədqiqatlarının, istehlakçıların tələbatlarının və müəssisənin məhsul portfelinin təhlilinin nəticələrini, həmçinin rəqiblərin məhsul siyasətini nəzərə almaqla özünün mövcud məhsul çeşidini qiymətləndirir, mövcud məhsulların təkmilləşdirilməsi və bazarların tələbatlarının ödənilməsi məqsədilə yeni məhsulların hazırlanmasını təşkil edir, məhsul çeşidindən çıxarılaraq məhsulların siyahısını tərtib edir və s. Beləliklə, marketinq fəaliyyəti müəssisənin istehsal-maliyyə fəaliyyətinin əsası olub, özünü müəssisənin bütün funksiyalarının və fəaliyyət növlərinin əlaqələndirmə vasitəsi kimibüruzəverir.

Marketinqin idarə edilməsi dedikdə məhsul və xidmətlərə tələbin yaradılması və təkrar istehsalın intensivləşdirilməsi, mənfəətin artırılması üzrə tədbirlərin planlaşdırılmasının, təşkilinin, əlaqələndirilməsinin, ona nəzarətin, auditin və stimullaşdırılmasının həyata keçirilməsilə əlaqədar olan idarəetmə fəaliyyəti başa düşülür. Marketinqin idarə edilməsi sosial-iqtisadi sistemin bütün səviyyələrində marketinq fəaliyyətinin idarə edilməsinin funksional və institusional mahiyyətini özündə birləşdirir. Marketinqin idarə edilməsinə funksional yanaşmada o, hər hansı bir marketinq probleminin təşkili (məsələn, marketinqin planlaşdırılması) və onun həyata keçirilməsi (məsələn, marketinq planlarının icrası və ya onun yerinə yetirilməsi üzərində nəzarət edilməsi) üzrə fəaliyyət kimi izah edilir. Marketinqin idarə edilməsinə institusional yanaşmada ona bu fəaliyyətə rəhbərliyi həyata keçirən menecerlər və ya menecer qrupuna verilmiş hüquq və səlahiyyətlərin, həmçinin vəzifələrin ayrı-ayrı işçilər və işçi qrupları arasında bölüşdürülməsi üzrə idarəetmə vasitəsi kimi baxılır. Marketinqin idarə edilməsinin əsas vəzifəsi mübadilədə iştirak edən bütün tərəflərin, subyektlərin tələbatının ödənilməsinə, heç olmasa onların rəğbətini qazanmağa nail olmaqdır. Marketinqin idarə edilməsi prosesi: 1) müəssisənin bazar imkanlarının təhlilini; 2) məqsədli bazarların seçilməsini; 3) marketinq kompleksinin işlənib hazırlanmasını; 4) marketinq tədbirlərinin həyata keçirilməsini əhatə edir[1. s. 114]. Marketinqin idarə edilməsinin fəaliyyət istiqamətləri bunlardır:

**1.** Təhlil:

a) marketinqin informasiya sisteminin elementlərinin və marketinq tədqiqatları sisteminin təhlili;

b) marketinqin mikromühit və makromühit amillərinin təhlili;

c) son istehlakçılar bazarının və istehlakçıların davranışının – istehlakçı davranışı modelinin, istehlakçı davranışına və məhsul alınmasına dair qərarların qəbul edilməsinə təsir edən amillərin təhlili;

d) işgüzar və institusional bazarların və istehlakçı müəssisələrin davranışının - istehsal-texniki təyinatlı məhsullar bazarının və dövlət orqanları bazarının tədqiqi;

e) rəqiblərin təhlili - rəqiblərin aşkar edilməsi, onların strategiyasının və məqsədinin, sayının və imkanlarının, habelə zəif və güclü cəhətlərinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi və s. aiddir.

2. Məqsədli bazarların seçilməsi. Burada bazar tələbatının ölçülməsi və proqnozlaşdırılması və bazar seqmentlərinin aşkar edilməsi, məqsəd bazarlarının seçiminin əsaslandırılması həyata keçirilir.

3. Marketinq strategiyasının hazırlanması:

a) marketinq təkliflərinin differensiallaşdırılması və proqnozlaşdırılması strategiyasının əsaslandırılması;

b) məhsulgöndərənlərin qiymətləndirilməsi və onların seçilməsi, potensial rəqabət üstünlüklərinin aşkar edilməsi, müəssisənin mövqeyinin müəyyənləşdirilməsi üzrə kommunikasiya tədbirlərinin seçilməsi;

c) qlobal bazarlar üçün strategiyanın hazırlanması, qlobal marketinq mühitinin qiymətləndirilməsi,xarici bazarlara çıxış, marketinq proqramları və marketinq xidmətinin təşkilatı strukturu haqqında qərarların qəbul edilməsi;

d) qiymət strategiyasının və proqramlarının hazırlanması, qiymətin müəyyənləşdirilməsi və bazar uyğunlaşdırılması, qiymətin dəyişməsinə reaksiyaya dair qərarların qəbulu;

4.Yeni məhsul və xidmətlərin hazırlanması, yoxlanılması və bazara çıxarılması:

a) yeni məhsulun yaradılması ideyalarının generasiyası, onların qiymətləndirilməsi və məhsul çeşidinin təzələnməsi konsepsiyasının yoxlanılması;

b) məhsulun hazırlanması, onun bazar testləşdirilməsinin təşkili və onun istehlakçı tərəfindən etiraf edilməsi prosesinin öyrənilməsi;

c) məhsulun həyat dövrünün idarə edilməsi,

d) məhsul çeşidi siyasətinin hazırlanması və idarə edilməsi;

e) servis xidmətinin təşkili və idarə edilməsi və s. aiddir.

5.Bölüşdürmə kanallarının seçilməsi və idarə edilməsi:

a) bölüşdürmə kanallarının seçilməsinə dair qərarların qəbulu;

b) bölüşdürmə kanallarının idarə edilməsinə dair qərarların qəbulu;

c) marketinq kanallarının dinamikasının inkişafı;

d) bölüşdürmə kanalları sistemində qarşılıqlı fəaliyyət prosesinin tədqiqi;

e) topdan və pərakəndə ticarətin idarə edilməsi, ticarət heyətinin təşkili.

6. Kommunikasiya proseslərinin idarə edilməsi:

a) kommunikasiya və məhsulların fiziki bölüşdürülməsi (malyeridilişi) strategiyasının hazırlanması, effektli kommunikasiya sisteminin yaradılması;

b) tərəf müqabillərlə, istehlakçılarla və rəqiblərlə qarşılıqlı fəaliyyətin effektli sisteminin hazırlanması;

c) multimedia üzrə optimal qərarların hazırlanması (reklamın məqsədinin təsdiq edilməsi, , s.);

ç) birbaşa marketinq proqramlarının və pablik rileyşnzin - ictimaiyyətlə əlaqənin hazırlanması.

7.Marketinq proqramlarının təşkili, həyata keçirilməsi, qiymətləndirilməsi və ona nəzarət edilməsi:

a) kompaniyanın təşkili;

b) marketinqin təşkili;

c) qəbul edilmiş marketinq qərarlarının effektliliyinin qiymətləndirilməsi;

d) marketinq fəaliyyətinə nəzarət və bu fəaliyyətin auditi.

Yuxarıda izah edilənlərdən belə nəticəyə gələ bilərik ki, marketinqin idarə edilməsi müəssisənin marketinq fəaliyyəti sahəsində çalışan bütün işçilərə və bölmələrə uzunmüddətli (strateji) və qısamüddətli (operativ) idarəetmə tədbirləri kompleksini formalaşdırmağa imkan verir. Bu tədbirlər kompleksi marketinq fəaliyyətinin məqsədinə nail olmasını və bunun sayəsində isə müəssisənin fəaliyyətinin planlaşdırılan nəticələrinə nail olunmasını təmin edir.

Marketinqin idarə edilməsinin üç səviyyəsini fərqləndirirlər: marketinq miks səviyyəsində marketinqin idarə edilməsi; strateji təsərrüfat vahidi bölmələri səviyyəsində marketinqin idarə edilməsi və bütün müəssisə səviyyəsində marketinqin idarə edilməsi [2. s. 89].

Marketinqin strategiyasının və tədbirlərinin həyata keçirilməsi mərhələsində bilavasitə marketinq prosesinin təşkili, idarə edilməsi və strategiyanın həyata keçirilməsi baş verir, ona nəzarət edilir və marketinqin idarə edilməsinin effektliliyi qiymətləndirilir.Müəssisənin fəaliyyətinə marketinq üzrə qəbul edilən idarəetmə qərarlarının təsirinin planlaşdırılması və həyata keçirilməsi marketinq strategiyasının və marketinq siyasətinin hazırlanması ilə dəqiqləşdirilir və detallaşdırılır.

## Ədəbiyyat

1. AxundovS. Marketinq anlayışı. Bakı, 2006, 402 s.
2. QuliyevF. Marketinqin idarə edilməsi. Bakı, 2018, 279 s.

## Резюме

**Рустамова Г.Р.**

**Процесс управления маркетингом на промышленных предприятиях**

Процесс управления маркетингом на промышленных предприятиях *определяется ролью маркетинга в управлении интеграцией с процессами происходящими на предприятии и на макроэкономическом уровне. Управление маркетингом включает в себя функциональный и институциональный характер управления на всех уровнях социально- экономической системы.*

*Области управления маркетингом: анализ, цель выбора рынков, разработка маркетинговой стратегии, подготовка новых продуктов и услуг, продвижение на рынок, выбор каналов сбыта, управление коммуникационным процессом, организация маркетинговых программ.*

***Ключевые слова:*** *конкурентоспособность, предприятие, маркетинговая деятельность, прибыль, рынок*

**Summary**

***Rustamova G.R.***

**MarketingManagement Process in Industrial Enterprises**

*It is determined by the role of marketing in managing integration with processes taking place at enterprise and macroeconomic level. Marketing management incorporates the functional and institutional nature of governance at all levels of the social economic system. Areas of marketing management are: analysis, purpose of the markets selection, marketing strategy preparation, preparation of the products and services promotion to the market, selection of distribution channels, communication process management, organization of marketing programs.*

***Key words:*** *competitive ability, institution, marketing work, profit, market*

## AZƏRBAYCANDA İNNOVASİYA LAYİHƏLƏRİNİN EKSPERTİZASININ TƏŞKİLİ PROBLEMİ

***Tağıyev A.H.***
*Sumqayıt Dövlət Universiteti*
***Əzizov Z. F.***
*Azərbaycan Texniki Universiteti*

***Xülasə.*** *Məqalədə Azərbaycanda innovasiya layihəsinin ekspertizasının təşkili məsələsinə baxılmış və ölkəmizin reallıqları nəzərə alınaraq, bu istiqamətdə konkret təklif verilmişdir*

***Açar sözlər:*** *ideya, ekoloji təhlil, layihə, layihənin ekspertizası, texniki-texnoloji təhlil, texnopark, rezident, biznes-plan*

Ölkəmiz innovasiya iqtisadiyyatına keçid strategiyasının reallaşdırılması ərəfəsində olduğundan yeni-yeni layihələrin həyata keçirilməsinə geniş meydan veriləcəkdir. Layihələrin həyata keçirilməsində ən vacib diqqət yetiriləsi problem – layihənin qiymətləndirilməsidir. Bu məqsədlə layihə ekspertizadan keçirilir. Layihənin ekspertizası isə onun həyata keçirilməsi üzrə qərar qəbul etməyi təmin edir. Burada buraxılan cüzi səhv – çox böyük itkilərə səbəb ola bilər.

Qeyd edək ki, layihələr əsas təyinatına görə müxtəlif adlarda - innovasiya layihəsi, investisiya layihəsi,biznes layihəsi adlandırılır. Hər bir layihədə yenilik ideyası olduğundan o, innovasiya layihəsi, layihənin həyata keçirilməsinə investisiya tələb edildiyindən o, eyni zamanda investisiya layihəsi adlandırılır. Sahibkarlıq layihələrinin həyata keçirilməsində əsas məqsəd sahibkarlıq mənfəətinin qazanılması olduğundan o, həmçinin biznes layihə adlandırılır.

Layihənin adlarında olan bu müxtəlifliyə baxmayaraq, onların işlənilməsi və idarə edilməsi eyni qaydalarla aparılır. İri layihələri hazırlamaq və idarə etmək üçün müəssisələrdə müvəqqəti qurum, məsələn,layihə komandası yaradılır. Layihə komandasının əsas üzvləri müəssisənin aparıcı mütəxəssisləri olur. Kənar təşkilatlardan da buraya üzv qəbul oluna bilər. Layihə işi başa çatdıqdan sonra bu qurum ləğv edilir. İstənilən yeniliyin həyata keçirilməsi üçün onun layihəsi hazırlanmalıdır. Layihənin mövcud olmasının ən əsas şərti isə yeni ideyanın olmasıdır. İdeya özü-özlüyündə yenilikşünaslıq xüsusiyyəti kəsb edən müəyyən irəli sürülmüş fikirdir. Layihə dedikdə ideyanın həyata keçirilməsinin sənədləşdirilməsi nəzərdə tutulur.

Layihənin hazırlanması müxtəlif mərhələlərdən keçir. Bunlar yenilik ideyasının formalaşdırılması; layihənin təsviri (identifikasiyası); layihənin işlənilməsi; layihənin ekspertizadan keçirilməsi; layihənin həyata keçirilməsi; alınmış innovasiya məhsulunun bazara çıxarılması və satılmasıdır.

Son zamanlar sonuncu mərhələ ideyanın maddiləşdirilməsi yaxud da kapitallaşdırılması adlanır.

Bu mərhələlərin içərisində ən məsuliyyətli iş layihənin ekspertdən keçirilməsidir. Azərbaycanda texnoparklara qəbul ediləcək təsərrüfatçılıq subyektlərinin seçiminin zəruri şərti onların fəaliyyətinin yüksək texnologiyalar əsasında olması və elmtutumlu məhsul istehsal etmələridir.

Layihə ekspertdən keçirilərkən o, aşağıdakı istiqamətlərdə təhlil edilir:

- layihə tətbiq ediləcək müəssisənin mənsub olduğu sahədə vəziyyətinin təhlili;
- layihənin kommersiya cəhətdən yerinə yetirilə bilən olmasının təhlili;
- layihənin texniki-texnoloji cəhətdən yerinə yetirilə bilən olmasının təhlili;
- layihənin iqtisadi və maliyyə təhlili;
- layihənin ekoloji təhlili;
- layihə ilə bağlı risklərin təhlili;
- layihənin institutsional təhlili.

Layihə tətbiq ediləcək müəssisənin mənsub olduğu sahədə tutduğu yeri müəyyən etmək üçün aparılan təhlil iki meyara əsaslanır: müəssisənin sahədə tutduğu səviyyə və rəqabətlilik qabiliyyəti.

Müəssisənin mənsub olduğu sahədə tutduğu səviyyəsi: embrional (yeni yaranacaq); inkişaf edən; yetkin; tənəzzülə gedən vəziyyətlərindən birinə aid edilir.

Müəssisənin sahədə rəqabətlilik səviyyəsinə görə tutduğu yer: hökmranlıq edən; güclü; əlverişli; qeyri-dayanıqlı; zəif kimi səviyyələrdən birinə aid edilir.

Müəssisənin sahədə tutduğu yerə və rəqabətlilik səviyyəsinə uyğun olaraq matris qurulur. Bu strateji matris adlanır və ölçüsü 5×4-dir. Tədqiq edilən müəssisənin vəziyyəti bu matrisin bir elementinə uyğun gəlir. Məsələn, $a_{13}$elementinə uyğun gələn vəziyyət onu göstərir ki, müəssisə sahədə hökmranlıq edir və yetkinlik səviyyəsindədir. Strateji matris əsasında layihənin tətbiq ediləcəyi müəssisənin sahədə vəziyyətinə əsaslanaraq qərar qəbul edilir. Bəzi hallarda bu təhlillə yanaşı, layihə tətbiq olunacaq müəssisənin sahədə rəqabətlilik qabiliyyəti sahənin orta səviyyəli müəssisəilə müqayisə edilir və müvafiq qərar qəbul edilir. Bu göstəricilər mütəxəssislər tərəfindən müəyyən edilir və bal sistemi ilə qiymətləndirilir. Layihə tətbiq ediləcək müəssisənin göstəricilərinin ballarının toplanılması nəticəsində alınan yekun bal sahənin orta səviyyəli müəssisənin müvafiq yekun balı ilə müqayisə edilir, əgər, müəssisənin topladığı bal, orta səviyyəli müəssisənin balından aşağı olarsa, layihənin həyata keçirilməsinin məqsədəuyğun olmaması qərarı qəbul edilir. Layihənin iqtisadi, maliyyə, ekoloji və risk səviyyəsinin təhlili layihə üçün hazırlanmış biznes – planda əhatə edilir. Biznes-plan haqqında vaxtı ilə geniş məlumat verdiyimizdən, onlar barədə söhbət aparmayacağıq. Yeri gəlmişkən, qeyd edək ki, müəssisənin biznes planı təkcə layihə tətbiq edildikdə deyil, həmişə qarşıdakı 3 il üçün hazırlanmalıdır.Eləcə də müəssisənin-Güclü-Zəif-İmkanlar-Təhlükələr (GZİT) təhlili müəssisədə mütəmadi olaraq hazırlanmalıdır.Müəssisədə müəyyən dəyişikliklər aparıldıqda,o cümlədən innovasiya layihəsi tətbiq edildikdə bunlar nəzərə alınmalıdır.

Layihənin kommersiya cəhətdən yerinə yetirilə bilən olması müvafiq biznes-planın "Marketinq" bölməsində əhatə edilir.

Layihənin texniki-texnoloji təhlilinə aşağıdakı məsələlər daxildir:
- layihənin məqsədi nöqteyi-nəzərindən ən uyğun gələn texnoloji variantın müəyyən edilməsi;
- yeni şəraitin təhlili, o cümlədən xammal və enerjinin əldə edilməsi imkanlarının olması;
- layihənin yaxşılaşdırılmasının potensial imkanlarının müəyyən edilməsi.

Texniki-texnoloji təhlil aparılarkən əsas diqqət texnologiyanın yaxşı cəhətdən özünü göstərməsinə və texnologiyanın yalnız xarici avadanlıqlara və xammal-materiala əsaslanan olmamasına yetirilməlidir.

Baxmayaraq ki, layihələrin ekspertizası zamanı onlar kəmiyyət və keyfiyyət üzrə özünü doğruldur, lakin təkcə bunu demək kifayətdir ki, layihələrin 85%-ə yaxın hissəsi son nəticəyə nail ola bilmir.

ABŞ-ın Silikon vadisi texnoparkına təqdim olunan layihələri qiymətləndirən Vençur təşkilatı bu işə o qədər ciddi yanaşır ki, ekspertizaya təqdim olunan 100 layihədən yalnız 7-ni ekspertizadan keçirərək qəbul etmişdir. Bunun əsas səbəbi layihələrin ekspertizası zamanı institutsional təhlilin aparılmamasıdır.

İnstitutsional təhlilin əsas xüsusiyyəti ondan ibarətdir ki, bu təhlil nə kəmiyyət baxımından nə də maliyyə baxımından deyildir. İnstitusional təhlildə əsasən layihənin daxili və xarici amilləri nəzərə alınır.

Daxili amillərin qiymətləndirilməsi aşağıdakı istiqamətlərdə həyata keçirilir:istehsal menecmentinin imkanlarının təhlili; menecerlərin layihənin həyata keçirilməsində maddi maraqlarının təmin edilməsinin təhlili; layihənin məqsədi, əsas etik və mədəni dəyərləri ilə menecerlərin uyğun gəlməsinin təhlili;bütün resursların səviyyəsinin layihədə nəzərdə tutulmuş texnologiyalara uyğun gəlməsinin təhlili.Xarici amillərin təhlili zamanı-xammal və əmtəənin idxalı və ixracı şərtləri; xarici investorların investisiya qoymaq və idxal etmək imkanları; əmək haqqı qanunları; maliyyə və bank tənzimləməsinin əsasları; vergiyə cəlb olunma qanunları əhatə edilir. Yaxşı olar ki, layihədə tətbiq edilən texnika vətexnologiya müvafiq texnika-texnologiyaların son nəslinə aid edilsin. Bu məqsədlə layihədə nəzərdə tutulmuş texnologiya xaricin müvafiq yüksək texnologiyaları ilə müqayisə edilməlidir.

Hal-hazırda Azərbaycanda innovasiya layihələrinin ekspertizası ilə məşğul olan bəzi qurumlar vardır. Onların əsas missiyası bir-birindən fərqlənsə də, hər biri innovasiya layihələrini dolayı yolla qiymətləndirirlər.Onlar müxtəlif adlarda layihə müsabiqəsi təşkil edirlər və müsabiqəyə təqdim olunan

layihələri qiymətləndirirlər.Bunlara misal olaraq: Mühəndislik Universitetinin texnoparkı tərəfindən "Yeni fikir" [4] və "Startap Azərbaycan" [5] müsabiqəsi;Azərcellin tərkibində yaradılmış "Barama [6] İnnovasiya və Sahibkarlıq Mərkəzi"nin apardığı Barama layihələr müsabiqəsi;Next Step İnnovasiya Mərkəzinin təşkil etdiyi "Öz ideyanı gerçəkləşdir"-müsabiqələridir.

Qeyd edilən təşkilatların təşəbbüskarlıqları və apardığı işlər yüksək qiymətləndirilməyə layiqdir. Lakin onların apardıqları işə kölgə salmadan demək olar ki, müsabiqəyə təqdim olunan layihələrin əksəriyyəti kiçik sahibkarlıq layihələridir. İri layihələrin ekspertizadan keçirilməsi işi daha mürəkkəbdir.

Azərbaycanın texnoparklarında məskunlaşmaq istəyən gələcək rezidentlərin iri layihələrinin ekspertizadan keçirilməsi vaxtı yetişmişdir.Ölkəmizin hər bir texnoparkı özünün ekspertlər şurasını yaradır. Belə ekspert qrupunun tərkibinə iqtisadçılar, texnoloqlar, menecerlər, marketoloqlar, ekoloqlar və texnoparkların əsas fəaliyyət istiqamətlərini dərindən bilən mütəxəssislər və alimlər cəlb edilir.

Etiraf edək ki, bu sahədə təcrübəmiz az olduğundan ölkəmizdə fəaliyyət göstərən hər bir texnoparkda ekspert qrupunun yaradılması bir o qədər səmərəli olmayacaqdır.

Fikrimizcə, hələlik bu işi mərkəzləşdirilmiş şəkildə təşkil etmək lazımdır. Belə ki, bütün texnoparklara xidmət göstərən ekspert qrupu ya yeni yaradılan İnnovasiya Agentliyinin, yaxud da Azərbaycan Sənaye Nazirliyinin tabeliyində olan Azərbaycan İnvestisiya Şirkətinin nəzdində yaradılmalıdır. Ekspertlərin seçimi üçün geniş informasiya bazası təşkil edilməlidir. Qiymətləndirilən layihələrin xüsusiyyətlərindən və sahə mənsubiyyətlərindən asılı olaraq hər bir layihəni qiymətləndirmək üçün ayrı-ayrılıqda ekspert qrupu təşkil edilməlidir.

**Ədəbiyyat**


1. Tağıyev A.H, Səfərov Q.S. İnnovasiya layihələrinin menecment. Bakı:Təknur, 2013, 272 s.
2. Tağıyev A.H. İnnovasiya (Nəzəri və tətbiqi səpkidə). Bakı:Təknur, 2018, 552 s.
3. Qasımov İ, Cəbiyev F. İnnovasiya sahibkarlığı və texnoparklar (dərs vəsaiti).Bakı: Bakı Mühəndislik Universitetinin nəşriyyatı, 2017, 182 s.
4. http://yeni fikir.az/
5. http://www.startup.az/
6. http://barama.az//
7 http s://www.facebook.com/icnextstep/?pnref=inc.19.01.2016



**Резюме**

***Тагиев А.Г., Азизов З.Ф.***

**Проблема организации экспертизы инновационных проектовв Азербайджане**

*В статье рассмотрен вопрос организации экспертизы инновационного проекта в Азербайджане и даны конкретные предложения на этот счет с учетом реалий нашей страны.*

***Ключевые слова:****идея, экологический анализ, проект, экспертиза проекта, технико-технологический анализ, технопарк, резидент, бизнес-план*



**Summary**

***Taghiev A.H., Azizov Z.F.***

**The Problem of the Organization of Innovation Projects Expertise in Azerbaijan**

*The article examined the issue of organizing an innovation project expertise in Azerbaijan and gove specific proposals in this regard, taking into account the realities of our country.*

***Key words:*** *idea, ecological analysis, project, project expertise, technical and technological analysis, technopark, resident, business plan*


## EKOLOJİ TƏHLÜKƏSİZLİK VƏ ONUN TƏMİN OLUNMASININ İQTİSADİ ASPEKTLƏRİ


***Vəliyeva L.M.***

*Sumqayıt Dövlət Universiteti*



***Xülasə.*** *Ekologiyalaşdırılmış iqtisadiyyatda istehsalın məqsədi ekologiyanın prinsipləri və məhsuldar qüvvələrin ən vacib tərkib hissəsi sayılan işçi qüvvəsinin sağlamlığı üçün təhlükəsiz olan əmək şəraiti ilə müəyyən olunmalıdır. İqtisadiyyat yalnız gəlir mənbəyi deyil, ümumi ekoloji hadisələri özündə cəmləşdirməklə onların həllinə şərait yaratmalıdır.*

***Açar sözlər:*** *ekoloji təhlükəsizlik, təbii ehtiyatlar, iqtisadi amillər, iqtisadi təhlükəsizlik*

Davamlı inkişafın təmin olunmasında əsas amillərdən olan ekoloji təhlükəsizlik məsələləri milli təhlükəsizlik konsepsiyasının tərkib hissəsidir. Xarici təxminlərə görə ekoloji təhlükəsizlik üç ölçüdə müəyyənləşdirilə bilər:

1) davamlı inkişaf və resursların istifadəsi;

2) sözün ənənəvi tor mənasında ətraf mühitin qorunması - təmiz hava, su, torpaq və s.

3) texnoloji fəlakətlər zamanı risklərin minimallaşdırılması[3, s.282-283].

Təhlükəsizlik isə ayrı - ayrı şəxslərin, cəmiyyətin və təbii mühitin həddən artıq təhlükələrdən mühafizəsinin vəziyyətidir. Təhlükəsizlik, insanın fizioloji, sosial və mənəvi tələbatları ilə yanaşı, vacib tələbatıdır. Təhlükəsizliyin əsas kriteriyası təhlükə hissiyatı və ya indi və gələcəkdə zərər yetirə bilən sosial təbii hadisələri müəyyən etmək qabiliyyətidir.

Ekoloji təhlükəsizliyin idarəetmə sisteminə aşağıdakılar daxildir:

- İqtisadiyyatın ekologiyalaşdırılması;
- Yeni ekoloji təhlükəsiz texnologiyalar;
- Ətraf mühitin keyfiyyətinin bərpasına mane olmayan və təbii ehtiyatların səmərəli istifadə edilməsinə xidmət edən iqtisadi inkişaf tempinin saxlanılması[1, s.102-103].

İqtisadiyyatla ekologiya arasında əlaqə insanın dəyişdirdiyi təbii aləmin onun təsərrüfatına əks təsiri aydın olandan sonra dərk olunmağa başlanmışdır. Müxtəlif növ təbii ehtiyatlardan istifadə, həmçinin ayrılıqda iqtisadi sahələrin formalaşmasına zəmin yaradır. İqtisadi sahələrin meydana gəlməsi özü ilə bərabər müəyyən dərəcədə çirklənmə mənbəyi yaradır. İqtisadi amillərin təsiri altında yaranan ekoloji problemlər iqtisadi sahələrdən əldə olunan gəlirlər vasitəsilə həll olunur.

Dünya sənaye və kənd təsərrüfatı istehsalının miqyası və xüsusiyyətlərində baş verən böyük dəyişikliklər, ətraf mühitin qorunub saxlanmasında bilavasitə əhəmiyyəti olan texnika və texnologiyadakı dəyişikliklərdə öz əksini lazımi səviyyədə tapmamışdır. Nəticədə bütün dünyada təbiətdən istifadənin bir sıra yeni problemləri ortaya çıxmış və ənənəvi köhnə problemlər kəskinləşmişdir. İstehsalın və emalın sürətlə artması ilə əlaqədar olaraq tullantıların həcminin kəskin surətdə artması, ətraf mühitin çirklənməsinə və ekoloji tarazlığın pozulmasına gətirib çıxara bilər. [2, s.52-53].

Təbii ehtiyatların səmərəli istifadəsinin mühüm problemlərindən biri, təbii sərvətlərin istifadə xüsusiyyətləri, istifadə dərəcəsi və əmək ehtiyatlarının istifadəsi arasındakı qarşılıqlı əlaqədir. Bəzən belə olur ki, istehsalın bir sahəsinin inkişafı nəticə etibarı ilə bütövlükdə ölkənin təsərrüfat kompleksi üçün zərərli nəticə verir. Təbii sərvətlərin təkrar istehsalı, müxtəlif faydalı qazıntı ehtiyatlarının tükənməsinin, ətraf mühitin zərərli tullantılarla çirklənməsinin qarşısını alır. Həmçinin təkrar istehsal, ehtiyatlardan səmərəli istifadəyə şərait yaradır.

Faydalı qazıntıların çıxarılması və texnologiyası üçün kompleks və tam çıxarılma üsulları hazırlanmalı, sənayedə və tikintidə tullantılara ikinci ehtiyat, xammal mənbəyi, materialı kimi yanaşılmalıdır. Sənaye müəssisələrinin tullantılardan qiymətli elementlər (məs., germanium) əldə etmək mümkündür. Bəzi alüminium zavodlarında elektrotexnikanın tətbiqi nəticəsində qarşıdakı bütün komponentlər ayrılır, təkrar istehsal üçün əlavə xammal əldə edilir.

Tullantılar (bərk, qaz və maye halında olan qalıqlar) özü də xammal sayılır. Məsələn, kanalizasiya sularında gübrə kimi, çirkab suların müvafiq təmizləmələrdən sonra yenidən istifadə edilməsi, havaya buraxılan milyon tonlarla qazların istifadəsi mühüm problemlərdən biridir. Sənaye və kənd təsərrüfatı mənşəli tullantıların təkrar istehsalı ölkəyə milyard manatlarla əlavə gəlir verməklə yanaşı, ətraf mühitin çirklənməsinin də qarşısını ala bilər.

Ekoloji təhlükəsizliyin qorunması həm kənd təsərrüfatı sahələrinin inkişafı, həm də insanların yaşaması və fəaliyyət göstərməsi baxımından olduqca vacibdir. Çünki insanların yaşaması üçün vacib olan ərzaq və qeyri-ərzaq məhsullarının istehsalı, onların sağlamlığı bilavasitə ətraf mühitlə - torpaq, meşə örtüyü, çaylar, dənizlər, dağlarla bağlıdır və bu amillər nəzərə alınmalıdır.

Elmi-texniki tərəqqinin sürətlənməsi, təbiətlə kənd təsərrüfatı arasındakı qarşılıqlı əlaqəni dəyişdirməklə kənd təsərrüfatı istehsalının ətraf mühitə təsirini gücləndirir. Bu özünü müxtəlif istiqamətdə büruzə verir. Birinci, torpaqlardan intensiv istifadə olunması bir tərəfdən torpaq əmələgəlmə prosesini pozur, onların kimyəvi maddələrlə başqa tullantılarla çirklənməsinə, digər tərəfdən eroziyaya məruz qalmasına səbəb olur. İkinci, meşə örtüyündən, kolluqlardan, otlaq və biçənəklərdən səmərəsiz istifadə olunması meşələrin sıradan çıxmasına, su mənbələrinin korlanmasına və tədricən sıradan çıxmasına səbəb olur. Üçüncü, faydalı qazıntıların çıxarılmasında köhnə, əvvəlki üsullardan istifadə olunması torpaq örtüyünü, dağ massivlərini sıradan çıxarır, ətraf mühiti zərərli maddələrlə çirkləndirir [4, s.87-88].

Azərbaycanda bazar iqtisadiyyatı şəraitində ekoloji-iqtisadi formalaşdırma dövlətin ekoloji balanslaşdırılmış islahatlar və makro səviyyədə uyğun iqtisadi mühitin yaradılmasının köməyi ilə həyata keçirilə bilər. Səmərəli ekoloji siyasəti həyata keçirmək üçün tətbiq edilən tədbirlərin səviyyəsi, miqyası, onların təsir hüdudlarının müəyyənləşdirilməsi çox mühümdür. Burada 2 qrup tədbirləri fərqləndirmək olar:

*1) makroiqtisadi tədbirlər;*

*2) ekoloji istiqamət daşıyan tədbirlər.*

Birinci qrupa ümumi iqtisadiyyat çərçivəsində və ya milli iqtisadiyyatın sektorları səviyyəsində aparılan tədbirlər daxildir. Bu tədbirlər arasında qarşısında aşkar ekoloji məqsəd qoymayan iqtisadiyyatın quruluşunda dəyişikliklər aparılması tələbi durur. Buna milli valyutanın kursunun dəyişməsi, dövlət büdcəsi kəsirlərinin azaldılması, maliyyə-kredit siyasəti¸ xüsusi sektorun gücləndirilməsi, vergi siyasətində islahatlar, xarici investorlar üçün şəraitin yaxşılaşdırılması iqtisadiyyatın əsas sektorlarına subsidiya siyasətinə yenidən baxılması və s. kimi tədbirlər aiddir. Bütün bu tədbirlər, mexanizmlər və islahatlar bu və ya digər dərəcədə ekoloji vəziyyətə təsir edirlər.

İkinci qrupa dəqiq ekoloji meylə malik olan tədbirlər: "ekoloji" verginin, ətraf mühitin çirkləndirilməsinə görə müxtəlif növlü ödənişlər və cərimələrin tətbiq edilməsi, təbiəti mühafizə standartı və normativlərin qəbul edilməsi, region və ya sahələr üzrə ekoloji proqramların qəbul edilməsi və s. aid edilir. Bu tədbirlərin obyekti ətraf mühitin mühafizəsi və təbii sərvətlərin istifadəsinin yaxşılaşdırılmasıdır [5, s.101-102].

**Резюме**

***Абдуллаев К.Н.***

**Оценка роли частного предпринимательства в развитии транспортного сектора Азербайджанской Республики**

*В условиях ускоренного экономического развития Азербайджанской Республики глобальные проекты, осуществляемые в стране динамичными темпами, отвечающие требованиям мировых стандартов, являются важнымфактором обусловливающим организацию и развитие транспортной системы и ее интеграцию в международную транспортную сеть. Вопросы формирования и развития частного предпринимательства в транспортном секторе имеют важную актуальность во всем мире. В статьерассмотренароль частного предпринимательства в развитии транспортного сектора, исследованы имеющиеся проблемы, а также показаны основные пути их решения.*

***Ключевые слова:*** *система транспорта, частное предпринимательство, экономические перспективы, экономические показатели, интеграция, глобализация, транспорт*

**Summary**

***Abdullayev K.N.***

**The Estımatıon of Role of Ptivate Enterprise in Development of Transport Sector of Azerbaijan Republic**

*The global projects that are being implemented at a dynamic pace and the rapid economic development of Azerbaijan Republic have determined the design and integration of a reliable national transport system with the wold transport network in accordance with global standards. Forming and developing private enterprise in transport sector become highly important in the global economic environment. Moreover, role of private enterprise in development of transport sector for elimination of different problems and main directions are shown.*

***Key words:*** *transport system, private entrepreneurship, economic prospects, economic indicators, integration, globalization, transport*

## DAŞIMA XİDMƏTLƏRİNİN YERİNƏ YETİRİLMƏSİNDƏ MODELLƏŞDİRMƏ

***Abdullayeva S.M.***
*UNEC*

***Xülasə.*** *Müəyyən edilmiş biznes-proseslər əsasında İDEF0 metodologiyası üzrə avtonəqliyyat müəssisəsinin çoxsəviyyəli funksional modeli işlənmişdir. İşlənmiş funksional model müəssisədə biznes proseslərin strukturunu müəyyən etməyə yönəlmişdir. Həmçinin onun vəzifələrinin, daşımaların keyfiyyətinin yüksəldilməsi məsələsinin səmərəli həlli üçün adaptiv idarəetmə prinsiplərinin tətbiq edilməsinin vacibliyinə dair nəticə çıxarmağa imkan vermişdir.*

***Açar sözlər:*** *yükdaşıma, biznes-proses, idarəetmə, modelləşdirmə*



İDEF0 standartında aparılan modelləşdirmə avtonəqliyyat müəssisəsinin fəaliyyətini ümumi şəkildə görməyə imkan verir. Yük daşımaları xidmətlərinə yüksək tələbat nəqliyyat müəssisələrinin məhdud resurslar şəraitində sifariş və xidmətlərin keyfiyyətinin optimal idarə edilməsi məsələsini ön plana çəkir (1,2).

Şəkil 1-də daşımaların yerinə yetirilməsi prosesinin İDEF0 modeli təqdim olunmuşdur. Daşımaların yerinə yetirilməsi prosesinin A1 səviyyəsi İDEF0 modeli ANM-nin birinci ümumi fəaliyyət sxeminin detallaşdırılmış versiyasıdır. Bu model dörd funksional blokdan ibarətdir (3):

- daşımaların təhlili;
- avtodəstənin vəziyyətinin təhlili;
- yol vərəqlərinin çıxarışları;
- daşımaların yerinə yetirilməsi.

Şəkil 2-də daşımalara hazırlıq və dəstək prosesinin İDEF0 modeli təqdim olunmuşdur, model ANM-nin ikinci funksional bloku - A2 səviyyəli İDEF0 modelin detallaşdırılmış şəklidir. Model dörd funksional blokdan ibarətdir:

- hərəkət tərkibi vahidinin vəziyyətinin analizi;
- təmir və TX üzrə zəruri işlərin analizi;
- təmir və TX  üçün zəruri resursların axtarışı;
- zəruri təmir və texniki xidmətin həyata keçirilməsi.




**Şəkil 2. Daşımalara hazırlıq və dəstək (A2 səviyyəsi)**

Şəkil 3-də daşımaların uçotu, hazırlıq və dəstək proseslərinin İDEF0 modeli təsvir olunmuşdur. Bu model ANM-nin fəaliyyətinin ümumi sxemində üçüncü funksional blokun - A3 səviyyəli İDEF0 modelin detallaşdırılmış formasıdır.

Model dörd funksional blokdan ibarətdir:

- qaçış, yanacaq sərfi və iş vaxtının uçotu;
- ehtiyat hissələri və aqreqatların hərəkətinin uçotu;
- təmir və TX işlərinin uçotu;
- müəssisənin maliyyə-iqtisadi göstəricilərinin emalı və hesablanması;




**Şəkil 3. Daşımaların uçotu, daşımalara hazırlıq və dəstək (A3 səviyyəsi)**

Beləliklə, işlənmiş funksional model ANM-də biznes proseslərin strukturunu müəyyən etməyə, həmçinin ANM vəzifələrinin, o cümlədən daşımaların keyfiyyətinin yüksəldilməsi məsələsinin səmərəli həlli

üçün adaptiv idarəetmə prinsiplərinin tətbiq edilməsinin zəruriliyinə dair nəticə çıxarmağa imkan verir. Belə yanaşma müasir şəraitə daha uyğun gəlir və müştərilərin (istehlakçıların) sürətlə dəyişən prioritetlərinə ANM-nin daha çevik reaksiya vermək imkanı yaradır.

Yuxarıda göstərildiyi kimi, ən müxtəlif sahələrdə fəaliyyətinə, xüsusən də yük daşımaları xidmətlərinə yüksək tələbat nəqliyyat müəssisələrinin məhdud resurslar şəraitində sifariş və xidmətlərin keyfiyyətinin optimal idarə edilməsi məsələsini ön plana çəkir (3). Bu məsələnin həlli real zaman miqyasında böyük həcmli verilənlərin emalı ilə bağlıdır və İKT tətbiqinə əsaslanan müasir yanaşmalar istifadə etmədən səmərəli həll oluna bilməz.

Beləliklə, hazırda xarici ölkələrdə avtonəqliyyat kompleksinin müxtəlif səpkili məsələlərinin həllinə yönəlmiş çoxsaylı avtomatik idarəetmə sistemləri (AİS) işlənmişdir.

**Ədəbiyyat**


1. СандаковаН.Ю. Место и роль транспортной системы в социально-экономическом развитии региона // Вестник ВСГУТУ, 2013, №1, с. 95-101
2. Емельянов А.А. и др. Имитационное моделирование экономических процессов. М.: Финансы и статистика,2013, 345с.
3. Капустин Н.М. Автоматизация производственных процессов в машиностроении. М.: Высшая школа, 2007, 415 с.



**Резюме**

***Абдуллаева С.М.***

**Моделирование транспортных услуг**

*Разработана многоуровневая функциональная модель автомобильного предприятия на основе методологии IDEF0, основанной на выявленных бизнес-процессах. Разработанная функциональная модель направлена на выявление структуры бизнес-процессов на предприятии. Он также дал понять, что его мандат должен основываться на необходимости принципов адаптивного управления для эффективного решения проблемы повышения качества транспорта.*

***Ключевые слова:*** *грузоперевозка, бизнес-процесс, управление, моделирование*



**Summary**

***Abdullayeva S.M.***

**Modeling at Execution of Transport Services**

*A multilevel functional model of the automobile enterprise has been developed on the IDEF0 methodology based on identified business processes. The developed functional model is aimed at identifying the structure of business processes in the enterprise and made it clear that its mandate should be based on the need for adaptive management principles to effectively address the issue of improving the quality of transport.*

***Key words****: freight services, business process, management, modeling*


## BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏRİN TƏNZİMLƏNMƏSİ ÖLKƏNİN İQTİSADİ SİYASƏTİNİN MÜHÜM İSTİQAMƏTİ KİMİ


***Aslanov H.H.***

*Bakı Dövlət Universiteti*

***Sultanov M.Ə.***

*Bakı Dövlət Universiteti*



***Xülasə.*** *Məqalədə müasir dövrdə dövlətin xarici-iqtisadi siyasətinin mahiyyəti, zəruriliyi, xarici-iqtisadi əlaqələrin uzun illərdən bəri mövcud olan müxtəlif istiqamətləri öyrənilmiş, xarici iqtisadi fəaliyyətin tənzimləməsinin nəzəri-konseptual məsələləri izah edilmiş, iqtisadiyyatın dövlət tənzimlənməsini zəruri edən, şərtləndirən amillərin mahiyyəti təhlil edilmişdir.*

*Tədqiqat işində həmçinin dövlətin xarici iqtisadi fəaliyyətinin tənzimləməsinin müxtəlif formaları ətraflı şərh edilmiş, xarici iqtisadi fəaliyyətin tənzimləməsinin milli sisteminin və dünya təcrübəsinin xüsusiyyətləri verilmişdir.*



***Açar sözlər:*** *beynəlxalq iqtisadiyyat, iqtisadiyyatın tənzimlənməsi, iqtisadi siyasət, iqtisadi qloballaşma, ixrac potensialı, xarici iqtisadi fəaliyyət*

Biz qloballaşan bir dünyada yaşayırıq. Getdikcə dərinləşməkdə olan və bütün dünya dövlətlərinin öz təbii axarına cəlb edən genişmiqyaslı qloballaşma prosesləri onun istər ümumdünya miqyasda, istərsə də milli səviyyədə idarə olunmasını tələb edir. Bu proseslər milli dövlətlər qarşısında keyfiyyətcə yeni tələblər qoyur. Zaman tələb edir ki, onlar adət etdiyimiz makro və mikroiqtisadi tənzimləmələrlə yanaşı beynəlxalq əmtəə, xidmət, kapital və işçi qüvvəsi axınlarına müdaxilə etmək, proqnozlaşdırmaq və istiqamətləndirmək kimi çox mühüm funksiyaları da yerinə yetirsinlər. Ənənəvi dövlətlər qloballaşma şəraitində iki cəbhəyə qarşı mübarizə aparmağa məcburdurlar: 1) ölkənin daxili problemlərinə qarşı; 2) nəzarətdən çıxma təhlükəsi doğuran transmilli qüvvələr qarşı.

Müasir iqtisadiyyatda dövlətin tənzimləyici rolu olduqca artmışdır. Tənzimləmə tədbirləri bazarın mənfi nəticələrinin aradan qaldırılması, ətraf mühitin, maliyyə sektoru və inhisarların fəaliyyətini əhatə edir. Dövlətin rolu ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılmasında, elmi-texniki tərəqqinin stimullaşdırılmasında, infrastrukturun yaradılmasında, informasiyanın toplanması və işlənməsində, milli sahibkarlar üçün əlverişli işgüzar və vergi mühitinin yaradılmasında, xarici kapital və işçi qüvvəsinin axınının tənzimlənməsində olduqca artmışdır.

Dünya ölkələrinin iqtisadi inkişaf təcrübəsi göstərir ki, xarici iqtisadi əlaqələr bəşər tarixində, ölkələrin iqtisadi və sosial rifaha qovuşmasında mühüm rola malikdir. Beynəlxalq ticarətdə, o cümlədən də xarici iqtisadi əlaqələrin qurulmasında uzun illərdən bəri bir-biri ilə qarşılıqlı əlaqədə olan iki istiqamət müşahidə edilir.

Birinci istiqamət, beynəlxalqticarətin liberallaşmasına doğru atılan addımlar, o cümlədən də beynəlxalq əmək bölgüsünün (BƏB) dərinləşməsinin qarşısını alan ticarət maneələrinin aradan qaldırılması, istehsal qüvvələrinin beynəlmiləlləşməsi, istehsal amillərinin sərbəst hərəkətinin təmin edən transmilliləşmə, dünya xalqları tərəfindən qarşılıqlı əməkdaşlıq və qarşılıqlı mədəni mübadilə - sivilizasiyaların bir-birini dərk etməsinə yönələn sosial-iqtisadi tərkiblərin culğalaşması, qloballaşmanın təsiri nəticəsində ümumi rifahın artırılması və bu proses və şəraitlərin ağuşunda «çırpınan» bir sıra digər qlobal, regional və lokal proseslərdir.

İkinci istiqamət yuxarıdakı istiqamət və proseslərlə paralel proteksionizmin güclənməsi və dərinləşməsi, «yad» kapitalın və əmtəələrin öz ölkələrinə daxil olmasını məhdudlaşdırma cəhdləri, yəni milli maraqların və mənafelərin çərçivəsində xalqların mövcudluğunun və sosial-iqtisadi «arenada» həyat uğrunda mübarizəsi fonunda təbii xüsusiyyətləri ilə əlahiddələşən obyektiv, eyni zamanda subyektiv zərurətlərdən ibarətdir.

Real gerçəkliklər fonunda inkişaf edən beynəlmiləl ticarət-iqtisadi və maliyyə əlaqələri proteksionizmin məhdudlaşdırılmasını tələb etsə də, böhran meyilləri və dünya təsərrüfat əlaqələri sisteminin hər bir iştirakçısının mövqelərinin zəifləməsi zamanı ticarətin liberallaşdırılması istiqamətində müəyyən «sapmaların» ortaya çıxmasına imkan yaradır [1, s.112]. İqtisadi qloballaşmanın təsiri nəticəsində son illərdə sənayecə inkişaf etmiş ölkələrin məqsədyönlü və ardıcıl təzyiq və təsirləri nəticəsində bir qayda olaraq beynəlxalq ticarətin liberallaşması meyli üstünlük təşkil etsə də, əksər ölkələr, xüsusi ilə də iqtisadi və siyasi güc mərkəzləri özlərinin xarici (beynəlxalq) ticarət-iqtisadi diplomatiyalarında iqtisadi amilləri (müxtəlif forma və metodlarda) proteksionist tədbirlər qismində tətbiq etməyə üstünlük verirlər.Məhz bu mənada dövlətin rolu ön plana çıxır və dövlət öz milli maraq və mənafelərini tarazlaşdırmaq onu xarici bazarlara «ekspansiya» etmək üçün iqtisadi dinamikanın subyektlərindən xarici iqtisadi əlaqələrin qurulması və preferensial statuslu (beynəlxalq səviyyədə) nüfuza sahib olmaq üçün çox məharətlə istifadə edirlər.

İqtisadiyyatın tənzimlənməsində dövlətin rolunu ön plana çıxaran və iqtisadi fikir tarixində keynsçi istiqamətin əsasını təşkil edən ingilis iqtisadçısı C. M. Keyns 1936-cı ildə nəşr edilmiş «Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi» tədqiqat əsərində bu problemin əsasını qoymuşdur. Neoklassiklər kimi, keynsçilər də bazar iqtisadiyyatının tərəfdarları kimi çıxış edirdilər. Onlar iqtisadiyyatı təşkil və koordinasiya edən, o cümlədən də istiqamətləndirən qüvvə kimi bazarı - sərbəst qiymətlər mexanizmi, gəlirlər, tələb və təklif tarazlığında görürdülər. Amma bu mexanizmlərin qiymətləndirilməsi onların baxışlarını tamamilə yeni müstəvilərdə əsaslandırırdı. Məhz bu baxımdan keynsçilərin dövlətin iqtisadiyyatın idarə olunmasında, tənzimlənməsində, o cümlədən də ölkənin xarici iqtisadi əlaqələrinin tənzimlənməsində məqsədləri, rolu və funksiyası büsbütün dəyişir. Neoklassiklərin mikro-iqtisadi yanaşmalarından fərqli olaraq keynsçilər iqtisadi həyatda hadisə və meyllərin tədqiq olunmasında makroiqtisadi yanaşmaya üstünlük verirdilər.

C. M. Keyns A. Smitin vaxtı ilə formalaşdırdığı və neoklassiklərin elmi məsləkinə (kredosuna) çevrilən «görünməz əl» prinsipinə tamamilə skeptik yanaşır və qeyd edirdi ki, «ayrı-ayrı iqtisadi subyektlərin (insanların, firmaların və s.) çiçəklənməsi heç də ölkənin bütün iqtisadiyyatının çiçəklənməsi şərti ilə identik deyil və dövlətin tənzimləmə rolu və funksiyaları, bu istiqamətdə yaradılan strategiya və onun tərkib hissəsi kimi çıxış edən ölkənin iqtisadi siyasəti dövlətin maraq və mənafeləri üzərində qurulmalı, xarici iqtisadi

əlaqələrin tənzimlənməsində və ticarətin inkişaf etdirilməsində dövlət bütün (əsas) mexanizmləri öz əlində əlahiddələşdirməlidir» [2, s.94].

XX əsrin 40-60-cı illərində Keynsin fikirlərini inkişaf etdirən onun tərəfdarları həm bazar, həmçinin də dövlət tərəfindən tənzimlənən və müasir ədəbiyyatlarda «keynsçi qarışıq iqtisadiyyat» adlandırılan iqtisadi sistemin dayanıqlı konsepsiyasını hazırladılar.

Bu konsepsiya aşağıdakı əsas müddəaları özündə ehtiva edir: təbii (qarşısıalınmaz) bazar mexanizminin qiymətləndirilməsi və dövlətin iqtisadiyyata müdaxiləsinin səbəbləri; belə müdaxilənin məqsədlərinin müəyyənləşdirilməsi; iqtisadiyyatın dövlət tənzimlənməsinin forma və metodları.

Iqtisadi həyatın real gerçəklikləri dəfələrlə sübut etmişdir ki, əsasında funksional mexanizmləri çulğalaşdıran bazar avtomatik özü-özünü tənzimləmə xassəsinə malik deyildir. C.M. Keynsə görə, yalnız özü-özünü tənzimləyən bazar mexanizmi ilə dövlət tənzimləyicilərinin qarşılıqlı çulğalaşması dayanıqlı iqtisadi inkişafı təmin edə bilər [3, s.47]. İqtisadiyyatın dövlət tənzimlənməsini zəruri edən və şərtləndirən bir sıra amillər mövcuddur. Bu amillər çoxçalarlı olduğundan onları bu və ya digər iqtisadi problemlərin həlli istiqamətində aşağıdakı kimi əsas təyinat kriteriyaları üzərində qruplaşdırmaq olar.

1. Bazar mexanizmlərinin mənfi təsiri ilə müşahidə edilən iqtisadiyyatın bazar sektorlarının problemlərinin həlli ilə əlaqədar amillər qrupuna – qarşısıalınmaz bazar proseslərinin məhdudlaşdırılması; səmərəli məcmu tələbin, bazar konyunkturasının təmin olunması; rəqabətin dəstəklənməsi, bazarın açıqlığının təmin olunması; dünya bazarında rəqabət qabililiyyətliliyin artırılması cəhdləri aid edilir.

2. İqtisadiyyatın sabitliyinin təminatı, geniş təkrar istehsal prosesinin təmin olunması ilə əlaqədar amillərə – iqtisadiyyatın inkişafının ümumi şərtlərinin yaradılması, məcmu kapitalın fəaliyyətinin tsiklik inkişafının təmin edilməsi; uzunmüddətli iqtisadi artımın, işgüzar aktivliyin stimullaşdırılması, iqtisadiyyatın optimal strukturunun formalaşdırılması; makroiqtisadi tarazlığın dəstəklənməsi; iqtisadiyyatın dövlət bölməsinin səmərəli idarəedilməsinin təmin edilməsi; özəl kapitalın nəzərindən azrentabelli sahələrin dövlət investisiyalarına olan ehtiyacları qarşılamaq; pul tədavülünün tənzimlənməsi; xarici iqtisadi fəaliyyəti tənzimləmək; onu koordinasiya etmək və dünya bazarında ölkə məhsullarının rəqabət qabiliyyətliliyini artırmaq; elmin, elmi-texniki tərəqqinin inkişafına münbit zəmin formalaşdırmaq və bu sahədə beynəlxalq mübadilədən səmərəli şəkildə istifadə etmək aid edilir.

Yuxarıda qeyd olunanlardan aydın olaraq müşahidə etmək mümkündür ki, amillərin səciyyələndirilməsi iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsini şərtləndirir və müasir gerçəkliklər müstəvisində obyektiv zərurətə çevirməklə sözügedən üç amillər qrupunu bir-biri ilə qarşılıqlı əlaqə və hətta qarşılıqlı asılılıqda, kompleks şəkildə baxmağa sövq edir.

Məlum olduğu kimi, bazar iqtisadiyyatında dövlət ölkənin təhlükəsizliyinin təmin olunması və ümummilli maraqların qorunması naminə xarici iqtisadi fəaliyyəti (XIF) tənzimləyir. XİF-in dövlət tənzimlənməsi kriteriyalarından asılı olaraq, o, müxtəlif metodlar vasitəsi ilə həyata keçirilir: iqtisadi, inzibati, tarif və qeyri-tarif.

XIF-in tənzimlənməsinin iqtisadi metodları ticarət siyasətinin iqtisadi alətlərinin istifadəsinə əsaslanır ki, bunlara gömrük rüsumları, vergi (ƏDV, aksizlər və s.) və gömrük yığımları aiddir. Bu alətlərdən istifadə edərək, dövlət XIF-in subyektlərinin iqtisadi maraqlarına və uyğun olaraq onların davranışına təsir göstərir, amma bununla belə sözügedən subyektlərin tam operativ müstəqilliyinə xələl gətirmir. Bu metodlar bazar münasibətlərinin təbiətinə daha çox uyğun gəlirlər və məhz buna görə də müasir şəraitdə XİF-in tənzimlənməsində əhəmiyyətli rol oynayırlar.

İnzibati metodlara inzibati qaydalar, qadağalar, normativlər daxildir və bu metodun vasitəsi ilə dövlət XİF-in subyektlərinə birbaşa təsir göstərir, ictimai maraqların naminə onların fəaliyyətlərinin müxtəlif tərəflərini məhdudlaşdırır. Bir qayda olaraq inzibati metodlar bazar münasibətlərinin təbiətinə yaddır və buna görə də onların tətbiqi sferası ilbəil «sıxılmaqdadır».

Tarif metodlarıXİF-in tənzimlənməsinin müasir dövrdə iqtisadi əsasları kimi çıxış edirlər. Sözügedən metodlar birmənalı şəkildə daxili bazarın xarici rəqabətdən qorunmasına yönəldilmişdir. Tarif tənzimlənməsi sistemində həlledici rolu idxal rüsumları oynayırlar.

İxrac rüsumları isə bazar münasibətlərinin təbiətinə zidd olduğundan beynəlxalq və regional ittifaqlar və razılaşmalar bu rüsumların beynəlxalq ticarətdə və ölkənin xarici iqtisadi əlaqələri sistemində istifadə olunmasını tövsiyə etmirlər.

Qeyd olunduğu kimi xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsi birtərəfli, ikitərəfli və çoxtərəfli xassəli olmaqla xarici ticarətin dövlət tənzimlənməsini gömrük tariflərinə əsaslanan tarif və digər vasitələrdən ibarət qeyri-tarif alətlərinə bölünür.

Məlum olduğu kimi, beynəlxalq ticarətin əsasında çoxsaylı paradokslar cərəyan edir. XXI əsrin əvvəllərində qloballaşma prosesinin fəal surətdə ictimai həyata, iqtisadiyyata və başqa sahələrə zühur etməsi

durumunda ticarət ölkələri bir-biri ilə bağlayan «düyünlərdən» ibarət ən güclü və möhkəm qüvvələrdən biridir. O, həm də təsəvvürə sığmayan zənginliyin «dayaq nöqtəsi» rolunda çıxış edir. Bununla yanaşı, bəşər xalqlarının böyük əksəriyyəti bu «gəminin bortundan» kənarda qalırlar. Qlobal səviyyədə iqtisadi artım, dirçəliş və onun kökündə mövqe tutan dinamik forma olan inkişaf, xüsusi ilə də iqtisadi inkişaf kütləvi yoxsulluq və onun daha da dərinləşməsi fonunda varlılar və kasıblar arasında uçurumun yarğanı daha da dərinləşir.

Hesablamalar göstərir ki, əgər inkişaf etməkdə olan ölkələr dünya ixracında öz paylarmı yalnız 5% artıra bilsəydilər, bu onlara 350 mlrd. dollar məbləğində gəlir gətirə bilərdi (bu rəqəm onların aldıqları yardımlardan 7 dəfə çoxdur). Afrika ölkələrinin öz növbəsində dünya ixracında öz paylarını yalnız 1 % artırmaqla əldə etdikləri 70 mlrd. dollar, bu regiona ayrılan və əsasən də Afrika ölkələrinin xarici borclarıınn silinməsinə yönəldilmiş maliyyə yardımından 5 dəfə çoxdur.

Zənnimizcə, ixracın artımından əldə edilən qazanc özünü nəinki maliyyə gəlirlərinin əldə edilməsində, o cümlədən də qlobal miqyasda, xüsusi ilə də inkişaf etməkdə olan ölkələrdə yoxsulluğun aradan qaldırılması və ya onun səviyyəsinin aşağı salınmasında da mühüm əhəmiyyət kəsb edir.

Xarici iqtisadi əlaqələrin qurulması və inkişaf etdirilməsi istiqamətində mövcud ehtiyatların məqsədyönlü (ilk növbədə, ölkənin milli maraqlan və mənafeləri istiqamətində) istiqamətə yönəldilməsində əlahiddə rolu, zənnimizcə, xarici ticarət modeli oynayır. Real iqtisadi proseslərin həyata keçirildiyi iqtisadi şərait, o cümlədən də bu proseslərin diktəsi üzərində qurulan müstəvi o qədər çoxçalarlı, mürəkkəb və qarşılıqlı asılılıqlar zəncirindən ibarətdir ki, bu müstəvidə baş verən dinamik inkişaf öz yeni-yeni təmayülləri ilə keçmişdə mövcud olan nəzəriyyə və konseptual baxışların kandarına çıxmaqla yeni şərtləri zəruri edir və xarici iqtisadi əlaqələrin həyata keçirilməsində obyektiv məqsədlərə nail olmanın zəruri şərtlərini obyektiv yüksəkliklərə qaldırır. Qeyd etmək lazımdır ki, ənənəvi olaraq xarici ticarət sahəsində mövcud olan yanaşmalar və o cümlədən də ənənəvi metod və metodikalar yeni proseslər və təmayüllər baxımından heç də obyektiv reallığa adekvat reaksiya verə bilmir. Bir qayda olaraq xarici ticarətin standart (ənənəvi) modelinin hazırladılmasında aşağıdakı təməl prinsiplər əlahiddələşir ki, bunlara açıq bazar iqtisadiyyatında fəaliyyət göstərən prinsiplər; iqtisadi artımın tipləri; milli iqtisadiyyatın istehsal potensialı,ölkənin iqtisadi artımının xüsusiyyətləri; ölkə ərazisində mövcud olan ticarət şəraiti; ölkənin ticarət siyasəti; ölkədə mövcud olan tariflər və ixrac subsidiyaları; gəlirlərin yenidən bölüşdürülməsi səviyyəsi və ya gəlirlərin beynəlxalq transferti.Məhz bu səviyyələrin müasir gerçəkliklərlə təmasından səmərəli istifadə edən sənayecə inkişaf etmiş ölkələr xarici iqtisadi əlaqələrin qurulması və onun tənzimlənməsində təkrarı kasıb ölkələr üçün hələ ki əlçatmaz olan uğurlara imza atmışlar.

Qeyd etmək lazımdır ki, bu tədbirlərin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası şəraitində xarici iqtisadi fəaliyyətin strategiyasının qurulması istiqamətində təklif olunan "Mərhələli idxaləvəzləyici siyasət" xüsusi əhəmiyyət daşıyır. Bu siyasətin istiqamətləri aşağıdakılardır:

ölkədaxili və regional səviyyələrdə ticarət münasibətlərini tənzimləmək, milli ixracatçıların xarici bazarlara çıxışını asanlaşdırmaq, onlara xüsusi üstünlüklər vermək;xarici iqtisadi fəaliyyətlə əlaqədar ölkənin tədiyyə balansında özünü ehtiva edən əməliyyatları tənzimləmək; hüquqi normalar və dövlətin beynəlxalq razılaşmaları və öhdəlikləri çərçivəsində ölkənin və onun ayrı-ayrı regionlarının xarici iqtisadi fəaliyyətində müsbət imicini formalaşdırmaq və hər cür qaçaqmalçılığın qadağan olunması və bunların üzərində sərt nəzarətin həyata keçirilməsi ilə əlaqədar həm yerli şirkətlərə, həmçinin də ölkə daxilində fəaliyyət göstərən xarici şirkətlərə qarşı birmənalı təsirlər göstərmək və onların arzuolunmaz fəaliyyətlərini dayandırmaq;bütün bu amillərlə əlaqədar məqsədlərin reallaşdırılması istiqamətində ölkənin milli təhlükəsizlik, o cümlədən də iqtisadi təhlükəsizliyinin təmin olunması və bu sistemlərin dayanıqlılığını təmin edə biləcək müasir üsullardan istifadə edərək zərərli hadisələrin və simptomların qarşısının alınması üçün bütün kompleks metodların tətbiq edilməsi və s.

Dünya iqtisadiyyatında baş vermiş yeni meyillər, təmayüllər və proseslərin fonunda xarici iqtisadi əlaqələrin tənzimlənməsi, xarici iqtisadi siyasətin qurulması və onun strateji və prioritet istiqamətlərinin müəyyənləşdirilməsi baxımından, o cümlədən də liberallaşma və qloballaşma proseslərinin təsiri nəticəsində formalaşan «vahid ticarət meydanı» müstəvisində dünya ölkələrinin təcrübəsi hər bir yeni müstəqillik qazanmış keçid iqtisadiyyatlı ölkə, o cümlədən də Azərbaycan Respublikası üçün xüsusi əhəmiyyət daşıyır və bu təcrübələri və onun müsbət nəticələrindən «qidalanmaq» gözlənilməz simptomların qarşısını vaxtında almağa və dünya birliyinə daha dayanıqlı və iri addımlarla yanaşmağa, inteqrasiya etməyə şərait yaradar.

**Ədəbiyyat**

1.Хасбулатов Р.И. Мировая экономика. Том II. М.: Экономика, 2001, с.114-115

2.Классика экономической мысли. М.: «Эксмо-пресс», 2000. с.480-786
3.Албегова И.М., Емцов Р.Г., Холопов А.В. Государственная экономическая политика. М., 1998. с.53.
4.Драганова В.Г. Основы таможенного дела. М.: «Экономика», 1998, с.281.
5. BernardHoekman. AadityMatoo and Philip English. Development, Trade, and the WTO. The World Bank. Wash D.C. 2002.
6. Məhərrəmov A., Aslanov H., Xariciiqtisadifəaliyyətintənzimlənməsi. Bakı, 2008. s. 399
7. Vəliyev D., Əsədov A.Beynəlxalqiqtisadiyyat, Bakı, 2012, s.400.

**Резюме**

***АслановГ.Г., Султанов М.А.***

**Регулирование международных экономических отношений как важный аспект экономической политики страны**

*В статье изучены сущность, значимость внешнеэкономической деятельности государства, различные направления внешнеэкономических связей и теоретические концептуальные вопросы регулирования внешнеэкономической деятельности, а также анализируется государственное регулирование экономики. В работе также исследованы формы регулирования внешнеэкономической деятельности государства и характерные черты национальной системы и мировой практики.*

***Ключевые слова:*** *международная экономика, регулирование экономики, экономическая политика, глобализация экономики, экспортный потенциал, внешнеэкономическая деятельность*

**Summary**

***Aslanov H.H.,Sultanov M.A.***

**Regulation of International Economic Relations as an Important Aspect of the Country's Economic Policy**

*The essence, necessity of the foreign economic policy of the state in the modern period has been studied, the different trends of foreign economic relations have been studied for many years, the theoretical and conceptual issues of the regulation of foreign economic activity have been explained, the essence of the factors that require state regulation of economics has been analyzed.Here are detailed explanations of different forms of regulation of foreign economic activity of the state, features of the national system of regulation of foreign economic activity and world practice.*

***Key words:****international economy, economics regulation, economic policy, economic globalization, export potential, foreign economic activity*

## MƏHSULUN RƏQABƏTQABİLİYYƏTİNİN ARTIRILMASI AMİLLƏRİ

***Babayev F.F.***

*AMEA-nın İqtisadiyyat İnstitutu*

***Xülasə.*** *Məqalə məhsulun rəqabətqabiliyyətinin idarə edilməsinin nəzəri əsaslarının tədqiqinə həsr edilmişdir. Müəllif, bu problem çərçivəsində əsas amilləri, prinsipləri və xüsusiyyətləri üzə çıxararaq məhsulun rəqabətqabiliyyətinin idarə olunması sisteminin əsas funksiyalarını müəyyən edir.*

***Açar sözlər:*** *rəqabət, məhsulun rəqabətqabiliyyəti, rəqabətqabiliyyətinin idarə olunması*

Rəqabət mübarizəsindən kənarda şirkətin bazar fəaliyyətini təsəvvür etmək mümkün deyil. Rəqabət - rəqiblik mexanizmi olaraq, bazar iştirakçısının alıcı axtarışında yarışa qoşulmasını, daha əlverişli şərtlərlə məhsullarını satmasını, bazarın müəyyən payının tutulmasını və gəlirin əldə edilməsini nəzərdə tutur. O, istehsalçıları, məhsullarını təkmilləşdirməyə və yeniləməyə, keyfiyyətini artırmağa, onu rəqabətqabiliyyətli etməyə təşviq edir.

Məhsulun rəqabətqabiliyyətli olması - digər analoji görkəmli və təyinatlı məhsullarla müqayisədə həmin məhsulun daha cəlbedici olmasını, onun xarakteristikalarının bazarın tələblərinə və istehlak qiymətlərinə uyğun olmasını göstərir. Dinamik inkişaf edən bazarda qala bilmək üçün, şirkətin rəhbərliyindən onun perspektivlərini və inkişaf istiqamətlərini görmək, rəqiblərin növbəti addımlarını əvvəlcədən bilmək və preventiv cavab addımlarını seçmək bacarığı tələb olunur.

Rəqabətqabiliyyətinin tərkib hissələrindən biri - məhsulun keyfiyyətidir. Məhsulun keyfiyyəti - onun

istifadəsi, utilizasiyası və ya ləğv edilməsi zamanı müəyyən istehlak xarakteristikalarına cavab verən müəyyən xüsusiyyətlərinin məcmusudur [1, s. 58].

Müasir şəraitdə, istənilən müəssisənin istehsal fəaliyyəti, buraxılan məhsulun rəqabətqabiliyyəti ilə əlaqəli problemlərinin nə dərəcədə uğurla həll edilməsindən asılıdır. Yalnız bu problemi həll etdikdən sonra müəssisə, bazar mühitində səmərəli fəaliyyət göstərə və inkişaf edə bilər. Müəssisənin bazarda mövqeyinin möhkəmliyi onun istehsal etdiyi məhsulların rəqabətqabiliyyəti və rəqabət mübarizəsini aparmaq imkanları ilə müəyyən edilir.

İstehlakçı uğrunda mübarizə - hər şeydən əvvəl, bazarda təsir dairəsinə görə aparılan mübarizədir və öz növbəsində o, istehsal edilən məhsulun aşağı qiymətindən və keyfiyyətindən, yəni istehlak dəyərindən asılıdır. Rəqabət zamanı həmin məhsula ictimai tələb təyin olunur, onun dəyərinin qiymətləndirilməsi verilir.

Rəqabətqabiliyyəti təklif olunan məhsulun keyfiyyət tərəfini əks etdirir. O məhsul rəqabətqabiliyyətlidir ki, öz keyfiyyət və sosial-iqtisadi əlamətlərinə görə rəqib-analoqlardan əlverişli dərəcədə fərqlənir.

Bir qayda olaraq, məhsulun keyfiyyət parametrləri istehsalçının maraqlarından, onun rəqabətqabiliyyəti parametrləri isə - istehlakçının maraqlarından irəli gələrək müəyyən olunur. Məhsulun keyfiyyəti və onun texniki səviyyəsi istehsalın texniki şərtləri ilə təyin edilir. Məhsulun rəqabətqabiliyyətinin qiymətləndirilməsi üçün onu tələbatların inkişaf səviyyəsi ilə müqayisə etmək lazımdır [1, s. 74].

Rəqabətqabiliyyətli əmtəə və xidmətlərin istehsalı, reallaşdırılması - müəssisənin ümumiləşdirici dayanıqlılıq göstəricisidir. Lakin, rəqabətqabiliyyətli məhsulların istehsalı resurstutumlu və yüksək məsrəflidir ki, bu da bazar şəraitində qaçılmaz olaraq, səmərəliliyin azaldılmasına, gəlirin aşağı düşməsinə, müəssisənin maliyyə vəziyyətinin pisləşməsinə gətirib çıxaracaqdır. Belə olduqda, əlavə maliyyələşmə tələb olunur, lakin bu da, nəticədə, istehsalçının rəqabətqabiliyyətini aşağı salır. İntensiv texnologiyalardan istifadə, yüksək mexanikləşmə səviyyəsi - bunlar, məhsul istehsalından gəlir əldə etmək üçün vacib şərtlərdir. Dünya standartları səviyyəsində məhsul istehsal etmək üçün yeni texnologiyalar və müasir avadanlıq lazımdır. Bunun üçün, yüksək keyfiyyətli əmtəələrlə yanaşı, yeni iş yerləri də yarada biləcək böyük həcmdə investisiyalar tələb olunur.Əmtəənin rəqabətqabiliyyətinin formalaşması prosesi mövcud potensiala müvafiq, müəyyən həcmdə, çeşiddə və keyfiyyətdə məhsul buraxılışına dair istehsal proqramlarının hazırlanması üzrə təşkilati-iqtisadi tədbirlər məcmusu kimi təzahür edir.

M.Porter tərəfindən irəli sürülən əmtəənin rəqabətqabiliyyəti amilləri Şəkil 1-də göstərilib.




Şəkil 1. Əmtəənin rəqabətqabiliyyətini müəyyən edən amillər [3, s.481].

Məhsulun rəqabətqabiliyyətinin formalaşması sahəsində əsas amillərdən biri - müəssisənin rəqabət üstünlüklərindən maksimal sürətdə istifadədir. Amillərin ikinci qrupunu mövcud standartlar, normalar və tövsiyələrlə müəyyən edilən əmtəənin keyfiyyət göstəriciləri təşkil edir. Rəqabətqabiliyyəti səviyyəsinə təsir edən üçüncü amillər qrupuna, əmtəənin maya dəyərini və qiymətini formalaşdıran iqtisadi göstəriciləri aid edirlər.

Əmtəənin rəqabətqabiliyyəti müəyyən prinsiplərə əsaslanır. Əmtəənin rəqabət qabiliyyəti prinsipləri Şəkil 2-də göstərilib.




Şəkil 2. Əmtəələrin rəqabətqabiliyyəti prinsipləri [3, s.185]

Kompleksliik prinsipi ondan ibarətdir ki, əmtəənin rəqabətqabiliyyətini qiymətləndirərkən, rəqib əmtəələrin xüsusiyyətlərini müəyyən edən meyarlar məcmusu nəzərə alınmalıdır.

Nisbilik - əmtəənin rəqabətqabiliyyətliliyinin nisbi olmasını ehtimal edir. Belə olduqda, bir əmtəənin seçilmiş meyarları baza kimi qəbul edilən digər əmtəənin meyarları ilə müqayisə olunur.

Sosial ünvanlılıq - konkret sosial qruplara aid olan istehlakçıların tələbatlarının rəqib əmtəələr vasitəsi ilə təmin edilməsi dərəcəsi ilə müəyyən edilir. Belə ki, eyni məhsullar müəyyən istehlakçılar üçün rəqabətqabiliyyətli olar, digərləri üçün isə olmaz.

Rəqabətqabiliyyətli əmtəə səmərəli istehsalçı, müasir təşkilati idarəetmə sistemi, keyfiyyətli məhsul və onun istehlakçıya çatdırılması olmadan, əmələ gələ bilməz. Digər tərəfdən, bazarda kommersiya uğuru, rəqabətqabiliyyətini adekvat əks etdirən məhsulun keyfiyyətindən və onun qiymətindən əhəmiyyətli dərəcədə asılıdır [2, s.109].

Məhsulun rəqabətqabiliyyətinin idarə edilməsi çoxtərəfli prosesdir, çünki bu göstərici nəinki texniki bazanın, texnologiyanın, iqtisadiyyatın səviyyəsinin, istehsalın və mədəniyyətin təşkilini, həmçinin idarəetmə münasibətlərinin müvafiq peşəkarlıq və mədəniyyət səviyyəsini xarakterizə edir. Lazımi dərəcədə rəqabət qabiliyyətinə nail olmaq, onun bütün tərkib elementlərinin təkmilləşdirilməsi ilə bağlı sabit, dinamik bir prosesdir. Bu elementlərin çoxamilli xarakteristikaları var ki, onlara da, aşağıdakı vəzifələrin həllini təmin edən mürəkkəb, müstəqil idarəetmə obyektləri kimi baxmaq lazımdır:

1) keyfiyyətin artırılması;

2) istehsal məsrəflərinin aşağı salınması;

3) satışdan sonrakı xidmətin qənaətliliyinin və operativliyinin artırılması;

4) gəlirin, müəssisələrin keyfiyyət menecmentinin və fəaliyyətinin səmərəliliyinin ümumiləşdirici göstəricisinin əldə edilməsi [3, s.71].

Bu gün müəssisələr məhsulun istehsalı və satışının idarə olunmasına marketinq yanaşmasının vacib olduğunu dərk edirlər. Belə yanaşma bütün idarəetmə fəaliyyətinin bazar istiqamətlənməsini təmin edir. Müəssisənin rəhbəri, hər şeydən əvvəl, öz məhsulunun həm daxili, həm də xarici bazarlarda rəqabət qabiliyyətinin artırılmasını qarşısına məqsəd kimi qoymalıdır. Marketinq, bazarın öyrənilməsi və onun tələblərinə adaptasiya, həmçinin innovasiya fəaliyyətinin gücləndirilməsi və texnoloji proseslərin modernləşdirilməsi müəssisənin idarəetmə strukturlarının əsas sferası olmalıdırlar.

Müasir mərhələdə istehsal prosesində rəqabətqabiliyyətli idarəetmə sisteminin məqsədi - tələb olunan vaxtda və lazımi həcmdə yüksək keyfiyyətli məhsul buraxılışının təşkilidir. Məhsulun rəqabətqabiliyyətinin idarəetmə sisteminin əsas funksiyaları aşağıdakılar vasitəsilə həyata keçirilir:

- istehsalın həcmini və nomenklaturasını tələbin dəyişməsinə çevik uyğunlaşdırmağa imkan verən operativ tənzimlənmə;

- xammal, köməkçi materiallar, texnologiyalar və s. seçim prosesində keyfiyyətin təmin edilməsi üzrə profilaktik tədbirlərə diqqət yetirmək;

- istehsalın bütün mərhələləri üzrə texnoloji nəzarət. Bu, bir istehsal tsiklindən digərinə defektli məhsulların (yarımfabrikatların) daxil olması imkanlarını istisna edir ki, bunun da nəticəsində hazır məhsulun keyfiyyəti artır;

- əməyin təşkili və stimullaşdırılmasının yeni formalarının tətbiqi yolu ilə keyfiyyətli məhsul buraxılışına məsuliyyətin artırılması və istehsal personalının aktivləşməsi;

- personalın daim təlimlənməsi. Texnologiyaların kommersiyalaşdırılması və texnoloji innovasiyaların, təşkilatların və müəssisələrin idarə olunması üzrə yeni kateqoriyalı mütəxəssis menecerlərin yaranması onun inkişafını və elmi texniki potensialın çoxprofilli məhsul istehsalının həlledici iqtisadi artım amilinə çevrilməsini təmin edəcəklər.

Şəkil 3-də müəssisədə məhsulun rəqabətqabiliyyətinin idarə edilməsi prosesi göstərilib.




Şəkil 3. Məhsulun rəqabətqabiliyyətinin bir proses kimi idarə edilməsi[3, s.184].

Rəqabətqabiliyyətinin ümumi idarəetmə funksiyalarına aşağıdakılar aiddir: məhsulun rəqabətqabiliyyəti səviyyəsinin planlaşdırılması; onun təmin edilməsi üzrə işlərin təşkili; məhsulun rəqabətqabiliyyəti səviyyəsinin koordinasiyası (əlaqələndirilməsi) və ona nəzarət.

Məhsulun rəqabətqabiliyyətli olması bir neçə amildən: keyfiyyətdən, qiymətdən, bu məhsulu istehsal edən personalın peşakarlıq səviyyəsindən, təşkilatın menecmentinin səviyyəsindən və s. asılıdır.

Məhsulun rəqabətqabiliyyətinin artırılması üçün, əvvəla, məhsulun maya dəyərini aşağı salmaq, bunu nəticəsində isə satış qiymətini də azaltmaq lazımdır. Bunu mütərəqqi texnologiyadan və müasir avadanlıqdan istifadə etməklə, həyata keçirtmək olar.

Məhsulun maya dəyəri onun satış qiymətlərinin təyin edilməsi zamanı ən mühüm göstəricilərdən biridir. O, müəssisəyə məhsul buraxılışı hansı qiymətə başa gəldiyini göstərir. Məhsulun istehsal məsrəfləri maya dəyərinin iqtisadi əsasıdır. Buradan belə çıxır ki, maya dəyəri - müəssisənin məhsulun istehsalına və satışına çəkdiyi xərclərinin məbləğidir.Məhsulun maya dəyərinin aşağı salınması mühüm problemdir və məhsulun rəqabətqabiliyyətinin artırılmasında əsas şərtlərdən biridir. Məhsulun istehsalının hansı məsrəflər hesabına başa gəlməsinə müəssisə rəhbərliyi heç də biganə deyil, çünki son nəticədə, müəssisənin gəlir səviyyəsi bundan asılıdır. Müəssisə üçün çox maraqlıdır ki, az istehsal məsrəfləri ilə daha çox və daha yaxşı keyfiyyətdə məhsul istehsal edilsin.

Bu və ya digər məhsulun satış həcmi ona olan tələblə müəyyən edildiyi, alıcı məhsulun satış şərtlərini satıcıya diktə etdiyi bir vaxtda, məhsulun satışının stimullaşdırılması üzrə tədbirlərin rolu artır. Satışın stimullaşdırılması - qısamüddətli dövr ərzində satış həcminin və eyni zamanda yeni alıcıların sayının artırılması məqsədi ilə, bazarın üç iştirakçısına (istehlakçılara, ticarət vasitəçilərinə və ticarət presonalına) təsir etmək üçün əmtəənin bütöv həyat tsikli ərzində tətbiq edilən texnologiyalar kompleksidir [4, s.89].

Məhsulun satışı - müasir bazar iqtisadiyyatında mühüm rol oynayan müəssisənin kommersiya fəaliyyətinin bir aspektidir. Satış - müəssisənin qarşısına qoyduğu məqsədlərə nail olmaq üçün bir vasitədir, alıcılıların zövqünün və arzularının müəyyən edilməsində son mərhələdir. Hal-hazırda, yerli müəssisələrdə strateji planlaşdırmanın və istehsal həcminin artımının ən vacib ilkin şərti - azad bazar münasibətlərinin inkişafı, onların daimi və davamlı təkmilləşdirilməsidir.

Əmtəənin bazara irəliləməsi üçün uzun müddətli hazırlıq, məhsulun bütün elementlərinin kompleksli təhlili və müqayisəsi tələb olunur. İlkin iş prosesində aşağıdakı suallara cavab vermək lazımdır:

- məhsulun irəliləməsi üçün hansı kommunikativ alətlər seçilməlidir;
- məqsədli seqmenti müəyyən etmək lazımdır - irəliləmə vasitələri kimə istiqamətlənmişdir;
- reklam formasını və onun yayılma kanalını seçmək;
- kommunikativ siyasətin səmərəliliyinin təhlilini aparmaq [4, s.98].

Beləliklə, rəqabət - bazar obyektlərinin və subyektlərinin aparıcı inkişaf qüvvəsidir. Hər bir

müəssisənin son məqsədi - rəqabət mübarizəsində müəyyən nəticələrə nail olmaqdır. Onlar, müəssisənin məhsullarının və xidmətlərinin rəqabətə davamlılığından, yəni, onların, digər müəssisələrdəki məhsullar və xidmətlərlə müqayisədə daha yaxşı olmasından asılı olaraq, sistemli və hərtərəfli səylərin mütəmadi nəticəsidir.

**Ədəbiyyat**

1. Грибов В.Д., Грузинов В.П., Кузьменко В.А. Экономика организации (предприятия): учебное пособие, 2-е изд.,стер, М.: КНОРУС,2009

2. Лифиц И.М. Теория и практика конкурентоспособности товаров и услуг 2-е изд.,перераб. и доп, М.:Юрайт-Издат, 2009

3. Портер М.Э. Международная конкуренция: Конкурентные преимущества стран. М.: Альпина Паблишер, 2018

4. Юданов А.Ю. Конкуренция: Теория и практика. М.: Гном и Д, 2014

**Резюме**

***БабаевФ. Ф.***

**Факторы повышения конкурентоспособности продукции**

*Статья посвящена рассмотрению теоретических основ управления конкурентоспособностью продукции, выделены основные их факторы, принципы и признаки, а также определены основные функции системы управления конкурентоспособностью продукции.*

***Ключевые слова:*** *конкуренция, конкурентоспособность продукции, управление конкурентоспособностью*

**Summary**

***BabayevF.F.***

**The Factors of Increase of Competitiveness of Production**

*The article is devoted to theoretical bases of management of competitive products, the main factors, principles and characteristics and identified the main functions of the system of management of production competitiveness.*

***Key words:*** *competition, competitiveness of production, management of competitiveness*

## KİMYA SƏNAYESİ MÜƏSSİSƏLƏRİNİN İQTİSADİ TƏHLÜKƏSİZLİYİNİN GÜCLƏNDİRİLMƏSİNDƏ LOGİSTİKA SİSTEMİNİN ƏHƏMİYYƏTİ

***Bayramov R.D.***

*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalədə kimya sənayesi müəssisələrinin iqtisadi təhlükəsizliyinin gücləndirilməsində logistika sisteminin əhəmiyyəti tədqiq edilmişdir. Logistika sisteminin xammal təminatında və hazır məhsulların son istehlakçılara çatdırılmasında rolu açıqlanmışdır. Kimya sənaye müəssisələrində logistika mərkəzlərinin yaradılmasının vacibliyi əsaslandırılmışdır.*

***Açar sözlər:*** *kimya sənayesi müəssisələri, iqtisadi təhlükəsizlik, müəssisənin iqtisadi təhlükəsizliyi, logistika mərkəzləri, logistika sistemi*

Dünyada iqtisadi proseslərin transformasiyası və qlobal təsirlər dərinləşdikcə, iqtisadiyyatın səmərəliliyinin dəyər zənciri üzrə yüksəldilməsi, əlavə dəyər yaratmaq xüsusiyyətinə malik olan emal sahələrinin inkişaf etdirilməsi məsələləri strateji xarakter almaqdadır. Bu problemlər ölkəmiz üçün də kifayət qədər əhəmiyyət kəsb edir, belə ki, iqtisadiyyatımızın neftdən asılılığının azaldılması üçün əlavə dəyər yaratmaq potensialına malik sahələrin inkişafının sürətləndirilməsi vacib şərtlərdəndir. Belə sahələrdən biri də kimya sənayesidir və bu sənaye sahəsi ölkəmizin ən güclü potensiala malik qeyri-neft sektoru kimi xarakterizə olunur. Bu sektorun strateji hədəfləri ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş“Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi”ndə öz əksini tapmışdır [1]. Amma mövcud kimya müəssisələrinin potensialından səmərəli istifadə olunması, istehsalın güclü xammal təminatının yaradılması məsələləri üzrə problemlər də mövcuddur. Məsələn, Sumqayıtda fəaliyyət göstərən və iri emal gücünə malik olan “EP - 300”

emal qurğusu 1988-ci ildən istismar olunur və bu qurğu heç vaxt özünün emal gücünün 40-50 %-dən çox səviyyədə fəaliyyət göstərməmişdir. Bunun əsas səbəbi xammal axınlarının fasiləsizliyinin və zəruri həcminin təmin edilməməsi ilə bağlı olmuşdur. Müxtəlif dövrlərdə bu istiqamətlərdə sistemli və davamlı tədbirlər görülməsinə baxmayaraq, həmin problemin həll edilməsi hələ də aktual olaraq qalmaqdadır və bunun üçün, şübhəsiz güclü logistika sisteminin formalaşdırılması, inkişaf etdirilməsi təmin edilməlidir.

Qeyd edək ki, kimya sənayesi dünyada kifayət qədər cəlbedici emal kompleksi hesab olunur və inkişaf etmiş dünya ölkələrində bu sahənin fəaliyyətinin şaxələndirilməsinə xüsusi önəm verilir, məqsədli investisiyalar yatırılır və bunun üçün tələb olunan xammal resursları, ilk növbədə, neft və qaz xammalları tədarük edilir, müxtəlif mənbələrdən alınır, logistika mərkəzlərində toplanılır, onların fasiləsiz şəkildə emal komplekslərinə yönəldilməsi təmin edilir.Hazırda neft-qaz və neft-kimya emal sənayesində bütövlükdə dünyada istehlak olunan neftin 7 %-ə qədəri istifadə olunur, amma bu göstərici inkişaf etmiş ölkələrdə 10 % təşkil edir, inkişaf etməkdə olan ölkələrdə isə həmin göstərici 3-5 %-dir. Kimya və neft-kimya kompleksinin dünya üzrə formalaşan ÜDM-də xüsusi çəkisi 3 % səviyyəsindədir, amma bu göstərici ABŞ-da 5 %, Almaniyada 8 %, Çində 9 %, Rusiyada isə 2 % səviyyəsindədir. Ümumilikdə dünya üzrə neft-qaz xammalının kimya müəssisələrində emalı nəticəsində istehsal olunan məhsullarının satışından əldə edilən vəsaitin həcminin 3 trln. ABŞ dolları təşkil edir. Natural formada baxsaq, dünya üzrə ildə orta hesabla kimya və neft-kimya müəssisələrində 720-730 mln. ton məhsul istehsal edilir və bunların tərkibində olefinlərin payı - 225 mln. ton, plastiklərin payı - 195 mln. ton, metanol - 60 mln. ton, aromatik karbohidrogenlər - 110 mln. ton səviyyəsindədir [2].Analoji yanaşmalardan baxsaq, təəssüf ki, ölkəmizdə neft və qaz xammalının güclü potensialının olmasına baxmayaraq, onların emal sahələrinə yönəldilməsi məsələləri hələlik adekvat səviyyədə deyildir. Biz əvvəldə qeyd etdik ki, ölkəmizin əsas kimya qurğularının xammal təminatı zəifdir. Bunun əsas səbəbi isə, ölkəmizdə neft və qaz xammallarının emal səviyyəsinin aşağı olmasıdır və il ərzində kimya müəssisələrində emal üçün tədarük edilən neft-qaz xammalının ümumi həcmi 300 min ton səviyyəsindən çox deyildir [3].Əlbəttə, neft və qaz istehsalının artımı ilə əlaqədar olaraq bu problemlərin həllinə imkan verən potensialın formalaşdırılması mümkündür, amma bunun üçün müvafiq emal kompleksləri və qurğuları olmalıdır. Hazırda, neft və qaz emalını həyata keçirən müəssisələrin daha da modernləşdirilməsi və ya bu sahədə yüksək texnologiyalar əsaslı yeni neft-qaz ayırma kompleksinin tikilməsi zərurəti də kifayət qədər yüksək olaraq qalmaqdadır. Amma dünya üzrə proqnozlara nəzər salsaq, kimya və neftkimya sektorunda emal məhsullarının həcmi yaxın 10 il ərzində yüksək artım tempi ilə müşahidə olunacağı gözlənilir və bu baxımdan ölkəmizdə də bu sektorun müəssisələrinin xammal təminatının gücləndirilməsi infarstrukturu yaradılmalı, onların iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün əlavə tədbirlər sırasında logistika mərkəzinin formalaşdırılması və inkişaf etdirilməsi probleminə xüsusi diqqət yetirilməlidir.

Dünya ekspertlərinin hazırladıqları proqnozlara görə, 2020-ci ildə kimya və neftkimya sektorunda emal məshullarının həcmi dünya üzrə ÜDM-də 5,3 %, 2030-cu ildə 7,4 % səviyyəsində olacaqdır.Dünya üzrə təbii qazın üzə çıxarılan ehtiyatları hazırda 187 trln. kub metrdir və 2035-ci ildə dünyada təbii qazın illik istehlakı 5 trln. kub metr həcmində olacağı gözlənilir [4]. Bu amillər baxımından, Azərbaycanda neftlə yanaşı, təbii qazın emal proseslərinin dərinləşdirilməsi və onun əhəmiyyətli hissəsinin kimya və neftkimya sektorunda daha dərindən emal olunmasına yönəldilməsi perspektivləri diqqət mərkəzində saxlanılmalıdır. Son illərdə məqsədli dövlət investisiyaları çərçivəsində, həmçinin özəl sektorların cəlb edilməsi sahəsində yüksək texnologiyalar əsaslı yeni kimya və neftkimya müəssisələri yaradılmaqdadır. Artıq Sumqayıtda SOCAR - Karbamid, SOCAR - Polimer və bir sıra özəl kimya müəssisələri fəaliyyətə başlamışdır. Sumqayıt Kimya Sənaye Parkında müasir kimya müəssisələrinin yaradılması prosesləri intensivləşməkdədir və bütün bunlar mühüm kimya xammalı məhsullarının tədarük edilməsi, saxlanılması, onların fasiləsiz şəkildə emal qurğularına çatdırılması proseslərini özündə birləşdirən mexanizmlərin təşkilini şərtləndirir. Dünya təcrübəsində bu məqsədlər üçün logistika sistemlərinin çoxfunksiyalılıq xüsusiyyətlərindən səmərəli istifadə mexanizmləri mövcuddur və onların dəyərləndirilməsi zərurəti yaranmışdır. Məsələn, dünyanın ən yüksək səviyyədə inkişaf etmiş ölkəsi olan ABŞ-da logistika sisteminin formalaşdırılmasına və inkişaf etdirilməsinə orta illik məsrəflərin həcmi 1 trln. dollardan çoxdur və bu sektorda 4,4 mln. nəfərə yaxın insan fəaliyyət göstərir. Ümumilikdə, ABŞ-ın nəqliyyat və logistika mərkəzlərinin birlikdə daşıdıqları xammal və hazır məhsulların ümumi həcmi 19 mlrd.ton səviyyəsindədir [5].

Bu baxımdan logistika sisteminin inkişaf etdirilməsi müxtəlif iqtisadiyyat sahələrinin fəaliyyətinin sabitliyi, həmin sahələrin iqtisadi təhlükəsizliyi üçün xeyli önəmlidir [6].Bu sistemin səmərəli fəaliyyəti nəticəsində müəssisələrin xammal təchizatında fasilələr aradan qaldırılır, onların istifadə edilməsində səmərəlilik artır, həmçinin hazır məhsulların son istehlakçılara çatdırılması problemləri sistemli şəkildə həll olunur. Logistika infarstrukturunun yaradılması müəssisənin digər rəqibləri ilə müqayisədə onun rəqabət

qabiliyyətini yüksəldir, bütövlükdə bu müəssisənin iqtisadi təhlükəsizliyi daha da gücləndirilmiş olur [7]. “Deloitte” firmasının hazırladığı “Kimya logistikası - 2020” hesabatında göstərilir ki, bu sektorda xammal təminatının gücləndirilməsi, hazır məhsul kütləsinin müqavilə (kontrakt) şərtlərinə uyğun şəkildə razılaşdırılmış ünvanlara çatdırılması kimya logistikasının inkişafının yeni mexanizmlərinin yaradılmasını və inkişaf etdirilməsini tələb edir [8].Bu inkişaf səmtləri və proqnozlar ölkəmizdə də ciddi şəkildə dəyərləndirilməkdədir. Ələtdə beynəlxalq dəniz limanının tikilməsi, burada güclü nəqliyyat infarstrukturunun yaradılması, eyni zamanda regionda müasir logistika mərkəzlərinin təşkilinə əlavə stimullar verilmişdir. Perspektivdə burada kimya və neftkimya təyinatlı güclü potensiala malik logistika infrastrukturunun yaradılması imkanları yüksək qiymətləndirilir. Bu olduqca vacibdir, belə ki, kimya müəssisələrində logistika sisteminin inkişaf etdirilməsi həmin müəssisələrin xammal təminatı ilə yanaşı, onların iqtisadi təhlükəsizliyinə də xeyli müsbət təsir göstərə bilərdi [9].

Ölkəmizdə logistika sisteminin inkişaf etdirilməsi məsələləri üzrə strateji hədəflərin olması da təqdirəlayiqdir. Belə ki, ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi”ndə yaxın perspektivdə logistika infarstrukturunu yaradılmasına və inkişafına xüsusi önəm verilməsi nəzərdə tutulur [10].Kimya və neftkimya müəssisələrində iqtisadi təhlükəsizliyinin gücləndirilməsində logitsika sisteminin rolunun artırılması üçün daha sistemli tədbirlərin görülməsi üçün əlverişli mühit formalaşmışdır və yaxın perspektivdə bu istiqamətdə daha təsirli tədbirlərin görülməsi, bu sahədə logistika mərkəzlərinin yaradılması təmin olunmalıdır və s.

## Ədəbiyyat


1.Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

2. Брагинский О.Б. Современное состояние и тенденции развития мировой и отечественной нефтегазохимической промышленности. Издательство ИНП РАН. М.: 2014.85 с.

3. Əliyev Ş.T. Azərbaycanın kimya və neftkimya kompleksinin qiymətləndirilməsi və yenidənqurulması istiqamətləri. Bakı, Elm və təhsil, 2012.- 156 s.

4. BP Statistical Review of Word Energy. June, 2013. p. 23.

5. Логистика в США – Факты в цифрах. http://www.otvekhran.ru.

6. Mazen Saghir. The Concept of Packaging Logistics// Department of Design Sciences, Packaging Logistics Lunf University, Sweden, 2004. www.pomsmeetings.org.

7. T. Yung-yu, Y.Wen, M.Taylor. The role of transformation in logistics chain // Proceedings of the Earnest Asia Society for Tranportation Studies. vol. 5, pp. 1657-1672, 2005.

8. Chemical Logistics Vision 2020. Deloitte// Cefic, 2011, 40 p. www.cefic.org.

9. Данилова С.Ю. Подходы к формированию бизнес-процессов в транспортной логистике на предприятиях химического комплекса// Вестник Саратовского государственного социально-экономического университета. Саратов, 2014, №2 (51), с. 45-51.

10. Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.


## Резюме


***Байрамов Р.Д.***


**Важность логистической системы в усилении экономической безопасности предприятий химической промышленности**


*В статье исследована важность логистической системы в усилении экономической безопасности предприятий химической промышленности. Раскрыта роль логистической системы в сырьевом обеспечении и доставки готовой продукции конечным потребителям. Обоснована важность в создании логистических центров на предприятиях химической промышленности.*



***Ключевые слова:*** *предприятия химической промышленности, экономическая безопасность, экономическая безопасность предприятия, логистические центры, логистическая система*

**Summary**

***Bayramov R.D.***

**The Importance of the Logistics System in Enhancing the Economic Security of the Chemical Industry**

*The importance of the logistics system in enhancing the economic security of the chemical industry is investigated in the article.The role of the logistic system in the raw materials supply and delivery of finished products to end users is disclosed. The importance of creating logistics centers in the chemical industry has been substantiated.*

***Key words:*** *enterprises of the chemical industry, economic security, economic security of the enterprise, logistics centers, logistics system*

## QEYRİ-NEFT SEKTORUNDA İXRAC POTENSİALINDAN İSTİFADƏNİN TƏNZİMLƏNMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

***Dadaşova K.S.***

*UNEC*

***Xülasə.*** *Məqalədə qeyri-neft sektorunda ixrac potensialından istifadənin tənzimlənməsinin təkmilləşdirilməsi məsələləri araşdırılmışdır.Qeyri-neft sektoru sahələrinin ixrac potensialının artırılması imkanları tədqiq edilmişdir.Milli iqtisadiyyatın bundan sonrakı inkişaf proseslərinin daha səmərəli və optimal təşkili üçün bu proseslərin tənzimlənməsi və təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsinin və həyata keçirilməsinin vacibliyi şərtləndirilmişdir.*

***Açar sözlər:****ixrac, tənzimlənmə, prioritet,resurs rəqabəti*

Ölkə iqtisadiyyatının inkişafında mühüm tendensiyalardan biri regionların iqtisadi fəallığının artırılması, onların dünya iqtisadi proseslərinə inteqrasiyasının təşkili və ixrac potensialının formalaşdırılmasıdır. Odur ki, ölkə iqtisadiyyatının inkişaf tendensiyaları və diversifikasiyalaşdırılması problemlərinin araşdırılması, çoxillik statistik məlumatlar əsasında qeyri-neft sektorunun mövcud vəziyyətinin və əsas göstəricilərinin təhlili, Azərbaycanın qeyri-neft sektorunun ixrac potensialının qiymətləndirilməsi zərurət təşkil edir. Qeyri-neft sektorunun təhlili və tədqiqi istiqamətində aparılan araşdırmalar belə bir qənaətə gəlməyə imkan verir ki, sektorun potensialının daha ciddi arqumentlərlə qiymətləndirilməsi üçün bir qrup strateji meyarların ciddi nəzərə alınması vacibdir.

Bunun üçün ilk növbədə qeyri-neft sektorunun prioritetliyi nəzərə alınmalıdır.Bununla yanaşı ölkə iqtisadiyyatının inkişaf tendensiyalarına adekvat istiqamətlər müəyyənləşdirilməlidir. O cümlədən, mövcud resurslardan səmərəli istifadə olunmalı və onların bazasında müxtəlif qeyri-neft sektorlarının inkişafı əsaslandırılmalı və təşkil edilməlidir. Bundan başqa, təbii ehtiyatlar hesabına emal müəssisələrinin yaradılması prosesləri ilə əmək ehtiyatlarının məhsuldar yerləşdirilməsi baxımından uzlaşdırılmalıdır. Eləcə də regionlarda sənaye zonaları, sənaye məhəllələri, aqrar şəhərcikləri, aqrar kompleksləri, elm-innovasiya və klaster təyinatlı kənd təsərrüfatı və aqrar holdinqlər təşkil edilməlidir. Aqrar sektora dövlət dəstəyi mexanizmlərinin bu sektorun qarşısında duran müasir vəzifələr baxımından təkmilləşdirilməsi proseslərinin intensivləşdirilməsi də nəzərə alınması ciddilik tələb edən strateji meyarlardandır.

Milli iqtisadiyyatın inkişafında xarici-iqtisadi əlaqələrin və xarici ticarət fəaliyyətinin də özünəməxsus çəkisi var. Lakin onların milli iqtisadiyyatın inkişafındakı əhəmiyyətinin artmasına bir sıra amillər təsir edir. Beləki, milli iqtisadiyyat xarici ticarət vasitəsilə ilə dünya ölkələrinin sərhədlərini daha tez aşır və inteqrasiya kanallarına daxil olur[2;3]. Xarici-iqtisadi əlaqələr dövlətlərarası çoxşaxəli münasibətlər formalaşdırır, beynəlxalq əməkdaşlığın səmərəli modellərinin müəyyənləşdirilməsinə yardımçı olur. Xarici ticarət fəaliyyəti ölkənin istehsal, təsərrüfat və idarəetmə sferalarına yeni texnologiyalar, müasir avadanlıqlar, mütərəqqi idarəetmə metodları gətirir. Xarici iqtisadi əlaqələrin artması və coğrafiyasının genişlənməsi milli iqtisadiyyatın müxtəlif sahələrinə xarici investisiyaların cəlbini və bu sahələrə xarici investorların gəlməsini sürətləndirir. Eləcə də rəqabətqabiliyyətli müəssisələrin şəbəkəsinin genişlənməsi milli iqtisadiyyatın fəallığını artırır, rəqabət mühitini gücləndirir, milli keyfiyyət standartlarının səviyyəsinə müsbət təsir göstərir. Xarici ticarətin artımı ölkənin strateji iqtisadi siyasətinin qarşısında duran vəzifələrin yerinə yetirilməsinə real imkanlar yaradır, ölkəyə valyuta resurslarının gətirilməsini və valyuta ehtiyatlarının artırılmasını təmin edir. İxrac təyinatlı məhsulların çeşidinin çoxalması daxili istehlak bazarının səviyyəsinin artmasını stimullaşdırır, ölkənin beynəlxalq aləmdə, dünya əmtəə bazarlarında imicini yüksəldir. İxrac

potensialının yüksəlməsi milli iqtisadiyyatın müxtəlif sektorlarının dünya iqtisadiyyatında baş verən maliyyə və iqtisadi problemlərin fəsadlarına immunitetinin formalaşmasına əsaslı köməklik göstərir. İxrac potensialının artması milli iqtisadiyyatın çox şaxələndirilməsinə imkan verir. Göründüyü kimi, qeyri-neft sektoru sahələrinin ixrac potensialını artırmaq imkanı olan mal qruplarının bir çoxu üzrə ixracın həcmi yüksəlmişdir. Bununla belə, ölkə ixracının əsas həcmini təşkil edən mineral məhsulların ixracı qeyd olunduğu kimi, 2,2 dəfə azalmışdır. Bu fakt bütövlükdə ölkə iqtisadiyyatının ixrac potensialının hələki mineral xammal resursları ixracından asılılığının əyani göstəricisi kimi xarakterizə olunur.

Qeyri-neft sektorunun inkişafında xarici investisiyaların cəlb edilməsi və bununla bağlı qanunvericilik bazasının formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Ölkəyə xarici investisiyaların cəlb edilməsi, investorların ölkə iqtisadiyyatına iri kapitalın gətirilməsində həvəsləndirilməsinin qanunvericilik əsasları yaradılmış, sahibkarlığın və biznes mühitinin inkişafı üçün böyük həcmli işlər görülmüşdür. "İnvestisiya fəaliyyəti haqqında" və "Xarici investisiyaların qorunması haqqında" ölkə qanunları qəbul edilmişdir.

Ölkə iqtisadiyyatının dayanıqlı inkişafının başlıca istiqamətlərindən biri iqtisadiyyatın və onun ayrı-ayrı istehsal sahələrinin diversifikasiyasıdır. Emal sənayesinin müasir iqtisadi və texniki durumu diversifikasiya meylinin hər vasitə ilə gücləndirilməsini tələb edir. İqtisadiyyatın diversifikasiyalaşdırılmasının, ÜDM-də özəl sektorun və xidmət sahəsinin payının artırılmasının, sənaye sahələrində, o cümlədən neft-qaz maşınqayırması, neft-kimya, metallurgiya, cihazqayırma, tikinti materialları istehsalı, aqrar sektor və kənd təsərrüfatı məhsulları istehsalı sahələrində inkişafın sürətləndirilməsinin, yeni iqtisadiyyat sahələrinin – İKT, turizm və kosmik sənayesinin rolunun gücləndirilməsinin, xarici ticarət dövriyyəsi strukturunun diversifikasiyalaşdırılmasının vacibliyi müasir dövrdə aktuallığı ilə diqqəti cəlb edir[1;4].

Azərbaycanın hazırkı iqtisadi inkişaf tendensiyaları və strateji hədəfləri ölkə iqtisadiyyatının daha da şaxələndirilməsini və modernləşdirilməsini şərtləndirir. Milli iqtisadiyyatın bundan sonrakı inkişaf proseslərinin daha səmərəli və optimal təşkili üçün bu proseslərin tənzimlənməsi və təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi və həyata keçirilməsi vacib şərtlərdəndir. Ölkənin aqrar sektor üzrə beynəlxalq ekspertlər tərəfindən qəbul edilən müqayisəli üstünlük elementləri, bu sahədəki yüksək potensialdan çıxış etsək, ixrac təyinatlı məhsulların dünya bazarlarına çıxarılması istiqamətində daha effektivli tədbirlərin görülməsi, zəruri halda əlavə olaraq, yeni dövlət proqramının, məsələn, "AR-nın kənd təsərrüfatı sektorunda və aqrar sənaye kompleksində 2015-2020-ci illərdə ixrac potensialının genişləndirilməsi tədbirlər üzrə Dövlət Proqramı"nın işlənib hazırlanması və qəbul edilməsini göstərmək olar. Ölkənin qeyri-neft ixracında yeyinti sənayesinin son dövrlərdə artan potensialının daha da gücləndirilməsi, tədbirlərin sayının və coğrafiyasının genişləndirilməsi, bir tərəfdən əhalinin ərzaqla təminatı təhlükəsizliyinə əlavə töhfələr verər, digər tərəfdən isə ixracın strukturunun diversifikasiyalaşdırılmasını intensivləşdirər.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi.Tədbir 4.1.5: Texniki tənzimləmə və milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğun formalaşdırılması, onların biznes mühitinə dəstək istiqamətində tətbiq edilməsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

2..Алиев В.Н. «Проблемы регулирования использования экспортного потенциала Азербайджана в условиях рыночной экономики».// «Вопросы экономических наук», «Издательство Спутник» №5(44) 2010, Москва

3. Алиев В.Н. «Стратегия нефтегазового экспорта Азербайджана в современный период».// «Экономика, Социология и Право». М.: 2010, Наука+ «ПИ ФС77-28914» 123022, Москва

4. Səfərov Q. Ə., Dadaşova K. S. Yeni neft siyasəti və sosial-iqtisadi problemlərin həlli // AMEA-nın Xəbərləri. İqtisad elmləri seriyası, 2007, № 4


## Резюме


*Дадашова К.С.*


**Преимущества повышения эффективного потенциала в исследовании ненефтяного сектора**


*В статье рассматриваются вопросы совершенствования регулирования использования экспортного потенциала в ненефтяном секторе. Изучены возможности увеличения экспортного потенциала ненефтяного сектора,важность выявления и реализации направлений регулирования и*

*совершенствования этих процессов для наиболее эффективной и оптимальной организации дальнейшего развития национальной экономики.*

***Ключевые слова**: экспорт, регуляция, приоритет, ресурсная конкуренци*

**Summary**

***Dadashova K.S.***

**Improvement Directions of Regulation of Use of Export Potentıal ın Non-oıl Sector**

*The article discusses the issues of improving the regulation of the use of export potential in the non-oil sector. The possibilities of increasing the export potential of the non-oil sector have been studied. The importance of identifying and implementing directions for the regulation and improvement of these processes for the most effective and optimal organization of the further development of the national economy, has been eexplored.*

***Key words**: export, regulation, priority, resource competition*

## ALTERNATİV VƏ BƏRPA OLUNAN ENERJİDƏN İSTİFADƏNİN DÜNYA VƏ AZƏRBAYCAN ÜZRƏ ÜMUMİ MƏNZƏRƏSİ

***Əhmədova Ə.Ə., Səməndərov M.M.***

*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

**Xülasə**. *Müasir dövrdə əhalinin sayının kəskin şəkildə artması, iqtisadiyyatın, o cümlədən enerji tutumu çox olan sənayenin inkişafı, insanların rifah səviyyəsinin yüksəlməsi, məişətdə istifadə olunan elektrik cihazlarına, nəqliyyat vasitələrinə tələbatın artması paralel olaraq enerji daşıyıcılarına olan tələbatı da kəskin şəkildə artırıb.*

***Açar sözlər**: enerji, bərpa,alternativ*

Qeyd etmək lazımdır ki, bərpa olunan enerji mənbələrindən istifadədə son illərə qədər qarşıda duran əsas problem bu enerjinin maya dəyərinin karbohidrogen resurslarına nisbətən baha başa gəlməsi və dünyanın bərpa olunan enerjiyə qarşı marağının az olması idi. Lakin 70-ci illərin neft böhranından sonra dünyanın əksər inkişaf etmiş ölkələri dünyanın gələcək enerji xəritəsində əsas payın bərpa olunan enerji mənbələrinə düşəcəyini qəbul edərək, bu sahəyə diqqəti artırdılar. Eyni zamanda dünyada baş verən və gələcək nəsillərin qarşısında duracaq əsas problemlərdən biri olan ekoloji çirklənmə və tarazlığın pozulması, qlobal istiləşmə, atmosferə atılan istixana qazlarının kəskin artması və digər ekoloji problemlər ölkələri kömür, neft və qaz kimi çirklənmədə böyük rol oynayan yanacaq növlərinin istifadəsinin azaldılmasına və bərpa olunan enerjidən istifadənin genişləndirilməsinə sövq etməkdədir. Bərpa olunan enerji mənbələrinin maya dəyərinin yüksək sürətlə inkişaf edən texnologiya nəticəsində ciddi şəkildə aşağı düşməsi də bu enerji növlərinə marağı yüksək səviyyədə artırmaqdadır.

Dünyanın inkişaf etmiş ölkələri tərəfindən bərpa olunan enerji mənbələrindən istifadənin artırılmasına xüsusi diqqət yetirilməkdədir. ABŞ, Çin, Yaponiya, Avropa Birliyinə üzv ölkələr və iqtisadi cəhətdən sürətlə inkişaf edən bir çox dövlət bu sahədə hədəflər müəyyənləşdirərək enerji təhlükəsizliyinin təmin edilməsində bərpa olunan enerji mənbələrindən istifadənin rolunu yüksək qiymətləndirdiklərini bəyan edirlər. Bərpa olunan enerji mənbələri arasında günəş və külək enerjisinin önəmli yeri vardır və hal-hazırda bu iki enerji növünə xüsusi diqqət yetirilməkdədir. Dünyanın bir çox ölkəsi günəş və külək enerjisi potensialına malikdir. Artıq Avropanın əksər ölkələrinin və dünyanın bir çox inkişaf etmiş və etməkdə olan ölkələrinin enerji bazarında bu iki enerji növünün nəzərəçarpacaq dərəcədə yer tutduğunu və bu payın hər il ciddi miqdarda yüksələn xətlə artığını müşahidə edə bilirik.

Günəş enerjisi, günəş nüvəsində baş verən kimyəvi reaksiyalar nəticəsində yaranan istilik enerjisidir. Bu enerji dünya üçün, dünyanın var olması üçün, dünyada yaşayan canlılar üçün vacib enerji növüdür. Bu enerjidən dünyaya çatan kiçik bir hissə belə bəşəriyyətin mövcud enerji istehlakından qat-qat çoxdur. Günəş enerjisinin miqdarı litosfer, hidrosfer təbəqələrindən, bulud örtüyündən keçəndən sonra havanın çirklənməsindən, dəniz səviyyəsindən, relyefin hündürlüyündən, günün və ilin vaxtlarından asılı olur. Dünyaya günəşdən 150 milyon km qət edərək gələn gündəlik enerji, dünyada ildə istifadə edilən enerjidən təxminən 1,5 dəfə çoxdur. Günəş şüalanmasının təxminən 50%-i atmosferi keçərək dünya səthinə çatır. Günəş enerjisindən istifadə edilməsi 1970-ci illərdən sonra günəş enerjisi sistemləri texnoloji olaraq inkişaf etmiş, nəticədə, dəyəri aşağı düşmüş, ekoloji təmiz bir enerji mənbəyi kimi özünü qəbul etdirmişdir.

Əvvəllər istilik enerjisi kimi istifadə edilən günəş enerjisinin fotoqalvanik panellər vasitəsilə elektrik enerjisi istehsalında istifadəsi genişlənib. Günəş enerjisi iqtisadiyyatın və təsərrüfatın bir çox sahələrində istifadə ediliməkdədir.

2015-ci ildə dünya üzrə günəş enerjisi istehlakı 2014-cü ilə nisbətən 32,6% artaraq 253 milyard kilovat/saat təşkil edib. 2005-ci ilə nisbətən (10 illik) 2015-ci ildə günəş enerjisi istehlakı 64,9 dəfə çox olub. 2015-ci ildə günəş enerjisi istehlakı ümumi elektrik enerjisi istehsalının 0,8%-nitəşkil edib.Ümumi günəş enerjisi istehlakını 39,2 milyard kilovat/saata çatdıran Çin 2015-ciildə lider olub. 15,5%-lik payla liderlik edən Çini 15,4%-lə ABŞ, 15,2%-lə Almaniya, 12,2%-lə Yaponiya, 10,0%-lə İtaliya izləyib. Bu beş ölkənin günəş enerjisi istehlakında payı 68,3% olub. 2015-ci ildə Böyük Britaniyada (86,6%), Çində (69,7%) və Yaponiyada (58,6%) artım qeydə alınıb.

Nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən aparılmış təhlillərə və proqnozlara əsasən 2020-ci ilin sonuna qədər günəş enerjisi gücünün 500 GVt-a qədər artacağı proqnozlaşdırılır. Avropa Birliyi Parlamenti tərəfindən hazırlanan "Günəş Enerjisi İstehsal Hesabatında" 2020-ci ildə günəş enerjisi istehsal olunan elektrik enerjisinin dünyada- 1 milyard insana çatacağı, 2.2 milyon insanın bu sahədə işlə təmin ediləcəyi, CO2 qazı emissiyanın ildə 169 milyon ton azalacağı bildirilir.

Külək enerjisi – küləyi meydana gətirən hava axınının sahib olduğu hərəkət (kinetik) enerjisidir. Alternativ və bərpa olunan enerji mənbələrindən biri hesab olunur. Bu enerjinin bir hissəsi faydalı olan mexaniki və ya elektrik enerjisinə çevrilə bilər. Külək enerjisi digər alternativ enerji mənbələri olan günəş, hidroenergetika, geotermal və biokütlə enerjisindən özünün maya dəyərinə, ekoloji təmizliyinə və tükənməzliyinə görə ən sərfəlisidir [2].

İnsanlar yelkənlər vasitəsilə qayıq və gəmiləri hərəkət etdirmək üçün ən azı 5500 ildən bəri küləyin gücündən istifadə edirlər. Dəyirmanlarda, suvarma proseslərində küləkdən istifadə edilməsi 7-ci əsrdən başlanılmışdır. XIX əsrin sonu XX əsrin əvvəllərində artıq külək enerjisindən elektrik enerjisi alınması üçün aparılan elmi tədqiqatlar öz əməli nəticəsini vermiş və külək qurğuları, külək turbinləri yaradılmışdır. Müasir külək enerjisi sənayesi 1979-cu ildə, Danimarkalı Kuriant, Vestas, Nordtank və Bonus şirkətlərinin külək turbin seriya istehsal etməsilə başlamışdır. Bunlar bu günkü standartlardan balaca idi və hər biri 20-30 kVt-lıq gücə malikidi . Hal-hazırda gücü 7 MVt-dan artıq külək turbinləri istehsal olunur və dünyanın bir çox yerində külək enerjisindən istifadə olunur.

2014-cü ildə 716,5 milyard kilovat/saat olan külək enerjisi istehlakı 2015-ci ildə 17,4% artaraq 841,2 milyard kilovat /saat olub. 2005-2015-ci illərdə külək enerjisi istehlakı 8 dəfə artıb. Külək enerjisi istehlakında ən böyük pay 22,9%-lə ABŞ-a məxsusdur. Sonrakı yerləri 22,0%-lə Çin, 10,5%-lə Almaniya, 5,9%-lə İspaniya və 4,9%-lə Hindistan tutur. 2015-ci ildə 16 ölkə arasında ən böyük artım 78%-lə Braziliyada qeydə alınıb. Azalma isə yalnız İspaniya, İtaliya və Portuqaliyada qeydə alınıb. ABŞ-da 5,1%, Çində 15,8%, Almaniyada 53,4% artım əldə edilib. Külək enerjisi 2014-cü ildə dünya elektrik enerjisi istehsalının 3,4 faizini təşkil edib. Külək enerjisinin ölkədəki ümumi enerji istehsalındakı payına görə lider ölkə Danimarkadır. Danimarka da ümumi enerji istehsalında külək enerjisinin payı 39.1 % olub (4).

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən enerji təhlükəsizliyi siyasəti ölkəmizdə energetika sektorunda yüksək inkişafa şərait yaradıb. Enerji təhlükəsizliyi siyasətinin təməl hədəflərindən biri ölkəmizdə bərpa olunan enerji mənbələrindən istifadənin gücləndirilməsindən ibarətdir.

Aparılan araşdırmalar və elmi-tədqiqatlar ölkəmizin bu sahədə böyük potensiala sahib olduğunu təsdiqləməkdədir.

Ölkəmizdə bərpa olunan enerji potensialından səmərəli istifadə edilməsi məqsədilə atılmış əsas addımlardan biri 2004-cü ildə "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın qəbul edilməsi olub. Proqramın qəbulu bərpa olunan enerji mənbələrinin istifadəsində köklü dəyişikliklərin həyata keçirilməsinə və ölkəmizin bu sahədəki potensialının dəyərləndirilməsinə geniş imkanlar yaratdı.

Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin gücləndirilməsinə "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi"ndə də geniş yer ayrılıb.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi" özündə 2020-ci ilədək strateji baxışı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışı əhatə edir. Burada sahə üzrə fəaliyyət səmərəliliyinə və yüksək xidmət səviyyəsinə nail olmaq üçün geniş miqyaslı tədbirlərin həyata keçirilməsi üzrə təkliflər verilir, həmçinin həyata keçiriləcək tədbirlər üzrə "dövlət-özəl tərəfdaşlığı" mexanizmlərinin hazırlanması da

nəzərdə tutulur.Sözü gedən Yol Xəritəsinin Tədbirlər Planında 2020-ci ilədək alternativ və bərpa olunan enerji mənbələri hesabına 420 MVt yeni generasiya güclərinin yaradılması və nəticədə, 2020-ci ildə real ÜDM-in 70 milyon manat məbləğində artacağı və 270 yeni iş yerinin yaradılacağı gözlənilir. Bu prioritet üzrə yeni elektrik stansiyalarının (külək, günəş enerjisi və bioenerji) tikintisinə, təqribən 1 milyard 40 milyon manat həcmində investisiya tələb olunduğu proqnozlaşdırılır. Layihənin həyata keçirilməsi nəticəsində ildə 1.6 milyard kVt·/saata yaxın elektrik enerjisinin istehsalına və 390.0 milyon kubmetr təbii qaza qənaət olunmasına imkan yaranacaqdır.

Yol Xəritəsində 2020-ci ilə qədər külək enerjisi üzrə 350 MVt, günəş enerjisi üzrə 50 MVt və bioenerji üzrə 20 MVt olmaqla yeni enerji güclərinin istifadəyə verilməsi planlaşdırılır.

Külək elektrik stansiyalarında istehsal olunan elektrik enerjisinin miqdarı 2015-ci ildə 4,6mln. kVt /saat, 2016-cı ildə 20,0 mln./ kVtsaat, günəş elektrik stansiyalarında istehsal olunan elektrik enerjisinin miqdarı 2015-ci ildə 4,57 mln. kVt /saat, 2016-cı ildə 35,2 mln. kVt /saat olub. Bioenerji və məişət tullantılarının emalı müəssisələrində elektrik enerjisinin istehsalı 2016-cı ildə 174,5mln. kVtsaat /olub. Kiçik su elektrik stansiyalarının istehsalı külək elektrik stansiyalarında istehsal olunan elektrik enerjisinin miqdarı 2015-ci ildə 30,7mln. kVt /saat, 2016-cı ildə 42,1 mln. kVt /saatolub [4].

Həyata keçirilən planlaşdırılmış addımlar ölkəmizdə bərpa olunan enerji mənbələrindən istifadənin artırılması ilə yanaşı, bu sahədə tətbiq olunan texnologiyanın da ölkəmizdə istehsalına imkan yaradıb. Sumqayıt şəhərində illik istehsal gücü 50 MVt olan "Azgüntex" günəş panelləri zavodu və "Sumqayıt Texnologiyalar Parkı"nda (STP) günəş kollektorları istehsal edən müəssisə yaradılıb.

Günəş panellərinin ölkəmizdə istehsalının təmin edilməsi günəş enerjisindən istifadə sahəsində yüksək nəticələrin əldə edilməsinə imkan verəcəkdir.Həyata keçirilmiş tədbirlərlə yanaşı, gələcəkdə bərpa olunan enerji mənbələrindən istifadə sahəsində reallaşdırılması planlaşdırılan çoxsaylı layihələr hazırlanıb.

### Ədəbiyyat


1. AR ETSN– http://www.eco.gov.az
2. AR ABEMDA- http://www.area.gov.az/
3. AR İqtisadiyyatvəSənayeNazirliyi - http://economy.gov.az
4. AR AzərbaycanDövlətStatistikaKomitəsi - http://www.stat.gov.az
5. AR AzərbaycanRespublikasıEnergetikaNazirliyi - http://www.minenergy.gov.az



**Резюме**

***Ахмедова А.А., Самендаров М.М.***

**Общий обзор использования альтернативных и возобновляемых источников энергии в мире и Азербайджане**

*Резкий рост числа людей в современный период резко увеличил спрос на энергоносители параллельно с ростом экономики, в том числе, с развитием промышленности с высокой пропускной способностью, благосостоянием людей, ростом спроса на электрические приборы и транспортные средства.*

***Ключевые слова:*** *энергия, восстановление, альтернатива*



**Summary**

***Ahmedova A.A., Samendarov M.M.***

**A General Overview of the Use of Alternative and Renewable Energy Over the World and Azerbaijan**

*The sharp increase in the number of people in the modern period has dramatically increased demand for energy carriers in parallel with the growth of the economy, including the development of the industry with a high capacity, the welfare of the people, the increasing demand for electrical appliances and vehicles.*

***Key words:*** *energy, renewal, alternative*


## QLOBAL ƏRZAQ PROBLEMLƏRİ


***Əhmədova T.M.***

*Sumqayıt Dövlət Universiteti*



***Xülasə.*** *Məqalə XXI əsrin əsas həll edilməmiş problemlərindən biri olan qlobal ərzaq probleminə həsr olunmuşdur. Burada qlobal ərzaq probleminin yaranma səbəbləri, onun təkamülünə təsir göstərən*

*amillər sistemi, ərzaq təhlükəsizliyi konsepsiyası, problemin həllində beynəlxalq iqtisadi təşkilatların rolu əks olunmuşdur.*

***Açar sözlər**: ərzaq təhlükəsizliyi, ərzaq problemi*

Dünya ərzaq probleminin təkamülündə təbii ehtiyatların mövcudluğu, iqtisadi inkişaf vəziyyəti, yığımın artım sürəti, kənd təsərrüfatının texniki silahlanma səviyyəsi, əhalinin məşğulluq və təhsil səviyyəsi, və s. kimi amillər də həll edici rola malikdir. Dünya ərzaq problemini yaradan səbəblər və onun səciyyəvi cəhətləri aşağıdakılar hesab olunur:

- dünya ölkəsində baş verən demoqrafik partlayışlar;
- hər nəfərə düşən istehsal və istehlak arasındakı qeyri bərabərlik;
- təbii iqlim şəraiti;
- məhsuldarlıq və emal texnologiyasının aşağı səviyyəsi;
- işsizlik və yoxsulluğun yüksək həddi;
- torpaq resurslarından istifadənin qeyri-səmərəli olması;
- siyasi səbəblər;
- III dünya ölkəsində texnologiyanın çox aşağı səviyyəsi.

Hər bir dövlətin qarşısında duran əsas vəzifələrdən biri milli təhlükəsizliyinin təmin olunması məsələsidir. MT-nin əsas tərkib hissəsi isə ərzaq təhlükəsizliyinin təmin olunmasıdır. FAO-nun qiymətləndirməsinə görə, yaxın gələcəkdə dünya miqyasında ərzaq istehsalını 4 problem təhlükəsi gözləyir:

- hava şəraitinin pisləşməsi;
- təmiz su və enerji resurslarının tükənməsi;
- torpağın çirklənməsi və zəhərlənməsi;
- ifrat iqtisadi liberalizm.

Bu təhlükələr ümumdünya qlobal təhlükələr hər bir dövlətin iqtisadi siyasətinin müəyyən edilməsində daim diqqət mərkəzində dayanır. Ərzaq təhlükəsizliyi dedikdə sağlam və fəal həyat şəraitinin təmin edilməsi üçün müəyyən edilmiş keyfiyyət standartları çərçivəsində əhalinin əsas qida məhsullarında olan tələbatının fasiləsiz və dayanıqlı şəkildə ödənilməsinin təmin edən tədbirlər kompleksi nəzərdə tutulur. Dünya əhalisinin aclıq içərisində yaşayan, normadan az qidalanan hissəsi həmişə olmuşdur. Müasir dövrdə dünya təşkilatları, alim və mütəxəssisləri, ərzaq təhlükəsizliyi konsepsiyasını irəli sürürlər. Bu konsepsiyaya görə dünya, regionlar və ölkələr miqyasında ərzaq mallarının müəyyən səviyyəsi təyin edilməli və nəzərdə saxlanılmalıdır. Bu səviyyə bütün insanların aktiv və sağlam həyat keçirməsini təmin etməli, insanlar isə ərzaq məhsullarını əldə etmək üçün iqtisadi və fiziki imkanlara malik olmalıdırlar. Ərzaq təhlükəsizliyi ilə bağlı olaraq 1974-cü ildə Romada BMT ümumdünya ərzaq konfransı keçirmişdir. Bu konfransda ərzaq qıtlığına qarşı birgə mübarizə üçün ümum bəşər bəyannamə qəbul edilmişdir. Bu məqsədlə də 1974-cü ildə ümumdünya ərzaq şurası yaradılmışdır. dünyanın ən qabaqcıl 1600 alimi elmi təhlillər aparmış, ərzaq probleminin sosial iqtisadi əhəmiyyətini açıqlamışlar. Burada aşağıdakı problemlərə diqqətin artırılması ön plana çəkilmişdir:

1. Əsas ərzaq növü olan taxılçılığın, əkin sahəsinin azalması məsələsi. 1980-ci illərdə taxıl əkin sahələri 735 mln. ha olduğu halda, 2003-cü ildə 666 mln. ha təşkil etmişdir. Bu əsasən 3 səbəblə əlaqədardır.

a) Torpağın böyük bir qisminin əkin dövriyyələrindən çıxarılaraq sənaye məqsədlərinə, infrastrukturun inkişafına cəlb edilir.

b) 60-70-ci illərdə kənd təsərrüfatının intensiv inkişafının nəticəsi olaraq torpaqların eroziyası artmışdır. Bu səbəbdən bir çox ərazilərdə yeni meşə salınması və çəmənliklər yaradılması zərurəti meydana gəlmişdir.

c) Dünya üzrə əhalinin sayının artması, şəhərlərin, qəsəbələrin, bağ təsərrüfatlarının müvafiq infrastrukturunun genişlənməsini tələb edir.

2. İçməli su qıtlığı problemi. Hazırda dünya əhalisinin 50 faizə qədəri içməli su qeyri-qənaətbəxş təmin olunur. Bir çox hallarda sudan qənaətlə istifadə edilmir. Sənaye məqsədləri üçün sudan istifadə artır, bu da su tutumlarını çirkləndirir. Bəzi regionlarda suvarılan torpaqların artması da içməli suların azalmasına səbəb olur. məsələn-XX əsrin əvvəllərində süni suvarılan torpaqlar 40 mln. ha olduğu halda, 50-60-cı illərdə 99 mln. ha, 2003-cü ildə 273 mln. ha təşkil etmişdir.

3. Dünya okeanından səmərəli istifadə olunmaması ərzaq problemini kəskinləşdirir. Okeanlarda balıqçılıq hövzələrində həddindən çox balıq tutulması dəniz məhsullarının mənimsənilməsi bir çox balıq növlərinin məhvinə gətirib çıxarmışdır.

4. Ərzaq mühitinin çirklənməsi problemində kənd təsərrüfatına, ərzaq təminatına böyük zərər vurur. Bir çox tullantıların, qaz və digər maddələrin ətraf mühitə atılması iqlimin istiləşməsinə səbəb olmuşdur.

Eyni zamanda qasırğa və tufanlar, quraqlıq, daşqınlar və digər fəlakətlər də artmışdır. Bunlar da ərzağın mənbəyi olan aqrar bölməyə zərər verir. İqlimin gələcəkdə də istiləşməsi, buzlaqların əriməsi dünya okeanlarının 6-7 metr qalxmasına səbəb ola bilər ki, bu da yüzlərlə şəhər və kəndlərin su altında qalması deməkdir.

5. Məhsuldarlıq səviyyəsinin aşağı düşməsi problemi. Məhsuldarlığın qaldırılması üçün çoxlu kapital tələb olunur. Bu problemlərə qarşı təhlükəsizlik tədbirləri dünya miqyasında regional, milli və hətta ev təsərrüfatı səviyyəsində müəyyən edilir. FAO belə hesab edir ki, cəmiyyətin tələbatının ödənilməsi üçün dünya miqyasında müəyyən ehtiyat yaradır. Bu məqsədlə keçənilki məhsulun 17 faizi ehtiyat kimi saxlanılır. Bu dünya əhalisinin iki aylıq tələbatına kifayət edə bilər. Milli səviyyədə ərzaq təhlükəsizliyinin müəyyən edilməsində müxtəlif göstəricilərdən istifadə edilir. Hər nəfər hesabı ilə mövcud ərzaq istehlakı, özünü təmin edə bilmə əmsalı və s. kimi göstəricilər də əsas götürülür.

**Ədəbiyyat**


1. Kərimov C., Orucov A., İsrafilov H. Dünya iqtisadiyyatı. Dərslik. Bakı, 2007, 728 s.



**Резюме**

***Ахмедова Т.М.***

**Глобальные продовольственные проблемы**

*Статье посвящена решению одной из глобальных проблем века. Здесь рассмотрены причины возникновения глобальной продовольственной проблемы, система факторов, воздействующих на ее эволюцию, концепции продовольственной безопасности, а также рассматривается роль международных экономической организаций в решении этой проблемы*

***Ключевые слова:*** *продовольственная проблема, продовольственная безопасность*



**Summary**

***Ahmadova T.M.***

**Global Food Problems**

*The article deals with the one of the main unsolved problems of XXI century which is called global food problem. Appearing reasons of global food problem, the factors systems influencing to their evalution, the conception of food safety, and the role of international economical companies in solution of this problem are reflected in this article.*

***Key words:*** *food problem, food safety*


## MÜASİR DÖVRDƏ AZƏRBAYCANIN NƏQLİYYAT SEKTORUNUN İNKİŞAFININ STRATEJİ ASPEKTLƏRİ


***Əliyev Ş.T.***

*Sumqayıt Dövlət Universiteti*



***Xülasə.*** *Məqalədə müasir dövrdə Azərbaycanın nəqliyyat sektorunun inkişafının strateji aspektləri tədqiq olunmuşdur. Bu məqsədlə nəqliyyat sektorunun strateji inkişafının əhəmiyyəti təhlil edilmişdir. Nəqliyyat sektorunun ölkənin iqtisadiyyatında rolu və səmərəliliyinə baxılmışdır. Ölkənin nəqliyyat sektorunda yük daşınmasının dinamikası təhlil olunmuşdur. Azərbaycanda 2011-2017-ci illərdə avtomobil nəqliyyatı üzrə yük daşınmasının dinamikası baxılmışdır. Dəmir yolu nəqliyyatı üzrə yük daşınması təhlil olunmuşdur. 2011-2017-ci illərdə aviasiya sahəsində yük daşınmasının dinamikası verilmişdir. Ölkədə nəqliyyat sektorunda sərnişin daşınmasının dinamikası ayrıca baxılmışdır. Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində yükdaşımalarının həcmi təhlil olunmuşdur. Nəqliyyat sektorunun tranzitivlik amilindən istifadə potensialı açıqlanmış və bu amildən daha geniş istifadə olunmasının vacibliyi əsaslandırılmışdır. Müasir dövrdə ölkənin nəqliyyat sektorunun inkişafının strateji aspektləri üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*



***Açar sözlər:*** *Azərbaycanın nəqliyyat sektoru, nəqliyyat sektorunun inkişafının strateji aspektləri, nəqliyyat sektorunun inkişaf problemləri, nəqliyyat sektorunun inkişaf potensialı, nəqliyyat sektorunun tranzitivlik amili, İpək Yolu Beynəlxalq Nəqliyyat Dəhlizi*

Nəqliyyat sistemi hər bir ölkənin iqtisadiyyatının davamlı və dayanıqlı inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Nəqliyyat sektorunun rəqabətqabiliyyətliliyinin yüksək olması ölkənin iqtisadi inkişaf proseslərinin dinamikliyindən xəbər verir [1;2]. Bu amillər baxımından Azərbaycan özünün nəqliyyat-tranzit sektorunun rəqabətqabiliyyətlilik potensialından daha səmərəli istifadə etmək imkanlarına malikdir [3]. Son illərdə ölkəmizin nəqliyyat sisteminin inkişafı və onun səmərəliliyinin artırılması istiqamətində davamlı tədbirlər diqqət çəkir. Dövlət tərəfindən nəqliyyat infrastrukturunun inkişafına strateji yanaşmalar əsas yeri tutur [4]. Bu sektorun qanunvericilik bazasının formalaşdırılması əsasən başa çatdırılmışdır və bir sıra mühüm qanunlar qəbul olunmuşdur [5;6;7]. Milli nəqliyyat sektoru iqtisadiyyatın dayanıqlı inkişafı və ölkənin maliyyə sisteminin sabit vəziyyətdə olması şəraitində inkişaf edir. Mövcud tendensiyalar nəqliyyat xidmətlərinə tələbatı əvvəlcədən müəyyən edir və bununla əlaqədar olaraq bu xidmətlərlə bağlı mexanizmlərin təkmilləşdirilməsi prosesləri xeyli fəaldır [8]. Beynəlxalq və yerli əhəmiyyətli, həmçinin səmərəlilik baxımından xeyli cəlbedici olan nəqliyyat dəhlizlərinin mövcudluğu bu sahədə olan yüksək potensialdan xəbər verir [9]. Ölkənin tranzit nəqliyyat imkanlarının genişləndirilməsi, beynəlxalq standartlara cavab verən rəqabətqabiliyyətli nəqliyyat tranzit sisteminin təşkil olunması məsələləri strateji səviyyəyə qaldırılmışdır. Bu istiqamətdə sərhəd - gömrük texnologiyalarının sadələşdirilməsi və sərhəd keçid məntəqələrinin modernləşdirilməsi, elektronlaşdırılması prosesləri sürətlə gedir [10;11].

Müasir dövrdə ölkəmizdə nəqliyyat sektorunun inkişaf etdirilməsi məsələləri mühüm sosial-iqtisadi əhəmiyyət daşıyır. Əhaliyə operativ və yüksək səviyyədə nəqliyyat xidmətlərinin göstərilməsi kifayət qədər strateji məsələlərdəndir.Bundan əlavə, ölkəmizin nəqliyyat sektoru inkişafı baxımından bir sıra geostrateji və geoiqtisadi üstünlüklərlə fərqlənir. Belə ki, tranzitivlik amili baxımından mühüm ərazidə - Avropa və Asiyanın kəsişdiyi ən vacib nöqtələrindən birində yerləşməsi ölkəmizin nəqliyyat sektorunun xeyli cəlbedici etmişdir. Eyni zamanda İpək yolu üzrə müasir dövrdəki güclü potensialdan istifadə olunması perspektivləri diqqət çəkir. Artıq, son illərdə regionun və dünyanın ən iri dəmiryol nəqliyyat layihələrindən biri kimi Bakı-Tibilisi-Qars dəmir yolu magistralı istismara verilmişdir.

Qeyd edək ki, Azərbaycanda yük daşımaların 40 %-ə qədəri və sərnişin daşımalarının 25 % qədəri dəmiryoluna payına düşür. Ümumilikdə,ölkəmizdə mövcud dəmir yolu magistrallarının ümumi uzunluğu 2125 kilometrdir. Avtomobil yollarının uzunluğu 59,1 min kilometrdir və bunun 1,7 min kilometri beynəlxalq əhəmiyyətə malik avtomobil magistral yollarıdır. Dəniz nəqliyyatının inkişafı isə əsasən Xəzər dənizi ilə bağlıdır və hazırda Xəzər dənizində nəqliyyat sisteminin inkişaf etdirilməsi ölkəmizin nəqliyyat siyasətinin strateji istiqamətlərindən biri kimi qiymətləndirilir. Azərbaycan bayrağı altında gəmilər və tankerlər dünyada mövcud olan əksər okeanların və dənizlərin sularında üzürlər. Xəzər Dəniz Gəmiçiliyi ilə yanaşı ARDNŞ-nin mühüm struktur vahidlərindən biri kimi – Xəzər Dəniz Neft Donanmasının gəmi və tankerləri də ölkəmizin əsas milli sərvəti olan neft və qaz məhsullarını dünya bazarlarına çıxarmaqda və son alıcılara çatdırmaqda çox mühüm vəzifələrin öhdəsindən gəlirlər. Xəzər Dəniz Neft Donanmasının ümumilikdə 259 gəmi və tankerləri vardır. Beynəlxalq Dəniz Ticarət Limanı kimi Ələt qəsəbəsində güclü nəqliyyat dəniz – liman infrastrukturunun yaradılması ölkəmizin nəqliyyat sisteminin rəqabətqabiliyyətliliyinin artırılmasına ciddi töhfə verəcəkdir. Bu limanda xüsusi iqtisadi zona statusunda iri nəqliyyat- logistika mərkəzinin formalaşdırılması üzrə işlər intensiv olaraq aparılmaqdadır.

Şəkil 1-də Azərbaycanda nəqliyyat sektorunda yük daşınmasının 2011-2017-ci illər ərzində dinamikası verilmişdir



**Şəkil 1. Azərbaycanda nəqliyyat sektorunda yük daşınmasının dinamikası, mln. ton, 2011-2017-ci illər (ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır, http://www.stat.gov.az).**

Şəkil 1-dən göründüyü kimi, 2011-2017-ci illər ərzində ölkəmizin nəqliyyat sektorundayük daşımalarında həcmi 11,2 % artmışdır. 2014-2016-cı illərdə bu sektorda artım müşahidə olunmamışdır, yalnız 2017-ci ildə 2016-cı ilə nisbətdə artım dinamikası təmin edilmişdir [12;13].

Şəkil 2-də Azərbaycanın nəqliyyat sektorunda yüklərin daşınmasında iri paya malik olan avtomobil nəqliyyatı üzrə yükdaşımaların həcminin dinamikası verilmişdir və göründüyü kimi həmin dövr ərzində bu sahədə yükdaşımaların həcmi 32 %-ə yaxın artmışdır.




**Şəkil 2. Azərbaycanda avtomobil nəqliyyatı üzrə yük daşınmasının dinamikası, mln. ton, 2011-2017-ci illər (ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır, http://www.stat.gov.az).**

Şəkil 3-də isə dəmiryol nəqliyyatı üzrə yük daşımaların həcmi öz əksini tapmışdır və buradan göründüyü kimi həmin nəqliyyat növünün potensialından istifadə edilməsi məsələlərində hələ çox iş görülməlidir, belə ki, 2015-ci ildən başlayaraq bu nəqliyyat vasitəsi ilə yükdaşımaların həcmində artım tempi itirilmişdir, əksinə, azalma tendensiyası davam etməkdədir.




**Şəkil 3. Azərbaycanda dəmir yolu nəqliyyatı üzrə yük daşınmasının dinamikası, mln. ton, 2005-2017-ci illər (ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır, http://www.stat.gov.az).**

Şəkil 4-də isə Azərbaycanda aviasiya nəqliyyat vasitələri ilə yükdaşımaların 2011-2016-cı illər üçün dinamikası öz əksini tapmışdır. Həmin dövr ərzində aviasiya nəqliyyat vasitələri ilə yükdaşımaları 3,4 dəfə artmışdır və 2017-ci ilin yekununda 173 min ton təşkil etmişdir.




**Şəkil 4. Azərbaycanda nəqliyyat sektorunda aviasiya sahəsində yük daşınmasının dinamikası, min ton, 2011-2017-ci illər (ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır, http://www. stat.gov.az).**

Ölkəmizin nəqliyyat sektorunda strateji əhəmiyyət kəsb edən nəqliyyat xidmətlərindən biri də sərnişin daşımaları ilə bağlıdır və bu sahədə böyük həcmli işlər görülməkdədir. Xüsusilə, Bakı, Gəncə və Sumqayıt şəhərlərində sərnişin daşınmasının keyfiyyətinin artırılması məqsədilə iqtisadi-təşkilati və institutsional tədbirlərin görülməsi diqqət çəkir. Şəkil 5-də ölkəmizdə sərnişin daşınmasının 2011-2017-ci illər üzrə dinamikası verilmişdir.




**Şəkil 5. Azərbaycanda nəqliyyat sektorunda sərnişin daşınmasının dinamikası, mln. sərnişin, 2011-2017-ci illər (ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır, http://www. stat.gov.az).**

Şəkildən 5-dən göründüyü kimi, 2011-2017-ci illərdə ölkənin nəqliyyat sektorunda sərnişin daşınmasının ümumi həcmi 32,3 % artmışdır və 2017-ci ilin yekununda bu rəqəm 1973,4 milyon sərnişin təşkil etmişdir.

Qeyd edək ki, ölkəmiz beynəlxalq nəqliyyat dəhlizi kimi əhəmiyyətli coğrafi mövqedə yerləşir və əvvəldə qeyd etdiymiz kimi, güclü tranzit potensialına malikdir. Şəkil 6-da Avropa-Qafqaz-Asiya nəqliyyat

dəhlizinin Azərbaycan hissəsində 2011-2017-ci illərdə yükdaşımalarının həcminin dinamikası öz əksini tapmışdır və burada da mövcud potensialdan istifadənin gücləndirilməsinə ehtiyac qalmaqdadır.




**Şəkil 6. Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində yükdaşımalarının həcmi, mln. ton, 2011-2017-ci illər (ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır, http://www. stat.gov.az).**

Ölkə Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”ndə yaxın və uzaq perspektivdə ölkə iqtisadiyyatının müxtəlif istiqamətləri üzrə strateji hədəflər müəyyənləşdirilmişdir [14]. Bu hədəflərin reallaşdırılmasında nəqliyyat sektorunun rolu əhəmiyyətli dərəcədə artmaqdadır və strateji xarakter daşıyır. Ölkənin nəqliyyat sektorunun beynəlxalq standartlar səviyyəsinə qaldırılması və onun potensialının daha da artırılması imkanlarından yararlanmaq üçün daha çox işlər görülməlidir [15]. Belə ki, hazırkı dövrdə ölkəmizin nəqliyyat sektorunun inkişafının strateji aspektlərindən daha səmərəli istifadə olunması üçün bir sıra məsələlərə xüsusi diqqət yetirilməlidir:

- ✓ Nəqliyyat sektorunun idarəetmə sisteminin və qanunvericilik bazasının beynəlxalq standartlar səviyyəsinə və dünya təcrübəsinə uyğunlaşdırılması təmin olunmalıdır;
- ✓ Ölkənin iri şəhərləri ilə yanaşı, regionlarda nəqliyyat infrastrukturunun maddi-texniki bazasının gücləndirilməsi intensivləşdirilməli və müxtəlif nəqliyyat növlərinin potensialından istifadə edilməsi problemləri həll edilməlidir
- ✓ Nəqliyyat sektorunun tranzitivlik potensialından daha səmərəli istifadə olunmasının təmin edilməsi üzrə 2020-2030-cu illər üzrə xüsusi dövlət proqramının hazırlanması məqsədəuyğundur və s.

## Ədəbiyyat


1. Collis, D. J., Montgomery, C. A. Competing on resources: strategy in the 1990s.Harward Business Review, Vol. 73, 1995, pp. 118–128.
2. Garrison, W. L., Levinson, S.M. The Transportation Experience: Policy Planning and Deployment, Oxford: Oxford University Press, 2006, 544 p.
3. Azərbaycanın nəqliyyat-tranzit sektorunun rəqabətqablilliyyətinin yüksəldilməsi problemləri. BMT İnkişaf Proqramı. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu. Bakı, 2009, 48 s.
4. Azərbaycan nəqliyyat sisteminin son inkişafı. http://www.traceca-org.org/az/countries/azrbaycan/azrbaycan-respublikasinin-nqliyyat-ektoru/nqliyyatin-inkisafi.
5. “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2005.
6. Azərbaycan Respublikasının nəqliyyat qanunvericiliyi. Bakı, 2005, 820 s.

7. Avtomobil yolları haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2000.

8. Mirzəyev F.M. Azərbaycanın nəqliyyat sistemində investisiya fəaliyyəti və onun təkmilləşdirilməsi istiqamətləri. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın Avtoreferatı. Bakı, 2017, 28 s.

9. Nəsirov Ə.Y. Aqrar-sənaye kompleksinin dayanıqlı inkişafının təmin edilməsində beynəlxalq nəqliyyat dəhlizlərinin rolunun artırılması. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Avtoreferatı. Bakı, 2017, 24 s.

10. Xasıyev B.Q. Azərbaycanda nəqliyyat infrastrukturunun formalaşması və qeyri-neft sektorunun inkişafında onun rolu. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın Avtoreferatı. Bakı , 2018, 27 s.

11. Yadigarov T.A. Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrində dəniz nəqliyyatının səmərəliliyinin yüksəldilməsi. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın Avtoreferatı. Bakı, 2018, 32 s.

12. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. Bakı, 2018, 808 s.

13. Azərbaycan nəqliyyatı. Statistik məcmuə. Bakı, 2018, 144 s.

14. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

15. Pənahəliyeva M.Ö, Əliyev Ş.T. Beynəlxalq nəqliyyat əməliyyatları. Sumqayıt Dövlət Universiteti, 2014, 176 s.

**Резюме**

***Алиев Ш.Т.***

**Стратегические аспекты развития транспортного сектора в Азербайджане насовременном этапе**

*В статье исследованы стратегические аспекты развития транспортного сектора в Азербайджане на современном этапе. С этой целью анализированаважность стратегического развития транспортного сектора. Рассмотрены роли и эффективность транспортного сектора в экономике страны. Анализировано динамика перевозки грузов в транспортном секторе страны. Дана динамика перевозки грузов по автомобильному транспорту в Азербайджане за 2011-2017 годы. Анализирована перевозка грузов по железнодорожным транспортом. Дана динамика перевозки грузов в авиационной сфере за 2011-2017 годы. Отдельно рассмотрен объем перевозки пассажиров в транспортном секторе страны. Проанализированы объемы грузоперевозок в азербайджанской части транспортного коридора Европа-Кавказ-Азия. Обоснована важность и раскрыт потенциал более широкого использования факторов транзитивности транспортного сектора. Подготовлены рекомендации и даны предложения по стратегическим аспектам развития транспортного сектора страны на современном этапе.*

***Ключевые слова:*** *транспортный сектор Азербайджана, стратегические аспекты развития транспортного сектора, проблемы развития транспортного сектора, потенциал развития транспортного сектора, фактор транзитивноститранспортного сектора,Международный транспортный коридор Шелкового пути*

**Summary**

***Aliyev Sh.T.***

**Strategic Aspects of the Development of the Transport Sector in Azerbaijanin the Modern Period**

*Strategic aspects of the development of the transport sector in Azerbaijanin the modern period are examined in the article.For this purpose, the importance of the strategic development of the transport sector has been analyzed. The roles and effectiveness of the transport sector in the country's economy are considered.Analyzed the dynamics of the transport of goods in the transport sector of the country. The dynamics of the carriage of goods by road in Azerbaijan for 2011-2017 are given.Analyzed the transport of goods by rail. Given the dynamics of the transport of goods in the aviation sector for 2011-2017. Separately considered the volume of transportation of passengers in the transport sector of the country.The volume of freight traffic in the Azerbaijani part of the Europe-Caucasus-Asia transport corridor was analyzed. It justifies the importance and reveals the potential for a wider use of transitivity factors of the transport sector.Recommendations were prepared and proposals were made on the strategic aspects of the development of the country's transport sector in the modern period.*

***Keywords:****the transport sector of Azerbaijan, strategic aspects of the development of the transport sector, problems of development of the transport sector, the potential for the development of the transport sector, the factor of transitivity of the transport sector, the International Silk Road Corridor*

## LOGİSTİKA SİYASƏTİNİN FORMALAŞDIRILMASINDA İNFRASTRUKTUR TƏMİNATININ ROLU

***Əmiraslanova D.Ə.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Logistika - müəssisədə və ya təsərrüfat subyektləri arasında material dəyərlərinin fiziki və məlumat hərəkətləri proseslərini əhatə edən təsərrüfat fəaliyyəti növüdür. Bununla yanaşı, logistika material ehtiyatlarının nəqli, saxlanması, formalaşması və başqa fəaliyyət növləri ilə bağlı hadisələri və prosesləri öyrənən bilik sahəsidir. Buna görə də müəssisələr müvafiq logistika siyasətini formalaşdırmaqda və həyata keçirməkdə maraqlı olmalıdırlar. Məqalədə logistika siyasətinin istiqamətləri və onun formalaşdırılmasında infrastruktur təminatının rolu araşdırılmışdır.*

***Açar sözlər:*** *logistika, infrastruktur, müəssisə, informasiya təminatı, logistika siyasəti*

Sənaye müəssisəsində həm ticarət, həm də satış axınları həyata keçirilir. Məhz bu axınların nəticəsində müəssisə xarici aləmlə təmasa girir. Eyni zamanda müəssisənin öz daxilində ehtiyatların hərəkəti, saxlanması, manipulyasiyası, qorunması prosesləri də həyata keçirilir.

Logistika prosesləri geniş çeşiddə xammal, material, yarımfabrikat, komplektləşdirici hissələr, kənar xidmətlər və s. tələb edən mürəkkəb istehsal və əmtəə strukturlarına malik olan iri sənaye müəssisələrində kifayət qədər mürəkkəbdir. Bu tipli müəssisələrdə nəinki satış fazasını əhatə edən, eləcə də distribusiya proseslərinin bütün spektrini, məsələn, satış anbarları, pərakəndə satış mağazaları, ticarət və servis xidməti nöqtələri şəbəkəsini əhatə edən logistika prosesləri həyata keçirilə bilər.

Beləliklə, logistika proseslərinin mikoriqtisadi aspekti, hər şeydən əvvəl, müəssisə səviyyəsində logistikanı nəzərdə tutur.

İstehsal-təsərrüfat proseslərinə həmçinin material dəyərlərinin təbiətdə onların əmələgəlmə mənbələrindən son istehlakçıya (alıcıya) qədər hərəkəti prosesi kimi də baxmaq olar. Bu cür yerdəyişmə bir çox mərhələlərdən keçir ki, onların özləri də ayrı-ayrı halqalara bölünür. Yerdəyişmənin əsas mərhələləri aşağıdakılar hesab edilir [1]:

- təbii mənbələrdən (yataqlardan) xammalın alınması;
- xammalın material və yarımfabrikata çevrilməsi;
- yarımfabrikatların, detalların və elementlərin istehsalı;
- son məhsulların (istehsal və istehlak) istehsalı;
- istehsal vasitələri ilə ticarət;
- istehlak malları ilə ticarət;
- servis, sazlama və təmir prosesləri;
- tullantıların utilizasiyası və onların emal dairəsinə hərəkəti.

İnformasiyaların ötürülməsi, qəbulu və qərarların qəbul edilməsi prosesləri də logistikanın komponentlərindən biri hesab edilir. İnformasiya maddi resursların hərəkətini və vəziyyətini əks etdirməklə yanaşı, bu hərəkətlərin idarə edilməsində də istifadə edilir. Müasir iqtisadiyyat küllü miqdarda informasiya axını formalaşdırır. Bu informasiyalar lazımi qaydada toplanmalı, saxlanmalı, işlənməli, kodlaşdırılmalı və qəraların qəbulunda istifadə edilməlidir. Buna görə də, demək olar ki, informasiya prosesləri maddi dəyərlərin həm müəssisələr, həm milli iqtisadiyyat, həm də qlobal miqyasda hərəkətlərinə təsir göstərir.

Logistika siyasətinin formalaşdırılmasında və logistika fəaliyyətinin həyata keçirilməsində informasiya təminatı mühüm rol oynayır. İnformasiya təminatının relallaşdırılması üçün isə müxtəlif texniki vasitələr tələb olunur. Bu vasitələr, onlardan istifadə üsulları, bu vasitələrin iş qabiliyyətini təmin edən sistemlər logistika proseslərinin infrastrukturunu təşkil edir. O, logistikanın əsas funksiyalarının-material dəyərlərinin nəqli, manipulyasiyası, ehtiyatların formalaşması, saxlanması və qorunması - iqtisadi cəhətdən səmərəli və fasiləsiz həyata keçirilməsini təmin etməlidir.

Logistika proseslərinin infrastrukturuna aşağıdakı texniki vasitələr qrupu daxil ola bilər [2]:

Müəssisələr arasında, eləcə də müəssisə daxilində malların yerdəyəşməsini (hərəkətini) təmin edən nəqliyyat vasitələri; ehtiyatların yığılmasını, saxlanmasını təmin edən binalar, anbar qurğuları, eləcə də əsas anbar funksiyalarının yerinə yetirilməsini təmin edən anbar avadanlıqları; məhsulların saxlanması, eləcə də

nəqli və manipulyasiyası məqsədi ilə onların qablaşdırılması; informasiyaların işlənməsi vasitələri (texniki qurğular və sistemlər, eləcə də tətbiqi proqram təminatı).

Ayrı-ayrı ölkələrin iqtisadiyyatında, eləcə də qlobal sistemlərdə malların fiziki hərəkəti proseslərinin fasiləsizliyinin əsas şərti, bütün nəqliyyat-anbar zəncirindəki çoxlu sayda texniki parametrlərin qarşılıqlı uyğunluğu hesab edilir. Bu zəncirin əsas halqaları kimi aşağıdakılar qəbul edilir [3]:

• yük yerləri və onlarla əlaqədar qablaşdırma;
• anbar qurğuları və istehsal binaları;
• yükləmə-boşaltmaişləri;
• malların anbarlara yığılmas ıüçün avadanlıqlar;
• malların daxili və xarici nəqli vasitələri;
• yüklərin manipulyasiya vasitələri.

Logistikanın texniki infrastrukturunun qeyd edilən halqalarının uyğunlaşdırılması və əlaqələndirilməsi üçün dövlət və beynəlxalq standartlara uyğun normativlər müəyyən edilir. Bu zaman əsas standartlaşdırılan element yük yeri vəonun ölçüləri hesab edilir.

Logistika proseslərinin infrastrukturu onun qarşısında duran əsas vəzifələri yerinə yetirməklə yanaşı, eyni zamanda, logistika proseslərinin gedişinə, ələlxüsus onların fasiləsiliyinə, etibarlılığına, xərclərin miqdarına da təsir göstərir. Bu zaman, təbiidir ki, maliyyə aspekti əsas şərtlərdən biridir. Logistika infrastrukturunun texniki vasitələri seçilərkən təkcə kapital xərcləri və onların səmərəliliyi deyil, müəssisənin yekun fəaliyyətinə təsir edən operativ istismar xərcləridə nəzərə alınmalıdır.

Logistika proseslərinə kifayət qədər əsas fondler və əmək resursları cəlb edilir. Çox zaman bu amillər bir-birindən asılı olur. Nəql, manipulyasiya və s. proseslərin mexanikləşdirilməsi, avtomatlaşdırılması çoxlu kapital qoyuluşu ilə yanaşı, əmək məhsuldarlığının yüksəlməsinə, işçilərin sayının isə azalmasına səbəb olur. Belə vəziyyət minimum logistika xərcləri müqabilində logistika xərclərinin fasiləsiz və etibarlılığının təmin edilməsini zəruri edir. Bunun üçün logistika proseslərinin infratsrukturunun bütün komponentlərinin dəqiq müəyyən edilməsinə və hər komponent üzrə fəaliyyətin səmərəli həyata keçirilməsinə nail olmaq lazımdır.

Logistika proseslərinin nəqliyyat infrastrukturu əsasən iki vəzifənin yerinə yetirilməsini təmin etməlidir: material dəyərlərinin fasiləsiz hərəkətini və nəqliyyat xərclərinin minimum səviyyəsini. Logistika proseslərinin nəqliyyat infrastrukturuna beş nəqliyyat növü daxildir: dəmiryol; avtomobil; boru kəməri; çay və dəniz; aviasiya.

Ölkə daxilində nəqliyyat daşımalarının ümumi həcminin çox hissəsi birinci üç nəqliyyat növünün payına düşür. Dəniz nəqliyyatı əsasən beynəlxalq ticarətin həyata keçirilməsində istifadə edilir. Aviasiya nəqliyyatı yükdaşımalarda yardımçı rol oynayır.

Anbar və manipulyasiya infrastrukturuna aşağıdakılar daxildir [4]:

• anbar avadanlığı;
• daxili nəql və manipulyasiya üçün texniki vasitələr;
• anbar avadanlıqları - yükləmə-boşaltma, nəzarət-ölçü, yanğın əleyhinə, qalaqlayıcı və s.
• digər texniki vəsaitlər (informasiya texnikası və s.).

Anbar avadanlıqları malların saxlanması, qorunması və manipulyasiyası proseslərini təmin edən daimi infrastrukturu təşkil edirlər. Onlar çoxnövlülük, çoxsaylı texniki və istifadə parametrləri ilə xarakterizə olunurlar. Daxili nəql və manipulyasiya üçün texniki vasitələr malların hərəkət sürətinə, manipulyasiya və nəql poseslərinin məhsuldarlığına aktiv təsir etməklə yanaşı, yüklərin qorunmasında, onların istehlak dəyərlərinin itirilməsinin qarşısının alınmasında mühüm rol oynayırlar. Bu komponentlər istehsal prosesinin həyata keçirilməsinə də ciddi təsir göstərirlər.

Bu qrupların hər biri ayrı-ayrı növlərə və tiplərə ayrılır. Daxili nəql və manipulyasiya vasitələri seçilərkən yalnız onların texniki parametrləri deyil, həmçinin inteqrasiya sistemlərində işləmək qabiliyyətləri, kapital və istismar xərcləri, malların hərəkəti və saxlanması üzrə əməliyyatların sinxronlaşdırılmasını təmin edən məhsuldarlığın normativ parametrləri nəzərə alınmalıdır.

Anbar avadanlıqları - müxtəlif maşınlar, aparatlar, qurğular, ölçü cihazları, təşkilati-texniki vasitələr və s. material ehtiyatlarının anbarlaşdırılması və qorunması, eləcə də anbar-manipulyasiya funksiyalarının yerinə yetirilməsi üçün istifadə edilir.

Son zamanlar logistika proseslərinin idarə edilməsi üçün qlobal informasiya şəbəkəsi olan internetdən istifadə də geniş yayılmışdır. İnternetdən istifadə logistikanın aşağıdakı funksiyalarının tez və səmərəli reallaşdırılmasına geniş imkanlar açır[5]:

• nəqletmə (maşın parkının bölgüsü, park üzərində fasiləsiz nəzarət, «boş» hərəkətlərin qarşısının alınması və s.);

• saxlama, qoruma;

• alıcı və satıcı arasında əlaqələrin lazımi səviyyədə saxlanması;

• ehtiyatların lazımi səviyyədə saxlanması (onların saxlanması qayğısının satıcının üzərinə qoyulması);

• sifarişin verilməsi və mal göndərilməsinin təmin edilməsi (sifarişlərin verilməsi və mal göndərilməsi qaydalarının sadələşdirilməsi);

• müştəriyə xidmət.

Biznesin idarə edilməsini asanlaşdırmağa imkan verən təşkilati texnikanın, xüsusən də mobil telefonların və kalkulyatorların inkişafında böyük tərəqqinin olduğu da qeyd edilməlidir. Onlardan istifadə kompyüterlərdən kənarda biznes-qərarların qəbulu üçün kifayət qədər geniş imkanlar yaradır.

**Ədəbiyyat**

1. Axundov Ş.A. Marketinqin əsasları, Bakı, 2001.

2. Əliyev T.N. Marketinqin təşkili və idarə edilməsi. Bakı, 2004.

3. Диксон Питер Р. Управление маркетингом. М.Бином, 1998.

4. Голубков Е.П. Основы маркетинга. Учебник. М.: «Финпресс», 1999.

5. Алиев Т.Н., Осман Шахин. Организация процесса управления маркетингом на химических предприятиях. АзНИИНТИ, Баку, 2001.

**Резюме**

***Амирасланова Д.А.***

**Роль инфраструктурного обеспечения в формировании логистической политики**

*Логистика - это вид хозяйственной деятельности, который включает в себя процесс физических и информационных потоков материальных ценностей на предприятии или между хозяйствующими субъектами. Это также самостоятельная область знаний, изучающая события и процессы, связанные с транспортировкой, хранением, формированием материальных ресурсов, а также другими видами деятельности. Поэтому предприятия должны быть заинтересованы в разработке и реализации соответствующей логистической политики. В статье рассматриваются направления логистической политики и роль инфраструктурного обеспечения в ее формировании.*

***Ключевые слова:****логистика, инфраструктура, предприятие, информационное обеспечение, логистическая политика*

***Summary***

***Amiraslanova D.A.***

**The Role of Infrastructure Provision ın Forming Logistic Policy**

*Logistics is a type of economic activity that includes the process of physical and information flows of material values in an enterprise or between economic entities. It is also an independent area of knowledge that studies events and processes related to transportation, storage, the formation of material resources, as well as other activities. Therefore, enterprises should be interested in formation and implementation of appropriate logistics policy. The article discusses the direction of the logistics policy and the role of infrastructure provision in its formation.*

***Key words:*** *logistics, infrastructure, enterprise, information provision, logistics policy*

## İNNOVASİYA FƏALİYYƏTİNDƏ İNFORMASİYA MƏRKƏZLƏRİNİN ROLU

***Əmirov İ.B.,***

***Baxşıyeva Z.N.***

*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Hazırlanan məqalədə innovasiya fəaliyyətində informasiyanın infrastrukturu, xüsusilə informasiya mərkəzlərinin əhəmiyyəti şərh edilmişdir. Burada həmçinin İnnovasiya fəaliyyətinin birbaşa iştirakçılarının informasiya ehtiyaclarının təmin olunmasına istiqamətləndirilən informasiya mərkəzlərinin məlumat bazaları da tədqiq olunmuşdur.*

***Açar sözlər:*** *innovasiya, informasiya, infrastruktur, məlumat bazası, istehsal*

Ölkəmizin innovasiyalı inkişaf yoluna keçməsinin sürətləndiyi bir dövrdə innovasiyanın daha da genişləndirilməsinin əsasını innovasiya fəaliyyətinin infrastrukturu təşkil edir. İnnovasiya fəaliyyətinin infrastrukturu texnoloji qərarların formalaşdırılması və yayılması, intellektual mülkiyyətin kapitallaşdırılması proseslərinin sürətləndirilməsi, vençur maliyyələşdirmə formasında vəsaitlərin cəlb edilməsi, istehsalın modernləşdirilməsinin və texnoloji yenilənməsinin həyata keçirilməsi üçün imkanlar yaradır.

İnnovasiya fəaliyyətinin infrastrukturu dedikdə elə təşkilatların (institutların) məcmusu başa düşülür ki, onların da tərkibinə aşağıdakılar aid edilməlidir:

- akademik və tətbiqi elmlərin infrastrukturu;
- istehsal-texnoloji infrastruktur;
- maliyyə infrastrukturu;
- innovasiya fəaliyyətinin informasiya və məsləhət (konsaltinq) infrastrukturu.

Bu tərkibdə adı çəkilən innovasiya fəaliyyətinin informasiya və məsləhət infrastrukturunun əhəmiyyəti böyükdür. İnnovasiya fəaliyyətinin informasiya infrastrukturu informasiya və konsaltinq xidmətləri təqdim edən təşkilatların qrupundan ibarətdir. O özlüyündə analitik mərkəzləri (konsaltinq şirkətləri), məlumatlar bazasını, informasiya-analitik mərkəzləri, informasiya mərkəzlərini, internet-resursları birləşdirir. Təşkilati infrastruktur elmi-koordinasiya mərkəzlərindən, kollektiv istifadə mərkəzlərindən, texnologiyaların transferi mərkəzindən, sənaye mülkiyyətli dövlət institutlarından ibarətdir.

İnnovasiya fəaliyyətinin səmərəli fəaliyyət göstərməsində əsas resurs komponentlərindən biri də informasiya təminatıdır. İnnovasiya fəaliyyətinin informasiya təminatının zəruriliyi innovasiya tsiklinin özü ilə, həmçinin transferin inkişaf etməsi prosesləri ilə izah olunur. Tam ölçülü informasiya tsikli özündə kompleks və çoxmərhələli prosesləri cəmləşdirir. Bu əsasən aşağıdakı mərhələlərdən ibarətdir:

1) Fundamental tədqiqatlar
2) Tətbiqi tədqiqatlar
3) Təcrübi-konstruktor işləmələri
4) Texnoloji mənimsəmə, istehsalata hazırlıq
5) Sənaye istehsalı
6) Marketinq və bazarda satış

Göstərilən mərhələlərin hər birində müvafiq informasiya lazımdır. [1, s.54]Elmi-innovasiya sferalarında informasiya infrastrukturunun inkişaf etdirilməsi və təkmilləşdirilməsi çoxplanlı kompleks xarakteri daşıyır. Bu əsasən aşağıdakı istiqamətlərdə aparılır:

- dövlət elmi-texniki informasiya (ETİ) sisteminin təkmilləşdirilməsi və innovasiya proseslərinin müxtəlif mərhələlərinin səmərəli informasiya mübadiləsinin təmin edilməsi məqsədlərilə informasiya resurslarının inkişaf etdirilməsi;
- müasir telekommunikasiya texnologiyalarından istifadə etməklə innovasiya proseslərinin bütün iştirakçılarının səmərəli qarşılıqlı fəaliyyət şəraitinin təmin olunmasında kompüter şəbəkələrinin inkişafı;
- elmi-innovasiya sferalarında informasiya infrastrukturu işinin səmərliliyini yüksəldən yeni informasiya texnologiyalarının işlənib hazırlanması və istifadə olunması.

İndiki gündə MDB ölkələrində, Belarusda olduğu kimi ölkəmizdə də Dövlət elmi-texniki informasiya sistemi (DETİS) mövcuddur. Belə informasiya sistemi elmi-texniki kitabxanaları və təşkilatları birləşdirir. DETİS-lərin əsas vəzifəsi dövlətin elmi-texniki informasiya resurslarının formalaşmasının təmin edilməsi və səmərəli istifadə olunmasından ibarətdir. Bu zaman informasiya resurslarının dünya informasiyasının məkanına inteqrasiyası, informasiya məhsulları və xidmətləri bazarının yaradılmasına diqqət verilməlidir [2, s.56 ].

ETİ-nin dövlət sistemi 4 səviyyədən (altsistemdən) ibarətdir: 1.ETİ-nin və elmi kitabxanaların respublika orqanları 2. ETİ-nin və elmi-texniki kitabxanaların sahəvi orqanları 3. Regional ETİ-lər 4. ETİ-nin şöbələri və təşkilatların kitabxanaları.

Bir çox ölkələrdə, eləcə də MDB ölkələrində ETİ-ləri əsasən yayanlar elmi-texniki sferaların sistemli təhlili və informasiya təminatı təşkilatları, eləcə də dövlət standartlaşdırma və sertifikatlaşdırma institutlarıdır. Hazırda onlar, respublikada hüquqi şəxslərin yerinə yetirdikləri, elmi tədqiqat və təşkilati konstruktor işləmələrinin dövlət qeydiyyatını həyata keçirirlər. Belə təşkilatlar müvafiq dövlət reyestrini və elmi-texniki sənədləşmələrin fondunu idarə edirlər, qeydə alınmış işlərin bülletenlərini və nəşr edilməyən referativ məcmuələri çap edirlər. Dövlət standartlaşdırma və sertifikatlaşdırma təşkilatlarında fəaliyyətdə olan dövlətin, dövlətlərarası, beynəlxalq və regional standartları, həmçinin keyfiyyətli və rəqabət qabiliyyətli məhsulların yaradılması üçün digər dövlətlərin milli standartları haqqında informasiya saxlanılır.

Azərbaycan Respublikasında (AR-da) da ölkəmizin iqtisadiyyatında qloballaşmanın sürətləndiyi bir şəraitdə inkişafımızı təmin etmək məqsədi ilə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli

Strategiya işlənilib hazırlanmışdır. Ölkə başçısının Sərəncamı (№ 865) əsasında (9.01.2002) “AR-nın inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003÷2012-ci illər)” hazırlandı. Göstərmək lazımdır ki, həmin strategiya Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə birlikdə hazırlanmışdır.Bu Milli Strategiya müvafiq milli və beynəlxalq qurumların müsbət rəyini almaqla iqtisadi inkişafımızda özünün töhfələrini vermişdir. Bu strategiya informasiya mərkəzlərinin fəaliyyəti, eləcə də hərtərəfli informasiya təminatının təşkili ilə bir sıra istiqamətdə resursların istifadəsini nəzərdə tutmuşdur. Onların sırasında innovasiya fəaliyyətinə və informasiya mərkəzlərinin fəaliyyət göstərməsinə zəmin yaradanlar əsasən milli informasiya resursları, elmi-texniki və istehsalat potensialının yüksəldilməsi, informasiya təhlükəsizliyi ilə əlaqədardırlar.

Təsdiqlənən Milli Strategiyada milli informasiya resurslarının istiqamətinə əsasən bunlar daxildir: Azərbaycandilli proqram təminatının yaradılması və inkişaf etdirilməsi; vahid milli elektron informasiya məkanının formalaşdırılması; milli diasporaya elektron informasiya dəstəyinin təmin olunması; milli tarixi, ədəbi və mədəni irsin qorunub saxlanması və təbliğində, o cümlədən kitabxana, muzey və arxiv işlərində informasiya və kommunikasiya texnologiyalarının geniş tətbiq olunması; Azərbaycan seqmenti üzrə internetin genişləndirilməsi, milli axtarış saytlarının inkişaf etdirilməsi; elektron informasiya məkanında Azərbaycan dilinin geniş istifadəsinin təmin olunması; milli informasiya resurslarının beynəlxalq aləmə çatdırılması üçün onların ümumdünya elektron informasiya məkanına inteqrasiyası; milli azlıqların mədəni inkişafına xidmət edən informasiya resurslarının formalaşdırılmasına şərait yaradılması və s.

Göstərilən strategiyada innovasiya fəaliyyətində özünəməxsus rol oynayan fəaliyyət istiqamətlərindən biri də elmi-texniki və istehsalat potensialının yüksəldilməsidir. Burada əsasən informasiya və kommunikasiya texnologiyalarının yaradılması və geniş tətbiq olunmasını təmin edən elm sahələrinin inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. İstehsalat potensialına təkan verən bu istiqamətdə innovasiya fəaliyyətinin stimullaşdırılması ilə yanaşı informasiya və kommunikasiya texnologiyaları sənayesinin formalaşdırılması,inkişaf etdirilməsi və bu sahəyə investisiyaların cəlb olunmasının stimullaşdırılması məsələləri də daxil olunmuşdur.

Elmi-texniki və istehsalat potensialının yüksəldilməsi resurslarından da biri informasiya kommunikasiya texnologiyaları (İKT) xidmətlərinin, İKT məhsullarının istehsalı və onların ixracının stimullaşdırılmasıdır. Burada ölkənin milli maraqları nəzərə alınmaqla, vətəndaşların və bütün təşkilatların təhlükəsiz olaraq informasiya əldə etmək və ondan istifadə hüquqlarının təmin olunması üçün şərait yaradılmalıdır. İnformasiya və kommunikasiya texnologiyaları sahəsində istehsalla məşğul olan kiçik və orta müəssisələrin fəaliyyətinin stimullaşdırılması məsələləri də baxılan istiqamətdə ön plana çəkilməlidir. İnnovasiya fəaliyyəti həyata keçirilən zaman informasiya və kommunikasiya texnologiyalarının təbliği üçün nümunəvi təlim məsləhət mərkəzlərinin, texnoparkların yaradılması da mühüm əhəmiyyət kəsb edir.

İnnovasiya fəaliyyətinin birbaşa iştirakçılarının informasiya ehtiyaclarının təmin olunmasına istiqamətləndirilən informasiya mərkəzlərin məlumat bazalarında aşağıdakılarda öz əksini tapmalıdır:

- yeni biliklərin alınmasına yönəldilmiş fundamental tədqiqatların proqramlarında və istiqamətlərində;
- faydalı ideyaların, modellərin, və effektlərin konkret tətbiqinin müəyyən edilməsinə yönləndirilən axtarış və tətbiqi tədqiqatların proqramlarında və istiqamətlərində;
- tətbiqi elmi tədqiqatların nəticələrinin yeni məhsulların, texnologiyaların ideyalarına, onların laborator modellərinə və eksperimental nümunələrinə çevrilmələri üzrə işləmələrdə;
- patent informasiyalarda;
- yerli və xarici alimlərin, mütəxəssislərin nəşr etdirdikləri elmi, elmi-texniki və innovasiya fəaliyyətlərinin nəticələrində;
- proqnoz və analitik işləmələrdə, digər problem-oriyentasiyalı informasiyalarda;
- ölkədə və xaricdə keçirilmiş konfranslarda, simpoziumlarda və digər elmi konfranslarda və s. [3, c.9-10].

İnnovasiya fəaliyyətinin həyata keçirilməsində diqqəti çəkən vacib məsələlərdən biri informasiya təhlükəsizliyinin təmin olunmasıdır. Bunun üçün informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması ilə yanaşı, elektron cinayətkarlığa qarşı mübarizə aparılmalıdır. Yenilikçiliyin daha da inkişaf etdirilməsi məqsədilə vətəndaşların informasiya təhlükəsizliyini təmin edən mühit yaradılmalıdır.

**Ədəbiyyat**

1. Основы инновационного менеджмента: теория и практика под ред.П.Н.Завлина и др. 2-е изд., переработ. и доп.-М: Экономика, 2004, с.432.

2. Кочубей В.Ю. Информационное обеспечение инновационной деятельности научной организации службами информации Мат.межд.семинара, Минск, 15-16 апреля 2003 г. с.86.
3. Арский Ю.М., Черный А.И., Цветкова В.А. Полунина Т.К. Информационная поддержка инновационного цикла Минск ГУ «БелИСА» 2006, с.156.

**Резюме**

***Амиров И.Б., Бахшыева З.Н.***

**Роль инновационных центров в инновационной деятельности**

*В статье подчеркивается важность информационной инфраструктуры в инновациях, особенно информационных центров. Здесь так же исследованы базы данных информационных центров, направленные непосредственно на обеспечение информационных потребностей участников инновационной деятельности.*

***Ключевые слова:*** *инновации, информация, инфраструктура, база данных, производство.*

**Summary**

***Amirov I.B., Bakhshiyeva Z.N.***

**The Role of Information Centers in Innovation Activity**

*The article outlines the importance of information infrastructure in innovation, especially the information centers. Here are also the databases of information centers, which are aimed at ensuring the information needs of direct innovators are studied.*

***Key words:*** *innovation, information, infrastructure, database, production*

## ENERJİ TƏHLÜKƏSİZLİYİ MİLLİ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏRKİB HİSSƏSİ KİMİ

***Əzizova K.V.***

*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalədə enerji təhlükəsizliyi iqtisadi təhlükəsizliyin tərkib hissəsi kimi nəzərdən keçirilmiş, onun milli iqtisadiyyata təsiri araşdırılmışdır. Enerji təhlükəsizliyinin daxili və xarici təhdidləri şərh edilmişdir.*

***Açar sözlər:*** *enerji təhlükəsizliyi, daxili təhdidlər, xarici təhdidlər, iqtisadiyyat, sosial, siyasi*

İqtisadiyyatın inkişafının əsas göstəricisi iqtisadi təhlükəsizlikdir. Bu, fərdin, cəmiyyətin, dövlətin maraqlarının qorunmasını, siyasətin sosial yönümlü olmasını, daxili və xarici proseslərin inkişafı üçün əlverişli şəraitin yaradılmasını xarakterizə edir. Müasir dövrdə dünya ictimaiyyəti ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi məsələsində ənənəvi yanaşmaların dəyişməsini tələb edən fundamental problemlərlə üzləşir. Onlar ənənəvi enerji resurslarının tükənməsi, ölkələr arasındakı münaqişələr və enerji sahəsində iqtisadi, siyasi və ekoloji problemlərin güclənməsidir. Hazırda energetika sənayesi Azərbaycan iqtisadiyyatının təhlükəsizliyinin əsasını təşkil edir. Çünki bu sənaye sahəsi iqtisadi inkişafın, istehsalın məhsuldarlığının və məhsulların rəqabət qabiliyyətinin, eləcə də ixracın imkanlarını müəyyənləşdirir. Energetika iqtisadi inkişafın, o cümlədən sənaye istehsalının əsasıdır. Onun inkişaf səviyyəsi əsasında ölkənin iqtisadi gücünü, qüdrətini müəyyən etmək mümkündür. Əhalinin hər bir nəfərinə düşən enerji istehlakı ölkənin mədəni səviyyəsini müəyyən edir.

Enerji təhlükəsizliyi milli təhlükəsizliyin tərkib hissəsidir. Enerji təhlükəsizliyi ölkənin, vətəndaşların, cəmiyyətin, dövlətin, iqtisadiyyatın təhlükəsizliyindən etibarlı yanacaq və enerji təminatına qarşı müdafiə vasitəsidir. Enerji təhlükəsizliyi fərd, cəmiyyət və dövləti daxili və xarici təhlükələrdən müdafiə edən bir vasitədir. Bu təhlükələr həm xarici amillər, həm də ölkənin energetika sektorunun fəaliyyəti ilə müəyyənləşdirilir. Enerji təhlükəsizliyi həm əhalinin və təsərrüfat subyektlərinin enerji resurslarına olan tələbatının fasiləsiz ödənilməsini, həm də maraqlı ölkələrin bazarlarına enerji tədarükünün etibarlılığını təmin edir [2, s.310].

Hal-hazırda enerji sektoru iqtisadiyyatın digər komponentlərinə təsirində əsas rol oynayan bir səviyyəyə çatmışdır. Buna görə iqtisadi təhlükəsizliyin təhlili üçün enerji amilinin müəyyən edilməsi vacibdir. Enerji təhlükəsizliyinin təmin olunması iqtisadiyyatın bütün sektorlarının normal fəaliyyətinə şərait yaratmaq üçün əsas vəzifələrdən biri hesab edilir. Enerji təhlükəsizliyi ətraf mühitə zərərli təsirlərdən

qaçınmaq üçün lazımi keyfiyyətli material istehsalının, qeyri-istehsal sahəsinin, əhalinin, ev təsərrüfatının və digər yanacaq və enerji istehlakçılarının vaxtında, tam və fasiləsiz təchiz edilməsidir.

Enerji təhlükəsizliyi üçün təhlükələr enerji kompleksinin istismarını poza bilən, enerji tədarükünü məhdudlaşdıran və ya pozan, iqtisadiyyat və cəmiyyət üçün qəza və digər mənfi nəticələrə gətirib çıxaran qısa və ya uzun müddətli bir hadisədir. Konkret olaraq, enerji təhlükəsizliyi təhdidləri aşağıdakı qruplara bölünür: iqtisadi, sosial-siyasi, xarici iqtisadi və xarici siyasət, texnoloji və təbii təhdidlər. Siyahıda göstərilən təhlükə qruplarının hamısı birbaşa enerji kompleksi ilə bağlıdır.

İqtisadi təhdidlər. Bu təhdid qrupu aşağıdakılardan ibarətdir: enerji kompleksinin normal fəaliyyətinin inkişafı, modernləşdirilməsi və texniki dəstəklənməsi üçün zəruri olan investisiya resurslarının olmaması; enerji kompleksinin fəaliyyətinin təmin edilməsi üçün maliyyə ehtiyatlarının çatışmaması; texnoloji prosesləri dəstəkləmək bütün mövcud xərclərin qeyri-sabitliyi; iqtisadi əlaqələrin pozulması; yanacaq və material ehtiyatlarının səmərəsiz istifadəsi; yanacaq və maddi ehtiyatlarının həddindən artıq yüksək qiyməti; pul vəsaitlərinin olmaması nəticəsində yaranan texniki məhdudiyyətlər; enerji potensialının çatışmazlığı və s.

Sosial-siyasi təhdidlər. Bu təhdid qrupu aşağıdakılardan ibarətdir: sosial qeyri-sabitlik; mənfi sosial-siyasi hadisələr; müəssisələrin rəhbərlərinin qeyri-qanuni hərəkətləri; enerji sektorunun yeni sahiblərin xüsusi maraqları və s.

Xarici iqtisadi təhlükələr: yanacaq ehtiyatları, enerji avadanlığı, material idxalından asılılıq; xarici ölkələrin ayrı-seçkilik tədbirləri; ixrac və idxalda digər ölkələrin şərtlərindən asılılıq və s. Bütün enerji texnologiyaları və texniki sistemlərdə müxtəlif səbəblərdən qəza və uğursuzluq ehtimalı mövcuddur. Əsaslar bunlardır: avadanlıqların və sistemlərin aşağı texniki səviyyəsi və keyfiyyəti; tikinti, təmir və texniki keyfiyyətin aşağı olması; əsas vəsaitlərin böyük amortizasiyası; enerji obyektlərinin səmərəsiz yerləşdirilməsi və ətraf mühitin çirklənməsi riski; texniki iş qaydalarına, təhlükəsizlik və yanğından mühafizə tədbirlərinə riayət edilməməsi.

Təbii təhdidlər. İqlim şəraiti, enerji kompleksinin, sistemlərin və obyektlərinin fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Enerji təhlükəsizliyinə qarşı təbii təhdidlər aşağıdakılardır: təbii fəlakətlər, zəlzələlər, daşqınlar, güclü küləklər, sürüşmələr, güclü yağışlar, elektrik enerjisi və istilik istehsalının balansına, enerji obyektlərinin su təchizatına təsir göstərə bilən uzunmüddətli quraqlıq.

İdarəetmə qabiliyyəti. Bu təhdid qrupu əsasən aşağıdakılarla əlaqələndirilir: aparıcı və idarəetmə kadrlarının aşağı səviyyədə olması; enerji kompleksi bölmələri və müəssisələrinin iqtisadiyyatın digər sahələri ilə qarşılıqlı əlaqədə olmaması; səhvlər və dövlət iqtisadi siyasətinin həyata keçirilməsinin səmərəsizliyi; hüquqi və qanunvericilik bazasının qeyri-təkmil olması; dövlətin enerjiyə qənaət siyasətinin səmərəsizliyi və onun həyata keçirilməsi üçün zəif mexanizmlər; enerji təchizatı və enerjiyə qənaət sahəsində dövlət tənzimlənməsi və nəzarətinin zəifliyi [4, s.42].

Enerji təhlükəsizliyinin səviyyəsi istehlakçılara etibarlı və sərfəli enerji təchizatı və enerji təhdidlərinin qarşısını almaq üçün bir sıra texniki, iqtisadi, ekoloji və təşkilati idarəetmə faktorlarının kompleks qarşılıqlı təsiri ilə müəyyən edilir. Enerji təhlükəsizliyinin vəziyyəti və səviyyəsi əsas vəzifələrin yerinə yetirilməsində və enerji təhdidlərinin qarşısının alınmasında enerji kompleksinin xüsusiyyətlərini xarakterizə edən göstəricilərin seçilməsi ilə qiymətləndirilir. Göstəricilərin sayı və növü vəzifələrdən asılıdır. Enerji təhlükəsizliyinin öyrənilməsi üçün əsas metod kimi indikativ təhlildən istifadə edilə bilər. Onun mahiyyəti ondan ibarətdir ki, dövlət enerji sektorunun böhran dərəcəsini qiymətləndirməyə və təhdidlərin aradan qaldırılması və qarşısını almaq üçün bir sıra tədbirlərin hazırlanmasına imkan verən göstəricilər sisteminin formalaşmasında iştirak edir. Dünya enerji böhranının qloballaşması, ayrı-ayrı ölkələrin enerji komplekslərinin qarşılıqlı əlaqəsi, regional enerji bazarlarının birləşdirilməsi və digər amillər enerji təhlükəsizliyinin təmin edilməsi məsələsinə daha çox diqqət yetirir. Hər hansı bir ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi və bununla da onun milli təhlükəsizliyinin yaxın perspektivdə dəqiqləşdirilməsi onun enerji təhlükəsizliyi səviyyəsi ilə müəyyənləşəcəkdir [3, s.77].

Bir çox inkişaf etmiş ölkələr, ilk növbədə, ABŞ öz ərazilərində enerji istehsalını gücləndirməyərək, onların təhlükəsizliyinin gələcəyinə qənaət etməyə üstünlük verirlər. Bu ölkələr enerji istehlakı və enerji təhlükəsizliyi üçün mövcud tələbatları iqtisadi zəif dövlətlərdən ucuz qiymətlərlə idxal edərək, gələcəkdə enerji təhlükəsizliyi təminatına çalışırlar. Dünya iqtisadiyyatının inkişafı üçün ümumi tendensiyalar və perspektivlər enerji istehlakının artması, enerji sektorunda yeni texnologiyaların payının artmasıdır. ABŞ-ın Enerji İnformasiya İdarəsinin ekspertlərinin fikrincə, 2025-ci ilə qədər qlobal enerji istehlakı 1,5 dəfə çox artacaq [1, s.97].

Aydındır ki, enerji təhlükəsizliyi olmadan nə davamlı istehsal, nə də enerji istehlakı təmin edilə bilməz və ikincisi hər hansı bir sosial-iqtisadi sistemin yaşaması, işləməsi və inkişafı üçün əvəzsiz şərtdir. Enerji təhlükəsizliyi olmadan bütün digər təhlükəsizlik təmin edilə bilməz.

Beləliklə, bazar münasibətlərinin inkişafı şəraitində ölkənin enerji təhlükəsizliyi sahəsində ümumi vəziyyəti yaxşılaşdırmaq aşağıdakılarla mümkündür:

- dövlətin tənzimləyici rolu zəifləmədən enerji kompleksinin idarəetmə strukturunu təkmilləşdirmək, enerji mənbələrinin səmərəliliyini artırmaq;
- əsas enerji avadanlıqlarının modernləşdirilməsi ilə elektrik stansiyalarını yenidən qurmaq, müasir texnologiyalar əsasında yeni elektrik enerjisi mənbələrini inkişaf etdirmək, tarif siyasətini təkmilləşdirmək və enerji və yanacaq tariflərinin dəyişdirilməsi prosedurunu müəyyənləşdirmək;
- enerjiyə monitorinq sistemini yaratmaq,
- yanacaq balansının strukturunu yaxşılaşdırmaq;
- aktiv enerji qənaət siyasətini həyata keçirmək və bərpa olunan enerji mənbələrini enerji balansında geniş yaymaq;
- iqtisadi təhlükəsizliyin öyrənilməsi ilə birlikdə enerji təhlükəsizliyi sahəsində tədqiqatları daha da inkişaf etdirmək.

Yuxarıdakı tədbirlərin görülməsi ölkənin enerji təhlükəsizliyinin səviyyəsini artırmaqda əhəmiyyətli rola malikdir.

### Ədəbiyyat


1. БоровскийЮ.В. Современные проблемы мировой энергетики. Навона, 2011, 231 с.
2. Гончаренко Л.П., Акулинина Ф.В. Экономическая безопасность: учебник для вузов. М.: Издательство Юрайт, 2014, 478 с.
3. Жизнин С.З. Основы энергетической дипломатии. М.: МГИМО-Университет, 2017, 158 с.
4. Кузовкин А.И. Реформирование электроэнергетики и энергетическая безопасность. М.: Издательство Институт микроэкономики, 2008,388 с.



### Резюме

***Азизова К.В.***

**Энергетическая безопасность как составная часть национальной экономической безопасности**

*Энергетическая безопасность в статье рассмотрена как составная часть экономической безопасности. Исследованы ее влияние на национальную экономику. Комментируютсявнутренние и внешние угрозы энергетической безопасности.*

***Ключевые слова:****энергетическая безопасность, внутренние угрозы, внешние угрозы, экономика, социальные, политические*



### Summary

***Azizova K.V.***

**Energy Security as a Part of National Economic Security**

*The article considers energy security as an integral part of economic security. Studied its impact on the national economy. Commented on internal and external threats to energy security.*

***Key words:****energy security, internal threats, external threats, economy, social, political*


## AQRAR İSTEHSALIN İNTENSİVLƏŞDİRİLMƏSİ AMİLLƏRİ


***Hacıyeva Z.E.***

*Sumqayıt Dövlət Universiteti*



***Xülasə.*** *Məqalədə intensivləşdirmə prosesinin zəruriliyi və əsas xüsusiyyətləri şərh edilmiş, kənd təsərrüfatında intensivləşdirilmənin iqtisadi əhəmiyyəti açıqlanmışdır. Eyni zamanda aqrar istehsalın intensivləşdirilməsi amilləri və istiqamətləri araşdırılmışdır.*



***Açar sözlər:*** *intensivləşdirmə, aqrar istehsal, kənd təsərrüfatı, torpaq, keyfiyyət, elmi-texniki tərəqqi, innovasiya, təkmilləşdirmə*

İntensivləşmə çoxcəhətli, mürəkkəb proses olub, adətən, müqayisə nəticəsində müəyyənləşdirilən, nisbi göstəricilər vasitəsi ilə xarakterizə olunan kateqoriyadır. Müəssisələrin birinin digərinə və ya müəssisənin rayona, rayonun respublikaya nisbətən intensivlik səviyyəsinin yüksək və aşağı olması haqqında nəticəyə ancaq müəssisələri bir-biri ilə müqayisə etməklə gəlmək mümkündür. İntensivləşmə prosesi qlobal və milli miqyasda texnoloji inkişafın yeni keyfiyyət səviyyəsinə adekvat münasibət tələb edir. İntensivləşmə mürəkkəb və çoxcəhətli bir proses kimi müəyyən məkan və zaman şəraitində ölkənin və konkret sahənin iqtisadiyyatının inkişaf səviyyəsindən asılıdır. Belə ki, bu və ya digər sahənin inkişafı əvvəlcə vəsait qoyuluşunun təmərküzləşməsi prosesi ilə başlayır, getdikcə kəmiyyət dəyişiklikləri müsbət keyfiyyət dəyişikliklərinə keçir, inkişaf müəyyən ardıcıllıqla təmin olunduğu üçün intensivləşmə prosesi də ardıcıl xarakter daşıyır. Ümumiyyətlə, aqrar sferada istehsalın intensivləşməsi konkret istehsal sahəsində geniş təkrar istehsalın elə formasıdır ki, istehsal vasitələrinin təmərküzləşməsi və keyfiyyətcə təkmilləşməsi qabaqcıl texnologiyanın və əməyin təşkilinin mütərəqqi formalarının tətbiq edilməsi əsasında məhsul istehsalının artırılmasına və ucuzlaşdırılmasına imkan verir.

İntensivləşmə prosesi yalnız vəsait qoyuluşunun artırılması kimi birtərəfli qaydada deyil, həm də onun ehtiyac olduğu, konkret şəraitin tələbləri baxımından əsaslandırılmış, düşünülmüş formada aparılmasıdır. İntensivləşmə prosesində vəsait qoyuluşunun artırılması hesabına yeni-yeni resursların istehsala cəlb olunmasına daha çox meyil göstərmək əvəzinə, mövcud resurslardan daha təkmilləşmiş formada istifadəyə diqqət artırılmalı, elm və texnikanın son nailiyyətlərindən, daha məhsuldar bitki sortları və heyvan cinsindən, geniş imkanlara malik maşın və mexanizmlərdən, qabaqcıl texnologiyadan, istehsalın təşkili və aparılması formalarından, xammalın tədarükü, emalı, saxlanması və satışının təşkilinin mütərəqqi formalarından istifadə edilməlidir. Geniş təkrar istehsalın forması kimi çıxış edən intensivləşmə elmi-texniki tərəqqinin nailiyyətlərinə və istehsalın bütün amillərinin təkmilləşməsinə əsaslanır.

Aqrar sferada geniş təkrar istehsal intensiv və ekstensiv yolla inkişaf edir. Aqrar sferada inkişafın resurslardan istifadənin ekstensivliyi və intensivliyi əlamətlərinə görə təsnifatı aqrar istehsalın intensivləşməsi imkanları və istiqamətlərini araşdırmaq baxımından vacibdir. Bu amillər resursların keyfiyyətinin yüksəldilməsinə və resurslardan istifadə prosesinin yaxşılaşdırılmasına təsir baxımından fərqləndirilməli, aqrar sferada inkişafın resurs və istehsal potensialının fəallaşdırılması müstəvisində nəzərdən keçirilməlidir. Aqrar istehsalın intensiv amillərinin digər təsir istiqamətlərinə resurslardan, o cümlədən əsas və dövriyyə fondlarından istifadənin yaxşılaşdırılmasını, aqrotexnologiyaların modernləşdirilməsini, onların təşkili rejimlərinin optimallaşdırılmasını və əməyin elmi təşkilini aid etmək lazımdır [1, s. 323].

Kənd təsərrüfatının intensivləşdirilməsi - sahənin elmi-texniki inqilabın əsasında təkmilləşdirilmə yolu ilə həyata keçirilən vahid ərazidən məhsul hasilatını artırmaq, əmək məhsuldarlığının yüksəldilməsi və vahid məhsul istehsalına xərclərin azaldılmasına yönəldilmiş geniş təkrar istehsalıdır. Torpaqların ekstensiv mənimsənilməsi intensivləşdirməni kənarlaşdırmır və bunun vacibliyi iki situasiyada meydana çıxır: birincisi, kənd təsərrüfatı məhsullarına artan tələbatı ancaq intensifikasiya hesabına ödəmək mümkün olmadıqda; ikincisi, əgər əkin sahələrinin genişləndirilməsi cari xərclərin bərabər kapital qoyuluşu ilə intensivləşməyə nisbətən çox məhsul əldə etməyə imkan verirsə mümkündür [2, s.32].

Kənd təsərrüfatında intensivləşdirmənin istiqamətini müəyyən edərkən onun üçün mövcud olan üç qarşılıqlı əlaqəni nəzərə almaq lazımdır: xərclər - torpaq - məhsul. Beləliklə, intensivləşdirmə ətraf mühitə mənfi təsir edə bilər, ona görə də onun həyata keçirilməsində vacib şərt ekoloji cəhətdən müvəffəqiyyətli olmasıdır.Kənd təsərrüfatında əsas istehsal vasitəsi olan torpaq sahələrinin məhdudluğu və planetdə əhalinin artımı intensiv inkişaf amillərini önə çəkir. Kənd təsərrüfatında intensivləşdirilmənin iqtisadi mahiyyəti eyni torpaq sahəsində əlavə maddi vəsaitlər, bəzən də canlı qüvvə qoymaqla məhsul istehsalının həcmini artırmaq, eyni zamanda torpağın iqtisadi məhsuldarlığını yüksəltmək məqsədilə istehsala təkmilləşdirilmiş müasir texnika və texnologiyanın tətbiqidir. İntensiv inkişaf istehsalın keyfiyyətcə təkmilləşdirilməsi, yenidən qurulması, elmin və texnikanın nailiyyətlərinin tətbiq edilməsi əsasında məhsul istehsalının artmasıdır.

İntensivləşmə prosesində vəsait qoyuluşunun artırılması hesabına yeni resursların cəlb olunmasına daha çox meyil göstərmək əvəzinə, mövcud resurslardan daha təkmilləşmiş formada istifadəyə diqqət artırılmalı, elm və texnikanın son nailiyyətlərindən, geniş imkanlara malik maşın və mexanizmlərdən, qabaqcıl texnologiyadan, istehsalın təşkili və aparılması formalarından, xammalın tədarükü, emalı, saxlanılmasının təşkilinin mütərəqqi formalarından istifadə edilməlidir. İntensivləşdirmə mürəkkəb və çoxsahəli bir proses kimi müəyyən məkan və zaman şəraitində ölkənin və konkret sahənin iqtisadiyyatının inkişaf səviyyəsindən asılıdır. Ümumiyyətlə, aqrar sferada istehsalın intensivləşməsi konkret istehsal sahəsində geniş təkrar istehsalın elə formasıdır ki, istehsal vasitələrinin təmərküzləşməsi və keyfiyyətcə

təkmilləşməsi qabaqcıl texnologiyanın və əməyin təşkilinin mütərəqqi formalarının tətbiq edilməsi əsasında məhsul istehsalının artırılmasına və ucuzlaşdırılmasına imkan verir [3, s. 228].

Ümumilikdə, kənd təsərrüfatında istehsalın intensivləşdirilmə amillərini üç qrupda birləşdirmək olar:

Birinci qrup amillər əsasən etibarı ilə kənd təsərrüfatı istehsalının məhsuldarlığının davamlı şəkildə artımını özündə əks etdirir. Həmin amillərə əkinçilikdə gübrələməni, toxumçuluqda aqrotexniki tədbirlərin həyata keçirilməsinin təkmilləşdirilməsini, heyvandarlıqda yem bazasının möhkəmləndirilməsini, damazlıq və baytarlıq xidmətinin yaxşılaşdırılmasını və s. aid etmək olar.İkinci qrup amillərə isə kənd təsərrüfatı bitkilərinin və heyvanların yetişdirilməsi ilə bağlı əmək məsariflərinin aşağı salınmasını aid etmək olar. Bunlara kənd təsərrüfatı istehsalının kompleks mexanikləşdirilməsi və elektrikləşdirilməsi, əməyin təşkili və ödənilməsinin təkmilləşdirilməsi aid edilir.Üçüncü qrup amillər istehsal resurslarından səmərəli istifadə edilməsi, həmçinin elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqinin sürətləndirilməsi üçün əlverişli şərait yaradır. Bunlar ixtisaslaşmanın dərinləşməsi, kənd təsərrüfatı istehsalının təkmilləşdirilməsi və kooperativləşdirilməsi, sahibkarlıq forma və təsərrüfatçılığının təkmilləşdirilməsi, iqtisadi fəaliyyət mexanizminin, işçilərin əmək və istirahət şəraitinin yaxşılaşdırılmasından ibarətdir.

Müasir dövrdə elmi-texniki tərəqqinin sürətləndirilməsinin ən mühüm vəzifəsi aqrar istehsalın intensivləşdirilməsini və onun səmərəliliyinin yüksəldilməsini təmin etməkdən ibarətdir. Ona görə ki, aqrar istehsalın intensivləşdirilməsi vasitəsilə mövcud istehsaldaxili ehtiyatlardan səmərəli istifadə etməklə ən az xərclə daha çox məhsul əldə etmək mümkündür. Odur ki, son illərdə elmi-tədqiqat və konstruktor-sınaq işlərinin həcmi və onların həyata keçirilməsinə çəkilən xərclər çoxalmışdır ki, bu da elmi-texniki tərəqqinin planlaşdırılması və idarə olunmasını zəruri etmişdir. Elmi-texniki tərəqqinin hərtərəfli sürətləndirilməsi və onun səmərəliliyinin yüksəldilməsi təkcə aqrar iqtisadiyyatın deyil, bütövlükdə ölkə iqtisadiyyatının inkişafının maddi-texniki bazasının yaradılmasının aparıcı problemidir. Ölkə qarşısında duran sosial-iqtisadi vəzifələr yalnız elm və texnikanın sürətli inkişafı əsasında həll edilə bilər [4, s. 117].

ASK sahələrində innovasiya fəaliyyəti nəticəsində kənd təsərrüfatı bitkiləri və heyvanların, əməyin məhsuldarlığının yüksəlməsi, vahid məhsul istehsalının maya dəyəri və material tutumu, ətraf mühitə iqtisadi ziyan azalmalıdır.Ümumiyyətlə, kənd təsərrüfatının intensivləşdirilməsinin kompleks həyata keçirilməsini təmin etmək məqsədilə aqrar sferanın elmi əsaslarla idarə edilməsi sisteminin işlənib hazırlanması və tətbiq edilməsi zəruridir. Belə bir sistem hər bir regionun qarşılıqlı olan aqroiqlim, bioloji, texniki, texnoloji, təşkilati-iqtisadi vəhdətini nəzərə almaqla işlənib hazırlanmalıdır.

**Ədəbiyyat**


1. Qarayev İ.Ş. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2011, 522 s.
2. Məmmədov C.C. Aqrar bölmədə maddi-texniki təminat və xidmət işinin təşkili. Bakı: Əbilov, Zeynalov və oğulları, 2004, 530 s.
3. Qasımov Ə.C. Aqrar sənaye müəssisələrinin iqtisadiyyatı və idarə edilməsi. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2005, 355 s.
4. Əhmədov G.Ə. Kənd təsərrüfatında innovasiyaların tətbiqi istiqamətləri. Bakı: Elm, 2010, 484 s.


**Резюме**


***Гаджиева З.Е.***


**Факторы интенсификации аграрного производства**


*В статье комментируются необходимость и особенности интенсификационных процессов, раскрыто экономическое значение интенсификации сельского хозяйства. Такжерассмотрены факторы и направления интенсификации аграрного производства.*

***Ключевые слова:****интенсификация, аграрное производство, сельское хозяйство, земля, качество, научно-технический прогресс, инновации, развитие*


**Summary**


***Hajiyeva Z.E.***


**Factors of Intensification of Agricultural Production**


*The article commented on the need and features of intensification processes, revealed the economic importance of the intensification of agriculture. Also, the factors and directions of intensification of agricultural production are considered.*

***Key words:****intensification, agrarian production, agriculture, land, quality, scientific and technical progress, innovations, development*

**LOGİSTİKANIN İNKİŞAF MƏRHƏLƏLƏRİ**

***Həmidova A.M.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalədə müəssisələrdə logistik sistemlərin yaradılmasının zəruriliyi əsaslandırılmış, logistika sistemlərinin inkişaf etdirilməsi mərhələləri nəzərdən keçirilmişdir. Həmin mərhələlərin hər birinə aid cəhətlər araşdırılmışdır.*

***Açar sözlər:*** *logistika, xammal, material, istehsal, məhsul*

Elmi-texniki tərəqqinin inkişaf etməsi nəticəsində bazar iqtisadiyyatı yolu ilə inkişaf edən ölkələrin istehsalçı firma və müəssisələri ötən əsrin 60-cı illərindən etibarən özlərinin iqtisadi fəaliyyətlərinin səmərəliliyini yüksəltmək yolunda ciddi çətinliklərlə üzləşdilər. Belə ki, müxtəlif növ diskret istehsal üçün xüsusi əməliyyatların yerinə yetirilməsi müddəti orta hesabla bütün istehsal tsiklinin 6-8%-ni təşkil etməsinə baxmayaraq yerdə qalan müddətin əksər hissəsi nəqliyyat əməliyyatlarına, əmək cismlərinin istehsal istehlakına cəlb edilməsi üçün hazırlıq işlərinə və istehsalla bağlı müxtəlif xarakterli gözləmələrə sərf edilirdi. Təbii ki, bu da bir sıra iqtisadi nəticələrə, o cümlədən son məhsulun dəyərinin təqribən 40% həcmində süni artırılmasına gətirib çıxarırdı. Bu isə hər şeydən əvvəl son məhsulun yaradılması üzrə həyata keçirilən, aparılan texnoloji marşrutun texniki və təşkilati baxımdan pis təmin edilməsi ilə izah edilirdi. Daha doğrusu, diskret istehsalın ümumi həcminin 70-80%-ni təşkil edən çox nomenklaturalı istehsal proseslərində idarəetmənin keyfiyyəti və avtomatlaşdırmanın səviyyəsi son zamanlara qədər yüksək dərəcədə inkişaf etməmişdi. Bütün bunlar logistik sistemlərin yaradılması zəruriliyini ortaya qoydu [1, s.16].

Logistikadan bir sistem kimi dünya iqtisadi proseslərində istifadəsi fəal olaraq XX əsrin ikinci yarısının əvvəllərindən başlamışdır. Logistikadan nəqliyyat xərclərinin azaldılması, material axını tsiklində ehtiyatların azaldılması, onların əsassız və səmərəsiz olaraq qalıq şəklində iri həcmdə saxlanılmasının qarşısının alınması, əl əməyinə çəkilən xərclərin və digər xərclərin azaldılması məqsədi ilə fəal istifadə olunmağa başlanılmışdır. Logistika müəssisənin xammal və materiallarla təchizatı proseslərinin idarə edilməsini təmin etməklə bərabər, eyni zamanda xammal və material axınlarının planlaşdırılması, onların hərəkətinə nəzarətin təşkili, nəqli və anbarlaşdırma problemlərinin həll edilməsi, müəssisə daxilində xammal, material və yarımfabrikatların emalı və təkrar emalı proseslərinin fasiləsizliyinə şəraitin yaradılması və s. funksiyaları yerinə yetirir [5, s.14]. Artıq həmin dövrdən etibarən logistikanın mahiyyəti, rolu, əhəmiyyəti, onun nəzəri əsasları barədə elmi fikirlər formalaşmağa, məqalələr dərc edilməyə, tədqiqatlar aparılmağa geniş yer verilmişdir.

Logistika sistemlərinin inkişafı bazar iqtisadiyyatı ölkələrində olduqca uzun müddətdir formalaşmış logistik konsepsiya və onun prinsipləri əsasında həyata keçirilir. Logistika sisteminin əsas məqsədi malların və xidmətlərin müəyyən bir yerə, müəyyən bir miqdarda və müəyyən bir xərc səviyyəsində çatdırılmasıdır. Müasir dövrdə mütərəqqi logistika sisteminə və logistika mexanzimlərinə artan əhəmiyyətli tələbin və zərurətin nədən və haradan qaynaqlandığı maraq doğurur. Belə ki, sənaye müəssisələrinin davamlı və sürətli inkişafı baxımından mühüm məsələlərdən biri nəqliyyat və digər xərclərin optimallaşdırılması, əsas məhsulların maya dəyərində bu xərclərin ümumi çəkisinin azaldılması ilə bağlıdır və bu proseslərdə logistika xidmətinin və sisteminin rolu böyükdür.

Ümumiyyətlə, logistika öz inkişafında dörd ardıcıl mərhələ keçmişdir. Logistika inkişafının birinci mərhələsi üçün aşağıdakılar xarakterikdir. Müəssisələr gündüz növbəli, gündəlik planların icrası əsasında işləyirdilər, logistik idarəetmə forması az inkişaf etmişdir. Logistika sisteminin fəaliyyətinin əhatə dairəsini müəssisədən göndərilən hazır məhsulların saxlanması və onun daşınması təşkil edirdi. İkinci mərhələdə logistika sistemlərinin işinin uzunmüddətli planlaşdırılması həyata keçirilirdi. Bu sistemin işi təxminlərin və real xərclərin müqayisəsi əsasında qiymətləndirilirdi. Üçüncü mərhələdə logistika sistemləri xammalın alınmasından məhsulun son istifadəçiyə çatdırılması əməliyyatlarına nəzarət edirdi. Bu sistemlərin əlavə funksiyalarına satışın proqnozlaşdırılması, istehsalın planlaşdırılması, xammal alınması və s. daxil edilmişdir. Logistika menecerinin fəaliyyəti illik plana əsaslanırdı. Onlar təkcə müəssisənin xərclərinin azaldılması üçün deyil, sistemin işinin yaxşılaşdırılması üçün də çalışırdılar [2, s.37].

XX əsrin 90-cı illərin ikinci yarısında dördüncü inkişaf səviyyəli logistik sistemlər geniş yayılmışdır. Bu mərhələdə müəssisələr logistika əməliyyatlarının planlaşdırılması və nəzarətini marketinq, satış, istehsal və maliyyə ilə birləşdirməyə başladılar. Sistem uzunmüddətli planlaşdırma əsasında idarə olunur. Sistemin işlənməsi beynəlxalq standartların tələblərini nəzərə almaqla qiymətləndirilir. Müəssisələr qlobal, milli və ya regional səviyyədə fəaliyyət göstərirlər. Ümumdünya bazarında məhsul istehsal edir, qlobal istehsal və paylama sistemlərinin bir hissəsini idarə edir. Qlobal bölüşdürmə funksiyalarının idarə edilməsi, eləcə də

materialların və məlumatların axını logistika menecerləri üçün yeni tələblər qoyur. Məsələn, anbarlarda məhsulların loqistika və saxlanmasının səmərəli təşkili üçün qanunvericilik bazasının, vergi sistemlərinin və dövlət tənzimlənməsinin xüsusiyyətlərini bilmək tələb olunur. Müştəri xidmətinin səmərəliliyi mürəkkəb sənədlərin hazırlanması və emalının effektivliyi, həmçinin gömrük baryerlərinin aradan qaldırılması üzrə tədbirlərin nəticələri ilə müəyyən edilir. Bu işə digər müəssisələri də cəlb etmək gərəkdir [4, s.201].

Son illərdə inkişaf etmiş bazar iqtisadiyyatı olan ölkələrdə logistikanın iş prinsipi hazır məhsulların istehsal firmalarından ixtisaslaşmış firmalara, yəni xarici agentlərə qədər yayılmasına nəzarət funksiyalarının ötürülməsi ilə xarakterizə olunur. Bu tendensiya, ilk növbədə, Qərbi Avropada, Yaponiyada və sonra ABŞ-da özünü göstərdi. Bu tendensiyanın inkişafı məhsulların hərəkətində əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur.Logistika öz inkişafının dördüncü mərhələsində olduğu üçün logistik funksiyaların fəaliyyət sahəsi marketinq, satış və istehsal əməliyyatları ilə bağlıdır. Logistika və marketinq arasında çox əhəmiyyətli əlaqələr vardır. Belə ki, marketinq xidməti yeni məhsul növünə ehtiyac yaradır. Logistika xidməti isə yeni məhsul növünün hazırlanması məqsədilə inventarların idarə olunmasını, nəqlinin təmin edilməsini təşkil edir. Beləliklə, logistika marketinq strategiyasının həyata keçirilməsi üçün bir vasitə kimi qəbul edilə bilər[3, s.71].

Digər tərəfdən, son onilliklərdə dünyanın əksər ölkələrində fəaliyyət göstərən sənaye müəssisələrində, o cümlədən ölkəmizin dövlət və özəl statuslu müəssisələrində və kompaniyalarında material və xammal resurslarının fasiləsiz təminatı problemlərinin həlli istiqamətində daha mütərəqqi və məhsuldar logistika sisteminin formalaşdırılması və inkişaf etdirilməsi meylləri güclənməkdədir. Mütərəqqi logistika sisteminin təşkili və inkişaf etdirilməsi problemlərini həll etmədən sənaye məhsulları istehsalının strukturunun genişləndirilməsi vəzifəsinin öhdəsindən gəlmək mürəkkəb məsələdir. Əsas xammal və material axınlarının fasiləsiz təminatının idarə edilməsi və bu tsikl üzrə logistik əməliyyatların səmərəliliyinə nail olunması bütövlükdə hər bir müəssisənin qarşısında duran vacib məsələlərdəndir. Yuxarıda qeyd edilən fikir və mülahizələrə rəğmən, logistika sisteminin sənaye müəssisələrinin material resurslarının sabit, səmərəli və fasiləsiz təminatında mütərəqqi logistika sistemindən istifadə imkanlarının müasir dövrün adekvatlığı kontekstində baxılmasının və modelləşdirilməsinin, bunlarla əlaqədar olaraq praktiki fəaliyyət mexanizmlərinin və alətlərinin təşkili problemlərinə diqqətin artırılmasının, kompleks və sistemli yanaşmanın təmin edilməsi vacibdir.

Son 20-30 ildə logistika termini ilə bağlı araşdırmalar, elmi əsərlər, dissertasiya işlərinin hazırlanması intensivləşməyə başlamışdır və bütün bunlar logistikaya bir elm sahəsi kimi sistemli və kompleks yanaşmanı təmin etmək şəraiti formalaşdırmışdır. Artıq logistika tələb olunan, kifayət qədər səmərəli hesab olunan bir elm və fəaliyyət sahəsi kimi dünya iqtisadi proseslərində və dünya iqtisad elmində dəyərləndirilməyə başlanılmışdır.

Qeyd edək ki, logistika ilə bağlı problemlər, logistika fəaliyyətinin təşkilinə yanaşmalar, logistika sisteminin mahiyyəti, səmərəliliyi, iqtisadi inkişaf proseslərində əhəmiyyəti, logistikanın müəssisələrin səmərəli fəaliyyət göstərməsində rolu, bununla əlaqədar müəssisənin uğurlu fəaliyyətinə verə biləcəyi töhfələr dünya iqtisadçı alimlərinin və tədqiqatçılarının diqqət mərkəzində olaraq qalmaqdadır.

## Ədəbiyyat

1. Алексеева Л.Д. Обеспечение устойчивого функционирования и развития логистической системы. С- Петербург, 2008, 155 с.

2. Аникина Б.А.Логистика. М.: ИНФРА-М, 2002,301 с.

3. Кристофер, М. Логистика и управление цепочками поставок: учеб. пособие / М. Кристофер. М.: Питер, 2004,372 с.

4. Полещук И. И.. Логистика. Минск: БГЭУ, 2007, 431 с.

5. Основы логистики // под ред. Б.А. Аникина, Т.А. Родькиной. М.: Проспект, 2011. 344 с.

## Резюме

***Гамидова А.М.***

### Этапы развития логистики

*В статье обоснована необходимость создания системы логистики на предприятиях. Рассмотрены этапы развития системы логистики. А также изучены особенности каждого ее этапа.*

***Ключевые слова:*** *логистика, сырье, материал, производство, продукт*

**Summary**

*Hamidova A.M.*

**Stages of Logistics Development**

*The article substantiates the need to create a logistics system in enterprises. The stages of development of the logistics system are considered. And also studied the features of each stage.*

***Key words:** logistics,raw material, material, production, product*

## AZƏRBAYCANIN QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFINDA XÜSUSİ İQTİSADİ ZONALARIN ROLU

***Həsənov Ə.H.***

*AMEA-nın İqtisadiyyat İnstitutu*

***Xülasə.** Məqalə respublikanın qeyri-neft sektorunun inkişafında xüsusi iqtisadi zonaların artan roluna həsr edilmişdir. Müəllif bu sahənin təkmilləşdirilməsi üçün konkret təklif və tövsiyələrini vermişdir.*

***Açar sözlər:** xüsusi iqtisadi zona, rəqabətqabiliyyətlilik, sahibkarlıq, inkişaf, qeyri-neft sektoru, investisiya, biznes- mühit, texnopark*

Dünya təcrübəsi təsdiq edir ki, xüsusi iqtisadi zonaların yaradılması və inkişaf etdirilməsi milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi alətlərindən ən səmərəli olanlarından biridir. Bundan başqa, XİZ-lər istehsalın inkişafına, yeni iş yerlərinin açılmasına, əmək məhsuldarlığının artırılmasına, ölkənin depressiv rayonlarının sosial-iqtisadi inkişafına, sahibkarlığın sürətli inkişafına yardım edən dövlət regional siyasətinin bir aləti kimi də istifadə oluna bilər.

Müxtəlif növ XİZ-lər yerli və xarici kapitalın cəlb olunması imkanlarının genişlənməsinə, istehsalata qabaqcıl xarici elmi və idarəçilik texnologiyaların tətbiqinə, istehsalatda struktur dəyişikliklər prosesinin sürətləndirilməsinə, istifadə olunan istehsal gücünün səmərəliliyinin artırılmasına, milli təsərrüfatın dünya iqtisadiyyatına daha dərin daxil olmasına və beynəlxalq əmək bölgüsünün üstünlüklərindən daha səmərəli istifadəsinə imkan yaradır. Bu isə, öz növbəsində, gələcəkdə milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılmasına əhəmiyyətli potensial yaradır. Qeyd etməliyik ki, beynəlxalq rəqabətin gərginləşdiyi zamanı dövlət dəstəyi ən böyük amil kimi çıxış edir, bunun isə bir növü kimi XİZ-in yaradılması hesab edilir.

Hesab edirik ki, XİZ-lər modeli respublika iqtisadiyyatının inkişafı üçün çox perspektivli model kimi baxıla bilər.

Fikrimizcə, XİZ-rin 30 növündən bir neçəsini yaxın illərdə yaratmaq olar. Bunlar: texnoparklar, elmi-texnoloji zonalar, azad ticarət zonaları, ekoloji-iqtisadi regionlar, azad limanlar və s. Bütün bunlar respublika rəhbərliyinin qeyri-neft sektorunun inkişafına aid tövsiyələrinin yerinə yetirilməsinə, rəqabət qabiliyyətli iqtisadiyyatda azad sahibkarlığın inkişafına böyük təkan verəcək.

Son illər gedən proseslər: texnoloji zonaların və Yüksək Texnologiya Parklarının (YTP) yaradılması, AMEA-nın bazasında YTP-nın yaradılması qərarı XİZ-rin respublika iqtisadiyyatı üçün daima artan əhəmiyyətinin sübutudur.

**1.**Azərbaycan Respublikasında qeyri-neft sektorunun sürətli və rəqabətədavamlı inkişafının təmin olunması istiqamətində aparılan iqtisadi islahatlar nəticəsində bu sektorun potensial imkanları genişlənmiş və müsbət nəticələr alınmışdır.

Qeyri-neft sektorunun inkişafını daha da sürətli aparmaq üçün bu sahəyə birbaşa xarici investisiyalar cəlb edilməklə daxili istehsalın rəqabət qabiliyyətinin artırılması idxalı əvəzləmə fəaliyyətinin dəstəklənməsi və yerli məhsullarla özünü təminetmə səviyyəsinin daha da yüksəldilməsi, qeyri-neft sektorunun ixrac imkanlarının artırılması Azərbaycan Respublikası Prezidentinin 06.12.2016-cı il 1133 nömrəli Fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə, Strateji Yol Xəritələrində strateji məqsədlər kimi müəyyən olunmuşdur [1].

Azərbaycanda rəqabətqabiliyyətli qeyri-neft məhsulları istehsalının stimullaşdırılmasına, onun xammal bazasının yaxşılaşdırılmasına idxalı əvəz edən yeni istehsal sahələrinin yaradılmasına və ixrac imkanlarının genişləndirilməsinə dövlət dəstəyinin artırılması və Azərbaycan Respublikası Prezidentinin 06.12.2016-cı il tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrindən irəli gələn tədbirlərin icrasının təmin olunması məqsədilə "Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı qəbul olunmuşdur[2].

Adı çəkilən sərəncamdan irəli gələn tədbirlər sırasında bizim diqqətimizi ən çox çəkən 1.1, 1.7 və 2.4 bəndləri oldu:

- 1.1 ölkədə istehsal edilməyən yeni rəqabətqabiliyyətli məhsullar istehsalının təşkili üçün "Azərbaycanda ilk" ("First in Azerbaijan") investisiya təşviqi mexanizmi;
- 1.7 ölkə iqtisadiyyatına birbaşa investisiyalar cəlb edilməsinin dəstəklənməsi məqsədilə "Azərbaycana sərmayə" ("İnvest in Azerbaijan") mexanizmlərinin tənzimlənməsi Qaydası;
- 2.4 www.azexport.az və www.enterpriseazerbaijan.com internet portallarının imkanlarından istifadə etməklə qeyri-neft sektoruna birbaşa xarici investisiyaların cəlb edilməsi, alternativ maliyyələşməyə açıq investisiya layihələrin təqdim olunması, yerli malların ənənəvi və yeni bazarlara çıxış imkanlarının beynəlxalq bazara inteqrasiyası prosesinin sürətləndirilməsi və bu sektorun ixrac qabiliyyətinin artırılması istiqamətində tədbirlər görsün.

Bu və digər bəndlər üzrə 3 ay ərzində təkliflər və normativ-hüquqi aktlar hazırlanıb respublika prezidentinə təqdim edilməlidir.

Qeyd edək ki, bütün adı çəkilən 3 bənddə vurğu investisiyalara edilir. Bununla əlaqədar demək istəyərdik ki, son illər Azərbaycanda gedən bütün işlərin təkanverici qüvvəsi kimi investisiyalar çıxış edir. Respublikamızda həyata keçirilən böyük miqyaslı neft-qaz, nəqliyyat, infrastruktur layihələrində və s. əsas rolu investisiyalar və ən əsas da ki, xarici investisiyalar oynamışlar. Bunun nəticəsində müstəqilliyimiz güclənmiş, iqtisadi və sosial inkişaf getmiş, ölkə iqtisadiyyatı dünya iqtisadiyyatına inteqrasiya etmiş və öz yerini tutmaqdadır.

Xüsusi iqtisadi zonaların biznes mühitinin qiymətləndirilməsi zamanı bizim tərəfimizdən müəyyən edilən indikatorların arasında investisiyalarla bağlı 2 indikator təklif edilmişdir – "XİZ-lərə yönəldilən investisiyaların həcmi" və " XİZ-lərə yönəldilən investisiyaların ödəmə müddəti".

Tədqiq etdiyimiz mövzu xüsusi iqtisadi zonalarına aid olduğuna görə qeyd etməliyik ki, dünya təcrübəsi göstərir ki, xüsusi iqtisadi zonaların yaradılmasının əsas məqsədlərindən biri də məhz xarici investisiyaların cəlb olunması və istifadəsidir. Bu sahədə son illər böyük yaradıcılıq və quruculuq işləri getmiş, xüsusi iqtisadi zonaların növləri olan texnoloji parklar, yüksək texnologiya parkları, azad zonaları, sənaye zonaları və sənaye məhəllələri yaradılır və bu proses sürətlə gedir. Bu işlərdə əsas rolu, əlbəttə ki, yeni texnika, texnologiya və investisiyalar oynayır. Bu işlər məhz qeyri-neft sektoruna yönəldilir.

**Fikrimizcə**, "Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası ilə əlaqədar və 1.1, 1.7, 2.4 bəndlərini nəzərə alaraq, təklif etmək istəyərdik ki, respublika iqtisadiyyatına, və konkret olaraq respublikada fəaliyyət göstərən və yeni yaradılan xüsusi iqtisadi zonalara investisiya axınının təşviqi, və ümumiyyətlə Azərbaycandakı xüsusi iqtisadi zonaları dünyada tanıdılması məqsədilə "www.fez.az" internet portalı yaradılsın və istifadəyə verilsin. FEZ abreviaturası ingilis dilində "free economic zone" – azad iqtisadi zona anlayışından irəli gəlir. Bu sayt İKT-nin vasitəsi ilə respublikamızın xüsusi və azad iqtisadi zonaların dünya iqtisadiyyatında tanıdılmasına, təbliğinə və bunun nəticəsində iqtisadiyyatımızın innovasiya səviyyəsinin artırılmasına, böyük investisiya axınına, yeni iş yerlərinin açılmasına və həyat səviyyəsinin yüksəldilməsinə gətirib çıxaracaq.

2. Respublikada fəaliyyət göstərən xüsusi iqtisadi zonalar administrasiyalarının rəhbərlərinin şurası yaradılmalıdır. Bu qurum ölkənin investisiya qanunvericiliyinin təkmilləşdirilməsi məsələlərinin kompleks şəkildə həlli üçün yaradılmalı və məsləhətçi orqanı rolunu oynamalıdır.

Belə əməkdaşlıq növü xüsusi hüquqi rejimi olan ərazilərin fəaliyyətinin müxtəlif məsələlər üzrə birgə mövqe müəyyən edilməsində, qanunvericiliyin təkmilləşdirilməsi üzrə təkliflərin verilməsində, ölkə və regionlar səviyyəsində problemlərin birgə həllində köməklik göstərəcək. Şurada qəbul edilən normativ-hüquqi aktlara lazımi dəyişikliklərin birgə əsaslandırılma səviyyəsi yüksək olacaq və XİZ-lərin strateji məsələlərin həllinin səmərəliliyini artıracaq.

Fikrimizcə, şuraya respublikada fəaliyyət göstərən bütün xüsusi iqtisadi zonaların, texnoloji parkların, Yüksək Texnologiyalar Parklarının və Azprom şirkətinin rəhbərləri daxil edilməlidir. Bu məsləhətçi orqan ildə 1 dəfədən az olmayaraq öz yığıncağlarını keçirməli və müzakirələr hər dəfə ayrı-ayrı zonalarda aparılmalıdır. Bu müzakirələr biznes-mühitin təkmilləşdirilməsi istiqamətlərinin işlənib hazırlanmasında və fikir mübadiləsi aparmaq işində əlavə bir vasitə rolunu oynayacaq.

Məhz belə birgə müzakirələr və əməkdaşlıq nəticəsində, gələcəkdə normativ-hüquqi aktlarda tətbiq edilən, iqtisadi fəaliyyətin aparılması şərtlərinin və investisiya iqliminin yaxşılaşdırılmasına yönəldilən təkliflər irəli sürülür.

Qanunvericiliyin təkmilləşdirilməsi məsələlərindən başqa mühüm bir məsələ də diqqəti cəlb edir – bu XİZ-lər üçün yaradılan ərazilərin mühəndis-tikinti hazırlığının təkmilləşdirilməsi məsələsidir. Bu

istiqamətdə Azərbaycanda son illər böyük işlər aparılır, infrastruktur məsələləri həll edilir. Misal üçün, axır 2-3 ildə Sumqayıt Kimya sənaye parkının qurulması üçün bu ərazidə yerləşən keçmiş "Sumqayıt Kimya Sənayesi" istehsalat birliyinin, sonralar - "Azər-Kimya" birliyinin "Sumqayıt sintezkayçuk", "Sumqayıt üzvi sintez" kimi müəssisələr tamamilə sökülüb, yerlərində böyük həcmdə mühəndis-tikinti işləri aparılmış və yerli və xarici investisiyalar hesabına ən yeni və müasir standartlara cavab verən istehsal müəssisələri qurulmuşdur.

Sumqayıtda fəaliyyət göstərən texnopark və yeni yaradılan Kimya Sənaye Parkı Azərbaycan sənayesinin potensialını qat-qat artıracaq, ölkəyə böyük miqdarda investisiyalar, ən müasir texnika və texnologiyalar cəlb edəcək, idxaldan asılılığı azaldıb, ixrac potensialını artıracaq, sahibkarlıq fəaliyyətini stimullaşdırıb qeyri-neft sektorunun çəkisini yüksəldəcək. Burada əsas problemlərdən biri istehsal olunan məhsullar üçün yeni satış bazarlarının tapılması, xarici ölkələrdə Azərbaycan məhsullarının tanıdılmasıdır. Təhlil onu göstərir ki, sonuncu məsələ Sumqayıt Texnoloji Parkı üçün böyük probleme çevrilib-istehsal olunan məhsulun keyfiyyəti aşağı düşüb, satış azalıb və bunun nəticəsində maliyyə qıtlığı yaranıb , fəhlə və qulluqçular əmək haqlarını ala bilmir.

Bu günə qədər sənaye parklarının rezidentləri Azərbaycan iqtisadiyyatına 1 mlrd. dollardan artıq vəsait yatırıblar və bunun nəticəsində 5 mindən çox yeni iş yerləri açılmışdır. Bundan sonra da rezidentlər 850 mln. dolların iqtisadiyyata yatırılmasını planlaşdırıblar və bunun da nəticəsində 7500-dən çox yeni iş yerləri açılacaq[3]. 2018-ci ildə Sumqayıt Kimya Sənaye Parkında investisiya dəyəri 2 milyard ABŞ dollarına yaxın olan bir neçə sənaye müəssisəsi açılacaq[4].

## Ədəbiyyat


1. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 06 dekabr 2016.
2. Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 19.09.2018
3. .www.president.az
4. www.scip.az


## Резюме


***Гасанов Абдул-Самад Х.***


**Роль особых экономических зон в развитии ненефтяного сектора Азербайджана**


*Статья посвящена растущей роли специальных экономических зон в развитии ненефтяного сектора республики. Автор представил свои конкретные предложения и рекомендации по совершенствованию этой области.*



***Ключевыеслова:*** *специальная экономическая зона,конкурентоспособность, предпринимательство, развитие, ненефтяной сектор, инвестиции, бизнес-среда, технопарк*


## Summary


***Hasanov Abdul-Samad H.***


**The Role of Special Economic Zones in the Development of the Non-oil Sector of Azerbaijan**


*The article is devoted to the growing role of special economic zones in the development of the non-oil sector of the Republic. The author has provided concrete suggestions and recommendations for improving this area.*



***Key words:*** *special economic zone, competitiveness, entrepreneurship, development, the non-oil sector, investment, business environment, technopark*

# BEYNƏLXALQ İQTİSADİ TƏŞKİLATLARDA AZƏRBAYCAN RESPUBLİKASININ İŞTİRAKININ İNTEQRASİYA ƏLAQƏLƏRİNDƏ ROLU

***Hümbətəliyeva S.Ə.***
*Sumqayıt Dövlət Univetsiteti*
***Məhərrəmov E.M.***
*Azərbaycan Kooperasiya Universiteti*

***Xülasə.*** *Məqalədə aparıcı Beynəlxalq iqtisadi təşkilatlarda Azərbaycan Respublikasının iştirakı təhlil edilmişdir. Həmçinin bu inteqrasiya əlaqələrindəki əhəmiyyəti göstərilmişdir. Eyni zamanda müəyyən dövrlərdə bu qurumlar tərəfindən verilən kreditlərin məbləği və məqsədi araşdırılmışdır.*

***Açar sözlər:*** *beynəlxalq iqtisadi təşkilatlar, kredit, beynəlxalq iqtisadi əlaqələr, iqtisadi islahatlar*

Müasir dövrdə əmtəə və xidmətlər bazarı ilə yanaşı olaraq, texnoloji inkişafla əlaqədar maliyyə bazarlarının en sürətli qloballaşan seqment olduğunu görə bilərik. Ölkələr arasında iqtisadi, siyasi və mədəni əlaqələrin artması əməkdaşlıq fəaliyyətinin də artmasına səbəb olmuşdur. Ölkələr arasında yaranan bu münasibətlərdə beynəlxalq təşkilatlar, hökumətlər, transmilli şirkətlər və vətəndaş cəmiyyətləri iştirak edir. Azərbaycan iqtisadiyyatının Sovet ittifaqından qalan strukturu, müstəqil bir dövlətin milli iqtisadiyyatının tələblərinə cavab verməməsi ilə bərabər, eyni zamanda qlobal iqtisadiyyata uyğun formada inteqrasiyasına, həmçinin dövlətin iqtisadi müstəqilliyinə mane olurdu. Lakin zaman keçdikcə, xüsusi ilə Ümummilli lider Heydər Əliyev prezident olduqdan sonra həssas tarazlıq siyasəti çərçivəsində Azərbaycan dövlətinin beynəlxalq iqtisadi əlaqələrinin formalaşdığı, eyni zamanda qlobal iqtisadiyyata inteqrasiyanın başladığını görmək olar.

Coğrafi mövqe baxımından Azərbaycanın əlverişli olması, böyük enerji kompleksləri, neft sənayesi, kimya, elektronik və şərabçılıq sənayesi, nəqliyyat infrastrukturu və xammal ehtiyatlarının zənginliyinə baxmayaraq texnoloji potensialın zəifliyi, istehsalın kifayət qədər olmaması, ucuz işçi qüvvəsi kimi faktorlar xarici iqtisadi münasibətlər sistemini istiqamətləndirən əsas amillər olmuşdur [1, səh.222].

2016-cı ildə Azərbaycanın 130-dan çox dövlət ilə ticarət əlaqələri yaratması onun qlobal iqtisadiyyata inteqrasiyada vacib bir yol qət etdiyinin göstəricisidir. Amma müəssisələrin dünya bazarları üçün rəqabətqabiliyyətli əmtəə istehsal etməmələri Azərbaycanın hazır məhsul ixrac etmək yolu ilə inteqrasiya etməsi imkanlarını azaldır. Müxtəlif iqtisadi təşkilatlara üzv olmaq və onlardan əldə olunan kreditlər Azərbaycanın xarici iqtisadi əlaqələri üçün yeni proseslərdəndir.

Ölkəmiz aşağıdakı beynəlxalq iqtisadi təşkilatların üzvü olmuşdur:

Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (IBRD), Beynəlxalq Valyuta Fondu (BVF), Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (BSEC), CCC (Commodity Credit Corporation), Avropa Şurası (CE-müşahidəçi), Miqrantlarla İş Mərkəzi (CIS), Avropa Atlantik Müttəfiqliyi Şurası (EAPC), Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD), Avropa İqtisadi Komissiyası (ECE), İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO), Asiya və Sakit Okean İqtisadi və Sosial Komissiyası (ESCAP), Birləşmiş Millətlər Qida və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Beynəlxalq Hava Müdafiəsi Təşkilatı (ICAO), ICRM, IDA (International Development Association), İslam İnkişaf Bankı(IDB), Beynəlxalq Kənd Təsərrüfatı İnkişaf Fondu (IFAD), Beynəlxalq MaliyyəTəşkilatı (IFC), Beynəlxalq Əmək Təşkilatı (ILO), Intelsat, Interpol, NAM (Non-Aligned Movement-müşahidəçi), Birləşmiş Millətlər (BM), BM Ticarət və İnkişaf Konfransı (UNCTAD), Birləşmiş Millətlər Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO), Sənaye İnkişaf Təşkilatı (UNİDO), Dünya Səhiyyə Təşkilatı (WHO), Dünya Ticarət Təşkilatı (WTO-müşahidəçi).

Daxili maliyyə ehtiyatlarının məhdudluğuna görə Azərbaycan ölkənin istehsal və sosial infrastrukturunun təzədən yaradılmasına, eyni zamanda beynəlxalq maliyyə qurumlarının geniş maliyyə imkanlarından son dərəcədə yararlanmaq üçün bu qurumlarla əməkdaşlığı həyata keçirmişdir. Azərbaycan dövlətini kreditlə təmin edən təşkilatlardan ilk sıralarda Avropa İttifaqı (TACIS, TRACECA, INOGATE), BVF, Dünya Bankı (IBRD), ABŞ İxrac və İdxal Bankı, Beynəlxalq İnkişaf Təşkilatı, Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD), Türk Eximbankı, İslam İnkişaf Bankı (IDB), Yaponiya Beynəlxalq Müttəfiqlik Bankı, Qaradəniz Ticarət və İnkişaf Bankı (BSTDB), IFC, Kreditanstalt fur Wiesderaufbau (KfW, Almaniya) dayanır.

Bu qurumlar tərəfindən verilən kreditlərin əsas məqsədi bazar iqtisadiyyatı sisteminə keçidin asanlaşdırılmasıdır. Müxtəlif beynəlxalq iqtisadi qurumlarla əlaqə yaradan Azərbaycan regional iqtisadi və ticarət əlaqələri baxımından xüsusi önəm daşıyan təşkilatların üzvüdür. Eyni zamanda Avropa İttifaqı ilə də əlaqədədirlər. Avropa Yenidənqurma və İnkişaf Bankı, Yaponiya Beynəlxalq İqtisadi Müttəfiqlik Fondu

kimi digər beynəlxalq maliyyə təşkilatlarından da kredit alınmasına baxmayaraq, alınan xarici kreditlərdə üstünlüyün BVF və Dünya Bankında olduğunu qeyd etmək lazımdır [2, səh. 101-102].

Aşağıda Azərbaycanın aparıcı beynəlxalq iqtisadi təşkilatları ilə əlaqələri təhlil edilmişdir:

Beynəlxalq Valyuta Fondu (BVF) ilə əlaqələr. BVF, Azərbaycanın 1995-1996-cı illər iqtisadi islahatlar proqramına 1995-ci ilin noyabrında 132 mln. dollar həcmində kreditlə dəstək vermişdir. Bu iqtisadi islahat proqramı vaxtaşırı pul və maliyyə siyasətləri ilə inflyasiyanı azaltmaqla bərabər maliyyə sektorunun yenidən qurulması, qiymət strukturunun rasionallaşdırılmasına və özəlləşdirmə sahəsində sürətli inkişafın əldə olunması kimi struktur islahatlarını da özündə birləşdirirdi.

Azərbaycana iqtisadi islahatları dəstəkləməyi davam etdirmək üçün 2001-ci ilin iyulunda "Yoxsulluğu Azaltma və Böyümə Asanlığı" adı altında 100 mln. dollarlıq kredit ayrıldı. Bu kreditin əsas məqsədi, makroiqtisadi stabilliyi yenidən əldə etmək, iqtisadiyyatın qeyri-neft sektorlarının böyüməsini təşviq etməkdir [1, səh.326].

Dünya Bankı ilə əlaqələr. Dünya Bankının Azərbaycan üçün ayırdığı birinci kredit neft sektoruna yönəldilmişdir. Neftin Azərbaycanın iqtisadiyyatında olan roluna nəzər yetirdikdə ayrılan kreditin iqtisadiyyat üçün nə dərəcədə vacib olduğunu açıq görmək mümkündür. Dünya Bankı tərəfindən Azərbaycana ayrılan kreditlər 35 il müddətinə və faizsiz verilir. Hökumət Banka ildə 0.75% həcmində xidmət haqqı ödəyir.

Çoxtərəfli İnvestisyalar üzrə Zəmanət Agentliyi (MİGA) ilə əməkdaşlıq. MİGA, Azərbaycanda fəaliyyətdə olan xarici şirkətlərə dəstək məqsədilə 6 dəfə 77.1 mln. dollarlıq təminat vermişdir. Birinci təminat Bakıdakı Coca-Cola şirkətinə 18.3 mln. dollar investisiya qoyan Türkiyənin Efes şirkətinə ödənmişdir. Növbəti təminat, Türkiyə bankı olan Koçbankın 2.7 mln. dollar sərmayəsinə ödənmişdir.

İslam İnkişaf Bankı ilə əlaqələr. Azərbaycan, 1992-ci ildə İslam İnkişaf Bankı (IDB)-nin üzvülüyünə qəbul edilmişdir. Tərəflər arasında 2004-cü ildə Ucar-Yevlax avtomobil yolunun inşası ilə əlaqədar olaraq, 22 mln. dollar həcmində kreditin ayrılması məqsədi ilə razılaşma əldə olunaraq, müqavilə imzalandı. Kredit vasitəsi ilə uzunluğu 55 kilometr olan yolun yenidən tikilməsi nəzərdə tutulmuşdur. Bu layihə 2006-cı ildə həyata keçirilmişdir [1, səh.111].

2014-cü ildə Azərbaycanın Avropa İttifaqı proqramlarında və agentliklərində iştirakına dair Protokol imzalanmışdır (6 iyul 2016-cı il tarixində qüvvəyə minmişdir).

06 - 07 fevral 2017-ci il tarixlərində Azərbaycan Respublikası Prezidentinin Brüsselə rəsmi səfəri çərçivəsində "Strateji Tərəfdaşlıq haqqında Saziş"in imzalanmasına dair razılıq əldə olunmuşdur. Həmin Saziş layihəsinin əsas tərkib hissələri olaraq, nəqliyyat və İKT sahələri üzrə danışıqlar davam etdirilməkdədir [3].

Qeyd etmək lazımdır ki, Azərbaycanın bir çox dünya dövlətləri ilə - ABŞ, Türkiyə, İtaliya, Almaniya, Böyük Britaniya, Rusiya, Çin, Ukrayna, Qazaxıstan, Rumıniya, Polşa, Pribaltika ölkələri, Səudiyyə Ərəbistanı, Niderland, Yaponiya, Cənubi Koreya, İran, Gürcüstan, Moldova və s. strateji və məhsuldar xarici-iqtisadi əlaqələri, iqtisadi əməkdaşlıq sazişləri və beynəlxalq əməkdaşlıq müqavilələri mövcuddur.

Bütün bunlar bir daha onu göstərir ki, Azərbaycan Respublikası beynəlxalq aləmə inteqrasiya siyasətinin əsas prinsiplərinə söykənərək dünyanın aparıcı beynəlxalq təşkilatları ilə əlaqələr yaratmış, onların bir çoxuna üzv qəbul edilmişdir. Ən əsası isə bu təşkilatlara üzvlük Azərbaycanın iqtisadi müstəqilliyini məhdudlaşdırmamış, əksinə üzv dövlətlərlə bərabər səviyyəli, ikitərəfli və çoxtərəfli əlaqələrin yaranmasına gətirib çıxarmışdır. İqtisadi müstəqilliyimizin müdafiəsinə dayanan inteqrasiya siyasətinin inkişaf etdirilməsi ölkəmizin daxil olduğu inteqrasiya bloklarının üzvü olan dövlətlərlə əlaqələrinin daha da genişləndirilməsi, yeni ticarət əməkdaşlarının tapılması və yeni inteqrasiya bloklarında birləşməkdən ibarətdir.

**Ədəbiyyat**

1. Süleymanov E., Aras O.N. Azərbaycan iqtisadiyyatı. Bakı, 2010
2. Süleymanov E.Azərbaycan və Avropa Yenidənqurma və İnkişaf Bankı Münasibətləri, Azərbaycan Müstəqillikdən Sonra Beynəlxalq Konfransın materialları. Bakı, 2003
3. https://president.az/

**Резюме**

***Гумбаталиева С.А., Магеррамов Е.М.***

**Участие Азербайджанский Республике в международных экономических организациях и ее роль в интеграционных связах**

*В статье анализируется участие Азербауджанский Республики в ведущих международных организациях, а также указаны их значение в интеграционных связах. В то же время анализируются суммы и цели выданных кредитов со страны этих организаций.*

***Ключевые слова:*** *международные экономические организации, кредит, интеграционные экономические связи, экономические реформы.*

**Summary**

***Humbataliyeva S.A., Maharramov E.M.***

**Role of Azerbaijan Republic's Participation in Integration Relations in the Major International Economic Organizations**

*Main purpose of paper is to analyze the participation of Azerbaijan Republic in the major international economic organizations. The importance of this participation is highlighted in the paper as well. At the same time the amount and purpose of allocated loan by these organizations were studied.*

***Key words:****international economical organizations, credit, integration economical connections, economical reforms*

# MÜƏSSİSƏNİN RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN ARTIRILMASINDA LOGİSTİKANIN ROLU

***Hüseynova M.S.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalədə müəssisədə logistikanın inkişaf etdirilməsinin zəruriliyi əsaslandırılmışdır. Logistikanın inkişaf etdirilməsinin müəssisənin rəqabətqabiliyyətliliyinin artırılmasına təsiri araşdırılmışdır. Həmçinin, müəssisənin rəqabətqabiliyyətliliyinin asılı olduğu şərtlərə baxılmışdır.*

***Açar sözlər:*** *rəqabət, logistika, müəssisə, istehsal, bazar, material*

Bazar iqtisadiyyatında hər hansı bir müəssisənin əsas məqsədi bazarda mövqelərini saxlamaq, mənfəət qazanmaq və xərcləri optimallaşdırmaqdır. Müasir şəraitdə müəssisənin inkişafının ən vacib göstəricisi rəqabətqabiliyyətliliyidir. Yəni malların və xidmətlərin bazarın müəyyən etdiyi bütün tələblərə cavab verməsi qabiliyyətidir. Hər hansı bir müəssisənin fəaliyyətinə əsas yanaşma, onların hərəkətlərinin bütün mərhələlərində maddi axını idarə etmək məqsədi daşıyan logistik xidmətin mövcudluğu və ayrılmasını nəzərdə tutur. Logistika, istehsal, informasiya mübadiləsi, nəqliyyat, tədarük, anbar, yükləmə, qablaşdırma və s. kimi fəaliyyətlərin bir çox sahələrini əhatə edir. Düzgün təşkil edilmiş logistika müəssisənin rəqabət qabiliyyətinin artmasına gətirib çıxarır, müəssisənin maliyyə vəziyyətini yaxşılaşdırır.

Sərt rəqabət ilə xarakterizə olunan müasir biznesdə istehlakçı xidmətində logistika mühüm rol oynayır. Müəssisənin logistika strategiyasını inkişaf etdirərkən imkanlarını yaxşı bilmək də vacibdir.

Müəssisənin rəqabət qabiliyyəti onun tərəfindən istehsal olunan malların və xidmətlərin rəqabət qabiliyyəti ilə müəyyən edilir. Bazara ilk dəfə girərkən müəssisənin rəqabət qabiliyyəti aşağıdakı şərtlərdən asılıdır:

- həm xarici, həm də daxili bazarda müəssisənin mallarının rəqabət qabiliyyəti;
- istehsal olunan malların növü;
- bazarın tutumu (illik satışların sayı);
- bazarın homogenliyi;
- bu bazarda fəaliyyət göstərən müəssisələr - rəqiblər;
- sənayenin rəqabət qabiliyyəti;
- sənayedə texniki yeniliklərin mümkünlüyü;
- regionun və ölkənin rəqabət qabiliyyəti [1, s.109].

Bazarda çıxış etmək istəyən müəssisənin rəqabət qabiliyyəti digər istehsalçılardan daha aşağı olarsa, onda həmin müəssisə ya iqtisadi fəaliyyətini dayandırmalı, ya da rəqabət qabiliyyətini artırmağa cəhd etməlidir. Müəssisənin rəqabət qabiliyyətini artırmanın bir çox yolu var.

Seçim müəyyən bir müəssisənin təhlili və mövcud iqtisadi vəziyyətilə müəyyənləşdirilir. Rəqabəti artırmaq üçün ən məşhur və tez-tez istifadə olunan üsul mal və xidmətlər istehsalının genişləndirilməsidir. Ancaq bir bölgədə əlaqəli məhsulların istehsalına diqqət yetirmək mümkündür. Buna görə, müəssisənin rəqabət qabiliyyətinin dəyişməsinə təsir edən amillər bütövlükdə nəzərə alınmalıdır [3, s.69].

Müasir şəraitdə rəqabət üstünlüyünə nail olmaq üçün daha çox xidməti təmin etmək və onların keyfiyyətini artırmaqdır.

Böyük Britaniyadakı elm adamları məhsulun dəyərinin 70%-dən çoxunu malların nəql edilməsi, saxlanması və qablaşdırma xərcləri olduğunu aşkar etmişlər. Bütün bu əməliyyatlar material axınının hərəkətini təmin edir. İstehsal və dövriyyə sahələrində logistikanın tətbiqi aşağıdakılara kömək edir:

- material axınının bütün hərəkət yolları ehtiyatların sayını əhəmiyyətli dərəcədə azaldır;
- təchizat zənciri boyunca malların hərəkət müddəti azalır;
- nəqliyyat xərcləri azalır [5, s.133].

Beləliklə, əməliyyatın 95%-dən çoxu maddi-texniki işlərə aid edilir. Buna görə logistika şirkətin rəqabət qabiliyyətinin artırılmasında bir amildir. Bu baxımdan, logistikanın şirkətin əsas iqtisadi və maliyyə göstəriciləri ilə əlaqələrini ən doğru əks etdirən xərcləri və göstəriciləri nəzarət etmək üçün bir yol tapmaq lazımdır. Qərb alimləri bir çox tanınmış müəssisələrdə və korporasiyalarda uğurla tətbiq olunan bir sıra məntiqi konsepsiyaları inkişaf etdirmişlər. Bu konsepsiyaların tətbiqi müəssisələrə istehsal etdikləri mallara əhəmiyyətli rəqabət üstünlüyü verdi və öz sənaye sektorunda liderlik etməyə imkan verdi. Nümunə olaraq, bu gün tez-tez rastlaşan və müəyyən bir müəssisədə tətbiq olunan "Justintime" konsepsiyasıdır. Bu konsepsiyadan Yaponiyanın Toyota Motors şirkəti istifadə edərək KONBAN sistemini fəal şəkildə təqdim etmişdir [6, s.322].

Bu konsepsiyadan istifadə məhsulların keyfiyyətini əhəmiyyətli dərəcədə artıra, istehsal xərclərini azalda, şirkətin dövriyyə kapitalını sürətləndirə bilər. Beləliklə, müasir logistika konsepsiyalarının və sistemlərinin tətbiqi yerli biznes təşkilatlarının rəqabət qabiliyyətini artırmaq üçün ən vacib strateji yollardan biridir.

Qeyd etmək istərdim ki, logistika şirkətin rəqabətqabiliyyətliliyinin ən vacib amillərindən biridir və təşkilatın ümumi xərclərinin yarıdan çox hissəsi logistik xərclərdir: material və komponentlərin alınması, maddi ehtiyatların və hazır məhsulların saxlanılması və satışı.

Logistika sistemi müəssisənin fasiləsiz və uğurlu fəaliyyətində əsas funksiyaların bir qrupunu yerinə yetirir və buna görə də bu sistemin fəaliyyətinin yüksək səviyyədə təşkili daim diqqət mərkəzində saxlanılmalıdır. Bazar iqtisadiyyatı prinsipləri və rəqabət mühiti dərinləşdikcə logistika sisteminin rolu da əhəmiyyətli şəkildə artmaqda davam edir. Səmərəli və mütərəqqi logistik sistemlərin tətbiqi hesabına müəssisə özünün istehsal şəbəkəsinin daha məhsuldar işləməsini və istehsalın rəqabət qabiliyyətinin yüksəldilməsini təmin edir [2, s.63].

Material resurslarının tədarükü prosesinin təşkili mərhələləri üzrə tədbirlər logistka axınının səmərəli idarə edilməsinə imkan verən səviyyədə təşkil edilməlidir. Bu məqsədlə mümkün olan tədarük mənbələri müəyyən edilməli, hüquqi məsələlər aydınlaşdırılmalı, müqavilələr bağlanılmalı, xammal və material resurslarının yüklənməsi, daşınması, boşaldılması, istehsal tsiklinə və emal proseslərinə cəlb edilməsi tədbirləri çevik və səmərəli surətdə reallaşdırılmalıdır. Material resursları üzrə satınalma və tədarük prosedurlarına ciddi əməl olunmalıdır. Müəssisələrdə alış logistikasının əsas prinsipləri yüksək səviyyədə ciddi şəkildə qorunmalı, xammal və materiallardan istifadənin bütün məsələləri və mexanizmləri optimallaşdırılmalıdır. Bunlarla əlaqədar olaraq, logistika sisteminin təşkili ilə bağlı bütün mühüm qərarların vaxtında verilməsi və icra olunması təmin edilməlidir [4, s.517].




**Şəkil 1. Loqistikanın əhatə sahələri** [7, s.56].

Şəkildə göstərilən qarşılıqlı əlaqə yüksək keyfiyyətli müştəri xidmətinə nail olmaq məqsədi daşıyır. Bu, məntiqi idarəetmənin müasir texnologiyalarını inkişaf etdirməyə və rəqabət qabiliyyətinin yüksək səviyyəsinə çatmağa imkan verir.

Yalnız inteqrasiya edilmiş logistika sisteminin ümumi səmərəliliyində artım təmin etdikdə bu sahələrin hər birində müvəffəqiyyət əldə etmək olur. Burada logistik məlumatlardan istifadəyə xüsusi diqqət yetirilməlidir.

Logistikanı rəqabət qabiliyyətinin artırılmasında bir faktor kimi nəzərə alaraq, bu sahədəki qərarların nəticələrinin onların funksional xərclərə və malların satışından əldə etdiyi gəlirlərə görə ölçülməsi lazımdır. Bu baxımdan, logistikanın firmaların əsas iqtisadi və maliyyə göstəriciləri ilə əlaqələrini ən düzgün şəkildə əks etdirən xərcləri və göstəriciləri nəzarət etmək üçün bir yol tapma məsələsi gündəmə gətirilir. Bildiyimiz kimi, logistika həllərinin nəticələrinin kəmiyyət parametrlərini müəyyən etmək çox çətindir.

Beləliklə, logistikanın tətbiqi aşağıdakılara imkan verir:

- müəssisənin daxili biznes proseslərini uyğunlaşdırır, funksional vahidlərin səmərəliliyini artırır;
- istehsal xərclərini azaldır;
- potensial və faktiki istehlakçıların sayını artırır, bazarın saxlanması və genişləndirilməsinə şərait yaradır;
- müştəri xidmətlərinin, sifarişlərinin keyfiyyətini, şirkətin nüfuzunu və etibarlılığını artırır;
- bazarda sərt rəqabət şəraitində müəssisələrin rəqabət qabiliyyətini artırır.

Bütövlükdə logistika sisteminin səmərəliliyi müəssisənin rəqabət qabiliyyətliliyinin artması üçün əlavə stimullar formalaşdırır.

**Ədəbiyyat**


1. Аникина Б.А. Логистика. М.: ИНФРА-М, 2012, 327 с.
2. Гаджинский А.М. Логистика. М.: Дашков и К, 2008, 483 с.
3. Галанов В. А. Логистика. М.: ФОРУМ: ИНФРА-М, 2012, 271 с.
4. Григорьев М. Н. Логистика: базовый курс. М.: Юрайт, 2011, 782 с
5. Миротина Л. Б. Основы логистики. М.: ИНФРА-М, 2012, 200 с.
6. Сергеев В.И. Менеджмент в бизнес-логистике. М.:Инф.-издат. дом Филин, 2014, 608 с.
7. Смехов А.А. Основы транспортной логистики. М.: Транспорт, 2013, 197 с.



**Резюме**

***Гусейнова М.С.***

**Роль логистики в повышении конкурентоспособности предприятия**

*В статье обоснована необходимость развития логистики на предприятиях. Исследовано влияние развития логистики на повышение конкурентоспособности предприятия. Также рассмотрены условия, которых зависит конкурентоспособность предприятия.*

***Ключевые слова:*** *конкуренция, логистика, предприятие, производство, рынок, материал*



**Summary**

***Huseynova M.S.***

**The Role of Logistics in Improving the Competitiveness of Enterprises**

*The article substantiates the need for the development of logistics in enterprises. The influence of the development of logistics on improving the competitiveness of the enterprise is investigated. The competitiveness of the enterprise also depends on the conditions.*

***Key words:*** *competition, logistics, enterprise, production, market, material*


## TEXNOPARKLARDA MALİYYƏ TƏMİNATININ TƏŞKİLİ PROBLEMLƏRİ VƏ HƏLLİ YOLLARI


***Hüseynzadə H.A.***

*Sumqayıt Dövlət Universiteti*



***Xülasə.*** *Məqalədə texnoparklarda maliyyə təminatının təşkili problemləri və həlli yolları tədqiq olunmuşdur. Texnoparkların milli iqtisadiyyatın inkişafının intensivləşdirilməsində çoxfunksiyalı rolu və bununla bağlı onların dayanıqlı şəkildə maliyyə mexanizmlərinin müəyyənləşdirilməsinin vacibliyi*

*araşdırılmışdır. Davamlı və sabit maliyyə mənbələrinin formalaşdırılmasının zəruriliyi əsaslandırılmışdır. Baxılan problemlər üzrə ümumiləşdirmə aparılmışdır.*

**Açar sözlər:** *texnoparklar, maliyyə təminatı, maliyyə problemləri, maliyyə problemlərinin həlli yolları, maliyyə mexanizmlərinin səmərəliliyi*

Müasir dövrdə iqtisadi mexanizmlərin təkmilləşdirilməsi və yenilənməsi prosesləri kifayət qədər aktualdır. Dünya ölkələrində bu məsələlərə yanaşmalarda müxtəlif formalı iqtisadi mexanizmlərdən istifadə olunması diqqət çəkir. Hələ XX əsrin 70-ci illərindən başlayaraq, ABŞ-da və Qərbi Avropa ölkələrində texnologiyaların inkişafına, innovativ mexanizmlərin daha fəal tətbiqinə ciddi önəm verilmişdir. 1950-ci illərdən etibarən başlamış texnoloji inkişaf prosesləri məhz bu dövrdə daha da sürətlənmiş və texnoparklar şəbəkəsinin yaradılması daha intensiv xarakter almışdır [1]. İlk texnopark məhz ABŞ-da - 1947-ci ildə Boston şəhərində təşkil olunmuşdur və bu texnoparkın yaradılmasında əsas məqsəd yüksək texnologiyaların inkişaf etdirilməsi, bununla bağlı yaradıcı insanların, alimlərin və ixtiraçıların, mühəndislərin "bir çətir" altına yığılmasından ibarət olmuşdur.

Bu qeyd olunan ölkələrdə texnoparkların maliyyə problemlərinə və maliyyə təminatına yanaşmalar həlledici rol oynamışdır. Düzdür, dünya təcrübəsində texnoparkların maliyyə mənbələri, ilk növbədə, yeni məhsullara, o cümlədən innovativ məhsullara olan tələbatla və bu məhsulların sifarişçiləri ilə bağlıdır, yəni texnoparkların istehsal etdikləri məhsullar sifarişçilər tərəfindən maliyyələşdirilir [2]. Bu proseslər və belə bir yanaşma bazar iqtisadiyyatı prinsiplərinə uyğun olaraq formalaşdırılmışdır və hazırda, demək olar ki, texnoparkların maliyyələşdirilməsi prinsiplərində bu cür mexanizmlər əsas yeri tutur. Lakin heç də bütün ölkələrdə bu yanaşmaları təmin etmək o qədər də asan deyildir, belə ki, bir tərəfdən yeni məhsullara, innovativ məhsullara sifarişlər o qədər də çox olmur, yaxud texnologiyalar bazarı inkişaf etmədiyindən bu məsələlərin həlli o qədər də asan deyildir. Digər tərəfdən isə, yeni ideyaların hazırlanması, işlənməsi və əsaslandırılması, istehsala tətbiqi uzun bir dövrə hesablanıb, bunlar isə maliyyə resursları tələb edir [3]. Amma bütün hallarda texnoparkların məhsuldar və səmərəli fəaliyyət göstərməsi onun maliyyə resurlarının və investisiya axınlarının dayanıqlı, etibarlı mənbələrinin olmasından birbaşa asılıdır. Belə ki, texnoparklarda yeni yaradılacaq məhsulun ideya formasından istehsal prosesinədək çatdırılması və satış bazarlarına çıxarılması kimi olan hər bir mərhələnin çevik və dayanıqlı maliyyə mexanizmi, investisiya təminatı olmalıdır [4]. Dünya təcrübəsində texnoparklar yaradılarkən əsas maliyyə mənbələri kimi yeni məhsulların maraqlı sifarişçiləri və onların maliyyə təminatı başlıca amil kimi dəyərləndirilir. Dövlətin rolu isə əsasən infrastrukturun və kifayət qədər cəlbedici investisiya-innovasiya mühitinin yaradılması ilə bağlı olur. Qanunların işləkliyi, texnologiyaların və kapitalın maneəsiz hərəkəti, biznes mühitinin toxunulmazlığının təmin olunması, əsassız müdaxilələrin minimuma endirilməsi, ölkənin dayanıqlı maliyyə-kredit sisteminin formalaşdırılması, kredit resurslarına əlçatanlığa nail olunması məsələlərində də dövlətin əhəmiyyətli rolu vardır. Ancaq əvvəldə qeyd etdiyimiz kimi, texnoparkların səmərəli fəaliyyət göstərməsi üçün, ilk növbədə, maraqlı tərəflərin məhsuldar maliyyə mənbələri həlledici rol oynayır. Məsələn, universitetlərdə texnoparklar yaratmaq üçün, şübhəsiz, maliyyə resursları məhduddur, amma əgər universitetlərlə, onların elmi potensialı ilə istehsal müəssisələri və innovasiya məhsullarına maraqlı tərəflərin inteqrativ münasibətlərini formalaşdırmaq mümkün olarsa, onda maliyyə mənbələrinin yaradılması üçün daha geniş imkanlar açılır [5]. Digər tərəfdən, bunun üçün investisiya layihələri kifayət qədər əsaslandırılmalı və onun maliyyə təminatı mənbələri müəyyənləşdirilməlidir. İstehsal olunacaq yeni məhsulların göstəriciləri, rəqabət üstünlükləri, analoji bazarlarda möhkəmlənmək ehtimalları dərindən araşdırılmalı və uzunmüddətli dövr üçün sifarişçilərin dairəsi məlum olmalıdır. Başqa sözlə, maliyyə təminatı ilə bağlı hər bir mexanizm ciddi əsaslandırılmalı, onların işləkliyi və dayanıqlılığı təmin edilməlidir.

Son illərdə Azərbaycanda ölkə iqtisadiyyatının mövcud mexanizmlərinin yenilənməsi istiqamətində iqtisadi və institusional islahatlar aparılmaqdadır. İqtisadiyyatın müxtəlif istiqamətləri və perspektiv sektorları üzrə strateji hədəflər müəyyənləşdirilmişdir. Belə ki, ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş"Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə bunlar yer almışdır [6]. Əsas məqsəd - ölkə iqtisadiyyatının neftdən asılılığının minimuma endirilməsidir və bunun üçün, ilk növbədə, qeyri-neft sektorunun innovativ inkişafı təmin olunmalıdır. Artıq bu istiqamətdə əhəmiyyətli tədbirlər görülməkdədir və çevik innovativ mexanizmlərin yaradılması prosesləri intensivləşməkdədir. Diqqəti cəlb edən məsələlərdən biri də bu proseslərdə texnoparklardan istifadəyə prioritetlik verilməsidir. Belə ki, ölkənin əsas sənaye mərkəzi olan Sumqayıtda texnopark institutunun bünövrəsi qoyulmuşdur. 2009-cu ildən fəaliyyətə başlayan Sumqayıt Texnologiyalar Parkı ölkənin ilk texnoparkı kimi mühüm funksiyaları yerinə yetirir [7]. Həmin texnoparkda innovativ inkişafın təmin edilməsi üçün güclü maddi-texniki baza və istehsal infrastrukturu yaradılmışdır. Bu şəraitin təmin

edilməsində dövlət tərəfindən yönəldilən məqsədli maliyyə yatırımları önəmli rol oynamışdır. Digər tərəfdən özəl sektorun maliyyə resurslarının bu istiqamətdə cəlb edilməsi istiqamətləri sürətləndirilmişdir. Başqa bir amil, dövlət tərəfindən texnopark institutunun fəaliyyətinin maliyyə təminatının gücləndirilməsi üçün güzəştlər paketinin verilməsidir. Belə ki, ölkəmizdə fəaliyyət göstərən texnoparklara dövlət tərəfindən 7 illik müddətə güzəştlər müəyyənləşdirilmişdir[8].

Texnopark institutunun inkişafı və fəaliyyəti ilə bağlı proseslərin təhlili göstərir ki, bu sahədə çoxlu sayda həll edilməmiş problemlər vardır. Belə ki, texnoparkların investisiya cəlbediciliyi hələlik istənilən səviyyəyə çatdırılmamışdır, buna görə də xarici investorlar ölkəmizdə fəaliyyət göstərən texnoparklara iri investisiyalar yatırmaqda tələsmirlər. Bizə görə, texnoparkların maliyyə problemlərinin həll edilməsi üçün bir sıra məsələlərə strateji yanaşamalar təmin olunmalıdır:

- ✓ Ölkəmizdə maliyyə-kredit sisteminin sabitliyi və iqtisadiyyatın real sahələrinə sərfəli kreditlərin əlçatanlıq səviyyəsinə çatdırılması problemləri həll edilməlidir;
- ✓ İnnovativ məhsullar üzrə sifarişlərin məhdudluğunun aradan qaldırılması görülməli və innovasiyalar-texnologiyalar bazarı inkişaf etdirilməlidir;
- ✓ Yaxın illərdə texnoparklarda maliyyə təminatının təşkili problemlərinin həlli istiqamətində sistemli tədbirlərin görülməsinə ciddi ehtiyac qalmaqdadır və s.

## Ədəbiyyat


1. Костюнина Г.М., Баронов В.И. Технопарки в зарубежной и российской практике // https://mgimo.ru/files/225765/12_Kostunina-Baronov.pdf.

2. Кузнецова С.Н. Развитие организационно-экономического механизма формирования промышленных парков. Дисс. канд. экон. наук. Иваново, 2013.130 с.

3. Технопарки как новая форма бизнес-альянсов. https://www.vegaslex.ru.

4. Витренко Л.А. Развитие финансового механизма устойчивого функционирования хозяйствующих субъектов малого бизнеса. Дисс. канд. экон. наук. Оренбург, 2007, 168 с.

5. О некоторых достижениях и многих проблемах действующих вузовских технопарков России на сегодняшний день. http://www.innovbusiness.ru/content/document_r_798FA8BC-F2B8-47CB-867F-51B9E5126A60.html.

6. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

7. Sumqayıt Texnologiyalar Parkı. 22 dekabr 2009-cu il. https://stp.az.

8. Sənaye parkları haqqında Nümunəvi Əsasnamə. AR Prezidentinin 2013-cü il 24 aprel tarixli Fərmanı ilə təsdiq edilib.


## Резюме


***Гусейнзаде Х.А.***


**Проблемы и пути решения организации финансового обеспечения технопарков**


*В статье исследованы направления проблем и путей решения организации финансового обеспечения технопарков. Анализирована многофункциональная роль в интенсификации развития национальной экономики. Исследована важность определения прочных финансовых механизмов технопарков для эффективного функционирования. Обоснована необходимость формирования устойчивых и стабильных финансовых источников технопарков. Даны обобщения по рассматриваемым проблемам.*



***Ключевые слова:*** *технопарки, финансовое обеспечение, финансовые проблемы, пути решение финансовых проблем, эффективность финансовых механизмов*


## Summary


***Huseynzadeh H.A.***


**Problems and Solutions to the Organization of the Financial Support of Technology Parks**


*Problems and solutions to the organization of the financial support of technology parks are investigated in the article.The multifunctional role in the intensification of the development of the national economy is analyzed. The importance of identifying sound financial mechanisms for technology parks for effective functioning has been explored.The necessity of the formation of durable and stable financial sources of technology parks is grounded. Given the generalization of the problems under consideration.*



***Key words:*** *technology parks, financial security, financial problems, ways to solve financial problems, the effectiveness of financial mechanisms*

# MARKETİNQ XİDMƏTLƏRİ BAZARININ İNKİŞAF STRATEGİYASI

**_İbayev A.A._**
_Azərbaycan Dövlət Neft və Sənaye Universiteti_

**_Xülasə._** _Marketinq xidmətləri bazarı rəqabət mübarizəsinin səmərəli təşkili, satış imkanları geniş olan məhsulların istehsalını təşkil etməyi və onun həcmini dəqiq müəyyən etməyi, müxtəlif bazar seqmentlərində potensial tələbatın dinamikasının öyrənilməsini, bazar münasibətlərinə uyğun olan çevik qiymət mexanizminin yaradılmasını və onun düzgün formalaşdırılmasını, məhsul və xidmətlərin bütün istehlakçılar üçün eyni dərəcədə əlverişli olmasını və bu məqsədlə münasib vasitəçilərin seçilməsini və s. özündə birləşdirir._

**_Açar sözlər:_** _marketinq, bazar, xidmət_

Təhlil göstərir ki, təqribən 15 – 20 illik təcrübəsi olan Azərbaycan marketinq xidmətləri bazarı, inkişaf etmiş ölkələrin bazarları ilə müqasiyədə, kifayət qədər gənc və yeni olduğundan hələ də yetərincə inkişaf etməmişdir və bu bazarda təkilf olunan xidmətlərin çeşidi və onlara olan tələb olduqca məhduddur.

Qeyd edək ki, müstəqilliyinin ilk dövrlərindən marketinq xidmətləri bazarı inkişaf etməyə başlamışdır. Lakin ilk dövrlərdə bu proses bir qədər ləng və kortəbii gedirdi. Hesab edirik ki bunun ilk səbəbi bazar infrastrukturunun olmaması, sahibkarlıq fəaliyyətinin, ümumiyyətlə xidmət sektorunun zəif inkişafı, kadr potensialının olmaması, marketinq fəaliyyətinin rolu və əhəmiyyətinin yetərincə qiymətləndirilməməsi ilə əlaqədar idi. Lakin son 10 ildə ölkəmizdə bazar infrastrukturunun formalaşması, sahibkarlığın inkişafı marketinq bazarlarının inkişafına zəmin yaratmışdır.

**Marketinq xidmətləri bazarının inkişaf göstəriciləri**

**Cədvəl**

| | 2000 | 2005 | 2009 | 2012 | 2014 |
|---|---|---|---|---|---|
| ÜDM | 4718,1 | 12522,5 | 35601,5 | 42465 | 51157,5 |
| İstehsal | 2765,9 | 8507,2 | 22209,6 | 27726,7 | 34860,3 |
| Xidmət | 1687,4 | 3141,3 | 11150,8 | 11891,8 | 13239,2 |
| Xalis vergilər | 253,8 | 874 | 2241,1 | 2876,5 | 3058 |

**_Mənbə:_** _Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi_

Cədvəldən göründüyü kimi, 2000 – 2014-cü illər ərzində xidmət sektorunda yaradılmış əlavə dəyərin məbləği təqribən 8 dəfəyə qədər artmışdır. Son dövrlərdə xidmətlər bazarında müşahidə olunan inkişaf marketinq xidmətləri bazarından da yan keçməmişdir. Belə ki, hazırki dövrdə marketinq xidmətlərinə bazar tələbatının kəskin artması müşahidəolunmaqdadır.

Müəssisə səviyyəsində marketinq xidmətləri bazarının inkişaf strategiyasının realizasiyası mərhələsində hazırlanmış strategiyanın necə və kim tərəfindən həyata keçiriləcəyi, onu həyata keçirən şəxslərin məsuliyyəti, hansı hadisələrin harada baş verə bilməsi və bu hadisələrin nəticələrinin müəssisənin fəaliyyətində nəzərə alınması üçün hansı işlərin nə vaxt həyata keçiriləcəyi məsələləri həll olunur.(2)

Marketinq xidmətləri bazarının inkişaf imkanları, istiqamətləri iki meyar: 1) yeni və mövcud bazarlarda fəaliyyətinin məqsəuyğunluğu; 2) həmin bazarlara yeni və mövcud məhsullarla çıxmağın məqsədəuyğunluğu əsasında formalaşdırılır. Bu meyarlara uyğun olaraq müəssisənin inkişaf imkanlarının üç istiqaməti: intensiv inkişaf imkanları; inteqrasiya inkişaf imkanları və diversifikasiya inkişaf imkanları vardır.

İntensiv inkişaf imkanlaı strategiyasından mövcud bazarlarda inkişaf imkanları tükənmədiyi, mövcud biznes fəaliyyəti və ya məhsul istehsalı müəssisəni, biznes vahidini təmin etdiyi halda istifadə olunur. Bu zaman müəssisə və ya biznes vahidi mövcud bazara yeni məhsulla, yaxud mövcud bazara mövcud məhsulla və yaxud da yeni bazara mövcud məhsullarla çıxmağı planlaşdıra bilər. Bu variantlardan asılı olaraq müəssisə bazara nüfuzetmə strategiyasından; yeni bazarlara çıxma strategiyasından və yeni məhsulların hazırlanması strategiyasından istifadə edə bilər.

Marketinq xidmətləri bazarının inkişaf strategiyasında müəssisənin güclü və zəif cəhətləri imkanları və çatışmazlıqları mütləq nəzərə alınmalıdır.Təhlükə və imkanların təhlilində ən vacib və mürəkkəb iş onların siyahısının düzgün tərtib edilməsi və qiymətləndirilməsidir. Çünki son illərdə marketinq və idarəetmə psixologiyası sahəsində aparılan tədqiqatlar nəticəsində informasiyadan istifadə olunması və qərarlar qəbul olunması prosesində subyektivizmin səviyyəsinin yüksək olduğu aşkar edilmişdir. Belə ki, qərar qəbul edən

şəxs bir halda informasiyanın əhəmiyyətini həddən artıq şişirdir, digər halda isə onun əhəmiyyətini ümumiyyətlə qiymətləndirmir, bəzi problemlərə ya təhlükə yaradan, ya da yeni imkanlar açan problem kimi baxır. Bu cür halları aradan qaldırmaq və subyektivlik səviyyəsini azaltmaq məqsədilə menecerlər və dəvət edilən ekspertlər konkret situasiyanı nəzərə almaqla təhlükə və imkan amillərinin siyahısını tərtib edir və hər bir amili qiymətləndirirlər. Bundan sonra imkanlar cəlbedicilik səviyyəsi və uğur qazanma ehtimalı göstəricilərinə görə təsnifləşdirilir. Həm cəlbedicilik səviyyəsi, həm də uğur qazanma ehtimalı yüksək olan imkanlara daha çox diqqət yetirilir, baş vermə ehtimalı və ciddiliyi yüksək olan amillərdən isə qaçmağa çalışırlar.(4)

Marketinq strategiyasının hazırlanması mərhələsində hər bir məhsul növü və ya çeşidi üzrə marketinq strategiyası, yəni istehlakçını müəssisənin bazara təklif etdiyi məhsulları almağa təhrik edən tədbirlər kompleksi hazırlanır, məqsəd bazarı (və ya bazarları) seçilir və məhsulun mövqeləşdirilməsi həyata keçirilir. Məqsəd bazarı müəssisənin marketinq fəaliyyətilə ələ keçirməyə, cəlb etməyə çalışdığı bazar seqmentidir.

Məhsulun bazarda müvəffəqiyyətlə satışı həlledici dərəcədə tətbiq edilən marketinq kompleksindən asılıdır. Buna görə də müəssisə, marketinq kompleksinin hazırlanması mərhələsində marketinq kompleksini və onun hər bir elementi üzrə strategiya tərtib edir, istehlakçıların ona reaksiyasını öyrənir.

Marketinq smetasının (büdcəsinin) hazırlanması mərhələsində hər bir məhsul üzrə bütünlükdə marketinq fəaliyyətinə və marketinq kompleksinin hər bir elementinə çəkiləcək xərclərin həcmi hesablanılır, biznes vahidlərinə ayrılmış resurslar məhsullar üzrəbölüşdürülür.

Məhsul üzrə marketinq xidmətləri bazarının inkişaf strategiyası mənfəətin (zərərin) məbləğini müəyyənləşdirilməsi mərhələsində müəssisənin məhsul satışından əldə edəcəyi mənfəətin və ya ona dəyəcək ziyanın məbləği müəyyən edilir. Bunun üçün hər bir məhsulun satışından əldə edilən ümumi məbləğdən (ümumigəlirdən)

onun istehsalına və marketinqinə çəkilən xərclərin ümumi məbləği çıxılır. Bunun əsasında isə hər bir məhsul üzrə marketinq fəaliyyətinin nəticəsi qiymətləndirilir.

Marketinq xidmətləri bazarı hazırda yüksəliş dövrünü yaşayır, inkişaf sürəti ildən-ilə artır. Əgər yaxın keçmişdə Azərbaycanda sahibkarlar marketinqin əhəmiyyəti haqqında tam təsəvvürə malik deyildisə, bu gün artıq hamıya məlumdur ki, marketinq təkcə və ya satışın təşviqi demək deyil. Hazırda marketinq xidmətləri bazarının inkişafına başlıca maneə kimi ölkədə yüksək ixtisaslı marketoloqların kifayət qədər olmamasını göstərmək olar.

Marketinq xidmətləri bazarının əsasən aşağıdakı xidmətlər üzrə inkişafı nəzərdətutulur:

- marketinq tədqiqatlarının aparılması;
- reklamların hazırlanması və KİV- lərdə yerləşdirilməsi;
- reklamların TV-lərdə və bilbordlarda yerləşdirilməsi;
- promo (tanıtım) materiallarının hazırlanması;
- müəssisənin, müştərilərin loyallığının yüksəldilməsi məqsədilə tədbirlərin həyata keçirilməsi;
- sərgilərin və seminarların hazırlanması;
- marketinq planının hazırlanması;
- marketinq büdcəsinin hazırlanması.

**Ədəbiyyat**

1. Azərbaycanın Statistik Göstəriciləri. Bakı, 2013-2015
2. Hüseynov T. Müəsisənin iqtisadiyyatı. Bakı: Bakı biznes Universiteti,2006, 600 s.
3. Məmmədov X.,Mirzəyev S. Marketinqinəsasları. Bakı, Qapp-Poliqraf,2001, 298 s.
4. Seyfullayev İ.Z. Marketinqin əsasları. Bakı: Təhsil NPM, 2013, 411 s.

**Резюме**

***Ибайев А.А.***

**Стратегия развития рынка маркетинговыхуслуг**

*Рынок маркетинговых услуг объединяем в себеэффективную организацию конкурентоспособности, точное определение его объема, изучение динамики потенциального спроса в различных сегментах рынка, создание гибкого механизма ценообразования для рыночных отношений и правильное формирование всех продуктов и услуг для всех потребителей. Он сочетает в себе одинаковую доступность и выбор для этого подходящих медиаторов и т. д.*

***Ключевые слова:***_маркетинг, рынок, обслуживание_

**Summary**

***Ibayev A.A.***

**Development Strategy of Marketing Services Market**

*The marketing services market is an effective organization of competitiveness, accurate determination of its volume, the study of the dynamics of potential demand in different market segments, the creation of a flexible pricing mechanism for market relations, and the proper formulation of all products and services for all consumers to be equally accessible, and to select suitable mediators for this purpose, and so on.*

***Key words:*** *marketing, market, service*

## İSTEHLAK BAZARININ İNKİŞAF PROBLEMLƏRİ VƏ ONLARIN HƏLLİ İSTİQAMƏTLƏRİ

***İbrahimova G.R.***

*UNEC*

***Açar sözlər:*** *istehlak bazarı, satış, istehsal, dövlət, vergi*

Məlum olduğu kimi, istehlak bazarının təminatı dövlətin strateji maraqlarının qorunub saxlanılmasında mühüm rol oynayır. İstehlak bazarının yerli istehsal hesabına təmin edilməsi, ilk növbədə, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan dövlətin iqtisadi siyasəti, istehlak bazarının yerli istehsal hesabına təmin edilməsinə istiqamətlənərək, istehsalın stimullaşdırılması, istehsal və tədavül prosesinin tənzimlənməsi istiqamətində zəruri tədbirlərlərin həyata keçirilməsindən asılı olmalıdır. Bu baxımdan transformasiya prosesini yaşayan respublikamızda istehlak bazarında baş verən iqtisadi proseslərin səmərəli və elmi əsaslarla idarə edilməsi mühüm əhəmiyyət kəsb edir.

Malların istehlak, satış və istehsal proqnozlarının işlənib hazırlanması, bazarda istehlak mallarına olan tələb və təklif arasında proporsiyaların saxlanılması, əhalinin əsas məhsul növlərinin istehlakı və onun sosial müdafiəsi, pul tədavülünün normalaşmasının təmin edilməsi üçün zəruri tədbirlər sisteminin hazırlanması üçün mühüm şərtdir. Bu məqsədlə əsas makroiqtisadi və sahə göstəriciləri, istehsal və tədavülün inkişafı proqnozlaşdırılmalıdır.[1]

İstehlak və tədavülün dövlət tənzimlənməsi, hər şeydən əvvəl, bazar münasibətləri subyektlərinin qaydalarını müəyyən edir. Yeni iqtisadi qanunlar istehlak malları bazarının formalaşması və normal fəaliyyət göstərməsi üçün əlverişli şərait yaradır. Bu zaman xüsusən də qloballaşmanın dərinləşdiyi bir şəraitdə dövlət, əsasən əmtəə istehsalının inkişafına iqtisadi təsir göstərən metodlardan istifadə edir. Fikrimizcə, iqtisadi transformasiya dövründə tənzimlənmənin miqyası daxili və xarici siyasi şəraitdən əhəmiyyətli dərəcədə asılı olur, həmin dövrdə direktiv üsulların tətbiqindən tam imtina etmək olmaz.

Dövlət tərəfindən tətbiq olunan metodların arsenalı geniş və müxtəlifdir. Ona birbaşa və dolayı tənzimlənmə metodları daxildir. Malların istehlakı və tədavülünə olan dövlət sifarişi də bilavasitə təsir üsulları sırasına daxildir. Yeni şəraitdə dövlət sifarişi sistemi prinsipial dəyişikliklərə məruz qalır. Transformasiya mərhələsində dövlət sifarişlərinin məqsədəuyğunluğu istisna edilmir. Bununla belə, onların qəbul edilməsinə və reallaşmasına müəssisələr maraqlı olmalıdırlar. Buna rentabelliyi təmin edən qiymətlərin, vergi imtiyazlarının, zəmanətli maddi-texniki təminatın və s. tətbiqi hesabına nail olmaq olar.[2]

İstehlak mallarının istehsalını tənzimləmək üçün xarici iqtisadi əlaqələrdən də səmərəli istifadə etmək məqsədəuyğundur. İstehlak mallarının idxalı üçün əlverişli gömrük şəraitini yaratmaq və bu məhsulların idxalını sərt tənzimləmək lazımdır. Daha sonra dövlət əmtəə bazarının normal fəaliyyəti üçün infrastruktur elementlərinin yaradılmasında fəal iştirak etməklə, malların istehsalı və tədavülünə əhəmiyyətli təsir göstərməlidir. İnfrastrukturun yaradılması böyük kapital qoyuluşu tələb edir. Buna görə də transformasiya mərhələsində ciddi təşkilati dəyişikliklərlə bağlı olaraq dövlət büdcə vəsaitlərindən istifadə etməklə, infrastrukturun yaradılmasında iştirak etməli, habelə bazar infrastrukturunun formalaşmasına kömək etməlidir. Bu fəaliyyət ticarət və sənaye müəssisələrinin təsərrüfat əlaqələrinin formalaşmasında böyük çətinliklər olduğu dövrdə xüsusi əhəmiyyətə malikdir. Dövlət bütün təsərrüfat subyektlərinə lazımi informasiyanın çatdırılması üçün rabitə kanallarının inkişafına və ondan istifadə edilməsinə əhəmiyyətli kömək göstərə bilər. Bu növ fəaliyyətdə təkcə mərkəzi deyil, həm də torpaq sahələrinin ayrılması, tikililərin icarəyə verilməsi, bazar institutları fəaliyyətinin təmin edilməsində köməyi asılı olan yerli orqanlar da iştirak etməlidir[3].Dövlət müstəqilliyinin bərpa olunması malların istehsalı və tədavülünün tənzimlənməsi üzrə hüquqi funksiyaların yenidən bölüşdürülməsinə gətirib çıxardı. Yaranmış vəziyyətdə bu mühüm məsələnin

həlli siyasi proseslərlə müəyyən edilir və onların inkişafından asılı olacaqdır.

Onun əsas elementlərinə aşağıdakılar aid edilir:

tədavül sahəsinin maddi-texniki bazası, o cümlədən anbar və tara təsərrüfatı;

bazar institutları: əmtəə birjası, vasitəçi təşkilatlar, broker kontorları, marketinq, regional mərkəzlər;

bazar münasibətləri iştirakçılarını lazımi göstəricilərlə təmin edən rabitə və informasiya sistemi.

Vergi siyasətinin həyata keçirilməsində, onun yığılmasına nəzarətin gücləndirilməsində geniş əhali kütləsinin iştirakını təmin etmək lazımdır. Bu baxımdan qonşu Türkiyə Respublikasının təcrübəsindən nümunə götürmək olar.[3] Məsələn, orada alıcı mülkiyyət formasından asılı olmayaraq, istənilən ticarət müəssisəsindən aldığı mala görə qiyməti üzərində göstərilən qəbz - «fiş» alır. Fişdə mağazanın və ya satıcının adı, ünvanı göstərilir. Alıcı hər ayın sonunda aldığı malların qəbzlərini toplayıb yaşadığı ərazinin bələdiyyə orqanına təhvil verir və fişlərin ümumi məbləğinin 10-15%-ni pul şəklində geri alır. Bunun sayəsində bir neçə mühüm problem həll edilmiş olur, dövlət orqanları öz ərazisində ticarət şəbəkəsi, onun mal dövriyyəsi haqqında dəqiq informasiyaya malik olur, vergi müfəttişliyinin isə istənilən ticarət müəssisəsini obyektiv yoxlamaq işi asanlaşır. Eyni zamanda qeyri-qanuni ticarət, ara alverçiləri sıxışdırılmış olur, yəni onlar mallarını istənilən vergi ödəyən subyektdən ucuz satmağa məcbur olurlar. Beləliklə, bütün əhali ölkədə ticarət şəbəkəsində qayda-qanun yaradılmasında iştirak etməklə, dövlət büdcəsinə daxil olan vergi gəlirlərinin artırılmasını təmin edirlər. Əgər hər hansı satıcı alıcıya «fiş» verməzsə, ona qarşı elə bir cərimə sistemi tətbiq olunur ki, qanun pozucusu bununla ya tam iflasa uğraya bilər və ya da satdığı malın qiymətindən yüz, beş yüz dəfə artıq olan cəriməni ödəyə bilmədikdə cinayət məsuliyyətinə cəlb edilə bilər [5].

Göstərilən problemlər həll edilərkən, hər şeydən əvvəl, sənaye və ticarətin iqtisadi müstəqilliyindən çıxış etmək lazımdır. Məhz sənaye müəssisələri istehsal mallarının reallaşdırma kanallarının tədarük şərtlərini seçərək onları idarə edir, topdansatış ticarət mərkəzləri isə hərəkətini müstəqil təşkil edirlər. Bu mənada Azərbaycanın MDB respublikaları ilə təsərrüfat əlaqələrinin saxlanılması və genişləndirilməsi xüsusi əhəmiyyətə malikdir. Bu halda vahid iqtisadi məkan olan MDB-nin formalaşması mühüm rol oynayır. Onun yaradılması təkcə gömrük sərhədlərinin olmaması və müxtəlif dövlətlərdə yerləşən müəssisələrin məhsul mübadiləsinə qoyulan məhdudiyyətlər deyildir. Fikrimizcə, hazırda müxtəlif suveren dövlətlərdə mövcud müəsisələrin fəaliyyətini tənzimləyən təsərrüfat mexanizmləri oxşardır. Bunsuz vahid təsərüfat kompleksinin formalaşması, inteqrasiya proseslərinin inkişafı mümkün deyildir.

Fikrimizcə, ölkədə istehlak bazarını formalaşdırmaq və inkişaf etdirmək üçün aşağıdakı üstünlük təşkil edən tədbirlər həyata keçirilməlidir:

Əhalinin artan tələbatının tam və dolğun ödənilməsinə şərait yaradılmalı;

Əhalinin istehlak mallarına olan tələbini formalaşdıraraq istehlakın səmərəli strukturu formalaşdırılmalı;

İstehlak mallarının səmərəli reallaşmasını həyata keçirməli və onların istehlakçıya çatdırılması təmin edilməli;

Tələb və təklif arasında dinamik tarazlığa nail olmalı və onun ənənəvi xarakter almasına şərait yaradılmalıdır.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasi Regionlarının Sosial-iqtisadi İnkişafi Dövlət Proqramı (2009-2013-cü illər). Bakı, Nurlar, 2008, 174 s.
2. Abbasov A.F.Sosial bazar iqtisadiyyatı. Bakı, Elm və həyat, 1998, 320 s.
3. Koç H. Kooperativçilik Bilgileri, Nobel Yayın Dağıtım, Gözden Geçirilmiş II. Basım, Ankara, 2001, 187 s.
4. Томсон Л.Д., Джонк М.Д. Основы инвестирования. М.: Дело. 1999, 321 с.
5. Хейсин М.Л. История кооперации в России. Л.: 1926, 120 с.


**Резюме**


***Ибрагимова Г.Р.***


**Проблемы развития потребительского рынка и их решение**


*Наличие большого количества независимых участников имеет важное значение для формирования потребительского рынка. Преимущество небольших магазинов характеризуется эффективностью розничного предложения качества.Активность потребительского рынка определяется потребностями населения, а также взаимосвязями между спросом и предложением на региональном рынке. В международной практике известно, что регулирование потребительского*

*рынка зависит от уровня экономического развития страны, ее природно-экономических характеристик и т. д. в зависимости от факторов.*

***Ключевые слова:*** *потребительский рынок, продажи, производство, государство, налог*

**Summary**

***Ibrahimova G.R.***

**Problems of Consumer Market Development and their Solution Directions**

*The existence of a large number of independent participants is essential for the formation of the consumer market. The advantage of small stores is characterized by the effectiveness of the retail offer quality. The activity of the consumer market is determined by the needs of the population, as well as the relationship between supply and demand in the regional market. In international practice we know that the regulation of the consumer market depends on the level of economic development of the country, its natural and economic characteristics, etc. depending on the factors.*

***Key words:*** *consumer market, sales, production, state, tax*

## AZƏRBAYCAN RESPUBLİKASININ SƏNAYE-ENERGETİKA KOMPLEKSİNİN İNKİŞAFINDA MİNGƏÇEVİR SƏNAYE PARKININ ROLU VƏ ƏHƏMİYYƏTİ

***İsmayılov M.B.***

*Mingəçevir Dövlət Universiteti*

***Xülasə.*** *Məqalə Azərbaycanın sənaye-energetika kompleksinin inkişafında mühüm rol oynayan Mingəçevir sənaye parkının fəaliyyətinə həsr olunmuşdur. Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı çərçivəsində yaradılmış sənaye parklarının mövcud sosial-iqtisadi problemlərin həllində müstəsna əhəmiyyəti xüsusi olaraq vurğulanmışdır. Bölgələrdə sənaye parklarının yaradılması ilə bağlı paytaxtın sənaye yükünün regionlara paylanması, məqalədə ölkənin müasir iqtisadi həyatının tələbi kimi xarakterizə olunmuşdur.*

***Açar sözlər****: sənaye-energetika kompleksi, sənaye parkı, pambıq, tekstil, elektrik, yeni texnologiyalar*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin təşkili və əhalinin istehsal sahələrində məşğulluğunun artırılması məqsədilə verilmiş tapşırıqlara uyğun olaraq respublikanın müxtəlif regionlarında sənaye parklarının yaradılması həyata keçirilir. Belə parklardan biri 21 sentyabr 2016-cı il tarixində dövlət başçısı tərəfindən təməli qoyulmuş Mingəçevir Sənaye Parkıdır. Mingəçevir Sənaye Parkı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2015-ci il 26 fevral tarixli 1077 nömrəli Sərəncamı ilə 14,8 hektar sahədə yaradılmışdır. Parkda yüngül sənaye məhsulları, o cümlədən iplik, boyama, toxuma, tikiş, corab, ayaqqabı və tibbi kosmetika istehsalı üzrə 9 fabrikin yaradılması üçün 150-200 milyon ABŞ dolları investisiya qoyuluşu və 5500-dən çox yeni iş yerinin açılması nəzərdə tutulur[5].

Sənaye Parkında fəaliyyət göstərən rezidentlər dövlət investisiyası hesabına müvafiq infrastrukturla, o cümlədən elektrik enerjisi, qaz, içməli və texniki su ilə təmin edilir, eyni zamanda 7 il müddətində mənfəət, əmlak və torpaq vergilərindən, həmçinin istehsal məqsədi ilə idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğulara görə ƏDV və kömrük rüsumlarından azad olunması nəticəsində qənaət olunmuş vəsait sahibkarlar tərəfindən yenidən investisiyaya yönəldilir. Mingəçevir Sənaye Parkının fəaliyyətinin təşkili, idarə olunması və inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsi İqtisadiyyat Nazirliyinin tərkibində yaradılmış "Sumqayıt Kimya Sənaye Parkı" MMC-yə həvalə olunub. Sənaye Parkının fəaliyyətinin təmin edilməsi məqsədilə Əmlak Məsələləri Dövlət Komitəsinin tabeliyində olan "Mingəçevir-Toxucu" ASC ləğv edilib və onun 15 hektara yaxın torpaq sahəsi icarə hüququ ilə "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin daimi istifadəsinə verilib. Sənaye Parkında ilkin mərhələdə 2 min, sonra 5500-dən artıq yeni iş yerinin açılması nəzərdə tutulur. Mingəçevir Sənaye Parkının nəzdində nəzərdə tutulmuş 9 müəssisədən artıq 2-si işə qoşulmuşdur[6]. Pambıq ipliyi müəssisəsində ilkin mərhələdə ildə 10 min ton, növbəti mərhələdə isə 20 min ton iplik istehsalı nəzərdə tutulur. Azərbaycanda böyük tələbat olan akril ipliyi istehsalı müəssisəsində ilkin mərhələdə il ərzində 3 min ton məhsul hazırlanacaq. Bu, idxaldan asılılığı qismən aradan qaldıracaq. Yun ipliyi istehsalı müəssisəsində isə ildə 3 min ton məhsul istehsal ediləcək. Corab istehsalı müəssisəsində tikinti tam başa çatdıqdan sonra

ilkin mərhələdə Azərbaycanın corab məhsullarına tələbatının 50 faiz ödənilməsi, illik 35 milyon cüt, növbəti mərhələdə isə 70 milyon cüt corabın istehsalı nəzərdə tutulur. Ayaqqabı istehsalı müəssisəsində illik 1,5 milyon cüt dəri ayaqqabı istehsal ediləcək[6]. Qabaqcıl texnologiyaların tətbiq olunduğu bu müəssisələrdən başqa Sənaye Parkında tibbi kosmetika məhsulları istehsalı müəssisəsinin yaradılması da planlaşdırılıbdır. Müəssisədə pambıq mahlıcının və ipliyin tullantılarının təkrar emalı nəzərdə tutulur. Tullantılardan sterilləşdirilmiş pambıq, tibbi sarğı bezləri və bandajları, qulaqtəmizləyən çöplər və makiyaj bezləri istehsal olunacaq. Toxuculuq müəssəsində pambıq parçalar istehsal ediləcək. Azərbaycanda 3 ildən sonra xam pambıq istehsalının 700 min tona çatdırılacağını nəzərə alsaq, o zaman Mingəçevir Sənaye Parkının nəzdində fəaliyyət göstərəcək pambıq ipliyi istehsalı müəssisəsinin əhəmiyyəti aydın görünəcəkdir. Hazırlanacaq xam parçanın boyanması üçün parkın nəzdində illik gücü 15 milyon metr olan boyama müəssisəsi inşa ediləcək. Ölkədə hazır geyim məhsullarına olan tələbatı ödəmək və idxaldan asılılığı azaltmaq məqsədilə Azərbaycanın və bütövlükdə Qafqazın ən nəhəng tikiş müəssisəsi Mingəçevir Sənaye Parkında inşa edilir. “Mingəçevir Tekstil” MMC 27 fevral 2018-ci il tarixində açılmışdır. Müasir texnologiyalar əsasında yaradılmış bu fabriklər Almaniya, İsveçrə, Türkiyə, İspaniya, Hindistan, İtaliya və Yaponiyanın aparıcı şirkətləri olan Rieter, Schlafost, Trützscher, Temsan, Savio, Murates, Elektro-Jet və Uster-in avadanlıqları ilə təchiz edilmişdir. Fabriklərdə pambıq mahlıcından ildə 20 min ton, 10 min ton “Ring” üsulu və 10 min ton “Open End” üsulu ilə iplik (sintetik-qarışıq və 100%-pambıq iplik) istehsalı nəzərdə tutulur. Hal-hazırda pambıq emalı fabrikində iki sex fəaliyyət göstərir: 1.”Open End” sexinin ümumi sahəsi – 15438 $m^2$, illik istehsal gücü 10000 ton, 2. “Ring” sexinin ümumi sahəsi- 19422 $m^2$, illik istehsal gücü 10000 ton. 3-cü fabrikin tikinti quruculuq işləri həyata keçirilir, 2019-cu ildə istifadəyə verilməsi nəzərdə tutulur. Fabrikdə hal-hazırda 650 nəfər işçi çalışır [6].

Azərbaycanda son 2 ildə həyata keçirilən islahatların əsas istiqamətləri sırasında qeyri-neft sektorunun inkişaf tempini təmin etmək üçün ixrac imkanları genişləndirilmişdir. Sənaye parklarına indiyədək 2,6 milyard dollar investisiya yatırılıb, tikintidə və istehsalatda 11 minə yaxın iş yeri yaradılıb. Növbəti mərhələdə 1,1 milyard dollardan çox investisiya qoyuluşu və 7500-dək yeni iş yerinin açılması nəzərdə tutulur. Mingəçevir Sənaye Parkında investisiya dəyəri 85 milyon dollar olan 2 iplik fabrikində 650 nəfər işlə təmin olunub.

Dövlət proqramlarının uğurla reallaşdırılması sayəsində regionların tarazlı inkişafına nail olunub. 2018-ci ilin göstəricilərinə görə ümumi daxili məhsul 1,3 faiz artıb. Qeyri-neft sektorunun artımı 2 faiz təşkil edib. Sənaye istehsalı 1,5 faiz, qeyri-neft sənayesi isə 8,8 faiz artıb. Son 15 ildə ölkə iqtisadiyyatına 250 milyard dollar sərmayə qoyulub. 2018-ci ilin may ayında Ələt Beynəlxalq Dəniz Ticarət Limanı istifadəyə verilib. Cənub Qaz Dəhlizi və TANAP-ın rəsmi açılışı baş tutub. Limanın istifadəyə verilməsi Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsindən sonra nəqliyyat sektorunda növbəti böyük hadisədir. 2018-ci ildə bir şox sənaye müəssisələri açılmışdır və proses davam etdirilir. 2019-cu ilin əvvəlində Sumqayıt sənaye Parkında “Sumqayıt karbomit” zavodunun açılışı oldu [4]. Sənayeləşmə sürətlə aparılır və eyni zamanda aqrar sektorun istehsal və ixrac imkanları genişləndirilir. Ulu öndərin ən layiqli davamçısı Prezident İlham Əliyevin bacarığı və idarəçilik istedadı sayəsində son illər ərzində irimiqyaslı və hərtərfli iqtisadi islahatlar uğurla reallaşdırılmışdır. Köklü, müasir zəmanəmizin bütün çağırışlarına tam cavab verən iqtisadi islahatların məntiqi nəticəsi olaraq çoxşaxəli və ölkə sənayesinin dinamik inkişafında xüsusi önəm daşıyan yeni-yeni qabaqcıl müəssisələr yaradılmışdır. Həm daxili bazarın tələbatını ödəmək qabiliyyətində olan, həm də ixracyönümlü məhsul buraxan istehsalat sahələri formalaşmışdır. Sənaye müəssisələrindən biri də “ Bakı İnşaat Sənaye ASC-dir”. Bu sənaye müəssisələri ölkəmizin iqtisadi gücünün artırılması və iqtisadiyyatımızın dinamik inkişafında öz töhfələrini verir. Son illər aqrar sektorun strateji və ölkəyə valyuta gətirən mühüm sahələrindən biri olan pambıqçılığın inkişafı ilə bağlı dövlət başçısı tərəfindən aparılmış məqsədyönlü siyasətin nəticəsi olaraq, imzalanmış fərman və sərəncamlar, pambıqçılığın inkişafı məsələlərinə dair keçirilmiş respublika müşavirələri, qəbul olunmuş dövlət proqramı, bu sahə üzrə müxtəlif yardım və təşviq mexanizmlərinin tətbiq edilməsi ölkədə pambıqçılığın inkişafı üçün əlverişli şərait yaratmışdır. Görülən işlərin nəticəsidir ki, 2017-ci il ərzində pambıq istehsalı 2016-cı ilə nisbətən 132 faiz artaraq 207 min ton olmuşdur [5].

Hazırda respublikada illik istehsal gücü 24,6 min ton olan 6 iplik fabriki fəaliyyət göstərir [4]. Lakin pambıqçılığın sürətlə inkişaf etdirilməsi, innovativ texnologiyaların tətbiqi və yüksək məhsuldarlığın əldə olunması nəticəsində qabaqcıl texnologiyalara əsaslanan yeni istehsal və emal sahələrinin təşkilinə ehtiyac yaranmışdır. Mingəçevir Sənaye Parkındakı müəssisələrin fəaliyyətə başlaması ölkədə toxuculuq sənayesinin inkişafına, yerli istehsal müəssisələrinin davamlı, keyfiyyətli və ucuz xammal ilə təmin olunmasına, eləcə də istehsal olunan pambığın hazır məhsul kimi ixrac olunmasına imkan verəcəkdir ki, bu da ölkəmizə əlavə valyutanın daxil olunmasına imkan yaradacaqdır[3].

Ölkədə sənaye sahələrinin genişlənməsi elektrik enerjisinə tələbatı da artırır. Bu baxımdan Azərbaycan müstəqillik qazandıqdan sonra aparılan köklü islahatlar nəticəsində xeyli irəliləyiş əldə olunmuşdur. Müstəqillik dövründə 3068,3 MVt gücündə 28 yeni elektrik stansiyasının istismara verilməsi ilə hazırda ölkədə fəaliyyət göstərən elektrik stansiyalarının sayı 32-yə çatmışdır [2]. Bu stansiyaların energetika sistemində ümumi gücü 6294,7 MVt-dır. Bundan başqa, respublikamızda müstəqil elektrik stansiyaları da fəaliyyət göstərir ki, onların ümumi qoyuluş gücü 844,4 MVt təşkil edir. Beləliklə, ölkədə fəaliyyətdə olan elektrik stansiyalarının ümumi qoyuluş gücü 7139,1 MVt təşkil etmişdir [1].

Ölkəmizin iqtisadi təhlükəsizliyi baxımından Azərbaycanın energetika potensialının güclənməsi və enerji təhlükəsizliyinin təmin olunması vacib məsələlərdən biridir [4].

Ümummilli lider Heydər Əliyevin milli-strateji inkişaf kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü qətiyyətli və ardıcıl siyasət nəticəsində 2003-cü ildən başlayaraq ölkə iqtisadiyyatının bütün sahələrində olduğu kimi, sənaye-energetika sahəsində də yeni nailiyyətlər əldə edilmişdir.

**Ədəbiyyat**


1. İsmayılov M.B. Azərbaycanda elektrik stansiyalarının inkişaf mərhələləri. SDU-nun Elmi Xəbərləri, №3,4. Sumqayıt, 2009.
2. İsmayılov M.B. Mingəçevir Azərbaycanın energetika mərkəzidir. MPİ, "Dövlətin regional siyasətinin inkişafında aran iqdisadi rayonunun rolu; reallıqlar və perspektiv inkişaf" mövzusunda Respublika elmi konfransının materialları. Mingəçevir, 2013.
3. İsmayılov M.B. Sənayenin inkişafında elektrik enerjisinin rolu. MDU, "Heydər Əliyev və Azərbaycanda energetikanın inkişafı" mövzusunda Respublika elmi konfransının materialları. Mingəçevir, 2014.
4. İsmayılov M.B. Mingəçevir Azərbaycanın sənaye-energetika mərkəzidir. SDU, "Tətbiqi fizika və energetikanın aktual sualları" Beynəlxalq elmi konfransın materialları. 2018.
5. İsmayılov M.B. Azərbaycanın sənaye-energetika potensialı. MDU, "Qlobal tendensiyalar və müasir Azərbaycan" Respublika elmi konfransının materialları. 2018.


**Резюме**

***Исмаилов М.Б.***

**Роль и значение Мингечевирского индустриального парка в развитии промышленно-энергетического комплекса Азербайджанской Республики**

*Статья посвящена деятельности Мингечевирского индустриального парка, играющего важную роль в развитии промышленно-энергетического комплекса Азербайджана. Особо подчеркнуто исключительное значение индустриальных парков, созданных в рамках государственной программы по социально-экономическому развитию регионов Азербайджанской Республики.* ***Перераспределение*** *промышленной загрузки столицы в регионы, в связи с созданием там индустриальных парков, в статье характеризуется как потребность современной экономической жизни страны.*

***Ключевые слова****; промышленно-энергетический комплекс, индустриальный парк, хлопок, текстиль, электричество, новейшие технологии*

**Summary**

***Ismayilov M.B.***

**The Role and Importance of Mingachevir Industrial Park in the Development of Industrial and Energy Complex of Azerbaijan Republic**

The article is devoted to the activities of the Mingachevir industrial park, which plays an important role in the development of the industrial and energy complex of Azerbaijan. The exceptional importance of industrial parks created in the framework of the state program on the socio-economic development in the regions of the Republic of Azerbaijan was especially emphasized. The distribution of the industrial reset of the capital, in connection with the creation of industrial parks in the regions, is characterized in the article as the need for modern economic life of the country.

***Key words****: industrial and energy complex, industrial park, cotton, textiles, electricity, the latest technology*

**KİMYA VƏ NEFT-KİMYA MÜƏSSİSƏLƏRİNDƏ İSTEHSALIN HƏCMİNİN ARTIRILMASINDA XAMMAL AXINLARININ LOGİSTİKA TƏMİNATININ STRATEJİ ASPEKTLƏRİ**

***Kərimli A.S.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalədə kimya və neft-kimya müəssisələrində istehsalın həcminin artırılmasında xammal axınlarının logistika təminatinin strateji aspektləri tədqiq olunmuşdur. Bu məqsədlə kimya və neft-kimya müəssisələrində istehsalın səviyyəsinin müasir vəziyyəti təhlil edilmişdir. Xammal təminatına baxılmış və bu sahədəki problemlər açıqlanmışdır, logistika sisteminin xammal axınlarının səmərəliliyinin yüksəldilməsində rolu əsaslandırılmışdır. Kimya və neft-kimya müəssisələrinin daha səmərəli fəaliyyət göstərməsi və istehsal həcminin artırılması üçün logistika təminatının gücləndirilməsi üzrə təkliflər verilmişdir.*

***Açar sözlər:****kimya və neft-kimya müəssisləri, kimya məhsulları istehsalının həcminin artırılması problemləri, neft-kimya müəssisələrinin emal potensialından istifadə problemləri, xammal təminatında logistika infrastrukturunun rolu, xammal təchizatında logistika təminatının strateji əhəmiyyəti*

Son illərdə ölkə iqtisadiyyatının strukturunun təkmilləşdirilməsi proseslərində qlobal çağırışlara uyğun şəkildə strateji iqtisadi hədəflərin müəyyənləşdirilməsi və bunlarla bağlı sistemli tədbirlərin görülməsi diqqət çəkir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə milli iqtisadiyyatın əsas sektorları üzrə modernizasiya tədbirlərinin görülməsi məqsədilə strateji hədəflər müəyyənləşdirilmişdir [1].Ölkə iqtisadiyyatının aparıcı və təkanverici sahələri olan neft və qaz sənayesi ilə yanaşı, emal sahələrinin inkişaf etdirilməsi baxımından kimya və neft-kimya sektorunun əhəmiyyətli rolu da Strateji Yol Xəritəsində diqqət mərkəzində saxlanılmışdır. Yenə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi"ndə kimya məhsullarının çeşidinin və rəqabət qabiliyyətinin artırılması məqsədilə modern kimya müəssisələri şəbəkəsinin yaradılması, onların xammal təminatının gücləndirilməsi problemlərinin həll yollarına xüsusi önəm verilmişdir [2]. Bundan əlavə, Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramında kimya və neft-kimya müəssisələrinin istehsal güclərindən səmərəli istifadə edilməsinin vacibliyi vurğulanmışdır [3]. Bu məqsədlə, ilk növbədə, mühüm xammal növləri axınlarının hərəkətinin səmərəli təşkili, istifadəsi və nəzarət mexanizmləri olmalıdır. İstehsalın strukturunun təkmilləşdirilməsində xammal təminatının fasiləsizliyi strateji əhəmiyyət kəsb edir [4]. Analoji problemlər ölkəmizin kimya və neft-kimya kompleksi üçün də xarakterikdir. Burada fəaliyyət göstərən əsas kimya qurğularının xammal təchizatı və bununla bağlı logistika təminatı müasir dövrün tələblərinə cavab vermir və bu səbəbdən kimya qurğuları öz layihə güclərindən aşağı səviyyədə istismar olunurlar [5]. Bunlarla əlaqədar olaraq, kimya və neft-kimya müəssisələrinin daha məhsuldar və səmərəli işləmələri üçün xammal təminatı üzrə logistika sisteminin formalaşdırılması və inkişaf etdirilməsi zərurəti yaranmışdır [6]. Son illərdə yaradılan yeni kimya müəssisələrinin də xammal təminatının gücləndirilməsi məsələləri kifayət qədər aktualdır. Məsələn, ölkə Prezidentinin 21 dekabr 2011-ci il tarixli Fərmanı ilə yaradılmış Sumqayıt Kimya Sənaye Parkında bir-birinin ardınca yeni müəssisələr - rezidentlər qeydə alınmaqdadır və onların bir hissəsi artıq fəaliyyət göstərirlər [7]. Bütün bunlar güclü xammal təminatına imkan verən universal qurumun - logistika sisteminin nə dərəcədə əhəmiyyətli olmasını göstərir.

Şəkil 1-də 2013-2017-ci illərdə Azərbaycanın kimya müəssisələrində məhsul istehsalının ümumi dəyəri verilmişdir və göründüyü kimi, həmin dövrdə məhsul istehsalının həcmi dəyər hesabında 2,6 dəfəyə yaxın artmışdır, bu isə kimya sektorunun məhsul istehsalın artımında yüksək potensialın olmasından xəbər verir.




**Şəkil 1. 2013-2017-ci illərdəAzərbaycanın kimya müəssisələrində məhsul istehsalının ümumi dəyəri, mln. manat (ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır. http://www.stat.gov.az).**

Amma, təəssüf ki, xammal təminatı zəifliyindən kimya sektorunun ümumölkə sənaye məhsulunda xüsusi çəkisini son illərdə əhəmiyyətli səviyyədə artırmaq mümkün olmamışdır və Şəkil 2-dən göründüyü kimi, bu göstərici 2015-2017-ci illərdə eyni səviyyədə - 1,3 % səviyyəsində olmuşdur.




**Şəkil 2. 2013-2017-ci illərdə Azərbaycanda istehsal olunan sənaye məhsulunun ümumi dəyərində kimya sektorunun xüsusi çəkisi, %-lə (ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır. http://www.stat.gov.az).**

Kimya sektorunun ən iri müəssisəsi olan Sumqayıt "Etilen-Polietilen" zavodunda 2013-2017-ci illərdə xammal təminatı üzrə göstəricilər Şəkil 3-də verilmişdir və göründüyü kimi, 2017-ci ildə xammal təminatı əvvəlki illərə nisbətdə azalmışdır.




**Şəkil 3. 2013-2017-ci illərdə Sumqayıt "Etilen-Polietilen" zavodunun xammal təminatı, min ton ("Azərikimya" İB-nin Sumqayıt "Etilen-Polietilen" zavodunun göstəricilərinə əsasən müəllif tərəfindən hazırlanmışdır).**

Bu baxılan göstəricilər və onların təhlilindən çıxış etsək, kimya və neft-kimya sektorunda xammal təminatının gücləndirilməsi və onun logistika sisteminin formalaşdırılması, inkişaf etdirilməsi aktuallığı

kifayət qədər ciddi önəm kəsb edir. Kimya və neft-kimya müəssislərində istehsalın həcminin artırılmasında xammal axınlarının logistika təminatının təşkili üçün bir sıra məsələlərə xüsusi diqqət yetirilməlidir:

- ✓ kimya və neft-kimya müəssisələrinin uzunmüddətli istehsal və inkişaf proqnozları əsas götürülməklə, bu müəssisələrin xammal təminatı balansı formalaşdırılmalı, mənbələri müəyyənləşdirilməli və işlək mexanizmləri yaradılmalıdır;
- ✓ ölkəmizdə kimya və neft-kimya müəssisələrində istehsal həcminin artırılmasının dinamikliyinin təmin edilməsi üçün, kimya müəssisələrinin əsasən yerləşdiyi Sumqayıt sənaye mərkəzində "Kimya və neft-kimya müəssisələrinin xammal və hazır məhsul hərəkəti üzrə logistika mərkəzi"nin yaradılması məqsədəuyğundur və s.

## Ədəbiyyat


1.Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

2. Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

3. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı, 26 dekabr 2014-cü il.

4. Масалов А.С. Методы оценки реструктуризации химических предприятий на основе диверсификации производства. Дисс. канд. экон. наук. Санкт-Петербург, 2004.-169 с.

5. Əliyev Ş.T. Azərbaycanın kimya və neft-kimya komleksinin qiymətləndirilməsi və yenidən qurulması istiqamətləri. Bakı, Elm və Təhsil, 2012, 156 s.

6. Sumqayıt Kimya Sənaye Parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 21 dekabr 2011-ci il, № 548.

7. Əliyev Ş.T. Azərbaycanda neft-kimya kompleksininin inkişafının müasir aspektləri və istiqamətləri // Audit, № 3, 2016, s.41-45.


## Резюме


***Керимли А.С.***


**Стратегические аспекты логистического обеспечения сырьевых потоков в повышении объема производства на химических и нефтехимических предприятиях**


*В статье исследованы стратегические аспекты логистического обеспечения сырьевых потоков в повышении объема производства на химических и нефтехимических предприятиях. С этой целью анализировано современное состояние объема производства на химических и нефтехимических предприятиях. Раскрыты проблемы сырьевого обеспечения и повышения эффективности сырьевых потоков, отмечена роль логистической системы в устранении этих проблем. Дан ряд предложений по созданию и развитию логистической системы для усиления сырьевой обеспеченности химических и нефтехимических предприятий.*



***Ключевые слова:*** *химические и нефтехимические предприятия, проблемы повышения объема производства химической продукции, проблемы использования перерабатывающего потенциала нефтехимических предприятий, роль логистической инфраструктуры в сырьевой обеспеченности, стратегическая важность логистического обеспечения в снабжении сырьем*


## Summary


***Karimli A.S.***


**Strategic Aspects of Logistic Provision of Raw Materials in Increase Production Size in the Chemical and Petrochemical Companies**


*Strategic aspects of logistic providing raw streams in increase in the output in the chemical and petrochemical companies are investigated in the article. Current state of the output in the chemical and petrochemical companies is analyzed for this purpose. Problems of raw providing and increase in efficiency of raw streams are given then. The role of a logistics system in elimination of these problems is noted. A number of offers on creation and development of a logistics system for strengthening of raw security of the chemical and petrochemical companies is given in the end of the article.*



***Key words:*** *chemical and petrochemical companies, problems of increase in the output of chemical products, a problem of use of the overworking capacity of the petrochemical enterprises, a role of logistic infrastructure in raw security, strategic importance of logistic providing in supply with raw materials*

# AQRAR SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ İNNOVATİV FƏALLIĞIN ARTIRILMASININ İQTİSADİ ƏHƏMİYYƏTİ

***Köçərli H.R.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalədə aqrar sənaye müəssisələrində innovativ fəallığın təmin olunmasının zəruriliyi əsaslandırılmışdır. Bu sahədə rəqabət üstünlüklərinin təmin edilməsi baxımından innovasiyaların rolu araşdırılmışdır. Həmçinin aqrar sənaye müəssisələrində innovasiyaların tətbiqinin prioritet istiqamətləri tədqiq edilmişdir.*

***Açar sözlər:*** *aqrar sənaye, müəssisə, innovasiya, innovativ fəallıq, ixrac, rəqabətqabiliyyətlilik, istehsal*

Davamlı iqtisadi inkişafda aqrar sənaye müəssisələri mühüm rol oynayır. Aqrar sənaye müəssisələrinin inkişaf etdirilməsi və rəqabət üstünlüklərinin artırılması məqsədilə bu müəssisələrdə innovativ fəallığın artırılması ön plana çıxmaqdadır. Dövlətin aqrar sahəyə münasibətdə tutduğu mövqenin səmərəliliyinin qiymətləndirilməsi, intensiv inkişafın regional aspektlərinin araşdırılması, aqrar sahibkarlığın dəstəklənməsinin optimal səviyyəsinin təyin edilməsi bu sahənininnovativ fəallığının vacib məsələlərindəndir.

Xarici bazarda sərt rəqabətə davam gətirmək üçün innovativ fəallığın artırılması ölkənin beynəlxalq münasibətlər subyekti kimi fəaliyyətinin əsas şərtlərindən biridir. İnnovasiyaların sayının artırılması əsas deyil, onu bütün iqtisadi proseslərin tərkib hissəsinə çevirmək və innovasiya, maliyyə, sosial və s. məqsədlərlə istifadə etmək olar. İnnovativ fəallıq təkcə texnoloji proseslərdə deyil, həmçinin təşkilati, idarəetmə, maliyyə, təhsil, ekoloji və digər sahələrdə də tətbiq edilməlidir. İnnovativ fəallıq elmi tədqiqatların sürətləndirilməsinə təkan verir. Azərbaycanda təkcə elmi tədqiqatların intensivləşdirilməsi deyil, həmçinin bu tədqiqatların mexanizmlərinin işlənib hazırlanması və müxtəlif layihələrə tətbiq edilməsi vacibdir. İnnovasiyanın işlənib hazırlanması və tətbiqinin əsas məqsədi rəqabət strategiyasında üstünlük təşkil etməkdir. İnnovasiya fəaliyyəti nəticəsində innovasiya potensialı yaradılır. İnnovasiya potensialı aşağıdakılardan ibarətdir: yeni məhsulun yaradılması, onun istehsalı və ya təkmilləşdirilməsi. Bunun üçün maliyyə və texnoloji imkanlar, elmi-texniki yeniliklər, texnoloji proseslərin yeniləşməsi və bu texnologiya ilə işləyə bilən mütəxəssislər olmalıdır. Yeni rəqiblərin məhsulundan keyfiyyətcə üstün, istehlakçıların dəyişən tələblərinə cavab verən məhsulların hazırlanması, istehsalı və satışını təşkil etmək imkanı olmalıdır.

Zəif innovativ inkişaf aqrar sənaye müəssisələrinin rəqabət üstünlüklərini təmin edə bilmir. Zəif innovativ inkişafın səbəblərindən biri elm və istehsal arasında əlaqənin qənaətbəxş olmamasındadır. Özəl sahənin aktivliyi ilə dövlətin maliyyə imkanlarının birləşdirilməsi ölkə iqtisadiyyatının innovasiya inkişafını sürətləndirmək iqtidarındadır. Milli iqtisadiyyatın zəif innovasiya inkişafından çıxmasının vacib şərti kimi dövlətin innovasiya siyasətinin perspektivlərinin elmi cəhətdən əsaslandırılması, sosial yönümlü innovasiya fəaliyyətinin strateji istiqamətlərinin müəyyən edilməsi və əlverişli investisiya mühitinin formalaşdırılması çıxış edir. Ölkənin innovasiya potensialının effektiv istifadəsi əsasında sahibkarlıq strukturlarının sənaye kompleksi sahələrinin elmi cəhətdən əsaslandırılmış inkişaf proqramlarının işlənib hazırlanmasının vacibliyi məntiqi cəhətdən məqsədəuyğundur. Bunun üçün dövlət tərəfindən xərcləri xeyli dərəcədə artırmaq zəruridir. Həmin xərclərin səmərəli istifadəsi innovasiya yönümlü iqtisadi inkişafda, ümumilikdə innovativ fəallığın artırılmasında mühüm rol oynaya bilər [3, s.227].

İnnovasiya yönümlü iqtisadi inkişaf yeni elmi-texnoloji ideyaların istehsala tətbiq edilməsi və istifadə edilməsinin kompleks prosesini əhatə edir. Bu isə yeni məhsulların və bazarların yaradılmasını tələb edir. Çünki innovasiyalı məhsullar keyfiyyətli və bazarda kifayət qədər rəqabətə davamlı olması ilə səciyyələnir. Bu isə bir növ iqtisadi artımın mühüm amili kimi çıxış edir. Dünya iqtisadiyyatının tərkib hissəsi olan ölkələrin iqtisadi artımı məhz dövlətin iqtisadi siyasətinin vacib istiqamətlərindən biri olan innovasiya siyasətindən çox asılıdır. Ölkəmizdə iqtisadiyyatın davamlı və dinamik inkişafının təmin olunmasının əsas prioritetlərindən biri aqrar sənayedə ən müasir texnologiyaların tətbiqi əsasında inkişafdır [2, s.156].

Aqrar sektorunun daha sürətlə inkişafına nail olmaq, istehsalın rəqabətqabiliyyətliliyini və səmərəliliyini artırmaq və innovasiya əsaslı inkişafını təmin etmək iqtisadi siyasət kursunda əsas yer tutur. Məhz regionlarda aqrar sahənin sosial-iqtisadi infrastrukturunun yeniləşməsi dünya standartlarına cavab verən məhsulların yaradılması, rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının artması, ixrac potensialının reallaşdırılması nəticəsində mümkündür. Hazırda aqrar sənayedə bir sıra müasir texnologiyalar tətbiq edilir ki, bu da son nəticədə innovasiyaların kifayət qədər geniş şəkildə reallaşdırılması ilə bağlıdır.

Belə ki, müasir texnologiyalara əsaslanan yeni aqrar sənaye müəssisələri tikilir, xalq istehlakı mallarının və digər məhsulların istehsalını genişləndirmək üçün əlavə tədbirlər görülür [4, s.3].

Aqrar sənaye müəssisələrinin özunəməxsus funksiyaları vardır ki, həmin funksiyalar bu sahədə yuxarıda qeyd etdiyimiz vəzifələrin reallaşdırılması ilə birbaşa əlaqəlidir. Belə funksiyalardan ən əsası məhz innovasiyadır.

İnnovasiya funksiyası gen mühəndisliyi, biotexnologiya metodlarından, bioloji obyektlərin xəstəliklərdən və ziyanvericilərdən mühafizəsi vasitələrindən və cəmiyyətin kənd təsərrüfatı və elmi-texniki cəhətdən tərəqqisi üçün digər innovasiya nailiyyətlərindən istifadəsi imkanlarını və istehlakı əks etdirir. Kənd təsərrüfatı xammalının təkrar emalı sferasında, eləcə də məhsulun saxlanılmasını və yüksək keyfiyyətini təmin edən biotexnologiyalardan istifadə edilir [1, s.94].

Aqrar sənaye müəssisələrinin inkişafı baxımından innovasiyaların tətbiqi mühüm əhəmiyyət kəsb edir. Aqrar sənaye müəssisələrində innovasiyaların tətbiqinin prioritet istiqamətləri aşağıdakılar hesab edilməlidir:

- istehsal prosesində təşkilati-iqtisadi münasibətlərin təkmilləşdirilməsi;
- istehsalın və idarəetmənin təşkilinin perspektivli formalarının tətbiq edilməsi;
- kadrların hazırlanması, onların ixtisasının artırılması və əməyin motivləşdirilməsi sisteminin təkmilləşdirilməsi;
- məhsulun satışı sisteminin təkmilləşdirilməsi;
- maliyyə-kredit mexanizminin, vergi sisteminin və kənd təsərrüfatı məhsullarının qiymətyaranma prinsiplərinin təkmilləşdirilməsi;
- yeni informasiya texnologiyalarından və kompüter texnikasından istifadə edilməsi əsasında istehsalın planlaşdırılması, idarə edilməsi, uçot və nəzarət sisteminin təkmilləşdirilməsi;
- torpağın münbitliyinin artırılması;
- məhsuldarlığın artırılması və məhsulun keyfiyyətinin yaxşılaşdırılması;
- ekoloji təmiz kənd təsərrüfatı məhsul istehsalının qurulması;
- bitkiçilik və heyvandarlıq məhsulları istehsalının yüksək adaptiv resursqoruyucu texnologiyalarının mənimsənilməsi;
- əmək və material məsrəflərinə qənaət edilməsi;
- kənd təsərrüfatı heyvanlarının və quşlarının seleksion-genetik potensialının təkmilləşdirilməsi;
- yem ehtiyatlarından səmərəli istifadə edilməsi;
- istehsal güclərinin istehsal-texniki potensialının bərpa edilməsi və təkmilləşdirilməsi;
- kənd təsərrüfatı texnikasından istifadə edilməsinin kooperativ üsullarının təşkil edilməsi;
- təmir-bərpabazasınınvətexnikiservisinintensivinkişafı.

Aqrar sənaye müəssisələrində innovasiyanın tətbiqi kənd təsərrüfatı bitkiləri və heyvanların, əməyin məhsuldarlığının yüksəlməsində, vahid məhsul istehsalının maya dəyəri və material tutumunun, ətraf mühitə iqtisadi ziyanın azaldılmasında mühüm rola malikdir.

Ümumiyyətlə, iqtisadiyyatın inkişafının ağırlıq mərkəzini bütün istiqamətlərdə qeyri-neft sənayesi müəssisələrinin üzərinə keçməsi Azərbaycanda aqrar sənaye müəssisələrin gələcək çoxşaxəli və səmərəli innovativ inkişafına real zəmin yaratmış, digər tərəfdən bütövlükdə iqtisadiyyatın səmərəliliyi, rəqabət qabiliyyətliliyi artmağa başlamışdır.

## Ədəbiyyat


1. Abbasov V.H. Aqrar sahədə iqtisadi tənzimləmənin aktual problemləri. Bakı, 2012, 126 s.
2. Cavadov N.Ə. Aqrar sahədə struktur dəyişiklikləri. Bakı: Elm, 2009, 440 s.
3. Əhmədov G.Ə. Kənd təsərrüfatında innovasiyaların tətbiqi istiqamətləri. Bakı, 2010, 484 s.
4. Əliyev Ş.T. Qeyri-neft məhsullarının ixracında aqrar sektorun potensialı genişdir. Azərbaycan qəzeti. 19 Aprel 2015.


## Резюме


***Кочерли Х.Р.***

**Экономическое значение повышения инновационной активности на предприятиях аграрной промышленности**

*В статье обосновываетсянеобходимость обеспечения инновационной активности на предприятиях аграрной промышленности. Исследуется роль инноваций с точки зрения обеспечения конкурентных преимуществ в этой отрасли. Также исследуются приоритетные направления применения инноваций на предприятиях аграрной промышленности.*

***Ключевые слова:*** *аграрная отрасль, предприятие, инновация, инновационная деятельность, экспорт, конкурентоспособность, производство*

**Summary**

***Kocherli H.R.***

**The Economic Importance of Increasing Innovative Activity in Enterprises of the Agrarian**

*The article substantiates the need to ensure innovative activity in the enterprises of the agrarian industry. The role of innovation in terms of providing competitive advantages in this industry is explored. It also explores the priority areas for the application of innovations in enterprises of the agricultural industry.*

***Key words:*** *agricultural industry, enterprise, innovation, innovative activity, export, competitiveness, production*

## HAVA NƏQLİYYATI İLƏ YÜK DAŞIMALARIN TƏNZİMLƏNMƏSİ

***Qazıyeva S.T.***

*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalədə hava nəqliyyatı ilə yük daşımaların tənzimlənməsi xüsusiyyətləri şərh edilmiş, mülki aviasiyanın iqtisadi xarakterli problemləri araşdırılmışdır. Kommersiya xarakterli iqtisadi problemlərin tənzimlənməsinin zəruriliyi əsaslandırılmışdır.*

***Açar sözlər:*** *hava nəqliyyatı, yük daşıma, tənzimləmə, kommersiya, iqtisadi*

Hava nəqliyyatı ilə yük daşımaların tənzimlənməsi onların iqtisadi səmərəliliyinin artırılmasında mühüm vasitələrdən biridir. Hava nəqliyyatı ilə yükdaşımalar Azərbaycan Respublikasının Hava Məcəlləsi və bunun əsasında Respublika Nəqliyyat Nazirliyinin təsdiq etdiyi, "Azərbaycan Respublikasının hava xətlərində sərnişin, baqaj və yük daşınması qaydaları" ilə nizamlanır. Hava nəqliyyatı tərəfindən yüklərin yola salınması və alınması əməliyyatları yükgöndərən hava nəqliyyatı şirkətləri tərəfindən təşkil edilir [1].

Yüklər yükgöndərən firma və ya müəssisə ilə hava nəqliyyatı şirkətləri arasında bağlanan iki tərəfli müqavilələr və ya birdəfəlik sifarişlər (kiçik partiyalı, təcili və çox qiymətli yüklərin göndərilməsi üçün) əsasında daşınır. Yük sahibləri bağlanmış illik müqavilələr əsasında hava nəqliyyatı şirkətlərinə sifarişlər verir. Bu sifarişlərdə yüklərin nomenklaturası, qablaşdırma növü, tonla çəkisi, yükü qəbul edən hava nəqliyyatı şirkətinin adı və ünvanı, yükalan firma və ya müəssisənin (fiziki şəxsin) ünvanı və s. göstərilir.

Hava nəqliyyatı ilə 3,5 tondan 10 tona qədər yük göndərmək olar və burada əsas daşıma sənədi yük qaimələri hesab olunur. Yük qaiməsi dörd nüsxədən ibarət tərtib olunur. "Yük göndərənin qaiməsi" adlanan bir nüsxə (nömrəsiz) yük göndərən tərəfindən doldurulur. Bir nüsxə yüklə birlikdə göndərilir və yük alana verilir. "Yük qaiməsi" adlanan digər nüsxə isə (nömrəli) hava limanın daşıma bölməsində tərtib edilir və yüklə birlikdə təyinat hava limanına göndərilir. "Yük qəbzi" adlanan üçüncü nüsxə yükün qəbulu zamanı yükgöndərənə verilir. "Yük qəbzinin kəsiyi" adlanan dördüncü nüsxə isə yükün yola salındığı hava limanında qalır. Tərtib və təsdiq edilən hər bir nüsxədə logistik yük vahidinin faktiki çəkisi göstərilməlidir. Qəbul edilən yüklər 72 saat ərzində yola salınmalıdır.

Yüklər hava limanlarda yük sahiblərinin vəsaiti hesabına yüklənir və boşaldılır. Yük alan tərəf yükləri bir qayda olaraq təyinat limanıdakı yük anbarında (kommersiya anbarında) qəbul edir. Daxil olan yük üçün 24 saat ərzində anbar saxlama xərcələri tutulmur. Bu müddətdən sonrakı hər saat və ya gün üçün malalan tərəf cərimə ödəməli olur.

Yüklərin kəmiyyət və keyfiyyətcə qəbul edilməsi digər nəqliyyat növlərində olduğu kimi həyata keçirilir. Çatışmazlıq, xarab olma və ya zədələnmə əlamətləri aşkar olunduqda malalan və təyinat limanının səlahiyyətli nümayəndəsinin birgə iştirakı ilə qüsur aktı tərtib edir.

Hava nəqliyyatı ilə beynəlxalq yükdaşımalar üçün müqavilə sənədi aviasiya yük qaimələri hesab edilir. Yükgöndərən yük qaiməsinə məhsulların gömrük baxışından keçməsini asanlaşdıra bilən bütün sənədləri (kommersiya hesab invoysları) əlavə etməli və yük haqqında manifesti (yükün adı, təyinatı, miqdarı, ölçüləri, qiyməti, ətraf mühitin təsirinə davamlılığı və s.) doldurmalıdır. Yük sahibləri yükdaşıyanlar - hava nəqliyyatı şirkətləri, habelə malalanlar qarşısında məhsulların çatışmamasına görə maddi məsuliyyət daşıyır [4, səh.77].

Yük daşınması üzrə daşıma şərtləri və ya yükdaşıma şərtləri bir sıra vacib məsələləri tənzimləyir ki, yüklərin daşınma üçün qəbul olunması həmin məsələlərdən biridir. Daşıma şərtlərinə görə daşınmaq üçün istənilən yük qəbul edilir. Bu zaman aşağıda göstərilən bir sıra şərtlərə əməl olunmalıdır:

- yükün lazımi qaydada qablaşdırılması;
- yükün ona aid olan lazımı sənədlərlə birlikdə daşınmaya təqdim olunması;
- yükün hava gəmisi üçün təhlükə yaratmaması;
- daşınan yükün daşınması qadağan edilən yük növünə aid olmaması.

Ümümiyyətlə götürdükdə, bazar iqtisadiyyatı şəraitində elə mükəmməl bir bazar qurluşuna malik olmaq lazımdır ki həyata keçirilən daşımaların effektifliyi yüksək olsun. Bu isə vacib elementlərdəndir.

Aviadaşımalar bazarının konyunkturası böyük miqdarda xarici xarakterli amillər xarici mühit adlandırılan amillərin təsirinə məruz qalır. Bunlar o amillərdir ki, onlara bazar subyektləri təsir edə bilmir. Bu amillərə dünya siyasəti və dünya təsərrüfat əlaqələri, dünya bazarının konyunkturası, avianəqliyyat siyasəti, o cümlədən, qeyri tənzimlənmə, milli və regional proteksionizim, dövlət borcu, rəqabət, ayrı-seçkilik hərəkətləri və s. aiddirlər [2, səh. 483].

Mülki aviasiyanın iqtisadi xarakterli problemlərini şərti olaraq iki böyük qrupa ayırmaq olar – texniki xarakterli iqtisadi problemlər və kommersiya xarakterli iqtisadi problemlər.

Texniki xarakterli iqtisadi problemlər sahə amillərinin təsiri nəticəsində əmələ gəlir. Bu, təyyarə parkının yeniləşdirilməsi, aviasiya təhlükəsizliyi, ətraf mühitin mühafizəsi, yanacağa qənaət, beynəlxalq daşımalarda rəsmiləşdirmənin sadələşdirilməsi, aeroportların və marşrut avadanlığının istismarı ilə bağlı olan problemlər, texniki yardım və s. Kommersiya xarakterli iqtisadi problemlər – avianəqliyyat əməliyyatlarından gəlirin əldə edilməsi və hava nəqliyyatının iqtisadi səmərəliliyinə bilavasitə təsir göstərən amillər nəticəsində əmələ gəlir: kommersiya hüquqları və daşıma həcmlərinin tənzimlənməsi, müntəzəm və qeyri-müntəzəm kommersiya daşımalarının nisbəti, pulsuz baqaj və normadan artıq baqaja görə ödəniş normaları, daşımaların kommersiya şərtlərinin unifikasiyası, daşıyıcıların kommersiya öhdəçiliklərinə əməl edilməsi və s.

Bugünkü həyatımızda heç bir sahəni kommersiyasız təsəvvür etmək olmaz, o cümlədəndə hava nəqliyyatını. Bəhs etdiyimiz hava nəqliyyatı xarici valyutanın əhəmiyyətli mənbəyi olub, iqtisadiyyatın praktiki olaraq bütün sahələrinin inkişafına kömək edir. Ölkənin iqtisadi inkişafını təmin etməklə mülki aviasiya onun digər ölkələr arasında işgüzar tərəf müqabili kimi nüfuzunu artırır. Hava nəqliyyatında kommersiya fəaliyyətinin acdığı imkanlar çox böyükdür.

Hava nəqliyyatında daşınmanın qiyməti tarifdir. Aviakompaniyanın tarif siyasətinin təyin edilməsi üzrə iş həm bazar strategiyasının işlənməsi prosesində , həm də onu reallaşdırılması zamanı yerinə yetirilir. Bu da öz növbəsində müxtəlif bazarlarda konyunkturanın çevik dəyişməsi şəraitində aviamüəssisənin dinamikliyini və elastikliyini təmin edir.

Bu iş aşağıdakı verilənlər əsasında özündə təhlil və qiymətləndirməni, həmçinin kommersiya qərarlarının qəbul edilməsini cəmləşdirir:

- aviakompaniyalar tərəfindən tətbiq edilən daşımalara tarifləri və aeroportlarda xidmətlərin qiyməti;
- bütün növ tariflərin və qiymətlərin istifadəsinin səmərəliliyi;
- müxtəlif növ tariflərin istifadəsi ilə müntəzəm, əlavə və çarter reyislərlə yerinə yetirilmiş daşımalar həcminin təhlili;
- rəqib aviakompaniyaların tarif siyasətinin dəyişmə tentensiyaları(meylləri);
- müxtəlif region və ölkələrdə əhalinin gəlir səviyyəsinin dəyişməsi və bunun aviadaşımalara olan tələbata göstərdiyi təsir;
- müxtəlif bazarlarda tələbatın tariflərə və digər amillərə elastikliyinin təyin edilməsi və bu məlumatların tarif siyasətinin təkmilləşdirilməsi üçün istifadə edilməsi [3, səh.296].

Aviakompaniyalar özlərinin kommersiya maraqlarını ödəmək üçün məqsədyönlü iş aparır. Bu işin çərçivəsində qarşıda duran məsələlərdən və əldə edilməli olan nəticələrdən asılı olaraq, aviakompaniyalar müxtəlif nov siyasətdən istifadə edirlər. Bunlardan əsasları kimi aşağıdakıları göstərmək olar: “5-ci hava azadlığı” kommersiya hüquqlarının istifadəsi üzrə siyasət; “sərbəst satış” metodunun istifadəsi üzrə siyasət; aviakompaniyanın proreyt siyasəti; agentlərlə iş üzrə siyasət; aviakompaniyalarla kommersiya əməkdaşlığı üzrə siyasəti.Bu siyasətlərin həyata keçirilməsi aviaşirkətlərin əsas önəmli məsələlərindən biridir və bunun sağlam qurulması aviaşirkətlərin inkişafının əsasıdır. Bütün bunlar isə son nəticədə hava nəqliyyatında yükdaşımaların iqtisadi səmərəliliyinin və həcminin artırılmasına əhəmiyyətli dərəcədə təsir göstərir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının “Aviasiya haqqında” Qanunu. Bakı, 24.06.2005-ci il
2. Əliyev E.Ə. Beynəlxalq daşımaların hüquqi tənzimlənməsi. Bakı: Zərdabi LTD, 2008, 524 s.
3. Əliyev E.Ə. Qloballaşma dövründə beynəlxalq nəqliyyat daşımaları: hüquqi aspektlər. Bakı: Zərdabi LTD, 2006, 360 s.

4. Егиазаров В.А. Транспортное законодательство государств-участников СНГ. М.: Норма, 2007, 512 с.

**Резюме**

***Газыйева С.Т.***

**Регулирование воздушных грузоперевозок**

*В статье рассматриваются особенности регулирования воздушных грузоперевозок. Исследованы проблемы гражданской авиации.Обоснована необходимость регулирования экономических проблем коммерческого характера.*

***Ключевые слова:*** *воздушный транспорт, грузоперевозки, организация, коммерческая, экономическая*

**Summary**

***Qazıyeva S.T.***

**Air Cargo Regulation**

*The article adjusts the features of the regulation of air cargo. The problems of civil aviation are investigated. The necessity of regulation of economic problems of a commercial nature is grounded.*

***Key words:****air transport, trucking, organization, commercial, economic*

## STRATEJİ YOL XƏRİTƏSİNİN İSTİQAMƏTLƏRİNƏ UYĞUN OLARAQ QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFININ PRİORİTETLƏRİ

***Məmmədova S.F.***

*UNEC*

***Xülasə.*** *Ölkə prezidenti regionların inkişafı prosesinin ikinci ilinin yekunlarına aid konfransda və digər müşavirələrdə kənd təsərrüfatının məhsulları ilə özünütəminat dərəcəsinin yüksəldilməsi, mövcud ərazilərdən əlavə əkin sahələrinin dövriyyəyə cəlb olunması və məhsuldarlığın yüksəldilməsi, pambıqçılığın, çayçılığın, tütünçülüyün, üzümçülüyün və başqa ənənəvi hesab edilən sahələrin inkişafı yolunda bir sıra mühüm vəzifələr qarşıya qoyub. Bu vəzifələr milli iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişaf etdirilməsi strategiyasının davamının gəlməsi, o cümlədən iqtisadiyyatın rəqabət qabilliyyəti imkanlarının artırılması, sahibkarlığın inkişaf etdirilməsi, mövcud biznes mühitinin yaxşılaşdırılması, yerli sahibkar qrupları tərəfindən irihəcmli sərmayə qoyulması, ixracat potensialının gücləndirilməsi və idxaldan asılılığın azaldılması, ərzaq təhlükəsizliyinin tam təmin olunması, sosial infrastruktur layihələrinin davam etdirilməsi, yeni iş yerlərinin təşkili ilə əlaqədar sair tədbirlərin aparılması və digər məsələləri əhatə edir.*

***Acar sözlər:****iqtisadi böhran, insan kapitalı, strateji yol xəritəsi, gömrük bəyannaməsi*

Dəqiq müəyyənləşdirilmiş prioritetlər, çevik sosial-iqtisadi siyasət və idarəçilik mexanizminin formalaşdırılması, mövcud imkanlardan Azərbaycan vətəndaşlarının rifahı naminə maksimum istifadə müasir tariximizin son dövrlərini səciyyələndirən xarakterik xüsusiyyətlərdir. Dünya birliyinə sürətlə inteqrasiya olunan Azərbaycanın qısa zamanda əldə etdiyi böyük nailiyyətlər ilk növbədə təkmil sosial-iqtisadi inkişaf strategiyasına əsaslanır. Bu siyasət yeni iqtisadi şəraitdə müsbət göstəricilərin əldə olunması, qeyri- neft sektorunun yüksəlişi, regionların inkişafının sürətləndirilməsi, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması üçün milli sahibkarlığın hərtərəfli dəstəklənməsi kimi vacib elementləri özündə ehtiva edir. Çünki son illər dünyada baş verən maliyyə-iqtisadi böhran qlobal iqtisadiyyata sıx inteqrasiya olunan Azərbaycan iqtisadiyyatına da öz təsirini göstərib. Xatırladaq ki, ümumdünya iqtisadi böhranının başlandığı 2008-ci ildən Azərbaycan hökuməti düşünülmüş siyasət həyata keçirmiş, zəruri vasitələrdən və təsir mexanizmlərindən istifadə edərək iqtisadi böhranın milli iqtisadiyyata mənfi təsirini minimallaşdırmaga müvəffəq olmuşdur. Lakin ötən ildən neftin qiymətinin kəskin surətdə aşağı düşməsi ölkəyə valyuta axınını xeyli azaltmaqla yanaşı, həm də maliyyə-iqtisadi sistemi mühafizə imkanlarını xeyli məhdudlaşdırdı. [3]Təbii ki, bu cür şəraitdə başlıca amillərdən biri strateji hədəflərin doğru müəyyənləşdirilməsidir. Ən əsası, iqtisadi prioritetlərin düzgün müəyyən olunması və bu hədəflərin məqsədyönlü şəkildə reallaşdırması çox önəmlidir. Hazırda dünyada gedən siyasi və iqtisadi proseslər ölkə iqtisadiyyatının rəqabətqabiliyyətini artırmaq, idxaldan asılılığı minimuma salmaq, ixracyönumlü qeyri-neft iqtisadiyyatının əsaslı inkişafını təmin etmək, insan kapitalindan səmərəli istifadə etmək kimi prioritetlərin ön plana çəkilməsini zəruri edib. Ona görə hələ ötən ilin sonlarından başlayaraq ÜDM-nin azalmasının qarşısının alınmasına xidmət edən antiböhran xarak-

terli xüsusi tədbirlərin, qoruyucu və qabaqlayıcı mexanizmlərin həyata keçirilməsinə start verildi. Bu istiqamətdə əsas vəzifələr iqtisadiyyatı şaxələndirmək, investisiya yatırımını sürətləndirmək, sahibkarlıq fəaliyyətini stimullaşdırmaq və beləliklə, neft gəlirlərinin dinamikasının asılı olmamaqla, qeyri-neft sektorunun inkişaf səviyyəsini gələcək illərdə də mühafizə edib, saxlamaq və onun ixrac potensialını genişləndirməkdir.

Bütün bunlara nail olunması, dünya iqtisadiyyatinda baş verən proseslərə qarşı ölkə iqtisadiyyatının dayanıqlığının daha da möhkəmləndirilməsi üçün Prezident İlham Əliyevin islahatlar siyasəti çərçivəsində çevik iqtisadi idarəetmənin təşkili, biznes mühitinin yaxşılaşdırılması, investisiyaların təşviqi və qeyri-neft məhsullarinın ixracının stimullaşdırılması sahəsində əhəmiyyətli qərarlar qəbul edilmişdir. Reallıq da ondan ibarətdir ki, ölkə rəhbərliyinin bu ilin ilk rübündə həyata keçirdiyi operativ tədbirlər, dərin islahatlar nəticəsində bütün iqtisadi risklər minimum səviyyəyə endirilib. Xüsusən, qeyri-neft sektorunun, sahibkarlığın inkişafı və maliyyə nizam-intizamının gücləndirilməsi məqsədilə islahatlar daha da sürətlə aparılıb. Bu məqsədlə qanunlar qəbul olunub, sərəncamlar imzalanıb. Bu sırada atılan addımlardan biri “Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 1 mart 2016-cı il tarixli Fərmanıdır. [2] Qeyri-neft sektorunun inkişafı ölkənin iqtisadi potensialının gücləndirilməsi üçün mühüm amillərdən biridir. Bunun nəticəsidir ki, son illər uğurla həyata keçirilən dövlət proqramları və bu sahədə görülən tədbirlər qeyri-neft sektorunun davamlı inkişafına, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına stimul vermişdir. Bu fərmana əsasən 2016-2020-ci illərdə Azərbaycanda istehsal olunacaq və istehsal prosedurunda istifadə edilə bilən yerli komponentlərin və respublikamızın ərazisində yaradılan qeyri-neft məhsullarının dəyərinin xüsusi çəkisindən, habelə ixrac edilən həmin məhsul və malların çeşidindən asılı olaraq, ölkəmizdə qeyri-neft məhsullarinın ixrac edilməsi ilə məşğul olan şəxslərə dövlət büdcəsinin maliyyəsi hesabına ixrac təşviqi ödəniləcək. Təşviqin baza məbləği faktiki olaraq ixrac edilmiş malın gömrük bəyannaməsində nəzərdə saxlanılan gömrük dəyərinin 3 %-ni təşkil edir. Sözü gedən fərman 2020-ci ilin dekabr ayının 31-dək qüvvədədir.

Xatırladaq ki, Prezident İlham Əliyev bundan öncə - yanvar ayında “Qeyri-neft məhsullarinın ixracının stimullaşdırılması ilə əlaqədar əlavə tədbirlər haqqında” sərəncam imzalayıb. Bu sərəncama görə, qeyri-neft məhsullarinın ixracının stimullaşdırılması, ənənəvi (köhnə) və yeni bazarlara çıxış imkanlarının çoxaldılması, rəqabətə davamlı qeyri-neft məhsullarının istehsal edilməsi və onun ixracının, bu sahədə münbit mühitin daha da yaxşılaşdırılması, habelə genişləndirilməsi məqsədilə bir sıra vacib tədbirlərin həyata keçirilməsi qarsıya vəzifə qoyulub. Atılmış addımlar özəl bölmənin inkişafında vacib əhəmiyyət daşımaqla bərabər, investisiya və biznes mühitinin yaxşılaşdırılması baxımından da mühüm əhəmiyyətə malikdir. Təkcə lisenziyalaşdırma sisteminin təkmilləşdirilməsi nəticəsində lisenziya tələb edilən fəaliyyət növlərinin sayı minimuma endirilib. Yeni islahatların bir istiqamətini də neqativ hallara qarşı mübarizənin gücləndirilməsi təşkil edir. Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurasının yaradılması bu məqsədə xidmət edən addımlardan biridir. Apelyasiya Şurasının yaradılmasında məqsəd sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin müraciətlərinə baxılması sahəsində çoxpilləliyin təmin edilməsi, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının qərarlarından, hərəkət və yaxud hərəkətsizliyindən yuxarı orqana şikayətlərin verilməsi mexanizminin təkmilləşdirilməsidir. Bundan başqa, Prezidentin fərmanı ilə mərkəzi və yerli icra hakimiyyəti orqanlarında da Apelyasiya Şuraları yaradılıb. Martın 16-da Prezident İlham Əliyev “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri”nin təsdiqi və bundan irəli gələn məsələlər haqqinda sərəncam imzalayıb. Sərəncama əsasən, həyata keçirilmiş iqtisadi siyasətin və islahatların davamlılığını təmin etməkdən ötrü yeni iqtisadi inkişaf strategiyasının hazırlanması və iqtisadiyyatın mövcud vəziyyətinin dərin təhlili məqsədilə “Milli iqtisadiyyat və iqtisadiyyatın başlıca sektorları üzrə strateji yol xəritəsinin əsas istiqamətləri” təsdiq edilib. Həmçinin inkişaf planlarının işlənilməsi məqsədilə İşçi qrupu yaradılıb[1]. Azərbaycanda qeyri-neft sektornun inkişafında təzə mərhələ başlamışdır. Atılan addımlar və həyata keçirilən islahatlar qarşıda duran məqsədlərə çatmaq üçün mövcud resurslardan tam səmərə ilə yararlanmağa və iqtisadi potensialın gücləndirilməsinə şərait yaradır. Təhlillər də göstərir ki, qeyri-neft sektorunda iqtisadiyyatın şaxələndirilməsi ümumilikdə ölkə iqtisadiyyatının inkişafına, insanların rifah halının yüksəlməsinə hesablanıb. Prezident İlham Əliyevin düşünülmüş və uzaqgörən siyasəti nəticəsində yaradılmış makroiqtisadi və siyasi stabillik, yerli-yerində və zamanında aparılan islahatlar, güclü iqtisadi potensial, o cümlədən iqtisadiyyatın diversifikasiyası, neft amilindən asılılığın minimuma endirilməsi, biznes mühitinin təkmilləşdirilməsi, xüsusi regionlarda sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsi ölkəmizin dünyanı bürüyən qlobal böhrana qarşı atdığı adekvat addımın real təzahürüdür. Bütün bunların sayəsində Azərbaycan 2019-cu ildə sosial-iqtisadi sahədə uğurlar qazanacaq.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr və 16 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir

2. Qeyri-neft məhsullarının ixracının təşviqi ilə baglı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1 mart 2016-cı il tarixli Fərmanı

3. Aliyev İ. Ölkədə qeyri-neft sənayesinin inkişaf strategiyası. http:// www.yeniazerbaycan.com 12.04.2014.

**Резюме**

***Мамедова С.Ф.***

**Приоритеты развития нефтяного сектора, связанные с направлениями стратегической дорожной карты**

*Президент страны выступал на конференциях и совещенных посвященных итогам второго года процесса регионального развития. Он поставил важные задачи по повышению уровня самообеспеченности сельскохозяйственной продукцией, цементированию, производству чая, табаку, виноградарству и несколько важных задач для развития других традиционных направлений. Эти обязанности включают укрепление национальной экономики, продолжение стратегии развития ненефтяного сектора, в том числе повышение конкурентоспособности экономики, развитие предпринимательства, улучшение существующей деловой среды, крупномасштабные инвестиции местных групп предпринимателей, связанных с организацией новых рабочих мест и другими вопросами.*

*Ключевые слова: экономический кризис, человеческий капитал, стратегическая дорожная карта, таможенная декларация*

**Summary**

***Mammadova S. F.***

**Priorities for the Development of the Non Oil Sector, Associated with the Directions of Strategic Road Map**

*The President of the country spoke at the conference and other meetings related to the results of the second year of the regional development process, raising the level of self-sufficiency in agricultural products, cementing, tea making, tobacco, viniculture and has set several important tasks for the development of other traditional areas. These responsibilities include the strengthening of the national economy, the continuation of the strategy for the non-oil sector development, including increasing the competitiveness of the economy, developing entrepreneurship, improving the existing business environment, large-scale investment by local entrepreneurship groups, conducting other activities related to the organization of new jobs and other issues.*

***Key words:*** *economic crisis, human capital, strategic roadmap, customs declaration*

# MÜASİR ŞƏRAİTDƏ BEYNƏLXALQ İSTEHSAL-TEXNİKİ ƏMƏKDAŞLIQ VƏ KOOPERASİYANIN SƏMƏRƏLİ İNKİŞAF İSTİQAMƏTLƏRİ

***Məmmədova Ş.S.***

*Sumqayıt Dövlət Universiteti*

***Yahya Ö.***

*Yalova Universiteti, Turkiyə*

***Xülasə.*** *Məqalədə müasir şəraitdə beynəlxalq istehsal-texniki əməkdaşlığın və kooperasiyanın zəruriliyindən, onun inkişaf ənənələrindən, bu əlaqələrin səmərəli inkişafı xüsusiyyətlərindən və istiqamətlərindən söz açılır.*

***Açar sözlər:*** *istehsal-texnikiəməkdaşlıq, beynəlxalq əməkdaşlıq, kooperasiya, səmərəli inkişaf, elmi əlaqələr*

Məlumdur ki, insan tələbatının ödənildiyi məhsullar, demək olar ki, tam şəkildə maddi istehsalla birbaşa bağlıdır. Beynəlxalq əmək bölgüsünün (BƏB) inkişafı, dünya səviyyəsində baş verən bir çox qlobal proseslər, patent miqyaslı beynəlxalq iqtisadi proseslər, o cümlədən qloballaşma, transmilliləşmə, beynəlmiləlləşmə və s. proseslər iqtisad elminin baş paradoksuna uyğun olaraq məhdud resurslar şərtində

cəmiyyətin daim artan tələbatlarının daha səmərəli ödənilməsilə bağlı yaranmış və qeyd edilənlərin əsasını da məhz maddi istehsalın təşkil etdiyini aydın dərk etmək olar. Bütün bunlarla əlaqədar olaraq, dünya ölkələrinin açıq iqtisadi sistemə keçidi və onların iqtisadiyyatının izolə edilmiş halda inkişafının qeyri-mümkünlüyü zərurətində dünya bazarlarında aktiv iştirak edən firmaların xarici-iqtisadi fəaliyyətinin əsas forması kimi bilavasitə maddi istehsalla bağlı olan beynəlxalq istehsal-texniki əməkdaşlığın yaranması prosesləri intensivləşmişdir. Beynəlxalq istehsal-texniki əməkdaşlıq dünya ölkələrinin müxtəlif kompaniyalarının, əsasən, aşağıdakı fəaliyyət sahələrini əhatə edir:

– istehsalın beynəlxalq kooperasiyası və ixtisaslaşması əsasında son məhsul istehsalının birgə təşkili;

– məhsulların yeni, müasir dövrün tələblərini ödəyən növlərinin buraxılışı üzrə birgə istehsal proqramlarının yerinə yetirilməsi;

– ixtisaslaşdırılmış fəaliyyət növlərinin birləşməsini zəruri edən iri miqyaslı sənaye obyektlərinin tikintisində birgə iştirak;

– elmi-texniki əməkdaşlıq və s.

Müasir dövrdə beynəlxalq istehsal-texniki əməkdaşlıq cəmiyyətin sürətli inkişafı ilə əlaqədar obyektiv xarakter daşıyır və bu, firmalararası istehsal əlaqələrinin güclənməsi və həmçinin artması ilə müəyyən olunur. Bütün bunlar bir tərəfdən istehsal proseslərinin ixtisaslaşmasının dərinləşməsi və diversifikasiyası ilə, digər tərəfdən isə ETT-nin daim artan tempi və miqyası əvvəlcədən təyin olunan müəyyən xüsusiyyətlərə malik məhsulun yaradılması və texnologiyaların təkmilləşdirilməsi sahəsində ETTKİ-yə çəkilən xərclərin artması və s. ilə əlaqədardır[1].

**Beynəlxalq istehsal-texniki əməkdaşlıq və əlaqələr** dedikdə istehsal, elm və texnika sahəsində vahid-konkret məqsəd birliyi ilə müəyyən edilən müxtəlif ölkələrin sərbəst istehsalçıları arasında formalaşan və özünəməxsus hüquqi-təşkilati formaların tətbiqini tələb edən münasibətlər sistemi özünü büruzə verir.

**Beynəlxalq istehsal-texniki əməkdaşlıq (İTƏ)** istehsalın beynəlxalq əsaslarda ictimai xarakterinin meydana çıxmış xüsusi bir formasıdır. Beynəlxalq İTƏ iki və ya daha çox beynəlxalq firmalararası əlaqələrlə yanaşı, trans milli korporasiyaların firmadaxili və firmalar arası əlaqələrində də təzahür edir.

Müasir dövrdə TMK-lar qlobal miqyasda istehsalın mənfəətliliyini təmin edən forma kimi istehsalın ixtisaslaşması və kooperasiyasından geniş istifadə edirlər. TMK-nın xarici filial və törəmə müəssisələrinin dünyanın əksər ölkələrində yerləşməsilə əlaqədar, onlar arasındakı istehsal əməkdaşlığı da beynəlxalq xarakterə malik olur.

Beynəlxalq istehsal-texniki əməkdaşlıq və onunla sıx bağlı olan elmi-texniki biliklərin - intellektual mülkiyyət obyektlərinin ticarəti müasir dövrdə müxtəlif ölkələrin firmalarının arasındakı beynəlxalq iqtisadi əlaqələrin daha çox intensiv artan sferasına çevrilmiş və onlar bu əlaqələrin strukturuna, həcminə, inkişafına əhmiyyətli dərəcədə təsir etmişdir [2].

Müasir şəraitdə beynəlxalq İTƏ-nin aşağıda qeyd edilən xarakterik xüsusiyyətləri və inkişaf ənənləri vardır:

1. Beynəlxalq İTƏ-nin əsas xüsusiyyəti onun kompleks xarakterli olmasıdır ki, bu da belə əlaqələrin qarşılıqlı şərtləndirilməsində və qarşılıqlı təsirində özünü göstərir. Qarşılıqlı təsir onunla meydana çıxır ki, xarici ticarət mübadiləsi, xüsusilə texniki cəhətdən mürəkkəb məhsulun mübadiləsi, bir qayda olaraq, istehsal prosesində istehsal əməkdaşlığı və kooperasiyalaşdırma, məhsulun işlənməsi mərhələsində elmi-texniki əməkdaşlıq, həmçinin obyektin sazlama və istismara buraxılış və istismar mərhələsində texniki xidmətlərin göstərilməsilə tamamlanır.

2. Beynəlxalq İTƏ-nin ikinci əsas xüsusiyyəti odur ki, dünya bazarlarında beynəlxalq kommersiya əməliyyatlarının (o cümlədən istehsal-texniki əlaqələrlə bağlı) miqdarı, mürəkkəbliyi, tezliyi və müxtəliflik səviyyəsi artmışdır. Firmalararası beynəlxalq əlaqələrin inkişafı, onların ixtisaslaşması və kooperasiyalaşması nəticəsində məhsulun mürəkkəbləşdirilməsi, onun çox sürətlə yeniləndirilməsi və tez-tez dəyişdirilməsi, məhsulun çeşidlərinin qısa zamanda genişləndirilməsi, xammal və materialların emalı dərəcəsinin yüksəlməsi, aralıq məhsullarının (tərkib hissələri və detallar) göndərilməsinin genişlənməsi imkanları yaranmışdır.

3. Beynəlxalq İTƏ-nin növbəti xüsusiyyəti bilavasitə istehsal əlaqələrinin qurulması, kooperasiya formasında malgöndərmələrin artımı, materialların işlənməsi və göndərilməsinin uzunmüddətli kontraktların bağlanması və s. hesabına müxtəlif ölkələrin firmaları arasındakı iqtisadi münasibətlərin razılaşdırılmış xarakterdə olmasındadır. Hərçənd, bu proses dünya bazarlarında təsir sferasından kənarda mübarizə aparan iri TMK-nın hegemonluğunun artması və fikir ayrılıqlarının güclənməsilə müşayiət olunur.

4. Beynəlxalq İTƏ-də TMK-nın böyük rolu ilə bağlı olaraq bir xüsusiyyəti də qeyd etmək lazımdır. Belə ki, təsərrüfat fəaliyyətinin, xüsusilə istehsalın ixtisaslaşması və kooperasiyalaşması sahəsində beynəlmiləlləşməyə olan ənənələr TMK-nın istehsal-texniki əlaqələrinin artımının əsas şərtlərindən biridir.

5.Beynəlxalq İTƏ-nin əsas xüsusiyyətlərindən və inkişaf ənənələrindən biri də budur ki, İEOÖ-də istehsal müəssisələrinin birgə tikilməsi ənənəsi genişlənmişdir. Bu ənənə kompaniyaların istehsalın rentabelliyinin artırılması və məhsulun maya dəyərinin aşağı salınması üçün öz istehsallarını İEOÖ-dən olan ucuz və stabil xammal mənbələrilə təmin etməyə səy göstərmələrilə bağlı yaranmışdır. TMK-lar üçün isə bu, dünya miqyasında onların iqtisadi və siyasi təsirlərinin genişlənməsinə gətirib çıxarır ki, bu təsirlər də öz növbəsində dövlət tərəfindən müxtəlif maliyyə və təşkilati xarakterli tədbirlərlə mükafatlandırılır [3].

Beynəlxalq İTƏ-dəki müasir inkişaf ənənələrindən onu da qeyd etmək olar ki, firmalar qiymətlərin əmələ gəlməsi, istehsalın həcmi, satış bazarlarının xammal mərhələlərinin, təsir sferalarının bölüşdürülməsini razılaşdırılmış siyasətlə və danışıqlarla birlikdə həyata keçirməyə çalışırlar.

Xarici firmaların beynəlxalq İTƏ-də ən vacib əməkdaşlıq sferalarından biri də birgə elmi-tədqiqat işlərinin həyata keçirilməsidir. Çünki yeni mürəkkəb məhsulun, obyektin buraxılışı elmi-tədqiqat işlərinin həyata keçirilməsini zəruri edir. Həm də ETTKİ-yə çəkilən xərclər böyük maliyyə vəsaitləri tələb etdiyi üçün belə bir əməkdaşlıq sferası da zərurətə çevrilmişdir. Bu zərurət də öz növbəsində beynəlxalq İTƏ-nin daha bir istiqamətinin – **beynəlxalq elmi-texniki kooperasiyasının** yaranmasına təkan vermişdir. Onun əsas istiqamətləri aşağıdakılardır:

- fundamental tədqiqatlar;
- tətbiqi tədqiqatlar;
- texniki işləmələr (təcrübi-konstruktor, texnoloji, layihə, təşkilati və s.) və təcrübi istehsal;
- yeni texniki və iqtisadi tətbiq sahələrinin ilkin mənimsənilməsi;
- yeniliklərin yayılması və s.

Elmi-texniki kooperasiyanın növlərini firmalararası əməkdaşlığın məqsəd və vəzifələrindən asılı olaraq aşağıdakı kimi təsnifləşdirmək olar:

- yeni növ məmulat və texnoloji proseslərin yaradılması və birgə işlənməsi;
- texnoloji və istehsal problemlərinin birgə həlli;
- qismən və ya tam dövlət vəsaitləri hesabına maliyyələşdirilən iri elmi texniki proqramların və layihələrin birgə həyata keçirilməsi;
- yeni və qabaqcıl elmi-informasiya və elmi-texniki biliklərin mübadiləsi və s.

Hal-hazırda praktiki olaraq dünyanın bütün iri yüksək texnologiya istehsalçıları öz məhsullarını tam mənada öz istehsal gücləri ilə istehsal etmirlər. Onlar daha çox sifarişlər üzrə işlərə üstünlük verirlər və öz istehsal sifarişlərini xaricdə həyata keçirirlər. Məhz elə onların da məhsulları lider məhsul satışları statusuna malikdir. **Beynəlxalq istehsal kooperasiyası mexanizminin** istifadəsi ABŞ, Yaponiya, İtaliya, Fransa, Türkiyə və s. kimi ölkələrin yüksək sənaye artımının ən əsas səbəblərindən biridir [6].

Beynəlxalq istehsal kooperasiyası təcrübəsinin tətbiqi bir-birilə əlaqədar olan aşağıdakı suallara cavab tapmağa imkan verir:

- Firma hansı istehsalı saxlamalı və gücləndirməli, hansılardan isə imtina etməlidir?
- Malgöndərənləri necə tapmalı?
- Tərəfdaşlarla qarşılıqlı əlaqə sistemini necə təşkil etməli?
- Verilən və tələb edilən keyfiyyət.

Müasir dövrdə kompaniyalar özlərinin üstün inkişaf istiqamətinin səmərəli imkanlarını əldə etmək üçün kadr və maliyyə resurslarına qənaət etməklə, mənfəətli olmayan ayrı-ayrı istehsal sahələrinin fəaliyyətini dayandırırlar. Deməli, kompaniyanın fəaliyyətinin yüksək gəlir əldə etməyə imkan verən prioritet istiqamətlərində maliyyənin və idarəetmə resurslarının konsentrasiyası (toplanması) hesabına yüksək tələbata uyğun məhsulun keyfiyyətinin artırılmasına nail olmaq olur. Bu da öz növbəsində əlavə satış və mənfəət əldə etməyə şərait yaradır.

Bundan başqa, istisaslaşdırılmış kompaniya istənilən sahə firmasından qabaq yeni texnologiya və işləmələrlə tanış olmaq imkanına malikdir. Kooperasiya üstünlüklərindən istifadə etməklə kompaniyalar vaxt və resurslar sərf etmədən, qabaqcıl texnologiyanı alırlar. Bu da firmalara xarici kompaniyalarla öz əsas vəsait və mövcud resurslarını uzlaşdırmağa və inkişaf etdirməyə imkan verir.

Beləliklə, beynəlxalq kooperasiyanın inkişafının zəruriliyi, hər şeydən əvvəl, böyük maliyyə resursları tələb edən yeni məhsul buraxılışının kapital tutumunun stabil yüksəlməsi ənənəsi, beynəlxalq bazarlarda rəqabətin kəskinləşməsi, hazır məhsullara nisbətən komplektləşdirici məmulatlar üçün gömrük manеələrinin aşağı olması, kiçik innovasiya biznesinin rolunun güclənməsi, beynəlxalq strateji alyansların sayının artması və s. ilə izah olunur. Milli firmaların beynəlxalq istehsal kooperasiyası fəaliyyətində lazımi səviyyədə iştirak etməməsi, İEO-nün yüksək istehsal təcrübələrindən istifadə etməməsi, onların müasir dövrün tələblərinə cavab verə bilən məhsul istehsal etmək inkanlarını əhəmiyyətli dərəcədə azaldır.

Beynəlxalq istehsal kooperasiyası sahəsində İEO-nün təcrübəsinin öyrənilməsi istehsal sahələrində

beynəlxalq kooperasiyaya daxil olmanın konkret motivlərini, yüksək texnologiyalar dairəsində beynəlxalq kooperasiyasının inkişafına dövlət təsiri və ya dəstəyi metodlarını daha ətraflı təhlil etməyə imkan verir. Nəticədə, ölkədə beynəlxalq istehsal kooperasiyasının inkişafının məqsədli olması haqqında səmərəli, real fikirlər əldə etmək olar. Azərbaycanda da beynəlxalq istehsal kooperasiyasının kifayət qədər inkişaf etməməsi, xarici istehsal təcrübəsindən tam mənada – lazımi səviyyədə yararlanmamaq ölkə məhsullarının keyfiyyətinə, rəqabətliliyinə və xərclərinə böyük təsir edir [4].

Bununla əlaqədar olaraq, milli firmaların xarici kompaniyalarla qarşılıqlı əlaqəsinin qurulması, beynəlxalq istehsal kooperasiyasının tətbiqi formaları üzrə tövsiyələrin hazırlanması və s. ilə bağlı aşağıdakı məsələ və problemlərin həll edilməsi məqsədəuyğun olardı:

1. Beynəlxalq istehsal kooperasiyasının müasir inkişafının əsas ənənələrini müəyyənləşdirmək;
2. Beynəlxalq istehsal kooperasiyasının müasir formalarının xüsusiyyətlərini açmaq;
3. Beynəlxalq istehsal kooperasiyasının əsas iqtisadi və inzibati tənzimləmə metodlarını aşkar edərək, milli zərurilik baxımından sistemləşdirmək;
4. Beynəlxalq istehsal kooperasiyasının fəaliyyətinə intensiv daxil olmanı təmin etmək üçün prioritet istehsal sahələrini müəyyənləşdirmək;
5. Dünya və milli ölkə istehsal kooperasiyası təcrübəsinin müqayisəli təhlilini həyata keçirilmək;
6. Milli istehsal sahələri üçün beynəlxalq istehsal kooperasiyasının motivlərini, nəticələrini və s. təhlil etmək;
7. Beynəlxalq istehsal kooperasiyasının tənzimlənməsinin dövlət siyasəti konsepsiyasını işləmək.
8. Beynəlxalq istehsal kooperasiyası əlaqələrinin dayanıqlıq faktorlarını təyin etmək;
9. Beynəlxalq istehsal kooperasiyası haqqında qərarların əsaslandırılması metodikasını işləmək və s.

Müasir dövrdə beynəlxalq istehsal kooperasiyası fəaliyyətinin BKƏ-nin bir istiqaməti kimi geniş yayılması bu fəaliyyətin iqtisadi səmərəliliyi ilə sıx bağlıdır. Belə ki, BİK-nin iqtisadi səmərəliliyi ixtisaslaşmış tərəfdaşların cəlb edilməsi yolu ilə hazır məhsul vahidinin istehsalına çəkilən xərclərin ümumi qənaəti ilə müəyyən olunur. BİK-nin müxtəlif formalarının tətbiqilə kooperantlar – tərəfdaş firmalar ixtisaslaşmış iştirakçıların kooperasiyası əsasında iqtisadi üstünlüyü təkcə son məhsulun ucuz əldə edilməsi hesabına əldə etmirlər. Müasir istehsalda kooperasiya əməkdaşlığından istifadənin əlverişliliyi bir çox qüvvələrin vahid kompleksdə optimal toplanmasından yaranan "yeni məhsuldar qüvvələr" kimi təzahür edən kooperasiyanın özünün rolu ilə müəyyən olunur. Hətta, ən güclü bir forma qısa müddətdə ETT-nin müasir dövründə yeni məhsul növlərinin işlənməsi və yaradılması üzrə bütün mürəkkəb məsələləri həll etmək imkanında deyildir. Qeyd edilən oxşar məsələləri yalnız iki və ya daha çox ixtisaslaşmış firmanın, onların istehsal və elmi-texniki potensialı nəzərə alınmaqla, imkanlarının konsentrasiyası yolu ilə əldə etmək olar [5].

Beynəlxalq kooperasiya əlaqələrinin səmərəliliyi və firmalar üçün onun cəlbediciliyi digər bir iqtisadi faktorla – bir çox ölkələrdə gətirilən komplektləşdirici məmulatlar və hazır məhsullara olan rüsumların səviyyəsi arasındakı böyük fərqlə bağlı olur. Bu vəziyyət son dövrlərdə daha çox müşahidə olunan yığım profilli formal istehsal kooperasiyasının yaradılmasının müşahidə olunması ilə izah olunur. BİK-yə subpodratçı qismində cəlb olunan çox saylı kiçik və orta firmalar üçün kooperasiyadan əldə edilən ən nəzərəçarpan səmərəlilik istehsal güclərinin uzunmüddətli yüklənməsinin təmini və istehsal olunan məhsulun dayanıqlı, uzunmüddətli satışının reallaşdırılmasıdır.

**Ədəbiyyat**

1. Məmmədova Ş.S. Beynəlxalq kommersiya işi. Dərs vəsaiti. Sumqayıt, 2015, 387 s.
2. Герчикова И.Н. Международное коммерческое дело. ЮНИТИ, М.: 2001, 671 с.
3. Громова Н.М. Внешнеторговые контракты – ContractsinForeignTrade [Текст]: учеб.пособие /Н.М.Громова. 2-е изд., испр. – М.: Магистр. 2008, 141 с.
4. Добрецов Г.Б. Способы заключения внешнеторгового контракта [Электронный ресурс]: Лекция /Г.Б.Добрецов //http://de.sibsau.ru/.
5. Улин Б. Межрегиональная и международная торговля. Пер. с англ. М.: Дело, 2004
6. www.economy.az

**Резюме**

***Мамедова Ш.С., Яхья Оздемир***

**Направления эффективного развития международногопроизводственно-технического содружества и кооперацийв современных условиях**

*Статья раскрывает актуальность необходимости международного производственно-технического сотрудничества и кооперации, его традиций развития, особенностей и тенденций эффективного развития этих отношений.*

***Ключевые слова:*** *производственно-техническое сотрудничество, международное сотрудничество, кооперация, эффективное развитие, научные связи.*

**Summary**

***Mammadova Sh.S., Yahya Ozdemir***

**Direction of Effective Development of International Industrial TechnicalPartnership and Cooperation in Modern Conditions**

*The article reveals the relevance of the need for international production and technical partnership and cooperation, its development traditions, features and trends for the effective development of these relations.*

***Key words:****industrial and technical cooperation, international cooperation, cooperation, effective development, scientific relations.*

## MİLLİ İQTİSADİ MƏNAFELƏRİN REALLAŞMASINDA İNSAN AMİLİNİN ROLU

***Rüstəmbəyov H.B.***

*Bakı Dövlət Universiteti*

İqtisadi fikirdə elə bir cərəyan tapmaq olmaz ki, o, bu və ya digər dərəcədə iqtisadi mənafelər mövzusuna toxunmasın. Bu onunla əlaqədardır ki, iqtisadi mənafelər insanların şüurlu fəaliyyətinin elə bir istiqamətverici nöqtəsidir ki, bunsuz ümumiyyətlə təsərrüfat və sosial həyatın mənası başa düşülən deyil. İqtisadi mənafe "insanı işə həvəsləndirən " motiv kimi hələ Qədim Şərq (Konfutsiy, İbn-Xaldun) və antik (Ksenofont, Platon, Aristotel) mütəfəkkirlərin diqqətini cəlb etmişdir. Amma sistemli təhlil elementi kimi iqtisadi mənafelər ilk iqtisadi məktəblərin formalaşması ilə əlaqədardır.

Məlumdur ki, hər bir nəzəriyyənin ən ümumi qaydalarının hazırlanması elmi abstraksiya metodu ilə həyata keçirilir. Lakin abstraksiya həqiqətin rədd edilməsi demək deyil. Bu, hər şeydən əvvəl uzun müddət xalqların və ölkələrin inkişaf meyillərinin, təsərrüfat fəaliyyətlərinin ümumiləşdirilməsidir. Nəzəriyyənin milli şərtləndirilməsi ideoloji, sinfi və ya qlobal bəlağət elmi altında üstüörtülü şəkil ala bilər, amma bu işin məğzini dəyişməz. Bu ondan irəli gəlir ki, millətlər iqtisadi tarixin yüzillərlə ən fəal subyektləridir və, deməli, onların mənafeləri makroiqtisadi nəzəriyyə üçün həlledicidir.

Milli iqtisadi mənafelər haqqında gözəçarpan tədqiqatlara fiziokratların (A. Türqo), klassik ingilis siyasi iqtisad məktəbinin (C. S. Mill, A. Smitt, D. Rikardo), neoklassisizmin banilərinin (A. Marşall), Avstriya məktəbinin nümayəndələrinin (R.Harrod, E. Domar, E.Hanson), neoklassik sintez (C.Hiks, P.Samuelson) və yeni liberal nəzəriyyə (M.Fridman, V.Oyken, L.Erhard, Fr. fon Hayek) tərəfdaşlarının əsərlərində rast gəlinir.

Milli iqtisadi mənafelər "həyati mənafelər zonası" adlanan geoiqtisadi nəzəriyyələrdə (C.Koen, N.Spaykmen, C.Kuffer), "dünya sistemi" (F.Brodel), "dünya konyunkturası təşkili" (N.Kondratev, İ.Vallerstayn), geoiqtisadi monosentristlər (P.C.Teylor) və s. əsərlərində özünün geniş şərhini tapmışdır. Lakin milli iqtisadi maraqlar probleminə daha dəqiq və kompleks şəkildə yanaşmanı ilk dəfə Fridrix List həyata keçirmişdir. Onun bu baxışları iqtisad elmində tarixi məktəbin inkişafını və institusional nəzəriyyənin bərqərar olunmasını müəyyənləşdirdi və xalqların təsərrüfat həyatında millətin təsisatını ön plana çəkdi ki, bu ideya iqtisad elmində yeni bir istiqamətə çevrildi. O nəinki öz əhəmiyyətini itirmədi, hətta müasir dövrdə də öz cəlbediciliyini saxladı. Yeni dəyişikliklər və qloballaşma prosesinin sürətləndiyi bir şəraitdə millət, onun mənafeləri özündə iqtisadiyyatın ayrı-ayrı sahələrinin qarşılıqlı təsirinin optimal koordinatının axtarılması istiqamətində aparılan tədqiqat işlərinin müstəqil sahəsinə çevrilmişdir.

Alman tarixi məktəbinin bir neçə nəslinin nümayəndələrinin köhnə (V.Romer, B. Çulderband, K.Knis), yeni (Q.Şmoller, K.Byuher) və ən yeni (V.Zombart, M.Veber) əsərlərində hakim mövqe tutan milli iqtisadi mənafelərin realizə mexanizminin təhlili, iqtisadi artım mərhələlik (U.Rostou), qütblülük (F.Perru)

istiqamətinə, “ölkələrə çatmaq” konsepsiyasına (K.Akamasu) və inkişafın yeni iqtisadi modeli istiqamətinə (V.Smit, D.Kaneman) keçmişdir.

Sistemli yanaşmanın dəyişilən cəmiyyətdə millətin, bütün ölkənin fundamental məsələlərinin həllində ayrı-ayrı şəxslər, yaxud təsərrüfat strukturları deyil, özünütəsdiqləmiş sistemli yanaşmanın tərəqqi, firavanlıq əldə edilməsində aparıcı rol oynadığı mövqeyi bildirilmişdir. Bu gün alimlərin çoxunun əsas cəhdləri iqtisadi mənafelərin fərdi və qrup halında strukturunda baş verən dəyişikliklərin, onların qarşılıqlı təsiri və uzlaşdırılmasını müəyyən edilməsinə yönəlmişdir. Məhz buna görə də ABŞ alimləri, Nobel laureatları Qeri Bekker və Teodor Şults tərəfindən keçən əsrin ortalarında irəli sürülmüş insan kapitalı nəzəriyyəsi müasir iqtisadi inkişafının meynstriminə çevrilmişdir. Bu nəzəriyyəyə görə, işçi qüvvəsinin istismarı deyil, insanın yaradıcı potensialı kapital qismində çıxış edərək, yəni insana gəlir gətirərək, tərəqqiyə yol açır. İnsan kapitalı isə tərbiyədən, təhsildən, sağlamlıqdan, mədəniyyətdən ibarətdir. Belə bir inkişaf paradiqması göstərilən sahələrə investisiya qoyuluşunu tələb edir və onlar istehsala daha çox səmərəlilik gətirmiş olur. Bu gün dünyanın inkişaf etmiş ölkələrinin milli sərvətlərinin 80% məhz insan kapitalı təşkil edir. Bu, o deməkdir ki, fiziki kapital-maşın və avadanlıqlar, təbii ehtiyatlar, coğrafi mövqe deyil, insan kapitalı əsas məhsuldar qüvvəyə çevrilir. Belə olan halda insanın keyfiyyət göstəricilərini yüksəldilməsi həm iqtisadi, və həmdə sosial baxımdan ən aktual məsələyə çevrilir. Bu zaman bir sıra inkişaf aspektləri ön plana çıxır:

1. Təhsil, tibb və mədəniyyət sahələrinin prioritet inkişafı;
2. Ölkənin intellektual və istehsal potensialının artırılması;
3. Makroiqtisadi tarazılığın parametrlərinin balanslaşdırılması;
4. İstehsal olunan məhsulların rəqabətqabiliyyətliliyinin təmin edilməsi;
5. İnvestisiya mühitini sərbəstləşdirilməsi;
6. Əhalinin bazar münasibətləri ilə yanaşı, milli - mənəvi dəyərlərə əsaslanan davranış qaydalarına yiyələnməsi;
7. Hər bir subyektin (vətəndaşların, sahibkarların, məmurların) mənafelərinin üzvi şəkildə uzlaşması.

Belə olan halda milli iqtisadi mənafelərin ifadə dərəcəsi xeyli artmış, iqtisadi inkişaf davamlı, sosial mühit isə sabitlik məcrasına istiqamətlənir. Ən əsası isə, insan kapitalı əlverişli inkişaf mühiti əldə edir ki, o həm rifah, həm artan gəlirlər, həmdə dəqiq perspektivlər qazanır. Ümumiyyətlə, Azərbaycan neft-qaz sənayesində böyük miqdarda maliyyə gəlirlərinin istifadəsi ilə bağlı strategiyanı qəbul etmişdir. Bu, ilk növbədə, neft-qaz sənayesindəki gəlirlərin yalnız innovativ istehsal vasitələri və infrastrukturun inkişafı səhiyyəsinə deyil, təhsil və sosial müdafiənin yüksək səviyyədə yenilənməsi ilə müşayiət etdirir. Bu gün büdcə xərcləri yüksək iqtisadi, həm də sosial nəticələr göstərən fəaliyyət sahələrinə yönəldilmişdir. Burada Prezident İlham Əliyevin olduqca vacib fikrini vurğulamaq lazımdır: “gələcək neft və qaza deyil, texnoloji inkişafa məxsusdur. Gec-tez neft və qaz ehtiyatları sona yetəcək, biliklər və texnologiyalar isə hər zaman inkişafda hakim olacaq”. Bu fikir Azərbaycanda taleyüklü əhəmiyyət daşıyaraq neft gəlırlərinin insan kapitalına yönəldilməsi, qeyri-neft sahələrinin üstunlüyünün təmin edilməsi, regionların inkişaf proqramlarının həyata keçirilməsi kimi strateji istiqamətlərin təməlini qoymuşdur. Bunlar isə eyni zamanda milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə təkan vermişdir.

Qloballaşma prosesi bütün ölkələri beynəlxalq rəqabətə açmışdır. Bu rəqabətdə hansısa ölkələr donor, o biriləri isə resepient qismində çıxış edir. Ən çox mənfəət qazananlar isə yenə də yüksək keyfiyyətli insan kapitalına nail olan ölkələrdir. Məhz insan, onun kreativ bacarıqları innovativ texnika və texnologiyaların yaradılmasında, həm də onlardan istifadə edərək rəqabətqabiliyyətli məhsul istehsal etmə imkanlarına malikdirlər. Bir şeyi də unutmaq olmaz ki, fiziki kapital köhnələ bilir, təbii resurslar isə tükənir. İnsan kapitalı isə daimi, nəsillərdən nəsillərə ötürülən sərvətdir. Belə olan halda milli iqtisadi mənafelərin başlıca reallaşma amili qismində məhz insan kapitalı çıxış edir

## SƏNAYE SAHƏLƏRİNİN MALİYYƏ DAYANIQLIQ POTENSİALI

***Səfərov Q.Ə.***
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

***Xülasə.*** *İqtisadi davamlılığın tamlığına vahid metodoloji yanaşmanın təmin edilməsi idarəetmənin təkmilləşdirilməsinin vacib məsələlərindən biridir.Bizim fikrimizcə, tədqiqat məqsədləri üçün sənaye müəssisələrinin sabitliyinin, həmçinin yerli və xarici müəssisələrin istifadə göstəricilərinin hesablanması təcrübəsinin ümumiləşdirilməsi lazımdır.*

***Açar sözlər:*** *iqtisadiyyat, davamlılıq, metodoloji, diaqnostika, sabitlik*

Hazırda şirkətin xüsusi performance iqtisadi sabitlik göstəriciləri kimi hesab edilməlidir. İlk növbədə bu, mövcud elmi metodologiya müəssisənin iqtisadi dayanıqlığını ölçüsünə müxtəlif yanaşmalarda özünü göstərir. Müəssisələrin iqtisadi dayanıqlığına diaqnoz qoymaq üçün müasir iqtisadiyyat fənni əsasən əldə edilmiş maliyyə nəticələrinin kəmiyyət hesablamalarını tətbiq edir. Müəssisələrin bütün fəaliyyətlərinin nəticələri hesabat yolu ilə hesablanmış olan mənfəət, xərc, gəlirlilik, ödəmə qabiliyyətliliyi vəbir sıra digər maliyyə göstəricilərindən, eləcə də onlardan olan törəmələrlə ifadə edilir. Elmi ədəbiyyatda təqdim olunan bəzi yanaşmaları nəzərdən keçirək.

İqtisadçı alimlər: A.D.Sheremet və E.V.Neqaşevə [6] görə, maddi dövriyyədə olan aktivlərin dəyəri ilə öz və borc götürülmüş mənbələrin dəyərləri arasındakı nisbət, müəssisənin iqtisadi vəziyyətinin dayanıqlığını xarakterizə edir. Onların fikrincə, təsərrüfat subyektinin istehsal ehtiyacları ilə şərtlənən zəruri istehsal amillərinin həcminin təmin edilməsi, onların formalaşması mənbələri iqtisadi dayanıqlığın əsasını təşkil edir.

İqtisadi ödəmə qabiliyyətinin diaqnostikası üçün orijinal metodika T.A.Smelova tərəfindən hazırlanmışdır. Burada müəssisənin iqtisadi vəziyyətinin öyrənilməsi üç funksional komponent üzərində həyata keçirilir: səmərəlilik, potensial, "dayaq nöqtəsi" və "ağırlıq mərkəzi"nin nisbəti. M-hesabı adlanan iqtisadi dayanıqlılıq meyarının ümumiləşdirmə kəmiyyəti bal və faiz qiymətləndirilməsindən (çəki kəmiyyətində) asılıdır. Bu komponentlər üçün M-hesabı 60% -dən azdırsa, bu, müəssisənin fəaliyyətində"xəstəliyin ilk əlamətləri və ya müəssisənin xəstəliyi haqqında" xəbər verir, əgər 19% və daha aşağı olduqda bu, artıq müəssisə fəaliyyətində böhranın baş verdiyini bildirir.

Eyni zamanda, bizim fikrimizcə, belə bir yanaşma ilə, qiymətləndirmədə müəssisənin yalnız mövcud vəziyyəti müəyyənləşdirilir və onun davranış dinamikası tədqiqatçının nəzəridən kənarda qalır. Başqa sözlə, diaqnoz müəssisənin fəaliyyət sahəsindəki əldə olunan nöqtəni müəyyənləşdirməyəimkan verir. Hərəkətin bütün istiqaməti isə kənarda qalır, müəssisənin fəaliyyət müddətini vaxtında qiymətləndirməyə imkan vermir və bu metodikanın faydalılığını əhəmiyyətli dərəcədə azaldır.

Müəssisənin iqtisadi dayanıqlığı səviyyəsinin yekun kəmiyyətini əldə etmək üçün Y.V.Bogatin [2] müəssisənin əsas fəaliyyətinin dayanıqlığı dərəcəsini qiymətləndirməyə əsaslanan kompleks üsuldan istifadə etməyi təklif edir. Belə bir yanaşma müəssisənin ümumi iqtisadi hərəkətinin iqtisadi dayanıqlığını müəyyənləşdirir və müəssisənin bütün növ təsərrüfat fəaliyyətinin dayanıqlığı məcmusundan ibarətdir. Müəllif iqtisadi dayanıqlığın diaqnostik səviyyədə həyata keçirilib təhlili əsasında fəaliyyəti aşağıdakı üsulları müəyyən edir: təşkilati-texnoloji, təchizatı, istehsal, marketinq, maliyyə iqtisadi

Müəllifin sözlərinə görə, bu tədbirlərin həyata keçirilməsilə iqtisadi dayanıqlıq üçün bir şərt istehsal amillərinin dəyəri arasındakı tarazlığın, fəaliyyətin yerinə yetirilməsi prosesinə təsirinin müəyyənləşdirilməsi prinsipidir.

Bənzər bir yanaşma E.A.Stoyanov və E.S. Stoyanovanın [5] yanaşmalarında mövcuddur. Onlar müəssisənin iqtisadi dayanıqlıq səviyyəsini müəyyən etmək üçün aşağıdakı iqtisadi göstəriciləri sistemini təklif edir: öz vəsaitlərinin rentabelliyi, gəlirlilik; müəssisənin maliyyə davamlılığı əmsalı; maliyyə leverage təsir; maliyyə leverinin leverage; öz vəsaitləri, amortizasiya toplanması, maliyyə müstəqilliyi, uzunmüddətli borc, əmlak və maddi dövriyyə aktivlərin real dəyəri əhatə edən investisiya, borc fondları və özünü maliyyələşdirmə qabiliyyəti nisbəti, özünü maliyyələşdirmə gücü nisbəti və əlavə dəyər, manevr əmsalı.

Əlbəttə ki, özvəsaitlərin və borc mənbələrinin optimal nisbəti, eləcə də zəruri istehsal resursları müəssisənin təmin edilməsi onun iqtisadi dayanıqlığına təsir edir.

Öz işlərində RS. Sayfulina və G.G. Kadıkova, iqtisadi sabitliyin qiymətləndirilməsi üçün ümumiləşdirici reytinq göstəricisindən istifadə etməyi təklif edir. Bu, metodun əsasında onların normativ kəmiyyətinə düzəliş edilməsi ilə beş maliyyə göstəricisinə (öz vəsaiti ilə təmin olunma, cari likvidlik, və s.) əsaslanır. Bu halda təklif olunan üsulla inteqral göstəricisi dəyəri 1.0 uyğundursa, əgər iqtisadi dayanıqlığın səviyyəsi optimal sayılır.

Bizim fikrimizcə, bu metodun əsas üstünlüyü, göstəricilərin detallaşdırılması, inteqral kəmiyyətin olması və reytinq qiymətləndirilməsindən istifadədir. Lakin təklif olunan üsulun çatışmazlıqları nəzərdə tutulan əmsalların və onların normativlərinin, eləcə də fəaliyyətinin maliyyə dayanıqlığı tərkibinin nəzərə alınmasıdır ki, bu da onun fəaliyyət dairəsini məhdudlaşdırır.İqtisadi davamlılıq səviyyəsinin ədədi qiyməti, əldə edilən nəticələrin balansdan sapma səviyyəsinə əsaslanaraq müəyyən edilir.

İqtisadi dayanıqlığın diaqnostikası müəssisə fəaliyyətinin (istehsal, maliyyə, satış və s.) müxtəlif sahələrini əhatə edir ki, bu da iqtisadi qiymətləndirmənin tamlığını yüksəldir, səmərəliliyə müsbət təsir edir. Eyni zamanda, bizim fikrimizcə, təcrübədə müəllifin standart kimi götürdüyü ideal "amillərin tarazlıq vəziyyəti" adlandırdığı ideal vəziyyəti təyin etmək çox çətindir. Bu, üsulun təcrübədə tətbiqini çətinləşdirir.

Xarici iqtisadçı – alimlər müəssisənin davranışında riyazi metodlardan istifadə edilməsini təklif edirlər və bu çox maraqlıdır.Siqnal parametrlərini aşkar edib alınan modellər vasitəsilə müəssisənin iflas ehtimalını proqnozlaşdırmağa imkan verir.

Amerika alimi E. Altman tərəfindən təklif edilən bir diskriminant modeli ən çox yayılmışdır. O, statistik metod tətbiq etmişdir ki, bu da ayrı-ayrı hesabat göstəricilərinin çəkilərini qiymətləndirməyə imkan vermiş, bunlar isə modelə daxil edilmişlər. O, kommersiya risk səviyyəsini qiymətləndirmək üçün statistik analiz üsulları tətbiq etmişdir.

Bundan əlavə, qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının müəssisələrinin təsnifat şəraiti, xüsusilə də, Amerika modelləri ilə müqayisədə əhəmiyyətli dərəcədə fərqlənir və təbii olaraq bu modelin əhatə dairəsini azaldır. V.M. Rodionova və M.A. Fedotova [3] haqlı olaraq qeyd edirlər ki, inflyasiyanın dərəcəsi, makroiqtisadi tsiklinin mərhələləri, istehsalın fond, enerji və əməktutumu, əmək məhsuldarlığı, istehsalın rentabelliyi, vergi yükü və s. istiqamətində fərqlər böyükdür.Nəhayət, mövcud resursların strukturun (və nəticədə, balansın nisbəti) və onların yığılması və hərəkətinin xarakterindən ifadə olunan sahə xüsusiyyətləri müəssisənin ödəmə qabiliyyətinin proqnozlaşdırılmasının etibarlılığı üçün əsasdır. Eyni zamanda, şirkətlərin sənaye sahələrinin, diaqnostikasında keyfiyyət xüsusiyyətlərini göstərmədən qurulması obyektivliyinə və diaqnoz düzgünlüyünə təsir edir

U.Biverin əsərində [1] statistik metodlarla maliyyə əmsallarının birləşdirən bir metod təqdim edilmişdir. O, iflasın müəyyənləşdirilməsi məqsədi ilə müəssisənin maliyyə vəziyyətini qiymətləndirmək üçün beşamilli sistem təklif etmişdir ki, bu da aşağıdakı indikatorları özündə ehtiva edir.

- aktivlərin rentabelliyi;
- borc öhdəliklərinin passivlərdəki xüsusi çəkisi;
- cari likvidlik əmsalı;
- aktivlərdə xalis dövriyyə kapitalının payı;

xalis mənfəət və amortizasiyanın cəminin borc vəsaitlərinə nisbətinə bərabər olan Biver əmsalı Biver modelində göstəricilər üçün çəki əmsalları nəzərdə tutulmur və iflas ehtimalı əmsalı hesablanmır.Bu göstəricilərin əldə olunan qiymətləri, şirkətin üç standart qiymətləri ilə müqayisə olunur: əlverişli şirkətlər, bir il ərzində müflis olan kompaniyalar və beş il ərzində müflis olan firmalar.

U.Biverin 79 müflis olmuş firmanın maliyyə əmsallarının tədqiqi, müflis olan firmaların davranışını göstərir: borc öhdəçiliyinin artması, reallaşdırma və aktivlərin rentabelliyinin azalması, sərbəst pul vəsaitlərinin azalması və debitor borcların artımı.

Nəticədə o müəssisələrin cari və mütləq likvidlik əmsalları çox kiçik oldu və material ehtiyatlarının səviyyəsi azaldı.

Eyni zamanda, qeyd etmək lazımdır ki, xarici elm adamlarının işləmələrinin Azərbaycanda istifadəsi ciddi problemlərlə bağlıdır. V.S.Chuprov qeyd edək ki, "Rusiya təcrübəsində E. Altmanın modelində istifadə daxili fond bazarının inkişafının zəif olmasından yaranan müəyyən çətinliklərə (makroiqtisadi fərqlər ilə birlikdə) rast gəlinir. Bununla əlaqədar şirkətin adi və imtiyazlı səhmlərinin real bazar dəyərini qiymətləndirmək olduqca çətindir ki, bu da modelin istifadəsini məhdudlaşdırır [4].

Maşınqayırma müəssisəsinin iqtisadi dayanıqlığının diaqnostikası problemləri

1. Diaqnozun kompleksliyi problemi. Dayanıqlığın təklif edilmiş metodlarının çoxu birtərəfli xarakter daşıyır.(əsasən qiymətləndirilməsi maliyyə komponenti nəzərə alınır və nümunə, müəssisənin digər aspektləri, məsələn istehsal və marketinq aspektləri nəzərə alınmır. Nəticədə, tədqiqatın nəticəsi tamamlanmamış olur və idarə heyətinə düz istiqamət vermir.

2. Diaqnostikanın sahə istiqaməti problemi. Baxılan üsullar, bir qayda olaraq, sahənin spesifikliyini nəzərə almır. Təhlili zamanı müəssisənin "profilinin" gözlənilməsi vacibdir. Ona görədə qiymətləndirmə metodu sahə xüsusiyyətini nəzərə almaqla aparılmalıdır.

3. Diaqnostik göstəricilərinin normativ kəmiyyətlərini seçmək problemi. Mövcud metodların çox olmasına baxmayaraq, onların bir ümumi çatışmamazlığı vardır: ya zəif əsaslandırma, yada bu və ya digər göstəricini normativ kəmiyyətinin olmaması. Normativ kəmiyyətin olmaması alınan nəticələrin müqayisə olunmasını çətinləşdirir.

4. Diaqnostik göstəricilərin kəmiyyət ifadəsi problemi. Baxılan metodların əsasındakı göstəricilər retrospektiv xarakter daşıyır, mürəkkəb və çox tərəfli problemdir. Beləki, həmin göstəricilər müəssisənin keçmiş fəaliyyətini xarakterizə etməklə, onun inkişaf dinamikasını nəzərə almır.

**Ədəbiyyat**

1. Ансофф И. Новая корпоративная стратегия. Пер .с англ. СПБ, Питер, 1999, 414с.

2. Богатин Ю.В. Оценка производственного бизнеса и инвестиций. Ростов на Дону изд. РГЭА., 1998, 164с.

3. Родионова В.М., Федотова М.А. Финансовая устойчивость предприятия в условиях инфляция. М. Перспектива, 1995, 104с.

4. Чупров С.В. Диагностика устойчивости промышленного предприятия. Иркутск, Изд. БГУЭП, 2004, 276с.

5. Стоянов Е.А., Стоянова Е.С. Экспертная диагностика и аудит финансового-хозяйственного положения предприятия. М. Перспектива, 1993, 88с.

6. Шеремет А. Д, Негашев Р.С. Методика финансового анализа. М.:ИНФРА- М., 2001, 172 с.

**Резюме**

***Сафаров Г.О.***

**Потенциал финансовой устойчивости промышленных секторов**

*Обеспечение единого методологического подхода экономической устойчивости является одним из вопросов совершенствования управление. С этой целью необходимо, обобщать практику зарубежных стран промышленных предприятии по расчету показателей.*

***Ключевые слова:*** *экономическая, устойчивость, методологические, диагностика, стабильность*

**Summary**

***Safarov Q.A.***

**Financial Sustainability Potential of Industrial Sectors**

*The pursuit of a single methodological approach to economic sustainability is one of the issues of improving management. For this purpose, it is necessary to generalize the practice of foreign countries of industrial enterprises in the calculation of indicators.*

***Key words:*** *economics, sustainability, methodological, diagnostics, stability*

## BİLİK İQTİSADİYYATININ İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏR

***İsgəndərov R.K.***

*Azərbaycan Texniki Universiteti*

***Xülasə.*** *Məqalədə ölkənin iqtisadi qüdrətini möhkəmləndirən insan kapitalının mahiyyəti izah olunur, eləcə də təhsilimizin Avropa təhsil məkanına inteqrasiyasının onun inkişafına təsiri təhlil olunur. Bu istiqamətdə qəbul olunmuş dövlət sənədlərinin və beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlığın əhəmiyyətigöstərilir. Qeyd olunur ki, ölkənin xoşbəxt gələcəyinin təmin olunmasında insan kapitalının inkişafı üçün təbii ehtiyatlardan səmərəli istifadə olunmalı, təhsil sistemi təkmilləşdirilməlidir.*

***Açar sözlər****: elm, ölkə, dünya, inkişaf, iqtisadi, insan kapitalı, beynəlxalq, qlobal, təhsil, ali təhsil, orta ixtisas təhsili, gənclər*

Müstəqillik əldə edildikdən sonra ölkəmiz əsrlərin sınağından çıxmış ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçmişdir. Çünki tarix göstərdi ki, milli gücü elm və texnikanın mütərəqqi sahələrində toplayan ölkə dünya bazarında liderlik edə bilər. Dünyanın inkişaf etmiş bütün ölkələri qazandıqları iqtisadi yüksəlişə məhz insan kapitalının inkişafı, elmdə əldə etdikləri uğurlara görə nail olmuşlar və biz də bu təcrübəyə əsaslanmalıyıq [1]

Hesab edilir ki, hüquqi azadlıq tam azadlıq sayıla bilməz. Müstəqilliyə tam nail olmaq üçün onu hərtərəfli qiymətləndirmək, insan amilinə xüsusi önəm vermək, insan kapitalını inkişaf etdirmək lazım idi. Ulu öndər, Azərbaycan dövlətinin qurucusu H.Əliyev bu barədə demişdir: Müstəqilliyi qazanmaq çətindirsə, onu qoruyub saxlamaq o qədər çətindir.

İndi Azərbaycanın beynəlxalq aləmdə reytinqi yüksəkdir. Azərbaycan dövləti dünyada düşünülmüş, balanslaşdırılmış siyasət aparan bir dövlət kimi tanınır. Biz qlobal iqtisadiyyata keçmişik və bazar iqtisadiyyatı yolunu seçmişik, bunun da əsasında insan kapitalı dayanır. Əvvəllər iqtisadiyyatın əsasını sərvət təşkil edirdi. Bu gün isə ən inkişaf etmiş ölkələr ərazisi, əhalisi və sərvəti çox olanlar deyil, insan kapitalı güclü olanlardır. Çünki yeraltı sərvətlər nə vaxtsa tükənəcək. Ona görə də bu sərvətlərdən maksimum

istifadə edib ölkənin uzun bir dövr ərzində xoşbəxt və firavan gələcəyini qurmaq üçün həmin vəsaitlərin böyük bir hissəsini insan kapitalının formalaşmasına yönəltmək lazımdır.

Məhz insan kapitalı ölkənin iqtisadi qüdrətinin daha da möhkəmlənməsini təmin edən mühüm amildir. İnsan kapitalı geniş anlamda iqtisadi inkişaf faktorunun, cəmiyyət və ailənin inkişafının intensiv məhsuldarlığı deməkdir. Bura əmək resurslarının təhsil komponenti, biliklər, intellektual və idarəetmə bacarığı və digər faktorlar daxildir ki, bütün bunlar da inkişafın əsas şərti olan insan kapitalının effektiv və səmərəli tətbiqinə şərait yaradır. Qısaca desək, insan kapitalı – intellekt, sağlamlıq, biliklər, keyfiyyətli və məhsuldar əmək, o cümlədən həyat səviyyəsi deməkdir.

Əvvəllər insan kapitalı dedikdə, insanın inkişafı üçün ona sərf olunan kapital başa düşülürdü. Lakin son vaxtlar insan kapitalına bir çox elementlər – istehlak xərcləri də əlavə edilib. Bu, ayrıca termin kimi son dövrlərin məhsuludur.

Müasir iqtisadiyyat biliklərə əsaslanan iqtisadiyyatdır. Burada əsas amil sərvət, xammal deyil. Məsələn, Yaponiyanın heç bir təbii sərvəti yoxdur, amma biliyə əsaslan iqtisadiyyat yaradıb və çox böyük sürətlə inkişaf edir. Çin və digər inkişaf etmiş dövlətlərdə bu iqtisadiyyatı qəbul ediblər. Bir sözlə, hansı dövlət insan kapitalının inkişaf etdirilməsinə, biliklərə əsaslanan iqtisadiyyata əsaslanırsa, gələcəkdə elə onlarındır. [5]

Bu amilləri Ulu öndərimiz Heydər Əliyev hələ 1980-ci illərdə uzaqgörənliklə həyata keçirirdi. Ümummilli liderin o dövrdə keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə təhsil almaları üçün göndərdiyi tələbələr indi Azərbaycan cəmiyyətində öz bəhrələrini verirlər və müəyyən mövqe tutublar.

Son dövrlər sosial-iqtisadi həyatımızda baş verən dəyişikliklər nəticəsində təhsilin rolu xeyli artmışdır. İnsan kapitalının inkişafında təhsilin rolunu nəzərə alaraq, Birləşmiş Millətlər Təşkilatı XXI əsri "Təhsil əsri" elan edib. Yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında təhsilin, xüsusilə ali təhsilin rolu heç vaxt indiki qədər aktual olmayıb. Bütün ölkələrdə olduğu kimi Azərbaycanda da insan kapitalının formalaşmasında ali təhsilin rolu danılmazdır.

Ölkəmizdə müasir tələblərə cavab verən və hərtərəfli inkişaf etmiş mütəxəssislərin hazırlanmasında Avropa ölkələri təhsil sistemlərinin inteqrasiyası və ümumavropa ali təhsil məkanının formalaşdırılması xüsusi aktuallıq kəsb edir.

Bu gün Azərbaycanda güclü fiziklərə, kimyaçılara, nüvə sahəsində çalışacaq alimlərə, turizm mütəxəssislərinə, İKT üzrə peşəkarlara, kosmos üzrə mütəxəssislərə ehtiyac var. Son illər ölkə rəhbərliyi tərəfindən yaradılmış qurumlar, fondlar yaxın gələcəkdə bu istiqamətdə yeni-yeni kadrların yetişməsinə və Azərbaycanın yuxarıda sadalanan sahələrdə dünyada tanınmasına gətirib çıxaracaq. [3]

İnsan kapitalının inkişafında təhsilin rolunu qiymətləndirən ölkə rəhbərliyi bir sıra mühüm qərarlar qəbul etmişdir. Çünki dövlət də yaxşı bilir ki, Azərbaycanın yeraltı sərvətləri nə vaxtsa tükənəcək. Ona görə də bu sərvətlərdən maksimum istifadə edib, ölkənin uzun bir dövr ərzində xoşbəxt və firavan gələcəyini qurmaq üçün həmin vəsaitlərin böyük bir hissəsini insan kapitalının formalaşdırılmasına yönəltmək zəruridir. Odur ki, Azərbaycan gənclərinin xaricdə təhsil alması ilə bağlı dövlət proqramının icra edilməyə başlanması, Azərbaycanda Elm Fondunun yaradılması, ümumiyyətlə, dövlətin bu sahədə atdığı son addımlar onu deməyə əsas verir ki, Azərbaycan sözügedən müstəvidə düşünür və ölkənin neft kapitalının tədricən insan kapitalına çevrilməsi istiqamətində ilkin addımlar atılır. Bir neçə il bundan əvvəl irəli sürülən, «qara qızıl»ı insan kapitalına çevirək devizi artıq bu gün reallıqdır. Ölkənin təhsil səviyyəsi artırılır, gənclərin nüfuzlu xarici ali təhsil müəssisələrində yüksək səviyyədə təhsil almaları, təcrübə keçmələri, elmi fəaliyyətlə məşğul olmaları üçün şərait yaradılır, sonradan həmin gənclərin Azərbaycana qayıdıb ölkənin inkişafında öz töhfələrini vermələri üçün tədbirlər görülür.

İnsan kapitalının inkişafında təhsil sahəsində beynəlxalq əlaqələrinin rolu böyükdür. Ölkəmizdə əsas istiqamətləri tələbə, şagird və magistr mübadiləsi, birgə elmi tədqiqatlar, beynəlxalq və regionlararası təhsil proqramlarına qoşulma və onların işində yaxından iştirak etmək üçün məqsədyönlü işlər aparılır.

Azərbaycan təhsilinin beynəlxalq əlaqələrini tənzimləmək və daha da inkişaf etdirmək üçün lazımi hüquqi baza yaradılıb. Azərbaycan Respublikası ali təhsil sahəsində təhsil sənədlərinin və elmi dərəcələrin tanınması ilə bağı bir sıra beynəlxalq konvensıyalara qoşulub.

Azərbaycanın təhsil müəssisələri nüfuzlu beynəlxalq təşkilatların təhsil problemləri ilə məşğul olan qurumlarının işində fəal iştirak edir. Tələbə mübadiləsi, mütəxəssis hazırlığı, müəllimlərin xaricdə staj keçməsinin təşkili, ali təhsil müəssisələrinin müasir informasiya texnologiyaları və tədris avadanlıqları ilə təchizatı üzrə bir sıra tədbirlər həyata keçirilib.

Ölkəmizdə universitetlərin maddi-texniki bazası, kitabxanaları, kompüter mərkəzləri, yataqxanaları, istirahət mərkəzləri və idman kompleksləri müasir tələblərə cavab verən səviyyəyə çatdırılır, tələbələrin tez-tez beynəlxalq elmi konfranslarda və olimpiadalarda iştirak edə bilmələri üçün şərait yaradılır.

Hazırda Azərbaycanın ali məktəblərində 50-yə yaxın ölkədən minlərlə əcnəbi tələbə təhsil alır. Belə bir nəticə ali təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi və təhsilin keyfiyyətinin yüksəldilməsi, ən başlıcası isə ölkə daxilində yaradılmış sabit və sağlam mühit sayəsində əldə edilib.

Azərbaycan Xəzər dənizindən Aralıq dənizinə və Qara dənizinə dəhliz yaradan ilk ölkədir. Ölkəmiz öz neft və qazını nəql etmək üçün şaxələnmiş boru kəmərləri çəkmişdir. BTJ neft кəmərinin və BTƏ qaz кəmərinin istifadəyə verilməsi, qədim İpəк Yolunun bərpası, ən azı 100 il xidmət edəcəк TANAP layihəsi və nəhayət, yaxın gələcəкdə reallaşacaq Baкı-Tbilisi-Qars dəmir yolu ölkəmizin gələcəк inкişafında mühüm rol oynayacaqdır. Enerji potensialımız regionun, xüsusilədə Avropanın enerji təhlüкəsizliyində mühüm amildir.

Ölkəmizin 2019-cu il dövlət büdcəsinin gəlirləri22 917 500,0 min manat, xərcləri 24 780 100,0 min manat nəzərdə tutulmuşdur. İqtisadiyyatın rəqabətqabiliyyətliliyi baxımından Azərbaycan MDB məкanında liderdir.

Son illərdə Azərbaycanda baş verən proseslər, müxtəlif sahələrdə həyata keçirilən islahatlar, ölkənin daimi inkişafı üçün gələcəyə sərmayə əhəmiyyəti daşıyan layihələr Azərbaycanın günü-gündən inkişaf etməsini gözlə görüləcək qədər sürətli hala gətirib çıxarır. Bir ölkənin gələcəyi, gələcək potensialının güclənməsi dedikdə əlbəttə ki, bunu gənc nəsil olmadan düşünmək mümkün deyil. Bu gün Azərbaycanın öz gənc nəslinə qoyduğu sərmayə, sabah ölkəmizin inkişafı şəklində bizə geri dönəcəkdir. Çünki məhz insan kapitalına qoyulan sərmayə gələcəyə yönəlmiş ən səmərəli yatırım sayılmaqdadır. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları dövlətin gənclər sahəsinə göstərdiyi maraq, onun daimi inkişafı və potensialının düzgün sahələrdə istifadə olunmasına verilən əhəmiyyətin göstəricisidir.

**Ədəbiyyat**


1. İsgəndərovR.К. Elmi-texniкitərəqqi: sosial-iqtisadi aspektlər. Baкı: Elm, 2010, 656 s.

2. Yoxsulluğun Azaldılması və Davamlı Inkişaf üzrə Dövlət Proqramı (2008-2015-ci illər)

3. "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı

4. Azərbaycan Respubliкasında İnsan İnкişafı haqqında hesabat. Birləşmiş Millətlər Təşкilatının İnкişaf Proqramının Azərbaycandaкı Nümayəndəliyi, 2002, 88 s.

5. MehbalıyevS.S., İsgəndərovR.К. Əməк bazarı və əhalinin sosial müdafiəsi. Baкı: Çaşıoğlu, 2002, 544 s.



**Summary**

***Isgandarov R.K.***

**Factors Affecting the Development of the Knowledge Economy**

*In article the essence of the human capital which provides strengthening of economic force of the country is explained, and also influence of integration of education to the European educational space on its development is analyzed. Value of the state decisions on this question, productive cooperation with the international organizations is underlined.It is underlined that, use by natural resources on a maximum, improvement of system of education for development of the human capital plays important role in construction of the happiest future of the country*

***Key words:*** *science, country, world, development, economic, human capital, international, global, education, higher education, secondary special education, youth*


## MİLLİ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİNDƏ AQRAR SAHƏNİN İXRAC POTENSİALININ ARTIRILMASI İSTİQAMƏTLƏRİ


***Mikayılova S. M.***

*AMEA-nın İqtisadiyyat İnstitutu*



***Açar sözlər:*** *qeyri-neft sektoru, aqrar sahə, ixrac potensialı, sosial və istehsal infrastrukturu, ərzaq böhranı, ərzaq təhlükəsizliyi*


Azərbaycan bazar münasibətləri əsasında müstəqil inkişaf edən ölkədir. Son dövrlərdə problemlərin həlli istiqamətində çoxlu işlər görülmüşdür.

Neftdən asılılığın aradan qaldırılması naminə qeyri neft sektorunun inkişafı üçün münbit şərait yaradıldı. Aqrar sahədə islahatların müvəffəqiyyətlə həyata keçməsi üçün bu sahədə bazar iqtisadiyyatını bərqərar etmək və sahibkarlığın formalaşdırılması məqsədilə bu illər ərzində çoxlu sayda qanunlar, fərman və sərəncamlar, digər normativ-hüquqi aktlar qəbul edilmişdir. Aqrar sahənin əsas tərkib hissəsi olan K/t-nın mövcud problemlərinin aradan qaldırılması yolu ilə sahənin inkişafına ilk növbədə ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından yanaşılması diqqət mərkəzindədir. Aqrar sahənin qarşısında duran ən mühüm vəzifə ekoloji cəhətdən təmiz məhsul istehsalına nail olunmasıdır. Bütün bunlardan sonra ölkəmiz dünya bazarında kənd təsərrüfatı və ərzaq məhsulları ixracatçısı kimi layiqli yerini tuta bilər. Ölkəmizin yerləşdiyi coğrafi mövqeyi və iqlim şəraiti aqrar sahənin ixrac potensialını ilk növbədə pambıq, fındıq, pomidor, üzüm, digər meyvə-tərəvəz, konserv məhsulları, şərab məhsulları, yun, barama, gön-dəri məhsulları və s. üzrə ixtisaslaşmasına imkan verir. Bu sahənin inkişafı üçün kənddə sosial və istehsal infrastrukturunun keyfiyyətinin yüksəldilməsi əsas məsələlərdən biridir. K/t-da elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin tətbiqinin stimullaşdırılması məqsədilə bu sahəyə investisiya yatırımları yönəldilməsi ÜDM-da onun xüsusi çəkisi daha da artırılmalıdır. Belə olan halda aqrar sahənin və kənd təsərrüfatı məhsullarının dünya bazarında rəqabət qabiliyyətliliyini tədricən gücləndirmək olacaqdır.

Ölkə iqtisadiyyatının bəzi ərzaq məhsulları üzrə asılılığını aradan qaldırmaqla (idxaldan) inkişafa nail olmaq olar.

Hal-hazırda istehsalı mümkün olan ərzaq məhsulları və xammalın ölkəmizdə istehsalı üçün şərait yaradılır, ət və quş əti məhsullarının tələbatı əvvəlki illərdən fərqli olaraq minimuma çatdırılır. Ərzaq məhsulları və xammalın təhülkəsizliyinin təmin edilməsi baxımından aşağıdakı göstəricilər sistemindən istifadə olunması məsləhətdir:

- ərzaq məhsullarından istifadə mümkünlüyünün səviyyə göstəriciləri – buraya ərzaq məhsulları strukturuna uyğun olaraq münasib qiymətlərdə satılması aiddir;
- k/t-ı və yeyinti sənayesi məhsullarının qiymət-indeksi;
- k/t-da əmək məhsuldarlığının artması göstəricisi;
- k/t-da çalışanlarla ölkə iqtisadiyyatında məşğul olanların orta gəlir səviyyəsi arasındakı hədd göstəricisi (80%);
- aqro-sənaye kompleksinə, o cümlədən k/t-na investisiyaların cəlb edilməsi indeksi və s.

İnvestisiyaların çoxluğu istehsalın inkişafına, ixracın həcminin artırılmasına, məşğulluğun təmin olunmasına təkan verir. Dövlətin ən əsas funksiyalarından biri daha mütərəqqi təsərrüfatçılıq modellərinin tətbiqinə şərait yaradılması, yerli sahibkarlara əlavə dəyərin yaradılmasına birbaşa iştirak etmək imkanı verən alternativ yolların axtarılmasıdır. Bunun üçün k/t məhsulları istehsalçılarının təşkilatlanması, onların könüllü əməkdaşlığa yönəldilməsi çox mühüm əhəmiyyətə malikdir. “Bazar tənzimləyir, dövlət yönəldir” prinsipinin aqrar tənzimləmədə universallığını XX əsrin II yarısı və XXI əsrin əvvəllərindəki bu sahədəki dünya təcrübəsi təsdiq edir. Dövlətin o dövrdə apardığı torpaq islahatları və bazar iqtisadiyyatına keçidlə əlaqədar aqrar tənzimləmə nəticəsində 1960-cı illərdə Cənubi Koreyanın, Tayvanın, 1970-ci illərdə Meksikanın, Tailandın, Malayziyanın və digər dövlətlərin iqtisadiyyatı üçün əlverişli şərait yaratmış və onları inkişaf edən ölkələrə çevirmişdir. 1980-ci illərdə Çində kənddə ailələrin müstəqil təsərrüfatçılıq etməsi, torpağın uzunmüddətli icarəyə verilməsi, məhsulun tədarükdən sonra qalan hissəsinin sərbəst olaraq bazarda reallaşmasına icazə verilməsi ölkənin dünyanın aqrar sahədə ən mühüm istehsalçılar sırasına çıxmasına imkan verdi. Qeyd edilməlidir ki, SSRİ dövründə Azərbaycanda xeyli geniş potensiala malik olan aqrar sahə formalaşmışdır,lakin keçid dövründə ölkəmizdə iqtisadi sahədə baş verən maliyyə böhranı aqrar sahəni də əhatə etmiş və təkcə əsas ərzaq məhsulları növləri istehsalı sahəsində deyil, həm də k/t-ı istehsalının ümumi həcmində geriliyə səbəb olmuşdur. Heç bir ölkə dünya iqtisadiyyatından asılı olmadan, tək başına iqtisadi inkişafa nail ola bilməz, iqtisadiyyatının dünya təsərrüfat sisteminə qoşulması üçün əsas məsələ aqrar sənaye məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi və ixrac potensialının artırılmasıdır. İxrac potensialıölkənin iqtisadi potensialının bir hissəsi olmaqla, iqtisadiyyatın ayrı-ayrı sahələrinin istehsal vasitələrindən tam şəkildə istifadə edilməsi nəticəsində lazımi miqdarda və keyfiyyətdə müxtəlif növ məhsul istehsalını ixrac etmək qabiliyyətidir. Hər bir ölkənin sosial iqtisadi inkişafında aqrar sənaye müəssisələrinin ixrac yönümlü məhsul istehsalının artırılması əsas məsələdir. Aqrar sahənin spesifik xüsusiyyətləri – hər biri lazımi qədər iri həcmdə məhsul istehsal edən və bununla da bazarda qiymət səviyyəsinə təsir edən çoxsaylı əmtəə istehsalçılarının olması, istehsal vasitələrindən, torpaq ehtiyatlarından birgə istifadəsi təbii şəraitdən asılı olması, bu sahənin riskli olması, buraxılan məhsulların qiymətinin əmələ gəlməsinin müxtəlifliyi,k/t-ı bazarına azad daxil olması və bazarı sərbəst şəkildə tərk etmək və s. daxildir. Dünyada baş verən iqtisadi, siyasi, təbii proseslər eyni zamanda dünya əhalisinin artım surəti ərzaq məhsullarına tələbatın kifayət qədər ödənilməsində bir sıra problemlər yaratmışdır. İstehsal resurslarının artım sürəti ilə ərzaq məhsullarının artım

sürəti arasında yaranan ciddi disproporsiya dünya əhalisinin ərzaq təminatında mühüm çətinliklər yaratmışdır. Dünya ərzaq təhlükəsizliyi sistemində Azərbaycan Respublikasının da xüsusi yeri vardır. Ölkəmizdə kənd təsərrüfatı və ərzaq məhsulları ixracının dinamikasını nəzərdən keçirmək yerinə düşərdi.

**2001-2017-ci illərdə Azərbaycanın kənd təsərrüfatı və ərzaq məhsulları ixracı (min ABŞ dolları ilə)**

**Cədvəl**

| | 2001 | 2005 | 2010 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|
| Meyvə | 11982,0 | 146432,4 | 112484,3 | 220247,8 | 243755,3 | 292048,7 |
| Tərəvəz | 856,3 | 26224,4 | 42344,5 | 91681,2 | 129030,9 | 210089,9 |
| Meyvə-tərəvəz emal məhsulları | 2122,8 | 16772,6 | 21518,2 | 10856,8 | 11414,9 | 15388,6 |
| Heyvan və bitki mənşəli yağlar | 2957,0 | 68417,6 | 188255,5 | 153335,3 | 17113,8 | 17046,9 |
| Şəkər və şəkər məhsulları | 0,0 | 91,5 | 146451,9 | 212207,5 | 62275,0 | 40244,2 |
| Şokolad məhsulları | 0,0 | 397,6 | 3156,9 | 7648,8 | 4940,7 | 6017,1 |
| Çay | 3145,2 | 14129,5 | 33360,8 | 19505,5 | 6197,7 | 10291 |
| Spirtli və spirtsiz içkilər | 3403,4 | 9400,5 | 15142,2 | 25829,5 | 18731,3 | 21923,1 |
| Pambıq | 15189,5 | 44008,2 | 15892,1 | 19504,9 | 24 231,6 | 51962,3 |
| Gön dəri | 1566,4 | 2181,0 | 11775,5 | 12179,0 | 15092,5 | 14979 |
| Tütün və tütün əvəzediciləri | 24603,2 | 25814,2 | 6830,0 | 9406,3 | 8898,9 | 15304 |
| Digər | 19457,1 | 40375,6 | 25646,1 | 20331,4 | 20580,6 | 29723,2 |
| Cəmi | 67771,6 | 434620,7 | 622858,0 | 802634,0 | 563263,2 | 707057,2 |

Cədvəldən göründüyü kimi, 2017-ci ildə 707057 min ABŞ dolları təşkil etmişdir ki, bu da 2016-cı illə müqayisədə 143794,0 min ABŞ dolları həcmində və yaxud 25,5% çoxdur.

Məlumdur ki, ərzaq məhsullarının və qida təhlükəsizliyinin təmin edilməsi çox mühüm bir işdir. Ərzaq böhranının yaranmasının əsas səbəbi inkişaf etmiş ölkələrdə gəlir gətirən sahələrə nisbətən aqrar sahəyə maliyyə vəsaitinin az ayrılmasıdır. Dünyada əhalinin sayının belə artması ərzaq məhsullarının qıtlığına səbəb olur. Qeyd etmək yerinə düşər ki, dünya dövlətləri qarşısında duran ən vacib məsələlərdən birincisi ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Statistik məlumatlara görə son illərdə ərzağın əsas növü olan taxıl istehsalı xeyli artmış, onun idxalı minimum həddə endirilmişdir.

Tədqiqatlara görə, əhalinin təbii artımı nəzərə alınmaqla ölkədə taxıl istehsalı 30-40% artacaqdır. Aqrar sahədə yeni təsərrüfat formalarının yaradılması ərzaq təhlükəsizliyinin təmin edilməsində xüsusi rol oynayır. Ölkəmizdə hazırda bir çox iqtisadi rayonların – Ağcabədi, Bərdə, Kürdəmir, Biləsuvar, İmişli, Saatlı, Sabirabad və s. təsərrüfatları uğurla fəaliyyət göstərir, qida məhsulları istehsalı yerli xammal istehsalına əsaslanır və rəqabətqabiliyyətli məhsulların istehsalına səbəb olur. Respublikada k/t məhsullarının tədarükü və saxlanması sahəsində çox önəmli işlər həyata keçirilir, son illər respublikanın rayonlarında ərzaq-məhsullarının saxlanması məqsədilə və taxıl məhsullarının saxlanması üçün 15 anbar verilmiş, özəl qurumlarda müxtəlif tədarük gücünə malik 80-ə qədər taxıl anbarları, 185-ə qədər un dəyirmanları işə düşmüşdür. K/t-ı məhsullarının tədarükü saxlanması və emalı sahəsində son dövrlər xeyli işlər görülür. Aqrar sahədə yeni təsərrüfat formalarının yaradılması ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır, ona görə dövlət onlara maliyyə yardımları göstərir.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına görə, ərzaq istehsalının illik artımı 1985-1995-ci illərdə 12 mln. ton təşkil edirdisə, 2030-cu ilədək bu göstərici cəmi 9 mln. ton səviyyəsində olacaqdır. Ona görə də ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün dünya miqyasında ərzaq məhsulları istehsalının azalması məsələsi hər bir ölkə üçün mühüm əhəmiyyət kəsb edir.

Aqrar sahədə həyata keçirilən tədbirlər əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsinə və idxal məhsullarından asılılığın azalmasına ixrac potensialının genişləndirilməsinə səbəb olur. Ölkə prezidentinin 25 avqust 2008-ci il tarixli sərəncamı ilə təsdiqlənmiş 2008-2015-ci illərdə "Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" da icra olundu və ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasına təsir göstərdi.

İdxal məhsullarının tərkibində ərzaq məhsullarının xüsusi çəkisini azaltmaq məqsədilə aşağıdakı tədbirlərin görülməsi vacibdir:

- istehsalı yüksək xərclər hesabına başa gələn ərzaq məhsulları və xammallar;
- istehsal edilməsi mümkün olmayan ərzaq məhsulları və xammalın ölkəyə gətirilməsi təmin edilməlidir.

Əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması üçün ərzaq təhlükəsizliyinin təmin edilməsinə yönəldilən fəaliyyətin səmərəliliyinə təsir edən faktorlar – daxili bazarda yerli k/t və ərzaq məhsullarının

xüsusi çəkisinin yüksəltmək,ərzaq məhsullarının qiymətinə güclü nəzarətin edilməsi, əhalinin istehlak qabiliyyəti tələblərinin stimullaşdırılması, ekoloji cəhətdən təmiz məhsul istehsalı və onun bazara çıxarılması və sairə kimi mühüm faktorlar xüsusi nəzarətdə saxlanmalıdır.

**Ədəbiyyat**


1. Azərbaycan regionları ARDSK. Bakı, 2017-2018-ci il.
2. Nuriyev Ə.X.Davamlı və tarazlı regional inkişaf. Bakı: Avropa nəşriyyatı,2017, 242 s.
3. Əliyeva R.Ə.İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı,El nəşriyyatı, 2013.
4. Mikayılova S.M.İqtisadi təhlükəsizlik. Bakı, İqtisad Universitetinin nəşriyyatı, 2015, 372 s.



**Резюме**

***Микаилова С.М.***

**Направления повышения экспортного потенциала аграрного сектора в обеспечении национальной экономической безопасности**

*В статье рассматриваются меры, принимаемые для повышения экспортного потенциала аграрного сектора, а также общие элементы благоприятного инвестиционного климата, в том числе хорошее управление, макроэкономическая стабильность, прозрачная торговля, уважение прав собственности и т. Д. Такие факторы могут привести к развитию аграрных полей. Рассматриваются пути решения инвестиционных стимулов для обеспечения продовольственной безопасности и правильной организации социальной и производственной инфраструктуры в аграрном секторе.*

***Ключевые слова:****ненефтяной сектор, аграрный сектор, экспортный потенциал, социальная ипроизводственная инфраструктура, продовольственный кризис, продовольственная безопасность*



**Summary**

***Mikayilova S. M.***

**Areas of Increasing the Export Potential of the Agricultural Sector in Ensuring National Economic Security**

*The article deals with the measures taken to increase the export potential of the agrarian sector. Common elements of a favorable investment climate, including good governance, macroeconomic stability, transparent trade, respect for property rights, etc. factors can lead to the development of agrarian fields. The ways to solve investment incentives for the provision of food security, and the proper organization of social and production infrastructure in the agrarian sector are considered.*

***Key words:****non-oil sector, agrarian sector, export potential, social and production infrastructure, food crisis, food security*


## AZƏRBAYCANDA TEXNOPARKLARIN İNKİŞAF ETDİRİLMƏSİ VƏ STİMULLAŞDIRILMASI İSTİQAMƏTLƏRİ


***Mirzəbəyov A.Ə.***

*Sumqayıt Dövlət Universiteti*



***Xülasə.*** *Məqalədə respublikamızda texnoparkların inkişaf etdirilməsinin zəruriliyi əsaslandırılmışdır. Azərbaycanda texnoparkın yaradılması və fəaliyyəti üçün dövlət dəstəyi tədbirləri nəzərdən keçirilmişdir. Texnoparkların yaradılmasının stimullaşdırılması tədbirlərinin görülməsinin məqsədəuyğunluğu əsaslandırılmışdır.*



***Açar sözlər:*** *texnopark, innovasiya, texnologiya, sənaye, inkişaf*


Müasir dövrdə qanunvericilik bazasının təkmilləşdirilməsi, eləcə də yerli və xarici investisiyaların, müasir yüksək texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi ilə yüksək keyfiyyətli, rəqabətqabiliyyətli məhsulların istehsalı Azərbaycan iqtisadiyyatının prioritetlərindəndir. Həyata keçirilən iqtisadi siyasətin əsas prioritetlərindən biri də ölkəmizdə yüksək texnologiyaların inkişafı, bu sahədə yeni müəssisələrin və iş yerlərinin yaradılması və nəticə etibarilə əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasıdır. Belə ki, yüksək texnologiyaların inkişafı istiqamətində uğurlu islahatlar aparılmış, bu sahənin inkişafı xüsusi diqqətdə saxlanılmış və ölkədə yeni institutsional strukturlar tətbiq edilməkdədir. Azərbaycan hazırda özünün iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi və yeni inkişaf mərhələsində möhkəmlənməsi dövrünü yaşayır. Milli iqtisadiyyatın əsas sektorları üzrə strateji inkişaf hədəfləri müəyyənləşdirilmişdir və intensiv

olaraq onların həyata keçirilməsi prosesləri gedir. Bununla bağlı olaraq, iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən ölkə iqtisadiyyatının aparıcı sahəsi olan sənaye sektorunda əlavə dəyər yaradan mənbələrin müəyyənləşməsi və onlardan səmərəli istifadə edilməsi aktuallığı ilə diqqət çəkir. Digər tərəfdən əlavə dəyər yaradan fəaliyyət sahələri kifayət qədər maliyyə resursları və investisiyalar tələb edir. Bu baxımdan istənilən sənaye müəssisəsinin və şəbəkəsinin təşkili, fəaliyyətinin genişləndirilməsi üçün maliyyə mənbələrinin formalaşdırılması mühüm məsələlərdəndir.

Qeyd edək ki, sənaye sahələrinin fəaliyyətinin müasir texnologiyalar əsasında təşkil edilməsi, avadanlıqların alınması və tətbiqi məqsədilə birbaşa investisiyaların cəlb edilməsi və maliyyə resurslarının mənbələrinin müəyyənləşdirilməsi mürəkkəb problemlərdən hesab olunur. Bir çox dünya ölkələrində bu kimi strateji vəzifələrin öhdəsindən gəlmək üçün dövlət dəstəyi mexanizmləri tətbiq edilir. Texnoparklar çoxfunksiyalı maliyyə təsərrüfat fəaliyyətini özündə cəmləşdirən sənaye qurğuları, istehsalatları, mini-zavodları olan müəssisələr şəbəkəsidir. Azərbaycanda texnopark institutunun səmərəli inkişaf etdirilməsi məqsədilə dövlət tərəfindən ardıcıl şəkildə tədbirlər görülməkdədir. 2009-cu ildən fəaliyyətə başlayan Sumqayıt Texnologiyalar Parkı ölkənin ilk texnoparkı kimi mühüm əhəmiyyət kəsb edir. Bundan əlavə, ölkəmizdə fəaliyyət göstərən texnoparklara dövlət tərəfindən müəyyən dövr üçün konkret olaraq 7 illik güzəştlər verilmişdir [3].

Bütün bunlar ölkə texnoparklarının özlərinin maliyyə resurslarının formalaşdırılmasına, inkişafına, maddi-texniki bazanın gücləndirilməsinə əlavə stimullar verir.

Azərbaycanda Sumqayıt şəhərində əsasən kimya sənayesinin tələbatını ödəmək üçün tikilən texnoparkda ağır maşınqayırma, sənaye qazlarını tutan cihazlar istehsalı mənimsənilmiş, günəş panelləri istehsalı zavodu tikilmişdir. Respublikamızda Sumqayıt şəhərindən başqa Gəncə şəhərində, Bakı şəhəri Balaxanı rayonunda məişət tullantıları emalı zavodunun yanında texnopark yaradılması nəzərdə tutulur. Bunlardan başqa Naxçıvan, Mingəçevir, Şirvan kimi şəhərlərdə də yaxın gələcəkdə texnopark tikintisi nəzərdə tutula bilər [2, səh. 10].

**Azərbaycanda texnoparkın yaradılması və fəaliyyəti üçün dövlət dəstəyi tədbirləri [1, s.66]**

**Cədvəl .1**

| Həyat dövrü mərhələləri | İdarəetmə səviyyələri | |
|---|---|---|
| | Respublika | Region |
| Yaradılması | Normativ-hüquqi bazanın təkmilləşdirilməsi. Texnoparkın həyat dövrü mərhələlərində özəl-dövlət əməkdaşılığının forma və şərtlərinin normativ müəyyən edilməsi. Texnoparkların inkişaf proqramının işlənməsi. Sahə inkişafının elmi-texniki siyasətinin işlənməsi. Dövlət büdcəsindən parkların infrastrukturunun inkişafı və binaların tikilməsinin dəstəklənməsi. | Texnoparklara verilən xidmətlər üzrə məlumat bazalarının yaradılması. Səhmlərin əvəzinə girov götürməyən xüsusi ixtisaslaşdırılmış maliyyə müəssisələrinin açılması. Texnoparkda innovasiya proseslərinin məqsədyönlü dəstəklənməsi. Kiçik müəssisələrə ödənişsiz istehsal sahələrinin verilməsi, hüquqi və maliyyə məsləhətlərinin verilməsi. Texnoparkların gələcək inkişafını nəzərə alaraq innovasiya mərkəzlərinin, mühəndis və nəqliyyat infrastrukturunun, yaşayış binalarının tikintisinin və s. inkişafına dəstək. |
| İnkişafı | Bəzi kredit xərclərinin faizlərinin dövlət büdcəsindən ödənilməsi üzrə qanunvericiliyin işlənməsi;<br>a) məhsul və materiallar b) texnoloji avadanlıq və ona ehtiyat hissələri | Yeni məhsula sifarişin formalaşması. Texnoparkların inkişafına büdcədən məqsədli kreditlərin ayrılması. Büdcədən məqsədli kreditlərin ödənişlərinin bəzi hissələrinin büdcə hesabına bağlanması. Texnopark iştirakçıları arasında stimullaşdırma tədbirlərinin həyata keçməsi. Texnoparklar üçün kadrların hazırlanması və ixtisasların artırılması. |
| Stabillik | Texnopark müəssisələrinin innovasiya və investisiya fəaliyyətinin stimullaşdırması üzrə qanunverici tədbirlərin işlənməsi və təkminləşməsi | Əmlak vergisinə, gəlir vergisinə, kommunal ödənişlərə güzəşt məqsədli dövlət proqramlarının monitorinqi, texnoparkların layihələrinin daxil edilməsi |

| | | |
|---|---|---|
| Durğunluq | Stimullaşma xüsusiyyətli vergi rejiminin qəbul edilməsi. Avadanlığın lizinqi üzrə güzəştli maliyyələşmə. Yeni istehsalın təşkili üzrə dövlət dəstəyi tədbirlərinin işlənməsi və s. | Texnoparkların ixtisaslaşdırılması sahələr üzrə məqsədyönümlü inkişaf proqramı. Güzəştli şərtlərlə kreditlərin verilməsi. Yeni növ yüksək texnoloji, innovasiya məhsulunun işlənməsi və mənimsənilməsi üzrə subsidiyaların verilməsi. Vencur investisiyası |

Aydındır ki, dövlətin maliyyə dəstəyi və digər maddi yardım olmadan belə strukturları formalaşdırmaq və səmərəli fəaliyyətini təmin etmək mümkün deyildir. Ona görə də belə layihələrin birbaşa dövlət büdcəsindən maliyyələşdirilməsi, əlavə maliyyə imkanlarının yaradılması məsələlərinə də baxılmalıdır. Məsələn, Bakı və Sumqayıt şəhərlərində texnoparkın yaradılması və stabil sabit inkişafının təmin edilməsi üçün hökumət tərəfindən güclü dəstək almaq və real şərtlərə uyğun sadə inkişaf strategiyası işlənib hazırlanmalıdır.

Fikrimizcə, ölkədə texnoparkların fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi üçün aşağıdakı tövsiyyələrin reallaşdırılması məqsədəuyğundur:

- Azərbaycan Respublikasının Texnoparklar Assosiasiyasının yaradılması;
- mövcud texnoparkların işinin səmərəliliyinin qiymətləndirilməsi meyarının və onların dəstəklənməsinin vahid normalarının, iş prinsiplərinin işlənilməsi;
- yerli icra hakimiyyəti orqanlarına onların ərazi çərçivəsində texnoparkların inkişafı və dəstəklənməsi üzrə icmal planlarının işlənilməsi və təsdiqinin təklif edilməsi, texnoloji parkların dəstəklənməsi üzrə normativ-hüquqi aktların qəbul olunması;
- texnoparklar Assosiasiyasının Sahibkarlar təşkilatının Milli konfederasiyasının iştirakçıları sırasına daxil edilməsi;
- texnoparkların fəaliyyətinin sahə standartlarının hazırlanması və onların sertifikatlaşma attestasiya sisteminin yaradılması [3].

Ümumiyyətlə, texnoparkların inkişafı ilə bağlı aşağıdakı stimullaşdırıcı tədbirlərin görülməsini məqsədəuyğun hesab edirəm:

- texnoparkların zəruri infrastruktur elementləri ilə təmin etmək;
- inzibati prosedurları sadələşdirməli;
- vergi və gömrük sahəsində stimullaşdırıcı tədbirlər görmək;
- güzəştli əsaslarla kreditlər vermək;
- torpaq sahəsinin icarə haqqının aşağı həddində müəyyən edilməsi;
- sahibkarlıq sahəsində fəaliyyətin səmərəli təşkili üçün xidmətlər formalaşdırılmalıdır və s.

Qeyd edək ki, dünya təcrübəsində texnoparkların təşkilinə və onların maliyyə mexanizmlərinin formalaşdırılmasına yanaşmalar müxtəlifdir. Amma ümumilikdə dünya ölkələrində texnoparkların maliyyələşdirilməsində əsas istiqamət birbaşa dövlət dəstəyi mexanizmləri ilə yanaşı, investisiyaların təşviqi və stimullaşdırılması, investisiya cəlbediciliyi mühitinin yaradılması, güzəştli kreditlərin verilməsi və əvvəldə qeyd etdiyimiz kimi vergi güzəştlərinin verilməsi ilə bağlıdır.

Son dövrlərdə texnoparkların, eyni zamanda sənaye klasterlərinin maliyyə mexanzimlərinin formalaşdırılması və inkişaf etdirilməsi ilə bağlı ənənəvi mexanizmlərin yenilənməsi və təkmilləşdirilməsi zərurəti diqqət çəkir. Bu baxımdan maliyyə mexanizmlərinin təkmilləşdirilməsində dövlət-özəl əməkdaşlığına üstünlük verilməsi praktiki baxımdan daha əhəmiyyətli görünür və sahibkarlığın inkişafında bu amillərin rolu yüksəkdir. Bunlarla bağlı iqtisadiyyatın modernləşdirmə proseslərində texnoparkların çoxfunksiyalılıq xüsusiyyətlərinə xüsusi önəm verilməlidir.

Beləliklə, müasir dövrdə texnoparklarda maliyyə mexanizmlərinin təkmilləşdirilməsi kifayət qədər aktuallığı ilə diqqət cəlb edir. Azərbaycanda texnoparkların yaradılması proseslərinin intensivliyini nəzərə alsaq, ölkəmizin milli iqtisadi təhlükəziliyinin təmin edilməsində bu kimi texnoparkların rolu artmaqdadır və bu baxımdan onların maliyyə mexanizmlərinin adekvatlığının təmin edilməsi vacib şərtlərdəndir. Texnoparkların maliyyə mexanizmləri davamlı və dayanıqlı, diversifikasiya olunmuş mənbələrdən ibarət olmalı, istehsal strukturunun genişləndirilməsi tədbirlərinə, həmçinin müasir texnologiyaların tətbiqi proseslərinin intensivləşdirilməsinə xarici investisiyaların cəlb edilməsi üçün kifayət qədər münbit şərait yaradılmalı və investisiya cəlbediciliyi təmin edilməlidir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 6 dekabr 2016-cı il.

2. Əliyev Ş.T. Xüsusi iqtisadi zonaların təşkili problemləri və inkişaf perspektivləri. Bakı: Elm, 2008, 252 s.

3. Sənaye parkları haqqında Nümunəvi Əsasnamə. Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 24 aprel 2013-cü il.

**Резюме**

***Мирзебеков А.А.***

**Направления развития и стимулирования технопарков в Азербайджане**

*В статье обоснована необходимость развития технопарков в республике. Рассмотрены государственные мероприятия по созданию и деятельности технопарков в Азербайджане. Обоснована целесообразность проведения мероприятий по стимулированию создания технопарков.*

***Ключевые слова:****технопарк, инновации, технологии, промышленность, развитие*

**Summary**

***Mirzebeyov A.A.***

**Directions of Development and Stimulation in Technoparks in Azerbaijan**

*The article substantiates the need for the development of technology parks in the country. State measures for the establishment and operation of technology parks in Azerbaijan were considered. The expediency of carrying out activities to stimulate the creation of technology parks has been substantiated.*

***Key words:*** *technopark, innovation, technology, industry, development*

## XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN QLOBALLAŞMASI

***Musayev V.H.***

*AMEA-nın İqtisadiyyat İnstitutu*

***Xülasə.*** *Təqdim olunmuş tezisdə qloballaşmanın xarici iqtisadi fəaliyyətə təsir imkanları araşdırılır. Qeyd edilir ki, hər bir ölkə özünün müxtəlif növ resurs potensialından çıxış edərək xarici iqtisadi siyasətini formalaşdırır. Bu aspektdə qloballaşmanın müsbət cəhətlərindən daha çox faydalanmaq imkanı yaranır.*

***Açar sözlər:*** *qloballaşma, xarici iqtisadi fəaliyyət, siyasət, iqtisadi inkişaf, ticarət, beynəlxalq*

Məlumdur ki, XXI əsr tarixə sivilizasiyanı keyfiyyətcə yeni bir mərhələsinə qədəm qoymuşdur ki, bu da qloballaşma əsri kimi xarakterizə olunur. Bu əsrin əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, qlobal proseslər inkişaf səviyyələrində, din və mədəniyyətlərində, tarixi ənənələrində mövcud olan fərqlərə baxmayaraq, dünya ölkələrinin və xalqlarının bir-birindən qarşılıqlı asılılığını getdikcə artırır. Nəticədə, artıq xarici bazarlara çıxış, qlobal iqtisadi məkanda cərəyan edən sosial-iqtisadi proseslərdə fəal iştirak və s. kimi məsələlər ayrı-ayrı milli təsərrüfatların mövcudluğunun və dinamik inkişafının zəruri şərtlərindən birinə çevrilmişdir. Başqa sözlə desək, milli iqtisadiyyatın inkişafında xarici amillərin rolu kəskin şəkildə artmışdır.

Qeyd etməkdə lazımdır ki, bütün dünya dövlətləri bu və ya digər dərəcədə bir-birlərindən münasibətlər baxımından asılı vəziyyətdədirlər. Həmçinin, hər bir dövlət özünün iqtisadi inkişafını təmin etmək üçün xarici mühitə açılır və münasibətlər qurur. Belə bir vəziyyəti qloballaşma xüsusiyyəti ilə əlaqələndirən mütəxəssislərin fikrincə, elə xarici iqtisadi fəaliyyət və qloballaşma bir-birlərini tamamlayan dövriyyə prosesidir. Nəzərə almaq lazımdır ki, milli iqtisadiyyatların inkişafının zəruriliyi qarşılıqlı asılılıq prinsipinə əsaslandığından bir sıra nəzəri ideyalar ortaya çıxmışdır. Bunlardan biri də məhz ABŞ iqtisadçısı R.Kuper olmuşdur [1, c.550]. R.Kuperin aparmış olduğu tədqiqatlara görə xarici iqtisadi fəaliyyət və iqtisadi inkişaf arasında dörd cür qarşılıqlı asılılıq vardır. Onlara aşağıdakıları aid etmək olar:

1. Müəyyən bir ölkənin iqtisadi həyatında baş verən ciddi dəyişikliyin dərhal digər ölkələrin iqtisadi həyatında təsirə malik olmasını xarakterizə edən qarşılıqlı struktur asılılıq.
2. Həyata keçirilən iqtisadi siyasətlərin reallaşmasında mühüm rola malik qarşılıqlı məqsədlər asılılıq.
3. İqtisadi inkişafı şərtləndirən və davamlı olmasında rol oynayan xarici effektlərin (amillərin) asılılıq.
4. Qeyri-iqtisadi prosesləri özündə birləşdirən və maraqların təmin olunmasında mühüm rola malik qarşılıqlı siyasi asılılıq [2, s.68].

Müşahidələr göstərir ki, XXI əsrin başlanğıcında dünyada elə sürətli dəyişikliklər baş vermişdir ki, onların geniş miqyası təkcə iqtisadi və siyasi sahələri deyil, insan həyatı və düşüncəsi ilə əlaqədar olan bütün sahələri əhatə etmişdir. Sosial-iqtisadi, siyasi və mədəni-mənəvi proseslərdə özünü göstərən sürətli qloballaşma iqtisadi sahədə daha böyük sıçrayışla baş verir və digər prosesləri də öz arxasınca aparır. Təbii ki, müasir dövrdə siyasətin daha çox iqtisadi məzmun kəsb etməsi müşahidə edilir ki, bu da iqtisadi qloballaşmanın bütün sahələri əhatə etməsinə zəmin yaradır. Eyni zamanda, iqtisadi qloballaşma isə iqtisadiyyatın yalnız beynəlmiləlləşməsi demək deyildir, həmin prosesin yeni və yüksək mərhələsidir.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra dünyaya çıxış imkanları yarandı. "Əsrin müqaviləsi" ilə qlobal iqtisadi məkana daxil olan müstəqil Azərbaycan dövləti özünün yeraltı və yerüstü sərvətlərinin tam hüquqlu və şəriksiz sahibi olduğunu dünyaya sübut etdi. 1994-cü ildən başlayan bu proses, sonralar ticarət münasibətlərin qeyri-neft sektorunda da inkişafına, nəqliyyat əlaqələrinin genişlənməsinə və s. gətirib çıxardı. Beləliklə də, 90-cı illərin əvvəlində bünövrəsi ümummilli lider H.Əliyev tərəfindən qoyulan xarici iqtisadi siyasət uğurla davam edərək, ölkəmizi qlobal məkanın nüfuzlu bir üzvünə çevirdi. Nəhayət, son illərdə bu siyasətin dövlət başçısı cənab İ.Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan bir çox göstəricilərinə görə dünyanın inkişaf etmiş ölkələri ilə bir sıradadır. Azərbaycanın bu istiqamətdə əldə etdiyi uğurlar dəfələrlə nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də təsdiq edilmiş, bu təşkilatların hesabatlarında öz əksini tapmışdır. Nəzərə alsaq ki, ölkəmiz zəngin ehtiyatlara malikdir ki, bu ehtiyatlardan səmərəli şəkildə istifadə etməklə qlobal məkanda Azərbaycanın nüfuzunu daha da artırmaq mümkündür. Ona görə də, bu istiqamətdə ardıcıl addımların atılması, eyni zamanda dünyada baş verən proseslərin, mövcud reallıqların da dəqiqliklə nəzərə alınması zəruridir.

Ümumilikdə isə, qloballaşma şəraitində beynəlxalq iqtisadiyyatın əsas xarakterik cəhəti aşağıdakılar hesab olunur:

- beynəlxalq ticarət əsasında əmtəələrin mübadilə proseslərinin inkişafı;
- kapitalın, iş qüvvəsinin və texnologiyanın idxal-ixracı nəticəsində istehsal amillərinin beynəlxalq hərəkətliliyinin təmin edilməsi;
- bir neçə ölkədə fəaliyyət göstərən müəssisələr, ilk növbədə, transmilli korporasiyalar çərçivəsində istehsalın beynəlxalq formalarının inkişafı;
- əmtəə və istehsal amillərinin beynəlxalq hərəkətliliyindən asılı olmayan, sərbəst beynəlxalq maliyyə sferasının mövcudluğu;
- iqtisadi inkişafın sabitliyi və tarazlığının təmin edilməsi məqsədilə millətlərarası və daxili, dövlətlərarası və qeyri-dövlət tənzimləmə mexanizmlərinin yaranması;
- açıq iqtisadiyyat prinsipindən çıxış edən dövlətlərin iqtisadi siyasəti və s.

Məhz bu xüsusiyyətlər nəzərə alınmaqla, müasir xarici iqtisadi əlaqələrin daha da genişləndirilməsi, xarici bazarlara çıxış, milli sənayenin rəqabət qabiliyyətinin yüksəldilməsi və s. kimi məsələlərə daha ciddi yanaşılması məqsədəuyğundur. Həm də bütün bunların kontekstində hər bir milli dövlətin qarşısında duran başlıca məsələlərdən biri də mümkün istiqamətlərdə xarici iqtisadi əlaqələri inkişaf etdirməklə yanaşı özünün milli və iqtisadi təhlükəsizliyini etibarlı şəkildə təmin etməkdən ibarətdir. Bu mənada xarici iqtisadi əlaqələrin genişləndirilməsi, əlaqələrin bütün mümkün və səmərəli formalarından istifadə, milli, iqtisadi və ərzaq təhlükəsizliyi kimi məsələlərə milli və dövlətçilik maraqları çərçivəsində kompleks şəkildə yanaşılması daha məqsədəuyğundur.

Xüsusən də vurğulamaq lazımdır ki, dövlət səviyyəsində birmənalı olaraq elan edilmişdir ki, xarici iqtisadi əlaqələr sferası üzrə konkret sahələr tənzimləmə obyekti kimi daima diqqət mərkəzində saxlanılır. Bunlara aşağıdakıları aid etmək olar:

• idxal-ixrac əməliyyatları;
• investisiya cəlbi və qoyuluşu üzrə əməliyyatlar sferası;
• elmi-texniki əməkdaşlıqla bağlı münasibətlər sahəsi;
• birgə və birbaşa müştərək müəssisələrin yaradılması ilə əlaqədar fəaliyyət sferası;
• iş qüvvəsinin beynəlxalq hərəkəti üzrə sfera;
• istehsalın beynəlxalq kooperasiyası sferası;
• valyuta-kredit əməliyyatları üzrə sfera;
• turizmin inkişafı ilə əlaqədar fəaliyyət sferası;
• azad ticarət zonalarının yaradılması ilə bağlı fəaliyyət sferası və s.[3, s.366].

Son dövrlərdə Azərbaycanın dünya dövlətləri ilə beynəlxalq ticarət, iş qüvvəsinin hərəkəti, kapitalın və beynəlxalq kreditin gətirilməsi, xarici valyuta münasibətləri, beynəlxalq elmi texniki və istehsal üzrə əməkdaşlıq sahələri üzrə xeyli işlər görülmüşdür. Bu əlaqələr əsasən gömrük işi sahəsində iki tərəfli əməkdaşlığın formalaşması və inkişafı sahəsində həyata keçirilmişdir. Beynəlxalq gömrük əlaqələrinin

qurulmasında Azərbaycanın gömrük işi sahəsində imzalanmış beynəlxalq müqavilələrdə və beynəlxalq təşkilatlarda fəal iştirakı əvəzsizdir və bu istiqamətdə hazırda böyük işlər həyata keçirilməkdə davam edir. Belə əməkdaşlıq sahələri üzrə təşkilatlara Dövlət Gömrük Komitəsi İqtisadi Əməkdaşlıq təşkilatı, BMT İnkişaf Proqramı, MDB Gömrük Xidməti Rəhbərləri Şurası, Gömrük Əməkdaşlığı Şurası və s. ilə sıx əməkdaşlıq edir [4, s.229].

### Ədəbiyyat


1. Авдошкун Н. Международныеэкономическиеотношения. М.:2009.
2. Vəliyev D. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı: 2008, 428 s.
3. Ələsgərov A.K. Müstəqil Azərbaycan Respublikası dünya ölkələri ilə xarici iqtisadi əlaqələrdə: reallıqlar və problemlər. AMEA İqtisadiyyat İnstitutu. Elmi əsərlər. 03.2008-ci il.
4. Aslanov H.H.Xarici iqtisadi fəaliyyətin tənzimlənməsinin inkişaf meyilləri və istiqamətləri. “Azərbaycan İqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr” mövzusunda Beynəlxalq elmi-praktiki konfrans materialları. Bakı, 2010.



**Резюме**

***Мусаев В.Х.***

**Глобализация внешнеэкономических связей**

*В представленной статье рассматривается влияние глобализации на внешнеэкономическую деятельность. Отмечено, что каждая страна, обладая разными потенциальными ресурсами, формирует внешнеэкономическую политику. В этом аспекте можно извлечь больше пользы из позитивных аспектов глобализации.*

***Ключевые слова:*** *глобализация, внешнеэкономическая деятельность, политика, экономическое развитие, торговля, международный*

**Summary**

***Musayev V.H.***

**Globalization of Foreign Economic Relations**

*The article presents the impact of globalization on foreign economic activity. It is noted that each country, possessing different potential resources, forms foreign economic policy. In this aspect, it is possible to derive more benefit from the positive aspects of globalization.*

***Key words:*** *globalization, foreign economic activity, politics, economic development, trade, international, etc*


## ÖLKƏNİN DAVAMLI İNKİŞAFINDA NƏQLİYYAT İNFRASTRUKTURUNUN ROLU


***Musayeva C.Q.***

*Mingəçevir Dövlət Universiteti*



***Xülasə.*** *Məqalədə nəqliyyat infrastrukturunun ölkənin iqtisadi inkişafına, o cümlədən ticarətin genişlənməsinə, iqtisadiyyatda əlavə dəyərin yaranmasına təsiri tədqiq edilmişdir. Həmçinin nəqliyyat sektorunun iqtisadiyyatda payı və digər göstəriciləri üzrə təhlili aparılmışdır.*



***Açar sözlər:*** *nəqliyyat infrastrukturu, yükdaşıma, ticarət,nəqliyyatın növləri*


Ölkənin xidmət-ticarət sisteminin inkişafında və qeyri-neft sektorunda artımın təmin olunmasında nəqliyyat sektorunun rəqabətqabiliyyətinin artırılması mühüm rol oynayır. Nəqliyyat sektoru digər sahələrin inkişafına multiplikativ təsir göstərir. Belə ki, hər il qeyri-neft sektorunda artımın orta hesabla 20%-dən çoxu nəqliyyatın, təxminən 60%-i qeyri-neft sektoru üzrə yükdaşımaların payına düşür. Digər tərəfdən nəqliyyat sektorunun inkişafı beynəlxalq ticarətin sürətlə artımına və yük daşımalarında logistika mərkəzləri vasitəsilə əlavə dəyərin yaradılmasına təsir göstərir. Müasir nəqliyyat infrastrukturu əsas sahələrə xarici investisiya qoyuluşlarının həcmini artırmağa şərait yaradır və iqtisadi artıma təkan verir. Hesablamalara əsasən demək olar ki, inkişaf etmiş nəqliyyat və logistika ÜDM-də 3%-ə kimi artım verir [1]. Ona görə də əlavə dəyər əldə etmək üçün üç trend amilinin inkişafına diqqət verilməlidir. Birincisi, makroiqtisadi amillər ölkələrarası ticarət həcminin artırılmasına müsbət təsir göstərir. İkincisi, şirkətlər beynəlxalq əməliyyatları

genişləndirmək üçün yeni coğrafi məkan bölgüsünü yaxşılaşdırır və az xərclə istehsal imkanlarından faydalanmaqla istehsal əməliyyatlarını artırır. Üçüncüsü, informasiya və kommunikasiya texnologiyalarının və nəqliyyat sistemlərinin texniki imkanlarının inkişafı ticarət imkanlarının genişlənməsinə təkan verir.

Azərbaycan beynəlxalq, tranzit ticarətinin həcmini nəqliyyat infrastrukturunun inkişafı və coğrafi mövqeyi sayəsində müntəzəm genişləndirir. Bu isə ölkənin beynəlxalq və regional ticarətdə rolunun artmasını dəstəkləyir. Azərbaycan iqtisadiyyatında nəqliyyat sektorunun əhatə dairəsi çox genişdir və özündə avtomobil, dəmiryolu, metro, hava, su nəqliyyatı və boru nəqliyyatı sistemlərini birləşdirir. Nəqliyyat xidməti iki növ xidmətlər üzrə qiymətləndirilir: yükdaşıma və sərnişindaşıma. AR Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən nəqliyyat xidmətləri üzrə ölkəmizdə son illər yükdaşımalar üzrə dinamik artım müşahidə edilmişdir. Ölkə iqtisadiyyatında nəqliyyat sektorunun payı 2010-cu ildə 5.6%, 2015-ci ildə 2.1% olmuşdur. İqtisadi islahatların aparılması sayəsində müvafiq göstərici artaraq 2017-ci ildə 6.8% təşkil etmişdir. Nəqliyyat sahəsində inkişafı təmin etmək, ümumi daxili məhsulda nəqliyyatın payını artırmaq, ölkədə iqtisadi artımı sürətləndirilmək, regional ticarət qovşağına çevrilmək məqsədilə bu sahəyə həm dövlət, həm də özəl investisiya qoyuluşunun stimullaşdırılması zəruridir.

Ölkənin nəqliyyat təsərrüfatında dəmir yolu nəqliyyatı xüsusi yer tutur. Azərbaycan ərazisindən beynəlxalq daşımalar, əsasən dəmir yolu vasitəsilə həyata keçirilir. Bu daşımalarda idxal və ixrac əməliyyatlarının həcmi yüksək, yüklərin son təyinat məntəqəsinə çatdırılmazdan əvvəl aralıq məntəqəyə daşındığı tranzit yükdaşımaların həcmi isə nisbətən aşağıdır. Hazırda beynəlxalq əhəmiyyətli Bakı-Tbilisi-Qars dəmiryolunun istifadəyə verilməsi, Şimal-Cənub və Şərq-Qərb istiqamətində mövcud dəmir yolu xətlərinin yenidən qurulması və təkmilləşdirilməsi gələcəkdə həm ölkədaxili, həm də beynəlxalq yükdaşımalar üzrə xidmətlərin artırılmasına imkan verəcəkdir. Dəmiryol vasitəsi ilə 2015-ci ilə kimi yükdaşımalar üzrə nəticələr kifayət qədər yüksək olmuşdur. Belə ki, əvvəlki 5 il ərzində orta hesabla hər il təxminən 22,5 mln ton yük daşındığı halda, 2017-ci ildə bu göstərici azalaraq müvafiq olaraq 18,2 mln ton olmuşdur. Azərbaycanda dəmiryollar ilə daşınan yükdaşımaların təxminən 23%-i daxili yükdaşımanın, 32%-i idxal yüklərinin, 21%- ixrac yüklərinin və 24%- isə tranzit yüklərinin payına düşmüşdür.

Nəqliyyat sektorunda daşımaların həcminə görə ən böyük paya avtomobil nəqliyyatı malikdir. Ümumi daşıma zamanı yaranan əlavə dəyərin təxminən 70%-i avtomobil nəqliyyatının payına düşür. 2015-ci ildə avtomobil nəqliyyatı ilə 152,2 milyon ton, 2017-ci ildə isə 160.2 milyon ton yük daşınmışdır. 2010-cu ilin göstəricisi ilə müqayisədə 38% artım müşahidə edilmişdir.

Ölkədə 2015-ci ildə dəniz nəqliyyatı vasitəsilə 6,6%aparılan idxal-ixrac əməliyyatları üzrə yük həcmi 0,5 milyon ton, tranzit yükdaşımaların həcmi isə 5,6 milyon ton olmuşdur ki, bu da tranzit yükdaşımaların ümumi həcminin 59 faizi deməkdir.Daşınan yüklərin əksər hissəsini kömür, emal edilmiş neft məhsulları, koks, mineral məhsullar, kənd təsərrüfatı malları, xam neft şəklində maye yükləri təşkil etmişdir. Bununla yanaşı, həm dəmir yolları, həm də limanlarda konteyner daşımaları nisbətən məhduddur. Eyni zamanda dəniz nəqliyyatı hava nəqliyyatı istisna olmaqla digər nəqliyyat növlərinə nisbətən aşağı xidmət səviyyəsi ilə səciyyələnir və əlavə logistika xərclərinə malikdir.

Ölkənin nəqliyyat sistemində neft və təbii qazın nəqli üçün nəzərdə tutulmuş magistral boru kəmərləri xüsusi yer tutur. Boru kəmərləri öz təyinatına görə ölkədaxili və beynəlxalq kəmərlərə ayrılır. Azərbaycanın beynəlxalq boru nəqliyyat sistemi şəbəkəsini əsasən dörd boru, o cümlədən üç magistral neft kəməri və bir magistral qaz kəməri təşkil edir. Onlardan:

-Bakı-Tbilisi-Ərzurum qaz kəməri, 2007-ci ildə istifadəyə verilmiş, uzunluğu 970 km;.

-Bakı-Tbilisi-Ceyhan neft kəməri, 2006-ci ildə istifadəyə verilmiş, uzunluğu 1773 km, layihə gücü ildə 50 mln ton və ya sutkada bir milyon barel neft ötürülməsinə hesablanmışdır. Layihənin ümumi dəyəri 3,6 milyard ABŞ dolları civarındadır;

- Bakı-Supsa neft kəməri, 1999 cu ildə istifadəyə verilib, uzunluğu 837 km;

- Bakı-Novorossiysk neft kəmərini qeyd etmək olar.

Bu kəmərlər vasitəsi ilə son dövrlərdə ildə orta hesabla 45-50 milyon ton neft nəql edilmişdir ki, onun da demək olar ki, dörddə üç hissəsi Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri ilə həyata keçirilmişdir. Magistral qaz kəmərləri ilə isə ildə təxminən 21-22 milyard kub-metr qaz nəql edilmişdir ki, onun da təxminən 30 faizə qədəri Bakı-Tbilisi-Ərzurum boru kəməri vasitəsilə həyata keçirilmişdir.

Beləliklə, iqtisadi səmərəliliyin yüksəldilməsi və qeyri-neft sektorunun perspektiv inkişafı, ticarətin inkişaf etdirilməsi məqsədilə nəqliyyat sektorunun rəqabət qabiliyyətinin artırılması, nəqliyyat xidmətlərinin keyfiyyətinin artırılması mühüm əhəmiyyət kəsb edir. Müasir nəqliyyat şəbəkəsinin mövcud olması iqtisadiyyatın dayanıqlı inkişafı və ölkənin aparıcı tranzit mərkəzlərindən birinə çevrilməsi baxımından vacibdir.

**Ədəbiyyat**
1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı. "Logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"
2. Кузнецова А.И. Инфраструктура. Вопросы теории, методологии и прикладные аспекты современного инфраструктурного обустройства. Геоэкономический подход. М.: Высшая школа, 2006. 456 с.
3.www.mincom.gov.az
4. www.stat.gov.az

**Резюме**

***Мусаева Дж.Г.***

**Роль транспортной инфраструктуры в устойчивом развитии страны**

*Исследовановлияние транспортной инфраструктуры на экономическое развитие страны, в том числе,на расширение торговли, создание добавочной стоимости в экономике.Также анализируется доля транспортного сектора в экономике и другие показатели.*

***Ключевые слова:*** *транспортная инфраструктура, грузоперевозки, торговля, виды транспорта*

**Summary**

***Musayeva J.Q.***

**The Role of Transport Infrastructure in Sustainable Development of the Country**

*The impact of transport infrastructure on the country's economic development, including expansion of trade, to added value in the economy has been researched in thesis. Also was analyzed the share of the transport sector in the economy and other indicators.*

***Key words:*** *transport infrastructure, freight forwarding, trade, types of transport*

## ÖLKƏMİZİN QEYRİ-NEFT SEKTORUNDA RƏQABƏTƏDAVAMLILIĞIN ARTIRILMASI İSTİQAMƏTLƏRİ

***Musayeva R.A.***
*UNEC*

***Xülasə.*** *Məqalədə qeyd olunur ki, ölkəmizin qeyri-neft sektorunda rəqabətədavamlılığın artırılması məqsədilə reallaşdırılan iqtisadi siyasətin davamlılığının təmin olunması üçün mövcud vəziyyətin təhlili və yeni bir iqtisadi inkişaf strategiyasının hazırlanması isitqamətində xeyli işlər görülmüşdür. Dövlət proqramlarına uyğun həyata keçirilmiş tədbirlər regionların gələcəkdə də inkişafı üçün möhkəm zəmin yaratmışdır. Məqalədə ölkəmizdə sənaye sahələrinin gələcəkdə rəqabətədavamlılığının artırılmasının əsas istiqamətləri müəyyən edilmişdir.*

***Açar sözlər:*** *ölkə, qeyri-neft sektoru, rəqabət, davamlı, sənaye, region, istiqamət*

Ölkəmizin sənaye sahəsinin müasir reallıqları və inkişaf prioritetlərini müəyyənləşdirərkən bir sıra problemlərin həll yollarını müəyyənləşdirmişik. Ölkəmiz müstəqillik əldə etdikdən sonra neft sahəsinin sərmayələr vasitəsilə inkişafı neft sənayesinin milli iqtisadiyyatda və ÜDM-da xüsusi çəkisinin yüksəlməsinə səbəb olmuşdur, bu da iqtisadiyyatın başqa sahəsinin inkişafına səbəb olmuşdur. Milli iqtisadiyyatın ancaq xammal, yəni neft sahəsi hesabına tərəqqisi dünya təsərrüfatına inteqrasiya olunduğu mərhələdə məqbul sayılmır. Müasir iqtisadi şəraitdə ölkənin qarşısında prioritet kimi iqtisadiyyatın şaxəli inkişafı, iqtisadiyyatın neftdən asılılığının ləğv olunması, qeyri-neft sahəsinin inkişafı, onun perspektiv istiqamətlərinin müəyyən olunması, sənaye sahəsində müasir strukturun yaradılması və onun keyfiyyətcə modernləşdirilməsi kimi məqsədlər durur.

Müasir iqtisadi münasibətlərin formalaşdığı şəraitdə dünya iqtisadiyyatındakı dinamik artım sürəti, qloballaşma tendensiyaları, dəyişkən xarici mühitdə bir sıra risklərin reallığı, ölkə iqtisadiyyatının rəqabətədavamlılığının, ölkədə dayanıqlı iqtisadi tərəqqinin təmin olunması üçün qeyri-neft sahəsinin artımı məqsədilə ölkənin iqtisadi siyasətinin prioritetlərini təşkil edir. Azərbaycan Respublikası qeyri-neft sahəsinin inkişafı istiqamətində xeyli işlər reallaşdırır [1, 7, 8, 9].

Qeyri-neft sahəsinin inkişaf prioritetləri bir sıra dövlət proqramlarında, 2004-cü ildən başlayıb 2023-cü ilə qədər davam edəcək regional inkişaf proqramlarında, neft və qaz gəlirlərinin 2005-2025-ci illərdə idarə edilməsi üzrə uzunmüddətli strategiyada, «2008-2015-ci illər üzrə ərzaq təhlükəsizliyi» proqamında,

Azərbaycan 2020: Gələcəyə Baxış İnkişaf konsepsiyasında, «2008-2015-ci illər yoxsulluğun azaldılması və davamlı inkişafadair» proqramda, Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət proqramında öz əksini tapmışdır [2, 3, 4, 5]. Azərbaycan Respublikasında reallaşdırılan iqtisadiislahatların və siyasətin davamlılığını təmin olunması üçün iqtisadiyyatın mövcud vəziyyətinin geniş təhlili və yeni bir iqtisadi inkişaf strategiyasının hazırlanması isitqamətində ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə «Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi» təsdiq edilmişdir [6].

Ölkəmizin regionlarının inkişafı uğurla reallaşdırılan davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul olunmuş və uğurla reallaşdırılmış dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası Azərbaycan Respublikasında qeyri-neft sahəsinin davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, biznes mühitinin daha da yaxşılaşdırılmasına, sərmayə qoyuluşunun yüksəlməsinə, yeni sahibkarlıq subyektlərinin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun yüksəlməsinə və yoxsulluq səviyyəsinin aşağı düşməsinə şərait yaratmışdır. Dövlət proqramlarının icra olunduğu 2004–2018-ci illərdəÜDM 3,3 dəfə, o cümlədən qeyri-neft sahəsi üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə yüksəlmişdir. Bu dövrdə reallaşdırılmış məqsədyönlü tədbirlər nəticəsində Azərbaycan Respublikasında 1,5 milyonu daimi olmaqla 2 milyondan artıq yeni iş yeri, 100 mindən artıqsahibkarlıq subyektləri yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə düşmüşdür. Dövlət proqramlarına uyğun olaraq həyata keçirilmiş genişmiqyaslı tədbirlər regionların gələcəkdə də inkişafı üçün möhkəm zəmin yaratmışdır.

Son dövrlərdə ölkəmizdə həyata keçirilən uğurlu iqtisadi tədbirlərə əsasən Konstitusiyanın 109-cu maddəsinin 3-cü bəndini əsas tutaraq, regionların, o cümlədən kənd yerlərinin sosial-iqtisadi inkişafı sahəsində görülmüş işləri növbəti illərdə də davam etdirmək, eləcə də infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, regionlarda yaşayan əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədi ilə 29.01.2019-cu iltarixdə ölkə Azərbaycan Respublikası Prezidenti tərəfindən «Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında Fərmanı imzalanmışdır.

Ölkənin milli iqtisadiyyatında qeyri-neft sahəsinin inkişafı istiqamətləri müəyyən edilərkən onun davamlı şəkildə inkişafının təmin olunması, onun rəqabətədavamlılığının artırılması, qeyri-neft sahəsində təkmil rəqabət mühitinin formalaşdırılması, biznesin həvəsləndirilməsi və tənzimlənməsi, ölkədaxili bazarın stimullaşdırılması, mühafizəsi və s. məqsədilə ölkənin normativ hüquqi bazası və dəstək mexanizmlərinin təkmilləşdirilməsinə ehtiyac duyulur. Ölkəniniqtisadi siyasəti sənaye üzrə reallaşdırdığı struktur siyasəti modern sənaye komplekslərinin, sənaye klasterlərinin formalaşmasının stimullaşdırılmasına, regionlararası təsərrüfat əlaqələrinin təkmilləşdirilməsinə, biznesin texniki təminat baxımından modernləşdirilməsinə, regionlararası disproporsiyaların minimuma çatdırılmasına istiqamətləndirilməlidir.

Qeyri-neft sahəsinin inkişaf istiqamətləri qlobal dünya iqtisadiyyatında baş verən tərəqqi meyllərinə uyğunlaşdırılmalı, əhalinin yüksək həyat səviyyəsi və sosial-iqtisadi inkişafı təmin edilməli, həmçinin bu sahədə iqtisadiyyatdakı struktur dəyişiklikləri reallaşmalıdır. Ölkəmizin dünya iqtisadiyyatına daha sabit və uğurlu inteqrasiyası məqsədilə xarici ticarət dövriyyəsinin ümumi çəkisinin yüksəlməsi ilə bərabər, həmçinin xarici ticarət dövriyyəsinin strukturu rəqabətədavamlı məhsulların istehsalının artımı üçün diversifikasiya edilməlidir.İdxalın milli istehsalla əvəzlənməsi, daxili bazarlarda effektivliyin, ixrac sahəsində rəqabətədavamlılığın artırılması, qeyri-neft sahələrinindiversifikasiyası yönümündə müvafiq tədbirlər reallaşdırılmalıdır. Dövlət qarşıya qoyulan məqsədlərə nail olmaq məqsədilə müəyyənləşdirdiyi iqtisadi strategiyanın həyata keçirilməsində qabaqcıl ölkələrin uğurlu praktikasından bəhrələnməli, əldə olunmuş praktikalar ölkənin mənafeyinə və milli dəyərlərinə uyğun qiymətləndirilməlidir.

Ölkəmizdə sənaye sahələrinin yaxın gələcəkdə rəqabətədavamlılığının artırılmasının aşağıdakı əsas istiqamətlərini müəyyənləşdirmişik:

- qeyri-neft sahəsinin müəyyən olunmuş prioritet inkişaf istiqamətlərinə əsasən marketinq araşdırmalarının aparılması;
- sənaye sahələrinin regional, sahə, texnoloji və təkrar istehsal quruluşunun yenidən formalaşması məqsədilə islahatlarının gücləndirilməsi;
- ölkədə ixracın artırılması üçün rəqabətədavamlı və elmtutumlu məhsullar istehsalının artırılması;
- sənaye sahələri daxilində formalaşmış haqsız rəqabətin aradan qaldırılması və sağlam rəqabət mühitinin stimullaşdırılmasının dövlət tərəfindən dəstəklənməsi;
- sənaye və sənaye klasterlərinin, texnoparkların və sənaye məhəllələrinin formalaşmasının sürətləndirilməsi;

- modern texnologiyalı və elmtutumlu biznes mühitinin inkişafının dövlət tərəfindən stimullaşdırılması tədbirlərinin davam etdirilməsi.

**Ədəbiyyat**

1. Axundov N.F. Qeyri-neft sənaye müəssisələrinin məhsullarının keyfiyyət və istehlak dəyərinin rəqabətqabiliyyətliliyə təsiri/ KTİETİ-nun «Elmi əsərləri»: 4 hissəli, I h., Bakı: KTİETİ-nun «Elmi əsərlərinin» buraxılışı bölməsi, 2018

2. Azərbaycan Respublikası regionlarının (2009-2013-ci illər) sosial-iqtisadi inkişafı Dövlət Proqramı. «Respublika» qəz., Bakı, 2009, 16 aprel.

3. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. «Respublika» qəz. Bakı, 2014, 27 fevral.

4. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər). «Mülkiyyət» qəz., Bakı, 2004, 14 fevral.

5. «Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu iltarixli Fərmanı

6. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmişdir)

7. Əlibəyov N.V. Təsərrüfat subyektlərinin səmərəli fəaliyyətinin iqtisadi mexanizmi. Bakı: MBM, 2014, 404 s.

8. İbrahimov İ.H. Regionlarda sahibkarlığın inkişaf meyilləri və xüsusiyyətləri. Bakı: 2007, 296 s.

9. Гаджиев Г.Б. Современные проблемы и механизмы развития бизнеса в Азербайджанской Республике // Региональная экономика и управление: электронный научный журнал [Электронный ресурс]. М.: 2017, Режим доступа: http://eee-region.ru/article/5029/

**Резюме**

***Мусаева Р.А.***

**Направления развития конкурентоспособности нашей страны в ненефтяном секторе**

*В статье отмечается, что была проделана значительная работа по анализу текущей ситуации и разработке новой стратегии экономического развития для обеспечения устойчивости экономической политики, проводимой в целях повышения конкурентоспособности в ненефтяном секторе нашей страны. Меры, реализуемые в соответствии с государственными программами, создали прочную основу для дальнейшего развития регионов. В статье обозначены основные направления повышения конкурентоспособности отраслей промышленности в нашей стране.*

***Ключевыеслова:** страна, ненефтяной сектор, конкуренция, продолжительный, индустрия, регион, направление*

**Summary**

***Musayeva R.A.***

**Directions of Development of Competitiveness in the Non-oil Sectorof Our Country**

*The article notes that significant work has been done on the analysis of the current situation and the development of a new economic development strategy to ensure the sustainability of economic policies undertaken in order to increase competitiveness in the non-oil sector of our country. Measures implemented in accordance with government programs have created a solid foundation for the further development of regions. The article identifies the main directions of improving the competitiveness of industries in our country.*

***Key words:** country, non-oil sector, competition, sustainable, industry, region, direction*

## İNTERNET MARKETİNQDƏ TƏBİİ REKLAMIN ROLU

***Nəsibov V.N.***

*UNEC*

***Açar sözlər**: təbii reklam, internet-marketinq, rəqəmsal marketinq, internet reklam, reklam bannerləri*

Müasir dövrdə internetin bütün dünyada geniş yayılması ilə əlaqədar marketinq kommunikasiyalarının təşkilinə yanaşma dəyişmişdir. Reklam məlumatlarının istehlakçıya çatdırılmasının

ənənəvi üsulları sayılan televiziya, radio və zahiri reklam gündən günə öz populyarlığını itirir. Aparılmış tədqiqatlardan belə məlum olur ki, 2015-ci ildən başlayaraq Azərbaycanda internet reklamının geniş yayılması hesabına reklamın digər vasitələrinə çəkilən xərclər 10 % azalmışdır. Belə ki, son dövrlərdə internet – reklam müsbət dinamika ilə artan yeganə seqment hesab olunur və bu növ reklama çəkilən xərclərson illərdə 15% artmışdır [6].

Məhz bu səbəbdən marketoloqlar istehlakçının diqqətini yayımlanan informasiyaya yönəltmək üçün internet-marketinqin üstünlüklərindən istifadə etməyə çalışırlar. İnternet-reklamın əsas üstünlüklərinə çəkilən xərclərin az olması, məqsədli auditoriyaya birbaşa müraciət imkanının olması, səmərəliliyin daha asan yolla təyin edilməsinin mümkünlüyü aiddir. Müasir dövrdə reklamı internetdə yerləşdirmək üçün bir çox yeni üsullar mövcuddur.

İnternet - marketinqin əsas xüsusiyyətlərindən biri interaktivliyin olmasıdır. Yəni kommunikasiyanın ənənəvi kanallarından fərqli olaraq, internet istehlakçı ilə əks əlaqənin qurulmasına imkan verir. Buna görə də marketinq informasiyasının yayıldığı mühitə istehlakçının təsir imkanları artmışdır. O cümlədən nəzərə almaq lazımdır ki, müasir internet istifadəçisi ona yönəlmiş reklamdan yayınmağa çalışır. İstehlakçının bu cür davranışı reklam informasiyasının vizual cəhətdən yorucu və ya aşağı keyfiyyətli olması ilə izah olunur. Xüsusiləşmiş reklam zamanı isə istehlakçı özünü müdafiəsiz hiss edə bilər. Belə ki, xüsusiləşmiş reklamda konkret istehlakçının özəl göstəriciləri qeyd olunur.

Bəzi istehlakçılar internetdə yayılan yorucu reklamlardan can qurtarmaq üçün xüsusi proqramlardan istifadə edirlər. Bu proqramların köməyilə internet-reklamlarını bloklamaq mümkündür. Tələbat böyük olduğu üçün hər il həm mobil, həm də stolüstü kompüterlər üçün belə proqramlar işlənib hazırlanır.

Pagefair və Adobe kompaniyalarının 2015-ci ildə apardığı tədqiqatlardan məlum olmuşdur ki, internet istifadəçilərindən olan 198 milyon insan reklamı bloklama proqramlarından istifadə edir. 2014-ci illə müqayisədə bu göstərici 2015-ci ildə 41 % artmışdır və hal hazırda da artmaqdadır [5].

Tədqiqatlar əsasında demək olar ki, reklamı bloklayan insanların sayı ümumi internet istifadəçilərinin 6 – 8 % -ni təşkil edir. Bu tip insanların blokladığı reklamın dəyəri il ərzində təxminən 21 milyard dollardır. Bu isə internet reklamının illik ümumi həcminin 14 %-ni təşkil edir.

Qeyd etmək lazımdır ki, son illərdə həm stolüstü, həm də mobil cihazlar üçün blok-proqramları işləyib hazırlayanların sayı artır. Belə ki, Apple şirkəti tərəfindən İOS 9 mobil əməliyyat sistemi istifadəyə verildikdən sonra istehlakçılar reklamı bloklayan proqramı birbaşa AppleStore-dan yükləyə bilirlər. Android bazasında işləyən cihazlarda da brauzerdə olan reklamları bloklamaq mümkündür.

2015-ci ilin tədqiqatlarına əsasən demək olar ki, bloklanmış reklamların 2 % -i mobil cihazların payına düşür. Analitiklərin fikrincə, bu göstərici yaxın gələcəkdə hər il artmaqda davam edəcəkdir.

Yuxarıda qeyd olunanlardan belə nəticəyə gəlmək olur ki, "banner – korluğu" və reklamı bloklayan istifadəçilərin sayının hər il artması internet – reklamının səmərəliliyinə mənfi təsir göstərir. Auditoriyanın əhatə dairəsi daraldıqca, müştərinin cəlb olunması dəyəri artır. Belə şəraitdə marketoloqlar informasiyanın auditoriyaya çatdırılmasının yeni yollarını axtarıb tapmalıdırlar. Bu məsələdə təbii reklamın rolu çox böyükdür.

Təbii reklamın konsepsiyası keçən əsrdən məlumdur. O dövrdə belə reklam qəzet və jurnalların müvafiq hissələrində yerləşdirilirdi. Bu gün isə təbii reklam internetdə çox aktiv istifadə olunur və onun əsas prinsipləri dəyişməmişdir.

Qeyd etmək lazımdır ki, "təbii reklamı" bir mənalı anlayış kimi qəbul etmək olmaz. ABŞ – nın KENT dövlət universitetindən olan tədqiqatçılar hesab edirlər ki, "təbii reklam" onlayn reklam forması olmaqla yanaşı, yayım zamanı istifadəçidə minimal dərəcədə narahatçılıq yaratmalıdır. Bu zaman yayılan reklam məlumatı yayım yerinə uyğun və istifadəçiyə münasib seçilməlidir [1].

İnteraktiv Reklam Bürosu (Interactive Advertising Bureau, IAB) təbii reklamın əsas 6 formasının istifadəsini tövsiyyə edir. Bunlar aşağıdakılardır [4] :

1. Xəbərlər səhifəsində edilən reklam (in-feed ads) – saytın xəbərlər bölməsində reklam informasiyasının yerləşdirilməsidir. Belə reklamda hər hansı bir əmtəə və ya sponsorluq haqda informasiya verilə bilər.
2. Axtarış sistemlərində yerləşdirilən reklam (search ads). İstifadəçi hər hansı bir sözə uyğun axtarış verdikdə tapılan nəticələrlə birgə reklam nümayiş olunur.
3. Tövsiyəli bloklar. Belə reklam saytda xüsusi müəyyən edilmiş hissədə yerləşdirilir. Belə bloklar xüsusi şüarlarla – "Bu sizin xoşunuza gələ bilər", "Sizin üçün tövsiyə olunur" və s. bu kimi çağırışlarla müşayiət olunur.
4. Elanlar (əmtəə və xidmətlərin birbaşa reklamı). Belə reklam daha yüksək qiymətli olub, əsas səhifələrdə yerləşdirilir.

5. IAB tipli standart reklam. Bu, reklam platformasının tematik xüsusiyyətlərini nəzərə alan reklam banneridir.

6. Digər formatlar. Buraya yuxarıda qeyd olunan formatlara aid olmayan reklamlar daxildir.

Müasir dövrdə internetdə yayımlanan təbii reklamlar günü gündən artır. Belə ki, «Business Insider UK» jurnalında qeyd olunur ki, 2014-cü ildə təbii reklamın bazar həcmi 8 milyard dollar, 2017 – ci ildə isə bu rəqəm 21 milyard dollar olmuşdur [2].

Marketoloqların təbii reklama müraciət etmələrinin bir çox səbəbləri vardır. Bu səbəblərə aşağıdakıları aid etmək olar:

- İnternetdə olan digər reklam formatlarına nisbətən yüksək effektivliyi;
- Qiymətinin ucuz olması və istehsal tezliyinin yüksək olması;
- Yüksək tezlikli olması;
- İstehlakçı tərəfindən bloklamadan yayınmaq mümkündür;
- İstehlakçıda yorğunluq yaratmır;
- Əlavə trafik gətirir.

Əvvəlcədən hazırlanmış şablonların olması hesabına təbii reklam qiymət baxımından ucuz, istehsal cəhətdən isə tez başa gəlir.Nəzərə almaq lazımdır ki, şablonlardan istifadə etmədən, təbii reklamı unikal formada hazırladıqda onun qiyməti artır. Lakin belə reklamın da qiyməti digər vasitələrlə müqayisə etdikdə bir o qədər baha deyil.

İnternet kütləvi informasiya vasitəsində məqsədli auditoriyanı əhatə etmək üçün reklamverici təbii reklamı düzgün yerləşdirməlidir. Reklam düzgün yerləşdirildikdə istehlakçının reklam edilən məhsula və markaya etibarlılıq dərəcəsi artır və istehlakçı ilə qarşılıqlı əlaqə yaranır. Bu zaman reklamın internet səhifənin hansı hissəsində yerləşdirilməsinin də böyük əhəmiyyəti var.

İndi isə səmərəli təbii reklamın yaradılması üzrə bəzi tövsiyələri sizin diqqətinizə çatdırmaq istəyirəm. Mənim fikrimcə, təbii reklam aşağıdakı tələblərə cavab verməlidir:

1. İstehlakçı üçün maraqlı və faydalı olmalıdır;
2. İstehlakçını yormamalıdır;
3. Münasib məqsədli auditoriyanın arasında yerləşdirilməlidir;
4. Reklamın məzmunu səhifənin mövzusuna uyğun və ya yaxın üslublu olmalıdır;
5. İstehlakçı özünü aldadılmış hiss etməməlidir;
6. İstehlakçının materialları şərh etmək və müzakirədə iştirak etmək imkanı olmalıdır.

Təbii reklam gizli xarakteri daşıya bilər. Yəni istehlakçını maraqlandırmaq üçün onda qəsdən çaşqınlıq yarada bilər. Lakin belə təbii reklamın hazırlanması çox çətindir. Bu işə qeyri-peşəkar yanaşdıqda istehlakçı reklamı neqativ qəbul edəcək və ondan uzaqlaşmağa çalışacaq. Belə halda istehlakçının reklamvericiyə qarşı inamı da azalır. Reklamın mahiyyətinin düzgün və vaxtında açıqlanması neqativ effektdən qaçmağa imkan yaradacaq. Yuxarıda qeyd olunan tövsiyələrə riayət etdikdə isə reklam istehlakçını cəlb edəcək və səmərəli işləyəcəkdir.

Sonda aparılmış tədqiqatlardan əldə olunmuş nəticələri sizin diqqətinizə təqdim edirəm. Bu nəticələrə aşağıdakılar aiddir:

1. İstehlakçıların reklamı bloklama proqramlarından istifadə etmələri nəticəsində internet reklamının ənənəvi üsullarının (əsasən bannerlərin) səmərəliliyi aşağı düşür. Nəticədə, müştərinin cəlb olunması dəyəri yüksəlir.

2. Təbii reklam digər vasitələrlə müqayisədə gələcək inkişaf perspektivlərinə malik olan yeni internet reklam formasıdır. Onun digər internet – reklam vasitələri kimi dəqiq qaydaları yoxdur.

3. Təbii reklamın istifadəsi internet reklamını bloklama proqramlarına qalib gələrək reklam informasiyasının istehlakçıya çatdırılmasına imkan yaradır.

4. Təbii reklamın səmərəli olması üçün marketoloqlar reklam məlumatının hazırlanmasının xüsusi qaydalarına riayət etməlidirlər.

**Ədəbiyyat**


1.Colin Campbell, Lawrence J. Marks Good native advertising isnt a secret // Business Horizons — 2015, No. 58 — p. 599-606

2. Spending On Native Advertising Is Soaring As Marketers And Digital Media Publishers Realize The Benefits.

3. Study: Article or Ad? When It Comes to Native, No One Knows.

4. The native advertising playbook.

5. Thee cost of ad blocking PageFair and Adobe 2015 Ad Blocking Report.

6.Объём рынка маркетинговых коммуникаций в 2015 году [Электронный ресурс]. — Элетрон. дан — Режим доступа: http://www.akarussia.ru / press_centre / news / id6460.

**Резюме**

***Насибов В.Н.***

**Роль естественной рекламы в интернет-маркетинге**

*В статье рассматриваются вопросы эффективности традиционных способов рекламы в интернете в условиях распространения технических средств блокировки интернет-рекламы. Нативная реклама выдвигается в качестве альтернативного способа передачи рекламного сообщения потребителю, обозначены перспективы использования. Такжепредставлены рекомендации посозданию нативной рекламы.*

***Ключевые слова:*** естественная *реклама, интернет-маркетинг, цифровой маркетинг, интернет-реклама, рекламные баннеры*

**Summary**

***Nasibov V.N.***

**The Role of Natural Advertising in Internet Marketing**

*The article discusses questions of effectiveness of traditional internet advertisement methods in the environment of expansion of technical means of internet advertising blockage. Native advertising is presented as alternative method to deliver the message to consumers, indicated perspectives of its usage. Also,recommendations for creation of native advertising are presented in the article.*

***Key words:****natural advertising, internet-marketing, digital marketing, internet advertising, advertising banners*

## EKOLOJİ TƏHLÜKƏSİZLİK KONTEKSTİNDƏ MÜƏSSİSƏLƏRİN FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİ

***Niftəliyeva A.Q.***

*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalədə ekoloji təhlükəsizliyin təmin olunmasının zəruriliyi əsaslandırılmışdır. Ekoloji təhlükəsizliyin təmin edilməsi baxımından dövlət siyasətinin əsas istiqamətləri açıqlanmışdır. Ekoloji təhlükəsizliyin təmin edilməsi kontekstində müəssisələrin fəaliyyətinin tənzimlənməsi üçün iqtisadi mexanizm təklif edilmişdir.*

***Açar sözlər:*** *iqtisadiyyat, ekoloji təhlükəsizlik, ətraf mühit, müəssisə, tənzimləmə, idarəetmə, investisiya, istehsal*

Ekoloji təhlükəsizlik dövlətin milli təhlükəsizliyinin tərkib hissəsidir. Ekoloji təhlükəsizlik məsələləri bir çox alimlərin diqqət mərkəzində olmasına baxmayaraq, onun təmin olunmasında iqtisadi aspektlərin rolu problemi kifayət qədər öyrənilməmişdir. Ekoloji təhlükəsizliyin əsas məqsədi əlverişli yaşayış mühiti və əhalinin həyatının bərpası, təbii ehtiyatların qorunması və bioloji müxtəlifliyin təmin edilməsi, eləcə də qəzaların qarşısının alınması üçün əlverişli yaşayış mühiti yaratmaqla davamlı inkişafa nail olmaqdır.

Ekoloji təhlükəsizliyinin təmin edilməsinin ümumi prinsipləri bu sahədə dövlət siyasətinə əsaslanır:

- əhalinin cari və gələcək nəsillərinin həyat keyfiyyətinin yüksəldilməsinə yönəlmiş iqtisadi, sosial və ekoloji inkişaf (davamlı inkişaf prinsipi);
- ətraf mühitin və təbii ehtiyatların vəziyyəti üçün yerli hakimiyyət orqanlarının qarşılıqlı məsuliyyət rejimi qurulması və qanunvericiliyin konsolidasiyası, ekoloji təhlükəsizliyin təmin edilməsi üçün birgə tədbirlərin hazırlanması və həyata keçirilməsi, maliyyə resurslarının dəstəklənməsi;
- ərazi və regional miqyasda şəhərsalma, mühəndislik, sənaye və digər layihələrin hazırlanması və həyata keçirilməsində ekoloji təhlükəsizliyin prioritetləri;
- əhalinin ekoloji təhlükəsizliyini təmin etmək üçün ətraf mühitin idarə olunmasının inzibati, tənzimləyici və iqtisadi metodlarının birləşməsi;
- idarəetmə qərarlarının qəbul edilməsi prosesində ətraf mühit motivasiyasının tətbiqi, ətraf mühitə xərc-fayda qiymətləndirmələrinin tətbiqi, daha ciddi ekoloji məhdudiyyətlərin və standartların yaradılması;
- ətraf mühitin dağılmasının qarşısının alınması;

- ətraf mühitin təhlükəsinin mənbələri barədə məlumatların düzgünlüyünü artırmaq və şəhər inkişafını idarə etmək üçün müvafiq qərarlar qəbul etmək;

- əhalinin maraqlarına təsir edən ekoloji məlumatların geniş yayılması və qərarların qəbul edilməsində ictimaiyyətin iştirakının təmin edilməsi;

- davamlı ekoloji təhsil və təbiətə dərin hörmətə əsaslanan hər yaşdan olan vətəndaşların dünyagörüşünün formalaşması üçün əhalinin təhsili;

- ətraf mühitin mühafizəsi problemlərinin mərhələli həlli, qısa, orta və uzunmüddətli məqsəd və vəzifələrin yaradılması[2, s.55].

Dövlətin ekoloji siyasətinin əsas məqsədi əhali üçün əlverişli mühiti və davamlı ekoloji tarazlığı təmin etməkdir.

Ekoloji siyasətinin həyata keçirilməsi ümumi investisiya fəaliyyəti ilə bağlıdır. Yeni maliyyələşdirmə sxemləri hazırlamaqla ekoloji layihələrin həyata keçirilməsinin mövcud təcrübəsini modernləşdirmək lazımdır. Belə bir sistemin mühüm elementi büdcələrarası əlaqələrdir.Gələcəkdə vətəndaşların sağlam təbii mühitdə yaşamaq hüquqlarının qorunması və ətraf mühitin çirklənməsinin qarşısını almaq üçün mühüm amillərdən biri kimi ekoloji sığorta mühüm rol oynaya bilər.

Ekoloji təhlükəsizliyin mövcud problemləri ciddi nəticələrə gətirib çıxarır ki, bunlar iki komponentə bölünməlidir: iqtisadi və sosial. Əlbəttə, iqtisadi və sosial nəticələr bir-biri ilə əlaqəli və bir-birinə bağlıdır, aralarındakı sərhəd çoxcəhətlidir.

Ölkədə ekoloji vəziyyətin pisləşməsinin ən mühüm sosial nəticəsi əhalinin sağlamlığının pisləşməsi, doğumun azalması və ölüm nisbətinin artmasıdır. Ətraf mühitin dağılması nəticəsində ictimai sağlamlığın pisləşməsi problemləri də yaranır.

Ekoloji təhlükəsizliyin təmin edilməsi baxımından məhsulların səmərəliliyinin iqtisadi tənzimlənməsi mexanizmi iştirakçıların iqtisadi fəaliyyətə uyğunlaşmasının təmin edilməsi, istehsalın iqtisadi və sosial səmərəliliyinin artırılması və bütün səviyyələrdə ekoloji təhlükəsizliyin təmin edilməsi üçün qarşılıqlı razılaşdırılmış metod və vasitələrdən ibarət olmalıdır. Bu mexanizmin mühüm elementi ekoloji çirklənmə üçün cərimələr sistemi və ekoloji cəhətdən səmərəli, çirkabsız texnologiyaların, ətraf mühitə yönəldilmiş investisiyaların və yeniliklərin tətbiq edilməsi üçün stimullaşdırma sistemi daxil olmaqla, ekoloji tədbirlər üçün motivasiya sisteminin formalaşdırılmasıdır [1, s.96].

Ekoloji təhlükəsizliyin təmin edilməsi kontekstində müəssisələrin fəaliyyətinin tənzimlənməsi üçün iqtisadi mexanizm sahibkarların mənfəət əldə etməkdə maraqlarını nəzərə almalıdır: işçilərin maraqları - təhlükəsiz iş şəraitində; dövlət maraqları - vergilərin alınması və ekoloji xarakterli müxtəlif ödəmələr; əhalinin müəssisəyə aid olmayan maraqları, lakin bu sahəyə yaxın yaşayan insanlar.

Ekoloji təhlükəsizliyinin təmin edilməsi baxımından məhsulun səmərəliliyinin tənzimlənməsi üçün ən mühüm iqtisadi vasitələr aşağıdakılardır:

- müəssisələrin ekoloji fəaliyyətinin mühasibat uçotu və auditinin təşkili;

- ekoloji məsrəflərə aid vergi imtiyazlarının həyata keçirilməsi üçün vergi idarəetməsinin təkmilləşdirilməsi;

- ekoloji tədbirlərin iqtisadi və sosial effektivliyinin hesablanması üçün göstəricilər sisteminin əsaslandırılması.

Ekoloji təhlükəsizliyi təmin edən və eyni zamanda müəssisənin iqtisadi və sosial səmərəliliyinə təsir göstərən vasitələr xüsusi rol oynayır. Bizim fikrimizcə, belə vasitələrdən biri kvotadır. Kvotaların tətbiqi ətraf mühitin çirklənməsinin qarşısını alır.

Davamlı inkişafa keçid və müvafiq olaraq ekoloji təhlükəsizliyin təmin edilməsi bütün dünya ictimaiyyətinin dörd istiqamətdə koordinasiyalı səylərini tələb edir:

- varlığın sağlamlığının qorunması, yox edilmiş ekosistemlərin qismən bərpası;

- ekoloji cəhətdən səmərəli texnologiyaların istifadəsinə keçid. Bu, istifadə olunan resursların həcmində və istehsal vahidinə görə çirklənmə səviyyəsinin əhəmiyyətli dərəcədə azaldılmasını təmin edir.

- demoqrafik prosesin normallaşdırılması.

- istehlakçının rasyonalizasiyası, qəsdən həddindən artıq istehlakın ardıcıl azaldılması [3, s.71].

Davamlılıq və təhlükəsizlik iqtisadiyyatın tək bir sistem olaraq ən əhəmiyyətli xüsusiyyətləridir.İqtisadiyyatın sabitliyi onun elementlərinin gücünü və etibarlılığını, sistem içərisində şaquli, üfüqi əlaqələri, daxili və xarici yüklərə qarşı durma qabiliyyətini xarakterizə edir. Buna görə də yalnız iqtisadi deyil, ekoloji və iqtisadi davamlılıq üçün də səy göstərməlidir. Bu, iqtisadi, ekoloji, demoqrafik, sosial, milli, siyasi parametrlərin davamlılığıdır. Ekoiqtisadi sistemin daha sürətlə davamlı olması, onun təhlükəsizlik reytinqinin olduqca yüksək olacağı anlamına gəlir.Sistemin müxtəlif komponentləri arasındakı

parametrlərin və əlaqələrin pozulması onun sabitləşməsinə gətirib çıxarır və təhlükəsiz bir dövlətdən təhlükəli bir vəziyyətə keçid siqnaldır.

Beləliklə, ölkənin milli iqtisadi maraqlarının ekoloji yönümlülüyü aşağıdakılara ehtiyac duyur:

- indiki və gələcəkdə ölkənin ekoloji təhlükəsizliyini təmin etmək;
- təbii sərvətlərin rasional istifadəsi;
- ətraf mühitin çirklənməsinin azaldılması;
- insanın yaşayış mühitinin qorunması və bərpası.

Ümumiyyətlə, aparılan araşdırmalara əsasən aşağıdakı nəticələr əldə edə bilərik:

birincisi, ekoloji təhlükəsizlik üzrə tədqiqatların prioriteti onun təmin edilməsi üçün iqtisadi alətlərin formalaşmasıdır;

ikincisi, bu iqtisadi vasitələr dövlət tənzimlənməsinin bütün səviyyələrində vahid hüquqi çərçivə ilə təmin edilməlidir;

üçüncüsü, ekoloji təhlükəsizliyin təmin edilməsi baxımından məhsulların səmərəliliyinin iqtisadi tənzimlənməsi mexanizmi tətbiq edilməlidir.

Qeyd etmək lazımdır ki, dövlət təhlükəsizliyində həlledici, əsas rol iqtisadi təhlükəsizliyə aiddir. Məhsul istehsalı, bölüşdürülməsi və istehlakı hər bir fəaliyyət sahəsi üçün əsasdır, cəmiyyətin həyat qabiliyyətini müəyyən edir. Ekoloji təhlükəsizlik iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün ən mühüm şərtlərdən biri hesab edilə bilər. Çünki iqtisadi sabitlik ekoloji sabitlik olmadan mümkün deyildir. Təhlükəsizlik növlərinin hər biri digərinin fəaliyyət sahəsindəki təsirini tamamlayır.

**Ədəbiyyat**


1. İbrahimov İ.H. Ətraf mühitin iqtisadiyyatı. Bakı: Bakı Biznes Universitetinin nəşriyyatı, 2015, 357 s.
2. Бобылев С.Н., Ходжаев А.Ш. Экология природопользования. М.: Инфра-М, 2010, 377 с
3. Шмаль А. Г. Факторы экологической безопасности — экологические риски. Издательство : г. Бронницы, МП "ИКЦ БНТВ, 2010, 192с.



**Резюме**

***Нифталиева А.Г.***

**Регулирование деятельности предприятий в контексте экологической безопасности**

*В статье обоснована необходимость обеспечения экологической безопасности. Раскрываются основные направления государственной политики пообеспечению экологической безопасности.Предложены экономические механизмы регулирования деятельности предприятий пообеспечению экологической безопасности*

***Ключевые слова:*** *экономика, экологическая безопасность, окружающая среда, предприятие, регулирование, управление, инвестиции, производство*



**Summary**

***Niftaliyeva A.Q.***

**Regulation of Enterprises in the Context of Environmental Safety**

*The article substantiates the need to ensure environmental safety. The main directions of state policy to ensure environmental safety are disclosed. Proposed economic mechanisms for regulating the activities of enterprises to ensure environmental safety*

***Key words:*** *economics, environmental safety, environment, enterprise, regulation, management, investment, production*


## AZƏRBAYCAN RESPUBLİKASININ MÜASİR NƏQLİYYAT SİSTEMİ VƏ ONUN QARŞISINDA DURAN ƏSAS VƏZİFƏLƏR


***Orucov A.S.***

*Azərbaycan Texniki Universiteti*



***Xülasə.*** *Məqalədə Azərbaycan Respublikasında nəqliyyat sisteminin inkişafı üçün əsas istiqamətlərin müəyyən olunması və nəqliyyat sektorunun inkişafı sahəsində dövlət tərəfindən qəbul olunan proqramların həyata keçirilməsi perspektivləri araşdırılmışdır. Bu baxımdan "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi" proqramının qəbulu mühüm əhəmiyyət kəsb edir.*



***Açar sözlər:*** *nəqliyyat sistemi, idxal-ixrac, tranzit yüklər, iqtisadi əlaqələr.*

Bütün inkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycan Respublikasında da nəqliyyat sisteminin təkmilləşdirilməsi iqtisadiyyatın şaxələndirilməsi üçün böyük əhəmiyyət kəsb edir. İqtisadiyyatın infrastruktur sahələri olan enerji, rabitə. təhsil,təhsil və s.ilə yanaşı, nəqliyyat sistemi cəmiyyətin həyat fəaliyyətinin ilkin tələbatını təmin etməklə sosial-iqtisadi, xarici siyasət və digər məsələlərin həll olunmasında mühüm rol oynayır. Nəqliyyatın artan çevikliyi yükdaşımaların və vətəndaşların hərəkət etmələri sahəsində hüquqların intensiv surətdə həyata keçirilməsini təmin etməklə yanaşı, həm də ölkəmizin iqtisadi,siyasi və müdafiəyə potensialının yüksəldilməsinə xidmət edir.

Nəqliyyat sektorunun əsas rolu sürətlə inkişaf edən respublikamızın daşımalara artmaqda olan tələbatların təmin edilməsindən,eləcədə dövlətimiz tərəfindən həyata keçirilən sosial-iqtisadi islahatların həyata keçirilməsi ilə uyğunluq təşkil etməsindən ibarətdir. Müasir dövrdə ölkəmizdə sürətlə gedən iqtisadi islahatlar Azərbaycanda nəqliyyat sisteminin inkişafı üçün əsas istiqamətlərin müəyyən olunmasını və nəqliyyat sektorunun inkişafı sahəsində dövlətimiz tərəfindən müəyyən olunan vəzifələrin həyata keçirilməsini daha da zəruri edir. Dünya ölkələri arasında iqtisadi əlaqələrin genişlənməsi və inteqrasiya proseslərinin sürətlənməsi nəqliyyat sisteminin hər bir ölkənin milli iqtisadiyyatının əsas sütunlardan biri olduğunu təsdiqləmişdir. Nəqliyyat xidmətlərinin sosial-iqtisadi mahiyyətini aydınlaşdıran elmi tədqiqatçılar bu sistemin geniş təkrar istehsalın mühüm tərkib hissəsi olduğunu çoxdan sübut etmişlər. Bu baxımdan Respublikamızın iqtisadiyyatında geniş miqyaslı köklü islahatların aparıldığı indiki dövrdə nəqliyyatın spesifik xüsusiyyətlərini,iqtisadi və sosial proseslərin gedişində onun rolunu dəqiqliklə nəzərə alan siyasətin formalaşdırılması və həyata keçirilməsi çox vacib məsələlərdən biridir. Bu baxımdan "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi" olduqca mühüm əhəmiyyət kəsb edir. Yerli və xarici mütəxəssislərin birgə əməkdaşlığı sayəsində hazırlanmış bu sənəd istər ölkəmizin potensial imkanlarının aydınlaşdırılması üçün, istərsə də müvafiq qabaqcıl təcrübənin tətbiqi yollarının müəyyən edilməsi baxımından diqqəti cəlb edir [1].

Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev strateji yol xəritəsi proqramının qəbulu ilə əlaqədar söyləmişdir, ölkəmiz uzun müddətli dayanıqlı iqtisadi inkişafın təmin edilməsi üçün hazırda konkret işlər görülür. "Əminəm ki, həyata keçirdiyimiz əsas iqtisadi islahatlar və qəbul ediləcək qərarlar bundan sonra elə şərait yaradacaq ki, ölkəmizin iqtisadiyyatında neft amilindən asılılığı əhəmiyyətli dərəcədə azaldacaq və tam aradan götürəcəkdir"-deyə ölkə başçısı dayanıqlı və davamlı inkişafın əsas hədəf olduğunu nəzərə çatdırmışdır. Mötəbər beynəlxalq qurumlar,xüsusilə Beynəlxalq Valyuta Fondu Azərbaycan Respublikasının dünya siyasətini və həyata keçirilən iqtisadi islahatları dəstəkləyir və yüksək qiymət verir.İslahatların dərinləşəcəyi və bütün sahələrdə şəffaflığın tam təmin ediləcəyini söyləyən ölkə başçısı qeyd etmişdir;" Biz gələcək iqtisadi fəaliyyətimizi,dövlət siyasətimizi yeni iqtisadi model üzərində quracağıq və əminəm ki,yaxın zamanlarda daha böyük nəticələr əldə edəcəyik. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı tədbirləri haqqında" 17 mart 2016-cı il tarixli Sərəncamı yuxarıda deyilən fikirlərin bariz ifadəsidir. Həmin sərəncama əsasən,azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılmasında əsas məqsəd ölkə iqtisadiyyatının davamlı inkişafı və ixrac potensialının artırılması, Azərbaycan Respublikasının logistika və nəqliyyat mərkəzi kimi mövqeyinin gücləndirilməsi və ölkəmizdə çoxsaylı nəqliyyat infrastrukturunun yaradılmasıdır [3]. Azərbaycan Respublikasının dünya iqtisadiyyatına qovuşması və dünya ölkələri ilə gedən inteqrasiya prosesində yerini müəyyən etmək üçün müasir baxımdan nəqliyyat sahələrinin təhlil olunması olduqca vacibdir. Avrasiya ölkələri arasında mərkəzi mövqe tutan Azərbaycanın əlverişli nəqliyyat sisteminə malik olması dünya ölkələrinin marağına uyğun olan səmərəli iqtisadi əlaqələrin həyata keçirilməsinə əlverişli zəmin yaradır. Hazırda Azərbaycan 170-dən çox dünya ölkələri ilə beynəlxalq ticarət əlaqələri yaratmışdır.

Bir faktı da nəzərə almaq lazımdır ki, nəqliyyat yalnız sərnişin və yük daşımalarını həyata keçirmir, eyni zamanda, məhsuldar qüvvələrin inkişafında, təbii ehtiyatların və əmək resurslarının istehsal dövriyyəsinə operativ cəlb olunmasında, əhali məskunlaşmasında və məhsuldar qüvvələrin ərazi üzrə optimal yerləşdirilməsində mühüm rol oynayır. Dünya ölkələri arasında iqtisadi əlaqələrin səmərəliliyinin yüksəldilməsi və yük axınlarının əlverişli tənzimlənməsinin həyata keçirilməsi hər bir nəqliyyat sahəsində beynəlxalq normalara uyğun təkmilləşdirmə işlərinin aparılmasını tələb edir. Ölkələr yerləşdikləri coğrafi mövqedən asılı olmayaraq çalışırlar ki, öz məhsullarını daha sərfəli yollarla dünya bazarlarına çıxarsınlar və daha çox səmərə əldə etsinlər. Məhz bu baxımdan beynəlxalq əhəmiyyətli nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan Respublikasının əlverişli nəqliyyat sisteminə malik olması dünyanın bir çox ölkələri ilə qarşılıqlı səmərəli iqtisadi əlaqələrin həyata keçirilməsinə münbit şərait yaradır.

Əlverişli şəraitdən maksimum faydalanmaq məqsədilə, eləcə də milli nəqliyyat sisteminin beynəlxalq nəqliyyat sisteminə inteqrasiyasını təmin etmək üçün dəmir yolu, dəniz, avtomobil, hava, boru

kəməri, o cümlədən şəhər nəqliyyatı sahələri geniş təhlil edilməli və daha səmərəli istifadə yolları müəyyən olunmalıdır. Eyni zamanda müasir şəraitdə nəqliyyat qovşaqlarının əmələgəlmə xüsusiyyətləri və buraxılış imkanları dərindən araşdırılmalıdır. Ümumiyyətlə, səmərəli nəqliyyat əlaqələrinin qurulması, nəqliyyatda idarəetmənin təkmilləşdirilməsi, nəqliyyat sektorunun, nəqliyyat-tranzit xidmətlərinin büdcənin əsas gəlir mənbələrindən birinə çevrilməsi üçün ölkənin iqtisadi rayonları üzrə nəqliyyat sistemi, hər bir iqtisadi rayonun spesifik xüsusiyyətləri, daxili və beynəlxalq yükdaşımada iştirak imkanları ətraflı təhlil edilərək qiymətləndirilməsi və perspektiv imkanların aydınlaşdırılması zəruridir [2]. Təbii ki, hər bir sahədə uğurlu nəticələrin zəruri şərtlərindən biri lazımi investisiya vəsaitlərinin olmasıdır. Logistika və ticarət sahəsində həyata keçirilən tədbirlər nəticəsində dövlət və özəl mənbələrdən istifadə edilməklə, cəmi 3160 milyon manat investisiya qoyuluşu proqnozlaşdırılır ki, bu da hər il ÜDM-in 605 milyon manat artmasına imkan yaradacaqdır. Xüsusilə, Ələt qəsəbəsində yaradılmış Beynəlxalq limanın və dəmir yolları şəbəkəsinin perspektivlərini əhatə edən "Strateji Yol Xəritəsi" ölkəmizin bu sahədən gözləntilərinin reallaşmasında təkmil bir proqramdır. Ələt limanında azad ticarət zonasının yaradılması da nəzərdə tutulur ki, bu da ixracyönümlü sənaye sahələrində fəaliyyət göstərən özəl şirkətləri və investorları ünvanlı xidmət və stimullarla təmin edir.

Qloballaşma və inteqrasiya proseslərinin sürətlənməsi ilə xarakterizə olunan müasir dövrdə avtomobil və dəniz daşımaları ilə yanaşı, dəmiryol daşımaları da artmaqdadır. Dünya üzrə beynəlxalq əmtəə dövriyyəsində hər üç nəqliyyat növü böyük üstünlüyə malikdir ki, bu da dəmir yolunda özünü daha qabarıq göstərir. Belə ki, dəmir yolu ilə daşımaların illik artımı 2-3 faiz arasında dəyişir. Bu isə daha çox dünya miqyasında ticarət axınlarında konteyner yük daşımalarının həcminin davamlı artımı, liman operatorlarının və dəmir yolu şəbəkələrinin limana çıxışı və terminalların təkmilləşdirilməsinə irihəcmli investisiya qoyuluşları ilə reallaşmışdır. Coğrafi vəziyyətin imkan verdiyi bir çox ölkələr dəniz, quru yolu, dəmir yolu daşımalarında logistika mərkəzləri vasitəsilə əlavə dəyər yaratmaqla, yüksək iqtisadi faydaları əldə etməyə çalışırlar. Ümumilikdə isə Strateji Yol Xəritəsində də göstərildiyi kimi, dünyanın ən qabaqcıl təcrübələrinə əsasən logistika mərkəzləri vasitəsilə əlavə dəyər yaradılmasının bir neçə yolu vardır. İlk növbədə, infrastruktur və xidmətlərin paralel inkişafı, logistika mərkəzlərinə investisiya qoyuluşları üçün aydın strategiyanın və düşünülmüş planlaşdırmanın olması, özəl və dövlət sektorlarının birgə fəaliyyətinə nail olunması çox zəruridir.

Azərbaycanın əlverişli coğrafi mövqeyi bu istiqamətdə müsbət dəyişikliklərin həyata keçirilməsinə təkan verəcəkdir. Burada dəstəkləyici amil kimi biznes mühitinin əlverişliliyini də qeyd etmək lazımdır. Bundan əlavə, əlverişli biznes mühiti, idxal-ixrac əməliyyatlarının aparılması üzrə əlverişli şərtlərin müəyyənləşdirilməsi və istedadlı kadr bazası beynəlxalq şirkətlərin bu logistika və ticarət mərkəzinə daha çox investisiya qoymasına şərait yaradacaqdır. Ümumiyyətlə, istər logistika, istərsə də konkret daşımalar sahəsində özəl təsərrüfat subyektlərinin formalaşdırılması olduqca vacibdir. Əslində bu istiqamətlərdən gözləntilərin özünü doğrultmasının zəruri şərtlərindən biri də məhz özəl təsərrüfat subyektlərinin fəaliyyətidir. Şübhəsiz, həyata keçirilən tədbirlər, Strateji Yol Xəritəsinin reallaşdırılması, paralel olaraq Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanı Kompleksində və digər ərazilərdə yerləşən logistika və ticarət mərkəzləri vasitəsilə aparılan beynəlxalq ticarət yerli bazarların da böyüməsinə, nəqliyyat, xidmət, təchizat və tədarük şirkətlərinin ümumi inkişafına dəstək verəcəkdir.

## Ədəbiyyat


1. Əsədov A.M. Azərbaycan Respublikasında yeni nəqliyyat sisteminin formalaşması və davamlı inkişafı: elmi-nəzəri əsasları və perspektivləri. 2014-ci il
2. Məmmədov Z.S. XXI əsr iqtisadi inkişafın nəqliyyat faktoru. Bakı, 2002.
3. Əsədov A. Nəqliyyat sektorunun inkişafı daha da sürətlənəcək. Xalq qəzeti, 12.06.2017.


## Резюме


***Оруджев А.С.***


**Современная транспортная система Азербайджанской Республики и ее основные задачи**


*В статье рассматриваются перспективы определения ключевых направлений развития транспортной системы в Азербайджанской Республике и реализации признанных государством программ в области развития транспортного сектора. В этой связи большое значение имеет принятие программы «Стратегическая дорожная карта по развитию логистики и торговли в Азербайджанской Республике».*



***Ключевые слова:****транспортная система,экспорт-импорт,транзитные грузы, экономическая зона*

**Summary**

***Orujov A.S.***

**Modern Transport System of the Republic of Azerbaijan and its Main tasks**

*The article explores perspectives for identifying key areas for the development of the transport system in the Republic of Azerbaijan and the implementation of state-recognized programs in the field of transport sector development. In this regard, the adoption of the "Strategic Road Map on Development of Logistics and Trade in the Republic of Azerbaijan" program is of great importance.*

***Key words:****transport system, export-import, transit freights, economic relations*

.

## SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İXRAC POTENSİALIINN ARTIRILMASININ ELMİ VƏ METODOLOJİ ƏSASLARI

***Orucova M.S.***

*Azərbaycan Texniki Universiteti*

***Xülasə.*** *Məqalədə ixrac potensialı ilə bağlı iqtisadi ədəbiyyatlarda geniş müzakirə edilən təriflərə münasibət bildirilmiş, müqayisəli təhlil aparılmış və bu anlayışın əsas mahiyyəti araşdırılmışdır."Azad ticarət" nəzəriyyəsi təhlil edilmiş, ixrac potensialının artırılmasında klassiklərin nəzəriyyələrinə istinad olunmuşdur.İxracın stimullaşdırılmasının əhəmiyyətindən bəhs edilmiş, rəqabət qabiliyyətini inkişafında rolu göstərilmişdir.*

***Açar sözlər****: ixrac potensialı, nəzəriyyə, təhlil, beynəlxalq, müəssisə, istehsal, müqayisə, iqtisadi*

İxrac potensialı ilə bağlı iqtisadi ədəbiyyatlarda geniş müzakirə edilən təriflərin araşdırılması və müqayisəli təhlili bu anlayışın əsas mahiyyətini belə qruplaşdırmağa imkan verir: 1) "ixrac potensialı" anlayışını ixrac prosesinə bu və ya digər dərəcədə marağı olan bütün subyektlərə, o cümlədən ölkəyə, regiona, iqtisadi fəaliyyət sahəsinə, iqtisadi sektora, iqtisadi klasterə, müəssisəyə aid etmək olar; 2) ixrac potensialının hansı səviyyədə öyrənilməsindən asılı olmayaraq, o, ixrac məqsədilə mal və xidmətlərin istehsalını, ixracını və xarici ölkədə mənfəətlə satışını nəzərdə tutur; 3) bütün səviyyələrdə "ixrac potensialı" rəqabətqabiliyyətli mal və xidmət istehsalının davamlılığını nəzərdə tutur. İxrac potensialının sonuncu mahiyyəti iqtisadi ədəbiyyatlarda, demək olar ki, müzakirə obyekti olmayır. Lakin "ixrac potensialının" əvvəlki iki mahiyyəti zaman etibarı ilə davamlı olmasa, onu ölkənin, regionun, iqtisadi fəaliyyət sahəsinin, iqtisadi sektorun, iqtisadi klasterin və nəhayət, müəssisənin "bacarığı hesab etmək olmaz. Məsələn, hər hansı ildə məhsulun bol olması səbəbindən üzüm kişmişi istehsal edən emal müəssisəsinin həmin il ixrac etdiyi məhsul rəqabətqabiliyyətli olarsa, bu, həmin müəssisənin ümumiyyətlə yüksək "ixrac potensialına" malik olması demək deyil. Çünki növbəti ildə vəziyyətin dəyişməsi müəssisənin ixrac imkanlarını məhdudlaşdıra bilər. Çoxlu sayda belə misallar "ixrac potensialına" daxili və xarici iqtisadi konyukturadan asılı kateqoriya kimi yanaşmağı tələb edir. [5]

Beynəlxalq ticarət əmtəə və xidmətlərin, kapitalın ölkələr arasında mübadiləsidir. Son dövrlərdə belə mübadilənin həcmi o qədər artıb ki, hətta beynəlxalq ticarətin həcmi əksər ölkələrin Ümumi Daxili Məhsulunun (ÜDM) həcmində mühüm çəkiyə malikdir. Əlbəttə, beynəlxalq ticarəti son yüzilliyin məhsulu hesab etmək olmaz, çünki iqtisadi münasibətlərin formalaşdığı dövrdən bir-biri ilə mal mübadiləsi edən insanlar ölkələr və sərhədlər yarandıqdan sonrada da bir-biri ilə belə əlaqələri davam etdirmişlər. Lakin beynəlxalq ticarətin mahiyyəti və həcmi elmin, texnikanın, nəqliyyat və maliyyə sisteminin inkişafı ilə həm kəmiyyətcə, həm də keyfiyyətcə xeyli dəyişib. Xüsusilə globallaşmanın genişlənməsi beynəlxalq ticarətin mahiyyətini ciddi şəkildə dəyişdi. Beynəlxalq ticarətin inkişafı beynəlxalq və regional siyasətə də ciddi təsir göstərdi.

On yeddinci əsrin ortalarında ingilis siyasi iqtisadiyyatının klassiklərindən olan A. Smit və D. Rikardonun "azad ticarət" ideyası (nəzəriyyəsi) yarandı.

A. Smitin "Xalqların sərvətinin təbiəti və səbəbləri haqda araşdırmalar" işində əsas ideya bu idi ki, millət və xalqların sərvətinin təməlində əmək bölgüsü durur. Müəllif bu nəticəyə gəlmişdir: beynəlxalq əmək bölgüsündə fəal iştirak edən ölkələr xeyir götürürlər.

Beynəlxalq əmək bölgüsü, A. Smitin iddiasına görə, bu və ya digər ölkənin malik olduğu mütləq üstünlüklər nəzərə alınmaqla həyata keçirilməlidir. Hər bir ölkə mütləq üstünlüyə malik olduğu məhsulun istehsalında ixtisaslaşmalıdır.

"İxrac potensialının" daxili və xarici iqtisadi konyukturadan asılı olması onun formalaşması və həyata keçirilməsinin asılı olduğu bəzi amillərin daxili və xarici iqtisadi konyukturadan asılılığı ilə bağlıdır.

50-70-ci illərdə iqtisadçılar arasında belə bir fikir geniş yayılmışdır ki, az inkişaf etmiş və ilkin xammalların idxalında ixtisaslaşmış ölkələrin ticarət şərtləri pisləşir və əksinə, hazır malların istehsalında ixtisaslaşmış ölkələrin ticarət şərtləri yaxşılaşır.

Hətta inkişaf etmiş kapitalist ölkələrində belə həmin dövrdə hazır malların qiyməti xammalın qiymətindən daha tez artdığı üçün mürəkkəb hazır məhsulların ixracında ixtisaslaşmış ölkələrin ticarət şərtlərinin yaxşılaşdırılması nəticəsinə gəlirdilər. [4]

Daha az inkişaf etmiş ölkələrin pis ticarət şərtləri, həmçinin hazır malların əsas kütləsinin istehsalının inhisar xarakterli olması ilə bağlıdır. Hazır malların istehsalında ixtisaslaşan inhisarlar istehsalatı təkmilləşdirərək və texnoloji yenilikləri tətbiq edərək qiymətləri əvvəlki səviyyədə saxlamağa və inhisar gəlirini mənimsəməyə üstünlük verirlər. Bununla yanaşı, mineral xammal və kənd təsərrüfatı məhsullarının istehsalındakı texnoloji inkişaf, paralel olaraq, satılan xammalın qiymətinin enməsinə gətirib çıxarır.

A. Smit və D. Rikardo belə hesab edirdilər ki, məhsul istehsalına təsir edən əsas amil əməkdir və qiyməti əməyin dəyərindən asılıdır, yəni onlar qiymətin əmək nəzəriyyəsinin tərəfdarı idilər.

İqtisadçılar arasında əlavə amillərin son həddə faydalılığın hansı istiqamətdə dəyişəcəyi haqda vahid rəy yoxdur. D. Rikardo son həddə faydalılığın daimi ölçüsünə istinad edirdi; onun bir çox ardıcılları isə iddia edirdilər ki, bir sıra hallarda, xüsusilə, kütləvi istehsalın təşkili zamanı son həddə faydalılıq artır.

İkinci müddəa məhsulların istehlakının xüsusiyyətlərini xarakterizə edir. Hər iki ölkənin istehlakının quruluşu, əhalinin zövqü və vərdışləri eyni hesab edilir. Bütün istehsalçılar bərabər şərtlərdə yerləşir, oxşar istehsalat imkanlarına malikdirlər. Tariflər, nəqliyyat xərcləri və istehsalatın digər xərcləri, demək olar ki, dəyişmir.

Üçüncü müddəa ifrat amillərin xeyli hissəsini istifadə edərək ölkədə məhsul istehsalatını genişləndirmək imkanını ifadə edir. İstehsalat ölkəsində bu amillər daim artan həcmdə istifadə ediləcək, onların dəyəri isə hər yeni amilin son həddə faydalılığın azalması ilə artacaq. İdxaledən ölkədə bu amilə olan tələbat müvafiq məhsulun istehlakı ilə əvəz ediləcək, amilin dəyəri azalacaq.

Müasir beynəlxalq ticarət nəzəriyyələrinin bəziləri daha çox mal qrupunun ticarətini nəzərdə tutaraq klassik nəzəriyyələri inkişaf etdirirlər. Bəzi nəzəriyyələr isə beynəlxalq ticarətin elə aspektlərini öyrənirlər ki, bu aspektlər klassik nəzəriyyələrlə izah oluna bilmir. Bəzi nəzəriyyələr isə beynəlxalq ticarətlə bağlı klassik nəzəriyyələri köhnəlmiş hesab edərək yeni yanaşmanı təklif edirlər.

İxracın stimullaşdırılması ölkəyə əlavə valyuta gətirməklə yanaşı, rəqabət qabiliyyətini inkişaf etdirmək üçün müəssisədən həmişə yeni texnika və texnologiya tətbiq etməyi tələb edir. Beləliklə, rəqabət mühiti müəssisəni inkişaf etməyə sövq edir. Rəqabət mühiti müəssisənin idarəetməsinə ciddi təsir göstərərək mövcud resurslardan səmərəli istifadə etməyə imkan verir. Digər tərəfdən, xarici valyutanın ölkəyə daxil olması investisiya rolunu oynayır.

Beləliklə, dünya təsərrüfat sisteminə inteqrasiya və xarici iqtisadi fəaliyyətin genişlənməsinin zəruriliyi heç kəsdə şübhə yaratmır. Odur ki, əsas problem dünya təsərrüfat sisteminə qoşulmaq üçün ixrac potensialının genişləndirilməsi məsələsidir. Bu isə hər bir müəssisədən və ölkədən öz ixrac potensialını düzgün qiymətləndirməyi, onu formalaşdırmağı və səmərəli reallaşdırmağı tələb edir.

Qeyd edək ki, iqtisadi ədəbiyyatlarda "ixrac potensialı" və onun mahiyyəti ilə bağlı hələ də birmənalı təriflər yoxdur. "İxrac potensialı" anlayışına yanaşmalarda əsas fərqlər ondan ibarətdir ki, bu anlayış keçən əsrin 90-cı illərinə qədər ölkə səviyyəsinə (məsələn, P.S. Qrinberun[1], E.Q. Koçetovun[2] tədqiqatlarında və regionlar səviyyəsinə (məsələn, T.V. Mirolyubovun[3] tədqiqatlarında rast gəlinir. Sonrakı illərdə isə bu anlayışın müəssisələr səviyyəsində tədqiqatı genişləndi.

Başqa bir tədqiqatçı-İ.V.Yelkin ixrac potensialını region səviyyəsinə aid edərək onu sosial-iqtisadi kateqoriya kimi izah etməyə çalışır. Onun fikrincə, ixrac potensialı, regionun iqtisadi, təşkilati-istehsal və sosial münasibətlərinin dialektik əlaqəsi kimi xarakterizə edir. İ.V.Yelkin ixrac potensialını regionun sosial-iqtisadi potensialının bir elementi hesab edir və onu regionun iqtisadi fəaliyyət sahələrinin rəqabətqabiliyyətli məhsul istehsalı və konkret xarici bazarlarda reallaşdırmaq bacarığı kimi xarakterizə edir. [4]

Məsələn, İ.A. Rusakov belə hesab edir ki, ixrac potensialı müəssisənin istehsal və iqtisadi imkanlarına əsaslanaraq istehsal edilən məhsulun xarici bazarlarda satışının reallaşması, birbaşa xarici investisiyaları cəlb etmə və beynəlxalq sənaye proseslərində iştirak etmək bacarığıdır (5).

**Ədəbiyyat**

1.Гринберг, Р.С. Глобализация, трансформация, кризис — что дальше? / М.: Магистр, 2011.

2. Кочетов, Э.Г. Геоэкономика. Освоение мирового экономического пространства: Учебник для вузов / Э.Г. Кочетов. М.: Норма, 2010.

3.Миролюбова, Т.В. Особенности формирования системы государственной экономической политики региона / Т.В. Мирлюбова, Ю.Ю. Ми- ролюбов. Тамбовский гос. техн. ун-т, 2008,с. 78-90.
4. Елькин, И.В. Оценка и перспективы развития экономики региона с экспортной ориентацией. Иркутск, 2010.
5. Русаков Л.А. Оценка экспортного потенциала предприятия. М.: ЭКСМО, 2014.

**Резюме**

***Оруджева М.С.***

**Научные и методологическиеосновы повышения экспортного потенциала промышленных предприятий**

*В статье отражены мнения относительно определения экспортного потенциала, широко обсуждаемого в экономической литературе, проведен сравнительный анализ и изучена сущность этой концепции.Была проанализирована теория «свободной торговли» в увеличении экспортного потенциала, делались ссылки на теорию классики.Отмечена важность продвижения экспорта, и показана ее роль в развитии конкурентоспособности.*

***Ключевые слова:*** *экспортный потенциал, теория, анализ, международный, предприятие, производство, сравнение, экономика*

**Summary**

***Orujova M.S.***

**Scientific and Methodological Bases for Increasing the Export Potential of Industrial Enterprises**

*The article comments on the widely discussed definitions in economic literature related to export potential, comparative analysis has been conducted and the essence of this concept has been studied."Free trade" theory was analyzed, it was a reference to the theories of increasing export potential classics. Importance of export promotion has been given and a role in development of competitiveness has been demonstrated.*

***Key words:*** *export potential, theory, analysis, international, enterprise, production, comparison, economic*

## AZƏRBAYCANDA NƏQLİYYATIN İNKİŞAFINDA TRACEKA PROQRAMININ ROLU

***Pənahəliyeva M.Ö.***

*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalə Azərbaycan Respublikasında nəqliyyat sisteminin inkişafına həsr olunub. Məqalədə həmçinin nəqliyyat sisteminin inkişaf tarixində uğurlu rol oynayan TRASEKA proqramı onun məqsədi, vəzifələri və üstünlükləri haqqında ətraflı məlumat verilmişdir.*

***Açar sözlər:*** *TRASEKA proqramı, nəqliyyat, ticarət, layihə, investisiya*

Bildiyimiz kimi, ölkə iqtisadiyyatının inkişafında, dünya iqtisadiyyatına inteqrasiyasında müasir tələblərə cavab verən, inkişaf etmiş nəqliyyat infrastrukturunun mövcudluğu həlledici amil kimi çıxış edir.

Belə ki, Cənubi Qafqazın ərazisindən keçən tarixi Böyük İpək Yolunun bərpası regionumuzun iqtisadi inkişafı baxımından xüsusi önəm daşımaqdadır.

Məlum olduğu kimi, hal-hazırda, TRASEKA proqramı çərçivəsində, Avropadan Asiyaya ən qısa marşrut sayılan Tarixi İpək Yolunun bərpası həyata keçirilir. Avropa İttifaqının (Aİ) təklif etdiyi TRASEKA proqramı (Avropa – Qafqaz – Asiya nəqliyyat dəhlizi) Avropadan başlayan, Cənuba Qafqaz, Qara və Xəzər dənizlərindən keçərək Çinə qədər uzanan Qərb - Şərq nəqliyyat dəhlizinin inkişafına yönəlmişdir. Dövlətlərə Azərbaycan, Gürcüstan, Türkiyə, Rumıniya, Bolqarıstan, Ukrayna, Moldova, Qazaxıstan, Özbəkistan, Tacikistan, Türkmənistan, Qırğızıstan və s. TRASEKA proqramının iştirakçı dövlətlər aiddir. Böyük İpək Yolunun bərpasını nəzərdə tutan TRASEKA proqramının yaradılması təşəbbüsü ilk dəfə olaraq 1993-cü ilin may ayında Brüsseldə keçirilmiş konfransda irəli sürülmüşdür. Həmin tədbirdə dövlətlərin (Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan və s.) Ticarət və Nəqliyyat nazirləri iştirak etmişdir. Tədbirin sonunda isə Brüssel Bəyannaməsinin qəbul olunması ilə Aİ tərəfindən maliyyələşdirilən TRASEKA proqramının həyata keçirilməsinə start verilmişdi. Konfransın işində nəqliyyat və ticarət regional sistemlərində mövcud olan problemlər və nöqsanlar, habelə TRASEKA proqramı çərçivəsində yerinə yetirilməsi üçün ilkin vəzifələr müəyyənləşdirilmişdir. Tədbirdə həmçinin regionda ticarət və nəqliyyatın

inkişaf etdirilməsi məqsədini daşıyan layihələrin reallaşdırılması üçün ilkin olaraq 15 milyon avro məbləğində vəsaitin ayrılmasına dair qərar da qəbul olunmuşdur [1, s.225-233].

TRASEKA proqramı aşağıdakı məqsədləri daşıyır:

- Alternativ marşrutlar vasitəsilə, Avropa və dünya bazarlarına çıxış imkanlarını artırmaqla respublikaların siyasi və iqtisadi müstəqilliyinə dəstək vermək;
- TRASEKA proqramının iştirakçı ölkələri arasında gələcək əməkdaşlığın inkişafına yardım etmək;
- TRASEKA çərçivəsində müxtəlif layihələri reallaşdırmaqla beynəlxalq maliyyə institutlarını və investorları regiona cəlb etmək;
- TRASEKA nəqliyyat dəhlizinin Trans – Avropa nəqliyyat dəhlizləri ilə optimal inteqrasiyasına nail olmaq;
- Avropa, Qara Dəniz regionu, Qafqaz, Xəzər Dənizi və Asiya regionunda iqtisadi və nəqliyyat sahəsində münasibətlərin inkişafına səbəb olmaq;
- Nəqliyyat sahəsində ədalətli rəqabət üçün əlverişli şərait yaratmaq;
- Yük daşımasının təhlükəsizliyini və ətraf mühitin qorunmasını təmin etmək.

Adı çəkilən proqram çərçivəsində göstərilən texniki yardımlar vasitəsilə Avropa Yenidənqurma və İnkişaf Bankı, Dünya Bankı, Asiya İnkişaf Bankı və İslam İnkişaf Bankı kimi beynəlxalq maliyyə institutlarında kifayət qədər iri həcmdə investisiyaların TRASEKA regionuna cəlb olunmasına nail olunmuşdur. Qeyd etmək lazımdır ki, ilkin mərhələdə, yəni 1993 - 1995 - ci illər ərzində TRASEKA proqramı çərçivəsində həyata keçirilmiş layihələr əsasən Qara və Xəzər dənizi regionları arasında əlaqələrin möhkəmləndirilməsinə xidmət edirdi [2, s.101-103].

İndiyədək, Böyük İpək Yolu boyunca yükdaşımalarının maneəsiz həyata keçirilməsi gömrük və sərhəd prosedurlarının maksimum qısa zaman ərzində başa çatdırılması, həmçinin limanların və avtomobil yollarının bərpası istiqamətində xeyli işlər görülmüşdür. Qeyd etmək lazımdır ki, TRASEKA proqramında iştirak edən dövlətlərə əsasən Texniki yardım və İnvestisiya layihələri vasitəsilə yardım göstərilir. TRASEKA - nın büdcəsinin təqribən 50% - i regionda əlverişli investisiya iqliminin yaradılmasına şərait yaradan investisiya layihələrinin reallaşdırılmasına sərf edilmişdir.

TRASEKA nəqliyyat dəhlizi üzrə yük axınının artırılması üçün son illər ərzində nəqliyyat sektorunun texniki təchizatının yaxşılaşdırılması sahəsində avtomobil yollarının, dəmiryolu xətlərinin və körpülərin bərpası və tikintisi, gəmilərin liman qurğularının təmiri üzrə mühüm işlər görülmüşdür. TRASEKA proqramının layihələrinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının dövlət strukturları tərəfindən müxtəlif beynəlxalq maliyyə institutlarından (Avropa Yenidənqurma və İnkişaf Bankı, Kuveyt, İqtisadi İnkişaf Fondu, İslam İnkişaf Bankı, Dünya Bankı və s.) kreditlər alınmışdır. Bu proqram çərçivəsində ölkəmizdə həyata keçirilmiş ən mühüm layihələr sırasında aşağıdakıların adlarını çəkə bilərik:

- Qafqazın dəmir yollarının reabilitasiyası layihəsi;
- Qırmızı Körpü sərhəd - gömrük keçid məntəqəsinin bərpası və Azərbaycan – Gürcüstan sərhəddində yeni körpünün tikintisi;
- Bakı - Böyük Kəsik (Gürcüstanla sərhəd) dəmir yolu boyunca optik kabelin çəkilişi;
- Bakı Beynəlxalq Dəniz Limanının bərpası və həmin liman üçün naviqasiya avadanlıqlarının alınması;
- Kür çayının üzərində Poylu dəmir yolu körpüsünün tikintisi;
- Azərbaycanda avtomagistral yolların bərpası layihəsi çərçivəsində Bakı – Qazax şosse yolunun əsaslı təmir olunması işləri görülüb başa çatmışdır [3, s.220-223].

TRASEKA nəqliyyat dəhlizinin digər dəhlizlərlə müqayisədə hansı üstünlükləri vardır və bu dəhlizin inkişaf etdirilməsi üçün hansı işlər irəli sürülə bilər?

Bir tərəfdən Avropa və Asiya arasında ticarət münasibətlərinin inkişafı, digər tərəfdən isə əsas əmtəə istehsalçılarının Asiyada, istehlakçılarının isə Avropada yerləşməsi kontekstində belə bir səhvsiz qənaətə gəlmək olar: əmtəələrin Avropaya TRASEKA dəhlizi vasitəsilə çatdırılması daha sərfəli və məqsədəuyğundur. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, əsas transokean marşrutu üzrə İokoqamadan (Yaponiya) Avropanın iri limanlarına qədər (Rotterdam, Hamburq, Anverpen və s.) olan məsafə TRASEKA nəqliyyat dəhlizindən iki dəfə böyükdür. Bundan savayı, TRASEKA nəqliyyat dəhlizinin iştirakçı dövlətləri beynəlxalq əhəmiyyətli, inkişaf etmiş və Avropaya yönəlmiş nəqliyyat şəbəkələrinə və dəniz limanlarına malikdirlər. Bu isə o deməkdir ki, TRASEKA dəhlizi boyunca nəqliyyat daşımalarının inkişaf etdirilməsi məqsədilə hər hansı yeni nəqliyyat şəbəkələrinin və yeni limanların tikintisinə,həmçinin artıq mövcud olan dəhlizin inkişaf etdirilməsi üçün iri həcmli investisiya qoyuluşuna ehtiyac yoxdur. TRASEKA nəqliyyat dəhlizi artıq mövcuddur və fəaliyyət göstərir. Dəhliz boyunca müxtəlif kateqoriyalı yüklərin daşınmasının

təşkili işində də böyük təcrübə əldə edilmişdir. Məsələn, 2003 - cü ilin sentyabr ayında Almaniya Federativ Respublikası tərəfindən maliyyələşdirilən 24 maşın texniki yardım konvoyu TRACEKA marşrutu ilə Belçikadan Əfqanıstana keçərkən, Azərbaycan ərazisində gömrük prosedurları rekord qısa müddət (14 dəqiqə) ərzində keçirilmişdir [4, s.11-14].

TRASEKA dəhlizini rəqabətqabiliyyətli edən başqa bir amil proqrama daxil olan ölkələrin zəngin faydalı qazıntılara, enerji resurslarına malik olmalarıdır. Regionun ölkələri həmçinin yüksək hazırlıqlı kadr potensialına malikdirlər. Bu ölkələrdə tranzit nəqliyyatın inkişafı, şübhəsiz, regionda istehsalın həcminin və əhalinin məşğulluq səviyyəsinin artmasına səbəb olacaqdır.

İqtisadi inkişafın və qloballaşma prosesinin indiki mərhələsində dünya dövlətlərinin ticarətdən asılılığı getdikcə daha çox hiss olunmuşdur. Bu baxımdan TRASEKA iştirakçı ölkələri dünya ticarətinin həcminin artması ilə əlaqədar olaraq, nəqliyyata olan tələbin də artmasının şahidi olurlar. Artıq TRASEKA Avropa və digər beynəlxalq təşkilatların işində əsas vektora çevrilmişdir.

TRASEKA proqramı, Böyük İpək Yolunun bərpa edilməsi bu gün XXI əsr üçün ən böyük proqramlardan biridir. Bu proqramın hərtərəfli inkişafını nə qədər yaxşı təmin edə bilsək, Cənubi Qafqaz, Orta Asiya ölkələrinin Avropa ilə inteqrasiyası bir o qədər sürətli olacaqdır.

Elə bunu bilmək kifayətdir ki, 2018-ci ilin ilk altı ayında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi, yəni TRASEKA boyunca hər iki istiqamətdə daşınan malların həcmi təxminən 23 milyon ton təşkil edib. Faktlar göstərir ki, bu dəhlizin tam gücü ilə istifadəsi deyil. Hər il Çindən dəniz nəqliyyatı və eləcə də, Rusiyanın "şimal marşrutu" vasitəsilə 60 milyon yük daşınır. TRASEKA nəqliyyat dəhlizi yüklərin daşınma müddətini 3-5 gün azalda bilər.

Azərbaycanda ölkənin nəqliyyat və tranzit imkanlarını daha da artırmaq və yaxşılaşdırmaq məqsədi ilə daima iqtisadi və texniki islahatlar aparılır və həyata keçirilir. Belə ki, ölkəmiz "Şərq-Qərb" nəqliyyat marşrutu, İran və Rusiya ilə birgə "Şimal-Cənub" nəqliyyat dəhlizinin həyata keçirilməsində də fəal iştirak edir. Bu layihənin reallaşdirilməsı bütün iştirakçı ölkələrin iqtisadi və siyasi sabitliyindən asılıdır. Lakin İrana qarşı irəli sürülən iddialı qadağalar Tehranın rəsmi olaraq bu layihədə üzərinə düşən öhdəliyi yerinə yetirməsini çətinləşdirir. Bu səbəbdən indi İranda yerləşən Şimal-Cənub Nəqliyyat Dəhlizinin mənzil qərargahını Bakıya, TRASEKA-nın ofisinə köçürmək təklifi irəli sürülmüşdür. Qeyd edək ki, "Şimal-Cənub" nəqliyyat dəhlizi Şimali Avropanı Cənub-Şərqi Asiya ilə, o cümlədən Azərbaycan, İran və Rusiyanın dəmir yollarını birləşdirməyə yönəlib. İlkin dövrlərdə "Şimal-Cənub" dəhlizi boyunca 6 milyon yük daşınacağı planlaşdırıldığı halda, sonralar ildə 15-20 milyon ton yükün daşınması həyata keçiriləcəkdir. Yük 14 gün ərzində Hindistan ərazisindən, daha sonra Fars körfəzi, İran, Azərbaycan və Rusiyadan keçərək Skandinaviya və Şimali Avropaya daşınacaq.

### Ədəbiyyat


1. Əliyev Ş.T. Azərbaycanın iqtisadiyyatı. Dərslik. SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018, 375 s.
2. Pənahəliyeva M.Ö., Əliyev Ş.T. Beynəlxalq nəqliyyat əlaqələri. Dərs vəsaiti. Sumqayıt, 2015, SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 174 s.
3. Dr. Aras O.N., Süleymanov E. Azərbaycan iqtisadiyyatı. Bakı: Şərq-Qərb, 2010, 316 s.
4. Məmmədov H., Axundov R. Qədim İpək Yolunun nəqliyyat marşrutları. İpək Yolu II Respublika elmi praktiki konfransının materialları. Bakı, 2001, s. 11-14


### Резюме


***Панахалиева М.О.***


**Роль программы ТРАСЕКА в развитие транспорта в Азербайджане**


*Статья посвящена развитию транспортной системы в Азербайджанской Республике. В статье также представлена подробная информация о целях и преимуществах программы ТРАСЕКА, которая играет решающую роль в развитии транспортной системы в Азербайджане.*



***Ключевые слова:*** *программа ТРАСЕКА, транспорт, торговля, проект, инвестиции.*


### Summary


***Panahaliyeva M.O.***


**Role of TRACECA Program in Development of Transportation in Azerbaijan**


*The article devoted to the transport system of the Azerbaijan Republic. It also provides detailed information on the TRACECA program and its priorities, which will play a crucial role in developing the transport system.*



***Key words:*** *TRACECA program, transport, trade, project, investment*

# KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ TƏDARÜKÜ PROSESİNİN TƏŞKİLATİ-İQTİSADİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNDƏ LOGİSTİKANIN ROLU

***Rəhimova G.V.***
*Azərbaycan Dövlət Aqrar Universiteti*

**Xülasə.** *Məqalədə Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının tədarükü prosesi və bu sahədə struktur dəyişikliklərinin əsas istiqamətləri araşdırılır. Eyni zamanda hazırkı şəraitdə kənd təsərrüfatı məhsullarının tədarükü prosesinin təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsində nəqliyyatın, logistikanın rolu araşdırılmış və müvafiq dəyərləndirmələr aparılmışdır. Araşdırmanın nəticəsi olaraq kənd təsərrüfatı məhsullarının tədarükü prosesinin təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsinə dair təkliflər hazırlanmışdır.*

***Açar sözlər:****aqrar sektor,kənd təsərrüfatı məhsullarının tədarükü, nəqliyyat, logistika mərkəzi, aqropark*

Milli iqtisadiyyat sistemində aqrar sektorun inkişafında əsas hədəflərdən biri ölkənin ərzaq təhlükəsizliyinin etibarlı təmin edilməsidir.Hal-hazırda ölkənin ərzaq təhlükəsizliyini təmin etmək üçün başlıca məqsəd kənd təsərrüfatı (k/t) məhsullarına olan tələbatın daxili istehsal hesabına ödənilməsi, aqrar emal sənayesinin və aqromarketinqin, aqroservis xidmətlərinin və kənd yerlərində təsərrüfatçılığın inkişaf etdirilməsindən ibarətdir.Ölkəmizin aqrar strukturunda istehsal olunan k/t məhsullarının tədarükü prosesinin səmərəli təşkili bütövlükdə aqrar-sənaye sisteminin inkişaf etdirilməsinin mərkəzi məsələləri sırasında dayanır.

Tədarük həm ölkə daxilində, həm də xaricində topdan böyük və pərakəndə kiçik dəstlərlə malların əldə olunması prosesidir. Böyük dəstlərlə tədarük dövlət tərəfindən həyata keçirilən taxıl, ət və ət məhsulları, süd və süd məhsulları, meyvə, bitki yağı və s. ərzaq və qeyri-ərzaq məhsulları tədarükü nəzərdə tutulur. Kiçik dəstlərlə pərakəndə tədarük zəruri ərzaq və qeyri-ərzaq mallarının həm dövlət, həm də sahibkarlar, müəssisə və təşkilatlar tərəfindən həyata keçirilən proses başa düşülür.

K/t məhsullarının tədarükü əsasən aşağıdakı formada həyata keçirilir:

- dövlət tərəfindən;
- k/t məhsulları emalı müəssisələri tərəfindən;
- ayrı-ayrı müəssisə və idarələr, kooperativlər, ictimai təşkilatlar tərəfindən;
- ayrı-ayrı fiziki və hüquqi şəxslər tərəfindən[2səh.382,386]

Bazar iqtisadiyyatına transformasiya zamanı dövlət təzimlənməsinin həyata keçirilməsi üçün ölkədə müvafiq institusional strukturların yaradılması xüsusi əhəmiyyət daşıyır.Aqrar sektorun dəstəklənməsinin səmərəli yollarından biri dövlət tərəfindən həyata keçirilən k/t məhsullarının tədarükü prosesidir.Bu sistemdə dövlət birbaşa alıcı qismində iştirak edir.

Kənd təsərrüfatı bazarının inkişaf etdirilməsi siyasəti çərçivəsində bir tərəfdən müvafiq infrastrukturun gücləndirilməsi, digər tərəfdən isə müvafiq institutsional mexanizmlərin təkmilləşdirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir.Bu sahədə ən əsas məsələlərdən biri də kənd təsərrüfatı məhsullarının tədarükü prosesinin müasir dövrün tələblərinə uyğun təşkil etməkdən ibarətdir. Məhz bu səbəbdən bu sahədə olan çətinlikləri aradan qaldırmaq üçün ölkə prezidenti İlham Əliyev "Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında sərəncam imzalayıb.Cəmiyyətin əsas məqsədi kənd təsərrüfatı məhsullarının istehsalını və emalını stimullaşdırmaq, kənd təsərrüfatı məhsulları istehsalçılarının inkişafını təmin etmək, regionlarda kənd təsərrüfatı ilə məşğul olan əhalinin sosial rifahının yaxşılaşdırılmasına zəmin yaratmaq, ərzaq məhsullarının keyfiyyətini, eləcə də dövlət vəsaitindən istifadənin səmərəliliyini artırmaq və dövlət sifarişi ilə ərzaq məhsullarının satın alınmasının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsini yerli kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq, yerli kənd təsərrüfatı məhsulları istehsalçılarının və ixracın təşviqi məqsədi ilə tələbatdan artıq tədarük edilmiş kənd təsərrüfatı məhsullarının xarici ölkələrə ixracının, habelə yerli bazarda bütün satış kanalları və zəncirləri vasitəsilə həmin məhsulların satışının təşkili və həyata keçirilməsini təmin etməkdən ibarətdir[6]

Prezidentin 14 dekabr 2018-ci il tarixli Sərəncamı ilə "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC ləğv edilərək sistemin səmərəliliyinin artırlması məqsədi ilə K/t Nazirliinin tabeliyində olan səhmləri dövlətə məxsus olan "Aqrar tədarük və təchizat" ASC yaradıldı.Bütün bunlar göstərir ki, çevik tədarük sisteminin qurulması dövlətin aqrar siyasətinin başlıca istiqaməti olaraq qalir.

Mövcud imkanların tam reallaşdırılmasına, istehsal olunmuş məhsul itkilərinin qarşısının alınmasına, bioloji potensialdan maksimum istifadə edilməsinə yalnız k/t məhsullarının istehsalı, onların hazır istehlak

mallarına çevrilməsi və alıcılara çatdırılması prosesində bioloji, texniki və təşkilati-iqtisadi amillərinin vahid sistemdə üzvi şəkildə cəm edilməsi yolu ilə nail olmaq olar. Müşahidələr göstərir ki, insanların normal yaşayışının təmin olunması, onların normaya uyğun keyfiyyətli ərzaq məhsulları ilə təchiz edilməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Təbii ki, bunun üçün keyfiyyətli ərzaq istehsalı ilə yanaşı, vacib məsələlərdən biri də istehsal edilmiş məhsulların istehlakçılara vaxtında çatdırılmasıdır [5].

Kənd təsərrüfatı məhsulları tezxarabolan məhsul olduqlarına görə tədarük prosesi sürətli olmalıdır. Lakin əksər hallarda məhsulların fermerlər tərəfindən vaxtında satışı mümkün olmur və bunun nəticəsində məhsulun istehlak müddəti bitir. Təbii ki, bu proses istehsalçının zərərinə səbəb olur. Digər tərəfdən isə istehsalçı və istehlakçılar arasında fəaliyyət göstərən vasitəçilər yaranmış situasiyanı öz mənafelərinə uyğun dəyərləndirir. Yəni, məhsulları daha ucuz qiymətlərlə tədarük edir. Bu zaman isə fermerlərin mənfəəti azalır, təkrar istehsal təşəbbüskarlığı aşağı düşür və orta və uzunmüddətli dövr üçün ölkədə ərzaq qıtlığına səbəb olur. İstehsalçılar üçün məhsulun yerli və xarici bazarlara çıxarmaq, onların saxlanma və daşınmasını təmin etmək əksər hallarda ciddi problemə çevrilir.

Aqrar sahədə infrastrukturlar olmasa tərəqqidən, normal həyat fəaliyyətindən söhbət gedə bilməz. Aqrar istehsalda yük nəqliyyatı normal fəaliyyət göstərməli, əmək vasitələri və predmetləri, istehsal olunan məhsullar istehlakçılara avtomobil, hava, su, dəmiryolları ilə müxtəlif yerlərə çatdırılması həyata keçirilməlidir. Məhsulların bəziləri bir bölgədə, bəziləri başqa bölgədə istehsal olunduğunu nəzərə alsaq, həmin məhsulun istehsal olunmayan (və ya az istehsal olunan) yerlərdə istehlakçılara çatdırılmasının zəruri olduğunu görmək olar[2 səh.609 ].

K/t məhsullarının istehsalçıdan son istehlakçıya hərəkəti müxtəlif mərhələlərdən keçir və bununla əlaqədar,bazar infrastukturu subyektlərinin yerinə yetirdikləri fəaliyyət funksional baxımdan diferensiallaşmışdır. Tədarük prosesinin həyata keçirilməsi nəqliyyat və anbar infrastrukturunun səviyyəsindən birbaşa asılıdır.Dünya ölkələrində geniş yayılan və ən müasir texnologiyalara cavab verən anbar təsərrüfatlarının (logistika mərkəzlərinin) yaradılması nəticəsində məhsulların etibarlı saxlaması, zay məhsul və tullantıların azaldılması k/t məhsullarının tədarükü prosesinin səmərəli təşkilinə səbəb olacaqdır. Logistikanı ərzaq və digər məhsulların istehsalçıdan istehlakçıya qədər axın proseslərinin sistemli surətdə idarə olunması kimi nəzərdən keçirsək, logistik zəncirin qurulması üçün görülən işlərin mühüm əhəmiyyət kəsb etdiyini aydın görəcəyik. Logistika iqtisadi fəaliyyətin tam bir dövrü kimi nəzərdən keçirilir. Ayrı-ayrılıqda ehtiyatların, nəqliyyatın, alış-satışın, paylaşmanın, istehsal münasibətlərinin, anbarların və məlumatların logistikaları mövcuddur.

Logistika gərəkli məhsulun lazım olan miqdarda və vaxtda, lazımi yerə minimal xərclərlə çatdırılmasını təmin etmək deməkdir. Bu sahədə ölkəmizdə bir çox işlər həyata keçirilmişdir.Azərbaycanda k/t məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində nəzərdə tutulan hədəflər də ciddiliyi ilə seçilir. K/t məhsullarının istehsalı və emalı sektorunda həyata keçiriləcək prioritetlərin 2020-ci ildə real ÜDM-i birbaşa 575 milyon, dolayı şəkildə isə 660 milyon manat olmaqla, ümumilikdə 1235 milyon manat artacağı və təxminən 20 min yeni iş yerinin yaradılacağı proqnoz edilir.Logistikanın qurulması istiqamətində əldə olunan nailiyyətlər bu gün ölkədə istehsal olunan k/t məhsullarını sürətlə həm daxili, həm də xarici bazarlarda alıcılara çatdırmağa imkan yaradır. [4]

Hazırda ölkənin regionlarında müxtəlif k/t məhsullarının saxlanılması və ya tədarükü üzrə 212 anbar, o cümlədən 103 taxıl anbarı mövcuddur. Fəaliyyət göstərən anbarların ümumi tutumu 1250 min ton, o cümlədən taxıl anbarlarının ümumi tutumu 741 min ton, meyvə-tərəvəz məhsulları üçün quru və soyuducu anbarların ümumi tutumu isə 509 min tondur. Meyvə-tərəvəz məhsulları üçün fəaliyyət göstərən quru və soyuducu anbarların ümumi tutumunun ölkədə istehsal edilən meyvə-tərəvəz məhsullarının həcminə nisbəti təqribən 17 % təşkil edir. Taxıl anbarlarının da böyük hissəsi dövlət taxıl ehtiyatlarının saxlanılması məqsədinə xidmət edir. Həmçinin bu anbarların regionlar üzrə bölgüsü də həmin regionların istehsal potensialına müvafiq deyildir.

Nəqliyyat öz vəzifəsini icra etməklə, həm də iqtisadiyyatın ayrı-ayrı sahələrini sistem halında birləşdirir.Göründüyü kimi, istər nəqliyyat sistemi, istərsə də bu sistemin fəaliyyət göstərdiyi nəqliyyat xidmətləri bazarı milli inkişaf modelinin formalaşmasında xüsusi rol oynayır.[1 səh.276]

K/t məhsulları tez xarab olan məhsul kimi yüksək sürətli və daşıma müddətində məhsulların keyfiyyətini qoruya bilən nəqliyyat vasitələrinin tətbiqini tələb edir.K/t məhsullarının daşınması xidmətləri sistemi aşağıdakılarla xarakterizə olunur:

- k/t məhsullarının daşınması üçün fermerlər öz şəxsi mülkiyyəti olan minik avtomobillərindən, yaxud da ayrı-ayrı fiziki şəxslərin mülkiyyətində və ya istifadəsində olan yük avtomobillərindən istifadə edirlər;

• məhsullarının istehsalı, tədarükü, saxlanılması və emalı ilə məşğul olan iri şirkətlərin müxtəliftutumlu nəqliyyat vasitələri, o cümlədən tezxarabolan məhsulların daşınması üçün xüsusi soyuduculara malik olan nəqliyyat vasitələri vardır;

• yerli fermerlər k/t məhsullarının ixrac bazarlarına daşınması üçün iritutumlu yük maşınlarına, o cümlədən də avtorefrijeratorlara olan ehtiyaclarını ödəmək üçün xarici nəqliyyat şirkətləri ilə əməkdaşlıq edirlər.

Hazırda k/t məhsullarının həm ölkə daxilində, həm də ixrac bazarlarına daşınması ilə bağlı bəzi maneələr mövcuddur. Belə ki, daşıma xidmətləri göstərənlər ucqar kəndlərdən, xüsusilə də yolları təmirsiz olan kəndlərdən nisbətən yüksək daşıma haqqı tələb edirlər. Son illər ərzində kənd yollarının təmir olunması istiqamətində genişmiqyaslı işlər görülməsinə baxmayaraq, məsləhətlə də bir sıra yerlərdə aktualdır.

Son dövrlərdə ölkəmizdə də aqrar sənaye kompleksinin müasir infrastrukturunun və logistik bazasının formalaşdırılması üçün geniş miqyaslı tədbirlər reallaşdırılır və aqroparklar yaradılır. Aqroparklar k/t məhsullarının intensiv istehsal olunmasına, daşınmasına, saxlanılmasına və eyni zamanda onun satışının təşkil edilməsində mühüm rol oynayır. Bu prizmadan yanaşdıqda aqroparklar müasir texnologiyaların tətbiq edilməsi ilə istehsal, emal və logistika xidmətlərini mərkəzləşdirilmiş vahid ərazidə yaratmaqla yüksək keyfiyyətli məhsulların alınmasına, satışının təmin edilməsinə və sahibkarlıq fəaliyyətinin mənfəətliliyinə geniş imkanlar yaradır.Aqroparklarda müasir logistik mərkəzlərin yaradılması da nəzərdə tutulmuşdur. K/t məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində k/t-nın, aqrar sənaye kompleksinin yaxın və uzaq perspektivdə strateji hədəfləri müəyyən edilmişdir.Strateji Yol Xəritəsinə görə ümumiyyətlə 51 aqropark və iri fermer təsərrüfatı yaradılması nəzərdə tutulmuşdur. Onlardan 17-si yaradılması həyata keçirilir və bu 17 aqroparkın ümumi sahəsi 104 min ha-dır. 31 aqroparkın yaradılmasına 2,2 milyard manat vəsait nəzərdə tutulmuşdur.

Bütün görülmüş tədbirlərlə yanaşı,fikrimizcə,k/t məhsullarının tədarükü prosesinin təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsində logistikanın rolunun artırılması üçün qeyd edilən tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı:

-aqroparklarda müasir logistik mərkəzlərin yaradılması prosesinin intensivləşdirilməsi;

-regionlarda k/t məhsulları üzrə topdansatış və logistika xidmətlərini həyata keçirən bazar infrastrukturu obyektlərinin inkişafı;

- meyvə, tərəvəz, kartof və bostan məhsullarının saxlanılması üçün kiçik və ortahəcmli soyuducu anbarların yaradılmasının dəstəklənməsi;

-tədarük edilənk/t məhsullarının daşınması prosesində məhsulların keyfiyyətini qoruya bilən soyuducu ilə təmin edilmiş nəqliyyat vasitələrinin tətbiqi;

- logistika sahəsində avtomobil yollarının ağır yüklərə qarşı etibarlılığının artırılması məqsədilə dövlət tərəfindən müvafiq tədbirlərin həyata keçirilməsi;

## Ədəbiyyat


1. Alıyev İ.H. və b.Milli iqtisadiyyat:modernləşmə və davamlı inkişaf. Bakı,2012, 473 s.
2. İbrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı. (Monoqrafiya). Bakı, 2016, 655 s.
3. Quliyev E.A.Aqrar iqtisadiyyat. Bakı:Kooperasiya nəşriyyatı, 2015, 320 s.
4. www.azerbaijan-news.az)
5./http://www.anl.az/down/meqale/xalqqazeti/2015/fevral/421221.htm
6. http://www. tedaruk.gov.az


## Резюме


***Рагимова Г.В.***


**Роль логистики в совершенствовании организационно-экономическогомеханизма заготовкисельскохозяйственной продукции**


*В статье исследуются системы заготовоксельскохозяйственных продуктов в Азербайджанской Республике и основные направления структурных изменений в этой области. Одновременно, анализирована роль логистикив совершенствовании механизма заготовкисельскохозяйственной продукции и проведены соответствующие оценивания. Подготовлены предложения длясовершенствования механизмов заготовкисельскохозяйственной продукции.*



***Ключевые слова:*** *аграрный сектор, системы заготовоксельскохозяйственных продуктов, логистика, агропарки*

**Summary**

***Rahimova G.V.***

**The Role of Logistics in Termsof Organizational Economic Mechanism Improvement of the Agricultural Product Supply Process**

*The article focuses on the process of agricultural product supply in the Republic of Azerbaijan and the main trends in structural changes in this field at the same time, logistics has been investigated to improve the economic mechanism of organizing the agricultural product delivery process.As a result of the research proposals were made to improve the economic mechanism of the agricultural product deliver process.*

***Key words:****agrarian sector, agricultural product supply,transport, logisticscenter,agropark*

## MƏHSUL SİYASƏTİ VƏ ONUN REALLAŞDIRILMASI

***Rəhmanova L.R.***

*Sumqayıt Dövlət Texniki Kolleci*

***Xülasə.*** *Məqalədə məhsul siyasətinin reallaşdırılmasının zəruriliyi əsaslandırılmışdır. Bu siyasətin həyata keçirilməsinin əsas vəzifələri və istiqamətləri tədqiq edilmişdir. Həmçinin yeni məhsulun yaradılması mərhələləri nəzərdən keçirilmişdir.*

***Açar sözlər:*** *məhsul siyasəti, məhsul çeşidi, marketinq, istehsal, müəssisə*

Biznesin səmərəli fəaliyyəti və inkişafı üçün tələb olunan məhsullar istehsal edilməlidir. Marketinq nəzəriyyəsində məhsula konkret tələbatın ödənilməsi vasitəsi kimi baxılır. Məhsul marketinq kompleksinin əsas elementi kimi, insanın real ehtiyacını və tələbatını ödəyə bilər. Marketinq isə hər bir istehsalçıya real ehtiyacı və tələbatı dəqiq müəyyən etməkdə, onun səmərəli və münasib qaydada ödənilməsi məqsədi ilə müəssisədə zəruri məhsulların istehsalının təşkili işində əməli köməklik göstərə bilər. Bu isə müəssisədə məhsul siyasətinin reallaşması yolu ilə həyata keçirilir.

Məhsul siyasətində aşağıdakı tədbirlərin icrasına ciddi diqqət yetirilməsi tövsiyə edilir:

- istehsal edilən məhsulların modifikasiyası;
- yeni məhsul növlərinin işlənməsi;
- köhnəlmiş məhsulların istehsaldan çıxarılması;
- istehsal edilən məhsulların optimal nomenklaturasının müəyyən edilməsi;
- buraxılan məhsulların ən yaxşı çeşidi;
- məhsul nişanlarının məqsədəuyğunluğunun müəyyən edilməsi;
- istifadə edilmə imkanlarının aydınlaşdırılması;
- zəruri olan qablaşdırmanın yaradılmasına və məhsulların markalanmasının həyata keçirilməsi;
- servis xidmətinin təşkili və s.

Məhsul marketinq kompleksinin əsas elementi hesab edilir. Müəssisə qarşısında duran əsas vəzifələrdən biri real ehtiyacı və tələbatı dəqiq müəyyən etməkdən ibarətdir. Bu vəzifənin yerinə yetirilməsində qarşıya bir sıra problemlər çıxır. Belə problemlərin həlli müəssisədə məhsul siyasətinin formalaşdırılması və həyata keçirilməsi yolu ilə mümkün olur [1, s.276].

Məhsul siyasətinin əsas istiqamətləri aşağıdakılardan ibarətdir:

- təqdim olunan əmtəənin rəqibləri tərəfindən buraxılan uyğun əmtəələrdən fərqləndirən əlamətlərin müəyyən olunması;
- istehlakçıların dəyişən zövqləri əsasında əmtəələrin daima modelləşdirilməsi və modifikasiyası;
- yeni növ əmtəələrin işlənməsi;
- yüksək keyfiyyətli əmtəələrin aşağı keyfiyyəti, analoji əmtəələrin qiymətləri ilə satışı.

Sahibkarlar məhsul siyasətini həyata keçirərkən aşağıdakı məsələləri həll edirlər.




**Şəkil 1. Məhsul siyasətində həll olunan məsələlər**

Məhsul siyasətinin həyata keçirilməsində əsas vəzifə hər şeydən əvvəl müəssisənin bazara çıxaracağı məhsulları müəyyən etməkdən ibarətdir. Məhsul siyasəti formalaşdırarkən bir sıra şərtlərə əməl etmək lazımdır:

- perspektiv istehsal, satış və ixrac məqsədləri, müəssisənin istehsal-satış strategiyası haqqında hərtərəfli, dəqiq informasiyaya malik olmaq;
- bazarı və onun tələblərinin xarakterini yaxşı öyrənmək;
- müəssisənin hazırda və perspektivdə olan imkanlarını müəyyən etmək;
- məhsulun və onun ayrı-ayrı növlərinin yeniləşdirilməsi dövrülüyünü müəyyən etmək [4, s.107].

Marketinqdə məhsul siyasətinin həyata keçirilməsi həm də məhsul çeşidinin formalaşdırılmasını nəzərdə tutur. Belə ki, müəssisələrin əksəriyyəti hər hansı bir məhsul növü deyil, müəyyən məhsul çeşidləri istehsal edir. Hər bir növ məhsul çeşidi özünün marketinq strategiyasını tələb edir. Məhsul çeşidinin artırılması problemi həmin artımın aşağı, ya yuxarı, ya da hər iki istiqamətdə baş verəcəyinə dair qərar qəbul edilməsini tələb edir. Məhsul satışının həvəsləndirilməsinə yönəldilən tədbirlər sistemində bütün çeşidi məhz hansı məhsulların təmsil edəcəyi məsələsi də konkret həll edilməlidir. Əgər məhsul çeşidinə yeni yeni məhsullar daxil etməklə gəliri artırmaq mümkündürsə, bu zaman çeşid həddindən çox dar hesab edilir. Əgər məhsul çeşidi tərkibindən bəzi məhsulları çıxarmaq mümkündürsə, onda bu çeşid həddindən artıq geniş hesab edilir. Müəssisə məhsulun çeşidini 2 yolla genişləndirə bilər: çeşidi artırmaqla və çeşidi zənginləşdirməklə [3, s.91].

Hər bir müəssisə maraqlıdır ki, yeni məhsul yaratsın və bazarda əlverişli mövqe tutsun. Hər il bu məqsəd üçün çox məbləğdə vəsaitlər xərclənir. Amma yeni yaradılan bu məhsulların yalnız bir hissəsi bazar tərəfindən qəbul edilir. Ümumiyyətlə, yaxşı məhsulu işləmək, yaratmaq və hazırlamaq olduqca çətin bir işdir. Bunun üçün müəyyən elmi-tədqiqat işi aparılmalı, yeni məhsulu işləyənlər tərəfindən bu işə yaradıcılıqla yanaşmaq tələb edilir. Yeni ideya və kəşflərin mənbəyi, onların yaradıcıları əsas etibarilə fundamental və tətbiqi elmi-tədqiqat institutları hesab edilir. İstehlak malları və xidmətləri üzrə işlənib hazırlanan yeni ideyaların əsas istehsalçıları müəssisənin innovasiya bölməsi olur. Bilavasitə bu bölmələrdə ümumi ideyalar əsasında, istehlakçıların müəyyən tələbatlarının ödənilməsinə yönəldilmiş yeni məhsul konstruksiyaları və xidmət növləri hazırlanır. Başqa sözlə, məhsulun və xidmətin yaradılmasının ümumi ideyalarından başlamış, onların maddiləşmiş, hazır formaya salana kimi olan bütün mərhələləri bilavasitə müəssisənin elmi-tədqiqat şöbələrində həyata keçirilir.

İdeyanın yaranması və reallaşdırılması mərhələsində bu işə mümkün qədər çox sayda və yüksək səviyyəli mütəxəssislər cəlb etmək, hər bir ideyanı diqqətlə və axıra kimi dinləmək, hətta ilk anda belə qeyri-real görünən və ya əhəmiyyətsiz hesab edilən bütün fikirlərə də ciddi və diqqətlə yanaşmaq lazımdır.

Yeni məhsulun yaradılması konsepsiyasının yoxlanılma mərhələsində potensial istehlakçıların mövcudluğu məsələsinin də tədqiqi və araşdırılması zəruridir.

Yeni məhsulun yaradılması prosesi aşağıdakı şəkildə göstərilmişdir.




**Şəkil 2. Yeni məhsulun yaradılmasının əsas mərhələləri**

Yeni məhsulun yaradılması və bazara çıxarılması çox uzun sürən və baha başa gələn bir mərhələdir. Materialın tipi və keyfiyyəti seçilir, hazırlanma texnologiyası işlənib hazırlanır, yaxud texnologiyanın əldə edilməsi imkanları və məqsədəuyğunluğu, materialların müəssisənin özündə istehsalı, yaxud kənardan alınması, bazarda olan materialdan istifadə etməli, yaxud yenisini işləyib hazırlamalı, məhsulun konstruksiyasının işlənilməsi, mövcud olan avadanlıqlardan istifadə etmə imkanlarının müəyyən edilməsi, yaxud yenisinin alınmasını və s. müəyyən edilməsi zəruridir [2, s.410].

Eləcə də yeni məhsul yaradılarkən onun qablaşdırılması məsələləri də mütləq həll edilməlidir. Bu, xüsusilə müəssisənin məhsulunun yalnız xarici bazarlara çıxarılmasının nəzərdə tutulduğu, yaxud da onun satış yerinə çatdırılması mərhələlərində mürəkkəb və çətin nəqletmə prosesinin keçəcəyi ehtimalı olan şəraitdə çox zəruridir. Çünki məhsulun son istehlakçıya saz və salamat çatdırılması ən vacib şərtlərdən biridir. Məqsədli bazar fəaliyyəti baxımından yeni məhsulun bazara çıxarılması, yəni bazar tərəfindən onun qəbul edilməsi məsələsi çox mürəkkəb, çoxaspektli və ardıcıl həyata keçirilməsini tələb edən ən vacib və əhəmiyyətli bir prosesdir.

**Ədəbiyyat**


1. Əliyev T.N. Marketinqin təşkili və idarə olunması. Bakı: ADNA, 2004, 568 s.
2. Hüseynov T.Ə. Firmanın iqtisadiyyatı. Bakı: Azərnəşr, 2009, 600 s.
3. Hüseynova İ.M. Müəssisənin iqtisadiyyatı. Bakı: Bakı Biznes Universitetinin nəşriyyatı, 2013, 304 s.
4. Məmmədov A.T. Marketinqin əsasları. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2007, 306 s.



**Резюме**

***Рахманова Л.Р.***

**Политика продукции и ее реализация**

*В статье обосновывается необходимость реализации политики продукции. Исследованы основные задачи и направления внедрения в жизнь этой политики, а также, рассмотрены этапы создания новой продукции.*

***Ключевые слова:*** *товарная политика, ассортимент продукции, маркетинг, производство, предприятие*

**Summary**

***Rahmanova L.R.***

**Product Policy and its Implementation**

*The article substantiates the need to implement product policies. The main objectives and directions of implementation of this policy are investigated. And also, considered the stages of creating a new product.*

***Key words:****product policy, product range, marketing, manufacturing, enterprise*


## AZƏRBAYCANDA NEFT-KİMYA KOMPLEKSİ MÜƏSSİSƏLƏRİNİN İXRAC POTENSİALININ ARTIRILMASININ MALİYYƏ ASPEKTLƏRİ


***Salmanov M.C.***

*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*



***Xülasə.*** *Məqalədə Azərbaycanda neft-kimya kompleksi müəssisələrinin ixrac potensialının artırılmasının maliyyə aspektləri tədqiq olunmuşdur. Bu məqsədlə ölkənin neft-kimya kompleksinin istehsal və ixrac potensialı təhlil edilmişdir. Neft-kimya müəssisələrinin qeyri-neft sektorunda əhəmiyyətli rol oynaması baxılmışdır. İxrac potensialının artırılması baxımından neft-kimya kompleksi müəssisələrinin fəaliyyətinin gücləndirilməsində maliyyə aspektlərinin strateji rolu əsaslandırılmışdır. Yaxın perspektivdə neft-kimya kompleksi müəssisələrinin ixrac potensialının artırılmasının maliyyə aspektləri üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*



***Açar sözlər:*** *neft-kimya kompleksi, neft-kimya kompleksinin müəssisələri, neft-kimya kompleksinin ixrac potensialı, neft-kimya kompleksi müəssisələrinin maliyyə aspektləri, neft-kimya kompleksinin ixrac potensialının artırılması problemləri, neft-kimya kompleksinin ixrac potensialının yüksəldilməsininmaliyyə aspektləri.*

Ölkə iqtisadiyyatının neftdən asılılığının azaldılmasının təmin edilməsi problemləri strateji xarakter daşıyır. Bu baxımdan neft-kimya kompleksi və onun müəssisələrinin istehsal və ixrac potensialının kifayət qədər yüksək olması diqqət çəkir. Azərbaycanda neft-kimya kompleksinin inkişafı neft sənayesi ilə bilavasitə bağlıdır və bu strateji sənaye sahəsinin mühüm emal zənciri kimi çıxış edir. II Dünya Müharibəsindən sonra Azərbaycanda neft sənayesi ilə yanaşı, geniş həcmdə inkişaf yolu keçən emal sənayesi sahəsi kimi neft-kimya kompleksi güclü potensial toplaya bilmişdir.Təsadüfi deyildir ki, keçmiş SSRİ dövründə Azərbaycanın neft-kimya kompleksi ölkədə ən güclü kimya və neft-kimya sənayesi mərkəzlərindən biri hesab olunurdu. Əsasən Sumqayıtda yerləşən iri neft-kimya müəssisələrindən keçmiş SSRİ-nin 400-dən çox şəhərinə, həmçinin onlarla digər dünya ölkələrinə çoxlu çeşiddə məhsullar ixrac edilirdi [1]. Bu məhsullar hələ o zamanlar ölkəyə valyuta resursları gətirmək potensialı baxımından xüsusilə diqqət mərkəzində idilər.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra, bu nəhəng satış və ixrac bazarları artıq itirilmişdi, yaxud müəssisələrarası əlaqələrin kəsilməsi səbəbindən əksər məsələləri yenidən başlamaq tələb olunurdu. Digər tərəfdən, iri və nəhəng neft-kimya müəssisələri planlı iqtisadiyyatdan bazar iqtisadiyyatı mexanizmlərinə keçid zamanı rəqabətə tab gətirə bilmədiklərindən öz potensiallarını, o cümlədən, ixrac potensialını itirməli olmuşlar [2]. Bu səbəbdən neft-kimya müəssisələrinin əsas fondlarının yenilənməsi, müasir texnologiyaların transferinə nail olunması, rəqabətqabiliyyətli və ixracyönlü istehsal sahələrinin yaradılması tələb olunurdu. Lakin, bütün bunlar üçün külli maliyyə resurslarına və investisiyalara ehtiyac var idi. Amma, ölkəmizə neft gəlirlərinin daxil olmasından əvvəlki dövrdə bu mürəkkəb vəzifələrin öhdəsindən gəlmək qeyri-mümkün idi. Buna görə də neft-kimya kompleksi və onun müəssisələrində əhəmiyyətli islahatlar, o cümlədən, bu kompleksin idarəetmə strukturunun təkmilləşdirilməsi, ixrac potensialının artırılması tədbirləri son on ildəintensiv xarakter almışdır. Ölkədə dövlət müəssisələri ilə yanaşı, özəl neft-kimya müəssisələrinin yaradılması və bu sahənin məhsullarının ixrac edilməsi proseslərinin genişlənməsi üçün daha çox məqsədli investisiyalar yatırılmış və maliyyə resursları yönəldilmişdir [3].

Şəkil 1-də Azərbaycanda neft-kimya kompleksində fəaliyyət göstərən müəssislərinin sayı verilmişdir.




**Şəkil 1. Azərbaycanda neft-kimya kompleksində fəaliyyət göstərən müəssislərinin sayı (ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır).**

Göründüyü kimi, son illərdə, daha dəqiq 2017-ci ildə əvvəlki illərdə nisbətdə neft-kimya kompleksində fəaliyyət göstərən müəssisələrin sayı nisbətən artmışdır və bu özünü əsas kapitala yönəldilən investisiyalarda da göstərmişdir.

Şəkil 2-də Azərbaycanda neft-kimya kompleksində fəaliyyət göstərən müəssisələrdə əsas kapitala yönəldilən investisiyaların həcmi dinamikası verilmişdir.




**Şəkil 2. Azərbaycanda neft-kimya kompleksində fəaliyyət göstərən müəssisələrdə əsas kapitala yönəldilən investisiyaların həcmi, mln. manat (ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır).**

2013-2017-ci illər ərzində neft-kimya kompleksində fəaliyyət göstərən müəssisələrdə əsas kapitala yönəldilən investisiyaların həcmi 255 mln. manat olmuşdur [4]. Amma, 2018-ci ildə bir sıra nəhəng ixracyönlü neft-kimya müəssisələrinin istifadəyə verilməsini nəzərə alsaq, bu məbləğin əhəmiyyətli səviyyədə artacağını qeyd etmək olar [5]. Belə ki, Sumqayıtda istismara verilən SOCAR Polimer və SOCAR Karbamid zavodlarının əsas məhsulları yerli tələbatla yanaşı, yüksək ixrac potensialına malikdir və bu iki zavodun üst-üstə ixrac potensialı il ərzində 300-400 mln. ABŞ dolları həcmində proqnozlaşdırılır.

Hazırda ölkəmizdə istehsal olunan ixracyönlü əsas neft-kimya məhsullarından Sumqayıt "Etilen-Polietilen" zavodunda istehsal olunan polietilen və mütləqləşdirilmiş izopropil spirtinin ixrac potensialının yüksək olduğunu qeyd etmək mümkündür və bu məhsulların istehsal həcmi üzrə dinamika Şəkil 3-də verilmişdir.




**Şəkil 3. Polietilen və mütləqləşdirilmiş izopropil spirtinin istehsal həcmi, min ton (ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır).**

2013-2017-ci illər ərzində Şəkil 3-də verilmiş ixrac təyinatlı neft-kimya məhsullarına dünya bazarında böyük tələbat olmasına baxmayaraq, ölkəmizdə bu məhsulların istehsal potensialından maksimum səmərəli istifadə etmək mümkün olmamışdır. Bunun əsas səbəbi - neft-kimya kompleksinin Sumqayıt şəhərində yerləşən "EP-300" nəhəng emal qurğusunun xammal təminatının cəmisi 30-40 % səviyyəsində olmasıdır. Əgər xammal təminatının gücləndirilməsi mümkün olsaydı, istehsalın səviyyəsinin artırılması və ixrac potensialının yüksəldilməsini reallaşdırmaq olardı. Şübhəsiz, bunlar üçün daha məqsədli investisiyalar yatırılmalı, xammal təminatına imkan verən logistika sistemi formalaşdırılmalı və bu proseslərin maliyyə təminatına ciddi önəm verilməlidir. Ölkəmizdə milli iqtisadiyyat sahələrinin strateji hədəflərin

müəyyənləşdirilməsi və artıq bu istiqamətlərdə intensiv işlərin getməsini nəzərə alsaq, yaxın illərdə neft-kimya kompleksinin ixrac potensialının əhəmiyyətli səviyyədə artırılması mümkün olacaqdır [6; 7].

Ölkəmizin neft-kimya kompleksinin ixrac məhsullarının həcminin artırılması və strukturunun genişləndirilməsi perspektivlərindən yaxın illərdə daha güclü istifadə edilməsi vacib şərtlərdəndir [8]. Belə ki, neft gəlirlərinin azalması ilə əlaqədar, digər məhsullar hesabına ölkəmizə valyuta daxilolmalarının artırılması strateji əhəmiyyət kəsb edir. Şəkil 4-də Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə 2013-2017-ci illərdə Azərbaycanın neft-kimya məhsullarının ümumi ixrac dinamikası öz əksini tapmışdır.




**Şəkil 4. Azərbaycanda Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə 2013-2017-ci illərdə neft-kimya məhsullarının ümumi ixrac dinamikası, milyon ABŞ dolları (ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır).**

Qeyd edək ki, neft-kimya məhsullarının ölkə ixracında ümumi payı 2017-ci ilin yekununda cəmisi 1,3 % təşkil etmişdir və şübhəsiz, bu güclü ixrac potensialına malik neft-kimya kompleksinin ixrac imkanlarına adekvat olmayan bir göstəricidir. Əsas ixrac olunan neft-kimya məhsullarından polietilen məhsulunu qeyd etmək olar və 2017-ci ildə 75,8 min ton polietilen ixrac olunmuş və dəyər hesabında 75,4 mln. ABŞ dolları təşkil etmişdir. Bununla belə 2017-ci ildə 64 mln. ABŞ dolları həcmində rezin şinlər, 19 mln. ABŞ dolları həcmində vinilxlorid polimerləri, 31 mln. ABŞ dolları həcmində propilen polimerləri, 43 mln. ABŞ dolları - etilen polimerləri, 63,2 mln. ABŞ dolları - sintetik yuycu maddələr, 54,4 mln. ABŞ dolları - mineral gübrələr və s. idxal olunmuşdur [9]. Maraqlıdır ki, idxal olunmuş neft-kimya məhsullarının əksəriyyətinin ölkəmizdə istehsal olunma potensialı vardır, bu isə o deməkdir ki, gələcəkdə həmin istehsal sahələrinin yerli bazasının təşkili hesabına, ixrac potensialını əhəmiyyətli səviyyədə artırmaq mümkündür [10]. Bu amillər və imkanlar nəzərə alınmaqla, Azərbaycanda neft-kimya kompleksi müəssisələrinin ixrac potensialının artırılması ilə bağlı bir qrup məsələlərə, o cümlədən həmin məsələlərin maliyyə aspektlərinə xüsusi diqqət yetirilməlidir:

- ❖ ölkənin neft-kimya kompleksinin ixrac potensialının obyektiv təhlil olunması və buradakı imkanların qiymətləndirilməsi təmin edilməlidir;
- ❖ neft-kimya kompleksinin məhsul nomenklaturası üzrə ölkəmizdə idxal olunan məhsulların yerli istehsalla əvəzedilməsi strategiyası hazırlanmalı və bu sahədə yerli neft-kimya müəssisələri şəbəkəsinin tikintisinə investisiyaların, alternativ maliyyə mənbələrinin cəlbedilməsi tədbirləri görülməldir;
- ❖ neft-kimya kompleksinin ixracyönlü istehsal sahələrinin potensialından daha səmərəli istifadə olunması üçün əsas fondların yenilənməsinə, istehsal güclərinin artırılmasına məqsədli investisiyalar yatırılmalıdır;
- ❖ neft-kimya kompleksində istehsal olunan ixracyönlü məhsulların xarici ölkələrə satışından əldə edilən maliyyə resurslarının bir hissəsinin yeni ixrac təyinatlı istehsal güclərinin yaradılmasına yönəldilməsi strategiyasının hazırlanması və reallaşdırılması məqsəduyğun olardı və s.

## Ədəbiyyat

1. Əliyev Ş.T. Azərbaycanın kimya və neft-kimya kompleksinin qiymətləndirilməsi və yenidən qurulması istiqamətləri. Bakı, Elm və Təhsil, 2012.- 156 s.

2. Əliyev Ş.T. Azərbaycanda neft-kimya kompleksinin inkişafının müasir aspektləri və istiqamətləri // Audit, № 3, 2016. s.41-45.

3. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı, 26 dekabr 2014-cü il.

4. Azərbaycan sənayesi. Statistik məcmuə. Bakı, 2018, 339 s.

5. 2018-ci il üzrə qeyri-neft sektorunun inkişafı. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi - https://www.economy.gov.az

6. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

7. Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

8. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt, 2018, 376 s.

9. Azərbaycanın xarici ticarəti. Statistik məcmuə. Bakı, 2018, 220 s.

10. 2018-ci il ərzində Azərbaycan Respublikasında sənayenin inkişafı - https://www.economy.gov.az/article/esas-iqtisadi-gostericiler-2018/29109

## Резюме

***Салманов М.Дж.***

**Финансовые аспекты повышения экспортного потенциала предприятий нефтехимического комплекса в Азербайджане**

***Xülasə.*** *Məqalədə insan resurslarının proses yanaşması əsasında idarə olunmasının vacibliyi əsaslandırılmış, proses yanaşmasının tətbiqi ilə insan resurslarının idarə edilməsində nail olunması sürətləndirilən məqsədlər, daha effektiv reallaşdırılan funksiyalar qeyd olunmuş, insan resurslarının idarə olunmasının təkmilləşdirilməsinə yönələn təkliflər verilmişdir.*

***Açar sözlər:*** *insan resursları, idarəetmə, proses yanaşması, təkmilləşdirmə.*

İnsan resurslarının effektiv idarə olunması müəssisənin uzunmüddətli fəaliyyət strategiyasının, keyfiyyət üzrə siyasətinin mühüm elementlərindən biridir. Bu prosesin yeni beynəlxalq standartların [1] - [4] tələbləri səviyyəsində layihələndirilməsi, həyata keçirilməsi, nəzarət olunması, təhlili, qiymətləndirilməsi, uyğunsuzluqların adekvat tədbirlərlə aradan qaldırılması müəssisə rəhbərlərindən yüksək idarəçilik qabiliyyəti, innovativ uzaqgörənlik, liderlik keyfiyyətləri - bir sözlə, proses yanaşmasının tətbiqini tələb edir.

İnsan resurslarının idarə edilməsinin təkmilləşdirilməsi üçün proses yanaşmasının tətbiq olunması müəssisəyə aşağıdakı üstünlükləri qazandıra bilər:

- keyfiyyət üzrə məqsədlərin və siyasətin formalaşdırılması, idarəetmə qərarlarının hazırlanması proseslərinə heyətin cəlb edilməsi, heyətin səriştəsinin, məlumatlılıq, motivləşdirilmə və bilik səviyyəsinin, təşəbbüskarlığının artması;
- məsuliyyət və səlahiyyətlərin daha effektiv bölüşdürülməsi,lüzumsuz tabeçilik əlaqələrinin ixtisarı, bir icraçıdan asılılıq riskinin minimallaşdırılması hesabına ali rəhbərin idarəetmə yükünün yüngülləşdirilməsi;
- proseslərin müvafiq beynəlxalq standartların tələbləri əsasında layihələndirilməsi, şəffaflıq şəraitində nəzarət və idarəetmə, nəticələrə istiqamətlənmə, nəticələrin qabaqcadan proqnozlaşdırıla bilmə səviyyəsinin yüksəlməsi hesabına insan resurslarının idarə edilməsində məhsuldarlığın və effektivliyin artırılması;
- insan resurslarının idarə olunmasının təkmilləşdirilmə mənbələrinin (vaxt və material məsrəflərinin azaldılması, şaquli və üfüqi istiqamətlərdə tabeçilik əlaqələrinin optimallaşdırılması, innovativ biliklər bazasının formalaşdırılması, risk və imkanların idarə olunması və s.) üzə çıxarılması və bu mənbələrdən effektiv istifadə etməkləinsan resurslarının idarə olunmasının bütün alt proseslər üzrə davamlı yaxşılaşdırılması;
- rəqabət qabiliyyətinin yüksəlməsi hesabına bazarın müvafiq seqmentində müəssisənin liderə çevrilmə imkanının yaranması.

Proses yanaşmasının tətbiqi insan resurslarının idarə olunmasının aşağıdakı məqsədlərinə nail olma işini sürətləndirir:

- keyfiyyət üzrə məqsədlərin və siyasətin işlənməsi və reallaşdırılması;
- ixtisasartırma, peşə orientasiyası, təlimlər və attestasiya hesabına müəssisənin ixtisaslı, səriştəli işçilərlə təmin edilməsi, heyətin imkanlarından istifadənin effektivliyinin artırılması;

- əmək şəraitinin yaxşılaşdırılması, vəzifəcə irəliləyişin təmin edilməsi, motivləşdirmənin təkmilləşdirilməsi, yaradıcı fəaliyyətin layiqli qiymətləndirilməsi hesabına heyətin işdən məmnunluq və həyat səviyyəsinin yüksəldilməsi.

Proses yanaşmasının tətbiqi ilə heyətin idarə olunması müvafiq iqtisadi təsir vasitələri və üsullarının (maddi stimullaşdırma, cərimə, maliyyələşdirmə, kredit ayırma, əmək haqqı və s.), təşkilati-sərəncam metodlarının (intizama, məsuliyyətə, məcburiyyətə, funksiyaların rəsmi sənədləşdirilməsinə əsaslanan direktiv və məcburiyyət xarakterli birbaşa təsir metodları) və sosial-psixoloji metodların (motivləşdirmə, mənəvi mükafatlandırma, sosial planlaşdırma və s.) köməyi ilə həyata keçirilir.

Proses yanaşmasının tətbiqi insan resurslarının idarə olunmasının əsas funksiyalarının(heyətin seçilməsi, yerləşdirilməsi,qiymətləndirilməsi, öyrədilməsi, ixtisaslarının artırılması, attestasiyası;vəzifə yüksəlişinin planlaşdırılması; kompensasiya və müavinətlər sisteminin təşkili; təhlükəsizliyin təmini; əmək münasibətlərinin tənzimlənməsi; ətraf mühitin dinamikliyi də nəzərə alınmaqla insan resurslarının idarə olunmasının strateji planlaşdırılması;insan resurslarının idarə olunması proseslərinin təhlili, qiymətləndirilməsi, kənarlaşmaların, uyğunsuzluqların aradan qaldırılması üzrə adekvat tədbirlərin müəyyənləşdirilməsi və həyata keçirilməsi) reallaşdırılması üçün çox əlverişli mühit formalaşdırır.

Proses yanaşmasını tətbiq etməklə insan resurslarının idarə olunmasının təkmilləşdirilməsi üzrə aşağıdakıları təklif edirik:

- insan resurslarının ölçülə bilən keyfiyyət (səriştəlilik, məlumatlılıq, motivləşdirilmə və s.) və kəmiyyətxarakteristikaları, onların nəzarət (plan) qiymətləri düzgün təyin edilməlidir;
- əməkdaşlarda açıqlıq, refleksivlik kimi keyfiyyətləri tərbiyə etmək,onlarda problemləri, vəziyyətləri düzgün və operativ təhlil və qiymətləndirmə qabiliyyəti, fərqli nöqteyi-nəzərlərin tərəfdarları arasında münaqişə və mübahisələri konstruktiv həll etmək bacarıqları formalaşdırmaq lazımdır;
- məqsəd və vəzifələr yuxarıdan verilməməli, iş prosesində yaranmalı, planlarda nə etmək lazım olmasından əlavə nələrdən qaçmaq lazım olduğu da öz əksini tapmalıdır;
- effektiv təşkilati struktur və motivləşdirmə sistemi yaradılmalı, insan resurslarının idarə olunması üzrə siyasət əməkdaşların fəal iştirakı ilə formalaşdırılmalı və şəffaflıq rejimində reallaşdırılmalıdır;
- təşkilatın dəyərlər sisteminin işçilər tərəfindən öz dəyərləri kimi qəbul etmələrinə nail olmaq lazımdır;
- təşkilatın daxilində işçilər, xaricində məhsulun (xidmətin) istehlakçıları əsas olduğundan, məhsulun (xidmətin) keyfiyyətinin müştərinin arzularına müvafiq olması üçün işçinin şüurunu rəisinə yox, müştəriyə, israfçılığa yox mənfəətə, təşəbbüskarlığa, innovasiyaya yönəltmək lazımdır.
-

## Ədəbiyyat


1. İSO 30400:2016. "İnsan resurslarının idarə olunması - Əsas anlayışlar".
2. İSO 30405:2016. "İnsan resurslarının idarə olunması - Heyətin seçilməsi üzrə rəhbər tutulan göstərişlər.
3. İCO 30408:2016. "İnsan resurslarının idarə olunması - İnsanların idarə olunması sahəsində rəhbər tutulan göstərişlər".
4. İSO 30409:2016. "İnsan resurslarının idarə olunması - Kadrların planlaşdırılması.


## Резюме


***Алиев Д.А.***


**Усовершенствование управления человеческими ресурсами на основе процессного подхода**


*В статье обоснована необходимость управления человеческими ресурсами на основе процессного подхода,отмечены цели, достижения которых ускоряется процесс управления человеческими ресурсами и функции, которые более эффективно реализуютсяс применением процессного подхода при управлении человеческими ресурсами. Выдвинуты предложения по усовершенствованию управления человеческими ресурсами.*



***Ключевые слова:*** *человеческие ресурсы, управление, процессный подход, усовершенствование*


## Summary


***Aliyev D. A.***


**Improvement of Human Resources Management by Process Approach**


*In article the need for human resource management based on a process approach is proved. Is marked the goals, in whichachievements are accelerated and functions, which more effectively realized,*

*when implemented with application of process approach for human resource management. Suggestions are made for improvement inhuman resource management.*

***Key words:** human resources, management, process approach, improvement*


## İNSAN KAPİTALINDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI YOLLARI

***Əliyev T.Q.***
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*


***Xülasə.** İnsan kapitalı biznes strukturlarının inkişafında əsas rol oynayır. Bu strukturların səmərəli fəaliyyəti insan kapitalından istifadə səviyyəsindən asılıdır.İnsan resurslarından istifadənin səmərəliliyini müxtəlif yollarla artırmaq mümkündür. Bunu nəzərə alaraq, məqalədə insan kapitalından istifadənin səmərəliliyinin artırılması üçün müvafiq təklif və tövsiyələr irəli sürülür.*


***Açar sözlər:**insan kapitalı, insan resursları, biznes strukturları, səmərəlilik.*


İnsan kapitalı insan əməyinin düzgün istifadə olunduğu, onun məhsuldarlığının artırılmasına kömək edən bilik, bacarıq və qabiliyyətlərin məcmusudur. İnsan kapitalının qiymətləndirilməsi üçün bir neçə üsul vardır və onların hər birinin öz üstünlüyü və mənfi cəhətləri mövcuddur. İnsan kapitalı öz daxili quruluşuna malikdir və ona aşağıdakılar daxildir:

-təhsil, bilik;

-təlim, bacarıq;

-səhiyyə;

-ümumi mədəniyyət və motivasiya.

İnsan kapitalı biznes strukturlarının inkişafında əsas rol oynayır. Bunun üçün biznes strukturları lazımi bilik və bacarıqları olan ixtisaslı işçilərlə təmin edilməlidir. Müasir dünyada biznesin aparılmasında informasiya texnologiyalarına, informasiyalaşdırmaya və istehsalın rəqəmsallaşdırılmasına getdikcə daha çox diqqət yetirilir. Və bu, öz növbəsində, insan kapitalından səmərəli istifadə olunmasını nəzərdə tutur.

Müasir bazar iqtisadiyyatı şəraitində insan kapitalının inkişafında əsas meyli intellektual inkişaf adlandırmaq olar. Ən yeni sistemlər və proqramlar şirkətlərin inkişafını və firavanlığını təmin etməyə bilərlər, lakin müasir informasiya texnologiyaları sahəsində mükəmməl bilik və bacarıqlara kifayət qədər malik olan işçilər bunu edə bilərlər.

İnsan resurslarınndan istifadənin səmərəliliyini müxtəlif metodlarla artırmaq mümkündür. Amma bütün bu metodları iki əsas sahəyə bölmək olar:

• dövlət səviyyəsində;

• biznes strukturlarının səviyyəsində.

Birinci səviyyədə insan kapitalının istifadəsinin səmərəliliyinin artırılması insan resurslarının inkişafına yönəldilmiş ümumdövlət proqramlarının qəbulu sisteminin təkmilləşdirilməsi yolu ilə həyata keçirilə bilər. Bunun üçün insan resurslarının inkişafına istiqamətlənmiş kompleks proqramlar qəbul edilməlidir. İnsan rasurslarından istifadəyə istiqamətlənmiş kompleks proqramlar cəmiyyətin inkişafının aşağıdakı sahələrini əhatə etməlidir:

- ölkədə demoqrafik vəziyyətin yaxşılaşdırılması;
- vətəndaşların təhsil səviyyəsinin və keyfiyyətinin yaxşılaşdırılması;
-vətəndaşların həyat keyfiyyətinin yaxşılaşdırılması (əmək haqqının artırılması; sosial təminat və pensiya sisteminin təkmilləşdirilməsi; əhalinin mədəniyyət və istirahət səviyyəsinin yüksəldilməsi);
- əmək məhsuldarlığının yüksəldilməsi (yeni texnologiyaların tətbiqi, iş şəraitinin yaxşılaşdırılması və s. yollarla) .

Məşğulluq siyasətini yaxşılaşdırmaqla da, insan resurslarından səmərəli istifadə etmək, onların yenidən bölüşdürülməsi sistemini təkmilləşdirmək mümkündür. Bunun üçün regionlarda aşağıdakı strukturların fəaliyyəti yaxşılaşdırılmalı (yeniləri yaradılmalı), onlar müvafiq resurslarla təmin olunmalıdır:

- məşğulluq xidmətləri şöbələrinin təlim mərkəzləri;
- kiçik sahibkarlığın inkişafı üçün mərkəzlər;
- vətəndaşların müəyyən kateqoriyaları üçün sosial uyğunlaşma (adaptasiya) mərkəzləri;
- kadr mərkəzləri.

Belə strukturların fəaliyyətinin səmərəli təşkili əmək bazarının balanslaşdırılmasına kömək edə bilər. Bu strukturların funksiyalarına aşağıdakılar aid edilə bilər:

- kadr siyasətinin hazırlanması;

- regional əmək bazarının vəziyyətini öyrənmək və proqnozlaşdırmaq;
- məlumat bankının formalaşdırılması;
- mütəxəssislərin hazırlanması və yenidən hazırlanmasına dair sifarişlər portfelinin tərtibi;
- regional kadr ehtiyatının yaradılmasına yardım;
- kadrların monitorinqi;
- kadrların idarə olunması sahəsində elmi yanaşmaların əlaqələndirilməsi.

Biznes strukturları səviyyəsində insan kapitalından istifadənin səmərəliliyinin artırılması yollarına iki aspektdən yanaşmaq olar:

- muzdlu işçilərin insan kapitalının artırılması yolları;
- sahibkarın özünün insan kapitalının artırılması yolları.

Muzdlu işçilər və onların potensialının artırılması haqqında danışarkən, onların mütəxəssislər kimi intellektual inkişafının artırılmasını nəzərdə tutmaq lazımdır. Bunun üçün sahibkarlar nə edə bilərlər? Fikrimizcə, sahibkarlar, ilk növbədə, işçinin inkişaf etmək arzusunu təşviq etməlidirlər. Bununla yanaşı, biznes strukturları səviyyəsində insan kapitalından istifadənin səmərəliliyinin artırılmasının aşağıdakı vasitələrindən istifadə etmək olar:

- ixtisasartırma kursları vasitəsi ilə. Bu kurslar ödənişli ola bilər və işçilərə çətinlik yarada bilər, ona görə də sahibkarlar bu sahədə işçilərə yardım göstərməlidirlər;
- qabaqcıl biznes strukturlarında təcrübə. Təcrübə öz potensialını artırmaq üçün iş prosesində işçinin öyrədilməsini nəzərdə tutur;
- elmi konfranslar. Belə konfranslarda iştirak etmək işçilərə öz ixtisasları sahəsində bütün dəyişikliklərdən və yeniliklərdən xəbərdar olmağa imkan verir.

Sahibkarın özünün insan kapitalının artırılması öz-özünə təhsili və öz-özünə inkişafı nəzərdə tutur. Sahibkarlıq öz işlərini qurmaq və idarə etmək sahəsində insanların peşəkar fəaliyyətdir; özünü məşğulluq əsasında təşkil edilir, yeni mal və dəyərlərin yaradılmasını, məhsul istehsalını və satışını, işlərin yerinə yetirilməsini, xidmətlərin göstərilməsini nəzərdə tutur. Bu fəaliyyət peşəkarlıq funksiyalarını nəzərdə tutmalı və sistemli şəkildə təşkil olunmalıdır. Peşəkarlıq funksiyaları dörd hissəyə bölünür:

- biznesin təşkili, yaradılması;
- biznesin həyata keçirilməsi;
- biznesin inkişafı;
- biznesdə iştirakın dayandırılması (biznesdən çıxmaq).

Sahibkarlar bu funksiyaları ölçüsündən və mülkiyyət formasından asılı olmayaraq yerinə yetirirlər. Bu funksiyalar sahibkarlığın peşəkarlıq xüsusiyyətlərinin çərçivəni təşkil edirlər. Beləliklə, sahibkarlıq fəaliyyəti ilə peşəkar səviyyədə (peşəkar sahibkar olmaqla) və ya qeyri-peşəkar səviyyədə (diletant olmaqla) məşğul olmaq olar.

Uğurlu biznes fəaliyyətini təşkil etmək üçün aşağıdakıları nəzərdə tutan sahibkarlıq bacarığı olmalıdır:

• biznes ideyalarını formalaşdırmaq və təqdim etmək;
• yeni biznes strukturu yaratmaq və biznes planı hazırlamaq;
• iş yerləri yaratmaq və onun üzvü kimi çıxış etmək;
• öz məhsulunu istehsal etmək və onu bazara çıxarmaq;
• komandanı cəlb etmək və onun işini təşkil etmək;
• biznesin resurs təminatına nail olmaq;
• biznesin təhlükəsizliyini təmin etmək;
• biznesin rəqabətqabiliyyətliliyini və rəqabət sabitliyini təmin etmək;
• firmadaxili və firmalararası biznes-proseslərin və biznes-kommunikasiyaların fasiləsizliyini və inkişafını təmin etmək;
• biznesdən çıxmaq.

Gələcək mütəxəssislərdə səmərəli sahibkarlıq xüsusiyyətlərinin formalaşmasının nəzəri və metodoloji əsasları ona sistemli yanaşmanı nəzərdə tutur.

Gənclər arasında sahibkarlıq bacarıqlarının formalaşmasının nəzəri və təcrübi prinsipləri aşağıdakılardır:

- şəxsi inkişaf prosesinə yardım;
- yaradıcılıq potensialın həyata keçirilməsi;
- əməkdaşlıq;
- başqasının əmlakına, şəxsiyyətinə, azad sahibkarlıq fəaliyyətinə hörmətlə yanaşmaq.

Fikrimizcə, yuxarıda qeyd edilən istiqamətlərdə irəli sürülən təklif və tövsiyələrin həyata keçirilməsi insan kapitalının formalaşmasına və ondan səmərəli istifadə edilməsinə imkan və zəmin yarada bilər.

**Ədəbiyyat**


1. Muradov Ş.M. İnsan potensialı: əsas meyillər, reallıqlar, problemlər. Bakı: ELM, 2004. 660 s.
2. Əliyeva Ş.T. Azərbaycanda insan kapitalının formalaşması istiqamətləri. "İqtisadiyyatın davamlı inkişafı: problemlər, perspektivlər" BEK-ın materialları. Sumqayıt Dövlət Universiteti, 2016, s. 428-430.
3. https://www.managementstudyguide.com/ways-for-organizations-to-increase -human-capital.htm



**Резюме**

***Алиев Т.Г.***

**Пути улучшения эффективного использования человеческого капитала**

*Человеческий капитал играет ключевую роль в развитии бизнес-структур. Эффективность этих структур зависит от уровня использования человеческого капитала. Эффективность использования человеческих ресурсов можно повысить различными способами. Принимая это во внимание, в статье предлагаются соответствующие предложения и рекомендации по повышению эффективности использования человеческого капитала.*

***Ключевые слова:*** *человеческий капитал, человеческие ресурсы, бизнес-структуры, эффективность.*

**Summary**

***Aliyev T.Q.***

**Ways of Increase Efficiency of Using Human Capital**

*Human capital plays a key role in the development of business structures. The effectiveness of these structures depends on the level of human capital use. It is possible to increase the effectiveness of using human resources in different ways. Taking this into account, the article proposes appropriate suggestions and recommendations to increase the efficiency of human capital use.*

***Key words:*** *human capital, human resources, business structures, efficiency*


## TURİZM SEKTORUNUN AZƏRBAYCAN İQTİSADİYYATINA TÖHFƏSİ


***Əliyeva R.Ə.***

*Azərbaycan Texniki Universiteti*



***Xülasə.*** *Azərbaycanda müasir turizm sektoru infrastruktur elementlərinin: otel, restoran və ticarət müəssisələrinin inkişafını stimullaşdırır. Azərbaycanda turizm yerli gəlirləri artırmaq, yeni iş yerləri yaratmaq, turizm xidmətlərinin inkişafı ilə bağlı bütün sahələri inkişaf etdirmək, turizm mərkəzlərində sosial və istehsal infrastrukturunu inkişaf etdirmək, mədəniyyətin və mədəniyyətin inkişafını stimullaşdırmaq və inkişaf etdirməyə müsbət təsir göstərir, yerli əhalinin valyuta mənfəətini artırır.*



***Açar sözlər****: turizm, Azərbaycan, infrastruktur, iqtisadi, xidmətlər*


Azərbaycanda ictimai problemlərin həllində turizmin inkişafı mühüm yer tutur. Turizmlə əlaqədar olaraq, yeni iş yerləri yaradılır, əhalinin yüksək səviyyədə yaşaması təmin edilir və ölkənin ödəniş balansının yaxşılaşdırılması üçün şərait yaradılır. Turizm sənayesinin inkişaf etdirilməsinin zəruriliyi təhsil səviyyəsinin yüksəlməsinə, əhaliyə göstərilən tibbi xidmətlər sisteminin təkmilləşdirilməsinə yönəlmişdir.

Turizm tarixi və mədəni irsin qorunması və inkişafına müsbət təsir göstərir, müxtəlif ölkələr və xalqlar arasındakı əlaqələrin uyğunlaşmasına gətirib çıxarır, hökumətləri, qeyri-hökumət təşkilatları və kommersiya strukturlarını ətraf mühitin mühafizəsi və təkmilləşdirilməsində aktiv iştirak etməyə cəlb edir.

Azərbaycanda müasir turizm sənaye iqtisadiyyatın ən sürətlə irəliləyən sektorlarından biridir və həm müstəqil iqtisadi fəaliyyət növü, həm də sektorlararası bir kompleks kimi qəbul edilə bilər.

Azərbaycanda turizm infrastruktur elementlərinin inkişafını stimullaşdırır - otel, restoran, ticarət müəssisələri və s. Büdcənin gəlir hissəsinin vergilərə görə birbaşa ola biləcəyi (viza haqqı, gömrük rüsumları) və ya dolayı ola biləcəyi (işçilərin əmək haqqının artması büdcəyə verdikləri gəlir vergisi məbləğinin artmasına səbəb olur) artımını müəyyənləşdirir. Bundan əlavə, turizm xarici valyuta və müxtəlif növ investisiyaların cəlb edilməsi üçün geniş imkanlara malikdir. Turizmin mühüm iqtisadi funksiyası iqtisadiyyatın şaxələndirilməsidir, turizm sənayesinə xidmət edən sənaye qurur, əhalinin gəlirlərinin artmasını təmin edir və xalqın rifahını artırır.

Turizmin iqtisadi inkişafa təsiri, xarici və yerli turistlər sayəsində effektiv tələbatın artması nəticəsində biznes fəaliyyətinin artırılması və malların, xidmətlərin, istehsalının genişləndirilməsidir. İqtisadi baxımdan, turizmin xidmətləri təmin edən bir sənaye kimi cəlbediciliyi sərbəst çevrilən valyutada investisiya və gəlirin daha sürətli qaytarılmasında yatır. Bir çox ölkələrdə turizm dövlətin aparıcı sektorlarından biridir, sürətlə inkişaf edir və mühüm sosial və iqtisadi əhəmiyyət kəsb edir, çünki:

- yerli gəlirləri artırır;
- yeni iş yerlərini yaradır;
- turizm xidmətlərinin göstərilməsi ilə bağlı bütün sənaye sahələrini inkişaf etdirir;
-turizm mərkəzlərində sosial və sənaye infrastrukturunu inkişaf etdirir;
- xalq sənətkarlıq fəaliyyətlərini və mədəniyyətin inkişafını aktivləşdirir və onları təbliğ edir;
- yerli əhalinin yaşayış səviyyəsinin artmasını təmin edir;
- valyuta mənfəətini artırır.

Dünyanın bir çox ölkəsində turizm ən prioritet sahələrdən biridir, ümumi gəlirinin 20-45% -dək olan payı və xarici turizmin gəlirləri əsas pul mənbəyidir. Nəticədə, turizm sənayesi yalnız gəlirlərin əhəmiyyətli bir hissəsini inkişaf etmiş ölkələrin büdcəsinə gətirir, həm də son dərəcə perspektivli və şübhəsiz ki, Azərbaycanın dövlət büdcəsi üçün əsas gəlir mənbələrindən birinə çevrilə bilər.

İqtisadiyyat məhdud resursların istifadəsindən optimal faydalar əldə etməklə bağlıdır. Adətən, məhdud olan iqtisadi amillər şəxsin psixoloji və fiziki ehtiyaclarını ödəmək üçün nəzərdə tutulmuşdur.

Digər bölgələrdən olan səyahət xərcləri qonaq bölgənin iqtisadiyyatına olan töhfədir. Belə ki, Azərbaycanda səyahət edən Yaponiya turistləri əsasən öz vətənlərində gəlir əldə edirlər. Azərbaycana pul xərcləyərək, ölkəmizin iqtisadiyyatına sərmayə qoyurlar. Beləliklə, ölkədə xaricilərin turist məqsədləri üçün xərcləri Azərbaycan üçün turizm ixracını təşkil edir. Bu ölkəyə səyahət etməklə turistlər turist təcrübəsi qazanır və səfərləri onlara unudulmaz təəssüratlarını verirlər.

Turizm iqtisadiyyatı turizmin fəaliyyətinin nəticələrinin istehsal, bölüşdürülməsi, mübadiləsi və istifadəsi prosesində turizm sahəsində yaranmış münasibətlər sistemidir.

Bir turist firmasının iqtisadiyyatı bir turist məhsulunun satılması və müxtəlif xidmətlərin (tamamlanmış işlərin) təmin edilməsi nəticəsində alınan istehsal, dövriyyə vəsaitləri və qeyri-maddi aktivləri, mənfəət (mənfəət) amillərinin birləşməsidir.

Turizm Azərbaycan iqtisadiyyatının bir sahəsi kimi

Hər hansı bir ölkənin iqtisadiyyatında turizm böyük rol oynayır. Turizm sənayesinin iqtisadiyyatı səyahətçilərin istək və ehtiyaclarını ödəmək üçün nəzərdə tutulmuş turistik məhsul və xidmətlərin istehsal və istehlak prosesində inkişaf edən iqtisadi əlaqələri öyrənən və təhlil edən bir intizam kimi müəyyən edilə bilər.

Bu münasibətlər həm makro səviyyədə (dövlət səviyyəsində, həm də regionda) və mikro səviyyədə (müəyyən bir bölgənin və ya müəssisənin səviyyəsi) nəzərdən keçirilə bilər. Turizm sənayesinin inkişafı bir çox fərqli, həm xarici, həm də daxili amillərdən təsirlənir. Buna görə də, milli iqtisadiyyatın sürətlə inkişaf edən, dinamik, qeyri-müəyyən bir komponenti kimi tanınır. Bir çox ölkələr üçün hələ də inkişaf mərhələsindədir.

Azərbaycanda turizm ölkə iqtisadiyyatının digər sahələrinə müsbət təsir göstərir, ərazinin iqtisadi inkişafını stimullaşdırır, yerli əhalinin məşğulluğunu iqtisadi baxımdan artırır. Turizm təbiətin ən ekoloji cəhətdən təbii növüdür.

Xidmət sənayesi maddi və qeyri-maddi məhsullar istehsal edən müəssisələri birləşdirən iqtisadiyyatın çox xüsusi və çoxtərəfli bir sektorudur. Bu, iqtisadiyyatın digər sektorlarından fərqlənir ki, bu da sənayenin bütünlüklə və xidmət sektorunda fərdi müəssisələrin idarə olunmasının mürəkkəbliyini əhəmiyyətli dərəcədə artırır.

Amma turizmin dövlət iqtisadiyyatına müsbət təsiri yalnız hər tərəfdən inkişaf edərsə, yəni ölkə iqtisadiyyatını xidmət iqtisadiyyatına çevirmir. Başqa sözlə, turizmin iqtisadi səmərəliliyi onu dövlətdə paralel və sosial-iqtisadi kompleksin digər sahələri ilə birlikdə inkişaf etdirməyi nəzərdə tutur.

Turizm sənayesindəki istehsal artımı iqtisadiyyatın digər sahələrinə köçürülür, burada investisiya fəaliyyəti inkişaf edir, yeni iş yerləri yaranır, ticarət genişlənir və nəticədə gəlirlər artır. Alınan gəlir hissəsi vergilər şəklində gəlir. Bu şəkildə qaldırılan vəsaitlər turizm sənayesinin infrastrukturunu daha da maliyyələşdirmək, əhalinin sosial cəhətdən zəif qruplarına maddi yardım göstərmək və turizm xidmətləri sənayesi üçün kadr hazırlığı sistemini inkişaf etdirmək üçün istifadə edilə bilər.

Turizm sənayesi milli iqtisadiyyatın bir-birinə bağlı sənayesi və sənayesinin bir sıra qrupunu ifadə edən iqtisadi bir kateqoriyadır, bir funksional vəzifəsi bütün mövcud turistik resursları rasional olaraq

istifadə edərkən, müxtəlif növ istirahət və istirahət səyahətlərində insanların müxtəlifliyini və daim artan ehtiyaclarını həll etməkdir.

Azərbaycanda turizm inkişaf etməkdə olan bir kompleksdir. Buna görə də biz bazarda yeni iş növlərini və bu sənədə yaranan problemləri həll etmək yollarını daim axtarırıq.

Turizm sənayesinin idarə edilməsinin iqtisadi aspektləri ilə bağlı bir çox xüsusiyyətlər mövcuddur, çünki effektiv fəaliyyət müxtəlif amillərdən asılıdır: siyasi, iqtisadi, sosial, ekoloji və s.

Turizm sənayesi birbaşa təbiətlə bağlı və mövsümdən asılı olan iqtisadiyyatın xüsusi sektorlarından biridir.

**Ədəbiyyat**

1. MorozovM.A. Turizm İqtisadiyyatı. İş təlimatı. M.: IT & G, 1998.
2. Aleksandrova A.Yu. İqtisadiyyat və beynəlxalq turizmin ərazi təşkilatı. M.: 2001.
3. Moiseyev N. Turist firmasının strateji idarə olunması. M.: 2001.
4. Azar V.İ., Tumanov S.Yu. Turizm bazarının iqtisadiyyatı. M.: 1998

***Резюме***

***Алиева. Р.А.***

**Вклад туристического сектора в экономику Азербайджана**

*Современная индустрия туризма в Азербайджане стимулирует развитие элементов инфраструктуры - гостиниц, ресторанов, предприятий торговли. Туризм в Азербайджане оказывает положительное влияние на увеличение местных доходов, создает новые рабочие места, развивает все отрасли, связанные с производством туристических услуг, развивает социальную и производственную инфраструктуру в туристических центрах, активизирует и способствует развитию культурных стандартов и культурной деятельности местного населения, увеличивает валютные поступления.*

***Ключевые слова**: Азербайджан, инфраструктура, экономика, услуги*

**Summary**

***Aliyeva R.A.***

**Contribution of Tourism Sector to the Economy of Azerbaijan**

*The modern tourism industry in Azerbaijan stimulates the development of infrastructure elements - hotels, restaurants, trade enterprises. Tourism in Azerbaijan has a positive effect on increasing local incomes, creates new jobs, develops all industries related to the production of tourism services, develops social and production infrastructure in tourist centers, activates and promotes the development of cultural standards and cultural activities of local population, increases foreign exchange earnings.*

***Key words:** tourism, Azerbaijan, infrastructure, economic, services*

## İŞ QÜVVƏSİNİN BEYNƏLXALQ MİQRASİYASININ TƏNZİMLƏNMƏSİ YOLLARI

***Əliyeva Ş.T.***

*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

***Xülasə.** Müasir dünyada iş qüvvəsinin beynəlxalq miqrasiyasının, xüsusilə də, qeyri-leqal miqrasiyanın, artan istiqamətdə baş verməsi müşahidə edilir. İş qüvvəsinin beynəlxalq miqrasiyası hər bir ölkənin iqtisadiyyatına müsbət və mənfi təsir göstərdiyindən bu prosesin milli və beynəlxalq səviyyədə tənzimlənməsinə ehtiyac vardır. Bu məqsədlə məqalədə müvafiq təklif və tövsiyyələr irəli sürülür.*

***Açar sözlər:** iş qüvvəsi, emiqrasiya, immiqrasiya, tənzimləmə*

İş qüvvəsinin beynəlxalq miqrasiyası müasir dünyada qloballaşma prosesinin genişlənməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Müasir dünyada iş qüvvəsinin miqrasiyası məhsuldar və maliyyə kapitalının hərəkətindən daha yüksək dərəcədə həyata keçirilir.

İş qüvvəsinin beynəlxalq miqrasiyası həm donor (emiqrant) həm də, qəbul edən ölkələrin iqtisadiyyatına müsbət və mənfi təsir göstərir. Bu fenomenin donor ölkələrin iqtisadiyyatına müsbət təsiri əsasən aşağıdakı istiqamətlərdə özünü büruzə verir:

- ölkədə işsizlik azalır, milli əmək bazarında vəziyyət yüngülləşir;
- əmək haqqının və əhalinin rifah səviyyəsinin artırılmasına imkan yaranır;

- dövlətin əhalinin sosial dəstəyinə xərclərinin azalmasına imkan yaranır;

- xaricdən miqrantlara görə ölkəyə xarici valyuta daxilolmaları artır;

- xaricdə yüksək ixtisasa yiyələnən, daha təcrübəli işçilər ölkəyə qayıdırlar;

-xaricdən ölkəyə gətirilən və biznes qurumlarının təşkilində istifadə edilən avadanlıqların alınması meyli artır.

İş qüvvəsinin beynəlxalq miqrasiyasının donor (emiqrant) ölkənin iqtisadiyyatına mənfi təsiri aşağıdakı səbəblərdən irəli gələ bilər:

- əmək qabiliyyətli yaşda olan gənc əmək resurslarının itkisi nəticəsində əmək resurslarının yaşlanması baş verir;

- xaricə gedən ixtisaslı işçinin öz ixtisasına uyğun olan işlə deyil, təklif olunan işlə məşğul olması nəticəsində ixtisas səviyyəsinin itirilməsi, vətəninə ixtisassız işçi kimi qayıtması halları tez-tez müşahidə edilir;

-"beyin axını " nəticəsində yüksəkixtisaslı insanlar, elm adamları ölkəni tərk edir;

- dövlətin təhsil və peşə təhsilinə sərf etdiyi xərclərin itkisi baş verir.

Xarici işçilərin istifadəsi immiqrasiya (qəbul edən) ölkələrin iqtisadiyyatına aşağıdakı faydaları gətirir:

- immiqrantlardan qəbul edən ölkənin vətəndaşları tərəfindən nüfuzlu olmayan və ya ağır iş yerlərində istifadə edilir;

- xarici işçilər tərəfindən ölkədə hazırlanan mal və xidmətlərə olan tələbatın artması nəticəsində ölkənin daxili bazarı genişlənir;

- dövlət büdcəsinin vergi yükü azalır. Xarici işçilər pensiya ilə təmin olunmurlar və sosial proqramlar həyata keçirərkən nəzərə alınmırlar, lakin vergilərin ödənilməsi və digər zəruri töhfələrlə yerli əhali üçün nisbi vergi yükünü azaldırlar;

- ixtisaslı əmək idxal edərkən, qəbul edən ölkə təhsil və təlim xərclərini azaldır;

- daha ucuz əmək sayəsində istehsalat xərclərinin azaldılması nəticəsində istehsal olunan malların rəqabət qabiliyyəti artır;

- immiqrantlar inkişaf etmiş ölkələrin işçi qüvvəsinin yaşa görə qocalmağa meyilli olan quruluşunu cavanlaşdıra bilərlər.

Xarici işçilərin istifadəsinin immiqrasiya (qəbul edən) ölkələrinin iqtisadiyyatına neqativ təsirləri özünü aşağıdakı istiqamətlərdə göstərir:

- iş qüvvəsinin təklifinin artması və iş yerlərinin sayının məhdudluğu səbəbindən əmək bazarında vəziyyət pisləşir;

- əmək bazarında əmək təklifinin artırılması milli işçi qüvvəsinin qiymətində azalmaya səbəb olur;

- yerli əhali və immiqrantlar arasındakı münaqişələrə səbəb olur;

- qeyri-leqal miqrasiyanın artması ölkədə sosial gərginliyi artırır;

- etnik qruplar arasında qarşıdurma baş verir, cinayət, kölgə iqtisadiyyatı, qanunsuz məşğulluq, narkotik ticarəti və s. artır.

İş qüvvəsinin beynəlxalq miqrasiyası, yuxarıda qeyd edilənlərlə yanaşı, başqa mənfi hallara da səbəb ola bilər. Məsələn, əmək müqavilələri sona çatan işçilərin ev sahibi ölkədə yeni iş tapmaq ümidi ilə öz ölkələrinə qayıtmaq istəməməsi hesabına qeyri-qanuni miqrasiyanın səviyyəsinin artması baş verə bilər.

Dünyanın bütün ölkələri, yuxarıda qeyd edilənləri nəzərə alaraq, iş qüvvəsinin ixracı və idxalı proseslərinə həm milli, həm də dövlətlərarası səviyyədə fəal şəkildə təsir göstərirlər. Dövlətlərarası miqrasiya siyasətinin məqsədi donor ölkələr və alıcı ölkələr üçün bu fenomenin mənfi nəticələrini minimuma endirmək, beynəlxalq miqrasiyanın müsbət təsirlərini maksimum dərəcədə artırmaqdır. Bu məqsədə nail olmaq üçün dövlətlər həm milli, həm də beynəlxalq səviyyədə miqrasiya proseslərini tənzimləməyə çalışırlar. Bu zaman dövlətlər miqrasiya proseslərinin milli və beynəlxalq səviyyədə tənzimlənməsinin aşağıdakı mexanizmlərindən istifadə edirlər:

- müvafiq dövlət qurumlarının yaradılması;

- əməyin idxalına və ixracına dair hüquqi qaydaların qəbulu;

- beynəlxalq müqavilələrin (ikitərəfli və çoxtərəfli sazişlərin) imzalanması;

- xarici əməklə bağlı keyfiyyət tələblərinin (təhsil şəhadətnaməsi, ixtisas üzrə iş təcrübəsi) müəyyən edilməsi;

- əməyin idxalı ilə bağlı birbaşa kvotalaşdırma və dolayı tənzimləmə mexanizmlərinin tətbiqi;

- iqtisadi meyarlara əsaslanan tənzimləmə metodlarının tətbiqi;

- kütləvi emiqrasiya ölkələrinə iqtisadi yardımın həyata keçirilməsi;

- emiqrasiya mühitinin formalaşması;

- valyuta və bank siyasətinin həyata keçirilməsi (valyuta depozitləri üzrə imtiyazların müəyyən edilməsi, yerli bankların xarici filiallarının açılması, xarici bankların istifadəsi);

- maliyyə siyasəti;

- investisiya və vergi siyasəti;

- gömrük siyasəti və s.

Azərbaycan Respublikasında miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, miqrasiya proseslərinin və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında hüquqi vəziyyəti ilə bağlı normaların müəyyənləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi qəbul edilmişdir [1].Miqrasiya Məcəlləsi bu sahədə dövlət siyasətini müəyyənləşdirir o cümlədən:

- dövlət əmək miqrasiyası kvotasının tətbiq edilməsi, iş icazələrinin verilməsi, o cümlədən Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlmələrində vasitəçilik fəaliyyətinə xüsusi razılıq verilməsi yolu ilə əmək miqrasiyasını tənzimləyir (maddə 57.1);

- əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün əsas şərtləri (iş yerinin tələblərinə cavab verən peşə hazırlığına və ya ixtisasa malik Azərbaycan Respublikası vətəndaşının iddia etmədiyi boş iş yerlərinin mövcudluğu, məşğulluq xidməti orqanları tərəfindən işəgötürənlərin işçi qüvvəsinə olan ehtiyaclarını yerli əmək ehtiyatları hesabına təmin etmək imkanının olmaması)müəyyənləşdirir (maddə 61.2) və s.

Miqrasiya sahəsində Azərbaycan Respublikasının dövlət siyasətinin həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti yaradılmışdır. Ancaq nəzər almaq lazımdır ki, müasir dünyada iş qüvvəsinin beynəlxalq miqrasiyasının, xüsusilə də, qeyri-leqal miqrasiyanın, artan istiqamətdə baş verməsi müşahidə edilir. Belə vəziyyətin yaranması miqrasiya proseslərinin tənzimlənməsi üçün həm milli, həm də beynəlxalq səviyyədə çevik miqrasiya siyasətinin həyata keçirilməsini tələb edir. Fikrimizcə, bu məqsədlə aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı:

- mövcud problemlərin həllində xarici ölkələrdə çalışan Azərbaycan vətəndaşlarına müvafiq hüquqi yardımın göstərilməsi;

- miqrasiya məsələləri üzrə dövlətlərarası əməkdaşlığın təkmilləşdirilməsi;

- etnik azərbaycanlıların tarixi vətənlərinə köçürülməsinin asanlaşdırılması;

- qeyri-leqal miqrasiyanın qarşısının alınması üçün həyata keçirilən tədbirlərin gücləndirilməsi;

- "beyin axını"nın miqyasının azaldılması üçün əmək haqqı siyasətinin təkmilləşdirilməsi.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi. http://eqanun.az/code/23

2. Ələkbərov Ə.H., Vəliyev M.Ə., Məmmədov S.M.Beynəlxalq iqtisadi münasibətlər. Dərs vəsaiti. Bakı: Çaşıoğlu, 2010, 648 s.

3.https://ebrary.net/7276/economics/international_labor_migration

4.https://www.bsr.org/reports/BSR_LaborMigrationRoleforBusiness.pdf

5.http://www.edu-active.com/conferences/2015/jul/19/internationalconference- labor-migration-and-indus.html

**Резюме**

***Алиева Ш.Т.***

**Пути регулирования международной миграции рабочей силы**

*В современном мире международная миграция рабочей силы, особенно нелегальной, имеет тенденцию к увеличению. Поскольку международная миграция рабочей силы оказывает положительное и отрицательное влияние на экономику каждой страны, этот процесс необходимо регулировать на национальном и международном уровнях. Для этого в статье выдвигаются соответствующие предложения и рекомендации.*

***Ключевые слова:*** *рабочая сила, эмиграция, иммиграция, регулирование*

**Summary**

***Aliyeva Sh.T.***

**Regulation Ways of the International Migration of Labor Force**

*In the modern world, the international migration of the labor force, particularly illegal migration, has been increasing. As the international migration of the workforce has a positive and negative impact on*

*the economy of each country, this process needs to be regulated at national and international levels. For this purpose, relevant suggestions and recommendations are put forward.*
***Key words:*** *labor force, emigration, immigration, regulation*

## RƏQABƏTQABİLİYYƏTLİLİYİN BƏZİ MƏSƏLƏLƏRİ

***Günay Vaqif qızı***
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

***Xülasə.*** *Məhsulun keyfiyyəti onların məzmununa müvafiq olaraq bu və ya digər tələbatı ödəmək xüsusiyyətinə malik göstəricilərin məcmusu ilə səciyyələnir. Məhsulun xüsusiyyəti dedikdə, bu onun yaradılması, istismarı və istehlakında özünü göstərən xassələrlə şərtlənir. Məhsulun keyfiyyəti istehlak dəyəri ilə birbaşa əlaqədardır. İstehlak dəyəri məhsulun müəyyən keyfiyyət səviyyəsində mövcud ola bilən tələbatın ödənilməsi ilə bağlıdır.*

***Açar sözlər:*** *məhsul, keyfiyyət, rəqabətqabiliyyəti, iqtisadi, istehsal*

İqtisadi və xüsusi ədəbiyyatın [1, 2, 3] təhlili göstərir ki, iqtisadi nəzəriyyə və təcrübədə keyfiyyət məfhumuna baxışlar müxtəlifdir. Ümumilikdə belə bir fikir formalaşmışdır ki, yüksək keyfiyyətin əldə edilməsi təsərrüfat fəaliyyətində çox mühüm əhəmiyyət kəsb edir. İstehsal olunan məhsula ancaq keyfiyyət baxımından yanaşılır, bu məhsulun layihələndirilməsi və idarəedilməsi fəaliyyəti isə heç də həmişə qiymətləndirilmir. Belə yanaşmada zay məhsula və reklamasiyaya çox fikir verilir. Təbidir ki, neft – qaz kompleksində rəqabətqabiliyyətli məhsul istehsal etməyin əsası olan neftmaşınqayırma müəssisələrində buraxılan məhsulun keyfiyyətinə nəzarət sistemi vardır, zay məhsulun uçotu və təhlili aparılır, lakin çox vaxt ideyadan satışa qədər bütün istehsal prosesini əhatə edən keyfiyyətin idarə edilməsi sistemi mövcud deyildir.

Keyfiyyətin idarə edilməsi çoxlu üsul və vasitələri özündə cəmləşdirir və onlar layihələndirmə, istehsal və satış mərhələsində yüksək keyfiyyətin təmin edilməsinə imkan verir. Keyfiyyətin idarə edilməsi üçün onun qiymətləndirilməsi vacibdir, lakin keyfiyyətin qiymətləndirilməsinin müasir üsulları lazımi tam informasiyanı nəzərə almağa imkan vermir. Bu isə öz növbəsində keyfiyyətin qiymətləndirilməsi ilə bağlı qeyri-düzgün qərarların qəbuluna gətirib çıxarır.

Azərbaycan durmadan dünya iqtisadiyyatına inteqrasiya edir, yaxın və uzaq xarici ölkələrdə qarşılıqlı əlaqədə öz iqtisadiyyatını qurur. Bu isə öz növbəsində məhsulun yaradılmasından onun satışı üçün kommersiya müqavilələrinin bağlanmasına qədər tsiklin bütün halqalarında məhsulun keyfiyyətinin idarə edilməsini vacib edir.

İstehsal fəaliyyətinin bütün sferasında yüksək keyfiyyətin əldə edilməsi, onun qiymətləndirilməsi və idarə edilməsinin kompleks tədbirlərinin tətbiqini zəruri edir. Lakin, keyfiyyət özü mürəkkəb göstərici olduğundan, onun qiymətləndirilməsində çətinliklər yaranır.

İşin keyfiyyəti işçinin və ya bir qrup işçinin əmək fəaliyyətinin ümumiləşdirici xassəsidir. Bu işçinin və ya bir qrup işçinin qoyulmuş tələblərə müvafiq müəyyən tapşırığın yerinə yetirilməsi bacarığını idarə edir. İşin keyfiyyətində istehsalın təşkili, işçinin əmək qabiliyyəti və intizamı iş ritmi, texnikanın inkişaf səviyyəsi və s. öz əksini tapır.

Məhsulun keyfiyyət göstəricisi müəyyən şəraitdə onun yaradılması, istismarı və istehlakında məhsulun bir və ya bir sıra kəmiyyət xassəsi ilə səciyyələnir. Keyfiyyət göstəriciləri ayrı-ayrı kompleks və ümumiləşdirici (inteqral) göstəricilərə bölünür.

Keyfiyyət anlayışı Fransız dilindəki "qualite" sözündən meydana gəlmiş və bir şeyin yaxşı, ya pis olması xüsusiyyətini göstərir. Keyfiyyətlə əlaqədar ədəbiyyatı araşdırarkən onun çoxlu sayda müxtəlif təriflərinə rast gəlmək olar. Keyfiyyət və onun idarəedilməsi sahəsində dünyada tanınmış təşkilat və müəssisələrin keyfiyyətə verdikləri təriflər müxtəlifdir: keyfiyyət, bir məhsul və xidmətin müəyyənləşdirilmiş və ya gələcəkdə ortaya çıxa biləcək ehtiyacları qarşılayan xüsusiyyətlərinin məcmusudur. (İSO – 8402); keyfiyyət istifadəyə uyğunluqdur (Y. Juran); keyfiyyətlə mal və ya xidməti müəyyən edilmiş tələbləri qarşılıya bilmə xassələrinin cəmidir (Amerika Keyfiyyətə Nəzarət Cəmiyyəti – ASQS); keyfiyyət məhsulun göndərilməsindən sonra cəmiyyətdə səbəb olduğu ən az zərərdir (G.Tagucli); keyfiyyət bir mal və ya xidmətin istehlakçı istəklərinə uyğunluq dərəcəsidir (Avropa Keyfiyyətə Nəzarət Cəmiyyəti – EOQS) və s.

İqtisadi ədəbiyyatın təhlili göstərir ki, Yapon firmaları keyfiyyətin "standartlara uyğunluğu" tərifinin onun lazimi səviyyədə ifadə etmədiyini qeyd edərək, bu məqsədlə "istehlakçı məmnuniyyəti" tərifindən istifadə etməyi təklif edirlər. Ümumiyyətlə, istehlakçı nöqteyi-nəzərindən baxdıqda məhsulun keyfiyyətini

xarakterizə edən təhlükəsizlik, dayanıqlıq, estetiklik, etibarlılıq və s. keyfiyyət göstəriciləri vardır və onlar istehlakçı mövqeyindən zəruridirlər. Məhsullarının keyfiyyətini artırmaq istəyən istehlakçılar isə layihə keyfiyyəti, uyğunluq keyfiyyəti, istismar keyfiyyəti olmaqla keyfiyyətin 3 növünü nəzərə almalıdırlar. Bir sözlə, keyfiyyət anlayışı çox ölçülü bir anlayışdır və bu günə qədər müxtəlif mərhələlərdən keçmişdir. Belə ki, keyfiyyət məfhumunun inkişaf prosesi "keyfiyyət müayinəsi"ndən başlanıb sonrakı evolyusiyalı inkişaf "keyfiyyətə nəzarət"lə davam etmiş, bu da özündə "önləmə" və "statistika üsulları" adlı alt hissələri birləşdirmişdir. İnkişafın sonrakı dövründə Keyfiyyət Təminatı Sistemi meydana çıxmış, əvvəlki mərhələlərdən əlavə özündə həmçinin İSO – 9000 seriyalı standartları birləşdirir. Keyfiyyətlə bağlı fəaliyyət göstərən İSO – 8402 standartlarına görə keyfiyyət təminatı məhsul və xidmət üçün müəyyənləşdirilmiş tələbləri ödəməklə lazımı təminatı saxlamaq üçün planlı və sistematik fəaliyyətin məcmusudur. Keyfiyyətlə bağlı evolyusiyalı prosesin son – müasir mərhələsi "Keyfiyyətin Total İdarəedilməsi"dir ki, bu da özündə bir sıra əlamətləri cəmləşdirir: həyat tərzi, birlikdə işləmə, istehlakçıya yönəlmə, davamlı təkmilləşmə, problemlərin həlli, idarəetmənin təkmilləşdiriməsi, axıcı proses, səlahiyyətlərin ötürülməsi. Ümumilikdə yuxarıda sadalananları belə ifadə etmək olar; "Keyfiyyətin total idarəedilməsi" istehlakçıya yönəlmə, davamlı təkmilləşmə və islahetmənin təkmilləşdirilmiş prinsiplərinə əsaslanır. Total keyfiyyət ideyası ilk dəfə Armand Flegenbaum tərəfindən ortaya atılmış, 1956 – cı ildə dərc edilmiş "Toplam keyfiyyətə nəzarət" adlı məqaləsində bugünkü Keyfiyyətin total idarəetməsinin əsas prinsiplərindən bəhs etmişdir. Bu gün bu ideya dünyanın hər yerində qəbul olunmuş, "Total" sözü isə təşkilatın bütün idarəetmə səviyyəsində və hər bölməsində işləyənlərin keyfiyyəti təmin etməkdə iştirakını göstərir.

Okrepilov V.V [4, s. 89] göstərir ki, dünyada keyfiyyətin idarə edilməsinə yanaşma üsulları uzun bir dövrü əhatə etmişdir. Məlum olmuşdur ki, öz inkişafında keyfiyyətin idarə edilməsi bir sıra çətinliklər yaşamış, bu inkişafda hər bir mərhələ keyfiyyətin idarəedilməsi nəzəriyyəsinin yeni işləmələrini yaratmış, bütün bunlar isə istehlakçı çağırışlarına cavab vermək, onların artan tələbatını ödəmək missiyasını qarşıda qoymuşdur.

- keyfiyyətin geniş başa düşülməsi;
- müəssisənin keyfiyyət mədəniyyəti;
- keyfiyyətdə insan amili.

Aşağıda qısa şəkildə dünyanın üç regionunda Amerika Birləşmiş Ştatları (ABŞ), Yaponiya və Qərbi Avropada keyfiyyətə nəzarət olunması şərh edilmişdir.

ABŞ-da keyfiyyətin idarə edilməsinə yanaşmalar sənayenin inkişaf səviyyəsindən asılı olaraq müxtəlif olmuş, son illərə qədər bu məqsədlə proteksionist tədbirlərdən (tarif, kvota, gömrük və s.) istifadə etmək Amerikada istehsal olunan məhsulları rəqiblərdən qorumağa çalışmışlar. Lakin sonralar keyfiyyətin idarəedilməsi və rəqabətqabiliyyətli məhsul istehsalı baxımından keyfiyyətin yüksəldilməsi məqsədi ilə aşağıdakılara fikir verilməyə başlandı:

- işçilərin motivləşdirilməsi,
- keyfiyyət dərnəkləri,
- nəzarətin statistik üsulları,
- idarə edən və qulluqçuların düşüncə tərzinin yüksəldilməsi,
- keyfiyyətlə bağlı xərclərin uçota alınması,
- keyfiyyətin yüksəldilməsi proqramı,
- maddi stimullaşdırma.

Keyfiyyət barəsində ABŞ təcrübəsini təhlil edərkən onun aşağıdakı səciyyəvi xüsusiyyətlərini qeyd etmək lazımdır:

- riyazi statistika üsullarından istifadə edərək məhsulun hazırlanma keyfiyyətinə ciddi nəzarət,
- istehsalın həcmi və keyfiyyət göstəricilərinin planlaşdırılması prosesinə diqqətin artırılması, planın yerinə yetirilməsinə inzibati nəzarət,
- bütövlükdə firmanın idarə edilməsinin təkmilləşməsi.

Yaponiyanın təcrübəsi göstərir ki, keyfiyyətin yüksəldilməsi işi heç vaxt bitən deyildir. Keyfiyyət məsələsində Yapon təcrübəsinin fərqləndirici cəhəti aşağıdakılardan ibarətdir:

- bütün bölmələrdə proses və əməyin nəticələrinin daim təkmilləşdirilməsinə istiqamətlənmək,
- məhsulun keyfiyyəti deyil, prosesin keyfiyyətinə nəzarətə istiqamətlənmək,
- qüsurun buraxılmasının qarşısının alınmasına istiqamətlənmək,
- qalxan axın, daha doğrusu sonrakı əməliyyatdan əvvəlki əməliyyata prinsipi ilə yaranan problemlərin təhlili və ciddi tədqiqi,
- "sənin istehlakçın – sonrakı istehsal əməliyyatının icraçısıdır" prinsipinin yeridilməsi,
- əməyin nəticəsinə görə cavabdehliyin bilavasitə icraçıya şamil edilməsi,

- insan amillərindən aktiv istifadə, qulluqçu və işçilərin yaradıcılıq potensialının inkişafı, “Normal insana pis işləmək ayıbdır” prinsipini həyata keçirmək.

Yapon “möcüzə”sinin əsas konsepsiyası mükəmməl texnologiya, idarəetmə və ya qulluqdur.

Yapon müəssisələrində personal üçün onların keyfiyyətin təmin olunmasında iştirakı məqsədilə proqram işlənilmiş və “beş sıfır” adlanır. Bu qısa qaydalar şəklində formalaşmışdır:

- yaratmamaq (qüsurun yaranması üçün şərait),
- ötürməmək (qüsurlu məhsulu sonrakı mərhələyə),
- qəbul etməmək (əvvəlki mərhələdən qüsurlu məhsulu),
- dəyişdirməmək (texnoloji rejimi),
- təkrar etməmək (səhvləri).

Beləliklə, Yapon müəssisələrində keyfiyyətə münasibətdə aşağıdakıları əsas olaraq fərqləndirirlər:

- idarəetmə və texnologiya sahəsində elmi işlərin geniş tətbiqi,
- istehsalda nəzarət və təhlil, bütün idarəetmə əməliyyatlarında kompüterlərdən yüksək səviyyədə istifadə,
- insanın imkanlarından maksimum istifadə etmək, bunun üçün yaradıcılıq aktivliyinin stimullaşdırılması tədbirləri görülür, öz firmasına patriotik tərbiyə aşılanır, personalın sistemli və daimi öyrədilməsi həyata keçirilir.

Əgər Yaponiya və ABŞ uzun illər ərazində keyfiyyətin yüksədilməsi proqramını reallaşdırırsa, keyfiyyət məsələlərində aktiv siyasət yürüdürsə, keyfiyyətin uzun müddətli planlaşdırılmasını həyata keçirirsə, Avropada keyfiyyətin idarə edilməsi keyfiyyətə nəzarət səviyyəsində qalmışdır (bəzi halları çıxmaq şərti ilə).

Tarixin sonrakı inkişafı rəqabətqabiliyyətli məhsul istehsalı baxımından strategiyanın həyata keçirilməsi üçün aşağıdakıların olması vacibliyi yaranmışdır:

- vahid qanunvericilik tələbləri (direktivlər),
- vahid standartlar,
- vahid yoxlama prosesləri (bu firmanın bazar konyuktura tələblərinə cavab verməsini müəyyən etmək üçün vacibdir).

Keyfiyyət məsələlərinin həllində Avropa yanaşmasının fərqləndirici xüsusiyyəti aşağıdakılardır:

- keyfiyyətin qiymətləndirilməsi və təsdiqi ilə əlaqədar bütün işlərin yerinə yetirilməsi üçün qanunvericilik bazası,
- milli standart, qayda və sertifikatlaşdırma prosedura tələblərinin uyğunlaşdırılması,
- məhsulun və keyfiyyət sisteminin sertifikatlaşdırılması üzrə işlərin yerinə yetirilməsi səlahiyyəti olan milli təşkilat şəbəkəsi və regional infrastrukturun yaradılması laboratoriyaların akkreditasiyası, keyfiyyət üzrə müəssisələrin qeydiyyatı və s.

**Ədəbiyyat**


1. Атамалиева Л.А., Ведении Г.А. Проблемы качества и конкурентоспособностью продукции в рыночных условиях /Сборник статей научно–техн.Конференции.ВГТУ,Витебск,1997, с. 30-32.
2. Бамбалов С. Н., Демиров В.И., Сак А. В. Экономические методы оценки новой техники // Машиностроитель, 1996, №12, с.30-33.
3. Дымова Л. Г., Жесткова Е.С., Себестьянов П. В. Методика многокритериальной оценки качества продукции // Машиностроитель, 1999, №11, с. 40-43.
4. Окрепилов В. В. Управление качеством. М.: «Дрофа», 2004, 315с.


**Резюме**


***Гюнай Вагиф кызы***


**Некоторые вопросы конкурентоспособности**


*Качество продукции характеризуется совокупностью показателей удовлетворяющих ту или другую потребность с учетом их характеристики. Под характеристикой продукции понимаются затраты на ее создании,,эксплуатацию и потребление.Качество продукции напрямую связано с его потребительской стоимостью. На определенном уровне качество продукции, потребительской стомость связано с удовлетворением некоторых потребностей.*



***Ключевые слова****: продукция, качество, конкурентоспособность, экономика, производство*

**Summary**

***Gunay Vagif gizi***

**Some Issues of Competitiveness**

*The quality of the product is characterized by the range of indicators that meet the specific requirements of the content.When describing the product's characteristics, it is conditioned by the properties that make up its creation, operation and consumption.The quality of the product is directly related to the cost of consumption.Consumption value is related to meeting the demand that may be available at certain quality levels.*

***Key words**: product, quality, competitiveness, economic, production*

## İNKİŞAF ETMİŞ ÖLKƏLƏRDƏ BİLİK İQTİSADİYYATININ FORMALAŞMASINDA DÖVLƏTİN ROLU

***Həşimova A.Ç.***

*UNEC*

***Xülasə.** Bilik iqtisadiyyatı sənaye iqtisadiyyatı və innovasiya iqtisadiyyatının yüksək mərhələsidir. İnnovasiya layihələrinin realizasiyası, ekspertizasiyası yüksək həyat keyfiyyətli effektiv dövlət institutlarının əsas inkişaf istiqamətlərindəndir. Yüksək keyfiyyətli insan kapitalı bilik iqtisadiyyatının formalaşmasının və inkişafının əsas faktorlarındandır.*

***Açar sözlər:**bilik iqtisadiyyatı,innovasiya,iqtisadi inkişaf, insan kapitalı, sənaye istehsalı*

Tədqiqatlar göstərir ki, İEÖ-in dünya ixracında aparıcı rolu təkcə onların burada əldə etdikləri yüksək xüsusi çəki ilə ifadə olunmur. Bu ölkələrin rolu bir də ondadır ki, onlar əsasən yüksək texnologiyalı məhsullar ixrac edirlər. Bu cür məhsullar da digər ölkələrdə ya heç, ya da kifayət qədər istehsal olunmur. Məhz bu cəhət İEÖ-in xeyrinə olur:yüksək texnoloji məhsula tələbatı olan ölkə bu ölkələrdən asılı vəziyyətə düşür və İEÖ-lərə monopol mənfəət əldə etmək imkanı qazandırır. Lakin bu imkanı onlara heç kim və heç bir dövlət könüllü vermir. Bu imkanı həmişə İEÖ-in özləri öz ölkələrində elmə, texnikaya, texnologiyaya və onların yaradıcıları olan insana fikir verdiklərinə, onların qayğısına qaldıqlarına görə əldə etmişlər və indi də etməkdədirlər.

İEÖ xarici iqtisadi əlaqələrinin başlıca fərqləndirici xüsusiyyətlərindən biri də prosesdə dövlət tənzimlənməsinin yaradıcılıqla həyata keçirilməsidir. Problemin öyrənilməsi göstərdi ki, İEÖ-in hamısında xarici iqtisadi fəaliyyətdə dövlət böyük rol oynayır. Əsas məqsəd ölkədə sosial-iqtisadi inkişafı təmin etməkdir. Dövlət bütün yollardan istifadə etməklə, ixracla məşğul olan kompaniyaları müdafiə edir və lazım gələrsə, onlara maliyyə, texniki, təşkilati, mənəvi kömək göstərir. Lazım olan vaxt subsidiyalaşdıma və ixrac kreditlərinə təminat verilməsi üsulları da işə salınır. Qərbin inkişaf etmiş ölkələri xarici kapitalın ölkəyə daxil olması prosesində də çox çevik hərəkət edirlər. Əgər dövlət hesab edirsə, xarici investisiya çox zəruridir, onda dövlət liberal rejim yaradır. Liberal rejimin mahiyyəti ondadır ki, dövlət burada icazə-qadağa üsulundan yox, qeydəalma üsulundan istifadə edir. Bu halda da dövlət passivlik göstərmir. Ölkə üçün çox mühüm olan kapitalı cəlb etmək üçün müvafiq infrastrukturlar yaratmaq yolu ilə onu stimullaşdırır[1].

Sənaye istehsalı ilə elmin əlaqələndirilməsi, iqtisadiyyatın digər sahələri ilə elmin əlaqələndirilməsindən daha çox fayda verir. Elmlə sahibkarlıq fəaliyyətinin sənayedə üzvi surətdə birləşməsi müxtəlif formalarda həyata keçirilir. Sürətlə inkişaf edən innovasiya biznesi böyük əhəmiyyət kəsb edir. Onun mərkəzində ərazi elmi-istehsal kompleksləri durur. İnkişaf etmiş ölkələrdə belə komplekslər “texnopark”, “texnopolis” kimi adlandırılır və onların əsas məqsədi sənayedə elm tutumlu məhsul istehsalını artırmaqdır. Texnopolislərdə prinsipcə ən yeni texnikalar və texnologiyalar yaradılır, sınaqdan çıxarılır və elmtutumlu məhsulların kiçik seriyalarla buraxılmasını təşkil edirlər. ABŞ-da 100-dən çox texnopolislər fəaliyyət göstərir. Dünya miqyasında elmtutumlu məhsulun 40%-ə qədəri, ABŞ-ın payına düşür. Elmtutumlu sənaye məhsulu iqtisadiyyatın digər sahələrinin də sürətli inkişafı üçün şərait yaradır. Bu da sənayenin iqtisadiyyatda aparıcı rolunun mahiyyətinin nədən ibarət olduğunu göstərir.

İnkişaf etmiş ölkələrin dövlət tənzimləmnəsində insan, onun yaşayışı, onun taleyi həmişə ön planda durur. Məsələn, ABŞ-da dövlət tənzimlənməsinin təkmilləşdirilməsi iki istiqamətdə böyük nəticələrin əldə edilməsinə imkan verib: birincisi, ÜDM-un müntəzəm artımı (son illərdə bu artım orta hesabla 2,5-3,0% olub), ikincisi, külli miqdarda yeni iş yerləri yaradılıb (1990-cı ilin əvvəllərində 11 milyon) [2].

İEÖ-in hamısında intensiv xarici iqtisadi fəaliyyət müşahidə olunur. Digər ölkələrə nisbətən İEÖ xarici iqtisadi fəaliyyətə daha yaradıcı münasibət bəsləyirlər və optimal variantlar axtarıb tapırlar. Məsələyə

bu prizmadan yanaşmağın obyektiv əsası ondadır ki, xarici iqtisadi əlaqələr ölkənin sosial-iqtisadi inkişafına güclü təsir göstərmək xassəsinə malikdir. İEÖ, bir qayda olaraq, xarici iqtisadi əlaqələri inkişaf etdirməklə istehsal xərclərini azaltmağa, ümumi səmərəliliyi isə yüksəltməyə çalışırlar.Bu baxımdan IEÖ xarici iqtisadi fəaliyyətlərindəki başlıca xüsusiyyətlərindən biri prinsipcə yeni əməkdaşlıq formaları tapmaq, yeni istiqamətlər təyin etmək yolu ilə istənilən ölkələrlə optimal (ilk növbədə özlərinin xcyrinə) əlaqələr yaratmaqdır. "Yeni xarici iqtisadi əməkdaşlıq normaları" dedikdə, ilk növbədə aşağıdakıları nəzərə almaq lazımdır.

İlk növbədə onlar, öz ölkələrində prinsipcə yeni məhsulların, xidmət növlərinin istehsalını təşkil etmək və onlar istehlakçı ölkələrə sərfəli şərtlərlə reallaşdırmağa can atırlar. Təhlil göstərir ki, xarici iqtisadi əlaqələri genişləndirmək sahəsində bu üsullardan İEÖ-in demək olar ki, hamısı istifadə edir. Xarici iqtisadi əlaqələrin genişləndirilməsinin bu imkanı digər (inkişafda olan, keçid iqtisadiyyatlı) ölkələr qrupunda ya heç olmur, ya da çox məhdud şəklində olur. İEÖ-də isə bu imkanı meydana gətirən qüvvə onların iqtisadi, texniki, texnoloji, elmi, hərbi gücləridir. İEÖ-in iqtisadi gücü digər ölkələrə nisbətən həmişə çox yüksək olduğuna görə onlar elmin, texnikanın, texnologiyanın ardıcıl inkişaf etdirilməsinə milyardlarla vəsait ayıra bilirlər.

Məsələ burasındadır ki, hər hansı bir dövlətin və o cümlədən də İEÖ-in müasir dünya təsərrüfat sistemindəki mövqeyinin möhkəmliyi, dayanıqlığı onun elmi-tədqiqat və layihə-təcrübə işləri (ETLTİ) sahəsində əldə etdiyi nailiyyətlərə və onların" istehsala tətbiqinin intensivliyinə" görə həll edilir. ETLTİ-i isə çoxlu vəsait tələb edir. Bu vəsaitin öhdəsindən İEÖ bacarıqla gəlirlər[3].

Amerika kompüter texnikası, proqram təminati məhsulunu bütün dünya ölkələrinə realizə edə bilir. Almaniya və Yaponiya avtomobil sənayesi məhsulları üzrə bu mövqedə dayanan ölkələrdəndir.

Amerika iqtisadiyyatının hərəkətverici qüvvələri arasında öz resursları ilə yüksək səviyyədə təmin olmaq heç də pis yer tutmur. Resurslarla təmin olunmaq xarici ölkələrdən asılılığı minimuma endirir. Bundan başqa, ABŞ-ın böyük həcmli daxili bazarı, kompaniyaların yüksək texniki, təşkilati, elmi potensialları, eksport və importun həcminə dünyada birincilik, sosial yönümlü iqtisadi siyasət, sənayenin aparıcı sahəsi olan maşınqayırmanın üstün inkişafı və mütərəqqi strukturu, yeni tipli yüksək texnologiyaların mənimsənilməsi və s. bu kimi cəhətlər də iqtisadiyyatın intensiv inkişafı üçün şərait yaradan amillərdir, ABŞ iqtisadi inkişafının hərəkətverici qüvvəsidir.

Amerika hökuməti yaratdığı təsərrüfatçılıq mexanizmi vasitəsilə yeni iş yerlərinin yaradılmasına da yaradıcı münasibət bəsləyir. Yeni iş yerləri elm və texnikanın son nailiyyətlərini özündə cəmləşdirir və belə iş yerlərində çalışanların əmək haqqı səviyyəsinə ciddi fikir verilir. Uzun illər davam edən bu ənənə məhsulun material, fond, enerji tutumlarının daim aşağı salınması tədbirləri ilə birlikdə elə bir mütərəqqi nəticə əldə etməyə imkan vermişdir ki, istehsal xərclərində işçi qüvvəsinə çəkilən xərclərin xüsusi çəkisi 70%-ə çatmışdır. Bu olduqca mütərəqqi göstəricidir və dövlətin mütəmadi olaraq sosial yönümlü siyasət aparmasının nəticəsidir. Bu həm də sübut edir ki, Amerikada zehni əməklə məşğul olanlanların sayı daim artır, yüksək maaş alanlar çoxalır, əhalinin orta təbəqəsi inkişaf edir[4].

ABŞ iqtisadiyyatının bir sıra fərqləndirici cəhətləri vardır. Müasir dövr üçün ən əlamətdarı ondadır ki, ABŞ on yeni texnikaya və texnologiyaya daha çox fikir verir, elmtutumlu məhsullar istehsal edir və innovasiya sahəsində uzun illərdir ki, aparıci yer tutur. Bu hal öz əksini texnologiyanın ötürülməsi üzrə vəsait ödəmələrini və daxilolmalarını xarakterizə edən balansda tapir. Qeyd edək ki, bu balansda "texnologiyanın ötürülməsi" əməliyyatı ilə bağlı, patentlərin qeydiyyatı ilə bağlı, lisenziyaların müəllif hüquqlarının, ticarət markalarının əldə edilməsi ilə bağlı, dizaynların müəllif və sənaye hüquqlarının və nümunələrinin işlənməsi ilə bağlı, "nou-hau"-larla və menecment sahəsində xidmətlərin ödənilməsi ilə bağlı hesabatlar göstərilir. Bir çox mənbələrin verdikləri məlumatlara görə, ABŞ texnoloji balansı uzun illərdir ki, aktiv saldoya malikdir. Onun məbləği ildə 7-8 milyard dollar təşkil edir. Aktiv saldonun mövcudluğu ABŞ üçün yeni imkanlar yaradır və bu imkanlardan istifadə edən sahibkarlar elmtutumlu məhsullar istehsalını genişləndirirlər.

Yaponiyada iqtisadi inkişafı və texniki tərəqqini sürətləndirən düşünülmüş bir idarəetmə mexanizmi yaradılmışdır. Bütün digər məsələlər də bu mexanizmin əsas məqsədinin – ölkənin yüksək səviyyədə sosial-iqtisadi və mədəni inkişafının təmin olunmasının həyata keçirilməsinə yönəldilir. Kadr hazırlığında, mülkiyyətin forması məsələsi həll edildikdə, elm və texnika inkişaf etdirildikdə, yeni yaşayış əraziləri salınanda, idarəetmə təkmilləşdirildikdə və s. bu kimi məsələlərin həllində ölkənin əsas məqsədi, birinci növbədə, nəzərə alınır. Elm Yaponiyada istehsala (xüsusən sənaye istehsalı ilə) sıx inteqrasiya şəklində inkişaf etdirilir. Təsadüfi deyildir ki, ETLTİ çəkilən xərclərin 70%-ə qədəri sənayenin payına düşür. Bütün qəbildən olan ETİ-i əslində sənayenin sifarişi əsasında işləyirlər.

Yaponiya dövləti dünyanın digər ölkələri üçün nümunədir. Heç ABŞ və Almaniya hökumətləri hələlik belə səmərəli hökumət formalaşdıra bilməmişlər. Ərazi cəhətdən, təbii resurslar baxımından ABŞ-a və Qərbi Avropa ölkələrinə nisbətən çox az xüsusi çəkiyə malik Yapon dövləti dünyada iqtisadi, sosial və texniki inkişafın əsl katalizatoruna çevrilə bilmişdir. Nəticədə, mütəxəssislərin adlandırdığı kimi, «yapon korporasiyası» - sənaye firmalarının, bankların, həmkarlar ittifaqlarının və dövlətin birliyi adlanan çox səmərəli mexanizmə malik birliklər meydana gəlmişdir. Bu cür korporasiyalar dünyanın bütün ölkələri ilə rəqabət aparmağa və qalib çıxmağa qadirdirlər. Bu cür nəhəng korporasiyalarda daxili ziddiyyətlərin, çəkişmələrin olması ehtimalları sıfıra yaxınlaşır. Müvəffəqiyyət də elə buradan meydana çıxır. Biznes səyinin dövlət tənzimlənməsi ilə yüksək səviyyədə uyğunlaşdırılması məsələsi də Yaponiyada, demək olar ki, hamıdan yaxşı həll edilib. Bu həm də daxili bazarın savadlı qorunması üçün yaxşı şərait yaradır[5].

**Ədəbiyyat**


1. Ahmed E.M., Ridzuan R. The Impact of ICT on East Asian Economic Growth: Panel Estimation Approach. Journal Knowledge Economy, 26 May 2012.
2. Bergek A., Jacobsson S., Hekkert M., Smith K., Functionality of innovation systems as a rationale and guide in innovation policy, Innovation policy, theory and practice, An international handbook, Cheltenham, Elgar Publishers, 2010.
3. Juma C., The New Harvest, Agricultural Innovation in Africa, Oxford University Press, Inc., New York, 2011, p.18.
4. Leydesdorff L., Etskowitz H., Can the public be considered as a fourth helix in university industry - government relationships, Report of the 4th Triple Helix conference, Science and public policy 30, 2003.
5. www.weforum.org/WEF/The Global Competitiveness Report 2011-2012 (Dünya İqtisadi Forumunun saytı).



**Резюме**

***Хашимова А.Ч.***

**Роль государства в формировании экономики знаний в странах в реализованных странах**

*Экономика знаний – высокий уровень отраслевой экономики и инновационной экономики. Реализация, экспертиза инновационных проектов является одним из основных направлений создания качественных, жизнеспособных государственных учреждений. Качественный человеческий капитал является одним из ключевых факторов формирования и развития экономики знаний.*

***Ключевые слова:*** *Экономика знаний, инновация,экономическое развитие,человеческий капитал, промышленное производство*



**Summary**

***Hashimova A.Ch.***

**The Role of the State in the Formation of Knowledge Economy in the Developed Countries**

*Knowledge economy, is a high level of industry economy and innovation economy. Realization, expertise of innovation projects is one of the main directions of high quality life-efficient state institutions. High quality human capital is one of the key factors in the formation and development of the knowledge economy.*

***Key words:****knowledge economy,innovation,economic development, human capital, industrial production*


## TURİZM-REKREASİYA KOMPLEKSLƏRİNİN İNKİŞAFI


***Qafarov A.H.***

*AMEA-nın İqtisadiyyat İnstitutu*



***Xülasə.*** *Məqalədə konkret iqtisadi rayon səviyyəsində turizm-rekreasiya komplekslərinin inkişaf etdirilməsinə həsr olunmuşdur. Bununla yanaşı turizm-rekreasiya kompleksinin inkişafi və müxtəlif iyerarxiya səviyyəsində turizm-rekreasiya mərkəzləri, dağ-vadi turizm-rekreasiya planlaşdırma sistemləri, istirahət və turizm infrastruktur obyektləri göstərilmişdir.*

*Məqalədə iqtisadi rayonda turizmin inkişafının məqsədli indikatorları və göstəriciləri iki variantla - inersiya və diversifikasiya üzrə nəzərdə tutulan müddətə (2030-cu il) təqdim olunmuşdur.*

*Açar sözlər: turizm-rekreasiya mərkəzləri; iqtisadi və kənd turizmi; istirahət sahələri; beynəlxalq turizm-rekreasiya klasteri; inersiya və difersifikasiya variantı*

Dağlıq Şirvan İqtisadi rayonunun (DŞİR) kompleks ərazi qiymətləndirməsinin nəticələri əsasında müəyyən olunub ki, rayon müxtəlif dövrlərin mədəni irs abidələri ilə zəngindir, onun ərazisinin təbii şəraiti kifayət qədər rəngarəngdir və Böyük Qafqaz dağlarının ətəkləri istirahət üçün son dərəcə əlverişlidir.

İnkişafı uzunmüddətli prioriteti hesab olunan rekreasiya fəaliyyətlərinin (rekreasiya ixtisaslaşmalarının) əsas növlərini rayon kəsiyində göstərmək lazımdır: - İsmayıllı rayonu – uzunmüddətli istirahət, sanatoriya-kurort müalicəsi və mədəni-maarif, iqtisadi və kənd turizmi. - Şamaxı rayonu–mədəni-maarif, etnoqrafik, qastronomiya turizmi, iqtisadi və kənd turizmi. - Ağsu rayonuturizm-rekreasiya baxımından zəif inkişaf edib, lakin kənd turizminin, turizmin mədəni-maarif, etnoqrafik və iqtisadi növlərinin, istirahətin ayrıca növlərinin inkişafı üçün imkanlar vardır. - Qobustan rayonuturizm-rekreasiya baxımından zəif inkişaf etmişdir. Lakin vulkanik palçıqlar əsasında sanatoriya kompleksinin, istirahətin ayrıca növləri (istirahət günləri) və mədəni-maarif turizminin inkişafı mümkündür.

Beləliklə, turizm və istirahət infrastruktur planına əsasən nisbətən daha çox inkişaf etmiş rayonlar kimi Şamaxı və İsmayıllı rayonlarını, zəif inkişaf etmiş rayonları kimi isə Ağsu və Qobustan rayonlarını göstərmək olar. Sonuncu adı çəkilən rayonlar paytaxta, Bakı şəhərinə yaxın olmalarına baxmayaraq, turizm və istirahət infrastukturunun inkişaf səviyyəsinə görə ən axırıncı yerlərdə dururlar.

Turizm və istirahət sahələrinin inkişafı üzrə layihə həllərini hazırlayarkən turizm infrastrukturun, yerləşdirmə obyektlərinin inkişafına diqqət yetirilir [1, s. 102].

DŞİR ərazisində ətraflı tədqiqat zamanı lokalizasiyaya qədər bütün yerləşdirmə vasitələrinin sinif həcminin layihə öncəsi göstəriciləri aşağıdakı kimi təqdim olunur: - bütün növlərin yerləşdirmə vasitələrinin (yerinin) sayının 12-15 minə (5 dəfədən çox) qədər artırılması; həmçinin Qobustan rayonu – yerləşdirmə vasitələrinin həcminin 100 yerdən 2 min yerə kimi artırılması, faktiki olaraq turistik-istirahət infrastrukturu “sıfırdan” yaradılacaq; Şamaxı rayonu–yerləşdirmə vasitələrinin həcminin 0,8-dən 5 min yerə qədər artırılması; Ağsu rayonu–yerləşdirmə vasitələrinin həcminin 0,1–dən 2 minə qədər artırılması; İsmayıllı rayonu-yerləşdirmə vasitələrinin həcminin 1,9-dan 5 minə qədər artırılması; təşkil olunmuş turist axınının ildə 200 minə qədər və mövsüm ərzində isə 150 minə qədər artırılması (2017-ci illə müqayisədə 5 dəfə), ümumi axının 12,0 -15,0 % -i xarici turistlərin payına düşür, turistlərin orta qalma müddəti 5 gün təşkil edir (hal-hazırda -2 gündən az); turizm, istirahət, mehmanxana fəaliyyəti sahəsində tutulmuş yerlərin sayı–2 min nəfər, əlaqədar sahələr (xidmət, nəqliyyat sahələri) nəzərə alınmaqla isə 10 min nəfərə qədər olur; əhalini yüksək özməşğulluqla təmin edən turizm-rekreasiya xidmətləri göstərən fərdi sahibkarların və kiçik müəssisələrin payına 50,0 % düşür.

Yuxarıda göstərilən nəticələrdən də göründüyü kimi, gələcəkdə dövlətlə şəxsi əməkdaşlıq hesabına istirahət infrastruktur obyektlərinin əsaslı təmiri geniş miqyas alır və kiçik müəssisələr və fərdi sahibkarlar hesaba alınmadan belə, xeyli sayda vəsait tələb edir. Belə ki, söhbət DŞİR –da yerləşdirmə obyektlərinin ümumi tutumunun 5 qat artırılmasından gedir. Qonşu Şəki-Zaqatala iqtisadi rayonunda Azərbaycan Respublikası Şimal-Qərbi beynəlxalq turizm-rekreasiya klasterinin formalaşması hesabına, gələcəkdə DŞİR-n bütün ərazisinin məqsədəuyğun olaraq və ya İsmayıllı və Şamaxı rayonlarının nümunə üçün onun ərazisinə qoşulması, eləcə də adı çəkilən turizm-rekreasiya klasterinin (Azərbaycan Respublikasının Şimal-Qərb beynəlxalq turizm-rekreasiya klasterinin inkişaf layihəsi) inkişafına təkan verən mükəmməl elmi-tədqiqat və layihə işlərinin yaxın illərdə (20120-ci ilə kimi) hazırlanması təklif olunur.

DŞİR-nda turizmin inkişafının məqsədli indikatorları və göstəriciləri iki variantla - inersiya və diversifikasiya üzrə nəzərdə tutulan müddətə (2030-cu il) təqdim olunmuşdur. Turizm və istirahət infrastrukturunun inkişafı, yenilərin formalaşdırılması və mövcud turizm-rekreasiya zona və mərkəzlərinin inkişafı ilkin müəssisələrin 2018-ci ilə kimi ayrılması (ayırd edilməsi) ilə uzunmüddətli perspektivi nəzərdə tutur [2, s. 23].

DŞİR ərazisində yeni turizm-rekreasiya mərkəzlərinin, konkret ixtisaslaşmış zona və idarələrin, yeni turist marşrutları və turizm məhsullarının yaradılması üzrə təkliflər aşağıdakı sənədlərin müddəaları və xülasəsi əsasında verilmişdir: Azərbaycan Respublikasında 2014-2018-ci illər üçün turizmin inkişafı üzrə Dövlət Proqramı; 2014-2018-ci illər üçün Azərbaycan Respublikasının regionların inkişafı üzrə sosial-iqtisadi Dövlət Proqramı; 2014-2018-ci illər üçün Azərbaycan Respublikasında turizmin inkişafı üzrə dövlət proqramının hazırlanması zamanı Azərbaycan Respublikasının Turizm və Mədəniyyət Nazirliyinin təklifi; DŞİR üzrə məskunlaşmanın, təbiətdən istifadənin və məhsuldar qüvvələrin ərazi təşkilinin regional planlaşdırmanın 2-ci mərhələsində Ərazinin kompleks qiymətləndirmə sxeminin hazırlanması, ərazinin resurs imkanlarının qiymətləndirilməsi və sosial-iqtisadi inkişaf proqnozunun hazırlanması; DŞİR-nuda turizmin

inkişafının məqsədli indikatorları və göstəriciləri iki variantla - inersiya və diversifikasiya üzrə nəzərdə tutulan müddətə (2030-cu il) təqdim olunmuşdur.

İnkişafın inersiya variantına görə, gələcəkdə, DŞİR yerləşmə vəsaitlərinə və turist gəlmələrin statistikasına əsasən, il ərzində 100 min qonaq qəbul edə biləcək, bundan başqa, ölkəyə gələnlərin 20 minə yaxını statistika ilə hesablanmayan mövsüm istirahəti, bağ istirahəti üçün gələnlərdir. Beləliklə, DŞİR ərazisində 2030-cu ilə turist axını il ərzində 120 min nəfər təşkil edəcək və bu da Azərbaycana planlaşdırılan turist axının bütövlükdə 4,0 %-ni təşkil edəcək. Baxmayaraq ki, il ərzində ölkəyə turist axını bütövlükdə 0,4-0,7 mln. səviyyəsindədir, beş il ərzində Azərbaycanda ildə üç milyon turistin yerləşdirilməsi üçün tam şərait yaradılmalıdır. Hətta 2020-ci ilə kimi turist axını üzrə bu cür göstəricilərin təqribi olacağı nəzərə alınmasına baxmayaraq, ehtimal ki, ölkəyə gələnlərin göstəriciləri 2030-cu ilə kimi artacaq.

2030-cu ilə kimi inkişafın diversifikasiya variantına əsasən turist axını üzrə daha böyük göstəricilər 220-250 minə qədər gələnlər olacaq, eləcə də yerləşdirmənin kollektiv vasitələrində yerləşdirmə hesabına - 200 min istirahət, bağ istirahətinə gələnlərin sayı-20-50 min olacaq. Bu halda turist gəlişlər hesabına DŞİR-un payı ölkə üzrə 6,0 - 6,5 % artacaq. Turist axın həcmində fərqlər proqnoz hesablamalarına görə turizm-rekreasiya infrastrukturunun istifadə intensivliyinin müxtəlif göstəriciləri hesabına toplanır. Hal-hazırda yerləşdirmə vasitələri olan istifadə intensivliyi orta hesabla iqtisadi rayon üzrə 10,0 %, İsmayıllı və Şamaxı rayonları üzrə bir qayda olaraq 20,0-25,9 % təşkil edir. Bu göstəricilər kifayət qədər aşağıdır, lakin bu statistikada həm mövsüm üzrə 35,0 % göstərilən fondların orta yüklənməsi ilə yüksək gəlirli obyektlər, həm də xırda tutumlu və ya çarpayı yerlərinə görə böyük olan dövlət idarələri nəzərə alınır.

İnkişafın diversifikasiya variantı əsas fondların yükləmə göstəricilərinə əsaslanır, yüksək turizm mövsümündə effektiv istifadə - 40,0-50,0 %, ayrıca, nisbətən daha ziyarət olunan və turizm mərkəzlər - bütün il boyu fondlardan effektiv istifadə - 65,0 - 70,0 % olur. İntensiv inkişaf üzrə yekun göstəricilər qonaq infrastrukturunun yaradılması zamanı böyük həcmdə fərdi sahibkarların cəlb olunması hesabına (düzəlişlər oluna bilər) formalaşa bilər.

DŞİR ərazisində turizm və istirahətin ərazi strukturu təxmini olaraq aşağıda təqdim olunub: Respublika əhəmiyyətli üç turizm-rekreasiya mərkəzi: Şamaxı şəhəri, İsmayıllı rayonunda Lahıc və Basqal kəndləri; Mövcud və yenidən yaradılan rayon əhəmiyyətli turizm - rekreasiya mərkəzləri; mövcud olanlar: İstisu (İsmayıllı rayonu), Çuxuryurd (Şamaxı rayonu), Ağsu, Qobustan və onun Qərb ətrafları (Qobustan rayonu); planlaşdırılanlar-Qalacıq, Talıstan, İvanovka (İsmayıllı rayonu); Planlaşdırılan yerli əhəmiyyətli turizm-rekreasiya mərkəzləri. Şamaxı rayonunda: Y. Məmmədəliyev adına qəsəbə ətrafları (Pirqulu ərazisi), Zarat Xeybəri, Məlhəm, Dəmirçi, Qaleybuğurd, Pirbəyli. İsmayıllı rayonunda: Diyəlli, Qıçatan, Müdrisə, Hacıhətəmli, Mücühəftəran, Sumağallı. Ağsu rayonunda: Kalva, Qırlar, Gürcüvan. Qobustan rayonunda: Cəngi, Nardaran, Şıxlar, Xilmilli, Qaracüzlü. Turizm və rekreasiya infrastrukturunun inkişafının yerli qovşaqları - hər rayonda bir neçə turizm-rekreasiya mərkəzlərinin iyerarxik strukturundakı fərqlilik bu mərkəzlərin müxtəlif turizm, istirahət, köməkçi və nəqliyyat infrastrukturu obyektlərinin dolğunluğundan asılıdır.

Turizm-rekreasiya mərkəzlərinin iyerarxik strukturundakı fərqlilik bu mərkəzlərin müxtəlif turizm, istirahət, köməkçi və nəqliyyat infrastrukturu obyektlərinin dolğunluğundan asılıdır. Yerləşdirmə vəsaitlərindən və iaşə obyektlərindən başqa, böyük mərkəzlərdə əlaqədar infrastruktur obyektləri - turfirma və tur agentliklər, muzeylər, qalereyalar, banklar, sığorta şirkətləri, idman və başqa obyektlər geniş təqdim olunmuşdur. Beləcə, Şamaxı şəhəri tarixi yer və Azərbaycan tarixində böyük rol oynayan Şirvan xanlığının keçmiş paytaxtı kimi regionun turizm-rekreasiya strukturunun sistemli (sistem formalaşdıran mərkəzi kimi) çıxış edir. İsmayıllı rayonunda yerləşən Lahıc və Basqal kəndlərində dövlət tarix- mədəniyyət qoruqları fəaliyyət göstərir. Şamaxı rayonu Qızmeydan kəndi ətrafında dağ xizək mərkəzi yaratmaq planlaşdırılır. İnfrastrukturun yerli mərkəzlərində dincələnlərin yerləşdirilməsi vahid obyektlərlə təqdim olunmuşdur.

Turist axın həcmində fərqlər proqnoz hesablamalarına görə, turizm-rekreasiya infrastrukturunun istifadə intensivliyinin müxtəlif göstəriciləri hesabına toplanır. Hal-hazırda yerləşdirmə vasitələri olan istifadə intensivliyi orta hesabla iqtisadi rayon üzrə 10,0 %, İsmayıllı və Şamaxı rayonları üzrə bir qayda olaraq 20,0-25,9 % təşkil edir. Bu göstəricilər kifayət qədər aşağıdır, lakin bu statistikada həm mövsüm üzrə 35,0 % göstərilən fondların orta yüklənməsi ilə yüksək gəlirli obyektlər, həm də xırda tutumlu və ya çarpayı-yerlərinə görə böyük olan dövlət idarələri nəzərə alınır.

Rekreasiya mərkəzləri öz aralarında karkasın xətt elementləri - əsas və əlavə turist marşrutları, eyni zamanda "Böyük İpək yolu" (Bakı – Şamaxı - Şəki – Zaqatala - Gəncə - Bakı) ilə bağlıdırlar. Pirbəyli kəndindən Böyük Qafqaz sıra dağlarının Şimalına, Qusar rayonu istiqamətində yeni yolun tikintisi və bu yolla Azərbaycanın üç - Şahdağ (Qusar rayonu), Qəbələ və Qızmeydan dağ xizək mərkəzlərini birləşdirmək nəzərdə tutulmuşdur. Mövcud və planlaşdırılan turizm-rekreasiya mərkəzlərinin, marşrutların, təbii və tarixi

irsin diqqətəlayiq yerlərinin məcmusu dağətəyi yerlərdə olduğu kimi, DŞİR-nun düzənlik hissələrində də turizm-rekreasiya zonalarının profili üzrə formalaşmaya əsaslanır. Turizm-rekreasiya kompleksin ərazi strukturu marşrut əlaqələri yaradan müxtəlif səviyyəli mərkəzlər, eləcə də geniş turizm-rekreasiya zonaları əsasında formalaşacaq. Ayrıca turizm-rekreasiya obyektlərinin və köməkçi infrastrukturun yerləşdirlməsi planında maksimal variant üzrə DŞİR-na daxil olan 4 rayondan hər birinin kəsimində ilkin və nəzərdə tutulan müddətdə aşağıda göstərilən tədbirlər həyata keçirilmişdir.

Turizm-rekreasiya kompleks inkişafının ayrıca sxemində və layihə planında müxtəlif iyerarxik səviyyədə turizm-rekreasiya mərkəzləri, dağ-vadi turizm-rekreasiya planlaşdırma sistemləri, istirahət və turizm infrastruktur obyektləri göstərilib.

**Qobustan rayonu.**Qaracüzlü kəndi ətrafında 100 yerlik motelin tikintisi; Qobustan şəhəri ətrafında 150 yerlik motelin tikintisi; Qobustan şəhərində 250 yerlik mehmanxananın tikintisi; Kənd yerlərində turizm imkanlarının genişləndirilməsi - əlavə olaraq 0,4-0,6 min qonaq evlərinin, aqroturizm inkişaf mərkəzlərinin, motellərin və buna bənzər yerlərin yaradılması.

**Şamaxı rayonu.** Qaleybuğurd kəndində 100 yerlik istirahət evlərinin, dağ profilaktoriyasının tikintisi; Şamaxı şəhərindən 15 km şimal-qərbə, Bədo termal bulaqlarda 150 yerlik sanatoriyanın tikintisi; Dağ kəndlərində turizm potensialın genişləndirilməsi - əlavə 2,3-2,5 min yerlik qonaq evlərinin, turist sığınacaqların, istirahət bazaları və evlərinin və buna bənzər yerlərin yaradılması.

**Ağsu rayonu.** Dağ kəndlərində turizm potensialın genişləndirilməsi - əlavə 500-600 yerlik qonaq evlərinin, turist sığınacaqların, istirahət bazaları və evlərinin və buna bənzər yerlərin yaradılması; Düzənlik kəndlərində turizm potensialın genişləndirilməsi-əlavə 500-600 yerlik qonaq evlərinin, aqroturizm inkişaf mərkəzlərinin və buna bənzər yerlərin yaradılması.

**İsmayıllı rayonu.** Qalacıq kəndində 100 yerlik istirahət evlərinin, dağ profilaktoriyasının tikintisi; Göytəpə kəndi ətrafında 50 yerlik motelin tikintisi; Balik kəndi ətrafında 50 yerlik qonaq evləri olan aqroturizm mərkəzinin tikintisi; Ərazinin turizm potensialının genişləndirilməsi - qonaq evlərində, aqroturizm və digər obyektlərdə əlavə yerlərin yaradılması.

## Ədəbiyyat


1. Qafarov A.H.Heydər Əliyev və Azərbaycanda turizmin inkişafı. Azərbaycan Respublikası İdman və Turizm Nazirliyi. Monoqrafiya. Bakı, 2005, 400 s.

2. Qafarov A.H.Azərbaycan Respublikası Dağlıq Şirvan iqtisadi rayonunun sosial-iqtisadi inkişaf Proqramı və Strategiyası.Monoqrafiya. Bakı: AVROPA nəşriyyatı, 2017, 536 s.


## Резюме


***Кафаров А.А.***

**Развитие туристическо-рекреационного комплекса**

*Статья посвящена исследованию вопросов развития туристическо-рекреационного комплекса на примере конкретного экономического района. Вместе с тем были показаны аспекты развития объектов туризма и туристической инфраструктуры, системы планирования горно-долинного туризма и рекреационного комплекса, туристических и рекреационных центов и т.д.*

*В статье также были даны в двух – в инерционном и диверсификационном - вариантах целевые индикаторы и показатели развития туризма в экономическом районе (до 2030 года).*

***Ключевые слова:*** *туристические и рекреационные центры, экономический и сельский туризм, зоны отдыха, международные туристическо-рекреационные кластеры, инерционный и диверсификационный варианты*


## Summary


***Gapharov A.H.***

**The Development of Tourism-Recreation Complexes**

*The article dedicated to the development of tourism – recreation complexes in the concrete economic region level. Moreover, in article development of tourism – recreation complex and different stage level analysis activity of tourism – recreation centers, mountain – tourism recreation plan systems, relax and tourism infrastructure objects were show. Therefore, main economic indicators and indexes presented in two variants inertial and diversification directions to till 2030, for development of tourism in economic region.*

***Key words:*** *tourism – recreation center, economic and village tourism; recreation branches; international tourism recreation cluster; inertial and diversification variants*

# GƏNCLƏRİN PEŞƏ-İXTİSAS TƏHSİLİNİN KEYFİYYƏTİNİN ARTIRILMASINDA PEŞƏYÖNÜMÜNÜN ƏHƏMİYYƏTİ

***Qurbanova İ.M.***
*AMEA-nın İqtisadiyyat İnstitutu*

***Xülasə.*** *Məqalədə gənclərin doğru peşə seçimi etməsində peşəyönümünün əhəmiyyətindən bəhs olunur. Qeyd olunur ki, orta təhsilin ilk pillələrindən başlayaraq uşaqlara peşələri tanıtdırmaq və sevdirmək lazımdır ki, peşə seçimi qarşısında qalanda ən doğru seçimi edə bilsinlər. Müəllif şərh edir ki, peşə təhsili sisteminin keyfiyyətinin yaxşılaşdırılması gənclərin doğru peşə seçimi etməsindən çox asılıdır.*

***Açar sözlər:*** *gənclər, təhsil, peşə, peşəyönümü, əmək bazarı, məşğulluq*

Əmək bazarının tələblərinə uyğun işçi qüvvəsinin formalaşması üçün peşə-ixtisas təhsili sistemi bu və ya digər sahədə yeni biliklər və peşə vərdişlərinə malik kadrların hazırlanmasını çevik şəkildə həyata keçirməlidir. Bunun üçün iqtisadiyyatın peşəkar kadrlara qarşı dəyişən tələblərinə operativ cavab verməyi bacaran bir sistem olmalıdır. Burada peşə təhsili sisteminin inkişaf etdirilməsi məsələsi bir daha öz aktuallığını tapır. Lakin peşə təhsilinin keyfiyyətinin artırılması yalnız peşə-ixtisas təhsili müəssisələrinin təkmilləşdirilməsi ilə mümkün deyil.

İnsanın həm şəxsiyyət, həm də kadr kimi yetişdirilməsi bütövlükdə təhsil sisteminin ayrı-ayrı pillələrində baş verdiyini nəzərə alaraq, istər peşə təhsilinin, istərsə də ali təhsilin keyfiyyət göstəricilərinin artırılmasına nail olmaq üçün bu işə ümumiyyətlə, təhsil sisteminin ən aşağı pillələrindən başlanılmalıdır. İqtisadiyyat dili ilə desək, "Keyfiyyətli məhsul hazırlamaq üçün keyfiyyətli material lazımdır". Belə ki, peşə təhsili almaq istəyən gənc nə qədər keyfiyyətli ümumi orta təhsil alarsa, bir o qədər də yaxşı mütəxəssis kimi yetişdirilə bilər. O yalnız elmi biliklərlə məhdudlaşmamalı, həm də müəyyən qədər praktiki qabiliyyətlərə də malik olmalıdır. Bunun üçün uşaqlar elə məktəbəqədər təhsil müəssisələrindən başlayaraq lakin çox həssaslıqla əməksevərliyə alışdırılmalı, yaşlarına uyğun tərzdə get-gedə peşələrin xüsusiyyətləri barədə məlumatlandırılmalıdırlar.

Nəzərə almaq lazımdır ki, şəxsiyyətin əmək keyfiyyəti vərdişləri yalnız ailə və məktəbdə müvafiq tərbiyə prosesində aşılanır və yalnız faydalı, tamamlayıcı, nəticə etibarilə səmərəli xarakter daşıyan əmək vasitəsilə uşaqlarda lazımi keyfiyyətləri formalaşdırmaq mümkündür.

A. Mehrabov şəxsiyyətin əmək keyfiyyətlərinə onun əməksevərliyini və əməyə mədəni-əxlaqi münasibətini aid edərək qeyd edir ki, yalnız müasir tələblərə cavab verən dərslik, pedaqoji mühit və müəllim uşaqlarda əməksevərlik və əməyə əxlaqi münasibətlərin inkişafına şərait yarada bilər [1, s. 80].

Bu mənada pedaqoji, psixoloji, sosioloji və iqtisadi yöndə çox ciddi fəaliyyət tələb olunur. Şagirdlərə fərdi yanaşılaraq xüsusi qabiliyyətləri üzə çıxarılıb daha da inkişaf etdirilməlidir. Nəzərdə saxlamaq lazımdır ki, bugünkü uşaq gələcəkdə iqtisadiyyat üçün faydalı mütəxəssis ola bilər. Buna görə də nəzəri biliklərlə yanaşı şagirdlərin praktiki bacarıq və vərdişlərə yiyələnmələrini də təşkil etmək lazımdır.

Uzun illər mövcud olmuş planlı iqtisadiyyatdan bazar münasibətlərinə keçməyimizlə orta məktəb məzunlarının peşə seçimi məsələsi də əlavə problemə çevrilmişdir. Qeyd etmək yerinə düşər ki, insanın həyatında verəcəyi ən vacib qərarlardan biri uyğun peşə seçimidir, bu seçimin uğurlu olması gələcək uğurlu karyeranın başlanğıcıdır. Buna görə də yeniyetmə və gənclərin meyil və maraqlarını müəyyən etmək, doğru peşə seçiminə kömək etmək, habelə, mövcud əmək bazarının vəziyyəti haqqında onlarda aydın təsəvvür yaratmaq üçün peşəyönümü məsləhətlərinin verilməsi vacibdir. Elə bir məzun yetişdirmək lazımdır ki, peşələr barədə kifayət qədər məlumatlı olsun və tərəddüd etmədən öz maraqlarına və bacarığına müvafiq peşə və ixtisası seçə bilsin. Belə işdə peşə üzrə məsləhətçiyə ehtiyac olduğunu nəzərə alaraq, yaxşı olardı ki, orta məktəblərdə konsaltinq xidməti təşkil olunsun, özü də həqiqətən təcrübəli mütəxəssislər bu işə cəlb edilsin. Məsələn, İsveçdə orta məktəblərdə şagirdlərə peşə seçimində köməklik edən məsləhətçilər fəaliyyət göstərir.

Dahi N.Tusi öz ibrətamiz əsərində uşaqların peşəyönümünün vacibliyini əks etdirən dəyərli fikirlər söyləmişdir: "İlk növbədə uşağın təbiətinə, nəyə qabil olduğuna nəzər yetirmək, ağıl, fərasətinə fikir vermək, müşahidə nəticəsində onun fitrətində hansı sənətə və elmə çox meyil olduğunu müəyyənləşdirmək, sonra isə həmin işlə də məşğul etdirmək vacibdir, çünki hamının bütün peşə və sənətə qabiliyyəti eyni olmaz, yoxsa insanların hamısı ən şərafətli sənətlə məşğul olardı. Kimin nəyə qabiliyyəti varsa, onunla məşğul olsa tez nəticə verər, böyük sənətkar olar, əks təqdirdə zəhmət hədər gedər, ömür puç olar" [2, s.160].

Yaponlarda hələ lap qədimdən və artıq digər ölkələrdə də məşhur olan *ikiqay* modelinə əsaslanaraq deyə bilərik ki, peşə seçimi edən insan üçün nəzərə alınması çox vacib olan 4 məsələni şagirdlərə aşılamaq lazımdır: sevirəm; bacarıram; insanlara lazımdır; əmək bazarında ehtiyac var.

Bunları 4 çevrə şəklində bir araya gətirsək, onların hamısının bir-biri ilə kəsişməsi və kəsişmə ortaq sahəsinin böyük olması məqsədyönlü və ən doğru peşənin seçilməsi deməkdir. Bu kriteriyaların hamısını özündə birləşdirən peşəni seçmiş insanı öz *ikiqayını* tapmış, başqa sözlə, xoşbəxt hesab etmək olar.




Qeyd edək ki, *ikiqay* – öz həyatının mənasını dərk etmək kimi istifadə olunan anlayışdır və hobbinin, peşənin, hətta həyat yoldaşının seçiminə aid edilə bilir. Hərfi mənada ikiqay – "həyata məna verən, bizi hər səhər yuxudan sevinclə qaldıran şeydir". Ömür-gün yoldaşını doğru seçmək qədər, peşə seçimi də mühüm hesab olunur. Ona görə ki, insan öz sevdiyi, bacardığı, həmçinin insanlar üçün faydalı olan və maddi yaşayışını təmin edən işlə məşğul olanda bu onu bezdirmir, əksinə zövq verir. İnsan uzun illər sevmədiyi işi yalnız maddiyyat xatirinə yerinə yetirməli olarsa, mənəvi tələbatları ödənməmiş qalır, nəticədə həyatında məna tapa bilmir. Əgər həmin peşə vasitəsilə maddi tələbatları da ödənmirsə, bu onun həyatını daha da çətinləşdirir.

Buna görə də orta məktəbdən və hətta məktəbəqədər təhsildən başlayaraq uşaqlarla yaşlarına uyğun tərzdə peşəyönümlü işlər aparılmalıdır. Orta məktəblərdə əmək təlimi (indiki texnologiya fənni) dərslərinin səmərəliliyini artırmaqla şagirdlərin xüsusi qabiliyyətlərinin aşkarlanıb daha da inkişaf etdirilməsi, onlara ilkin əmək vərdişlərinin aşılanması və gələcək iş həyatı üçün doğru istiqamətə yönləndirilməsi ilə bağlı məsələlər diqqət mərkəzində olmalıdır. Ailədən başlayan tərbiyə orta məktəbdə möhkəmləndirilir: düzgün, sağlam düşüncə tərzinin formalaşması, psixoloji dözümlülük, əməksevərlik, qətiyyətlilik, cəmiyyət üçün faydalı olmaq istəyi, halal zəhmətlə əldə olunan uğurların daha qürurvericiliyini dərk etmək, özünün və başqalarının hüquq və vəzifələrini bilib hörmət etmək, mədəni etik keyfiyyətlərə malik olan şəxsiyyət kimi yetişmək və s. Bütün bu keyfiyyətləri müəllimlər özlərində inkişaf etdirməli və şagirdlərə də aşılamalıdırlar.

Müəllimlər bu vəzifələrin öhdəsindən nə dərəcədə layiqli gəlsələr, ölkə iqtisadiyyatı da buna müvafiq olaraq inkişaf edər və əhalinin həyat səviyyəsi yüksələr. Ona görə ki, yuxarıda sadalanan mühüm keyfiyyətlərə malik şagirdlər formalaşdıra bilsək, onlar da öz gələcəklərini doğru istiqamətdə quracaqlar, bu zaman peşəyə də maraq artacaq, heç kim işsiz, məşğuliyyətsiz qalmaq istəməyəcək.

Göründüyü kimi, təhsil sisteminin bir pilləsinin inkişafı növbəti pillələrin də inkişafına zəmin yaradır. Bunların bir-birindən ayrılıqda inkişafı mümkün deyildir. Bütövlükdə təhsil sisteminin ali məqsədi ölkə və cəmiyyət üçün faydalı, keyfiyyətli insan yetişdirməkdir. Təhsilin ən aşağı pilləsindən başlayaraq bu məqsədə doğru irəliləmək lazımdır, çünki aşağı pillələrdə olan hər hansı boşluqlar onun üzərində qurulan yuxarı pillələrin də zəif olmasına gətirib çıxarır. Bu məsələlər daima diqqət mərkəzində olmalı, əsas məqsədə çatmaq üçün hər kəs öz işini, vəzifələrini böyük məsuliyyətlə yerinə yetirməlidir. Bunun üçün hər bir sağlam düşüncəli insan daha yaxşı bacardığı işin arxasınca getməli, potensial imkanlarına müvafiq gəlməyən və yaxud layiq olmadığı mövqeyi və vəzifəni tutmağa iddia etməməlidir, hər kəs qabiliyyətinə uyğun işdə daha faydalı olacaq. Ümumi inkişaf yalnız bu cür mümkündür.

Məlumdur ki, peşə-ixtisas təhsili müəssisələrini bitirmiş diplomlu işsizlərin də sayı az deyil, bu isə sosial gərginliyi artırır və əmək ehtiyatlarından səmərəli istifadə olunmaması milli iqtisadiyyatın inkişafını ləngitməklə yanaşı əhalinin yaşayış səviyyəsini də aşağı salır. Gələcək məzun təhsilini bitirib ixtisas və ya peşəsinə uyğun iş tapa biləcəyi barədə əmin olmalıdır, bu onun seçdiyi peşə və ixtisasa dair daha çox bilik və bacarıqlara yiyələnməsinə stimul verər. Verilən hər təhsil nəticəyönümlü olmalıdır, insan yüksək pillələrdə təhsilini davam etdirirsə təbii ki, daha yaxşı karyeraya malik olmaq istəyir. Buna nail olmadıqda isə bu həm onun özünün, həm də ətrafındakı təhsil alanların həvəsdən düşməsinə səbəb ola bilər, əksinə, təhsil artımı ilə karyera yüksəlişi adekvat olarsa başqalarına da motivasiya vermiş olar. Burada vacib məsələ obyektivlik prinsipinə riayət olunması, ayrı-seçkiliyəyol verilməməsidir. Təhsil alanların seçdikləri peşəni və ixtisası daha yaxşı mənimsəməyə çalışması üçün də məhz obyektivlik qorunmalıdır.

Beləliklə, peşə təhsilinin keyfiyyət və kəmiyyət baxımından yaxşılaşdırılması və nüfuzunun artırılması, nəticədə, məşğulluğa təsirinin yaxşılaşdırılması üçün ilk növbədə gənclərin doğru peşə seçimi etməsi və mütləq şəkildə iş təminatının olması vacibdir. Ona görə ki, insan nə qədər keyfiyyətli və yüksək

səviyyəli təhsil alırsa alsın, əgər müvafiq işlə vaxtında təmin olunmursa aldığı təhsilin onun üçün əhəmiyyəti azalır. Təhsil insanın həyatında bütün səyləri yaxşı yaşamaq, kimdənsə asılı vəziyyətə düşməmək, əksinə, başqalarına da faydalı olmaq üçündür.

Sadalanan məsələlər həllini taparsa, peşə-ixtisas təhsili sisteminin inkişaf etdirilməsi yönündə tədbirlər daha keyfiyyətli şəkildə həyata keçirilə bilər.

**Ədəbiyyat**


1. A.O.Mehrabov. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007, 448 s.
2. Xacə Nəsrəddin Tusi. Əxlaqi-nasiri. Bakı: Elm, 1989, 256 s.


**Резюме**


**Гурбанова И.М.**


**Важность профориентации в повышении качества профессионального образования молодежи**


*В статье описывается важность профориентации в выборе правильной профессии для молодежи. Отмечается, что, начиная с начальной школы, необходимо знакомить детей с разными профессиями, чтобы они могли выбрать ее правильно при выборе специальности. Автор поясняет, что повышение качества системы профессионального образования во многом зависит от правильного выбора профессии.*



***Ключевые слова:*** *молодежь, образование, профессия, профориентация, рынок труда, занятость*


**Summary**


**Gurbanova I. M.**


**The Importance of Professional Orientation in Improving the Quality of Vocational Education of Young People**


*In the article it is told about importance of professional orientation in the choice of the right profession for the younger generation. It is noted that, starting from elementary school, it is necessary to acquaint children with different professions in order that they have to choose the right profession. The author explains that improving the quality of the system of vocational educationsystem significantly depends on the correct choice of profession.*



***Key words****: youth, education, profession, professional orientation, labour market, employment*


## MÜASİR DÖVRDƏ REGİONLARDA MƏŞĞULLUQ VƏ İŞSİZLİYİN SƏVİYYƏSİNİN MÜASİR VƏZİYYƏTİ


***Mahmudova İ.M.***
*UNEC*



***Xülasə.*** *Hal-hazırda Azərbaycanda dövlət proqramlarının əsas məqsədlərindən biri bölgələrin inkişafını bir səviyyəyə qaldırmaq və onların davamlı inkişafına nail olmaqdır. Bu məqsədlə proqram ölkənin iqtisadiyyatının neft sektorundan asılılığını azaltmış və eyni zamanda mövcud iqtisadiyyatdan səmərəli istifadəni təmin etmək məqsədilə qeyri-neft sektorunun inkişafını vurğulamışdır. Xüsusilə də regionlarda məşğulluq probleminin həlli üçün bir sıra tədbirlər həyata keçiriləcəkdir. Beləliklə, regionlara investisiya yatırımı məşğulluq problemini həll etməyə və tələbatın artmasına kömək edəcəkdir. Bu, əməyə olan tələbatın artmasına səbəb olacaq, nəticədə, məhsula tələbatın artmasına səbəb olacaq.*



***Açar sözlər:*** *tarazlı inkişaf, investisiya yığımı, GZİT təhlil, məşğulluq, iqtisadi artım, regional inkişaf, sosial rifah*


Respublikada uğurlu şəkildə həyata keçirilən iqtisadi siyasət dövlətimizin iqtisadi qüvvəsini daha da artırmaqla bərabər, regionların da tərəqqisinə güclü təsir göstərir.Azərbaycan regionlarının tarazlı inkişafının təmin edilməsi üçün mühüm tədbirlər görülüb. İndiyə qədər respublikada regionların sosial-iqtisadi inkişafı üçün üç dövlət proqramı qəbul edilib ki, hazırda sonuncu proqramın sonuncu dövrü də uğurla reallaşdırılır. Məşğulluğun səviyyəsi həmçinin ölkədə olan iş qüvvəsinə olan tələbin göstəricisidir. Bu tələbatın səviyyəsi isə ölkədə formalaşmış bazar münasibətlərinin, bu sahədə həyata keçirilən iqtisadi islahatların inkişaf səviyyəsini gözlər önünə sərir.İqtisadi islahatlar isə son nəticədə iqtisadiyyatda həyata keçirilmiş struktur

dəyişikliklərini, iqtisadi mühitin yaradılıb inkişaf etdirilməsinə, bu isə öz növbəsində iqtisadi fəal əhalinin məşğulluğuna əhəmiyyətli dərəcədə təsir edir.Bildiyimiz kimi, insanların rifah halının yaxşılaşdırılması, əhali gəlirlərinin artırılması iqtisadi tərəqqinin əsas şərtlərindən biridir.Bazar iqtisadiyyatında müxtəlif sahələrdə fəaliyyət göstərən iqtisadi subyektlərin işlə təmin edilməsində yaranan problemlər, işçilərin ixtisar olunması işsizliyin daha da artmasına gətirib çıxarır. İstər indiki istərsə də gələcək dövr üçün məşğulluq siyasətinin ən mühüm tərkib hissəsi əmək ehtiyatlarından səmərəli şəkildə istifadəyə nail olmaqdır [4].

Dövlətin iqtisadiyyatı tənzimləmək üçün ən mühüm iqtisadi alətlərindən olan məşğulluq siyasəti son nəticədə bazarın özünütənzimləməsində təzyiq vasitəsi kimi sayılmır.Əksinə, dövlətin yardımı ilə iqtisadiyyatın daha da dirçəlməsində mühüm əhəmiyyət kəsb edir. Cəmiyyətdəki sosial təbəqələr arasındakı sosial ziddiyyətin qarşısını almaq, əhali gəlirlərinin ədalətli şəkildə bölünməsinə nail olmaqdan ibarətdir. İnkişaf etmiş ölkələrin də təcrübəsi göstərir ki, bazar iqtisadiyyatına malik ölkələrdə dövlətin məşğulluq siyasəti geniş sosial-iqtisadi proqramlarla həyata keçirilir. Burada istər dövlət büdcəsi, istərsə də qeydi-dövlət fondlarının büdcəsi hesabına iqtisadiyyatın bir çox sahələrində məqsədli maliyyələşmə proqramları həyata keçirilir. Bu proqramlar isə iqtisadiyyatın müxtəlif sektorlarının dirçəlməsinə, yeni iş yerlərinin yaradılmasına, iqtisadiyyata sərmayə qoyuluşlarının artırılmasına istiqamətlənir [5].

Araşdırmalar göstərir ki, işsizliyin azaldılması məqsədilə respublikamızda həyata keçirilən məşğulluq siyasəti öz bəhrəsini verir. Bu məqsədlə qəbul edilmiş dövlət proqramları da xüsusi olaraq regionlarda işsizliyin səviyyəsinin azaldılmasında böyük rolu olmuşdur. Həmçinin 2004-cü ildən başlayaraq ardıcıl olaraq qəbul edilən dövlət proqramlarının regionların sosial-iqtisadi inkişafının sürətlənməsində xüsusi rolu olmuşdur. Bunun nəticəsi olaraq regionlarda yeni iş yerlərinin yaradılması, əhalinin yaşayışının daha da yaxşılaşmasına şərait yaranır. Ölkədə həyata keçirilən sosial-iqtisadi islahatlar bütün regionları əhatə etməli, regional inkişaf dövlət səviyyəsində həyata keçirilməlidir.Bu nöqteyi-nəzərdən, ölkə başçısı tərəfindən bir sıra qanunlar qəbul edilmiş, sərəncamlar imzalanmışdır. Bunlara misal olaraq, “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqram”ı, “Azərbaycan Respublikasının Məşğulluq Strategiyası” (2006-2015-ci illər) və “Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət“Proqramı (2007-2010-cu illər) təsdiq edilmişdir [3].

Regionların inkişafın yeni mərhələyə yüksəlməsində bu qanunların mühüm rolu olmuşdur. Bu proqramların qəbulunda əsas məqsəd regionlardakı əmək ehtiyatlarından, mövcud iqtisadi və təbii resurslardan səmərəli şəkildə istifadə etmək, iqtisadiyyatın qeyri-neft sektorunun daha da inkişafına nail olmaq, aqrar sahədə həyata keçirilən islahatları daha da təkmilləşdirmək, işsizliyi və yoxsulluğu azaltmaq, əhalini məşğulluğunu səmərəli şəkildə artırmaq, yeni iş yerləri yaratmaq olmuşdur. Əmək bazarının dövlət tərəfindən tənzimlənməsi prosesini üç əsas tədbirlər bloklarına bölmək olar: dövlətin makroiqtisadi siyasəti, məşğulluq siyasəti və işsizlikdən müdafiə siyasəti.“Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları”-nın (2004-2008, 2009-2013, 2014-2018-ci illər) uğurlu şəkildə tətbiq edilməsi nəticəsində ölkədə makroiqtisadi göstəricilərdə yüksəliş olmuş, sosial-iqtisadi inkişaf üçün nəzərdə tutulan işlərin uğurla həyata keçirilməsi nəticəsində iqtisadi firavanlıq xeyli yüksəlmişdir [3].

2014-2018-ci illərdə “Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın üçüncü mərhələsində qarşıya qoyulan məqsədlər müvəffəqiyyətlə yerinə yetirilmişdir. Bunu da qeyd edək ki, əvvəlki illərdə aparılan islahatlar görülən işlərə təkan verir. Son 15 il ərzində 2 mln yeni iş yerləri yaradılmış, əhalinin sayı 1,5 mln artmışdır. Əhalinin artım dinamikası yüksək olduqda ölkə bir o qədər sürətlə inkişaf edər. İqtisadi inkişaf, iş yerlərinin yaradılması əhali artımının daha da sürətlə getməsi əhalinin işlə təmin olunmasına gətirib çıxarır. İnkişaf proqramında son 15 ildə sosial məsələlərə çox böyük diqqət yetirilir. Son 15 il ərzində maaşlar 7, pensiyalar 9 dəfə artıb. Məşğulluğun artırılması çox ciddi məsələlərdən biri olmaqla prioritet məsələlərdən biridir. Azərbaycan sosial sahəyə çox böyük diqqət yetirməklə bazar iqtisadiyyatının prinsiplərinə uyğun olaraq inkişaf strategiyası məhz buna söykənir. Bunun əsas səbəbi kimi isə onu göstərmək olar ki, insanların sosial rifah halının yaxşılaşdırılması dövlətin prioritet məqsədlərindən biridir [1].

Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələri Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyini, inklüzivliyini və sosial rifahın daha da artırılmasını təmin edəcəkdir. Qlobal çağırışlara cavab verərək investisiyaların cəlbi, azad rəqabət mühiti, bazarlara çıxış və insan kapitalının inkişafı nəticəsində Azərbaycan dünya iqtisadiyyatında mövqeyini gücləndirəcək və yüksək gəlirli ölkələr qrupuna daxil olacaqdır [2].

Strateji Yol Xəritəsində məşğulluğu artırmaq, makroiqtisadi sabitliyə nail olmaq, regional inkişafın təkmilləşdirilməsi, iqtisadiyyatın strukturunu yaxşılaşdırmaq,iqtisadiyyatda özəl sektorun payının daha da artırılması planlaşdırılır. Ölkədə daha dayanıqlı, diversifikasiyalı və əhatəli iqtisadiyyatın inkişafına nail olunması,sosial sektorların inkişaf etdirilməsi üçün işlər görüləcəkdir [2].

Ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyası dövlət proqramlarında nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun, o cümlədən yeni iş yerlərinin və nəticə etibarilə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir. Bütün bunlar dövlət proqramının dördüncü mərhələsinin 2019-2023-cü illərin “Regionların sosial-iqtisadi inkişaf proqramının” yerinə yetirilməsinə zəmin yaradacaq [1].

### Ədəbiyyat


1. İlham Əliyev “Regional inkişaf strategiyası yeni mərhələyə qədəm qoyur”. “Azərbaycan” qəzeti, №23, 30 yanvar 2019
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. 6 dekabr 2016.
3. “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı” (2004-2008, 2009-2013, 2014-2018)
4. Əzizova G.A. Azərbaycanın əmək bazarı: problemlər, perspektivlər. Monaqrafiya, 2015
5. http://www.president.az



**Резюме**

**Махмудова И.М.**

**Современное состояние занятости и безработицы в регионах**

*В наше время одной из главных целей государственных программ в Азербайджане было выведение развития регионов на один уровень и достижение их устойчивого развития.С этой целью программа уменьшила зависимость экономики страны от нефтяного сектора, и параллельно было подчеркнуто развитие ненефтяного сектора в целях обеспечения эффективного использования текущего экономического потенциала страны. В частности, будет предпринят ряд мер для решения проблемы занятости в регионах. Таким образом, направление инвестиций в регионы поможет решить проблему занятости и увеличить спрос на спрос. Это приведет к увеличению спроса на рабочую силу, что в конечном итоге приведет к увеличению спроса на продукт.*

***Ключевые слова:****сбалансированное развитие, накопление инвестиций, анализ SWOT, занятость, экономический рост, региональное развитие, социальное обеспечение*



**Summary**

***Mahmudova I.M.***

**The Current State of Employment and Unemployment in the Regions**

*Nowadays, one of the main goals of state programs in Azerbaijan is to bring the development of regions to the same level and achieve their sustainable development. To this end, the program reduced the country economy’s dependence on the oil sector, and in parallel, the development of the non-oil sector was emphasized in order to ensure the effective use of the country's current economic potential.In particular, a number of measures will be taken to address the employment problem in the regions. Thus, the direction of investment in the regions will help solve the problem of employment and increase demand. This will lead to an increase in demand for labor, which ultimately will lead to an increase in demand for the product.*

***Key words:****balanced development, investment accumulation, SWOT analysis, employment, economic growth, regional development, social welfare*


## İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASI PRİORİTETLƏRİ


***Mahmudova L.F.***

*Sumqayıt Dövlət Universiteti*



***Xülasə.*** *Məqalədə iqtisadi təhlükəsizliyin təmin olunmasının prioritet istiqamətləri araşdırılmışdır. İnsan kapitalının, milli valyutanın, maliyyə, vergi sisteminin, investisiya fəaliyyətinin və sosial sferanın təhlükəsizliyi problemləri tədqiq edilmişdir. Milli iqtisadi təhlükəsizliyi təmin etmək, bu sahədə müəyyən edilmiş vəzifələri həll etmək üçün müvafiq mexanizm yaradılması əsaslandırılmışdır.*



***Açar sözlər:*** *iqtisadi təhlükəsizlik, maliyyə, investisiya, insan kapitalı, təhsil, sosial siyasət, milli valyuta*


Ölkənin iqtisadi təhlükəsizliyinin bir sıra aktual məsələlərinin konseptual inkişafı aparılan iqtisadi islahatların səmərəliliyini müəyyən etmək üçün əsasdır. Qloballaşma kontekstində iqtisadi təhlükəsizliyin

təmin edilməsi mexanizmi strateji prioritetləri və milli maraqları nəzərə alacaq dövlət strategiyası vasitəsilə həyata keçirilir. Buna görə iqtisadi strategiyanın əsas məqsədi iqtisadiyyatın strukturunu formalaşdırmaq və iqtisadi inkişafın yeni kanalına kapitalın tətbiqi üçün şərait yarada bilən sənaye, maliyyə və bank strukturlarını formalaşdırmaqdır.

Dövlət, ilk növbədə, ölkənin iqtisadi təhlükəsizliyini təmin edəcək iqtisadi artımın təmin edilməsi üçün bir sıra tədbirlər həyata keçirməlidir. Bu tədbirlər iqtisadiyyatın bütün sahələrini əhatə etməlidir. Bu tədbirlər arasında fəal struktur və sosial siyasətlərin həyata keçirilməsi, investisiya, maliyyə, pul və xarici iqtisadi sahələrdə dövlət fəaliyyətinin artması və institusional dəyişikliklərin davam etdirilməsi daxildir.

Sosial siyasət vətəndaşların davamlı iqtisadi vəziyyətinə, həyat səviyyəsinin yüksəlməsi əsasında cəmiyyətin möhkəmlənməsinə kömək etməlidir. Son dövrdə əhalinin orta aylıq pul gəlirlərinin artımında müşahidə olunan müəyyən müsbət dəyişiklik nağd ödənişlərdə əhəmiyyətli gecikmələrin fonunda və müxtəlif sosial-demoqrafik qrupların gəlirlərində artımın əldə olunmasına səbəb olmuşdur. Ancaq zəngin və yoxsullar arasındakı sosial təbəqələşmə prosesi davam edir, bu da ictimai münaqişələrə potensial təhlükə yaradan sabit bir faktor halına gəlir.

Ölkə iqtisadiyyatının təhlükəsizliyinin artırılması əsasən daxili və xarici bazarlarda milli maraqların qorunması vasitələrinin səmərəliliyindən asılıdır. Onların təsirli mexanizmləri sırasına daxili və xarici bazarlarda yerli istehsalçıların milli maraqlarını qorumaq, vergi pozuntularını aradan qaldırmaq, müxtəlif sahələrdə sahibkarlar üçün əlverişli rejim yaratmaq, resurslara qənaət etmək və s. daxildir. Təhlükələrin ortaya çıxması və inkişafının səbəbləri və amillərinin bütün müxtəlifliyi ilə ümumi şərtlər var. Onların varlığı stress nöqtələrini kəmiyyət və keyfiyyətcə artırır. Bu gün iqtisadi təhlükəsizliyə qarşı təhdidlərin yaranmasının ən vacib daxili səbəbdir.

Ekspertlərin qiymətləndirmələrinə əsasən, ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin əsas strateji istiqaməti insan kapitalının qorunması və inkişafıdır. Əlbəttə ki, iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün əsas şərtlər baxımından bütün dinamik inkişaf edən sistemlər kimi, insan kapitalının da daimi inkişafı lazımdır. Əks halda, iqtisadiyyatın inkişafı üçün "qiymətli" bir əsas itirilmiş olur. Araşdırmalar göstərir ki, insan kapitalı milli sərvətin vacib tərkib hissəsidir. Ondan səmərəli istifadə nəticəsində ölkənin iqtisadi təhlükəsizliyi yüksək səviyyədə təmin edilə bilər. Bununla yanaşı, insan resursları, fərdlərin və cəmiyyətlərin təşkil edildiyi yol iqtisadi təhlükəsizliyik potensialının ən mühüm göstəriciləridir. Deməli, iqtisadi təhlükəsizliyi müəyyən edən əsas komponentlər, məhz kapital və insan resurslarıdır. Sonuncu komponentə təmiz əmək, insan kapitalı və sosial kapital (mədəni ənənələrin və konkret tarixi təcrübənin nəticəsi) kimi tanınan çox vacib bir element daxildir.

Mövcud təhdidlərin effektiv aradan qaldırılması, ölkə və regional səviyyədə iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün investisiya mexanizmindən istifadə etmək aşağıdakı sahələrdə faydalıdır:

- təhsil müəssisələrinin və bütövlükdə təhsil sisteminin funksiyalarının yeni siyasi və sosial-iqtisadi şəraitdə bərpası və inkişafı;
- peşə təhsil müəssisələri ilə işəgötürənlər arasında qarşılıqlı əlaqə mexanizmlərinin tətbiqi, bu sektora əlavə maddi, intellektual və digər resursların cəlb edilməsinin təmin edilməsi;
- təhsil sisteminin investisiya cəlbediciliyini artırmaq, investisiyaların, maliyyə, maddi, intellektual və digər mənbələrin bu sistemə daxil olmasına və onun inkişafının investisiya layihələrinin hazırlanması və həyata keçirilməsi prinsiplərinə ardıcıl köçürülməsinə yardım etmək üçün bir sıra tədbirlərin həyata keçirilməsi.

İqtisadi təhlükəsizliyin digər bir prioriteti məhz investisiya fəaliyyəti ilə bağlıdır. İnvestisiya siyasətinin əsas istiqaməti investisiya fəaliyyətinin artırılması, iqtisadiyyatının inkişafı baxımından yerli və xarici investisiyaların cəlb edilməsi üçün əlverişli mühitin yaradılmasıdır. Səmərəli investisiya siyasəti apararkən aşağıdakı əsas prinsiplərə əməl olunmalıdır:

- investisiya prosesinin ardıcıl mərkəzsizləşdirilməsi;
- antiinflyasiya mənbələrinin rolunun artırılması;
- investisiya layihələrinin birgə (pay) dövlət-kommersiya maliyyələşdirilməsi təcrübəsinin əhəmiyyətli dərəcədə genişləndirilməsi;
- istehsalın struktur və texnoloji cəhətdən yenidən qurulmasını sürətləndirmək məqsədi ilə, sənaye və mülkiyyətindən asılı olmayaraq, xüsusilə səmərəli və sürətli investisiya layihələrinin həyata keçirilməsi üçün mərkəzləşdirilmiş investisiya fondlarının bir hissəsini istifadə etmək;
- xarici investisiyaların cəlb olunmasını stimullaşdırmaq [1, s.333].

Bəzi sektorlarda (infrastruktur sahələri: səhiyyə, təhsil, hüquq-mühafizə) qeyri-kommersiya tipli investisiya layihələrinin həyata keçirilməsi müsbət iqtisadi təsir göstərə bilər.

Milli, xüsusilə iqtisadi təhlükəsizliyi təmin etmək və ya təhdid etmək baxımından vergilərin rolunu da qeyd etmək lazımdır. Bu, əsasən dövlətin iqtisadi siyasətinin xüsusiyyətlərindən asılıdır. İqtisadiyyatda böhran vəziyyəti, iqtisadi siyasətdə yanlış hesablamalar dövlətə böyük təhlükələr yaradır. Onun təhlükəsizliyini təmin etmək üçün vergi sahəsində islahatların aparılması zəruriliyi meydana çıxır. İqtisadiyyatın tənzimlənməsi və vergi sisteminin nə dərəcədə səmərəli olacağı ölkənin və bütövlükdə milli iqtisadiyyatın fəaliyyətinin səmərəliliyindən asılıdır.

Maliyyə təhlükəsizliyi dövlətin maliyyə sisteminin sabit, etibarlı fəaliyyətinə şərait yaradılması və maliyyə sahəsində daxili və xarici təhlükələrin uğurla aradan qaldırılmasını təşkil edən vergi təhlükəsizliyinin əsasını təşkil edir. Maliyyə təhlükəsizliyinin əsas komponenti yüksək səviyyəli məşğulluğun, davamlı iqtisadiyyatın qorunmasını təmin edən və yerli milli məhsulun artmasını təmin edən maliyyə sahəsidir. Dövlətin büdcə sisteminə gəlincə, bu, büdcə gəlirlərinin əsasını təşkil edir və qarşılıqlı iqtisadi əlaqələr, maliyyə vəsaitləri ilə əlaqələr yaradır [2, s. 17].

Dövlətin iqtisadi təhlükəsizliyini və sabit inkişafını təmin etmək üçün vergitutma sistemi etibarlılıq, səmərəlilik və ədalət kimi əsas prinsiplərə əsaslanmalıdır. Qeyd etmək lazımdır ki, bazar münasibətlərinin inkişafı dövründə vergitutma sahəsində başlıca təhlükə vergidən yayınma ilə bağlıdır. Bu təhdidlərin təzyiqini azaltmaq üçün vergi təhlükəsizliyi risklərinin proqnozlaşdırılması və vergi siyasətinin əsas prinsiplərinin dəyişməsinin təhlili əsasında təkmilləşdirilmiş vergi proqnozlaşdırılması modelinin tətbiq edilməsi məqsədə uyğundur.

İqtisadi təhlükəsizlik strategiyasının ən vacib bir aspekti milli valyutanın sabitliyidir. Qeyd edək ki, bu gün Azərbaycanda monetarist yanaşma çərçivəsində valyutanın sabitliyini təmin etmək aktualdır. Milli valyuta sabitliyinin problemi bütün bazar göstəriciləri sistemində vacibdir.

Yuxarıda qeyd edilən istiqamətlərdə iqtisadi təhlükəsizliyin təmin olunması bütövlükdə ölkənin dayanıqlı inkişafında mühüm rol oynaya bilər.

Nəticə olaraq deyə bilərik ki, milli iqtisadi təhlükəsizliyini təmin etmək, bu sahədə müəyyən edilmiş vəzifələri həll etmək üçün müvafiq mexanizm yaratmaq lazımdır. Qloballaşma şəraitində ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi mexanizmi iqtisadi təhdidlərin qarşısını almaq üçün təşkilati, iqtisadi və hüquqi tədbirlər sistemidir. Həmin mexanizm aşağıdakı elementləri əhatə edir: iqtisadi təhlükəsizliyin daxili və xarici təhdidlərini müəyyənləşdirmək və proqnozlaşdırmaq üçün iqtisadiyyatın və cəmiyyətin obyektiv və hərtərəfli monitorinqi; sosial və iqtisadi göstəricilərin maksimum icazə verilən həddinin yüksəldilməsi. İqtisadiyyatın təhlükəsizliyinə qarşı daxili və xarici təhdidlərin müəyyənləşdirilməsi və qarşısının alınması üzrə dövlət tədbirləri sisteminin işlənib hazırlanması da bu mexanizmə daxildir.

## Ədəbiyyat


1. Əhmədov M.A. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı: Azərnəşr, 2003, 520 s.

2. Арсеньева В.А. Налоговый инжиниринг в государственной системе управления налогообложением: теоретический инструментарий и практические рекомендации // Наука и образование: хозяйство и экономика; предпринимательство; право и управление. 2015, № 1 (56). с. 14-18.


## Резюме


***Махмудова Л.Ф.***


**Приоритеты обеспечения экономической безопасности**


*В статье исследованы приоритетные направления экономической безопасности. Рассмотрены проблемы безопасности человеческого капитала, национальной валюты, финансовой, налоговой системы, инвестиционной деятельности и социальной сферы. Обосновано создание определенного механизма для обеспечения национальной экономической безопасности, решения вопросов, возникающих в этой отрасли.*



***Ключевые слова:*** *экономическая безопасность, финансы, инвестиции, человеческий капитал, образование, социальная политика, национальная валюта*


## Summary


***Mahmudova L. F.***


**Priorities for Provision of Economic Security**


*The article examines the priority directions of economic security. The problems of security of human capital, national currency, finance, tax system, investment activity and social sphere are considered. The*

*creation of a certain mechanism to ensure national economic security, the solution of issues identified in this industry has been substantiated.*
***Key words:*** *economic security, finance, investment, human capital, education, social policy, national currency*

## TƏHSİL SİSTEMİNDƏ MENECMENT

***Məmmədov M.H.***
*UNEC*

***Xülasə.*** *Məqalədə "idarəetmə" və "təhsil sistemində menecment" anlayışları şərh edilərək müasir pedaqogika elmi və təcrübəsində idarəetmə elmi nöqteyi-nəzərindən təhsil prosesinin tamlığı, bu məqsədlə təhsildə menecment nəzəriyyəsi və pedaqoji menecmentin insanın yaradıcı fəaliyyəti ilə bağlı olan spesifik xüsusiyyətlərinin bəzi aspektləri araşdırılmış və təhsil müəssisələrini, səmərəli fəaliyyət göstəriciləri təhlil edilmişdir.*

***Açar sözləri:*** *idarəetmə, pedaqoji menecment, təhsil prosesi, təhsil xidməti, təhsil müəssisəsi, təhsil və tərbiyə*

Müasir pedaqogika elmi və praktiki idarəetmə elmi nöqteyi-nəzərindən pedaqoji prosesin tamlığını (bütövlüyünü) dərk etməyə əsaslandırılmış dürüst (dəqiq) xarakter verməyə çalışır.

İdarəetmə dedikdə qarşıya qoyulmuş məqsədə çatmağa istiqamətlənmiş qərarlar qəbul etmək üçün planlaşdırma, təşkiletmə, motivasiya və nəzarət fəaliyyəti başa düşülür. Bu fəaliyyət qarşıya qoyulan məqsədə çatmaq istiqamətində dürüst informasiya əsasında təhlil və qiymətləndirmə aparmağı tələb edir. Eyni zamanda bu fəaliyyət müəyyən strukturların saxlanmasını təmin edən müxtəlif təbiətli mütəşəkkil sistem yaradılması funksiyasını, həmçinin onun reallaşdırılması məqsədlərini və proqramlarını yerinə yetirir.

Məlum olduğu kimi, idarəetmənin obyekti bioloji, texniki və sosial sistemlər ola bilər. Sosial sistemlərin ən önəmlilərindən birincisi təhsil sistemidir.

Təhsil sistemində idarəçilik fəaliyyətinin başlıca məqsədi təhsil sisteminin potensialından istifadə etmək və həmçinin onun səmərəliliyini yüksəltməkdir.

Təhsilin idarə edilməsinin mahiyyəti təhsil sisteminin bütün mərhələlərində təlim-tərbiyə prosesinin məqsədyönlülüyünü və mütəşəkkilliyini təmin etməkdən ibarətdir. [4, s.37]

Sosial idarəetmənin ümumi qanunauyğunluğuna tabe olan təhsilin idarə edilməsi spesifik xarakter daşıyır. Bu spesifiklik özünü konkret şəraitdə sosial əhəmiyyətli məqsədlərin müəyyənləşdirilməsində və onlara nail olunmasında əks etdirir.

Təhsil müəssisəsi daxilində idarəetmə özündə optimal nəticələrə nail olmaq üçün təhsil prosesinin obyektiv qanunauyğunluqlarını öyrənən pedaqoji proses iştirakçılarının məqsədyönlü və şüurlu qarşılıqlı təsirlərini ehtiva edir.

Onun obyekti təlim-tərbiyə prosesi və proqram-metodiki, kadr, material-texniki, normativ-hüquqi və digər sosial şərtləridir.

Subyekt isə Azərbaycan Respublikasının Təhsil Nazirliyi, şəhər və rayon təhsil idarələri.

Ölkəmizdə idarəetmə strukturunun davamlı olaraq yenidən qurulduğu müasir dövrdə menecmentə-inkişaf etmiş dünya ölkələrinin idarəçilik təcrübəsinə xüsusi diqqət yetirilməkdədir. Qeyd etmək lazımdır ki, idarəetmə modelini bir sosial mədəni mühitdən digərinə keçirmək praktiki olaraq qeyri-mümkündür. Belə ki, menecmentin xüsusiyyətləri çoxsaylı amillər məcmusu ilə şərtlənir. Bu amillər içərisindən dövlət quruluşu formalarını, mülkiyyət növlərini, bazarların inkişaf dərəcəsini və s. fərqləndirmək olar.

Menecment nəzəriyyəsində idarəetmənin prinsipial cəhətdən fərqli olan üç alətini: birincisi, bu insana yuxarıdan təsirin əsas vasitəsi olan təşkilat, idarəetmə iyerarxiyasını; ikincisi, bu idarəetmə mədəniyyətini; üçüncüsü, bazarı, bazar münasibətlərini bir-birindən fərqləndirirlər.

Sosial və iqtisadi sistemlərdə bu üç komponent həmişə mövcuddur. Cəmiyyətin sosial-iqtisadi təşkilatlarının siması isə onların adı çəkilən komponentlərdən hansına üstünlük verməsi ilə müəyyən edilir.

Müasir menecmentdə ümumi tendensiya idarəetmənin qeyri-formal, demokratik, çevik üsul və metodlarında özünü büruzə verməkdədir. Hazırda menecmentdən iyerarxiya piramidası şəklində hakimiyyət sistemindən daha çox üfüqi təşkilatı sistemlərin inkişaf resursu kimi istifadə edilir.

İdarəçilik fəaliyyətinin spesifik növü kimi müasir menecment: birgə fəaliyyətə qardir olan insanların birgə fəaliyyətə cəlb edilməsi; kommunikabellik və şəxsi məsuliyyət hissinin tərbiyə edilməsi; şəxsi fəaliyyət imkanlarının qiymətləndirilməsinə vahid yanaşma; insanların inkişaf və tələbatlarını ödəmək üçün ümumi

məqsəd və vəzifələrin müəyyənləşdirilməsində kollektiv üzvlərinin qarşılıqlı hərəkətləri; xarici mühitə münasibətdə öz fəaliyyətini kollektivlə birlikdə qiymətləndirmə prinsiplərinə əsaslanır.

Müasir ümumi və həm də peşəkar təhsil müəssisələrinə həm açıq pedaqoji sistem kimi, həm də cəmiyyətin xüsusi sosial-iqtisadi təşkilatı kimi baxılır. Təhsil müəssisələrinin idarə edilməsi sisteminin yeniləşdirilməsi ancaq yeni texnologiyaların tətbiqi və onun inkişafı əsasında həyata keçirilə bilər.

Pedaqoji menecment nəzəriyyəsi təhsil müəssisələrinin rəhbərləri və pedaqoqlar qarşısında sonsuz imkanlar açır. Bu imkanların ən vacibləri sırasında aşağıdakıları sadalamaq olar:

- birincisi, o təhsil sisteminin idarə edilməsinin şaquli administrativ komanda sistemindən professional əməkdaşlıq sisteminə keçməyə imkan verir. Bunun əsasında isə maksimal nəticələrə nail olmaq üçün hər bir əməkdaşın anadangəlmə şəxsi keyfiyyətlərini özündə ehtiva edən korporativ idarəetmə üslubu durur.

- ikincisi, o təhsil sisteminin inkişaf etdirilməsi və genişləndirilməsi üçün şərait yaradan hər bir şəxsin inkişaf imkanlarını, eləcə də rəhbər və pedaqoqların motivasiya oriyentasiyasının koordinasiyasını təmin edir;

- üçüncüsü, təhsil prosesinin bütün iştirakçıları üçün rahat psixo-pedaqoji mühit yaradır.

Pedaqoji menecment insanların yaradıcılıq fəaliyyəti ilə bağlı olduğuna görə öz spesifik xüsusiyyətlərinə malikdir. Rus alimi V.P.Simonovun «pedaqoji menecment: təhsil prosesinin idarə edilməsi sahəsində 50 nou-hau» adlı əsərində pedaqoji menecment təhsil prosesinin səmərəli idarə edilməsi nəzəriyyəsi, metodikası və texnologiyası kimi xarakterizə edilir. Ümumiyyətlə, menecmenti digər insanların əməyindən, intellektindən və davranış motivlərindən istifadə edərək rəhbərin qarşıya qoyulan məqsədə çatmaq bacarığı kimi, həmçinin insanların və sosial proseslərin idarə edilməsi elmi və məharəti kimi başa düşmək olar. [5, s.391]

Təhsil prosesinin proyeksiyası baxımından pedaqoji menecment təhsil prosesinin səmərəliliyinin yüksəldilməsinə istiqamətlənmiş idarəetmənin prinsipləri, metodları, təşkilatı formalarının və texnoloji fəndlərinin kompleksidir. Belə müəyyənləşdirmə çərçivəsində qeyd etmək olar ki, istənilən müəllim mahiyyətcə tədris-dərk etmə prosesinin meneceridir (onların idarə edilməsi subyektidir), tədris prosesinin rəhbəri isə bütövlükdə təlim-tərbiyə prosesinin meneceridir.

Pedaqoji menecment öz spesifik xüsusiyyətlərinə və məhz ona xas olan qanunauyğunluqlara malikdir. Bu spesifiklik özünəməxsus predmetdə, məhsullarda, alətlərdə və menecer əməyinin nəticələrində ifadə olunur.

Təhsil prosesi menecerinin fəaliyyətinin (əməyinin) predmeti idarə olunan subyektin fəaliyyətidir, əməyin məhsuludur, informasiyadır, əmək alətidir – dilidir, sözüdür, nitqidir. Tədris-tərbiyə prosesi menecerinin əməyinin nəticəsi menecment obyektinin – təhsil alanın tərbiyəsi və qazandığı nailiyyətlərdir.

Peşəkar təhsil müəssisələrinin fəaliyyətinin səmərəlilik göstəricisi əldə edilmiş nəticələrin sərf edilmiş resurslara nisbətini əks etdirir. Belə səmərəlilik göstəricilərinə aşağıdakılar aid ola bilər:

- bir nəfər müəllimə düşən məzunların miqdarı;
- bir nəfər tələbəyə düşən tədris sahəsinin miqdarı;
- bir nəfər məzunun hazırlanmasına çəkilən ümumi xərclərin məbləği;
- bir nəfər məzunun hazırlanmasına çəkilən ayrı-ayrı material növlərinin (kompüterlərin, audio və videotexnikaların, tədris və tədris-metodik ədəbiyyatlarının) və maliyyə resurslarının miqdarı;
- əmək (hazırlanma) məhsuldarlığı.

Müasir şəraitdə istənilən təhsil müəssisəsinin pedaqoji sisteminə hər biri öz növbəsində mürəkkəb köməkçi (alt) sistem olan sistemlərin (didaktik, tərbiyə, tədris prosesinin maddi-texniki təminatı, özünü idarəetməsi, administrativ idarəetmə) məcmusu kimi baxılır. Sistem ancaq bir fəaliyyət istiqamətində bütün köməkçi (alt) sistemlərin qarşılıqlı təsiri şəraitində səmərəli işləyir.

Digər mühüm xüsusiyyət isə ondan ibarətdir ki, idarəetmədə bütün subyektlər: administrasiya, müəllim heyəti və təhsil alanlar iştirak edir. Bu idarəçilik fəaliyyətinin məzmununa və nəticələrinə əhəmiyyətli dərəcədə təsir göstərir. Belə ki, bütün mərhələlərdə istənilən səviyyə idarəedicisi dərk etməlidir ki, onun fəaliyyətinin ayrılıqda götürülən hər bir anı və sistemin vəziyyəti ancaq onun şəxsən qəbul etdiyi qərarlarla müəyyən edilmir. Eyni zamanda qeyd etmək lazımdır ki, peşəkar fəaliyyətin müxtəlif səviyyələrindəki paralel idarəetmə də pedaqoji sistemin idarə edilməsinin spesifik xüsusiyyətidir. Təhsil alanın şəxsiyyətinin formalaşmasındakı fəaliyyəti yalnız bir tərbiyəçi deyil, bir neçə fənn müəllimi, sinif rəhbəri (kurator) və təhsil alana gündəlik təsir göstərən bütün əməkdaşlar idarə edir. Məsələn, fənn müəllimi eyni zamanda sinif rəhbəri və fənn üzrə metodiki komissiyanın üzvü funksiyalarını da yerinə yetirir.

Təhsil sisteminin mərkəzi struktur vahidi təhsil müəssisəsidir. Təhsil prosesini həyata keçirən, başqa sözlə, bir və ya bir neçə təhsil proqramını reallaşdıran və (və ya) təhsil alanın, tərbiyə olunanın, birliklərin

məzmun və tərbiyəsini təmin edən müəssisələr təhsil müəssisəsi adlanır. Bundan əlavə, müasir məktəb valideynlərlə, ictimaiyyətlə, dövlət təşkilatları ilə və sosial tərəfdaşlarla çoxsaylı əlaqələrə malikdir. Çünki, onlarla belə sıx əlaqəyə malik olmadan tərbiyə sahəsində qarşıya qoyulan ümumi məqsədlərə nail olmaq mümkün deyildir. Bu zaman qarşılıqlı əlaqələrin həyata keçirilməsi idarə edilən olmalıdır. [7, s.91]

Bunlardan əlavə tədqiqatçılar qeyd edirlər ki, təhsil sisteminin idarə edilməsi üçün müxtəlif yaş qruplarında təhsil alanlara rəhbərlik etmək, maddi stimullara nisbətən mənəvi stimullara üstünlük vermək, təhsil sahəsindəki rəhbərin yüksək səviyyədə kompetentli (səriştəli) olması xarakterikdir.

Elmi ədəbiyyatlarda idarəetmənin funksional tərkibinin çoxsaylı müxtəlif təsnifat sxeminə rast gəlmək olar. Bu zaman idarəçilik fəaliyyətinin əsasən aşağıdakı növlərini fərqləndirirlər: məqsəd qoyulması, planlaşdırma və ya qərar qəbulu, təşkiletmə, nəzarət və tənzimləmə.

Menecment nəzəriyyəsində planlaşdırma, təşkiletmə, motivasiya və nəzarət kimi əsas funksiyaları fərqləndirirlər. Bu ümumi funksiyalar kommunikasiya və qərarların qəbul edilməsi prosesi ilə tamamlanır (bağlanır). Menecmentin funksional tərkibinin müəyyənləşdirilməsinə belə proses kimi yaxınlaşması bütün fəaliyyət sferalarında mütəxəssislər tərəfindən qəbul edilir.

Təhsil sistemində inkişafın idarə edilməsi funksiyası dedikdə tam texnoloji prosesi həyata keçirən inkişaf edən idarəçilik tsiklinin faktiki nəticələrə məqsədəuyğun olaraq çatmasını təmin edən subyektlərin fəaliyyəti başa düşülür. İdarəetmənin iştirakçıları isə öz növbəsində: informasiya-analitik; motivasiya-məqsəd; plan-proqnoz; təşkilati-icraedici; nəzarət-diaqnostika; tənzimedici-dəqiqləşdirici (korreksiya edici).

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2009
2. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009
3. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Təhsil siyasəti (sənədlər toplusu). Bakı, 2018
4. Mehdizadə M.M., Allahverdiyev T.Ə., Əliyev Q.H. Azərbaycanda xalq maarifinin sürətli inkişafı. Bakı, 1980
5. Гершунский Б.С. Философия образования XXI века. М.: 2012
6. Коваленко А.Н. Образовательное антрепренерство. М.: 2004
7. Энциклопедия профессионального образования. М.: 1999
8. http://www.heydar-aliyev.org
9. http://www.president.az
10. http://www.preslib.az


## Резюме


***Мамедов М. Г.***


### Менеджмент в образовательной системе


*В статье понятия «управление» и «управление системой образования» были истолкованы и поняты как полнота образовательного процесса с научной точки зрения и практики в современной педагогике. С этой целью были изучены некоторые аспекты управления образованием и специфические аспекты творческой деятельности человека в сфере педагогического менеджмента и проведен эффективный анализ образовательных учреждений.*



***Ключевые слова:****управление, педагогический менеджмент, образовательный процесс, образовательные услуги, образовательные учреждения, образование и воспитание*


## Summary


***Mammadov M.H.***


### Management in Educational System


*In the article, the concepts of "governance" and "management education in system management" have been interpreted and understood as completeness of the educational process from the scientific point of view practice of modern pedagogy. For this purpose, some aspects of education management and specific aspects of pedagogical management related to human creative activities have been studied and the educational institutions have been effectively analyzed.*



***Key words:****management, pedagogical management, educational process, educational service, educational institution, education and training*

**HEYƏTİN İDARƏ OLUNMASI STRATEGİYASININ FORMALAŞMASI VƏ İŞLƏNİB HAZIRLANMASI PROBLEMLƏRİ**

***Məmmədova E.M.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalədə heyətin idarəetmə strategiyasının formalaşmasının zəruriliyi əsaslandırılmışdır. Sənaye müəssisələrində kadrların hazırlanması prosesinə baxılmışdır. Səmərəli təhsil və təlim verilməsi proqramlarının bir neçə əsas tələbi nəzərdən keçirilmişdir.*

***Açar sözlər:*** *heyət, idarəetmə, strategiya, müəssisə, təlim, təhsil*

Sənaye müəssisələrində heyətin formalaşması idarəetmə strategiyasında ən mühüm vəzifələrdəndir. Uyğun işçilərin işə qəbulu üçün rəhbərlik onların iş müddətində hansı məsələləri icra edəcəklərini və bu işlərin şəxsi və ictimai səviyyəsinin nədən ibarət olduğunu hər bir işin əməliyyat tərkibləri üzrə bütünlükdə bilməlidir. Bu biliklər işlərin məzmununun təhlili vasitəsilə əldə edilir ki, həmin biliklər heyətin idarəedilməsində başlıca şərtdir. Onsuz başqa idarəetmə funksiyalarının reallaşdırılması olduqca çətindir. Bütün idarə operativ, texniki və inzibati ixtisaslar üzrə işlərin diqqətlə dəyərləndirilməsi və mahiyyətinin açılması nəticəsində işçi toplanması, seçimi, əmək haqqı, müəyyən işçi fəaliyyətinin qiymətləndirilməsi və vəzifə yüksəldilməsi haqqında gələcək qərarların qəbulu üçün etibarlı əsas yaradır.

İşlərin məzmununun təhlil edilib açılmasının bir neçə metodu vardır. Onlardan biri işçilərin mübadilə edilməsindən və onlar tərəfindən icra edilən tapşırıq və hərəkətlərin qeydiyyatı və rəsmi müəyyənləşdirilməsindən ibarətdir. Digər metod isə işçi və ya onun birbaşa rəisi ilə ünsiyyət və danışıqların aparılması vasitəsi ilə onlar haqqında adı çəkilən informasiyaların toplanmasıdır. Bu metod sorğu edilənin və sorğunu aparanın yanlışlıqları nəticəsində daha az dəqiqləşdirilə bilər. Üçüncü metod işçilərdən suallar siyahısını doldurmağı və ya işinin təsvirini verməsi və ona tələblərdən ibarətdir. İşin məzmununun təhlilindən alınmış informasiyalar planlaşdırma üzrə sonrakı tədbirlərin əksəriyyəti və işçi qüvvəsinin toplanması və s. üçün əsasdır.

Heyətin idarəetmə strategiyasının formalaşmasında işçi kadrların toplanması xüsusi əhəmiyyət kəsb edir. İşçi qüvvəsi toplanması zəruriyyəti doğuran vəzifələr və ixtisaslar üzrə namizədlər ehtiyatının yaradılmasından ibarətdir ki, onlardan müəssisə və təşkilatlar ən uyğun gələnini seçib öz işləri tərkibinə daxil edir. Bu seçmə işləri, demək olar ki, bütün ixtisaslar: idarə, istehsal, texniki, inzibati işçilər üzrə də həyata keçirilir. İşçi qüvvəsi yığımı adətən xarici və daxili mənbələrin hesabına aparılır.

Xarici dövriyyə ilə əlaqədar olan vasitələrə: qəzetlərdə və peşələrə dair jurnallarda planların çap etdirilməsi, müəssisələrə və işə düzəltmə agentliklərinə müraciət edilməsi, rəhbər kadrlar göndərən təşkilat və elmi mərkəzlərə tələbi bildirilməsi, saziş bağlamış insanların ixtisas almaq üçün kolleclərə göndərilməsi daxildir. Bir sıra təşkilatlar yerli əhalini gələcəkdə olacaq iş yerləri üçün kadrlar şöbəsinə dəvət edirlər.

Əksər təşkilatlar işə əsasən öz təşkilatı daxilində işçi yığımının keçirilməsinə üstünlük verir. Öz işçilərinin xidmət pillələri ilə irəliləyişi və hərəkəti ucuz başa gəlir. Budan başqa bu işə qəbul üzrə hərəkətlər işçilərin marağını yüksəldir, mənəvi iqlimi yaxşılaşdırır, işçilərin müəssisəyə bağlılığını gücləndirir. Motivləşdirməyə münasibətdə gözləmə nəzəriyyəsinə uyğun olaraq düşünmək olar ki, əgər işçilər onların xidmət pilləsi ilə artımının işin səmərəlilik dərəcəsindən asılılığına inanarlarsa, onlar daha məhsuldar əməkdə maraqlı olacaqlar. Meydana çıxan problemlərin həll edilməsini müstəsna surətdə daxili ehtiyatların hesabına həll edilməsində mümkün çatışmazlıqlar başlıca olaraq müəssisə və təşkilatlara yeni baxışlı insanların gəlməməsi ilə əlaqədardır ki, bu isə öz növbəsində həmin təşkilatlarda durğunluğa gətirib çıxara bilər.

Daxili ehtiyatlar hesabına yığımın ən yayılmış metodu açılmış boş iş yeri üçün işə cəlb edilməyə yüksək ixtisaslı və ixtisaslı işçilərə informasiyalar və dəvətlərin göndərişidir. Daha bir dəyərli metod isə öz işçilərinə boş iş yerinə qəbul üçün onların uyğun dəyərli dost və tanışlarının cəlb edilməsi xahişidir.

Sənaye müəssisələrində kadrların hazırlanması prosesi işçilərə vərdişlərin təlimindən ibarətdir ki, nəticədə onların əməyinin məhsuldarlığının yüksəldilməsinə şərait yaradırlar. Təlim verilməsi əhəmiyyəti ölkədə artıq geniş tanınmaqdadır. Çox təəssüf ki, hələ də bir çox rəhbərlər bununla əlaqədar meydana çıxa mürəkkəblikləri dərk etmirlər. Apardığımız tədqiqatlara əsasən belə bir qənaətə gəlmək olar ki, çox təəssüf edilməlidir ki, təlim və öyrədilmə proqramları kifayət dərəcədə planlaşdırma aparmadan işlənilir və tətbiq edilir, təhsili isə ona görə həyata keçirirlər ki, "hamı necə edir, mən də elə etməliyəm". Bu isə hər hansı xüsusi təhsil proqramı həyata keçirən müəssisə və şirkətlərə olduqca baha başa gəlir.

Artıq müəssisə və şirkətlərdə dərk edilməlidir ki, təlim və öyrətmə olduqca faydalı olmaqla üç əsas halda xüsusilə tələb doğurur:

Birincisi, insan nə vaxt ki, təşkilata daxil olur. İkincisi, əməkdaş yeni vəzifəyə təyin edilir və ona yeni iş verilir. Üçüncüsü isə, yoxlama nəticəsində müəyyən edilir ki, öz işinin səmərəli icra edilməsi üçün cəlb edilmiş adamda müəyyən vərdişlər çatışmır.

Təlim etmə və təhsil vermənin spesifik metodları olduqca çoxsaylıldır ki, onları ölkədaxili müəssisə və şirkətlərdə peşələrin və təşkilatların şərait və xüsusiyyətlərinə uyğunlaşdırmaq lazım gəlir. Səmərəli təhsil və təlim verilməsi proqramların bir neçə əsas tələblərindən aşağıdakıları təklif edirik:

1. Təlim və öyrədilmə üçün motivləşdirmə zəruridir. İnsanlar proqramın məqsədini anlamalı, təlimin və öyrədilmənin onların məhsuldarlığını necə yüksəldəcəyini dərk etməli və bununla birlikdə öz işlərindən özlərinin məmnunluğunu aydınlaşdırmalıdırlar.

2. Rəhbərlik təlim və təhsil verməyə əlverişli şərait iqlimi yaratmalıdır. Bu fəaliyyət öyrənənlərin maraqlandırılmasını, onların təlim və təhsilalma proseslərində aktiv iştirakını, müəllimlər tərəfindən dəstəyi, qarşıya qoyulmuş cavab vermək arzusunu əks etdirməlidir. Bir sıra müəssisə və təşkilatlarda təhsil verilməsinin xüsusi ixtisaslaşdırılmış mərkəzlərdə aparılmasına diqqət edilməlidir.

3. Əgər vərdişlər təlim verilməsi vasitəsilə əldə olunarsa, bu olduqca çətin bir gedişat olduğunda belə təlimedilməni ardıcıl mərhələlərə bölmək lazımdır. Proqram iştirakçılarının hər bir təlim mərhələsində əldə olunmuş vərdişləri yenidən tərtib etmək imkanlarına malik olmalı və yalnız bundan sonra olan təkmil hərəkətlər etməlidirlər.

4. Fənn öyrənənlərin təlimin nəticələrinə əks münasibətləri olmalı və bu, onlarda keçirilmiş materialların zəkalarında möhkəm yer tutmasına zərurət doğurmalıdır. Bunlar ancaq müəllimlər tərəfindən təlim edilmə və uğurlarının nəzərlərinə çatdırılması vasitəsilə həyata keçirilməli, yaxud kompüterləşdirilmiş müasir təlimlər sisteminin tətbiqində təklif edilən proqramların düzgün həllində bilavasitə əks vasitə şəklində tətbiq edilməlidir.

Heyətin formalaşmasında seçim qərarının verilməsi informasiyaları əsasında sınaqların, təkbətək danışıqların və qiymətləndirilmə mərkəzlərinin təşkil edilməsindədir. Əmək fəaliyyəti nəticələrinin maksimum dəqiqliklə qiymətləndirilməsinə nail olunması üçün arzu ediləndir ki, danışıqların aparılması ikili xarakter daşısın. İşçinin müstəqil götür-qoy etməyə imkanı olmalıdır ki, o müəyyən etsin: niyə onun işi standarta uyğun gəlmir, buna səbəb nədir və bu vəziyyətin aradan qaldırılması üçün nələr edilməlidir.

Bu gün ölkənin bütün iri müəssisə, şirkət və kompaniyalarında rəhbər kadrların hazırlanmasına dair inkişaf etmiş sənaye ölkələrində işlənmiş proqramlardan istifadə edərək Azərbaycanın bir çox iri şirkətləri, kompaniyaları və məsləhətçi təşkilatları mənsəblərin idarə edilməsi, başqa sözlə, xidmət üzrə irəliləyiş proqramı müasir dövrün təxirəsalınmaz vəzifəsidir.

### Ədəbiyyat


1. Bazarov T.Y., Yereminin B.L. redaktorlugu ilə. Heyətin idarə edilməsi. Bakı, İqtisad Universitetinin nəşriyyatı, 2012. 248 s.
2. Məmmədov F.T. İdarəetmə mədəniyyəti. Xarici ölkələrin təcrübəsi. Bakı, Apostrof, 2013. 672 s.
3. Бухалков М.И. Управление персоналом, М.: ИНФРА-М, 2005, 368 с.
4. Друкер П. Эффективное управление: экономические задачи и оптимальные решения. М.: ФАИР-ПРЕСС, 2006, 288 с.



### Резюме

***Мамедова Э.М.***

**Проблемы формирование стратегии управления персоналом и ее подготовки**

В статье обоснована необходимость формулирования стратегии управления персоналом. Рассмотриваются процесс подготовки кадров промышленных предприятий. А также некоторые запросы по програмам проведения эффективного обучения и образования

***Ключевые слова:****персонал, управление, стратегия, предприятие, обучение, образование*



### Summary

***Mammadova E.M.***

**Problems of Formation of Personnel Management Strategy and itspreparation**

*The article substantiates the need to formulate a personnel management strategy. We consider the process of cadre training of industrial enterprises. Some requests for effective training and education programs are also being considered.*

***Key words:****personnel, management, strategy, enterprise, training, education*

# İNNOVASİYA PROSESİNİN İQTİSADİ VƏ SOSİAL SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN METODOLOJİ ASPEKTLƏRİ

***Məmmədova S.R.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *İnnovasiya prosesi –innovasiya fəaliyyətinin həyata keçirilməsi ardıcıllığını özündə əks etdirir. İnnovasiya prosesinin səmərəli idarə edilməsi o zaman baş verir ki, müəssisədə strukturu və ardıcıllığı, innovasiya işləmələri icraçılar tərəfindən qarşılıqlı qaydada həyata keçirilir. Kimya sənayesi müəssisələrində innovasiya prosesinin iqtisadi-sosial səmərəliliyini qiymətləndirmək üçün yeni texnika və texnologiyaların, yeni məhsulun, yeni idarəetmə metodunun, məqsədli layihənin tətbiqinin nəticələrini səmərəlilik göstəricilərinin köməyi ilə hesablamaq mümkündür.*

***Açar sözlər:*** *innovsasiya prosesi, iqtisadi-sosial səmərəlilik, innovasiya məhsulu, texnika,innovasiya strukturu*

Bazar münasibətlərinin geniş vüsət aldığı şəraitdə innovasiya prosesinin iqtisadi-sosial səmərəliliyinin qiymətləndirilməsi mürəkkəbləşib çoxmərhələli xarakter almışdır. İnnovasiya prosesinin çoxsaylı mərhələləri (elementləri) içərisində innovasiyanın iqtisadi-sosial səmərəliliyinin qiymətləndirilməsi mühüm yer tutur. Bu zaman beynəlxalq təcrübədə geniş istifadə edilən metodlardan, metodikalardan, təlimatlardan istifadə edilir və müvafiq indikatorlar hesablanaraq müqayisə edilirlər.

İnnovasiya prosesinin (sisteminin) iqtisadi-sosial səmərəliliyinə bir çox amillər təsir göstərir. Onların içərisində mükəmməl qanunvericilik bazası, fərdləri və müəssisələri öyrənməyə stimullaşdıran şərtlər, maliyyə sisteminin etibarlılığı, bu sahədə dövlət tənzimləmələrinin səmərəliliyi və s. mühüm rol oynayır.

Müəssisələrində innovasiya prosesinin iqtisadi-sosial səmərəliliyini qiymətləndirmək üçün yeni texnika və texnologiyaların, yeni məhsulun, yeni idarəetmə metodunun, məqsədli layihənin tətbiqinin nəticələrini səmərəlilik göstəricilərinin köməyi ilə hesablamaq mümkündür. Bu məqsədlə təcrübədə elmi-texniki tərəqqi üzrə tədbirlərin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi metodikasından geniş istifadə edilir. Mövcud iqtisadi ədəbiyyatlarda (dərsliklərdə) iqtisadi səmərəliliyin aşağıdakı növlərini fərqləndirirlər:

İqtisadi səmərə - tədbirlər planını işləyib hazırladıqda təyin edilir və ona görə də bu cür iqtisadi səmərə ehtimal xarakteri daşıyır;

Gözlənilən iqtisadi səmərə - bu və ya digər tədbirin həyata keçirilməsi haqqında qərar qəbul edildikdən sonra hesablanır və bu onların nəticələrinin istehsala tətbiq edilməsində əsas təşkil edir;

Faktiki iqtisadi səmərə - tədbirin istehsala tətbiqindən sonra müəyyənləşdirilir və o konkret tədbirin qiymətləndirilməsində əsas götürülür.

İnnovasiya prosesinin iqtisadi-sosial səmərəliliyi müəyyən edilmiş dövrdə həyata keçirilən kompleks əməliyyatların məcmusu kimi bir sıra qarşılıqlı əlaqədə olan amillərdən asılıdır:

- müəssisənin innovasiya potensialı;
- innovasiya fəaliyyətinin istiqamətləri;
- innovasiya ideyalarının həyata keçirilməsinin sürəti;
- marketinq strategiyasının icrası

Ümumiyyətlə, iqtisadi-sosial səmərənin hesablanması zamanı tədqiqatçılar və alimlər bəzən bir-birinə oxşar, bir-birini tamamlayan yanaşmalardan, başqa bir halda isə baza metodologiyadan bəhrənələrək hesablanmış göstəricilər sistemindən istifadə edirlər. Bir çox hallarda iqtisadi səmərə və iqtisadi səmərəlilik anlayışları eyniləşdirilir. İnnovasiya prosesinin nəticələrinin sosial səmərəliliyinin hesablanması üzrə bu vaxtadək yekdil metodiki yanaşmaya rast gəlmək çətindir. Onun qiymətləndirilməsində də hesablanma göstəricilərindən və ekspert yanaşmalarından istifadə edilir.

Məsələn, Rusiyadan olan tədqiqatçı N.V. Çaykovskaya iqtisadi səmərəni beş yerə bölərək, onları birbaşa səmərə, texniki səmərə, sosial səmərə, xarici səmərə və sistemli səmərə adlandırılmışdır [1].

Həmin ölkədən olan İ.Kokurin bazar iqtisadiyyatı şəraitində iqtisadi səmərəni innovasiya fəaliyyətindən əldə olunmuş əsas iqtisadi nəticə kimi qiymətləndirir. O, göstərir ki, iqtisadi səmərə innovasiyadan istifadədən gələn potensial mənfəətdən çıxılan xərci özündə əks etdirir.

Bu baxımdan iqtisadi səmərə mənfəət və zərərin iqtisadi qiymətləndirilməsinin ümumiləşdirilmiş göstəricisidir. Bu zaman iqtisadi səmərənin əldə olunması üçün əlavə xərclər minimallaşdırılmalıdır:

$$İ_x + K_{ix}S_n \rightarrow min$$

$İ_x$- cari xərclər (maya dəyəri)

$K_i$-kapital qoyuluşu (investiya)

$S_n$-müqayisəli səmərəliliyin normativ əmsalı

İnnovasiya məhsulunun istehlakçıları yalnız bu məhsulun əldə olunmasının deyil, həm də onun istifadəsinin nəyin hesabına başa gəldiyini mütləq müəyyənləşdirilməlidirlər.

Yeniliyin istifadəsindən alınan iqtisadi səmərə onun yaradılması xərcləri ilə müqayisədə daha böyük həcmə malik olmasını D. İ. Kokurin öz tədqiqatlarında göstərmək onu da qeyd edir ki, innovasiya proseslərində xərclər və nəticələr material istehsalı sferasına nisbətən daha az qarşılıqlı təsirə malik olur.

Onun fikrincə, istehlakçı üçün innovasiya məhsulunun obyektinin əhəmiyyəti (dəyəri) yeniliyin istifadəsindən gələn xeyrin onun qiymətinə olan nisbətindən asılıdır. Yəni:

$$Q_i = \left(F_y * \frac{Q_k}{Q_y}\right) - F_k$$

Burada $F_k$ və $F_y$ köhnə və yeni məhsulun faydalılığı;

$Q_k$və $Q_y$-köhnə və yeni məhsulun qiyməti;

$Q_i$-İstehlakçı üçün yeni məhsulun dəyəri (qiyməti)

Düsturdan görünür ki, istehsalçı üçün innovasiya məhsulunun əhəmiyyəti onun əldə etdiyi əlavə gəlirdən asılıdır. Son nəticədə innovasiya məhsulunun əhəmiyyəti (tələbatçı üçün) kapitalın istifadə qiymətindən asılı olan minimal ölçülü əlavə gəlirlə müəyyən olunur [2].

İnnovasiya prosesinin qiymətləndirilməsində aşağıdakı istiqamətləri nəzərə almaq vacibdir: Əvvəla, innovasiya bölməsi idarə edən sistemin tamhüquqlu iştirakçısı kimi, müəyyən struktura malik subyekt kimi çıxış edir. İkincisi, innovasiya strukturu ilə elm, təhsil müəssisələri və layihə rəhbərlərinin qarşılıqlı əlaqəsi təmin edilir. Üçüncüsü, innovasiya strukturunun digər innovasiya müəssisələrinin fəaliyyətinə təsiri: texnologiyaların ötürülməsi, bazar mühitinin dəyişikliklərinə daha çevik reaksiya verən cavab verən müəssisədə onun tətbiqi, layihənin səmərəliliyinin yoxlanılması, texnologiyaların gələcək transferi həyata keçirilir. Dördüncüsü,innovasiya strukturunun sosial-iqtisadi və siyasi səmərəsi –dövlətin birbaşa və dolayı xərclərinin (vergi və gömrük güzəştləri, aşağı icarə haqqı və sairə) idarə edilməsi, ölkənin beynəlxalq miqyasda mövqeyinin möhkəmləndirilməsi hesabına təmin edilir.

İnnovasiya prosesinin kompleks qiymətləndirilməsi aşağıdakı göstəricilərin hesablanmasına əsaslanır: 1) fəaliyyətin təşkilati göstəriciləri, 2) elmi-texniki göstəricilər, 3) strukturun fəaliyyətinin ümumi göstəriciləri. Qiymətləndirilmə strukturun profilindən, müəssisənin fəaliyyət sferasından və qiymətləndirənin məqsədindən asılı olan müvafiq prosedur üzrə aparılır.

Məlumdur ki, elmi nailiyyət və ya texnika və texnologiyanın yaradılması nəticəsində elmi məhsulun səmərəsi artır. Bu yalnız o zaman elmi səmərə sayılır ki, artım elmi informasiyanın artması hesabına baş versin və yaxud texnika və texnologiyanın yeni modelinin yaradılması prosesinin nəticəsi olsun və elmi-texniki informasiyanın artımında əks olunmuş olunsun.

İnnovasiya prosesinin səmərəliliyini qiymətləndirərkən sosial səmərəni də nəzərə almaq lazımdır. Buraya həyat səviyyəsinin və əmək şəraitinin yaxşılaşdırılmasına, dəyişdirilməsinə yönələn müəyyən müsbət meyillər aid ola bilər.Sosial səmərənin qiymətləndirilməsi ekspert metodunun köməyi ilə aparılır. Elmi –texniki innovasiyaların gözlənilən sosial nəticələrinin ekspertizası müxtəlif fəaliyyət sferalarında ixtisaslı mütəxəssislərin cəlb edilməsilə olan fərdi və kollektiv ekspertiza formaları, regionun müxtəlif ictimai təbəqələrinə aid olan fərdi və kollektiv ekspertiza formaları, regionun müxtəlif ictimai təbəqələrinə aid olan layihələr üzrə aparılan sosioloji sorğulardır.

İnnovasiya layihələrinin tətbiqi həmçinin yeni iş yerlərinin yaradılması, işçilərin əməyinin motivləşdirilməsi, yüksək ödənişli iş yerlərinin təşkili, işçilərin qidalandırılması,ixtisaslarının artırılması, yeni peşəyə(ixtisasa) yiyələnməsi, yaradıcılıq təşəbbüsünün dəstəklənməsi, işçi axıcılığının azaldılması, işçilərin bütünlükdə həyat səviyyəsinin və tərzinin dəyişdirilməsi kimi sosial əhəmiyyətli məsələlərin həllinə imkan yarada bilər. Həmin tədbirlərin həyata keçirilməsinin məntiqi nəticəsi bütünlükdə iş vaxtı itkilərinin azaldılmasına, istehsal güclərindən səmərəli istifadə olunmasına buraxılan məhsulun keyfiyyətinin yüksəldilməsinə, material və enerji daşıyıcılarına qənaət olunmasına, tullantısız istehsalın təşkilinə, tullantıların biotexnoloji tsikl üzrə vaxtında emalına, su hövzələrinə axıdılan zərərli maddələrin azaldılmasına təminat yaratmış olacaqdır.

**Ədəbiyyat**


1. Инновационные процессы в странах развитого капитализма (под.ред. И.Е. Рудаковой) М.МГУ,1991.
2. Инновация в современном мире. Сборник статей международной научно-практической конференции. М.: ЕФИР,2015,312 с.

**Резюме**

***Мамедова С.Р.***

**Методологические аспекты оценки экономической и социальной деятельности инновационного процесса**

*Инновационный процесс отражает последовательность инновационной деятельности. Эффективное управление инновационным процессом происходит, когда структура и последовательность работы предприятия, инновационные процессы осуществляются исполнителями на взаимной основе. С помощью показателей эффективности можно рассчитать результаты применения новойтехники и технологий, нового продукта, нового метода управления, целевого проекта по оценке экономической и социальной эффективности инновационного процесса на предприятиях химической промышленности.*

***Ключевые слова:*** *инновационный процесс, экономическая и социальная эффективность, инновационный продукт, технология, инновационная структура.*

**Summary**

***Mammadova S.R.***

**Methodological Aspects of Assessment of Economic and Social Activity of Innovation Process**

*The innovation process reflects the sequence of innovation activities. Effective management of the innovation process occurs when the structure and sequence of the enterprise, innovation processes are carried out by the executors on a reciprocal basis. It is possible to calculate the results of application of new techniques and technologies, new product, new management method, targeted project to evaluate the economic and social effectiveness of the innovation process in chemical industry enterprises by means of efficiency indicators.*

***Key words:*** *innovation process, economic and social efficiency, innovation product, technology, innovation structure*


## MÜƏSSİSƏDƏ İNSAN KAPİTALININ SƏMƏRƏLİ İDARƏ EDİLMƏSİ


***Məmmədova S.T.***

*Sumqayıt Dövlət Universiteti*



***Xülasə.*** *İnsan kapitalının idarə edilməsi müəssisənin səmərəli işləməsinə maksimum təsir göstərən insanların idarə edilməsinin lazımi aspektlərinin identifikasiyasını təmin etməlidir. Bunun əsasında müəssisənin qarşıya qoyduğu vəzifənin yerinə yetirilməsi üçün gəlirin, məhsuldarlığın və ümumi səmərəliliyinin yüksəldilməsinə bütün əməkdaşların cəlb edilməsi, onların inkişafı və istifadəsindən hansı nəticə əldə ediləcəyi müəyyənləşdirilir. Müəssisə tərəfindən daim işçilərin təhsilinə və inkişafına investisiya qoyulmalı, insan kapitalının saxlanmasına, əmək qabiliyyətinin artırılmasına yönəldilən strategiyalar hazırlanmalıdır.*



***Açar sözlər:*** *insan kapitalı, müəssisə, investisiya, strategiya, menecer, təhsil, kadr hazırlığı*


İnnovasiya iqtisadiyyatı şəraitində hər bir müəssisə kadr strategiyasını müasir tələblərə uyğun təşkil etməli, insan kapitalının səmərəli idarə edilməsində mütərəqqi üsullardan istifadə etməlidir. Bunun üçün, ilk növbədə, müəssisənin insan kapitalı geniş və hərtərəfli tədqiq edilməli, insan kapitalına investisiyanın istiqamətləri düzgün müəyyənləşdirilməli, onun ölçülməsi yolları, zəif, güclü cəhətləri aşkara çıxarılmalı və ən nəhayət insan kapitalının idarəedilməsi üzrə güclü mütəxəssislər hazırlanmalıdır.

İnsan kapitalına investisiya qoyuluşu işçilərin ixtisasını və qabiliyyətlərini yüksəldir və bunun da nəticəsində əmək məhsuldarlığı artır. Əmək məhsuldarlığının yüksəldilməsinə yönəldilən hər hansı bir xərcə investisiya kimi baxmaq lazımdır, çünki faktiki xərclər və ya məsrəflər elə planlaşdırılır ki, gələcəkdə dəfələrlə artan kompensasiya edilmiş gəlir axınına səbəb olsun[5].

Əbəs yerə deyil ki, qərb mütəxəssisləri müəssisənin strukturunun maddi və insan kapitalından ibarət olduğunu təsdiq edirlər [4,6,7].

İnsan kapitalı kapital qoyuluşunun əsas formalarından biri kimi insan potensialının bərpasının inkişafı üçün işçi qüvvəsinin fəaliyyətinin yaxşılaşdırılması və keyfiyyətinin yüksəldilməsi xərclərinin məcmusudur [8,211].

İnsan kapitalı həm təşkilatın öz əməkdaşlarının biliyindən maksimum istifadəsi zamanı, həm də təşkilatın fayda verə bilən bilikli və bacarıqlı əməkdaşların çox olması zamanı arta bilər [7,135].

Heyətin intellektual kapitalı müəssisənin iqtisadi artımının və inkişafının əsas mənbələrindən biri hesab edilir. Bir çox mütəxəssislərin fikrincə, indiki şəraitdə o 10-15%-dən çox istifadə olunmur [3].

Fikrimizcə, müəssisə bazarda rəqabət mövqeyini saxlamaq üçün oz işçi heyətinin fəaliyyətinin nə dərəcədə səmərəli olmasını bilməlidir. Əsasən də rəqabət üstünlüklərinin əldə edilməsi üçün investisiya yüksək işgüzar potensiala malik işçilərə yönəldilməlidir, həmin işçilərin təhsilinə, sağlamlığına və s. yüksək sərmayə qoyuluşları edilməlidir.

Müəssisədə insan kapitalının idarə edilməsi istiqamətlərini aşağıdakı kimi kompleksləşdirmək olar(şəkil 1):

-insan kapitalının formalaşdırılması;

-insan kapitalının inkişaf etdirilməsi;

-insan kapitalının qorunub saxlanması.

İnsan kapitalının formalaşdırılması iki istiqamət üzrə həyata keçirilə bilər: peşəkar kadrların cəlb edilməsi, mövcud kadrların təkmilləşdirilməsi. İnsan kapitalının inkişaf etdirilməsi isə kadrların təlimi və ixtisasının artırılması və attestasiya məsələlərini əhatə edir.

İnsan kapitalının qorunub saxlanması dedikdə isə stimullaşdırıcı və motivləşdirici amillər nəzərdə tutulur.Bu istiqamətlər müəssisənin apardığı kadr strategiyası çərçivəsində həyata keçirilməlidir. Hər bir müəssisədə insan kapitalının idarə edilməsi məsələləri kadr strategiyasından başlayır. Kadr strategiyasının təcrübədə həyata keçirilməsinin zəruri şərti strateji icra vasitələrindən və üsullarından sistemli qaydada istifadə edilməsidir.




**Şək. Müəssisədə insan kapitalının idarə edilməsi istiqamətləri**

Necə etmək lazımdır ki, müəssisədəki aşkar və aşkar olmayan, potensial biliklər açılsın və onlardan səmərəli istifadə edilsin?

Müəssisədə insan kapitalının idarə edilməsində ən əsas meyarlardan biri tədqiqatın aparılmasıdır. Bu zaman aşağıdakı göstəricilərdən istifadə edilir [1, s. 43]:

- əməkdaşların ixtisas tərkibi;
- təhsilin orta səviyyəsi;
- yaş tərkibi;
- müvafiq ixtisas üzrə orta staj;
- heyətə çəkilən xərclər.

Bu göstəricilər tədqiq edildikdən sonra insan kapitalına investisiya qoyuluşunun istiqamətləri müəyyən olunmalı və insan kapitalının ölçülməsi sistemi işlənib hazırlanmalıdır.

Müəssisənin işinin səmərəliliyinə insan amilinin təsirinin əsas tərəfləri aşağıdakılardır:

- kadrların seçilməsi və irəli çəkilməsi;
- kadrların hazırlanması və onların fasiləsiz öyrədilməsi;
- işçilərin sabitliyi və çevikliyi;
- işçilərin əməyinin maddi və mənəvi qiymətləndirilməsinin təkmilləşdirilməsi[1, s.81]

Kadrların hazırlanması və onların fasiləsiz öyrədilməsi müəssisənin fəaliyyətində əsas istiqamətlərdən biri kimi nəzərə alınmalıdır. Kadr hazırlığı işi özlüyündə çox geniş anlayışdır və bir neçə mərhələni əhatə edir:

- ehtiyac duyulan sahələr üzrə kadrların sifarişinin verilməsi;
- kadr ehtiyatının yaradılması;
- təlimlərin keçirilməsi, təhlillərin aparılması ilə bərabər, işçilərin ixtisasartırma, ixtisasdəyişmə və yeni ixtisasa yiyələnmə kurslarında iştirakının təşkili;
- bilik səviyyələrinin yoxlanılması;
- əməyin ödənilməsi dərəcəsinin artırılması;
- karyera yüksəlişi üçün attestasiyaların keçirilməsi;
- digər şirkətlərlə - əsasən də istehsal xüsusiyyətlərinə görə yaxınlıq və uyğunluq təşkil edən şirkətlərlə təcrübə mübadiləsinin təşkili;
- işçilərin vəzifə standartlarının hazırlanması və s. [2].

Bütün fikirləri nəzərə alaraq belə qənaətə gəlmək olar ki, insan kapitalının idarə edilməsi müəssisəyə fərqləndirici xarakter verən intellektin, yeniliklərin və xüsusi biliklərin birləşdirilməsi zərurətini qarşıya qoyur. İşçilər lazımi səviyyədə motivləşdirildikdə onlar təhsillərini artırmaq, dəyişilmək, yenilikləri tədqiq etmək və yaradıcılıq əhval- ruhiyyəsi yaratmaqla müəssisə üçün uzunmüddətli fəaliyyəti təmin edirlər. İşçilərin təhsilinə və inkişafına müəssisə tərəfindən investisiya qoyulması insan kapitalının saxlanmasına, onların əmək qabiliyyətinin artırılmasına yönəldilir. Eyni zamanda həmin investisiya daha çox gəlir gətirmək vasitəsidir.Fikrimizcə, insan kapitalına investisiya qoyuluşu çevik və gəlirli forma olmaqla, nəticəsində işin keyfiyyətini yüksəldir. Bu da yeniliyin mənimsənilməsi, bilik səviyyəsinin yüksəlməsi, ixtisasın artması nəticəsində mümkündür. Burada əsas ideya belədir: bilik, bacarıq, yenilikçilik əsas amil olmaqla müəyyənedicidir.

İnsan kapitalının idarə edilməsi müəssisənin səmərəli işləməsinə maksimum təsir göstərən insanların idarə edilməsinin lazımi aspektlərinin identifikasiyasını təmin etməlidir. Bunun əsasında müəssisənin qarşıya qoyduğu vəzifənin yerinə yetirilməsi üçün gəlirin, məhsuldarlığın və ümumi səmərəliliyinin yüksəldilməsinə bütün əməkdaşların cəlb edilməsi, inkişafı və istifadəsindən hansı nəticə əldə ediləcəyi müəyyənləşdirilir. İnsan kapitalının idarə edilməsi insan kapitalının üstünlüklərinin yolunu göstərir və insanlara investisiya qoyuluşunun yüksək gəlir gətirdiyini aşkar edir. İnsan kapitalının idarə edilməsi siyasəti müəssisənin idarə edilməsini, resursların artırılmasını, qabiliyyətin idarə edilməsini, işin səmərəliliyini, təhsil proqramını və inkişafını özündə birləşdirir.

İnsan kapitalının dəyərini təyin etmək və əmək potensialını qiymətləndirmək üçün müəssisədə müvafiq metodlar işlənib hazırlanmalıdır. İnsan kapitalının ölçülməsində insan resursları üzrə müxtəlif məlumatlardan və statistik metodlardan istifadə edilməlidir.

## Ədəbiyyat

1. Yahudov X.M. Müəssisənin iqtisadiyyatı. Dərslik. Bakı: Elm, 2002, 541s.
2. www. socar.az
3. Белкин В.Н. Теория человеческого капитала предприятия. Екатеринбург: 2012, Институт экономики УрО РАН, 234 с
4. Бем-Баверк Е.Ч. Критика теории Маркса. М.: Челябинск: 2002, Социум, 124 с.
5.Маконнелл К.Р., Брю С.Л. Экономикс: принципы, проблемы и политика: в 2-х т. т.1,: Пер. с англ. М.: ИНФРА-М, 1997, 399 с.
6.Мильнер Б.З. Управление знанием. М.: ИНФРА-М, 2003, 178 с.
7. Стюарт Томас А. Интеллектуальный капитал. Новый источник богатства организаций / пер. с англ. В. Ноздриной. М.: Поколение, 2007, 366 с.
8. Экономика и бизнес: словарь-справочник / авт.-сост. А.Л. Кураков; под ред. Л.П. Куракова. / Чебоксары: Изд-во Чуваш. ун-та, 2008, 712 с.

## Резюме

***Мамедова С.Т.***

**Эффективное управление человеческим капиталом предприятия**

*Управление человеческим капиталом должно обеспечивать идентификацию требуемых аспектов управления людьми, способными оказывать максимальное влияние на эффективную работу предприятия. На этой основе определяется отдача от привлечения всех трудовых ресурсов в повышение производительности, общей эффективности, доходности, обеспечивающих выполнение поставленных перед предприятием задач. Должна быть вложена инвестиция в обучение и развитие работников, разработаны стратегии, направленные на подержание человеческого капитала, увеличение трудоспособности.*

***Ключевые слова:*** *человеческий капитал, предприятие, инвестиция, стратегия, менеджер, обучение, кадровая подготовка*

**Summary**

***Mammadova S.T.***

**Effective Management of Human Capital in Enterprise**

*The management of human capital has to ensure the necessary aspects of identification of managing people who maximum influence the effective functioning of the enterprise. On this basis, shall be achieved any result in involvement, development and usage of all the employers for improving revenue, productivity and overall efficiency for the fulfillment of the task set by the enterprise. An entity must continually invest in employers' education and development of human capital to maintain, develop strategies aimed at improving the working capacity.*

***Key words:*** *human capital, enterprise, investment, strategy, manager, education, staff training*

## İNSAN AMİLİ VƏ ONUN MÜASİR İQTİSADİYYATDA SOSİAL-İQTİSADİ VƏ İNSTİTUSİONAL FORMALARI

***Mirzəbəyova J.S.***

*AMEA-nın İqtisadiyyat İnstitutu*

***Xülasə.*** *Məqalədə insan kapitalı nəzəriyyəsinin formalaşmasına nəzər yetirilir, kapital ilə insan potensialı anlayışlarının mahiyyətinin müqayisəli təhlili aparılır. Eyni zamanda, iqtisadi ədəbiyyatlarda bu baxımdan mövcud olan yanaşma və baxışlar araşdırılır.*

***Açar sözlər:*** *insan kapitalı, insan amili, miqrasiya, investisiya, institusional.*

Bu gün dünyanın ən çox inkişaf etmiş ölkələrinin yüksək rəqabətqabiliyyətliliyinin səbəblərini təhlil edərkən məlum olur ki, bu ölkələr güclü insan kapitalının formalaşdırılması hesabına uğur qazanıblar. Dünyanın önəmli iqtisadçılarından hesab olunan R.Hausman hesab edir ki, "Əgər hər bir ölkə bu gün keyfiyyətli insan, keyfiyyətli texnologiya, keyfiyyətli istehsal formuluna düzgün riayət etsə, o zaman həmin ölkə əsl inkişaf zirvəsini fəth edə bilər". Azərbaycan alimlərinin fikrincə, insan kapitalının formalaşdırılması və ondan istifadənin səmərəli olmasını prioritet məqsəd kimi önə çəkən, dövlətin innovasiya inkişafında müasir biliklərin roluna mühüm yer ayıran iqtisadi siyasətin elmi cəhətdən təhlili və əsaslandırılması qazanılmış uğurların davamlılığının təmini baxımından son dərəcə zəruridir. Postkeçid dövrünün paradiqmalarının elmi cəhətdən əsaslandırılması və proqnozlaşdırılması üçün ilk növbədə respublikanın son 15 ildə inamla gerçəkləşdirdiyi iqtisadi islahatları elmi təhlil prizmasından dəyərləndirməyə, siyasi idarəetmədə, mühüm qərarların qəbulu prosesində elmi proqnozlara istinad etməyə ehtiyac duyulur (Akademik Ramiz Mehdiyev "İctimai və humanitar elmlər: zaman kontekstində baxış" məqaləsindən).

İnsan kapitalının iqtisadi və elmi -texniki şəraitin tələblərinə uyğunlaşması bütövlükdə iqtisadiyyatın, eləcə də müəssisə və təşkilatların fəaliyyətinin səmərəliliyinin təmin edilməsinə imkan verir. Buna görə də insan kapitalına qoyulan investisiyalaşma prosesinin idarə edilməsi mühüm vəzifəyə çevrilir. İnsan kapitalına qoyulan investisiyalar proqramları insan kapitalının strukturunun yaxşılaşması üzrə kompleks tədbirlərin işlənib hazırlanmasını, prioritet istiqamətlərin aşkar edilməsini, investisiya məsrəflərinin hesablanmasını tələb edir. İnvestisiya prosesinin idarə edilməsinin ən mühüm mərhələsi-insan kapitalına qoyulan investisiyaların səmərəliliyinin qiymətləndirilməsidir. Bu cür qiymətləndirmənin metodlarından biri il ərzində məsrəflərin tutuşdurulmasıdır ki, burada xüsusilə məsrəflərlə alınmış nəticələr arasında müvəqqətiliyin azalması məsələsi həll olunur. Məhz insan kapitalına qoyulan investisiyalar əmək məhsuldarlığını yüksəltməklə sabit iqtisadi artıma təsir göstərir.

İnsan kapitalı üzrə səmərəliliyin müəyyən olunmasına onun daşıyıcısının yaşayış yeri təsir göstərən amillərdən hesab olunur. Ekologiya və təhsil sistemi kimi amillərlə yanaşı, yüksəkixtisaslı işçi qüvvəsinin miqrasiyası amili də diqqət mərkəzində saxlanılmalıdır. Belə ki, empirik tədqiqatlar göstərir ki, yüksək insan kapitalına malik olan insanlar daha çox miqrasiya proseslərində iştirak edirlər, nəinki bu kapitala az sahib olanlar. Bundan başqa, yüksək insan kapitalına malik olan bu insanlar kütləsi aqlomerasiya effektinə sahib olmaqla, öz dəyərlərini daima artırmağa meyilli olurlar. Bu amil dünyanın son 30 il miqrasiya prosesində müşahidə olunmaqdadır. İnsan kapitalına malik olan və əsasən onun daşıyıcıları hesab olunan insanların miqrasiya prosesində bu qədər fəal surətdə iştirak etməsinin bir çox səbəbləri vardır ki, onları da həm iqtisadi, həm də qeyri-iqtisadi amillər məcmusu baxımından qruplaşdırmaq olar. Ümumi miqrasiya prosesini

zəruri edən amillər içərisində iqtisadi amillər daha aktiv rola malik olmaqdadır. Məhz bu amillər də ölkənin insan kapitalı üzrə malik olduğu xüsusiyyətləri və səmərəlilik göstəricilərinə bilavasitə olaraq təsir edir. Professor Şahbaz Muradovun fikrincə, miqrasiya prosesinə bir çox amillər təsir göstərir ki, onlardan önə çıxanlarına aşağıdakıları aid etmək olar: [1, s.243]

- İqtisadi amillər. Buraya əmək haqqının məbləği, əhalinin əmək və məişət şəraiti, əmtəə və xidmətlərin qiyməti, dəyəri, istehsalın mexanikiləşdrilməsi və avtomatlaşdırılması səviyyəsi, istehsalın keyfiyyət dərəcəsi və s. aiddir. İstehsal prosesinin avtomatlaşması və mexanikiləşdirilməsi nə qədər müasir dövrün tələbi kimi görünsə də, insan kapitalının daşıyıcılarının əsas miqrasiya səbəblərindən biri kimi çıxış edir.

- Təbii şərait və coğrafi amillər. İnsanların yerli şəraitə uyğunlaşması, böyük şəhər və sənaye mərkəzlərinə yaxın olması, daxili və xarici nəqliyyatın inkişafı və s.

- Demoqrafik və etnik amillər. Burada əhalinin təbii hərəkəti, əhalinin tərkibi nəzərdə tutulur.

- Əhalinin etnik xüsusiyyəti. Buraya: hər bir millətin, xalqın və etnik qrupların tarixən miqrasiya etmə meyli, milli formada assimilyasiya dərəcəsi, millətlər arası əlaqələrin inkişaf dərəcəsi və s. daxildir.

- Məskunlaşma xüsusiyyətləri. Əhalinin sıx və seyrək olması, yaşayış məntəqələrinin böyüklüyü, onların funksional inkişafı, məskunlaşmanın transformasiya dərəcəsi və s. bura daxil edilir.

- Mədəni-məişət şəraiti və xidmət səviyyəsi. Tibbin, səhiyyənin, ticarətin və s. xidmət sferalarının səviyyəsi və bəzi sosial xarakterli məsələlərin inkişaf dərəcəsi daxildir.

- Həyat tərzi və sosioloji şərait. Buraya əmək rejimi və boş vaxtın miqdarı, məşğuliyyət və peşəyə görə yüksəlmə imkanları, insanların iş yerlərində və ailədəki sosioloji, psixoloji şəraiti, sosial əlaqələrin intensivliyi və s. aid edilir. [2, 75]

Göründüyü kimi, miqrasiyanın ümumi səbəbləri arasında sırf insan kapitalını bilavasitə özündə birləşdirən və ya onun daşıyıcısının birbaşa problemləri olan səbəblər göstərilməmişdir. İnsan kapitalı, onun formalaşması, istifadəsi üzrə səmərəliliyinin artırılması təkcə iqtisadi amillərlə bağlı deyildir. Burada sosioloji, psixoloji, etnik, milli və s. cəhətləri özündə birləşdirən proses kimi təzahür etməkdədir. Buna görə də miqrasiyaya və onun səbəbələrindən biri kimi də həmçinin insan kapitalının səmərəliliyini də qeyd etmək lazımdır.

**Ədəbiyyat**


1. Muradov Ş.M. İnsan potensialı: əsas meyillər, reallıqlar, problemlər. Bakı: Elm, 2004, 660 s
2. Qafarov Ş.S. Əmək bölgüsü və istehsal amilləri. İqtisad elmləri: nəzəriyyə və praktika. №4. Bakı: İqtisad Universitetinin nəzəri və elmi-praktiki jurnalı, 1999. S.3-4


**Резюме**


***Мирзабекова Ж.С***


**Человеческий фактор и его социально-экономические и институциональные формы в современной экономике**


*В статье рассматривается формирование концепции человеческого капитала, проводится сравнительный анализ содержания таких понятий, как капитал, человеческий потенциал, человеческий капитал, человеческий фактор. Также рассматриваются положения в Азербайджанской экономической литературе относительно указанных экономических понятий.*



***Ключевые слова:****человеческий капитал,человеческий фактор, миграция,инвестиции, институциональный*


**Summary**


***Mirzabeyova J.S.***


**The Human Factor and its Socio-Economic and Institutional Forms in the Modern Economy**


*The article considers the concept of formation of human capital and making a comparative analysis of the content of concepts such as capital, human capital, the human factor. It also considers the arguments in the Azerbaijani economic literature relative to these economic concepts.*



***Key words:****human capital, human factor, migration, investment,institutional.*

# SOSİAL TƏRƏQQİ İNDEKSİ SOSİAL İNKİŞAF VƏ CƏMİYYƏTİN RİFAHININ MEYARI KİMİ

***Nəbiyeva G.İ.***
*AMEA-nın İqtisadiyyat İnstitutu*

***Xülasə.*** *Tezisdə Sosial Tərəqqi İndeksi, onun strukturu haqqında ümumi nəzəri məlumatlar verilmişdir. Həmçinin son illər Azərbaycanın bu indeks üzrə mövqeyi təhlil edilmişdir.*

***Açar sözlər:*** *Sosial Tərəqqi İndeksi (STİ), insanın əsas ehtiyacları, ana və uşaq ölümü,uşaq artımı, infeksion xəstəliklər*

**Sosial Tərəqqi İndeksi haqqında**

Sosial Tərəqqi İndeksi (STİ) 2014-cü ildən başlayaraq nəşr olunmağa başlanmışdır. STİ Sosial İnkişaf İmperativi adlı analitik qrup tərəfindən Harvard universitetinin professoru M.Porterin rəhbərliyi ilə illik olaraq hazırlanır. İndeks sosial inkişafı qiymətləndirməyə və cəmiyyətin rifahının ölçülməsinə xidmət edir. Bu indeksi digər indekslərdən fərqləndirən xüsusiyyətlərindən biri hesablanması zamanı iqtisadi göstəriciləri nəzərə alınmamasıdır. Əldə edilən informasiyaların mənbəyini beynəlxalq təşkilatların statistikası (BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, UNESCO və s.) həmçinin “Gallup” Dünya Sorğusu və ekspertlərin qiymətləndirmələri təşkil edir. İndeks insanın əsas ehtiyacları, sosial rifahın təməl şərtləri və imkanlar adlı sub-indekslərə əsaslanmaqla, yaxşı bir cəmiyyətin necə olduğunu müəyyənləşdirməyə imkan verir. Hər sub indeks özündə 4 komponenti birləşdirir. 1 saylı diaqramda STİ-nin strukturu əks olunmuşdur.

**Diaqram**

**Sosial Tərəqqi indeksinin strukturu**




*Mənbə[1] əsasında müəllif tərəfindən tərtib olunub.*

“İnsanın əsas ehtiyacları” adlı ilk subindeksi “hər kəsin yaşamaq üçün təməl ehtiyaclara sahib olub olmaması” problemini araşdırır. Bu sub-indeks üzrə olan “Qidalanma və ilkin tibbi yardım” alt-indeksi aşağıda qeyd olunan 5 komponent əsasında formalaşır: yetərsiz qidalanma, ana ölümü, uşaq ölümü, uşaq artımı, infeksion xəstəliklərdən ölənlər.

**Yetərsiz qidalanma** (qida çatışmazlığı) dedikdə insanın istehlak etdiyi kalorinin miqdarının onun sağlam və aktiv həyat tərzi üçün yetərli olmaması başa düşülür. Orqanizmin normal fəaliyyəti üçün lazım olan qidanın yetərsizliyi, inkişaf etməkdə olan ölkələrdə yoxsulluqla əlaqəlidir.

**Ana ölümü** dedikdə bədbəxt hadisə və yaxud təsadüfi yaranan səbəb istisna olunmaqla hamiləlik dövrü və doğuş bitdikdən sonrakı 42 gün ərzində ağırlaşan hər hansı bir səbəbdən qadının ölümü başa düşülür. Əmsal 10-54 yaş arası qadınlar arasında100 000 diri doğulana nəzərən müəyyən edilir.

**Uşaq ölümü** dedikdə 1000 doğuşa nəzərdə tutulan 0-5 yaş arasında olan uşaqların ölüm ehtimalı nəzərdə tutulur.

**Uşaq artımı** göstəricisində 5 yaşa qədər olan uşaqların boy artımı prosesində geriqalma hallarının sıxlığı başa düşülür.

**İnfeksion xəstəliklərdən ölənlər adlı** göstərici hər 100000 nəfərə infeksion xəstəliklərdən dünyasını dəyişənlərin say nisbətini əks etdirir. Bura HİV/QİÇS, vərəm, ishal, bağırsaq infeksiyası, tənəffüs yollarının infeksiyası, meningit, ensefalit, difteriya, qızılca, malyariya, traxoma, ebola, o cümlədən cinsi yolla keçən (HİV, hepatit istisna olmaqla)bir sıra yoluxucu xəstəliklər aid edilir.

STİ-nin 2018-ci il üzrə hesabatında 146 ölkədə ümumilikdə 51 göstəricidən istifadə edilməklə sosial tərəqqinin meyarları ölçülmüş və bu ölkələr topladığı ümumi ballar əsasında sosial inkişaf dərəcələrinə görə sıralanmışdır. Qeyd etmək lazımdır ki, 2014-cü ildən indiyədək 146 ölkədən 133-də bu göstərici üzrə irəliləmə qeydə alınmışdır.

**Cədvəl**

**Azərbaycanın Sosial Tərəqqi İndeksində yeri**

| İllər | Topladığı bal | Tutduğu yer |
|---|---|---|
| 2014 | 62.44 | 73 |
| 2015 | 62.62 | 76 |
| 2016 | 63.75 | 77 |
| 2017 | 65.33 | 76 |

*Mənbə[2] əsasında müəllif tərəfindən tərtib olunub.*

Qeyd etmək lazımdır ki, Azərbaycanın Sosial Tərəqqi İndeksində mövqeyi fərqli trend nümayiş etdirmişdir. Belə ki, 1 saylı cədvəl məlumatlarına əsasən 2014-cü ildə 146 ölkə arasında 73-cü yerdə qərarlaşan ölkəmiz 2015-ci ildə 62.62 bal toplayaraq 3 pillə geriləmiş və sıralamada 76-cı yerə enmişdir.2016-cı ildə yenidən bir pillə geriləyərək 77-ci mövqedə dayanan respublikamız 2017-ci ildə yalnız bir pillə irəliləməyə nail olmuş və 76-cı yeri tutmuşdur. 2018-ci ildə isə ikinci sub indeks üzrə nəticəsi olmadığına görə ölkəmiz üçün bu indeks hesablanmamışdır. Hesab edirik respublikada sosial-iqtisadi inkişafla bağlı görülən tədbirlər gələcəkdə Azərbaycanın STİ üzrə mövqeyinin irəliləməsinə səbəb olacaqdır.

## Ədəbiyyat

1. Social Progress Imperative-Social Progress Index Methodology 2018. 37p.
2. https://www.socialprogress.org

## Резюме

***Набиева Г.И.***

**Индекс социального прогресса как мера социального развития и благосостояния**

*Тезис предоставляет общую теоретическую информацию об индексе социального прогресса и его структуре. Также была проанализирована позиция Азербайджана в последние годы по этому показателю.*

***Ключевые слова:****Индекс социального прогресса (ИСП), питание и базоваямедицинская помощь, материнская смертность, детская смертность, рост детей, инфекционные заболевания*

## Summary

***Nabiyeva G.I.***

**Social Progress Index as a Measure of Social Development and Welfare**

*Thesis provides general theoretical information about the Social Progress Index and its structure. Also, the position of Azerbaijan on this indicator in recent years has been analyzed.*

***Key words:*** *Social Progress Index (SPI), basic human needs, maternal and child mortality, child stunting, infectious diseases*

# ELMİ POTENSİAL – SOSİAL-İQTİSADİ İNKİŞAFIN AMİLİ KİMİ

***Niftəliyev N.F.***
*Mingəçevir Dövlət Universiteti*

***Xülasə.*** *Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında elmi potensialın rolunun tədqiqi və təhlil edilməsi, səmərəliliyinin artırılması istiqamətində təklif və tövsiyələrin hazırlanması.*

***Açar sözlər:*** *elmi potensial, qloballaşma, səmərə, iqtisadi inkişaf, cəmiyyət, kadr potensialı, insan resursları, sosial-iqtisadi inkişaf*

Yeni dünya nizamında elmi-informativ biliklər inkişafın mühüm katalizatoruna, innovativ yeniliklərin başlıca təminatına çevrilmişdir. Elmtutumlu informasiyanın yaradılması, əldə edilməsi, tətbiqi sosial-iqtisadi inkişafın, qlobal rəqabətin, ən başlıcası isə demokratikləşmə prosesinin mühüm amilləridir [1].

Müasir dövrdə qloballaşma və informasiya cəmiyyəti quruculuğu fonunda hər bir ölkənin qarşısında bir sıra strateji vəzifə və tələblər durur. İnkişafın strateji məqsəd kimi müəyyənləşdirilməsi isə ayrı-ayrı sahələrin paralel tərəqqisini və XXI əsrin çağırışlarına adekvat cavab verməyi zəruri edir. Məhz buna görə də, milli dövlətlərin inkişaf konsepsiyasında milli tərəqqini təmin edən əsas faktor kimi strateji əhəmiyyətli sahələrə xüsusi diqqət yetirilməsi müəyyən olunur. Bu baxımdan elmi potensial sosial-iqtisadi inkişafın amili kimi xüsusi əhəmiyyət daşıyır.

Bildiyimiz kimi, elmi fəaliyyət bu və ya digər xüsusiyyətlərinə görə insan fəaliyyətinin başqa sahələrindən əsaslı fərqlənir. Çünki elmi fəaliyyət elmi biliklərin alınması, onların qarşılıqlı fəaliyyətinin təşkili, elmi informasiyaların toplanması və mühafizəsini həyata keçirən yaradıcılıq prosesidir. Bu proses keçmiş elmi biliklərə əsaslanaraq onun elementlərini özündə saxlamaqla, qarşıya qoyulmuş problemlərin həlli və quruluşu istiqamətində yeniideyanın yaradılmasına təkan verir. Bu da yaradıcılıq prosesinin hər şeydən əvvəl, idrak prosesi olmasından irəli gəlir. Təsadüfi deyil ki, onun necə baş verməsi sirlərini müasir elm hələ də öyrənə və aydınlaşdıra bilməmişdir [2, s.16].

Elmin əsas funksiyası heç də sadəcə olaraq insanın mənəvi-intellektual maraqlarına deyil, onun dünyanı məqsədyönlü surətdə dəyişdirmək, öz əməli fəaliyyətini elmi əsaslar üzrə qurmaq məqsədinə xidmət etməkdir. Bütün əməli fəaliyyət sahələri ancaq elmi əsaslarla təşkil olunduqda səmərə verir. Buna görə də ixtisasından asılı olmadan bütün fəaliyyət sahələrində çalışan insanlar həmin sahənin elmi əsaslarını öyrənmək məcburiyyətindədirlər.

Elmin inkişafı həmçinin cəmiyyətdə intellektual potensialın formalaşmasının əsas mənbəyi hesab olunur. Hesab edirik ki,cəmiyyətdə baş verən hər bir tərəqqi əsasən iki mərhələdən, birincisi, elmin inkişafı və elmi nəticələrin istehsala tətbiqindən; ikincisi, insana kapital qoyuluşunun səmərəliliyindən keçir.

Yaşadığımız dövrdə elm, demək olar ki, bütün digər fəaliyyə tsahələri üçün də zəruri bir vasitəyə çevrilmişdir və bu baxımdan onun təsir dairəsi çox genişdir. Müasir dövrdə elm, bir tərəfdən mədəniyyət hadisəsidirsə, digər tərəfdən iqtisadiyyatın tərkib hissəsidir. Beləki,yeni elmi biliklərin əldə olunması istiqamətində axtarışların mütəşəkkil surətdə həyata keçirilməsi və alınan nəticələrdən ölkənin praktik ehtiyaclarının ödənilməsi üçün istifadə olunması iqtisadiyyatın inkişafına böyük təkan verə bilər. Lakin bu o zaman mümkün olur ki, elmdən istifadə olunması pərakəndə xarakter daşımayaraq, müntəzəm və planlı surətdə aparılsın. Digər tərəfdən, əhalinin elmi dünyagörüşünün yüksəldilməsi və bizi əhatə edən təbii-ictimai mühitin getdikcə daha çox dərəcədə elmi-texniki nailiyyətlərlə zənginləşdirilməsi, insanların yeni texnika və texnologiyadan istifadə qaydalarını mənimsəməsi bütövlükdə cəmiyyətin “elmləşməsinə”, mədəniyyətin strukturunda elmin nisbi payının artmasına gətirib çıxarır. Bütün bu tendensiyaların öyrənilməsi elmin həm də bir sosial sistem kimi nəzərdən keçirilməsini tələb edir [3, s. 6-7].

Çünki elm elə bir fəaliyyət sahəsidir ki, onsuz maddi dünyanı dərk etmək, milli şüuru inkişaf etdirmək və əhalinin rifah halını yüksəltmək, istehsalın genişlənməsinə nail olmaq, beynəlxalq aləmdə nüfuz qazanmaq qeyri-mümkündür. Elm, həmçinin təfəkkürün yeniləşməsi, dəyişməsi üçün də vasitədir. Hər hansı bir yeniliyin kökündə məhz elm və elmi biliklər, onların müxtəlifliyi dayanır.

Akademik Azad Mirzəcanzadənin fikrincə,“Elmi problemləri həll etmək üçün zəruri şərtdən- müxtəliflikdən başqa, bir çox özgə şərtlər: müəyyən bilik səviyyəsi, təfəkkürün dərinliyi və gücü də lazımdır. Bu müxtəliflik olmadan tədqiqat öz-özlüyündə nəticəsizdir” [4, s. 9].

Ümumiyyətlə, insanlar günü-gündən inkişafa qaçır. Təbii ki, bunu yalnız və yalnız elm sayəsində, elmin gücünə əsasən edirlər. Digər tərəfdən də elm anlayışını yaradan insanlar özləridir. Bu qədər inkişaf, bu qədər tərəqqinin tək bir məqsədi, səbəbi var . İnsan rahatalığa qaçır və beləliklə, texnologiyanın inkişafı ilə öz rahatlığına qovuşur. Nə qədər inkişaf olsa belə, çatışmazlıqlar daim olur. Bu da elmin daha da inkişaf etdirən paradoksallardandır. Yəni çatışmazlıqlar insan həyatında çətinliklər yaratsalar da, elmin inkişafına təkan verirlər. Hazırda ABŞ, Yaponiya, Almaniya, Fransa, İngiltərəvə s. bu kimi inkişaf etmiş ölkələr elmin inkişafı

nəticəsində sosial-iqtisadi, əhalinin həyat səviyyəsi, istehsalın rəqabətqabiliyyətliliyi, məşğulluğun təmin olunması, İnsan İnkişaf İndeksi və bu kimi makroiqtisadi göstəricilərə görə dünyanın bir çox ölkələrini geridə qoyurlar. Bu ölkələr hətta zəngin təbii sərvətləri olan bir sıra ölkələri (Asiya və Afrika ölkələrini) yuxarıda göstərilən sahələr üzrə xeyli qabaqlamış, sosial-iqtisadi inkişafın əsas meyillərinin təhlili və həllində kifayət qədər yüksək elmi bilik və təcrübətoplamışlar. Təbiiki, bütün bunlar, bilavasitə elmin və elmi-texniki fəaliyyətin, təhsilin və insan kapitalının inkişafı ilə bağlıdır.

Elmi potensial bütövlükdə iqtisadiyyatın təkanverici amilidir. İstənilən sahənin resursların məhdudluğu və ya məhsul istehsalında resursların qənaətinə şərait yarada biləcək texnologiyaların tətbiqini tələb edir. Yeni texnika və texnologiyanın yaradılması, istehsalata tətbiqi təbii ki, sahənin məhsulları istehsalına çəkilən xərclərin artımı ilə nəticələnir. Onda belə nəticəyə gələrik ki, elmi potensialın səmərəliliyi əsas şərtdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev fəaliyyətinin bütün dövrlərində ölkənin inkişafında elm amilinə, ziyalı faktoruna dövlət siyasətinin ana müddəaları kimi yüksək dəyər vermiş, bu istiqamətdəki inkişafı cəmiyyətin diqqət mərkəzinə çəkmişdir. Ulu öndər Heydər Əliyev Azərbaycanda elmin inkişafını dövlət siyasəti səviyyəsinə çatdıran və həmin siyasəti ardıcıl olaraq qətiyyətlə həyata keçirən görkəmli dövlət xadimi olmuşdur. Məhz bu zəmində XX əsrin yetmiş-səksəninci illərində və dövlət müstəqilliyi dövrünün başlanğıc mərhələsində Azərbaycan cəmiyyəti zamanın meydana çıxardığı maneələri aşa bilmiş, çətin prosesləri adlayaraq irəliyə doğru inkişaf etmişdir.

Müstəqillik dövrünün başlanğıc illərində də görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan cəmiyyətində ziyalı faktorunu yenidən ön mövqeyə çəkmişdir. Dövlət rəhbərinin bu istiqamətdə atdığı addımlar ilk növbədə ölkəmizdə ziyalı mühitinin qorunub saxlanılmasına və möhkəmləndirilməsinə, cəmiyyətin yenidən qurularaq inkişaf etdirilməsinə xidmət etmişdir.

Elmə olan bu yanaşma hazırda ulu öndərin layiqli siyasi davamçısı, ölkə başçısı cənab İlham Əliyev tərəfindən yüksək peşəkarlıqla davam etdirilir. Respublikamızda bütün sahələr üzrə müşahidə edilən dinamik inkişaf elm sahəsində də nəzərə çarpmaqdadır. Elmin inkişafı Azərbaycanın ümumi inkişafının əsas prioritetlərindən, milli-strateji hədəflərindən biridir. Azərbaycan Respublikası Prezidentinin 2009-cu ildə imzaladığı Sərəncam ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" və "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nın icrası ilə görülmüş işlər bütövlükdə Azərbaycan elminin inkişafına böyük təkan vermişdir.

Dövlət başçısının 2016-cı il tarixli Fərmanına əsasən, Azərbaycan elminin tarixində ilk dəfə olaraq "Elm haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir. Bu Qanun Azərbaycan Respublikasında elmi fəaliyyətin təşkili, idarə edilməsi və inkişafı, alimlərin maddi rifahının daha da yaxşılaşdırılması sahəsində dövlət siyasətinin əsas prinsiplərini, elmin və elmi-innovasiya fəaliyyətinin məqsədlərini, elmi fəaliyyət subyektlərinin hüquq və vəzifələrini, elmin maliyyələşdirilmə mexanizmlərini, elmi nailiyyətlərin stimullaşdırılması və onlardan istifadənin təşkilati-hüquqi əsaslarını müəyyən edir. Cənab Prezidentin digər bir Sərəncamı ilə yaradılmış Elmin İnkişaf Fondu elmi fəaliyyətləri stimullaşdırmağa xidmət edən, önəmli təşkilatlardan biridir.

Prezident İlham Əliyevin AMEA-nın 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncağında ölkə ziyalıları, alimlər qarşısında söylədiyi geniş nitqində səsləndirdiyi fikirlər Azərbaycan elmi üçün yeni üfüqlər açmaqla bərabər, alimlərimiz qarşısında yeni hədəflər də müəyyən edib. Ölkə başçısının səsləndirdiyi "Mən çox istəyirəm ki, Azərbaycan alimləri gələcəkdə də ölkəmizin hərtərəfli inkişafında daha fəal rol oynasınlar. Çünki ölkəmizin gələcəyi elmi potensialın səviyyəsi ilə bilavasitə bağlıdır" fikri cənab Prezidentin elmə, elmi inkişafa böyük önəm verdiyini özündə əks etdirmişdir.

Azərbaycan Respublikasında "Elm günü"nün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 9 aprel 2018-ci il tarixdə cəmiyyətin inkişafında elmin əhəmiyyətini nəzərə alaraq hər il martın 27-si Azərbaycan Respublikasında "Elm günü" kimi qeyd edilməsi ilə bağlı sərəncam imzalayıb.Bu da öz növbəsində ölkə başçısının elmə olan davamlı diqqət və qayğısının daha bir bariz nümunəsidir. "Elm günü"nün təsis edilməsiylə bağlı verilən Sərəncam elmimizin, ümumən respublikamızın inkişafı naminə alimlər qarşısında qoyulan yeni bir öhdəlikdir.

**Ədəbiyyat**


1. Məmmədzadə İ. Elmi təmələ söykənən etibarlı inkişaf strategiyası. Xalq qəzeti 30 oktyabr 2014.
2. Muradov A. Elmi-texniki potensial: əsas inkişaf meyilləri və problemləri. Bakı: Elm, 2005, 324 s.
3. Xəlilov S. Elmşünaslığa giriş. Bakı: Çaşıoğlu, 2010, 446 s.
4. Mirzəcanzadə A.X. İxtisasa giriş. Dərs vəsaiti. 1990, 368 s.

**Резюме**

***Нифталиев Н.Ф.***

**Научный потенциал – как фактор социально экономического развития**

*Анализ и исследование факторов, имеющих важное значение в социально-экономическом развитии научного потенциала Азербайджанской Республики и подготовить предложения и рекомендации по повышению эффективности.*

***Ключевые слова:*** *научный потенциал, глобализация, производительность, экономическое развитие, общество, кадровой потенциал, человеческие ресурсы, социально-экономическое развитие*

**Summary**

***Niftaliyev N.F.***

**Scientific potential – as a Factor of Socio-Economic Development**

*The aim of the research is to investigate and analyze the role of scientific potential in socio-economic development of the Republic of Azerbaijan, and to give suggestions and recommendations in direction of increasing efficiency.*

***Key words:*** *scientific potential, globalization, profit economic development, society, personnel potential, human resources, social and economic development*

## TURİZM BİZNESİ VƏ ONUN SOSİAL-İQTİSADİ İNKİŞAFDA ROLU

***Orucəliyeva B.Ə.***

*Sumqayıt Dövlət Universiteti*

**Orucov T.M.**

*Abşeron rayon Maliyyə idarəsi*

**Xülasə.** *Məqalədə turizmin sosial-iqtisadi mahiyyəti aydınlaşdırılır. Turizm xidmətləri bazarına olan tələb və təklif tədqiq edilir. Turizm biznesinin inkişaf etdirilməsi istiqamətləri və bu sahədə qanunvericilik bazasının rolu araşdırılır.*

***Açar sözlər:*** *turizm biznesi, turizm bazarı, turizm xidməti, tələb, təklif*

Turizm müasir dövrdə bütün dünya ölkələrinin iqtisadiyyatında ən mühüm sahələrdən birini təşkil edir. Son illər ərzində bu sahə daha da yüksəlmiş və günbəgün genişlənir. Xüsusən, dünya sosializm sistemi iflasa uğradıqdan sonra keçmiş sosialist ölkələrində, o cümlədən Sovet İttifaqından qopub ayrılmış dövlətlərdə turizm xidmətləri bazarının inkişaf etdirilməsinin vacibliyi ön planda dayanır. Azərbaycan həmin ölkələrdən biridir və burada da turizm xidmətləri bazarına diqqətin artırılması onun inkişaf strategiyasının işlənib hazırlanması, qanunvericilik bazasının yaradılması, bu sahə üçün mütəxəssislərin hazırlanması qarşıda duran problemlərdir. Turizm ümumi xidmətlər sektorunda əsas sahə olub, dünya üzrə xidmətlər ixracında 30 faiz paya malikdir. Turizm sənayesinə daxil olan müəssisələr əsasən nəqliyyat, səyahətlərin təşkili, turizm informasiyaları, yaşayışla təminat və s. kimi xidmətlər təklif edirlər.

Turizm sosial-iqtisadi mahiyyəti, onun sahə, funksional vəzifələri bu sahənin tədqiqi sahələrini və uyğun metodiki aspektləri uyğunlaşdırılır. İlkin mövcud turizmin kompleks təminatı bu sahəyə olan tələbatla müəyyənləşir. Ümumiyyətlə, müşahidələr göstərir ki, turizm dövlətlərin, xalqların sosial, iqtisadi, mədəni, maarif və beynəlxalq münasibətlərinə bilavasitə təsir edən mühüm fəaliyyət kimi qəbul edilir. Belə ki, turizmin inkişafı millətlərin sosial-iqtisadi inkişafından asılı olub, insanın məhsuldar çalışması üçün ciddi humanitar xarakter daşıyan asudə vaxt çərçivəsində fəal istirahət, məzuniyyət və sərbəst səyahət etmək imkanı əldə etməsindən asılıdır. Turizm sektoru və xidmətləri insanların bir ölkədən digər ölkəyə hərəkətini stimullaşdırır ki, bu da yekunda dünya xalqları arasında inteqrasiyanı sürətləndirməklə dünyəvi sülhün möhkəmliyinə təkan verir. Eyni zamanda, turizmin özü də, məhz bu sabitlik və sülhdən çox asılıdır [4, s. 83].

Nəhayət, turizmin iqtisadi problemlərinə yanaşmalarda ölkədaxili turizmlə beynəlxalq turizmi eyniləşdirən və fərqləndirən əlamətlərə xüsusi fikir vermək lazımdır. Məsələn, hər hansı bir bölgədə turist yerləşdirən fiziki şəxslər və ya turist kompleksinə sahib olan firmalar üçün turistin mənşəyi önəmli deyil. Bundan fərqli olaraq, öz növbəsində, turizmin müxtəlif kriteriyalara görə təsnifatının böyük nəzəri və praktiki əhəmiyyəti vardır. Belə təsnifat, bir tərəfdən turizmin fenomenin daha dərindən öyrənilməsinə xidmət edir, digər tərəfdən isə turist şirkətlərinin öz fəaliyyətlərini səmərələşdirməyə imkan verir.

Araşdırmalar göstərir ki, turizmin inkişafına dair, eləcə də turizm anlayışının izahına dair nəzəri baxışlarda aktiv və passiv turizm anlayışlarından istifadə olunur. Belə ki, xarici turistlərin ölkəyə gəlməsi bu ölkə üçün aktiv turizm, ölkə vətəndaşlarının xarici ölkəyə turizm məqsədilə getməsi isə passiv turizm

adlanır. Lakin bəzi məlumatlarda aktiv turizm dedikdə, istirahət prosesində turistin yüksək intensiv fəaliyyəti, passiv turizmdə isə zəif intensiv fəaliyyəti nəzərdə tutulur. Ümumilikdə isə, ayrı-ayrı meyarlara görə Ümumdünya Turizm Təşkilatı turizm növlərini aşağıdakı kimi təsnifləşdirir: ixtisaslaşdırılmış, konqres, rekreasiya, elmi, sosial, gənclik, ahıllar turizmi.

Turizm fəaliyyəti ilə sosial, iqtisadi, ekoloji və s. sahələr qarşılıqlı təsirdə olur. Belə ki, turizm bu sahələrə və əksinə həmin sahələr də öz növbəsində ona təsir göstərir. Məhz müvafiq istiqamətlərdə həyata keçirilən sosial-iqtisadi tədbirlər nəticəsində regiona turist axını yaranır. Nəticədə turizm biznesi ilə məşğul olan həmin region ora axın edən turistlərdən mənfəət əldə edir, gəlir götürür. Qonaqlara xidmət edilməsindən əldə edilən gəlir ilkin kapital kimi həmin regionun sosial-iqtisadi inkişafında mühüm rol oynamaqla, regionun daimi sakinlərindən alınan gəlirlərdən həcm və mahiyyət baxımından daha çox əhəmiyyət daşıyır. Belə ki, turizm biznesindən əldə edilən gəlir dövriyyəyə daxil olmaqla, tezliklə öz səmərəsini də verə bilir. Regionda daha çox xidmət satılırsa, bu halda əldə edilən mənfəətin həcmi də yüksək olacaqdır, yəni yerli istehsalın daha da gücləndirilməsi üçün geniş imkanlar yaranacaqdır. Eyni zamanda, turizm sektoru ekoloji baxımdan da region üçün əlverişli hesab edilir. Bu da turizm xidmətlərinin göstərilməsindən əldə edilən gəlirlərin bir hissəsinin landşaftın qorunub saxlanılmasına sərf edilməsilə mümkündür. Turizm xidmətləri bazarının inkişafı kənd təsərrüfatı, tikinti və yerli sahibkarların yaratdığı iqtisadi potensialın istifadəsi ilə öz imkanlarını artırır [5, s.94].

Turizm xidmətləri bazarının fəaliyyəti ona olan tələb və təkliflə müəyyənləşir. Bu tip xidmətlər bazarının fəaliyyətini aşağıdakı sxem vasitəsilə əks etdirmək olar.




**Şəkil 1. Turizm xidmətlərinə olan tələb və təklif [4, s. 60]**

Turizmin inkişafı sistematik nəzarət üzrə təmin olunur. Turizmin tədqiqində əsas səbəb və nəticə əlaqələri seçimlərin uyğunlaşması prinsipləri əsasında formalaşdırılır.

Aşağıdakı cədvəl vasitəsilə turizm üçün xarakterik sahələr üzrə əsas göstəriciləri təhlil edək.

**Cədvəl.**

**Turizm üçün xarakterik sahələr üzrə əsas göstəricilər**

| | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| Turizm üçün xarakterik sahələrdə çalışan işçilərin sayı, nəfər | 40892 | 41886 | 49449 | 43477 | 46837 |
| Turizm üçün xarakterik sahələrdə yaradılmış əlavə dəyərin həcmi, milyon manat | 2080,2 | 2404,2 | 2437,3 | 2746,1 | 3151,0 |
| Turizm üçün xarakterik sahələrdə yaradılan əlavə dəyərin ölkənin ümumi daxili məhsulunda xüsusi çəkisi, faizlə | 3,6 | 4,1 | 4,5 | 4,5 | 4,5 |
| Turizm üçün xarakterik sahələr üzrə qoyulan investisiyaların həcmi, milyon manat | 1371,00 | 2204,00 | 1063,9 | 363,0 | 267,3 |

Cədvəlin məlumatlarından göründüyü kimi Azərbaycanda turizm üçün xarakterik sahələr üzrə əsas göstəricilər son 5 il ərzində artmışdır. Belə ki, təkcə 2016-cı illə müqayisə etsək, görərik ki, 2017-ci ildə turizm üçün xarakterik sahələrdə çalışan işçilərin sayı 3360 nəfər və yaxud 7,7%, yaradılmış əlavə dəyərin həcmi 4049 milyon manat və yaxud 14,7% artmışdır. 2013-cü illə müqayisədə isə turizm üçün xarakterik

sahələrdə çalışan işçilərin sayı 5945 nəfər və yaxud 14,5%, yaradılmış əlavə dəyərin həcmi 10708 milyon manat və yaxud 51,4% artmışdır.

Azərbaycan Respublikasında "2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsinə dair sərəncam bu sahədə inkişaf meyllərinin dərinləşməsi üçün əlavə imkanlar açır. Proqramda turizm sənayesinin qeyri-neft sektorunun aparıcı sahələrindən birinə çevrilməsi üçün kompleks tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur [1].

Bundan başqa Azərbaycanda 4 iyun 1999-cu il tarixində "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu və 29 dekabr 2017-ci il tarixində isə "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir ki, bu qanunlarda da Azərbaycan Respublikasında turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönəldilmiş dövlət siyasətinin prinsipləri, turizm fəaliyyətinin əsasları müəyyən edilmişdir. Həmçinin, həmin qanunlara uyğun olaraq turizm sahəsində meydana çıxan münasibətlər tənzimlənir, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydası müəyyənləşdirilir [2,3].

Ümumiyyətlə, turizm xidmətləri bazarı fəaliyyət sahəsidir ki, onun inkişafı insanların həyatı ilə birbaşa əlaqədardır. Bu mənada firmada təşkilati strukturun təşkili turizm sektorunun inkişafı üçün və turistlərə lazımi xidmətlərin göstərilməsinin əsas amillərindən biri kimi qəbul edilir. Təcrübə göstərir ki, təşkilati strukturların düzgün qurulmasından asılı olaraq infrastruktur sahələrin düzgün seçilməsi də mühüm əhəmiyyət kəsb edir. Bu mənada turizm inkişafı üçün nəqliyyat xidmətlərinin təşkili ilə birbaşa bağlıdır. Ümumilikdə isə nəqliyyat vasitəsi seçimi turistin gəldiyi ölkənin coğrafi mövqeyindən çox asılıdır. Məhz buna görə turizm idarələri qanunla tənzimlənir. Bu qanun son illərdə Azərbaycanda baş verən struktur dəyişikliklərinə uyğun olaraq təkmilləşir, yeni müddəalar müəyyənləşir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasında "2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" haqqında Sərəncam.6 aprel 2010-cu il.
2. "Turizm haqqında" Azərbaycan Respublikasının 674-IQ nömrəli Qanunu. Bakı şəhəri, 4 iyun 1999-cu il.
3. "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 29 dekabr 2017-ci il
4. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə olunması. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2010, 529 s.
5. Soltanova H.B., Hüseynova Ş.H. Turizmin əsasları. Bakı: Mütərcim nəşriyyatı, 2007, 316 s.


## Резюме


***Оруджалиева Б.А.,Оруджев Т.М.***


**Туристический бизнес и его роль в социально-экономическом развитии**


*В статье раскрывается социально-экономическая сущность туризма. Исследуются спрос и предложение на рынке туристических услуг. Рассматриваются направления развития туристического бизнеса и роль правовой базы в этой отрасли.*



***Ключевые слова:*** *туристический бизнес, туристический рынок, туристический сервис, спрос, предложение*


## Summary


***Orujalieva B.A, Orucov T.M.***


**Tourism Business and its Role in Socio-Economic Development**


*We study the supply and demand in the tourism market. The directions of development of tourism business and the role of the legal framework in this industry are considered.*



***Key words:*** *tourism business, tourism market, tourism service, demand, supply*

# QLOBALLAŞMA, TƏHSİL VƏ İNSAN KAPİTALI

***Şahbazov K.A.***
*UNEC*

***Xülasə.*** *Azərbaycanda fəaliyyət göstərən amillər öz milli və regional xüsusiyyətlərinə malikdir. Bu amillərin təsiri əsasən insan kapitalının əsas göstəricilərinin - təhsilin artımını müəyyənləşdirir. Bu məqalənin müəllifi respublikada idarəetmə təhsilinin formalaşmasına və inkişafına təsir edən əsas mexanizmləri müəyyən etməyə çalışır.*

***Açar sözlər:*** *idarəetmə, innovasiyalı idarəetmə, təhsil, start-up, biznes*

Ayrı-ayrı dövlətlərin inkişaf xüsusiyyətləri o, dərəcədə özünə məxsus və çox amillidir ki, təhsilin aktuallığı və effektivliyinin yüksəltməyin vahid qlobal reseptini formalaşdırmaq mümkünsüzdür. Bu inandırıcı surətdə sübut edir ki, sürətlə inkişaf edən elmlərdən biri olan menecmenti bütün dövlətlər üçün vahid şəkilə salmaq və onda ayrı-ayrı xalqların mentalitetini, mədəniyyətini, tarixini və ənənələrini əks etdirmək qeyri-mümkündür.

Azərbaycan təhsil sistemində, xüsusilə də müasir innovativ və kreativ menecerlərin hazırlanması sistemində baş verən dəyişikliklər dünyanın qabaqcıl universitetlərinin təcrübəsinə əsaslanaraq müvafiq dəqiqləşdirmələr tələb edir. Biz belə bir fikri tamamilə təsdiqləyirik ki, ölkə iqtisadiyyatının modernləşdirilməsi yeni təfəkkürlü kreativ menecerlərsiz qeyri-mümkündür.

Bu gün  digər postsovet ölkələrində olduğu kimi respublikamızda menecmentin əsas vəzifəsi innovativ menecmentin iqtisadiyyatın bütün sferalarına effektiv adaptasiya problemini tədqiq etməkdir. Qloballaşma ölkə  vətəndaşları qarşısında yeni olan hər şeyin ictimai həyata çox sürətlə tətbiq edilməsilə xarakterizə olunan çox ciddi tələblər qoyur. Əgər cəmiyyət bu yeniliklərə adaptasiya olunmazsa o,rəqabət qabiliyyətliliyini itirəcəkdir. Azərbaycanda innovasiyalı menecmentin məqsədi inovativ texnologiyalar sahəsində ciddi sıçrayışa və təhsil sahəsində effektiv və davamlı artıma nail olmaqdır.

Təhsil – bu tələbənin bütövlükdə təhsil müəssisəsi ilə və xüsusilə də müəllimlər və tələbələrlə qarşılıqlı təsirdə əks etdirdiyi biliklərin məcmusudur. Daha dəqiq desək,təhsil bu tədris müəssisələri ilə kompleks qarşılıqlı təsir nəticəsində tələbədə baş verən pozitiv dəyişikliklər prosesidir.

Təhsil – bu insanın dəyişməsi prosesidir.Təhsil alaraq insanlar dünyagörüşlərini dəyişirlər vəəvvəllər malik olmadıqları yeni keyfiyyətlərə malik olurlar.

Biznes-elm-təhsil sosial üçbucağı bugünkü inkişafın zəruri şərtidir. Yalnız, biznes-hakimiyyət-təhsil modelinin qarşılıqlı təsiri çərçivəsində innovativ iqtisadiyyatdan danışmaq olar.

İdarəçilik təhsili sistemi özündə peşəkar menecerlərin, həmçinin gələcəkdə potensial menecer ola biləcək iqtisadiyyat, maliyyə, mühasibat uçotu, hüquq, sosiologiya və digər bilik sahələrində mütəxəssislərin hazırlanması elementləri və amillərinin məcmusunu birləşdirir.

Bir sıra təhsil prosesləri üçün eksperiment əsasında təhsil vermə böyük əhəmiyyət kəsb edir.Bu tip təhsil ideyanın praktika ilə əlaqəsini formalaşdırmağa imkan verir.Belə təhsil ancaq tələbənin başında toplanan biliklərin, cızılan sxemlərin reallığa çevrilməsinə kömək etmir, eyni zamanda tələbədə müəyyən vərdişlərin yaranmasına, müəyyən bacarıqların formalaşmasına kömək edir.

Təhsilin daha kompleks və eyni zamanda daha nəticəli metodu hərəkətlə, təsirlə təhsildir.Bu tip təhsil vermədə real vəzifələr real şəraitdə həll etmək formasında, başqa sözlə real şəraitə maksimum dərəcədə daha yaxın formada həyata keçirilir.

Bu işdə təbii rəqabət şəraitində qarşıya qoyulan vəzifələrin həlli prosesində əvvəlki bütün təhsil proseslərinin qarşılıqlı əlaqəsini müşahidə edirik.Əgər idarəçilik təhsilindən danışsaq, onda hərəkətlərlə (təsirlə) təhsil vermənin yüksək effektivliyi geniş şəkildə danılmaz fakt our.Əgər, idarəçilik təhsili kursu ilə keçmiş məzunun profilini təsvir etməyə cəhd etsək onda o, özündə mütləq üç qrup qabiliyyət və keyfiyyəti birləşdirməlidir:

- situasiyanı başa düşmək qabiliyyətini;
- müəyyən vərdiş və bacarıqları;
- müəyyən davranış tərzini.

Beləliklə, situasiyanı başa düşmək qabiliyyətinin olması əxz edilmiş (mənimsənilmiş) biliklərin müəyyən dərəcədə üç obyekt (biznes mühiti; insan; təşkilat və təşkilati proses) üzərində cəmləşdirilməsi deməkdir.

Ölkəmizdə sənaye sahəsində innovasiyaların inkişafına yönəlmiş dəyişikliklər baş verməkdir. Texnoparkların və startapların işini təşkil etmək və onların qlobal innovasiya cəmiyyətinə inteqrasiyasının başlanmasına dövlət tərəfindən diqqət yetirilir.

Müasir idarəetmə təhsili inteqrasiya olunmuş peşəkar idarəetmə təhsili və məcburi yenilik-intellektual (yəni süni intellekt) təhsilin simbiozudur. Müasir dövrümüzdə məktəblərin yaradılması – idarəetmədir. İdarə məktəbləri tamamilə fərqli məqsədlər üçün biznes məktəblərindən fərqlənir və cəmiyyətdə əsas inteqrasiya rolunu, yəni idarəetmə, onun düzgün təşkilini oynayır, biznes qurumlarına yüksək mənfəət gətirir.

Yüksək peşəkar menecerlər (siyasətçilər deyil) iqtisadi prosesləri idarə edirlər, onların bilik və bacarıqları bir təşkilatın uğurunu təmin edir.

Beləliklə Azərbaycan iqtisadiyyatının modernləşdirilməsi problemlərini həll etmək üçün aşağıdakılar zəruridir:

- innovativ inkişaf yoluna yönəlmiş yeni sənaye siyasətinin yaradılması;
- sənaye siyasətinin idarəetmə strukturunun yaradılması;
- texnoloji inkişaf prosesinə aktiv hökumət müdaxiləsi;
- yeni sənaye siyasətinin uğurla həyata keçirilməsi üçün saytların (klasterlərin) yaradılamsı;
- yüksək texnologiyalarla işləmək üçün təlim proqramları yaratmaqla kadrlara diqqət yetirilməsi.

Sadalanan təkliflər sənaye və xidmət sektorlarının inkişafı ilə bağlı olan iqtisadi inkişafın yeni bir modelinə keçidə şərait yaradır.

Təcrübəli kadrların təhsili sənayenin istehsalının iqtisadi səmərəliliyini artıra bilər, texnoloji durğunluğun aradan qaldırılmasına kömək edə və yeni sənaye inqilabında irəliləyiş edə bilər.

Belə müasir çağırışlar tətbiq olunmazsa, Azərbaycan rəqabətə davam gətirə bilməyəcək. Buna görə də innovasiyalı idarəetmənin məqsədi yeni texnologiyaların iqtisadiyyata tətbiqi və idarəetmə təhsili sahəsində effektiv artımın sürətlə inkişafıdır. Yeni minilliyin paradiqması əqli əməyin məhsuldarlığının artırılması, onun ölçülmə metodlarını mənimsəməsi, biliklərə çevrilir. Bütün bunlar tamamilə idarəetmə təhsilinə aiddir.

Nəticədə, yaradıcı menecerlərin təhsili yeni bir təhsil standartlarına əsaslanmalıdır ki, bu da tamamilə yeni bir yanaşma təmin edəcəkdir: vahid bir sistemin yaradılması: hökumət, biznes və universitetlər. Sosial üçbucaq: biznes, elm cə təhsilin inkişafı üçün zəruri şərtdir. İnformasiya texnologiyaları bu problemi həll edə bilər.

Eyni zamanda, bu vəziyyətdə insan kapitalının inkişafı problemi həll ediləcək, əsas göstəricisi olan ali təhsildir (bu vəziyyətdə yüksək ixtisaslı menecerlərin hazırlanması). Menecerlərin təlimində baş verən dəyişikliklər müasir dünya universitetləri ilə əməkdaşlıq tələb edir.

Öyrənmə prosesinin özü real təcrübə ilə sintez edilməlidir. Qloballaşma şəraitində, iqtisadi və sosial proseslərdə dəyişikliklərin sürəti, innovativ yeniliklərin təkrarlanması, istehsal sahəsindəki tətbiqlərin, innovativ fəaliyyətlərin keyfiyyətcə yeni əsaslarla intensivləşdirilməsi bütün dünyada sürətlə inkişaf edir. Əslində, bu, qloballaşmanın "müsbət yüklənmə" təsiridir ki, bu da bir sıra ölkələrdə artan yenilikləri, qabaqcıl texniki standartlar və yeni idarəetmə təcrübələrini əhatə etməsinə imkan verir. Proqnozlara görə, yaxın və orta müddətli gələcəkdə qlobal iqtisadiyatın bölməsi bu xüsusi amilin təsirindən yaranacaq.

İnnovasiya yolu ilə sənaye istehsalının inkişafı yalnız elmi və texnoloji potensialın gücləndirilməsi və təhsil imkanlarının genişləndirilməsi sayəsində mümkündür.

Ali təhsil problemləri, ilk növbədə yüksək peşəkar, ixtisaslaşmış menecerlərin hazırlanmasıdır; ikinci, tələbələrin prosesə kütləvi cəlb edilməsi (startap vasitəsilə), rəqabətə davam gətirə biləcək innovativ məhsulların yaradılmasıdır. Bu situasiyada dövlətin rolu aşağıdakılardır: a) startapların işinin koordinasiyası, texnoparklar və bir daha texnoparkların yaradılması; b) onların fəaliyyəti üçün iqtisadi stimullar.

Dünyanın müxtəlif universitetlərində toplanmış borc alınan iş ideyalarından da istifadə etmək mümkündür. Eyni zamanda Respublikanın biznes ideyalarının və resurs potensialının sintezinə əsaslanan inteqrasiya olunmuş texnoparkların yaradılması məqsədəuyğun hesab edirik.

## Ədəbiyyat

1. Druker P. XXI əsrdə ingilis dilindən tərcümə olunmuş menecmentin vəzifələri. M. Williams Nəşriyyat Evi, 2004.
2. Tvise B. Yeniliklərin idarə edilməsi. M.: İqtisadiyyat, 2009.
3. Jacobson A.Ya. İnnovasiyalı idarəetmə: Tutorial. M: Omega-L., 2014.

**Резюме**

***Шахбазов К.А.***

**Глобализация образования и человеческого капитала**

*Факторы в Азербайджане имеют свои национальные и региональные особенности. Влияние этих факторов в первую очередь определяет основные показатели человеческого капитала - рост образования. Автор данной статьи пытается определить основные механизмы, влияющие на становление и развитие управленческого образования в республике.*

***Ключевые слова:*** *менеджмент, инновационный менеджмент, образование, стартап, бизнес*

**Summary**

***Shahbazov K.A.***

**Globalization Education and Human Capital**

*Factors in Azerbaijan have their own national and regional characteristics. The influence of these factors primarily determines the main indicators of human capital - the growth of education. The author of this article is trying to identify the main mechanisms influencing the formation and development of management education in the country.*

***Key words:*** *management, innovative management, education, start-up, business*

# SOSİAL-İQTİSADİ SİYASƏTİN MÜASİR DÖVRÜN TƏLƏBLƏRİNƏ UYĞUN OLARAQ İNKİŞAF ETDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

***Şəkərəliyeva Z.A.***

*UNEC*

Ümummilli lider Heydər Əliyevin sosial-iqtisadi siyasət strategiyasının tətbiqi nəticəsində 1995-ci ildən etibarən Azərbaycan Respublikasında inkişafın yeni mərhələsi - bərpa və dinamik tərəqqi dövrü başlanmışdır. 1995-2003-cü illərdə ümumi daxili məhsul 90,1 %, dövlət büdcəsinin gəlirləri 3,9 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 22,4 %, kənd təsərrüfatı istehsalı 52,8 %, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların orta aylıq əməkhaqqı 6,2 dəfə artdı, inflyasiya səviyyəsi 2-3 %-ə qədər endirildi.Nəticədə, siyasi və makroiqtisadi nöqteyi-nəzərdən dəyişməz, mütəmadi və dayanıqlı iqtisadi tərəqqiyə malik ölkə, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş, qlobal enerji və nəqliyyat layihələrinin fəal iştirakçısı, beynəlxalq tədbirlər məkanı kimi tanınan Azərbaycanın indiki uğurları məhz Heydər Əliyev siyasətinin layiqincə davam etdirilməsinin məntiqi nəticəsidir.

Prezident İlham Əliyevin dediyi kimi: "Heydər Əliyev bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın azadlığının əbədi, dönməz olmasında, iqtisadi potensialının güclənməsində, bölgədə və yer üzündə nüfuzunun artmasında onun müstəsna xidmətləri var. İndi bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu azad Azərbaycan yaşayacaqdır"

Azərbaycanda 1993-cü ildən başlayaraq əsası Heydər Əliyev tərəfindən qoyulan və həyata keçirilən enerji siyasəti çox maraqlı mərhələləri keçib. 2018-ci ilin may ayının 29-da Səngəçal terminalında "Cənub Qaz Dəhlizi" layihəsinin açılış mərasiminə prezident İlham Əliyev vurğulayıb: «TANAP layihəsi «Cənub Qaz Dəhlizi»nin önəmli hissəsidir. Biz gələn ay TANAP layihəsinin istifadəyə verilməsini də qeyd edəcəyik. Qeyd etdiyim kimi, 2014-cü il sentyabrın 20-də, o da çox rəmzi məna daşıyır, çünki «Əsrin kontraktı» 1994-cü il sentyabrın 20-də imzalanmışdır, 20 ildən sonra «Cənub Qaz Dəhlizi»nin təməli qoyulmuşdur. Bu gün biz bu layihənin rəsmi açılışını qeyd edirik və bu, doğrudan da böyük və tarixi hadisədir».

Qeyd etmək lazımdır ki, «Cənub Qaz Dəhlizi» nəhəng infrastruktur layihəsidir. Onun icrasına 45 milyard dollardan çox sərmayə qoyulub. İndiki maliyyə böhranı şəraitində bir layihəyə bu dərəcədə kapital qoyulması onun iqtisadi ilə yanaşı, siyasi və geosiyasi əhəmiyyətini də göz önünə çəkir. Burada şübhəsiz ki, Azərbaycanın kifayət qədər qaz ehtiyatına malik olmasına olan inam da mühüm rol oynayıb. Belə ki, «Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir.

TANAP Layihəsi Xəzər Dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından və Xəzər Dənizinin digər sahələrindən hasil edilən təbii qazın Türkiyəyə və öz növbəsində bu ölkədən Avropaya nəqlini nəzərdə tutur. TANAP Cənubi Qafqaz Boru kəməri (CQBK) və Trans-Adriatik Boru Kəməri (TAP) ilə birlikdə "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan bir layihədir.

Azərbaycanın Dövlət başçısı İlham Əliyev vurğulayıb: « ... Amerika Birləşmiş Ştatları bütün layihələrimizdə bizə böyük dəstək olub, bizə kömək göstərib, həm siyasi dəstək, həm mənəvi dəstək ... Böyük Britaniya hökuməti də həmişə bizim yanımızda olub ... Böyük Britaniya hökuməti bu layihələrin reallaşmasında həmişə bizə dəstək göstərmişdir, biz bu dəstəyi bu gün də hiss edirik ... Avropa İttifaqı bu layihənin icrasında çox önəmli rol oynamışdır.

Amerikanın prezidenti Donald Tramp «Cənub Qaz Dəhlizi»ni «inanılmaz nailiyyət», ABŞ və Azərbaycanın 30 illik əməkdaşlığının «mühüm nailiyyəti» adlandırıb. Azərbaycanın böyük neft yataqları dünya enerji bazarına sabitlik gətirir. Sizin qaz hasilatınız isə Türkiyə və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə töhfə verəcəkdir».

Azərbaycan bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib. Regionda heç bir irimiqyaslı layihə Azərbaycanın iştirakı və razılığı olmadan həyata keçirilmir. "Əsrin müqaviləsi" çərçivəsində reallaşan "Bakı-Tbilisi-Ceyhan" Əsas İxrac Boru Kəməri artıq neftimizi dünya bazarına çıxarır. Bu kəmər həm Cənubi Qafqazda təhlükəsizliyin təmin olunmasında, həm də xalqımızın daha firavan yaşamasında mühüm rol oynayır.

Azərbaycan və Türkiyənin mühüm birgə meqalayihələri sırasına regionun təhlükəsizliyinin təminatında ciddi əhəmiyyəti olan Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) qaz kəmərləri daxildir.

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin İzmir şəhərində "Star" neft emalı zavodunun açılış mərasimində çıxışı zamanı deyib**:** "Türkiyənin gücü bizim gücümüzdür. Türkiyə nə qədər güclü olarsa, biz də bir o qədər güclü olacağıq. Bizim gücümüz birliyimizdədir".

Qeyd etmək lazımdır ki, Azərbaycan hazırda nəinki özünün, eləcə də dünyanın enerji təhlükəsizliyi məsələlərinə öz layiqli töhfəsini verir. Dünya ölkələri, xüsusən də Qərb enerji təhlükəsizliyi kimi ciddi problemin həllində Azərbaycanla daha sıx əməkdaşlıq qurmaqda marağını açıq şəkildə ortaya qoyub. İndi söhbət məhz Azərbaycanın fəal iştirakı ilə Xəzər-Qara dəniz-Aralıq-Baltik dənizləri və Avropa İttifaqı regionunda enerji əməkdaşlığının geniş formatı haqqında gedir. Təbii ki, neft amilinin ölkəmizin iqtisadi və siyasi həyatında strateji əhəmiyyəti və xüsusi yeri vardır. Lakin Azərbaycan rəhbərliyi çalışır ki, ölkə neft amilindən asılı olmasın. Buna görə də qeyri-neft sektoruna aid layihələrin reallaşmasının sayı da durmadan artmaqdadır.

Aparılmış tədqiqatlar göstərir ki, artıq dövlətlərin iqtisadi üstünlüyü də məhz texnologiyalara yiyələnməyə, onları mənimsəmə gücünə əsaslanır. Bir sözlə, iqtisadi qüdrəti müəyyən edən meyarların, qazanılan makro və mikro iqtisadi göstəricilərin önündə bu gün məhz həmin ölkələrdə informasiya-kommunikasiya texnologiyalarının tutduğu yer və onun inkişafı dayanır. Texnoloji proseslərin, innovasiyaların insanlara xidmət, korrupsiyaya qarşı mübarizə, şəffaflıq, yenilik baxımından müasir dünyamızın əsas tələbinə çevrildiyi belə bir mühitdə ölkəmiz də qlobal çağırışlardan kənarda qalmayıb. Bu reallıqları əsas tutaraq ölkə Prezidenti İlham Əliyev 2013-cü ili Azərbaycan Respublikasında "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edib.

Bu gün Azərbaycan İKT-nin inkişaf göstəricilərinə görə inkişaf etməkdə olan ölkələrlə inkişaf etmiş ölkələr arasında qiymətləndirilir və son 5-7 ildə ən dinamik inkişaf edən 10 ölkə qrupuna daxildir.

Ölkəmizdə neft sektoru ilə yanaşı, qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirilir. Bu işdə iqtisadi islahatların, regionların sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət Proqramlarının həyata keçirilməsi müstəsna rol oynayır. Məhz bunların sayəsində regionlarda sahibkarlıq inkişaf edir, yeni iş yerləri yaradılır.

Qeyd etmək lazımdır ki, Azərbaycan yoxsulluqla mübarizə sahəsində fəal siyasətə və uğurlu təcrübəyə malik olan, bu sahədə mühüm addımların atıldığı və müsbət nəticələrin əldə edildiyi ölkələrdən biridir.

2003-2005-ci illər üçün Azərbaycan respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın başa çatması ilə əlaqədar olaraq 15 sentyabr 2008-ci il tarixdə Prezident cənab İlham Əliyev tərəfindən "2008-2015-ci illərdə Azərbaycan respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" təsdiq edilib. Bu proqram, habelə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı məqsədilə təqsirlənərək uğurla icra olunan dövlət proqramları, eləcə də digər vacib sənədlər, aparılan məqsədyönlü dövlət siyasəti respublikada uzunmüddətli sosial-iqtisadi inkişafı təmin edib.

Milli iqtisadiyyatın son 15 il ərzində 3,2 dəfə, o cümlədən sənaye 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artıb. Bundan başqa, qeyri-neft ixracı 4,7 dəfə artıb. Bundan başqa əmək haqlarının təxminən 7 dəfə minimum əməkhaqqının 23 dəfə, pensiyaların 9 dəfə artdığı, 3,1min məktəbin, 640-dan çox xəstəxananın, eyni zamanda çoxsaylı sosial obyektlərin tikilərək istifadəyə verildiyi, 92 müasir qəsəbə və yaşayış kompleksi salınmaqla, 270 minədək məcburi köçkünün müasir şəraitli mənzillərlə təmin olunduğu son 15 ildə ölkəmizdə yoxsulluğun da kəskin şəkildə azalmasına nail olunub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi "Yoxsulluğa qarşı mübarizədə Azərbaycan böyük uğurlara

imza atıb. Demək olar ki, bu məsələlərlə məşğul olan bütün beynəlxalq təşkilatlar bunu nümunə kimi göstərirlər ki, yoxsulluq təxminən 50%-dən 5,1 faizə düşübdür. İşsizliklə bağlı böyük işlər görülüb. İşsizlik Azərbaycanda 5 faiz səviyyəsindədir.

Yoxsulluğun azalmasında əhalinin məşğulluq imkanlarının artırılması da mühüm rola malikdir. 2003-2018-ci illərdə Azərbaycanda 1,5 milyonu daimi olmaqla, 2 milyon yeni iş yeri yaradılıb, məşğulluq imkanları əhəmiyyətli şəkildə artmaqla, əmək bazarında sabitlik, işsizliyin 5 faizə enməsi təmin olunub. Yeni iş yerlərinin açılması daimi xarakter almaqla yanaşı, dövlət məşğulluq xidmətləri, işsiz və işaxtaran vətəndaşların münasib işlərlə təminatı tədbirləri də getdikcə gücləndirilir.

Son illər ölkə iqtisadiyyatında müşahidə olunan dinamik inkişaf, heç şübhəsiz, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının şaxələndirilməsi hesabına qeyri-neft sahələrinin inkişaf etdirilməsi istiqamətində reallaşdırılan tədbirlərin məntiqi nəticəsidir.

Nazirlər Kabinetinin 2019-cu ilin yekunlarına həsr edilmiş iclasında Prezident İlham Əliyev bu məsələnin aktuallığını bir daha diqqətə çatdıraraq demişdir: "Sənaye istehsalı istiqamətində çox ciddi iş aparılmalıdır. Texnoparklar, sənaye klasterləri yaradılmalıdır. Bütün regionlarda sənaye zonaları yaradılmalıdır. Bu məsələ ilə bağlı mən əvvəlki müşavirələrdə də öz fikirlərimi bildirmişdim. İstəyirəm bu istiqamətdə işlər daha da sürətlə getsin ki, biz artıq nəticələri görək". Dövlət başçısının tapşırığına uyğun olaraq artıq Mingəçevir Sənaye Parkının yaradılmasına başlanılıb. Neftçala Sənaye Məhəlləsində isə yaxın üç ay ərzində sahibkarlar tərəfindən ümumi investisiya məbləği 20 milyon manatdan çox olan 7 layihə üzrə müəssisələrin qurulmasına başlanacaq.

Göründüyü kimi, hazırda Azərbaycanda sənayenin, xüsusən də qeyri-neft sənayesinin inkişaf etdirilməsi iqtisadiyyatın şaxələndirilməsi strategiyasının prioritet istiqamətlərindən biri kimi getdikcə daha çox aktuallıq kəsb edir. Bölgələrdə iri sənaye istehsalı zonalarının yaradılması isə neft-qaz ölkəsi olan Azərbaycanı, həm də yaxın gələcəkdə regionun qeyri-neft sənayesinin inkişaf etdiyi bir dövlətə çevirəcəkdir.

Ölkə Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf siyasətinin prioritet istiqamətlərindən biri iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun dinamik inkişafının təmin edilməsi, rəqabətqabiliyyətliliyinin artırılması və həmin sahəyə investisiya qoyuluşunun sürətləndirilməsidir. Bu siyasətə uyğun olaraq görülən işlərin nəticəsidir ki, son illərdə ÜDM-in artımı qeyri-neft sektoru hesabına təmin edilir, rəqabətədavamlı məhsul istehsalı durmadan artır. Qeyri-neft sektoru bu gün Azərbaycan iqtisadiyyatının əsas hissəsini təşkil edir. Biz buna nail olmuşuq və gələcəkdə əlbəttə, çalışmalıyıq ki, qeyri-neft sektoru Azərbaycanın ixrac strukturunda da daha böyük çəkiyə malik olsun".

Azərbaycanda sosial məsələyə mühüm önəm verilir. Prezident İlham Əliyev iclasda bununla bağlı deyib: "Sosial siyasət həmişə prioritet olub və olacaq. Birinci rübdə atılan addımlar bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının maraqları bizim üçün hər şeydən üstündür. Bütün iqtisadi islahatlar, bizim uğurlu neft-qaz siyasətimiz də bu məqsədi güdür ki, insanlar daha da yaxşı yaşasınlar".

Azərbaycan iqtisadi və maliyyə böhranından ən az itkilərlə çıxan ölkələrdən biridir. Belə ki, neftin qiymətinin 3-4 dəfə düşməsinə baxmayaraq, 2018-ci ildə respublikamızda maaşlar və pensiyalar 10 faiz artırılıb. Bu da nadir hadisələrdən biridir. Adətən, hətta neft və qazla zəngin olmayan ölkələr ya maaşları dondururlar, ya kəsirlər, ya maaşların verilməsində problemlər yaşanır. Ancaq dünyada hökm sürən iqtisadi və maliyyə böhranına baxmayaraq, maaşları və pensiyalar artırılıb.

Son 15 il ərzində Azərbaycana təxminən 250 milyard manat sərmayə qoyuldu və bu sərmayənin yarısı xarici investisiyadır. Azərbaycanda olan sərmayə iqlimi xarici investorları həvəsləndirir.

Bunun nəticəsidir ki, Azərbaycan hazırda inkişaf etmiş ölkələr səviyyəsində mükəmməl infrastruktura malikdir. Buna paralel olaraq qeyri-neft sektorunun sənaye, kənd təsərrüfatı, turizm, tikinti, nəqliyyat və digər sahələrinin inkişafı istiqamətində də böyük işlər görülür. Bunun üçün dövlət hər il təkcə sahibkarlara milyonlarla manat güzəştli kreditlər verir. Elə neftin qiymətinin bir il ərzində dörd dəfə ucuzlaşmasına baxmayaraq, ölkədə iqtisadi inkişafın davam etməsi bunun göstəricisidir. Bu gün respublikamızın valyuta ehtiyatları 45 milyard dollar təşkil edir.

Hal-hazırda qeyri-neft sektorunun ixrac potensialının artırılması üçün ilk növbədə milli iqtisadiyyatın özünün diversifikasiyalaşdırılması və modernləşdirilməsi prosesləri başa çatdırılmalı, innovasiyalaşdırılması sürətləndirilməlidir. Bundan əlavə, qeyri-neft sektorunun ölkənin təbii resursları və iqtisadi amilləri nəzərə alınmaqla, dərindən tədqiq edilməsi, onun potensialının obyektiv qiymətləndirilməsi zərurəti diqqəti cəlb edir. Azərbaycan Respublikasının Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində göstərildiyi kimi, ölkə iqtisadiyyatının dayanıqlı inkişafının başlıca istiqamətlərindən biri iqtisadiyyatın və onun ayrı-ayrı istehsal sahələrinin diversifikasiyasıdır. Emal sənayesinin müasir iqtisadi və texniki durumu diversifikasiya meylinin hər vasitə ilə gücləndirilməsini tələb edir. İqtisadiyyatının

diversifikasiyalaşdırılmasının, ÜDM-də özəl sektorun və xidmət sahəsinin payının artırılmasının, sənaye sahələrində, o cümlədən neft-qaz maşınqayırması, neftkimya, metallurgiya, cihazqayırma, tikinti materialları istehsalı, aqrar sektor və kənd təsərrüfatı məhsulları istehsalı sahələrində inkişafın sürətləndirilməsinin, yeni iqtisadiyyat sahələrinin – İKT, turizm və kosmik sənayesinin rolunun gücləndirilməsinin, xarici ticarət dövriyyəsi strukturunun diversifikasiyalaşdırılmasının vacibliyi müasir dövrdə aktuallığı ilə diqqəti cəlb edir.

Qeyd etmək lazımdır ki, respublikamızda yoxsulluğun azaldılması iqtisadiyyatın uğurlu diversifikasiyası, enerji gəlirlərindən səmərəli istifadə olunması, sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradılması, regionların inkişafına xidmət edən dövlət proqramlarının uğurla reallaşdırılması və bu qəbildən olan digər addımlar sayəsində mümkün olmuşdur.

Əsası Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən böyük uğurla həyata keçirilən xarici və daxili siyasət, gerçəkləşən iqtisadi doktrina belə deməyə əsas verir ki, Azərbaycan növbəti illərdə də bu siyasətin davamı sayəsində hərtərəfli inkişaf sürətini daha da artıracaq, həm regional, həm də qlobal səviyyədə öz mövqelərini durmadan möhkəmləndirəcəkdir.

Bütün bunlar isə bizə onu deməyə əsas verir ki, yaxın gələcəkdə Azərbaycan dünyanın ən qüdrətli və sürətlə inkişaf edən dövlətlərindən birinə çevriləcəkdir.

**Ədəbiyyat**


1. Azərbaycanın statistik göstəriciləri. Bakı, 2017
2. Azərbaycan iqtisadiyyatı. Bakı, 2010, s. 310
3. Şəkərəliyev A., Şəkərəliyev Q. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı, 2016, s. 532
4. Azərbaycan-2020:Gələcəyə baxış" inkişaf konsepsiyası. Bakı, 2016
5. Əsədov A., Vəliyev D. Beynəlxalq iqtisadiyyat. Bakı, 2012, 400 s.
6. Yadigarov T. Azərbaycan iqtisadiyyatında dəniz nəqliyyatı: problemlər və perspektivlər. Bakı: Avropa nəşriyyatı, 2018, 350 s.
7. Milli iqtisadiyyatın inkişafına dair Strateji Yol Xəritələri. Bakı, 2016


## POST-NEFT DÖVRÜNDƏ ÖZƏLLƏŞDİRMƏNİN HƏYATA KEÇİRİLMƏSİ MEXANİZMİNİN TƏKMİLLƏŞMƏSİ


***Şirinova R.V.***

*AMEA-nın İqtisadiyyat İnstitutu*



***Xülasə.*** *Məqalədə dövlət əmlakının idarə edilməsi, özəl müəssisələrə dövlətin nə dərəcədə müdaxilə etməsi araşdırılmışdır. Müəyyən sektorlarda isə dövlətin birbaşa müdaxiləsinin vacibliyi qeyd olunmuşdur. Dövlət sektorlarında idarəetmənin keyfiyyətinin artırılması və rəqabətə dayanıqlığı nəzərdən kecirilib.*



***Açar sözlər:*** *özəlləşdirmə, əmlak, müəssisələr, sektor, dövlət*


Dövlət əmlakının idarə edilməsi və özəlləşdirmə dünya iqtisadiyyatının qlobal bir trendidir. Ancaq bu, dövlətin özəl müəssisələrin iqtisadi həyatından tamamilə çıxması demək deyildir. Xüsusilə də müəyyən sektorlarda (ən böyük şirkətlər və dövlət bankları, dövlət şirkətləri) dövlətin birbaşa müdaxiləsi əhəmiyyət kəsb edir. Dövlətin birbaşa iştirakı olan sektorlarda rəqabət kifayət qədər öz əksini tapmır. Fərdi təşəbbüsün və büdcədənkənar resursların cəlb edilməsi üçün motivasiya məhduddur. Dövlət sektorlarında idarəetmənin keyfiyyətinin artırılması üçün nümayəndəlik mexanizmlərinin artırılması, şəxsi təşəbbüslərinin və güclü olduğu sahələrdə modernləşdirmə üçün məhdudiyyətlərin aradan qaldırılması vacibdir.

Yeni aktivlərin böyük şirkətlər tərəfindən alınmasını məhdudlaşdırmaq, iri şirkətlərin özəlləşdirməsində dövlətin iştirakını dərinləşdirmək, onların qeyri-əsaslı bizneslərini təsdiq etmək, mövcud unitar müəssisələrin yeni və coxlu transformasiyasın yaradılmasını məhdudlaşdırmaq lazımdır. Dövlət mülkiyyətinin dövlət idarəçiliyinin keyfiyyəti (ilk növbədə, unitar müəssisələr və səhmdar cəmiyyətləri) obyektiv həddə çatmışdır. Mövcud idarəetmə modelinin qorunması riski çox əhəmiyyət kəsb edir və bu da özəlləşdirilməyə dair hər hansı addımın səmərəliliyinin azaldılmasında mühüm amil ola bilər. 2018 - 2020-ci illərdə dövlət əmlakının və özəlləşdirmə idarəetmə siyasətinin "yeni ölçüyə" keçməsini həyata keçirmək lazımdır, bu da özəlləşdirmə yollarının artan mürəkkəbliyini və idarəetmə modelində keyfiyyət dəyişikliyini əks etdirir.Ölkə səviyyəsində də dövlət müəssisələrinin sayının azalması əsasən formalaşma ilə bağlıdır. İnteqrasiya edilmiş strukturlar və dövlət qurumları eyni zamanda, unitar müəssisələrin özəlləşdirilməsi və

birləşdirilməsi planından ildən-ilə geriləmişdir. Müsbət dinamikanın bərpası iqtisadiyyatdakı böhranın aradan qaldırılması fonunda başlamışdır. Bu, yalnız obyektlərin kəmiyyət göstəriciləri ilə deyil, büdcə gəlirləri ilə də sübutdur.

Dövlət mülkiyyətində qalan səpələnmiş aktivləri inteqrasiya edilmiş strukturlara birləşdirmək siyasəti gücləndirilmişdir. Dövlət əmlak siyasətinin yeni bir xüsusiyyəti dövlət şirkətlərini ortaya çıxmasıdır.

Bir tərəfdən Azərbaycan da daxil olmaqla, müxtəlif ölkələrdə keçirilən çoxillik və çoxsaylı tədqiqatlar göstərir ki, dövlət və qarışıq mülkiyyətə malik sənaye şirkətləri özəl şirkətlərə nisbətən daha az səmərəlidir və özəlləşdirmə iqtisadi artım səviyyəsinə və dərəcəsinə müsbət təsir göstərir. Digər tərəfdən, müasir iqtisadi nəzəriyyə göstərir ki, mülkiyyətin "universal əlverişli" forması yoxdur. Bəzən özəlləşdirmə yenilikçi proqramların dağılmasına gətirib çıxarır [1,s.50].

Beləliklə, indiki mərhələdə özəlləşdirmə ilə bağlı münasibət birmənalı deyildir. Onun əsas xüsusiyyətləri aşağıdakılardır:

• Özəlləşdirmənin səmərəliliyinin təsiri uzunmüddətli ola biləcəyini və onun əldə olunma sürəti ictimai-siyasi və iqtisadi islahatlardan asılıdır;

• Dövlət onun yoxluğuna müdaxiləsinə deyil, maraqlarının nə dərəcədə dəstək olacağına və ən azı, sosial əhəmiyyətli özəlləşdirmə proqramlarının həyata keçirilməsində sosial maraqların konsensusunun təmin olunmasına yönəlib;

• Qloballaşma prosesini və müasir dünya iqtisadiyyatının perspektivlərinin artan qeyri-müəyyənliyini nəzərə alaraq milli dövlətin tənzimləyici rolunu yenidən müəyyənləşdirmək;

• Dövlətin real imkanlarından asılı olaraq funksiyaların balansını və dövlət müdaxiləsinin potensialını optimallaşdırmaq zərurəti;

• Özəlləşdirmə yalnız dövlət əmlakının idarə edilməsi üzrə ümumi siyasət çərçivəsində bir vasitədir. İqtisadi səmərəlilik, mülkiyyət hüququndan daha çox rəqabətə bağlı olduğundan, avtomatik olaraq davamlı və səmərəli müəssisələrin ortaya çıxmasına gətirib çıxarmaz;

• Özəlləşdirməyə inteqrasiya olunmuş yanaşmanın həm xəzinə əmlakının satılmasına, istərsə də digər təsərrüfat subyektlərinin sərmayəsində dominant dövlətin iştirakı ilə ən böyük müəssisələrin və bankların iştirakının azaldılmasına (artımın qarşısını almaq) məqsədəuyğunluq.

XXI əsrin sonunda maliyyə və iqtisadi cəhətdən güclü olan dövlətlər iqtisadi böhranlara məruz qalmadılar. Lakin iqtisadiyyat sabit uzunmüddətli iqtisadi artım mərhələsinə girdikdə, böhran mərhələsində müsbət olan, iqtisadiyyata böyük miqyaslı dövlət müdaxiləsinin təsiri əsasən mənfi olur. Böhran vəziyyətinin yaxşı olması inkişaf modelinin innovasiya komponenti üçün kafidir.

2008-2009-cu illər böhranı dövlət sektorunun geniş miqyaslı böyüməsinə gətirib çıxartmadı, hökumətin böhranlı siyasətin prioritetləri problemli özəl şirkətlərin və bankların birbaşa genişlənmənin azaldılmasına yönəlmişdir. İqtisadiyyatda dövlətin payı həm korporativ idarəetmə bazarında qarışıq sektorun şirkətlərinin hərəkətləri, həm də dolayı dövlətin böhrana qarşı tədbirləri nəticəsində artmışdır. Dövlətsizləşdirmənin (özəlləşdirmə daxil olmaqla) lehinə olaraq, mövcud olan bir sıra ön şərtlər var [2, s.71].

Birinci qrup, son dövr böhranı ilə birbaşa əlaqəli olmayan və əsas təbiətin amillərini ehtiva edir:

- maraqların toqquşması, dövlət mövqeyinin ikili və uyğunsuzluğu (qanunverici, tənzimləyici və iri şirkətlərdəki birbaşa iştirakçı kimi);

- ədalətli rəqabət şəraitinin zəif inkişafı və dövlətin yüksək birbaşa iştirakı olan sektorlarda özəl biznesin investisiya fəaliyyətinin artması;

- birbaşa təsir vasitələrinə malik bir sıra sektorlarda tənzimlənmənin inkişafı üçün dövlətin əhəmiyyətli motivasiyası yoxdur;

- aktivlərin alınmasında dövlətin iştirakı, qeyri-əsaslı aktivlərin genişləndirilməsi daxil olmaqla, dövlətin iştirakı ilə fəaliyyət göstərən iri şirkətlərin fəaliyyəti qeyri-əsaslı müəssisələrdə iştirakın və əsas biznesin investisiya ehtiyaclarının azaldılmasına yönəlmiş səylərlə ziddiyyət təşkil edir;

- dövlət orqanlarının təşkilati və idarəetmə qabiliyyətləri kəmiyyət məhdudiyyətləri ilə xroniki ziddiyyətdədir, ictimai qurumların davamlı miqyası və çoxluğu;

- dövlət sektorunda korporativ idarəetmənin keyfiyyətinin yaxşılaşdırılmasında obyektiv məhdudiyyətlər;

- ictimai təşkilatların çoxluğu, fəaliyyətlərinin səmərəli idarə olunması və idarə olunması üçün dövlət imkanlarının kifayət qədər olmaması;

- böhran dövründə iqtisadiyyatda dövlətin iştirakı və onun birbaşa iştirakının həddindən artıq səviyyəsinin artırılması;

- böhran sonrası dövlətin iqtisadiyyatda iştirakının gücləndirilməsi riski dövlətin böhranlı dəstəklə təminatında girov qoyulan şirkətlərin gələcək taleyinin qeyri-müəyyənlik səbəbindən, bu şirkətlər tərəfindən kreditlərin ödənilməsi üzrə öhdəliklərini yerinə yetirmədikləri üçün;

- dövlət kapitalizm modelinin gücləndirilməsi riski;

- dövlət sektorunda bir sıra iri şirkətlərin rəqabət qabiliyyətinin azaldılması, onların yenidən qurulması və texnoloji yeniləşdirilməsi zərurəti;

- kritik infrastruktur sektorlarının inkişafı daxil olmaqla əhəmiyyətli büdcədənkənar investisiyaların cəlb edilməsinə ehtiyac;

- beynəlxalq maliyyə bazarlarında resurslar üçün daha sərt rəqabət.

**Ədəbiyyat**


1. Bayramov Q.İ. Özəlləşdirmə Dünya təcrübəsi və Azərbaycanın timsalında özəlləşdirmənin nəzəri-metodoloji problemləri və retrospektiv iqtisadi təhlil. Bakı: Elm və həyat nəşriyyatı, 2001.
2. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.
3. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi.



**Резюме**

***Ширинова Р.В.***

**Совершенствование механизма проведения приватизации в пост –нефтяной период развития**

*Статья посвящена управлению государственным имуществом и тому вкакой степени правительство вмешивается в частные предприятия. Подчеркивается прямое вмешательство государства в некоторых секторы. Были рассмотрены улучшение управления и конкурентоспособности в государственном секторе.*

***Ключевыеслова****:,собственность, предприятия, сектор, государство.*



**Summary**

***ShirinovaR.V.***

**Improvement of Implementation Mechanism of Privatization of Post-Oil Term**

*The article deals with the management of state-owned property, the extent to which the government interferes with private enterprises. In some sectors, the direct intervention of the state is emphasized. Improved governance and competitiveness in public sector were reviewed.*

***Key words****: privatization, property, enterprises, sector, state*


## MÜASİR ƏMƏK BAZARININ TƏLƏBLƏRİNƏ UYĞUN YÜKSƏKİXTİSASLI KADRLARIN HAZIRLANMASINDA ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN ROLU


***Tağıyev A.M.***

*Mingəçevir Dövlət Universiteti*



***Xülasə.*** *Məqalə müasir qloballaşma şəraitində Azərbaycanın milli iqtisadiyyatının davamlı inkişafının tənzimlənməsinin prioritet istiqamətlərindən biri kimi müasir əmək bazarının tələblərinə uyğun yüksəkixtisaslı kadrların hazırlanmasında ali təhsil müəssisələrinin roluna həsr olunmuşdur. Məqalədə əsas istinad kimi ölkədə qəbul olunmuş Strateji Yol Xəritələrində qeyd olunmuş problem və çatışmazlıqlara, onların aradan qaldırılması sahəsində ali təhsil müəssisələrinin üzərinə düşən vəzifələrə və digər bu kimi məsələlərə xüsusi diqqət yetirilmişdir.*



***Açar sözlər:*** *milli iqtisadiyyat, Strateji Yol Xəritəsi, qeyri-neft sektoru, əmək bazarı, innovativ iqtisadiyyat, ali təhsil müəssisəsi, davamlı inkişaf.*


Müasir əmək bazarı milli iqtisadiyyatın tərkibində olduqca geniş iqtisadi münasibətlərə və struktura malik, mürəkkəb münasibətlər sistemi əsasında fəaliyyət göstərən, keyfiyyət dəyişikliklərinə daha çox həssas olan bazarlardan biri hesab olunur. Mahiyyət etibarı ilə əmək bazarı müəyyən bir iqtisadi məkan çərçivəsində işəgötürənlərlə (işverənlərlə) işgörənlər (muzdlu işçilər) arasında əmək sahəsində iqtisadi və hüquqi münasibətləri tənzimləyən qarşılıqlı fəaliyyət mexanizmidir. Lakin qeyd etmək lazımdır ki, hazırda bu münasibətlər keyfiyyət baxımından yeni mərhələyə, müasir innovativ iqtisadiyyata və yeni texnologiyalara əsaslanan iqtisadi münasibətlər sistemi mərhələsinə keçmişdir. Artıq əmək bazarında mövcud olan tələbə cavab verə biləcək işçi qüvvəsinin, əmək resurslarının, ixtisaslı kadrların hazırlanması da keyfiyyətcə yeni

mərhələyə keçməli, hazırlanan ixtisaslı kadrların, xüsusilə ali təhsilli kadrların ölkədaxili və dünya əmək bazarlarında rəqabətliliyinin artırılmasına xüsusi diqqət yetirilməlidir. Təsadüfi deyildir ki, AR Prezidentinin 2018-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" nda qeyd edildiyi kimi "Müasir dövrdə təhsilin iqtisadi həyatda artan rolu Azərbaycanda prioritet istiqamət kimi bilik iqtisadiyyatının formalaşdırılmasına və insan kapitalının inkişafına dövlət dəstəyinin davam etdirilməsini, ümumən ölkədə ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılmasını müstəsna dərəcədə əhəmiyyətli edir"[2]. Burada qeyd edildiyi kimi, Dövlət Proqramının əsas məqsədi ölkənin müasir tələblərə cavab verən kadrlara, əmək resurslarına ehtiyacının ödənilməsi, "qara qızılın insan kapitalına çevrilməsi" olmuşdur. Məhz bu məqsədlər Dövlət Proqramının 5.1.6. maddəsində özünün konkret ifadəsini tapmışdır. Orada qeyd edildiyi, kimi gözlənilən nəticələrdən biri "ölkənin əmək bazarının tələbatı əsasında müəyyən olunmuş peşə və ixtisaslar üzrə yüksəkixtisaslı kadr potensialının formalaşdırılmasına nail olunması"dır [2].

Son illərdə Azərbaycan Respublikasında ölkənin sosial-iqtisadi inkişaf konsepsiyasını, strateji inkişaf istiqamətlərini, ixtisaslı kadr hazırlığını əhatə edən dövlət sənədləri içərisində "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" və milli iqtisadiyyatın ayrı-ayrı sektorlarının inkişafı üzrə Strateji Yol Xəritələri haqqında sənədlər özünəməxsus xüsusiyyətləri ilə seçilir. Strateji Yol Xəritələrinin əsas özəl cəhətlərindən biri ondan ibarətdir ki, bu sənədlərdə ölkə iqtisadiyyatının müasir durumu, əldə edilmiş nailiyyətləri, onun üstün cəhətləri ilə birgə eyni zamanda zəif cəhətləri, gələcəkdə gözlənilən təhlükələr öz əksini tapmış, heç nə gizlədilmədən elmi cəhətdən əsaslandırılmış təhlili aparılmış, real vəziyyəti üzə çıxarılmış, onların aradan qaldırılmasını təmin edəcək kompleks tədbirlər sistemi və ya ayrı-ayrı sahələrin inkişafı üzrə xüsusi tədbirlər planları hazırlanmışdır.

"AR-nın milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə ölkənin sosial-iqtisadi inkişafının zəif cəhətlərindən biri kimi konkret olaraq "insan kapitalının inkişafı üzrə zəif qlobal mövqe" göstərilib. Bu isə, faktiki olaraq, ölkəmizdə əmək resurslarından zəif istifadə olunması, əmək resurslarının keyfiyyət baxımından ölkənin əmək bazarının tələblərinə cavab verməməsi və dünya əmək bazarlarında rəqabətə davamlılığının nisbətən aşağı olması anlamına gəlir. Məhz bu problemlərin aradan qaldırılması Strateji Yol Xəritələrində diqqət çəkən məqamlarda biri kimi qeyd olunmuş və bu sahədə ölkənin təhsil sisteminə xüsusi önəm verilmişdir. Belə ki, 2020-ci ilə kimi strateji baxışın əsas müddəalarından biri kimi "müasir tələblərə uyğun təhsil xidmətlərinin inkişafı" nəzərdə tutulub [1, səh.50-51].

Adı çəkilən Strateji Yol Xəritəsinə istinadən qeyd edə bilərək ki, strateji məqsədlərin içərisində nəzərdə tutulmuş 4 əsas hədəfdən biri kimi (bax 7.3. Strateji hədəf 3) "İnsan kapitalının inkişaf etdirilməsi" nəzərdə tutulmuşdur. Burada qeyd edildiyi kimi " İnsan kapitalı əmək məhsuldarlığının artırılmasında, dayanıqlı iqtisadi artımda, istehsal və xidmət sektorlarının rəqabət qabiliyyətinin yüksəldilməsində və ölkənin qlobal bazarlara inteqrasiyasında həlledici rol oynayır". Buna nail olmaq üçün təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi, təlimlər vasitəsilə işçilərin bilik və bacarıqlarının inkişaf etdirilməsində fasiləsizliyin təmin edilməsi, ixtisaslı kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, mövcud insan kapitalından səmərəli istifadə edilməsi tələb olunur. Bunu əsas tutaraq, Azərbaycanda iqtisadiyyatın transformasiyası istiqamətində həyata keçiriləcək islahatların ayrılmaz tərkib hissəsi kimi, insan kapitalının inkişafında fasiləsizliyin təmin edilməsi, əmək məhsuldarlığının yüksəldilməsi və biliyin iqtisadi inkişafda rolunun artırılması ilə bağlı tədbirlər hərtərəfli dəstəklənəcəkdir. Bu, iki səviyyədə təmin ediləcəkdir:

1) insan kapitalının formalaşması və inkişafı üçün təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi;

2) əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün insan kapitalının fasiləsiz inkişafının, araşdırma və təkmilləşdirmə sahəsinə investisiya qoyuluşunun stimullaşdırılması [1, səh.82].

Burada əsas məsələlərdən biri kimi ali təhsil müəssisələrində "təhsil-tədqiqat-innovasiya" formatında inkişafın təşviqinə xüsusi diqqət yetirilir. Sənəddə qeyd edildiyi kimi, "Ali təhsil insan kapitalının formalaşmasında və inkişafında mühüm mərhələdir. Onun insan kapitalının formalaşmasına və inkişafına təsiri özünü iki şəkildə büruzə verir:

1) insan kapitalının formalaşmasında birbaşa iştirak edən ixtisaslı mutəxəssislərin hazırlanması;

2) yeni biliklərin yaranmasında, tətbiqində və ötürülməsində bilavasitə iştirak.

Ali təhsil müəssisələrində yetişdirilən mütəxəssislər dövlətin və şirkətlərin idarə olunmasında, daha çox əlavə dəyərin yaranmasında, iqtisadi artımda və əmək məhsuldarlığının yuksəldilməsində fəal iştirak edirlər. Bunu nəzərə alaraq, Azərbaycanda iqtisadi və sosial baxımdan daha səmərəli ali təhsil sisteminin formalaşdırılması dəstəklənəcəkdir. Bunun üçün ali təhsilin keyfiyyətinin yüksəldilməsi, qlobal təhsil məkanına inteqrasiyası, ali təhsilli kadrlara tələbatın ödənilməsi, habelə ali təhsilin informasiya cəmiyyətinin

və biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğunlaşdırılması istiqamətində islahatlar surətləndiriləcəkdir. Yüksəkixtisaslı kadr hazırlığının əmək bazarının tələbinə və beynəlxalq ixtisas təsnifatına uyğunlaşdırılması, uzunmüddətli proqnozlaşdırma mexanizminin hazırlanması istiqamətində fəaliyyətlər, əmək bazarında differensiallaşmış əməkhaqqı və stimullaşdırma sisteminin yaradılması üzrə mexanizmlərin hazırlanması dəstəklənəcəkdir" [1.səh.87].

Buradan belə bir nəticəyə gəlmək olar ki, bizim, ali təhsil müəssisəsi kimi fəaliyyətimizin əsas istiqamətlərindən biri hazırladığımız mütəxəssislərin daim inkişafda olan əmək bazarının tələblərinə, ilk növbədə, keyfiyyət tələblərinə uyğunluğunun təmin olunmasıdır. Bu olduqca vacib məsələlərdən biridir, çünki ali təhsil müəssisələrinin fəaliyyətinin müasir qiymətləndirmə sistemində əsas göstəricilərdən biri məhz universitet məzunlarının əmək bazarının tələblərinə uyğunluğu, rəqabətqabiliyyətliyi, başqa sözlə onların işlə təmin olunma göstəricisidir.

Bu sahədə hər bir ali təhsil müəssisəsi haqqında konkret söz demək üçün əvvəlcə əsaslı məlumatlar toplanmalı, təhlil aparılmalı və müvafiq nəticə çıxarılmalıdır. Bu sahədə apardığımız araşdırmalara, əldə etdiyimiz məlumatlara əsasənbəzi ixtisaslar üzrə məzunlarımız əmək bazarında kifayət qədər rəqabətqabiliyyətli mütəxəssislər kimi özlərini göstərə bilirlər. Təsadüfü deyildir ki, hazırda fakültəmizin bir çox məzunları dövlət qulluğunda, təhsil sektorunda, bank-maliyyə sektorunda, hərbi qulluq xidmətlərində, dövlət və özəl istehsal və xidmət sektorunda müvəffəqiyyətlə əmək fəaliyyəti ilə məşğuldurlar. Lakin onların xüsusi çəkisi ümumi məzunlarımızın tərkibində o qədər də yüksək deyildir. Təbii ki, bunun obyektiv və subyektiv səbəbləri vardır. Burada əsas problemlərdən biri ölkəmizdə hələ də əmək bazarının təkmil olmamasıdır. Digər bir problem isə ali təhsil müəssisələri tərəfindən buraxılan məzunların bilik səviyyəsinin ən yaxşı halda nəzəri biliklərlə məhdudlaşması və praktiki səriştələrinin olduqca məhdud olmasıdır.

Bu mənada tədris prosesinin təkmilləşdirilməsi və onun əmək bazarının tələblərinə uyğunlaşdırılması istiqamətində aşağıdakı məsələlər üzrə əsaslı tədqiqatların aparılmasını və uyğun müvafiq tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

- məzunlarımızın əmək bazarının tələblərinə uyğunluğunu qiymətləndirmək üçün onların əmək fəaliyyəti haqqında informasiya bazasının yaradılması;
- seminar və məşğələlərin aparılmasının daha da təkmilləşdirilməsi, onların daha çox diskussiya, praktiki tapşırıqların həlli, müxtəlif iş situasiyalarına uyğun işgüzar məsələlərin həlli istiqamətində qurulması;
- mühazirə və məşğələlərdə informasiya-kommunikasiya texnologiyalarından daha geniş istifadə edilməsi;
- tələbələrin referat, kurs işi, sərbəst işlərinin hazırlanması sahəsində praktiki məsələlərə daha çox üstünlük verilməsi, sərbəst işlərinin hazırlanması qaydaları və ya tələbləri haqqında fakültə və ya ümumuniversitet üzrə təlimatın hazırlanması;
- istehsalat təcrübələrin keçirilməsi effektivliyinin daha da artırılması və təkmilləşdirilməsi;
- xarici ölkə universitetlərinin təcrübələrinin öyrənilməsi və onların tətbiqi ilə bağlı əməli fəaliyyətin daha da intensivləşdirilməsi və sair.

**Ədəbiyyat**

1. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivliyi üzrə Strateji Yol Xəritəsi" AR prezidentinin 6 dekabr 2016-cı il tarixli Sərəncamı.
2. "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" AR Prezidentinin 2018-ci il 16 noyabr tarixli Sərəncamı.
3. Böyük İqtisadi Ensiklopediya: II cild. Bakı: Litterpress nəşriyyat evi, 2012, 632 s.
4. Musayeva C.Q., Tağıyev A.M. Azərbaycan iqtisadiyyatı. Ali məktəblər üçün dərs vəsaiti. Bakı: Avropa nəşriyyatı, 2018, 420 s.
5. Əyyubov V.S., Tağıyev A.M. Milli iqtisadiyyatın tənzimlənməsi. Dərs vəsaiti. Bakı: Avropa nəşriyyatı, 2014.

**Резюме**

***ТагиевА.М.***

**О роли высших учебных заведений в подготовке высококвалифицированных кадров в соответствии с требованиями современногорынка труда**

*Статья посвящена роли высших учебных заведений в подготовке высококвалифицированных кадров в соответствии с требованиями современного рынка труда, как одного из приоритетов устойчивого развития национальной экономики Азербайджана в условиях современной глобализации.*

*Особое внимание было уделено проблемам и недостаткам, указанным в «Стратегической дорожной карте» страны, обязанностям высших учебных заведений по их устранению и другим актуальным вопросам.*

***Ключевые слова:*** *национальная экономика, Стратегическая дорожная карта, ненефтяной сектор, рынок труда, инновационная экономика, вуз, устойчивое развитие*

**Summary**

***Taghiyev A.M.***

**The role of Higher Education Institutions in Preparation of Highly Qualified Cadres Compatible with Requirements of Modern Labor Market**

*The article focuses on the role of higher education institutions. In the preparation of highly qualified personnel in line with the requirements of the modern labor market, as one of the priorities of the sustainable development of the national economy of Azerbaijan in modern globalization. Particular attention was paid to the problems and shortcomings identified in the Strategic Road Map, the responsibilities of higher education institutions in their elimination and other related issues.*

***Key words****: national economy, Strategic Roadmap, non-oil sector, labor market, innovative economy, higher education institution, sustainable development*

## SƏNAYE MÜƏSSİSƏLƏRİNİN KOMMERSİYA FƏALİYYƏTİNİN İDARƏETMƏ SİSTEMİNİN TƏŞKİLATİ STRUKTURUNUN TƏKMİLLƏŞDİRİLMƏSİ

***Zalov Z.M.***

*Sumqayıt Dövlət* Universiteti

***Xülasə.*** *Məqalədə sənaye müəssisələrinin kommersiya fəaliyyətinin idarə edilməsinin zəruriliyi məsələsinə baxılmış və onların idarəetmə sisteminin təşkilati strukturunun təkmilləşdirilməsi istiqamətləri tədqiq edilmişdir. Eyni zamanda sənaye müəssisələrinin kommersiya fəaliyyətinin idarə edilməsinin səmərəliliyinə təsir göstərən amillər də araşdırılmışdır.*

***Açar sözlər:*** *sənaye müəssisələri, kommersiya fəaliyyəti, idarəetmə, səmərə, intensivləşdirmə, ticarət, elmi-texniki tərəqqi*

Bazar iqtisadiyyatı şəraitində iqtisadi bazisin əsası olan mülkiyyət üzərində yeni təsərrüfatçılıq formalarının yaradılması, xüsusi mülkiyyətə və azad sahibkarlığa geniş yer verilməsini, iqtisadiyyatın rəqabət prinsipləri əsasında dövlət tənzimlənməsini tələb edir. Qiymətlərin liberallaşdırılması, bank-maliyyə sisteminin yeniləşdirilməsi, təchizat, texniki xidmət, məhsulun istehsalı, emalı və satışında baş vermiş dəyişikliklər, həmin proseslərin kompleks şəkildə idarə edilməsini tələb edir. Bazar iqtisadiyyatı şəraitində müəssisə və ərazi səviyyəsində idarəetmənin təşkilati-iqtisadi mexanizmin yenidən qurulması sənaye müəssisələrinin kommersiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə təsir edən ən mühüm amillərdən biridir.

Sənaye müəssisələrinin kommersiya fəaliyyətinin idarəetmə sisteminin təşkilati strukturunun təkmilləşdirilməsinin aşağıdakı əsas istiqamətlərini göstərmək olar:

- idarəetmənin konkret plan – iqtisad mexanizminin təkmilləşdirilməsi;
- idarəetmənin təşkiletmə mexanizminin, təşkilat formalarının təkmilləşdirilməsi;
- kadr probleminin günün tələbləri səviyyəsində həll olunması;
- idarəetmə əməyinin mexanikləşdirilməsi və avtomatlaşdırılması;
- idarəetmə aparatının informasiya təminatı;
- idarə aparatında və onun bölmələrində işçilərin sayının normativ qaydada müəyyən edilməsi və s. [1, səh. 89].

Deməli, idarə aparatı strukturunun təkmilləşdirilməsinin də çox mühüm əhəmiyyəti vardır. Ümumiyyətlə, bazar subyektlərinin idarəetmə strukturunun təkmilləşdirilməsi onun fəaliyyətində bir çox müsbət nəticələrə gətirib çıxara bilər. Ona görə də bu məsələlərin müvəffəqiyyətlə həyata keçirilməsi müəssisələr qarşısında duran ən mühüm problemlərdən biridir.

Sənaye müəssisələrinin kommersiya fəaliyyətinin idarə edilməsinin səmərəliliyinin artırılmasının iki əsas yolu fərqləndirilir. Birinci yol cəmiyyətin idarəetmə üzrə ayırdığı resursların ekstensiv genişləndirilməsi hesabına təmin edilir. İdarəetmə sisteminin saxlanılması və normal fəaliyyət göstərməsini təmin etmək üçün idarəetmə işçilərinin sayını artıraraq, onların əməyinin hesablama və təşkilati-texniki vasitələrlə təchiz

olunmasına getdikcə daha çox vəsaitlər sərf edərək onun səmərəliliyini müəyyən səviyyəyə qədər yüksəltmək olar. İdarəetmənin səmərəliliyinin artırılmasının ikinci yolu mövcud resurslardan daha yaxşı istifadə edilməsi və elmi-texniki tərəqqiyə nail olunması, yəni ümumdünya intensivləşdirilmə bazasında idarəetmə sisteminin bütün elementlərinin keyfiyyətcə dəyişdirilməsinə əsaslanır.

Müasir mərhələdə intensivləşdirmə idarəetmənin səmərəliliyinin artırılmasının, əsasını idarəetmə sisteminin bütün başlıca elementlərinin keyfiyyətcə dəyişdirilməsinin təşkil etdiyi ən mühüm yolu kimi nəzərdən keçirilir. Buna görə də idarəetmənin səmərəliliyinin artırılması kimi ən mühüm iqtisadi və idarəetmə probleminin nəzərdən keçirilməsi hər şeydən əvvəl əsas istiqamətlərin fərqləndirilməsini və intensivləşdirmə amillərinin aşkar edilməsini tələb edir. Bu məsələnin həlli strategiya və taktikanı, habelə idarəetmənin intensiv şəkildə dəyişdirilməsinin və onun səmərəliliyinin artırılmasının planlı mexanizmini işləyib hazırlamağa imkan verəcəkdir [3, səh. 418].

İdarəetmənin intensivləşdirilməsi amilləri böyük rəngarənglikləri ilə xarakterizə olunur, onlar xarakterlərinə və təzahür vaxtlarına, fəaliyyətlərin istiqamətliliyinə, təsir tipi və gücünə və formalaşma mənbələrinə görə müxtəlifdir. Buna görə də intensivləşdirmə yollarını müəyyən edərkən çoxsaylı amillər arasından ən əhəmiyyətli olanları, kifayət qədər uzun müddət ərzində və ya daima fəaliyyət göstərənləri, idarəetmə əməyinin səmərəliliyinə və ümumən idarəetməyə daha böyük təsir göstərən amilləri fərqləndirmək lazımdır.

Qeyd etdik ki, idarəetmənin intensivləşdirilməsinin əsas istiqamətləri iki yerə bölünür: elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsalın idarə edilməsinin bütün elementlərinə tətbiq edilməsi və resurslardan ümumdünyəvi istifadə olunmasının yaxşılaşdırılması.

Birinci istiqaməti - elmi-texniki tərəqqinin nailiyyətlərindən idarəetmədə istifadə olunması– yaxşı olardı ki, ETT-nin tərkib hissələri olan elm və texnika nəzərdən keçirilsin. İdarəetmədə elmi-texniki tərəqqi onun təşkil edilməsinin yaxşılaşdırılmasında ifadə olunur və buna da aşağıdakı amillərin intensivləşdirilməsi ilə nail olunur:

- idarə olunan obyektlərin spesifikliyinin nəzərə alınması ilə idarəetmə funksiyaları tərkibinin elmi əsaslandırılması;
- istehsal strukturunda keyfiyyət dəyişikliklərinə uyğun olaraq idarəetmənin mütərəqqi təşkilati forma və strukturlarının tətbiq edilməsi;
- idarəetmədə əməyin elmi təşkilinin tətbiq edilməsi;
- işçilərin idarəetmədə iştirakının təmin olunması formalarının inkişaf etdirilməsi;
- texniki vasitələrdən, informasiya təminatından istifadə olunmasının mütərəqqi təşkilati formalarının tətbiq edilməsi və s.

İkinci istiqamət – idarəetmənin əmək, material və maliyyə resurslarından istifadə edilməsinin yaxşılaşdırılması– intensivləşdirmənin istiqaməti ilə ən sıx şəkildə bağlıdır. Bu istiqamətin sənaye müəssisələrinin kommersiya fəaliyyətinin idarə edilməsinin səmərəliliyinə bilavasitə təsir göstərilməsini təmin edən əsas amillər aşağıdakılardır:

1. Əmək resurslarından ən yaxşı şəkildə istifadə olunması sahəsində:
- idarəetmə kadrlarının ixtisas və peşəkarlıq imkanlarından daha tam istifadə olunması;
- iş vaxtından səmərəli və tam istifadə olunması;
- kadrların struktur tərkibinin yaxşılaşdırılması;
- idarəetmə işçilərinin əməyinin onun ictimai normal səviyyəsinə qədər intensivləşdirilməsi;
- idarəetmə əməyi üzrə əməyin elmi təşkilinin tətbiq edilməsi.

2. Maddi resurslardan ən yaxşı şəkildə istifadə olunması sahəsində:
- idarəetmə proseslərinin intensivləşdirilməsi hesabına texniki vasitələrin bütün kompleksindən daha tam istifadə olunması;
- yenidən fəaliyyətə başlayan hesablama və təşkilati texnikanın mənimsənilməsinin sürətləndirilməsi;
- idarəetmə qərarlarının qəbulu üçün zəruri olan informasiyalardan istifadə edilməsinin yaxşılaşdırılması;
- idarəetmə sistemində istifadə olunan binalardan, istehsal meydanlarından və avadanlıqlarından istifadə edilməsinin yaxşılaşdırılması.

3. Maliyyə resurslarından istifadə olunmasının yaxşılaşdırılması sahəsində:
- idarəetmə işçilərinin əməkhaqqı fondundan səmərəli istifadə edilməsi;
- cari saxlama və eyni zamanlı məsrəflər üzrə ayrılan vəsaitə qənaət;
- iqtisadi stimullaşdırma fondlarından səmərəli istifadə olunması.

Amillərin mahiyyəti və qarşılıqlı təsir xarakteri daimi deyildir və idarəetmə sisteminin inkişafı şəraitində dəyişir. Buna görə də amillərin aşkar edilməsi, təhlili və onlardan kompleks istifadə edilməsi

özündə işin, idarəetmənin səmərəliliyinin plana uyğun şəkildə artırılmasına istiqamətlənmiş, xüsusilə mühüm mərhələsini əks etdirir. Amillərin təhlilinə və istehsalın idarə edilməsinin təkmilləşdirilməsi yollarının işlənib hazırlanmasına sistemli, kompleks yanaşma mühüm əhəmiyyət kəsb edir [2, səh. 426].

Beləliklə, sənaye müəssisələrinin kommersiya fəaliyyətinin keyfiyyətinin artırılması onun texnologiyasınının daim təkmilləşdirilməsini, idarəetmənin yeni texnikasından, avtomatlaşdırılmış idarəetmə sistemindən, kommersiya proseslərinin, o cümlədən əmtəələrin topdansatış və pərakəndə satışın idarə olunmasının kompüterləşdirilməsini tələb edir. Kommersiya əməliyyatlarının kompüterləşdirilməsi kommersiya məlumatlarının işlənməsi və ötürülməsi üzrə informasiya sisteminin yaradılmasına imkan verir ki, bu da öz növbəsində əmtəə tədavülü sferasında bazar, marketinq fəaliyyətinin texniki əsasını təşkil edir.

**Ədəbiyyat**


1. Abbasov A.B. və başqaları. Biznesin təşkili və idarə edilməsi. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2011, 464 s.
2. Hüseynov T.Ə. Firmanın iqtisadiyyatı. Bakı: Azərnəşr, 2009, 600 s.
3. Paşayev K.P. Kommersiya fəaliyyətinin əsasları. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2012, 458 s.



**Резюме**

***Залов З.М.***

**Совершенствование организационной структуры системы управления коммерческой деятельностью промышленных предприятий**

*В статье рассмотрены вопросы необходимости управления коммерческой деятельностью промышленных предприятий и направления совершенствования организационных структур, их управленических систем. Также исследованы факторы, влияющие на эффективность управления коммерческой деятельностью промышленных предприятий.*

***Ключевые слова:*** *промышленные предприятия, коммерческая деятельность, управление, производительность, интенсификация, торговля, научно-технический прогресс*

**Summary**

***Zalov Z.M.***

**Improving the Organizational Structure of the System of Management of Commercial Activities of Industrial Enterprises**

*The article discusses the need for managing the commercial activities of industrial enterprises and the direction of improving the organizational structures of their management systems. The factors affecting the efficiency of the management of commercial activities of industrial enterprises are also investigated.*

***Key words:*** *industrial enterprises, commercial activity, management, productivity, intensification, trade, scientific and technical progress*


## ВАЖНОСТЬ ОБЕСПЕЧЕНИЯ ПИЩЕВОЙ БЕЗОПАСНОСТИ В РАЗВИТИИ ЧЕЛОВЕЧЕСКОГО КАПИТАЛА В СОВРЕМЕННЫХ УСЛОВИЯХ


***Ибрагимли А.Б.***

*Bakı Dövlət Universiteti*



***Резюме.*** *В статье исследована важность обеспечения пищевой безопасности в развитии человеческого капитала в контексте глобальных пищевых вызовов. Дана адекватность уровня современных механизмов пищевой безопасности в контексте обеспечения здоровья и доступности продовольствия для развития человеческого капитала. Подготовлены соответствующие рекомендации и предложения по данным вопросам.*



***Ключевые слова:*** *пищевая безопасность, роль пищевой безопасности в развитии человеческого капитала, доступность продовольствия, здоровое питание населения, глобальная продовольственная проблема*


В связи с интенсификацией процессов глобальных воздействий в мире нарастает роль развития человеческого капитала и все это требует создания более благоприятных условий для всестороннего формирования важных элементов развития человеческого капитала. Одна из серьезных факторов развития человеческого капитала является обеспечение пищевой безопасности и

доступности основных видов продовольствия населения страны. Дело в том, что в последнее время глобальные экономические вызовы обуславливают усиление пищевой безопасности в мире.

В современном мире голодают миллионы людей, другие страдают от неправильного питания, а на продовольственные рынки поступают пищевые продукты, которые небезопасны для здоровья людей. Развитие и применение генетически модифицированных организмов в пищевой промышленности способствуют приобретению людьми большого количества болезней, существенно снижают качество жизни и работоспособность населения, отрицательно влияет на эффективность человеческого капитала, тем самым оказывая влияние на экономику.

Таким образом, назрела необходимость изучения существующих механизмов совершенствования стандартов и нормативов усиления пищевой безопасности в мире посредством обеспечения пищевой доступности пищевой продукции для тех стран, в которых уровень пищевой безопасности критически низок. Более того, требуется оптимизация рационов питания для стран, которые выделяются преимущественностью нездорового питания и чрезмернойкалорийностью пищевой продукции.

В современном мире проблемы пищевой безопасности в контексте развития человеческого капитала рассматриваются как одно из новых направлений в сфере научно-экономических исследований. Ранее подобные вопросы и проблемы рассматривались в рамках концепции продовольственной безопасности. Так, в число Целей Развития Тысячелетия данные проблемы рассмотрены исходя из глобальной продовольственной проблемы. Однако за последнее десятилетие отмечается интенсивность рассмотрения данных проблем. Так, иследователь Е.И.Маргулис особо подчеркивает приоритетность масштабов проблемы обеспеченности продовольственной безопасности в контексте создания стратегии гармонизации микро и макроэкономических возможностей по обеспечению доступности важных видов продовольствия с учетом балансирования развития человеческого капитала [1].

Отметим, что в этих вопросах немаловажное значение имеет уровень самообеспеченности страны продукцией пищевой промышленности, а также уровень импортозависимости основных продуктов питания. Другой ученый-исследователь Н.Р.Куркина рассматривает организационно-экономические механизмы в сфере продовольственного обеспечения с помощью прогнозирования потребления основных видов пищевых продуктов [2]. Таким образом, пищевая безопасность страны зависит от комплекса разнохарактерных факторов как внутреннего, так и внешнего происхождения.

Для многих стран, в целях повышения уровня пищевой безопасности актуальными являются вопросы диверсификации аграрного сектора в сторону той продукции, во внешнеторговом обороте которой преобладает импорт, и самообеспеченность которой находится на недостаточном уровне [3].

Из числа отечественных ученых, в первую очередь, профессора Э.А.Гулиев и Б.Х.Аташов, вели последовательные исследования в данной сфере. Так, профессор Э.А.Гулиев отмечает, что эффективно сформированная налоговая система в стране, а также правильно подобранные фискальные механизмы так же могут дать стимулирующий толчок развитию пищевой промышленности и, как следствие, благоприятно повлиять на повышение уровня пищевой безопасности [5; 6, s.36]. Б.Х.Аташовподчеркивает, что пищевая безопасность возможна лишь в случае динамичности сырьевого и продовольственного производства, инновационного развития и искоренения бедности как социального явления [4, s.461].

В мировой практике используется ряд различных показателей пищевой безопасности, среди которых такие критерии как численность недоедающего населения, страдающих от истощения, отстающих в росте, страдающих от избыточного веса детей и другие, которые серьезно замедляет развитие человеческого капитала [7]. Далее рассмотрим сравнительные характеристики некоторых показателей пищевой безопасности в мире и в Азербайджанской Республике за 2017 год (см.таблицу 1).

**Таблица 1.**

**Ряд показателей пищевой безопасности в мире и в Азербайджане за 2017 г.**

| | **Число недоедающих** | **Число детей ло 5ти лет, страдающих от истощения** | **Число детей до 5-ти лет, отстающих в росте** | **Число детей до 5ти лет, страдающих от избыточного веса** | **Число взрослых, страдающих от ожирения** | **Число женщин (15-49 лет), страдающих от анемии** |
|---|---|---|---|---|---|---|
| **Весь мир, млн. чел.** | 803,1 | 50,5 | 150,8 | 38,3 | 672,3 | 613,2 |
| **Азербайджан, млн. чел.** | <0,2 | <0,1 | 0,1 | 0,1 | 1,4 | 1,0 |
| **Весь мир, % к общей численности населения** | 10,8 | 7,5 | 22,2 | 5,6 | 13,2 | 32,8 |
| **Азербайджан, % к общей численности населения** | <2,5 | 3,1 | 18,0 | 13,0 | 19,9 | 38,5 |

***Примечание:*** *составлено автором на основе официальных материаловFAO (http://www.fao.org).*

Таким образом, можно сделать вывод, что уровень пищевой безопасности в нашей стране достаточно высок, однако следует так же учитывать дифференциацию данных показателей по различным регионам страны, в которых уровень пищевой доступности достаточно низок, который создает ограничения гармоничного развития человеческого капитала. Поэтому для дальнейшего развития и повышения уровня пищевой безопасности в Азербайджане в контексте развития человеческого капитала, по нашему мнению, необходимо провести ряд стимулирующих мероприятий:

- ✓ оптимизировать и углубить исследования в сфере повышения пищевой безопасности страны в контексте глобальных проблем пищевой безопасности и развития человеческого капитала;
- ✓ увеличить производство экологически чистой продукции и обеспечить всестороннюю пищевую доступность продукции с учетом роста численности населения, которое окажет положительное влияние на развитие человеческого потенциала;
- ✓ сформировать достаточные запасы и поднять уровень самообеспеченности страны жизненно важной и необходимой для здоровой деятельности пищевой продукции и т.д.

## Литература


1.Маргулис Е.И. Теоретические и методологические аспекты повышения устойчивости продовольственной безопасности страны. Дисс. д-ра экон. наук. М.: 2005, 416 с.

2. Куркина Н.Р. Организационно-экономический механизм развития системы продовольственного обеспечения. Дисс.д-ра экон. наук. М.: 2010, 280 с.

3. Карпунин М.А. Развитие диверсификации в аграрном секторе экономики. Дисс. канд. экон. наук. Москва, 2011, 194 с.

4. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). Bakı, 2017, Kooperasiya nəşriyyatı, 536 s.

5. Quliyev E.A. Etibarlı ərzaq təminatı sistemi: kooperasiya və inteqrasiya problemləri. Monoqrafiya. Bakı, “Elm” nəşriyyatı, 2013, 308 s.

6.İ.e.d., prof. EldarAllahyaroğluQuliyev. Qlobal ərzaqtəhlükəsizliyi: reallıqlar, çağırışlarvə perspektivlər. Bakı -2018. “Kooperasiya” nəşriyyatı, 480 s.

7. Положение дел в области продовольственной безопасности и питания в мире 2018. Рим, 2018. 201 с. - http://www.fao.org/3/I9553RU/i9553ru.pdf.

**Xülasə**

***İbrahimli A.B.***

**Müasir dövrdə insan kapitalının inkişafında qida təhlükəsizliyinin təmin edilməsinin əhəmiyyəti**

*Məqalədə müasir dövrdə insan kapitalının inkişafında qida təhlükəsizliyinin təmin edilməsinin əhəmiyyəti araşdırılır. İnsan kapitalının inkişafı kontekstində ölkə əhalisinin sağlamlığının təmin edilməsi üçün qida təhlükəsizliyinin müasir mexanizmlərinin səviyyəsinin adekvatlığının təmin edilməsi araşdırılmışdır. Bu problemlər üzrə müvafiq tövsiyələr və təkliflər hazırlanmışdır.*

***Açar sözlər:*** *qida təhlükəsizliyi, insan kapitalın inkişafında qida təhlükəsizliyinin rolu, qida əlçatanlığı, əhalinin sağlam qidalanması, qlobal ərzaq problemi*

**Summary**

***Ibrahimli A.B.***

**Importance of Ensuring Food Safety in Development of the Human Capital in Modern Conditions**

*Importance of ensuring food safety in development of the human capital in the context of global food challenges is investigated in the article. The adequacy of level of modern mechanisms of food safety in the context of ensuring health and availability of food to development of the human capital is given then. The corresponding recommendations and offers on these problems are prepared.*

***Key words:*** *food safety, a role of food safety in development of the human capital, availability of food, healthy nutrition of the population, global food problem*

## АКТУАЛЬНЫЕ ВОПРОСЫ РАЗВИТИЯ ЧАСТНЫХ ПРЕДПРИЯТИЙ ЗДРАВООХРАНЕНИЯ АЗЕРБАЙДЖАНА В СОВРЕМЕННЫХ УСЛОВИЯХ

***Рагимова Н.Р.***

*AMEA-nın İqtisadiyyat İnstitutu*

**Резюме.** *В статье исследованы актуальные вопросы развития частных предприятий здравоохранения Азербайджана в современных условиях. С этой целью анализирована инфраструктура и уровень развития системы здравоохранения в стране. Рассмотрены вопросы развития отраслей и уровень платных медицинских услуг в стране. Анализированы процессы создания и развития частных предприятий в сфере здравоохранения. Отмечены важности повышения уровня и доступности платных медицинских услуг. Даны ряд предложений по повышению конкурентоспособности частных предприятий здравоохранения Азербайджана на современный этапе.*

***Ключевые слова:*** *частные предприятия здравоохранения, платные медицинские услуги, система здравоохранения Азербайджана, повышения конкурентоспособности медицинских услуг, доступность платных медицинских услуг, перспективы повышения конкурентособности частных предприятий здравоохранения Азербайджана*

Вопросы и проблемы повышения конкурентоспособности и эффективной деятельности частных предприятия здравоохранения страны считается одним из стратегических направлений социально-экономической политики страны. Обеспечение здоровья населения является залогом активного образа жизни и деятельности граждан в той или иной сфере экономики и общества. Более того, частные предприятия здравоохранения отличаются как один из основных субъектов функционирования сферы услуг населения. Поэтому, формирование конкурентоспособности предприятий частной сферы здравоохранения находится под пристальным вниманием во многих странах мира [1]. Кроме того, для повышения устойчивости и эффективности частных предприятий здравоохранениятребуются более инновативные подходы и применения рациональных механизмов, которые могут способствовать расширению перечня медицинских услуг и повышению их качества. Развитие сети частныхпредприятий, и коммерциализация здравоохранения рассматривается как серьезное направление обеспечения значительного роста объема качественно платных медицинских услуг [2]. Более того, глобальные трансформации экономических процессов обуславливают глубокое совершенствование существующих механизмов деятельности системы здравоохранения с

применением рыночных инструментариев [3]. Для развития частных предприятий очень важно, что в стране сформировалась здоровая атмосфера и равномерная конкурентная среда с учетом разработки национальных концепций по повышению уровня медицинских услуг и существенного поднятия уровня жизненного состояния населения на долгосрочный период. В работе частных структур системы здравоохранения нуждаются те элементы действия и уровня качества медицинских услуг, которые имеют определенные преимущества перед аналогичными услугами, оказываемыми государственными медицинскими учреждениями [4]. С учетом рыночных преобразований нарастает необходимости создания новых инфраструктур системы здравоохранения согласно мировым стандартам. Поэтому требуется глубокое совершенствование организационно-экономических механизмов развития рынка медицинских услуг в условиях модернизации здравоохранения [5]. Безусловно, аналогичные подходы окажут серьезное воздействие на повышение качества оказываемых медицинских услуг [6]. Кроме того, очень важно, что во всех регионах страны было сбалансировано развитие сети частных предприятий здравоохранения с учетом демографической ситуации в регионах и социального уровня населения страны [7].

В Азербайджане развитие здравоохранения рассматривается в контексте полноценного обеспечения охраны здорового населения страны и для этого сформированы серьезные стратегические цели с определением приоритетных направлений развития в данной сфере [8]. Действует Закон Азербайджанской Республики «Об охране здоровья населения», который был принят 26 июня 1997-года, и Закон Азербайджанской Республики «О медицинском страховании», принятый 28 октября 1999 года [9; 10]. Наряду с государственными медицинскими учреждениями в стране развивается сеть частных предприятий, оказывающих медицинские услуги. Так, если в 2015 году в данной сфере функционировало 521 предприятие (из них 313 малые и 208 средние предприятия), то в 2016 году их число было 686, а в 2017 году стало 783, из них 569 малые и 214 средние частные медицинские предприятия [11]. Как видно, за 2015-2017 годы число частных медицинских предприятий вырос на 50,3 %. В стране постоянно проводятся целенаправленные мероприятия по повышению качества медицинских услуг и ответственности частных медицинских учреждений по обеспечению охраны здоровья населения. Для этого государство проводит сбалансированную политику развития системы государственного здравоохранения и сети частных медицинских предприятий [12]. Все эти факторы способствуют повышению объема платных медицинских услуг. Если, по итогом 2012 года объем платных медицинских услуг в Азербайджане составил на уровне 128,2 млн. манат, то 2015 году данный показатель был на уровне 181,2 млн. манат, а 2018 году уже 233,3 млн. манат [13].

Однако, несмотря на проделанные работы немалая часть населения страны, нуждающаяся в качественных медицинских услугах, предпочитает съездить в зарубежные страны, в первую очередь в Иран и Турцию. Более того, многие ведущие частные медицинские предприятия, не повышая качества оказываемых медицинских услуг, в одностороннем порядке увеличивают цену на эти услуги, которые создает недовольство и недоступны населению страны. В связи этим считаем, что нужно учитывать следующие:

- ✓ необходимо существенно повысить качество оказываемых медицинских услуг и ответственность частных медицинских предприятий в Азербайджане;
- ✓ требуется существенное повышение профессионального качества и навыков персонала частных медицинских предприятий с учетом мировых стандартов и подходов по организации платных медицинских услуг и т.д.

**Литература**


1. Арабчиков К.Н. Формирование конкурентоспособности предприятий частной системы здравоохранения // Менеджер здравоохранения. 2011. №4. https://cyberleninka.ru.
2. Бутко Г.П., Тепляков М.Б. Обеспечение конкурентоспособности предприятий сферы здравоохранения на основе кластера инновационного типа // Известия УрГЭУ, 2011, №6 (38), с.53-61.
3. Стародубов В.И., Кадыров Ф.Н. Новые экономические условия деятельности учреждений здравоохранения // Менеджер здравоохранения, 2011, №6, с. 38-45.
4. Кан В.В., Тоцкая Е.Г., Новоселов В.П., Алябьев Ф.В. Моделирование организации инновационной деятельности в учреждении здравоохранения // СМЖ, 2012, №3, с. 42-49.
5. Дерябин А.В. Совершенствование организационно-экономических механизмов развития рынка медицинских услуг в условиях модернизации здравоохранения. Дисс. канд. экон. наук. Сочи, 2011, 196 с.

6. Четыркина Н.Ю. Государственное регулирование конкурентоспособности предприятий: На материалах фармацевтической промышленности. Дисс. канд. экон. наук. Санкт-Петербург, 2009, 188 с.

7. Колобухов П.В., Балашов А.Л. Факторы, влияющие на эффективность функционирования частных учреждений здравоохранения в регионах / Российский педиатрический журнал. 2012, №2, https://cyberleninka.ru.

8. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

9. Закон Азербайджанской Республики «Об охране здоровья населения». Баку, 26 июня 1997.

10. Закон Азербайджанской Республики «О медицинском страховании». Баку, 28 октября 1999, №725-IГ.

11. Azərbaycanda kiçik və orta sahibkarlıq. Statistikməcmuə. Bakı, 2018, 196 s.

12. Azərbaycanda ödənişli xidmətlər. Statistik məcmuə. Bakı, 2018, 48 s.

13.Azərbaycandasəhiyyə, sosialmüdafiə və mənzil şəraiti. Statistik məcmuə. Bakı, 2018, 270 s.

**Xülasə**

***Rəhimova N.R.***

**Azərbaycanda səhiyyə sisteminin özəl tibb müəssisələrinin inkişafının aktual məsələləri**

*Məqalədə Azərbaycanda səhiyyə sisteminin özəl tibb müəssisələrinin inkişafının aktual məsələləri tədqiq olunmuşdur. Bu məqsədlə ölkədə səhiyyə sisteminin infrastrukturu və onun inkişaf səviyyəsi təhlil edilmişdir. Ölkədə səhiyyə sahəsinin inkişafı və pullu tibbi xidmətlərin səviyyəsinə baxılmışdır. Səhiyyə sistemində özəl müəssisələrin yaradılması və inkişafı prosesləri araşdırılmışdır. Pullu tibbi xidmətlərin keyfiyyətinin artırılması və əlçatanlığının təmin edilməsinin vacibliyi bildirilmişdir. Müasir dövrdə Azərbaycanda səhiyyə sisteminin özəl müəssisələrinin rəqabət qabiliyyətinin artırılması üzrə təkliflər verilmişdir.*

***Açar sözlər:*** *səhiyyə sisteminin özəl müəssisələri, pullu tibbi xidmətlər, Azərbaycanın səhiyyə sistemi, tibbi xidmətlərin rəqabətqabiliyyətinin artırılması, pullu tibbi xidmətlərin əlçatanlığının təmin olunması, Azərbaycanın səhiyyə sisteminin özəl tibb müəssisələrinin rəqabətqabiliyyətinin artırılması perspektivləri*

**Summary**

***Ragimova N.R.***

**Actual Questions of the Development of Private Enterprises of Health of Azerbaijan in Modern Conditions**

*Actual questions of the development of private enterprises of health care of Azerbaijan in modern conditions are investigated in the article. For this purpose, the infrastructure and the level of development of the health system in the country are analyzed. The issues of the development of industries and the level of paid medical services in the country are considered. Given the dynamics of creation and development in private enterprises in the field of health. The importance of increasing the level of medical services and the availability of paid medical services are noted. A number of proposals to improve the competitiveness of private healthcare enterprises in Azerbaijan in the current period are given.*

***Key words:*** *private healthcare enterprises, paid medical services, the health care system of Azerbaijan, increasing the competitiveness of medical services, availability of paid medical services, prospects for improving the competitiveness of private healthcare enterprises in Azerbaijan*

# IV BÖLMƏ

# KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN MALİYYƏ TƏMİNATI

## MALİYYƏ ALƏTLƏRİ: TANINMASI VƏ TANINMASININ DAYANDIRILMASINA YENİ YANAŞMALAR

**_Abasov E.A._**
*Caspian Consulting and Partners LLC,*
*UNEC*

***Açar sözlər**: maliyyə alətləri, aktivlər, öhdəliklər, tanınma, tanınmanın dayandırılması, kriteriya*

Maliyyə alətlərinin uçotu və hesabatının nəzəri-metodoloji aspektləri və prinsipləri bir çox Beynəlxalq Standartlarla, konkret olaraq – MHBS (İAS) 32 «Maliyyə alətləri – təqdimolunma»; MHBS (İAS) 39 «Maliyyə alətləri – tanınma və qiymətləndirmə»; MHBS (İFRS) 7 «Maliyyə alətləri – açıqlanma»; MHBS (İFRS) 9 «Maliyyə alətləri» ilə tənzimlənir.

MHBS 32-nin məqsədi maliyyə alətlərinin öhdəliklər, yaxud kapital qismində təqdim edilməsi prinsiplərini, həmçinin maliyyə aktivləri və maliyyə öhdəliklərinin qarşılıqlı əvəzolunma qaydalarını müəyyən etməkdir [1, s. 359].

MHBS 39 maliyyə aktivlərinin, maliyyə öhdəliklərinin və qeyri-maddi aktivlərinin satın alınması, yaxud satılması haqqında bəzi müqavilələrin tanınması və qiymətləndirilməsi prinsiplərini müəyyən edir [1, s. 531].

MHBS 7 təşkilatlar qarşısında elə tələbləri müəyyən edir ki, həmin tələblər əsasında təşkilatların öz maliyyə hesabatında təqdim edəcəyi informasiya istifadəçilərə imkan verməlidir ki, onlar:

(a) təşkilatın maliyyə vəziyyəti və fəaliyyətinin maliyyə nəticələri baxımından maliyyə alətlərinin əhəmiyyətini; və

(b) maliyyə alətləri ilə əlaqədar yaranan risklərin xarakterini və dərəcəsini qiymətləndirə bilsinlər [1, s. 821].

MHBS 9-un başlıca məqsədi isə maliyyə alətlərinin uçotunun elə prinsiplərini müəyyən etməkdir ki, həmin prinsiplər maliyyə hesabatının istifadəçilərinə münasib və faydalı informasiyanın təqdim edilməsinə imkan versin, bu informasiyadan onlar şirkətlərin gələcək pul axınlarını qiymətləndirmək üçün istifadə edə bilsinlər [2, s. 1[.

MHBS 9-u şirkətlər 1 yanvar 2018-ci ildən başlayaraq tətbiq edirlər.

Bundan başqa, «Ədalətli dəyərin qiymətləndirilməsi» adlı MHBS (İFRS) 13 maliyyə alətlərinin ədalətli dəyərinin qiymətləndirilməsi və ədalətli dəyər haqqında informasiyanın açıqlanması məsələlərini tənzimləyir.

MHBS 32-yə görə maliyyə aləti – istənilən elə müqavilədir ki, onun nəticəsində eyni vaxtda bir təşkilatın maliyyə aktivi və digər təşkilatın maliyyə öhdəliyi, yaxud pay aləti yaranır [1, s. 362]. Həmin standart maliyyə aktivlərinə və maliyyə öhdəliklərinə aşağıdakıları aid edir:

● pul vəsaitlərini;

● digər təşkilatın pay alətini;

● digər təşkilatdan pul vəsaitlərini, yaxud digər maliyyə aktivini əldə etmək üçün müqavilə hüququnu; yaxud

● özü üçün potensial əlverişli şərtlərlə digər təşkilat ilə aktivləri, yaxud öhdəlikləri mübadilə etmək üçün müqavilə hüququnu; yaxud

● elə müqaviləni ki, ona əsasən hesablaşma təşkilatın xüsusi pay alətləri ilə aparılacaq, ya da aparıla bilər;

● digər təşkilata pul vəsaitlərini, yaxud digər maliyyə aktivini təqdim etmək üzrə müqavilə öhdəliyini; yaxud

● özü üçün potensial əlverişsiz şərtlərlə digər təşkilat ilə maliyyə aktivləri, yaxud öhdəliklərini mübadilə etmək üçün müqavilə öhdəliyini; yaxud

● elə müqaviləni ki, hansına əsasən hesablaşma təşkilatın xüsusi pay alətləri ilə aparılacaq, yaxud aparıla bilər.

Maliyyə aktivlərinin və öhdəliklərinin ilkin və sonrakı tanınması qaydalarını, onların təsnifat qrupları üzrə qiymətləndirilməsinin ümumi prinsipləri və metodlarını MHBS 39 və MHBS (İFRS) 9 müəyyən edir.

Maliyyə vəziyyəti haqqında hesabatda maliyyə aktivi, yaxud maliyyə öhdəliyi o zaman tanınır ki, təşkilat həmin maliyyə alətinə münasibətdə müqavilə tərəflərindən biri olmuş olur. Ancaq maliyyə alətinin maliyyə aktivi və / və ya maliyyə öhdəliyi kimi tanınması üçün təkcə müqavilənin tərəflərindən biri olmaq kifayət deyildir. Müqavilənin tərəflərindən biri olmaq bu və ya digər alətin tanınması üçün yalnız hüquqi baza, yaxud əsas kimi qəbul edilə bilər. Başqa sözlə, müqavilənin tərəflərindən biri olmaq şərti aktivin, yaxud öhdəliyin hüquqi baxımından tanınmasına əsas yaradır. Əgər məzmunun forma üzərində üstünlüyü prinsipinin tələbi nəzərə alınsa, onda maliyyə alətlərinin tanınması üçün onların aktivlər və öhdəliklər elementlərinin tərifinə uyğun gəlməsi əsas şərt sayılmalıdır. Həmin elementlərin tərifi isə Maliyyə Hesabatının Beynəlxalq Standartları Şurasının (MHBSŞ) 29 mart 2018-ci ildə buraxmış olduğu Maliyyə Hesabatının Konseptual Əsaslarında (Konseptual əsaslar) yeniləşdirilmiş və təsbit edilmişdir. Maliyyə alətlərinin maliyyə hesabatında tanınması üçün onlar konseptual əsaslarda verilmiş aşağıdakı təriflərə uyğun gəlməlidir:

Aktiv – keçmiş hadisələr nəticəsində təşkilat tərəfindən nəzarət olunan mövcud iqtisadi resursdur. İqtisadi resurs – iqtisadi fayda gətirə biləcək hüquqdur (3, s. 12).

Öhdəlik – keçmiş hadisələr nəticəsində təşkilatın iqtisadi resursu vermək üzrə mövcud borcudur. Öhdəlik təşkilatın elə məcburi məsuliyyətidir ki, təşkilatın ondan qaçmaq üçün praktiki imkanı yoxdur [3, s. 13].

Aktivlərin, öhdəliklərin və digər elementlərin tanınmasının ümumi prinsipləri və kriteriyalarına MHBSŞ-nin 2010-cu ildə dərc etdirdiyi Konseptual əsaslarda yenidən baxılmışdı. Konseptual əsaslar 2010 obyektlərin tanınması üçün aşağıdakı iki əsas kriteriya müəyyən etmişdir:

(a) obyektlə əlaqəli gələcək iqtisadi faydanın təşkilata daxil olması, yaxud təşkilatdan çıxması ehtimal olunandır; və

(b) obyekt ilkin dəyərə, yaxud dəyərə malikdir, hansı ki etibarlı şəkildə ölçülə bilər [4, s. 21].

İnformasiya o zaman etibarlıdır ki, o, tamdır, neytraldır və səhvlərə malik deyildir.

Həmin tanınma kriteriyaları tamamilə maliyyə aktivləri və maliyyə öhdəliklərinə də aiddir.

Konseptual əsaslar 2018-ə görə həmin elementlərin tanınması o zaman münasib hesab edilir ki, həmin tanınma, tanınan elementlər haqqında informasiyanın həm münasib olmasına, həm də onların düzgün təqdim edilməsinə gətirib çıxarmış olsun.

Konseptual əsaslar 2010 maliyyə hesabatı elementlərinin, o cümlədən aktivlərin və öhdəliklərin tanınmasının dayandırılmasına tərif verməmiş və bunun nə vaxt baş verdiyini təfsir etməmişdi.

Konseptual əsaslar 2018 tanınmanın dayandırılmasını aşağıdakı kimi müəyyən etmişdir: «Tanınmanın dayandırılması – tanınmış aktivin, yaxud öhdəliyin maliyyə vəziyyəti haqqında hesabatdan tam, yaxud qismən çıxarılmasıdır» [3, s. 17].

MHBS 9 aşağıdakı hallarda maliyyə alətlərinin tanınmasının dayandırılmış olduğunu qəbul edir:

(a) maliyyə aktivləri üzrə:

● maliyyə aktivi üzrə pul vəsaitləri axınlarına müqavilə tələblərinin müddəti qurtardıqda; yaxud

● təşkilat maliyyə aktivini verdikdə və bu cür verilmə aktivə sahib olma ilə əlaqədar bütün risklərin və faydaların əhəmiyyətli hissəsinin verilməsi ilə nəticələndikdə

● təşkilat aktiv üzərindəki nəzarəti vermiş olduqda [2, s. 20].

(b) maliyyə öhdəlikləri üzrə:

● borclu həmin öhdəliyi kreditora, bir qayda olaraq, pul vəsaitləri, digər maliyyə aktivləri, mallar və xidmətlərlə ödəmiş olduqda; ya da

● borclu, hüquqi prosedurların yerinə yetirilməsi, yaxud kreditorun qərarı nəticəsində həmin öhdəlik üzrə ilkin məsuliyyətdən hüquqi baxımdan azad olmuş olduqda [2, s. 29].

Maliyyə alətlərinin tanınmasının dayandırılması onların maliyyə vəziyyəti haqqında hesabatdan silinməsi deməkdir.

Maliyyə alətlərinin tanınması və tanınmasının dayandırılması onların uçot və hesabatda təsnifatı və qiymətləndirilməsinin başlıca şərtlərindən hesab olunur.

## Ədəbiyyat


1. Международные Стандарты Финансовой Отчетности. М.: АСКЕРИ, 2009.
2. https://msfo-practige.ru/npd;
3. fin-accounting.ru/articles/2018/ifrs-revised-conceptual-framework-for-financial-reporting-2018;
4. Концептуальные основы 2010: İFR Foundation;
5. Maliyyə və uçot. 2017-2018.

**Резюме**

***Абасов Е.А.***

**Финансовые инструменты: новые подходы к признанию и прекращению признания**

*В статье кратко описываются предписания международных стандартов финансовой отчетности относительно сущности и состава финансовых инструментов, раскрывается содержание финансовых активов и финансовых обязательств. Рассматириваются подходы Концептуальных основ 2010 года и Концептуальных основ 2018 года к признанию и прекращению признания финансовых активов и финансовых обязательств.*

***Ключевые слова:*** *финансовые инструменты, активы, обязательства, признание, прекращение, критерий*

**Summary**

***Abasov E.A.***

**Financial Instruments: New Approaches to Recognition and Derecognition**

*The article briefly describes the prescriptions of international financial reporting standards regarding the nature and composition of financial instruments, reveals the content of financial assets and financial liabilities. The approaches of the 2010 Conceptual Foundations and the 2018 Conceptual Foundations to the recognition and derecognition of financial assets and financial liabilities are considered.*

***Key words:*** *financial instruments, assets, liabilities, recognition, derecognition, criterion*

## KİÇİK VƏ ORTA SAHİBKARLIQ SUBYEKTLƏRİNİN FƏALİYYƏTİNİN ŞƏFFAFLIĞININ YÜKSƏLDİLMƏSİNDƏ AUDİTİN ƏHƏMİYYƏTİ

***Abbasov K.M.***

*Azərbaycan Kooperasiya Universiteti*

**Xülasə.** *Məqalədə kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin şəffaflığının yüksəldilməsində auditin əhəmiyyəti tədqiq olunmuşdur. Bu məqsədlə kiçik və orta sahibkarlığın inkişafının müasir prioritetləri və hədəflərinə baxılmışdır. Kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin şəffaflığının yüksəldilməsi məsələləri araşdırılmışdır. Bu proseslərdə auditin rolu açıqlanmış və əhəmiyyəti əsaslandırılmışdır. Kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin şəffaflığının, hesabatlarının dürüstlüyünün vacibliyi bildirilmişdir. Strateji Yol Xəritələrinin reallaşdırıldığı bir şəraitdə, kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin şəffaflığının gücləndirilməsində auditin tətbiqinə dair tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*

***Açar sözlər:*** *kiçik və orta sahibkarlıq subyektləri, audit institutu, audit fəaliyyəti, kiçik və orta sahibkarlıq subyektlərinin şəffaflığının yüksəldilməsi problemləri, kiçik və orta sahibkarlıq subyektlərində şəffaflığın artırılmasında auditin rolu*

Müasir dövrdə ölkəmizdə milli iqtisadiyyatın strukturunun və fəaliyyət istiqamətlərinin təkmilləşdirilməsi, əlavə dəyər yaratmaq xüsusiyyətlərinə malik iqtisadi fəaliyyət formalarının inkişaf etdirilməsi vacib şərtlərdəndir. Bu baxımdan kiçik və orta sahibkarlıq subyektərinin fəaliyyəti diqqət çəkir və onların fəallığı hesabına iqtisadi inkişaf proseslərini sürətləndirmək, iqtisadiyyatın müxtəlif sahələrində formalşmış potensialdan istifadəni təmin etmək mümkündür. Ölkəmizdə də bu məsələlərə ciddi önəm verilir və bunun üçün dövlət dəstəyi mexanizmləri kifayət qədər yüksəkdir. Bundan əlavə, ölkədə kiçik və orta sahibkarlıq fəaliyyətinin institusional baxımdan inkişaf etdirilməsinə prioritetlik diqqət çəkir. Ölkə Prezidentinin 2018-ci il 26 iyun tarixli Fərmanı ilə yeni yaradılmış Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Nizamnaməsi təsdiq edilmişdir [1]. Bu Agentliyin əsas vəzifəsi ölkədə fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektlərinə təcrübi kömək göstərmək, onların fəaliyyətini tənzimləmək, problemlərini həll etmək, xidmətlər təşkil etmək, dövlət strukturları ilə özəl qurumlar arasında inteqrativ münasibətləri formalaşdırmaqdan ibarətdir. Kiçik və orta sahibkarlıq subyektlərinin məhsuldar fəaliyyəti də diqqət çəkir. Belə ki, 2018-ci ilin əvvəlinə Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin sayı 169,6 mindir, bunun 24 minə yaxını hüquqi şəxslər, 146 minə yaxını isə fərdi sahibkarlardır. Eyni zamanda, ölkəmizdə 4217 orta sahibkarlıq subyektləri fəaliyyət göstərirlər. 2017-ci ilin yekunu üzrə kiçik və orta sahibkarlıq subyektlərinin yaratdıqları əlavə dəyərin həcmi 3,8 mlrd. manat, bu müəssisələrdə əsas kapitala yatırılan investisiyaların məbləği 3,3 mlrd. manat və ümmi məhsul istehsalının həcmi 6,3 mlrd. manat təşkil etmişdir [2].

Milli iqtisadiyyat sahələrinin strateji hədəflərinin müəyyənləşdirilməsi ilə bağlı artıq yeni iqtisadi mexanzimlərin tətbiqi genişlənməkdədir və bütün bunlar milli iqtisadiyyatın perspektiv sektorları üzrə Strateji Yol Xəritəsində nəzərdə tutulmuş hədəflərə çatmaqda müsbət rol oynayacaqdır [3]. Ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə kiçik və orta sahibkarlıq subyektlərinin strateji hədəfləri ayrıca verilmişdir [4]. Bu vəzifələrin öhdəsindən gəlmək üçün sistemli və kompleks tədbirlərin görülməsi, o cümlədən kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin şəffaflığının yüksəldilməsi mühüm əhəmiyyət kəsb edir.

Dünya təcrübəsində iqtisadi proseslərin və fəaliyyət mexanizmlərinin şəffaflığının təmin edilməsində səmərəli mexanizmlərdən biri də audit fəaliyyətidir. "Audit" sözü latıncadan "audio" sözündən formalaşıb mənası isə "o dinləyir", yaxud "dinləyici" kimidir. Audit fəaliyyətinin hələ bizim eramızdan 700 il əvvəl Çində yarandığı məlumdur və bu səbəbdən həmin ölkə auditin vətəni sayılır. Müasir eramızda isə auditin inkişafı əsasən Avropa ölkələri və ABŞ-da iqtisadiyyatın inkişaf proseslərinin güclənməsi ilə bağlı olmuşdur. 1867-ci ildə Fransada, 1937-ci ildə isə ABŞ-da audit fəaliyyəti üzrə qanunlar qəbul edilmişdir. Hazırkı dövrdə audit institutu bütün dünyada geniş yayılmışdır və bu institutdan maliyyə-təsərrüfat fəaliyyətinin təhlili üçün səmərəli istifadə olunur [5;6]. Auditdən istifadənin müxtəlif konsepsiyaları və metodikaları formalaşdırılmışdır. Bu institutun fəal və səmərəli təcrübi mexanizmləri vasitəsilə təsərrüfat subyektlərinin mühasibat uçotu və maliyyə hesabatlarının dürüstlüyünü müəyyənləşdirmək, onların fəaliyyətində şəffaflığı artırmaq imkanları böyükdür [7;8;9]. Audit nəticəsində müəssisələrin fəaliyyəti üzrə vacib məqamlar müstəqil şəkildə üzə çıxarılır, təhlillər aparılır, buraxılmış nöqsanlar aşkarlanır. Digər tərəfdən,müəssisənin fəaliyyətinin yaxşılaşdırılması istiqamətində rəhbərlik üçün daha obyektiv və səmərəli qərarların verilməsi məqsədilə təkliflər hazırlanır [10]. Auditin strateji vəzifələri sırasında təsərrüfat subyektinin fəaliyyətinin düzgünlüyünün müəyyənləşdirilməsi, hazırlanan hesabatların obyektivlik və şəffaflıq səviyyəsini artırılması vəzifələri daha çox diqqət çəkirlər [11; 12; 13].

Qeyd edək ki, Azərbaycanda audit fəaliyyətinin gücləndirilməsi istiqamətində zəruri institusional və qanunvericilik mexanizmləri formalaşdırılmışdır. Ölkəmizdə audit sisteminin inkişaf etdirilməsi və auditor fəaliyyətinin təmin olunması üçün meyarlar və prinsiplər, standartlar, qaydalar və prosedurlar mövcuddur. Bu baxımdan kiçik və orta sahibkarlıq subyektlərinin fəallığının artırılmasında və onların maksimum şəffaf şəraitdə fəaliyyət göstərməsində, mühasibat və maliyyə hesabatlarının dürüst formada hazırlanmasında auditin potensialından daha geniş istifadə edilməsi mümkündür. Belə bir şəraitdə audit bütün hallarda nəzarət funksiyasını yerinə yetirməklə bərabər, həm də məsləhət xarakterli faydalı təkliflər də formalaşdırmaq potensialına malikdir. "Auditin idarəetmə finksiyasının böyük bir hissəsi onun nəzarət və yoxlama ilə bağlı fəaliyyətində açıla bilər"[14]. Bundan əlavə, audit fəaliyyəti nəticəsində kiçik və orta sahibkarlıq subyektlərinin mövcud imkanlarının sistemli təhlili və bu imkanlardan daha səmərəli istifadə edilməsi məsələləri obyektiv formada təhlil oluna bilər, həmçinin buraxılmış nöqsanları aşkarlamaqla onların aradan qaldırılması tədbirlərinin görülməsinə zəmin yaranar. Belə ki, şəffaflığın artırılması və maliyyə-uçot hesabatlarının dürüstlüyünün təmin olunmasında audit daha çox səmərə verən mexanizmlərindən biri kimi xarakterizə olunur [15]. Son dövrlərdə ölkəmizdə bu istiqamətlərdə, xüsusilə vergiqoyma bazasının şəffaflığı istiqamətində köklü islahatlar aparılmaqdadır və bu amillər baxımından, kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin şəffaflaşdırılması strateji əhəmiyyət kəsb edir. Bu sahədə olan problemlərlə bağlı bir sıra məsələlərə daha ciddi önəmin verilməsi məqsədəuyğun olardı:

- kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyət proseslərinin maksimum şəffaf mexanizmlərinin yaradılmasına imkan verən qanunvericilik bazası formalaşdırılmalı və stimullaşdırıcı tədbirlərin səmərəliliyi yüksəldilməldir;
- kiçik və orta sahibkarlıq subyektlərində vergi siyasəti və vergiqoyma mexanizmləri üzrə yeni çağırışların və islahatların tələbləri nəzərə alınmaqla, şəffaflığın artırılması istiqamətində konseptual yanaşmalara üstünlük verilməli və tənzimləyici mexanizmlərin adekvatlığına nail olunmalıdır;
- kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin audit xidməti ilə əhatə olunması mexanizmi və prosedurları daha da təkmilləşdirilməli, bu sahədə ən azından illik hesabatlar üzrə audit yoxlamalarının aparılması təmin edilməli, maliyyə və mühasibat hesabatlarının dürüstlüyünün və şəffaflığının artırılması tədbirləri görülməldir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Nizamnaməsi. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir.
2. Azərbaycanda kiçik və orta sahibkarlıq. Statistik məcmuə. Bakı, 2018, 196 s.

3. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

4. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

5. Fogarty T.J. &Kalbers L.P. An empirical evaluation of the interpersonal and organization a correlates of professionalism in internal auditing. Accounting and Business Research. 2000, 30(2), pp. 215-136.

6. Swanson D. Swanson on Internal Auditing: Raising the Bar. ITPro. ITGovernance, 2010.318 p.

7. Азарская М.А. Теория и методология обеспечение качества аудита. Дисс. д-ра экон. наук. Йошкар-Ола, 2009.452 с.

8. Подольский В.И. Аудит. М.: ЮНИТИ-ДАНА, 2000,432 с.

9. Робертсон Дж. К. Аудит. М.: АФ "Контакт", 1993,496 с.

10. Шеремет А.Д., Суйц В.П. Аудит. М.: ИНФРА-М, 2000,240 с.

11. Раймбердиева О. Р. Особенности проведения аудита на предприятиях малого бизнеса // Вопросы экономики и управления. 2017, №2, 48-50 с.

12. Никифорова Я. Е. Аудит предприятий малого бизнеса // Молодой ученый. 2018, №6, 99-101 с.

13. Особенности аудита малых и средних предприятий. https://www.audit-it.ru/articles/msfo/p219960.html.

14. Abbasov İ.M. Audit. Bakı, 2013, 544 c.

15. Novruzov V.T. Sosial-iqtisadi inkişafın müasir mərhələsində auditor xidməti. http://anl.az/down/meqale/azerbaycan/2010/aprel/115373.htm.

**Резюме**

***Аббасов К.М.***

**Важность аудита в повышении прозрачности деятельности субъектов малого и среднего предпринимательства**

*В статье исследованаважность аудита в повышении прозрачности деятельности субъектов малого и среднего предпринимательства. С этой целью рассмотрены приоритеты и основные задачи развития малого и среднего предпринимательства. Исследованы вопросы повышения прозрачной деятельности субъектов малого и среднего предпринимательства. Раскрыта роль и обоснована важность аудита в данных процессах. Отмечена важность достоверных отчетов и прозрачной деятельности субъектов малого и среднего предпринимательства. Подготовлены рекомендации и даны предложения по применению и расширению аудита в усилении прозрачной деятельности субъектов малого и среднего предпринимательства в условиях реализации стратегических дорожных карт.*

***Ключевые слова:*** *субъектымалого и среднего предпринимательства, институт аудита, аудиторская деятельность, проблемы повышения прозрачности субъектов малого и среднего предпринимательства, роль аудита в повышении прозрачности субъектов малого и среднего предпринимательства*

**Summary**

***Abbasov K.M.***

**The Importance of Audit in Improving the Transparency of Activity of Small and Medium-Sized Businesses**

*The importance of audit in improving the transparency of small and medium-sized businesses is investigated in the article.Priorities and main tasks in the development of small and medium-sized businesses are considered for this purpose. The issues of increasing the transparent activities of small and medium-sized businesses are investigated too. The role and importance of auditing in these processes are revealed. The importance of reliable reports and transparent activities of small and medium-sized businesses is given. Recommendations and proposals for the application and expansion of the audit in strengthening the transparent activities of small and medium-sized businesses in the context of implementing strategic roadmaps are made.*

***Key words:*** *small and medium-sized businesses, audit institute, auditing, problems of increasing the transparency of small and medium-sized businesses, the role of auditing in improving the transparency of small and medium-sized businesses*

## EMAL SƏNAYESİ MÜƏSSİSƏLƏRİNDƏ İNVESTİSİYALARIN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ YOLLARI

***Abdulazizov E.M.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalədə investisiyaların səmərəliliyinin yüksəldilməsinin mühüm istiqamətləri verilmiş, emal sənayesi müəssisələrində dayanıqlı inkişafa təsir imkanları göstərilmişdir. Burada texnoloji modernləşdirilmə investisiyaların səmərəliliyini yüksəldən amil kimi təhlil edilmiş, onun şaxələndirilməsi araşdırılmışdır. Sonda investisya tsiklinin bütün mərhələləri şərh edilmişdir.*

***Açar sözlər:*** *sənaye müəssisələri, investisiyalar, istehsalın, sahə, səmərə, emal sənayesi, şaxələnmə*

İnvestisiyaların səmərəliliyinin yüksəldilməsinin mühüm istiqaməti, emal sənayesi müəssisələrində əlverişli institusional mühit yaratmaqla multiplikativ effekt əmələ gətirməkdir. Multiplikasiya effekti, klassik yanaşmada, məlum olduğu kimi məcmu məhsulun həcmində baş verən dəyişikliklərin investisiyalarda olan dəyişikliklərdən asılılığının əks etdirən əmsalda ifadə olunur. Sahə səviyyəsində həmin effektin reallaşdırılması müəssisədə investisiya fəaliyyətinin bütün mərhələlərində səmərəliliyin məqbul səviyyəsinin təmin edilməsi sayəsində mümkündür.

Sənaye müəssisələrində istehsala yönəldilən investisiyaların səmərəliliyinin qiymətləndirilməsində tətbiqi tövsiyə edilən meyarlar, bir qayda olaraq, aşağıdakı kimi fərqləndirilir:

- "istehsalın genişləndirilməsinə görə səmərəlilik;
- xərclərin azaldılması hesabına əlavə gəlirin əldə edilməsi;
- istehsal və satış üzrə riskin azalması;
- yeni texnologiyaların tətbiqi və s" [4]

Emal sənayesi müəssisələrində investisiyaların və investisiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi nəinki sahədə, habelə ümumilikdə milli iqtisadiyyatda dinamik və dayanıqlı inkişafa həlledici dərəcədə təsir imkanlarına malikdir. Məsələ ondadır ki, bir çox hallarda məhz emal sənayesi müəssisələri son istehlakçı tələblərini nəzərə alaraq hazır məhsulu bazara çıxarır. Bu isə iqtisadi fəaliyyətin mərkəzi məsələsi olan satışın nəticələrinə və mahiyyət etibarı ilə müəssisənin maliyyə durumuna təsir edir. Sənayedə istehsal və emal fəaliyyətinin intensivləşdirilməsi və genişləndirilməsinə xidmət edən investisiyaların səmərəliliyini yüksəltmək üçün araşdırmalardan və qabaqcıl təcrübənin təhlilindən göründüyü kimi emal proseslərinin iqtisadi xarakteristikalarını hərtərəfli qiymətləndirmək tələb olunur.

Sahə müəssisələrində investisiyaların və investisiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi imkanları, ilk növbədə, texnoloji modernləşdirmənin tempi və miqyasından asılıdır. Eyni zamanda emal sənayesi müəssisələrində investisiyaların və investisiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinin prioritet istiqaməti kimi texnoloji modernləşdirmənin ziddiyyətli məqamları da diqqətdən kənarda qalmamalıdır. Məhz həmin ziddiyyətlərin aradan qaldırılması emal müəssisələrində investisiya proseslərinin səmərəliliyinin yüksəldilməsində əhəmiyyətli rol oynaya bilər.

İlkin yanaşmada investisiyaların səmərəliliyi əldə edilən səmərə və həyata keçirilmiş məsrəflərin (qoyulan vəsaitin) nisbəti kimi qəbul edilə bilər. Müəssisədə investisiya fəaliyyəti, əslində iqtisadi-təsərrüfatçılıq fəaliyyətinin bütün əsas aspektlərini əhatə etdiyindən onun səmərəliliyi ümumiləşdirilmiş göstəricidir. Odur ki, həmin səmərəliliyi istiqamət (əsas və müşayiətedici səmərə), səviyyə (müəssisə, istehlakçı, dövlət) və xarakter (birbaşa və dolayı) əlamətlərinə görə fərqləndirməklə, onun kəmiyyət ifadəsini daha da konkretləşdirmək cəhdləri başa düşüləndir.

Əsas səmərə sənaye məhsulları istehsalçısının (müəssisənin) mənfəətində investisiyalardan əldə edilən artımdır. Bir sıra hallarda bunu birbaşa səmərə də adlandırırlar. Məsrəflərə qənaətdə ifadə olunan və sahə (müəssisə) çərçivəsindən kənarda təzahür edən müşayiətedici səmərə, deyək ki, ölkə və ölkədaxili region miqyasında tarazlı inkişafın təmin edilməsinə töhfə, ümumilikdə ictimai münasibətlərin yaxşılaşmasında özünü göstərir. Görmək çətin deyildir ki, emal sənayesi müəssisələrində investisiya fəaliyyətindən əldə edilən məcmu səmərəliliyin qiymətləndirilməsi məqsədilə təklif edilən bu təsnifat əlamətləri, əhəmiyyətli dərəcədə şərtidir. Odur ki, müxtəlif əlamətlər üzrə fərqləndirilən səmərəlilik anlayışları və onları səciyyələndirilən göstəricilərdə kəsişmələr vardır. Deyək ki, investisiya fəaliyyətinin

səmərəliliyi xarakter əlamətinə görə birbaşa və dolayı səmərəlilik kimi fərqləndirilməsi zamanı nəzərə almaq lazımdır ki, birbaşa səmərə müəssisə səviyyəsində investisiya layihəsindən əldə edilmiş əsas səmərəyə anolojidir. Haqqında danışılan layihənin həyata keçirilməsindən dövlət və istehlakçı səviyyəsində əldə edilən dolayı səmərənin isə müşayiətedici səmərəyə analoji olduğunu söyləmək olar.[4]

Sənaye müəssisələrində texnoloji modernləşdirilməsinə investisiyaların səmərəliliyini yüksəldən institusional şəraitin yaradılması və mütəmadi olaraq təkmilləşdirilməsi xüsusi aktuallıq kəsb edən məsələlərdəndir. Bütövlükdə investisiya siyasətinin səmərəliliyi müəssisə səviyyəsində işlənib hazırlanmış tədbirlərin səmərəliliyindən əhəmiyyətli dərəcədə asılıdır.

“Ümumilikdə investisiya siyasətinin səmərəliliyini yüksəltmək üçün müəssisə aşağıdakı tədbirləri görməyi təklif edə bilər:

1) müəssisənin investisiya proqramının formalaşdırılması zamanı investisiya layihələrinin və onların səmərəliliyinin dərin və hərtərəfli təhlili;

2) bir layihə çərçivəsində pul vəsaitlərinin hərəkətinə daha dəqiq nəzarət etmək məqsədi ilə investisiya portfelinin formalaşdırılması zamanı şaxələndirmə;

3) investisiya fəaliyyətinə vəsaitlərin xərclənməsi üzərində nəzarət, maliyyələşmə üzrə zəruri limitin müəyyən edilməsi, kənarlaşmaların yaranması səbəblərinin təhlili və onların vaxtında aradan qaldırılması” [5].

İnvestisiyaların səmərəliliyinin yüksəldilməsi üçün müəssisələrin yenidən qurulmasına yeni tikintiyə nisbətən dəfələrlə az vəsait və müddət tələb etdiyi nəzərə alınmaqla aşağıdakı yanaşma məqbuldur:

-yeni tikinti yeni məhsul istehsalı üçün, yeni texnologiyaların tətbiqi üçün aparıldıqda daha səmərəlidir;

- müəssisələrin yenidən qurulması istehsalı nəzərdə tutulan məhsul üçün bazarın müvafiq seqmentində əlverişli konyunkturun davamlı olacağı barədə nikbin proqnozlar inam doğurduqda məqsədəuyğundur.

Risklərin azaldılması emal sənayesində investisiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinin aparıcı istiqamətidir. İnvestisiya risklərinin azaldılması istiqamətlərinə aşağıdakılar aiddir:

1. Mümkün risklərdən yayınma;

2. Risklərin təsərrüfat-maliyyə fəaliyyətinin nəticələrinə təsirinin azaldılması.

İnvestisiyaların, o cümlədən emal sənayesi müəssisələrində səmərəliliyinin yüksəldilməsinin mühüm istiqaməti kimi investisiya layihəsinin bütövlükdə sığortalanması diqqətəlayiqdir. Məsələ ondadır ki, hazırda investisiya layihəsi üzrə risklərin yalnız bir hissəsi, o cümlədən bəzi ekstremal vəziyyətlər, işçi heyəti, binalar, avadanlıqlar sığorta edilir;.

- kredit müqaviləsi olduqda girov, zəmanət, borclunun əmlakından tutulma və bu kimi bir sıra digər vasitələrlə təminatı nəzərdə tutmaq;

- layihəyə vəsait ayrılmasının hissələrlə təsdiq edilməsi;

- investisyanın diversifikasiyası (şaxələndirilməsi). Bu halda müəssisənin real potensialının nəticələri bir-biri ilə bilavasitə əlaqədar olmayan müxtəlif fəaliyyət növləri arasında bölüşdürülməsini nəzərə tutan prosesdir. İnvestisiya riskinin azaldılması üçün müəssisədə istehsalın planlaşdırılması zamanı elə məhsulların buraxılışı və elə xidmətlərin göstərilməsi nəzərdə tutulmalıdır ki, onlara olan tələbin dəyişməsi istiqamətləri bir-birinə əks olsun.

İnvestisiyaların səmərəliliyini yüksəltmək üçün investisiya tsiklinin bütün mərhələlərində (planlaşdırma, layihələndirmə, bilavasitə investisiya qoyuluşu, vəsaitin mənimsənilməsi) yüksək səmərəlilik təmin edilməlidir. Müəssisədə investisiya fəaliyyətinin planlaşdırılma mərhələsində səmərəliyi yüksəltmək üçün optimal nisbətlər təmin edilməli, məqsəd funksiyaları seçilərkən müddət, gəlir və məsrəf parametrləri diqqət mərkəzində olmalıdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 may tarixli 186 nömrəli qərarı ilə təsdiq edilmiş “Sənaye məhəllələri haqqında” Nümunəvi Əsasnamədə göstərildiyi kimi “məqsədi sənaye və xidmət sahələrində fəaliyyət göstərən kiçik və orta sahibkarların inkişafı üçün əlverişli şəraitin təmin edilməsindən və əhalinin istehsal və xidmət sahəsində məşğulluğunun artırılmasından ibarət olan sənaye məhəllələrində “aşağıdakı stimullaşdırıcı tədbirlər müəyyən edilə bilər: “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin 5-ci hissəsinə və “İcarə haqqında” Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin 1-ci hissəsinin ikinci abzasına əsasən torpaq sahəsinin və tikililərin icarə haqqının aşağı həddə müəyyən edilməsi; güzəştli kreditlərin verilməsi; inzibati prosedurların sadələşdirilməsi; sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün xidmətlərin təşkili” [2, maddə 10].

Ümumiyyətlə, emal sənayesinin qeyri-neft sahələrində fəaliyyət göstərən müəssisələrdə investisiyaların və investisiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinin sadalanan və digər istiqamətlərində real nəticələrə nail olmaq üçün, artıq qeyd edildiyi kimi, bazar infrastukturunun (bank-maliyyə qurumları, sığorta şirkətləri və i.a.) imkanlarından səmərəli istifadə edilməlidir. Həmin imkanlardan səmərəli istifadə isə, məlum olduğu kimi, müvafiq normativ hüquqi bazanın təkmilləşdirilməsindən tutmuş, maliyyə vasitəçiliyi qurumlarının iş rejimlərinin xarakteristikalarına qədər çoxsaylı amillərdən asılıdır.

**Ədəbiyyat**


1. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu.
2. "Sənaye məhəllələri haqqında" Nümunəvi Əsasnamə. AR Nazirlər Kabinetinin 2015-ci il 13 may tarixli 186 nömrəli qərarı ilə təsdiq edilmişdir.
3. Yüksək Texnologiyalar Parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 5 noyabr 2012-ci il tarixli Fərmanı.
4. Əliyev Q.İ. İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi. Bakı: "İqtisad Nəşriyyatı", 2009, 274 s.
5. Стрельцова Н.В., Сидорова Е.Е., Живолуп Д.И. Повышение эффективности инвестиционной политики промышленного предприятия
6. www.economy.gov. az



**Резюме**

***Абдулазизов Е.М.***

**Пути повышения эффективности инвестиций на перерабатывающих промышленных предприятиях**

*В статье изложены ключевые аспекты повышения эффективности инвестиций, рассмотрены возможности влияния на устойчивое развитие на перерабатывающих промышленных предприятиях.Здесь технологическая модернизация проанализирована как фактор повышения эффективности инвестиций, а также изучена ее диверсификация. В конце рассмотрены все этапы инвестиционного цикла.*

***Ключевые слов.*** *промышленные предприятия, инвестиции, производство, промышленность, производительность, отрасль, эффективность, перерабатывающая промышленность, диверсификация*



**Summary**

***Abdulazizov E.M.***

**Ways to Improve the Efficiency of Investments in Processing Industry Enterprises**

*The article outlines key aspects of improving the investment efficiency and shows the potential for sustainable development in the manufacturing industry. Here, the technological modernization as a factor enhancing investment efficiency has been analyzed and its diversification have been studied. At the end, all stages of the investment cycle has been interpreted.*

***Key words:*** *industrial enterprises, investments, production, industry, productivity, processing industry, diversification*


## AZƏRBAYCAN RESPUBLİKASINDA SAHİBKARLIQ SUBYEKTLƏRİNİN MALİYYƏ TƏMİNATI


***Abdullayev L.İ.***

*Sumqayıt Dövlət Universiteti*



**Xülasə.** *Məqalədə ölkəmizdə maliyyə subyektlərinin maliyyə təminatının yeni istiqamətləri və bununla bağlı mövcud fəaliyyət yolları şərh edilmişdir. Xüsusən sahibkarlıq subyektlərinin bölgüsü meyarlarına uyğun olaraq tətbiq edilən yeni qaydalar və güzəştlər tədqiq edilmişdir. Maliyyə təminatının artırılmasında aparılan islahatlarının əhəmiyyəti və fəaliyyət mexanizmi göstərilmişdir.*



***Açar sözlər:*** *sahibkarlıq subyekti, maliyyə təminatı, güzəştli kreditlər, vergi, valyuta ehtiyatları, makroiqtisadiyyat*

Müasir dövrdə iqtisadi inkişaf bilavasitə maddi və mənəvi resurslardan səmərəli istifadəyə əsaslanır. Dünya təcrübəsinə əsaslanaraq qeyd etmək olar ki, təbii ehtiyatlardan səmərəli istifadə etmə hər bir ölkənin mühüm iqtisadi siyasətidir. Tələbatların kəmiyyət və keyfiyyət xüsusiyyətlərində baş verən sürətli dəyişikliklər, elmi texniki tərəqqinin nailiyyətlərindən səmərəli istifadənin artırılması dövrün mühüm şərtidir. Baş verən qloballaşma, iqtisadi əlaqələr, emal prosesinin daha səmərəli olma üstünlükləri ölkələr tərəfindən daha mütərəqqi iqtisadi fəaliyyət istiqamətlərinin müəyyənləşməsini tələb edir. Azərbaycan Respublikası zəngin təbii ehtiyatlara və insan kapitalına malik olan ölkədir. Dünyada baş verən ictimai və siyasi proseslərə uyğun dövrü olaraq ölkəmizdə məqsədyönlü fəaliyyət formaları müəyyən edilir. Xüsusən bu sahədə maliyyə resurslarından səmərəli istifadə olunmanı təmin edəcək hüquqi normativ sənədlər qəbul edilmiş və pul kredit siyasəti formalaşmışdır. Müstəqilliyin ilk illərində maliyyə imkanlarının iflasa uğraması, istehsal və xidmət sahəsində fəaliyyətsizlik maliyyə böhranını pik həddə çatdırdı. Lakin sonradan xarici investorların ölkəmizin zəngin təbii ehtiyatlardan müddətli qaydada istifadəsinə əsaslanacaq iri miqyaslı layihələrin həyata keçirilməsinə cəlb edilmələri tədricən maliyyə sağlamlaşdırılmasına və sosial iqtisadi problemlərin həllinə geniş imkanlar yaratdı. Elmi yanaşma baxımından məlumdur ki, maliyyə sabitliyi ölkənin maliyyə ehtiyatlarından səmərəli istifadəsi əsasında təmin edilir. İnflyasiya, böhran şəraitində maliyyə sabitliyi təmin edilə bilməz. Bu baxımdan beynəlxalq valyuta ehtiyatlarının yerli istehsal və xidmət sahələrinə cəlb edilməsi ilk dövrlər xüsusi önəm kəsb edirdi. 20 sentyabr 1994-cü ildə Xəzər dənizinin Azərbaycan sektorunda birgə fəaliyyəti və hasilat bölgüsünü özündə əks etdirəcək Əsrin Müqaviləsi 8 ölkənin 11 iri neft şirkətlərini əhatə etdi. Müqavilədə müəyyənləşən pay bölgüsündə Azərbaycan iqtisadiyyatına qısa müddət ərzində valyuta axınının cəlb edilməsi imkanları yarandı. Təbii ki, dünya təcrübəsində iqtisadi ehtiyatlara malik ölkələrdə sonradan məqsədyönlü siyasət aparılmadıqda kəskin maliyyə böhranları baş verməsi halları mövcud olmuşdur. Belə halların baş verməməsi üçün qısa müddətdə digər sahələrin inkişafına səbəb olacaq tədbirlərin yerinə yetirilməsi zəruridir. Ölkəmizdə bu istiqamətdə mühüm addımların atılması daim müşahidə olunur. Qeyri-neft sektorunun inkişafını istiqamətləndirmək baxımından 6 dekabr 2015-ci ildə cənab Prezident İlham Əliyev tərəfindən Strateji Yol Xəritəsi təsdiq edilmişdir. Burada 2016-2025-ci illər üzrə 11 sektoru əhatə edəcək iqtisadi inkişaf strategiyası müəyyən edilmişdir. Burada sahələrlə yanaşı, maliyyə və makroiqtisadi əlaqələrin təmin edilməsi baxımından iqtisadi aktivliyi və maliyyə vəsaitlərinin artırılmasını təmin edəcək yollar da müəyyən edilmişdir. Mövcud tədbirlər əsasında iqtisadiyyatın digər sahələrində davamlı inkişafa nail olmaq və xüsusən də sahibkarlıq mühitinin yüksəldilməsinə olan imkanlar genişlənmişdir. Tədricən sahibkar faəliyyətinə stimul verəcək maliyyə imkanlarının genişləndirilməsi, güzəştli kreditlərin verilməsi, vergi güzəştlərinin tətbiq edilməsi bu sahədə xüsusi canlanma ilə müşahidə olunur. İqtisadi göstəricilər üzrə illik hesabatlardan aydın görünür ki, maliyyə təminatına dövlət dəstəyinin olması sahibkarlar tərəfindən vergi yayınmalarının azalmasına səbəb olmuşdur. Sahibkarlıq fəaliyyəti ilə bağlı müstəqillik dövründə bir sıra fərman və sərəncamlar qəbul edilmişdir. Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikası Qanununda dövrün tələblərinə uyğun dəyişikliklər cənab Prezident tərəfindən təsdiq edilmişdir. Bu istiqamətdə Azərbaycan Respublikası Prezidentinin 12 fevral 2018-ci il Sərəncamı mühüm əhəmiyyət kəsb edir. Sahibkarlıq fəaliyyəti ilə bağlı edilmiş yeni dəyişikliyin icrasına əsaslanacaq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 dekabr 2018-ci il tarixli Qərarına uyğun olaraq ölkədə sahibkarlıq subyektlərinin bölgüsü meyarları təsdiq edilmişdir. Bununlada mikro,kiçik, orta və iri sahibkarlar subyektlərinin statusu qanunla müəyyən edilmişdir. Yeni qaydalara görə illik gəliri 200.000 min manatadək olan və işçi sayı 1-10 nəfər olanlar mikro sahibkarlıq, illik gəliri 200.000-3.000.000 manat olan və işçi sayı 11-50 nəfər olanlar kiçik sahibkarlıq, illik gəliri 3.000.000-30.000.000 manat və işçi sayı 51-250 nəfər olanlar orta sahibkarlıq və illik gəliri 30.000.000 dan artıq olan və işçi sayı 251 və daha artıq olanlar iri sahibkarlıq subyektləri hesab olunurlar. Bu bölgü meyarı əsasında maliyyə təminatı baxımından sahibkarlar üçün geniş imkanlar yaranır. Xüsusən vergi məcəlləsində vergi yığımları ilə bağlı güzəştləri özündə əks etdirəcək çoxlu sayda bəndlər müəyyən edilmişdir. İlk dəfə olaraq Azərbaycan Respublikasında mikro və kiçik sahibkarlıq subyektlərinin balanslarında olan torpaq, tikili və avadanlıqlar üzrə sürətli amortizasiya normaları tətbiq olunacaq. Eyni zamanda kiçik sahibkarlıq subyektləri tərəfindən öz təsisçilərinə ödədikləri dividentlərə görə ödəmə mənbəyindən verginin ödənilməməsi məcəlləyə daxil edilmişdir. Kiçik və orta sahibkarlıq subyektləri qeydiyyata alındıqları vaxtdan 7 il müddətinə mənfəət, torpaq və ƏDV- dən azad edilmişlər. Burada kiçik və orta sahibkarlıq subyektləri tərəfindən istehsal və emal məqsədilə texnika, texnoloji avadanlıqlar və qurğuların idxalı 7 il müddətinə ƏDV- dən azad edilmişdir. Yeni qaydalara əsasən mikrosahibkar subyektlərin əldə etdikləri gəlirlərin 75 faizi vergi hesablanmasından azad edilmişdir.

Sahibkarlıq subyeklərinin bölgüsü meyarları əsasında onlara ediləcək güzəştlər maliyyə təminatının yüksəldilməsinə səbəb olacaq. Xüsusən sahibkarlıq subyektlərinə Azərbaycan Respublikası Sahibkarlığın

İnkişafı Fondu tərəfindən sahibkarların təqdim etdikləri layihələr əsasında güzəştli kreditlərin verilməsi maliyyə təminatının mühüm tərkib hissəsi hesab edilə bilər.

Son dövrlər aparılan islahatlar və qəbul edilən qərarlar ölkəmizdə sahibkarlıq subyektlərinin maliyyə təminatına mühüm dövlət qayğısının olmasını bir daha təsdiq edir.

**Ədəbiyyat**

1. "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında Azərbaycan Nazirlər Kabinetinin Qərarı. № 556, 21.12.2018-ci il

2. Azərbaycan Respublikası Vergi Məcəlləsi, 2018.

**Резюме**

*Абдуллаев Л.И.*

**Финансовое обеспечение субъектов предпринимательства в Азербайджанской Республике**

*В статье обозначены новые тенденции в финансовом обеспечении финансовых субъектов в нашей стране и пути его реализации. В частности, были изучены новые правила и практики, которые применялись в соответствии с критериями разделения субъектов предпринимательства. Показана важность реформы финансового обеспечения и механизма действий.*

***Ключевые слова:****предпринимательство, финансовая гарантия, льготные кредиты, налог, валютные резервы, макроэкономика*

**Summary**

*Abdullayev L.I.*

**Financial Provision of Entrepreneurship Subjects in the Republic of Azerbaijan**

*The article outlines new trends in financial provision of financial subjects in our country and ways of its implementation. In particular, the new rules and practices that have been applied in line with the criteria for the division of entrepreneurship subjects have been studied. The importance of the reform of financial provision and the mechanism of action are shown.*

***Key words:****entrepreneurship subject, financial guarantee, preferential loans, tax, currency reserves, macroeconomics*

## BİZNESİN İQTİSADİ POTENSİALININ MÖHKƏMLƏNDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

***Abdullayeva Y.T.***

*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalədə biznes fəaliyyətinin səmərəliliyini müəyyən edən amillər tədqiq edilmişdir. Biznesin iqtisadi potensialının artırılmasında maddi, əmək və maliyyə amillərinin rolu araşdırılmışdır. Biznes fəaliyyətinin inkişafında maliyyə potensialının formalaşması mənbələrinə baxılmışdır.*

***Açar sözlər:*** *biznes, maliyyə, əmək, istehsal, transfer, səmərə, iqtisadi potensial*

Məlumdur ki, ictimai istehsalın əsas məqsədi cəmiyyətin sosial-iqtisadi inkişafını və onun hər bir üzvünün zəruri ehtiyaclarını müxtəlif məhsullarla və xidmətlərlə təmin etməkdən ibarətdir. Bu məqsədə çatmaq üçün isə ilk olaraq ölkədə mövcud olan milli və təbii sərvətlərdən, bütövlükdə iqtisadi potensialdan tam istifadə edilməli, bununla da, ictimai istehsalın iqtisadi səmərəliliyi yüksəldilməlidir. Yaradılan məhsul və xidmətlər hesabına cəmiyyət üzvlərinin tələbatlarının ödənilmə səviyyəsini ifadə edən iqtisadi artım və səmərəlilik əhalinin həyat səviyyəsini yüksəldir. Bu isə bilavasitə ictimai əməyin məzmunu və şəraitindən asılıdır. İstehsal güclərindən istifadənin də rolunu nəzərdən qaçırmaq olmaz. Müəssisənin istehsal güclərindən istifadənin yaxşılaşdırılmasının iqtisadi əhəmiyyəti olduqca böyükdür.

Biznes fəaliyyətinin səmərəliliyinin təmin edilməsi, hər şeydən əvvəl, onun işçilərinin istehsalın nəticələrində maraqlılığından asılıdır. Əmək müqaviləsinə uyğun olaraq, özünün müəssisə qarşısında öhdəliklərini yerinə yetirə bilən işçinin əmək prosesinə münasibəti daxili və xarici motivlərlə müəyyən edilir [2, s.499].

Müxtəlif müəssisələrdə aparılan sosioloji tədqiqatlarla müəyyən edilmişdir ki, şəxsin əməyin nəticələrinə inamlılığı onun əməyə məcburi bağlılığı ilə müqayisədə daha böyük motivləşdirici gücə malikdir. Daxili motivlərin əmək münasibətlərinin tənzimlənməsində ön plana çəkilməsi müəssisədə yüksək

keyfiyyətli məhsulun buraxılması, iş normalarının artıqlaması ilə yerinə yetirilməsi, əməyin səmərəliliyi, yüksək intizamlılıq və kadr axıcılığının aşağı səviyyədə olması kimi yüksək nəticələrin əldə edilməsinə şərait yaradır.

Biznes fəaliyyətinin maliyyə potensialının sağlamlaşdırılmasında təşkilati potensialın genişləndirilməsi mühim rol oynayır. Təşkilati potensialın yüksəldilməsinə müəssisənin daxili strukturunun təkmilləşdirilməsi hesabına nail olmaq mümkündür. Təşkilati strukturun təkmilləşdirilməsinə başlıca tələb sinergizm effektinin alınmasıdır ki, bu da istehsalın bütün resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsinə şərait yaradır [3, s. 236].

Təşkilati potensialın yüksəldilməsinə şirkətin və onun fəaliyyət strukturunun şaxələndirilməsi yolu ilə nail olmaq mümkündür. Bu tipli təkmilləşdirmələrin nəticəsində fəaliyyət tənzimedilmə səviyyəsi yüksəlir ki, bu da sinergizm effektinin alınmasına və tabeçilikdəki müəssisələr üzrə ayrılıqda texnoloji verim göstəriciləri ilə müqayisədə şirkətin kapital qoyuluşlarının ümumi verimi xeyli yüksək olmasına səbəb olur. Biznes fəaliyyətinin nəticəliliyi biznes-planla müəyyənləşdirilməlidir. Təsərrüfat fəaliyyətinin real vəziyyətini əks etdirən planın tərtib edilməsinin zəruri şərti əvvəlki illərin hesabat sənədlərinin hərtərəfli təhlil edilməsi yolu ilə müəssisənin idarə olunmasının zəif tərəflərini aşkara çıxarmaq nə onların aradan qaldırılması istiqamətlərini əsaslandırmaqdır [4, s.199].

İqtisadi potensialın möhkəmləndirilməsi baxımından mənəvi potensialın da rolunu qeyd etmək lazımdır. Müəssisənin mənəvi potensialına işçilərin şüur və intellekti, mənəvi-siyasi və əxlaqi-estetik mövqeləri, sosial fəallığı və s. daxildir. Mənəvi potensialın təbii resurslarla, istehsal və elmi-texniki potensialla uzlaşdırılması isə məcmu halında cəmiyyətin iqtisadi potensialını əmələ gətirir. İqtisadi potensialın strukturuna daxil olan bütün elementlər arasında qarşılıqlı əlaqə və qarşılıqlı təsirlər mövcuddur. Bu strukturda üstünlük mənəvi potensiala məxsus olmasına baxmayaraq, ictimai istehsalın səmərəliliyinin yüksəldilməsində onun rolunu ayrıca tədqiq etmək çətindir. Belə ki, mənəvi potensialın tərkib hissəsini və onların fəaliyyətinin nəticəsini nə ayrılıqda və nə də məcmu halında kəmiyyətcə ölçmək mümkün deyil [5, s.522].

Bütövlükdə iqtisadiyyata aid olan "iqtisadi potensial"ı müəssisəyə aid olan "istehsal gücü" ilə əvəz etməklə deyilənlər müəssisə üçün də qəbul oluna bilər.

Beləliklə, hər hansı ictimai-iqtisadi prosesin iqtisadi və sosial nəticəsi ayrılmazdır, artıq qeyd olunduğu kimi, onlar vəhdət təşkil edir, onların arasında dəqiq müəyyən edilmiş sərhəd yoxdur.

Biznesin iqtisadi potensialının möhkəmləndirilməsi baxımından onun maliyyə bazasının tədqiqi xüsusilə əhəmiyyətlidir. Biznesin iqtisadi potensialının maliyyə əsaslarını yerli büdcə, mərkəzləşdirilmiş gəlirlər və həmçinin əhalinin xüsusi vəsaitləri və biznes fəaliyyətindən əldə olunan mənfəət təşkil edir. Maliyyə mənbəyi olaraq Azərbaycan Respublikasının dövlət büdcəsindən ayrılan birbaşa dotasiyaları və həmçinin yerli vergilər hesabına formalaşan gəlirləri də göstərmək olar. Dövlət büdcəsinin gəlir və xərc sturukturunda ayrı-ayrı inzibati regionların pay həcmi də müəyyənləşir. Biznes fəaliyyətinin regionlar üzrə yerləşməsi sxemi, onların sahə quruluşu, mülkiyyət formaları üzrə bölgüsü uyğun olaraq yerli gəlirlərin həcmini və strukturunu müəyyənləşdirir. Regionların sosial demoqrafik tərkibi, regionda pulsuz təhsil və səhiyyə uyğun olan normativ təminat səviyyəsinə əsasən maliyyə və büdcə ayırmalarını formalaşdırır. Ərazi maliyyəsi həmçinin dövlət büdcəsindən ayrılan vəsaitlər və daxili istehsal xidməti potensialından istifadə etməklə əldə olunan gəlirlər hesabına yaradılir [1, s.29].

Qeyd edək ki, ictimai istehsalın iqtisadi səmərəliliyinin artırılması milli gəlirin əsas mənbəyi kimi çıxış edir. Milli gəlirin artırılmasına səbəb olan ictimai əmək məsrəfinin tərkibini, onu təşkil edən xərclərin iqtisadi məzmununu daha dərindən təhlil etmək tələb olunur. Bu baxımdan investisiyaların rolunu qeyd etmək yerinə düşər. Özünün miqyasına, öyrənilmə tarixinə, ölkənin iqtisadi potensialının artırılmasındakı roluna, istifadəsinin ictimai istehsalın səmərəliliyinə təsir gücünə, iqtisadi inkişaf və sosial tərəqqidəki əhəmiyyətinə görə investisiyalar xüsusilə əhəmiyyətlidir.

Biznes fəaliyyətinin inkişafında maliyyə potensialının formalaşması mənbəyi olaraq transfertlər əsas rol oynayır. Transfertlərin hesablanmasında perspektiv artım tələbatı əsas rol oynayır. Transfertlərin minimal həddi və sonrakı artımı elmi əsaslarla hesablanmış xərc və təkrar istehsal prinsiplərinə uyğun aparılır. Xərc amili olaraq sosial normativlər və minimal yaşayış səviyyəsini təmin etmək üçün hesablanmış vəsaitlər əsas yer tutur. Belə ki, sosial normativlərin və onların kontingentlərinin sayı dəyişdikdə, ayrılan vəsaitlərə ehtiyac artır. Ona görə də regionda transfert xərcləri, pensiyaçıların sayı, onların tərkibi, az yaşlı müavinətçilərin sayı əsas götürülür. Yoxsulluq proqramı çərçivəsində və sonrakı davamlı inkişaf konsepsiyası məqsədi ilə aztəminatlı ailələrin sayı və onların region şəraitində zəruri əmtəə və xidmətlə təminatı üçün ayrılan vəsaitlər transfert xərclərinin həcmini formalaşdırır. Həmçinin kredit və borc yolu ilə ayrılan vəsaitlər də ölçülür. Transfert xərcləri, sosial müdafiə və bir başa büdcədən ayrılan dotasiyalar, kreditlər vasitəsi ilə istehlakçı

subyektləri üzrə planlaşdırılır. Bu daxilolmalar sahə və mülkiyyət formaları üzrə ərazi subyektlərinin gəlir və xərc balansını formalaşdırır. Daha çox yerli icra orqanlarının, müəssisə və təşkilatların, həmçinin bələdiyyələrin ərazi subyekti kimi iqtisadi potensialını formalaşdırır. Hər bir subyektin gəlir və xərc mənbələri həmin gəlirlərin artırılması yolu ilə tənzimlənir. Ərazi subyektlərinin gəlir mənbələri istehsal, xidmət və əhalidən yığılan vəsaitlər hesabına qanunvericiliklə və mülkiyyət hüquqlarının reallaşması yolu ilə təmin olunur. Ərazidə bələdiyyə gəlirləri, spesifik olaraq özünüidarəetmə orqanı kimi bələdiyyələrin mülkiyyət hüquqları və tələbatı arasında tarazlığı təmin etmək məqsədi ilə planlaşdırılır.

Aparılmış təhlildən belə qənaətə gəlmək olar ki, əhali məşğulluğunun təmin olunmasında o cümlədən sosial vəziyyətinin yaxşılaşdırılmasında biznes fəaliyyəti həlledici amilə çevrilməmişdir. Ölkədə strateji cəhətdən mühüm, struktur formalaşdırıcı potensiala malik müəssisələrin sayı hələ də azlıq təşkil edir. Hazırkı mərhələdə qarşıda duran sosial-iqtisadi problemlərin həlli biznesin inkişafının sürətləndirilməsini, onun fəaliyyətinin ölkə iqtisadiyyatının inkişafı tələblərinə daha da uyğunlaşdırılmasını, bu istiqamətdə dövlət köməyi tədbirlərinin çərçivəsinin genişlənməsini və ünvanlığının daha da artırılmasını, regionlarda biznesin inkişafı sahəsində mövcud potensialın reallaşdırılmasını tələb edir. Dövlətin qarşısında duran başlıca vəzifə sosial-iqtisadi inkişafı təmin edəcək institutsional şərait formalaşdırmaq, maliyyə, kredit, gömrük və vergi kimi mexanizmlərin stimullaşdırıcı rolunu gücləndirməklə, məhdud resursların səmərəli istifadəsinə əlverişli imkanlar yaratmaqdır.

**Ədəbiyyat**


1. Abbasov A.B., Abbasov S.A. Maliyyə biznesi. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2014, 356 s.
2. Allahverdiyev H.B., Qafarov K.Ş., Əhmədov Ə.M. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: ADİU nəşriyyatı, 2016, 834 s.
3. Ataşov B, Novruzov N, İbrahimov E. Müəssisənin maliyyəsi. Bakı: Kooperasiya nəşriyyatı, 2009, 336 s.
4. Hüseynov T.Ə. Firmanın iqtisadiyyatı. Bakı: Azərnəşr, 2009, 600 s.
5. Архипова Н.И.,Кульба В.В., Косяченко С.А. и др. Организационное управление. М.: Наука, 2007, 736 с.



**Резюме**

***Абдуллаева Е.Т.***

**Направления укрепления экономического потенциала бизнеса**

*В статье раскрываются факторы, определяющие эффективность деятельности бизнеса. Рассматривается роль материальных, трудовых и финансовых факторов в повышении экономического потенциала бизнеса. Исследуются источники формирования финансового потенциала развития бизнес-деятельности.*

***Ключевые слова:****бизнес, финансы, труд, производство, трансферт, производительность, экономический потенциал*

**Summary**

***Abdullayeva Y.T.***

**Directions of Strengthening the Economic Potential of Business**

*The article reveals the factors determining the effectiveness of business. The role of material, labor and financial factors in enhancing the economic potential of a business is considered. The sources of the formation of the financial potential of business development are investigated.*

***Key words:*** *business, finance, labor, production, transfer, productivity, economic potential*


## KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFINDA SIĞORTA XİDMƏTLƏRİNİN ROLUNUN ARTIRILIMASININ STRATEJİ ƏHƏMİYYƏTİ


***Ağayev H.R.***

*Azərbaycan Kooperasiya Universiteti*



***Xülasə.*** *Məqalədə kiçik və orta sahibkarlığın inkişafında sığorta xidmətlərinin rolunun artrılmasının strateji əhəmiyyəti tədqiq olunmuşdur. Bu məqsədlə kiçik və orta sahibkarlığın inkişafının milli iqtisadiyyatın dayanıqlılığının yüksəldilməsinə təsiri təhlil olunmuşdur. Kiçik və orta sahibkarlığın inkişafının sürətləndirilməsində sığorta xidmətlərinin rolu açıqlanmışdır. Sığorta sisteminin təkmilləşdirilməsi və*

*sığorta xidmətlərinin diversifikasiyalaşdırılması problemlərinə baxılmışdır. Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətlərinin sahibkarlığın inkişafında rolu və iştirakının gücləndirilməsinin vacibliyi əsaslandırılmışdır. Sığorta xidmətlərinin əlçatanlığının təmin edilməsi problemlərinə toxunulmuşdur. Yaxın illərdə kiçik və orta sahibkarlığın inkişafında sığorta xidmətlərinin rolunun artırılması üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*

***Açar sözlər:*** *kiçik və orta sahibkarlıq, kiçik və orta sahibkarlığın maliyyə problemləri, kiçik və orta sahibkarlığın sığorta təminatı, sığorta sisteminin təkmilləşdirilməsi problemləri, sığorta xidmətlərinin genişləndirilməsi məsələləri, sığorta xidmətlərinin əlçatanlıq problemləri, sığorta xidmətlərinin səviyyəsinin yüksəldilməsi perspektivləri*

Kiçik və orta sahibkarlığın inkişafı Azərbaycanda prioritet vəzifələrdən hesab olunur. Son illərdə bununla bağlı strateji qərarların qəbul edilməsi və bu sahəyə dövlət dəstəyinin artırılması diqqət çəkir [1]. 2018-ci ilin əvvəlinə ölkədə ümumi sahibkarlıq subyektlərinin sayı 169,6 min təşkil etmişdir, bunun 23,75 mini hüquqi şəxslər, 145,85 mini isə fərdi sahibkarlar olmuşdur. Bu sırada kiçik sahibkarlıq subyektlərinin sayı isə 165,4 minə yaxın təşkil etmişdir ki, bununda 19,5 mini hüquqi şəxslər olmuşdur. Orta sahibkarlıq subyektlərinin sayı isə 4217-dir. Sahibkarlıq subyektlərinin 2017-ci ildə yaratdıqları əlavə dəyərin həcmi 3,8 mlrd. manata yaxın, bu müəssisələrdə işləyənlərin sayı isə 290,1 min nəfər, əsas kapitala yönəldilən investisiyaların həcmi 3,3 mlrd. manata yaxın və ümumi məhsul istehsalının həcmi isə 6,3 mlrd. manat səviyyəsində olmuşdur [2].

Bütün bunlar kiçik və orta sahibkarlıq subyektlərinə diqqətin artırılmasını və onlara müxtəlif xidmətlərin, o cümlədən, maliyyə xidmətlərinin, eyni zamanda sığorta xidmətlərinin geniş çeşiddə təqdim edilməsini şərtləndirir. Maliyyə xidmətlərinin miqyasının genişləndirilməsi, öz növbəsində maliyyə bazarlarının həcminin artmasına və dinamikliyinin yüksəldilməsinə əlavə stimullar verir [3]. Sığorta xidmətinin göstərilməsi və onun əlçatanlığının təmin edilməsi kifayət qədər aktual məsələlərdəndir. Təəssüf ki, Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətlərinin əksəriyyəti regionlarda sığorta xidmətlərinin geniş çeşiddə göstərilməsi şəbəkəsini formalaşdırmağa nail ola bilməmişdir. Belə ki, regionlarda əsas sığorta xidmətləri həyat sığortası, avtomobil və həmçinin digər icbari xarakterli sığorta xidmətlərindən ibarətdir. Nəzərə alsaq ki, kiçik və orta sahibkarlıq subyektlərinin əksəriyyəti ölkənin regionlarında yerləşir, bu baxımdan həmin sahibkarlıq subyektlərinin fəaliyyət istiqamətləri üzrə sığorta xidmətlərinin təqdim edilməsi və bunun əlçatanlığına nail olunması vacib şərtlərdəndir [4]. Kənd təsərrüfatının müxtəlif sahələrində, aqrar sahənin müəssisələrində, ev təsərrüfatlarında, fərdi müəssisələrdə və digər fəaliyyət sahələrində sığorta xidmətlərinin göstərilməsi həmin sahədə çalışanların mülk və qiymətlilərinin, istehsal vasitələrinin, kapitalının, maşın və mexanizmlərinin daha güvənli və etibarlı şəkildə qorunmasını təmin edə biləcək səviyyədə olmalıdır. Belə olduğu təqdirdə, sahibkarlığın inkişaf etdirilməsi, biznes mühitinin yaxşılaşdırılması üçün daha münbit şərait formalaşdırmaq, həmin sahələrdə fəaliyyyəti stimullaşdırmaq, regionlarda sahibkarlıq fəaliyyətinə daha çox insanların cəlb edilməsinə nail olmaq mümkündür.

Dünyanın müxtəlif ölkələrində, ilk növbədə, inkişaf etmiş ölkələrdə kənd rayonlarında və ucqar ərazilərdə fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektlərinə dövlət dəstəyi ilə yanaşı, onların maliyyə təminatı mexanizmlərinə, əvvəldə qeyd etdiyimiz kimi, sığorta xidmətlərinin geniş paketdə göstərilməsinə xüsusi önəm verilir. Sığorta xidmətlərinin yüksək səviyyədə olması, eyni zamanda ölkədə maliyyə sabitliyinin mühüm göstəricilərindən biri kimi xarakterizə olunur **[5].** Sığorta xidmətlərinin diversifikasiyalaşdırılması və əlçatanlığının təmin edilməsi kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinə müsbət təsir göstərməklə yanaşı, eyni zamanda onların özlərinin maliyyə mənbələrinin genişləndirilməsinə, yeni sığorta haqları mənbələrinin formalaşdırılmasına və müştərilər üzrə əhatənin artırılmasına imkan verə bilər. Regionlarda sığorta xidmətlərinin təşkili və həcminin artırılması multiplikativ xüsusiyyətlərə malikdir. Belə ki, sığorta infrastrukturunun gücləndirilməsi bu ərazilərdə yeni iş yerləri yaratmaqla bərabər, maliyyə bazarının intensivliyini artırır, iqtisadiyyatın müxtəlif sahələrində kiçik və orta biznesə marağı yüksəldir, sahibkarlar nəslinin formalaşmasına müsbət təsir edir, regionlarda yaradılan sahibkarlıq və biznes subyektlərinin dayanıqlılığını artırır.

Ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə maliyyə bazarlarının inkişafı, maliyyə xidmətlərinin strukturunun diversifikasiyalaşdırılması, o cümlədən, sığorta xidmətlərinin səviyyəsinin yüksəldilməsi istiqamətində strateji hədəflər müəyyənləşdirilmişdir [6]. Şübhəsiz, bütün bunlar sığorta bazarının daha da canlanmasına və onun regional fəaliyyətinin şaxələndirilməsinə müsbət təsir edəcəkdir. 2019-cu ilin əvvəlinə ölkədə 21 sığorta şirkəti fəaliyyət göstərir, bunlardan cəmisi 3 sığorta şirkətinin il ərzində topladıqları sığorta haqlarının həcmi 50 milyon manatdan çox təşkil etmişdir ("Paşa

Həyat Sığorta" ASC, "Paşa Sığorta" ASC və "Atəşgah Həyat" Sığorta Şirkəti" ASC.). Sığorta şirkətləri tərəfindən 2018-ci il ərzində sığorta sinifləri üzrə hesablanmış sığorta haqlarının ümumi məbləği 727,9 milyon manat təşkil etmişdir və il ərzində bu məbləğin cəmisi 240,3 milyon manatı və yaxud 33 %-i sığorta ödənişləri şəklində sığorta edilənlərə ödənilmişdir[7]. 2018-ci il ərzində sığorta sinifləri üzrə hesablanmış sığorta haqları və sığorta ödənişlərinin təhlili göstərir ki, hesablanmış sığorta haqlarının strukturunda əsas yeri könüllü sığortalar tutur və bunlar 536,1 milyon manat olmuşdur, onun isə 305,7 milyon manatı həyat sığortası ilə bağlıdır, qeyri-həyat sığortasının həcmi cəmisi 230,4 milyon manat təşkil etmişdir [8]. Təəssüf doğuran haldır ki, kiçik və orta müəssisələrin əsasən daha çox fəaliyyət göstərdiyi kənd təsərrüfatı sahələrində və aqrar sektorda sığorta xidmətlərinin həcmi olduqca cüzi rəqəmlərlə ifadə olunmuşdur. Belə ki, 2018-ci il ərzində kənd təsərrüfatı heyvanlarının sığortası üzrə sığorta haqları cəmisi 2 milyon manat, ödənişlər isə 575 min manat, kənd təsərrüfatı bitkiləri məhsullarının sığorta haqları üzrə 640 min manat, ödənişlər isə cəmisi 180 min manat səviyyəsində olmuşdur. Hesab edirik ki, bu rəqəmlər regionlarda kiçik və orta müəssisələr, ev təsərrüfatları üzrə sahibkarlıq fəaliyyətinə sığorta xidmətlərinin hansı səviyyədə olmasını göstərir. Fikrimizcə, yaxın perspektivdə bu istiqamətlərdə daha təsirli tədbirlərin görülməsi vacibdir və bunlarla bağlı bir sıra məsələlərə ciddi önəmin verilməsi məqsədəuyğundur:

1) Kiçik və orta sahibkarlığın inkişafında sığorta xidmətlərinin rolunun obyektiv təhlili və qiymətləndirilməsi təmin edilməlidir;

2) Kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyət istiqamətləri üzrə sığorta xidmətlərinin göstərilməsinin stimullaşdırılması mexanizmləri hazırlanmalı və tətbiq olunmalıdır;

3) Kiçik və orta sahibkarlıq subyektlərinin ölkə iqtisadiyyatında rolunun strateji səviyyəyə qaldırılmasına adekvat şəkildə, sığorta xidmətləri şəbəkəsi və infrastrukturu yaradılmalıdır və s.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

2. Azərbaycanda kiçik və orta sahibkarlıq. Statistik məcmuə. Bakı, 2018, 196 s.

3. Ataşov B.X. Maliyyə bazarları. Bakı: Kooperasiya nəşriyyatı, 2016, 456 s.

4. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt, 2018, 376 s.

5. Əliyev Ş.T. Azərbaycanda maliyyə sabitliyinin təmin edilməsi problemləri və maliyyə-kredit sisteminin inkişafının müasir aspektləri // Audit, № 03, 2017. s. 26-40.

6. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016. 59 s.

7. 2018-ci il yanvar-dekabr ayları üzrə hesablanmış sığorta haqları və sığorta ödənişləri haqqında məlumat (sığorta şirkətləri üzrə) Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası. https://www.fimsa.az.

8. 2018-ci il yanvar-dekabr ayları üzrə hesablanmış haqları və sığorta ödənişləri haqqında məlumat (sığorta sinifləri üzrə). Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası. https://www.fimsa.az.

**Резюме**

***Агаев Х.Р.***

**Стратегическая важность повышения роли страховых услуг в развитии малого и среднего предпринимательства**

*В статье исследованастратегическая важность повышения роли страховых услуг в развитии малого и среднего предпринимательства. С этой целью анализировано влияние развития малого и среднего предпринимательства в повышении устойчивости национальной экономики. Раскрыта роль страховых услуг в ускорении развития малого и среднего предпринимательства. Рассмотрены проблемы диверсификации страховых услуг и совершенствования системы страхования. Обоснована важность роли и усиление участия страховых компаний Азербайджана в развитии предпринимательства. Рассмотрены проблемы обеспечения доступности страховых услуг. Подготовлены рекомендации и даны предложения по усилению стратегической важности повышения роли страховых услуг в развитии малого и среднего предпринимательства на ближайшие годы.*

***Ключевые слова:*** *малое и среднее предпринимательство, финансовые проблемы малого и среднего предпринимательства, проблемы совершенствования страховой системы, вопросы*

*расширения страховых услуг, проблемы доступности страховых услуг, перспективы повышения уровня страховых услуг*

**Summary**

***Aghayev H.R.***

**The Strategic Importance of Increasing the Role of Insurance Services in the Development of Small and Medium Enterprises**

*The strategic importance of increasing the role of insurance services in the development of small and medium enterprises is investigated in the article. The impact of the development of small and medium-sized businesses in improving the sustainability of the national economy is analyzed too. The role of insurance services in accelerating the development of small and medium-sized businesses is given then. The problems of diversification of insurance services and improvement of the insurance system are considered.The importance of the role and strengthening of the participation of insurance companies in Azerbaijan in the development of entrepreneurship is improved. The problems of ensuring the availability of insurance services are considered. Recommendations and proposals for strengthening the strategic importance of enhancing the role of insurance services in the development of small and medium-sized businesses are made in the end of the article.*

***Key words:*** *small and medium enterprises, financial problems of small and medium enterprises, problems of improving the insurance system, issues of expanding insurance services, problems of accessibility of insurance services, prospects for increasing the level of insurance services*

## İSTEHSAL İNFRASTRUKTURUNUN METODOLOJİ MƏSƏLƏLƏRİ

***Babayeva T.P., Rəhimli E.Ş.***

*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalə istehsal infrastrukturunun nəzəri-metodoloji məsələlərinə həsr olunmuşdur. Məqalədə infrastrukturun əlamətlərə görə təsnifləndirilməsi, istehsal infrastrukturunun funksiyaları və elementləri haqqında ətraflı məlumat verilmişdir.*

***Açar sözlər****: sahə, struktur, infrastruktur, fəaliyyət sahəsi, istehsal*

Müasir şəraitdə Azərbaycanda istər istehsal, istər sosial və istərsə də bazar infrastrukturları fəaliyyət göstərir. Hazırda onların bəzi sahələri zəif, bəziləri isə güclü formada inkişaf etdirilir. Bazar infrastrukturunun bir çox sahələri isə indi formalaşmağa başlayır.Ümumiyyətlə, infrastrukturun yaranma tarixinə nəzər saldıqda görərik ki, onun kökləri qədim zamanlara gedib çıxır. İlk siviliziyasının qədim Şərqdə olduğu məlumdursa, ilkin, bəsit və sadə formalı infrastrukturların da qədim Şərqdə yarandığı aydındır. Bu dövrlərdə istehsal infrastrukturlarının yaranması ilə intişar tapmışdır. Belə ki, Asiya istehsal üsulunda kənd təsərrüfatı istehsalını artırmaq üçün su kanallarından istifadə edilməsi, karvansaraların yaradılmasını və s. haqda qeyd edilmişdir. Qədim Azərbaycanın tarixinə də nəzər yetirilsə belə, infrastrukturların mövcud olmasını görmək olar. Cəmiyyət inkişaf etdikcə, sivilizasiya yüksəldikcə ayrı-ayrı infrastruktur sahələri də təkamülə məruz qalmış, formalaşmış və inkişaf etdirilmişdir.

Müasir dövrdə Azərbaycanın müstəqilliyə qədəm qoyması ilə, bazar iqtisadiyyatını dövrünə daxil olması ilə müxtəlif infrastruktur sahələrinin formalaşması, yaranması və inkişafı başlanmışdır.

İndiki bazar iqtisadiyyatı şəraitində Azərbaycanın infrastrukturlarını onun siyasi müstəqilliyi ilə, yeni iqtisadi sistemə keçidi ilə, bazar iqtisadiyyatının bərqərar olması ilə və ölkənin müharibə vəziyyətində olması, torpaqlarımızın 20%-nin erməni quldurlarının işğalı altında olması ilə səciyyələndirmək olar [1, s. 229].

İnfrastruktur dedikdə başqa sahələrə xidmət göstərən sahə və özəklərin məcmusu başa düşülür. Onun simasında hansısa bir sahəyə xidmət göstərmək ifadəsi xarakterikdir. İstehsala və ya yardım etdiyi başqa sahəyə xidmət edən infrastruktur qurum həmin prosesə bilavasitə təsir göstərsə də, oradakı texnoloji və digər müvafiq prosesdən, adətən, kənardadır.Beləliklə, infrastruktur dedikdə hərfi mənasına görə latın sözü olan info-aşağı, alt və struktur-quruluş, yerləşmə sözlərinin birləşməsindən alınan iqtisadi sistemin əsası, onun daxili quruluşu kimi başa düşülür. İqtisadi fikir tarixində ilk dəfə olaraq bu ifadədən XX əsrin 40-cı illərinin axırlarında silahlı qüvvələrin həyat fəaliyyətini təmin edən obyekt və tikililəri adlandırmaq üçün istifadə edilmişdir.

Müasir dövrdə istehsal infrastrukturlarının başlıca xüsusiyyətlərini nəzərdən keçirsək, aydın olar ki, infrastrukturlar müxtəlif əlamətlərə təsnifləşdirilir: 1) insanların fəaliyyət sferası üzrə, 2) fəaliyyətin sahələri üzrə, 3) yayılma miqyasına görə, 4) ətrafda formalaşma xüsusiyyətlərinə görə.

Ümumiyyətlə, infrastruktur insanların bütün fəaliyyət sferasını əhatə edir. Bu baxımdan istehsal və maddi fəaliyyət sferasını əhatə edən infrastruktur sahələri istehsal infrastrukturu, sosial sferanı və qeyri-maddi sahələri əhatə edən infrastruktur sahələri isə-sosial infrastruktur adlanır [2, s. 32].

İstehsal infrastrukturu isə öz növbəsində istehlak edən infrastruktura və istehsalı yaradan şeyləri istehsal edən infrastruktura bölünür.

Istehsal infrastrukturu dedikdə, sənaye və kənd təsərrüfatı məhsullarının istehsalı prosesində əmtəə və mal ehtiyatlarının hərəkətini təmin edən maddi-texniki sistemlərin məcmusu başa düşülür. Əmtəə və mal ehtiyatlarının təsnifləşdirilməsinə müvafiq olaraq istehsal infrastrukturunun funksiyaları aşağıdakı kimi formalaşdırılır:

1. İstehsal prosesinin maddi vəsaitlərlə təmin olunması: təbii ehtiyatlar; enerji; hazır məhsullar;
2. İstehsalın iş qüvvəsi və ya əmək ehtiyatları ilə təmin olunması;
3. İstehsalın maliyyə vasitələri ilə təmin olunması;
4. İstehsalın informasiya ilə təmin olunması.

Bu funksiyalar istehsal prosesini həyata keçirmək üçün böyük əhəmiyyətə malikdir.

İstehsal infrastrukturu müxtəlif əlamətlər üzrə də təsnifləşdirilir. Belə ki, istehsal mühiti üzrə istehsal infrastrukturunu aşağıdakı kimi təsnifləşdirmək olar:

1. Müəssisənin istehsal infrastrukturu;
2. Regionların istehsal infrastrukturu;
3. Dövlətin istehsal infrastrukturu;
4. Əməkdaşlıq edən dövlətlərin istehsal infrastrukturu;
5. Dünya ictimaiyyətinin istehsal infrastrukturu [3, s.50].

Sahə prinsipləri üzrə istehsal infrastrukturlar isə aşağıdakı kimi təsnifləşdirilir:

1. Ayrı-ayrı istehsalın infrastrukturu;
2. Müəssisə və təşkilatların istehsal infrastrukturu;
3. Sahələrin istehsal infrastrukturu.

Eyni zamanda istehsalın özünün yerinə yetirdiyi funksiyalardan asılı olaraq da istehsal infrastrukturu təsnifləşdirilir. Bu cür təsnifləşdirmə istehsal infrastrukturunun elementlərinin sahə tərkibi adlanır və aşağıdakılara bölünür:

1. Nəqliyyat (nəqliyyat kommunikasiya);
2. Enerji təsərrüfatı (enerji kommunikasiya);
3. Rabitə;
4. Su təchizatı və kanalizasiya;
5.Topdansatış ticarət;
6. Maddi-texniki təchizat;
7. Maliyyə infrastrukturları.

İstehsal infrastrukturunun sahələr üzrə bu qaydada təsnifləşdirilməsi bir çox ölkələrin sosial-iqtisadi elm sahələrində qəbul edilmişdir.Bununla belə, istehsal infrastrukturunun belə təsnifləşdirilməsi ictimai həyatın inkişafı və idarə olunmasına sistemli iqtisadi yanaşma metodlarının tətbiq edilməsinə kömək edir.

Azərbaycanda bazar iqtisadiyyatı şəraitində infrastrukturların, xüsusilə də istehsal infrastrukturlarının mahiyyət etibarilə tətbiqini ümumiləşdirərək, belə qənaətə gəlmək olar ki, ölkənin sosial-iqtisadi inkişafını təmin etmək üçün bütün infrastruktur sahələri qarşılıqlı şəkildə vəhdətdə inkişafı ümumilikdə istehsalın intensiv artımına təsir göstərməlidir. Belə ki, istər sənaye, istərsə də kənd təsərrüfatı istehsalı inkişafına kömək edəcəkdir. Məlum olduğu kimi, istehsal bir sıra zəruri infrastrukturlarla qarşılıqlı əlaqədardır. Burada bir sahənin inkişafı digər sahənin inkişafı ilə üzvi sürətdə bağlıdır. Məsələn, hər hansı bir səbəbdən işləməyən sənaye sahələri işə düşdükcə, inkişaf etdikcə yük daşımaları artmalı və nəqliyyatın dövretmə sürəti yüksəlməlidir;

- respublikanın daxilində daha məqsədyönlü, müasir tipli ucuz nəqliyyat növləri yüksək artımla inkişaf etməlidir. Yükdaşımalarda dəmiryol, avtomobil nəqliyyatı, habelə su nəqliyyatına daha çox üstünlük verilməlidir;
- xarici ölkələrlə beynəlxalq iqtisadi əlaqələrdə bunların hamısı ilə yanaşı, hava nəqliyyatından da geniş surətdə istifadə olunmalıdır;
- gələcəkdə neft və qaz sənayesinin inkişafı ilə boru kəmər nəqliyyatından geniş istifadə olunmalıdır;

- müxtəlif sənaye sahələrində artım müşahidə olunduqca enerji-yanacaq təsərrüfatı bazasının genişlənməsi və yüksək artımı hiss olunacaqdır;

- kənd təsərrüfatı istehsalının inkişafı hazırda aşağı səviyyədə olan infrastrukturların inkişafına səbəb olacaqdır;

- bizcə, ölkəmizdə bazar münasibətləri şəraitində iqtisadiyyat tədricən bərqərar olduqca ayrı-ayrı infrastruktur sahələri, o cümlədən istehsal infrastrukturları da inkişaf edəcək, iqtisadiyyatın gücləndirilməsi prosesində özünəməxsus yer tutacaqdır [4, s.162].

**Ədəbiyyat**


1. Ибрагимов Л.А. Инфраструктура товарного рынка. М.: ПРИОР, 2001, 359 с.
2. Cəbiyev R.M. Azərbaycanda bazar infrastrukturunun formalaşması və inkişafı. Bakı: AzTU, 2000, 261 səh.
3. Vəliyev T.S. İnfrastrukturlar: mahiyyəti, təsnifatı və əhəmiyyəti. Bakı: Elm, 2000, 169 s.
4. Məmmədov İ.A., Abdullayev Z.S. İstehsala xidmətin iqtisadiyyatı və idarə edilməsi. Dərslik. Bakı, 2001, 360 s.



**Резюме**

***Бабаева Т.П., Рахимли Э.Ш.***

**Методология производственной инфраструктуры**

*Статья посвящена теоретическим и методологическим вопросам производственной инфраструктуры. В статье дается подробная информация о классификации инфраструктуры, функциональных элементах и элементах производственной инфраструктуры.*

***Ключевые слова:*** *поле, структура, инфраструктура, сфера деятельности, производство*



**Summary**

***Babayeva T.P., Rahimli E.Sh.***

**Methodological Problems of Manufacturing Infrastructure**

*The article is devoted to theoretical and methodological questions of the production infrastructure. The article also provides detailed information on the classification of infrastructure, functional elements and productive infrastructure.*

***Key words:*** *field, structure, infrastructure, activity area, production*


## MİKROMALİYYƏ TƏMİNATI KİÇİK SAHİBKARLIQ FƏALİYYƏTİNİN TƏŞƏKKÜLÜNÜN MÜHÜM KOMPONENTLƏRİNDƏN BİRİ KİMİ


***Bağırov M.S.***

*Naxçıvan Dövlət Universiteti*

***Qasımov S.H.***

*Sumqayıt Dövlət Universiteti*



***Xülasə.*** *Məqalədə Azərbaycan Respublikasında, o cümlədən onun tərkib hissəsi olan Naxçıvan regionunda kiçik sahibkarlığın inkişafının real vəziyyəti haqqında məlumatlar öz əksini tapmışdır. Sahibkarlıq fəaliyyəti özündə çoxsaylı və müxtəlif məzmunlu istiqamətləri özündə birləşdirir ki, bunlardan biri də mikromaliyyə resurslarının idarə olunması, subyektlərin maliyyə təminatının yaxşılaşdırılmasıdır. Tədqiqat işində mikromiqyaslı maliyyə resurslarının mövcud və perspektiv dövr üçün istifadəsi üzrə məqsədəuyğun hesab edilən üsul və istiqamətlərdən bəhs olunmuşdur.*



***Açar sözlər:*** *maliyyə təminatı, maliyyə amilləri, maliyyə sistemi, sahibkarlıq fəaliyyəti, sahibkarlıq komponentləri, regional inkişaf*


İnsan cəmiyyətlərinin sosial-iqtisadi inkişafı, onların mədəni-məişət şəraitinin yüksəlməsi, yaşayış tələblərinin və imkanlarının genişlənməsi onlarda formalaşdırılmış olan, daim təkmilləşdirilən iqtisadi sistemlərin, onların tətbiq etdiyi üsul, alət və mexanizmlərin dinamik və məqsədyönlü yüksəlişə nə dərəcədə uyğun olması ilə müəyyən edilməkdədir. Bütövlükdə ölkə, o cümlədən ayrı-ayrı regionların əhalisinin məşğulluğunun və tələbatının formalaşması ümumi cəhətlərlə yanaşı spesifik situasiya, məqam və şərtlər əsasında həyata keçirilməkdədir. Deyilənlərlə yanaşı əhalinin fərdi qabiliyyətlərinin reallaşması da mühüm

əhəmiyyət kəsb edir. Problemin nəzəri təməllərinin araşdırılması bir neçə maddəyə xüsusi diqqətin ayrılmasını tələb edir:

- Sahibkarlıq fəaliyyətinin təşəkkülü və reallıqlarla əlaqədar transformasiyası, inkişafı və təkmilləşdirilməsinin ümumölkə və regional müstəvilərdə bir çox sosial və iqtisadi məsələlərin (məşğulluq, tələbatın ödənilməsi, istehsal ixtisaslaşması və s.) irəliləməsinə təsiri;
- Oncəki bənddə ümumi formada ifadə edilən sahibkarlar ordusunun təşkilatçılıq və işgüzarlıq fəaliyyətinin miqyası baxımından təsnifləşdirilməsinin, müvafiq məcmuda daha çevik idarəetmə quruluş və mexanizmlərinə malik kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinin araşdırılmasının resurs (o cümlədən maliyyə) potensialının optimal və məqsədyönlü bölgüsünə şərait yaratması;
- Mübadilə məkanlarında "hazır məhsul həcmi – real tələbat – məhsul qiyməti" marşrutu kifayət qədər "duyarlılıqla" fərqlənən komponentlərin istehlakçı kütləsinin xeyrinə dəyişilməsi ilə əlaqəli situasiyalarının formalaşması;
- Maliyyə (o cümlədən mikromaliyyə) resursları ilə təminolunma səviyyəsində qənaətbəxşlilik parametrinin qorunması sahibkarlıq fəaliyyətinin irəliləməsinin, daha mütərəqqi mərhələlərə keçidlərin təmin olunması;
- Sahibkarlığın kiçik miqyas və dövriyyələri malik formalarının təşəkkülü və həyata keçirilməsində mikromaliyyə resurslarından səmərəli istifadənin məqsədyönlülüyünün əsaslandırılması;
- Kiçik sahibkarlıq subyektləri üzrə mikromaliyyə təminatı məqsədlərinin hüquqi aspektlərini səciyyələndirən normativ bazanın yaradılması və s. [2;165]

Sadalanan bəndlərin hər biri öz-özlüyündə fərdi tədqiqatların aparılması üçün zəmini formalaşdırır. Fikrimizcə, onların daha əhatəli öyrənilməsi, bu zaman kompleks tədqiqatın "ümumidən xüsusiyə doğru" qaydasında qurulması və konkret təcrübi kəmiyyətlərlə möhkəmləndirilməsi araşdırılan problemin mütəşəkkil qaydada şəkilləndirilməsinə və ifadə olunmasına şərait yaradacaqdır. Digər tərəfdən, tədqiqatın məkan və zaman ifadəsinin, onun sahəvi obyektinin müəyyənləşdirilməsi də mühüm əhəmiyyət kəsb edir.

Məqalədə problemin təməl nöqtəsi olaraq ifadə edilən "maliyyə vəsaiti – sahibkarlıq fəaliyyəti" tandemi mürəkkəb hadisə və proseslər əsasında formalaşan və çoxsaylı situasiya və konfiqurasiyalara malik variantlardan təşkil olunmaqdadır. Həmin cütlük, ilk növbədə, aşağıdakı iki araşdırma marşrutunun təzahürünə imkan yaradır:

1. Sahibkarlıq fəaliyyəti → kiçik sahibkarlıq → sahəvi bölgüyə əsaslanan kiçik sahibkarlıq subyektləri;
2. Maliyyə vəsaitlərinin mövcudluğu → maliyyə resursları ilə subyektlərin təmin olunması → kiçik sahibkarlıq subyektlərinin maliyyə ehtiyaclarının qarşılanması.

Hər iki bəndi vahid fəaliyyət "məkanında" birləşdirən problem – müasir inkişaf mərhələsində Naxçıvan Muxtar Respublikasında kiçik sahibkarlıq subyektlərinin aqrar sferasında maliyyə resursları ilə təmin olunmanın yaxşılaşdırılmasından ibarətdir. Məsələnin əhatəliliyi, miqyasının böyüklüyü, həmçinin məqalənin icazə verilən texniki parametrləri nəzərə alınmaqla, onunla bağlı bir sıra mühüm məqamlara diqqət yetirmək məqsədəuyğun olardı.

İlk növbədə, qeyd olunmalıdır ki, Naxçıvan regionunda bəhs olunan parametrlərə uyğun gələn məcmu (kiçik sahibkarlıq subyektləri) üzrə vahidlərin sayı 2019-cu ilin mart ayının 1-i tarixinə 2300-ə yaxınlaşmaqdadır. Onların tərkibində iqtisadi sahələrin payına düşən hissələrin bölgüsündə aqrar sahənin xüsusi çəkisi 26,9%, sənayenin xüsusi çəkisi 25,4%, ticarət və iaşə xidmətlərinin payı 19,6% təşkil etməkdədir. Xüsusi pay ifadəsində aqrar sahənin üstün mövqeyi, ilk növbədə, tarixi yerləşmə və istehsal ənənələri ilə, regionun "bağlılığı" və tələbatın, ilk növbədə, ərzaq hissəsinin daxili imkanlar hesabına ödənilməsi istəyilə və d. əlaqəli amillərlə şərtləndirilməlidir.

Digər tərəfdən, müasir dövrün gerçəkləşdirdiyi qloballaşma, "təbii" inhisarçılıq, istehsal təmərküzləşmələri kimi anlayışlar istər fərdlərin, istərsə də istehsal potensialının (əmtəələrin, xidmətlərin) ərazi parametrləri üzrə qeyri-bərabər paylanmasına gətirib çıxarır ki, bu da bir çox hallarda səmərəlilik, optimal yerləşdirmə və nəticə paylanması, gəlirlilik kimi göstəricilərin səviyyələrinə, istehsal potensialının spesifikasiyalarının (texnika və texniki vasitələrlə təminolunma, avtomatlaşdırma və mexanikləşdirmə səviyyələri və s.) kənarlaşma amplitudaları şəklinə təsir edir.

Mövzu ilə bağlı araşdırmanın fərdi komponentlərindən birini də maliyyə təminatı, maliyyə resurslarına olan ehtiyacların qarşılanması təşkil edir. Öz-özlüyündə bu element "lokal" qaydada, qarşılıqlı əlaqə və asılılıqlar, tətbiq parametrləri və ölçüləri nəzərə alınmaqdan araşdırıldıqda düzgün nəticələrin formalaşmasına şərait yaratmaq iqtidarında deyildir. Amillərə fərdi yanaşmalarla yanaşı onların cütlüklər şəklində nəzərdən keçirilməsi də tədqiqat obyektləri haqqında daha aydın mənzərənin yaradılmasına imkan

verəcəkdir. Buna misal olaraq “sahibkarlıq fəaliyyəti – maliyyələşmə fəaliyyəti” müstəvisi üzrə hərəkətlərin nümunəvi müəyyənləşdirilməsi göstərilə bilər. (sxem 1)

**Sxem 1. Sahibkarlıq fəaliyyətində maliyyə amilinin iştirakı mərkəzləri**

***Sahibkarlıq fəaliyyətində maliyyə amilinin iştirakı “mərkəzləri”***

**Mövcud fəaliyyət tsiklinin başa çatması mərhələsində** →

*Maliyyə vəsaitlərinin hərəkət istiqamətləri:*

- ✓ istehsal fəaliyyəti ilə birbaşa əlaqəli komponentlər üzrə malsatanlara borcların ödənilməsi;
- ✓ fəaliyyətin nəticələrinə görə aidiyyatı vergi və rüsumların, digər məcburi ödənişlərin edilməsi;
- ✓ maliyyə vəsaitlərinin istehsalın genişləndirilməsi məqsədilə bölgüsü;
- ✓ başqa subyektlərin nizamnamə kapitalında iştirak (səhmdara çevrilmə və s.);
- ✓ xalis maliyyə vəsaitinin (mənfəətin) bir hissəsinin əmanət təyinatlı istifadəsi və s.

**Yeni (təkrar) istehsal proseslərinə keçid mərhələsində** →

*Maliyyə vəsaitlərinin hərəkət istiqamətləri:*

- ✓ fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi, istehsal obyektlərinin seçilməsi və icraatın maliyyə təminatı üzrə işlərin planlaşdırılması və proqnozlaşdırması (fəaliyyət ardıcıllığı və əsaslandırılması gözlənilməklə);
- ✓ fəaliyyətin təchizat mərhələsi üzrə zəruri komponentlərin əldə olunmasına yönəldilməli olan vəsaitin ayrılması və istifadəyə yönəldilməsi;
- ✓ yeni məhsulların istehsalının mənimsənilməsinə maliyyə resurslarının yönəldilməsi və s.

**İstehsal və sonrakı reallaşdırma mərhələlərində** →

*Maliyyə vəsaitlərinin hərəkət istiqamətləri:*

- ✓ Birbaşa istehsal, ümumi təsərrüfat və kommersiya xərclərinin aydınlaşdırılması və obyektlərinə aid edilməsi;
- ✓ cari maya dəyəri və satışdan daxilolma həcmlərinin dəqiqləşdirilməsi əsasında gəlirlərin həqiqi kəmiyyətinin müəyyən edilməsi və s.

*Mənbə: [7; 388-389]*

Sxem 1 istər sahibkarlıq subyektləri, istərsə də maliyyələşmə fəaliyyəti üzrə ümumiləşdirilmiş mənzərəni sərgiləməkdədir. Sxemdə ifadə olunan hər üç mərhələ öz-özlüyündə mövcud olan xüsusi və cəlb edilmiş maliyyə vəsaitlərinin istifadəsində real şərtlər daxilində daha səmərəli və optimal qaydada istifadə olunmasını tələb edir.

Həmçinin region miqyasında aqrar sahə üzrə mövcud kiçik sahibkarlıq subyektlərinin maliyyə vəsaitlərinə olan ehtiyaclarının kənar mənbələr hesabına qarşılanmasında cəlb olunan ümumi subyekt sayının 76,6%-i məhz bu quruluşların payına düşür (maliyyə vəsaitləri həcmləri nəzərə alınmazsa). Bununla bərabər, say etibarı ilə ümumi həcmdə kifayət qədər böyük xüsusi çəki təşkil edən kiçik sahibkarlıq subyektləri, istərsə də maliyyə resurslarının təminatında parametrləri əhaliyə də əsasən 15-25 min manatla müəyyənləşən biznes layihələrinin maliyyə ehtiyaclarının ödənilməsi araşdırmada əsas iştirakçı “tərəflər” hesab olunmaqdadır.

Deyilənlər məkan elementinin və iqtisadi sahə (fəaliyyət) istiqamətinin əlavə olunması problemin bəlli ərazi miqyasında inkişafı məcrası, formaları və xüsusiyyətləri haqqında fikir söyləməyə imkan verir.

**Ədəbiyyat**


1. Bağırov M.S., Mahmudov C.İ. Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişafı: problemlər və həlli yolları. Naxçıvan: Əcəmi, 2017, 257 s.
2. Bağırov M.S. Naxçıvan Muxtar Respublikasının aqrar sektoru: hasilat-reallaşdırma sistemi və marketinq prinsipləri. Naxçıvan: Əcəmi, 2016, 344 s.
3. Bağırov M.S. Aqrar sahədə resurs potensialı, onun istehsal və satış sisteminin formalaşmasında rolu. Naxçıvan: Qeyrət, 2014, 130 s.
4. Bağırov M.S. Aqrar sahənin inkişafı və marketinq prinsiplərindən istifadə. Naxçıvan: Qeyrət, 2014, 102 s.

5. Bağırov E.A.Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı. Bakı: Avropa, 2015, 332s.
6. Mahmudov C.İ. Biznes: əsasları, təşkili və idarə edilməsi. Naxçıvan: İdeya, 2011, 272 s.
7. Плотницкий М.И., Лобкович Э.И., Муталимов М.Г. Курс экономической теории. Мн.: Интерпрессервис, 2013, 668 с.
8. Войтов А.Г. Экономика. Общий курс. Мн.: М, 2011. 581s.
9. Алексеева М.М. Планирование деятельности фирм. М.: Финансы и статистика, 2011. 592s.
10. www.maliyye.gov.az

**Резюме**

***Багиров М.С., Касумов С.Г.***

**Микрофинансовое обеспечение – один изважных компонентов организации малой предпринимательской деятельности**

*В статье нашла свое отражение информация о реальном положении развития малого предпринимательства в Азербайджанской Республике, а также в ее неотъемлимой части – Нахчыванском регионе. Предпринимательская деятельность соединяет в себе многочисленные и обладающие различным содержанием направления, одним из которых является управление микрофинансовыми ресурсами, улучшение финансового обеспечения субъекта. В работе повествовано о способах и направлениях, считающихся целесообразными для использования микрофинансовых ресурсов в реальных и перспективных временных периодах.*

***Ключевые слова:*** *финансовое обеспечение, финансовые компоненты, финансовая система, предпринимательская деятельность, компоненты предпринимательства, региональное развитие*

**Summary**

***Baghirov M.S., Gasımov S.H.***

**Microfinance Guarantee– as One of the Main Components of Small Business Development**

*The article contains information about the real state of development of small entrepreneurship in the Republic of Azerbaijan, including its part, in the Nakhchivan region. Entrepreneurial activity incorporates numerous and varied content such as microfinance management, improvement of financial support for the subjects, and the availability of microfinance resources for existing and prospective periods, the methods and trends that are considered appropriate for use.*

***Keywords:****financial support, financial factors, financial system, entrepreneurial activity, entrepreneurial components, regional development*

## AZƏRBAYCAN İQTİSADİYYATININ İNKİŞAFINDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN ROLU VƏ ONLARIN MALİYYƏ İMKANLARININ TƏHLİLİ

***Bədəlov Ə.M.***
*Lənkəran Dövlət Universiteti*

***Açar sözlər:*** *kiçik və orta sahibkarlıq, maliyyə resursları, bank kreditləri, investisiya, faktorinq, lizinq, vençur maliyyələşməsi, startap, vençur kapitalı*

Azərbaycanın müasir və gələcək dayanıqlı inkişafı məqsədilə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi prioritet məqsəddir. Sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq ölkəmizdə sahibkarlıq fəaliyyəti inkişaf etdirilməkdədir. Sahibkarlığa dövlət dəstəyi tədbirləri nəticəsində sahibkarlıq subyektlərinin sayı 2003 - 2018-ci illər ərzində 4,3 dəfə artıb, ümumi daxili məhsulda özəl sektorun xüsusi çəkisi 80 %, məşğulluqda payı isə 75 % -dən də artıqdır. Əldə edilmiş uğurların davamlılığının təmin olunması sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsini, sahibkarlara, xüsusilə də kiçik və orta sahibkarlara göstərilən maliyyə imkanlarının əhatə dairəsinin genişləndirilməsini zəruri edir, bu sahədə institusional yanaşmanı şərtləndirir.

Ölkədə KOS-un inkişafı ilə əlaqədar Strateji Yol Xəritəsində müəyyənləşdirilən strateji məqsədlərə nail olmaq və müvafiq imkanlardan maksimum istifadəni təmin etmək istiqamətində əsas strateji hədəf kimi uzunmüddətli perspektivdə KOS-un Azərbaycanın ÜDM-inə təsirini artırmaq məqsədilə ölkədə biznes mühitinin və tənzimləyici bazanın daha da yaxşılaşdırmaqdan və KOS subyektlərinin dayanıqlı şəbəkəsinin yaradılması məqsədilə maliyyələşmə resurslarına sərfəli və səmərəli çıxışın təmin edilməsindən ibarətdir [1]. Həmçinin strateji hədəf kimi ölkənin valyuta ehtiyatlarının artırılması və ölkədə istehsal olunan malların

beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi məqsədilə KOS-un fəaliyyətinin beynəlmiləlləşdirilməsi və xarici bazarlara çıxış imkanlarının artırılmasıdır. Bu hədəflər kiçik və orta sahibkarlıqda maliyyə imkanlarının strateji xəttini müəyyən edir. Bu baxımdan ölkədə ən başlıca məsələlərdən biri sayılan kiçik və orta müəssisələrin fəaliyyətləri zamanı təsərrüfat əməliyyatlarının maliyyələşdirilməsi ilə bağlı problemlərin öyrənilməsi və onun həlli yollarının müəyyənləşdirilməsi ən vacib məsələlərdən hesab edilməlidir.

Dövlət tərəfindən kiçik biznesə birbaşa və təminatlı öhdəliklər yolu ilə maliyyə-kredit yardımına xüsusi diqqət yetirilməlidir [2]. Azərbaycanda fəaliyyət göstərən kiçik və orta müəssisələrin dünyada geniş yayılmış 2 əsas maliyyələşmə mənbəyinin (bankların fəaliyyətinə əsaslanan mənbələr və maliyyə bazarına əsaslanan mənbələr) əsasən birindən istifadə olunur. Kredit təşkilatları, o cümlədən banklar tərəfindən verilən kredit vəsaitləri kiçik və orta sahibkarların əsas xarici mənbəyi rolunda çıxış edir. Qiymətli kağızlar bazarından maliyyə cəlb etmək təcrübəsi isə müəssisələrdə, xüsusilə də kiçik və orta müəssisələrdə hələ öz yerini tuta bilməmişdir. Müqayisə üçün qeyd edək ki, inkişaf etmiş ölkələrdə ÜDM-in 50-70%-i məhz kiçik və orta müəssisələr tərəfindən formalaşır. Avropa Birliyi ölkələrində iş yerlərinin 60%-dən çoxu kiçik və orta sahibkarlar tərəfindən yaradılır.

Azərbaycanın maliyyə sistemində faktorinq xidməti kiçik və orta sahibkarların maliyyələşməsində mühüm rol oynaya bilər. Ölkə iqtisadiyyatının həcminin böyüməsi fonunda sahibkarların maliyyə resurslarına tələbatının artması istiqamətində faktorinqdən istifadə səmərəli ola bilər. Müqayisə üçün qeyd edək ki, Kanadada KOS-ların 13%-i, Avropada 11%-i, Fransada isə 32% faktorinqdən istifadə edir

Ölkəmizdə bank kreditlərin əldə edilməsində mövcud çətinliklər kiçik və orta sahibkarlara uzunmüddətli investisiya cəlb etməsi problemini də aktual olaraq saxlamaqdadır. Bu istiqamətdə lizinq biznesin inkişafının ən səmərəli texnologiyalarından hesab oluna bilər. Dünyanın bir çox ölkələrində lizinq iqtisadiyyata investisiya qoyuluşu üsullarından birinə çevrilmişdir. Belə ki, dünyanın inkişaf etmiş ölkələrində iqtisadiyyata investisiya qoyuluşunun 25-30 %-i lizinq vasitəsilə həyata keçirilir, yeni növ məhsulların 80 %-ə qədəri lizinq yolu ilə alınmış avadanlıqlarda istehsal olunur. Azərbaycan Respublikasında Ata lizinq, Azərlizinq, AG lizinq, SLS Azərlizinq, Debut Bank, Günay lizinq, Parex lizinq, Uni lizinq, Muğan lizinq, AZ lizinq, Bank Respublika, Bank of Baku, CredAqro, Amrah Bank və “Aqrolizinq”Açıq Səhmdar Cəmiyyəti lizinq xidmətləri göstərirlər. Lizinq şirkətlərinin aktiv portfeli 24,5 milyon ABŞ dolları təşkil edir. Lizinq portfelinin strukturunda 33,6 % tikinti layihələrinin, 21,9 %-i nəqliyyat, 13,8 % maliyyə və sığorta, 6,1 % yeyinti sənayesi, 5,8 %-i səhiyyə və 5,5 % istehsal, qalan 13,3 %-i digər layihələrin payına düşür.

Hesab edirik ki, kiçik və orta sahibkarlara dünyada geniş yayılan qiymətli kağızlar (səhm və istiqraz) buraxılışı vasitəsilə maliyyə vəsaiti cəlb etmək təcrübəsindən istifadə etmək səmərəli olardı. Kiçik biznesin dəstəyinin ən yaxşı vasitəsi kimi özünü göstərən biznes inkubatorlarından istifadə edilməsi də məqsədəuyğundur. İnkubatorların əsas vəzifəsi yeni yaradılmış müəssisələrin özünü maliyyələşdirmə əsasında gələcəkdə uğurlu inkişafın əsasını yaratmaq məqsədilə kömək göstərməkdir.

Kiçik və orta sahibkarların maliyyələşmə alətləri olan digər mənbələrin də ölkəmizdə tətbiqində çətinliklər vardır. Kiçik və orta sahibkarla innovativ ideyaların gerçəkləşməsinə məhz vençur maliyyələşməsi vasitəsilə nail olunur. Vençur maliyyələşməsi yüksək risk və güzəşt tələb etsə də ölkəmizdə startaplar üçün tətbiqi imkanlarına baxılmaqdadır. Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyaları Nazirliyinin tabeliyində fəaliyyət göstərən İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu bu sahədəki təşəbbüsləri maliyyələşdirmək üçün yaradılmışdır. Bütün bunlar gələcəkdə dünyada geniş tətbiq edilən qrantların, layihə maliyyələşməsinin, françayzinqin, vergi kreditinin və əmtəə krediti kimi maliyyələşmə alətlərdən kiçik və orta sahibkarlar tərəfindən lazımınca yararlana bilməsinə imkan yaradacaqdır.

Sahibkarlığın maliyyə təminatının başqa bir metodu sahibkarlıq subyektlərinə kiçik sahibkarlığa yardım fondları tərəfindən maliyyə yardımının edilməsidir. Bu fondlar qeyri-kommersiya təşkilatları olub kiçik biznesə dəstək ola biləcək və onun inkişafını təmin edə biləcək layihə, proqram və tədbirləri maliyyələşdirmək məqsədi ilə yaradılır.

Fikrimizcə, kiçik və orta sahibkarların inkişafı üçün dövlət tərəfindən sabit və hərtərəfli dəstəyin göstərilməsi bu sahədə dayanaqlığı təmin edir. Əsas fəaliyyət olaraq Azərbaycanda kiçik və orta sahibkarlığın subyektlərinə münasibətdə qanunvericilik bazasının təkmilləşdirilərək maliyyə və vergi siyasətinin stimullaşdırıcı təsirinin gücləndirilməsi vacib amillərdəndir. Azərbaycanda kiçik və orta sahibkarlığın və bütövlükdə ölkə iqtisadiyyatının inkişaf etdirilməsi üçün güclü potensial və geniş imkanlar mövcuddur. Bunun üçün ümumi biznes mühitinin yaxşılaşdırılması, maliyyə resurslarına çıxış imkanlarının daha sərfəli və səmərəli təşkil edilməsi, kiçik və orta sahibkarlıq subyektlərinin yerli və xarici bazarlara çıxışının təmin edilməsi, bacarıqlı və ixtisaslı kadr təminatının yaradılması atılmalı olan vacib

addımlardandır. Respublikamızda kiçik və orta sahibkarlığın inkişafına nail olmaq üçün onlara maliyyə təminatını aşağıdakı istiqamətlərdə həyata keçirmək məqsədəuyğundur:

- regionlara dövlət təminatı ilə verilən kreditlərin faiz dərəcələrinin aşağı salınması;
- istehsal yönümlü kiçik sahibkarlıq subyektlərinə bankların kredit verməsini stimullaşdırmaq;
- lizinq kreditlərinin verilməsi, françayzinq növlərin inkişafını və kiçik və orta sahibkarla innovativ ideyaların gerçəkləşməsi istiqamətində vençur maliyyələşməsini stimullaşdırmaq;
- kiçik biznesinin inkişafında biznes inkubatorlarından istifadənin genişləndirmək və istehsalyönümlüyü istiqamətdə vergi güzəştlərindən istifadə, sosial-iqtisadi siyasətin istiqamətlərinə və məqsədlərinə cavab verən həyat qabiliyyətli təsərrüfat strukturlarını stimullaşdırmaq;
- kiçik və orta sahibkarlığın subyektlərinə münasibətdə qanunvericilik bazasının təkmilləşdirilərək maliyyə və vergi siyasətini stimullaşdırmaq.

### Ədəbiyyat


1. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.
2. Niftullayev V. M. Sahibkarlığın əsasları. Bakı: Zaman nəşriyyatı, 2002.


### Резюме


***Бадалов А.М.***


**Роль малого и среднего бизнеса в развитии экономики Азербайджана и анализ их финансовых возможностей**


*Одним из главных вопросов в стране является финансирование малого и среднего бизнеса. Изучение этой проблемы и ее решение является одним из наиболее важных вопросов. В связи с этим в статье рассматриваются возможности получения финансовых ресурсов на малых и средних предприятиях.*

***Ключевые слова**: малый и средний бизнес, финансовые ресурсы, банковское кредитование, инвестиции, факторинг, лизинг, венчурное финансирование, стартап, венчурный капитал*


### Summary


***Badalov A.M.***


**The Role of Small and Medıum Busınesses ın the Development of the Economy of Azerbaıjan and Analysıs of theır Fınancıal Opportunıtıes**


*One of the main issues in the country is the financing of small and medium businesses. The study of this problem and its solution is one of the most important issues. In this regard, the article discusses the possibilities of obtaining financial resources in small and medium-sized enterprises.*

***Key words:** small and medium-sized businesses, financial resources, bank lending, investment, factoring, leasing, venture financing, startup, venture capital*


## QEYRİ-NEFT SEKTORUNUN DAVAMLI İNKİŞAFININ TƏMİN EDİLMƏSİNİN DÖVLƏT MEXANİZMİ


***Əhmədov M.A., Əlizadə M.E.***
*UNEC*



***Xülasə.** Azərbaycan Respublikası müstəqilliyik əldə etdiyi ilk vaxtlarda iqtisadi tənəzzüllə üzləşsə də, 1995-ci ildən başlayaraq iqtisadi yüksəlişə nail olunmuşdur. Dövlətin prioritet, çevik sosial-iqtisadi siyasəti və idarəçilik mexanizmi Azərbaycan vətəndaşlarının son dövrlərini səciyyələndirən xarakterik xüsusiyyətlərdir. Dünya birliyinə sürətlə inteqrasiya olunan Azərbaycanın qısa zamanda əldə etdiyi böyük nailiyyətlər, ilk növbədə, təkmil sosial-iqtisadi inkişaf strategiyasına əsaslanır. Bu da 2016-cı il martın 16-da Prezident İlham Əliyevin "Milli iqtisadiyyat və iqtisadiyyatin əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri"ni təsdiq etməsi və bundan irəli gələn məsələlərintəhlilindən irəli gəlir.*



***Açar sözlər:**sosial-iqtisadi siyasət, qeyri-neft və neft sektoru, inteqrasiya, Strateji Yol Xəritəsi, davamlı inkişaf, siyasi stabillik*


Azərbaycanın davamlı inkişafı məsələsinin təmin olunması prosesi, ölkədə formalaşdırılan siyasi stabilliklə bərabər, iqtisadi siyasətinin prioritet istiqaməti olan regionların sosial-iqtisadi inkişafı proq-

ramlarının özünəməxsus əhəmiyyəti vardır. Ölkə prezidenti regionların inkişafı prosesinin üçüncü ilinin yekunlarına aid konfransda və digər müşavirələrdə kənd təsərrüfatının məhsulları ilə özünütəminat dərəcəsinin yüksəldilməsi, mövcud ərazilərdən əlavə əkin sahələrinin dövriyyəyə cəlb olunması və məhsuldarlığın yüksəldilməsi yolunda bir sıra mühüm vəzifələr qarşıya qoyub. Bu vəzifələr milli iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkisaf etdirilməsi strategiyasının davamının gəlməsi, sahibkarlığın inkişaf etdirilməsi, ixracat potensialının gücləndirilməsi və idxaldan asılılıgın azaldılması, ərzaq təhlükəsizliyinin tam təmin olunması, sosial infrastruktur layihələrinin davam etdirilməsi və digər məsələləri əhatə edir[5].

Qeyri-neft sektorunda davamlı inkişaf mühitinin yaradılmasında dövlət mexanizminin xüsusi rolu və dövlətin iqtisadi inkişafı aşağıdakıvəzifələri həyata keçirir: a) qeyri-neft sektorunda davamlı inkişafın təhlilinin və dəyərləndirilməsinin elmi metodoloji əsaslarının təyin edilməsi; b) qeyri-neft sektorunda davamlı inkişaf meyarları və göstəricilər sisteminin analizi; c) qeyri-neft sektorunda dayanıqlı və davamlı inkişafın konsepsiyasının dünya təcrübəsi və onlardan Azərbaycanda istifadə olunması imkanlarının səciyyələndirilməsi; d) Azərbaycanda qeyri-neft sektorunun inkişafının mövcud vəziyyətinin SWOT (Gizt) təhlili; e) Azərbaycanda qeyri-neft sektorunun strukturunun təkmilləşdirilməsi və ixracın artırılması imkanlarının aşkara çıxarılması; ə) qeyri-neft sektorunun inkişafının təmin edilməsinin normativ-hüquqi, qanunvericilik bazası və onun təkmilləşmə istiqamətlərinin təyin edilməsi; f) Strateji Yol Xəritəsinin mövcud istiqamətlərinə uyğun şəkildə qeyri-neft sektorunun inkişafının prioritetlərinin müəyyənləşdirilməsi. Azərbaycan Respublikasında qeyri-neft sənayesinin İnkişaf Proqramının icra olunmasında dövlət dəstəyi prinsiplərinin müəyyənləşdirilməsi labüddür. Bu prinsiplərə aşağıdakılar aid edilir:

1.Dövlət-özəl sektor arasında faydalı qarşılıqlı münasibətin yaradılması;

2.Proqramın maliyyələşmə mənbəyinin müəyyənləşdirilməsi;

3.Təkmil infrastruktur şəbəkəsinin qurulması;

4.Qeyri-neft sənaye bölmələri, müəssisələri ilə elmi təşkilatlar, ali təhsil müəssisələri arasında qarşılıqlı əməkdaşlıq əlaqələrinin qurulması;

5.Qeyri-neft sənaye bölmələrində innovasiya fəaliyyətinin iri miqyaslı fəaliyyətinə köməkliyin edilməsi;

6. Rəqabət şəraitinin sağlamlaşdırılması[1].

Respublikamızda qeyri-neft sənaye bölmələrinin 2014 - 2020-ci illər üzrə prioritet inkişaf yönlərinin müəyyənləşdirilməsində başlıca məqsəd respublikada bilik tutumlu və rəqabətədavamlı, yüksək texnologiyalı və ixracyönlü, dünya standartlarına uyğun sənaye məhsullarının istehsalı, dövlət dəstəyi tədbirlərinin genişləndirilməsi, investisiya resurslarının və qaynaqlarının müəyyənləşdirilməsi və artırılması, sənaye kompleksinin dövlət tənzimlənməsi, əmək resurslarının və təbii sərvətlərin səfərbər olunması tədbirlərini reallaşdırmaqla, bu sektorun davamlı və dayanıqlı inkişafına nail olmaqdır[2].

Ümumiyyətlə, “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı”Azərbaycan iqtisadiyyatının inkişafında və proqramlarla müstəsna yer tutur. Proqramın hazırlanmasının təşkilatçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özü bu barədə demişdir: “Müasir dövrdə ölkəmizin sürətli inkişafına çatmaq üçün yetəri qədər geniş proqramlar icra edilməkdədir. Bu proqramların içində, 2004-cü ildə qəbul edilmiş “Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı”dır. Bu proqramın qəbul olunmasından sonra ölkəmizin ayrı-ayrı bölgələrində nəzərə çarpacaq dərəcədə inkişaf hiss olunur. Son 15 ildə Azərbaycan iqtisadiyyatı dünya miqyasında rekord templərlə inkişaf etmiş, bu da ümumdaxili məhsulun 3,3 dəfə, sənaye istehsalının 2,6 dəfə, ixracın 4,7 dəfə, valyuta ehtiyatının 24 dəfə artmasına gətirib çıxarır [4].

SYX (Strateji Yol Xəritəsi) 2025-cü ilə qədər ÜDM-də üç faizdən çox orta illik real artim və bundan başqa da 450 mindən artıq yeni iş yerinin yaradılmasını nəzərdə saxlayır. Sözü gedən iş yerlərinin yaradılması 3 ünsürün təsiri nəticəsində mümkün olacaqdır: 1) SYX çərçivəsində görülən işlər; 2) başqa əlavə tədbirlər və 3) ümumi iqtisadi şəraitin yaxşılaşması sonucunda iqtisadi artım tempinin yüksəlməsi. Qeyri-neft sektoruna sair investisiya yatırımları 2025-ci ilədək və ondan sonrakı dövrdə daha üstün rəqabətə davamlı iqtisadiyyatın mühüm hərəkətverici qüvvəsi olacaqdır. Bu səpkidən gələcəkdə xidmət və sənaye sektorlarına birbaşa kənar investisiyalar daha geniş ölçüdə cəlb olunacaqdır.2025-ci ildən sonrakı zamanda ixrac prosesi təkcə məhsul deyil, habelə xidmət növünün artması hesabına böyüyəcək və şaxələnəcəkdir. İxrac prosesinin yüksələn xidmət və məhsul sayına əsaslanması qaz və neftin qiymətlərindəki dəyişkənliklərdən asılılığı geriləd ib xarici valyutanın gəlirini stabilləşdirəcəkdir.Bu məqsədlərə çatmaq üçün milli iqtisadiyyat və iqtisadiyatın 11 sektoru üzrə Strateji Yol Xəritələrində nəzərdən keçirilən strateji prioritet və hədəflərin uğurla icrası zəruridir. Bununla belə, planlaşdırılan tədbirlərin davamlı olaraq həyata keçirilməsi, qiymətləndirmə və işlək monitorinqin təmin edilməsi üçün investisiyaların və basqa resursların

səfərbər edilməsi tələb edilir. Aparılan hesablamalara görə, 2020-ci ilədək planlaşdırılmış prioritetlərin icrası üçün iqtisadiyyata təxmini 27 milyard AZN investisiya yatırımının tələb ediləcəyi proqnozlasdırılır. Bu məbləğ bütün bölmələr üzrə Strateji Yol Xəritələri çərçivəsində tələb edilən cəmi vəsaiti özündə əks etdirir. Nəzərdə saxlanılan vəsait bütün növ özəl və dövlət (xarici və yerli) qaynaqlar hesabına təmin olunacaqdır. Danışılan investisiyalar Azərbaycan iqtisadiyatı üçün 2020-ci ilə qədər müəyyən edilmiş hədəflərdən başqa, gələcək dövr üçün nəzərdə saxlanmış hədəflərə təsir səpkisindən də bünövrə rolunu oynayacaqdır. Prioritet bölmələr və yaxud iqtisadiyyatin digər sektorları üzrə yeni strateji hədəflərin müəyyən edilməsi Azərbaycana Strateji Yol Xəritəsinin prioritetlerinin müsbət trayektoriyası ilə daha yüksək hədəflərə çatmağa kömək edəcəkdir [3].

Azərbaycanda qeyri-neft sektorunun inkişafında təzə mərhələ başlamışdır. Atılan addımlar və həyata keçirilən islahatlar qarşıda duran məqsədlərə çatmaq üçün mövcud resurslardan tam səmərə ilə yararlanmağa və iqtisadi potensialın gücləndirilməsinə şərait yaradır. Son nəticədə bütün bunlar qeyri-neft sektorunun inkişafına, Azərbaycanın ixrac imkanlarının artmasına xidmət edəcək.

## Ədəbiyyat


1. Prezident İlham Əliyev: "İqtisadi şaxələndirmə, qeyri-neft sektorunun inkişafı 2016-cı ildə iqtisadi sahədə əsas prioritet olacaqdır". "Xalq" qəzeti, 14.01.2016.
2. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial iqtisadi inkişafı Dövlət Proqramı. 27.02.2014-cü il tarixli 118№-li Fərmanı.
3. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 6.12.2016.və16.03.2016 Fərmanı.
4. İlham Əliyev "Regional inkişaf strategiyası yeni mərhələyə qədəm qoyur". "Azərbaycan" qəzeti,№23, 30 yanvar 2019
5. Alıyevİ., Məmmədov Y. Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf konsepsiyasının tədbiqi: "Azərbaycan Respublikasında qeyri-neft strategiyasının İnkişaf Proqramı". Bakı, Avropa nəşriyyatı, 2014, 133 s.



## Резюме

***Ахмадов М.А., Ализаде М.Э.***

**Государственный механизм улучшения нефтяного сектора успешного развития**

*Хотя Азербайджанская Республика обрела независимость на ранних стадиях экономического спада, экономический рост был достигнут с 1995 года.Приоритет государства, гибкая социально-экономическая политика и механизм управления являются характерными чертами, характеризующими гражданскоеобщество. Быстрый успех быстро интегрирующегося мирового сообщества основывается прежде всего на его продвинутой стратегии социально-экономического развития. Это связано с подтверждением президентом Ильхамом Алиевым 16 марта 2016 года «Ключевых направлений стратегической дорожной карты для национальной экономики и ключевых секторов экономики» и анализом вытекающих из этого проблем.*

***Ключевые слова:*** *социально-экономическая политика, ненефтяной и нефтяной сектор, интеграция, дорожная карта устойчивого развития, устойчивое развитие, политическая стабильность, устойчивое развитие*



## Summary

***Ahmadov M.A., Alizade M.E.***

**State Mechanısm of Improvement of Oıl Sector Successful Development**

*Although the Republic of Azerbaijan gained independence in the early stages of an economic downturn, economic growth has been achieved since 1995. The state's priority, a flexible socio-economic policy and a governance mechanism are characteristic features that characterize recent periods of Azerbaijani citizenship. The rapid success of the rapidly integrating global community is based primarily on its advanced socio-economic development strategy. This is due to the confirmation by President Ilham Aliyev on March 16, 2016 on the "Key areas of the strategic roadmap for the national economy and key sectors of the economy" and the analysis of the problems arising from this.*

***Key words:*** *socio-economic policy, non-oil and oil sector, integration, roadmap for sustainable development, sustainable development, political stability, sustainable development*

# İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİNDƏ BÜDCƏ-VERGİ SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

***Əhmədov M.Ə.***
*Sumqayıt Dövlət Universiteti*
***Fərzəliyev M.M.***
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

***Xülasə.*** *Məqalə milli iqtisadi təhlükəsizliyin təmin edilməsində büdcə-vergi siyasətinin əsas istiqamətlərinin öyrənilməsinə həsr olunmuşdur. Burada eləcə də milli iqtisadiyyatda aktiv və passiv büdcə-vergi siyasətinin əsas xüsusiyyətləri nəzərdən keçirilmişdir.*

**Açar sözlər**: *iqtisadi təhlükəsizlik, maliyyə, dövlət büdcəsi, vergilər, dövlət borcu*

Müasir şəraitdə milli iqtisadiyyatın inkişaf etdirilməsinin, onun ictimai səmərəliliyinin yüksəldilməsinin və ölkə əhalisinin tələbatlarının daha dolğun ödənilməsinin əsas şərtlərindən biri milli iqtisadiyyatın təhlükəsizliyinin təmin edilməsidir. Lakin, bazar iqtisadiyyatı şəraitində dünya ölkələri arasında iqtisadi inteqrasiya əlaqələri gücləndikcə bu ölkələrin bir-birindən iqtisadi asılılıqları da güclənir. Bu asılılıq çoxtərəflidir: xammal və material asılılığı, bazar asılılığı, texnoloji asılılıq və s. Siyasi və hərbi asılılıq da iqtisadi asılılığa, onun xarakterinə ciddi təsir göstərir.

Ümumiyyətlə, müasir dünya iqtisadiyyatında mütləq iqtisadi müstəqillik və ya mütləq iqtisadi suverenlik anlayışı çox nisbi anlayışlardır. Qeyd etmək lazımdır ki, bir ölkə çərçivəsində və ya ayrı-ayrı regionlarda baş verən iqtisadi proseslər, məsələn, iqtisadi böhran prosesləri tez bir zamanda digər ölkələrin də milli iqtisadiyyatlarına təsir göstərir. Qapalı xarakterli milli iqtisadiyyatların belə bir proseslərdən kənarda qalması mümkün deyil.

Son vaxtlar, xüsusilə, ABŞ-da Donald Trampın hakimiyyətə gəlməsindən sonra dünya ölkələri arasında iqtisadi çəkişmələr, xarici ticarətdə proteksionizm meylləri güclənmişdir. ABŞ tərəfindən ayri-ayrı ölkələrin (Rusiya, Çin, Avropa ölkələri və s.) məhsullarına qarşı tətbiq olunan yüksək gömrük rüsumları, eləcə də, müxtəlif iqtisadi sanksiyalar, digər məhdudiyyətlər əks tədbirlərin, bu ölkələrin iqtisadi təhlükəsizliyinin təmin edilməsi üzrə müvafiq tədbirlərin görülməsinə səbəb oldu.

Hal-hazırda milli iqtisadi təhlükəsizliyə təsir göstərə bilən çoxsaylı amillər mövcuddur. Belə amillərdən biri də büdcə-vergi siyasəti, onun səmərəlilik səviyyəsidir. Məqalə iqtisadi təhlükəsizliyin müasir konsepsiyası və onun təmin edilməsində büdcə-vergi siyasətinin rolu və əhəmiyyəti məsələlərinə, milli iqtisadi təhlükəsizliyin təmin edilməsi nöqteyi-nəzərdən büdcə-vergi siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsinə həsr olunmuşdur.

İqtisadi təhlükəsizlik hal-hazırda müstəqilliyə can atan ölkələr üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. Tarixən ilk dəfə XX əsrin ortalarında ABŞ Prezidenti T.Ruzveltin hakimiyyəti dövründə milli iqtisadi təhlükəsizlik məsələləri üzrə Prezident yanında Şura yaradıldı. Sonralar digər ölkələrdə də buna oxşar qurumlar yaradılmağa başlandı. Bununla yanaşı, ayrı-ayrı ölkələrdə müvafiq hüquqi aktlar – qanunlar da qəbul edilirdi. XX əsrin 90-cı illərində ikinci dəfə siyasi müstəqillik və suverenlik əldə etdikdən sonra Azərbaycan Respublikası da ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi problemləri ilə qarşılaşdı.

Qeyd etmək lazımdır ki, hər bir ölkə öz iqtisadi maraqlarından və ölkənin iqtisadi inkişaf səviyyəsindən irəli gələrək dövlətin milli iqtisadi təhlükəsizlik konsepsiyasını müəyyənləşdirir. Ümumiyyətlə, iqtisadi təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsi olub, onun əsasını təşkil edir. Milli iqtisadiyyatda təhlükəsizlik iqtisadi suverenliyin, iqtisadi sabitliyin və dayaniqlığın, eləcə də iqtisadiyyatda daim yeniləşmə və özünütəkmilləşmə qabiliyyətini təmin edə bilən şərtlərin və amillərin məcmusudur. Müasir dünya iqtisadiyyatı şəraitində iqtisadi suverenlik heç də mütləq xarakter daşımır. İqtisadi suverenlik, hər şeydən əvvəl, milli resurslara nəzarət edə bilmək və dünya ticarətində rəqabətqabiliyyətli məhsul və xidmətlər çoxluğu istehsal etmək deməkdir. Milli iqtisadiyyatda sabitlik və dayanıqlıq dövlət strukturları tərəfindən bazar subyektlərinin mülkiyyət hüquqlarının mühafizəsini və sahibkarlıq fəaliyyəti üçün əlverişli hüquqi-iqtisadi mühitin təmin edilməsini nəzərdə tutur. İqtisadiyyatda yeniləşmə və özünütəkmilləşmə isə ölkə iqtisadiyyatında investisiya və innovasiyalar üçün əlverişli mühitin yaradılması, işçilərin peşəkarlıq və ümumi-mədəni səviyyəsinin yüksəldilməsi deməkdir.

İqtisadi təhlükəsizliyin əsas meyarı kimi cəmiyyətə, iqtisadiyyata və insana vurulan zərərin minimuma endirilməsi çıxış edir. Bunun üçün son hədd göstəriciləri müəyyən olunmalı, müxtəlif böhranlı vəziyyətlərin yaranma ehtimalı nəzərdən keçirilməli, təhlükələrin aradan qaldırılması və sabitliyin qorunması üçün tədbirlər görülməlidir.

İqtisadi təhlükəsizliyin təmin edilməsi mövcud potensial iqtisadi təhlükələrin aşkar edilməsi və bu təhlükələrdən qorunmağı bacarmaq deməkdir. Milli iqtisadiyyatda təhlükəsizlik vəziyyəti o zaman yaranır ki, heç bir xarici müdaxilə olmadan milli maraqlara uyğun sosial-iqtisadi siyasətin aparılması mümkün olsun. Bu məqsədlə, ilk növbədə, ölkənin iqtisadi təhlükəsizliyi üçün real hesab olunan ən mühüm iqtisadi təhlükələrin müəyyənləşdirilməsi tələb olunur. Yalnız bu cür potensial iqtisadi təhlükələr müəyyən edildikdən sonra bu təhlükələrdən qorunmaq barədə düşünmək, müvafiq milli iqtisadi siyasəti formalaşdırmaq və həmin təhlükələrdən qorunmağın mexanizmlərini işləyib hazırlanmaq olar. Bununla əlaqədar mövcud bütün iqtisadi təhlükələri iki qrupa ayırmaq olar: (1) daxili və (2) xarici təhlükələr. Hər bir iqtisadi təhlükənin müvafiq göstəriciləri və onların müəyyən son hədd səviyyələri mövcuddur [3, s. 261].

Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyi və onun milli maraqları üçün mümkün ola bilən potensial daxili iqtisadi təhlükələrə aşağıdakıları aid etmək olar:

- ümumi daxili məhsulda büdcə daxilolmalarının xüsusi çəkisinin aşağı olması;
- vergi sisteminin qeyri-səmərəliliyi və onun qeyri- mütəşəkkilliyi;
- iqtisadiyyatda inhisarçılığın yüksək səviyyədə olması ;
- “kölgə” iqtisadiyyatının, vergidən yayınma hallarının mövcudluğu və korrupsiyanın artması;
- yoxsulluq səviyyəsinin yüksək olması;
- inflyasiyanın səviyyəsinin yüksək olması ;
- işsizlik səviyyəsinin yüksək olması;
- milli məhsulların rəqabətqabiliyyətliliyinin aşağı olması;
- regionların sosial-iqtisadi inkişafında qeyri-bərabərliyin artması;
- statistika orqanlarının yanlış və qeyri-obyektiv məlumatları;
- investisiya aktivliyinin aşağı olması və s.

Respublikamız üçün potensial xarici təhlükələrə isə aşağıdakıları aid etmək olar:

- xarici ticarətdə mənfi saldonun olması;
- ölkənin tədiyyə balansında defisitliyin olması;
- xarici borcların yüksək olması;
- iqtisadiyyatın xarici kreditlərdən və maliyyə strukturlarından asılılıq səviyyəsinin yüksək olması;
- xarici investisiyalarının aşağı səviyyədə olması;
- ixracda xammal əmtəələrinin xüsusi çəkisinin yüksək olması;
- ölkənin ərzaq əmtəələrinin idxalından asılılıq səviyyəsinin yüksək olması və s.

Göstərilən daxili və xarici iqtisadi təhlükələrin aradan qaldırılması, həmin təhlükələr üzrə son hədd göstəricilərinin gözlənilməsi milli iqtisadiyyatın inkişaf etdirilməsi üçün əlverişli daxili və xarici şəraitin yaradılmasını təmin edir. Respublikamız üçün prioritet hesab olunan əsas daxili şəraitlərə aşağıdakıları aid etmək olar: ölkənin ərazi bütövlüyünün təmin edilməsi, fərdiyyatın inkişafını təmin edə bilən müvafiq strukturların yaradılması və onların fəaliyyətinin yaxşılaşdırılması, konstitusiya quruluşunun möhkəmləndirilməsi, sahibkarlıq fəaliyyəti üçün müvafiq hüquqi-iqtisadi mühitin yaradılması. Ölkə üçün prioritet hesab olunan əsas xarici şəraitlərə isə aşağıdakıları aid etmək olar: beynəlxalq əmək bölgüsünün üstünlüklərindən yararlanmaqla dünya ölkələri ilə qarşılıqlı faydalılıq əsasında səmərəli beynəlxalq əlaqələr sisteminin qurulması, hər cür xarici təcavüzün və müdaxilənin qarşısının alınması, beynəlxalq münasibətlər sisteminin fəal və tamhüquqlu iştirakçısı olmaq.

Yuxarıda sadalanan daxili və xarici iqtisadi təhlükələr üzrə faktiki göstəricilər son hədd göstəriciləri müqayisə olunmalı, təhlil edilməli, arzuolunmaz kənarlaşmalar müəyyən olunarsa müvafiq tədbirlər işlənib hazırlanmalıdır. Mühüm daxili iqtisadi təhlükələrdən biri büdcə və vergi sistemi ilə bağlıdır.

Müasir bazar iqtisadiyyatının əsas xüsusiyyətlərindən biri dövlət strukturlarının iqtisadi proseslərə fəal müdaxiləsidir. Dövlət öz ənənəvi funksiyaları (ölkənin müdafiəsinin, təhlükəsizliyinin təmin edilməsi və s.) ilə yanaşı, bir sıra iqtisadi funksiyaları da yerinı yetirir. Dövlət faktiki olaraq əsas bazar subyektlərindən biridir. O bazarda həm istehsalçı (sahibkar rolunda çıxış edir), həm istehlakçı( dövlət strukturlarının saxlanılması üçün bütün lazımi resursları bazarda alqı-satqı yolu ilə əldə edir), həm də iqtisadi proseslərin tənzimləyicisi rolunda çıxış edir. İqtisadi proseslərin tənzimlənməsi məqsədi ilə dövlət bir sıra iqtisadi vasitələrdən istifadə edir( gömrük siyasəti, sosial siyasət, pul-kredit siyasəti və s.). Belə əsas iqtisadi vasitələrdən biri dövlətin fəal büdcə-vergi siyasətidir. Məlumdur ki, səmərəli milli iqtisadiyyatın formalaşmasında büdcə-vergi siyasəti mühüm rol oynayır. Lakin keçən əsrin 70-ci illərindən başlayaraq büdcə-vergi siyasəti öz hakim mövqeyinin itirmişdir. Əsas üstünlük pul-kredit siyasətinə verilmişdir. XX əsrin 90-cı illərinin əvvəllərində ikinci dəfə siyasi müstəqillik əldə etmiş və bazar iqtisadiyyatı yolunu seçmiş Azərbaycan Respublikası da pul-kredit siyasətinə üstünlük vermişdir.

Aydındır ki, dövlət öz funksiyalarını yerinə yetirmək üçün maliyyə fonduna (dövlət büdcəsinə) malik olmalı və bu fondun öz formalaşma mənbələri(əsasən dövlət vergiləri) olmalıdır. Büdcə-vergi siyasətinin( və ya fiskal siyasətinin) əsas məqsədi cəmiyyətdə yaradılan gəlirlərin bir hissəsinin vergilər vasitəsi ilə dövlət büdcəsində cəmləşdirilməsi və bu vəsaitlərin mərkəzləşdirilmiş qaydada istifadə edilməsinin təmin edilməsidir[1,19]. Milli iqtisadiyyatın inkişaf etdirilməsi aparılan büdcə-vergi siyasətinin səmərəlilik səviyyəsindən asılıdır. Bu ilk növbədə tətbiq edilən dövlət vergilərinin nə dərəcədə ədalətli və büdcə vəsaitlərinin nə dərəcədə səmərəli istifadə edilməsindən asılıdır. Vergi dərəcələrinin ədalətli olması onun mövcud reallıqlara uyğun olmasını, büdcə vəsaitlərinin səmərəli istifadə olunması isə aparılan büdcə-vergi siyasəti ilə nə dərəcədə uyğunluq təşkil etməsi ilə bağlıdır. Bu o deməkdir ki, vergi sistemi daim təkmilləşdirilməli, mövcud reallıqlarla səsləşməli, büdcə vəsaitlərinin istifadəsi sosial tələbatların öyrənilməsinə əsaslanmalıdır. Bu o deməkdir ki, mövcud iqtisadi durum dəyişdikcə büdcə-vergi siyasəti, onun məqsədləri də daim dəqiqləşdirilməli və təkmilləşdirilməlidir.

2019-cu ilin yanvarından tətbiq edilən vergi islahatları da bu fikri sübut edir. Aparılan vergi islahatlarında əsas məqsəd özəl sahibkarlığın stimullaşdırılması, ümumiyyətlə, iqtisadi artımın stimullaşdırılması idi. İqtisadi böhran dövrlərində, xüsusilə tələbə görə yaranan inflyasiya şəraitində aparılan büdcə-vergi siyasəti iqtisadi aktivliyin məhdudlaşdırılmasına yönəldilməlidir. Bununla əlaqədar, qeyd etmək lazımdır ki, aparılan büdcə-vergi siyasəti ya aktiv siyasət, ya da passiv siyasət olmalıdır. Birinci halda (aktiv büdcə-vergi siyasəti) iqtisadi fəallığın, ikinci halda isə (passiv büdcə-vergi siyasəti) əksinə iqtisadi fəallığın, gəlirlərin artırılmasının məhdudlaşdırılmasına yönəldilmişdir [2, s. 594].

Büdcə-vergi siyasətində iqtisadi aktivliyin stimullaşdırılması və ya məhdudlaşdırılması tətbirlərinin vaxtlı-vaxtında tətbiq edilməsi milli iqtisadiyyatda təhlükəsizliyin təmin edilməsinin əsas istiqamətlərdən biridir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı: Hüquq Yayın Evi nəşriyyatı, Bakı, 2016.
2. İqtisadi nəzəriyyə. Makroiqtisadiyyat-1,2. Juravlyovavanın ümumi redaktəsi ilə (Azərbaycan dilində), Moskva: Daşkov və K nəşriyyat-ticarət korporasiyası, 2008**.** 687 s.
3. Mikayılova S.M. İqtisadi təhlükəsizliyin təmin olunmasının makroiqtisadi problemləri. Monoqrafiya. Bakı: Gənclik, 2009. 400 s.


**Резюме**


***Ахмедов М.А., Фарзалиев М.М.***


**Основные направления бюджетно – налоговой политики в обеспечении экономической безопасности**


*Статья посвящена изучению основных направлений бюджетно-налоговой политики обеспечения экономической безопасности национальной экономики. Так же рассматриваются основные особенности активной и пассивной бюджетно-налоговой политики в национальной экономике.*



**Ключевые слова**: *экономическая безопасность, финансы, государственный бюджет, налоги, государственный долг*


**Summary**


***Ahmadov M.A.,Farzaliyev M.M.***


**The Main Directions of Fiscal Policy in Ensuring Economic Security**


*The article focuses on the study of the main directions of the fiscal policy in the provision of national economic security. Here are alsoconsidered the features of active and passive budget-tax policy in the economy.*



**Key words**: *economic security, finance, state budget, taxes, state debt*


## MÜƏSSİSƏLƏRİN MALİYYƏ TƏMİNATININ MÖHKƏMLƏNDİRİLMƏSİNDƏ VERGİ STİMULLARININ TƏNZİMLƏYİCİ ROLUNUN YÜKSƏLDİLMƏSİ


***Əhmədzadə M.İ.***
*Sumqayıt Dövlət Universiteti*



***Xülasə.*** *Məqalədə istehsal və ticarət sahələri üzrə mənfəət vergisini 20% dərəcə ilə ödəyən müəssisələrin maliyyə hesabatlarının məlumatlarının təhlili əsasında mənfəətin yaradılması və müəssisə ilə dövlət büdcəsi arasında bölgüsünün şərtlərinin sahələr üzrə fərqləndirilməsi problemi nəzərdən keçirilir. Problemin həll edilməsi məqsədilə müəssisələr üzrə kapitalın üzvi quruluşunu və dövriyyə vəsaitini əks etdirən göstəricilərin hesablanması, istehsal və ticarət sferaları üzrə mənfəət normasının və mənfəət vergisi*

*dərəcəsinin diferensiallaşdırılmasının zəruriliyi əsaslandırılır. Tədqiqatın nəticələrinin realizə forması kimi, SDU-nun Maliyyə və mühasibat uçotu kafedrası ilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Vergilər Nazirliyi və Tarif Şurası arasında müvafiq əməkdaşlıq müqavilələrinin bağlanması və icra olunması təklif edilir.*

**Açar sözlər:***maliyyə təminatı, vergi stimulları, istehsal resursları, mənfəət norması, vergi dərəcəsi, üzvi quruluş, dövriyyə sürəti, diferensiallaşdırma*

Milli iqtisadiyyat perspektivi çərçivəsində seçilmiş dörd hədəfin və on bir sektor üzrə Strateji Yol Xəritələrinin həyata keçirilməsi real və maliyyə sektorları arasında tarazlığın təmin edilməsi yolu ilə davamlı iqtisadi inkişaf üçün zəmin yaradır. Azərbaycanda iqtisadiyyatın rəqabətqabiliyyətliyinin və sosial rifahın artımının təmin edilməsi məqsədilə həyata keçirilən Strateji Yol Xəritələri kiçik və orta sahibkarlığın maliyyə imkanlarının genişləndirilməsini nəzərdə tutan optimal proqram sənədi hesab olunur [2].

Strateji Yol Xəritələrindən irəli gələn vəzifələrin yerinə yetirilməsinin zəruri şərtlərindən biri iqtisadi stimul alətlərinin tətbiq edilməsidir. Bu mövqedən tənzimləyici, maliyyə və vergi stimulları ətrafında qurulmuş dövlət siyasəti çərçivəsində institusional, hüquqi və iqtisadi yönümlü tədbirlərin həyata keçirilməsinin məqsədəuyğunluğu etiraf olunmalıdır. Tənzimləyici stimul alətlərinin gizli iqtisadiyyatın amnistiya edilməsi, sahibkarların mülkiyyət hüquqlarının pozulması hallarının aradan qaldırılması, subyektlərin valyuta əməliyyatlarının leqallaşdırılması sahəsində təminatların yaradılması yolu ilə tətbiqi kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üçün şərait yaradır. Maliyyə stimulları mövcud müəssisələrin daxili və xarici mənbələrdən maliyyə resurslarını əlverişli şərtlərlə cəlb etmək, kredit resurslarına çıxışını asanlaşdırmaq, kommersiya fəaliyyətindən alınan gəlirlərin müəssisələrlə dövlət arasında ilkin bölgüsünün optimal mexanizmini yaratmaq təminatlarını əhatə edə bilər. Vergi stimulları vergi qanunvericiliyinin təkmilləşdirilməsi yolu ilə müəssisələrin dövlət büdcəsi qarşısında vergi öhdəliklərinin onların maliyyə potensialına adekvatlığının təmin edilməsini nəzərdə tutur.

Hazırki dövrdə Strateji Yol Xəritələri ilə müəyyən edilən vəzifələrin icrası mərhələsində qiymətlərin tənzimlənməsinin dəqiq mexanizminin yaradılmadığı bir şəraitdə rentabellik səviyyəsi bəzi müəssisələrdə süni surətdə yüksəldilir, digərlərində isə aşağı salınır. Ona görə də müxtəlif həcmli və keyfiyyətli resurslara malik olan müəssisələr üçün bərabər təsərrüfatçılıq şəraitinin yaradılması xüsusi aktuallıq kəsb edir. Lakin təcrübədə minlərlə istehsal müəssisələrinin səmərəlilik dərəcəsinə görə eyniölçülü texniki vəsaitlərlə təmin edilməsinin mümkünlüyü qəbuledilməzdir. Buna uyğun olaraq, ayrı-ayrı istehsal sahələrində və müəssisələrdə çalışan işçi qüvvəsinin kəmiyyətcə və keyfiyyətcə fərqli olması, eləcə də, kapitalın üzvi quruluşunun müxtəlifliyi (yüngül sənaye sahələri ilə müqayisədə ağır sənayedə yüksək olması) etiraf olunmalıdır. Təbii resurslara və şəraitə münasibətdə də müəssisələr arasında bərabərlik ola bilməz. Müəssisələrin sərəncamında olan resursların kəmiyyətində və keyfiyyətində olan fərqlər istehsal xərclərində və uyğun olaraq rentabelliyin səviyyəsində, mənfəətin kütləsində, maddi həvəsləndirmənin ölçüsündə öz əksini tapır. Buradan belə qənaətə gəlmək olar ki, müəssisələrin istehsal potensialını yaradan resurslardan istifadənin səmərəliliyini yalnız onların üzvi tərkibini və dövriyyə sürətini nəzərə almaqla müəyyən etmək mümkündür. Bu göstəricilərdən istifadə edərək istehsal resurslarının strukturunda və dövriyyə sürətində olan fərqlərin əmtəələrin qiymətlərində mənfəətin kəmiyyətini, rentabellik səviyyəsini differensiallaşdırmaq üçün nəzərə alınması zəruridir. Bu mövqedən kapitalın üzvi quruluşu və dövriyyə sürətini mənfəətin planlaşdırılması üçün bazis göstəriciləri qismində qiymətləndirmək və beləliklə də, mənfəət normasının istehsal sahələri və müəssisələr üzrə differensiallaşdırılması problemini həll etmək mümkündür. Bu problemin qoyuluşunun yuxarıda ifadə olunan müddəalarla əsaslandırılması iqtisadi fəaliyyətin ayrı-ayrı sahələrində mövcud olan müəssisələrin mənfəətinin bərabər dərəcə əsasında ödəyici ilə dövlət büdcəsi arasında bölgüsü və bu bölgünün nəticələrinin nəzərə alınmaması ilə əlaqədardır. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin IX fəslində göstərilmişdir ki, rezident və qeyri-rezident müəssisələrin bütün gəlirləri ilə gəlirdən çıxılan xərc arasındakı fərq ödəyici müəssisə üçün vergitutma obyektidir. Məcəllənin 105-ci maddəsinə uyğun olaraq müəssisələrin mənfəətindən 20% dərəcə ilə vergi tutulur [1].

Sual olunur: Vergi Məcəlləsi ilə nəzərdə tutulan mənfəət vergisinin vahid dərəcəsinin tətbiq edilməsi üçün əsas şərt nədir? Aydındır ki, bunun üçün ölkədə elə bir iqtisadi mühit yaradılmalıdır ki, müxtəlif istehsal sahələri və növləri üzrə fəaliyyət göstərən müəssisələr onların sərəncamına ayrılan kapitalın hər manatına bərabər məbləğdə mənfəət götürsünlər.

İstehsal və ticarət sahələri üzrə mənfəət vergisini 20% dərəcə ilə ödəyən müəssisələrin maliyyə hesabatlarının məlumatlarına müraciət edək [4; 5].

**Müəssisələrin balans aktivlərinin 1 manatına düşən mənfəətin və mənfəət vergisinin hesablanması**

**Cədvəl.**

| Müəssisələrin adları | Cəmi aktivlər, man. | Vergiqoymadan əvvəl mənfəət | | Mənfəət vergisi | |
|---|---|---|---|---|---|
| | | məbləğ, man. | aktivlərin 1 manatına düşən mənfəət, man. | məbləğ, man. | aktivlərin 1 manatına düşən mənfəət, man. |
| Xəzər Lada ASC | 12796043 | 500000 | 0,04 | 100000 | 0,0078 |
| Nəsimi bazarı ASC | 748198 | 8134 | 0,01 | 1627 | 0,00217 |
| Neman JKF | 8908057,65 | 90939,64 | 0,01 | 18187,92 | 0,0020 |
| Gəncə Şərab-2 | 20040437 | 35648500 | 0,18 | 712970 | 0,035 |

Göründüyü kimi, istehsal və xidmət sahələri üzrə fəaliyyət göstərən və müxtəlif strukturlu resurslardan istifadə edən müəssisələrin mənfəətinin vahid dərəcə ilə vergiyə cəlb edilməsi nəticəsində onların balans aktivlərinin 1 manatına düşən mənfəətin məbləğində kəskin fərqlər yaranır: Xəzər Lada ASC üzrə 4 qəpik, Nəsimi bazarı – 1 qəpik, Neman JKF – 1 qəpik və Gəncə Şərab – 2 üzrə 18 qəpik. Müəssisələr üçün mənfəət vergisinin vahid dərəcə iləmüəyyən edilməsi nəticəsində Gəncə Şərab – 2 zavodu aktivlərin 1 manatına düşən mənfəətdən büdcəyə Xəzər Lada ACS –yə nisbətən 4,5 dəfə, Nəsimi bazarı ilə müqayisədə 16,7 dəfə, Neman JKF-yə nisbətən isə 17,5 dəfə çox vergi ödəmişdir. Beləliklə, Gəncə Şərab – 2 zavodu digər müəssisələrlə müqayisədə daha böyük vergi yükünün təsirinə məruz qalır və iqtisadi cəhətdən əlverişsiz şəraitdə fəaliyyət göstərməyə məhkumdur. Fikrimizcə, mənfəətin müəssisələrlə büdcə arasında vahid dərəcə ilə bölüşdürülməsi nəticəsində ödəyicilər üçün qeyri-bərabər vəziyyətin yaranmasının aşağıda göstərilən üç üsuldan birinin tətbiq edilməsi və ya onların kombinasiya edilməsi yolu ilə qarşısını almaq mümkündür:

1. Müxtəlif istehsal və xidmət sahələri üzrə kapitalın üzvi quruluşuna uyğun mənfəət normasının müəyyən edilməsi;

2. Müxtəlif istehsal və xidmət sahələrində kapitalın üzvi quruluşunda fərqlərlə əlaqədar olaraq resursların bir manatına yaranan diferensial gəlirin dövlət büdcəsinə tutulmasını təmin edən əlavə dəyər vergisi islahatının aparılması;

3. Diferensial gəlirin büdcəyə tutulmasını təmin edən xüsusi ödənişin (resurslara görə haqqın) tətbiq edilməsi;

4. Diferensial gəlirin (mənfəətin) ümumi mənfəət məbləğinə nisbətini əks etdirən əmsalın əlavə dəyər vergsinin dərəcəsinə tətbiq edilməsi və s.

Yuxarıda aparılan təhlilin elmi-praktiki əhəmiyyətli nəticələrini aşağıdakı müddəalarla ifadə etmək məqsədəuyğundur.

Ən əvvəl müəssisənin hesabat dövründə mənfəətinin onun sərəncamında olan resurslardan səmərəli istifadə edilməsinin nəticəsində yaranmasını etiraf etmək lazımdır. Öna görə də resursların səmərəliliyini yalnız onların üzvi tərkibi və dövriyyə sürətini nəzərə almaqla qiymətləndirmək mümkün ola bilər. Müasir mərhələdə həmin göstəricilərdən istifadə edərək vergiqoymadan əvvəlki mənfəətin resurslara nisbətinə uyğun normasını hesablamaq və bu meyar üzrə nəzərə alınmaqla resursların bir manatına düşən verginin ölçüsünü təyin etmək mümkündür.

Hər hansı müəssisənin mənfəətinin kəmiyyəti onun sərəncamında olan kapitalın üzvi quruluşundan və dövriyyə sürətindən bilavasitə asılıdır. Dövriyyə sürətinin yüksək olması istehsal və xidmət resurslarından səmərəli istifadə olunmasını, mənfəətin və rentabelliyin kəmiyyətinin artımını müəyyən edir. Resursların dövriyyə sürəti kapitalın üzvi quruluşunun dəyişilməsinin əks istiqaməti üzrə dəyişir, yəni kapitalın üzvi quruluşu nə qədər yüksək olarsa, onun dövriyyə sürəti bir o qədər aşağı olacaq.

Ayrı-ayrı müəssisələr və onların qrupları üzrə mənfəət və rentabelliyin kapitalın üzvi quruluşu və dövriyyə sürəti nəzərə alınmaqla planlaşdırılması mənfəət normasının (rentabelliyin) sahə və sahədaxili səviyyəsinin mexaniki yolla tarazlaşdırılmasının qarşısını alır və bu göstəricinin dəqiq və iqtisadi cəhətdən əsaslandırılmasına kömək edir. Beləliklə, müasir dövrdə orta və kiçik sahibkarlığın maliyyə təminatının normal səviyyədə saxlanılmasının zəruri şərti qismində mənfəətin ölçüsünün və onun müəssisə ilə dövlət büdcəsi arasında bölgüsü nisbətlərinin müəyyən edilməsi üçün kapitalın üzvi quruluşunda və dövriyyə sürətində mövcud olan fərqlərin nəzərə alınması zəruriliyi etiraf edilməlidir. Müəssisələrin mənfəətinin kapitalın üzvi quruluşunda və dövriyyə sürətində fərqlər nəzərə alınmaqla planlaşdırılması və bölgüsü probleminin həlli istiqamətində aparılan tədqiqatlar bu problemin praktiki cəhətdən həll edilməsi üçün metodoloji baza rolunu oynaya bilər. Göstərilən problemin həll edilməsininrealizə forması Sumqayıt Dövlət

Universitetinin “Maliyyə və mühasibat uçotu” kafedrası ilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, Tarif Şurası arasında müvafiq əməkdaşlıq müqavilələrinin bağlanması və icra olunması kimi qiymətləndirilə bilər.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi – www.economy.az
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Bakı: Hüquq Yayın Evi nəşriyyatı, 2019
3. “Azərbaycan Respublikasında sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə dövlət dəstəyi ilə bağlı bir sıra tədbirlər haqqında” AR Prezidentinin Fərmanı (15 sentyabr 2017-ci il), “Azərbaycan” №201 (4637). 16 sentyabr 2017-ci il
4. “Gəncə - Şərab-2” ASC-nin 2016-cı il dekabrın 31-nə balans hesabatı, “Xalq Qəzeti”, №138 (28523), 27 may 2017-ci il
5. www.economy.az



**Резюме**

***Ахмедзаде М.И.***

**Повышение регулирующей роли налоговых стимулов в укреплении финансового обеспечения предприятий**

*В статье на основе анализа сведений финансовой отчетности производственно- торговых предприятий, уплачивающих налог на прибыль по ставке 20 %, рассматривается проблема дифференциации условий создания прибыли в отраслевом разрезе. В целях решения этой проблемы обосновывается необходимость расчета показателей органического строения и цикла оборотов капитала, а также дифференциации нормы прибыли и ставки налога на прибыль по отраслям и предприятиям. В качестве формы реализации решения этой проблемы предлагается заключение и исполнение соответствующих договоров сотрудничества между кафедрой «Финансы и бухгалтерский учет» Сумгаитского государственного университета и Министерством финансов, Министерством налогов и Советом по тарифам Азербайджанской Республики.*

***Ключевые слова:****финансовое обеспечение, налоговые стимулы, производственные ресурсы, норма прибыли, налоговые ставки, органическое строение, скорость оборота, дифференциация*



**Summary**

***Ahmedzadeh M.I.***

**Raising theRegulatory Role of Tax Incentives in the Strengthening of Financial Support for Businesses**

*The article deals with the problem of establishing profits based on the analysis of financial statements of enterprises that pay profit tax on production and commerce profits at a rate of 20% and differentiation by fields of the terms of the division between enterprises and the state budget. In order to solve the problem, necessity of calculating of indicators that reflect the organic structure of capital and turnover funds on enterprises and differentiation the profit rate and profit tax rate for production and trade spheres is justified. As a realization form of research results,it is proposed to conclude and implement relevant cooperation agreements between the department of Finance and Accounting of SSU, Ministry of Finance of the Republic of Azerbaijan, Ministry of Taxes and Tariff Council.*

**Key words**: *financial support, tax incentives, production resources, profit norm, tax rate, organic structure, turnover rate, differentiation*


## İNVESTİSİYA LAYİHƏLƏRİNİN TƏTBİQİ İMKANLARI


***Əliyev R.Ə.***

*AMEA-nın İqtisadiyyat İnstitutu*



***Xülasə.*** *Təqdim olunmuş məqalədə investisiya layihələrinin qiymətləndirilməsi və tətbiqi imkanlarından bəhs edilir. Xüsusi ilə qeyd edilir ki, müasir dövr üçün investisiya layihələrinin tətbiqində müxtəlif elementlərin nəzərə alınması vacibdir. Belə elementlərə risk, strategiya, keyfiyyət, operativlik və s. aiddir.*

***Açar sözlər.*** *investisiya, layihə, risk, keyfiyyət, qiymətləndirmə, idarə etmə*

Milli iqtisadiyyatın müxtəlif sahələrinə yatırılan investisiyaların layihə baxımından dəyərləndirilməsi hər bir dövrdə iqtisadi tələb kimi qarşıda durmuşdur. İqtisadiyyatın inkişaf səviyyəsindən asılı olmayaraq, sahəyə yatırılmalı olan investisiyalar mütəxəssislər tərəfindən qiymətləndirilərək oradakı bir sıra məqamlara aydınlıq gətirilməlidir. Onlara investisiyanın məbləği, onun müddəti, qoyuluş forması, riski, gəlirliliyi və s. aid etmək olar. Bu məsələdə, şübhəsiz ki, investisiya layihələrinə bir tam kimi yanaşmaq və sistemli davranmaq lazımdır. Qeyd olunan cəhətlər, şübhəsiz ki, iqtisadiyyatın hər bir sahəsində olduğu kimi, neft sənayesi sferasında da aktuallıq kəsb edir. İlk öncə ona görə ki, müasir dövrə qədər neft sənayesinə çoxlu həcmdə investisiyalar qoyulmuş, ikincisi isə perspektiv dövr üçün bu sahənin investisiya tələbi formalaşdırılmalı və ayrı-ayrı sahələrə inteqrasiya etdirlməlidir. Qeyd olunanların fonunda deyə bilərik ki, tədqiq olunan mövzunun elmi aparatı və təkmilləşmə istiqamət kimi investisiya layihələrinin tətbiqi imkanlarını Azərbaycan iqtisadiyyatı reallıqlarından öyrənmək düzgün olardı.

Xüsusən vurğulamaq lazımdır ki, investisiya layihəsi tətbiq olunan sahənin sosial-iqtisadi inkişafı baxımından onun ayrı-ayrı proqramlarını müstəqil formada planlaşdıraraq həyata keçirən ilkin təzahür elementi kimi çıxış edir. O da məlumdur ki, investisiya qoyuluşlarının reallaşdırılmasının inkişafa təsiri qiymətləndirilərkən investisiya layihəsinin həyata keçirilməsi vəziyyəti istənilən şərtlər daxilində müəyyən edilir və müqayisə ilə onun real gücü yoxlanılır.

Tətbiqinin hansı sahə olmasından asılı olmayaraq, müasir dövr üçün investisiya layihələrinin idarə edilməsinin yüksək səmərə metodologiyasına aşağıdakı elementlər təmin olunduğu təqdirdə keçərli hesab oluna bilər. Onlara aşağıdakıları aid edə bilərik:

- sahə üzrə investisiya bazarının təhlil edilməsi və müəssisənin investisiya portfelinin formalaşması;
- risk və qeyri-müəyyən proseslərin nəzərə alınması ilə qoyulmuş olan investisiyaların səmərəliliyinin hesablanması;
- müəssisələrin investisiya resurslarının formalaşması strategiyasının hazırlanması;
- praktik layihələrin düzgün müəyyən olunması və bu istiqamətdə investisiyaları seçmək və qiymətləndirmək;
- ayrı-ayrı layihələrin investisiya keyfiyyətinin qiymətləndirilməsi və onlardan ən səmərəlisinin seçilməsi;
- konkret investisiya və layihə-proqramların reallaşmasının planlaşdırılması, dəyərləndirilərək operativ idarə edilməsinin həyata keçirilməsi;
- investisiya layihəsinin keyfiyyətinin kompleks idarə edilməsi, həmçinin məhsul alışı və satışının təşkil olunması;
- investisiya proseslərinin tənzimlənməsinin təmin edilməsi;
- nəticədə, layihənin tamamlanmasının təşkil olunması və ümumi qiymətləndirmənin ortaya qoyulması.

Neft sənayesinə investisiya layihəsinin tətbiq edilməsi digər sahələrə görə bir sıra özünəməxsus xüsusiyyətlərlə səciyyələnir. Bu sahədə səmərəliliyin qiymətləndirilməsi maliyyə və iqtisadi təhlillər əsasında həyata keçirilsə də, nəzərə almaq lazımdır ki, sahə məhsulunun qiymət dəyişikliyi bu prosesdə mühüm rol oynayır. İlk öncə onu qeyd edək ki, maliyyə təhlili əsasən faktiki tariflər əsasında investisiya layihələrinin qiymətləndirilməsinə əsaslanır. İqtisadi təhlil isə qiymətlərin dəyişən səviyyəsi də nəzərə alınmaqla layihənin birbaşa vermiş olacağı faydanı qiymətləndirməyə imkan verir. Deməк ki, neft sənayesi üzrə investisiya layihələrinin qiymətləndiriməsi dəyişən qiymət (həmçinin dəyişən faiz dərəcələri, əmək haqqı səviyyəsi, valyuta məzənnəsi və s. dəyişikliklədə öz əksini tapan meyralardan hesab olunur) amilinin fonunda daha çox iqtisadi təhlil ilə həyata keçirilməlidir. Ümumi iqtisadiyyat nöqteyi-nəzərdən araşdırma apardıqda aydın olur ki, neft sənayesi üzrə investisiya layihələrinin qiymətləndirilməsi zamanı istifadə edilən iqtisadi təhlil metodu dövlət tənzimlənməsinin tətbiq gücündən də bilavasitə asılıdır.


**Резюме**

***Алиев Р.А.***

***Потенциал для реализации инвестиционных проектов***

*Представленная статья посвящена оценке и применению инвестиционных проектов. Особенно примечательно, что важно учитывать различные элементы в применении инвестиционных проектов для современного периода. К таким элементам относятся риск, стратегия, качество, эффективность и так далее.*



***Ключевые слова:*** *инвестиции, проект, риск, качество, оценка, управление*

**Summary**

*Aliyev R.A.*

**Applicattion Opprtunites of Investment Projects**

*The presented article deals with the evaluation and implementation of investment projects. It is particularly noteworthy that it is important to consider the different elements in the application of investment projects for the modern period. Such elements include risk, strategy, quality, efficiency, and so on.*

***Key words:** investment, project, risk, quality, assessment, management*

## KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN MALİYYƏ TƏMİNATININ YAXŞILAŞDIRILMASI YOLLARI

**Əliyev R.T.**
*AMEA-nın İqtisadiyyat İnstitutu*
**Mahmudova S.F.**
*AMEA-nın İqtisadiyyat İnstitutu*

**Xülasə.** *Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı üçün lazımi hüquqi-iqtisadi mühitin yaradılmasına baxmayaraq, son illər, əsasən, maliyyə təminatının və maliyyə-kredit dəstəyinin azalması səbəbindən bu strukturların fəaliyyətində azalma müşahidə edilir. Bunu nəzərə alaraq, məqalədə kiçik və orta sahibkarliğin maliyyə təminatinin yaxşılaşdırılması üçün təklif və tövsiyələr irəli sürülür.*

***Açar sözlər:** kiçik və orta sahibkarlıq,maliyyə dəstəyi, problemlər, yaxşılaşdırma yolları*

İqtisadi aktivliyin əsas amili kimi kiçik və orta sahibkarlığın rolu bir çox inkişaf etmiş ölkələrin iqtisadiyyatında tutduğu yeri ilə təsdiqlənir. Məsələn, əksər inkişaf etmiş ölkələrin ümumi daxili məhsulunun həcmində kiçik və orta müəssisələrin payı orta hesabla 50-60%-dən çoxdur. Azərbaycanda kiçik və orta sahibkarlıq kifayət qədər sürətlə inkişaf edir. Ancaq buna baxmayaraq, son illər əsasən maliyyə təminatı və maliyyə-kredit dəstəyi ilə əlaqədar fəaliyyətin azaldılması müşahidə edilir.

Araşdırmalar göstərir ki,maliyyə təminatı nöqteyi-nəzərindən kiçik və orta sahibkarlığın inkişafına mane olan əsas amillər aşağıdakılardır:

- kiçik və orta sahibkarlıq sferasına aid olan hüquqi-normativ bazanın təkmil olmaması;
- vergiqoyma sisteminin təkmil olmaması;
- lizinq və ipoteka sistemilərinin kifayət qədər inkişaf etməməsi;
- dövlət və yerli hakimiyyət orqanları tərəfindən birbaşa maliyyə yardımı sisteminin inkişaf etməməsi;
- kommersiya kreditlərinin faizlərinin yüksək olması.

Bunlarla yanaşı, banklar bir sıra səbəblərdən kiçik və orta sahibkarlıq subyektlərinə kreditlərin verilməsinə ehtiyatla yanaşırlar.

Birinci səbəb kiçik və orta sahibkarlıq subyektlərinin kreditləşdirilməsinin riskli olması. Bu, kiçik və orta sahibkarlıq subyektlərində menecmentin keyfiyyətinin aşağı olması ilə əlaqədardır. Bu səbəbdən sahibkarlar təsərrüfat-istehsal prosesində meydana çıxa biləcək situasiyaları düzgün qiymətləndirə və əsaslandırılmış fəaliyyət proqramlarını tərtib edib reallaşdıra bilmirlər.

İkinci səbəb kiçik və orta sahibkarlıq subyektlərinin kreditləşdirilməsi zamanı meydana çıxan risklərin bir qismi mentalitetlə bağlıdır: təcrübə göstərir ki, kiçik və orta sahibkarlıq subyeklərinin aldığı kreditlərin gecikdirilməsi, vaxtında qaytarılmaması və ya ümumiyyətlə qaytarılmaması bir çox hallarda iqtisadi amillərlə əlaqədar deyildir: bu daha çox sahibkarların məsuliyyətsizliyi, etinasızlığı və sui-istifadəsi ilə bağlıdır.

Üçüncü səbəb kiçik və orta sahibkarlıq subyektlərinin kreditləşdirilməsinin inkişaf etməməsi, kredit müqabilində qoyulacaq girov təminatının olmaması. Nəticədə ziddiyyətli vəziyyət yaranır: müəssisələr öz biznes fəaliyyətlərini genişləndirmək üçün banklardan kredit götürmək istəyirlər və banklar da kiçik və orta sahibkarlıq subyektlərinə kreditlərin verilməsində maraqlıdırlar, digər tərəfdən, qeyd edilən səbəbdən, kreditlərin verilməsindən imtina faizi yüksəkdir.

Bu gün kiçik və orta sahibkarlıq subyektləri üçün ən vacib problem onların fəaliyyətinin maliyyələşdirilməsi problemidir. Baxmayaraq ki, hətta ən kiçik müəssisələrin də banklardan və mikromaliyyə təşkilatlarından lazımi vəsaitləri cəlb etmək təcrübəsi var. Bir çox hallarda bankın vəsaitlərinin cəlb edilməməsinin əsas səbəbləri qəbuledilməz kreditləşmə şərtləri ilə (yüksək faiz dərəcələri, girov üçün ciddi tələblər), kreditləşmənin bütün şərtləri haqqında məlumatların olmaması ilə bağlıdır. Bununla yanaşı,

Azərbaycan reallığında ticarət sahəsində fəaliyyət göstərən kiçik sahibkarların əksəriyyəti, xüsusilə də uzaq ərazilərdə, heç bir şəkildə bank xidmətindən istifadə etmir, nağd pulla iş aparırlar. Bank filiallarında mövcud olan məlumatlar onlar üçün əlçatmazdır. Ona görə də, banklar sahibkarların məlumatlandırılması baxımından fəaliyyətini artırmalıdırlar, çünki bir çox sahibkarların bank strukturları ilə məşğul olmağa sadəcə vaxtları yoxdur və ya əvvəlki mənfi təcrübələrdən qaynaqlanaraq bank şöbələrinə getmirlər.

Kiçik və orta sahibkarlıq strukturlarının bank kreditləri aldıqları zaman üzləşdikləri problemlərdən biri, kredit almaq üçün bütün zəruri prosedurların mürəkkəbliyi və müddətidir. Bununla yanaşı, qeyd etmək lazımdır ki, kiçik biznes müəssisələri biznesin planlaşdırılması, biznes-proseslərinin idarə edilməsi və ofis işinin qəbul edilmiş standartlara uyğun təşkili sahəsində hələlik kifayət qədər bilik və bacarıqlara malik deyildirlər. Belə vəziyyətdə bankların tələbləri sahibkarlar üçün həddindən artıq və qeyri-mümkün kimi görünür. Bankların nümayəndələri sahibkarların iqtisadi və hüquqi biliklərinin aşağı səviyyədə olduğunu qeyd edirlər. Onun həlli də kreditləşmə prosesində eyni dərəcədə maraqlı olan bank işçiləri tərəfindən həyata keçirilməlidir və bunu regionlarda kiçik biznes nümayəndələri üçün birgə təlim seminarları təşkil edərək reallaşdırmaq olar.

Qeyd etmək lazımdır ki, kiçik bizneslə məşğul olan sahibkarların əksəriyyəti hələ də, "kölgədə" işləməyə üstünlük verirlər. Girovun olmaması və kiçik sahibkarların real alıcılıq qabiliyyətinin müəyyənləşdirməsində çətinliklər nəticədə kredit verməkdən imtinaya səbəb olur.

Nəzərə almaq lazımdır ki, bazar iqtisadiyyatı şəraitində kiçik və orta sahibkarların istehsal və biznes fəaliyyəti borc vəsaitindən istifadə etmədən mümkün deyildir və ya çox çətindir. Borc vəsaitlərinin cəlb edilməsi kiçik və orta sahibkarlara kapitallarının dövriyyəsini sürətləndirməyə, biznes əməliyyatlarının həcmini artırmağa, bitməmiş istehsalın həcmini azaltmağa imkan verir. Lakin, borc vəsaitlərinin istifadəsi sonradan borc öhdəliklərinin yerinə yetirilməsinin zəruriliyi ilə bağlı müəyyən problemlərin ortaya çıxmasına gətirib çıxara bilər. Borc vəsaitinin cəlb edilməsi ilə əldə edilmiş əlavə gəlirin məbləği kreditin qaytarılması ilə bağlı xərcləri üstələdikdə kiçik və orta sahibkarlıq strukturlarının maliyyə vəziyyəti sabit qalır və borc kapitalının alınması səmərəli olur. Bu göstəricilərin bərabər olması halında, əlavə gəlir təmin edilmədiyindən, maliyyə resurslarının formalaşması üçün borc vəsaitlərin cəlb edilməsinin məqsədəuyğunluğu məsələsi meydana çıxır. Borcların qaytarılması ilə bağlı xərclərin məbləği onun istifadəsindən əldə edilən əlavə gəlir məbləğindən artıq olduğu bir vəziyyətdə, kiçik və orta sahibkarlıq strukturlarının maliyyə vəziyyətinin pisləşməsi qaçılmazdır.

Beləliklə, kiçik və orta sahibkarlıq strukturlarının istehsal və xidmət proseslərinin borc kapitalı əsasında maliyyələşdirməsi bir çox hallarda qaçılmaz olsa da, çox da faydalı deyildir, çünki kreditorlar müəssisənin kapitalında öz pulları ilə iştirak etmirlər, onlar ödəniş şərtləri üzrə pul verirlər, yəni pul verən qismində çıxış edirlər.

Qeyd edilənlərdən belə qənaətə gəlmək olar ki, kiçik və orta sahibkarlığın maliyyə resursları ilə təmin edilməsi və onlara maliyyə dəstəyinin verilməsi üçün vergi və kredit mexanizmlərinin təkmilləşdirilməsini nəzərdə tutan bir sıra qarşılıqlı əlaqəli kompleks vəzifələri yerinə yetirmək lazımdır. Fikrimizcə, aşağıdakı istiqamətlərdə tədbir və tövsiyyələrin həyata keçirilməsi qeyd edilən məqsədə çatmaq üçün imkan və zəmin yaradardı:

• milli valyutanın (manatın) 2015-ci ildə baş verən kəskin devalvasiyasından əvvəl götürülmüş problemli biznes kreditlərinin qaytarılması üçün kiçik və orta sahibkarlıq strukturlarına dövlət səviyyəsində güzəştli şərtlərin müəyyən edilməsi;

• vergi güzəştlərinin müəyyən edilməsi. Məsələn, qeyd edilən sahibkarlıq strukturlarının əldə etdikləri mənfəətin istehsalın genişləndirilməsi, yeni iş yerlərinin yaradılması üçün sərf etdikləri hissəsinin vergidən azad edilməsi;

• kiçik və orta sahibkarlıq strukturlarının sadələşdirilmiş vergi sisteminə keçirilməsi;

• istehsalın genişləndirilməsi üçün uzunmüddətli bank kreditlərinin verilməsi, kreditləşdirmə mexanizminin təkmilləşdirilməsi;

• Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən prioritet fəaliyyət istiqamətlərinin seçilməsində kiçik və orta sahibkarlıq strukturlarına məsləhətlərin verilməsi və müvafiq köməkliyin göstərilməsi;

• istehsal edilən məhsulların reallaşdırılmasında köməklik göstərilməsi üçün kiçik və orta sahibkarlıq strukturlarına müvafiq dövlət sifarişlərinin verilməsi.

## Ədəbiyyat

1. Əliyeva Ş.T. Kiçik və orta biznesin inkişafı və məşğulluq problemləri. Bakı: Elm, 2005. 288 s.

2.Алиев Т.Г., Алиев Р.Т. Современное состояние развития предпринимательства в Азербайджане. Украинский журнал «Экономист», № 9, 2016 г. с. 11-14.

3.https://www.hkma.gov.hk/eng/key-information/speech-speakers/ altsheng/ speech_280995b.shtml

4. http://www.accountantnextdoor.com/eleven-sources-of-finance-that-small-and-medium-sized-businesses-can-use-to-finance-non-current-asset/

**Резюме**

***Алиев Р.Т., Махмудова С.Ф.***

**Пути улучшения финансового обеспечения малого и среднего бизнеса**

*Несмотря на создание необходимых правовых и экономических условий для развития малого и среднего бизнеса в Азербайджане, в последние годы наблюдается снижение активности этих структур, в основном из-за сокращения финансовой и финансово-кредитной поддержки. Принимая это во внимание, в статье предлагаются предложения и рекомендации по улучшению финансовой поддержки малого и среднего бизнеса.*

***Ключевые слова:*** *малое и среднее предпринимательство, финансовая поддержка, проблемы, пути совершенствования*

**Summary**

***Aliyev R.T., Mahmudova S.F.***

**Ways of Improvement of Financial and Provision of Small and Medium Entrepreneurship**

*Despite the creation of the necessary legal and economic environment for the development of small and medium-sized businesses in Azerbaijan, in recent years, there has been a decline in activity of these structures, mainly due to the reduction of financial provision and financial and credit support. Taking this into account, the article offers suggestions and recommendations for improving the financial support of small and medium-sized businesses.*

***Key words:*** *small and medium entrepreneurship, financial support, problems, ways to improve*

## MÜASİR DÖVRDƏ SİSTEM ƏHƏMİYYƏTLİ BANKLARIN MALİYYƏ XİDMƏTLƏRİ BAZARININ İNKİŞAFINA TƏSİRİ

***Əliyev V. Ə.***

*UNEC*

***Xülasə.*** *Məqalədə müasir dövrdə sistem əhəmiyyətli bankların maliyyə xidmətləri bazarının inkişafına təsiri tədqiq olunmuşdur. Bu məqsədlə maliyyə xidmətləri bazarının müasir problemləri açıqlanmış, təhlillər aparılmışdır. Dünya maliyyə böhranının nəticəsində yaranan mənfi fəsadların təsirinə baxılmışdır. Bu problemlərin həllində bankların strateji funksiyaları müəyyənləşdirlmişdir. Sistem əhəmiyyətli bankların maliyyə bazarlarına təsiri üzrə ümumiləşdirmələr aparılmışdır.*

***Açar sözlər:*** *maliyyə bazarları, dünya maliyyə böhranı,sistem əhəmiyyətli banklar, maliyyə bazarlarının inkişaf problemləri, sistem əhəmiyyətli bankların maliyyə xidmətləri bazarına təsiri*

2008-ci ilin sonlarında başlayan dünya maliyyə böhranı iqtisadiyyatın bütün sahələrinə təsir etsə də, ən mənfi fəsadlar özünü maliyyə-kredit sistemində və bank sektorunda göstərmişdir. ABŞ-da və dünyanın digər inkişaf etmiş ölkələrində yüzlərlə bank, maliyyə-kredit təşkilatları bağlanmış, iflasa uğramış və ya məcburi şəkildə birləşmə proseslərinə getmişlər. Həmin dövrdən 10 ildən çox vaxt keçməsinə baxmayaraq, dünya maliyyə böhranının fəsadları hələ də öz təsirini göstərməkdədir. R.İ.Xasbulatov qeyd edir ki, bu maliyyə böhranının fəsadlarının aradan qaldırılmasına uzun illər lazım gələcəkdir və dünya dövlətləri, ilk növbədə “G-7” ölkələri bu fəsadların yüngülləşdirilməsi üçün daha sistemli və təsirli tədbirlər görməli, yeni mexanizmlərinin işlənməsinə və tətbiqinə əlavə zəmin yaradılmalıdır [1, s.39].Düzdür, bu istiqamətlərdə nəinki “yeddillik” ölkələrdə, o cümlədən dünyanın digər ölkələrində dövlətlər tərəfindən ardıcıl şəkildə tədbirlər görülmüş, bankların maliyyə sabitliyinin təmin edilməsi, həmçinin maliyyə bazarlarının fəaliyyətinin gücləndirilməsi, immunitetin artırılması məqsədilə maliyyə resursları ayrılmış, dövlət dəstəyi mexanizmləri tətbiq edilmiş, vergi güzəştləri və sair güzəştlər tətbiq etməklə, bu istiqamətlərdə fəaliyyətin intensivləşdirilməsinə səylər göstərilmiş və hazırda da bu proseslər davam etməkdədir. Amma hələ ki, bunlar yetərli deyildir və maliyyə bazarlarının əvvəlki dinamikliyi və çevikliyi bərpa olunmamışdır, resursların

ayrılmasında və beynəlxalq səviyyədə hərəkətində məhdudiyyətlər mövcuddur, qaydalar və şərtlər isə xeyli sərtləşdirilmişdir. Bu amillər baxımından maliyyə bazarlarının dinamikliyinə və inkişafına müsbət təsir edən mexanizmlərinin səmərəliliyindən maksimum məhsuldar istifadə olunması zərurəti yaranmışdır və bununla əlaqədar olaraq, bankların bu proseslərdə rolunun daha fundamental şəkildə qiymətləndirilməsi aktuallığı ilə xeyli fərqlənir. Bank sistemi ümumilikdə milli iqtisadiyyatın inkişafının əsas pul-maliyyə vasitəçisi və təminedici subyekti kimi iqtisadi inkişaf proseslərinə təkan verir, kreditlərin ayrılması və layihələrin maliyyə təminatının həll edilməsi sayəsində makroiqtisadi və makromaliyyə sabitliyini gücləndirir. Sistem əhəmiyyətli banklar isə bu baxımdan daha çox təsir gücünə malikdirlər və onlar maliyyə bazarının infrastrukturunun möhkəmləndrilməsində səmərəli funksiyaları yerinə yetirirlər [2]. Bundan əlavə, sistem əhəmiyyətli banklar maliyyə xidmətləri bazarında fiziki və hüquqi şəxslərə sabit formada kreditlər verməklə və çevik fəaliyyət göstərməklə, iqtisadiyyatda hesablaşma funksiyasını yerinə yetirməklə, əhalidən və hüquqi şəxslərdən pul vəsaitlərini fəal şəkildə cəlb etməklə əmanət funksiyasını yerinə yetirir. Bir sözlə, sistem əhəmiyyətli banklar müasir dövrdə maliyyə xidmətləri bazarında maliyyə resurslarının alqı-satqısı funksiyasının əsas təşkilediciləri, həm də icraediciləridir [3]. Bu baxımdan sistem əhəmiyyətli bankların fəaliyyətinin sabitliyi üçün dövlət tərəfindən zəruri tədbirlər görülməli, güclü bank qanunvericiliyi formalaşdırılmalıdır. Bankların təkcə ölkənin mərkəzi şəhərlərində deyil, ölkə regionlarında da fəaliyyət şəbəkəsinin yaradılması və səmərəliliyinin yüksəldilməsi maliyyə xidmətləri bazarının inkişafına əlavə stimullar verir, müsbət təsir göstərir [4]. Eyni zamanda sistem əhəmiyyətli bankların uzunmüddətli dövr üçün kredit strategiyasının formalaşdırılması, kredit portfelinin maliyyə xidmətləri bazarının inkişaf tendensiyalarına və hədəflərinə adekvatlığının təmin edilməsi tədbirlərinə xüsusi önəm verilməlidir. Ölkədə maliyyə sabitliyinin balanslaşdırılmasında sistem əhəmiyyətli bankların rolunun strateji səviyyədə qiymətləndirilməsi və dövlətin maliyyə-kredit və maliyyə-pul siyasətində xüsusi nəzərə alınması vacib şərtlərdəndir [5]. Başqa bir problem, bank sistemi ilə maliyyə bazarları arasında olan qarşılıqlı münasibətlərin daha fundamental şəkildə öyrənilməsi, təsir dairəsinin obyektiv olaraq müəyyənləşdirilməsi, buna uyğun fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsidir. Belə olduğu təqdirdə, bank sisteminin maliyyə xidmətləri bazarına müsbət təsirin artması üçün əlavə potensial formalaşdırmaq mümkündür [6]. Digər tərəfdən, bankların fəaliyyətinin qlobal maliyyə çağırışları və mövcud maliyyə çətinlikləri baxımından daha çevik və optimal olaraq modelləşdirilməsi tədbirləri görülməlidir. Bunun üçün bank fəaliyyətinin səmərəliliyinin obyektiv müəyyənləşdirilməsi göstəriciləri, meyarları və prosedurları müasir reallıqlar nəzərə alınmaqla təkmilləşdirilməlidir [7]. Eyni zamanda, sistem əhəmiyyətli bankların ölkə iqtisadiyyatında strateji rolundan çıxış etməklə, onların fəaliyyətinin maliyyə xidmətləri bazarlarına təsirinin uzunmüddətli dövr üçün maksimum optimal proqnozlaşdırılması və buna uyğun fəaliyyət mexanizmlərinin hazırlanması vacib şərtlərdəndir [8].

Qeyd edək ki, Azərbaycanda da son illərdə maliyyə bazarlarında xeyli çətinliklər yaranmışdır, milli valyuta - manat ikiqat devalvasiyaya məruz qalmış və bir neçə bank iflasa uğramışdır. Ölkədə kredit resurslarının ahəngdarlığı pozulmuş və onların ayrılmasında məhdudiyyətlər yaranmış, kredit resurslarının əlçatanlığı pisləşmişdir. Burada yenə əsas ağırlıq sistem əhəmiyyətli bankların üzərinə düşmüşdür. Ölkəmizdə bir qrup daha iri kapitala və aktivlərə malik olan sistem əhəmiyyətli bankların fəaliyyəti hesabına (Kapital Bank, Pasha Bank və s.) maliyyə-kredit sisteminin fəaliyyəti nisbətən sabitləşmiş və maliyyə xidmətləri bazarının intensivliyi bərpa olunmuşdur. Bundan əlavə, ölkə Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə maliyyə xidmətlərinin çeşidinin və səmərəliliyinin artırılması istiqamətləri üzrə strateji hədəflər müəyyənləşdirilmişdir [9].Bütün bunlar nəzərə alınmaqla, hazırkı şəraitdə sistem əhəmiyyətli bankların maliyyə xidmətləri bazarının inkişafına təsiri ilə bağlı bir sıra məsələlərə daha ciddi önəmin verilməsi məqsədəuyğundur:

1.ölkədə bank sisteminin fəaliyyətinin və bank qanunvericiliyinin beynəlxalq təcrübəyə, bu sahədəki standartlara və meyarlara daha çox yaxınlaşdırılması və təkmilləşdirilməsi təmin edilməlidir;

2. maliyyə xidmətləri bazarı üzrə aparılan institusional islahatlar, struktur tədbirləri daha da təkmilləşdirilməli və ölkəmizin maliyyə xidmətləri bazarının sabit fəaliyyətinə imkan verən səviyyədə fəaliyyət mexanizmləri tətbiq olunmalıdır;

3. sistem əhəmiyyətli bankların maliyyə sabitliyinin mənbələrinin diversifikasiyalaşdırılması daha əsaslı şəkildə dünya bank sisteminə inteqrasiya etməsi, daxili və xarici risklərin idarə edilməsi mexanizmlərinin səmərəliliyinin yüksəldilməsi tədbirləri görülməlidir və s.

**Ədəbiyyat**

1. Хасбулатов Р.И. Глобальный финансовый кризис: причины и последствия//Век глобализации. №2/2008, с. 30-45, https://www.socionauki.ru.

2. Роль банков в инфраструктурном обеспечении финансового рынка - https://economy24info.com.

3. Голяндр Я.С. Роль коммерческих банков на финансовых рынках. http://naukarus.com/rol-kommercheskih-bankov-na-finansovyh-rynkah.

4. Global systemically important banks: assessment methodology and the additional loss absorbency requirement. Basel Commitee on Banking supervision, Rules text. 2011. http://www.bis.org/publ.

5. Муравьёв А.К. Финансовая устойчивость коммерческого банка: методический аспект. Дисс. канд.экон. наук. Новосибирск, 2008, 185 с.

6. Рыкова И.Н. Моделирование взаимоотношений банковской системы и финансовых рынков. Дисс. док-ра экон. наук. Ставрополь, 2004, 330 с.

7. Лаврушин О.И., Ветрова Т.Н. Эффективность банковской деятельности: методология, критерии, показатели, процедуры// Банковское дело, №5, 2015. с. 38-42.

8. A framework for dealing with domestic systemically important banks/ Basel Committee on Banking Supervision/ 2012/. http://www.bis.org./publ.

9. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016, 59 s.

**Резюме**

***Алиев В.А.***

**Влияние системнозначимых банков на развитие рынка финансовых услуг в современном периоде**

*В статье исследовано влияние системно значимых банков на развитие рынка финансовых услуг в современном периоде. С этой целью раскрыты и анализированы современные проблемы рынка финансовых услуг. Рассмотрены негативные последствия финансового кризиса в мире. Определены стратегические функции банков в решении этих проблем. Обобщено влияние системно значимых банков на рынок финансовых услуг.*

***Ключевые слова:*** *финансовые рынки, мировой финансовый кризис, системно значимые банки, проблемы развития финансовых рынков, влияние системно значимых банков на рынок финансовых услуг*

**Summary**

***Aliyev V.A.***

**Influence of Systemically Significant Banks on Development of the Market of Financial Services in the Modern Period**

*Influence of systemically significant banks on development of the market of financial services in the modern period is investigated in the article. Modern problems of the market of financial services are analyzed for this purpose. The negative consequences formed as a result of financial crisis in the world are considered too. Strategic functions of banks in the solution of these problems and influence of systemically significant banks in the market of financial services are given in the end of the article.*

***Key words****: financial markets, global financial crisis, systemically significant banks, problems of development of the financial markets, influence of systemically significant banks on the market of financial services*

# KİÇİK VƏ ORTA SAHİBKARLIQ FƏALİYYƏTİNİN STİMULLAŞDIRILMASI MƏSƏLƏLƏRİ

***Əliyeva A.Ə.***
*AMEA-nın İqtisadiyyat İnstitutu*

***Xülasə.*** *Məqalədə Azərbaycanda kiçik və orta sahibkarlıq fəaliyyətinin stimullaşdırılması məsələlərinə baxılmışdır. Aparılmış təhlillər onu göstərir ki, ölkəmizdə sahibkarlıq fəaliyyəti sahəsində beynəlxalq təcrübəyə əsaslanaraq aparılan davamlı islahatlar iqtisadi baxımdan çox səmərəli hesab olunur. Bundan başqa, tədqiq olunan sahə üzrə mövcud problemlər təhlil olunmuş, onların aradan qaldırılması istiqamətləri göstərilmişdir.*

***Açar sözlər:*** *bazar iqtisadiyyatı, iqtisadi inkişaf, iqtisadi tənzimləmə, iqtisadi islahatlar, iqtisadi model, inteqrasiya*

Azərbaycan iqtisadiyyatında uğurla həyata keçirilən genişmiqyaslı, köklü islahatlar qeyri-neft sektorunun inkişafına güclü təkan vermişdir. Qeyri-neft sektoruna yönəldilən maliyyə axınının artması daxili bazarın zənginləşməsinə və formalaşmasına, tədricən idxaldan asılılığın azalmasına, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəlməsinə səbəb olmuşdur. Davamlı olaraq bu istiqamətdə həyata keçirilmiş iqtisadi islahatlar, qeyri-neft sektoru sahələrində modernləşməni sürətləndirmiş, innovativ texnika–texnologiyaların tətbiqinə şərait yaratmışdır [1].

Son illər Azərbaycanda sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi sahəsində ciddi tədbirlər həyata keçirilməkdədir. Ölkəmizdə sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafı bir sıra amillərin təsiri altında baş verir. Azərbaycan əhalisində sahibkarlıq ruhu, təşəbbüskarlıq, işgüzar fəaliyyətə meyillilik həmişə, hətta inzibati amirlik sistemində belə yüksək olmuşdur. Bazar iqtisadiyyatı şəraitində aparılan iqtisadi islahatlar bu prosesləri daha da gücləndirmiş, yeni-yeni özəl müəssisələrin yaradılmasına səbəb olmuşdur.

Ölkəmizdə sahibkarlıq fəaliyyətinin inkişafına çoxsaylı amillər təsir göstərdiyindən, sahibkarlığa dövlət köməyi də vahid proqram şəklində həyata keçirilməlidir. Qeyd edilən proqram aşağıdakı istiqamətlərdə həyata keçirilməlidir: maliyyə-investisiya fəallığı; ixraca yardım və daxili bazarın müdafiəsi; aqrar sektorun inkişafı; kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi və s [2].

Azərbaycanda inkişaf proqramında aşağıdakılar nəzərdə tutulmalıdır: maliyyə köməkliyi, texniki kömək, informasiyanın əldə olunması imkanlarının yaradılması, sahibkarlıq birliklərinin yaradılmasına və fəaliyyətinə kömək, vergi imtiyazları və güzəştləri, sahibkarlıq infrastrukturunun yaradılmasına kömək, maddi-texniki təminat sahəsində kömək, kiçik və orta sahibkarlara dövlət sifarişləri vermək və s.

Hal-hazırkı vəziyyətdə Azərbaycan Respublikasının iqtisadi-sosial inkişafı regionları kompleks inkişaf etdirmədən mümkün deyil. Bu istiqamətdə regionların inkişafı ilə bağlı qəbul olunan proqramlar öz müsbət təsirini göstərməkdədir. Aparılmış təhlillər onu göstərir ki, son illər ölkəmizdə dövlət büdcəsi üzrə gəlirlərin strukturunda da ciddi dəyişikliklər müşahidə olunmaqdadır. Belə ki, 2012-ci ildə əgər dövlət büdcəsi üzrə gəlirlərin (bütün vergi növləri üzrə daxil olmalar nəzərə alınmaqla) həcmi 17281,5 mln. manat olmuşdursa, 2015-ci ildə bu göstərici 216,5 mln. manat artaraq 17498,0 mln. manata çatmışdır. Bundan başqa, 2016-cı illə müqayisədə isə 2017-ci ildə bu göstərici 989 mln. manat azalaraq 16516,7 mlyn. manat olmuşdur. (Şəkil 1).Təhlildən də göründüyü kimi, bu sahədə ciddi tədbirlərin görülməsi zəruridir [4].



**Şəkil. Dövlət büdcəsi üzrə gəlirlərin ( bütün vergi növləri üzrə daxilolmalar nəzərə alınmaqla) son illər üzrə dəyişmə dinamikası**

Ölkəmizdə sahibkarlığa dövlət köməyinin istiqamətlərindən biri də ixraca yardım və daxili bazarın müdafiəsidir. Daxili bazarın müdafiəsi yerli istehsalın obyektiv iqtisadi maraqları və yerli ehtiyaclar nəzərə alınmaqla, beynəlxalq təcrübədə sınanmış çeşidli səmərəli mexanizmlərə əsaslanmalıdır [3]. Daxili bazarın müdafiəsi əsasən tarif və qeyri-tarif məhdudiyyətlərini əhatə edir. Bu normalar qanunvericilik qaydasında xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsinin hüququ əsasmı formalaşdırmalıdır. Ayrı-ayrı məhsul növlərinə münasibətdə tənzimlənmə, müdafiə tədbirləri kimi nəzərdə tutulur: ixrac və idxalın kəmiyyət məhdudiyyətləri, ixrac və idxala dövlət inhisarı, idxalın məhdudlaşdırılması və ya qadağan edilməsi, idxala texniki, ekoloji, keyfiyyət və başqa tələblər, nəzarət və s.

Nəzərdə tutulur ki, yerli istehsal və yerli istehlak həcmləri nəzərə alınmaqla, xarici mənşəli məhsulların daxili bazara daxilolma imkanları, həcmləri, çeşidləri, zəruri hallarda isə müddətləri tənzimlənməli, reqlamentləşdirilməli, nəticə etibarı ilə yerli məhsulların üstün rəqabət imkanları, idxalı əvəzləyən sahələrin inkişafı təmin edilməlidir. Bu tədbirlər müddətli xarakter daşımalı, konkret sahə üçün digər stimullaşdırıcı amillər də (güzəştli kreditləşdirmə, risklərdən sığortalama və s.) kompleks təşkil etməklə, nəticədə, real inkişaf impulsu rolunu oynamalıdır [2].

Bütün görülən işləri və respublikada sahibkarlığın bugünkü inkişafını nəzərə alaraq, gələcəkdə sahibkarlıq fəaliyyətinin iqtisadiyyatın əsas sahəsinə çevriləcəyinə inanmaq olar. Bunun üçün aşağıdakı təklifləri nəzərə almaq məqsədə uyğun olardı:

- sahibkarlığın inkişafında inkişaf etmiş ölkələrin sahibkarlıq təcrübəsindən istifadə edilməsi;
- sahibkarlığın dövlət tərəfindən himayə edilməsi və rəqabət mühitinin qorunub saxlanılması məqsədilə müasir innovativ texnologiyaların tətbiqi ;
- regionlarda yeni müəssisələrin işə düşməsinə, fəaliyyətdə olanların isə genişlənməsinə imkan verən əlverişli vergi, gömrük, kredit dərəcələrinin tətbiq edilməsi;
- regionlarda yeni sahibkarlıq infrastrukturunun (sənaye innovasiya mərkəzlərinin, texnoparkların) formalaşması və onların səmərəli fəaliyyəti uçun əlverişli şəraitin yaradılması və s.

**Ədəbiyyat**


1. Manafov Q.N. Sahibkarlığın nəzəri və praktiki məsələləri. Bakı: Elm, 2015, 255 s.
2. Şəkərəliyev A.S. Dövlətin iqtisadi siyasəti: dayanıqlı və davamlı inkişafın təntənəsi. Bakı: İqtisad Universiteti, 2011, 542 s.
3. Кузьмин Д.В. Национальная конкурентоспособность, глобальная нестабильность и макроэкономическое равновесие. М.: Наука, 2018, 222 с.
4. www.stat.gov.az/budcə_2017


**Резюме**


***Алиева А.А.***


**Вопросы стимулирования деятельности малого и среднего предпринимательства**


*В статье рассматриваются вопросы стимулирования малого и среднего бизнеса в Азербайджане. Результаты анализа показывают, что проводимые в нашей стране реформы, основанные на международном опыте в сфере предпринимательской деятельности, считаются экономически эффективными. Одновременно, в статье проанализированы существующие проблемы в данной области, а также внесены предложения и рекомендации по их устранению.*



***Ключевые слова:*** *рыночная экономика, экономическое развитие, экономическое регулирование, экономические реформы, экономическая модель, интеграция*


**Summary**


***Aliyeva A.A.***


**Stimulation Issues of Small and Medium-Business Activities**


*The article deals with the issues of stimulating small and medium-size businesses in Azerbaijan. The realized analysis shows that the ongoing reforms in our country based on international experience in the field of entrepreneurship activity are considered economically efficient. Besides, the existing problems on the studied area were analyzed and directions of their elimination were presented.*



***Key words:*** *market economy, economic development, economic regulation, economic reforms, economic model, integration*

# KƏND YERLƏRİNDƏ SAHİBKARLIĞIN MALİYYƏ TƏMİNATINDAKI PROBLEMLƏR VƏ ONUN ARADAN QALDIRILMASI YOLLARI

***Əliyeva J.R.***
*AMEA-nın İqtisadiyyat İnstitutu*

***Xülasə.*** *Məqalədə ölkədə davamlı və rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılmasında əhalinin, eləcə də kənd əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılmasında kiçik sahibkarlığın inkişafının, bunun üçünsə sahibkarlığın maliyyə təminatının yaxşılaşdırılmasının vacibliyindən bəhs olunur. Son illər sahibkarlıq fəaliyyəti ilə məşğul olanların maliyyə vəziyyətinin yaxşılaşması ilə bağlı görülən işlər və bu sahədə çatışmazlıqlar araşdırılmış və onların həlli yolları göstərilmişdir.*

***Açar sözlər:*** *kənd əhalisi, kənd təsərrüfatı, kiçik sahibkarlıq, maliyyə təminatı.*

Respublikanın sosial-iqtisadi inkişafında qeyri-neft sektorunun inkişafı hesabına iqtisadiyyatın rəqabət qabiliyyətini yüksəltmək və onun strukturunun təkmilləşdirilməsi dövlət siyasətinin strateji məqsədlərindəndir. Rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılmasının və onun iqtisadi təhlükəsizliyinin strateji resurslarından biri isə kiçik sahibkarlıqdır. Kiçik sahibkarlıq iqtisadi artımın və sosial sabitliyin real amili olmaqla, məşğulluğun artırılmasında, istehsalın həcminin genişləndirilməsində və beləliklə də, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında əhəmiyyətli rola malikdir.

1995-1996-cı illərdə aqrar, sovxoz və kolxozların və torpaq islahatları ilə bağlı qəbul edilmiş qanunlar mülkiyyət formalarını təsbit etmiş, nəticədə, kənd yerlərində ailələr torpaq sahiblərinə çevrilmiş və yeni iqtisadi münasibətlərin əsası qoyulmuşdur. DSK-nın məlumatlarına əsasən 2017-ci ildə kənd yerlərində ev təsərrüfatlarının 92,3%-i torpaq sahəsinə malik olmuşdur [1]. Kənd əhalisinin torpağa sahib olması ev təsərrüfatlarının təsərrüfat fəaliyyəti imkanlarının genişlənməsinə səbəb olsa da, kənd təsərrüfatında kiçik təsərrüfat subyektləri özlərini maliyyə vəsaitləri ilə kifayət qədər təmin edə bilmirlər.

Məlumdur ki, kənd təsərrüfatı sahələrarası rəqabət mübarizəsində maliyyə vəsaitlərinin əldə olunması baxımından özünə yetərli sahə hesab olunmur. Kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarların gəlirləri iqtisadiyyatın digər sahələrində məşğul olan sahibkarların gəlirləri ilə müqayisədə təbii iqlim şəraitindən asılılığının yüksək olması, kapitalın dövr etmə sürətinin aşağı olması və s. amillərdən asılı olaraq kəskin dəyişmələrə məruz qalır. Bu isə kənd təsərrüfatı məhsulları istehsalçılarının öz vəsaitləri hesabına investisiya qoymaq, eləcədə maliyyə bazarlarında müvafiq vəsaitlər əldə etmək imkanını məhdudlaşdırır. Son illər kənd təsərrüfatına dövlət büdcəsindən ayrılan vəsaitlərin həcmi artırılsa da, kənd təsərrüfatının maliyyələşdirilməsi sistemində çatışmazlıqlar qalmaqdadır.

Kənd təsərrüfatı sahəsinin maliyyə təminatının yaxşılaşdırılması məqsədilə 2005-2015-ci illər ərzində Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinə ayrılmış güzəştli kreditlərin həcmi 18,1 dəfə artmışdır. 2006-cı ildən etibarən Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti tərəfindən də bu sahəyə güzəştli kreditlər ayrılmağa başlanılmışdır. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinə verilmiş kreditlərin ümumi həcminin artımı, əsasən, büdcə vəsaiti ilə verilən güzəştli kreditlər hesabına təmin edilmişdir. Bu isə ölkədə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrində fəaliyyət göstərən subyektlərin kommersiya şərtləri ilə maliyyə vəsaitləri cəlb etmək imkanlarının məhdud olduğunu göstərir. Kənd yerlərində kəndli təsərrüfatlarının iqtisadi potensialının zəif olması, kənd yerlərində torpaq və əmlak bazarlarının kifayət qədər inkişaf etməməsi səbəbindən kreditin alınması ilə bağlı girov təminatında yaranan problemlər, kənd təsərrüfatı sığortasının zəif inkişafı, o cümlədən də kənd təsərrüfatı kreditləri üzrə zəmanət mexanizminin olmaması maliyyə təminatında ciddi problemlər yaradır. Sadalanan maneələrin aradan qaldırılması istiqamətində tədbirlərin görülməsi məqsədəmüvafiqdir.

Kənd yerlərində güzəştli kreditlərin verilməsi kənd əhalisinin öz təsərrüfatlarını genişləndirməklə yanaşı kiçik və orta sahibkarlığın inkişafına əlavə maliyyə dəstəyidir. Kənd təsərrüfatında fəaliyyət göstərən hüquqi şəxslərə verilən kreditlərin təhlilini cədvəl məlumatlarına əsasən nəzərdən keçirdikdə aydın olur ki, kənd təsərrüfatına cəmi kredit qoyuluşu 2013-cü ildə 732,7 mln. manatdan 2014-cü ildə 845,9 mln. manata qədər artsa da, 2015-ci ildə azalaraq 506 mln. manata düşmüşdür.

**Kənd təsərrüfatında fəaliyyət göstərən hüquqi şəxslərə verilən kreditlər* (mln. manat)**

| | 2013 | 2014 | 2015 | 2013-2015-ci illərdə cəmi | 2013-cü illə müqayisədə 2015-ci ildə: + artma;- azalma |
|---|---|---|---|---|---|
| Cəmi kredit | 732.7 | 845,9 | 506,0 | 2084,6 | -226,7 |
| - dövlət mülkiyyətində olan müəssisələrə | 4,6 | 4,5 | 6,8 | 15,9 | +2,2 |
| - özəl müəssisələrə | 728,1 | 841,4 | 499,3 | 2068,8 | -228,8 |
| Qısamüddətli kreditlər | 10,0 | 16,7 | 27,9 | 54,6 | +17,9 |
| - dövlət mülkiyyətində olan müəssisələrə | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 |
| - özəl müəssisələrə | 10,0 | 16,7 | 27,9 | 54,6 | 17,9 |
| Uzunmüddətli kreditlər | 722,7 | 829,2 | 478,2 | 2030,1 | -244,5 |
| - dövlət mülkiyyətində olan müəssisələrə | 4,6 | 4,5 | 6,8 | 15,9 | +2,2 |
| - özəl müəssisələrə | 718,1 | 824,7 | 471,4 | 2014,2 | -246,7 |

***Mənbə: [2].*** ** Bank olmayan kredit təşkilatları istisna olmaqla.*

Azərbaycan Respublikasının Mərkəzi Bankının statistik məlumatlarına əsasən iqtisadiyyatın sahələri üzrə kredit qoyuluşunun tərkibində 2005-2017-ci illərdə kənd təsərrüfatına kredit qoyuluşunun həcmi 97,6 milyon manatdan 429,2 milyon manata artsada, xüsusi çəkisi 6,8%-dən 3,7%-ə enmişdir [2].

2013-2015-ci illər ərzində verilmiş cəmi 2084,6 milyon manat kreditin 15,9 milyon manatı dövlət mülkiyyətində olan müəssisələrin, 2068,8 milyon manatı isə özəl müəssisələrin payına düşmüşdür. Başqa sözlə desək, verilən kreditlərin tərkibində özəl müəssisələrə cəlb edilmiş kreditlərin xüsusi çəkisi 99% təşkil etmişdir. Kənd əhalisinin məşğulluğunun təmin edilməsində, sahibkarların fəaliyyətinin səmərəliliyinin artmasında kredit qoyuluşunun müddəti mühüm rol oynayır. Buna görə də kənd təsərrüfatında qısamüddətli kreditlərin uzunmüddətli kreditlərə transformasiyası mexanizminin işlənməsi məqsədə uyğundur. Qeyd edək ki, kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlara verilən kreditlərin faiz qoyuluşlarının yüksək olması onlara götürdükləri kreditləri vaxtında və tam ödəməyə imkan vermir. Fikrimizcə, sahibkarlara aşağı faiz qoyuluşları ilə uzunmüddətli kreditlərin verilməsi, verilən kreditlərə görə istehsalçının ödəməli olduğu faiz qoyuluşlarının müəyyən hissəsinin dövlətin büdcə vəsaitləri və yaxud xüsusi fondların vəsaitləri hesabına ödənilməsi məqsədə uyğun olardı.

Kənd təsərrüfatında dayanıqlı inkişafın təmin edilməsi bu sahədə mükəmməl sığorta sistemini təşkil etmədən qeyri-mümkündür. «Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında» Azərbaycan Respublikasının Qanunu 18 iyun 2002-ci ildə qəbul olunsa da hazırda respublikamızda kənd təsərrüfatında sığorta bazarı özünün formalaşma dövrünü yaşayır. Sahənin xarakterik xüsusiyyətlərindən irəli gələn tələblər nəzərə alınmaqla bazarın fəaliyyətinin təmin edilməsi və genişləndirilməsi kənd təsərrüfatında sahibkarlığın inkişafına və bu sahədə fəaliyyət göstərən əmtəə istehsalçılarının bazar fəaliyyətinin dayanıqlığına güclü təkan verə bilər. Respublikada kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarların və ailə təsərrüfatlarının əhəmiyyətli hissəsi taxıl istehsalı ilə məşğul olduğundan taxıl əkin sahələrinin sığortalanması zəruridir. Dövlət büdcəsindən taxıl əkin sahələrinin təbii fəlakətlərdən və texnogen amillərin təsiri nəticəsində sıradan çıxması zamanı dəyə biləcək zərərin bir hissəsini ödəmək məqsədilə müəyyən miqdar vəsait ayrılsa da, əkin sahələrinin əhəmiyyətli hissəsi sığortalanmamışdır.

Qeyd edək ki, 2016-cı il 06 dekabr tarixli Fərmanla təsdiq edilmiş “Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair strateji yol xəritəsi”ndə aqrar sığortanın inkişafı etdirilməsi ilə bağlı mövcud qanunvericiliyin təkmilləşdirilməsi, kənd təsərrüfatı sahəsi üzrə sığorta fondunun yaradılması imkanlarının dəyərləndirilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarının sığorta savadının artırılması və s. tədbirlərin görülməsi nəzərdə tutulmuşdur [3]. Hesab edirik, sığortanın kənd təsərrüfatına geniş tətbiqi ölkədə müvafiq sahə üzrə maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə, aqrar sahəyə biznes marağı və investisiyaların cəlb edilməsinə, istehsalın yüksəlməsinə, kənd təsərrüfatı ərzaq məhsullarının təhlükəsizliyinin təmin olunmasına və həmçinin kənd təsərrüfatı məhsullarının ixracının genişləndirilməsinə bir başa təsir etməklə kənd əhalisinin gəlirlərinin artırılmasına və beləliklədə onların rifahının yaxşılaşdırılmasına müsbət təsir göstərəcəkdir.

Kənd əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılmasında vacib rol oynayan kənd təsərrüfatında dayanıqlı inkişafın təmin edilməsi o cümlədən, bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olanların maliyyə vəziyyətinin yaxşılaşması və sığortanın stimullaşdırılması məqsədilə sığorta tariflərinin maksimum həddinin müəyyən olunması; sığorta müqavilələri üzrə hesablanmış sığorta haqqının bir hissəsinin büdcə vəsaiti hesabına ödənilməsi, sığortasına dövlət tərəfindən yardım edilən əmlak növlərinin, sığorta haqqının büdcə vəsaiti hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və s. kimi vəzifələrin reallaşdırılması zəruridir.

Hesab edirik Strateji Yol Xəritələrində nəzərdə tutulmuş rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunun formalaşdırılmasına nail olmaq baxımından əlverişli mühitin yaradılması, ərzaq təhlükəsizliyinin dayanıqlılığının gücləndirilməsi, kənd təsərrüfatı sahəsi üzrə istehsal vasitələri bazarının inkişafı və müvafiq resurslara, o cümlədən maliyyəyə çıxışın asanlaşdırılması, kənd təsərrüfatı sahəsində elmi təminatın və təhsilin keyfiyyətinin yüksəldilməsi, məsləhət-informasiya xidmətləri sisteminin inkişaf etdirilməsi, bazar infrastrukturunun inkişafı və istehsalçıların bazara çıxışının asanlaşdırılması, təbii resurslardan dayanıqlı istifadə mexanizmlərinin formalaşdırılması və kənd yerlərində rifahın yüksəldilməsi kimi strateji hədəflərə nail olunması kənd yerlərində sosial-iqtisadi inkişafa nail olmaqla, kənd əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılmasında mühüm rol oynayacaq.

Kənd əhalisinin həyat səviyyəsinin yaxşılaşmasında kənd yerlərində biznes mühitinin formalaşdırılması kənd təsərrüfatında istehsal və yeni emal müəssisələrinin yaradılması əhəmiyyətli rol oynayır. Məşğulluğun artırılması və digər sahib olduqları üstünlükləri baxımından bu tip müəssisələrə daha çox diqqət ayrılmalıdır. Bu məqsədlə azad rəqabət mühitinin inkişaf etdirilməsi, səmərəli vergi sisteminin təşviq edilməsi, dövlət xidmətlərinin çevikliyinin və səmərəliliyinin artırılması kimi tədbirlərin görülməsi biznes mühitinin formalaşmasında əhəmiyyətli rol oynaya bilər.

**Ədəbiyyat**


1. https://www.stat.gov.az/.
2. Azərbaycan Respublikası Mərkəzi Bankının statistik bülleteni. Bakı, №12(190), 12.2015.
3.https://mida.gov.az/documents/strateji_yol_xeritesi_kend_teserrufati_mehsullarinin_istehsalina_ve_emalina_dair.pdf.


**Резюме**


***Алиева Ж.Р.***


**Финансовые проблемы предпринимательства в сельской местности и путиустранения**


*В статье рассматривается необходимость совершенствования финансовой поддержки малого предпринимательства в формировании конкурентоспособной экономики и повышении уровня жизни сельского населения. Исследованы недостатки в улучшении финансового положения предпринимателей и показаны пути их устранения.*



***Ключевые слова**: сельское население, сельское хозяйство, малое предпринимательство, финансовое обеспечение.*


**Summary**


***Aliyeva J.R.***


**Problems in Financial Provision of Entrepreneurship in the Villages and the Ways of Their Removal**


*In the article deals with the need to improve the financial support of small entrepreneurship in shaping a competitive economy and improving the living standards of rural people. The shortcomings in the improvement of the financial standing of entrepreneurs have been investigated and ways of solving them are shown.*



***Key words**: rural population, agriculture, small entrepreneurship, financial provision.*


## MALİYYƏ RESURSLARININ İDARƏ EDİLMƏSİ PROBLEMLƏRİ


***Əliyeva S.Y.***
*Sumqayıt Dövlət Universiteti*



***Xülasə.** Məqalədə maliyyə resurslarından istifadə istiqamətləri araşdırılmış, əsaslı vəsait qoyuluşlarının maliyyələşdirilməsinin əsas mənbələri tədqiq edilmişdir. Həmçinin maliyyə resurslarının idarə edilməsi problemləri araşdırılaraq qruplaşdırılmışdır.*



***Açar sözlər:** maliyyə, pul, investisiya, müəssisə, dövlət büdcəsi, gəlir, xərc*


Müəssisədə maliyyə ehtiyatlarının toplanılması və artırılması nə qədər zəruri şərtdirsə, onlardan düzgün və səmərəli istifadə etmək bir o qədər vacib amildir. Bazar iqtisadiyyatı şəraitində maliyyə resurslarından istifadənin istiqamətləri geniş və çoxşaxəlidir. Bu istiqamətlər arasında vergi və məcburi sığorta ödənişləri, istifadə olunmuş bank kreditlərinə görə faiz ödəmələri, alınmış xammal-materialların dəyərinin ödənilməsi əsas yer tuturlar. Digər vacib istiqamətləri belə quruplaşdırmaq olar.

- əsaslı kapital qoyuluşlarının maliyyələşdirilməsi;
- qiymətli kağızlarda olan maliyyə resurslarının investisiyalaşdırılması;
- sosial təyinatlı xüsusi pul fondlarının formalaşdırılmasına yönəldilən maliyyə resursları.

Əsaslı vəsait qoyuluşlarının maliyyələşdirilməsinin əsas mənbələri aşağıdakılardır:
- müəssisənin xüsusi maliyyə resursları;
- müəssisənin borc aldığı və cəlb etdiyi maliyyə vəsaitləri;
- müəssisənin daxil olduğu birliyin mərkəzləşdirilmiş fondunun vəsaiti;
- dövlət büdcəsinin vəsaiti [5, s.211].

Müəssisələrdə maliyyə menecmentinin düzgün təşkili ən sərfəli şərtlərlə əlavə maliyyə resurslarını cəlb etməyə, onları daha böyük səmərə ilə investisiya qoyuluşuna yönəltməyə, maliyyə bazarında qiymətli kağızlar alqı-satqısı edərək faydalı əməliyyatlar həyata keçirməyə imkan verir.

İnvestisiya məqsədləri üçün pul vəsaitlərinin cəlb edilməsinin əsas üsullarından biri də qiymətli kağızların buraxılışıdır. Qiymətli kağızların buraxılması, onların maliyyə bazarında satılması, eləcə də bazardan digər qiymətli kağızların alınması müasir bazar iqtisadiyyatı şəraitində müəssisələrin əsas fəaliyyət növlərindən, maliyyə resurslarının mühüm istifadə istiqamətlərindən biridir. Əlavə maliyyə resurslarının cəlb edilməsi üsulu kimi qiymətli kağızların buraxılması və satılması zamanı müəssisə rəhbərləri və menecerləri vacib bir məsələni – məhz hansı növ qiymətli kağızın və hansı şərtlərlə daha çox mənfəət gətirəcəyini əvvəlcədən marketinq araşdırmaları aparmaq yolu ilə həll etməlidirlər [4, s.53].

Hər bir müəssisənin ixtiyarı vardır ki, təsərrüfat ilinin nəticəsinə görə onun sərəncamında qalan xalis mənfəətin xüsusi təyinatlı fondlara müəyyən həcmdə ayırmalar aparmaqla həmin fondları formalaşdırsın. Bu fondların vəsaiti yeni əmlakın yaradılmasına səbəb olmayan, yalnız sosial sahələrin inkişafına yönəldilən tədbirlərin maliyyələşdirilməsi, işçilərin həvəsləndirilməsi, onlara maddi yardım göstərilməsi, mütəxəssis kadrların hazırlanması və ixtisaslarının artırılması kimi tədbirlərin həyata keçirilməsinə sərf edilir. Göstərilən fondlara mənfəətdən ayırmaların konkret həcmi hər bir müəssisənin idarəetmə orqanları tərəfindən müəyyən edilir və fondların istifadə olunmamış qalığı növbəti ilə keçir [2, s.165].

Hər bir müəssisənin başlıca vəzifəsi maliyyə-təsərrüfat fəaliyyətinin yaxşılaşdırılması əsasında mənfəət artımını, müəssisə səhmlərinin məzənnə dəyərinin yüksəldilməsini təmin etməkdən, investisiya layihələrinin səmərəliliyini artırmaqdan, müəssisənin maliyyə resurslarını, dövriyyə aktivlərini səmərəli halda idarə etməkdən və sairədən ibarətdir. Maliyyə resurslarının idarə edilməsi problemləri əsasən aşağıdakılardan ibarətdir:

1. Ümumi daxili məhsulun təkrar istehsalı prosesinin dəyər, maliyyə cəhətindən öyrənilməsi, gəlirlər, xərclər, mənfəət dinamikasının müəyyən edilməsi;
2. Ayrı-ayrı maliyyə əməliyyatlarının icrası, pul vəsaitlərinin hərəkətinin öyrənilməsi;
3. Valyuta və qiymətli kağızlar bazarının vəhdət, qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq halında öyrənilməsi;
4. Pul tədavülü və maliyyə proseslərinin vəhdət halında tənzim edilməsi;
5. Dövlət büdcəsi gəlirləri və xərclərinin sosial-iqtisadi problemlərlə optimal uzlaşdırılması;
6. Gəlirlərin ilkin və yenidən bölüşdürülməsi üzərində nəzarətin gücləndirilməsi;
7. Gəlirlər və xərclərin büdcələşməsi sisteminin təkmilləşdirilməsi;
8. Büdcə siyasətinin iqtisadi strategiya proqramı ilə əlaqələndirilməsi;
9. Dövlətin mərkəzləşdirilmiş maliyyə resursları ilə qeyri-dövlət sahibkarlıq kapitalının əlaqələndirilməsi;
10. Ölkənin maliyyə sisteminin, maliyyə resurslarının dünya maliyyə sistemi ilə optimal, məqsədyönlü inteqrasiyasının təmin edilməsi;
11. Dövlət büdcəsi ilə büdcədənkənar məqsədli fondlar arasındakı əlaqənin düzgünlüyünə nəzarət edilməsi;
12. Maliyyə vəsaitləri, mexanizmləri olan pul aqreqatları – nağd pul, habelə nağdsız pul, qiymətli kağızlar arasında konkret iqtisadi şəraiti nəzərə alaraq nisbətlərin tənzim edilməsi;
13. Dövlət krediti ilə kommersiya, qeyri-kommersiya, təsərrüfat subyektləri, bank kreditlərinin koordinasiya edilməsi;
14. Gəlirlərin maliyyə resurslarının vergilər vasitəsilə dövlət tərəfindən yenidən bölüşdürülməsində fiskal siyasətlə tənzimedici, stimullaşdırıcı siyasətin, həlqələrin elmi cəhətdən əsaslandırılması, vergi rejiminin təkmilləşdirilməsi;
15. Qiymətin əmələ gəlməsində bazar mexanizmi ilə dövlət təsirinin bir-birini tamamlaması;
16. Məcmu təklifin stimullaşdırılması, məcmu təkliflə məcmu tələbin əlaqələndirilməsi [3, s.215].

Müəssisə və təşkilatlarda maliyyə resurslarının idarə edilməsi məhsul və yaxud xidmət statusundan əldə edilən qazanclar, mənfəətin əldə edilməsi və pul vəsaitlərinin axını kimi ümdə problemlərlə bağlıdır. Bazar münasibətləri şəraitində həmin problemlər, xüsusilə pul vəsaitlərinin axınının idarə etmək xüsusi əhəmiyyət kəsb edir. Pul vəsaitləri axınının idarə edilməsi aşağıdakı məsələləri əhatə edir:

- pul vəsaitləri hərəkətinin uçotu;
- pul vəsaitləri hərəkətinin təhlili;
- pul vəsaitləri hərəkəti büdcəsinin tərtib edilməsi [1, s.77].

Pul vəsaitləri maddi-material ehtiyatları, xüsusi kapital, bank krediti, dövriyyədənkənar aktivlər, kreditlər və debitor borcları ilə əlaqədardır.

Maliyyə resurslarının təhlilində, idarə edilməsində ən başlıca məqsəd həmin resursların çatışmaması və ya artıqlığı, onların daxil olma mənbələri və istifadə edilməsi qaydası və istifadəsi istiqamətlərini müəyyən etməkdir. Maliyyə resurslarının hərəkətinin idarə edilməsi aşağıdakı məsələləri daha aydın təsəvvür etməyə imkan verir:

- maliyyə resurslarının hansı mənbələrdən, nə həcmdə daxil olması və xərclənməsi istiqamətlərini dəqiqləşdirməyə;
- müəssisə və şirkətlərin cari fəaliyyəti nəticəsində əldə edilən pul vəsaitləri onların ödəmələri, öhdəlikləri yerinə yetirmə səviyyəsini müəyyən etməyə;
- əldə edilən pul vəsaitinin onların pula olan cari tələbatını ödəyə bilməsi səviyyəsini aydınlaşdırmağa;
- müəssisənin öz xüsusi vəsaiti həcminin investisiya fəaliyyətini həyata keçirməyə imkan verib-verməməsini müəyyən etməyə;
- əldə edilən ümumi pul vəsaiti ilə mənfəət arasında kəmiyyət nisbətini sistemli halda təhlil etməyə;
- büdcə vəsaitlərinin büdcələşməsinə, o cümlədən kassa büdcəsinin tərtib edilməsinə, bu sahədə baş verən və verə biləcək ciddi kənarlaşmaları müəyyən etməyə və beləliklə də, bu sahədəki gərgin situasiyalı halları yumşaltmağa imkan verir.

Müəssisə və təşkilatların maliyyə vəziyyətinin pisləşməsi, ödəmələr böhranının mövcudluğu bir qayda olaraq maliyyə resursları qıtlığına, çatışmazlığına səbəb olur.

### Ədəbiyyat

1. Abbasov A.B., Abbasov S.A. Maliyyə biznesi. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2014, 356 s.
2. Ataşov V.X., Novruzov N.A., İbrahimov E.Ə. Müəssisələrin maliyyəsi. Bakı: Kooperasiya nəşriyyatı, 2009, 336 s.
3. Əlibəyov N.V. Təsərrüfat subyektlərinin səmərəli fəaliyyətinin iqtisadi mexanizmi. Bakı: MBM, 2014, 404 s.
4. Hüseynova İ.M. Müəssisənin iqtisadiyyatı**.**Bakı: Bakı Biznes Universiteti, 2013, 304s.
5. Mahmudova İ.M., Zeynalov T.Ş., İsmayılov N.M. İqtisadi təhlil. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2010, 800 s.

### Резюме

***Алиева С.Ю.***

### Проблемы управления финансовыми ресурсами

*В статье исследованы направления использования финансовых ресурсов. Рассмотрены основные источники финансирования вложений в основные средства. Также на основании исследований сгруппированы проблемы управления финансовыми ресурсами.*

***Ключевые слова:*** *финансы, деньги, инвестиции, предприятие, государственный бюджет, доходы, расходы*

### Summary

***Aliyeva S.Y.***

### Financial Resource Management Problems

*The article explores the direction of the use of financial resources. Considered the main sources of financing investments in fixed assets. Also,based on the research, financial resource management problems are grouped.*

***Key words:*** *finance, money, investment, enterprise, state budget, income, expenses*

# KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFINA VERGİ SİYASƏTİNİN TƏSİRİ

***Əzizov E.Ə.***
*UNEC*

***Xülasə.*** *Məqalədə kiçik və orta sahibkarlığın inkişafına vergi siyasətinin təsiri məsələlərinə baxılmışdır. Aparılmış təhlillər onu göstərir ki, ölkəmizdə sahibkarlıq fəaliyyəti sahəsində beynəlxalq təcrübəyə əsaslanaraq aparılan davamlı islahatlar iqtisadi baxımdan çox səmərəli hesab olunur. Bundan başqa, tədqiq olunan sahə üzrə mövcud problemlər təhlil olunmuş, onların aradan qaldırılması istiqamətləri göstərilmişdir.*

***Açar sözlər:*** *vergi siyasəti, vergi sistemi, iqtisadi metod, vergi siyasəti prinsipləri, vergi yükü, sahibkarlıq*

Müasir dövrdə ayrı-ayrı iqtisadi sahələr üzrə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi zəruri məsələ hesab olunur. Qabaqcıl dünya ölkələrinin təcrübəsi göstərir ki, kiçik və orta biznesin səmərəli fəaliyyətinin təmin edildiyi şəraitdə istehsal olunan məhsul və xidmətlərin yarıdan çoxu, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqinin səksən faizi həmin sahənin payına düşür [1].

Dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən olan fiskal siyasətin tərkib hissəsi olmaqla vergi siyasəti vergi sisteminin formalaşması və dəyişməsini nəzərdə tutan vergilərin növlərini, həmçinin hər bir verginin dövlət büdcəsinin formalaşmasındakı rolunu, vergilərin dərəcələrini və diferensiasiyasını, vergi güzəşt, imtiyaz və kreditlərini, vergilərin hesablanması və dövlət büdcəsinə ödənilməsi mexanizmini müəyyən edir [4]. Beynəlxalq təcrübədə yuxarıda qeyd olunan sahələr üzrə önəmli məsələlərdən biri kimi vergi qanunvericiliyinin və inzibatçılığının sadəliyinə çox böyük əhəmiyyət verilir. Məsələn, 2005, 2007 və 2017-ci illərdə isə ÜDM–in artım templəri ölkə üzrə yüksək olmuşdur. Müvafiq olaraq 26,4%, 25% və 16% təşkil etmişdir. 2017-ci ildə ÜDM-in həcmi 70135,1 mln. manat olmuşdur. Adambaşına düşən ÜDM-in dəyəri isə 2015-ci illə müqayisədə 2008-ci ildə 3 dəfə artaraq 4603,7 manat, 2017-ci ildə isə 4.8 dəfə artaraq 7205 manat təşkil etmişdir (Cədvəl 1 və Şəkil 1). Bütün bunlar iqtisadi inkişafın son illər davamlı mövcudluğunu təsdiq edir [5].

**Cədvəl 1.**

**Azərbaycanda ÜDM-in son illər üzrə qeydə alınan göstəricilərinin dinamikası**

| **İllər** | **2005** | **2006** | **2007** | **2008** | **2009** | **2016** | **2017** |
|---|---|---|---|---|---|---|---|
| ÜDM-un artım tempi (əvvəlki ilə nisbətən %-lə) | 126,4 | 134,5 | 125,0 | 110,8 | 109,3 | 109,0 | 116.0 |

***Mənbə:*** *www.stat.gov.az/pdf/Azərbaycanın statistik göstəriciləri/2017*




**Şəkil. ÜDM-in artım tempi**

**Ölkə üzrə dövlət büdcəsinə vergi və sair daxilolmaların dinamikası**

**Cədvəl 2**

| Son illər | Vergi və digər ödənişlər üzrə daxilolmaların həcmi (min AZN) |
|---|---|
| 2012 | 6 025 366,5 |
| 2013 | 6 663 633,4 |
| 2014 | 7 113 622,4 |
| 2015 | 7 118 196,7 |
| 2016 | 7 015 165,4 |
| 2017 | 6 971 679,6 |

***Mənbə:*** *http://taxes.gov.az/statistika/2017*

Azərbaycan Respublikasında dövlət büdcəsinə vergi və sair daxilolmalar haqqında məlumatların təhlili göstərir ki, 2012-ci illə müqayisədə 2015-ci ildə vergi və digər ödənişlər üzrə daxilolmalar 1092830,2 min manat artaraq 7118196,7 min manat təşkil etmişdir. Lakin son illər bu sahədə də azalma prosesləri müşahidə olunmaqdadır. Belə ki, 2016-cı ildə 7015165,4 min manat dövlət büdcəsinə daxil olmuşdursa, 2017-ci ildə bu göstərici azalaraq 6971679,6 min manat olmuşdur [5]. Bunun da əsas səbəbləri son illər ölkədə vergi sahəsində aparılan davamlı islahatlar, sahibkarlara tətbiq olunan vergi güzəştləri, devalvasiya prosesləri və s. hesab olunur (Cədvəl 2).

Aparılmış təhlilin nəticəsi onu göstərir ki, vergi ödəyicilərinin vergi orqanları ilə əlaqələrinin tam elektronlaşdırılması işlərinin davam etdirilməsi prosesi vergi sisteminin daha da təkmilləşdirilməsinə və inkişafına səbəb ola bilər. Nəticədə, davamlı olaraq bu sahədə aparılan işlər dövlət büdcəsinin vergi daxilolmaları hesabına artmasına gətirib çıxaracaqdır. Bu və ya digər tədbirlər nəticəsində vergi sistemində elektron xidmətlərin təkmilləşdirilməsi əsasında vergidən yayınma hallarının sayını azaltmaq mümkündür [2].

Bundan başqa vergi ödənişləri, nəzarət və s. müxtəlif xidmətlərin müasir elektron texnologiyalardan istifadə olunmaqla reallaşdırılması vergi ödəyicilərinə təqdim olunan xidmətlərin səviyyəsinin artmasına, inzibatçılıq xərclərinin ciddi şəkildə azalmasına, inzibati idarəetmənin keyfiyyətcə yüksəlməsinə səbəb olacaqdır [3]. Nəticədə vergilər sahəsində aparılan məqsədyönlü islahatlar Azərbaycan Respublikasının beynəlxalq təşkilatların hesabatlarında mövqeyinin daha da yüksəlməsinə səbəb olacaqdır. Bundan əlavə, kiçik və orta sahibkarlıq cəmiyyətdə orta təbəqənin formalaşmasının əsas mənbəyi kimi zəruri sabitliyi təmin edərək ölkədə həyata keçirilən demokratik yönlü, mütərəqqi iqtisadi, hüquqi və siyasi islahatların dəstəklənməsinin sosial bazasını genişləndirir [3]. Məlumdur ki, səmərəli fəaliyyət göstərən güclü sahibkarlıq institutunun formalaşması və inkişafı uzunmüddətli proses olaraq dövlət tərəfindən müəyyən edilən siyasi, hüquqi və iqtisadi mühitin əlverişli olmasından, həm də dövlətin biznes və cəmiyyətlə əməkdaşlığının səmərəli olmasından asılıdır. Məhz buna görə də dövlət səviyyəsində kiçik və orta sahibkarlıq fəaliyyətinin genişləndirilməsində vergilərin roluna diqqətlə yanaşmaq zəruridir .

## Ədəbiyyat


1. Məmmədov F.Ə. və b. Vergilər və vergitutma. Bakı: Ozan, 2013, 416 s.
2. Musayev A.F. Vergi siyasətinin iqtisadi problemləri. Baki: Elm, 2013, 298 s.
3. Сердюков А.Э. и др. Налоги и налогообложение. СПб : Финансы,2012, 350 s.
4. Бабашкина А.М. Государственное регулирование национальной экономики. М.: Финансы и статистика, 2013, 320с.
5. http://taxes.gov.az/statistika


## Резюме


***Азизов Э.А.***


**Влияние налоговой политики на развитие малого и среднего предпринимательства**


*В статье рассмотрены вопросы влияния налоговой политики на развитие малого и среднего предпринимательства. Проведенный анализ показывает, что проводимые в нашей стране последовательные реформы, основанные на международном опыте в области предпринимательской деятельности, считаются очень экономичными. Кроме того, были проанализированы существующие проблемы по исследуемой области, указаны направления их устранения.*



***Ключевые слова:*** *налоговая политика, налоговая система, экономический метод, принципы налоговой политики, налоговое бремя, предпринимательство*

**Summary**

***Azizov E.A.***

**The Impact of Tax Policy on the Development of Small and Medium Entrepreneurship**

*The article discusses the impact of tax policy on the development of small and medium-sized businesses. The analysis shows that sustainable reforms carried out in our country based on international experience in the field of entrepreneurial activity are considered very effective from an economic point of view. In addition, existing problems in the studied area were analyzed and directions of their elimination were indicated.*

***Key words:** tax policy, tax system, economic method, tax policy principles, tax load, entrepreneur*

## QİDA SƏNAYESİNİN İNKİŞAFI VƏ TƏNZİMLƏMƏ İSTİQAMƏTLƏRİ

***Hacıyev C.G.***

*UNEC*

***Xülasə.** Ötən əsrin 90-cı illərindən etibarən iqtisadiyyat, bazara əsaslanan münasibətlər, xüsusilə də kənd təsərrüfatında islahatlar aparılmış, kollektiv təsərrüfatları aradan qaldırılmış, torpaq, iri və xırdabuynuzlu heyvanlar və əmlak kəndlilərə paylanıb. Ərzaq məhsulları istehsal edən yeyinti-sənaye müəssisələri özəlləşdirilmişdir. Bu tədbirlərə kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan dövlət müəssisələri də daxil edilərək, nəticədə, qida sənayesində yeni iqtisadi münasibətlərin formalaşmasına səbəb olmuşdur.*

***Açar sözlər:** qida sənayesi, qeyri-neft sektoru, kənd təsərrüfatı, iqtisadi artım, davamlı iqtisadiyyat, yeyinti məhsulları, özəl sektor*

Ölkənin qeyri-neft potensialının gücləndirilməsi, onun infrastrukturunun müasirləşdirilməsi və beynəlxalq standartlara uyğun rəqabətqabiliyyətli ixracat məhsulları istehsal etmək gücündə olan sənaye sektorunun yaradılması və inkişaf etdirilməsi zəruriliyi həm ölkənin daxili iqtisadi inkişaf modelinin, həm də dünya iqtisadiyyatının müasir inkişaf meyillərinin tələbləri ilə bağlıdır. Məhz ona görə də "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında, eləcə də "Milli İqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsində" qeyri-neft sənaye sahələrinin inkişaf etdirilməsi prioritet sahələr kimi qeyd edilmiş və onun diversifikasiyasının zəruriliyi ön plana çəkilmişdir [7].

Qida sənayesi ölkənin qabaqcıl emal sənayesindən biridir və ərzaq təhlükəsizliyi və ərzaq, içkilər və tütün məhsullarının müxtəlif texniki və texnoloji proseslər və infrastrukturlarla təmin edilməsində əsas rol oynayan inkişaf etmiş bir iqtisadi kompleksdir. Sub-sənaye sektoru kimi daxilində müxtəlif müəssisələrin (çörəkçilik, şirniyyat, pivə və s.) bir araya gətirərək, birincil emal kimi xammalın (şəkər, tərəvəz, süd, tütün və s.) emalını əhatə edir. Qida sənayesinin inkişafı sayəsində ərzaq fondu yaranır və ölkədə strateji ərzaq ehtiyatları yaradılır [1].

Milli ərzaq məhsulları bazarda keyfiyyətli qiymətləndirməsi onun strukturunda emal məhsullarının xüsusi çəkisinə əsaslanır. Nəticədə, ərzaq istehsalı miqdarından, keyfiyyətindən, qiymətindən yeni zamanda əhalinin həyatı və yaşam səviyyəsi də asılıdır. Bu səbəblə yeyinti sənayesi iqtisadi və siyasi müstəqillik, dövlətin qida təhlükəsizliyi, onun xüsusi siyasi və sosial əhəmiyyəti, eləcə də milli iqtisadiyyatda kənd təsərrüfatı ilə bağlıdır.

"1995-1999-cu illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramına əsasən Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan emal yeyinti sənayesi müəssisələrinin hamısı özəlləşdirilmək üçün Dövlət Əmlakı Komitəsinin sərəncamına verilmiş və səhmdar cəmiyyətlərə çevrilmişdir. Son illərdə emal yeyinti sənayesi sahəsində islahatların aparılması üçün hüquqi baza yaradılmış, bir sıra yeni qanunlar ("Yeyinti məhsulları haqqında", "Taxıl haqqında", "Tütün və tütün məmulatı haqqında", "Üzümçülük və şərabçılıq haqqında" Azərbaycan Respublikasının Qanunları) qəbul edilmişdir.

Qida sənayesi Azərbaycanda istehsal olunan və bu sahədə çalışan əhali miqdarı baxımından liderdir. Respublikamızda qida sənayesinin inkişafında bir sıra üstünlüklər mövcuddur:

1. qida sənayesinin tarixi ənənələri;
2. qida sənayesi üçün zəngin xammal bazası;
3. dünyada meyvə və tərəvəzlərin əksəriyyəti olmayan eyni olmayan məhsullarımız ;
4. əhalisinə görə kiçik və orta şəhərlərdə torpaq resurslarının bol olması baxımından yerləşdirilmə imkanları;
5. logistik baxımdan iqtisadi və coğrafi mövqe [2].

Hər bir dövlətin əsas məqsədi ölkənin hər bir vətəndaşının sağlam və məhsuldar həyat tərzi üçün onun qəbul edilmiş normalara uyğun ərzaq məhsulları ilə tam təmin edilməsidir. Bununla bağlı respublikamızda aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

1.ölkədə ərzaq istehsalının artırılması;

2. əhalini təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək;

3. qida təhlükəsizliyi risklərinin idarə edilməsi;

4. qida təhlükəsizliyi sisteminin və sahibkarlıq mühitinin institusional inkişafının yaxşılaşdırılması [3].

Bu cür yanaşmanın nəticəsidir ki, ölkədə sabit və adekvat ərzaq təklifinin yaradılması, səmərəli istehsal və satış infrastrukturunun formalaşdırılması, ərzaq məhsullarının keyfiyyətinin idarə edilməsi sisteminin təkmilləşdirilməsi və hər bir vətəndaşın ərzaq məhsullarının əldə olunmasını təmin edilməsi istiqamətində mühüm işlər görülmüşdür [8]. Suverenlik dövründə sistemli bir yanaşma və mürəkkəblik və maddi-texniki bazaya əsaslanan mövcud müəssisələrin regionların sənayesi və kənd təsərrüfatının artımı ilə bağlı proqramlarına uyğun olaraq istehsalını yenidən qurmaq üçün tədbirlər görülmüş, inkişaf etdirilmişdir.

ARDSK-nın məlumatlarına görə,01.01.2016-cı ildə tarixə qida məhsulları istehsalı ilə 382, içki istehsalı ilə 120 və tütün məmulatlarının istehsalı üzrə 7 müəssisə fəaliyyət göstərir. Onlar 95,9%-i qeyri dövlət sektorundadır 54,8%-i kiçik 45,2%-i orta və iri müəssisələrdir.

Qeyd etmək lazımdır ki, ölkəmizdə qida sənayesi sahəsində iri sənaye müəssisələri fəaliyyət göstərməkdədir. 1991-ci ildə Azərbaycanda fəaliyyətə başlayan "Azersun Holding" MMC qida istehsalı, pərakəndə satış və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən, ölkənin qabaqcıl şirkətidir. "Gilan Holding" şirkətlər qrupuna Qəbələ Konserv zavodu, Qəbələ Fındıq Emalı zavodu, Bakı Jalə sulan zavodu, Gilan Alko spirt zavodu, Makaron zavodları, Dəyirmanlar, süd emalı zavodları və digər qida sənayesi müəssisələri daxildir. Son illər Sumqayıt şəhərində istifadəyə verilən "Bişmak" Qida sənaye kompleksi MMC və "Sağlam qida" Aqrar sənaye kompleksi öz möhtəşəmliyinə, əhatə dairəsinə, məhsul çeşidinin sayına və keyfiyyətinə görə seçilir və onların məhsullarının bir hissəsi xarici ölkələr ixrac edilir [5].

**Qida məhsullarının istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




**Qrafikdən göründüyü kimi, əvvəlki ilin yanvar-mart ayları ilə müqayisədə tütün məmulatlarının istehsalında 2,8 dəfə artım, içki istehsalında 3,1 faiz, qida məhsullarının istehsalında isə 7,2 faiz azalma müşahidə olunmuşdur.**

Bu sahələrin əsas məhsullarından kolbasa məmulatlarının istehsalı 7,5 faiz, cem və marmeladların istehsalı 2,9 faiz, brendi (konyak) istehsalı 3,1 dəfə, üzüm şərabı istehsalı 8,5 faiz, alkoqolsuz içkilərin istehsalı 7,5 faiz artmış,bununla yanaşı, duru bitki yağlarının istehsalı 24,5 faiz, qənd və şəkər tozu istehsalı 90,7 faiz azalmışdır [6].

Ümumiyyətlə yeyinti sənayesini inkişaf etdirmək və istehsal edilən məhsulların rəqabət qabiliyyətini yüksəltmək üçün ilk növbədə aşağıdakı tədbirlərin həyata keçirilməsi vacibdir:

- biologi komponentlərlə zəngin yerli xammaldan istifadə etməklə yeni məhsulların mənimsənilməsi;
- məhsulun bioloji dəyərliliyinin və dad keyfiyyətinin təmin edilməsi;
- məhsulun qablaşdırılması üçün tara və avadanlıqlarla təminatın gücləndirilməsi, məhsulların sterilləşdirilməsi metodlarının tətbiq edilməsi;
- xammalın emala daxil olmasından başlayaraq hazır məhsulun qablaşdırılmasına qədər bütün proseslərin mexanikiləşdirilməsi və avtomatlaşdırılması;
- məhsulun saxlanması, nəql və emalı zamanı itkilərin azaldılması, xammalın kompleks istifadəsi, təkrar xammal resurslarının emalı hesabına yeyinti məhsullarının alınması;
- istehsal edilən məhsulların keyfiyyətinin beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması;
- özəlləşdirilən yeyinti sənayesi müssisələrinin məqsədli innovasiya layihələri əsasında modernləşdirilməsi və yenidən qurulması üçün investisiya qoyuluşlarının həcminin artırılması [4].

İqtisadiyyatın əsas sahələrindən biri olan əkinçilik məhsuldarlığı sahəsində mövcud potensialı səfərbər etmək üçün əlamətdar səylər ölkəmizin qeyri-neft sektorunun inkişafına təkan verəcəkdir. Son illərdə ölkədə yaradılmış biznes mühiti və özəl sektorun dövlət dəstəyində daimi artım sahibkarlığın sürətli inkişafına gətirib çıxarır. Azərbaycanda qeyri-neft sektorunun inkişafı əsasən özəl sektorun fəaliyyətindən asılıdır. Respublika iqtisadiyyatının şaxələndirilməsinin dövlət proqramlarının həyata keçirilməsinə görə bu sektorunun inkişafı ilə yüksək nəticələr əldə olunacağına inanıram.

## Ədəbiyyat


1. Allahverdiyev H., Qafarov K., Əhmədov Ə. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: ADİU, 2017
2. Alıyev İ.H, Məmmədov Y.Ə. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının tətbiqi Azərbaycan Respublikasında qeyri-neft sənayesinin inkişaf proqramı Bakı: Avropa, 2014
3. İsmayıl Z., Mehtiyev A., Aslanlı K., Ağayev R. İqtisadiyyatın və ixracın diversifikasiyasının qiymətləndirilməsi. Azad İqtisadiyyata Yardım İctimai Birliyinin hesabatı.
4. www.economy.gov.az
5. www.president.az
6. www.agro.gov.az
7. www.maliyye.gov.az
8. www.stat.gov.az


## Резюме


***Гаджиев Дж.Г.***


**Тенденции развития и регулирования пищевой промышленности**


*С 90-х годов прошлого века экономика, рыночные отношения, особенно сельское хозяйство, были реформированы, колхозы были ликвидированы, Земля, крупные и мелкие рогатые животные и имущество были переданы сельским жителям. Предприятия пищевой промышленности, производящие продукты питания, приватизированы. Эти меры включали введение государственных предприятий, занимающихся сельскохозяйственной продукцией, что привело к формированию новых экономических отношений в пищевой промышленности.*



***Ключевые слова:*** *пищевая промышленность, ненефтяной сектор, сельское хозяйство, экономический рост, устойчивая экономика, продукты питания, частный сектор*


## Summary


***Hajiyev J.G.***


**Food Industry Development and Regulatory Directions**


*From the 90s of the last century, the economy, market-based relations, especially agriculture, have been reformed, collective farms have been eliminated, land, large and small horned animals and property have been distributed to villagers. Food industry enterprises producing food products have been privatized. These measures included the introduction of state-owned enterprises dealing with agricultural products, resulting in the formation of new economic relations in the food industry.*



***Key words:*** *food industry, non-oil sector, agriculture, economic growth, sustainable economy, food products, private sector*

## İNNOVASİYANIN İNKİŞAFINDA İNSAN AMİLİ

***Həmzəyeva İ.R.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalədə innovativ inkişafda insan amilinin rolu araşdırılmışdır. İnsan amilinin bir sıra komponentləri tədqiq edilmişdir. Bu komponentlərin ən əsaslarından biri kimi təhsilin roluna baxılmışdır.*

***Açar sözlər:*** *insan, innovasiya, təhsil, iqtisadi artım, rəqabətqabiliyyətlilik*

İnnovasiya proseslərinin əksəriyyəti öz real təcəssümünü elm tutumlu və rəqabət qabiliyyətli məhsulun yaradılmasında tapır. İnnovasiyanın yayılma diapozonu praktika əsasında genişlənir.

İnnovasiya prosesi müxtəlif resursların istehsal fəaliyyətinə cəlb edilməsilə bağlıdır. İnnovasiya fəaliyyəti sisteminə elm, texnologiya, iqtisadiyyat və təhsil kimi tərkib hissələri daxildir. Bu fəaliyyət sistemində nəzərdən keçirilən komponentlərin içərisində ən əsas ünsür insandır. İnnovasiyanın səmərəliliyi böyük ölçüdə insan amili ilə bağlıdır.İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, innovativ iqtisadiyyatın inkişafı real iqtisadiyyatda tədqiqat və inkişafı yarada və həyata keçirə biləcək intellektual potensial tələb edir. Məhz belə potensial kimi insan mühüm rol oynayır.

Sənaye və elmi-texniki tərəqqi, iqtisadiyyatda texnoloji ukladın və cəmiyyətin dəyişməsi nəzəriyyə və praktika baxımından insan amilinin inkişafı prizmasından nəzərdən keçirilir. Qeyd olunan proseslərin təhlili göstərir ki, insan amili və onun inkişaf artımı tsikli dünya iqtisadiyyatı və cəmiyyətinin innovasiya dalğasının əsas amili hesab olunur. Sənaye, elmi-texniki, texnoloji inqilabı təhsilli və peşəkarcasına biliklə silahlanan mədəni insanlar həyata keçirir. Müasir mərhələdə iqtisadi nəzəriyyə baxımından qiymətləndirsək, bu o deməkdir ki, müxtəlif dövrdə həyata keçirilən texnoloji inqilablar, innovasiya yenilikləri və idarəetmə bacarıqları insan amili bazası əsasında həyat keçirilmişdir.

İnsan cəmiyyətində biliklər daimi olaraq toplandığından bunun da əsasında elm və təhsil inkişaf etmişdir ki, nəticədə yüksək peşəkar elmi-texniki, idarəetmə ustalığı (yəni intellektual elitanın) formalaşmış və bu da “insanın” inkişafına təkan vermişdir.

İnsan amilinin tarixi iqtisadi sistemlərarası paralelliyinə nəzər salsaq, bunu dövrü olaraq bir neçə mərhələyə bölmək olar. İlk sənaye inqilabi və texnoloji uklad (1770-1830-cu illər) ərzində baş vermişdir. Bu dövrdə dünya iqtisadiyyatı üçün məhsuldar qüvvələrin sürətlə artımı və kapitalizmin meydana gəlməsi xarakterik olmuşdur. Lakin, maşın, texnologiya, avadanlıqlar və kapitalizmin özü məhz insan amilinin inkişaf mərhələsi ilə paralellik daşımışdır. Kapitalizm bir sistem olaraq sanki insan amilini, onun yeni keyfiyyətdə intellektual güc və biliyini sürətləndirmiş oldu. Məhz insanların mədəni səviyyəsi və təhsili öz sferalarında sənaye inqilabının baş verməsini şərtləndirmişdir.

Kapitalizmdəki rəqabət mühiti insanın daha çox qazanmaq istəyi və bunun da kapitalizm ideologiyası olan protestantlıqla müdafiə olunması iqtisadi inkişafı da öz arxasında gətirdi ki, bu ölkələrə də İngiltərə, Fransa, İsveçrə, İsveç və digər ölkələri misal göstərmək olar. İnsanın inkişafı və onun rəqabət mühitini məhdudlaşdıran katolik və provoslav ideologiyasına mənsub olan ölkələr isə bu inkişafdan geri qalmışdır ki, bu ölkələr sırasında Çini, Hindistanı, Şərqi və Latın Amerikası ölkələrini də görmək mümkündür. Birmənalı surətdə qeyd etmək lazımdır ki, insan amilinin formalaşması və inkişafında rəqabətin rolu olduqca böyükdür.

İkinci sənaye inqilabı üçün (XIX əsrin sonu XX əsrin əvvəlləri) insan amilində keyfiyyət dəyişiklikləri daha xarakterik olmuşdur. Elmin, təhsilin təkmil formada ixtisaslaşması genişlənmiş, iqtisadiyyatın 2-4 texnoloji ukladı, yüksək əmək məhsuldarlığına əsaslanan sənaye cəmiyyəti formalaşmışdır.

Üçüncü elmi-texniki inqilab isə hələ də davam etməkdədir. Bu XX əsrin ortalarından başlayaraq texnoloji ukladın 5-6-cı mərhələsinin inkişaf etmiş ölkələrin timsalında davam etməkdədir. Bilik iqtisadiyyatının və informasiya cəmiyyətinin formalaşması başlanılmışdır. Artıq bilik iqtisadiyyatı iqtisadiyyatın aparıcı sahələrindən hesab olunur [3, s. 77].

İnsan amilini inkişafın əsas amili kimi qəbul edilib seçilməsi onunla əlaqəli olan bütün proqram, strategiya və konsepsiyaların hazırlanmasına sistemli və kompleks yanaşmaları zəruri edir. Belə bir yanaşma inkişaf amilinin çox komponentli kimi milli insan kapitalının da mahiyyətini açmağa kömək edəcəkdir. Belə ki, inkişaf etmiş və etməkdə olan ölkələrin ÜDM-də ixtisassız əməyin xüsusi çəkisi olduqca aşağıdır və demək olar ki, texnoloji cəhətdən qabaqcıl ölkələrdə bu az nəzərə çarpır. İstənilən əmək müasir mərhələdə elm və təhsili (bilikləri) tələb edir ki, bu da öz növbəsində müxtəlif növlü əmək fəaliyyəti və əməyin keyfiyyətinin yüksək saxlanılmasının başlıca şərti kimi çıxış edir. Buna görə də əməyi ixtisaslı və ixtisassız növlərə bölmək təhsilin, xüsusi bacarıq, bilik və yeniliyin fonunda tarixi yanaşmasını iqtisadi nəzəriyyə elmi cəhətdən itirməkdədir. Bunun başlıca səbəbi kimi insan kapitalının xüsusi formada iqtisadi nəzəriyyə elmində özünə yer tutması və əməyin formaları arasında məzmun sadəliyinə gətirməsini göstərmək olar.

Fikrimizcə, birmənalı olaraq söyləyə bilərik ki, insan kapitalı amili bir iqtisadi kateqoriya kimi iqtisadi nəzəriyyə elmində əmək amilinin daha da mürəkkəbliyinə, onun formalarındakı məna çalarlarına yenidən baxmağı labüd etmişdir. İnsan amilinin iqtisadi kateqoriya kimi mahiyyəti daimi olaraq beynəlxalq informasiya cəmiyyəti və bilik iqtisadiyyatının inkişaf etməsi ilə genişlənir və mürəkkəbləşir. Buna görə də iqtisadi nəzəriyyə elmi olaraq bu kateqoriyaya elmi-metodoloji yanaşma olmalıdır.

Dünyada iqtisadi artımın mühüm amili hesab olunan təhsil əhalinin məşğulluğunun və həyat səviyyəsinin yüksəldilməsində, işsizliyin və yoxsulluğunun azaldılmasında, sosial təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır.

Akademik Ə.X.Nuriyevin fikrincə insanın özünü və dünyanı dərk etməsi və ətraf aləmlə ünsiyyətinin inkişafının müqəddəm şərtidir. Təhsil insani keyfiyyətlərin formalaşmasının ən böyük və əvəzedilməz vasitələrindən biri, həyatda öz yerini müəyyənləşdirmək və ona nail olmağın açarıdır. Təhsil xalqın, millətin tərəqqisi, dünya xalqları arasında öz yerini tapması, öz milli mənəvi-əxlaqi keyfiyyətlərini qoruyub saxlaması və inkişaf etdirilməsi üçün son dərəcə vacib şərtdir. Bu səbəbdən dünyada öz nüfuzunu, yerini, iqtisadi, sosial mənafeyini qoruyub saxlamaq istəyən heç bir dövlət təhsilə biganə olmamalıdır [2, səh.182].

Ümumiyyətlə, müasir dünyada aşağıda qeyd olunan inkişaf tendensiyaları daha çox nəzərə çarpır:

- informasiya cəmiyyətinə keçid prosesinin sürətlənməsi;
- qlobal problemlərin sayının artması;
- cəmiyyətin inkişaf tempinin sürətlənməsi;
- insan kapitalının rolunun yüksəlməsi;
- təhsilin əsas faktor olması;
- xarici ölkələrdə təhsil almaq imkanlarının yüksəlməsi.

Qeyd olunan faktorlar ölkədə ali təhsil sektoru üzrə islahatların istiqamətlərinin göstərilən tendensiyalara uyğun müəyyənləşdirilməsi ehtiyacını yaradır [1, s.59].

Təhsilin inkişafı elmin, texnologiyanın və iqtisadiyyatın vəziyyəti ilə müəyyən edilir. Təhsildə əsas intellekt daşıyıcısı elmi, texniki, iqtisadi və ümumi işə bilikləri verən müəllimdir. Ali məktəbdə və aspiranturada mütəxəssislər hazırlanması təhsilin səviyyəsinə təqdim edilən yüksək tələblərə müvafiq olması üçün həm akademiya institutlarında, həm də ölkənin aparıcı ali məktəblərinin kafedralarında FNA aparılması gedişində toplanmış elmi biliklər potensialından istifadə edilməlidir.

İnsan amilinin inkişaf etdirilməsi və rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemlərinin həll edilməsi ölkədə əlverişli biznes mühitinin yaradılmasını, milli iqtisadiyyatın ayrı-ayrı sektorları arasında effektiv koordinasiya sisteminin qurulmasını, habelə bu zaman «Elm-tədqiqat-innovasiya» sisteminin bütün mərhələlərinə klaster yanaşmanı tələb edir.

Hər hansı bir ölkədə insan amilinin kifayət qədər olması onu birbaşa iqtisadi artımın həlledici amilinə çevirmir. Əsas məsələ onun strukturunun və keyfiyyətinin nə dərəcədə milli iqtisadiyyatın quruluşuna, tələblərinə cavab verməsi və onun səmərəli reallaşdırılması üçün əlverişli bazar mühitinin olmasıdır. İnsan amilinin iqtisadi artımda və rəqabətqabiliyyətinin yüksəldilməsindəki rolunu müəyyənləşdirərkən əsas şərtlərdən biri onun dəyərinin düzgün və obyektiv qiymətləndirilməsi ilə bağlıdır. Dünya təcrübəsində insan amilinin dəyərini qiymətləndirərkən xərc metodundan, indekslər sistemindən, habelə, konkret olaraq təhsilə, elmə qoyulan investisiyaya görə alınan nəticələr əsas götürülür.

Təhlil göstərir ki, keçid dövrünü yenicə başa vurmuş ölkəmizdə qısa bir zaman kəsiyində insan amilinin güclü inkişafına nail olmaq onu dünya meyarlarına cavab verən rəqabətqabiliyyətlilik səviyyəsinə yüksəldilməsi mürəkkəb bir problemdir. Yaxın gələcəkdə bu problemi ölkəmizdə həll etmək üçün "Milli iqtisadiyyatın perspektivliyi üzrə strateji yol xəritəsi"ndə təhsil-tədqiqat-innovasiya vəhdətini tətbiq etməklə insan kapitalının inkişaf etdirilməsi başlıca hədəf kimi müəyyənləşdirilmiş və bu problemin həllinin əsas yolları, prioritetləri, imkanları, dəstəkləyici sistemin yaradılması habelə bütünlükdə bu prosesin stimullaşdırılmasının normativ-hüquqi və qanunvericilik bazasının təkmilləşdirilməsinin zəruriyyəti xüsusi vurğulanır.

**Ədəbiyyat**


1. Əliyev Ş.T. Xüsusi iqtisadi zonaların təşkili problemləri və inkişaf perspektivləri. Bakı: Elm, 2008, 252 s.
2. Nuriyev Ə.X. İnsan və həyat fəlsəfəsi. Bakı: Çaşıoğli nəşriyyatı, 2005, 264 s.
3. Бекеле, С.Ф. Человеческий фактор в системе управления инновационными процессами на предприятиях: диссертация канд. эконом. наук / Бекеле, С.Ф.М.: 2002, с.162.

**Резюме**

***Гамзаева И.Р.***

**Человеческий фактор в развитии инноваций**

*В статье рассматривается роль человеческого фактора в инновационном развитии. Исследуются некоторые компоненты человеческого фактора. Рассмотрена роль образования, как одного из важных компонентов*

***Ключевые слова:*** *человек, инновации, образование, экономический рост, конкурентоспособность*

**Summary**

***Hamzayeva I.R.***

**The Human Factor in the Development of Innovation**

*The article discusses the role of the human factor in innovative development. Some components of the human factor are investigated. The role of education is considered as one of the important components.*

***Keywords:*** *human, innovation, education, economic growth, competitiveness*

## TƏBİİ İNHİSARLARIN XƏRCLƏRİNİN SUBADDİTİVLİYİ VƏ İNVESTİSİYA QƏRARLARININ TƏNZİMLƏNMƏSİ

***Hüseynov Q.S.***

***Hüseynzadə G.Q.***

*Sumqayıt Dövlət* Universiteti

***Xülasə.*** *Məqalədə təbii inhisarların əhatə dairəsinə daxil olan miqyasdan artan qənaət, təbii inhisarların xərclərinin subadditivliyi, Ramsey qiymətləri, Herfindal-Hirşman indeksi, Averç-Conson effekti və s. məsələlərə toxunulmuşdur.*

***Açar sözlər:*** *subadditivlik, təbii inhisar, qiymət, rəqabət, xərc, son hədd xərcləri*

Qloballaşma şəraitində hələ də təbii inhisarların bazarlarda üstün mövqe tutmasını müəyyən mənada bazar iqtisadiyyatı prinsiplərinə zərbə kimi qiymətləndirən iqtisadçılar var. Buna baxmayaraq, bu subyektlərin inkişaf etdirilməsi dövlətlərin özlərinin, o cümlədən Azərbaycan Respublikasının maraq dairəsində möhkəmlənmiş və müasir dövrdə bu tip yanaşmalarda müəyyən dəyişikliklər baş vermişdir. Bildiyimiz kimi, təbii inhisarlar bazarda rəqabət mühitini minimuma endirməklə, mümkün şərtləri istehlakçılar üçün özləri müəyyənləşdirir və fəaliyyətlərini də bu prinsip üzərində qururlar. Təbii inhisarlar ətrafındakı məsələlər dairəsinin genişləndiyini nəzərə alaraq, onlardan aktual olan bir neçəsinin üzərində dayanmaq istərdik.

Miqyasdan artan qənaət hesabına orta xərclərin uzun müddət ərzində tələbin bütün diapazonu üzrə azaldığı firma təbii inhisar hesab edilir. Beləliklə, bir firma əmtəə üzrə bütün bazar tələbini iki və bir neçə rəqabət aparan firmanın eyni miqdarda əmtəə hazırlamasına sərf etdiyi mümkün orta xərclərə nisbətən daha aşağı orta xərclərlə ödəyə bilər.




**Şəkil 1. Miqyasdan artan qənaət və təbii inhisar**

Şəkil 1-dən görünür ki, təbii inhisar $Q^*$ əmtəənin miqdarını iki firmanın hər birinin 1/2 $Q^*$ miqdarda istehsal etməsinə nisbətən daha az xərclərlə istehsal edə bilər. Bu şəraitlərdə rəqabət, bir qayda olaraq, arzuolunan deyil, çünki bir satıcıdan artıq satıcının mövcud olması xərclərin artmasına gətirib çıxardır.

Təbii inhisar nümunəsi qismində, adətən, qaz-enerji təchizatını, xətti telefon rabitəsini, poçt xidmətini, kanalizasiyanı, dəmir yollarını, boru kəməri nəqliyyatını və digər sahələri göstərirlər.

Əslində, bütün tələb xətti boyunca miqyasdan artaq qənaətin mövcud olması – təbii inhisarın mövcud olması üçün kafi, ancaq zəruri şərt deyil.

Şəkil 2-də $AC_1$ sahədə yeganə firmanın orta xərclər əyrisini özündə əks etdirir. Fərz edək ki, məhsula tələbat yüksəlir və firmaların sayı ikiyə kimi artır. Bilirik ki, minimal orta xərclərə malik məhsul buraxılışı zamanı hər bir firma eyni miqdarda məhsul istehsal etməlidir və bu səbəbdən iki firmanın son hədd xərcləri bərabər olmalıdır. Buna görə də iki firmanın xərclər əyrisini ($AC_2$) hər bir nöqtə $AC_1$ üçün buraxılış səviyyəsini ikiqat artırmaqla qurmaq olar.

Aşkardır ki, $Q^*$-dən aşağıda istənilən tələb həcmi üçün orta istehsal xərcləri təbii inhisar olacaq yeganə (tək) firmanın olduğu şəraitdə aşağı olacaqdır. Ancaq əgər tələbin həcmi $Q^*$-ni aşacaqsa, təbii inhisar daha çox faydalı deyil və bazarda iki firma işləməlidir (təbii duapoliya yaranır). Burada əsas parametr xərclər funksiyasının subadditivliyidir. Xərclər funksiyasında subadditivlik xüsusiyyətinin mövcudluğu göstərir ki, bütün istehsal həcmi yeganə firmanın ən az xərcləri ilə istehsal oluna bilər (şəkil 2-də $Q^*$-dən aşağı istənilən buraxılış şəraitində)




**Şəkil 2. Sahədə yeganə (tək) firmanın mövcudluğunun üstünlüyü**

Əgər dəyişənlərin cəmindən funksiyanın qiyməti hər bir dəyişəndən funksiyaların qiymətləri cəmindən azdırsa və yaxud ona bərabərdirsə, funksiya subadditivlik xüsusiyyətinə malikdir.

$$f(x_1 + x_2 + \ldots + x_N) \leq f(x_1) + f(x_2) + \ldots + f(x_N).$$

Yada salaq ki, funksiya subadditivlik xüsusiyyətinə o halda malikdirki, aşağıdakı bərabərlik yerinə yetsin:

$$f(x_1 + x_2 + \ldots + x_N) \geq f(x_1) + f(x_2) + \ldots + f(x_N)$$

Əgər $(x_1,\ldots,x_N)-$eyni bir məhsulun miqdarıdırsa, xərclər funksiyasının subadditivliyi bildirir ki, yekun sayda buraxılış üzrə ümumi xərclər hər biri $x_i$ sayda istehsal edən müəssisələrin ümumi xərclərindən azdır.

Səbəb müxtəliflikdən qənaətin (economies on scope) fəaliyyətdə olmasından ibarətdir. Xatırladaq ki, müxtəliflikdən qənaət vahid müəssisədə məhsulların kombinasiyasının istehsalının hər bir əmtəənin ixtisaslaşdırılmış müəssisə tərəfindən istehsalına nisbətən ucuz başa gəldiyi halda baş verir. Əgər biz, xüsusilə pik və pik olmayan saatlarda tədarük edilən elektrik enerjisini müxtəlif məhsullar hesab ediriksə, onda enerji sistemləri müxtəliflikdən qənaət imkanına mail olur. Analoji olaraq, dəmir yolun, sərnişin və əmtəə daşımaları üçün eyni relslər, siqnal avadanlıqları, yolun dispetçer və idarəetmə heyətinin xidmətlərindən istifadə olunur, bu isə onları (xidmətləri) müxtəlif növ daşımalar üçün müxtəlif dəmir yolların mövcudluğunun hipotetik (fərziyyəyə əsaslanma, təxmini) vəziyyətinə nisbətən daha az xərclərlə təqdim etməyə imkan verir. Bir neçə məhsulun istehsalı zamanı (bir neçə xidmət göstərildikdə) müxtəliflikdən qənaət miqyasdan mənfi qənaətin fəaliyyətinə səbəb ola bilər, bu isə sahədə yalnız bir firmanın fəaliyyətini iqtisadi cəhətdən faydalı edir. Beləliklə, çoxməhsullu təbii inhisarın mövcudluğu onun

xərclər funksiyasının subadditivliyi ilə müəyyən olunur, miqyasdan artan qənaətin olması isə məcburi olmaya bilər.

Çoxməhsullu firmanın xərclərinin subadditivliyi aşağıdakı bərabərsizliyin yerinə yetirilməsini bildirir:

$$TC(q_1, ..., q_m) \leq TC_1(q_1) + ... + TC_m(q_m)$$

burada $TC(q_1, ..., q_m)$ – məhsullar kombinasiyasının istehsalı üzrə xərclərin funksiyası; $TC_i(q_i)$ – ayrılıqda hər bir məhsul istehsalı üzrə funksiyası [1, s. 10].

İnhisar hakimiyyətini qiymətləndirmək üçün eyni zamanda Herfindal-Hirşman ( $I_{HH}$ ) indeksi əsasında bazarın mərkəzləşməsi dərəcəsini müəyyən edən göstəricidən istifadə edirlər. Onun hesablanması zamanı müəssisənin sahədə məhsulunun xüsusi çəkisi haqqında məlumatlardan istifadə olunur. Güman edilir ki, sahədə müəssisənin məhsulunun xüsusi çəkisi nə qədər çoxdursa, inhisarın yaranması üçün potensial imkanlar bir o qədər böyükdür. İndeks hesablanarkən bütün müəssisələr böyükdən kiçiyə qədər xüsusi çəki üzrə sıralanır:

$$I_{HH} = S_1^2 + S_2^2 + S_3^2 + \ldots + S_n^2,$$

- $I_{HH}$ – Herfindal-Hirşman indeksi;
- $S_1^2$ – ən böyük müəssisənin xüsusi çəkisi;
- $S_2^2$ – böyüklüyünə görə növbəti müəssisənin xüsusi çəkisi;
- $S_n^2$ – ən kiçik müəssisənin xüsusi çəkisi.

Əgər sahədə yalnız bir müəssisə fəaliyyət göstərirsə, onda $S_1^2$ = 100 %-dir, $I_{HH}$ isə = 10 000-dir. Əgər sahədə 100 eyni müəssisə vardırsa, onda $S_1^2$ = 1 %-dir, $I_{HH}$ - isə = 100-dür.

O sahə yüksək inhisarlaşmış sahə hesab olunur ki, onda Herfindal-Hirşman indeksi 1800-ü ötür.

İqtisadi effektivlik nəzəriyyəsinin təməl daşı qiymətlərin istehsalın son hədd xərclərinə bərabər olmasıdır. Bu qayda istehlakçı və istehsalçıların artıqlarının cəmi ilə ölçülən xalis ümumi qazancın maksimallaşdırılmasından çıxır. Onun məntiqi sadədir: əgər hər hansı bir nemətin qiyməti onun son istehsalı xərclərinə bərabər deyilsə, onda qiymət optimal miqdarda nemətin tələb edilməsi və istehsal edilməsi üçün istehlakçı və istehsalçılara düzgün siqnallar verməyəcəkdir. [2, s. 103]

Ramsey qiymətinin müəyyən edilməsi prinsipi ondan ibarətdir ki, fəaliyyəti dövlət tərəfindən tənzimlənən şirkətdə qiymət daha çox son hədd xərclərini o məhsullar üzrə aşır ki, onlara tələb ən az elastikdir. Bu birinci qiymət olmadıqda ikinci ən yaxşı qiymətdir. Başqa sözlə, əgər söhbət vergiyə cəlb olunmaqdan gedirsə, məsələn, ən yüksək vergini o mallardan tutmaq lazımdır ki, onları insanlar istənilən halda alacaqlar, ən aşağı vergiləri o mallardan tutmaq lazımdır ki, onlara tələb qiymətlərin dəyişməsinə həssas reaksiya verir. Yəni, onun fikrincə, vergiləri o xammal əmtəələri üzrə qaldırmaq daha yaxşı hesab edilir ki, onlar üzrə tələb qeyri-elastikdir.

Effektivlik üzrə zərərin minimallaşdırılması Ramsey üzrə qiymətəmələgəlmə adlandırılan qiymətəmələgəlməni təmin edir. Frank Ramsey (1903-1930) öz məşhur məqaləsini 1927-ci ildə nəşr etdirdi. Onun metodunun qiymətəmələgəlməyə əlavəsi aşağıdakından ibarətdir: Fərz edək ki, təbii inhisar bir neçə növdən məhsul (xidmət) istehsal edir. Son hədd xərclərini aşan və bütövlükdə təbii inhisarın zərərsizliyini təmin edən qiymətləri hansı səviyyədə müəyyən etməlidir ki, iqtisadi effektivlik üzrə zərərlər minimal olsun? Cavab: son hədd xərclərinə dair qiymətləri tələbin elastikliyinə tərs mütənasib artırın.

Təbii inhisar olan firmanın məhsuluna qiymətin son həddinin (maksimum) müəyyənləşdirilməsi əvəzinə dövlət gəlirlilik normasını qanunla məhdudlaşdıra bilər. Bu gəlir firmanın kapital qoyuluşuna görə əldə etdiyi gəlirdir. Dövlət tərəfindən kapitalın gəlirlilik normasının müəyyənləşdirilməsi və ya firmanın xərclərinə təsir etmək məqsədi ilə tənzimlənən əmək haqqının tətbiqi və ya istehsalın subsidiya edilməsi tədbirləri kimi qiymətin son hədd xərcləri səviyyəsində müəyyənləşdirilməsi zamanı Averç-Conson effekti yaranır. [3, s. 28]

Gəlirlilik normasının tənzimlənməsi probleminin mahiyyəti dövlət nöqteyi- nəzərindən ondan ibarətdir ki, kapitala görə qazanılan gəlir firmanın mənfəətidir və inhisar səviyyəsində olmamalıdır - bazar buna yol versə də. Firmanın mövqeyindən yanaşmalı olsaq, gəlirlilik norması kapital resurslarının qiymətini, istifadə olunan kapitalın hər vahidinə çəkilən xərcləri ifadə edir.

Əgər istehsal amilinin tənzimlənən qiyməti onun bazar qiymətindən yüksəkdirsə, belə halda istehsal amili qeyri-proporsional böyük həcmdə istifadə olunacaqdır. Resursların bazar qiyməti onun başqa bir yerdə (başqa sahədə) istifadə edilməsinin alternativ xərclərini ifadə edir. Bu səbəbdən bazar qiymətini resursların

sahələr üzrə optimal bölüşdürülməsinin bir aləti kimi nəzərdən keçirmək olar. İstehsal amillərinə görə gəlirlilik normasının dövlət tənzimlənməsi zamanı təkrar istehsal proporsiyaları pozulur, yəni verilmiş sahəyə qiyməti tənzimlənən resurslar daha çox cəlb olunur.(şək. 3)




**Şəkil 3. Averç-Conson effekti**

Fərz edək ki, sahədə kapitalın və əməyin ilkin səviyyəsi istehsal həcmi *Q*-yə bərabər olarkən istehsal xərclərinin minimallaşdırılmış səviyyəsinə uyğundur, yəni *E* nöqtəsində resurslar həcmi ilə $(K_1\ L_1)$ tarazlıq təşkil edir. Gəlirlilik normasının tənzimlənməsi nəticəsində kapitalın qiymətinin bazar parametrləri ilə müqayisədə aşağı düşməsi (və ya dövlət qanunvericiliyinin təsiri nəticəsində əməyin qiymətinin yüksəlməsi) eynilə həmin istehsal həcmi üçün (sahə üçün tələb olunan həcm) istehsal amillərinin yeni proporsiyalarının $(K_2\ L_2)$ yaranmasına səbəb olur. Bu zaman kapital qeyri-proporsional həcmdə çox, əmək isə istehsal prosesinin və bazarın tələb etdiyi səviyyədə qeyri-optimal həcmdə az istifadə olunacaqdır.

**Ədəbiyyat**

1. Кудряшова Е.Н. Институциональные соглашения в условиях естесвенной сонополии. Учеьное пособие. М.: Инфра-М, 2010, 110 с.

2 Hüseynov Q.S. Elektroenergetika qiymətlərin tənzimlənməsinin nəzəri əsasları. Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İqtisadiyyat seriyası, 2012, №1

3. Həsənova R.Ə. Azərbaycanın qeyri-istehsal sahələrində təbii inhisarçılıq. Bakı: Elm və təhsil, 2011, 264 s.

**Резюме**

***Гусейнов Г.С., Гусейнзаде Г.Г.***

**Субаддитивностьзатрат естественных монополий и регулирование инвестиционных решений**

*В статье затронуты вопросы возрастающей экономии от масштаба входящего в пределы влияния естественных монополий, субаддитивность затрат естественных монополий, цены Рамсея, индекс Херфиндаля-Хиршмана, эффект Аверча-Джонсона и т.д.*

***Ключевые слова**: субаддитивность, естественная монополия, цены, конкуренция, затраты, предельные затраты*

**Summary**

***Huseynov Q.S., Huseynzade G.Q.***

**Subadditivity of Costs of Natural Monopolies and Regulation of Investment Decisions**

*It has touched to problems increasing economies of scale under the influence of natural monopolies, subadditivity of costs of natural monopolies, Ramsey prices, Herfindahl-Hirschman index, Averch-Johnson effect etc. in the article.*

***Keywords:** subadditivity, natural monopoly, price, competition, cost, marginal costs*

# İQTİSADİ İSLAHATLAR ŞƏRAİTİNDƏ SIĞORTA XİDMƏTLƏRİNİN GENİŞLƏNDİRİLMƏSİNİN MALİYYƏ TƏMİNATI

***İbrahimov K.M.***
*UNEC*

***Xülasə.*** *Məqalədə iqtisadi islahatlar şəraitində sığorta xidmətlərinin genişləndirilməsinin maliyyə təminatı tədqiq olunmuşdur. Bu məqsədlə iqtisadi islahatlar şəraitində sığorta xidmətlərinin rolu və əhəmiyyəti açıqlanmışdır. Sığorta şirkətlərinin səmərəli fəaliyyəti üçün onların maliyyə sabitliyinin vacibliyi əsaslandırılmışdır. İqtisadi islahatlar iştirakçılarının sığorta xidmətlərinə olan tələbatının ödənilməsinin səmərəli təşkilinin əhəmiyyəti verilmişdir. Baxılan problemlər üzrə tövsiyələr hazırlanmış və təkliflər verlimişdir.*

***Açar sözlər:*** *sığorta xidmətləri, sığorta təşkilatları, iqtisadi islahatlar şəraitində sığorta xidmətləri, sığorta şirkətlərinin maliyyə sabitliyi, sığorta xidmətlərinin genişləndirilməsinin maliyyə təminatı*

İqtisadi islahatlar şəraitində sığorta xidmətlərinin genişləndirilməsi və bununla əlaqədar zəruri tədbirlərin görülməsi vacib şərtlərdəndir. Belə ki, iqtisadi islahatlarda iştirak edən müxtəlif təsərrüfat subyektləri, müəssisələr və təşkilatlar çoxlu sayda risklərlə üzləşirlər və bunlarla əlaqədar olaraq fəaliyyət dairəsinin daha təhlükəsiz olması üzrə mexanizmlərin işlənib hazırlanması, başqa sözlə, risklərin sığortalanması lazım gəlir. Son illərin maliyyə qeyri-sabitliyi bu sahədəki problemləri daha qabarıq şəkildə üzə çıxarımışdır. Dünya maliyyə böhranının mənfi fəsadları baxımından, ölkəmizdə də maliyyə sisteminin qeyri-sabitliyi gec də olsa, özünü büruzə vermişdir. 2015-2016-cı illərdə dünya bazarlarında neftin qiymətinin bir neçə dəfə aşağı düşməsindən sonra Azərbaycanda maliyyə qeyri-sabitliyi baş vermiş, milli valyuta-manat ikiqat devalvasiyaya uğramış, kredit resurslarının ayrılmasında məhdudiyyətlər yaranmış, aparılan iqtisadi islahatlarda riskli amillər artmış və onların sığortalanması zərurəti kifayət qədər aktuallığı ilə diqqət çəkmişdir.

Ölkəmizdə maliyyə bazarının tənzimlənməsi və iqtisadi islahatların sürətləndirilməsi üçün maliyyə təminatının genişləndirilməsi, maliyyə xidmətlərinin, o cümlədən sığorta xidmətlərinin çeşidinin dövrün tələblərinə uyğunlaşdırılması tədbirləri görülməkdədir. Bu istiqamətdə prioritet vəzifələr və əsas hədəflər ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə öz əksini tapmışdır [1]. Bununla əlaqədar olaraq, ölkənin maliyyə-kredit sistemində mövcud mexanizmlərin təkmilləşdirilməsi istiqamətində islahatlar dərinləşdirilmiş, institusional və struktur dəyişiklikləri aparılmış, bir neçə bankların lisenziyaları ləğv edilmiş, qlobal maliyyə və sığorta çağırışlarına uyğun şəkildə tədbirlərin görülməsi prosesləri intensivləşdirilmişdir. İqtisadiyyatın müxtəlif sahələrində sığorta mexanizmlərinin təkmilləşdirilməsi çağırışları isə daha çox diqqət çəkir və bunlar təbiidir. Belə ki, sığorta xidmətləri bazar münasibətlərinin genişləndirilməsinə və işgüzar fəallığının yüksəlməsinə, həmçinin investisiya mühitinin yaxşılaşdırılmasına xidmət edir [2]. Bu baxımdan sığorta şirkətinin maliyyə sabitliyinin olması vacib şərtlərdən biri kimi çıxış edir və müştərilər arasında inamın yüksək səviyyədə saxlanılmasına imkan verir. Ümumilikdə maliyyə sabitliyinin özü vacib bir amildir və bu həm də sığorta şirkətlərinin maliyyə sabitliyinin yüksək olması, onların iqtisadi islahatlarla bağlı proseslərdə fəal iştirakı üçün bir zəmanətdir [3]. Bundan əlavə, sığorta şirkətinin maliyyə sabitliyinin təmin edilməsi üçün onun gəlirlilik səviyyəsi sabit olmalı, gəlir mənbələri diversifikasiyalaşdırılmalıdır. Bu məqsədlə, strateji əhəmiyyət kəsb edən məsələlər diqqət mərkəzində saxlanılmalı və əsas sığorta mexanizmlərinin səmərəliliyi təmin olunmalıdır [4]. Sığorta şirkətlərinin maliyyə dayanıqlılığının təmin edilməsi üçün bir sıra məsələlərə xüsusi önəm verilməlidir, ilk növbədə, ölkədə dövlət orqanları ilə sığorta bazarı iştirakçıları arasında əməkdaşlıq münasibətlərinin yüksəldilməsi və sığorta bazarında sağlam rəqabət mühitinin formalaşdırılması təmin edilməlidir. Dövlət iqtisadi islahatları daha da sürətləndirmək üçün sığorta fəaliyyətinin genişləndirilməsi mühitini formalaşdırmalıdır [5]. Bu məsələlər strateji səviyyədə baxılmalı və adekvat qərarlar verilməlidir. Əsas şərt kimi isə - sığorta şirkətləri özlərinin müştəri dairəsi ilə əlaqələrini və münasibətlərini uzunmüddətli dövrü əhatə edən strateji yanaşmalar səviyyəsinə qaldırmağı təmin etməlidirlər [6]. Digər tərəfdən, ölkədə ümumi maliyyə bazarı komponentləri sırasında sığorta xidmətlərinin rolunun vacibliyi nəzərə alınmaqla, sığorta şirkətlərinin analoji bazarlarda maliyyə sabitliyinin qiymətləndirilməsi aparılmalı və bunun üçün göstəricilər sistemi müəyyənləşdirilməlidir. Sığorta şirkətlərinin maliyyə sabitliyinin təmin edilməsi üçün sığorta xidmətlərinin rəqabətqabiliyyətliliyi yüksəldilməlidir [7]. Bu məqsədlə, sığorta şirkəti strateji maliyyə mexanizmlərinin hazırlanması və maliyyə sabitliyinin təmin edilməsi üzrə ümumi strategiyanın formalaşdırılması həyata keçirilməlidir. İqtisadi islahatlar şəraitində sığorta şirkətləri sığorta bazarında mövcud tendensiyaları, sığorta xidmətlərinin çeşidi və strukturu ilə bağlı məsələləri, sığorta bazarında tələb və təklif arasında proporsional

asılılıq səviyyəsi, bazar iştirakçıları ilə bağlı zəruri informasiyaları təhlil edərək strateji qərarlar verməli və əsaslandırılmış tədbirlər görməlidirlər [8].

Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətlərinin maliyyə mənbələrinin genişləndirilməsi və onların iqtisadi islahatlarda rolunun artırılması problemləri də kifayət qədər aktualdır. Təəssüf ki, iqtisadi islahatlar aparılan fəaliyyət istqamətlərinin heç də hamısında çevik sığorta xidmətlərini təklif etmək mümkün deyildir. Xüsusilə, regionlarda kənd təsərrüfatı məhsullarının yetişdirilməsi, saxlanılması, tədarükü və istehlakçılara çatdırılması proseslərinin bütün mərhələləri üzrə etibarlı sığorta təminatının yaradılması və gücləndirilməsi mexanizmlərinin fəal tətbiqinə zərurət qalmaqdadır. Düzdür, hazırda ölkəmizin sığorta sisteminin təkmilləşdirilməsi üzrə tədbirlər həyata keçirilməkdədir və 2020-ci ilədək olan dövr üçün yeni sığorta strategiyasının tətbiq olunacağı gözlənilir [9]. Amma hələ ki maksimum çevik və etibarlı, cəlbedici sığorta xidmətlərinin göstərilməsi prosesləri təmin edilməmişdir və bunlarla bağlı bir sıra məsələlərə diqqəti yönəltmək istərdik:

- ✓ Ölkədə mövcud sığorta qanunvericiliyi bazası yenilənməli və daha da təkmilləşdirilməldir;
- ✓ İqtisadi islahatların hədəflərinə və prioritetliyinə uyğun şəkildə sığorta xidmətləri paketi hazırlanmalı və fəal şəkildə tətbiq edilməlidir;
- ✓ İqtisadi islahatlar şəraitində təklif edilən sığorta xidmətləri kifayət qədər cəlbedici və əlçatan olmalıdır və s.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016. 59 s.
2. Сенчагов В.К., Губин Б.В. Современные системы развития финансовой системы в условиях глобализации // Современные технологии управления, №3(57), 2015. с. 51-59.
3. Евлахова Ю.С. Определение глобальных системнозначимых финансовых институтов в страховом и фондовом секторах финансового рынка // Журнал «Финансовый журнал», №5, 2015, с.113-119.
4. Писаренко Ж.В., Кузнецова Н.П. Регулирование страховой деятельности. М.: Издательство Юрайт, 2014. 437 с.
5. Куликов С.В. Обеспечение финансовой устойчивости страховой организации: методы и инструментарий. Дисс. канд. экон. наук. Новосибирск, 2003. 176 с.
6. Колесникова Т. В. Взаимосвязь финансовой устойчивости и конкурентоспособности страховой организации / Т. В. Колесникова // Известия Иркутской государственной экономической академии. 2015. № 3.
7. Удинцова Е.С. Роль финансовой стратегии в обеспечении конкурентоспособности страховых компаний. https://moluch.ru.
8. Луконин С.В. Методы оценки и повышения финансовой устойчивости страховых компаний: Дис. канд. экон. наук. М.: 2003. 171 с.
9. 2020-ci ilədək Azərbaycanda sığorta strategiyası tətbiq olunacaq. http://banco.az.


## Резюме


***Ибрагимов К.М.***


**Финансовое обеспечение расширения услуг страхования в условиях экономических реформ**


*В статье исследовано финансовое обеспечение расширения услуг страхования в условиях экономических реформ. С этой целью раскрыта роль и важность услуг страхования в условиях экономических реформ. Обоснована важность финансовой стабильности страховых компаний для эффективной деятельности. Указана необходимость эффективной организации обеспечения потребности в страховых услугах участников экономических реформ. Подготовлены рекомендации и даны предложения по рассматриваемым проблемам.*



**Ключевые слова:** *страховые услуги, страховые организации, страховые услуги в условиях экономических реформ, финансовая стабильность страховых компаний, финансовая обеспеченность расширения страховых услуг.*

**Summary**

***Ibrahimov K.M.***

**Financial Ensuring of Expansion of Services of Insurance in the Conditions of Economic Reforms**

*Financial ensuring of expansion of services of insurance in the conditions of economic reforms is investigated in the article. The role and importance of services of insurance in the conditions of economic reforms is given for this purpose. Importance of financial stability of insurance companies for effective activity is improved too. Need of the effective organization of ensuring need for insurance services for participants of economic reforms is underlined. Recommendations and offers on the considered problems are given in the end of the article.*

***Key words:*** *insurance services, insurance companies, insurance services in the conditions of economic reforms, financial stability of insurance companies, financial ensuring of expansion of insurance services*

## KİÇİK BİZNESİN İNKİŞAFINA MALİYYƏ DƏSTƏYİNİN ZƏRURİLİYİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

***İsmayılova L.F.***

*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Kiçik biznes ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin iqtisadi fəallığın yüksəldilməsində mühüm rol oynayır. Bu sektor həmçinin ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin strateji resursu kimi çıxış edir. Ona görə də kiçik biznesin inkişafına dövlət tərəfindən maliyyə dəstəyinin göstərilməsi son dərəcə vacibdir.*

***Açar sözlər:*** *sahibkarlıq, kiçik biznes, biznes mühiti, kredit riski*

Bazar iqtisadiyyatı şəraitində kiçik biznes elə bir sahədir ki, burada istehsal və sosial funksiyalar, həmçinin məşğulluq, innovasiya və digər bu kimi funksiyalar da yerinə yetirilir. Kiçik biznes sektoru yeni məhsul növlərini daha sürətlə mənimsəyir. Sektorun fərqləndirici xüsusiyyətləri investisiyanın sürətlə mənimsənilməsi qabiliyyəti, kapitalın yüksək dövriyyəliliyi və innovasiya fəaliyyətidir [2].

Bazar münasibətləri şəraitində kiçik biznes əsas strateji resursdur və innovasiyanın müvəffəqiyyətlə tətbiqinə imkan verir. Bu baxımdan qeyd olunan sektora dövlət dəstəyinin göstərilməsi, əlverişli biznes mühitinin yaradılması son dərəcə vacibdir. Biznes mühit müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinə, iqtisadiyyatın davamlı inkişafına təsir göstərir.

Son dövrlərdə respublikamızda biznes mühitinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir, sahibkarlığın inkişafına dövlət dəstəyi gücləndirilir.

Kiçik biznesə maliyyə-kredit dəstəyinin göstərilməsi iqtisadiyyatın tənzimlənməsinin əsas amilidir. Burada dövlətin əsas vəzifəsi maliyyələşdirmənin səmərəli formasından istifadə etmək yolu ilə normativ-hüquqi baza əsasında banklardan və kredit təşkilatlarından kredit alınması üçün kiçik biznes subyektlərinə dəstək göstərməkdir. Belə dövlət dəstəyi kiçik biznes subyektlərinin rəqabət şəraitində öz mövqelərini möhkəmləndirməsinə kömək edə bilər. [3]

Kiçik biznes subyektlərinin müxtəlif maliyyə mənbələrindən istifadə etməsini təmin etmək üçün kompleks maliyyə-kredit mexanizmlərindən istifadə olunur ki, bunlara da güzəştli şərtlərlə kredit verilməsi, vençur maliyyələşdirilməsi, kredit riskinə görə dövlət tərəfindən zəmanət verilməsi və s. aid ola bilər [1].

Vençur maliyyələşdirilməsi kiçik təsərrüfat subyektlərinin fəaliyyəti və inkişafı üçün stimulun yaradılmasına istiqamətlənir. Belə maliyyələşdirmə zamanı kiçik müəssisələrin müəyyən məbləğdə maliyyə vəsaiti alması hesabına onlar inkişaf edir.

Kredit riskinə görə dövlət tərəfindən təminat verilməsi onunla bağlıdır ki, kiçik biznes subyektləri bank və kredit təşkilatlarından kredit almaqla yüksək risklə üzləşirlər. Hazırkı şəraitdə kiçik müəssisələrə maliyyə-kredit dəstəyinin bu forması ən səmərəli forma hesab edilir.

Mikrokreditləşmə sistemi kiçik biznes subyektlərinin, fərdi sahibkarların tələbatlarının ödənilməsinə xidmət edir.

Kiçik biznes subyektlərinə maliyyə-kredit dəstəyinin digər bir forması lizinq mexanizminin tətbiqi ola bilər. Bu mexanizmin tətbiqi kiçik müəssisələrə öz kapitallarını saxlamaqla öz istehsallarının modernləşdirməsini reallaşdırmalarına imkan yaradır. Belə mexanizmdən istifadə kiçik biznesin inkişaf etməsi üçün zəruri olan investisiyanın cəlb edilməsinə səbəb ola bilər.

Kiçik biznesə dövlətin maliyyə dəstəyi birbaşa və dolayı şəkildə ola bilər. Birbaşa maliyyə dəstəyi dövlət tərəfindən kiçik biznesə subsidiya, dotasiya, kreditə görə zəmanət vermək, yeni fəaliyyətə başlayan sahibkarlara qrant ayırmaq kimi tədbirləri aid etmək olar. Dolayı şəkildə göstərilən dəstək kiçik biznes subyektləri tərəfindən kapitalın toplanması, investisiya cəlb etmək üçün əlverişli mühit yaratmaq və s. nəzərdə tutur [2].

Qeyd olunduğu kimi, son illərdə ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması, sahibkarlığın, xüsusilə də kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi istiqamətində mühüm işlər görülür. Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarında və ölkə iqtisadiyyatının inkişafı üzrə strateji yol xəritələrində qeyd olunan məsələlər prioritet istiqamət kimi göstərilir.

Azərbaycanda kiçik biznesə dövlət dəstəyi müxtəlif istiqamətlərdə həyata keçirilir ki, bunlara da Sahibkarlığa Kömək Milli Fondu tərəfindən sahibkarlara güzəştli kreditlərin verilməsi, aqrar sahədə çalışan sahibkarları və kəndli fermer təsərrüfatlarını torpaq vergisindən başqa bütün vergi növlərindən azadetmə, kiçik biznes subyektlərinə sadələşdirilmiş vergi sisteminin tətbiqi aid ola bilər.

Dünyanın bir çox qabaqcıl ölkələrində kiçik və orta biznesi inkişaf etdirmək üçün klasterli yanaşmaya əsaslanan innovasiyalı inkişafın səmərəli mexanizmlərindən istifadə edilir. Ölkəmizin xüsusilə qeyri-neft sektorunda klasterli yanaşma əsasında kiçik sahibkarlığın və biznes fəaliyyətinin genişləndirilməsi regional və sahəvi inkişaf problemlərini həll etməyə, ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə müsbət təsir göstərə bilər.

Ölkəmizdə iri və kiçik sahibkarlığın qarşılıqlı fəaliyyət formalarının geniş şəbəkəsinin daha sürətli inkişafı məqsədilə səmərəli dövlət tənzimlənməsi sisteminin formalaşdırılması zəruridir. Bu sistem özündə aşağıdakı məsələləri birləşdirə bilər: uyğun normativ-hüquqi bazanın və qarşılıqlı faydalılığa əsaslanan əməkdaşlıq formalarının qeydiyyatının şəffaf sisteminin formalaşdırılması, françayzinq, subkontraktinq və outsorsinq fəaliyyətini həyata keçirərkən inzibati maneələrin azaldılması, bu modellərin dövlət dəstəklənməsi sisteminin yaradılması, onların maliyyə və kredit mənbələrinə əlçatanlığının təmin edilməsi, mühasibat uçotu və vergi qoyma sisteminin sadələşdirilməsi və s.

### Ədəbiyyat


1. Azərbaycan iqtisadiyyatının Strateji Yol Xəritəsi: Hesabatlılıq və şəffaflıq problemləri. Beynəlxalq elmi-praktik konfransının materialları. Bakı, 2018, 540 s.
2. Abbasov A.B. Sahibkarlıq fəaliyyəti: növləri, təşəkkülü və inkişaf problemləri. Bakı, 2018, 323 s.
3. Niftullayev V.M. Sahibkarlığın əsasları. Bakı, 2012, 618 s.


### Резюме


***Исмаилова Л.Ф.***


**Необходимость финансовой поддержки развития малого бизнеса и задачи ее совершенствования**


*Малый бизнес играет важную роль в повышении конкурентоспособности экономики страны, обеспечении занятости и повышении экономической активности. А также этот сектор выступает как стратегический ресурс обеспечения экономической безопасности страны. Поэтому очень важно создания финансовой поддержки со стороны государства развитию малого бизнеса.*



***Ключевые слова:*** *предпринимательство, малый бизнес, среда бизнеса, кредитный риск*


### Summary


**Ismailova L.F.**


**The Need for Financial Support for the Development of Small Businessand the Task of its Improvement**


*Small business plays an important role in improving the competitiveness of the economy, providing employment and increasing economic activity. And also this sector acts as a strategic resource for ensuring the economic security of the country. Therefore, it is very important indications of financial support from the state for the development of small business.*



***Key words:*** *entrepreneurship, small business, business environment, credit risk*

# AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORU MÜƏSSİSƏLƏRİNİN MALİYYƏ TƏMİNATININ GÜCLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

***Kazımova Ə.X.***
*UNEC*

***Xülasə.*** *Məqalədə Azərbaycanda qeyri-neft sektoru müəssisələrinin maliyyə təminatının gücləndirilməsi məsələləri tədqiq olunmuşdur. Bu məqsədlə qeyri-neft sektoru sahələrinin milli iqtisadiyyatın inkişafında rolu təhlil olunmuşdur. Qeyri-neft sektoru sahələrinin iqtisadiyyatın neftdən asılılığının azaldılmasında əhəmiyyəti açıqlanmışdır. Qeyri-neft sektoru müəssisələrinin səmərəli fəaliyyəti üçün maliyyə təminatı mexanizmlərinin təkmilləşdirilməsi problemləri araşdırılmışdır. Bu kateqoriyadan olan müəssisələrin sərfəli maliyyə-kredit resurslarına əlçatanlığının təmin edilməsinin vacibliyi əsaslandırılmışdır. Maliyyə təminatının gücləndirilməsi üzrə mövcud mexanizmlərin təkmilləşdirilməsi məsələlərinin aktuallığı bildirilmişdir. Daha çevik və səmərəli maliyyə təminatı mexanizmlərinin hazırlanması və tətbiq edilməsinin əhəmiyyətini şərtləndirən amillər verilmişdir. Yaxın perspektivdə Azərbaycanda qeyri-neft sektoru müəssisələrinin maliyyə təminatının gücləndirilməsi istiqamətləri üzrə tövsiyələr hazırlanmış və təkliflər irəli sürülmüşdür.*

***Açar sözlər:*** *qeyri-neft sektoru, qeyri-neft sektoru müəssisələri, qeyri-neft sektoru müəssisələrinin maliyyə problemləri, qeyri-neft sektoru sahələrinin milli iqtisadiyyatda rolu, qeyri-neft sektoru sahələrinin maliyyə mexanizmləri, qeyri-neft sektoru müəssisələrinin maliyyə təminatının gücləndirilməsi istiqamətləri*

Ölkə iqtisadiyyatının diversifikasiyalaşdırılması və yeni əlavə dəyər mənbələrinin formalaşdırılması, ilk növbədə, qeyri-neft təmayüllü iqtisadiyyat sahələrinin inkişafını şərtləndirir. Başqa sözlə, milli iqtisadiyyatın neftdən asılılığının minimuma endirilməsi strateji vəzifələr kimi diqqət çəkir və bunlarla bağlı hədəflər hazırda reallaşdırılan strateji yol xəritələrində öz əksini tapmışdır [1]. Digər tərəfdən, ölkədə maliyyə sabitliyinin təmin edilməsi və maliyyə mənbələrinin, maliyyə xidmətlərinin genişləndirilməsi məqsədilə xüsusi olaraq "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi" işlənib hazırlanmış və ölkə Prezidentinin 06 dekabr 2016-cı il Fərmanı ilə təsdiq olunmuşdur [2]. Maliyyə xidmətlərinin və maliyyə mənbələrinin genişləndirilməsində qeyri-neft sektoru sahələrinin inkişafının sürətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu sahələrdə emal təyinatlı istehsalın və xidmət şəbəkəsinin formalaşdırılması, xüsusilə sənayedə emalla bağlı istehsal sahələrinin yüksək texnologiyalar əsasında inkişaf etdirilməsi hesabına məhsuldar nəticələrin əldə edilməsi mümkündür. Qeyri-neft sektoru sahələrinin əlavə dəyər formalaşdıran istiqamətlərinin inkişaf etdirilməsi vergiqoyma bazalarının genişləndirilməsinə, yeni xidmət sahələrinin yaradılmasına, maliyyə bazarlarının inkişaf etməsinə, kredit və investisiya resurslarına tələbatın artmasına, həmçinin ümumilikdə ölkədə iqtisadi fəallığın yüksəldilməsinə əlavə stimullar verir. Eyni zamanda əlavə dəyərin yaradılması və bu istiqamətdə yeni mənbələrin formalaşdırılması hesabına maliyyə mənbələrinin müəyyənləşdirilməsinə və maliyyə ehtiyatları üçün zəmin yaradılmasına daha münbit şərait yaranır. Xüsusilə aqrar sahənin potensialından məhsuldar istifadə etməklə, qeyri-neft sektorunun inkişafını daha da sürətləndirmək mümkündür [3; 4]. İqtisadiyyatın neftdən asılılığının azaldılması ilə bağlı konseptual yanaşmalar nöqteyi-nəzərindən, qeyri-neft sənaye sahələrinin inkişafına daha geniş yer verilməlidir [5]. Qeyri-neft sektorunun yüksək texnologiyalar və müasir idarəetmə metodları əsasında inkişafı da diqqət mərkəzində saxlanılmalıdır [6]. Bu sektorun inkişaf aspektləri və maliyyə təminatı mexanizmləri də mütləq şəkildə yenilənməli, davamlı və tarazlı inkişaf prinsiplərinə uyğun şəkildə təkmilləşdirilməlidir [7;8].

Bütün bunlar qeyri-neft sektoru müəssisələrinin fəaliyyətinin gücləndirilməsini şərtləndirir və bunlar sırasında maliyyə təminatı əsas yerlərdən birini tutur. Belə ki, müəssisələrin maliyyə təminatı strategiyasının formalaşdırılması və maliyyə resurslarına, o cümlədən sərfəli kredit resurslarına əlçatanlığının təmin olunması nəticəsində, həmin müəssisələrin fəaliyyətinin daha yüksək səmərəliliyinə nail olmaq mümkündür. Bunlar isə öz növbəsində, ölkə iqtisadiyyatının artımına əlavə mənbələr deməkdir. 2018-ci il üzrə Azərbaycanda qeyri-neft sektorunun inkişafının təhlilinə nəzər salsaq, görmək olar ki, il ərzində bu sektorda 46,7 mlrd. manata yaxın əlavə dəyər yaradılmışdır, bu göstərici 2017-ci illə nisbətdə 1,8 % artım təşkil etmişdir. 2018-ci ildə ölkə ÜDM-də qeyri-neft sektorunun əlavə dəyər üzrə payı 58,5 % olmuşdur[9].

Qeyd edək ki, qeyri-neft sektoru müəssisələrinin və subyektlərinin fəaliyyətinin maliyyə təminatının gücləndirilməsi məsələləri də diqqət mərkəzində saxlanılır və dövlət tərəfindən bu istiqamətlərdə müxtəlif dəstək mexanizmləri mövcuddur. Son 3 il ərzində - 2016-2018-ci illərdə ölkədə 292 sahibkarlıq subyekti üzrə 333 investisiya layihəsinin reallaşdırılması istiqamətində işlər aparılmışdır və bu layihələr çərçivəsində yerli istehsala yönəldilən investisiyaların həcminin 2,8 mlrd. manata yaxın olacağı gözlənilir. Bundan əlavə, Sahibkarlığın İnkişafı Fondu tərəfindən 2018-ci ildə sahibkarlıq subyektlinə 160 mln. manat güzəştli kredit

ayrılmışdır və bu kreditlərin 70,4 %-i aqrar sektorun payına düşmüş, verilmiş kreditlərin isə 64,3 %-i regionlarda yerləşən sahibkarlıq subyektlərinə verilmişdir. Lakin maliyyə resurslarına olan tələbat adekvat olaraq ödənilmir. Regionlarda qeyri-neft sektoru sahələrinin inkişafının təmin edilməsi və bu sektorda fəaliyyət göstərən müəssisələrin maliyyə resurslarına təminatının gücləndirilməsi problemləri aktual olaraq qalmaqdadır [10;11].Artıq regionlarda müasir müəssisələr şəbəkəsi yaradılır, 50-yə yaxın aqroparkın təşkili gözlənilir, sənaye məhəlləri yaradılır. Ölkənin iri şəhərlərində isə texnoparklar, sənaye parkları və yüksək texnologiyalar parkları şəbəkəsi genişlənməkdədir.

Müasir dövrdə maliyyə mexanizmlərinin daha da təkmilləşdirilməsini və xüsusilə qeyri-neft sektoru müəssisələrinin maliyyə təminatının gücləndirilməsi ilə bağlı daha təsirli tədbirlərin görülməsi tələb olunur:

- ölkə iqtisadiyyatında qeyri-neft sektorunun strateji əhəmiyyətinə adekvat şəkildə, bu sektorun müəssisələrinin maliyyə təminatı mexanizmlərinin hazırlanması və təkmilləşdirilməsi tədbirləri görülməlidir;
- ölkədə qeyri-neft sektoru müəssisələrinin maliyyə-kredit resurslarına daimi rejimdə əlçatanlığının təmin edilməsi potensialı formalaşdırılmalı və real fəaliyyət mexanizmləri tətbiq edilməlidir və s.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

2. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

3. Səmədzadə Z.Ə. Azərbaycan aqrar-sənaye kompleksi gücləndirməlidir - http://www.biznesinfo.az/news/economy/params/ln/az/article/87475.

4. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). Bakı: Kooperasiya nəşriyyatı, 2017, 536 s.

5. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt, 2018, 376 s.

6. Şəkərəliyev A., Şəkərəliyev Q. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı: Turxan, 2016, 536 s.

7. Nuriyev Ə.X. Davamlı və tarazlı regional inkişaf. Bakı: Avrora, 2013, 442 s.

8. Nuriyev Ə.X. Regional idarəetmənin əsasları. Bakı: Elm, 2007, 424 s.

9. 2018-ci il üzrə qeyri-neft sektorunun inkişafı. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi. https://www.economy.gov.az/

10. Regionların sosial-iqtisadi inkişafı (2014-2018). Statistik məcmuə. Bakı, 2018, 700 s.

11. Kənd təsərrüfatı müəssisələrinin və fərdi sahibkar təsərrüfatlarının əsas iqtisadi göstəriciləri. Statistik məcmuə. Bakı, 2018, 330 s.

## Резюме

***Казимова А.Х.***

**Вопросы усиления финансовой обеспеченности предприятий сферы ненефтяного сектора в Азербайджане**

*В статье исследованы вопросы усиления финансовой обеспеченности предприятий сферы ненефтяного сектора в Азербайджане. С этой целью анализирована роль сферы ненефтяного сектора в развитии национальной экономики. Раскрыта важность сферы ненефтяного сектора в уменьшении зависимости экономики страны от нефти. Анализированы проблемы совершенствования механизмов финансовой обеспеченности для эффективной деятельности предприятий ненефтяного сектора. Отмечена актуальность вопросов совершенствования существующих механизмов по усилению финансовой обеспеченности. Даны факторы, обуславливающие важность разработки и применения более оперативных и эффективных механизмов финансовой обеспеченности. Подготовлены рекомендации и даны предложения по направлениям усиления финансовой обеспеченности предприятий ненефтяного сектора Азербайджана на ближайшую перспективу.*

***Ключевые слова:*** *ненефтяной сектор, предприятия ненефтяного сектора, финансовые проблемы предприятий ненефтяного сектора, роль сферы ненефтяного сектора национальной экономики, финансовые механизмы сферы ненефтяного сектора, направления усиления финансовой обеспеченности предприятий ненефтяного сектора*

**Summary**

***Kazimova A.Kh.***

**Issues of Enhancing the Financial Ensuring of Enterprises in the Non-Oil Sector in Azerbaijan**

*Issues of enhancing the financial ensuring of enterprises in the non-oil sector in Azerbaijan are investigated in the article. The role of the non-oil sector in the development of the national economy is analyzed for this purpose. The importance of the non-oil sector in reducing the dependence of the country's economy on oil is given too.The problems of improving the mechanisms of financial security for the effective operation of non-oil enterprises are analyzed then. The urgency of the issues of improving the existing mechanisms to enhance financial security is noted.The factors that determine the importance of developing and applying more expeditious and effective financial ensuring mechanisms are given. Recommendations and proposals on how to strengthen the financial ensuring of enterprises in the non-oil sector of Azerbaijan in the near future are made in the end of the article.*

***Key words:*** *non-oil sector, enterprises of the non-oil sector, financial problems of non-oil enterprises, the role of the non-oil sector of the national economy, financial mechanisms of the non-oil sector, ways to strengthen the financial security of non-oil enterprises*

## ELMİ İNNOVASİYALAR VƏ ONLARIN MALİYYƏLƏŞDİRİLMƏSİNDƏ DÖVLƏT BÜDCƏSİNİN ROLU

***Kərimov İ.Ə.***

*Baku Services Company*

***Xülasə.*** *Məqalədə elmi innovasiyanın tərkib elementlərinə baxılmışdır. İnkişaf etmiş ölkələrin fundamental nəzəri araşdırmalara və axtarış xarakterli elmi-tədqiqat işlərinə ayırdığı diqqət nəzərdən keçirilmişdir. Azərbaycanda dövlət büdcəsindən elmə, tədqiqat və işləmələrə çəkilən xərclər təhlil edilmişdir. Ali təhsil sisteminin innovasiyalı inkişafının zəruriliyi və bu sahədə görüləcək tədbirlər araşdırılmışdır.*

***Açar sözlər:*** *innovasiya, təhsil, elm, elmi-tədqiqat işləri, dövlət büdcəsi, insan*

İnnovasiya prosesi müxtəlif resursların istehsal fəaliyyətinə cəlb edilməsilə bağlıdır. Əsas resurslar yeni məhsul istehsalının geniş miqyasda mənimsənilməsi ilə əlaqədar olan tədqiqatlar və araşdırmalar aparılması, layihə-texnoloji və başqa işlərin yerinə yetirilməsi üçün investisiyalar və vaxt sərf olunur. Bütövlükdə innovasiya fəaliyyəti sisteminə elm, texnologiya, iqtisadiyyat və təhsil kimi tərkib hissələri daxildir.Bütövlükdə innovasiya fəaliyyəti sistemində nəzərdən keçirilən komponentlərin içərisində ən əsas ünsür insandır. Məqsədlərin, ideallarin və maraqların dəyişməsi ictimai istehsalda hökmranlıq edən texnoloji uklada adekvat olan yeni dəyərlərin inkişafına şərait yaradır. Buna görə də elmin inkişafının bir mərhələsinə xas olan dəyərlər başqa, daha mütərəqqi mərhələdə öz əhəmiyyətini itirə bilər.

Müasir dövrdə fundamental nəzəri araşdırmaların və axtarış xarakterli elmi-texniki tərəqqinin nəticələri əsasında alınan intellektual məhsullar olmadan yüksək elmtutumlu və yeniliyi ilə seçilən rəqabətqabiliyyətli məhsulların yaradılması praktiki olaraq qeyri-mümkündür. Sənaye cəhətdən inkişaf etmiş bütün ölkələrdə ictimai istehsalın son məhsulunun intellektual tərkib hissəsinin artırılmasına yönəldilmiş innovasiya fəaliyyətinin inkişafına böyük əhəmiyyət verilir. Ona görə də tətbiqi ETİ və təcrübi-konstruktor işlərinin və eləcə də layihə-texnoloji işlərin yerinə yetirilməsi elmi biliklərdən daha dolğun istifadə edilməsinə əsaslanır, bu isə yeni məhsulun yüksək rəqabət qabiliyyətini təmin edir.

Dünyada iqtisadi artımın mühüm amili hesab olunan təhsil əhalinin məşğulluğunun və həyat səviyyəsinin yüksəldilməsində, işsizliyin və yoxsulluğunun azaldılmasında, sosial təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır. Aparılan tədqiqatlar göstərir ki, təhsilin dərəcələri artdıqca məşğulluğun təmin olunması imkanları genişlənir, pul gəlirləri artır, əhalinin həyat səviyyəsi yüksəlir və yoxsulluq azalır. Bazar iqtisadiyyatı şəraitində normal yaşamaq yalnız mövcud olan əmək qabiliyyətli əhalinin tam və səmərəli məşğulluğuna nail olunmasından və bu isə ilk növbədə, vətəndaşların ümumi inkişaf səviyyəsinin, intellektual potensialının, peşə ixtisas dərəcəsinin və təhsil səviyyəsinin artırılmasından asılıdır [1, səh.44].

Azərbaycanda son illər dövlət büdcəsindən elmin maliyyələşdirilməsinə çəkilən xərclər azalsa da, tədqiqat və işləmələrin maliyyələşdirilməsinə çəkilən daxili xərclər isə artmışdır. Bunu aşağıdakı cədvəl məlumatlarından daha aydın görmək mümkündür.

**Cədvəl 1.**

**Dövlət büdcəsindən elmə çəkilən xərclər[3]**

| | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| Dövlət büdcəsindən elmə çəkilən xərclər, milyon manatla | 117,0 | 124,2 | 113,2 | 110,2 | 109,8 |
| Ümumi daxili məhsula nisbətən, faizlə | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,2 |
| Dövlət büdcəsinin xərclərinə nisbətən, faizlə | 0,6 | 0,7 | 0,6 | 0,6 | 0,6 |
| Tədqiqat və işləmələrə çəkilən daxili xərclər, milyon manatla | 122 | 123,8 | 120,9 | 124,7 | 129,9 |
| Ümumi daxili məhsula nisbətən, faizlə | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,2 |
| Tədqiqat və işləmələrdə istifadə olunan əsas vəsaitlər, milyon manat | 107,2 | 122,2 | 114,2 | 129,5 | 157,4 |

***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı, 2018*

Cədvəl 1-in məlumatlarından göründüyü kimi, dövlət büdcəsindən elmə çəkilən xərclər 2017-ci ildə 109,8 milyon manat təşkil etmişdir ki, bu da büdcə xərclərində 6%-lik xüsusi çəkiyə malik olmuşdur. 2016-cı illə müqayisədə elmin maliyyələşdirilməsinə çəkilən xərclər 0,4 milyon manat və yaxud 0,4% azalmışdır. Lakin tədqiqat və işləmələrə maliyyələşdirilməsinə çəkilən daxili xərclər isə 5,2 milyon manat və yaxud 4,2% artmışdır.

Tədqiqat və işləmələrin maliyyələşdirilməsinə çəkilən ümumi xərclər 132340,0 min manat təşkil etmişdir ki, bu da 2016-cı illə müqayisədə 3050,2 min manat və yaxud 2,4% artmışdır. 2017-ci ildə tədqiqat və işləmələrin maliyyələşdirilməsinə çəkilən ümumi xərclərin tərkibində daxili xərclərin xüsusi çəkisi 98,1% təşkil etmişdir.

**Cədvəl 2**

**Tədqiqat və işləmələrə çəkilən ümumi xərclər[3]**

| | **2013** | **2014** | **2015** | **2016** | **2017** |
|---|---|---|---|---|---|
| **Tədqiqat və işləmələrə çəkilən ümumi xərclər - cəmi, min manat** | **125987,8** | **128647,4** | **123230,4** | **129289,8** | **132340,0** |
| O cümlədən: | | | | | |
| tədqiqat və işləmələrə çəkilən daxili xərclər | 121968,0 | 123804,4 | 120943,6 | 124721,3 | 129871,8 |
| onlardan: | | | | | |
| tədqiqat və işləmələrə çəkilən daxili cari xərclər | 116976,3 | 118465,9 | 118643,3 | 120782,3 | 127997,0 |
| tədqiqat və işləmələrə çəkilən əsaslı xərclər | 4991,7 | 5338,1 | 2300,3 | 3939,0 | 1874,8 |
| tədqiqat və işləmələrə çəkilən xarici xərclər | 4019,8 | 4843,4 | 2286,8 | 4568,5 | 2468,2 |

***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı, 2018*

Elm, təhsil, səhiyyə və mədəniyyət xərcləri 2018-ci ilin dövlət büdcəsində "Elm" köməkçi bölməsi üzrə 128060,2 min manat vəsait ayrılmışdır ki, bu da 2016-cı ilin icra göstəricisindən 17812,0 min manat və ya 16,2%, 2017-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 9514,7 min 136 manat və ya 8,0% çoxdur. 2018-ci il dövlət büdcəsi xərclərində elmlə bağlı xərclərin xüsusi çəkisi 2016-cı ilin müvafiq göstəricisinə bərabər və 2017-ci ilin müvafiq göstəricisindən 0,1% bəndi az olmaqla 0,6% səviyyəsində olmuşdur. Elm xərclərinin 119034,2 min manatının və ya 93,0%-nin "Fundamental elm"ə, 9025,9 min manatının və ya 7,0%-nin isə "Ümumdövlət xidmətləri üzrə tətbiqi tədqiqatlar"a yönəldilib.

İnkişaf etmiş ölkələrin təcrübəsi sübut edir ki, yüksək keyfiyyətli təhsilə malik olmadan əsaslı iqtisadi yüksəlişə nail olmaq mümkün deyildir. Məlumat üçün bildirək ki, Dünya Bankının 192 ölkədə apardığı tədqiqatların nəticələri, dünya iqtisadiyyatında baş verən artımın 16%-nin fiziki kapital, 20%-nin təbii resurslar, 64%-nin isə insan kapitalı hesabına baş verdiyini göstərir. Buna görə də inkişaf etmiş ölkələr hətta iqtisadi böhran şəraitində belə təhsil və elmə ayrılan vəsaitləri nəinki azaltmırlar, əksinə artırırlar. Təsadüfi deyildir ki, dünyanı bürüyən iqtisadi böhran, maliyyə qıtlığı şəraitində Fransa, Almaniya kimi ölkələr elm və təhsilin inkişafına büdcədən əlavə olaraq 20-25 milyard avro vəsait ayırmışlar. Mütəxəssislərin fikrincə iqtisadi müstəqilliyini təmin etmək istəyən hər bir ölkənin siyasi varlığı və iqtisadi dəyanətliliyi, milli iqtisadiyyatının formalaşması, onun kəmiyyət və keyfiyyətcə daha da artırılması hər

şeydən əvvəl, ümumi bəşəri dəyərlərlə zənginləşdirilmiş yeni, xüsusilə də ali təhsil sisteminin təşkilindən və onun fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsindən xeyli asılıdır.

**Ədəbiyyat**


1. Əhmədov M.A., Hüseyn A.C. İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2011, 120 s.
2. Əliyev Ş.T. Xüsusi iqtisadi zonaların təşkili problemləri və inkişaf perspektivləri. Bakı: Elm, 2008, 252 s.
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı: 2018, 822 s.


**Резюме**


***Каримов И.А.***

**Научные инновации и роль государственного бюджета в их финансировании**

*В статье рассмотрены составные элементы научных инноваций, фундаментальные научные исследования развитых стран. Анализируются затраты государственного бюджета Азербайджана на науку исследования и разработки. Исследуется необходимость инновационного развития системы высшего образования и мероприятия, которые будут реализованы в этой отрасли.*

***Ключевые слова:*** *инновации, образование, наука, научные исследования, государственный бюджет, человек*


**Summary**


***Karimov I.A***

**Scientific Innovations and the Role of the State Budget in their Financing**

*The article describes the constituent elements of scientific innovation, the fundamental scientific research of developed countries. The expenses of the state budget of Azerbaijan for science research and development are analyzed. The need for innovative development of the higher education system and measures that will be implemented in this industry are explored.*

***Key words:*** *innovation, education, science, research, state budget, human*


## İNNOVASİYA YÖNÜMLÜ VERGİ MEXANİZMLƏRİNİN XÜSUSİYYƏTLƏRİ


***Qarayev İ.***

*Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzi*



***Xülasə.*** *Məqalədə innovasiyayönümlü sahələrin inkişafina təsir edən iqtisadi mexanizmlərin araşdırılması məsələlərinə baxılmışdır. İnnovasiyaların tətbiqi prosesində vergi mexanizmlərinin xüsusiyyətlərinin araşdırılmasına xüsusi yer verilmişdir. Müxtəlif ölkələrdə tətbiq edilən mexanizmlərin Azərbaycan iqtisadiyyatında tətbiqi məsələlərinə baxılmışdır. İnnovasiya yönümlü vergi siyasətinin müxtəlif istiqamətlərinə və təsir mexanizmlərinə baxılmışdır.*



***Açar sözlər****: innovasiya, davamlı inkişaf, vergi siyasəti, vergi güzəştləri*


Müasir dövrdə Azərbaycan iqtisadiyyatı qarşısında duran ən mühüm problemlərdən biri real sektorun innovasiyayönümlü inkişafını stimullaşdırmaqdan ibarətdir. Bu siyasətin həyata keçirilməsində dövlətin rolu biznesin maraqları ilə cəmiyyətin ictimai maraqlarının balanslaşdırılmasından ibarətdir. İqtisadiyyatın davamlı inkişafının təmin edilməsində ənənəvi qeyr-neft sektorunun inkişafı ilə yanaşı innovasiya xarakterli, elmi tutumlu sahələrin inkişafı xüsusi əhəmiyyət kəsb edir [3,4,5]. Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi sübut edir ki, məhz səmərəli vergi mexanizmlərinin tətbiqi nəticəsində innovasiya yönümlü müasir iqtisadiyyat yaratmaq mümkün olmuşdur. Məhz elmi cəhətdən əsaslandırılmış və praktiki təcrübədən keçmiş vergi mexanizmlərinin tətbiqi nəticəsində mineral təbii ehtiyatları, demək olar ki, olmayan Yaponiya, Cənubi Koreya və digər bir sıra ölkələr iqtisadi cəhətdən güclü, innovasiya baxımından isə dünyanın lider ölkələrinə çevrilmişlər. Bu ölkələrin təcrübəsi sübut edir ki, innovasiyayönümlü vergi siyasəti aşağıdakı istiqamətləri əhatə etməlidir:

- innovasiya sahəsində çəkilən xərclərə vergi güzəştlərinin tətbiqi;
- yeni texnologiyaların tətbiqinin iqtisadi cəhətdən stimullaşdırılması;

- elmi tədqiqat məqsədləri üçün alınan avadanlıqlara sürətləndirilmiş amortizasiya ayırmalarının tətbiqi;

- elmi-texniki tədqiqatlar üçün vergi güzəştlərinin tətbiqi.

Azərbaycan vergi yükünün aşağı salınması, vergi menecmentinin müasirləşdirilməsi, vergi xidmətində informasiya texnologiyalarının tətbiqi və genişləndirilməsi istiqamətində çox ciddi nailiyyətlər əldə edilmişdir. Səmərəli nəzarət mexanizmləri qurulmuş, iqtisadiyyatın inkişaf meyillərinə uyğun olaraq, çevik vergi sisteminin qurulmasına nail olunmuşdur. İnnovasiya yönümlü sahələrin inkişafının stimullaşdırılması ilə bağlı müxtəlif xarakterli vergi güzəştləri nəzərdə tutulmuşdur. Bəzi ölkələrdə vergi güzəştləri ilə yanaşı, vergi tətillərinin elan edilməsi də tətbiq edilir. Azərbaycan iqtisadiyyatının inkişafının müasir mərhələsində innovasiya yönümlü klasterlərin yaradılması imperativ xarakter daşıyır. Bu, bir tərəfdən iqtisadiyyatın neft sektorundan asılılığını zəiflədir, digər tərəfdən isə davamlı iqtisadi inkişafın təmin edilməsinə zəmin yaradır.

Son zamanlar vergi siyasəti sahəsində həyata keçirilən islahatların əsas istiqamətlərindən biri onun stimullaşdırıcı funksiyalarının gücləndirilməsindən ibarətdir. Son dövrdə vergi qanunvericiliyində edilmiş dəyişikliklərə əsasən Vergi Məcəlləsinə innovasiya fəaliyyəti ilə bağlı maddələr daxil edilmişdir. Vergi Məcəlləsinin 13.2.80. maddəsi ilə isə innovativ fəaliyyətlə bağlı olan startap anlayışı verilmişdir. Digər maddədə KOB klaster şirkətinə qoyulan tələblər öz əksini tapmışdır. Bütün bu yeniliklərin əsas məqsədi innovasiyayönümlü kiçik və orta biznes strukturlarının vergi baxımından dəstəklənməsindən ibarətdir. Dünya ölkələrinin iqtisadi inkişaf dinamikası göstərir ki, dövlət tərəfindən innovasiya yönümlü sahələrin, elmi-texniki xarakterli tədqiqatların dəstəklənməsi gələcəkdə həmin ölkələrdə davamlı iqtisadi inkişafın təmin edilməsində əsas rol oynayır.

Elmi tədqiqatların aparılmasına çəkilən xərclər gələcəkdə yüksək gəlirli və rentabelli şirkətlərin yaranmasına şərait yaradır. Bu isə öz növbəsində elmi tutumlu məhsulların istehsalını və ixrac yönümlü iqtisadiyyatın formalaşmasını stimullaşdırır. Lakin Azərbaycanda dövlət büdcəsi tərəfindən çəkilən elm xərcləri digər ölkələrlə müqayisədə xeyli kiçik bir məbləğdir. Cənubi Koreyada elmi-tədqiqat xərcləri ÜDM-in 4,36%-ni təşkil etdiyi halda Azərbaycanda bu xərclər ÜDM-in 0,0017%-ni , dövlət büdcəsinin 0,6%-ni təşkil edir. Cənubi Koreyada tədqiqat sahələrinə tətbiq edilən vergi güzəştləri OECD (İqtisadi inkişaf və əməkdaşlıq Təşkilatı ) ölkələri arasında ilk yerləri tutur. 2017-cı ildə bu sahələrin inkişafı üçün nəzərdə tutulmuş vergi güzəştləri 2,7 trln ton təşkil etmişdir. Cənubi Koreyada çap olunan elmi jurnalların sayı 63000-dir [6] .

İxtiyari o cümlədən innovasiya xarakterli sahələrin inkişafında vergi güzəştlərinin tətbiqinin stimullaşdırıcı funksiyaları ilə yanaşı, vergi inzibatçılığı baxımından çatışmayan cəhətləri də mövcuddur. İqtisadiyyatın qloballaşması, beynəlxalq şirkətlərin müxtəlif vergi dərəcələrinə malik ölkələrdə fəaliyyət göstərməsi vergi güzəştlərindən istifadə etməklə manipulyasiya imkanları yaradır və vergilərdən yayınırlar. Digər tərəfdən, texnologiyaların sürətli inkişafı, hansı xərclərin innovasiya, hansının qeyri-innovasiya yönümlü olmasının müəyyən edilməsində çətinliklər yaradır. Bu isə vergi orqanları üçün əlavə inzibati xərclər əmələ gətirir.

İnnovasiya sahələrinin inkişafının ən səmərəli yolu elmi və innovasiya tutumlu məhsulların qiymətindəki vergi payına təsir edən çevik mexanizmlərin yaradılmasından ibarətdir. İnnovasiya və elmi tutumlu sahələrin iqtisadiyyatın digər sahələrindən fərqləndirən ən əsas xüsusiyyəti onun ixtisaslı elmi kadrlara və mütəxəssislərə olan tələbin yüksək olmasıdır. Ona görə bu müəssisələrdə əmək haqqı fondu kifayət qədər yüksək olmalıdır. Əmək haqqı fondunun yüksək olması isə innovasiya xarakterli müəssisələrdə fərqli stimullaşdırma siyasətinin aparılması zərurətini meydana çıxarır.Bu halda aşağıdakı stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi səmərəli hesab edilə bilər:

innovasiya xarakterli sahələrdə əmək haqqı fondunun yüksək olması nəzərə alınaraq sosial vergilərə fərdi yanaşma;

ölkəyə idxal olunan yüksək texnoloji parametrlərə malik innovasiya xarakterli avadanlıqların əlavə dəyər vergisindən azad edilməsi;

vergilərin stimullaşdırıcı rolunu gücləndirmək məqsədi ilə elmi və innovasiya xarakterli təşkilatlara xüsusi vergi rejimlərinin tətbiq edilməsi.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 164.2 maddəsinə əsasən müasir texnologiyanı təmin edən avadanlıqların idxalı əlavə dəyər vergisindən azad edilə bilər. Bir çox ölkələrdə innovasiya məhsullarının maya dəyərinin aşağı salınması üçün bu məhsulları istehsal edən şirkətlərin əmlak vergisindən azad edilməsi də tətbiq edilir.

İnnovasiya və elmyönümlü sahələrdə xüsusi vergi rejiminin tətbiqi bu sahələrin problemləri nəzərə alınmaqla onun inkişafına stimullaşdırıcı təsir göstərə bilər. Bu tədbirlər innovasiyayönümlü sahələrin

vergiyə cəlb edilməsi məsələlərinə kompleks şəkildə yanaşmaqla vergi inzibatçılığı problemlərinin aradan götürülməsinə şərait yaratmış olar. Lakin eyni zamanda qeyd etmək lazımdır ki, innovasiya sahələrinin inkişafının təmin edilməsində vergi, gömrük siyasəti sahəsində aparılan stimullaşdırıcı tədbirlərlə yanaşı, rəqabətqabiliyyətli mühitin qorunması ilə də bağlı tədbirlər həyata keçirilməlidir. Dünya ölkələrinin iqtisad inkişaf tarixi göstərir ki, davamlı iqtisadi inkişafa nail olmaq üçün elm tutumlu yeni texnologiyalara əsaslanan iqtisadiyyat formalaşmalıdır.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi Bakı 2019, 273 s.
2. Məmmədov F.Ə., Musayev A.F., Sadıqov M.M., Kəlbiyev Y.A., Rzayev Z.H. "Vergilər və vergitutma" dərslik, Bakı 2010, 508 s.
3. Musayev A.F. "Modernləşdirmə və aktiv vergi siyasəti" Azərbaycanın Vergi Jurnalı, 2012, № 6, 71-84 s.
4. A.F. Musayev İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırılması Bakı-2014, 184c.
5. Musayev A.F., Qarayev İ.Ə. (2013). "Transfer qiymətləndirmə və vergitutma bazasının köçürülməsi", Azərbaycanın Vergi Jurnalı, №5, 39-56. s.
6. Korean Taxation / Ministry of Strategy and Finance of Korea. 2018



**Резюме**

**Гараев И.**

**Особенности инновационного регулирования налоговых механизмов**

*В статье рассматриваются механизмы, влияющие на развитие инновационно ориентированных отраслей экономики. Особое место в изучении механизмов налогообложения занимает применение инноваций. В этой статье также была рассмотрена возможность применения экономических инструментов, которые могут быть использованы в экономике Азербайджана.*

***Ключевые слова:*** *инновации, устойчивое развитие, налоговая политика, освобождение от налогов.*

**Summary**

***Garaev I.***

**Features of İnnovative Tax Mechanisms**

*The article focuses on the mechanizms which have impact on development of innovation-oriented sectors of economy. The study of taxation mechanisms play an important role in the application of innovation. Possibility of application of economic tools which could be used in Azerbaijan economy also have been considered in this article.*

***Key words****: innovation, sustainable development, tax policy, tax exemption*


## BİZNES FƏALİYYƏTİNİN MALİYYƏLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ


***Qasımova Z.M.***

*Sumqayıt Dövlət Universiteti*



***Xülasə.*** *Məqalədə biznesfəaliyyətinin maliyyələşdirilməsi mənbələrinə baxılmışdır. Biznesin maliyyə vəziyyəti onun işgüzar fəaliyyətinin və etibarlılığının mühüm xarakteristikası kimi nəzərdən keçirilmişdir. Dövlət Statistika Komitəsinin məlumatları əsasında biznes fəaliyyəti üzrə əsas makroiqtisadi göstəricilər təhlil edilmişdir.*



***Açar sözlər:*** *maliyyə, maliyyə dayanıqlılığı, investisiya, biznes, rəqabət, inkişaf*


Biznesin səmərəli fəaliyyəti ilk növbədə onun maliyyə təminatı ilə şərtlənir. Dünya təcrübəsindənməlum olduğu kimi, biznes fəaliyyətinin formalaşması və inkişafı üçün lazım olan kapitalın əldə olunması həmişə aktual problem olmuşdur. Hər bir sahibkarın iqtisadi fəaliyyəti maliyyə vəsaitinin mövcudluğu ilə bağlıdır. Məhz buna görə də hər bir sahibkarın əsas məqsədi öz maliyyə vəsaitlərinin həcmini artırmaqdır.

Biznes fəaliyyətinin maliyyələşdirilməsi mənbələrinə dövlət vəsaitləri, bankların, investisiya fondlarının və maliyyə bazarının digər iştirakçılarının vəsaitləri aid edilir. Hal-hazırda sahibkarlığın əsas

maliyyə mənbəyi kimi dövlət büdcəsindən sahibkarlığın inkişafına yönəldilmiş vəsaitlər çıxış edir. Məhz bunlara görə dövlətin sahibkarlığa köməyi, onun fəaliyyətinə dəstək üçün büdcədən müəyyən məbləğdə vəsaitinin ayrılması olduqca vacibdir.

Respublikamızda biznes fəaliyyətini inkişaf etdirmək, onların rəqabətqabiliyyətliliyini artırmaq məqsədilə "Azərbaycan - 2020: Gələcəyə Baxış" inkişaf konsepsiyası işlənib hazırlanmışdır. Bu konsepsiyada milli istehsalın rəqabət qabiliyyətinin yüksəldilməsi üçün bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. İqtisadi sistemin rəqabət qabiliyyətinin daha da artırılması məqsədilə tədricən passiv vergi siyasətindən aktiv vergi siyasətinə keçidin təmin edilməsi, ölkənin tədiyə qabiliyyətinin yaxşılaşdırılmasının və iqtisadiyyatın ixraca yönəldilməsinin ayrıca vacib tələbi kimi daha çevik məzənnə siyasətinin həyata keçirilməsi, xalis beynəlxalq investisiya mövqeyi üzrə profisitin qorunması, vergi dərəcələrinin optimallaşdırılması istiqamətində həyata keçiriləcək tədbirlər milli istehsal sahələrinin inkişafı üçün əlverişli mühitin yaradılmasına kömək edəcəkdir [2].

Azad bazar rəqabəti şəraitində müəssisənin fəaliyyət göstərməsi, iflasa uğramaması və böyük maliyyə uğursuzluqlarına düçar olmaması, rəqabətdə liderlik, mənfəətinin maksimumlaşdırılması, onun balansının likvidlik dərəcəsi, mümkün iqtisadi artım templəri, müəssisə fəaliyyətinin yüksək rentabelliyinin təmin olunması və.s fəaliyyətində həlledici rol oynayan bu əlamətlər maliyyə dayanıqlığından bilavasitə asılıdır.

Bu səbəbdən hər bir müəssisənin maliyyə dayanıqlığını öyrənərkən ilk növbədə onun maliyyəsinin idarə edilməsini və maliyyə menecmentini dəqiq araşdırmalıyıq. Maliyyə menecmenti pul dövriyyəsinin, maliyyə ehtiyatlarının formalaşmasının və istifadəsinin idarə olunmasını əhatə edir, elə onun vasitəsilə təsərrüfat subyekti strateji, taktiki və cari məqsədlərinə daha tez nail olur. Müəssisənin maliyyə menecmentini öyərənməkdə başlıca məqsədlər - müəssisənin bazar dəyərini maksimallaşdırmaq; sabit artım templərini təmin etmək; mənfəəti maksimum həddə çatdırmaq; maliyyə sabitliyini qoruyub saxlamaq; əmtəə və xidmətlərin satışı həcmini artırmaq; rəqiblərlə mübarizədə liderlik etmək və. s. bu kimi önəmli məqsədləri əsas tutur [1].

Müəssisənin maliyyə dayanıqlığını öyrənərkən müəssisənin balansının likvidliyini, yəni, müəssisənin aktivlərinin pula çevrilmə imkanının yüksək olmasının maliyyə vəziyyətinə və maliyyə dayanıqlılğına birbaşa və dolayı təsirlərinin müəyyən edilməsi vacib şərtlərdən sayılır. Hesab edirəm ki, bunun öyrənilməsi nəticəsində bir müəssisənin aktivlərinin müəssisəyə nə kimi mənfəət gətirə biləcəyini müəyyən etmək müəssisə üçün önəmli faktorlardandır.

Bütünlükdə, maliyyə vəziyyəti müəssisənin işgüzar fəaliyyətinin və etibarlılığının mühüm xarakteristikasıdır. O, müəssisənin rəqabətə davamlılığını və işgüzar əməkdaşlıqda onun potensialını müəyyən edir, yalnız müəssisənin deyil, eləcə də onun partnyorlarının iqtisadi maraqlarının səmərəli təmin edilməsi üçün təminatdır.

Müasir şəraitdə iqtisadi proseslərin iştirakçılarının müəssisənin maliyyə dayanıqlığının, maliyyə vəziyyətinin və işgüzar aktivliyi haqqında obyektiv və düzgün informasiya əldə edilməsinə marağı daha da artmışdır. Bazar münasibətlərinin bütün subyektləri öz partnyorlarının rəqabətə davamlılığı və etibarlılığının birmənalı qiymətləndirilməsində maraqlıdırlar.

Ölkədə bazar subyektlərinin iqtisadi inkişaf dinamikası bu sahədə həyata keçirilən iqtisadi islahatların uğurlu nəticələrinin əyani təsdiqidir. Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkə iqtisadiyyatında və onun əsasını təşkil edən bazar subyektlərinin inkişafı sahəsində müşahidə edilən pozitiv meyillər özünü göstərməkdə davam edir. Bunu biz aşağıdakı biznes fəaliyyəti subyektlərinin əsas makroiqtisadi gostəricilərinin təhlilindən daha aydın görə bilərik. Təhlil əsasən 2016-2017-ci illər üzrə aparılmışdır.

**Biznes fəaliyyəti üzrə əsas makroiqtisadi göstəricilər [3].**

**Cədvəl. 1**

| | 2016 | | | 2017 | | |
|---|---|---|---|---|---|---|
| | **Cəmi** | **Kiçik** | **Orta** | **Cəmi** | **Kiçik** | **Orta** |
| Yaradılmış əlavə dəyər, milyon manat | 3587,2 | 2928,0 | 659,2 | 3807,6 | 3051,9 | 755,7 |
| İşçilərin orta illik sayı, min nəfər | 281,0 | 100,9 | 180,1 | 290,1 | 101,9 | 188,2 |
| Orta aylıq nominal əmək haqqı, manat | 338,6 | 322,2 | 349,1 | 352,8 | 331,5 | 365,9 |
| Əsas kapitala investisiyalar, milyon manat | 2830,2 | 1828,6 | 1001,6 | 3298,6 | 2064,8 | 1233,8 |
| Məhsul buraxlışı, milyon manat | 5831,2 | 4666,1 | 1165,1 | 6269,6 | 4884,7 | 1384,9 |

2017-ci il ərzində biznesfəaliyyətinin subyektləri tərəfindən yaradılmış əlavə dəyər 3807,6 milyon manat təşkil etmişdir ki, bu da 2016-cı illə müqayisədə 220,4 milyon manat və yaxud 6,1%, işçilərin orta illik sayı 9,1 min nəfər və yaxud 3,2%, əsas kapitala yönəldilən investisiyalar 468,4 milyon manat və yaxud 16,6 %, məhsul buraxılışı isə 438,4 milyon manat və yaxud 7,5% çoxdur. 2017-ci il ərzində yaradılmış əlavə dəyərin 3051,9 milyon manatı və yaxud 80,2%-i kiçik biznesin, 755,7 milyon manatı və yaxud 19,8%-i isə orta biznesin payına düşür. Məhsul buraxılışının isə 4884,7 milyon manatı və yaxud 77,9%-i kiçik biznesin, 1233,8 milyon manatı və yaxud 22,1%-i isə orta biznesin payına düşür. Kiçik biznes üzrə əsas kapitala investisiyalar 2064,8 milyon manat və yaxud 62,6% təşkil etdiyi halda, orta biznes üzrə isə bu göstərici 1233,8 milyon manat və yaxud 37,4% təşkil etmişdir.

Qeyd edək ki, biznes fəaliyyətinin maliyyələşdirilməsinin maliyyə bazarının yaradılması və inkişafı müstəsna əhəmiyyətə malikdir. Maliyyə bazarının köməyilə resurslar səfərbər edilərək investisiyaların maliyyələşdirilməsi və kreditləşdirilməsinə yönəldilir. Məlumdur ki, büdcədən maliyyələşmə ilə müqayisədə bank kreditlərindən istifadə edilməsi daha səmərəlidir. Bu kreditin prinsiplərindən irəli gələrək, həm onun vaxtında qaytarılması, həm əlavə faizlə qaytarılması və ən əsası isə bu vəsaitin düzgün xərclənməsində ciddi bank nəzarətinin mövcudluğundan irəli gəlir.

Dövlətin güzəştli kreditləri hesabına rəqabətqabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən kiçik və orta həcmli qeyri-neft sənaye müəssisələrinin yaradılması respublikanın müxtəlif yeyinti və digər sənaye məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi ilə yanaşı, ölkənin ixrac potensialının artırılmasında mühüm əhəmiyyətə malikdir. Bundan əlavə, müasir texnologiyaların tətbiqinə əsaslan investisiya layihələrinin reallaşdırılması regionlarda məşğulluğun təmin edilməsinə, regionların investisiya cəlbediciliyinin artırılmasına, digər sahələrin inkişafının stimullaşdırılmasına, eləcə də iqtisadiyyatın strukturunun şaxələnməsinə şərait yaradır.

Gələcək illərdə də ölkəmizin biznesin inkişaf etdirilməsi və bu sahədə fəaliyyət göstərən müəssisələrin maddi-texniki bazasının təkmilləşdirilməsi, eləcə də yeni müəssisələrin yaradılması, ölkəmizə xarici investisiyaların cəlb edilməsi və “Azərbaycan-2020” Gələcəyə Baxış inkişaf strategiyasında nəzərdə tutulan məqsədlərə nail olunması üçün zəruri tədbirlərin həyata keçirilməsi istiqamətində işlər davam etdiriləcəkdir.

### Ədəbiyyat


1. Анискин Ю.П. Организация и управление малым бизнесом. Учеб.пособие. Москва.: Финансы и статистика, 2003. 160 с.
2. http://anfes.gov.az/en/ -Sahibkarlığa Kömək Milli Fondunun elektron səhifəsi.
3. www.azstat.org - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin elektron səhifəsi.


### Резюме


***Гасымова З.М.***


**Направления финансирования бизнес-деятельности**


*В статье рассмотрены источники финансирования бизнес-деятельности. Финансовое состояние бизнеса рассматривается как важнейшая характеристика его деловой активности и надежности. Анализированы основные макроэкономические показатели бизнес-деятельности на основе данных Госкомстата.*



***Ключевые слова:*** *финансы, финансовая устойчивость, инвестиции, бизнес, конкуренция, развитие*


### Summary


***Qasimova Z.M.***


**Directions of Financing Business Activities**


*The article considers the sources of financing business activities. The financial condition of a business is regarded as an essential characteristic of its business activity and reliability. The main macroeconomic indicators of business activity are analyzed on the basis of the State Statistics Committee.*



***Key words:****finance, financial sustainability, investment, business, competition, development*

**MALİYYƏ HESABATININ BEYNƏLXALQ STANDARTLARININ MAHİYYƏTİ VƏ AZƏRBAYCANDA TƏTBİQİ XÜSUSİYYƏTLƏRİ**

***Quliyeva Ə.B.***
*UNEC*

***Xülasə.*** *Məqalədə MHBS keçidin nəzəri və praktiki aspektləri araşdırılmışdır. Tədqiqatın obyekti qiymətli kağızlarla aparılan əməliyyatların maliyyə hesabatlarında MHBS tələblərinə əsasən təsnifləşdirilməsi və onların təhlilidir. Hesab olunur ki, tədqiqat işinin nəticələri Azərbaycanda qiymətli kağızlar üzrə uçotun təşkilində beynəlxalq təcrübəyə müvafiq təkmilləşdirilməsi istiqamətində siyasətin reallaşdırılmasında və dövlət tənzimlənməsi metodlarının tətbiqində nəzərə alınması göstərilən sahənin inkişaf etməsinə töhfə verə bilər.*

***Açar sözlər:*** *Maliyyə Hesabatının Beynəlxalq Standartları* **(***MHBS), məcmu kapital, maliyyə alətləri, peşəkar mühasib*

Maliyyə Hesabatının Beynəlxalq Standartları dünyanın müxtəlif ölkələrində tətbiq edilən uçot metodlarının və hesabatlarının harmonizasiyasıdır. Harmonizasiya olunmuş maliyyə hesabatları standartları, müasir inkişaf mərhələsində, mahiyyət etibarı ilə daha geniş investisiya seçimi üçün platforma, daha səmərəli kapital bazarı, daha aşağı kapital məsrəfləri və daha yüksək işgüzar inkişafın təmin edilməsi amilidir.

Maliyyə Hesabatının Beynəlxalq Standartlarının (bundan sonra MHBS) tətbiqi müəsisələrin beynəlxalq səviyyədə aparılan əməkdaşlıqda etibarlılığını artırmaqla yanaşı, xarici partnyorların cəlb edilməsinə və biznesin inkişafının güclənməsinə göməklik edir,uçot göstəricilərinin düşgün əks olunmasının və qaydalarına riayət olmasını tələb edir [1].

Mühasibat uçotu idarəetmə qərarlarının hazırlanmasında vahid informasiya bazası olmaqla yanaşı nəinki milli informasiya tələbini, eyni zamanda xarici istifadəçilərin də tələbini ödəməlidir.

Dünya iqtisadiyyatının qloballaşmasının tərkib hissəsi kimi kapital bazarının qloballaşması bu gün ümumi qəbul edilmiş prinsiplər və uçot qaydaları əsasında hazırlanmış maliyyə hesabatlarına ehtiyac yaradır. Bu gün dünya ölkələrinin səhmdarları və kreditorları maliyyə resurslarını digər ölkələrin biznesində yerləşdirərkən həmin şirkətin maliyyə vəziyyəti haqqında etibarlı məlumata sahib olmaqistəyirlər.

Formal olaraq, MHBS-nın tətbiqi məcburi bir proses olmayaraq, tövsiyə xarakteri daşıyır. Bəzi dünya ölkələri MHBS qəbul edilmiş ümumi qaydalarını və prinsiplərini dəyişdirməyərək olduğu kimi tətbiq edirlər. Bəzi ölkələr isə bu qəbul edilmiş standartları öz milli qanunvericiliyinə uyğun olaraq onlara dəyişikliklə edərək tətbiq edirlər [2].

MHBS fondu açıqlama vermişdir ki, bu gün dünyanın 140 ölkəsi MHBS tanıyır və qəbul edir (ya milliləşdirir, ya tətbiqi məcburidir, ya tövsiyyə edilir)

Qeyd etmək lazımdır ki, MHBS əsas istiqamətlərindən biri qrup təşkilatlarının konsalidasiya olunmuş maliyyə hesabatlarının hazırlanmasına yönəldilmişdir. XXəsrin ortalarından başlayaraq etibarlı maliyyə məlumatlarının əldə edilməsi məqsədi ilə milli mühasibat uçotu və hesabatı qaydalarının vahid prinsiplər əsasında ümumiləşdirilməsi prosesi başlamışdır. Beynəlxalq professional mühasiblər və auditlər birliyi mühasibat uçotu və hesabatının harmonizasiyası və standartlaşması istiqamətində iş aparırlar. Harmonizasiyanın əsas istiqamətlərindən biri də özündə müxtəlif ölkələrin maliyyə hesabatlarının hazırlanmasını və uçot qaydalarını mərhələlərlə bir birlərinə yaxınlaşdırılmasıdır [3].

Bu gün dünyada MHBS tətbiqi və inkişaf etdirilməsi üçün təbliğatlar aparılsa da bütün dünya ölkələridə tam istəyə nail olunmamışdır. Buna səbəb müxtəlifölkələrinin iqtisadi inkişafının müxtəlifliyi, milli uçot qaydalarının üstün tutulması və siyasi səbəblərdən tam geniş yaya bilməmişlər.

Maliyyə Hesabatının Beynəlxalq Standartlarının tətbiq etməyin əsas üstünlükləri aşağıdakılardır:

• Birincisi, MHBS-a uyğun olaraq hesabat vermək müəssisələrin beynəlxalq kapital bazarlarına qoşulma imkanlarını açan vacib addımlardan biridir.

• İkincisi, beynəlxalq təcrübə göstərir ki, MHBS-lə formalaşmış hesabatlar istifadəçiləri üçün çox məlumatlı və faydalıdır.

• Üçüncüsü, BMHS-in istifadəsi yeni milli hesabat qaydalarının hazırlanması üçün lazım olan vaxt və resursları əhəmiyyətli dərəcədə azaldır.

• Biznesin idarə edilməsini yaxşılaşdırır, idarəetmə qərarlarının qəbul edilməsi üçün yüksək keyfiyyətli və vaxtlı vaxtında məlumat verir, böyük strukturların idarə olunmasını asanlaşdırır.

• Biznesinizi inkişaf etdirməyə dolayısı ilə yeni tərəfdaşlar tapmağa, tenderlərdə iştirak etməyə, beynəlxalq bazarlara daxil olmağa imkan verir.

• İnvestisiya cəlbediciliyini artırır, təqdim edilən hesabatlar şəffaf olduğu üçün investorlar və səhmdarlar üçün daha cəlbedici olur.

• Bu, daha əlverişli şərtlərdə maliyyələşdirməyə yəni, daha aşağı faiz dərəcələri ilə banklardan kredit almaq imkanı verir.

• Biznesin dəyərini artırır [10].

MHBS qəbul etməyin əsas üstünlükləri Beynəlxalq kapital bazarında birliyin genişləndirilməsi imkanları, mühüm qərarların qəbul edilməsində istifadəçilərə faydalı və şəffaf məlumatların verilməsi, uçot və hesabatların standartlaşması və harmonizasiyasının yaranması, iqtisadi cəhətdən müxtəlif ölkələrin etibarlı maliyyə məlumatları əsasında yaxınlaşdırılması, vaxta və xərclərə qənaət olunmasından ibarətdir [9].

MHBS qəbul etməyin çatışmazlıqları standartların ümumiləşdirilmiş xarakter daşıması, uçot metodlarında çoxlu sayda müxtəliflilik, xüsusi hallarda əsaslı açıqlamaların olmaması, müxtəlif ölkələrin inkişaf səviyyəsi və müxtəlifliliyi, iqtisadiyyatın milli xüsusiyyətlərini və ənənələrinin nəzərə alan qayda qanunların olmaması, bu sahədə mühasiblərin bilik və təcrübələrinin və marifləndirmənin olmaması, normativ hüquq sisteminin xüsusi hallarda uyğunsuzluğundan ibarətdir.

Dövlət müstəqilliyinin bərpasından ötən qısa müddət ərzində Azərbaycanda iqtisadi sistemin islahatlaşdırılması istiqamətində aparılmış mühüm işlərdən biri milli təsərrüfatçılıq mexanizminin qabaqcıl dünya təcrübəsinə uyğunlaşdırılması olmuşdur. Bu baxımdan demək olar ki, XX əsrin sonları və XXI əsrin əvvəllərində ölkəmizdə mühasibat uçotunun inkişafında yenimərhələ başlamışdır [5]. Ölkənin iqtisadi sistemində bazar münasibətlərinin formalaşdırılması, dövlət mülkiyyətinin kütləvi şəkildə özəlləşdirilərək onun əsasında xüsusi sahibkarlıq müəssisələrinin yaradılması, iqtisadiyyyatda dövlət sektorunun xüsusi çəkisinin get-gedə azalması və buna müvafiq olaraq xüsusi sahibkarlıq sektorunun xüsusi çəkisinin artması kimi amillər mühasibat uçotu sistemi və hesabatların yeni iqtisadi quruluşun tələblərinə uyğun təkmilləşdirilməsi zərurətini meydana çıxarmışdır.

Ölkəmizin yüksək sürətli iqtisadi inkişafı və dünya iqtisadiyyatına inteqrasiyası, digər sahələrdə olduğu kimi, mühasibat uçotu sahəsində də Maliyyə Hesabatlarında Beynəlxalq Standartların (MHBS) tətbiqini zəruri etmişdir. 2004-cü ildə yeni Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu isə həmin standartlara keçidin hüquqi əsasını qoymuşdur. MHBS keçid Maliyyə Nazirliyinin rəhbərliyi və Dünya Bankının dəstəyi ilə həyata keçirildi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli iqtisadi islahatlar iqtisadiyyatın müxtəlif sahələrində olduğu kimi, mühasibat uçotu sahəsində də beynəlxalq tələblərə cavab verməklə ənənəvi milli mühasibat uçotu sisteminin təkmilləşdirilməsi və yenidən qurulmasına yönəldilmişdir [6].

Mühasibat uçotu haqqında qanunvericilik bazasının möhkəmləndirilməsində də əsas məqsəd uçot sisteminin dünya uçot sisteminə uyğun qurulmasıdır [7].

Bu gün Azərbaycanda BMHS-in tam şəkildə tətbiqini səmərəli şəkildə tətbiq edilməsi üçün peşəkar mühasiblərə ehtiyac yaranmışdır. Bunları əsas tutaraq Azərbaycan Respublikasının Prezidentinin 4 may 2018-ci il “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilmişdir. Azərbaycan Respublikasında mühasibat uçotu sahəsində dövlət tənzimləməsinin əsas məqsədi Maliyyə Hesabatlarının Beynəlxalq Standartları, Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları, İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları və uçot qaydaları əsasında ölkədə maliyyə hesabatlarının tərtib olunmasını və mühasibat uçotunun aparılmasını təmin etməkdən ibarət olmuşdur. Eyni zamanda MHBS üzrə hesabatların standartlara uyğun olaraq tam şəkildə təqdim edilməsi üçün hesabatların hazırlanmasında cavabdeh olan baş mühasiblərə peşəkar baş mühasib setifikatının əldə edilməsi tələbi qoyulmuşdur.

Mühasibat uçotu haqqında yeni qəbul edilmiş qanunun tələblərinin yerinə yetirilməsi özü ilə müəyyən problemləri də özü ilə gətirir. Belə ki, “Maliyyə alətləri” adlı 9 saylı MHBS tətbiqi zənnimcə respublikada çox az sayda bankda tətbiq edilir. Bu standart 1 yanvar 2018-ci il tarixindən əvvəlki 39 saylı BMUS “Maliyyə Alətləri” standartının müddəalarını aradan qaldırır. 9 saylı MHBS-in tətbiqi ilə bağlı yeniliklər aşağıdakı kimidir:

“Mənfəət və Zərərdə Ədalətli Dəyərlə Tanınan Öhdəliklər” müəssisənin öz kredit risklərinin dəyişməsinin nəticəsinin əks etdirilməsi üçün nəzərdə tutulur.

• Dəyərsizləşmə modelidir ki, bu model maliyyə alətləri üzrə itkilərin daha öncədən tanınmasını tələb edir [4].

Yeni standart ehtiyatların şərtlərini sərtləşdirir. Ehtiyatların artırılması onlara münasibətdə zərərlərin artırılması deməkdir. Dəyərsizləşmə üzrə ehtiyatların artması hesabat ilinin mənfəət və zərərinə, dolayısı ilə

kapitalın azalmasına gətirib çıxaracaq. Eyni zamanda xərclərin artması banklarda məcmu kapital çatışmazlığına gəıtirib çıxarır [8]. Nəzərə alsaq ki, bu Azərbaycanda fəaliyyət göstərən bankların əksəriyyəti maəmu kapital çatışmazlığı riski ilə qarşı qarşıyadır.

1 yanvar 2019-cu ildən qüvvəyə minən 16 saylı MHBS "İcarə müqavilələri" bəzi suallara cavab tam olaraq aydın yazılmamışdır.Buna misal olaraq icarə əməliyyatlarının uçotunda təxirə salınmış vergi məsələsinə, icarə üzrə aktivlərin qiymətdən düşməsinə toxunulmamışdır.

2021-ci ildən qüvvəyə minəcək 17 saylı MHBS "Sığorta müqavilələri" adlı standartı öz şərtləri ilə sığorta şirkətlərinə bir növ sürpriz edir. MHBS 17 Sığorta müqavilələri üzrə gəlirlərə və xərclərə fərqli yanaşmanı tələb edir. Yeni standartın tələbləri həyata keçirildikdə sığorta şirkətlərinin da "Məcmu Kapital" çatışmazlığı riski də artacaq [10].

Eyni zamanda yeni standartın tələblərinin tətbiqi üçün Maliyyə Bazarlarına Nəzarət Palatası addımlar hələ də atmış kimi görünmür. SNS sistemində köklü dəyişikliklərin aparılması, yeni standartın tələblərinə görə sığorta ehtiyatlarının formalaşması qaydaları, gəlirlərin və xərclərin tanınması prinsiplərinin işlənilməsi prosesi başlanmayıb. Sığorta bazarında aktuarilərin və baş mühasiblərin bu sahədə peşəkarlığının artırılması üçün ciddi addımlar atılmalıdır.

### Ədəbiyyat


1. Международный стандарт финансовой отчетности (IFRS) 9 финансовые инструменты // https://www2.deloitte.com
2. ШтурминаО. С. Международные стандарты учета и финансовой отчетности. Учебное пособие. Ульяновск: УлГТУ, 2010.
3. Bakı şəhər "30" yanvar 2017-ci il Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin kollegiyasının qərarı // http://www.e-qanun.az/framework/34909
4. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1140-VQD nömrəli Qanunu // http://www.e-qanun.az
5. Abbasov Q.Ə., Səbzəliyev S.M. və b. Mühasibat (maliyyə) uçotu. Bakı, 2003
6. Səbzəliyev S.M. Mühasibat (maliyyə) hesabatı. Bakı, 2003
7. Hacıyev R., Səbzəliyev S. Auditin əsasları. Bakı: 2003
8. Rzayev Q. Mühasibat uçotu və audit. Bakı, 2006
9. Тетерлева А. С. Международные стандарты финансовой отчетности. Екатеринбург: Издательство Уральского университета, 2016
10. Международные стандарты финансовой отчетности. Учебник и практикум Владимир Чая, Георгий Чая. М.: Юрайт, 2017, 432 с.


### Резюме


***Кулиева А.Б.***


**Суть международных стандартов финансовой отчетности и особенности применения в Азербайджане**


*В данной статье рассмотрены основные принципы и положения международного финансового учета, основы учетного цикла, особенности представления финансовой отчетности в соответствии с МСФО, особенности учета отдельных операций, отражения активов, обязательств, капитала, расходов и доходов. При этом выявлены положительные и отрицательные изменения. Автор считает, что данная статья окажет практическую помощь всем тем, кто хочет овладеть международными и национальными стандартами финансовой отчетности практике.*

***Ключевые слова:*** *международные стандарты финансовой отчетности (МСФО), совокупный капитал, финансовые инструменты, профессиональный бухгалтер*


### Summary


***Guliyeva A.B.***


**Stage of Modern Application of International and National Accounting Standards in Azerbaijan**


*In this article main principle and condition of international accounting standards, basis of accounting cycle, presentation characteristics of accounting standards in accordance with IAS, accounting characteristic of different operations, reflection of assets, obligations expenses and incomes is discussed. In this case positive and negative changes have been found out. Actor considers that this article helps practically those who want to learn International and National accounting standards.*

***Key words:*** *International Financial Reporting Standards (IFRS), total capital, financial instruments, professional accounta*

**MÜƏSSİSƏLƏRİN MALİYYƏ ŞƏFFAFLIĞININ TƏMİN OLUNMASININ ƏSASLARI**

***Quluzadə Ç.Ə., Quliyeva M.G.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Müasir iqtisadi şəraitdə ölkəmizdə uçot siyasətinin formalaşması qəbul olunmuş normativ sənədlərə və beynəlxalq təcrübəyə əsaslanaraq aparılmanı tələb edir. Bu məqsədlə uçotun təşkili, hesabatların tərtibi və audit işinin aparılması Beynəlxalq Standartlar əsasında yerinə yetirilməlidir.*

***Açar sözlər:*** *mühasibatlıq, uçot siyasəti, mənfəət, maliyyə şəffaflılığı, daxili audit, beynəlxalq standartlar*

Uçot siyasəti müəssisə tərəfindən qəbul edilmiş mühasibat uçotunun aparılma qaydalarının məcmusudur. Müəssisələrin maliyyə uçot siyasətinin konseptual tanımı dedikdə, müəsisənin maliyyə hesabatlarında xüsusi maddələri və əməliyyatları açıqlamaq üçün, ölçmək üçün, tanıtmaq üçün daxili siyasətin əsaslandığı müddəalar başa düşülür. Maliyyə uçot siyasəti fəaliyyət göstərən şirkətlərdə fərqli xarakterə də malik ola bilər. Müəssisələrdə uçot siyasətinin tətbiqi zamanı vacib məqamlar nəzərə alınmalıdır. Yəni, mühasibat uçotunun təşkilinin bütün tərəfləri əhatə etməsi nəzərə alınmalıdır. Tərəflər dedikdə həm metodiki, həm təşkilati, həm də texniki tərəflər başa düşülür. [3]

Tətbiq edilən uçot siyasəti hər bir halda qəbul olunmuş normativ aktlara uyğun formalaşır. Elə hal ola bilər ki, həll olunacaq problem mövcud dövr üzrə məlum olan hüquqi əsaslara uyğun olmasın. Bu halda məsləhətçi firmaların köməyindən istifadə edilir, üsullar hazırlanır. Səmərəli istifadə edilərsə, qarşıya qoyulmuş məqsədlərə rahat şəkildə çatmaq olar. Uçot siyasətində informasiya sisteminin əsas məlumat mənbəyi mühasibatlıqdır. Mühasibatlığın iqtisadi cəhətdən əhəmiyyətli olduğunu vurğulamaq üçün iqtisadi bir təşkilatın öz mühasibat sistemi olmadan işləyə bilməyəcəyini qeyd etmək kifayət olar.

- "Təşkilatın fəaliyyətinin faydası varmı?"
- "Mənfəət nə qədərdir?"
- "Təşkilatın kifayət qədər pulları varmı?"
- "Müəyyən aktivin istehsalına xərclər nadir?" "
- “Alternativlərin hansı biri ən effektivdir?”

Bu ya da digər ola biləcək sualların cavabını dəqiqləşdirmək məqsədilə mühasibat uçotunun son alıcıları üçün məlumat əldə edilməsi məqsədilə işləniləcək məlumatlar seçilir və həlledici səviyyələrə qədər çıxarılır. Bu məsələlər isə birbaşa olaraq nə üçün təşkilatın öz mühasibat sistemi olmadan işləyə bilməyəcəyini sübut edir.

Mühasibatlıq informasiya funksiyasından başqa, aşağıdakı iki funksiyaya da cavab verir:

- illik hesabların mərkəzləşdirilməsi və əks olunması;
- nəzərdən keçirmək və hazırlamaq.

MHBS-ə uyğun olaraq, mühasibatlıqla əlaqədar olan maliyyə vəziyyətləri müəyyən ehtiyacları ödəmək üçün hesabat tələb edə bilməyən böyük bir istifadəçi qrupunun tələb etdiyi ümumi məlumatın ehtiyacına cavab vermək tələbinə hazırlanır. Maliyyə vəziyyətləri kommersiya təşkilatının maliyyə məlumatlarının ən məşhur şəkildə təqdim edilməsini, eyni zamanda ən az bahalı olduğunu göstərir.

Müəssisənin aydın bir görünüşünü təqdim edən vəziyyətlərə daxildir: [4]

- mənfəət, zərər hesabatları
- balans hesabatı
- şirkətin səhmlərindəki dəyişikliklərin vəziyyəti
- pul vəsaitlərinin hərəkəti vəziyyətləri
- illik maliyyə vəziyyətlərinə dair qeydlər

Mənfəətlilik analizi prosesində maliyyə vəziyyətinin istifadəçiləri yalnız həmin müəssisələr üçün olan nəticələri digər qurumların nəticələri ilə müqayisə etmirlər. Maliyyə vəziyyətini tamamlayan və şirkətin uçot siyasətində dəyişiklik olması halında şirkətə əlavə edilmiş qeydləri də qeyd edirlər.

Ümumən məlum olan iqtisadi mənbələrdən aydındır ki, audit hüquqi əsaslanmaya uyğun yerinə yetiriləcək nəzarətin mühüm mərhələsidir. Audit işinin müəssisədə təmin olunması həm təsisçilərin və həm də digər istifadəçilərin maraqlarına uyğun fəaliyyətdir. Mövcud dövr üzrə tərtib olunmuş uçot və hesabatlar yalnız audit rəyi əsasında şəffaf məlumatlanmanı təsdiq edir. Audit tərəfindən uçota alınma əməliyyatları,

hesabatlarda məlumatların düzgün əksini, əmlakdan istifadə olunma, maliyyə vəsaitlərinin sərf edilməsi kimi məsələlər tam şəkildə sənədlər və faktlar əsasında yoxlanılır. Nəticə olaraq auditor rəyində hesabatlar əsasında qeyd olunan göstəricilər üzrə dəqiq informasiya əldə edilir. Ölkəmizdə maliyyə hesabatlarının Beynəlxalq Standartlara uyğun tərtib olunması tələbi qanunla təsdiq edilmişdir. Lakin hələ də büdcə və kommersiya qurumlarında uçot siyasətinin aparılmasında beynəlxalq standartlara əsaslanacaq tam fəaliyyət yoxdur. Eyni zamanda müəsisələr tərəfindən daxili audit işinin təşkilində də müəyyən gerilik mövcuddur.

Maraqlı situasiyalardan biri də odur ki, müəssisələrin mənfəətlə hesabat ilini yekunlaşdırmaqları üçün beynəlxalq standartlara harmonizasiya olunmuş maliyyə, mühasibat uçotu standartlarına tam şəkildə keçidin olması tövsiyə edilir. Eyni zamanda həmin qaydada hesabatların hazırlanması zamanı müəssisələrdə daxili və ya müstəqil audit xidmətlərindən istifadə olunma zərurəti göstərilir. Xüsusən müəssisə rəhbərinin daxili audit işinin təşkili diqqət mərkəzində olmalıdır. Çünki

- Daxili audit müntəzəm formada müəssisənin fəaliyyətinin nəticələrinin düzgün əks olunması baxımından fəaliyyət göstərir;
- Rəhbərlik bu haqda informasiya əldə edə bilir;
- Ən mühüm məsələlərdən biri olan baş verə biləcək hadisələrə uyğun riskləridarə oluna bilir;
- Müəssisədə menecerlər və digər əsas işçi heyətinin fəaliyyəti səmərəli şəkildə istiqamətlənə bilir;
- Biznes mühiti sağlam iqtisadi şəraitə uyğunlaşır.

Bütün qeyd olunan məsələlərin həlli ilə bağlı ümumi fikirləri yekunlaşdıraraq aşağıdakı təklifləri irəli sürmək olar:

- Azərbaycanda uçot siyasətinin qurulması beynəlxalq təcrübəyə əsaslanmalıdır;
- Mövcud hüquqi əsas olan qanunvericilik aktları və MUBS-ı təsərrüfat subyektlərinin əsaslandığı əsas baza olmalıdır;
- Müəssisənin aydın görünüşünü təqdim edən vəziyyətlərin təqdimatı düzgün şəkildə olmalıdır;
- Daxili auditin yaradılmasının əhəmiyyətliliyi bildirilməli və tətbiq səviyyəsi artırılmalıdır.

Respublikamızda bütün bu vəziyyətlərə əməl edilməsi təsərrüfat subyektlərinin, müəssisələrin maliyyə şəffaflığının tam şəkildə formalaşmasına şərait yaratmış olardı.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının “Mühasibat uçotu haqqında Qanunu”. Bakı, 2004
2. Azərbaycan Respublikasının “Auditor xidməti haqqında” Qanunu. Bakı, 1994
3. Abbasov Q.Ə. Mühasibat uçotu. Bakı, 2015, səh.475
4. Abdullayev L.İ. Maliyyə uçotu. Sumqayıt, 2017, səh.8
5. www.maliyye.gov.az
6. www.e-qanun.az



**Резюме**

***Гулузаде Ч.А., Гулиева М.Г.***

**Основы обеспечения финансовой прозрачности предприятий**

*В современных экономических условиях формирование учетной политики в нашей стране требует принятия нормативных документов и международного опыта. Для этого бухгалтерский учет, отчетность и аудит должны проводиться на основе международных стандартов.*

***Ключевые слова:*** *бухгалтерский учет, учетная политика, рентабельность, финансовая прозрачность, внутренний аудит, международные стандарты*



**Summary**

***Guluzade Ch.A., Guliyeva M.G.***

**Basics of Provision of Financial Transparency of Enterprises**

*In modern economic conditions in our country, adoption of accounting policy and normative documents based on international experience to be carried out. For this purpose organization of accounting, compilation of reports and auditing work should be implemented on the basis of international standards.*

***Key words:*** *accounting, accounting policy, profitability, financial transparency, internal audit, international standards*

# KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN MALİYYƏLƏŞDİRİLMƏSİ SİSTEMİNİN İNKİŞAFI İSTİQAMƏTLƏRİ

***Qurbanova R.V.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Kifayət dərəcədə maliyyə resurslarına malik olan dövlət, bank, investisiya fondları və s. böyük risk hesabına olsa da, yeni fəaliyyətə başlayan sahibkarlara yardımçı olmalıdırlar. Bu məsələlərin həllində ayrı-ayrı sərmayəçilər üçün maraqlı amil yüksək dərəcədə mənfəət əldə etmək, dövlət strukturları üçün isə məşğulluq probleminin həll olunmasıdır. Məqalədə kiçik və orta sahibkarlığın maliyyə təminatının gücləndirilməsi istiqamətlərindən, eyni zamanda kiçik və orta sahibkarlığın maliyyə təminatı sahəsində dövlət siyasətinin istiqamətlərindən bəhs olunur.*

***Açar sözlər:*** *kiçik və orta sahibkarlıq, maliyyə resursları, dövlət büdcəsi, marketinq fəaliyyəti,vergi güzəştləri, özəl sektor*

Hal-hazırda Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin maliyyələşdirilməsində ciddi problemlər var. Son illər bu istiqamətdə bir sıra addımlar atılsa da, problem tam həll olunmamışdır. Xüsusi maliyyə mənbələrinin yetərincə olmaması problemi ağırlaşdıran əsas amillərdən biri hesab olunur. Xüsusi maliyyə vəsaitləri kiçik və orta sahibkarlığın (KOS) formalaşmasında əhəmiyyətli rol oynamır və bütün bunlar dövlət maliyyə resurslarından istifadə imkanlarının genişləndirilməsini zəruri etmişdir. Vəsaitlərin vaxtında çatdırılmaması, şərtlərin əlverişli olmaması və digər amillər də KOS-un maliyyələşdirilməsində problemlər yaradır. Ona görə də KOS-un maliyyələşdirilməsi mexanizmi dəyişdirilməlidir. Dövlət büdcəsindən ayrılan vəsaitlərin istifadəsinə Azərbaycan Respublikası Maliyyə Nazirliyi müvafiq sərəncam vermədiyi hallarda KOS subyektləri üçün nəzərdə tutulan pulların onlara çatması mümkün olmur. KOS-un formalaşması və inkişafının ölkənin iqtisadi, sosial və siyasi həyatı üçün əhəmiyyətini nəzərə alaraq, bu sahəyə ayrılan vəsaitlərə sərəncam verilməsi ən əhəmiyyətli məsələlərdən hesab edilməlidir. Yəni dövlət büdcəsinin icrası zamanı bu istiqamətə vəsaitlər büdcənin imkanları yetərincə olduqda ayrılır. Digər hallarda isə Azərbaycan Respublikası Maliyyə Nazirliyi bu istiqamətə vəsaitlərin ayrılmasına yol verməməklə dövlət büdcəsinin kəsrinin artmasına yol vermir. Lakin dövlət büdcəsi vəsaitlərinin bölüşdürülməsi zamanı kiçik və orta sahibkarlığın inkişafı üçün ayrılmalı vəsaitlər heç də ikinci dərəcəli hesab edilməməlidir.

Azərbaycanda sahibkarlığın regional inkişafında problemlər var. Bunun səbəbi kiçik və orta müəssisələrin əsasən Bakıda cəmləşməsidir. Ona görə də regionlarda sahibkarlığın inkişaf etdirilməsi üçün Sahibkarlığın İnkişaf Mərkəzlərinin fəaliyyəti yenidən qurulmalıdır. Belə ki, müxtəlif regionlarda yaranan, bir neçə rayonda sahibkarlığın vəziyyətini araşdıran mərkəzlər Bakıda yerləşən vahid mərkəzə tabe olmalıdır. Eyni zamanda bütövlükdə sistemin İqtisadi İnkişaf Nazirliyinə tabe olması zəruridir və bu, həmin mərkəzlərin fəaliyyətinə dövlət nəzarətinin həyata keçirilməsi üçün əhəmiyyətlidir.

Bölgələrdə sahibkarların əksəriyyəti üçün istehsal edilən məhsulların satışı problemdir. Azərbaycanda sahibkarların əksəriyyəti məhsul istehsal etməmişdən əvvəl marketinq fəaliyyəti həyata keçirmirlər. Sahibkarlığın İnkişaf Mərkəzlərinin əməkdaşları isə bazarı tədqiq edərək qarşıdakı ildə hansı məhsulların istehsalının gəlirli olmasını və hansı bölgələrdə bu məhsullara ehtiyac olduğunu müəyyənləşdirə bilər. Digər tərəfdən bütün mərkəzlər əldə etdikləri informasiyaları Bakıdakı vahid mərkəzə ötürdüyündən ölkə üzrə bütün informasiyaların cəmləşməsini həyata keçirmək mümkündür.

Regionlarda Sahibkarlığın İnkişafı Mərkəzlərinin fəaliyyətə başlaması sahibkarlığın aşağıdakı bir sıra regional problemlərinin aradan qaldırılmasına şərait yarada bilər:

- regionlarda kiçik və orta sahibkarların işlərinin qarşılıqlı şəkildə əlaqələndirilməsi;
- marketinq fəaliyyətinin həyata keçirilməsinə kömək göstərməklə məhsul və xidmətlərin satış probleminin həll edilməsi;
- Azərbaycanda regionlar arasında iqtisadi əlaqələrin genişlənməsi;
- yeni iş yerlərinin açılması və yerli əmək ehtiyatlarından istifadə edilməsi;
- yerli əhəmiyyətli xammal ehtiyatlarının istehsala cəlb edilməsi və bunlardan daha səmərəli istifadə olunması;
- regionlarda fəaliyyət göstərən KOS subyektlərinin özəl sektorun problemləri ilə məşğul olan xarici qurumlarla əlaqələrinin genişlənməsi;
- rayonlarda və kənd yerlərində əhalinin sosial-mədəni həyat səviyyəsinin yüksəlməsi;
- sənaye istehsalının ölkə ərazisi üzrə qeyri-bərabər inkişafının aradan qaldırılması;
- demoqrafik dəyişiklərin, miqrasiyanın qarşısının alınması.

Qərb ölkələrinin təcrübəsi göstərir ki, dövlət sahibkarlıqla bağlı maliyyə problemlərini həll etmək üçün kommersiya banklarının kreditləri ilə yanaşı, özünün yaratdığı bank və fondların vəsaitlərini də bu istiqamətə yönəldir. Yəni dövlət xüsusi kredit qurumu yaradaraq müxtəlif mənbələrdən sahibkarlığa vəsaitlərin cəlb olunmasını təmin edir və həmin təşkilat yalnız KOS subyektlərinin problemləri ilə məşğul olur. Bu fondlarda formalaşan vəsaitlər içərisində dövlətin vəsaitləri ilə yanaşı, əhalinin və eləcə də özəl sektor subyektlərinin vəsaitləri də ola bilər.

Qərb dövlətlərinin əksəriyyətində belə qurumlar fəaliyyət göstərir və onların vəsaitləri də KOS subyektlərinin maliyyələşdirilməsində önəmli mənbə kimi çıxış edir. Məsələn, Böyük Britaniyada KOS subyektlərinə "Royal Bank of Scotland", Almaniyada "Creditanstalt fur Wiederafbau" və "Deutche Ausleiehbank" bankları, Türkiyədə "Xalq Sənaye Yatırım və Kredit" bankı və s. fəaliyyət göstərir. Onların yaradılmasında dövlət özü birbaşa iştirak etmişdir. KOS-ların kreditləşməsi riskinin yüksək olması, sövdələşmə xərclərinin çoxluğu ilə əlaqədar kommersiya banklarının kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi məsələsinə ehtiyatla yanaşmağa vadar edir. [2]

Dövlət büdcəsinin imkanlarından istifadə etmədən Qərb ölkələrindəki həmin qurumu Azərbaycanda da yaratmaq olar. Bunun üçün ölkəmizdə ciddi maliyyə mənbələri artıq formalaşmaqdadır.Yəni həmin bankın yaradılması dövlət büdcəsində qabaqcadan nəzərdə tutulan və ya həyata keçirilməsi bu və ya digər səbəblərdən məcburi xarakter daşıyan təxirə salınmasına səbəb olmayacaq. Eləcə də dövlət büdcəsi hesabına Sahibkarlığa Kömək Milli Fondunun maliyyələşdirdiyi layihələrlə bağlı işləri də davam etdirmək mümkün olacaq. SKMF Azərbaycan qanunvericiliyi ilə ona verilən səlahiyyətlər daxilində fəaliyyətini həyata keçirə biləcək. KOS subyektlərinin maliyyələşmə problemləri ilə məşğul olan qurumun, yəni bankın yaradılmasında büdcə vəsaitindən əlavə, həm də aşağıdakı maliyyə mənbələrindən də istifadə etmək olar:

- neft satışından əldə edilən vəsaitlər;
- özəlləşdirmədən əldə olunan vəsaitlər;
- beynəlxalq maliyyə təşkilatlarının vəsaitləri;
- əhalinin xüsusi vəsaitləri;
- özəl sektor subyektlərinin vəsaitləri;
- ianələr, yardımlar və s. vəsaitlər.

Hal-hazırda bütün kredit ayırmaları içərisində KOS subyektlərinə açılan kreditlərin həcmi olduqca azdır. Buna uyğun olaraq, verilən kredit məbləği də aşağıdır. İndiki dövrdə faktiki olaraq, Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin maliyyələşdirilməsində bank kreditləri ciddi mənbə kimi çıxış edə bilmir. Respublika hökuməti bu sahədəki problemi aradan qaldırmaq üçün bir sıra tədbirlərin həyata keçirilməsini nəzərdə tutsa da, onların reallaşdırılması gecikmişdir. Bununla belə, ölkəmizdə beynəlxalq standartlarla uzlaşan bank sisteminin formalaşması istiqamətində aparılan işlər KOS subyektlərinin maliyyələşdirilməsində bu qurumların rolunun artması imkanlarının böyüklüyündən xəbər verir. Buna görə də bu kateqoriya müəssisələrin maliyyə problemlərinin aradan qaldırılmasında həmin potensialdan istifadə etmək zərurətə çevrilib. Bu kreditlərin KOS subyektlərinə çatdırılmasını təmin etmək üçün dövlətin bu sahədə əsaslı iqtisadi siyasət həyata keçirməsi lazımdır. Əks halda kiçik və orta müəssisələr ümumi şərtlərlə bank kreditlərindən istifadə etməkdə maraqlı ola bilməzlər.

Bank kreditlərindən səmərəli və geniş istifadəni təmin etmək üçün dövlətin həmin kreditlərin müəyyən hissəsinə təminat verməsi mexanizminin tətbiqinə də diqqət yetirmək lazımdır. Bankların KOS subyektlərinə verdiyi kreditlərin müəyyən hissəsinə zəmanətlərin verilməsi Qərb ölkələrinin himayəsində tətbiq olunur. Həmin ölkələrdə dövlətin adından onun bu məsələyə məsul olan qurumu kredit alan zaman girov qoymaq imkanları olmayan və ya tələb olunan dəyərdə girov təqdim edə bilməyən KOS subyektlərinə kredit xəttinin açılması üçün bank riskinin müəyyən hissəsini öz üzərinə götürür. ABŞ-da Kiçik Biznes İdarəsi kreditlərin 90%-nə, Almaniya və İngiltərədə isə 70%-nə zəmanət verir ki, bu da ehtiyacı olan müəssisələrə bank kreditlərindən faydalanmaq imkanı verir. Azərbaycanda da bu işi həyata keçirmək üçün Kredit Zəmanəti Fondu yaradılmalıdır. Bu fondun fəaliyyətə başlaması ilə kiçik və orta müəssisələrin bank kreditlərindən istifadə imkanları genişlənər. Həmin fond dövlət adından bank kreditlərinin müəyyən hissəsinə zəmanət verərək KOS subyektlərinin kommersiya banklarının kreditlərindən istifadəsini təmin edə bilər. Hal-hazırda kiçik və orta sahibkarlıq subyektlərinin kommersiya banklarının kreditlərindən istifadə etməmələrinin başlıca səbəblərindən biri girov qoymaq imkanlarının olmaması və onların qaytarılması riskinin yüksək olmasıdır. Hökumət isə bu kreditlərin müəyyən hissəsinə təminat verməklə bu problemin qismən həllinə nail ola bilər. [4]

Kredit Zəmanəti Fondunun yaradılması ilə kommersiya bankları KOS subyektlərinə kredit verməkdə maraqlı olarlar və nəticədə, ümumi kredit qoyuluşlarının həcmi artar. Məlumdur ki, kiçik və orta müəssisələrin kreditləşməsinin aşağı səviyyədə olmasının başlıca səbəbi kommersiya banklarının kreditin

geri qaytarıla bilməməsindən ehtiyatlanaraq bu kateqoriya müəssisələrlə əməkdaşlıq etməməsidir. Belə fondun fəaliyyət göstərməsi isə kommersiya banklarına kreditin qaytarılmaması riskini azaldar. Bununla da, kommersiya bankları ilə KOS subyektləri arasında iş birliyi genişlənər.

KOS subyektlərinin kredit əldə etmək imkanlarının genişlənməsi isə son nəticədə onların özlərinin fəaliyyətinin genişlənməsinə şərait yaradacaq. Bu isə həm də dövlətə ödənişlərin artmasına səbəb olacaq. Məlumdur ki, kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin genişlənməsi büdcəyə ödənilən vergi və başqa ödənişlərin artmasına gətirib çıxarar.

Kredit Zəmanəti Fondunun fəaliyyəti dövlətin KOS subyektlərinin dövlət maliyyə mənbələrindən daha çox kommersiya banklarının vəsaitlərinə önəm verməsinə səbəb ola bilər. Bu isə Azərbaycanda KOS subyektlərinin maliyyələşdirilməsində ciddi maliyyə mənbəyi kimi qiymətləndirilə bilər. [3]

Kiçik və orta sahibkarlıq subyektlərinin formalaşması və inkişafına beynəlxalq qurumların və donor ölkələrinin vəsaitlərini cəlb etmək zəruridir. Qrantlar şəklində təqdim olunan bu vəsaitlər KOS subyektlərinin texniki təchizatına və məsləhət xidmətlərinin təşkilinə imkan yarada bilər. Artıq Yaponiya hökumətinin qrantı hesabına bir sıra müəssisələrin texniki təchizatı həyata keçirilmişdir. Bu sistemin inkişaf etdirilməsi müəssisələrdə əlavə vəsaitlərin cəmləşməsinə səbəb olacaq və nəticədə həmin müəssisələr fəaliyyətlərini genişləndirmək imkanı qazanacaqlar. Bu işlərin həyata keçirilməsi üçün ilkin olaraq məsləhət xarakterli tədbirlərin həyata keçirilməsi və KOS subyektlərinə bu maliyyə mənbəyindən istifadə qaydaları ilə bağlı məlumatların verilməsi zəruridir. Bu, KOS subyektlərinə özəl sektorun maliyyə problemləri məşğul olan beynəlxalq qurumlar ilə birbaşa əlaqə yaradılmasına gətirib çıxarar və nəticədə bu kateqoriya müəssisələrin maliyyə problemlərinin həllinə yardım edə bilər.

Kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi problemlərinin həlli üçün vergi prosedurlarının təkmilləşdirilməsi, vergi qanunvericiliyinin, şəffaflığın yüksəldilməsi təmin edilməlidir. Vergi mexanizmlərinin KOS-ların investisiya fəallığının təşviqində rolu yüksəldilməlidir. İnvestisiya məqsədilə uzunmüddətli kredit alan kiçik və orta sahibkarlıq subyektləri üçün vergi güzəştlərinin tətbiqi mexanizmi hazırlanmalıdır.

**Ədəbiyyat**


1. Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin istifadəsi qaydaları
2. www.economy.gov.az
3. www.maliyye.gov.az
4. www.sahibkarol.biz/gen/html/azl/kitabxana


**Резюме**


***Гурбанова Р.В.***

**Направления развития системы финансирования малого и среднего бизнеса**

*Государство, банк, инвестиционные фонды и т.д., обладают достаточными финансовыми ресурсами. Даже если они подвергаются большему риску, они должны быть в состоянии помочь новым предпринимателям. Интересным фактором для индивидуальных инвесторов в решении этих вопросов является получение высокой степени прибыли, а для государственных органов - решение проблемы занятости.В статье рассматриваются аспекты усиления финансовой поддержки малого и среднего бизнеса, а также государственная политика в области финансирования малого и среднего предпринимательства.*

***Ключевые слова:*** *малый и средний бизнес, финансовые ресурсы, государственный бюджет, маркетинговая деятельность, налоговые льготы, частный сектор*


**Summary**


***Gurbanova R.V.***

**Advantages of Development of Small and Medium Business Financing System**

*State, bank, investment funds, etc., with sufficient financial resources, even if they are at greater risk, should be able to assist new entrepreneurs. An interesting factor for individual investors in solving these issues is to obtain a high degree of profit, and for state agencies to solve the employment problem. The article deals with aspects of strengthening the financial support for small and medium-sized businesses, as well as the state policy in the area of small and medium-sized enterprise financing*

***Key words:*** *small and medium-sized businesses, financial resources, state budget, marketing activity, tax breaks, private sector*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ TARAZLI İNKİŞAFI VƏ KİÇİK-ORTA SAHİBKARLIĞIN MALİYYƏ TƏMİNATININ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**_Mahmudov C._**
*Naxçıvan Dövlət Universiteti*

***Xülasə.*** *Elmi məqalədə ölkənin davamlı inkişaf probleminin tərkib hissəsi olan regional tarazlı inkişaf anlayışının məzmunu öyrənilmiş, tarazlı inkişafla bağlı bir çox məsələlərin həlli həm elmi-nəzəri, həm də praktiki baxımdan ön plana çəkilmişdir. Həmçinin məqalədə regional tarazlı inkişafın təmin edilməsində kiçik və orta sahibkarlığın rolu araşdırılmış, tarazlı inkişaf və kiçik-orta sahibkarlıq fəaliyyəti arasındakı qarşılıqlı əlaqə və asılılıq nəzərdən keçirilmiş, regionlararası fərqlərin aradan qaldırılması məqsədilə kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi məsələləri tədqiq edilmiş, eyni zamanda, maliyyə təminatının təkmilləşdirilməsi istiqamətləri verilmişdir.*

***Açar sözlər:*** *Naxçıvan Muxtar Respublikası, tarazlı inkişaf, kiçik və orta sahibkarlıq fəaliyyəti, dövlət dəstəyi, maliyyə təminatı*

Bazar iqtisadi münasibətlərinə əsaslanan müasir dünyamızda region iqtisadiyyatlarının üzləşdiyi ən aktual problemlərdən biri tarazlı inkişafa nail olmaqdır. XX əsrin 60-70-ci illərindən başlayaraq geniş miqyasda işlənməyə başlanan tarazlı inkişaf anlayışı iqtisadi, sosial və ekoloji altsistemlərin inkişafında balansın əldə olunmasını ifadə edir. Eyni zamanda tarazlı inkişaf məfhumu regionların inkişaf səviyyəsi və sürətinin yaxınlaşmasını və ya nisbi bərabərliyini nəzərdə tutur. Tarazlı regional inkişaf ölkənin davamlı inkişaf probleminin daxili tərkib hissəsi olaraq regionun iqtisadi, sosial və ekoloji altsistemlərinin nisbi bərabərləşdirilməsi (tarazlaşdırılması) sayəsində iqtisadi müstəqilliyin əldə edilməsi, özünü təminetmə, özünü maliyyələşdirmə nailiyyəti kimi başa düşülür.

XX əsrin 60-cı illərində dünya kapitalizm və sosializm sistemi arasındakı mübarizə hər iki sistemə daxil olan ölkələrdə təbii resursların sürətlə istifadə olunması, ətraf mühitə külli miqdarda tullantının atılması və ətraf mühitin kəskin surətdə çirklənməsinə səbəb oldu. Bu dövrdə böyük şəhərlərin sürətlə inkişaf etməsi və təmərküzləşməsi digər bölgələrdən əmək qabiliyyətli əhalinin, xüsusilə işçi qüvvəsinin axınının baş verməsi ilə nəticələndi. Nəticədə, regionların inkişaf səviyyəsinin yüksəldilməsi, onların inkişaf səviyyəsində olan kəskin fərqlərin aradan qaldırılması və inkişaf səviyyələrində tarazlığın yaradılması bütövlükdə ölkənin davamlı inkişafı üçün vacib amilə çevrildi.

Regionların tarazlı inkişafı geri qalmış regionların təbii, əmək və maliyyə resurslarının təsərrüfat dövriyyəsinə cəlb olunmasına səbəb olmaqla demokratik ölkələrdə davamlı inkişafın başlıca vasitəsidir [1, səh.33]. Regionların tarazlı inkişafı məsələsi müasir dövrdə respublikamızda regional siyasətin ədalətliliyini və səmərəliliyini təmin edən çox mühüm amilə çevrilmişdir. Bu da tarazlı inkişafla bağlı bir çox məsələlərin həm elmi-nəzəri, həm də praktiki baxımdan həllini ön plana çəkmişdir.

İnkişaf səviyyəsinə görə geri qalmış iqtisadi rayonların inkişafına sürət baxımından üstünlük verilməsini, real sektorun və xidmət sahələrinin inkişafında mümkün optimal nisbətlərin gözlənilməsini, regional siyasətdə ədalətlilik və səmərəlilik prinsiplərinin düzgün əlaqələndirilməsini nəzərdə tutan tarazlı inkişafın əsas məqsədi regionlarda əhalinin həyat səviyyəsinin, davamlı insan inkişafı göstəricilərinin artması və bir-birinə yaxınlaşmasıdır. Qeyd olunan bu məqsədlərin əldə edilməsində kiçik və orta sahibkarlıq fəaliyyətinin özünəməxsus yeri vardır. Belə ki, regionların inkişaf səviyyəsində tarazlıq yaratmaq üçün əhalinin hər nəfərinə düşən ümumi daxili məhsulun miqdarı, ərazinin hər kvadrat kilometrinə düşən ümumi daxili məhsulun miqdarı, regionda əhalinin hər nəfərinə düşən ümumi gəlirlərin miqdarı, sənaye və kənd təsərrüfatı sahələri üzrə məhsul istehsalının həcmi, eləcə də investisiya qoyuluşlarının həcmi göstəricilərinin bir-birinə yaxınlaşdırılmasında kiçik və orta sahibkarlıq fəaliyyəti mühüm rola malikdir.

Regionun tarazlı inkişafı və kiçik-orta sahibkarlıq fəaliyyəti bir-birini tamamlayan eyni medalyonun iki üzüdür. Zəngin məzmuna, müxtəlif növlərə və formalara malik olan sahibkarlıq fəaliyyəti regionun iqtisadi və sosial tərəqqisinin əsas şərtidir. Kiçik və orta sahibkarlığın inkişafı bir tərəfdən məhsul bolluğu yaratmaqla daxili istehlak bazarının formalaşmasına, regionların daxili resurslarının iqtisadi dövriyyəyə cəlb olunmasına, onların ölkə iqtisadiyyatındakı xüsusi çəkisinin artmasına səbəb olur və sağlam rəqabət üçün geniş imkanlar açır, digər tərəfdən isə işsizlik kimi kəskin sosial-iqtisadi problemin həllini sürətləndirir, region əhalisinin tələbatının ödənilməsi və məskunlaşma problemlərini yaxşılaşdırır, regionlararası tarazlı inkişafı təmin edir.

Kiçik və orta sahibkarlıq fəaliyyəti regionun tarazlı inkişafının müəyyənedicisi və təminedicisi kimi, eyni zamanda regionlararası fərqlərin meydana gəlməsi səbəbkarıdır. Regionların inkişaf səviyyəsindəki fərqlərin meydana gəlməsi tarixini araşdırarkən sosial-iqtisadi inkişafın fərqli xüsusiyyətləri ilə seçilən və ya

parlayan ("İnkişaf qütbü" nəzəriyyəsi) regionda baş verdiyini müşahidə edirik. İnkişafdan geri qalan regionların gizli və açıq işsizlərlə yanaşı, iqtisadi fəal əhali kateqoriyasına daxil olan ixtisaslı kadrlarını itirməsi və işçi axını ilə üzləşən regionda istehlak həcminin azalması sahibkarlar tərəfindən investisiyaların daha çox mərkəzi regionlara yönəldilməsinin səbəbi olmuşdu. Belə ki, müstəqilliyin ilk illərində ölkədə qoyulan investisiyaların maksimum 15-17%-i digər regionlara yönəldilirdi. Bu da təsadüfi deyildir, çünki, iqtisadi inkişafın "keçmiş texnik" dövründən başlayaraq indiyədək sahibkarların böyük əksəriyyətinin öz iqtisadi fəaliyyətlərinə əlverişli şəraitə malik regionlarda başlaması müşahidə edilməkdədir. Belə ki, mənfəət ardınca qaçan sahibkarlar istehsala başlamaq qərarını hissləri ilə deyil, fəaliyyətin gəlirliliyini hesablamaqla qəbul edirlər. Fəaliyyətin gəlirliliyinin hesablanması gəlir gətirə biləcək əmtəə və xidmət sahəsi ilə yanaşı, müəssisənin həcminin müəyyən olunmasını, müəssisənin qurulacağı bölgənin seçimini əhatə edir. Gəlir olduğu müddətcə yaşaya və ya fəaliyyət göstərə bilən sahibkarların şəxsi mövqedən çıxış edərək atdığı addım bəzən cəmiyyətin məqsəd və mənafeyi ilə uzlaşmır. Başqa sözlə desək, sahibkarların gəlir əldə etmək məqsədinə xidmət edən investisiya qoyuluşu qərarlarında sahibkarın şəxsi mənafeyi ilə cəmiyyətin sosial faydası toqquşmaqdadır. Qeyd edək ki, işadamları həm qısa müddətdə məhsuldar olan və dolayısı ilə yüksək gəlir əldə edə biləcəyi sahələrə meyil edir, həm də təsərrüfat fəaliyyəti ilə məşğul olmaq üçün əlverişli şəraiti olan bölgələrdə öz işini cəmləşdirir. Dolayısı ilə sahibkarların həm uzun müddətdə məhsuldar olan infrastruktur sahələrinə sərmayə qoymamasını, həm də inkişafdan geri qalmış regionlara investisiya yönəltməməsini normal qarşılamaq lazımdır [2, s. 23-24].

Bu halda "inkişafdan geri qalmış regionların həyati ehtiyaclarını qarşılayacaq, eyni zamanda iqtisadi inkişafın başlaması və davam etməsini, məşğulluq probleminin həllini təmin edəcək investisiya qoyuluşlarını kim və hansı formada həyata keçirməlidir?" sualının ortaya çıxmasından və yuxarıda sadaladığımız amillərdən irəli gələrək onu qeyd etmək olar ki, müasir bazar iqtisadi sistemi dövlət tənzimlənməsinin xüsusi formalarından biri olan kiçik və orta sahibkarlığa maliyyə dəstəyinin vacibliyini inkar etmir. Bu nöqteyi-nəzərdən görkəmli ingilis sosioloq alimi Karl Popper yazır: "... bazar münasibətlərinə əsaslanan və əhəmiyyətli azad seçmə təklif edən sənaye cəmiyyəti hüquqi sistem və qanuni hakimiyyət olmadan ağılagəlməzdir. Belə ki, hüquqi baza olmadan iqtisadiyyat və bütövlükdə cəmiyyət inkişaf edə bilməz" [3, s.14]. Karl Popperin yazdıqlarından belə bir məntiqi nəticəyə gələ bilərik ki, dövlət ictimai sistemin ağırlıq mərkəzini özündə birləşdirməklə hakimiyyət sistemini təmərküzləşdirə, ölkədə mövcud olan çoxsaylı qeyri-dövlət institutlarının fəaliyyətinə təsir göstərə və cəmiyyətin ictimai-siyasi fəaliyyət prinsiplərini müəyyənləşdirə bilər. Fikrimizcə, bu kontekstdə inkişafdan geri qalmış regionlara sosial faydası yüksək və iqtisadi cəhətdən uzun zaman kəsimində faydalı olan investisiya layihələrinin yönəldilməsi, iqtisadi canlanmaya nail olması üçün dövlətin sözü gedən bölgələrə sərmayə qoyacaq iş adamlarına bir sıra maliyyə və vergi təşviq tədbirlərindən istifadə edərək stimul yaratması məqsədəuyğun olardı.

Məhz bu baxımdan məqalədə araşdırmamızın başlıca qayəsi tarazlı regional inkişaf və kiçik-orta sahibkarlıq fəaliyyəti arasındakı qarşılıqlı əlaqə və asılılığı öyrənmək, regionların inkişaf səviyyəsindəki fərqlərin aradan qaldırılmasında sahibkarlıq fəaliyyəti amilindən düzgün istifadə istiqamətlərini müəyyənləşdirmək, kiçik və orta sahibkarlıq subyektlərinin inkişafdan geri qalmış regionlara marağını artırmaq və bu istiqamətdə maliyyə dəstəyi göstərməkdir. Məqalədə araşdırmamızı müasir şəraitdə milli iqtisadi inkişafda özünəməxsus yeri ilə seçilən Naxçıvan Muxtar Respublikası timsalında həyata keçirəcəyik.

Naxçıvan Muxtar Respublikasında "2004-2008, 2009-2013, 2014-2018-ci illəri əhatə edən regionların sosial-iqtisadi inkişafı haqqında" Dövlət proqramları çərçivəsində həyata keçirilən iqtisadi islahatlar kiçik və orta sahibkarlığın regionun iqtisadi inkişafında – ümumi daxili məhsulda, iş qüvvəsinin məşğulluğunda, kənd təsərrüfatı məhsulları istehsalında və s. rolunu artırmışdır. Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2018-ci ildə sahibkarlığın ümumi daxili məhsulda payı 88,4%, o cümlədən sənayedə 95,7%, kənd təsərrüfatında 98,4%, tikintidə 85,7%, nəqliyyatda 80,6%, informasiya və rabitədə 80,4%, ticarətdə 99,8% olmuşdur [4].

Qeyd edək ki, ölkənin iqtisadi rayonları üzrə 2004 və 2017-ci illəri əhatə edən ümumi məhsul buraxılışı göstəricisi muxtar respublikanın qeyri-dövlət bölməsindəki təsərrüfatçılıq subyektlərinin 98,8%-i təşkil edən kiçik və orta sahibkarlığın inkişafının bariz nümunəsidir. (cədvəl)

**Cədvəl**

**Ölkənin iqtisadi rayonları üzrə**
**2004-cü və 2017-ci illəri əhatə edən ümumi məhsul buraxılışı*, min manatla**

| | 2004 | | 2017 | |
|---|---|---|---|---|
| | Məhsul buraxılışı, min manat | Xüsusi çəkisi, faizlə | Məhsul buraxılışı, min manat | Xüsusi çəkisi, faizlə |
| Azərbaycan Respublikası üzrə - cəmi | 12784500.0 | - | 81436100.0 | - |
| Bakı şəhəri | 9533900.7 | 74,5 | 59179724,8 | 72,7 |
| Rayonlar üzrə - cəmi | 3250599.3 | 25,5 | 22256375.2 | 27,3 |
| Naxçıvan Muxtar Respublikası | 264385.2 | 2,1 | 3438966.7 | 4,2 |
| Abşeron iqtisadi rayonu | 349510.0 | 2,7 | 2294301.9 | 2,8 |
| Gəncə-Qazax iqtisadi rayonu | 574745.0 | 4,5 | 3568614.4 | 4,4 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 217040.9 | 1,7 | 1541089.5 | 1,9 |
| Lənkəran iqtisadi rayonu | 288964.1 | 2,3 | 1871283.9 | 2,3 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 256136.3 | 2,0 | 1611383.7 | 2,0 |
| Aran iqtisadi rayonu | 1089322.5 | 8,5 | 6459199.8 | 7,9 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 86955.7 | 0,7 | 598999.2 | 0,7 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 9046.3 | 0,1 | 73761.1 | 0,1 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 114493.2 | 0,9 | 798774.9 | 1,0 |

Cədvəldən göründüyü kimi, Azərbaycan Respublikasında iqtisadiyyatın əsas sahələri üzrə məhsul istehsalında Naxçıvan Muxtar Respublikasının xüsusi çəkisi 2004-cü ildə 2,1% olmuşdursa, 2017-ci ildə bu göstərici 4,2% olmuşdur. Başqa sözlə desək, əgər 2004-cü ildə Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın əsas sahələri üzrə 264,4 milyon manatlıq məhsul istehsal olunmuşdursa, 2017-ci ildə məhsul istehsalı 13 dəfə artaraq 3439,0 milyon manat həcmində (88,8%-i qeyri-dövlət bölməsinin payına düşür) olmuşdur.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş regional inkişaf strategiyasına uyğun olaraq, bu gün Naxçıvan Muxtar Respublikasında iqtisadi sahədə həyata keçirilən tədbirlər bazar mexanizmləri əsasında sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, yerli və xarici investisiyaları, müasir texnologiyaları cəlb etməklə və qabaqcıl idarəetmə təcrübəsindən faydalanmaqla rəqabətədavamlı məhsul istehsal edən müəssisələrin, yeni iş yerlərinin yaradılmasına, regionlararası fərqlərin azaldılmasına, regional tarazlığın təmin edilməsinə və nəticə etibarilə ölkənin iqtisadi qüdrətinin artırılmasına yönəldilmişdir. Belə ki, regionların sosial-iqtisadi inkişafı haqqında Dövlət proqramlarının həyata keçirildiyi ötən 14 il ərzində muxtar respublikamızda fəaliyyəti bərpa olunan müəssisələr də daxil olmaqla 1022 müxtəlif təyinatlı istehsal müəssisəsi yaradılmışdır ki, yaradılmış istehsal müəssisələrinin 23 faizi (234 istehsal müəssisəsi) Şərur rayonunda, 20,6 faizi (211 istehsal müəssisəsi) Babək rayonunda, 17,2 faizi (176 istehsal müəssisəsi) Naxçıvan şəhərində, 12,7 faizi (130 istehsal müəssisəsi) Culfa rayonunda, 9,3 faizi (95 istehsal müəssisəsi) Kəngərli rayonunda, 9,2 faizi (94 istehsal müəssisəsi) Ordubad rayonunda, 5,8 faizi (60 istehsal müəssisəsi) Şahbuz rayonunda və 2,2 faizi (22 istehsal müəssisəsi) Sədərək rayonunda yerləşir.

Muxtar respublikada iqtisadiyyatın aparıcı qüvvəsi olan kiçik və orta sahibkarlıq fəaliyyətinin inkişafı əsasını bu fəaliyyətin maliyyə təminatının gücləndirilməsi təşkil edir. Ona görə də kredit qoyuluşu maliyyə təminatının tərkib hissəsi olmaqla iqtisadiyyatın dinamik inkişafında, region əhalisinin tələbatının ödənilməsində və maddi rifah səviyyəsinin yüksəldilməsində, insanların sahibkarlıq fəaliyyəti ilə məşğul olmasında və sair bu kimi zəruri məqsədlərə çatmaqda mühüm vasitədir. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bank strukturları və kredit təşkilatları tərəfindən kiçik və orta sahibkarlığa 2018-ci il ərzində verilmiş kreditlərin həcmi 2007-ci illə (13,8 milyon manat) müqayisədə 3,7 dəfə artaraq 50,9 milyon manat təşkil etmişdir. Kiçik və orta sahibkarlığın maliyyə təminatının yaxşılaşdırılması istiqamətində atılan addımlar nəticəsində bu gün muxtar respublikada 382 növdə məhsul istehsal olunmuşdur. Bu məhsulların 126 növü ərzaq, 256 növü qeyri-ərzaq məhsullarıdır. Muxtar respublika iqtisadiyyatında daxili bazarın qorunması və istehlakçıların yerli məhsullarla təchizi istiqamətində aparılan islahatların nəticəsidir ki, 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla 350 növdə məhsula olan tələbatın tamamilə yerli kiçik və orta həcmli istehsal müəssisələrinin imkanları hesabına ödənilməsi təmin edilmişdir.

Muxtar respublikada regionun tarazlı inkişafının təmin edilməsi məqsədilə kiçik və orta sahibkarlıq fəaliyyətinin maliyyələşdirilməsi nəticəsində əldə olunmuş müsbət nailiyyətlərlə yanaşı, bir sıra çatışmazlıqlara da rast gəlinir. Belə ki, kiçik və orta sahibkarlığa dövlət köməyinin postsovet məkanında

olduğu kimi respublikamızda da ənənəvi yardım kimi dəyərləndirilməsi məsələni son dərəcə bəsitləşdirir və bu təcrübədə bir sıra kənarlaşmalara yol açır.

Digər bir tərəfdən kiçik və orta sahibkarlıq subyektləri ilə risk faktorunu nəzərə alaraq, kredit razılaşmalarının hər hansı bir formada girov qoymaq şərti ilə tərtib olunması sərhəd və dağlıq regionlardakı sahibkarlıq subyektlərini dilemma qarşısında qoyur. Sərhəd və dağlıq regionlardakı daşınmaz əmlakın dəyərinin aşağı olması, kiçik və orta sahibkarlıqla məşğul olan subyektlərin girov qarşılığında yetərli miqdarda kredit götürə bilməməsi bu bölgələrdə istehsalın səmərəliliyinin aşağı düşməsinə, eyni zamanda, regionlararası fərqlərin meydana gəlməsinə səbəb olur. Regionların sosial-iqtisadi inkişafı haqqında Dövlət proqramlarının həyata keçirilməsi çərçivəsində ötən 14 il ərzində muxtar respublikamızda yaradılmış istehsal müəssisələrinin yuxarıda qeyd etdiyimiz ərazi üzrə yerləşməsinə nəzər yetirdikdə, kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi ilə bağlı olaraq yaranan disproporsionallığı asanlıqla görmək olar. Bu fakt əhalinin sərhəd və dağlıq regionlardakı əraziləri tərk edib getməsinə təkan verən ən başlıca amildir.

Bir faktı unutmaq olmaz ki, kiçik və orta müəssisələrin yaradılması və inkişaf etdirilməsi regional bazarın formalaşmasına, ixrac potensialının yüksəlməsinə, yerli xammal ehtiyatlarından səmərəli istifadə edilməsinə gedən magistral yoldur. Ona görə də kiçik və orta sahibkarlığa bazar iqtisadiyyatının və regionun tarazlı inkişafının başlıca mexanizmi kimi baxmaq, qeyd olunan problemlərin aradan qaldırılması, əlverişli münbit şəraitin yaradılması üçün, fikrimizcə, kiçik və orta sahibkarlığın maliyyə təminatını aşağıdakı istiqamətlərdə təkmilləşdirmək lazımdır:

- Kiçik və orta sahibkarlıq fəaliyyətinin maliyyələşdirilməsində kommersiya banklarının maraqlandırması. Kommersiya banklarını kiçik və orta sahibkarlığı maliyyələşdirməyə maraqlandırmaq üçün banklara güzəşt və imtiyazlar sistemi tətbiq etmək, onları kiçik və orta sahibkarlığa qoyulan vəsaitlərdən əldə edilən mənfəətə görə vergilərdən tam və ya qismən azad etmək lazımdır.
- Kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi üçün xüsusi kommersiya bankları şəbəkəsinin yaradılması.
- Kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi məqsədilə vençurinvestisiyalarından istifadə edilməsi. İnvestisiyanın bu növü inkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində geniş istifadə olunur və çox vaxt kiçik firmaların arxasında onun işinin nəticələrində maraqlı olan hər hansı bir korporasiya dayanır.
- Kiçik və orta sahibkarlığın maliyyə təminatının gücləndirilməsi məqsədilə lizinq krediti, daşınmaz əmlak lizinqi və faktorinq əməliyyatları kimi maliyyə xidmətlərinin yaradılması və bu xidmətlərdən istifadə edilməsi.

Son olaraq qeyd edək ki, Naxçıvan Muxtar Respublikasında regionun tarazlı inkişafının təminedilməsi məqsədilə kiçik və orta sahibkarlıq fəaliyyətinin yuxarıda sadaladığımız mexanizmlərdən istifadə etməklə maliyyələşdirilməsi perspektiv dövr üçün əhəmiyyətlidir.

## Ədəbiyyat

1. Nuriyev Ə.X. Davamlı və tarazlı inkişaf. Bakı: Avropa, 2017, 242 s.

2. Махмудов Дж.И. Политика уменьшения различий межрегионального социально-экономического развития: цели и средства. Международный технико-экономический журнал. Москва, №3, 2016, стр 22-25.

3. Mahmudov C.İ. Biznes: əsasları, təşkili və idarə edilməsi. Dərs vəsaiti. Naxçıvan: İdeya, 2011, 272 s.

4. www.statistika.nmr.az

## Резюме

***Махмудов Дж.***

**Сбалансированное развитиеНахчыванской Автономной Республикиинаправлениясовершенствованияфинансового обеспечения малогоисреднего предпринимательства**

*В научной статье изучено содержание понятия сбалансированного регионального развития, составной части проблемы длительного развития страны, на передний план выдвинуто решение многих вопросов, связанных с сбалансированным развитием, как с научно-теоретической, так и с практической стороны.Также, в статье исследована роль малого и среднего предпринимательства в обеспечении сбалансированного регионального развития, рассмотрена взаимная связь и зависимостьмеждусбалансированнымразвитием и малым и средним предпринимательством, исследованы вопросы финансирования малого и среднего предпринимательства в целях устранения*

*межрегиональных различий, в то же время даны направления совершенствования финансового обеспечения.*

***Ключевые слова:*** *Нахчыванская Автономная Республика, сбалансированное развитие, малое и среднее предпринимательство, государственная поддержка, финансовая поддержка*

**Summary**

***Mahmudov J.***

**Balanced Development of Nakhchivan Autonomous Republic and Improvement Directions of Financial Guarantee ofSmall and Medium-Sized Businesses**

*In the scientific article, the content of the concept of regional balanced development, which is a part of the country's sustainable development problem, hasbeen studied, and the solution of many balanced development issues has come to the forefront in both scientific-theoretical and practical aspects. The role of small and medium-sized businesses in the provision of regional balanced development was investigated in the article, and the relationships between the balanced development and small and medium-sized entrepreneurship activities were reviewed and financing of small and medium-sized businesses was investigated to eliminate regional differences, providing guidance on how to improve the security.*

***Key words:*** *Nakhchivan Autonomous Republic, balanced development, small and medium entrepreneurship, state support, financial support*

## TEXNOPARKLARDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİNİN MALİYYƏ TƏMİNATI

***Mahmudov Ə.E.***

*Azərbaycan Dövlət Neft Sənaye Universiteti*

***Xülasə.*** *Məqalədə texnoparklardan istifadənin səmərəliliyinin yüksəldilməsinin maliyyə təminatı tədqiq olunmuşdur. Texnoparkların milli iqtisadiyyatın strukturunun diversifikasiyalaşdırılmasında və innovativ inkişafının sürətləndirilməsində rolunun artırılması araşdırılmış və bunlar üzrə maliyyə təminatının vacibliyi əsaslandırılmışdır. Maliyyə mənbələrinin formalaşdırılması və səmərəli istifadə olunması istiqamətləri verilmişdir.*

***Açar sözlər:*** *texnoparklar, maliyyə təminatı, maliyyə alətləri,texnopakların iqtisadiyyatın inkişafında rolu, texnoparkların maliyyə təminatı strategiyası*

Dünya iqtisadiyyatının transformatik vəziyyətdə olduğu bir şəraitdə, yeni və çoxfunksiyalı iqtisadi mexanizmlərə ehtiyac artmaqdadır. Dünya ölkələrinin inkişaf proseslərinin təhlili göstərir ki, hazırda iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin əksəriyyəti özlərinin güclü iqtisadi inkişafına nail olmaqda, ilk növbədə, texnologiyalara və innovativ yanaşmalara minnətdar olmalıdırlar. Belə ki, dünya iqtisadiyyatın önündə gedən ABŞ, Qərbi Avropa ölkələri (Böyük Britaniya, Almaniya, Fransa, İtaliya), Yaponiya kimi ölkələr innovasiyaların yayılması, işlənilməsi və tətbiqi proseslərinin çevikliyi, səmərəliliyi hesabına yüksək texnologiyalara sahib olmuş və güclü iqtisadiyyat yarada bilmişlər. Bu proseslərdə isə önəmli yeri texnoparklar və texnopolislər tutmuşlar. Əsas etibarı ilə texnoparklar çoxfunksiyalı fəaliyyət mexanizmləri kimi daha geniş yayılmışlar[1]. Texnopaklarda alimlərin, ixtiraçıların, səmərələşdiricilərin, konstruktorların işlədikləri, əldə etdikləri, hazırladıqları texnoloji yeniliklər, kəşflər, ixtiralar, innovasiyalar sistemli və davamlı şəkildə istehsal proseslərinə tətbiq olunanadək vahid tsikldə baxılır.

Maraqlıdır ki, bu məsələlərin maliyyə təminatı həm dövlət üçün, həm də özəl kompaniyalar və investorlar üçün cəlbedici olur. Ayrı-ayrılıqda innovasiyaların və elmi yeniliklərin işlənməsi, istehsala tətbiqi böyük investisiyalar və maliyyə resursları tələb edir [2].Çox hallarda isə şirkət və kompaniyaların, müəssisələrin gücü bu məsələlər üçün yetərli olmur, belə ki, bir tərəfdən, ölkədə innovasiya və texnologiyalar bazarı inkişaf etməlidir, başqa tərəfdən isə, yeni yaradılan innovativ məhsullara tələbat və sifariş olmalıdır. Məhz bu amillər səbəbindən hazırda dünyanın əksər ölkələrində innovativ inkişafın sistemli şəkildə təmin edilməsi mümkün olmamışdır. Dünyada çoxlu sayda texnoparklar, o cümlədən bu qəbildən olan digər cəlbedici iqtisadi mexanizmlər - sərbəst iqtisadi zonalar, xüsusi iqtisadi zonalar, texnopolislər, sənaye parkları, sənaye zonaları, sənaye məhəllələri, klasterlər, yüksək texnologiyalar və innovasiyalar zonaları yaradılmasına baxmayaraq, bu qurumların əhəmiyyətli bir hissəsi maliyyə təminatının davamlı olmaması səbəbindən səmərəli fəaliyyət göstərə bilməmişlər [3].

Digər tərəfdən, dövlət texnoparklara sistemli və ardıcıl şəkildə maliyyə dəstəyi göstərməklə, bu məsələlərin inkişafına intensiv xarakter vermiş olur. Əvvəldə qeyd etdik ki, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə bu məqsədlər üçün güclü maliyyə resursları ayrılması mexanizmləri vardır. Məsələn, texnologiyalar və innovasiyaların inkişafına ABŞ-da hər il orta hesabla 600-700 mlrd. dollar, Böyük Britaniya, Yaponiya, Almaniya və Fransada 250-300 mlrd. dollar, Çində isə rekord məbləğdə 700-800 mlrd. dollar vəsait ayrılır və bunlarla bərabər, investisiya mühiti yaxşılaşdırılır. Eyni zamanda, texnoparklar şəbəkəsinin yaradılması hesabına və bu sahəyə vergi, gömrük güzəştlərinin verilməsi, dövlət tərəfindəm maliyyə dəstəyinin göstərilməsi sayəsində yüksək nəticələrin əldə edilməsi dünya təcrübəsində geniş məlumdur [4].

Qeyd edək ki, son illərdə Azərbaycanda da milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsində və innovativ inkişafın genişləndirilməsində texnoparklardan istifadəyə üstünlük verilməkdədir. Artıq bu istiqamətdə davamlı tədbirlər görülməkdədir və ölkənin ilk iri texnoloji parkı - Sumqayıt Texnologiyalar Parkı 2009-cu ildən fəaliyyət göstərir[5]. Bu Parkda yüksək texnologiyalar əsasında çoxlu çeşiddə rəqabətqabiliyyətli sənaye məhsulları, əsasən, elektrotexnika məmulatları və elektrik kabelləri istehsal olunur. Burada istehsal olunan innovativ məhsullar yerli bazarın tələbatını ödəməklə yanaşı, artıq ixrac edilməkdədir. Digər texnopark - Yüksək Texnologiyalar Parkı Pirallahıda yaradılır və bu texnoparkın bir neçə müəssisənin tikintisi sürətlə davam etməkdədir. Şübhəsiz, bu proseslərin təşkilinə dövlət dəstəyi olmasaydı, bunlara nail olmaq qeyri-mümkün idi. Dövlət tərəfindən bu texnoparkın rezidentləri 7 illik müddətinə vergilərdən və gömrük rüsumlarından azaddırlar[6]. Digər tərəfdən, bu texnoparkların təşkilinə dövlət tərəfindən əsaslı kapital qoyuluşu ilə yanaşı, yerli və xarici investorların fəaliyyəti üçün əlverişli şərait yaradılmışdır.

Beləliklə, müasir dövrdə texnoparkların maliyyə təminatının gücləndirildiyi şəraitdə, bu çoxfunksiyalı və investorlar üçün cəlbedici olan təsərrüfat-iqtisadi fəaliyyət mexanizmi və ərazisi milli iqtisadiyyatın inkişafında kifayət qədər səmərə verə bilər. Digər tərəfdən, Strateji Yol Xəritələri çərçivəsində maliyyə xidmətlərinin genişləndirilməsi nəzərdə tutulmuşdur və bunlar öz əksini ölkə Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq etdiyi "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair" Strateji Yol Xəritəsində tapmışdır [7]. Bu amillərdən çıxış etsək, yaxın illərdə texnoparkların maliyyə təminatının gücləndirilməsində və yeni maliyyə mənbələrin formalaşdrılmasında daha səmərəli mexanizmlərin tətbiqinə imkanların artacağını proqnozlaşdırmaq mümkündür.

**Ədəbiyyat**


1. Əliyev Ş.T. Xüsusi iqtisadi zonaların təşkili və inkişaf perspektivləri. İ.e.d. dissertasiyası. Bakı, 2015, 350 s.
2. Tağıyev A.H. İnnovasiya (nəzəri və tətbiqi səpkidə). Bakı: Təknur, 2018, 552 s.
3. Пономарев В.Н. Особые экономические зоны, технопарки и промышленные кластеры как инструменты инновационного развития. Дисс. канд. экон. наук. М.: 2011, 207 с.
4. Бильдина О.В. Государственная поддержка технопарков как организационной формы развития инновационной сферы национальной экономики. Дисс. канд. экон. наук. М.:, 2008, 209 с.
5. Sumqayıt Texnologiyalar Parkı. 22 dekabr 2009-cu il. - https://stp.az.
6. Sənaye parkları haqqında Nümunəvi Əsasnamə. AR Prezidentinin 2013-cü il 24 aprel tarixli Fərmanı ilə təsdiq edilib.
7. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016, 59 s.



**Резюме**

*Махмудов А.Е.*

**Финансовое обеспечение повышения эффективности использования технопарков**

*В статье исследованофинансовое обеспечение повышения эффективности использования технопарков.Анализирована важность технопарковв диверсификации структуры национальной экономики и ускорении инновативного развития. Рассмотрена важность устойчивого финансового обеспечения технопарков для их эффективного функционирования. Даны направления формирования финансовых источников технопарков и их рационального использования.*

***Ключевые слова:*** *технопарки, финансовое обеспечение,финансовые механизмы, роль технопарков в развитии экономики, стратегия финансового обеспечения технопарков*

**Summary**

***Mahmudov A.E.***

**Financial Support for Increased Usage Efficiency of Technology Parks**

*Financial support for increased efficiency use of technology parks areinvestigated in the article.The importance of technology parks, the diversification of the structure of the national economy and the acceleration of innovative development are analyzed. Considered the importance of sustainable financial support of technology parks for their effective functioning. The directions of formations of financial sources of technology parks and their rational use are given.*

***Key words:*** *technoparks, financial support, financial mechanisms, the role of technoparks in the development of the economy, the strategy of financial support for technology parks*

## AZƏRBAYCANDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNNOVATİV İNKİŞAFININ MALİYYƏ PROBLEMLƏRİ

***Mahmudova L.F.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalədə Azərbaycanda kiçik və orta sahibkarlığın innovativ inkişafının maliyyə problemləri tədqiq olunmuşdur. Bu məqsədlə kiçik və orta sahibkarlığın inkişafında innovasiyaların rolu və mahiyyəti açıqlanmışdır. İnnovasiyalardan səmərəli istifadənin vacibliyi təhlil olunmuşdur. Kiçik və orta sahibkarlığın innovativ fəaliyyətinin maliyyə problemlərinə diqqət yönəldilmişdir. İnnovasiyaların işlənməsi, hazırlanması və tətbiqi üzrə tələb olunan maliyyə resurslarının çatışmaması problemlərinə baxılmışdır. İnnovativ məhsullara məqsədli sifarişlərin verilməsinin vacibliyi bildirilmişdir. Müasir dövrdə kiçik və orta sahibkarlığın innovativ inkişafının intensivləşdirilməsində maliyyə problemlərinin həlli üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*

***Açar sözlər****: kiçik və orta sahibkarlıq, kiçik və orta sahibkarlığın maliyyə problemləri, kiçik və orta sahibkarlığın innovativ inkişafı, kiçik və orta sahibkarlığın inkişafında innovasiyaların rolu, kiçik və orta sahibkarlığın inkişafı üçün maliyyə problemlərinin həlli yolları*

İqtisadi inkişaf proseslərinin innovasiyalaşdırılması və innovativ inkişafın təmin edilməsi strateji və sistemli yanaşmaların formalaşdırılmasını tələb edir. Məlumdur ki, Azərbaycanda hələlik milli innovasiya sistemi təşkil olunmamışdır. Amma bununla belə, iqtisadiyyatın ayrı-ayrı sahələrinin innovasiyalaşdırılması istiqamətində proseslər genişlənməkdədir. Digər tərəfdən, artıq innovasiya fəaliyyətinin tənzimləyici dövlət orqanının yaradılması prosesləri başa çatmaqdadır və ölkəmizdə innovasiya siyasətinin reallaşdırılması proseslərində yeni yaradılan Dövlət İnnovasiya Agentliyinin rolunun artacağı gözlənilir.

Qeyd edək ki, Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı üzrə proseslərə strateji yanaşmalar formalaşdırılmışdır. Bu istiqamətdəki prioritet vəzifələr və strateji hədəflər öz əksini ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi”ndə tapmışdır [1]. Bu strateji sənəddə qlobal trendlər nəzərə alınmaqla, 2020-ci ilədək olan dövr üçün strateji baxışlar, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışları formalaşdırılmışdır. Bundan əlavə, kiçik və orta sahibkarlıq subyektlərinin müasir dövrdə əsas fəaliyyət istiqamətlərinin optimal olaraq təşkili dövlətin xüsusi dəstək mexanizmləri müəyyənləşdirməklə daha da sürətləndiriləcəkdir. Ölkəmizdə kiçik və orta sahibkarlıq subyektlərinin inkişaf etdirilməsi üçün qanunvericilik bazasının formalaşdırılması istiqamətində önəmli addımlar atılmışdır. 4 iyun 1999-cu ildə “Kiçik sahibkarlığa dövlət köməyi haqqında Azərbaycan Respublikasının Qanunu” qəbul olunmuşdur və bu qanunla kiçik və orta sahibkarlığa dövlət köməyinin iqtisadi, hüquqi, təşkilati əsasları müəyyənləşdirilmişdir. Bundan əlavə, ölkə Prezidentinin "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə 4 avqust 1999-cu il tarixli Fərmanında bu Qanunun işləkliyinin təmin edilməsi ilə bağlı müvafiq dövlət strukturlarına konkret tapşırıqlar verilmiş və kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin gücləndirilməsi tədbirləri müəyyənləşdirilmişdir [2].

Qeyd edək ki, innovasiyaların yayılması, işlənməsi və istehsal proseslərinə tətbiqinin təmin olunması kifayət qədər maliyyə tutumlu məsələlərdir. Amma, təəssüf ki, ölkəmizdə bütün səviyyələrdə, o cümlədən kiçik və orta sahibkarlıq subyektləri səviyyəsində innovasiya proseslərinin maliyyə təminatının işlək və güclü mexanizmləri formalaşdırılmamışdır. Ölkədə innovasiya bazarları yaradılmamış və onların tələbatının ödənilməsi təmin edilməmişdir. İnnovasiyanın kommersiyallaşdırılmasının və innovasiyanın tətbiqindən alınan mənfəətin kapitallaşdırılmasını həyata keçirən təşkilatlar şəbəkəsi innovasiya fondları yaradılmamışdır [3]. Müəssisələr səviyyəsində innovasiyalar əsaslı istehsal sahələrinin yaradılması və innovasiya məhsullarının alınması potensialı xeyli zəifdir. Ölkədə fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektlərinin cəmisi bir neçə faizində innovativ yanaşmalar mövcuddur və innovativ məhsullar alırlar. Təhlillər göstərir ki, bunun əsas innovasiya proseslərinin maliyyələşdirmə mexanizmlərinin zəifliyi və ya ümumiyyətlə bu mexanzimlərin olmamasıdır [4].

Ölkədə fəaliyyət göstərən müəssisələrin əksəriyyəti kiçik və orta sahibkarlıq subyektləridir. 2018-ci ilin əvvəlinə ölkəmizdə kiçik və orta sahibkarlıq subyektlərinin sayı 170 minə yaxındır, bu müəssisələrdən 24 mini hüquqi şəxslər, 146 mini isə fərdi sahibkarlıq subyektidir[5]. Orta sahibkarlıq subyektlərinin sayı isə 4217-dir. 2017-ci ildə kiçik və orta sahibkarlıq subyektlərinin yaratdıqları əlavə dəyərin ümumi həcmi 3,8 mlrd. manat, əsas kapitala yönəldilən investisiyaların həcmi 3,3 mlrd. manat və ümumi məhsul istehsalının həcmi isə 6,3 mlrd. manatdır [6]. Amma, əvvəldə qeyd etdiyimiz kimi kiçik və orta sahibkarlıq subyektlərinin potensialından daha güclü istifadə olunması və milli iqtisadiyyatın innovativ inkişafında onların rolunun artırılması üçün davamlı və güclü maliyyə mənbələrinin yaradılması vacibdir. Bu kateqoriyadan olan müəssisələrin dayanıqlı olması innovasiyaların çevik şəkildə işlənməsi və tətbiqinə imkan verir [7]. Buna görə də kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə resursları mənbələrinin formalaşdırılması strategiyası olmalı, bu subyektlərin ucuz kredit resurslarına əlçatanlığı təmin edilməli, onların innovasiya-investisiya cəlbediciliyi əhəmiyyətli səviyyədə artırılmalıdır. Maliyyə planlaşdırılması və maliyyə strategiyası hər bir müəssisənin idarəetmə strateji tərkib hissələrindən biri kimi təmin olunmalıdır [8]. Kiçik və orta sahibkarlıq subyektlərinin dayanıqlı inkişafı və onların innovativ inkişaf mexanizmlərinin gücləndirilməsi üçün maliyyə mənbələrinin diversifikasiyalaşdırılması və onların etibarlılığının artırılması tədbirləri görülməlidir. Bunun üçün maliyyə-kredit mexanizmləri təkmilləşdirilməli və daha da asanlaşdırılmalıdır [9]. Xüsusilə, regionlarda kiçik və orta sahibkarlıq subyektlərinin inkişafı üçün maliyyə resursları əlçatanlığı aşağı səviyyədədir, yalnız məhdud şəkildə nisbətən aşağı faizli kreditlərinin ayrılması mexanizmləri vardır. Amma, bu mexanizmlər çox az sayda kiçik və orta sahibkarlıq subyektləri üçün əlçatandır. Əksər müəssisələrin davamlı şəkildə əlçatan kredit resurslarına ehtiyacı olsa da, bunları reallaşdırmaq mənbələri xeyli azdır və belə bir şəraitdə innovasiya məhsullarının istehsalının təşkil edilməsi perspektivləri, şübhəsiz zəif olaraq qalacaqdır. Buna görə də, regionlarda innovasiya sisteminin təşkili və idarəedilməsi tədbirləri çərçivəsində bu proseslərin maliyyə təminatı mexanizmlərinə ciddi önəm verilməlidir [10]. Burada müəyyən güzəştlərinin tətbiqi ilə bərabər, digər tənzimləyici mexanizmlərin, o cümlədən vergi mexanizmlərinin tətbiqi, vergitutma amillərindən məqsədli istifadə olunması müəyyən səmərə verə bilərdi [11]. İnnovasiya proseslərinin idarə mexanizmlərinin təkmilləşdirilməsi və onların tətbiqi məsələlərində strateji yanaşmalara üstünlük verilməlidir. İnnovasiyaların inkişafı iqtisadiyyatın müxtəlif sahələrinin modernləşdirilməsində və yüksək texnologiyaların tətbiqində daha böyük səmərə verə bilər. Kiçik və orta sahibkarlıq subyektlərində innovasiyaların çevik və iqtisadi transformasiyalara uyğun şəkildə tətbiq olunması isə daha çox diqqət çəkəndir, amma bu proseslərin maliyyə təminatının işləkliyi diqqətdə saxlanılmalıdır [12].

Qeyd edək ki, son illərdə kiçik və orta sahibkarlıq subyektlərinin innovativ fəaliyyətinin gücləndirilməsi, innovativ inkişafın təmin edilməsi, innovasiyaların yayılması və tətbiqinin genişləndirilməsi imkanlarını artıran mexanizmlərin hazırlanması və reallaşdırılmasına ciddi önəm verilməkdədir. Məsələn, ölkə Prezidentinin 15 sentyabr 2017-ci il tarixli "Kredit Zəmanət Fondunun yaradılması haqqında" Fərmanında müəssisələrin kredit əlçatanlığının yaxşılaşdırılması ilə bağlı kifayət qədər səmərəli mexanizmlərin tətbiqi nəzərdə tutulmuşdur [13]. Bundan əlavə, innovasiyaların daha çevik işlənməsi və tətbiqi idarəetmə səviyyəsinin səmərəliliyindən bilavasitə asılıdır. Bu baxımdan olkə Prezidentinin 28 dekabr 2017-ci il tarixli "Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında" Fərmanı mühüm əhəmiyyət kəsb edir [14]. 2018-ci ildə kiçik və orta sahibkarlığın inkişafı ilə bağlı institusional tədbirlər davam etdirilmiş və bir sıra mühüm qərarlar qəbul olunmuşdur. Məsələn, ölkə Prezidentinin 2018-ci il 26 iyun tarixli Fərmanı ilə yeni yaradılmış Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Nizamnaməsi təsdiq olunmuşdur [15]. Qeyd edək ki, bu Agentliyin strateji vəzifəsi kiçik və orta sahibkarlıq subyektlərinin inkişafına köməklik göstərmək, onların innovativ inkişafını sürətləndirmək üçün tədbirlər görməkdən ibarətdir. Bundan başqa, elə həmin ildə - 26 iyun 2018-ci

il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətləri siyahısı" təsdiq edilmişdir [16]. Bütün bunlar kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyəti ilə bağlı proseslərinin maliyyə təminatı mənbələrinin gücləndirilməsi üçün yeni imkanlar yarada bilər. Amma bütün hallarda innovasiyaların işlənməsi və tətbiqi proseslərinin səmərəli idarəetmə sisteminin olması ilə bərabər, bu sistemin tərkib hissəsi kimi - maliyyə mexanizmləri təmin edilməldir [17].

Hazırda ölkəmizdə milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi və onun neftdən asılılığının minimuma endirilməsi istiqamətində uzunmüddətli dövr üçün strateji hədəflərin reallaşdırılması prosesləri gedir. 2017-2018-ci illərdə milli iqtisadiyyatın artım tempi bərpa olunmuş, ölkədə makroiqtisadi və makromaliyyə sabitliyi bərpa edilmişdir. Yaxşı haldır ki, milli valyutanın kursu sabitləşmiş, dayanıqlılığı gücləndirilmiş və valyuta ehtiyatları artmağa başlamışdır. Digər tərəfdən, əvvəldə bildirdiyimiz kimi ölkədə innovasiya proseslərinin mərkəzi idarəetmə sisteminin təşkili başa çatdırılmaqdadır. Fikrimizcə, bütün bunlar digər sahələrlə yanaşı, kiçik və orta sahibkarlıq subyektlərində innovasiyaların yayılması, işlənməsi və tətbiqi proseslərini sürətləndirmklə bərabər, innovativ inkişaf mexanizmlərinin təşkili proseslərinin maliyyə təminatının gücləndirilməsinə imkan verəcəkdir. Bunlarla bağlı bir qrup məsələlərə strateji yanaşmaların təmin edilməsi vacib hesab olunur:

- ölkədə innovativ inkişaf proseslərinin təşkili və sürətləndirilməsi mexanizmlərinin dünya təcrübəsinə uyğun şəkildə təkmilləşdirilməsi və yenilənməsi vacibdir;
- kiçik və orta sahibkarlıq subyektlərinin innovativ inkişafının maliyyə təminatının gücləndirilməsi istiqamətində işlək və səmərəli mexanizmlərin hazırlanaraq tətbiq edilməsi təmin olunmaldır;
- kiçik və orta sahibkarlıq subyektlərinin innovativ inkişafının sürətləndirlməsi üçün onların sərfəli maliyyə-kredit resurslarına əlçatanlığı təmin edilməli və bu proseslərin şəffaflığı, optimallığı diqqət mərkəzində saxlanılmalıdır və s.

## Ədəbiyyat


1.Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

2. Kiçik sahibkarlığa dövlət köməyi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 4 iyun 1999-cu il № 673-IQ.

3. Tağıyev A.H. İnnovasiya (nəzəri və tətbiqi səpkidə). Bakı: Təknur, 2018. 552 s.

4. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt, 2018, 376 s.

5. Kənd təsərrüfatı müəssisələrinin və fərdi sahibkar təsərrüfatlarının əsas iqtisadi göstəriciləri. Statistik məcmuə. Bakı, 2018, 330 s.

6. Azərbaycanda kiçik və orta sahibkarlıq. Statistik məcmuə. Bakı, 2018. 196 s.

7. Алексеева Г.М. О роли малого и среднего предпринимательства в инновационной экономике // Журнал Грамота, №10(88), 2014.- С. 11-12.

8. Зверева С.А. Финансовое планирование в системе управления финансами малых и средних предприятий. Дисс. канд. экон. наук. М.: 2008-180 с.

9. Yusifova Ş.A. Aqrar sahədə kiçik və orta sahibkarlığın inkişafında maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi istiqamətləri. İ.f.d. Avtoreferatı. Bakı, 2017. 30 s.

10. Əliyev T.N., Babayev L.V. Regional innovasiya sisteminin təşkili və idarə edilməsi. AMEA EİM. Bakı: Elm və təhsil, 2013. 272 s.

11. Gülməmmədov V. Azərbaycanda kiçik və orta sahibkarlığın tənzimlənməsində vergitutma amilləri // "Vergi" jurnalı, 2014, №3, s.170-173.

12. Bədəlova S.A. İnnovasiya iqtisadiyyatına keçid şəraitində real sektorun inkişafı məsələləri. İ.f.d. 13. Avtoreferatı. Bakı, 2016. 27 s.

14. Kredit Zəmanət Fondunun yaradılması haqqında Azərbaycan Respublikasının Prezidentinin 15 sentyabr 2017-ci il tarixli Fərmanı, Bakı şəhəri, 15 sentyabr 2017-ci il.

15. Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikasının Prezdentinin Fərmanı, Bakı şəhəri, 28 dekabr 2017-ci il.

16. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Nizamnaməsi. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir.

17. Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətləri siyahısı. Azərbaycan Respublikası Prezidentinin Fərmanı 26 iyun 2018-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir.
18. Abdullayeva Ş.H. İnnovasiyaların idarə edilməsinin təkmilləşdirilməsi problemləri. İ.f.d. Avtoreferatı. Bakı, 2013. 28 s.

**Резюме**

***Махмудова Л.Ф.***

**Финансовые проблемы инновативного развития малого и среднего предпринимательства в Азербайджане**

*В статье исследованы финансовые проблемы инновативного развития малого и среднего предпринимательства в Азербайджане. С этой целью раскрыта роль и сущность инноваций в развитии малого и среднего предпринимательства. Уделено внимание финансовым проблемам инновативной деятельности малых и средних предпринимательств. Рассмотрены проблемы нехватки требуемых финансовых ресурсов по разработке, подготовке и применению инноваций. Отмечена важность подачи целевых заказов инновационным продукциям. Подготовлены рекомендации и даны предложения по решению финансовых проблем интенсификации инновативного развития малого и среднего предпринимательства на современном этапе.*

***Ключевые слова:** малые и средние предпринимательства, финансовые проблемы малого и среднего предпринимательства, инновативное развитие малого и среднего предпринимательства, роль инноваций в развитии малого и среднего предпринимательства, пути решения финансовых проблем развития малого и среднего предпринимательства*

**Summary**

***Mahmudova L.F.***

**Financial Problems of Innovative Development of Small and Medium Enterprises in Azerbaijan**

*Financial problems of innovative development of small and medium enterprises in Azerbaijan are investigated in the article. To this end, the role and essence of innovation in the development of small and medium-sized businesses are revealed. Attention is paid to the financial problems of innovative activities of small and medium enterprises.The problems of the lack required financial resources for the development, preparation and application of innovations are considered. The importance of submitting targeted orders to innovative products is noted.Recommendations were prepared and proposals made for solving the financial problems of intensifying the innovative development of small and medium-sized businesses in the modern period.*

***Key words:** small and medium enterprises, financial problems of small and medium enterprises, innovative development of small and medium enterprises, the role of innovation in the development of small and medium enterprises, ways to solve the financial problems of small and medium business development.*

# KİÇİK VƏ ORTA SAHİBKARLIQ MÜƏSSİSƏLƏRİNİN MALİYYƏ TƏMİNATININ GÜCLƏNDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

***Məhərrəmov M.M.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.** Məqalədə kiçik və orta sahibkarlıq müəssisələrinin maliyyə təminatının gücləndirilməsi istiqamətləri tədqiq olunmuşdur. Bu məqsədlə, kiçik və orta sahibkarlıq müəssisələrinin iqtisadiyyatın dayanıqlı inkişafında rolu açıqlanmışdır. Həmin müəssisələrin maliyyə təminatının gücləndirilməsinin strateji əhəmiyyəti əsaslandırılmışdır. Maliyyə mexanizmlərinin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması hesabına müəssisələrin fəaliyyətinin gücləndirilməsi istiqamətləri müəyyənləşdirilmişdir. Baxılan problemlər üzrə tövsiyələr verilmiş və təkliflər hazırlanmışdır.*

***Açar sözlər:** kiçik və orta sahibkarlıq müəssisələri, maliyyə təminatı problemləri, maliyyə təminatının gücləndirilməsi, kiçik və orta sahibkarlıq müəssisələrinin maliyyə problemləri, kiçik və orta sahibkarlıq müəssisələrinin maliyyə təminatı mexanizmləri*

Müasir dövrdə müəssisələrin maliyyə dayanıqlılığının balanslaşdırılması və təmin edilməsi problemləri kifayət qədər aktualdır və onların həlli yollarının optimallaşdırılması tələb olunur. Bu problemlər son illərdə daha qabarıq olaraq üzə çıxmışdır. Dünya maliyyə böhranının mənfi cəhətləri hələ də aradan qaldırılmamışdır və bununla bağlı tədbirlərin daha da intensivləşdirilməsi tələb olunur [1]. Eyni zamanda, müəssisələrin maliyyə dayanıqlılığının təmin edilməsi məsələləri milli iqtisadiyyatın təhlükəsizliyi kontekstində daha sistemli və kompleks şəkildə baxılmalıdır. Müəssisələr şəbəkəsinin maliyyə sabitliyi şəraitində fəaliyyət göstərməsi iqtisadiyyatın ümumi sabitliyinin tərkib hissəsi kimi çıxış edir [2]. Müəssisənin özünün maliyyə təminatı strategiyasının olması da vacib şərtlərdəndir və bunun üçün maliyyə mənbələrinin diversifikasiyalaşdırılmasına nail olunmalıdır. Başqa sözlə, müəssisənin fəaliyyətinin davamlı şəkildə maliyyə təminatı mexanizmləri formalaşdırılmalıdır [3]. Bu vəzifənin reallaşdırılması üçün müəssisənin maliyyə aktivləri və resursları dərin və dürüst şəkildə təhlil edilməli, risklər müəyyənləşdirilməli, ehtiyatlar üzə çıxarılmalı və ümumilikdə maliyyə potensialı obyektiv olaraq qiymətləndirilməlidir. Müəssisənin maliyyə vəziyyətinin uzunmüddətli dövr üçün proqnozlaşdırılması prinsipləri və meyarları formalaşdırılmalıdır [4].

Qeyd edək ki, ölkəmizdə iqtisadi fəaliyyət subyektlərinin maliyyə təminatının gücləndirilməsi və maliyyə sabitliyinin təmin edilməsi ilə bağlı məsələlər strateji xarakter daşıyır. Belə ki, ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə bu aspektlər öz ifadəsini tapmışdır [5]. Xüsusilə, kiçik və orta müəssisələrin maliyyə təminatının gücləndirilməsinə daha çox önəm verilməsi diqqət çəkir. Yenə ölkə Prezidentinin 26 iyun 2018-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi"nin yaradılması buna misaldır [6]. Başqa sözlə, dövlət tərəfindən bu sahənin inkişafına strateji yanaşma təmin olunmuş və xüsusi dövlət agentliyi yaradılmışdır. Hələ buna qədər kiçik sahibkarlığın inkişafı ilə bağlı tədbirlər davamlı şəkildə təmin edilmişdir. Belə ki, 4 iyun 1999-cu ildən "Kiçik sahibkarlığa dövlət köməyi haqqında Azərbaycan Respublikasının Qanunu" qüvvədədir [7]. Bu qanunla həmin qəbildən olan sahibkarlıq subyektlərinin maliyyə və kredit resurslarına əlçatanlığı üçün mexanizmlər formalaşmışdır. Həmin məsələ kifayət qədər vacib xarakter daşıyır, belə ki, müəssisələrin maliyyəsi mikroiqtisadi səviyyədə ümumdövlət maliyyəsinə xas olan bölüşdürücü və nəzarət funksiyalarını yerinə yetirir. Müəssisələrin maliyyəsi maddi istehsal və istehlak sferalarında bütün maliyyə münasibətlərini əhatə etdiyinə görə ümumi maliyyə sisteminin əsas tərkib hissəsini və maddi bazasını təşkil edir [8]. Bu prinsiplərə və meyarlara əməl olunması müəssisənin maliyyə təminatının gücləndirilməsi üçün əsas şərtlərdəndir və onlara əməl olunmasının ciddi nəzarət mexanizmləri təmin edilməlidir. Belə ki, iqtisadi inkişaf proseslərinin, o cümlədən kiçik və orta müəssisələrin sabit fəaliyyətinin əsas təminedici komponentlərindən biri kimi maliyyə təminatı mühüm əhəmiyyət kəsb edir [9].

Son illərdə ölkəmizdə kiçik və orta sahibkarlığın inkişafı ilə bağlı müasir mexanizmlərin tətbiq edilməsi prosesləri daha da intensivləşməkdədir və bütün bunlar özünü həmin müəssisələrin fəaliyyətində göstərməkdədir. Bu baxımdan kiçik və orta sahibkarlıq fəaliyyəti ilə bağlı bir sıra göstəricilərə nəzər salsaq, görmək olar ki, ölkəmizdə bu qəbildən olan müəssisələrin milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsində, yeni artım mənbələrinin formalaşdırılmasında və əlavə dəyərin yaradılmasında rolu yüksəlməkdədir. 2017-ci ilin əvvəlində Azərbaycanda 86,5 mindən çox kiçik və orta sahibkarlıq müəssisələri fəaliyyət göstərməsi qeydə alınmışdır [10]. Bundan əlavə, ölkəmizdə 685,4 min fərdi sahibkarların fəaliyyət göstərdiyi məlumdur. Bu müəssisələrdə orta illik əlavə dəyərin ümumi məbləği 3,5-3,7 mlrd. manat təşkil etmişdir. Azərbaycanda formalaşdırılan əlavə dəyərin ümumi həcmində kiçik və orta sahibkarlıq müəssisələrinin xüsusi çəkisi ümumilikdə 6,4 %, qeyri-neft sektorunda isə 9,9 % səviyyəsindədir [11].Bütün bunlar kiçik və orta sahibkarlıq müəssisələrinin nə dərəcədə mühüm əhəmiyyət kəsb etdiyini göstərir. Amma bunun praktiki fəaliyyət proseslərində daha da genişləndirilməsi və həmin müəssisələrin səmərəliliyinin artırılması üçün maliyyə təminatı problemləri optimal həll yollarının müəyyənləşdirilməsini tələb edir. Maliyyə təminatı mexanizmləri çevik və multiplikativ xarakter daşımalı, müəssisənin qarşısında duran strateji hədəflərin reallaşdırılmasına əsaslı zəmin yaratmalıdır [12]. Buna görə də kiçik və orta sahibkarlıq müəssisələrinin maliyyə təminatının universal mexanizmləri olmalı, bu mexanizmlərin çevik icra alətləri tətbiq edilməldir. Maliyyə və kredit resurslarının zəmanətliliyi, sığortalanması təmin olunmalıdır. 15 sentyabr 2017-ci il "Kredit Zəmanəti Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında bu kimi problemlərin həlli üçün müasir mexanizmlərin müəyyənləşdirilməsinə xüsusi önəm verilmişdir [13].

Kiçik və orta sahibkarlıq müəssisələrinin maliyyə təminatının gücləndirilməsi ilə bağlı müasir dövrdə bir sıra məsələlərin diqqət mərkəzində saxlanılmasını vacib hesab edirik:

- hər bir müəssisənin strateji maliyyə siyasəti və mexanizmlərinin hazırlanması, müəssisənin uzunmüddətli inkişaf prioritetləri nəzərə alınmaqla əsaslandırılması təmin olunmalıdır;

- kiçik və orta sahibkarlıq müəssisələrinin daha ucuz kredit resurslarına əlçatanlığı mexanizmləri tətbiq edilməli və bununla bağlı fəaliyyət proseslərinin şəffaflığı, mühasibat hesabatlarının dürüstlüyü nəzarətdə saxlanılmalıdır;

- bu kateqoriyadan olan müəssisələrin maliyyə mənbələrinin diversifikasiyalaşdırılmasına, həmin mənbələrin dayanıqlılığının yüksəldilməsinə nail olunması prinsipləri və meyarları göstəriciləri işlənib hazırlanmalı, bunlarla bağlı olaraq praktiki fəaliyyət alətlərinin işləkliyi təmin edilməlidir və s.

## Ədəbiyyat


1. Ataşov B.X. Maliyyə bazarları. Bakı: Kooperasiya nəşriyyatı, 2016. 456 s.
2. Каурова Н.Н. Финансово-экономическая безопасность в условиях открытости национальной экономики (теоретико-методологический аспект). Дисс. д-ра экон. наук. Институт экономики РАН. М., 2013.
3. Ибашева П.А. Финансовая устойчивость предприятий в условиях экономического кризиса / П.А. Ибашева // Актуальные вопросы современной экономики. 2015, № 1, с. 63 – 67.
4. Грачев А. В. Финансовая устойчивость предприятия. Анализ, оценка и управление в рыночной экономике. М.: Дело и сервис, 2006, 544 с.
5. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016.- 59 s.
6. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin strukturu. Azərbaycan Respublikası Prezidentinin Fərmanı 26 iyun 2018-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir.
7. Kiçik sahibkarlığa dövlət köməyi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 4 iyun 1999-cu il № 673-IQ.
8. Ataşov B.X., Novruzov N.A., İbrahimov E.Ə. Müəssisələrin maliyyəsi. Bakı."Kooperasiya" nəşriyyatı, 2009.- 336 s.
9. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt, 2018, 376 s.
10. Azərbaycanın statistik göstəriciləri. Bakı, 2018. 808 s.
11. Azərbaycanda kiçik və orta sahibkarlıq. Statistik məcmuə. Bakı, 2017. 193 s.
12. Əliyev Ş.T. Azərbaycanda maliyyə sabitliyinin təmin edilməsi problemləri və maliyyə-kredit sisteminin inkişafının müasir aspektləri // Audit, № 03, 2017. -S. 26-40.
13. "Kredit Zəmanət Fondunun yaradılması haqqında" Azərbaycan Respublikasının Prezidentinin 15 sentyabr 2017-ci il tarixli Fərmanı, Bakı şəhəri, 15 sentyabr 2017-ci il.


## Резюме


***Магерремов М.М.***


### Направления усиления финансового обеспечения предприятий малого и среднего предпринимательства


*В статье исследованы направления усиления финансового обеспечения предприятий малого и среднего предпринимательства. С этой целью анализирована роль предприятий малого и среднего предпринимательства в устойчивом развитии экономики. Обоснована стратегическая важность усиления финансового обеспечения данных предприятий. Определены направления усиления деятельности этих предприятий за счет повышения эффективности и совершенствования финансовых механизмов. Подготовлены рекомендации и даны предложения по рассматриваемым проблемам.*



***Ключевые слова:*** *предприятия малого и среднего предпринимательства, проблемы финансового обеспечения, усиление финансового обеспечения, проблемы финансового обеспечения предприятий малого и среднего предпринимательства, механизмы финансового обеспечения предприятий малого и среднего предпринимательства*

**Summary**

***Maharramov M.M.***

***Directions of Strengthening Financial Provision of the Enterprises of Small and Medium Business***

*The directions of strengthening of financial provision of the enterprises of small and medium business are investigated in the article. The role of the enterprises of small and average business in sustainable development of economy is analyzed for this purpose. Strategic importance of strengthening of financial ensuring of data of the enterprises is improved. The directions of strengthening of activity of these enterprises due to increase in efficiency and improvement of financial mechanisms are defined too. Recommendations and offers on the considered problems are given.*

***Key words:*** *enterprises of small and medium business, problem of financial ensuring, strengthening financial provision, problem of financial ensuring of the enterprises of small and medium business, mechanisms of financial ensuring of the enterprises of small and medium business*

## VERGİ ÖHDƏLİKLƏRİNİN YERİNƏ YETİRİLMƏSİ ÜZRƏ KORPORATİV NƏZARƏTİN İSTİQAMƏTİ KİMİ VERGİ RİSKLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***Məhərrəmov R.B.***

*Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzi,*

***Məmmədzadə N.R.***

*UNEC*

***Mədətova Ş.Q.***

*UNEC*

Vergi münasibətlərinin imperativ xarakter daşıdığını nəzərə alaraq, dövlət vergi orqanları tərəfindən vergi ödəməkdan yayınma riskinin azaldılması və vergi ödənilməsinin minimallaşdırılması, vergi ödəyicilərində vergi nəzarəti və vergi yükünün artması, cinayət təqibinin və vergi hüquq pozuntusu risklərinin qarşısının alınması istiqamətində tədbirlər həyata keçirilir.

Bir çox hallarda, rəqabət mühitinin olmadığı bir şəraitdə vergi nəzarətinin və vergi məsuliyyətinin artırılması onların müflisləşməsinə gətirib çıxarır.

Az sayda təsərrüfat subyektləri, əsasən iri şirkətlər, vergi risklərini səmərəli şəkildə idarə edə bilirlər. Vergi riskinin minimallaşdırılması qanunvericiliklə müəyyən edilmiş həddə vergi yükünün azaldılması üçün səmərəli vasitədir. Vergi yükü üzərində nəzarətinin kifayət qədər olmaması isə biznesin dəyərinin itirilməsinə, kredit almaq imkanının məhdudlaşmasına, inzibati və cinayət məsuliyyətinə, hesablara həbs qoyulmasına, müflisləşməyə və bu kimi digər neqativ hallara gətirib çıxarır.

Vergi risklərinin qarşısının alınması iqtisadi cəhətdən aktiv vergi ödəyiciləri üçün xüsusi əhəmiyyət kəsb edir. Çünki onlar öz bizneslərini qorumaq üçün, qanunvericiliyə zidd olmayan çərçivədə, vergi öhdəliklərinin azaldılması istiqamətində istənilən addımları atırlar. İntizamlı vergi ödəyicisi imicinin yaradılması bir çox təsərrüfat subyektlərinin strateji məqsədidir. Vergi qanunvericiliyindəki dəyişikliklər və fiskal tənzimlənmə metodları vergi riskləri barədə dəqiq informasiya, həmçinin vergitutma məsələlərində şəffaflıq tələb edir. Bununla əlaqədar olaraq, vergi riskləri korporativ nəzarət sisteminin və korporativ risklərin idarə edilməsinin ayrılmaz hissəsi kimi qəbul edilməlidir [8].

Dövlət vergi nəzarəti vergi qanunvericiliyinin pozulmasına qarşı yönəldilmişdir ki, bu da risk yaradan amillərin araşdırılmasını və səyyar vergi yoxlamasının keçirilməsi ehtimalını artırır. Son dövrlərdə vergi orqanları tərəfindən səyyar vergi yoxlamalarının keçirilməsi üçün obyektlərin seçilməsi prosesində vergi ödəyiciləri üçün risklərin sərbəst qiymətləndirilməsi meyarlarından istifadə olunur.

Vergi ödəyicilərinin iqtisadi fəaliyyətini əks etdirən göstəricilər əsasında Vergilər Nazirliyi vergidən yayınma risklərinin idarə edilməsi üzrə 7 risk meyarını (əmək haqqı, hesablanmış vergi, ödənilmiş vergi, rentabellik, ƏDV, dövriyyənin azaldılması, xərclərin artırılması) müəyyənləşdirmişdir [2].Bu meyarlar əsasında Vergilər Nazirliyi mövcud məlumat bazası vasitəsilə yarana biləcək kənarlaşmaları araşdırır və riskləri müvafiq ballarla qiymətləndirir.

Bu meyarlar əsasında müəyyən olunan risklər üzrə kameral vergi yoxlaması Vergi Məcəlləsinin 37.2-ci maddəsində nəzərdə tutulmuş müddət ərzində həyata keçirilməlidir. Bu müddət bitdikdən sonra risklərə əsasən həmin bəyannamə üzrə yenidən kameral vergi yoxlaması keçirilə bilməz [1].

Bildiyimiz kimi, vergi ödəyiciləri daha yüksək gəlir əldə etmək məqsədilə vergidən yayınmaqla yüksək vergi riskinə gedir, öz maliyyə-təsərrüfat fəaliyyətinə zərbə vururlar. Vergi ödəyicisinin bu cür qanunazidd hərəkəti vergi öhdəliklərini yerinə yetirməli olan digər vergi ödəyiciləri ilə zəncirvari qaydada təsərrüfat fəaliyyətinin pozulmasına, nəticədə real dövriyyə olmadan qeyri-real xərclərin və dolayı vergilər üzrə əvəzləşdirmələrin həyata keçirilməsinə gətirib çıxarır. Vergi nəzarəti üzrə risk meyarlarının müəyyən edilməsi hər bir vergi ödəyicisinə vergi öhdəliklərinin yerinə yetirilməsi zamanı yol verdiyi səhvlərin sərbəst aradan qaldırılmasına imkan verir.

Korporativ vergi nəzarəti sistemi təsərrüfat subyektlərində vergi risklərinin idarə edilməsinin əsasını təşkil edir və bununla əlaqədar olaraq aşağıdakıların nəzərə alınması tövsiyə edilir:

- vergi risklərinin iqtisadi və hüquqi məzmununun müəyyən edilməsi və qiymətləndirilməsi;
- mövcud tələblər və vergi qanunvericiliyində baş verə biləcək dəyişikliklər nəzərə alınaraq təsərrüfat subyektlərinin fəaliyyətində ehtimal olunan riskli halların azaldılması üzrə qabaqlayıcı tədbirlərin həyata keçirilməsi;
- vergi öhdəliklərinin yaranmasının norma və şərtlərinə nəzarət zamanı xüsusi diqqət tələb edən iqtisadi fəaliyyətin daha çox riskli istiqamətlərinin müəyyən edilməsi;
- vergi ödəyicilərinin məqsədəmüvafiq hərəkətləri barədə tövsiyələrin verilməsi.

İqtisadi subyektin təsərrüfat fəaliyyətində yaranmış vergi risklərinin nəticələri daha böyük əhəmiyyət kəsb edən risklərin müəyyən edilməsinə və korporativ vergi nəzarəti tədbirinin təşkili və keçirilməsinə, bununla da bu risklərin minimallaşdırılmasına imkan verir. Bunun üçün risklərin müəyyən edilməsinə aid olan nəzarət prosedurlarının siyahısının tərtib edilməsi zəruri hesab edilir:

- vergi riskinin minimallaşdırılmasına yönəldilmiş korporativ vergi nəzarəti tədbirinin müəyyən edilməsi;
- daha çox vergi riskinə məruz qala bilən fəaliyyətin və ya prosesin müəyyən edilməsi;
- riskin nəticələrinin minimallaşdırılması məqsədilə keçirilməsi nəzərdə tutulan korporativ vergi nəzarəti prosedurunun planlaşdırılmasının qısa xarakteristikası;
- korporativ vergi nəzarəti prosedurunun təsnifatı (zərurət yarandığı halda informasiyanın strukturlaşdırılması);
- korporativ vergi nəzarətinin həyata keçirilməsi metodikasına (normativ bazasına) istinadlar;
- korporativ vergi nəzarəti prosedurunun icraçıları (əməkdaş və (və ya) informasiya sistemi);
- korporativ vergi nəzarəti prosedurunun keçirilməsinin müddəti;
- korporativ vergi nəzarəti prosedurunun keçirilməsinə əsaslanan daxili sənədlər;
- korporativ vergi nəzarəti prosedurunu təsdiqləyən xarici sənədlər;
- korporativ vergi nəzarəti prosedurunun keçirilməsindən gözlənilən nəticə.

Ənənəvi olaraq kiçik və orta biznes subyektlərində vergi risklərinin idarə edilməsi ilə mühasibatlıq məşğul olur, bununla belə, bu xidmət də risk mənbəyi ola bilər. Məsələn, texniki səhvlər, mühasiblərin ixtisaslarının aşağı olması, onların vergi öhdəliklərinin azalmasına birbaşa marağının olmaması bu cür riskləri artırır.

Təsərrüfat subyektlərində vergi risklərinin əsas növünün korporativ nəzarətini aşağıdakı üç səviyyədə təşkil edilməsi məqsədəuyğun hesab edilir:

- fərdi (əməkdaş səviyyəsində);
- intersəviyyədə (bütövlükdə təşkilat səviyyəsində);
- mezosəviyyədə (holdinq, qrup kompaniyalarda).

Vergi qanunvericiliyinə mütəmadi olaraq edilən dəyişikliklər, vergi qanunvericiliyinin vergi ödəyiciləri tərəfindən kifayət qədər mənimsənilməməsi, onlarda maliyyə itkilərinə səbəb ola bilən ehtimalı yüksəldir. Daxili nəzarət sisteminin səmərəli qurulması üçün xarici ölkələrin təcrübəsini nəzərə alaraq, təsərrüfat subyektləri risklərini eyniləşdirmək, "risklər xəritəsi"ni tərtib etmək, bununla da, daha kritik riskləri müəyyən etmək məqsədəuyğundur. İqtisadi ədəbiyyatlarda "risklər xəritəsi"nin müxtəlif variantları mövcuddur.

Rastamxanova L.N. tərəfindən biznes məqsədilə fəaliyyət göstərən təşkilatlar üçün təqdim edilən "risklər xəritəsi" daha maraqlıdır. "Ehtimal olunan – nəticələr" adlanan sistemində hər bir biznes qrupu üçün onun məqsədi və ehtimal olunan riskləri əks olunur [9].

Qeyd olunanları ümumiləşdirərək "vergi riskləri" xəritəsini aşağıdakı kimi təsvir edilə bilərik:

| Risk yarada bilən amillər | Riskin baş verə bilmə ehtimalı (0-100%) | Mümkün ola bilən zərər (manat) | Qarşısının alınması üsulları |
|---|---|---|---|
| *Daxili səbəblər* | | | |
| Təsərrüfat subyektində vergitutma üzrə ixtisaslı kadrların olmaması | | | İşçilərin ixtisaslarının artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsi (xüsusi ədəbiyyatın alınması, təlimlərin keçirilməsi və s.). Personala münasibətdə kadr siyasətinə yenidən baxılması. |
| Təsərrüfat subyektinin mürəkkəb struktura malik olması | | | Subyektin struktur vahidləri səviyyəsində zəruri olan bütün nəzarət prosedurları üzrə monitorinqin keçirilməsi. Vergilərin hesablanması və ödənilməsi qaydalarının tənzimlənməsi üzrə daxili normatıv sənədlərin araşdırılması. |
| Uçot və nəzarət üzrə təşkil edilmiş informasiya-texnoloji sistemin keyfiyyətinin aşağı olması və ya heç olmaması | | | Proqram təminatının yenilənməsi və ya dəyişdirilməsi. İnformasiya sisteminin səmərəliyinin səviyyəsinə təsir edən tədbirlərin sistemliliyi və planauyğunluğu. |
| Vergi hesabatlarının müəyyən edilmiş müddət ərzində təqdim edilməsi normalarının pozulması | | | Təşkilatlara, konkret əməkdaşlara maliyyə sanksiyalarının tətbiq edilməsi |
| *Xarici səbəblər* | | | |
| Vergi yoxlaması | | | Daxili nəzarət prosedurunun mütəmadi olaraq keçirilməsi |
| Vergi qanunvericiliyinin dəyişdirilməsi | | | Vergi qanunvericiliyinin monitorinqi. Tətbiq edilən yeniliklərin təhlili. |

Vergi riskləri üzrə nəzarət tədbirlərini istənilən bir layihənin həyata keçirilməsinədək, müqavilə şərtlərinin icrasınadək başlamaq lazımdır. Bunun üçün vergitutma sistemini və xüsusiyyətlərini müəyyən etmək, xarici mühiti, o cümlədən vergi qanunvericiliyindəki dəyişiklikləri qiymətləndirmək və risklərin təhlilini aparmaq lazımdır.

Vergi risklərinin qiymətləndirilməsi üçün müəssisələr vergiləri hesablayarkən mümkün ola bilən səhvlərin, qeyri-dəqiq məlumatların müəyyən edilməsi məqsədilə aşağıdakı meyarlardan istifadə edə bilərlər:

1. Vergi ödəyicisində vergi yükünün konkret sahənin təsərrüfat subyekti üzrə orta səviyyəsinə nisbətən aşağı olması;
2. Mühasibat və ya vergi hesabatlarında bir neçə vergi dövrlərində ziyanın əks etdirilməsi;
3. Vergi hesabatlarında müəyyən dövr ərzində böyük həcmdə vergi çıxılmalarının əks etdirilməsi;
4. Xərclərin artım tempinin malların satışından (işlərin görülməsindən, xidmətlərin göstərilməsindən) alınan gəlirlərin artım tempinə nisbətən çox olması;
5. Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada hər hansı bir xüsusi vergi rejimlərindən birinin seçilməsi;
6. Təqvim ili ərzində fərdi sahibkarlar tərəfindən xərclərin maksimal olaraq onun gəlirlərinə uyğunlaşdırılması;
7. Kontragentlər-alıcılarla (satıcılarla) və ya vasitəçilərlə bağlanmış müqavilələr əsasında maliyyə-təsərrüfat fəaliyyətinin hər hansı bir iqtisadi və ya digər səbəb olmadan qurulması;
8. Vergi ödəyiciləri tərəfindən göstəricilər arasında uyğunsuzluq barədə vergi orqanlarına məlumatın verilməməsi;
9. Fəaliyyət yerinin dəyişməsi ilə əlaqədar mütəmadi olaraq vergi ödəyicisinin vergi orqanlarında uçota alınması və uçotdan çıxarılması;
10. Rentabellik səviyyəsinin həmin sahə üzrə ümumi statistik rentabellik səviyyəsindən kənarlaşması;
11. Maliyyə-təsərrüfat fəaliyyətinin yüksək vergi riski ilə aparılması.

Vergilərin azaldılması istiqamətində vergi ödəyicilərinin hərəkətləri bu və ya digər risklərin yaranmasına gətirib çıxarır ki, bu da sonda xoşagəlməz nəticələrin yaranmasına səbəb olur.

Beləliklə, vergi riskinin müəyyən edilməsi və qiymətləndirilməsi üçün ilk növbədə operativ və düzgün informasiyanın mövcud olması çox zəruridir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi
2. "Təsərrüfat obyektləri və fəaliyyət sahələri üzrə risklərin qiymətləndirilməsi Metodologiyası. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının qərarı ilə təsdiq edilmişdir. 7 sentyabr 2016-cı il.
3. Kəlbiyev Y.A., Məhərrəmov R.B., Rzayev P.Q. Xarici ölkələrin vergi sistemi. Dərslik. Bakı: İqtisad Universiteti, 2011.
4. Məhərrəmov R.B. Vergi risklərinin risk sistemləri təsnifatında yeri. Vergilər Nazirliyinin Tədris Mərkəzində keçirilmiş "Azərbaycanın davamlı inkişafında vergi siyasətinin rolu", Elmi-praktik konfransın materialları, 5 iyun 2015
5. Məhərrəmova (Məmmədzadə) N.R. Vergi nəzarətinin iqtisadi mahiyyəti və onun maliyyə nəzarəti sistemində yeri. Azərbaycanın vergi xəbərləri jurnalı, №8, 2011
6. Həsənov Ə.N., Mehdiyev C.A., Hüseynov E.Ə., Məhərrəmov R.B., Babayev Z.A., Yadigarov F.M. Vergi inzibatçılığı. Dərslik. Bakı: Bestpakt MMC, 2017
7. ДемчукИ.Н. Налоговый риск: сущность и содержение понятия / И.Н. Демчук // Вестник Томского государственного университета. - 2010. - № 1
8. Налоговый учет и налоговый контроль: российский и международный опыт: монография /Н.Т.Лабынцев, Е.В.Поролло, Е.С.Цепилова. Ростов-на-Дону, РГЭУ, 2012. с.134
9. Растамханова Л.Н. Теория, методология и организация систем внутреннего контроля в условиях консалтинга: автореферат дисс. д-ра эконом. наук. Йошкар-Ола, 2009, с.29
10. Цепилова Е.С. Методология и инструментарий корпоративного контроля выполнения налоговых обязательств хозяйствующими субъектами. Дисс. д-ра эконом. наук. Ростов-на-Дону, 2016


**Резюме**


***Магеррамов Р.Б., Мамедзаде Н.Р., Мадатова Ш.Г.***


**Оценка налоговых рисков как основного направления корпоративного контроля по исполнению налоговых обязательств**


*В статье рассматриваются вопросы корпоративного налогового контроля по исполнению налоговых обязательств хозяйствующих субъектов, направления по предотвращению налоговых рисков посредством корпоративного контроля. Указывается на то, что корпоративный налоговый контроль является основой управления налоговыми рисками в хозяйствующих субъектах, дается перечень контрольных процедур, связанных с выявлением налоговых рисков. Предлагается «карта налоговых рисков», даются критерии для выявления возможных ошибок и неточной информации при оценке налоговых рисков.*



*Ключевые слова:налоговое законодательство, корпоративный контроль, налоговое обязательство, налоговый риск*


**Summary**


***Maharramov R. B., Mammadzade N. R., Madatova Sh.Q.***


**Assessment of Tax Risks as the Main Direction of Corporate Control on the Fulfillment of Tax Obligations**


*The article discusses the issues of corporate tax control for the fulfillment of tax obligations of business entities, directions for the prevention of tax risks through corporate control. It is pointed out that corporate tax control is the basis for managing tax risks in economic entities, and provides a list of control procedures related to the identification of tax risks. A "tax risk card" is proposed, criteria are given to identify possible errors and inaccurate information when assessing tax risks.*



***Key words:*** *tax law, corporate control, tax liability, tax risk*

# KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN MALİYYƏ TƏMİNATI

***Məmmədli Z.T., Məmmədov S.C.***
*Azərbaycan Texnologiya Universiteti*

***Xülasə.*** *Son illər Azərbaycan Respublikasında iqtisadiyyatın davamlı inkişafına nail olunması və rəqabətqabiliyyətliliyin təmin edilməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilməkdədir. İqtisadi islahatlar və iqtisadiyyatın qeyri-neft sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin dəstəklənməsi, əlavə güzəşt və stimullaşdırma siyasətinin gerçəkləşdirilməsi nəticəsində bu sahədə ciddi irəliləyişlər əldə olunmuşdur. Əsasən də kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi, onların maliyyə təminatının yaxşılaşdırılması, dövlət tərəfindən sahibkarlara güzəştli kreditlərin verilməsi ölkədə biznes mühitinin yaxşılaşdırılmasına və iqtisadi sahədə ciddi nailiyyətlərin əldə olunmasına zəmin yaradır. Sahibkarlıq sahəsində yoxlamaların iki il müddətinə dayandırılması, vahid reyestrinin tutulması və əvvəlcədən yoxlama subyektlərinin məlumatlandırılması kiçik və orta sahibkarlıq sahəsinin inkişafına xüsusilə müsbət təsir göstərmişdir. Həyata keçiriləcək islahatlar nəticəsində kiçik və orta sahibkarlıq subyektlərində dövlət orqanlarının apardıqları yoxlamalar daha da optimallaşdırılacaq, kiçik və orta sahibkarlığın dinamik inkişafı üçün daha əlverişli şərait yaranacaqdır.*

***Açar sözlər:*** *kiçik sahibkarlıq, orta sahibkarlıq, maliyyə təminatı, güzəştli kreditlər.*

Müasir dövrdə sahibkarlığın inkişafında əsas məsələlərdən biri onun maliyyələşdirilməsidir. Maliyyə bazasının təşkil edilməsinin ən sadə və etibarlı variantı sahibkarlıq mülkiyyətçisinin öz vəsaitlərini və cəlb edilmiş vəsaitləri bu və ya digər formada yeni müəssisələrə yönəltməsidir. Azərbaycan iqtisadiyyatında bu məsələ ilə bağlı problem ondadır ki, yeni fəaliyyətə başlayan sahibkarlar kifayət qədər maliyyə vəsaitlərinə malik olmurlar. Dünya praktikasında bu problem müxtəlif yollarla həll olunur. İqtisadi nəticə isə eynidir. Kifayət dərəcədə maliyyə resurslarına malik olan dövlət, bank, investisiya fondları və s. böyük risk hesabına olsa da, yeni fəaliyyətə başlayan sahibkarlara yardımçı olmalıdırlar. Bu məsələlərin həllində ayrı-ayrı sərmayəçilər üçün maraqlı amil yüksək dərəcədə mənfəət əldə etmək, dövlət strukturları üçün isə məşğulluq probleminin həll olunması və belə layihələrin sosial səmərəsidir. Ölkəmizdə sahibkarlığın, xüsusilə də kiçik və orta sahibkarlığın inkişafının maliyyələşdirilməsi məqsədilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi nəzdində Sahibkarlığın İnkişafı Fondu yaradılmışdır. Aşağıdakı cədvəldə kiçik və orta sahibkarlıq subyektlərinin əsas makroiqtisadi göstəriciləri verilmişdir.[1]

**Kiçik və orta sahibkarlıq subyektlərinin əsas makroiqtisadi gostəriciləri**

**Cədvəl**

| | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|
| Yaradılmış əlavə dəyər, milyon manat | 844,8 | 1120,0 | 1227,0 | 1346,5 | 1466,2 | 1437,0 | 1987.8 |
| Ümumi mənfəət, milyon manat | 65,8 | 78,3 | 85,3 | 122,8 | 165,4 | 175,4 | … |
| İşçilərin orta illik sayı, min nəfər | 105,9 | 93,2 | 90,2 | 95,5 | 109,0 | 115,0 | 87,6 |
| Orta aylıq nominal əmək haqqı, manat | 195,2 | 207,0 | 222,2 | 263,3 | 303,5 | 348,0 | 302,1 |
| Əsas kapitala investisiyalar, milyon manat | 289,3 | 276,3 | 737,6 | 531,6 | 486,5 | 746,5 | 807,2 |
| Dövriyyə, milyon manat | 2910,1 | 3835,5 | 4208,5 | 5100,6 | 6072,6 | 5951,7 | 5986,3 |

Hazırda Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinə maliyyə xidmətləri göstərən bir sıra qurumlar mövcuddur. Bu qurumlara aşağıdakılar daxildir [2].:

Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu sahibkarlara güzəştli kreditlərin, o cümlədən dövlət büdcəsindən əlverişli şərtlərlə kreditlərin ayrılmasını təmin edir. Say baxımından verilən kreditlərin 97 faizi kiçik kreditlərdir ki, bu da Sahibkarlığın İnkişafı Fondu tərəfindən ayrılmış kreditlərin ümumi məbləğinin 9 faizini təşkil edir. Bu günə kimi Sahibkarlığın İnkişafı Fondu hər birinə orta hesabla 47000 ABŞ dolları həcmində olmaqla, 12,5 min müəssisəyə kredit vermişdir. Bu kreditlərin böyük hissəsi kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsinə ayrılmışdır.

"Azərbaycan İnvestisiya Şirkəti" ASC (AİŞ). AİŞ yerli və xarici investisiyalarla yanaşı, əsaslı kapital qoyuluşları vasitəsilə neft və qaz sənayesi istisna olmaqla, digər sektorların inkişafına da dəstək verir. AİŞ səhm paketinin ən azı 1 milyon ABŞ dolları təşkil edən vençur kapitalının (sahibkarlıq kapitalı) şirkətlərə ayrılmasını təmin edir. AİŞ-in portfeli çoxşaxəlidir və özündə müxtəlif sahələri, məsələn ağır

sənayeni, kənd təsərrüfatını, logistika sahəsini, səhm üzrə alt fondları və yeyinti məhsullarının emalını birləşdirir.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO). Təşviq və təlim fəaliyyətləri ilə yanaşı, AZPROMO kiçik və orta sahibkarlıq subyektlərinə beynəlxalq satış yarmarkalarında iştirak etmək üçün vəsaitlər ayırır. AZPROMO habelə qeyri-neft sektorundan olan kiçik və orta sahibkarlıq subyektlərinə maliyyə vəsaitləri əldə etməyə kömək edir.

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti. Dövlət Xidmətinin illik 2 faiz dərəcəsi ilə verdiyi kreditlərdən istifadə etməklə, müvəkkil banklar 5 faizdən artıq əlavə faiz dərəcəsi tətbiq etmədən sahibkarlara və fermerlərə güzəştli şərtlərlə kreditlər ayırırlar. Bunun nəticəsində, həmin kiçik və orta sahibkarlıq subyektləri yerli valyutada illik faiz dərəcəsi 7 və ya daha aşağı olan kreditlər əldə edə bilirlər.

Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu. Bu Fond ümumi məbləği 300 min manata qədər olan qrantların ayrılması ilə yüksək texnologiyalar tətbiq edən startapların maliyyələşdirilməsini həyata keçirir.

Bununla belə, Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxışında müəyyən çətinliklər mövcuddur və daxili maliyyə mənbələrinin məhdudluğu kiçik və orta sahibkarlıq subyektlərinin xarici maliyyə bazarlarından asılılığını artırır. Lakin xarici maliyyə bazarlarından da maliyyə resurslarının cəlb edilməsi bir çox səbəblərdən yerli kiçik və orta sahibkarlıq subyektləri üçün asan olmur.

Yerli kiçik və orta sahibkarlıq subyektləri maliyyə vəsaitləri cəlb edərkən, əsasən, kredit təşkilatlarının imkanlarından istifadə etməyə meyillidirlər. Dünyada geniş yayılmış qiymətli kağızlar bazarı alətləri Azərbaycanda kiçik və orta sahibkarlıq subyektləri arasında yayılmamışdır.

Hazırda Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin kredit müraciətlərinə imtina səviyyəsi yüksəkdir. Məsələn, 2017-ci ildə kənd təsərrüfatı sahəsində kredit müraciətlərinin dörddə birinə imtina cavabı verilmişdir. Bundan başqa, mikrobiznes subyektlərinin kredit müraciətlərinin 36 faizinə banklar kredit verməkdən imtina etmişdir. Bankların kredit müraciətlərinə mənfi cavab verməsi göstəricilərinin belə yüksək olmasının səbəbləri müxtəlifdir, lakin buradan xüsusi bir mənzərənin yarandığını görmək olar. Azərbaycandakı bankların kiçik və orta sahibkarlıq subyektlərinə kredit verməkdə maraqlı olmamasına əsas verən amillər sırasında aşağıdakıları qeyd etmək olar:

- kiçik və orta sahibkarlıq subyektləri iqtisadiyyatın çox kiçik hissəsini təşkil edir və bu sahədə inkişaf sürəti çox aşağıdır;
- kiçik və orta sahibkarlıq fəaliyyəti riskli sahədir və tələb olunan məlumatlar risklərin qiymətləndirilməsi üçün kifayət deyildir;
- kiçik və orta sahibkarlıq sahəsinə xidmət banklardan daha çox xərc tələb edir. Belə ki, kiçik və orta sahibkarlıq subyektlərində risk səviyyəsi yüksək olduğuna görə, korporativ hesablarda olduğu kimi, əhatəli siğorta mexanizminin tətbiqi tələb olunur. Bundan başqa, kiçik və orta sahibkarlıq subyektləri maliyyə xidmətlərindən onlayn kanallar vasitəsilə istifadəyə açıq deyillər, ona görə də banklar daha çox filiallar, şöbələr və çağrı mərkəzləri vasitəsilə xidmət göstərməli olurlar;
- mübahisələrin həlli mexanizmlərinin məhdudluğu və girov təminatının geri tələb olunması məsələləri hələ də problemli sahələrdir.

**Ədəbiyyat**


1.Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. www.stat.gov.az

2. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.


**Резюме**


***Мамедли З.Т., Мамедов С.Дж.***


**Финансовая поддержкамалого и среднего бизнеса**


*В последние годы в Азербайджанской Республике были приняты масштабные меры для достижения устойчивого развития экономики и обеспечения конкурентоспособности. Значительный прогресс был достигнут в области экономических реформ и поддержки предпринимателей, работающих в ненефтяном секторе экономики, а также в реализации дополнительных льгот и политики стимулирования, в частности, улучшены предприятия малого и среднего бизнеса, улучшено их финансирование, а правительство предоставляет предпринимателям*

*льготные кредиты, улучшение окружающей среды и достижение значительных экономических выгод.*

*Двухлетняя приостановка проверок в области предпринимательства, ведение единого реестра проверок и информирование субъектов проверок оказали положительное влияние на развитие малого и среднего бизнеса.*

*В результате проведенных реформ будут дополнительно оптимизированы проверки государственных органов в сфере малого и среднего бизнеса, а также будут созданы более благоприятные условия для динамичного развития малого и среднего бизнеса.*

***Ключевые слова:*** *малое предпринимательство, средний бизнес, финансовая поддержка, льготные кредиты*

**Summary**

***Mammadli Z.T., Mammadov S.J.***

**Financial Provision of Small and Medium-Sized Business**

*In recent years, large-scale measures have been implemented in the Republic of Azerbaijan to achieve the sustainable development of the economy and to ensure competitiveness. Significant progress has been made in the area of economic reforms and support for entrepreneurs operating in the non-oil sector of the economy, as well as the implementation of additional concessions and stimulus policies. In particular, small and medium-sized businesses and their financing have been improved. The two-year suspension of inspections in the field of entrepreneurship, keeping a single registry of inspections and informing subjects of the inspections have had a positive impact on the development of small and medium-sized businesses. As a result of implemented reforms, inspections of government agencies in small and medium-sized businesses will be further optimized, and more favorable condition swill be created for the dynamic development of small and medium-sized businesses.*

***Key words:*** *small entrepreneurship, medium-sized business, financial support, preferential loans*

## TƏŞKİLATIN MALİYYƏ -TƏSƏRRÜFAT FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİNƏ TƏSİR GÖSTƏRƏN AMİLLƏR

***Məmmədova İ.İ.***
*UNEC*

***Xülasə.*** *Tədqiqatda təşkilat daxilində maliyyə-təsərrüfat münasibətlərinin yaradılması, idarə edilməsi və inkişaf etdirilməsi, həmçinin təşkilatın əsas dövriyyə vəsaitlərinin hərəkətliliyinin təmin edilməsi proseslərinə təsir göstərən amillər araşdırılmışdır. Elmi yenilik kimi təşkilatın maliyyə təsərrüfat fəaliyyətinin tərkibi hissəsi göstərilmişdir. Tədqiqatın nəticəsi kimi təşkilatın maliyyə təsərrüfat fəaliyyətinə təsir göstərən amillər araşdırılaraq müxtəlif yanaşmalarda izah edilmişdir.*

***Açar sözlər****: maliyyə-təsərrüfat fəaliyyəti, maliyyə dayanıqlılığı, təşkilatın maliyyəsi, maliyyə texnologiyası*

Təşkilatın fəaliyyətlərinin həyata keçirilməsi, ilk növbədə, maliyyə təsərrüfat fəaliyyətinin tənzimlənməsindən asılıdır. Təşkilatın maliyyəsi məqsədli pul vəsaitlərinin bölgüsü, onların istehlak və istehsal xarakterli istifadəsi ilə bağlı təsərrüfat subyektlərində meydana gələn pul münasibətləri toplusudur [1.s.134]. Bu məqsəddən irəli gərələk hər bir təsərrüfat subyektinin maliyyə-təsərrüfat fəaliyyətinin mühüm tərkib hissəsi maliyyə dayanıqlılığını vurğulamaq olar. İqtisadi sabitlik vəziyyətində təşkilat kredit və borcların əldə edilməsində,investisiyaların cəlb olunmasında, təchizatçılar seçimində və ixtisaslı heyət üzlərinin işə qəbulunda eyni təmayüllü digər təşkilatlar qarşısında üstünlüyə malikdir.

İqtisadi ədəbiyyatda “maliyyə dayanıqlılığı” termininin açılışı fərqlidir. Məsələn, Q.V. Savitskaya hesab edir ki, təşkilatın maliyyə dayanıqlılığı özündə dəyişkən xarici və daxili mühit şəraitlərində bütün aktiv və passivlərin balansını qorumaqla təsərrüfat subyektinin mövcud olmaq və təkmilləşmək imkanını ehtiva edir. Bu zaman sözügedən balans uzun müddətli perspektivdə və mümkün risklər zamanı subyektin ödəniş qabiliyyətliliyinə və investisiya cəlbediciliyinə zəmanət verir [2.s.197].

Maliyyə dayanıqlılığının mahiyyətinə verdiyi tərifdə formalaşdırıcı mənbə ehtiyatlarının elə şəkildə təmin edilməsindən bəhs olunur ki, bu zaman ödəniş qabiliyyətliliyi təşkilatın kənar təzahürü qismində həyata keçirilir.

Həmçinin maliyyə dayanıqlılığını, konkret dövrdə təşkilatın ümumilikdə maliyyə vəziyyətini müəyyənləşdirən fəaliyyətini həyata keçirən maliyyə axınlarının tarazlığı, pul vəsaitlərinin mövcudluğu olaraq şərh etmək olar.

Təşkilatın maliyyəsi təsərrüfatçılıq subyektində mənfəətin yaradılması və bölüşdürülməsi, o cümlədən inzibatı fəaliyyətdən irəli gələn proseslərdə bütün pul münasibətlərinin məcmusu kimi başa düşülür [3.s.17]. Maliyyə fəaliyyəti təşkilatın mühüm funksiyasını yerinə yetirir. Başqa cür qeyd etsək, maliyyə fəaliyyəti bölüşdürücü rol oynayaraq dəyər göstəricilərini hərəkət etdirilməsi həyata keçirir [4.s.41]. Maliyyə təsərrüfat fəaliyyətini tərkib halında aşağıdakı şəkildə göstərmək olar.




**Şəkil.Təşkilatın maliyyə təsərrüfat fəaliyyətinin tərkibi.**

Təşkilat maliyyə cəhətdən sabit olsa da, başqa sözlə, əlverişsiz dövrlərdə səmərəli surətdə fəaliyyət göstərməyə, kadrlar, kontragentlər və banklarla büdcə və büdcədənkənar fondlara ödənişlər üzrə hesablaşmalara dair öhdəliklərini tam həcmdə və vaxtında həyata keçirməyə və bununla yanaşı cari planları və strateji proqramları həyata keçirməyə qadir olsa da, təşkilata müxtəlif amillər təsir göstərir.

Söylənilən amilləri daxili və xarici olmaqla iki növə ayırmaq olar. Xarici amillərdə dəyişkənlik təşkilatın iradəsinə tabe deyildir, təşkilat sadəcə bu faktorlara uyğunlaşa bilər. Daxili amillər isə bilavasitə təşkilatın özünün fəaliyyətindən asılıdır.

Xarici amillər təşkilatın çalışdığı ətraf mühit daima hərəkətdə olduğundan və dəyişikliklərə məruz qaldığından, şirkətin hüdudları xaricində olan və ona təsir göstərən amillərdən təşkil olunmuşdur.

Təşkilatın ətraf mühit dəyişkənliklərinə reaksiya vermək və onların öhdəsindən gəlmək bacarığı müvəffəqiyyətə gətirib çıxaracaqdır, çünki bu qabiliyyət təşkilatın potensialını məqsədlərə çatmaq üçün yetərli səviyyədə saxlamağa, eləcə də təhlükə və imkanları üzə çıxarmağa imkan verəcək.

Xarici mühitin əsas amillərini aşağıdakı qruplara ayırmaq olar:[5.s.170]

- Siyasi və hüquqi amillər. Müxtəlif biznes növlərinə təsir göstərən qanunvericilik və dövlət xarakterli amillərə vergi qanunvericiliyində dəyişiklikləri, pul-kredit siyasətini, ölkədə siyasi vəziyyəti, dövlət tənzimlənməsini, ixrac və idxalın azaldılmasını şamil etmək olar. Sözügedən risklər təşkilatın inkişafına ciddi əngəllər törədir.
- İqtisadi və ictimai amillər. Təşkilat gəlirliliyinə, təşkilatın iqtisadi məqsədlərinə nail olma dərəcəsini səciyyələndirən iqtisadiyyatın ümumi rifah halı, iqtisadi tsikl mərhələləri təsir göstərir. Bəzi

iqtisadi şəraitlər təşkilatların əmtəə və xidmətlərinə olan tələbin azaldılmasına gətirib çıxardığı halda, digər, daha əlverişli şəraitlər tələbin yüksəldilməsinə təkan verir. Xarici mühitin təhlili zamanı faiz dərəcələri, valyuta mübadiləsi məzənnələri, iqtisadi artım tempi, inflyasiya və işsizlik səviyyəsi kimi ümumi iqtisadi göstəriciləri tədqiq etmək zəruridir. Həmçinin bazarın inkişaf dinamikasını, xarici ticarət əngəllərini və əhalinin gəlirlilik səviyyəsini qiymətləndirmək məqsədəuyğundur. Təşkilatın fəaliyyəti həmçinin ictimai amillərdən asılıdır, çünki yeni tendensiyalar istehlakçı tipini formalaşdırır və buna müvafiq surətdə şirkətin yeni strategiyalarını müəyyənləşdirərək, digər əmtəə və xidmətlərə tələbat meydana gətirir.

- Texnoloji amillər.Elmi-texniki tərəqqi təşkilatlar qarşısında böyük imkanlar və ciddi risklər qoyur. Bu imkan və risklərin təsirini dərk etmək və qiymətləndirmək vacibdir. Texnoloji dəyişikliklər və kəşflər təşkilatın məhsul və xidmətlərinin keyfiyyətinin artmasına gətirib çıxarır ki, bu da istehlakçıların məmnuniyyət səviyyəsinin yüksəlməsinə və rəqabətin güclənməsinə rəvac verir.

Sərt tənzimləmələrlə uyğunlaşmaq və təxirəsalınmaz və çevik xidmətlərdə müştəri tələblərini ödəmək demək olar xidmət sahələrində fəaliyyət göstərən təşkilatlarının daima qarşılaşdığı məsələlərdir. Məsələn, banklar və maliyyə sektoru bütövlükdə qabaqcıl texnologiyalarla ayaqlaşmağa can atdığından, daha təməl sahələrin inkişafında və müştəri məmnuniyyətinin yüksəldilməsində geniş imkanlar əldə edir. Bu sahədə fəaliyyət göstərən subyektlərin biznes fəaliyyətinin yaxşılaşdırılmasında istifadə etdikləri maliyyə texnologiyalarının həyata keçirilməsi üsulları aşağıdakılardır:

a) mobil ödəniş imkanlarının üstünlüklərinin aşkara çıxarılması;

b) təhlükəsizlik səviyyəsini gücləndirmək üçün səs identifikasiyası və göz skan edilməsi də daxil olmaqla, biometrik texnologiyaların tətbiqi;

c) sistemlərin bir-birinə inteqrasiyası və əvvəlki məlumatların yeni formatlara köçürülməsi;

d) görüntülü əlaqə cihazları vasitəsilə drayvın yüklənməsi;

e) coğrafi nöqteyi-nəzərdən hədəf götürülmüş müştərilərə təklif olunan bank məhsullarının təkmilləşdirilməsi məqsədilə bankların malik olduğu, lakin tam potensialı ilə istifadə etmədikləri müştəri məlumatlarının və sosial medianın üstünlüklərindən yararlanmaq.

Maliyyə texnologiyaların yararlılığını təmin edən bir sıra üsullar vardır. Startaplar üçün nəzərdə tutulmuş “Square”, “Lending Club” və “OnDeck” kimi böyük sayda maliyyə texnologiyaları şirkətləri sayəsində söylənilən sahədə innovasiyada irəliləyişlər müşahidə olunmaqdadır. Bu startap şirkətlərinə nəzər saldıqda, maliyyə-kredit təsisatları böyük həcmdə biliklərə yiyələnə, həmçinin bankların müştəri xidmətlərini maksimal dərəcədə təkmilləşdirmək imkanı verən sistem və strategiyaları inteqrasiya edə bilər.

Təşkilatın məhsul və xidmətlərinə olan ödəniş qabiliyyətli tələb mənfəətin əldə edilməsinin sabitliyini şərtləndirdiyindən, bu tələbin səviyyəsi, dinamikası və tərəddüdü təşkilatın iqtisadi sabitliyi üçün mühüm əhəmiyyət kəsb edir.

Təşkilatın maliyyə təsərrüfatına təsir göstərən daxili mühit amillərini nəzərdən keçirək: [6]

- təşkilatın sahəvi mənsubiyyəti (şirkətin mənfəətliliyi fəaliyyət sferasının seçimindən asılıdır);
- buraxılan məhsul və göstərilən xidmətlərin tərkibi, strukturu və tələbdəki payı.

Təşkilatın çiçəklənməsi istehsal edilən məhsulların, görülən işlərin və yerinə yetirilən xidmətlərin struktur və tərkibinin seçilməsindən mühüm dərəcədə asılıdır. Bu zaman nəyin hansı üsulla istehsal ediləcəyini əvvəlcədən dəqiq və səhvsiz şəkildə müəyyənləşdirmək lazımdır, çünki əsas istehsal xərcləri bundan asılıdır. Təşkilatın sabitliyi üçün təkcə məsrəflərin ümumi kəmiyyətini deyil,həm də daimi və dəyişən məsrəflər arasındakı nisbəti təhlil etmək lazımdır.

- ehtiyat və ya rezervlər də daxil olmaqla, əmlakın və maliyyə məsrəflərinin vəziyyəti.

Təşkilatın iqtisadi dayanıqlılığıda daha bir əhəmiyyətli faktor təşkilatın əmlakı və bu əmlakın idarə edilməsi strategiyasının düzgün seçilməsidir. Təşkilat sabitliyi cari aktivlərinin idarə edilməsinin keyfiyyətindən, hansı və nə miqdarda dövriyyə vəsaitlərinin işə cəlb edilmiş olduğundan, pul formasında aktivlərin məbləğindən asılıdır.

Bundan əlavə, nəzərə almaq lazımdır ki, təşkilatın ehtiyatlarının həcmini və likvid vəsaitlərinin miqdarını azaltdıqda təşkilatın istehsala daha çox sərmayələr yatırmaq və bununla da, gəlirləri artırmaq imkanı meydana çıxır. Lakin bununla yanaşı, şirkətin ödəniş qabiliyyətsizliyilə, o cümlədən ehtiyatların çatışmazlığı səbəbindən istehsalın dayandırılması ilə bağlı risklərdə yüksəlir. Təşkilatın cari aktivlərinin idarə edilməsində peşəkarlıq şirkətin cari istehsal fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan minimal məbləğin saxlanmasıdır [7.s.110].

Eyni zamanda təşkilatın maliyyə sabitliyinin digər bir vacib amili maliyyə vəsaitlərinin tərkibi və strukturu, bu vəsaitlərin idarə edilməsi strategiyası və taktikasının düzgün seçimidir. Təşkilat nə qədər böyük miqdarda şəxsi vəsaitə sahib olarsa, bazarda fəaliyyətini bir o qədər arxayınlıqla həyata keçirir. Bu halda

təkcə ümumi mənfəəti təyin etməklə kifayətlənmək yetərsizdir. Həm də bu mənfəətin istehsalın həyata keçirilməsinə yönəldilən payı vacibdir.

Təşkilatın maliyyə sabitliyinə təsir səviyyəsi təkcə yuxarıda sadalanan amillərin nisbətindən deyil, həm də təşkilat rəhbərliyindən və heyət üzvlərinin peşəkarlıq səviyyəsindən asılıdır. Müşahidələr göstərdiyi kimi, Təşkilatın müvəffəqiyyətsizliyi əksər hallarda, daxili və xarici mühitin dəyişənlərini nəzərə almaq iqtidarında olmayan işçi kadrların təcrübəsizliyindən və səriştəsizliyindən irəli gəlir. Bundan əlavə, bazar iqtisadiyyatında təşkilat əsasən üç istiqamətdə riskə məruz qalır. Bura kredit, likvidlik və bazar riski daxildir. Bazar riski mal dövriyyəsində valyuta məzənnələrinin, faiz dərəcələrinin və sair xammal xərclərinin dəyişməsində yaranır [8.s.260].

Bütün yuxarıda söylənilənlərdən belə qənaət hasil etmək olar ki, təşkilatın mövcudluğu üçün təşkilatın qarşısında duran təhlükələri aradan qaldırmaq məqsədilə maliyyə dayanıqlılığının təhlilini həyata keçirmək və təşkilatın maliyyə dayanıqlılığına təsir göstərən faktorları təhlil etməyi bacarmaq lazımdır.

**Ədəbiyyat**


1. Zeynalov V.Z. Maliyyə, Bakı, 2010
2. Федоровна П. А. Молодой учёный.\\Ежемесячный научный журнал, Kazan, 2014.
3. Ataşov B., Novruzov N., İbrahimov E. Müəssisənin maliyyəsi. Dərslik, Bakı, 2009.
4. İsgəndərov R.Ə. Müəssisə maliyyəsi. Dərs vəsaiti, Bakı, 2007.
5. «Инновационная экономика»\\ Beynəlxalq elmi konfrans materialları, Kazan 2014
6. https://applied-research.ru/ru/article/view?id=9693
7. Владимирова Г.Т. Научное сообщество студентов XXI столетия. Экономические науки, LII Beynəlxalq tələbə elmi praktiki konfrans materialları üzrə elektron məqalələr toplusu, Novosibirsk, 2017.
8. Səbzəliyev S. Maliyyə hebsabatları. Dərs vəsaiti, Bakı, 2018.



**Резюме**

***Маммадова И.И.***

**Факторы, влияющие на регулирование финансово-хозяйственной деятельности организации**

*В рамках работы были исследованы факторы, влияющие на процессы создания, управления и развития внутриорганизационных финансово-хозяйственных отношений, а также обеспечения мобильностиосновных оборотных средстворганизации. В качестве научного нововведения были описаны составляющие финансово-хозяйственной деятельности. Результатом исследования является интерпретация факторов, воздействующих нафинансово-хозяйственнуюдеятельность предприятия в виде различных подходов.*

***Ключевые слова:*** *финансово-хозяйственная деятельность, финансовая устойчивость, финансы организации, финансовые технологии*



**Summary**

***Mammadova I.I.***

**Factors Affecting the Regulation of Financial and Economic Activities of the Organization**

*As part of the work, the factors influencing the processes of creation, management and development of intra-organizational financial and economic relations, as well as ensuring the mobility of the organization's main working capital, were investigated. As a scientific innovation, the components of financial and economic activity were described. The result of the study consists of the interpretation of factors affecting the financial and economic activities of the enterprise in the form of various approaches.*

***Key words:*** *financial and economic activities, financial sustainability, organization, finance, financial technologies*


## BİZNESDƏ HEYƏTİN İDARƏ EDİLMƏSİ STRATEGİYASI


***Məmmədova Ş.R.***

*Sumqayıt Dövlət Universiteti*



***Xülasə.*** *Məqalədə heyətin idarə edilməsi strategiyanın işlənib hazırlanması məsələləri tədqiq edilmişdir. Strateji planlaşdırmanın genişləndirilməsinin zəruriliyi əsaslandırılmışdır. Strateji planlaşdırmanın mühüm ünsürləri olan heyətin idarə edilməsinin məqsəd və vəzifələri araşdırılmışdır.*



***Açar sözlər:*** *strategiya, heyət, idarəetmə, planlaşdırma, müəssisə*

Strategiya bir-biri ilə rəqabət edən hərəkətlər kompleksinə əsaslanır ki, onların köməyi ilə rəhbərlik təşkilatın uğurlu işinin təmin edilməsini nəzərdə tutur. Həqiqətdə strategiya idarəetmə planı olub, təşkilatların mövqelərinin möhkəmlənməsinə, onun müştərilərinin tələbatının ödənilməsinə və fəaliyyətində müəyyən nəticələrə nail olunmasına istiqamətlənir. Strategiyaya malik olmayan rəhbərlər arzulanan nəticələrə nail olmaq üçün düşünülmüş hərəkət planı və proqramına malik olmurlar. İdarəetmə planı təşkilatın bütün əsas funksiyalarını və bölmələrini əhatə edir. Onlara istehsal, alqılar, maliyyə, marketinq, əmək ehtiyatları, elmi tədqiqat və işləmələr aiddir. Strategiyanın işlənməsi razılaşdırılmış formada bütün işgüzar qərarları və rəqibə uyğun hərəkətləri bütün təşkilat səviyyəsində hazırlamaqdır. Yeni hərəkət vəzifələri və yanaşmaların nəzərdən keçirilməsi isə cari strategiya vasitəsi ilə necə dəyişdirilməsi istiqamətləri və təkmilləşdirilməsi barədə düzgün yol göstərir.

Strategiyanın işlənərək tətbiq edilməsi əsas idarəetmə funksiyasıdır. Rəhbər tərəfindən icra edilən işlər çoxluğu arasında çox azları kompaniya və şirkətlərin işlərinə aşağıda qeyd edilənlər qədər təsir edir. Onlardan: təsərrüfatların inkişaf etdirilməsinin uzunmüddətli istiqamətlərinin seçimini; səmərəli strateji hərəkət cəhətlərinin alınmasına imkan verən strategiyanın reallaşdırılmasını dəqiq olaraq göstərə bilərlər. Həqiqətdə də elmi əsaslarla əsaslandırılmış strategiya və strategiyanın reallaşdırılması dəqiq və effektli idarəetmənin ən etibarlı əlamətidir.

Ancaq mükəmməl strategiyanın səmərəli reallaşdırılması ilə əlaqələndirilməsi heç də o demək deyildir ki, təsərrüfat zəifdir və ləng işləməsində dövrlərindən qaçır. Müəyyən vəziyyətlərin aşkar edilməsi üçün vaxt tələb olunur ki, rəhbərin cəhdləri aydın müsbət nəticələr versin. Hətta ən səmərəli idarə edilən təşkilat belə əlverişli olmayan və əvvəlcədən deyilməsi mümkün olmayan hallarla qarşılaşa bilər. Səmərəli strategiyanın mahiyyəti elə bir bazar mövqeyinin yaradılmasından ibarətdir ki, həmin model kifayət qədər möhkəm olsun və işlərin belə təşkili gözlənilməz hadisələrə, güclü rəqabətə və daxili problemlərə baxmayaraq, uğurlu işlərin təmin olunmasına qadir olsun. Müəssisələrin strategiyası aşağıda biznesi necə genişləndirməli, istehsalçıların və istehlakçıların tələbini necə ödəməli, rəqibləri necə üstələməli, bazar şərtlərinin dəyişilməsinə necə cavab verməli, biznesin hər bir funksional bölməsini necə idarə etməli, strateji və maliyyə məqsədlərinə necə çatmalı kimi suallara dəqiqliklə cavab verməlidir. Strategiyanın üzərinə qoyulmuş bu suallar hər bir şirkət və təsərrüfat üçün spesifikdir və onlar olduqları vəziyyətə və fəaliyyət məqsədlərinə uyğun gəlməlidir. Şirkətlər və təsərrüfatlar işgüzar aləmdə əhəmiyyətli dərəcədə strateji azadlığa malikdirlər. Onlar qohum və yad sahələrdə şirkət və təsərrüfatların yad sahələrin ələ keçirməsi, birgə müəssisələrin yaradılması yolu ilə tətbiq edilə bilər. Əgər hətta kompaniya öz qüvvəsini bir biznes sahəsində mərkəzləşdirmək istəsə belə, adətən üstün bazar şərtləri daha geniş strateji hərəkət diapozonu təklif edir, bu zaman yaxın rəqiblər strategiyanın eyni ilə surətinin çıxarılmasından qaça bilər və bir sıra şirkət xərclərdə liderliyə, başqaları öz məhsulu və xidmətlərinin müəyyən xüsusiyyətlərinə arxalanır, üçüncü isə xüsusi tələblərə xidmət etməyi üstün tutur, dar istehsal və istehlak seqmentlərinə üstünlük verir. Beləliklə, şirkətin strategiyaları təsviredilməz, hər şeydən əvvəl məcburi deyil, tövsiyə xarakterli olmalıdır [1, s. 198].

Onların bir çoxu kənar müşahidədən aydın olduğundan əksəriyyət təsərrüfat şirkətlərin strategiyalarını onların hərəkətlərindən və bəyanatlarından müəyyən etmək olar. Eyni zamanda qeyd etməliyik ki, strategiyanın üstüörtülü sahəsi də vardır ki, kənar müşahidəçi onlar haqqında yalnız xəyallara dala bilər. Tez-tez aydın təsəvvürlər əsasında rəhbərlər öz strategiyalarının müəyyən ünsürlərini bu vaxt üçün yararlı olan hücuma keçməyənədək meydana çıxara bilmir.

Gələcək strateji görünüşün və missiyaların işlənməsi, məqsədlərin müəyyən edilməsi və strategiyanın qəbulu, inkişaf istiqamətlərinin işlənməsi prosesin əsas məsələləridir. Onlar göstərir ki, təşkilat hara doğru hərəkət etməli, fəaliyyətinin qısamüddətli məqsədlərini müəyyənləşdirməlidir. Bütün bunlar qarşıya qoyulmuş məqsədlərə nail olunmasına xidmət edir və birlikdə strateji planları əmələ gətirir. Bir sıra iri şirkət və təsərrüfatların, xüsusilə də iri assosiasiyalarda müntəzəm olaraq strategiya və rəsmi strateji planlaşdırma yenidən nəzərdən keçirilir və gələcək ilə strateji planın məzmunu ifadə edən sənəd hazırlanır [3, s. 199].

Strateji planlaşdırma reallaşdırıldığı zaman xüsusi məna daşıyır. Aşağıdakı şəkildə strateji planlaşdırmanın genişləndirilmiş versiyası xüsusilə diqqəti cəlb edir.




**Şəkil. Strateji planlaşdırmanın genişləndirilmiş versiyası** [2. s. 317].

Qeyd etmək lazımdır ki, əsaslandırılmış məqsədlər səmərəli planlaşdırmanın mühüm komponenti olsa da, o qərarın və davranışın qəbul edilməsində adekvat yönəmləri bütövlükdə təmin etmir. Məqsəd müəyyən edir ki, heyət nəyə nail olmaq və o nə vaxt arzu edilən nəticəni əldə etməyə çalışır. Məqsədə nail olmaq metodu isə ümumi mənasına görə, nəzərdən keçirilməklə heyətin hansı bizneslə məşğul olmasını qarşıya qoyur. Belə yanaşma təşkilatlara geniş hərəkət sərbəstliyi verir. Məqsədlərə nail olunmada məsul olan işçilər ən yaxşı niyyətlərlə hərəkəti seçə və özlərini elə apara bilərlər ki, həqiqətdə məqsədlərə nail olunmasını təmin etmək mümkün olmaz. Belə bir səhv yönəlmədən və düzgün olmayan danışıqlardan qaçılması üçün rəhbərlik əlavə planlar işləməli və strateji planın reallaşdırılması gedişatının qaydaya salımasına nail olmalıdır [1, səh. 195].

Planların uğurla reallaşdırılması zamanı rəhbərlik hər hansı azad seçimin tamamilə istisna edilməsini zəruri hesab edə bilər. Daxili təhlükəsizliyin təmini üzrə öz vəzifəsinin icrası üçün Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi işə yalnız o adamları qəbul etməlidir ki, onlar qanuna vicdanla yanaşsın və etibarı qazanmış olsunlar. Ona görə də bu nazirlik işə qəbul edəcəyi şəxsin tərcümeyi – halını yoxlamadan onu işə qəbul etməlidir. Eyni zamanda, rəhbərlik habelə zəruri hesab edir ki, bir sıra adamların özlərini müəyyən yerlərdə mənfi nəticələrə gətirə biləcək şəkildə aparmalarının yüksək ehtimalı olan hallarda onların işçi seçiminin hər vasitə ilə istisna etməlidir. Bir çox təşkilatlarda, tələb edilə bilər ki, əməkdaşlar zamanının konkret dövründə, deyək ki, səhər saat 09.00-dan axşam saat 17.00-dək iş yerində olsunlar.

Çox da böyük olmayan, ancaq mühüm olan bu problemləri həll etmək üçün məqsədlərə nail olunmasında yüksək dərəcədə tabeçilik münasibətləri tələb olunduqda rəhbərlər qaydalardan istifadə etməlidir. Rəhbərlik əməkdaşlarının hərəkət fəaliyyətini konkret üsullarla konkret hərəkətlərin icrasına təminat vermək üçün məhdudlaşdırır və qaydalar tərtib edir. Qaydada dəqiq müəyyən edilir ki, xüsusi şəraitdə nə edilməsi nəzərdə tutulmalıdır. Qayda üslubdan onunla fərqlənir ki, onlar konkret və məhdud məsələlərə görə nəzərdə tutulur. Qaydalar o situasiyaya görə nəzərdə tutulur ki, bir-biri ilə bağlı olan bir neçə hərəkətin ardıcıllığında özünə yer tapır.

### Ədəbiyyat

1. Abbasov A.B. və başqaları. Biznesin təşkili və idarə edilməsi. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2011, 464 s.
2. Quliyev T.Ə. Menecmentin (idarəetmənin) əsasları. Bakı: Qərənfil, 2006, 591 s.
3. Məmmədov F.T. İdarəetmə mədəniyyəti. Xarici ölkələrin təcrübəsi. Bakı: Apostrof, 2013, 672 s.
4. Соколов М.И., Дементьева А.Г. Управление человеческими ресурсами. Учебник, М.: ТК Вельви. Изд-во Проспект, 2006, 240 с.

### Резюме

***Мамедова Ш.Р.***

**Стратегия управления персоналом в бизнесе**

В статье исследованы вопросы разработки стратегии управления бизнеса. Обоснована необходимость расширения стратегического планирования. Рассмотрены как цели и должности управления персоналом, как и основные элементы стратегического планирования.

***Ключевые слова:****стратегия, персонал, управление, планирование, предприятие*

### Summary

***Memmedova Sh.R.***

**Strategy of Personnel Management in Business**

*The article examines the development of business management strategies. The necessity of expanding strategic planning is substantiated. Considered as the goals and positions of personnel management, such basic elements of strategic planning.*

***Key words:****strategy, personnel, management, planning, enterpri*

# KADR SİYASƏTİNDƏ İNFORMASİYA

***Mirzəyeva S.T.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Müəssisənin sabit, səmərəli fəaliyyət göstərməsində onun informasiya təminatının rolu böyükdür. Səmərəli informasiya təminatı sisteminin yaradılması hər bir təşkilatın qarşısında duran əsas vəzifələrdən biridir. Firmaların müvəffəqiyyəti getdikcə daha da artıq dərəcədə onun əsas fondlarının artmasından deyil, işçilərin məcmu intellektual potensialından, başqa sözlə, onların ixtisasından, vərdişlərindən, əzmindən, inamlılığından və ixtiraçılıq bacarığından, yaranmış situasiyaya ani reaksiya vermək imkanlarından, özlərini təkmilləşdirmək bacarığından, yaradıcılıq aktivliyinin azadlığından asılı olur. Biliklərin və vərdişlərin öyrənilməsinin ənənəvi qaydalarından işçinin fərdi potensialının inkişafı qaydalarına keçirilməsi təhlil sistemi qarşısında yeni vəzifələr qoyur.*

***Açar sözlər:*** *informasiya,insan, kadr hazırlığı, müəssisə, kadr, intellektual*

Kadrların hazırlanması və onların fasiləsiz öyrədilməsi müəssisənin fəaliyyətində əsas istiqamətlərdən biri kimi nəzərə alınmalıdır. Kadr hazırlığı işi özlüyündə çox geniş anlayışdır və bir neçə mərhələni əhatə edir:

- ehtiyac duyulan sahələr üzrə kadrların sifarişinin verilməsi;
- kadr ehtiyatının yaradılması;
- təlimlərin keçirilməsi, təhlillərin aparılması ilə bərabər, işçilərin ixtisasartırma, ixtisasdəyişmə və yeni ixtisasa yiyələnmə kurslarında iştirakının təşkili;
- bilik səviyyələrinin yoxlanılması;
- əməyin ödənilməsi dərəcəsinin artırılması;
- karyera yüksəlişi üçün attestasiyaların keçirilməsi;
- digər şirkətlərlə - əsasən də istehsal xüsusiyyətlərinə görə yaxınlıq və uyğunluq təşkil edən şirkətlərlə təcrübə mübadiləsinin təşkili;
- işçilərin vəzifə standartlarının hazırlanması və s.[ 5]

Heyətin öyrədilməsinin planlaşdırılması xarici əmək bazarlarında yeni yüksək ixtisaslı kadrlar axtarmadan özünün işləyən istehsal resurslarından istifadə etmək imkanı verir. Bundan əlavə belə planlaşdırma işçilərin mobilliyi, motivasiyası və özünü tənzimləməsi üçün şərait yaradır. O həmçinin çalışdığı iş yerlərindəki dəyişən şəraitə işçinin adaptasiya olması prosesini sürətləndirir. Təcrübədə heyətin öyrədilməsinin iki forması geniş yayılmışdır: iş yerində öyrədilmə və işdən kənarda öyrədilmə.

İş yerində öyrədilmə daha ucuz və operativ həyata keçirilir, gündəlik işlə sıx bağlılığı ilə auditoriyalarda təhsil almağı öyrənməmiş işçilərin tədris prosesinə daxil olmasını asanlaşdırır.

İş yerlərində öyrədilmənin mühüm metodları aşağıdakılardır:

- təcrübə toplamaq məqsədilə tapşırıqların mürəkkəbləşdirilməsi;
- iş yerlərinin dəyişdirilməsi (rotasiya);
- işçilərdən assistent kimi istifadə;
- funksiya və məsuliyyətlərin bir hissəsinin ötürülməsi.

İş yerindən kənarda öyrədilmə daha effektivdir, lakin əlavə maliyyə resursları ilə və işçinin öz xidməti vəzifələrindən ayrılması ilə əlaqədardır. Bu halda mühit şüurlu surətdə dəyişir və işçi gündəlik işlərindən ayrılır. İş yerindən kənarda öyrədilmənin mühüm metodları aşağıdakılardır:

- mühazirə oxumaq;
- işgüzar oyunlar keçirmək;
- konkret istehsal situasiyalarının araşdırılması;
- konfrans və seminarların keçirilməsi;
- təcrübə mübadiləsi üzrə qrupların yaradılması;
- keyfiyyət dərnəklərinin yaradılması.

Müasir tələblərə cavab verən, geniş bilik və dünyagörüşünə malik kadrların hazırlığı bütün müəssisələrin əsas vəzifələrindən biridir.Yüksək ixtisaslı mütəxəssis hazırlamaq həm tədrisin keyfiyyətinin yüksəldilməsindən, həm də təcrübi biliklərin zənginləşdirilməsindən asılıdır [2, s.57].

İşçi yalnız qısa və uzun müddətli dövrə öz perspektivlərini bilməməlidir, həm də xidməti vəzifə pillələri üzrə çatmağı nəzərdə tutduğu göstəriciləri də bilməlidir. Heyətə çəkilən xərclər təşkilatın istehsal və sosial göstəricilərini işləyib hazırlanması üçün əsas xərclər hesab olunur. Heyətə çəkilən xərclər məhsulun maya dəyərində artım, meylinə malikdir.

XXI əsrdə mütəxəssislərin hazırlanması sisteminin təkmilləşdirilməsi aşağıdakı üç əsas istiqamətdə aparılmalıdır:

-dəyişən dünyada yaşamağa hazırlıq;

-informasiya iqtisadiyyatı şəraitində yaşamağa hazırlıq;

-qlobal dünyada yaşamağa hazırlıq. [3, s.181]

Heyət haqqında informasiya özündə bütün operativ məlumatların məcmusunu, həmçinin kadr planlaşdırılması üçün onların işlənməsi prosesini birləşdirir. Bu aşağıdakı tələbatlara cavab verməlidir:

- sadəlik - informasiyada yalnız o qədər və o həcmdə məlumatlar öz əksini tapmalıdır ki, bu məhz həmin situasiyanın tələb etdiyi qədər zəruri olsun;

- əyanilik - məlumatlar o şəkildə təqdim edilməlidir ki, başlıca məsələni tez müəyyən etmək və sözçülükdən qaçmaq mümkün olsun. Bunun üçün cədvəllərdən, qrafiklərdən, şəkilli material tərtibatından istifadə etmək lazımdır;

- birmənalılıq - məlumatlar aydın olmalıdır və onların şərhi zamanı materialların semantik, sintartik və məntiqi birmənalılığını gözləmək lazımdır;

- müqayisəlilik - məlumatlar müqayisə edilə bilən vahidlərlə təqdim edilməlidir və həm təşkilatın daxilində və həm də təşkilatdan kənardakı obyektlərlə müqayisə edilə bilən olmalıdır;

- varislik - müxtəlif dövrlərdə kadrlar haqqında verilən məlumatlar eyni bir metodika ilə hesablanmalıdır və eyni formada təqdim edilməlidir.Təşkilatda işçilərin yenidən hazırlanması və ixtisaslarının yüksəldilməsini özündə birləşdirən təhsilə tələbat da mövcuddur. Heyətin təhsilinin planlaşdırılması təşkilat daxili və təşkilatdan kənardakı, həmçinin öz -özünü hazırlamaq (müstəqil hazırlama) tədbirlərini əhatə edir.

İnformasiya toplanması və emalını heyətin cari işgüzar fəaliyyətinin qiymətləndirilməsi proseduru çərçivəsində həyata keçirilməsi məsləhətdir.

**Ədəbiyyat**


1. www.socar.az
2. Səfərov Q.Ə., Məmmədova S.T. Neft-kimya müəssisələrində kadr hazırlığının istiqamətləri // Azərbaycan Neft Təsərrüfatı jurnalı, 2017, №6, s.59-61
3. Əliyev T.Q. İnformasiyanın iqtisadiyyatı. Bakı: Elm, 2008, 220 s.



**Резюме**

***Мирзоева С.Т.***

**Информации в кадровой политике**

*Предпринимательская деятельность не может осуществляться без информационных обеспечений. Добыча, разработки и использования информацию считается главной в принятии решений в процессе хозяйственной деятельности. В менеджменте разработанные сообщения, направленные конкретным людям, проблемам, целям и ситуациям называются информацией. Человек производитель, потребитель, управляющий и управляемый. Человек без информации не может осуществить эти функции. В информационном обеспечении организации человеческий фактор играет большую роль.*

***Ключевые слова**: информация, человек, подготовка кадров,предприятия, кадр, интеллектуальный*

**Summary**

***Mirzayeva S.T.***

**Informatıon ın the Personnel Polıcy**

*Enterprise activity cannot realize without information guarantee. Get, processing and usage of the information are considered basic for acceptance of the management decisions in the activities of thrift. The Information of prosessing in the definite manner for concrete people, problems, purposes, situations in the management is called information. Human are producer, consumer, manager and guided. Human cannot implement these functions without information. Human factor is main force in the information guarantee of the organization.*

***Key words**: information, human,labor, training of personnel, enterprises, labor, intellectual*

# MALİYYƏ NƏTİCƏLƏRİNİN STRUKTURU, FORMALAŞMASI QAYDALARI

***Musayeva N.M.***
*UNEC*

***Açar sözlər:*** *mənfəət, gəlir, xərclər, maliyyə nəticələri, mühasibat uçotu, investisiyalar*

Müəssisələrin fəaliyyəti bütövlükdə öz xərclərini ödəmə və özünümaliyyələşdirmə prinsipləri əsasında qurulur, müəssisələrin fəaliyyətinin nəticələri üçün bütün məsuliyyət onların üzərinə düşür. Bir sözlə, müəssisənin əldə etdiyi son nəticələr üçün onun özü cavabdehlik daşıyır. Maliyyə nəticəsi müəssisənin iqtisadi fəaliyyətinin son iqtisadi yekunudur. Maliyyə nəticəsi mənfəət və ya zərər ola bilər. Mənfəət indiki şəraitdə müəssisənin təkrar istehsalının əsas mənbəyidir. Mənfəət müəssisənin iqtisadi və sosial inkişafının başlıca mənbəyidir və o müəssisə kollektivinin fəaliyyətinin nəticəsində yaranır.

Mənfəət təkcə müəssisənin istehsal və sosial inkişafına çəkilən xərclərin maliyyələşdirilməsinin başlıca mənbəyi olmayıb, həm də dövlət büdcəsinin gəlirlərinin formalaşmasında mühüm mənbə hesab edilir. Bu, o deməkdir ki, müəssisənin mənfəəti yalnız onun maliyyə hesabatlarının tələbatlarını ödəmir, həmçinin ictimai istehlak fondlarının maliyyələşdirilməsi, elmin, səhiyyənin, təhsilin inkişafı müdafiəsinin təşkili üçün dövlətin tələbatlarını ödəyir[1]. Müəssisənin əldə etdiyi mənfəət üzrə büdcə ilə və s. ilə maliyyə münasibətləri meydana çıxır. Həmin münasibətlər də əvvəlcədən müəyyənolunmuş normativ aktlarla tənzimlənir. Qeyd etmək lazımdır ki, müəssisə satışdan zərər də əldə edə bilər. Bu, o zaman baş verir ki, satılmış məhsulun tam maya dəyəri və əlavə dəyər vergisinin (aksizlərin) məbləği satışdan əldə olunan pul gəlirlərindən çox olsun. Belə hallarda müəssisənin sosial və iqtisadi inkişafı təmin olunur və bu cür hal uzun müddət davam edərsə, həmin müəssisə iflas olunmuş hesab edilir.

Beləliklə də, maliyyə nəticələrinin uçotu qarşısında duran vəzifələr aşağıdakılardan ibarədir: [4]1) hazır məhsul buraxılışı, onun ehtiyatlarının vəziyyəti və anbarlarda qorunub saxlanması; 2) yerinə yetirilən işlərin həcmi üzərində sistematik nəzarətin həyata keçirilməsi; 3) məhsul satışından, iş və xidmətlərin yerinə yetirilməsindən olan gəlirlər son nəticədə müəssisənin mənfəətinə təsirinin hesablanması; 4) yüklənmiş məhsulun və onun buraxılmasının vaxtında və düzgün sənədlərlə rəsmiyyətə salınması, alıcılarla hesablaşmaların dəqiq təşkili, məhsul satışının vaxtında həyata keçirilməsi, satılmış məhsul üçün gəlirlərin müəssisəyə vaxtında daxil olmasının dəqiq uçotu.

Yuxarıda nəzərdən keçirilən xarakterik xüsusiyyətlərdən asılı olaraq, mənfəət anlayışının daha ümumiləşmiş formada aşağıdakı kimi təsvir etmək olar:

Mənfəət sahibkarın fəaliyyətinin həyata keçirilməsi prosesində məcmu gəlirlə məcmu xərclər arasındakı fərqi əks etdirən xalis gəlirin qoyulan kapitala, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi riskinə görə mükafat, pul formasında əks olunması deməkdir; İqtisadi ədəbiyyatda bəzən «mənfəət» və «gəlir» anlayışlarını əsassız qaydada bir-birinə qarşı salırlar. Əslində isə, bu, belə deyildir və onların hesablanma qaydaları da müxtəlifdir; Mühasibat və iqtisadi əhəmiyyət nöqteyi-nəzərindən də mənfəəti fərqləndirirlər; Mühasibat mənfəəti dedikdə, məcmu gəlirlə mühasibat (aşkar) xərcləri arasındakı fərq başa düşülür; İqtisadi mənfəət dedikdə, məcmu gəlirləri iqtisadi xərclər arasındakı fərq başa düşülür[3].

Mühasibat və iqtisadi mənfəət arasında aşağıdakı nisbət mövcuddur:

<u>Mühasibat xərcləri</u>
Məcmu = Aşkar + Aşkar olunan + İqtisadi
xərclər xərclər mənfəət

Aşkar xərclər mühasibat uçotunda tam şəkildə əks etdirir və onlar mühasibat xərcləri adlandırırlar. Aşkar olmayan xərclər dedikdə, müəssisənin özünə mənsub olan resurslardan istifadənin alternativ xərcləri başa düşülməlidir. Aşkar olmayan xərclər pul ödənişləri şəklində də ola bilər. Belə ki, müəssisə özünə mənsub olan resurslardan daha əlverişli şəkildə istifadə olunduqda pul ödənişləri ala bilər. Bu xərclər mühasibat uçotunda öz əksini tapır. Deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, iqtisadi mənfəət aşkar olmayan xərclərin kəmiyyəti həcmində mühasibat mənfəətindən azdır. İstehsal müəssisələri təsərrüfat fəaliyyəti prosesində mənfəətin müxtəlif növlərindən istifadə edir. Ümumiyyətlə, mənfəəti aşağıdakı əlamətləri üzrə təsvir etmək olar:

1. <u>Fəaliyyət sahələri üzrə:</u> a) istehsal fəaliyyətindən mənfəət; b) ticarət fəaliyyətindən mənfəət; v) xidmət göstərilməsindən mənfəət və i.a. Mənfəətin belə bir qaydada bölgüsü onunla əlaqədardır ki, istehsalat müəssisələri əsas fəaliyyətlə bərabər səviyyədə fəaliyyətin digər növləri ilə də məşğul olurlar. Mövcud qanunvericiliyə görə, fəaliyyətin hər bir sferası üzrə mənfəətdən müxtəlif vergi dərəcələri və güzəştləri nəzərdə tutula bilər. Belə bir şəraitdə müəssisənin fəaliyyətinin hər bir sferası üzrə xərclərin və gəlirlərin uçotunu aparmaq zəruridir.

2. Fəaliyyət növləri üzrə: a) əsas fəaliyyətdən mənfəət; b) investisiya fəaliyyətindən mənfəət; v) maliyyə fəaliyyətindən mənfəət. Əsas fəaliyyətdən mənfəət müəssisənin əsas istehsal fəaliyyətinin nəticəsidir. İnvestisiya fəaliyyətindən mənfəət qismən əməliyyat mənfəəti şəklində (müştərək müəssisələrdə iştirakdan gəlirlər; qiymətli kağızlardan və depozit qoyuluşlarından gəlirlər), qismən də əsas vəsaitlərin və digər aktivlərin satışından mənfəət şəklində əks etdirilir. Maliyyə fəaliyyətindən mənfəət dedikdə müəssisənin kənar maliyyələşmə mənbələri və təminatı ilə əlaqədar (əlavə səhmdar və yaxud pay kapitalının cəlb olunması, səhmlərin, istiqrazların və yaxud digər borc qiymətli kağızların emissiyası, habelə dividentlər və faizlər ödəmək yolu ilə cəlb olunmuş kapitalın xidməti və s.) olan pul axınlarının nəticəsi başa düşülür.

3. Maliyyələşmə mənbələri üzrə: a) məhsul satışından mənfəət; b) sair daxilolmalar. Məhsul satışından mənfəət, bilavasitə müəssisənin sahə xüsusiyyəti ilə əlaqədardır. Bu termin analoqu kimi "əsas fəaliyyətdən mənfəət" termini çıxış edir.

4. Mənfəət formalaşdıran ünsürlərin tərkibi üzrə: a) marjinal mənfəət; b) ümumi (balans) mənfəət; v) xalis mənfəət. Marjinal mənfəət dedikdə, məhsul satışından mənfəətlə (vergi ödənişləri məbləğində azaldılmaqla) onun sex dəyəri (dəyişən xərclər) arasındakı fərq başa düşülür. Ümumi mənfəət dedikdə, müəssisənin təsərrüfat fəaliyyətinin bütün nəticələrindən əldə olunan ümumi mənfəət fəaliyyətinin bütün növlərindən əldə olunan ümumi mənfəət (vergilər və digər məcburi öhdəlikləri çıxılanadək) başa düşülür. Təmiz mənfəət dedikdə balans mənfəəti ilə ondan vergi ödənişləri arasındakı fərq başa düşülür. Belə mənfəət müəssisənin sərəncamında qalan və bölüşdürülməsi mənfəət kimi də adlanır.

5. Vergiyə cəlb olunma xarakterinə görə: a) vergiyə cəlb olunası mənfəət; b) vergiyə cəlb olunmayan mənfəət. Mənfəətin bu qaydada bölgüsü müəssisənin vergi siyasətinin formalaşmasında mühüm rol oynayır. Vergiyə cəlb olunmayan mənfəətin tərkibi müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

6. İnflyasiya proseslərinin təsiri üzrə: a) nominal mənfəət; b) real mənfəət.

Real mənfəət, nominal qaydada əldə olunan ümumi mənfəətin ölçüsünü xarakterizə edir. Belə bir mənfəət müvafiq dövrdə inflyasiya tempinə düzəliş verir.

7. Formalaşma dövrünə görə: a) əvvəlki dövrün mənfəəti; b)hesabat dövrünün mənfəəti; v) plan dövrünün mənfəəti (planlaşdırılan mənfəət). Belə bir bölgüdən mənfəətin planlaşdırılması və təhlili üçün istifadə olunur.

8. İstifadənin istiqamətləri üzrə: a) vergilərin və digər icbari ayırmaların ödənilməsinə; b) kapitallaşdırılan mənfəət; v) istehlak olunan mənfəət. Mənfəətin bir hissəsi müvafiq qanunvericiliyə görə, büdcəyə vergilərin ödənilməsinə və digər icbari ayırmalara istifadə olunur. Kapitallaşdırılan mənfəət-mənfəətin müəssisə aktivlərinin artımının müəyyənləşdirilməsinə, başqa sözlə, yığım fonduna yönəldilən hissəsini xarakterizə edir. İstehlak olunan mənfəət isə mənfəətin mülkiyyətçilərə (səhmdarlara) və yaxud müəssisənin sosial proqramlarına yönəldilən hissəsi kimi başa düşülməlidir.

Müəssisədə formalaşan mənfəətin strukturu ilə əlaqədar "Mənfəətin keyfiyyəti" adlı anlayışa da təsadüf edilir[1]. Ümumiləşmiş qaydada bu anlayış mənfəətin formalaşması mənbələrinin quruluşuna (əsas, investisiya və maliyyə) xarakterizə edir. Mənfəətin həmin növlərinin hər biri çərçivəsində həmin anlayış mənfəətin artımının konkret mənbələrini xarakterizə edir.

## Ədəbiyyat


1. Səbzəliyev S.M., Süleymanov S.M., İsmayılov N.M.və b. MHBS və MMUS əsasında «Maliyyə hesabatlarının formalaşması prinsipləri» Dərs vəsaiti. Bakı, 2010.
2. Səbzəliyev S.M., Süleymanov S.M., Cəfərov E.O. Kommersiya təşkilatları üçün milli mühasibat uçotu standartlarının tətbiqinə dair tədris-metodik vəsait. Bakı, 2010.
3. Aleksandr D., Britton A.V., Yorissen E.P. Междунароные стандарты финансовой отчетности: от теории к практике (monoqrafiya Səbzəliyev S.M., Rzayev Q.R., Babayev B.İ., Quliyev V.M., İsmayılov N.M., Süleymanov S.M., İbrahimova S.E., Hacıyev H.E.tərəfindən tərcümə edilmişdir). Bakı, 2010.
4. Abbasov Q.Ə., Səbzəliyev S.M., Daşdəmirov Ə.İ., Quliyev V.M., Sadıqov Ə.A. Mühasibat (maliyyə) uçotu. Bakı, 2003.


## Резюме


***Мусаева Н.М.***


**Структура и правила формирования финансовых результатов**


*Переход финансовой отчетности на международные стандарты обусловлен, прежде всего, необходимостью привлечения финансовых ресурсов с международных рынков. Следует отметить, что наряду с положительными моментами нормативных документов, регулирующих бухгалтерский*

*учет и отчетность в Азербайджанской Республике, а также итогами финансовых результатов, они не соответствуют требованиям динамично развивающейся рыночной экономики. Основной целью является подготовка научно-практических предложений и рекомендаций на основе учета и анализа финансовых результатов, рассматриваемых как последний результат финансово-хозяйственной деятельности предприятий и организаций.*

***Ключевые слова:*** *прибыль, доход, расходы, финансовые результаты, бухгалтерский учет, инвестиции*

**Summary**

***Musayeva N.M.***

**Structure, Formation Rules of Financial Results**

*Transition of financial statements into international standards is primarily due to the need to attract financial resources from the international markets. It should be noted that along with the positive moments of the normative documents regulating the accounting and reporting in the Republic of Azerbaijan, as well as the outcome of the financial results, do not meet the requirements of dynamically developing market economy. The main purpose is to prepare scientific and practical proposals and recommendations on the basis of accounting and analysis of financial results considered as the last result of financial and economic activity of enterprises and organizations.*

***Key words:*** *profit, income, expenses, financial results, accounting, investment*

## KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN MALİYYƏ TƏMİNATI

***Naditova A.İ.***

*Mingəçevir Dövlət Universiteti*

**Xülasə.** *Məqalədə ölkə iqtisadiyyatında sahibkarlığın inkişafının müasir vəziyyətinin təhlilindən bəhs edilir. Bu fəsildə sahibkarlığın, xüsusilə də kiçik və orta sahibkarlığın maliyyələşmə problemlərindən, vergi siyasətinin sahibkarlığın inkişafında bir alət kimi rolundan, Sahibkarlığa Kömək Milli Fondunun sahibkarlığın inkişafına təsirindən və onun fəaliyyətindəki problemlərdən danışılır. Ölkə iqtisadiyyatında sahibkarlığın inkişafının gücləndirilməsi istiqamətlərini əhatə edir. Belə ki, bu fəsildə sahibkarlığın maliyyələşdirilməsi metodlarından, onlarından təkmilləşdirilməsindən, kiçik və orta sahibkarlığın maliyyə təminatının gücləndirilməsi istiqamətlərindən, eyni zamanda kiçik və orta sahibkarlığın maliyyə təminatı sahəsində dövlət siyasətinin istiqamətlərindən bəhs olunur.*

***Açar sözlər:*** *kiçik və orta sahibkarlığın dəstəklənməsi üzrə dövlət siyasəti; maliyyə dəstəyi; normativ-hüquqi baza.*

Sivilizasiyalı bazar iqtisadiyyatının formalaşmasının ən başlıca struktur komponentlərindən biri sahibkarlıq fəaliyyətidir. Sahibkarlıq fəaliyyəti fiziki və hüquqi şəxslərin mənfəət əldə etməsi məqsədilə qanunvericiliklə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmət göstərilməsi formasında həyata keçirdikləri müstəqil təşəbbüskarlıq fəaliyyətidir. Zəngin məzmuna, müxtəlif növlərə və formalara malik olan sahibkarlıq fəaliyyəti iqtisadi və sosial tərəqqinin əsas şərtidir, sahibkarlar isə cəmiyyətin ən təşəbbüskar, çevik, elmi-texniki yenilikləri daha tez mənimsəyən və istehsalata tətbiq edən sosial təbəqəsidir. Bazar iqtisadiyyatının əsas hərəkətverici qüvvəsi olan sahibkarlıq həmişə çalışır ki, mövcud iqtisadi resurslardan qənaətlə, səmərəli istifadə edərək dünya standartlarına uyğun rəqabətqabiliyyətli məhsul istehsalını artırsın, rəqabət bazarında öz təklifi ilə çıxış edə bilsin və nəticədə, yüksək mənfəət götürsün. Deməli, milli iqtisadiyyatı formalaşdırmaq və inkişaf etdirmək üçün saglam sahibkarlıq mühitinin yaradılması, insanların sahibkarlıq ruhunda tərbiyə olunması və sahibkarlıq fəaliyyətinin öncül inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi zəruridir. Müasir dövrdə sahibkarlığın inkişafında əsas məsələlərdən biri onun maliyyələşdirilməsidir. Maliyyə bazasının təşkil edilməsinin ən sadə və etibarlı variantı sahibkarlıq mülikyyətçisinin öz vəsaitlərini və cəlb edilmiş vəsaitləri bu və ya digər formada yeni müəssisələrə yönəltməsidir. Azərbaycan iqtisadiyyatında bu məsələ ilə bağlı problem ondadır ki, yeni fəaliyyətə başlayan sahibkarlar kifayət qədər maliyyə vəsaitlərinə malik olmurlar. Dünya praktikasında bu problem müxtəlif yollarla həll olunur. İqtisadi nəticə isə eynidir. Kifayət dərəcədə maliyyə resurslarına malik olan dövlət, bank, investisiya fondları və s. böyük risk hesabına olsa da, yeni fəaliyyətə başlayan sahibkarlara yardımçı olmalıdırlar. Bu məsələlərin həllində ayrı-ayrı sərmayəçilər üçün maraqlı

amil yüksək dərəcədə mənfəət əldə etmək, dövlət strukturları üçün isə məşğulluq probleminin həll olunması və belə layihələrin sosial səmərəsidir. Ölkəmizdə sahibkarlığın, xüsusilə də kiçik və orta sahibkarlığın inkişafının maliyyələşdirilməsi məqsədilə Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi nəzdində Sahibkarlığa Kömək Milli Fondu yaradılmışdır.

Azərbaycan Respublikasında sağlam milli iqtisadiyyatın formalaşması və sahibkarlıq fəaliyyətin inkişafı xeyli dərəcədə vergi siyasətinin elmi və praktiki tərəfindən əsaslandırılmış qaydada təkmilləşdirilməsi və tətbiqindən çox asılıdır. Bununla yanaşı, transformasiya olunan iqtisadiyyatda həmin prosesi ləngidən amillər fəaliyyət göstərir ki, o da sahibkarlıq fəaliyyətinə yönəldilən kredit resurslarının həcminin və bu sferanın cəlbedicilik mühitinin səmərəliyinin azaldılmasında işsizliyin sayının artırılmasına və digər problemlərə gətirib çıxardır.Nəticədə, həm bazar iqtisadiyyatının formalaşdırılmasının 5 vasitələrindən həm də onun sabitləşdirilməsinin iqtisadi artimı təmin edən amillərdən biri kimi sahibkarlıq fəaliyyəti özünün potensial imkanlarını reallaşdira bilmir. Milli iqtisadiyyatın tənzimlənməsi vasitələri makroiqtisadi sabitliyin təmin edilməsində, iqtisadiyyatın və onun ayrı-ayrı sektorların, habelə bazar infrastrukturunun inkişafinda mühüm rol oynayır. Sahibkarlıq fəaliyyətinin inkişafi ənənəvi və alternativ maliyyə vasitələrindən istifadə etməklə yeni iş yerlərinin yaradılması, büdcə vəsaitlərinin bu məqsədlə istifadə edilməsinin qarşısının alınması, büdcə vəsaitlərinin artırılması və səmərəli istifadə edilməsinə şərait yaradir. Bazar münasibətlərinə keçid hələki, vergi siyasəti tərəfindən ölkə sahibkarlıq fəaliyyəti prosesini fəallaşdırılmasına, investisiya fəaliyyətinin canlandırılmasına və s.zəmin yaratmamışdır. Deməli ölkədə bazar iqtisadiyyatının normal fəaliyyət göstərməsi üçün onun əsasını təşkil edən bütün zəruri ünsürlərinin, xüsusilə sahibkarliq fəaliyyətinin formalaşması və inkişafi zəruridir. Son illər həyata keçirilən iqtisadi islahatlar Azərbaycan Respublikasında sahibkarlığın inkişafina təkan vermiş, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında və iqtisadiyyatının inkişafında sahibkarlığın rolunu artırmışdır. Lakin bununla yanaşı, ölkədə keyfiyyətli məhsul bolluğunun yaradılmasında rəqabətə davamlı istehsal sahələrinin inkişafında və əhalinin məşğulluğun təmin olunmasında sahibkarlıq hələdə həlledici amilə çevrilməmişdir. İqtisadi inkişafın müasir səviyyəsinə uyğun respublikada sahibkarlığın inkişafına dövlət himayəsinin səmərəliliyinin müəyyən edilməsi, sahibkarlıq fəaliyyətinin hüquqi bazasının təkmilləşdirilməsi, ölkədə işgüzar fəaliyyəti həvəsləndirmək məqsədilə vergi siyasətinin təkmilləşdirilməsi ilə bağlı bir sıra problemlərin mövcudluğu tədqiqat mövzusunun seçilməsinə əsas vermişdir. Bu problemlərin tədqiq edilib öyrənilməsi, ölkədə sahibkarlıq fəaliyyətinin inkişafına uyğun vergi siyasətinin metodoloji müddəalarının və praktiki prosedurlarının işlənib hazırlanmasına imkan yaratmışdır.

Göründüyü kimi, sahibkarlıq fəaliyyəti bazar iqtisadiyyatında önəmli yer tutur. Sahibkarlıq fəaliyyəti olmadan bazar iqtisadiyyatını təsəvvür etmək mümkün deyil. Sahibkarlıq fəaliyyəti bazar iqtisadiyyatının ayrılmaz tərkib hissəsidir. Hər bir ölkə öz iqtisadiyyatını inkişaf etdirmək üçün, ilk növbədə, sahibkarlıq fəaliyyətini inkişaf etdirməli, dövlət ölkədə sahibkarlıq fəaliyyətinin inkişafı üçün stimul yaratmalıdır. Dünya təcrübəsində olduğu kimi, Azərbaycanda da sahibkarlıq fəaliyyətinin inkişafı özəl sektorda oynadığı rol baxımından maraqlıdır. Bu buraxılış işindən belə bir nəticəyə gəlmək olar ki, sahibkarlıq fəaliyyətinin inkişafı və bunun üçün onun inkişafında ən mühüm problemlərdən biri olan sahibkarlığın maliyyələşdirilməsi probleminin həlli hər bir ölkə üçün, o cümlədən Azərbaycan üçün önəmli əhəmiyyət kəsb edir. Sahibkarlığın inkişafında özəl sektor olduğu qədər dövlət də maraqlı olmalıdır. Ən azından işsizliyin aradan qaldırılması baxımından dövlət sahibkarlıq, xüsusilə kiçik və orta fəaliyyətinin inkişafı üçün normal iqtisadi mühitin yaradılmasına borcludur. Sahibkarlıq subyektləri ilk fəaliyyət dövrlərində yetərincə maliyyə vəsaitinə malik olmadıqlarından onların maliyyələşdirilməsinin - dövlət borcları, investisiya proqramları, bank kreditləri şəklində həyata keçirilməsi məqsədəuyğundur. Belə bir nəticəyə gəlmək olar ki, sahibkarlıq subyektlərinin maliyyələşdirilməsinin ən fəal iştirakçılarından biri dövlətdir. Azərbaycan Respublikasının Prezidentinin 1997-ci il 24 iyun tarixli 610 nömrəli Fərmanı ilə təsdiq etmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi proqramı" tətbiq edilməyə başlamışdır. Bu proqramda qeyd edildiyi kimi, Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondu, Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi və rayonlarda sahibkarlığın inkişafı mərkəzləri yaradılmışdır. Məhz bu qurumlar ölkədə sahibkarlığın maliyyələşdirilməsində xüsusi rol oynayırlar. Həmçinin Azərbaycanda sahibkarlıq mühitinin formalaşması üçün vacib olan "Sahibkarlıq fəaliyyəti haqqında", "Müəssisələr haqqında", "Səhmdar cəmiyyətləri haqqında", "Haqsız rəqabət haqqında", "Əmək birjası haqqında", "Lizinq kompaniyaları 85 haqqında" və s. qanunlar, eləcə də bazar iqtisadiyyatının hüquqi mexanizminin qurulmasını təmin edən digər qanunlar qəbul olunmuşdur. Bütün görülən işləri və respublikada sahibkarlığın bugünkü inkişafını nəzərə alaraq, gələcəkdə sahibkarlıq fəaliyyətinin iqtisadiyyatın əsas sahəsinə çevriləcəyinə inanmaq olar. Azərbaycan Respublikasında sahibkarlığın inkişafının maliyyə təminatında olan problemləri aradan qaldırmaq üçün maliyyələşdirmədə tətbiq olunan metodlar və üsullar

təkmilləşdirilməlidir. Bu baxımdan ölkəmizin dünyanın inkişaf etmiş ölkələrinin bu sahədəki təcrübəsindən, həmin ölkələrin sahibkarlığın maliyyələşdirilməsində tətbiq etdikləri metodlardan istifadə etməsi zəruridir.Bütün bunlarla yanaşı, dövlət kiçik və orta sahibkarlıq subyektləri ilə bağlı maliyyə siyasəti həyata keçirərkən regional amil də ön plana çəkilməlidir. Məlumdur ki, kiçik və orta müəssisələrin Bakıda cəmləşməsi tendensiyası güclüdür və bu da yerlərdə sahibkarlığın az inkişaf etməsi deməkdir. Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi ilə əlaqədar dövlət siyasəti həyata keçirilərkən bu amilin nəzərə alınması olduqca vacibdir, çünki regionlarda iqtisadi inkişafı təmin etmək üçün hal-hazırda sahibkarlığın inkişafına təkan vermək ən əlverişli yol hesab olunur. Regionlarda sahibkarlığın inkişaf etdirilməsi təbii ki, paytaxtda iqtisadi, xüsusilə sosial problemlərin aradan qaldırılmasına ciddi yardım ola bilər. Bütün bunları nəzərə alaraq, dövlət layihələri seçərkən və maliyyələşdirərkən bu amilə xüsusi diqqət yetirməlidir. Belə təcrübə regional iqtisadi inkişafda qeyri-bərabərliyin olduğu postsovet ölkələrində tətbiq olunmaqdadır.Vəsaitlər üçün maksimum məbləğin sahələr üzrə eyni müəyyənləşdirilməsi kiçik və orta sahibkarlıq subyektlərinin sahə üzrə inkişaf konsepsiyasına ziddir. Ayrıca sahələr üzrə fərqli məbləğlərin müəyyənləşdirilməsi və rəqəmlərin həmin sahələrdəki vəziyyəti nəzərə alınaraq əldə olunması gərəkdir. Məsələn, ABŞ-da Kiçik Biznes İdarəsinin verdiyi kreditlərin məbləği nəinki müxtəlif sahələr baxımından fərqləndirilir, hətta vəsaiti alan müəssisənin sahibinin qadın, yoxsa kişi olması da nəzərə alınır.

Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafının maliyyələşdirilməsi yalnız dövlətin bu sahədə xüsusi qayğısı və köməyi sayəsində mümkündür. Bu öz növbəsində kiçik və orta sahibkarlıq strukturlarına yardım edərkən sahə və ərazi xüsusiyyətlərini nəzərə almağı, onları uzlaşdırmağı, başqa sözlə, kiçik və orta sahibkarlıq subyektlərinin maliyyələşdirilməsi probleminin həllinə kompleks yanaşmanı nəzərdətutmalıdır. Təbiidir ki, kiçik və orta sahibkarlığa kömək üzrə inkişaf etmiş ölkələrin təcrübəsini eynilə respublikamızda tətbiq etmək mümkün deyildir. Ancaq hesab edirik ki, yuxarıda qeyd edilən Proqramların qısa məzmunu ilə tanışlıq onların hər birinin müəyyən dəyişikliklər edilməklə, Azərbaycanda da işlənib edilməsinin mümkünlüyünü göstərir. Qeyd etmək lazımdır ki, ölkəmizdə kiçik və orta sahibkarlığa dövlət köməyi və onların inkişafının dövlət tərəfindən tənzimlənməsi sahəsində müəyyən işlər görülmüşdür və bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Onların sırasında kiçik və orta sahibkarlıq üçün təhsil, məsləhət və informasiya xidmətlərinin təşkili, kiçik və orta bizneslə məşğul olan sahibkarlar üçün vergi yükünün azaldılmasını, xüsusi razılıq(lisenziya)tələb olunan fəaliyyət növlərinin sayının azaldılmasını, hüquqi şəxslərin qeydə alınma prosedurunun sadələşdirilməsini, sahibkarlıq fəaliyyətinə əsassız müdaxilələrin qarşısının alınması üçün müəyyən tədbirlərin həyata keçirilməsini, kiçik sahibkarlar üçün mikrokreditlər verilməsi prosesinin başlanmasını və s. göstərmək olar. Bununla yanaşı, "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı üzrə Dövlət Proqramı"nın yerinə yetirilməsi də və kiçik və orta sahibkarlığa dövlət köməyinin artırılması və sahibkarlıq fəaliyyətinin tənzimlənməsi istiqamətində müsbət irəliləyişlər olacağına ümid etməyə əsas verir. Eyni zamanda, qeyd etmək lazımdır ki, altı bölmədən ibarət olan bu proqram ümumi xarakter daşıyır və onun əksər maddələri kiçik və orta sahibkarlığın inkişafına kömək edilməsi, onun tənzimlənməsi üçün müvafiq təkliflərin hazırlanmasını nəzərdə tutur. Kiçik və orta müəssisələrə kömək sahəsində bu proqramın oynaya biləcəyi rolun əhəmiyyətini azaltmadan qeyd etmək lazımdır ki, o, kiçik və orta müəssisələrin inkişafı üçün ərazi proqramlarının işlənməsini istisna etmir və onları əvəz edə bilməz. Buna görə də, hesab edirik ki, respublikamızda kiçik və orta biznesin inkişafı üçün regionlarda mövcud olan potensialdan səmərəli istifadəyə imkan verən müvafiq ərazi proqramlarının hazırlanıb tərtibi üzrə mövcud təkliflərin də təkmilləşdirilməyə ehtiyacı vardır və bunu nəzərə alaraq müvafiq proqramın layihəsinin təklif edirik.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin və Dövlət Statistika Komitəsinin hesabatları. 10."Azərbaycan Respublikasinin Regionlarının 2009-2013-cü illərdə sosial- iqtisadi inkişafi Dövlət Proqramı"

2. AbbasovA.B., AbbasovaR.Ə., Əliyev M.Ə.və başqaları. Biznesin təşkili və idarə edilməsi. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2011, 434 s.

3."Müəssisələr haqqında" A.R. Qanunu.

4. "2012-ci il dövlət büdcəsi haqqında" A.R. Qanunu.

5. Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin istifadəsi qaydaları.

6. economy.gov.az .

7. maliyye.gov.az .

8. azstat.org .

9. anfes.gov.az .

10. sahibkar.biz

**Резюме**

***Надитова А.И.***

**Финансовая поддержка малого и среднего бизнеса**

*Статья посвящена анализу современного состояния развития предпринимательства в экономике страны. В этой главе рассматриваются вопросы предпринимательства, в частности, финансирование малого и среднего бизнеса, роль налоговой политики как инструмента развития предпринимательства, влияние Национального фонда поддержки предпринимательства на развитие предпринимательства и его проблемы. Основное внимание уделяется развитию предпринимательства в экономике страны. Таким образом, данная глава посвящена методам финансирования предпринимательства, их совершенствованию, усилению финансовой поддержки малого и среднего предпринимательства, а также направлениям государственной политики в области финансирования малого и среднего предпринимательства.*

***Ключевые слова:*** *государственная политика по поддержке малого и среднего предпринимательства; финансовая поддержка; нормативно-правовая база.*

**Summary**

***Naditova A.I.***

**Financial Support for Small and Medium Enterprises**

*The article deals with the analysis of the modern state of entrepreneurship development in the country's economy. This chapter deals with the issues of entrepreneurship, particularly the financing of small and medium-sized businesses, the role of tax policy as a tool for entrepreneurship development, the impact of the National Entrepreneurship Support Fund on entrepreneurship development and its challenges. It focuses on the development of entrepreneurship in the country's economy. Thus, this chapter deals with the methods of entrepreneurship financing, improvement of them, strengthening of the financial support of small and medium enterprises, as well as the directions of state policy in the field of financing of small and medium enterprises.*

***Key words:****government policy on support of small and medium enterprises,financial support, regulatory legal base*

## İQTİSADİ TƏHLÜKƏSİZLİYİN MÖHKƏMLƏNDİRİLMƏSİNDƏ PUL-KREDİT SİYASƏTİNİN ROLU

***Osmanov İ.O.***

*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalədə pul-kredit siyasətinin məqsəd və vəzifələri araşdırılmışdır. Pul-kredit sisteminin iqtisadi təhlükəsizliyinin təmin edilməsində bank fəaliyyətinin rolu tədqiq edilmişdir. Pul-kredit tənzimlənməsi vasitəsilə iqtisadi təhlükəsizliyin təmin edilməsinin zəruriliyi açıqlanmışdır.*

***Açar sözlər:*** *milli iqtisadiyyat, pul-kredit siyasəti, bank, iqtisadi təhlükəsizlik, maliyyə, tənzimləmə*

Dövlətin iqtisadi təhlükəsizliyini təmin edən effektiv sistemin formalaşdırılması üçün müxtəlif iqtisadi güclərin təsirlərini sintez etmək lazımdır. Azərbaycanda pul-kredit sistemində təhlükəsizlik indikatorlarının mövcud səviyyəsini qiymətləndirməklə, müasir qloballaşma şəraitində milli iqtisadiyyatımızın bu sferasında təhlükəsizlik prioritetlərinin formalaşması xüsusiyyətlərini aşkara çıxarmaq böyük əhəmiyyət kəsb edir.

Pul-kredit siyasəti makroiqtisadi siyasətin bir hissəsidir. Bir çox ölkələr pul-kredit sistemində iqtisadi təhlükəsizliyə nail olmaq üçün çalışır. Hər hansı bir ölkənin iqtisadiyyatının dayanıqlılığını təmin etmək üçün məhz pul-kredit sisteminin dayanıqlılığını bərpa etmək lazımdır. Pul-kredit sistemində kiçik bir dəyişiklik bank sisteminə və ölkə iqtisadiyyatına bir anda təsir edə bilər. Buna görə də bu siyasətin səmərəliliyi bütün ölkələrin, o cümlədən Azərbaycanın xüsusi diqqət mərkəzindədir.

İki növ pul-kredit siyasəti fərqlənir:

1. Kredit məhdudlaşdırılması və ya pul kütləsini nəzərdə tutan "bahalı" pul faiz dərəcələrinin yüksəldilməsi yolu ilə emissiyaların artması, bu da sərtləşdirmə şərtləri və bank kreditlərinin məhdudlaşdırılması deməkdir. Bu siyasətin məqsədi inflyasiyanın qarşısını almaq, ödəniş balansını yaxşılaşdırmaqdır.

2. Kreditin genişləndirilməsi və ya aşağı faiz dərəcələrini təmin edən "ucuz" pul siyasəti, iqtisadiyyata kredit vermə həcminin artması və dövriyyədə pul kütləsinin artması. Bu siyasətin məqsədi işgüzar fəaliyyəti və iqtisadi artımı stimullaşdırmaq, işsizliyi azaltmaqdır [4, səh.144].

İqtisadi təhlükəsizlik problemlərinin həllində dövlətin əsas iqtisadi vasitələrindən biri Mərkəzi Bank tərəfindən aparılan pul-kredit siyasətidir. Pul-kredit siyasəti vasitələrini təkmilləşdirmədən iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün mövcud mexanizmlərin istifadəsinin effektivliyini qiymətləndirmək mümkün deyil.

Mərkəzi Bankın əsas məqsədlərindən biri manatın sabitliyini qorumaq və təmin etməkdir. Həmin məqsədə uyğun olaraq bir sıra vəzifələr müəyyənləşdirilmişdir:

- bank sisteminin inkişafı və möhkəmləndirilməsi;
- milli ödəniş sisteminin sabitliyini və inkişafını təmin etmək;
- ölkənin maliyyə bazarını inkişaf etdirmək;
- ölkənin maliyyə bazarının sabitliyini təmin etmək.

Yuxarıda göstərilən məqsədlərə nail olmaq üçün pul-kredit siyasətinin həyata keçirilməsi bir sıra funksiyalara əsaslanır. Əsasən inflyasiyanın azaldılmasına yönəlmiş effektiv pul-kredit siyasəti əlverişli investisiya mühitinin inkişafına kömək edəcək, bu da milli iqtisadiyyata uzunmüddətli və real investisiyaların artmasına əhəmiyyətli təsir göstərəcəkdir [1, səh.187].

Bununla bağlı ölkəmizdə üç proqramın fəal şəkildə həyata keçirilməsi tələb olunur ki, bunlar:

- bazarın prinsiplərinə əsaslanan iqtisadi idarəetmənin təkmilləşdirilməsi və dünya iqtisadiyyatına inteqrasiyası;
- bank sisteminin və iqtisadiyyatının yenidən qurulması;
- inflyasiya hədəflənməsidir.

Bu baxımdan pul-kredit siyasətinin tədqiqatı böyük əhəmiyyət daşıyır.

Milli iqtisadiyyatın inkişaf etdiyi və dünya maliyyə bazarlarının qloballaşdığı müasir şəraitdə dövlətin əsas funksiyası bank təhlükəsizliyini təmin etməkdir. Bank əməliyyatları və onun iştirakçıları mövcud və ya potensial təhdidlərə (risklərə) baxmayaraq, davamlılıq nümayiş etdirməlidir. Milli təhlükəsizliyə qarşı təhdidlərin kritik səviyyəsi təkcə daxili iqtisadiyyatın "dağılması" deyil, həm də siyasi çökməyə səbəb ola bilər. Mərkəzi Bank bank sisteminin təhlükəsizliyinin təmin edilməsi, iqtisadi artımın təşviqi, xarici ölkələrlə ticarətinin dollarlaşdırılmasını məhdudlaşdırmaqla məşğul olmalıdır. Dövlətin pul-kredit siyasətinin səmərəliliyi əsasən Mərkəzi Bankın alətlərini necə istifadə etməsindən asılıdır. Təcrübədə optimal pul-kredit siyasətini inkişaf etdirmək çətindir. Çünki bir parametr ilə istənilən nəticələrə nail olmaq, bir qayda olaraq, digər göstəricilərin pisləşməsinə səbəb olur, yəni bu sahədə idarəetmə keyfiyyətinin göstəriciləri seçimlə bağlıdır.

Hal-hazırda Mərkəzi Bank şəffaf təşkilati struktura malik olan vahid mərkəzləşdirilmiş bir sistemdir. Xüsusi hüquqi statusa malik dövlət orqanıdır. Belə bir orqan kimi Mərkəzi Bank aşağıdakı əsas vəzifələri yerinə yetirir:

- strategiyanın formalaşdırılmasında iştirak edir;
- ölkənin sosial-iqtisadi inkişafı üçün planlar hazırlayır;
- dövlətin dayanıqlı inkişaf prosesində iştirak edir.
- milli valyutanı stabilləşdirir;
- bank və kredit təşkilatlarının təhlükəsizliyini təmin edir;
- pul-kredit sisteminin təhlükəsizliyini və məhsuldarlığını təmin edir və s.

Ümumiyyətlə, ölkənin iqtisadiyyatının xarici asılılığının və maliyyə sahəsində milli maraqlara təhlükə yaradan təhdidlərin aradan qaldırılması üçün dövlətin vahid pul-kredit siyasətinin formalaşdırılması və həyata keçirilməsi zəruridir. Dövlətin bütün sahələrində iqtisadi təhlükəsizliyin təmin edilməsi məsələləri iqtisadiyyatın açıqlıq dərəcəsi artdığı üçün aktuallaşır. İqtisadi təhlükəsizliyi təmin edən sistemdə xüsusi yeri pul-kredit tənzimlənməsi üsulları tutur. Bazar iqtisadiyyatında pul bazasına təsir etmək üçün pul köçürmələrinin dolayı üsulları ənənəvi olaraq istifadə olunur. Müasir maliyyə böhranı şəraitində pul və kredit tənzimləməsinin yeni üsulları ortaya çıxıb. Bu üsulların bir çoxu büdcə tənzimləmələri ilə sıx bağlıdır. Nəticədə, büdcə xarakterli pul-kredit tənzimləməsinin bir sıra birbaşa üsullarını müəyyənləşdirmək mümkündür. Dövlətin iqtisadi təhlükəsizliyini təmin etmək baxımından pul-kredit tənzimləmə metodlarının təsnif edilməsinə qeyri-ənənəvi yanaşma pul, büdcə və digər iqtisadi tənzimləmələrin artması ilə bağlıdır [2, səh.512].

Pul-kredit tənzimlənməsi vasitəsi ilə iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün strategiya və taktika hazırlamaq, pul xarakterli təhdidlərə diqqət yetirərək, maliyyə xarakterli təhdidlərə qarşı mübarizə imkanlarını müəyyən etmək lazımdır.

Pul-kredit tənzimləyicilərinin yaradılması ilk növbədə pul təhlükəsi ilə əlaqədar həyata keçirilməlidir. Lakin digər sahələrdə təhlükələri aradan qaldırmaq üçün onları istifadə etmək imkanı nəzərdən keçirilməlidir.

Pul-kredit tənzimləyicilərinin istifadəsi nəticəsində iki ssenaridə inkişaf mümkündür: arzuolunan və arzuolunmaz. Arzuolunan ssenarinin həyata keçirilməsi təhlükənin əhəmiyyətli dərəcəsinin aradan qaldırılmasını və ya azaldılmasını nəzərdə tutur, bunun nəticəsində zəruri iqtisadi təhlükəsizlik təmin olunur. Arzuolunmaz ssenari yeni bir təhlükənin ortaya çıxmasını və ya onların əhəmiyyət dərəcəsinin artırılmasını nəzərdə tutur. Açıq iqtisadiyyatı olan hər hansı bir dövlət üçün ən təhlükəli iqtisadi təzyiq başqa dövlət tərəfindən qoyulmuş maliyyə sanksiyasıdır.

Monetar tənzimləmə üsulları vasitəsilə iqtisadi təhlükəsizliyin səviyyəsinə prioritet təsir göstərərkən onların güclü və zəif cəhətlərini nəzərə almaq lazımdır. Güclü cəhətlərə inflyasiya və büdcə kəsiri ilə effektiv şəkildə mübarizə bacarığını aid etmək olar. Zəif cəhətlər məşğulluq, iqtisadi artım və sosial sahəyə birbaşa təsir imkanının olmamasını ehtiva edir [3, səh.79].

Beləliklə, maliyyə münasibətləri sahəsində pul-kredit təhlükəsizliyinin təmin edilməsi üçün əsas tədbirlər aşağıdakılardır:

- manatın sabitliyini təmin etmək;
- etibarlı hesablaşma sisteminin və kassa xidmətlərinin təşkili;
- bank əmanətçilərinin maraqlarını qorumaq üçün vaxtında və effektiv tədbirlərin görülməsi, bankların kütləvi iflasların qarşısını almaq üçün kommersiya banklarının fəaliyyətinə nəzarət etməkdə Mərkəzi Bankın rolunun gücləndirilməsi;
- dövlət nəzarət orqanları tərəfindən ölkə bazarının subyektlərinin cari valyuta və kapital əməliyyatlarına nəzarət mexanizmlərinin təkmilləşdirilməsi.

Yuxarıda göstərilən tədbirlər pul-kredit sistemində iqtisadi təhlükəsizliyin təminatında mühüm rol oynaya bilər. Beləliklə, dövlətin iqtisadi təhlükəsizliyini təmin etmək üçün pul-kredit tənzimləmə üsullarının istifadəsi bir çox amillərin və ölkənin iqtisadi inkişafının xüsusiyyətlərini nəzərə almalıdır. Qlobal iqtisadi artımın əksər dövlətlərin pul siyasətinə təsirinin qaçılmaz olması açıq iqtisadiyyatda ölkənin pul –kredit təhlükəsizliyinin təmin edilməsi konsepsiyasının inkişafını tələb edir.

**Ədəbiyyat**


1. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2009, 415 s.
2. Моисеев С. Р.. Денежно-кредитная политика: теория и практика. М.: Московская финансово-промышленная академия, 2011, 784 с.
3. Лаврушин О.И. Деньги, кредит, банки. М.: КНОРУС, 2010, 320 с.
4. Улюкаев А.В. Современная денежно-кредитная политика: проблемы и перспективы. М.: Изд-во Дело АНХ, 2009, 208 с.


**Резюме**


***Османов И.О.***


**Роль денежно-кредитной политики в укреплении экономической безопасности**


*В статье исследованы цели и задачи денежно-кредитной политики. Рассмотрена роль банковской деятельности в обеспечении экономической безопасности денежно-кредитнойсистемы. Раскрыта необходимость обеспечения экономической безопасности посредством денежно-кредитного регулирования.*



***Ключевые слова:*** *национальная экономика, денежно-кредитная политика, банк, экономическая безопасность, финансы, регулирование*


**Summary**


***Osmanov I.O.***


**The Role of Monetary Policy in Strengthening Economic Security**


*The article explores the goals and positions of monetary policy. The role of banking in ensuring the economic security of the monetary system is considered. Revealed the need to ensure economic security through monetary regulation.*



***Key words:*** *national economy, monetary policy, bank, economic security, finance, regulation*

# DAYANIQLI İNKİŞAF KONSEPSİYASININ MAHİYYƏTİ VƏ YARANMA SƏBƏBLƏRİ

***Rüstəmli R.M.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalə dünyada dayanıqlı inkişafın formalaşması araşdırmışdır. Dayanıqlı inkişaf konsepsiyası yaranma tarixini onun prinsipləri haqqında ətraflı məlumat verilmişdir. Dayanıqlı inkişaf konsepsiyasının ayrılmaz hissəsi dayanıqlı inkişaf üzrə BMT Komissiyası tərəfindən işlənib hazırlanmış indikatorlar sistemindən məlumat verilmişdir.*

***Açar sözlər:*** *dayanıqlı inkişaf, elmi-texniki tərəqqi, ətraf mühit, beynəlxalq forum, indikator, dövlət siyasətinin*

Dayanıqlı inkişaf konsepsiyası 1992-ci ildə ətraf mühit və inkişaf üzrə BMT-nin Rio-de-Janeyroda keçirilmiş konfransında dünyanın bütün ölkələri üçün XXI əsrdə fəaliyyət planı kimi qəbul edilmişdir. Bu konsepsiyanın mahiyyəti barədə danışmazdan əvvəl dayanıqlı anlayışı və inkişafa münasibətdə onun xüsusiyyətləri üzərində dayanmağa ehtiyac vardır. Azərbaycanın iqtisadçı alimlərindən olan Ş.H.Hacıyevin fikrincə, dayanıqlı inkişaf – investisiyaya yönəlmiş resursların istismarı, elmi-texniki tərəqqinin istiqamətlənməsi və institusional dəyişikliklərin bir-birinə qarşılıqlı əlaqədə olduğu və vahid dəyişikliklərin prosesi olub, insanın mövcud və gələcək tələbatlarının ödənilməsi üçün mövcud və gələcək potensialı möhkəmləndirir. Daha doğrusu, dayanıqlı inkişaf dedikdə ölkənin iqtisadi və sosial inkişafının ətraf mühitin vəziyyəti ilə uyğunlaşdırılması nəzərdə tutulur. Yəni təbii resurslardan istifadə edərkən onun gələcək nəsillər üçün qorunub saxlanılması da nəzərə alınmalıdır. Bu konsepsiyanı XXI əsrin gündəliyi də adlandırırlar**.**

Dayanıqlı inkişaf konsepsiyası – sosial iqtisadi problem və ətraf mühitin qorunub saxlanması problemlərinin həlli arasında dünya balansının təmin olunması zərurətindən irəli gələn sivilizasiyanın inkişafı modelidir. İlk dəfə olaraq dayanıqlı inkişaf termini Qru Xarlem Bruntlandın rəhbərliyi altında 1987 - ci ildə təqdim edilmişdir. Bizim ümumi gələcəyimiz hesabatında irəli sürülmüşdür.

Dayanıqlı inkişaf konsepsiyasının qəbul olunması zərurəti, ətraf mühitin deqradasiyası ümumi planın qorxusu ilə şərtlənir. Bu qorxu elmi-texniki tərəqqinin neqativ nəticələrindən irəli gəlir. Bu isə inkişaf edən ölkələrdə əhalinin artımı ilə daha da güclənir. Bütün bunlar təbiət, insan və cəmiyyət arasında disbalans yaradır.

Dayanıqlı inkişaf konsepsiyası bir çox cəhətlərinə görə V.İ.Vernadski tərəfindən XXI əsrin ortalarında irəli sürülən neosfera konsepsiyası ilə uzlaşır.

Dayanıqlı inkişaf konsepsiyasına keçid sosial-iqtisadi inkişaf problemlərinin balanslaşdırılmış həllinin perspektivliyini və ətraf mühitin və təbii-resurs potensialının səmərəli qorunmasını, indiki və gələcək insan nəsillərinin tələbatlarının ödənilməsini təmin etməlidir. Bunun əsasında prinsipial vəzifələrin məntiqi həlli nəzərdə tutulur:

- Cari böhranlı vəziyyətdən ölkənin çıxması prosesində ekoloji vəziyyəti sabitləşdirmək;
- Təsərrüfatçılığın yeni modelini yaratmağa və ekoloji istiqamətə yönəlmiş idarəetmə metodlarının geniş yayılmasına imkan verən institusional və struktur islahatları çərçivəsində iqtisadi fəaliyyətin ekologizasiyası hesabına ətraf mühitin vəziyyətinin köklü şəkildə yaxşılaşdırılmasına nail olmaq;
- Enerji-resursqoruyucu texnologiyaların, iqtisadiyyatın strukturlarının, müəyyən məqsədə istiqamətlənmiş dəyişikliklərin şəxsi və ictimai tələbat strukturları əsasında ekosistemlərin həcmi hüdudları daxilində təsərrüfat fəaliyyətini həyata keçirmək.

Dayanıqlı inkişafa keçid cəmiyyətin həyatının bütün sferalarında koordinasiyalaşdırılmış fəaliyyəti, dövlətin sosial, iqtisadi və ekoloji institutlarının adekvat olaraq oriyentasiyasının dəyişməsini tələb edir. Bu islahatların metodoloji və texnoloji əsaslarının yaradılmasında əsas əhəmiyyət, məhz elmə aid olacaq.

Ətraf mühit və onun inkişafı üzrə BMT-nin Konfransında və beynəlxalq forumlarda hazırlanmış dayanıqlı inkişaf prinsiplərinə müvafiq olaraq insanın həyat və sağlamlığının qorunmasına, demoqrafik problemlərin həllinə, cinayətkarlıqla mübarizəyə, yoxsulluğun aradan qaldırılmasına istiqamətlənmiş kompleks tədbirlərin reallaşdırılması nəzərdə tutulur.

Dayanıqlı inkişafa keçid prosesinin dövlət tərəfindən idarə edilməsi proqram və proqnoz sənədlər toplusunun işlənib hazırlanmasını nəzərdə tutur: uzunmüddətli xarakterli fəaliyyətlərin dövlət strategiyaları; uzunmüddətli və ortamüddətli proqnozlar; sahəvi və regional (ərazi) səviyyələrin qısamüddətli proqnoz və proqramları. Burada ən vacib şərt "mərkəz-regionlar" qarşılıqlı əlaqə sisteminin yaradılmasıdır. Bu, bütün subyektlərin maraqlarını nəzərə alaraq iqtisadiyyatın effektiv məkan strukturunun formalaşmasını nəzərdə tutur. Bu isə, öz növbəsində, hər bir region üçün dayanıqlı inkişafa keçid proqramının hazırlanması və reallaşması zərurətini, eləcə də, dayanıqlı inkişaf sahəsində dövlət siyasətinin hazırlanması zamanı bu proqramların sonrakı inteqrasiyasını nəzərdə tutur.

Dayanıqlı inkişaf konsepsiyasının ayrılmaz hissəsi dayanıqlı inkişaf üzrə BMT Komissiyası tərəfindən işlənib hazırlanmış indikatorlar sistemidir. İndikatorların işlənib hazırlanması və tətbiqi üzrə bir çox milli və beynəlxalq təkliflər əsasında 1995-ci ildə Dayanıqlı inkişaf üzrə Komissiya dayanıqlı inkişaf üçün indikatorların daxil edilməsi üzrə iş proqramını qəbul etmişdir. Proqram 130 indikatordan ibarət ən birinci dəsti özünə daxil edir. Bu indikatorların tətbiqini sadələşdirmək və eyni zamanda onların qəbul oluna bilmə səviyyəsini yoxlamaq üçün onların hər biri üzrə metodoloji göstərişlər işlənib hazırlanmışdır. İndikator onların hərəkətverici qüvvəyə münasibətdə (Driviing Force, həmçinin, faktorların mövcudluğuna görə), həmçinin, vəziyyət (state) və reaksiyavermə xarakteristikasına, eləcə də müvafiq strukturun (Response Framevvork) cavab reaksiyasının xarakterinə görə fərqlənir. Hərəkətverici qüvvənin indikatorlarına dayanıqlı inkişafa təsir göstərən insan fəaliyyəti, proses və modellər daxildir. Vəziyyət indikatorları dayanıqlı inkişafın "vəziyyətini" göstərir, lakin reaksiya indikatorları isə dayanıqlı inkişafın vəziyyətinin dəyişilməsi üçün siyasət və digər reaksiyanın seçim hüququnun olmasını nümayiş etdirir. İndikator ölkələr tərəfindən milli səviyyədə onlar tərəfindən qərar qəbulu prosesində istifadə üçün nəzərdə tutulmuşdur. Bütün indikatorlar istənilən situasiyalarda tətbiq oluna bilməz. Onu da qeyd etmək lazımdır ki, ölkələr o indikatoru seçir ki, onlar ölkənin prioritetlərinə, məqsəd və vəzifələrinə cavab versin.

**Ədəbiyyat**


1. Bayramov Ə.İ.Dayanıqlı inkişafın Heydər Əliyev modeli. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2009, 186 s.
2. Nəbiyev N. İqtisadiyyat, cəmiyyət və ekoloji mühit. Bakı, 2000, 695 s



**Резюме**

***Рустамли Р.М***

**Сущность концепции устойчивого развития и причина ее возникновения**

*В статье рассматриваются приоритеты экономической безопасности. Были рассмотрены вопросы безопасности человеческого капитала, национальной валюты, финансов, налоговой системы, инвестиционной деятельности и социального обеспечения. Обеспечение национальной экономической безопасности и создание соответствующего механизма для решения задач в этой области оправдано.*

***Ключевые слова:*** *устойчивое развитие, научно-технический прогресс, окружающая среда, международный форум, индикатор, государственная политика*



**Summary**

***Rustemli R.M.***

**The Essence of the Concept of Sustainable Development and the Reason for its Occurrence**

*The article examines the priorities of economic security. Security issues of human capital, national currency, finance, tax system, investment activity and social security have been studied. Providing a national economic security and establishing an appropriate mechanism for solving the tasks in this area has been justified.*

***Key words****: sustainable development, scientific and technical progress, environment, international forum, indicator, state policy*


## MALİYYƏ DAYANIQLIĞININ TƏHLİLİ MƏSƏLƏLƏRİ


***Sadıqova S.S.***

*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*



***Xülasə.*** *Dayanıqlı iqtisadiyyatın yaranması, ilk növbədə, daxili və xarici bazarda rəqabətqabiliyyətli məhsul istehsal edən istehsal sferasının inkişafi ilə mümkündür. Rəqabətqabiliyyətli məhsulu ancaq elmtutumlu texnoloji proseslərin əsasında, daha doğrusu, texnoloji innovasiyaların vasitəsilə istehsal etmək olar. Ancaq "istehsalçı" və "innovatoru"un birləşməsi ilə istehsalın dayanıqlı inkişafına nail olmaq olar. "İstehsalçı", həm də "innovator" olduqda nəticə daha yaxşı olar.*



***Açar sözlər:*** *sahə, maliyyə, dayanıqlıq, iqtisadiyyat, bazar*


Qeyd edək ki, Azərbaycanın orta dövrdə makroiqtisadi inkişaf perspektivi neft sektorunun fəaliyyətindən asılıdır. Neft sənayesinin fəaliyyətindən alınan mədaxil respublikadakı bir sıra sosial-iqtisadi

problemlərin həlli üçün "açar" rolunu oynayır. Bu sənaye sahəsinin əhəmiyyəti həm də onun xarici investorları cəlb etmək qabiliyyəti ilə ölçülür. Bu amildən asılı olaraq, hər bir nəfərə düşən daxili məhsul artır.

Bazar iqtisadi münasibətləri qənaət rejiminə əməl etməyi, bütün növ istehsal və təbii resurslardan rasional istifadəni təmin etməyi, elmi-texniki tərəqqi əsasında istehsalın intensivləşdirilməsini nəzərdə tutur. Resurslara qənaətin sütərləndirilməsi intensivləşdirmənin bir amili kimi qəbul olunur. Sənaye sahəsinin intensiv yola istiqamətlənməsi, daxili ehtiyatların aşkar edilməsi, material resursları və əsas forndlardan istifadənin yaxşılaşdırılması olmadan mümkün deyildir. İstehsalın səmərəliliyinin yüksəldilməsi hasilat sənayesi sahələri üçün daha əhəmiyyətlidir. Respublikada neft-qaz sənayesinin digər sənaye sahələri ilə müqayisədə daha intensiv inkişafı, neftqazçıxarmada texniki tərəqqi, istehlakda neft-qaz məhsullarına olan tələbatın artması, bütün bunlar böyük səmərədən xəbər verir. Azərbaycanın yanacaq-enerji balansında neft sənayesinin payı 75-80%-dır və onun inkişafından neftmaşınqayırma, neft-kimya, elektroenerji və s. sahələr asılıdır.

Bazar münasibətlərində çoxlu sayda problemlərin içərisində, sənaye sahəsinin "yanaşması" və normal fəaliyyət göstərməsi baxımından məhsulun (işin, xidmətin) keyfiyyət problemi çox mühümdür. Beynəlxalq iqtisadi münasibətlərin inkişafı ilə, o sənaye sahələri yaxşı vəziyyətdə qalırlar ki, onlar nəinki ən yüksək əmək məhsuldarlığına nail olması, həm də istehsal etdiyi məhsulun rəqabətqabiliyyətli olmalarına çalışırlar.

İqtisadi ədəbiyyatın təhlili [1, 2, 3] göstərdiki, "məhsulun keyfiyyəti-bu məhsulun istehlak xasiyyətlərinin məcmusudur, müəyyən vaxt ərzində onun təyinatına uyğun, müəyyən tələbatları ödəmək qabiliyyəti ilə şərtlənir".

Cəmiyyətin sənaye məhsullarına tələbatının ödənilməsi nəinki məhsul istehsal həcmi, həmçinin onun keyfiyyətindən asılıdır. İstehsal təyinatlı məhsullara tələbat onların hazırlandığı və istifadə olunduğu şəraitlərlə təyin edilir.

Texniki tərəqqi ilə əlaqədar məhsula tələbatlar yüksəlir. Bunlar istehsalda istifadə prosesində məhsulu xarakterizə edən əlamət və xassələrin məcmunu özündə birləşdirir. Məhsul keyfiyyətinin əlamət və xassələri çox müxtəlifdir, istehsalın xüsusiyyəti və məhsulun təyinatından asılıdır. Onlara, ilk növbədə, aiddir: həcm, ölçü, çəki, xarici görünüşü, məhsulun kəmiyyətcə ölçülə bilən mexaniki, kimyəvi, fiziki və başqa xassələri.

Müxtəlif növlü məhsullar, yəni investisiya əmtəələri (əmək vasitələri, əmək cisimləri), istehlak əşyaları üçün məhsulların keyfiyyət göstəricilərinin qiymətləndirilməsi fərqlidir. Bütün növ məhsullar üçün ümumi göstərici, baxılan məhsulun keyfiyyətinin texniki şərtlər və standartlara müəyyən edilmiş tələblərə cavab verməsidir.

Əksəriyyət sənaye sahələri, o cümlədən neftmaşınqayırma üçün məhsulun keyfiyyətini səciyyələndirən möhkəmlik, uzunömürlülük və s. əlamətlər xüsusi əhəmiyyət kəsb edir. Möhkəmlik dedikdə tələb olunan vaxt dövrü ərzində istismar göstəricilərini saxlamaqla verilən funksiyanı yerinə yetirmək qabiliyyəti başa düşülür. Möhkəmlik göstəricilərinə aiddir: imtinasızlıq (məlumatın iş qabiliyyətinin məcburi fasilələrsiz saxlamaq əlaməti), təmirəyararlılıq, imtinaların aşkar edilib aradan qaldırılması və s.

Uzun ömürlülük – texniki xidmət üçün vacib fasilələri nəzərə almaqla məmulatın iş qabiliyyətinin mümkün səviyyəyə qədər saxlamaq əlamətidir. Möhkəmlik və uzunömürlülük göstəricisindən başqa məhsulun keyfiyyət göstəricilərinə aid edilə bilər: xüsusi və nisbi materialtutumu, məhsuldarlıq, avtomatlaşdirma səviyyəsi, qabarıtı, nəqledilmə qabiliyyəti.

Bundan başqa, məhsulun sadalanan göstəricilərinə həmçinin texnolojilik, standartlaşdırma və unifikasiya, erqonomiklik, estetiklik, patent-hüquq və iqtisadi göstəricilərdə xasdır. Texnolojilik göstəricilərinə məhsulun materialtutumu, əməktutumu, fondtutumu, məlumatın quraşdırılma mürəkkəbliyi, yığılma əmsalı və s. aiddir. Erqonomik göstəricilərə aiddir: məlumatın forması və xarici görünüşü. Elmi-texniki tərəqqinin müasir mərhələsində məhsulun keyfiyyətinin estetik göstəriciləri əhəmiyyətlidir. Bu mənada məhsulun estetik göstəriciləri orjinallıq, ifadə tərzi, ətraf mühitə uyğunluq ("insan-məmulat-mühit") kimi əlamətlər xasdır.

Məhsulun iqtisadi göstəriciləri, onun keyfiyyətinin yaxşılaşdırılması ilə əlaqədar sifarişlərdir. Bunlara: maya dəyəri, mənfəət, rentabellik, qiymət aiddir. Müasir şəraitdə məhsulun keyfiyyətinin patent-hüquq göstəricilərinə üstünlük verilir. Bunlara patent təmizliyi və patent müdafiəsi göstəriciləri aiddir.

Məhsulun istehsalını planlaşdırarkən onun keyfiyyətinin səviyyəsini qiymətləndirmək vacibdir. Keyfiyyət səviyyəsi dedikdə məhsulun keyfiyyətinin nisbi xarakteristikası nəzərdə tutulur ki, bu da baza göstəriciləri məcmusuna (xarici analoqu) uyğun olaraq göstəricilərin müqayisəsinə əsaslanır.

Məhsulun keyfiyyəti Azərbaycan üçün daha böyük əhəmiyyətə malikdir, beləki, respublika müstəqilliyini qazanmış və dünya təsərrüfatına durmadan inteqrasiya edir. Yuxarıda qeyd edildiyi kimi, "Əsrin müqaviləsi"nin bağlanması ilə yeni neft strategiyası reallaşdırılır. Bütün bunlar isə respublika iqtisadiyyatının dayanıqlı inkişafını şərtləndirmişdir.

Qeyd olunduğu kimi, neft sənayesinin inkişafı ilə ölkənin digər sahələri, o cümlədən neftmaşınqayırması inkişaf edir. Neftmaşınqayırması ölkə iqtisdiyyatının baza sahəsidir. Neftmaşınqayırma sənayesi XIX əsrin sonunda yaranmışdır və onun məhsullarına neft-mədən, qazma, geoloji-kəşfiyyat avadanlıqları aiddir. Texniki parametrlərinə görə onlardan əksəriyyəti beynəlxalq standartların tələblərini ödəyirdi. Bu avadanlıqlar keçmiş ittifaqın bütün neft rayonlarında və 40-dan çox xarici ölkələrdə istifadə olunurdu. Dərinlik nasosları, mancanaq dəzgahlar, quyuların əsaslı təmiri üçün qurğular, neft və qaz quyularının istismarı üçün avadanlıqlar ancaq Azərbaycanın neftmaşınqayırma zavodlarında istehsal olunurdu. Keçmiş ittifaqın süqutu ilə respublikalar arası və xarici ölkələrlə iqtisadi-ticari əlaqələr kəsilmiş, bu isə həmin müəssisələrdə istehsal həcminin azalması və bununla əlaqədar bəzi problemlərin yaranması ilə nəticələndi.

Qeyd edək ki, bazar münasibətləri şəraitində təsərrüfat subyektinin müvəffəqiyyətlə fəaliyyət göstərmələri baxımından, sənaye müəssisələrinin iqtisadi dayanıqlığının təmin edilməsi mühümdür. Dayanıqlıq problemi həm mikro, həm də makro səviyyədə aktualdır. İstənilən mürəkkəblikdəki sosial-iqtisadi sistem öz mövcudluğunda iki aspektlə - fəaliyyət və inkişaf – xarakterizə olunur. Onlar arasında dəqiq sərhədin qoyulması müasir dövrdə mümkün deyildir. Sosial-iqtisadi sistemin fəaliyyəti, inkişafı onun xarici, daxili mühiti ilə əlaqədardır və bu baxımdan dayanıqlı inkişaf onlara xasdır.

Müasir dövrdə iqtisadçı-alimlər arasında iqtisadi dayanıqlığın diaqnostika göstəriciləri baxımından vahid fikir yoxdur. Buna baxmayaraq, bu məsələnin müəssisə səviyyəsində həlli onun fəaliyyətinin nəticələrini səciyyələndirən iqtisadi (maliyyə) göstəriciləri ilə əlaqələndirilməlidir.

Bütün bunlar isə öz növbəsində yeni biliklər, konsepsiya və yanaşmaların işlənməsini vacib edir ki, buda öz əksini hər bir müəssisənin inkişaf strategiyasının işlənməsində göstərir.

Strategiyanın reallaşdırılması müəssisənin iqtisadi gücünün daim artırılmasını təmin etməli, onların istehsal etdikləri məhsulun rəqabətqabiliyyətini yüksəltməlidir.

Müəssisənin, o cümlədən "Azərneftkimyamaş"ASC fəaliyyəti üçün strategiyanın işlənməsinin müvəffəqiyyəti, ozünün fəaliyyətinin keçmiş və indiki vəziyyətini qiymətləndirmək, zəif və güclü tərəflərini təyin etməkdən asılıdır.

Bu məqsədlə ilk növbədə müəssisənin ödəmə qabiliyyəti dərəcəsi və maliyyə vəziyyəti müəyyən edilir. V.Kovalyev [4]-də bu məqsədlə "maliyyə-təsərrüfat fəaliyyətinin qiymətləndirilməsinin göstəricilər sistemi" və onların hesablanma alqoritmini vermişdir. Bu alqoritm dünya təcrübəsində qəbul edilmiş metodikaya uyğundur. Göstəricilər sistemi: əmlak vəziyyətinin qiymətləndirilməsi; likvidliyin qiymətləndirilməsi; maliyyə dayanıqlığının qiymətləndirilməsi; rentabelliyin qiymətləndirilməsi; işgüzar aktivliyin qiymətləndirilməsi və qiymətli kağızlar bazarında müəssisənin vəziyyətinin qiymətləndirilməsi bloklarından ibarətdir, hər bir blok isə bir sıra əmsalların təyinini tələb edir.

Yuxarıda biz Bakı Neftmaşınqayırma zavodunun fərqləndiyini qeyd etmişdik. Ona görə də aşağıda bu zavodun 2016-cı il maliyyə hesablarına əsasən maliyyə-təsərrüfat fəaliyyətini səciyyələndirən göstəricilər sistemi hesablanmışdır .

Maliyyə-təsərrüfat göstəricilərinin hesabatı göstərir ki, BNM zavodu iqtisadi göstəricilərin dayanıqlığından çox uzaqdır. Zavodun əsas fondları köhnəlmiş və maliyyə göstəricilərinin daha yaxşı olması arzu ediləndir. Beləki, "mütləq likvidlik əmsalının (ödəmə qabiliyyəti)" göstəricisinin təklif edilən aşağı sərhədi qərb ədəbiyyatında 0,2 olduğu halda, bu zavodda 0,006!=dır, "öz dövriyyə vəsaitlərinin" payı isə (50%) standarta uyğundur.

Yuxarıdakıları yekunlaşdıraraq qeyd edirik ki, "Azneftkimyamaş" ASC və onun müəssisələrinin göstəriciləri iqtisadi dayanıqlıq şərtlərini ödəmir və bu müəssisələr öz fəaliyyətlərində dönüş yaratmalıdır. Bütün bunlar isə ölkə iqtisadiyyatının dayanıqlığı və rəqabətqabiliyyətinə mənfi təsir edir.

## Ədəbiyyat

1. Səfərov Q. Ə., Dadaşova K. S. Neft – qaz kompleksində məhsulun keyfiyyət və "rəqabətqabiliyyətliliyi"nə təsir edən amillər.//AMEA–nın İqtisadiyyat İnstitutu Elmi əsərlər. Bakı: Elm, 2008, IVburaxılış, s.326 - 331.

2. Атамалиева Л.А., Ведение Г.А., Проблемы качества и конкурентоспособности продукции в рыночных условиях / сборник статей Научно технической конференции ВГТУ, Витебск, 1997, 30-32 с.

3. Гибб А., Ляпунов С. Создание малых предприятий на базе крупных в странах переходного периода//Проблемы теории и практики управления, 2005, №1, с. 23-30 с.
4. Ковалев В.В. Финансовый анализ. М.: Финансы и статистика, 1996, 432 с.

**Резюме**

***Садыгова С.С.***

*Образованы устойчивого экономики возможен от развития производственной сферы конкурентоспособностей продукции возможно производить только на основы наукоемкие технологических инновации.*

*К устойчивому развитию можно достичь когда «производитель» становиться также «инноваторам», тогда и получается хороший результат.*

***Ключевые слова:*** *отрасль, финансы, устойчивость, экономика, рынок*

**Summary**

***Sadıqova S.S.***

*Formed sustainable economy is possible from the development of the industrial sphere of product competitiveness is possible to produce only on the basis of high-tech technological innovation. Sustainable development can be achieved when the "producer" becomes also an "innovator", then a good result is obtained.*

***Key words:*** *industry, finance, sustainability, economy, market*

## MİLLİ İQTİSADİYYATIN MALİYYƏ SABİTLİYİNİN TƏMİN OLUNMASINDA BANK SİSTEMİNİN ROLU

***Seyidova S.R.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalədə milli iqtisadiyyatın maliyyə sabitliyinin təmin olunmasının zəruriliyi əsaslandırılmışdır. Bank sisteminin ölkənin maliyyə sabitliyinin möhkəmləndirilməsində rolu tədqiq edilmiş, milli iqtisadiyyata təsiri araşdırılmışdır. Bankların fəaliyyətinə təsir göstərən daxili və xarici amillər nəzərdən keçirilmişdir. Maliyyə sabitliyinin təmin olunması mənbələrindən biri kimi kommersiya banklarının rolu da araşdırılmışdır.*

***Açar sözlər:*** *bank, maliyyə, kredit, maliyyə sabitliyi, daxili və xarici amillər, rəqabətqabiliyyətlilik*

Azərbaycan Respublikasında milli iqtisadiyyatın dayanıqlılığının və biznes fəaliyyətinin inkişafı xeyli dərəcədə bank sisteminin elmi və praktiki tərəfindən əsaslandırılmış qaydada təkmilləşdirilməsi və bank kreditlərinin səmərəli tətbiqindən çox asılıdır.

Azərbaycanda maliyyə sabitliyi siyasətinin əsas istiqamətlərindən biri iqtisadi artımın və inkişafın başlıca şərti olan bank sistemində maliyyə sabitliyinin təmin olunmasına və bankların maliyyə vasitəçiliyinin dərinləşməsinə yönəldilib. Bu hədəflərə nail olmaq üçün Mərkəzi Bank pul siyasətinin və bank nəzarətinin strateji çərçivəsinin davamlı təkmilləşdirilməsini həyata keçirir, habelə makroiqtisadi siyasətin koordinasiyasının daha da təkmilləşməsinə zəruri dəstək verməkdədir. Hazırda həyata keçirilən pul siyasəti nəticəsində maliyyə sabitliyi qorunub saxlanılmış, maliyyə sisteminin institusional inkişafı davam etdirilmiş, maliyyə xidmətlərinə çıxış imkanları artmaqdadır.

Son illər Azərbaycan Respublikasında maliyyə sisteminin formalaşması və təkmilləşdirilməsində dövlətin rolu getdikcə güclənir və bu zaman qarşıya qlobal maliyyə böhranının təsirinin başa çatmadığı hazırkı dövrdə ölkənin maliyyə sabitliyinin və təhlükəsizliyinin təmin edilməsi, makroiqtisadi, vergi və pul-kredit siyasətinin qarşılıqlı üzvi əlaqədə həyata keçirilməsi, büdcə sektorunun restrukturizasiyası və büdcə planlaşdırılması metodlarının daha səmərəli tətbiqi, büdcə gəlirlərinə və xərclərinə nəzarətin effektivliyinin yüksəldilməsi və s. kimi mühüm vəzifələr irəli sürülür. Bunun nəticəsidir ki, 2017-ci ildə ölkədə qiymətlərin sabitliyi təmin edilmiş, inflyasiyanın səviyyəsi qoyulmuş hədəf çərçivəsində saxlanılmışdır. Bank sektorunda kapitalın adekvatlığı göstəricisi 12%-lik normaya qarşı 17.6% təşkil edir ki, bu da beynəlxalq standartlar üzrə tələbi 2 dəfəyədək üstələyir. Sistemin likvidliyi yüksəkdir, bankların öhdəlikləri və hesablaşmaların icrası fasiləsiz həyata keçirilir. Hazırda real sektorun və əhalinin bank sisteminə vaxtı keçmiş borclarının xüsusi çəkisi cəmi 5.3% səviyyəsindədir və bunun da yarısı banklar tərəfindən yaradılmış ehtiyatlarla örtülür. 2017-cü ildə bank sistemi üzrə maliyyə nəticələri qənaətbəxş

olmuş, mənfəətlə işləyən bankların sayı artmışdır. Bank sektoru üzrə aktivlərin gəlirliyi 2%, kapitalın gəlirliyi isə 15% təşkil edir. Bank sisteminin dayanıqlığının və sabitliyinin qorunması, bank aktivliyinin optimallaşması biznesin inkişafının əsas təkanverici amilləridir.

Hal-hazırda iqtisadi inkişafın müasir səviyyəsinə uyğun respublikada biznes fəaliyyətinin inkişafına dövlət himayəsinin səmərəliyinin müəyyən edilməsi, biznes fəaliyyətinin hüquqi bazasının təkmilləşdirilməsi, ölkədə işgüzar fəaliyyəti həvəsləndirmək məqsədilə bank sisteminin təkmilləşdirilməsi ilə bağlı bir sıra problemlərin aradan qaldırılması zəruridir.

Maliyyə sabitliyinin təmin olunması mənbələrindən biri kimi kommersiya bankları çıxış edir. Kommersiya banklarının fəaliyyəti çoxsaylı amillərdən asılı və qarşılıqlı əlaqədə olan kompleks prosesdir. Buna həm daxili, həm də xarici amillər təsir göstərir. Bankın maliyyə strategiyasının məqsədləri sistemində maliyyə sabitliyinin yüksəldilməsi mühüm yerlərdən birini tutur. Bankın maliyyə sabitliyinin mahiyyətinə dair müxtəlif yanaşmalar vardır. Bəzi müəlliflər bankın maliyyə sabitliyi dedikdə fəaliyyətin səmərəliliyinin, kapitalın kifayətliliyinin və aktivlərin keyfiyyətinin qiymətləndirilməsi, bəziləri şəxsi vəsaitlərin mövcud olması, digərləri kapitalın sabitliyinin, likvidli balansın, ödəmə qabliyyətinin mövcudluğu kimi başa düşür. Deməli, bankın maliyyə sabitliyi uzunmüddətli perspektivdə maliyyə vəziyyətinin sabitliyidir və maliyyə resurslarının bu vəziyyətində bank pul vəsaitlərindən səmərəli istifadə etmək yolu ilə özünün fasiləsiz iqtisadi fəaliyyəti prosesini həyata keçirməyə qadir olur. Başqa sözlə desək, bankın maliyyə sabitliyi istənilən xarici təsirlərə qarşı durmaq qabiliyyətidir [2, s.93].

Bankın idarəetmə strategiyasında maliyyə sabitliyi mühüm rol oynayır və bankın maliyyə vəziyyəti onun fəaliyyətinin digər tərəflərinə təsir göstərir. Ayrı-ayrı bankların fəaliyyətinə çoxlu sayda amillər təsir göstərir. Qarşılıqlı əlaqədə olan amillər bankın fəaliyyətinə müxtəlif istiqamətlərdə təsir göstərir və bu da hər bir bankı məcbur edir ki, maliyyə bazarında özünün strategiyasını dəyişsin. Kommersiya bankının sabitliyinə təsir edən amillər çoxsaylıdır və onlar müxtəlif əlamətlər üzrə təsnifləşdirilir. Belə ki, yaranma üsuluna görə onları daxili və xarici, fəaliyyət müddətinə görə daimi və fors-major, nəticənin mühümlük dərəcəsinə görə əsas və ikinci dərəcəli, quruluşuna görə sadə və mürəkkəb, təsir istiqamətlərinə görə müsbət və mənfi, məzmununa görə siyasi, təşkilati, iqtisadi və sosial amillərə ayırmaq olar. Ümumiyyətlə, bankın maliyyə sabitliyinə bu və ya digər istiqamətdə təsir bütün amilləri iki kateqoriyaya - daxili və xarici kateqoriyalara ayırmaq olar. Bankın sabitliyinə ümumiiqtisadi amillər də əhəmiyyətli şəkildə təsir göstərir. İqtisadi amillərə iqtisadiyyatın real sektorunun potensialı, istehsal güclərinin yeniləşməsi və sıradan çıxması, istehsalçıların rəqabətqabiliyyətliliyi, ölkənin tədiyə balansının saldosu, resursların sahələrarası axını imkanları, investisiyanın, ÜDM həcmi və s. aiddir [1, s.310].

Bankın maliyyə sabitliyinin təmin edilməsində daxili amillər mühüm rol oynayır. Bankın daxili amillərinə onun özü tərəfindən formalaşdırılan və fəaliyyətindən asılı olan amillərin aid edilməsi zəruridir. Bankın strategiyası, şəxsi kapitalla təminatlılıq, idarəetmə sistemi, bankın daxili siyasəti, ixtisaslı kadrların səviyyəsi və s. daxili amillərə aid etmək olar. Ümumiyyətlə, bankın maliyyə sabitliyinə təsir edən amilləri üç qrupda: təşkilati, texniki və maliyyə-iqtisadi amillərdə birləşdirmək olar. Qeyd edilənlərdən aydın olur ki, müasir dövrdə istənilən bank özünün maliyyə sabitliyini təmin etmək və rəqabətli maliyyə bazarında strateji mövqeyini qoruyub saxlamaq üçün daxili və xarici mühit amillərinin təsirinə adekvat və diversifikasiyalı idarəetmə modeli olmalıdır. Bankda düzgün idarəetmə modelinin seçilməsi bütövlükdə sistemin səmərəli və düzgün inkişafının əsasıdır [3, s.51].

Bildiyimiz kimi, maliyyə problemləri olan banklar istənilən dövlətdə siyasi quruluşdan, maliyyə sistemindən və iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, bank nəzarəti orqanları üçün problemlərin daimi mənbəyi olur. Məhz bu səbəbdən bank nəzarəti orqanları problemli bankların daha geniş yayılmasına mane olur və milli qanunvericilik tərəfindən həyata keçirilən tədbirlər işləyib hazırlayır və yerinə yetirirlər.

Müasir şəraitdə diversifikasiya bankın rəqabətqabliyyətliliyinin və maliyyə sabitliyinin yüksəldilməsinin ən perspektivli istiqamətlərindən biri hesab edilir. Fikrimizcə, bankın rəqabət mühitində uğur qazanması üçün maliyyə xidmətləri sferasında rəqabətin üç əsas qatına - əhalinin inamı, müştərilər üçün əlverişlilik və tərəfmüqabillik münasibətlərinə riayət edilməsi - diqqət yetirməsi məqsədəuyğundur. Bu üç qatı əhatə edən modelin qurulması ilə yanaşı, rəqabətdə qeyri-qiymət amilinə, bankın mənfəətinin və fəaliyyət səmərəliliyinin yüksəldilməsinə, həyata keçirilən əməliyyat xərclərinin aşağı salınmasına, maksimum səmərə verən məhsulların istehsalına və xidmətlərin təqdim edilməsinə, maliyyə bazarının digər iştirakçıları ilə səmərəli biznesə əlaqələrinə və s. fikir verilməsi də lazımdır. Bankın maliyyə sabitliyinin yüksəldilməsi məqsədilə maliyyə strategiyasını formalaşdırarkən qarşıya qoyulmuş məqsədlər sistemində məhz bu qeyd edilən istiqamətlərin nəzərə alınması nəinki bankın aktiv və passivlərinin keyfiyyətinin yüksəldilməsində, maliyyə sabitliyinin təmin edilməsində, həm də onun maliyyə bazarında strateji mövqeyinin qorunub saxlanmasında mühüm rolu ola bilər.

**Ədəbiyyat**

1. Vəliyev D.Ə. Azərbaycan iqtisadiyyatı. Bakı: Azərbaycan Universitetinin nəşriyyatı, 2010, 428 s.
2. Zeynalov V.Z. Maliyyə böhranı: tarix, nəzəriyyə və antiböhran siyasət. Bakı: Azərnəşr, 2012, 176s.
3. Корчагин Ю.А., Маличенко И.П. Инвестиции: теория и практика. Ростов-на-Дону, 2008, 509с.

**Резюме**

***Сейидова С.Р.***

**Роль банковской системы в обеспечении финансовой стабильности национальной экономики**

*В статье обосновывается необходимость обеспечения финансовой стабильности национальной экономики. Исследована роль банковской системы в укреплении финансовой стабильности страны. Рассмотрены внутренние и внешние факторы, влияющие на банковскую деятельность, а также роль коммерческих банков в обеспечении финансовой стабильности.*

***Ключевые слова:*** *банк, финансы, кредит, финансовая стабильность, внутренние и внешние факторы, конкурентоспособность*

**Summary**

***Seyidova S.R.***

**The Role of the Banking System in Ensuring the Financial Stability of the National Economy**

*The article substantiates the need to ensure the financial stability of the national economy. The role of the banking system in strengthening the financial stability of the country is investigated. Internal and external factors affecting banking activities, as well as the role of commercial banks in ensuring financial stability, are considered.*

***Key words:****bank, finance, credit, financial stability, internal and external factors, competitiveness*

## AQRAR-EMAL MÜƏSSİSƏLƏRİNİN MALİYYƏ TƏMİNATI MEXANİZMİNİN FORMALAŞDIRILMASI

***Səlimov H.F.***
*Lənkəran Dövlət Universitet*
*i*

**Xülasə.** *Məqalədə Azərbaycanın aqrar-emal müəssisələrinin investisiya təminatının mövcud vəziyyəti, onların fəaliyyətinin maliyyə nəticələrini əks etdirən göstəricilər çoxillik statistik məlumatlar əsasında təhlil edilmiş, maliyyələşdirmə mexanizminin elementləri təsnifləşdirilmiş, müvafiq ehtiyat imkanları aşkar edilərək, onlardan səmərəli istifadə yolları göstərilmişdir.*

***Açar sözlər:****aqrar-emal müəssisələri, əsas kapitala investisiya, maliyyə təminatı, mexanizm, resurslar*

Azərbaycanın qeyri-neft sektorunun strateji sahələrindən biri aqrar sferadır. Ölkənin iqtisadi inkişaf strategiyası, əhalinin ərzaq təminatının yaxşılaşdırılması və bütünlükdə ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından aqrar sahədə məhsul istehsalının artırılması prioritet hesab edilir. Ölkədə formalaşan aqrar-emal sənayesi sosial-iqtisadi xüsusiyyətə malik olmaqla əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi ilə yanaşı, insanların həyat fəaliyyəti və işçi qüvvəsinin geniş təkrar istehsalı ilə xarakterizə edilir.

Regionların sosial-iqtisadi inkişafına dair üç Dövlət Proqramlarının həyata keçirilməsi nəticəsində bütünlükdə aqrar sfera və onun emal sahələri bərpa olunmuş və yüksək templə inkişaf etməkdədir. Rəsmi statistik məlumata görə 2004-2018-ci illərdə aqrar sferaya əsaslı kapital qoyuluşu 20-dəfədən çox artmışdır.

Təkcə 2010-2017-ci illərdə respublika üzrə aqrar sferaya 3,75 mlyd.man, o cümlədən Lənkəran iqtisadi regionunda mln. man investisiya yönəldilmişdir.

**Aqrar sferada əsas kapitala yönəldilən investisiyanın məbləği, mln.man***

**Cədvəl. 1**

| Göstəricilər | İllər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
| Respublika üzrə aqrar sferaya yönəldilmiş investisiya | 431 | 437.4 | 648.8 | 574.3 | 364 | 355.5 | 325.1 | 617.8 |
| Lənkəran iqtisadi regionu üzrə sferaya yönəldilmiş investisiya | 27.6 | 24.1 | 43.2 | 46.8 | 28.7 | 29.2 | 25.0 | 51.3 |
| Lənkəran iqtisadi regionunda əsaslı kapitala yönəldilən Investisiyanın respublika üzrə eyniadlı göstəricindəki xüsusi çəkisi, %-lə | 6.4 | 5.5 | 6.7 | 8.1 | 7.9 | 8.2 | 7.7 | 8.3 |

***Mənbə:****Azərbaycanda tikinti. Bakı, "DSK", 2014, s. 332;2018, s.322;324;327;330*

Nəticədə, həminillər ərzində 8 çörəkməmulatı istehsalı, 10 süd məhsulları emalı və 7 konserv zavodları tikilib istifadəyə verilmişdir ki, onların da dördü- Lənkəran iqtisadi regionunun payına düşür. Bunların məntiqi nəticəsi olaraq təkcə 2010-2017-ci illərdə respublika üzrə qida məhsullarının istehsalı 117%, içki istehsalı isə - 142,4% artmışdır.

Ənənəvi kənd təsərrüfatı sahələrinin bərpası və genişləndirilməsi istiqamətində aparılan məqsədyönlü işlə raqrar-emal müəssisələrinin xammal təchizatını yaxşılaşdırmaqla yanaşı, ölkənin qeyri-neft məhsullarının ixrac potensialını da əhəmiyyətli dərəcədə artırmışdır. Son 15 il ərzində kənd təsərrüfatı-1.7 dəfə artmış, qeyri-neft ixracı-4.1 dəfə çoxalmışdır. Nəticədə aqrar sferada fəaliyyətdə olan müəssisələrin sayının azaldığı şəraitdə belə, onların fəaliyyətinin maliyyə nəticələri xeyli yaxşılaşmışdır (cədvəl 2).

**Azərbaycan kənd təsərrüfatı müəssisələri fəaliyyətinin maliyyə nəticələri**

**Cədvəl 2**

| Göstəricilər | İllər | | | | 2010-2017-ci illərdə artım tempi, %-lə |
|---|---|---|---|---|---|
| | 2010 | 2015 | 2016 | 2017 | |
| Təsərrüfatların sayı, vahid.onlardan: | 2043 | 1659 | 1592 | 1608 | 78.7 |
| Ziyanla işləyənlər | 174 | 129 | 104 | 96 | 55.2 |
| Ziyanla işləyən müəssisələrin bütün təsərrüfatların tərkibindəki xüsusi çəkisi, %-lə | 8.5 | 7.8 | 6.5 | 6.0 | -2.5 |
| Təsərrüfatların ümumi gəliri mlyn.man | 71.6 | 85.0 | 119.1 | 115.0 | 160.6 |
| Xalis mənfəətin məbləği mlyn.man | 27.7 | 39.8 | 75.3 | 62.8 | 2.3 dəfə |
| Rentabellik səviyyəsi, %-lə | 16.7 | 11.3 | 20.3 | 14.1 | -2.6 |
| Əsas kapitala yönəldilən investisiya mlyn.man. | 431.0 | 355.5 | 325.1 | 617.8 | 143.3 |

***Mənbə:****1)Azərbaycan kənd təsərrüfatı. Bakı "DSK", 2018, s. 103*

*2) Azərbaycanda tikinti Bakı, "DSK", 2018, s.137,139*

Əldə edilən nailiyyətləri yüksək qiymətləndirərək onu da qeyd etmək lazımdır ki, təhlilin əhatə etdiyi illər ərzində ölkənin aqrar sferasında müxtəlif səbəblərdən 404 təsərrüfat subyekti öz fəaliyyətinə xitam vermişdir. Hazırda aqrar-emal sferasında qida məhsulları istehsal edən müəssisələrin 60%-i, içki istehsal edən müəssisələrin isə - 52,7%-zi kiçik müəssisə statusundadır. Məhz belə müəssisələrin maddi-texniki bazası zəif olduğundan və investisiya çatışmazlığı səbəbindən yeni məhsul istehsal etmək iqtidarında olmadığından rəqabətə davam gətirmədən öz fəaliyyətini dayandırırlar. Odur ki, aqrar sahənin dayanıqlı inkişafını təmin etmək üçün vacib məsələlərdən biri məhsul istehsalının artırılması, onların keyfiyyətinin yüksəldilməsi, xammal müəssisələri ilə emal sahəsi arasında iqtisadi əlaqələrin təkmilləşdirilməsi zərurətə çevrilmişdir. Ona görə də kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində 2020-ci ilədək rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunun formalaşmasına nail olmaq üçün 9 Strateji hədəfin reallaşdırılması nəzərdə tutulur. O hədəflərdən biri də

aqrar-emal sahəsinin maliyyə təminatının yaxşılaşdırılmasıdır. Bunun üçün ilk növbədə müvafiq mexanizm formalaşdırılmalıdır. Həmin mexanizmin üzvü tərkib hissəsini təşkil edən tədbirlərin təsnifatı 1 saylı şəkildə əks etdirilmişdir.




**Şəkil 1. Azərbaycanın aqrar sferası üzrə maliyyələşdirmə mexanizmlərinin təsnifatı**

Şəkildən göründüyü kimi həmin tədbirlər içərisində: kredit-zəmanət fondunun yaradılması, innovativ və girovsuz kreditlərin tətbiqi, onların bazasının genişləndirilməsi, sahibkarların maliyyə savadlarının artırılması və s. üstünlük təşkil edir.

Fikrimizcə, aqrar-emal müəssisələrinin maliyyə təminatını yaxşılaşdırmaq üçün xarici investisiyalardan istifadəyə üstünlük verilməsidir. Həmin müəssisələrdə ixrac yönümlü məhsul istehsalının artırılması da onların maliyyə durumunu yaxşılaşdıra bilər. Bunun üçün ilk növbədə istehsalın diversifikasiyasına imkan yarada bilən məqsədli investisiya innovasiya layihələrinin geniş tətbiqinə üstünlük verilməlidir. Aşağı rentabelli və zərərlə işləyən kiçik və orta miqyaslı aqrar-emal müəssisələrində marketinqin səmərəli təşkili qalıq məhsulun həcminin minimuma endirilməsinə, xərclərin səmərəli idarə edilməsi isə - onların maliyyə təminatının yaxşılaşdırılmasına imkan vermiş olacaqdır.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Bakı, 2016, 154 s.
2. Azərbaycanda tikinti. Statistik məcmuə. Bakı, DSK, 2014, 426 s. 2018, 382 s.
3. Azərbaycanın kənd təsərrüfatı. Statistik məcmuə. Bakı, DSK, 2018, 609s.
4. Azərbaycanınsənayesi. Statistik məcmuə. Bakı, DSK, 2018, 328 s.


## Резюме


***Салимов Х.Ф.***


**Формирование механизма финансовой обеспеченности агроперерабатывающих предприятий**


*В статье на основе статистических данных проанализировано состояние инвестиционной обеспеченности и результатов финансовой деятельности агроперерабатывающих предприятий Азербайджана, классифицированы элементы финансового механизма, выявлены соответствующие резервы и указаны пути их эффективного использования.*



***Ключевые слова:****агроперерабатывающие предприятия, инвестиции в основной капитал, финансовая обеспеченность, механизм, ресурсы.*

**Summary**

***SalimovH.F.***

**Formation of the Mechanism of Financial Security of Agro-Processing Enterprises**

*In the article, on the basis of statistical data, the state of investment security and the financial performance of agro-processing enterprises in Azerbaijan was analyzed, the elements of the financial mechanism were classified, the relevant reserves were identified and ways of their effective use were indicated.*

**Key words:***agro-processing enterprises, investments in fixed capital,financial security, mechanism, resources.*

## BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ SƏNAYE ƏMƏKDAŞLIĞININ TƏKMİLLƏŞDİRİLMƏSİ FORMALARI

***Şəfiyeva T.İ.***

*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalədə sənaye əməkdaşlığının mahiyyəti açıqlanmışdır. Sənaye əməkdaşlıq çərçivəsində həll edilə biləcək məsələlərə baxılmış və bu əməkdaşlıq formasının inkişaf etdirilməsinin zəruriliyi əsaslandırılmışdır. Həmçinin, bu sahəyə dəstək sisteminin effektiv istifadəsi məsələsinə də baxılmışdır.*

***Açar sözlər:*** *sənaye əməkdaşlığı, innovasiya, müəssisə, rəqabət*

Hazırda respublikamızın qarşıya qoyduğu əsas məsələlərdən biri sənaye müəssisələri üzrə dünya bazarına ixrac olunan hazır məhsul tədarükünü şaxələndirmək, genişləndirməkdir. Bu məqsədlə sənaye müəssisələrinin modernizasiyası, yeni, müasir avadanlıqlarla təchizi təmin edilir, istehsal gücü artırılır, yeni müəssisələr tikilir. Ölkə iqtisadiyyatının aparıcı sahələrindən biri olan sənaye sahəsi aktiv innovasiya və rəqabət siyasəti vasitəsi ilə bazar mexanizmlərinin qurulması və müvafiq sənaye əməkdaşlığı münasibətlərinin formalaşdırılması zəruridir.

Sənaye sahəsində əməkdaşlıq məhsul istehsal edən müəssisələr arasında ən yüksək iqtisadi səmərəliliklə davamlı mübadilə deməkdir. Sənaye əməkdaşlığı istehsalın ayrı-ayrı mərhələlərində, müəssisənin ümumi istehsalından son məhsulun hazırlanmasına qədər səmərəliliyi artırır. Əməkdaşlığa girişməklə biznes subyektləri müəyyən ümumi məqsədləri həyata keçirirlər. Bu zaman öz şəxsi maraqlarını da unutmurlar.

Sənaye əməkdaşlığı ən geniş yayılmış əməkdaşlıq növünə aiddir. İqtisadi və hüquqi cəhətdən müstəqil müəssisələr arasında təhlükəsizliyin etibarlılığının artırılması, lazımi maddi resurslara və xidmətlərə tələbatın daha yaxşı təmin edilməsi və onların fəaliyyətinin səmərəliliyinin artırılması üçün əməkdaşlıq formasıdır.

Ölkə iqtisadiyyatının əsas problemlərindən biri əhalinin sənaye məhsullarına olan tələbatının təmin olunmasıdır. Eyni zamanda, istehsalçıların öz məhsullarının rəqabət qabiliyyətini ölkə daxilində və dünya bazarında əldə etməsi vacibdir. Bu problemin həlli üçün prioritet vasitələrdən biri sənaye əməkdaşlığının inkişafıdır [1].

Sənaye əməkdaşlığı yerli malların rəqabət qabiliyyətinin təmin edilməsi üçün əsas vasitədir. Əməkdaşlıq əlaqələrinin müxtəlif növləri istehsal zəncirlərinin dərinliyi və təbiəti ilə müəyyən edilir. Sənaye əməkdaşlığı hər bir müəssisənin və bütövlükdə ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayır. Müəssisədə elmi və texnoloji tərəqqinin sürətlənməsinə, əmək məhsuldarlığının artmasına, xüsusilə yüksək texnologiyalı sənaye sahələrində ixtisaslaşmaların artmasına gətirib çıxarır.

Sənaye əməkdaşlıq çərçivəsində həll edilə biləcək məsələləri aşağıdakı kimi qeyd edə bilərik:

- mülkiyyət hüquqlarının istifadəsi;
- dizayn sənədlərinin, texnoloji proseslərin, texniki səviyyənin və məhsulun keyfiyyətinin inkişafı və koordinasiyası;
- işləyən müəssisələrin modernləşdirilməsi;
- istehsalın idarə edilməsinin təkmilləşdirilməsi;
- standartlaşdırma, sertifikatlaşdırma, istehsal proqramlarının genişləndirilməsi və s.

Sənaye əməkdaşlığı bir müəssisənin və ya bir ölkənin səyləri ilə mümkün olmayan geniş layihələrin həyata keçirilməsi üçün sənaye müəssisələrinin səylərini birləşdirməyə imkan verir. Hal-hazırda, elm adamları, istehsalın ixtisaslaşması əsasında müəyyən məhsulların birgə istehsalı ilə məşğul olan iqtisadi

müstəqil təsərrüfat subyektləri arasında uzunmüddətli və sabit əlaqələrin bir forması kimi sənaye əməkdaşlığını müəyyən edir.

Sənaye əməkdaşlığı zəncirinə daxil olan müəssisələr son məhsulun istehsalı üçün müəyyən növ aralıq məhsullar istehsal edir. İstehsalın ixtisaslaşması və birgə əməkdaşlıq əsasında müəyyən sənaye əməkdaşlığını tətbiq etməklə fərdi müəssisələr öz iqtisadi müstəqilliyini tam olaraq saxlayırlar. Hər hansı bir sənaye əməkdaşlığından istifadə edərkən, müəssisələr birgə fəaliyyət üçün koordinasiya edir, istehsal və iş fəaliyyətlərini əlaqələndirirlər.

Müasir sənaye əməkdaşlığı yalnız eyni sənayedə deyil, eyni zamanda müxtəlif sənaye sahələrinə aid müəssisələr, istifadə edilən müxtəlif fəaliyyət növləri və üsulları ilə də geniş şəkildə istifadə edilə bilər. Əməkdaşlıq funksiyalarından asılı olaraq, bu əməkdaşlığın belə istifadəsi aşağıdakı vəzifələri həll etməyə imkan verir:

- müəssisələrin istehsal potensialından səmərəli istifadə;
- uzunmüddətli istehsal əlaqələrinin formalaşması;
- istehsal olunan məhsulların zəmanətli ixracatı;
- məhsulların keyfiyyətinə nəzarətin aparılması və s.

Azərbaycan iqtisadiyyatının əsas xüsusiyyəti hələ də hazır məhsula, elm tutumlu məhsula yox, xammala əsaslanmasıdır. Keçən dövr ərzində biz iqtisadiyyatımızda xammal ixracından gəlirlər əldə etmişik. Lakin uzun müddətli dövrdə bunun yaxşı nəticəsi olmayacağı aşkardır. Ona görə də biz artıq zaman itirmədən bilik iqtisadiyyatına, innovasiya tutumlu istehsala, rəqabətqabiliyyətli məhsul istehsalı və ixracına keçməliyik. Bunun üçün isə ən zəruri olan sənaye əməkdaşlığının gücünü və önəmini artırmaq və bu sahədə innovasiya strategiyası hazırlamaq çox vacibdir.

Müasir təcrübədə sənaye sahəsinin rəqabətqabiliyyətliliyini artırmaq üçün tətbiq olunan restrukturizasiya prosesləri innvoasiya ilə dəstəkləndiyi halda daha az sosial və iqtisadi dayanıqlıq göstərir. Çünki rəqabət səviyyəsində dəyişikliklərlə nəticələnəcək struktur dəyişikləri adətən xərc və idarəetmə problemləri ilə zəngin olur. Bu məqamların olmaması üçün innovasiya sistemlərinin aktivləşdirilməsi və qaydasına qoyulması restrukturizasiya xərclərini azaldacaq xarakterə malikdir. Məhz bu baxımdan makro səviyyədə icra olunan tənzimləmələr üçün innovasiya siyasəti ilə sənaye siyasəti arasında harmonik əlaqənin yaradılması vaciblik ərz edir.

Müasir dövrün əsas problemlərdən biri kiçik və orta müəssisələr arasında sənaye əməkdaşlığının inkişaf etdirilməsidir. Sənaye əməkdaşlığına dəstək sisteminin effektiv istifadəsi üçün bir neçə şərt lazımdır.

1. İdeologiyanın özü və istifadə edənlərin ehtiyaclarını və tələblərini təmin edən bir sistem yaratmaq.
2. Sistemin işləmə prosesləri ilə diskussiya sistemi mexanizminin yaradılması.
3. Biznes proseslərinə başlamaq üçün çoxlu resursları cəlb etmək, onları müntəzəm olaraq idarə etmək.

Bu şərtlər yerinə yetirildikdə, bu proses daha səmərəli nəticə verə bilər.

Məhsulun təchizatçıları və müştərilərinin vahid məlumat bazasının yaradılması, inteqrasiya olunmuş elektron məhsul kataloqları ilə İnternet portallarının yenilənməsi, istehsalçılarımızın maraqlarına uyğun fərdi sənaye və bazarların inkişafı üzrə informasiya və analitik materialların hazırlanması və təmin edilməsi böyük bir iş sahəsidir. Bu, bir növ sənaye əməkdaşlığının inkişafında mühüm əhəmiyyət kəsb edir.

Sənaye əməkdaşlığının inkişafında ən yaxşı dünya təcrübəsini həyata keçirmək, eləcə də effektiv biznes strategiyaları hazırlamaq və həyata keçirmək üçün məsləhətçilər və sənaye mütəxəssislərini cəlb etmək də vacibdir.

Ümumiyyətlə, müəssisələrin rəqabət qabiliyyətinin yüksəldilməsində sənaye əməkdaşlığının genişləndirilməsi ölkə iqtisadiyyatının bir çox beynəlxalq indeksasiyalarında və reytinqlərində uğurlu nəticələr əldə etməsi ilə bilavasitə nəticələnə bilər. Belə ki, Qlobal Rəqabətlilik indeksi, Biznes Etmək asanlığı reytinqi, İqtisadi azadlıq reytinqi, İnsan İnkişafı reytinqi, Həyat Keyfiyyəti reytinqi, Həyat Bahalılığı reytinqi və digər indekslər və reytinqlərdə ölkə iqtisadiyyatının öz mövqeyini yaxşılaşdırılması bir çox investisiyaların və kreditlərin ölkə iqtisadiyyatına və başlıca olaraq sənaye sahəsinə cəlb edilməsi mümkündür.

**Резюме**

***Шафиева Т.И.***

**Формы усовершенствования промышленного сотрудничества в условиях рыночной экономики**

*В статье раскрывается сущность промышленного сотрудничества. Рассмотренывопросы, которые можно решить в рамках промышленного сотрудничества и обоснована необходимость*

*развития этой формы сотрудничества. Также рассмотрены вопрос эффективного применения системы поддержки этой отрасли*
***Ключевые слова:*** *производственная кооперация, инновации, предприятие, конкуренция*

**Summary**

***Shafieva T.I.***

**Forms of Improvement of Industrial Cooperation in a Market Economy**

*The article reveals the essence of industrial cooperation. Issues that can be solved within the framework of industrial cooperation are considered and the need to develop this form of cooperation is justified. Also addressed the issue of effective use of support systems for this industry.*
***Key words:*** *industrial cooperation, innovation, enterprise, competition*

## MÜŞTƏRƏK BİZNES FƏALİYYƏTİNİN İNKİŞAF ETDİRİLMƏSİNİN STİMULLAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

***Tağıyeva A.V.***
*Sumqayıt Dövlət Universiteti*

***Xülasə.*** *Məqalədə müştərək biznesin inkişaf etdirilməsi istiqamətləri araşdırılmışdır. Müştərək biznesin təşkilində stimullaşdırıcı siyasətin həyata keçirilməsinin zəruriliyi əsaslandırılmışdır. Müştərək müəssisələrin investisiya aktivliyinin stimullaşdırılması mexanizmlərinə baxılmışdır. Həmçinin müştərək müəssisələrin investisiya cəlbediciliyinin yüksəldilməsində vergi siyasətinin rolu tədqiq edilmişdir.*

***Açar sözlər:*** *müştərək biznes, investisiya, vergi, stimullaşdırma, tənzimləmə, iqtisadiyyat*

Sənayedə müştərək biznesin inkişaf istiqamətlərini müəyyən edərək perspektiv inkişaf istiqamətlərini əsas götürmək zəruridir. Ölkədə iqtisadi artımı təmin edən və yüksək səmərəli istehsal növlərinin inkişaf etdirilməsi müştərək biznesin inkişafı sahəsindəki siyasətin əsas istiqamətlərindən olmalıdır. Bunlar əsasən aşağıdakı dörd istiqamətdə həyata keçirilməlidir:

1. Bir işçiyə düşən əlavə gəlirin yüksək olduğu sahələrin seçilməsi və bu istiqamətdə müştərək biznes fəaliyyətinin inkişafının stimullaşdırılması.
2. Çoxsahəli təyinata malik olan və sənayenin digər sahələrinin inkişafı üçün böyük əhəmiyyətə malik olan baza sahələrinin inkişaf etdirilməsi.
3. Potensial rəqabətqabiliyyətli sahələrin inkişaf etdirilməsi.
4. Xarici ölkələrdə mövcud olan tələblə və baş verən dəyişikliklərlə stimullaşdırılan sahələrin müəyyən edilməsi və inkişaf etdirilməsi.

Məlumdur ki, ölkə iqtisadiyyatının inkişafı xeyli dərəcədə dövlət tərəfindən stimullaşdırıcı siyasətin həyata keçirilməsi səviyyəsindən asılıdır. Stimullaşdırıcı dövlət siyasətinə o zaman zərurət yaranır ki, bazarın tənzimlənməsi sərbəst şəkildə həyata keçirilə bilmir, ya da bazarda stimullaşdırıcı vasitələr sahəsində çatışmazlıqlar vardır. Bu isə xərclərin artmasına, gəlirlərin azalmasına, bazar haqqında informasiya çatışmazlığına gətirib çıxarır. Bunlar onu göstərir ki, bazarın özünü tənzimləməsi ictimai baxımdan səmərəli deyildir. Ona görə də dövlət stimullaşdırıcı təsir vasitələrindən istifadə etmək məcburiyyətində qalır. Belə stimullaşdırıcı vasitələrindən biri investisiya fəaliyyəti ilə bağlıdır. Bu baxımdan dövlətin stimullaşdırıcı investisiya siyasətinin işlənib hazırlanması və reallaşdırılması mühüm vəzifələrdən biridir. Qeyd edək ki, investisiya fəaliyyətinin stimullaşdırılması, onun mövcud imkanlarının, onun təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsi həm elmi, həm də praktiki baxımdan aktuallığı ilə seçilir.

İnvestisiya aktivliyini stimullaşdıran mexanizmlərin gücləndirilməsi kimi vergilərin tənzimləmə funksiyasının iqtisadiyyatın dövlət tənzimlənməsində rolunu artırmaq lazımdır. Bu vəzifənin həlli vergidən yayınma hallarının azaldılmasına yönəlmiş alətlərinin təkmilləşdirilməsi ilə bilavasitə bağlıdır. Azərbaycanda da investisiya fəaliyyətinin stimullaşdırılması məqsədilə vergi güzəştləri tətbiq edilir.

Müştərək müəssisələrin investisiya aktivliyinin artırılması bir sıra qarşılıqlı əlaqəli vəzifələrin həllini tələb edir. Hər şeydən əvvəl müəssisələrdə iqtisadi səmərəliliyin yüksəldilməsi hesabına investisiya potensialının gücləndirilməsi lazımdır. Həmçinin, amortizasiya siyasətində yeni yanaşmaların işlənməsi və müəssisələrin vergi yükünün azaldılması da zəruridir. Müştərək müəssisənin təsərrüfat fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi və onun investisiya potensialının gücləndirilməsi daxili ehtiyatların mobilizasiyasının və mövcud sosial iqtisadi şəraitə uyğun dövlət tənzimlənməsi metodlarının istifadəsinin nəticəsi ola bilər. Təbii inhisarların xidmətləri üzrə tariflərin dinamikasında dövlət nəzarətinin gücləndirilməsi, borcların yükünün onların uzunmüddətli restrukturizasiyası yolu ilə yüngülləşdirilməsi,

beynəlxalq mühasibat uçotu sisteminə keçid əsasında maliyyə axınlarının şəffaflığının maksimal təmin olunması zəruridir [1, səh.345].

Qeyd edək ki, iqtisadiyyatın real sektorunda investisiya aktivliyinin qənaətbəxş olmaması səbəblərindən biri stimullaşdırıcı funksiyaların itkisi hesabına fiskal funksiyaların reallaşdırılmasına istiqamətləndirilmiş mövcud vergi sisteminin təkmil olmamasıdır. Onun əsas çatışmazlıqlarından biri vergi yükünün qeyri-müəyyən bölgüsüdür [2, səh. 90].

Azərbaycanda müştərək müəssisələrin investisiya cəlbediciliyinin yüksəldilməsi vergi siyasətini təkmilləşdirmədən mümkün deyildir. Vergiləri aşağı salmaqla xarici investisiyaların stimullaşdırılmasına birmənalı yanaşmanı qəbul etmək olmaz. Bəzi iqtisadçılar isə, investisiyanın stimullaşdırılmasına vergi güzəştlərinin həddən artıq düz xətli və qeyri-diferensial tətbiqini səmərəsiz sayırlar. İngilis iqtisadçısı C.M.Mints yazır ki, aşağı vergi dərəcələri rentabelliyi bir qədər yüksəltsələr də, bundan əsasən o müəssisələr udurlar ki, onlar artıq rentabellidirlər, buna görə də güzəştlərə ehtiyacları yoxdur. Elə bir əsaslı sübut da yoxdur ki, vergi güzəştləri uzunmüddətli perspektivdə xarici investisiyaların axınını stimullaşdırsın. Məhz bu mülahizələrdən irəli gəlməklə deyə bilərik ki, bəzi postsosialist ölkələri, məsələn, Macarıstan və Çexiya vergi güzəştlərindən imtina etsələr də, bu həmin ölkələrə xarici investisiya axınının azalmasına səbəb olmamışdır. Azərbaycana gəldikdə isə, fikrimizcə, investisiyalaşmanı ləngidən bir çox amillərin mövcudluğunu və kapital qoyuluşlarına çox böyük ehtiyacları nəzərə almaqla, vergi güzəştlərinin və hətta vergi tətillərinin tətbiqi zəruridir. Həmçinin xarici investisiyaların vergi stimullaşdırılmasının xarakterini, hər şeydən əvvəl, onun diferensiallaşdırılması və ünvanlı olması baxımından yenidən nəzərdən keçirmək zəruridir [4, səh.179].

Artıq bizə məlum olduğu kimi, aşağı vergi dərəcələri xarici investorları ölkəyə cəlb etmir. Çünki dünya təcrübəsi göstərir ki, xarici investorun qazandığı vəsaiti ölkədən çıxarması zamanı bir sıra problemlər yaranır. Bu problemlərdən biri ikiqat və daha çox vergitutma hallarıdır. Ona görə vergi sistemini xarici investorlarla əlverişli şəkildə qurmaqdan ötrü ölkə hökuməti beynəlxalq səviyyədə qəbul olunmuş üsullarla belə yolverilməz halları aradan qaldırmalıdır. Məsələn, bəzi hallarda xarici investorların ödədikləri vergilərin həcminin onların gəlirlərindən artıq olduğu hallar da mövcud olmuşdur. Belə anlaşılmaz halların baş verməməsi üçün vergi sisteminin şəffaflığı tələb olunur. Vergi sistemində şəffaflıq yaradılması özünü həm də vergi ödəyicilərinə dəqiq və sadə təlimatların verilməsində göstərir. Sahibkarlara daha sadə vergi xidməti göstərmək məqsədilə sadələşdirilmiş vergi sisteminə “vahid pəncərə” sistemi formalaşdırılmışdır. Bununla da həm vergi ödəyicisinin qeydiyyatı, həm də vergi ödəmə mexanizmi olduqca sadələşdirilmişdir. Vergi ödəyicilərinin müvafiq orqanlar tərəfindən yoxlama hallarının sayı azaldılmışdır. Sahibkarlığın inkişafına maneə olan müdaxilələrin qarşısı alınmışdır. Bu da xarici investorların sənaye müəssisələrinə investisiya yatırmaq imkanlarını artırmışdır [3, səh.94].

Beləliklə, müştərək sahibkarların investisiya fəaliyyətinə marağını artırmaq, onlara bu fəaliyyətlə məşğul olmaq üçün müəyyən güzəştlərin edilməsini vacib sayırıq. Yerli istehsalçıların məhsulları üçün ölkə daxilində əlverişli şərait yaradılmalıdır. Bazar ucuz xarici məhsullardan qorunmalı, yerli sahibkarlara müəyyən güzəştlər edilməlidir. Vəziyyət tədricən düzəldikdən sonra belə güzəştləri aradan qaldırmaq olar.

Dövlət müştərək biznesi inkişaf etdirmək və bazar iqtisadiyyatı sistemində onun rolunu artırmaq məqsədilə müasir iqtisadi tənzimləmə metodlarından istifadə etməyə səy göstərir. Belə ki, respublikada müştərək biznesin iqtisadi məqsədlərinin, vəzifələrinin və idarəetmə prinsiplərinin dövlət tərəfindən tənzimlənməsinə zərurət vardır. Yəni müştərək müəssisələrin fəaliyyətinin hüquqi təminatı, onların toxunulmazlığı və qanunlar vasitəsilə müdafiə olunması, maliyyələşmə mənbələri, vergilərin və gəlirlərin səmərəli bölgüsü birbaşa və dolayı metodlarla tənzim edilməlidir. Müştərək biznesi dövlət birbaşa metod kimi qanunlar, normativ-hüquqi aktlar vasitəsilə tənzimləyə bilər. Dövlət öz hüquqlarından istifadə edərək kredit vermə, paylarda iştirak etmə, rəqabət aparma və s. metodlar vasitəsilə sahibkarların fəaliyyətinə təsir edir və onu tənzimləyir.

Müştərək biznes tənzimlənərkən milli iqtisadiyyatın spesifik xüsusiyyətləri, beynəlxalq əmək bölgüsünün tələbləri nəzərə alınmaqla yaxın və uzaq xarici ölkələrlə ticarət iqtisadi əlaqələrinin optimal variantı seçilməli və bu prinsiplər iqtisadi inkişaf strategiyasında öz əksini tapmalıdır.

**Ədəbiyyat**

1. Abbasov A.B. və başqaları. Biznesin təşkili və idarə edilməsi. Bakı, İqtisad Universiteti Nəşriyyatı, 2011, 464 s.

2. Əlibəyov N.V. Təsərrüfat subyektlərinin səmərəli fəaliyyətinin iqtisadi mexanizmi. Bakı, MBM, 2014, 404 s.

3. Şəkərəliyev A.Ş., Şəkərəliyev Q.A. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı, Turxan NPB, 2016, 536 s.

4. Vəliyev D.Ə. Azərbaycan iqtisadiyyatı. Bakı, Azərbaycan Universitetinin nəşriyyatı, 2010. 428 s.

**Резюме**

***Тагиева А.В.***

**Направления стимулирования развития совместной бизнес-деятельности**

*В статье исследованы направления развития совместного бизнеса. Обоснована необходимость реализации политики стимулирования организации совместного бизнеса. Рассмотрены механизмы стимулирования инвестиционной активности совместных предприятий. Также, исследована роль налоговой политики в повышении инвестиционной привлекательности совместных предприятий.*

***Ключевые слова:*** *совместный бизнес, инвестиции, налог, стимулирование, регулирование, экономика*

**Summary**

***Taghiyeva A.V.***

**Directions to Stimulate the Development of Joint Business Activities**

*The article explores the directions of joint business development.The necessity of implementing the policy of encouraging the organization of joint business has been substantiated The mechanisms for stimulating investment activity of joint ventures are considered. Also, the role of tax policy in increasing the investment attractiveness of joint ventures has been investigated.*

***Key words:*** *collaborative business, investment, tax, stimulate, regulation, economy*

## MALİYYƏ DAYANIQLIĞININ QİYMƏTLƏNDİRİLMƏSİ

***Tağıyeva T.Ə.***

*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*

***Xülasə.*** *Maliyyə dayanıqlığının əldə edilməsi istehsal səmərəliliyinin yüksəldilməsi hesabına mümkündür. İstehsal səmərəliliyinin yüksəldilməsi bütün növ resursların səmərəli istifadəsi, xərclərin azaldılması və məhsulun keyfiyyətinin artırılması hesabına əldə edilir.*

***Açar sözlər:*** *sənaye, maliyyə, dayanıqlıq, müəssisə, şəxsi vəsait*

Sənaye müəssisəsinin maliyyə dayanıqlığını xarakterizə edən əmsallar sırasında maliyyə müstəqilliyi (və ya avtonomluq) əmsalı xüsusi əhəmiyyət kəsb edir. Bu əmsal müəssisəsinin cəlb edilən vəsaitlərdən asılı olmadığını və müəssisəsinin bütün vəsaitlərinin ümumi dəyərində öz vəsaitlərinin xüsusi çəkisini göstərir. Bu əmsalın səviyyəsi yüksək olduqca müəssisəsinin maliyyə dayanıqlığı da yüksək, sabit olur və xarici kredit mənbələrindən asılı olmur [1,2,3].

Maliyyə müstəqilliyi əmsalı ($K_a$ ) aşağıdakı düsturla hesablanır:

$K_a$ =müəssisəsinin öz (xüsusi) kapitalı/aktivlərin ümumi məbləği (1)

Bir qayda olaraq avtonomluq əmsalının 0.7-dən çox olmamaq şərti ilə 0.5-dən çox olması normal hesab edilir. Ancaq qeyd etmək lazımdır ki, avtonomluq və ya maliyyə müstəqilliyi əmsalı xeyli dərəcədə sənaye sahələrinin xüsusiyyətlərindən (dövriyyədənkənar və dövriyyə aktivlərinin nisbətindən) asılıdır. Müəssisəsinin dövriyyədənkənar aktivlərinin xüsusi çəkisi yüksəkdirsə (istehsalat əsas fondların miqdarının yüksək olmasını tələb edir), onların maliyyələşdirilməsi üçün uzunmüddətli mənbələrin olması tələb olunur (lazımdır). Bu, o deməkdir ki, sənaye müəssisəsinin öz kapitalının xüsusi çəkisi (avtonomluq əmsalı) yüksək olmalıdır.

Qeyd etmək lazımdır ki, beynəlxalq təcrübədə maliyyə asılılığı əmsalı (debt ratio) geniş yayılmışdır. Bu əmsal maliyyə müstəqilliyi əmsalının əksidir və müəssisəsinin öz (xüsusi) kapitalı ilə cəlb olunmuş kapitalın nisbətini xarakterizə edir. ABŞ-da və Avropa ölkələrində maliyyə müstəqilliyi əmsalının 0.5-0.6 səviyyəsində olması kifayət qədər yüksək hesab edilir. Bu zaman öhdəliklərin məbləği öz vəsaitlərinin məbləğini üstələmir ki, bu da kreditorlar üçün riskin səviyyəsinin qənaətbəxş olmasını təmin edir. Asiya

ölkələrində (Yaponiyada, Cənubi Koreyada) maliyyə müstəqilliyi əmsalının 0.3 olması kifayət hesab edilir. Qeyd edilən əmsalın bu səviyyədən aşağı olması riskin artdığını və maliyyə dayanıqlığının aşağı düşdüyünü göstərir. Öhdəliklərin xüsusi çəkisinin artması təkcə onların ödənilməsi ilə bağlı risklərin artması ilə yekunlaşmır, bununla yanaşı, kredit xərcləri artır və müəssisəsinin faiz dərəcəsinin dəyişməsindən asılılığını da artırır.

Sənaye müəssisəsinin xarici maliyyə mənbələrindən asılılığının səviyyəsini- kapitalın ümumi strukturunda cəlb edilən kapitalın xüsusi çəkisini- xarakterizə edən maliyyə asılılığı əmsalı ($K_{m.a}$ ) aşağıdakı kimi hesablanır:

$K_{m.a}$ = qısamüddətli və uzunmüddətli öhdəliklərin məbləği/aktivlərin ümumi məbləği (2)

Maliyyə asılılığı əmsalının səviyyəsinin 0.8-dən aşağı olması tövsiyə edilir, 0.5 olması optimal sayılır.

Xüsusi və cəlb edilən vəsaitlərin nisbəti əmsalı ($K_{x.c.e.k.n.}$) müəssisəsinin maliyyə dayanıqlığına ümumi qiymət verməyə imkan verir. Bu əmsal müəssisəsinin öz (xüsusi) vəsaitlərinin vahidinə cəlb olunmuş vəsaitlərin neçə vahidinin düşdüyünü göstərir və aşağıdakı qaydada hesablanır:

$K_{x.c.e.k.n.}$ = cəlb edilmiş kapital/xüsusi kapital (3)

Bu əmsalın səviyyəsinin artması müəssisəsinin kənar investorlardan və kreditlərdən asılılığının artdığını göstərir. Onun səviyyəsinin 0.7-dən aşağı olması tövsiyə edilir, 0.5-0.7 səviyyəsində olması optimal sayılır, 0.7-dən yuxarı olması müəssisəsinin maliyyə dayanıqlığının sabitliyinə şübhə doğurur. Bu əmsalın səviyyəsi yüksəldikcə investorların riskinin səviyyəsi da yüksəlir, ona görə ki, öhdəliklərin yerinə yetirilməyəcəyi təqdirdə müflis olmaq təhlükəsi yaranır.

Xüsusi dövriyyə vəsaitlərinin manevretmə əmsalı (xüsusi kapitalın manevretmə əmsalı- $K_{m.e.}$) xüsusi kapitalın hansı hissəsinin dövriyyədə olduğunu göstərir və aşağıdakı düsturla hesablanır:

$K_{m.e.}$=xüsusi dövriyyə vəsaitləri/xüsusi kapital (4)

Bu əmsalın kəskin artması müəssisəsinin normal fəaliyyət göstərmədiyinə dəlalət edir, ona görə ki, onun artması ya xüsusi dövriyyə vəsaitlərinin artdığını, ya da xüsusi maliyyələşmə mənbələrinin azaldığını göstərir. Bu əmsalın 0.2-0.5 arasında olması tövsiyə edilir.

Dövriyyə və dövriyyədənkənar aktivlərin nisbəti əmsalı ($K_{d.k.a.n.}$) dövriyyə aktivlərinin hər manatına nə qədər dövriyyədənkənar aktivlərin düşdüyünü göstərir və aşağıdakı düsturla hesablanır:

$K_{d.k.a.n.}$ =dövriyyə aktivləri/dövriyyədənkənar aktivlər (5)

Dövriyyə kapitalının öz maliyyə mənbələri ilə təminolunma əmsalı ($K_{ö.m..t.o.}$) müəssisəsinin maliyyəyə olan tələbatının öz xüsusi vəsaitləri ilə təmin olunması imkanlarını göstərir və aşağıdakı düsturla hesablanır:

$K_{ö.m..t.o}$ =(xüsusi kapitalı-dövriyyədənkənar aktivlər)/dövriyyə aktivləri (6)

Bu əmsalın səviyyəsinin $\geq 0.1$ olması müəssisəsinin öz maliyyələşmə mənbələri ilə təmin olunduğunu göstərir.

Öz vəsaitləri ilə təminolunma əmsalı ($K_{ö.v.t.o.}$) müəssisəsinin cari fəaliyyətinin öz vəsaitləri ilə təmin olunma səviyyəsini göstərir və aşağıdakı kimi hesablanır:

$K_{ö.v.t.o.}$=(xüsusikapital-dövriyyədənkənar aktivlər)/dövriyyə aktivləri (7)

Müəssisəsinin normal fəaliyyəti üçün $K_{ö.v.t.o.} \geq 0.1$ hesab olunur.

Ehtiyatların öz vəsaitləri ilə təminolunma əmsalı ($K_{e.ö.v.t.o.}$) müəssisəsinin ehtiyatlarının maliyyələşdirilməsinin öz vəsaitləri ilə təmin olunması səviyyəsini göstərir və aşağıdakı kimi hesablanır:

$K_{e.ö.v.t.o.}$ =öz dövriyyə vəsaitləri/ehtiyatları (8)

$K_{e.ö.v.t.o.}$ əmsalının 0.6-0.8 səviyyəsində olması tövsiyə edilir.

Müəssisəsinin maliyyə dayanıqlığını əks etdirən göstəricilərdən biri də onun ödəmə qabiliyyətidir ($K_{ö.q.}$ ). Ödəmə qabiliyyəti əmsalı müəssisəsinin öz öhdəlikləri ilə hesablaşa bilmək qabiliyyətini göstərir və aşağıdakı kimi müəyyən edilir:

$K_{ö.q.}$ = dövriyyə vəsaitlərinin cəmi/qısamüddətli və uzunmüddətli öhdəliklərin cəmi (9)

$K_{ö.q.}$ əmsalı vahiddən böyükdürsə, deməli, müəssisə öz öhdəliklərini yerinə yetirmək imkanına malikdir.

Müəssisəsininödəmə qabiliyyətinin dinamikası xalis dövriyyə vəsaitləri göstəricisinin dəyişməsi əsasında müəyyən edilir. Müəssisəsinin xalis dövriyyə vəsaitlərinin həcmi ilə qısamüddətli öhdəliklərin fərqi

kimi müəyyən olunur. Xalis dövriyyə vəsaitlərinin yaranma mənbələrinə xalis gəlirin, səhmdar kapitalın, uzunmüddətli öhdəliklərin və s. artması aiddir. Dövriyyə vəsaitlərinin həcmi daha çox olan müəssisələr daha etibarlı tərəfdaş hesab olunur. Çünki onlar öz öhdəliklərini ödəyə bilərlər və istehsalın miqyasını artırmaq imkanına malik olurlar.

Müəssisəsinin ozünün qısamüddətli öhdəliklərini yerinə yetirə bilmək qabiliyyəti onun likvidliyi adlanır. Müəssisə o vaxt likvid hesab edilir ki, o, öz dövriyyə vəsaitlərini reallaşdıraraq qısamüddətli öhdəlikləri ilə hesablaşa bilsin. Sonradan satılmaq üçün əldə olunmuş maşın və avadanlıqlar istisna olmaqla, əsas vəsaitlər əsasən müəssisəsinin qısamüddətli öhdəliklərinin ödənməsi üçün mənbə hesab edilə bilməz.

Müəssisə, dövriyyə vəsaitlərinin strukturundan, xarici öhdəlikləri ödəmək üçün asan və çətin reallaşdırıla bilən dövriyyə vəsaitlərinin nisbətindən asılı olaraq yüksək və aşağı dərəcədə likvid ola bilər.

